AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI

## XVI kitab

## AĞDAŞ FOLKLORU

BAKI – "SƏDA" – 2006

Az
A-39

AMEA Folklor İnstitutu
Elmi Şurasının qərarı ilə çap olunur

**TOPLAYIB, TƏRTİB EDƏN:** **İlkin RÜSTƏMZADƏ**

**REDAKTOR VƏ ÖN SÖZÜN MÜƏLLİFİ:** **f.e.d. Hüseyn İSMAYILOV**

**RƏYÇİLƏR:** **f.e.n. Əfzələddin ƏSGƏR**
**f.e.n. Muxtar İMANOV**

**NƏŞRİNƏ MƏSUL:** **f.e.n. Əziz ƏLƏKBƏRLİ**

**Azərbaycan folkloru antologiyası, XVI kitab (Ağdaş folkloru),** Bakı, "Səda" nəşriyyatı, 2006, 496 səh.

Azərbaycan MEA Folklor İnstitutunun "Azərbaycan folkloru antologiyası" silsiləsindən nəşr etdiyi bu cilddə Ağdaş rayonu ərazisindən toplanılmış folklor örnəkləri verilmişdir.

**ISBN-586874-054-8**

**©"Səda" nəşriyyatı, 2006**

# ÇOXCİLDLİ "AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI"NIN (AFA) NƏŞR OLUNMUŞ KİTABLARI

**1. AFA, I.** Naxçıvan folkloru, tərtib edənlər: Təhmasib Fərzəliyev, Məhərrəm Qasımlı, elmi redaktoru və "Ön söz"ün müəllifi İsrafil Abbasov, rəyçilər: Vəli Əliyev, Bəhlul Abdulla, Bakı, "Sabah" nəşriyyatı, 1994.

**2. AFA, II.** İraq-Türkman folkloru, tərtibçilər: filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev, doktor Əbdüllətif Bəndəroğlu, redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər: filologiya elmləri doktoru, professor Azad Nəbiyev, filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, Bakı, "Ağrıdağ" nəşriyyatı, 1999.

**3. AFA, III.** Göyçə folkloru, toplayıb tərtib edəni, Hüseyn İsmayılov, redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər: fiollogiya elmləri doktoru, professor Qara Namazov, filologiya elmləri namizədi Oruc Əliyev, Bakı, "Səda" nəşriyyatı, 2000.

**4. AFA, IV.** Şəki folkloru, tərtib edənlər: filologiya elmləri namizədi Oruc Əliyev, Hikmət Əbdülhəlimov, Ramazan Qafarov, Vaqif Aslan, elmi redaktoru və "Ön söz"ün müəllifi filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, sənətşünaslıq namizədi Faiq Çələbi, Bakı, "Səda" nəşriyyatı, 2000.

**5. AFA, V.** Qarabağ folkloru, toplayanlar: İsrafil Abbaslı, Təhmasib Fərzəliyev, Nəcəf Nazim (Quliyev), tərtib edəni və "Ön söz"ün müəllifi filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, redaktorları: filologiya elmləri doktoru, professor Yaşar Qarayev, filologiya elmləri namizədi, dosent Hüseyn İsmayılov, rəyçilər: filologiya elmləri doktoru Bəhlul Abdulla, filologiya elmləri namizədi Oruc Əliyev, "Bakı", "Səda" nəşriyyatı, 2001.

**6. AFA, VI.** Şəki folkloru, tərtib edəni: Hikmət Əbdülhəlimov, elmi redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, "Ön söz"ün müəllifi sənətşünaslıq namizədi Faiq Çələbi, rəyçi filologiya elmləri namizədi Hüseyn İsmayılov. Bakı, "Səda" nəşriyyatı, 2002.

**7. AFA, VII.** Qaraqoyunlu folkloru, tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, Qurban Süleymanov, elmi redaktoru filologiya elmləri doktoru, professor Qara Namazov, rəyçilər, filologiya elmləri doktoru İsrafil Abbaslı, filologiya elmləri namizədi Oruc Əliyev. Bakı, "Səda" nəşriyyatı, 2002.

**8. AFA, VIII.** Ağbaba folkloru, toplayıb tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, Tacir Qurbanov, redaktoru filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, rəyçi filologiya elmləri namizədi Əziz Ələkbərli, Bakı, “Səda” nəşriyyatı, 2003.

**9. AFA, IX.** Gəncəbasar folkloru, tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, Raziyə Quliyeva, redaktoru filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, rəyçilər filologiya elmləri namizədi Sərxan Xavəri, Ağaverdi Xəlil, Bakı, "Səda" nəşriyyatı, 2004.

**10. AFA, X.** İrəvan folkloru, toplayıb tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, filologiya elmləri namizədi Əziz Ələkbərli, redaktoru prof. İsrafil Abbasov, rəyçilər: AMEA-nın müxbir üzvü Teymur Bünyadov, prof. Qara Namazov.

**11. AFA, XI.** Şirvan folkloru, toplayıb tərtib edənlər: filologiya elmləri doktoru Hüseyn İsmayılov, filologiya elmləri doktoru Seyfəddin Qəniyev, redaktoru filologiya elmləri doktoru Hüseyn İsmayılov, rəyçilər: filologiya elmləri namizədi Oruc Əliyev, Ağaverdi Xəlil.

**12. AFA, XII.** Zəngəzur folkloru, toplayıcılar: f.e.d. Vəli Nəbioğlu, f.e.n. Muxtar Kazımoğlu, f.e.n. Əfsələddin Əsgər, tərtib edənlər: Əfsələddin Əsgər, Muxtar Kazımoğlu, redaktoru: f.e.d. Hüseyn İsmayılov, rəyçilər: f.e.n. Təhmasib Fərzəliyev, f.e.n. Oruc Əliyev.

**13. AFA, XIII.** Şəki-Zaqatala folkloru, tərtibçilər: filologiya elmləri doktoru, prof. İsrafil Abbaslı, filologiya elmləri namizədi Oruc Əliyev, filologiya elmləri namizədi Mətanət Abdullayeva, elmi redaktoru: filologiya elmləri doktoru Hüseyn İsmayılov, rəyçilər: filologiya elmləri namizədi Təhmasib Fərzəliyev, filologiya elmləri namizədi Ramil Əliyev.

**14. AFA, XIV.** Dərbənd folkloru, toplayıcılar: filologiya elmləri doktoru Hüseyn İsmayılov, filologiya elmləri namizədi Samilə Xurdamiyeva, tərtibçilər: filologiya elmləri doktoru, Hüseyn İsmayılov, Tahir Orucov, elmi redaktoru: filologiya elmləri doktoru Hüseyn İsmayılov, rəyçilər: filologiya elmləri namizədi Sərxan Xavəri, filologiya elmləri namizədi Ağaverdi Xəlil.

**15. AFA, XV.** Dərələyəz folkloru, toplayıcılar və tərtib edənlər: filologiya elmləri doktoru, professor Həsən Mirzəyev, filologiya elmləri doktoru Hüseyn İsmayılov, filologiya elmləri namizədi Əziz Ələkbərli, elmi redaktoru: filologiya elmləri doktoru Hüseyn İsmayılov, rəyçilər: filologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Azad Nəbiyev, filologiya elmləri doktoru, professor Qara Namazov.

## *AĞDAŞDA YAŞAYAN YADDAŞIMIZ*

***Bu dəfə səfərimiz milli-mənəvi dünyamızın könüllərdə və yaddaşlarda yaşayan yadigarlarının ən saf və sağlam örnəklərinin qorunduğu bölgələrdən birinə – Ağdaşadır. Ağdaş Şirvan bölgəsinin folklor dilinin şirinliyini, folklor düşüncəsinin dərinliyini özündə və sözündə yaşadan yurdlarımızdan biridir. Bu yurd adının yaddaşlaşma tarixi türk adlandırma sisteminin ilkin strukturlarını «ağ-qara» oppozisiyasında modelləşdirən əski türk mifoloji düşüncəsini əks etdirir. Birinci komponenti ağ olan və ona bağlanan sözlərlə yaranan adlarımız – Ağdaş, Ağdam, Ağsu, Ağcabədi, Ağdərə, Ağbaba və b. (oppozisiyası – Qaradağ, Qarabağ, Qarasu,Qaraqoyunlu və b.) əski çağın ad yadigarı kimi ilmə-ilmə dilimizə daxil olub, türkün yaşadığı bütün yaxın-uzaq ellərimizdə qorunub qalır. Belə adlara təkcə bizim bölgələrimizdə deyil, türk ölkələrinin hamısında rastlanır.***

***Şirvan Azərbaycanın coğrafi baxımdan da, tarixi baxımdan mərkəzi bölgəsi, Güneydən düşən günəşin işığında kiçilmiş kölgəsidir. Bura yurdun gözəl məkanı, dövlətin gücü, qüvvəti və onu hərəkətə gətirən ilkin, başlanğıc təkanıdır. Azərbaycan uca bir bina kimi təsəvvür olunsa, onda Ağdaş onun bir kərpici, bir daşıdır. Beləcə torpaqdan, daşdan vətən, dostdan, qardaşdan millət yaranır.***

***Təbiətimiz iqlimi, torpağımız bitkisi ilə, xalqımız mədəniyyəti ilə, mənəviyyatı ilə zəngindir. Mənəvi xəzinəmizin inciləri eldən-elə, dildən-dilə keçərək yaddaşlarda yaşayıb, sevincli və kədərli günlərə yoldaşlıq edə-edə günümüzə qədər gəlib, xalqın çətin günündə onu mənəvi enerji ilə təmin edib, total psixozdan və mənəvi böhrandan qoruyub, savaşdan təkcə sağ yox, həm də üzüağ çıxarıb, yurdu müdafiəyə, milləti sevgiyə ruhlandırıb. Bir ata sözü yaşam fəlsəfəsini təqdim edib, həyata məna qazandırıb, bir bayatı həsrəti əsarətə salıb, bir nağıl ədaləti fövqəlağlın gücü ilə xilas edib, bir dastan bir ordu üzərində zəfər təmin edib, bir ağı ən acı ağrını unutdurub. Qoyununu saya-saya saya sözü deyib:***

***Nənəm a şişək qoyun,***
***Yunu bir döşək qoyun,***
***Bulamanı tez yetir,***
***Qırıldı uşaq, qoyun.***

***Və onu da əlavə edib ki, «qoyunun oldu əlli, adın oldu bəlli, qoyunun oldu yüz, gir içində üz». Adı bəlli insanımız mal-qarasın holaya-holaya yurdun bu başından o başına gedib, holavar söyləyib. Beləcə təbiətlə iç-içə yaşayış türkün həyat tərzinə çevrilib. Bu yaşayış tərzi türkə təbiətin dilini öyrədib; bəşəriyyətin bir daha yenidən dönəcəyi fiziki və mənəvi sağlamlığın sirrinə türk hər kəsdən öncə vaqif olub. Təbiəti özündən, özünü təbiətdən ayırmadan yaşayışın ən möhkəm ipini tutub, mədəniyyətin nadir tipini yaradıb. Türkə məxsus fiziki və mənəvi sağlamlığın nikbin harmoniyasının mükəmməl modeli onsuzda kürə şəklində olan, amma hələ təzəcə kürəsəlləşmək istəyən dünyanın çoxunu öz oxunun ətrafında döndərməkdədir. Yerin və İnsanın qədir-qiyməti yerindən asılı olmadan türk ölkəsinin hər yerində yüksək olub, zamanın amansızlığına dözməyib azarlayan bazar prinsipləri ilə alınıb-satılmayıb. Bu mənəvi prinsiplər Ağdaşda da saflığını, kristallığını qoruyub. Əcəl yuxusu gəlməzdən öncə tarixi təcrübəsini gələcəyə itkisiz çatdırmaq üçün sözə dirilik verib; özünü sözdə yaradıb, çiy miras qoymayıb, sözünü bişirib ağzından çıxarıb, yaratdığı hər şeyin əzəli və əbədi olmasını yüz ölçüb, bir biçib.***

***Mənəvi dünyamızın sönməyən çıraqlarından biri kimi Ağdaşda yaşayan xalq yaradıcılığımız buradakı insanlarımızın yadından çıxmayıb. Meyvəsinin dadındakı gözəllik buranın adındakı özəllik kimi çeşidli və çoxçalarlıdır.***

***Türk kosmoqoniyasının xaos-kosmos modeli rəng simvolikası ilə ifadə olunanda ilk öncə qarada və ağda öz əksini tapıb; qara – qaranlıq, böyük, cənub, isti və s. ağ – işıq, kiçik, şimal, soyuq və s. mənaları bildirib. Bununla yanaşı, ağ həm də təmizlik, saflıq, paklıq rəmzidir; «ağ alın» ifadəsində olduğu kimi. Ağın müqəddəslik və xilaskarlıq mənaları da var; xeyir-dua verilən adama «baxtın ağ olsun» deyirlər. Yaxşı iş görən adama «üzün ağ olsun» deyilir, amma kiminsə «üzünə ağ olan»da ağın mənası dəyişir, kosmosu yox xaosu bildirir və ya yuxarıdakı digər mənalardan birinin semantik sahəsinə daxil olur.***

***«Dədə Qorqud kitabı»nda oğlu olan ağ çadıra, qızı olan qırmızı çadıra, oğlu-qızı olmayan qara çadıra göndərilir. Burada ağ və onun paradiqması qırmızı varlığı, qara isə yoxluğu işarələyir. İşığa doğru gedən yol qaranlıqdan, həyat ölümdən keçir; qarada***

*ölür, ağda dirilir, yenidən həyata dönür və yeni bir həyatın başlanğıcına vasitə olur – «Dirsə xan boyu»nda olduğu kimi.*

*Nağıllarda kosmosu simvolizə edən qəhrəmanın atı ağdır; «Ağ atlı oğlan» xilaskarlıq rəmzi kimi düşünülüb. Orta çağ Oğuz bəyin atı Ağ-boz atdır; sonrakı epik düşüncədə də bu ənənə davam edib, türk bozqırlarının ağ-boz rəngi Koroğlunun Qıratına da verilib. Ağın işıq mənası Günəşlə, Ayla, Ulduzla əlaqələnir və oğuzların mifoloji əcdadı Oğuz xanın oğullarının adında əks olunur.*

*Ağsaqqal türkün böyüklük institutunun rəmzidir (Ağsaqqallı babam yeri uçmaq olsun), ağbirçək müqəddəs ana obrazının sözdə ifadə olunan əksidir (Ağbirçəkli anan yeri cənnət olsun). Bu sözlərdəki əsas mənalı vahid ağdır, çünki o təyin olunmur, təyin edir. Haqq dünyasına yola salınan insan ağa bükülür, üstündə ağı deyilir, ağlanır.*

*Ağdaş adı hər şeydən öncə müqəddəs daş deməkdir. Zülmətdə bir daş var, qoyan da peşmandı, götürəndə. Bir çox sirlərin açarı yeraltı dünyada, zülmətdə olur. Ora gedən yol da sehirli daşın altından və ya dərin bir quyudan keçir. O daşı heç kəs qaldıra bilmir, çünki o iki dünyanın sərhəddedir; orada profan dünya qurtarır, sakral dünya başlayır.*

*Müqəddəs Kəbənin kafər gülləsi dəymiş bir kərpicini gündüzlər yerinə qoyurlar, axşamlar düşür. Çünki müqəddəsliyə təcavüzü Tanrı bağışlamır.*

*Göydən daş yağar. Esxatoloji miflə bağlıdır. Göydən daş yağması qiyamətin əlamətlərindən biridir. İlahi qanunlar pozulanda belə anomaliyalar və kosmik katoklizmlər baş verir. Burada daş günaha görə verilən cəzanın rəmzidir və kosmosu bərpa etməyə xidmət edir.*

*«Bir daşla iki quş vurur» – uğurun qeyri-adi, ifrat dərəcəsidir.*

*«Bir daş altdan, bir daş üstdən» – məlumatın gizlin saxlanmasına işarədir. Burada daş etibarlılıq vasitəsi kimi istifadə olunur.*

*«Çörəyi daşdan çıxmaq» – bu xalq deyimdə güzəranın ağırlığı ifadə olunur.*

*«Daş qoymaq» və ya «Daşı daş üstdə qoymaq» – bir işin əsasını qoymaq, bir işə başlamaq anlamına gəlir.*

***«Daş atmaq» və ya «Kiminsə bostanına daş atmaq» deyəndə kiməsə sataşmaq düşünülür.***

***«Daş atıb başını tutmaq» – arzu olunmayan bir işdən kəskin şəkildə imtina etmək deməkdir.***

***«Daşı daş üstdə qalmamaq» – dağıdıcı, neqativ bir fəaliyyəti bildirir.***

***«Bilmirəm başına hansı daşı salmışam» – etmədiyin bir işin haqsız olaraq cəzasını çəkdiyin zaman söylənilir.***

***«Başına daş düşsün» və ya «Allah başına daş salsın» – qarğışı ilə haqsız tərəf lənətlənir.***

***Azərbaycan türklərinin mifoloji əcdadı Oğuz xan ən əski zamanlarda Şirvanda yurd-yuva qurub. Onun soyunun və boylarının adları bu yerlərin hər addımında rastlanır. Oğuzların mənəvi institutunu təqdim edən Bayatların yadigarı onların söylədikləri bayatılarda indi də dillərdə dolaşır:***

***Şirvana binə gəlləm,***
***Gedərəm yenə gəlləm,***
***Bir dəfə üzün görsəm***
***İmana, dinə gəlləm.***

***Şirvan yurdun elə nadir yerlərindəndir ki, burada sözlə sənət, şeirlə musiqi qoşa qanad kimi havada çalınır, hər çalınan havada türkün həyat ritmi təkrarlanır. Yastı yolla yastı-yastı gedə-gedə çalınan yastı balabanın ruhu göylərə qaldıran sədasında türk yenidən öz əski keçmişinə qayıdır, ruhi enerji ilə təmin olunaraq həyat fəlsəfəsini yenidən mənalandırır, onu boyatmaqdan qoruyur:***

***Şirvanın yastı yolu,***
***Su gəldi basdı yolu,***
***Getdim yarı görməyə***
***Yağılar kəsdi yolu.***

***Hər kəsdə olmayan «Şirvan şikəstəsi» yastı balabanla bayatı üstündə köklənəndə Bayat boyu daha ucalır, yurd yenilməz, ulus basılmaz olur. Kərimin, Həsrətin ifasında ulularımızın miras qoyduqları bu unikal musiqini Şirvan samaatı çox dinləyib, bu musiqinin sehrindən əlində işini qoyub, amma ondan doyma-***

***yıb. Çünki doyumluq və dadımlıq olanların fərqi, həddi və sərhəddi Şirvanda dəqiq bilinir. Şirvan xalqın yaratdığı sözün və sənətin cazibəsində hərəkət edib, ruhunun qidasını ondan alıb. Şirvanda yaşayan bayatılarda insan mənəviyyatının ən ülvi duyğuları ifadə olunur; etibar, sədaqət, insana safğı, dosta fədakarlıq, qardaşa qayğıg Elə milli mənəviyyatımızın da təməli, dayağı budur:***

***Əzizinəm qar daşa,***
***Yağar, düşər qar daşa,***
***Qardaşın müşkül işi***
***Yenə düşər qardaşa.***

***İş müşkülə düşəndə yaxına, yoldaşa, qardaşa ərk olunur. Ərk təkcə türkə məxsus mənəvi dəyərdir.***

***Şirvanda milli xarakterimiz daha çox və daha mədəni dəyərlərlə zənginləşmiş bir şəkildə qorunur. Bütün davranışlar etnik-mədəni əxlaqın qılıncının altından keçir, onu yan keçmək üçün başqa yol qoyulmur. Əxlaqa zidd davranışın kiçik bir sınağı böyük bir dəyərlər səddinin qınağı ilə qarşılaşır. Mədəniyyətin zənginliyi əxlaqın yüksəkliyi, ucalığı və ənginliyi ilə qovuşur, bütövləşir və heç zaman bir-birindən ayrılmır. Əski oğuzlardan gələn ərdəmin və hünərin vəhdəti Şirvanda, o sıradan Ağdaşda da qorunur; qəhrəmanlıq dastanlarında hünəri, atalar sözlərində ərdəmi – ədəb-ərkan təlimini yaşadır. Bu dərin xalq hikməti zaman-zaman azman ozanların boylamalarında, acəldən ruhlarla aman alan şamanların söyləmələrində, aşıq qoşmalarında, xoş musiqidə və avazda, qopuzda və sazda yüz illərlə ömür sürüb, gün keçirib, xalq evindən-eşiyindən olanda da Nuhu beşikdə görən tarixinin keşiyini çəkib, soyunun və boyunun gələcəkdə ağ günə çıxması üçün taleyini qara daşla ağ daşa yazıb.***

***Şirvanda Azərbaycan folklorunun bütün zənginliyi özünü biruzə verir. Burada yer-yurd adları ilə bağlı yüzlərlə əfsanə və rəvayət yaşayır. Bir çoxları xalq etimologiyaları şəklində olan bu məlumatlar xalqın yaratdığı epik tarixdir və ya ya başqa sözlə «xalq tarixi»dir. Bunlara tarixçi qələmi dəyməyib; bilgə ərənlər söyləyib, ulu ozanlar soylayıb, dədə aşıqlar danışıb. Beləcə yazılı tarix yaranana qədər xalq öz tarixini əfsanələrində və rəvayətlərində daşıyıb, gələcəkdə də bilinməsi üçün yaddaşlardan silin-***

*məyə qoymayıb. Bu tarix quru bir məlumat deyil, sözlə ifadə olunan böyük bir mənəviyyatdır. Çünki belə mətnlər elə-belə mətnlər deyil, onlarda böyük və sonsuz mənəvi enerji daşınır, hər eşidənin qulağından yox, qəlbindən keçir, könül-könül gəzir, ürəkdən-ürəyə gedən yollarla hərəkət edir, hər kəsin qəlbinə yoldaş olur, paylanır, yayılır, amma heç zaman bitib-tükənmir; enerji qaynağı təbii, ruhi və Tanrıya bağlı olduğu üçün.*

*Şirvan müqəddəs ruhların daha çox və daha sıx dolaşdığı məkandır. Məkanın mənəvi yüksəlişi və təkanı uca ruhların insanlarla ünsiyyəti və təmasından qidalanır. Başdan başa baş daşlarından bilinən övliya məzarları azarlılara şəfa, cəfakeşlərə səfa verib, mərdi namərddən, dərdlini dərddən qurtarıb. Ağdaşda Veys baba, Hacı Bulud baba Siyəzəndə Xıdır-Zində, Şamaxıda Şıx Eyyub, İsmayıllıda Həzrət Baba, Kürdəmirdə Abdul Baba, Bakıda Ətağa, Ağsuda Məşədi Kövsər, Sabirabadda Məşədi Mir Abbas ağa və onlarla başqa pir və övliyalar kəramətləri ilə insanlara, inam və iman sahiblərinə səhabəlik etməkdədir.*

*Əslində pir də övliya da ocaq da birdir. Bunlar Tanrı həvaləçiləridir. Peyğəmbərlərə vəhy, övliyalara kəramət verilib, Tanrı tərəfindən insanlara yardım göstərmək haqqı tanınıb. Onlar sağlığında da, ölümündən sonra da kəramətlərini itirmirlər; müraciətləri, diləkləri-duaları eşidirlər, çətin vəziyyətdə olanın yardımına gəlirlər, darda olanın dadına çatırlar.*

*Yurdun yadelli yağıların əlindən təkcə sağ yox, həm də üzüağ çıxmasının bir səbəbi igid ərlərdisə, bir səbəbi də müqəddəs pirlərdir. Müqəddəs ocaqlarımıza şükranlıq könüllərdə yaşadıqca yurdun və ulusun xilası üçün Tanrı kölgəsinin fövqəladə ruhi yardımında fasilə olmayacaq.*

*Şirvan əski adət və ənənələrimizin qurulduğu yerdir. Burada insan Tanrının böyüklüyünü iqrarı ilə dünyaya gəlir; laylalarla uyuyur, əzizləməyə oyanır, «happan-huppan», «beş daş», «qovma-qaç», «gizlənpaç», «xan-vəzir», «ənzəli», «hiltop», «çiling-ağac», «telbə-telbə»g oynayaraq böyüyür, nişanlanır, evlənir, toy edir. Toya aşıq gəlir, zurna-balaban, qoşa nağara, saz çalınır, aşıq dastan deyir, bəyi tərif edir, təzə bəy ova çıxır, ov ovlayır, quş quşlayır, sağdışı-soldışı ilə xanın yanında məclis qurur, «şölən» verir. Gəlin atadan xeyir-dua alır, anası dalınca ağlayır, qaynı belini bağlayır, gəldiyi yuvaya ətir, evə xeyir-bərəkət gətirir. «Gəlin*

*ocağa, qız bucağa» deyiblər; gəlin gəldiyi evin səliqə-sahmanına uyğunlaşır. Beləcə Şirvanda türk ailəsi saflıq və halallıq üzərində qurulur, bəri başdan halallıqla təməli qoyulan yar-yoldaşdan ailədən namuslu vətəndaş dünyaya gəlir. Ailənin təpəri düşmən çəpəri oğuz oğlu yurdu qoruyur, ocağın odunu sönməyə qoymur. Kiçiyinə qayğı, böyüyünə sayğı göstərərək, əcəl vədinə xilaf çıxmayanadək beləcə şad-xürrəm ömür sürürlər. Müdrik insanlar əcəli mələklə göndərilmiş müjdə kimi alırlar və Tanrının birliyinə şəhadət edib məkanlarını cənnəti-rizvana dəyişirlər. Bu dünyadan o dünyaya köçən insan yas mərasimi ilə yola salınır; üstündə ağı deyilir, layla oxunur, bayatı söylənir, oxşanır, əzizlənir və hər zaman adı, xatirəsi əziz tutulur.*

*Beləcə Şirvan bölgəsinin insanlarının həyatı folklorla başlanır, ömür boyu onunla və onda yaşanır, sonda da onunla tamamlanır.*

*Zaman-zaman insanların yaşam qayğıları dəyişdikcə folklorda da yeni motivlər gəlir, təkcə güzərana deyil, qəlblərə də dərin təsir edən sosial ovqatın ən incə detallarını öz əzəli və əbədi qəliblərinə daxil edir. Həyat ritmi öz əksini folklorda, folklor ritmi isə həyatda tapır və beləcə üzvi vəhdət halında yaşamına davam edir.*

*Şirvan ilk Azərbaycan mütəsəvvüflərinin mövcud olduğu məkandır. Az qala bütün Orta Şərqi sufi ideyaları, «vəhdəti-vücud» fəlsəfəsini yayaraq gəzib-dolaşan Seyid İmadəddin Nəsiminin tükürpədən şirin şeirinin şirəsi Şirvan türklərinin xalq yaradıcılığından qaynaqlanırdı. Bu şirin şivədə təkcə Şamaxının haqqı-sayı deyil, digər ərazilərin də, o cümlədən Ağdaşın da payı var.*

*Şirvanda şeirin, sənətin kamilliyinin sirri də xalq yaradıcılığındadır. Ağdaşda doğulub Orta Asiya türklərinin könül dünyasının özbək ləhcəsi ilə fəth edən Maqsud Şeyxzadə də Nəsimi şeiriyyətinin çağdaş davamçısıdır. Sadəcə ideyalar və fəlsəfələr fərqlidir, şeiriyyətin şirinliyi, dadı, duzu birdir.*

| | |
|---|---|
| *Umrlar boladı ki,* | *(İnsanlar vardır ki,)* |
| *Tirqidə ölükdir,* | *Sağlığında ölüdür,* |
| *Umrlar boladı ki,* | *İnsanlar vardır ki,* |
| *Məngülikçə tirikdir.* | *Əbədiyyən diridir).* |

*Sənətin başının üstünü bəla alanda Kərbəladan Füzuli şeirə, sözə ehya verməyin zəruriliyinə bir daha döndü və xalq dilindən və düşüncəsindən dövrünün şeir şedevrini yaratdı. Maqsud Şeyxzadə də Şeyx ismiylə bərabər Ağdaşın sağ yaddaşını Orta Asiyaya daşıdı və elə öz bəylərimizin türkcəsi olan özbəkcədə yenidən dilləndirdi. Şirvanda «əbədi dirilik» düşüncəsi xeyir işlər görən əməli-saleh insanın simvolu kimi anlaşılır. Xalq üçün, el üçün görülən iş, haqq yoluna yönəldən söz əbədedir. Xalq nağıllarında, əfsanələrdə zülmət dünyasına olan səfərlər həm də insanın haqq dünyasının sınaqlarından keçdiyi «xəyali bir təcrübə»dir; mənəvinin maddidən, müqəddəsin adidən, ağılın gücdən, doğrunun yalandan, ümidin qorxudan üstünlüyünü göstərmək, ikincilərin əhdini kəsmək cəhdedir. İsgəndəri zülmət dünyasına göndərən də, əlini o dünyadan bu dünyaya uzadan da xalqın mənəvi dəyərləri ucaltmağa xidmət edən düşüncəsi, xəyalı, arzusu və istəkləridir. İnsan ağlında açılan mal-mülk düşüncəsi beş arşın ağla bağlanır. Bu motivlə Şirvanda dolaşan əfsanələrin birində çobanla padşahın arasındakı maddi müqayisədə üstünlüyü çoban qazanır. Çünki türkün həyat fəlsəfəsi sadə və sağlamdır. Belə yaşayış tərzi ruhi sarsıntılardan tamamilə təcrid olunur. Xalq demək istəyir ki, Süleymana qalmayan dünya sənə də qalmaz. Qalanı özü qalmaq üçün yox, izi qalmaq üçün tikir. Haqq üçün yanan çırağın közünü, haqqdan gələn və haqqa yönəldən sözünü xalq qoruyur, birini keçməyə, o birini də köçməyə qoymur.*

*Özülündə əski türk mədəniyyəti dayanan Şirvan bölgəsi zəngin tarixi mədəniyyətləri lay-lay özündə birləşdirib: Kür-Araz mədəniyyəti, Aran mədəniyyəti, qədim Alban mədəniyyəti, min beş yüz illik Şirvanşahlar mədəniyyəti, Oğuz-Səlcuq mədəniyyəti, Ağqoyunlu və Qaraqoyunlu mədəniyyəti, Səfəvi-Qızılbaş mədəniyyəti və b.*

*Hər dönəmin önəmi öncə folklorda öz əksini tapıb. Şad günlərin şirinliyi, ağır günlərin açısı sözün canına, qanına hopub, haqq-ədalət olan çağda hamar-hamar damarlarda dolanıb, haqq-ədalətdən ayrı düşəndə coşub-kükrəyib, təlatümlü dəniz dalğaları kimi yadelli tullantıları sahildən, sınırdan və sərhəddən qırağa tullayıb:*

*Apardı tatar məni,*
*Qul edib satar məni,*
*Vəfalı yarım olsa,*
*Axtarıb tapar məni.*

***Əhdinə hər zaman və hər yerdə vəfalı olan türk yarını-yoldaşını əsirlikdə qoymayıb: «Çal qılıncın, ağam Qazan, gəldim» – deyib. Yurdun və yurddaşın qisasını qiyamətə qoymayıb. Yurda yağı olan hər kəsin, müxənnətin, nakəsin əhdini kəsib. Öncə düşməndən qoca anasını istəyib. Düşmən sakral dəyərlərə toxunanda döyüşdə başını qoyub, yağının daşını daş üstə qoymayıb. Anasını da, xanımını da, oğlunu da xilas edib. Bunların hər birinin dərin mənası var: ana müqəddəsliyi, qadın namusu, oğul gələcəyi simvolizə edir. Bu səfər yurdun yaralı yeri Qarabağda yağının qəlbinə Qazanın qazandığı zəfərlə dağ çəkiləcək. Çünki folklorumuzda bu zəfərin örnəyi mövcuddur. Bu örnək bizim canımız, qanımız, milli davranışımız, etnik xarakterimizdir və eyni zamanda bizim hərb və sülh mədəniyyətimizin obrazlaşmış ifadəsidir. Ağdaşdan Ağdama, Xaldandan Xankəndinə gedən mədəniyyətimizdən keçə bilməyəndə mütləq hərb mədəniyyətimizdən keçərək, bu yol Göyçayla Göyçə, Ağsu ilə Ağbulaq arasındakı maneələri də aradan qaldıracaq.***

***Ağdaşdakı yurddaşımızın yaddaşından başlanan yol bizim irəlidəki səfərlərimizin və zəfərlərimizin hərəkət istiqamətlərinin, ritmini və dinamizmini müəyyənləşdirəcək. Bu ulu Oğuz xanın yoludur. Bu yolla Alplar və Ərənlər gediblər. Bu yol Həzrət Əli yoludur. Bu yolla imamlar şəhadətə yetiblər. Bu yol gücü Oğuzdan ərdəmi Əlidən alan Azərbaycan türkünün qət edəcəyi ən şərəfli məsafədir.***

***Hüseyn İSMAYILOV***
***Filologiya elmləri doktoru***

# MİFLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## *KOSMOQONİK MİFLƏR*

### YARADILIŞ MİFLƏRİ

#### I mətn

Allah dünyanı altı sutkaya yaratdı. Bir sutkaya yeri, göyü, bir sutkaya dağı, daşı, bir sutkaya suyu, bir sutkaya ayı, günü, ulduzu. Altı sutkanın tamamında Allah bu yer kürəsini yaratdı. Bunun üçün də altı gündən bir buxadnoydu. Şənbə günü yəhudilərin buxadnoyudu, bazar günü rusların buxadnoyudu, həftənin adna günü də müsəlmanların buxadnoyudu.

#### II mətn

U dağları Allah-tala həzrətdəri torpağa pərsəng yaradıb. Dağları yaradannan sonra yer kürəsi dayanıb öz səviyəsində. Onatan sirkələnirmiş, su da yayılırmış hər yerə keşmişki ağsakqalların rəvayətinə görə.

#### III mətn

Dünya titriyib, bərqərar olmuyubdu. Bismillahi-rəhmani-rəhim sözü Qurana yazılannan sonra dünya bərqarar olubdu. Ondan sonra yerin titrəməsi dayanıb. Yer üzünə insannar gəlib.

### AY VƏ GÜN

#### I mətn

Bunu da rəhmətdik atam danışıbdı. Aynan gün bajı-qardaşdı. Guya Gün bajı, Ay qardaş. Bu Gün çox gözəl olduğundan həmişə Ay Günün paxıllığını çəkirdi. Anasına deyib ki, niyə u gözəl oluf, mən gözəl olmamışam. Anası xamır yoğururdu. Elə u xamırlı əliylə buna belə bir şillə vurur sifətinə. Deyir: «Unu da Allah yaradıb, səni də. Unu heylə yaradıb, səni belə. Sən pis deyilsən ki? Sən ondan da gözəlsən mənim gözümdə». Guya anasının əlinin ləkəsidi.

#### II mətn

Aynan gün bajı-qardaşdı. Ay deyib: «Mən gündüz çıxım, sən gejə çıx», – Günə deyib. Bajı deyibdi ki, çıxma sən gündüz, sənə göz dəyər. Ana xamır yoğururmuş. Xamırlı əliynən şappadan ayın üzünə vurur ki, bajın nə deyir, unu eylə. Gündüz Gün çıxsın, gejə sən. Unun üzündəki ləkə u ananın xamırlı əlinin irizidi.

## SAMAN YOLU

İki nəfər keşmişdə qohum olublar. Allahın mömin bəndələrindən, bəlkə peyğəmbərlərindən. Birinin malının samanı qutarıbdı, gedib unun samanından saman oğurlayanda, guya unun torbasından tökülüb, unun izidi. Guya u iz heylə ağ görünür.

## DÜNYA AĞACI

Hər insanın bir yarpağı var. Yarananda o yarpax da yaranır, doğulur, öləndə u yarpax saralır. İnsan ölən kimi u yarpax düşür. Onunçən diyirl ki, bir yarpax düşəndə bir insan dünyadan gedir. Həmən ağac cənnətdədi.

# *İLK İNSANLAR HAQQINDA*

## İNSAN NƏSLİ

Bunu da eşitmişəm mən. Bu üçüncü nəsildi. Birinci nəsil, hətta belə evləri-zaddarı olmuyub, qazmalarda yaşıyıblar. İnsannar çox uca olublar, enli kürək olublar. Uzun illər yaşıyıblar. Altı yüz il yaşıyan olub, beş yüz il yaşıyan olub. Allah-tala baxıb görüb ki, beləliknən okqədər artım olajax ki, yer üzündə, quru yerlərdə insan yaşamağa mümkün olmuyajax. Onda insannarı kısaldır. Kısaldır, vaxt qoyur ki, üş yüz il yaşasın. Üş yüz il də yaşıyıb ikinci nəsil. İkinci nəsil də görüb ki, artım gənə çoxalır, insannar getdikcə çoxalır, ondan sonra çöyürüb deyir ki, yüz illik. Yüz il, yetmiş il arasında qoyur. Bu yetmiş il arasına gətirəndə bizim nəsil əmələ gəlir. Görür ki, hündür bir adam gedir. Deyir ki, bu nədi ə, belə? Bu kimdi belə bizə oxşuyan? Tutur boynunun dalından belə bu formu, qoyur çuxasının cibinə. Çuxasının cibinə qoyur, gətirir evə. Deyir: «Ana». Deyir: «Hə». Deyir: «Ana, bizə oxşar bir məxluqat gətmişəm, bu nə olan şeydi?» Deyir: «Bala, bizim millətdi da o da. Gələcək nəsildi bu». Deyir: «Ana, bundan nə olan şeydi ki? Bunun nə boyu var ki? Bu neyniyə bilər?» – «Ular, – deyir, – okqədər bij olajaxlar ki, elə boyu da o forma olajax». Deyir: «O nə başa düşər ey? O nə bilir ki, nə biliyi olar?» Deyir: «İndi sən onu göndər bir yana getsin, gör neyniyəjək». Deyir ki, get mənim bağda atım var, bizim nəslə deyir da, üçüncü nəslə, get mənim atımı bağdan göt, gət

məə. Gedir baxır, görür ki, atın boyu hardandı, eey əbürşüm kimi. Buna əl çatmır, bir şey eləmir. Uşax tez qayıdır dala, gəlir toolaya girir, tooladan arpa götürür. Arpanı götürür, aparır qoyur atın qənşərinə. At boynunu əyəndə atın başını bağlıyır, alır yedəyinə. Götürür gəlir, atı bağlıyır hayatın qabağına. Deyir: «Atı gətirdin?» Deyir: «Hə». Deyir: «Hanı?» Deyir: «Budey orda». Deyir: «Sən u atı nətəər bağladın?» Deyib: «Nolub, bağlıya bilmərəm?» Deyir: «Yox, səən əlin çatar atın başına?» Deer ki, gördüm atın başına əlim çatmıjax, getdim tooladan arpa gətirdim, qoydum atın qənşərinə. At əyilib arpanı yiyəndə bağladım başını, göturub gəldim. Anası deyir: «Dedim səə u gələcək nəsil çox bij nəsildi».

## İNSANIN ÖMRÜ

Birinci Allah-tala insana on beş il ömür verif. Bunu poyuzda gedəndə bir kişi danışdı, özü də yaşdı kişiydi. Gəncədən idi. Arvad nəsə söz didi, bu kişi başdadı həmən sözə uyğun bunu danışmağa. Didi: «Allah-tala insanı dünyaya gətirəndə on beş il ömür verir ki, ay insan, səni yaratdım, səə on beş il ömür verirəm, baxax görək bu on beş il ömrü nətər yaşıjaxsan?» Diməli, Allah-tala insanı yaradır, on beş il ömür verir, çıxır gedir, on beş ilin tamamında gəlir öz bəndəsini yoxlamağa. – «Salam məlöykü». – «Əlöykümət salam». Diir: «Ay bəndə». Diir: «Bəli». Diir: «Bu on beş ildə nələr eləmisən?» Diir: «Allah-tala sağ olsun, hər şey yaxşıdı, hər şeyim var, bircə şeyə ehtiyacım var». Diir: «Nədi?» Diir: «Mən yatanda hənirti olsun». Diir: «Oldu». Allah-tala bir it gətizdirir. Diir: «A bəndə». Diir: «Hə». Diir: «Bu itin 30 il ömrü var, onun on beş iliin verirəm səə, görək bu itnən on beş il nağarjaxsan?» Nəsə, gəlir on beş il keçir. On beş ildən sora gənə Allah-tala qurban olduğum gəlir. Diir: «Nətər keçir vəziyyətin?» Diir: «Səə qurban olum, sənə inanmıyan kafirdi, desəm ki pisdi. Amma çox gözəl keçir günnərim, amma məə bir köməkçi lazımdı». Götürür insana bir eşşək bəxş eliyir, eşşəyə verir otuz il ömür. Diir: «Eşşəyin otuz il ömrü var». Diir: «Bəli». Diir: «Onun on beş ilini də verdim səə. Gedirəm, on beş ildən sora yenə gələjəm». Eşşək də havadardı. Kömək eliyir buna. On beş ildən sora gəlir. Diir: «Noldu?» Diir: «Ya rəbb, sənə inanmıyan kafirdi, demərəm pisdi, yaxşıdı, çox gözəl günnərim var. Amma bu kömək məni öht eləmir». Allah-tala götürür insana at bəxş eliyir. Diir: «Bu atın ömrü otuz ildi, on beş ilini verdim səə, on beş ildən sonra yenə gələjəm». Bəli, on beş il keçir, qurban olduğum gəlir, diir: «Noldu?» – «Çox gözəl şərayitim var, çox gözəl dola-

nıram, amma bir şeyim çatmır». Diif: «Nə?» Diif: «Baş qatmağa bir şey yoxdu». Allah-tala götürüf meymunu verir ona, meymunun ömründən də alıf verir yenə kişiyə. Bu olur uje altmış yaşında. On beş il keçənnən sora Allah-tala gəlir görür ki, xudmani yaşayır da bunun bəndəsi.

Nəsə, indi bu insan görürsən uşax vaxdı başdıyır səsini kəsəmmir. Çünki Allah-tala birinci insana it bəxş eliyif. Baş-beyin aparır da. Bir xışıltı gələndə bir saat hürür. O da heylə bir şeydi. Görürsən ki, bir az keçənnən sora həməyil olur. Uşağı göndərirsən, ya ərinkir, ya da filan. Amma otuz yaşa çatanda at kimi işdiyir. Altmış yaşına çatan kimi ağlıın itirir, düşür meymun şəklinə. Bax Allah-talaya qurban olum, insana elədiyi bəxş budu.

## MÖHSÜN

Bir Möhsün olub. Çox böyük adam olub. Hündür adam olub dedikcə. Göydə peyk var ey, uçur, bir zornan görürsən, görükmür. Samalyot uçur ey, görükmür. Heylə, deyir, bərk qaçırmış. Bir gün, deyir, Azreyil gəlir bunun canını almağa. Canını alanda Allah-tala unu, deyir, çox hörmətdi eləmişdi. Azreyilə tapşırmışdı ki, görükginən una. Gördü darvazada çağıran var, gəldi. Dedi ki, qonax gəlmişəm? Dedi: «Qonağa da qurban olum, Allaha da. Bir iskan çay qoydu. Dedi: «Mən filan qədərə yol qaçıram, bu hardan tapa bilər ə. Çatammıjax». Bu, deyir, götürüldü, dərə-təpə düz getdi. U qədər getdi, deyir, dağın belində ujqar, deyir, meşəən içində gördü ki, iki adam dalaşır. Çatdı, deyir. – «Salam məleyki. Niyə dalaşırsız, ə?» Dedi: «Vallah, bir adam ölüb, quyu qazmışıx. Mən deyirəm ki, gödəkdi, amma bu deyir yox, bəsdi». Dedi: «Dayanın, mən girim yatım unun içində. Əgər mən sığışaramsa, məndən uzun adam olmaz, onda u birsi adam da sığışar». Bu, deyir, girib orda uzanan kimi otdu, deyir, döşüün arasında. Dedi: «Dostum, hara qaçırdın?» Otdu, deyir, orda. Danışdığı yerdə canını aldı. Uşaxlar dedi: «Əşi, dur, əşi, dur». Gördü kişi çoxdan ölüb. Orda dəfn elədilər. Çünki unun qisməti ora idi, u quyu idi. Bəridə kəntdə döyüldü. Dünyada çox şeylər var.

## ADƏM HAQQINDA
### I mətn

Hə, biz Adəm millətiyik. İnsanın göz ajdığınnan danışıram ey. Adəm ataynan bir nəfər torpax bölürmüş. Bu mənim payım, bu sənin payın. Araya qumbara qoyullar. Nətəər olursa, bular dalaşırmı,

nağarırmı, yıxılır. Yıxılanda ayağı ilə qumbaranı ayna eliyir. Ayna eliyir ki, mənim torpağım çox olsun. Bax bunu da eşitmişəm.

**II mətn**

Allah-tala Adəmə demişdi ki, ağıl istəyirsən, var istəyirsən, yoxsa döylət istəyirsən, yoxsa iman istəyirsən? O da dimişdi ki, ağıl istəyirəm. Ağıllı olanın imanı da olar, varı da olar, həyası da olar. Həya da lazımdı insanda. Həya, yəni utanmax. Üzü sırtıxlıx yox. Ağlı olan adamda bu şeylərin hamısı var.

## *MÜXTƏLİF MÖVZULU ƏFSANƏLƏR*

## GÜLNƏN BÜLBÜL

**I mətn**

Gülnən bülbül, deyir, bir-birisinə aşiq olubdu. Bir-birisinə, deyir, da nişanlı imiş. Bir-birisinə qismət olmuyubdu. Gül itibdi. Deyibdi: «Ya rəbbi, gözümün qabağına pərdə çəkilsin, mən o gülü görmüyüm, o ki məə qismət olmadı». İndi, deyir, bülbül o gülü görmür. Yay-qış həmişə deyir: «Gül, gül, açıl, açıl». Gejə-güdüz gülün həsrətindədi. Hər şeyi görür, gəzir, gül açılanda qonur, deyir, amma gülü görmür. – «Gül, gül, açıl, açıl», – deyə-deyə oxuyur. Gejə-gündüz belə oxuyur. O gülün həsrətiynən yaşıyır heylə oxuya-oxuya».

**II mətn**

Qızıl gülnən bənövşə bajı-qardaşdı. Deyib ki, qızıl gül gələ, mən gedərəm. Ha gözləyib, ha gözləyib, qızıl gül açılmıyıb. Bənövşənin boynu da əyri qalıbdı. Bülbül gülü görmür. Həmişə deyir: «Gül, gül, açıl, açıl». Gül açılanda onu görmür. Bənövşənin boynu əyilən kimi onun da gözü tutulubdu.

## QOYUN NİYƏ BƏRƏKƏTLİDİR?

İrax sufradan, sizdən, bizdən. İt yeddi-səkgiz bala balalıyır, qoyun amma ildə bir dəfə balalıyır. Niyə qoyun çoxdu, it azdı? Deyir gejə göydən iki dəfə nur yağır. Göydən nur yağanda u qoyun çöldə olanda Allah-talanın u nuru gəlir onun belinə. İt gizlənir, deyir, damın altında, hardasa, kölgədə, ona nur görünmür.

## İTİN YARANMASI

İtin yaranmağını belə eşitmişəm ki, Adəm yarananda şeytan ona baş əymədi da. Allah-tala ona əmr elədi ki, Adəmə baş əy. U əymədi. Əymiyəndə tüpürdü onun cəmdəyinə, göbək yerinə. Oranı o saat Cəbrayıl sıyırdı belə, tulladı yerə. Tulluyan kimi it əmələ gəldi. İnsanın ətindəndi da, amma şeytanın da tüpürcəyindən. Nə qədər kürü it olsa, uşağa dəyməməlidi. Uşaxdı axı bu. Dəyərsə, şeytana çəkib da.

## DİNLƏR NECƏ YARANIB

Bir oğlan, bir qız gəlir dünyaya. Oğlan gözəl olur, qız çirkin. Oğlan deyir ki, mən almıram qızı. Aradan qırx gün keçir, gənə bir oğlan, bir qız olur. Bu səfər qız gözəl olur, oğlan çirkin. Başdıyıllar bular – iki qardaş, iki bajı dalaşmağa. Bu gözəl qız istəyir bu gözəl oğlana getsin, bu çirkin oğlan istəyir gözəl qızı alsın. Nəsə, bunun üstündə buların düşür davası. Guya o vaxtdan din də belə yaranıb, dava-şava da belə olub.

## ÖLÜNÜN BASDIRILMASI

Vaxtı ilə ölü basdırmax yox imiş. U qarğa yeri eşib qozu ayağıynan basdırır. Unnan sonra kimsə də varmış, o da belə bir çöp-zad basdırır baş daşı kimi dik. Unnan sonra başdıyıblar insannarı basdırmağa. Yanı u qarğa heylə bildirir.

# RƏVAYƏTLƏR

## *MİFOLOJİ VARLIQLAR HAQQINDA*

### HAL
### I mətn

Bizim bu qonşu, u arvad ölübdü, bağlarında qarğıdalı-zad əkirdi gündüzün günortası. Adı Zülqayda idi. Bir də gördük başı yalolu gəldi bura, müharibədən qabax. Ölənnərizə Allah rəhmət eləsin, rəhmətdik anam dedi ki, aaz nolub? Niyə rəngin-zadın qaçıb? Dedi: «Ay Səltənət bajı, qarğıdalının içində məni bir arvad xeylağı çağırdı. Mən getdikcə gördüm səs uzaxlaşır. Birdən yadıma düşdü ki, diyirlər ki, hal adamı çağıran şeydi, onunçun qaşmışam».

### II mətn

Hal deyilən rəvayətə görə, hündür boylu, uca bir qadın olur. Çox uzun olur, deyir. O da gəlib müəyyən adamın, məsəlçün, baxırsan ki, heş kim yoxdu burda. Yönünü ayna çörürsən, çörülüb baxırsan, yanına bir dənə arvad var. O, məsəlçün, deer ki, gəl məndən gedək. Əgər onnan getsən ziyannıx çəkərsən. Aparıb səni yox eləməlidi. Amma getməsən, kəlmə-şəhadəti gətirsən, pissimillah desən, kafır, rədd ol get desən, sənə heş nə olmur. Qorxmursan, ürəkli olursan. Onu eşitmişəm mən də ki, hal arvadı keşmiş vaxtlarda olubdu. Əsasən qadın xeylağının gözünə görünür. Ən çox zahının yanında, yörəsində olur. Bularn atası danışırdı ki... Buların babalarının özləri də ölüya olublar. Yanı yaxşı kəssə olublar. Orda Çallıda ha. Buların ulu babası Nağı kişi əlində əsa gedirmiş. Bu da hər kəsin gözünə görünmürmüş. Seyid olduğuna görə bunun gözünə görünüb. Görüb ki, əlində bir dənə içalat gedir. Hasanı qoyub üstünə ki, deyib, kafır, apar bunu gətirdiyin yerə. Özüm də gəlirəm ora. Sizi nəhlətə gələsiz, deyir. Bir qadının uşağı olduğu yerdə onun ciyərini çıxarıb aparırlarmış. Görüb ki, vayşüyən qopubdu öydə. Kişi qapıdan içəri girən kimi gözünü açıbdı qadın. Deyir: «Ay baba, xoş gəlmisən». Deyir: «Qızım, zərəl yoxdu, tərpənmə». Deyir: «Bir qabda su gətir». Təsbehini salıb suya, bu qadına içirdibdi. Bilib ki, qadının ciyərini qaytarıblar yerinə. Onnan sonrasına çörək qoyublar. O qadın da tez-tez pissimillah deməlidi, Allahı çağırmalıdı, tək çölə çıxmamalıdı. O qadının evdə kişi papağı varsa, gətirib başına papax qoymalıdırlar. Tüfəng varsa, yanına tüfəng qoymalıdırlar. Heylə şeydən kafırlar qorxur. Zahını yatağa

qoymuyasan. Əvvəlcə çörək yedirəsən. Çörəyi gərək tam dada. Yanını yiyəsiz qoymuyasan.

### III mətn

Ağzıbir kəndində Məmmədqulu deyilən bir kişi olub. Hal-hazırda onun nəvəsi onun adını daşıyır. Meşəynən gedirmiş, görüb cinnər söhbət eliyir. Söhbət eliyəndə deyir ki, bir qadın doğur, gedirəm onu xaraf elijəm. Bu kişi eşidəndə yoldan qayıdır. Yoldan qayıdır, düz gəlir. O vaxt raddom yox idi, doğum evi yox idi, hər kəsi öz evində ara arvaddarı doğuzdurardı. Bu gəlir, girir, oturur arvaddarın içində. Arvaddar çox təkid eliyir ki, Məmmədqulu dayı, axı olmaz belə. Deyib ki, siz işizi görün, mən üzü belə oturajam. Cin demişdi ki, o biri yoldaşına, söhbət elədiyinə... Sual vermişdi ki, nejə gedəjəksən? Demişdi ki, mən yarpax şəklində buxordan – tüstü çıxan yerdən düşəjəm. Kişi də bunu gözləyir. Aradan yarım saat keçmədən görür ki, yarpax düşdü ordan. Balaca tənbəki deyək, tütün torbası vardı, onun ağzını açır, salır ora. Ağzını büzüb qoyur ora, çıxır gedir. Qadın da sağ-salamat doğur. Bu gün də həmin kişinin çuxasını saxlıyırlar. Əyər doğan qadın bu cür hal keçirsə, gətirib onu onun üstünə salırlar və yaxud da tüfəng atırlar. Tüfəng atılanda deyilənə görə, rəvayətə görə, o hal çıxır gedir.

### IV mətn

Hamilə qadın yatan məqamında gərək onun yanını boş qoymuyasan. Əyərləri o gözünü yumarsa, o nəhlət xalasına kafır gəlir onun başını kəsdirir durur. Əyər o özündən gedərsə, bir də görərsən ki, onun ciyərini çəkdi, götdü getdi. Qızıl mejmahısı var, onu qoyub suyun qırağına. Əyər sən o dəkqədə özünü çatdırmasan, əyər o, onu suya salsa, elə bilginən o qadın o dəkqə getməlidi. Biri heylə olubdu. «Nəhlət xalasına, sən nağarırsan» – deyən təki qoyub qaçıbdı. Götürüb gəlibdilər. Unu gətiriblər. Gətirən təki görüblər o gətirməkdə bayannan qadın dirilibdi. O qızıl teşti hələ də elə adam var ki, saxlıyır. O bir adamdı, deyir. U, onnan sonra daa o məhləyə gəlmiyib. Unu tutub üstünə iynə salası olsan, bütün kətdə bir dənə çırpı qoymaz. Sabahatan durub görərsən məhlə-baca hamısı odundu ey. İynə onun burasında qalajaxdı (yaxasını göstərir – top.). Amma iynəyə əlini vura bilmir. Amma iynəni ordan çıxartdınsa, sabah durub görərsən, bala, bir şey qalmıyıb. Hamısını götürüb gedib. Heylə bir nəhlət xalasına olmuş kafırdı.

## V mətn

Hal bizim nəslimizə gəlibdi. O vaxtı çox mod olubdu. Uşax, demək, anadan olan kimi hal gəlirmiş, deyir, u qadının içəridə nəyi var götürüb gedirmiş. Da o sağalmırmış. Ağsakqallar, qarasakqallar yığılırlar, görürlər əldən gedir camaat. Uşağı olan arvaddarın hamısı əldən gedir. Ağsakqallara müraciyət edirlər, oxumuşdara da, da indiki kimilərdən yox. Deyirlər ki, ancax bir iş eləmək olar. – «Nətəəri?» Deyirlər ki, nə qədər öydə yırtıx-deşik, hava girən yer varsa, hamısını möhkəm tikərsiz, görək bu nədisə, tutmax lazımdı. Deyirlər bir qadının uşağı olur. İndi hər yeri tuturlar da. Bir nəfər də qoja qarı öydə olur, yatıbdı. Heş bir yerdən hal girməyə yer tapmır. Görür ki, pencərədən bir xəzəl guppadan gəldi düşdü ojağın içinə. O saat bu qarı götürüb bunu qoyur torbanın içinə, ağzını bağlıyır. Görür bu yavaş-yavaş, yavaş-yavaş oldu yekə adam şəklində. Deer ki, səən indi fikrin nədi? Deyir ki, heş nə? Gəlmişdim bu qadının canını alıb aparam, çıxıb gedəm. Gəldim düşdüm belə. Deyir: «İndi mən nağarajam? Səni döyə-döyə öldürəjəm». Deyib: «Məni öldürmə, aç burax, çıxıb gedim. Sizin nəslizə söz verirəm ki, mən əl vurmaram». Deyib ki, biz nə bilək? Çıxardıb ona bir dəsmal verir. Deyib ki, uşax olanda öydə qoyun bunu, o teritoriyaya biz yaxın gələ bilmərik. Hal helə deyir. Onu keşmişdə tuta bilən vardı. Bunu cijim danışırdı.

*Söyləyicinin dediyinə görə bu hadisə nənəsinin başına gəlib.*

## VI mətn

Deyir babamın babasının, dədəsininmi nəsli xalça toxuyan olublar. Deməli, hər gün xalçanı toxuyurlarmış. Deməli, mənim anamın öz babası danışırdı ki, belə hadisə olubdu bizim nəsildə. Gördüm ki, hər axşam gəlir. Xalçamızı biz toxuyurux, hər gün görürük sökülüb başqa cür toxunub. Ayə, buna biz nağarax, bu nə olar. Babam deer ki, bəs bu cin işidi, hörgünü dəyişir. O vaxtı da ojax, deyir, evin tən ortasında olardı. Bu, deyir, axşam dedi ki, hamınız yatın. Evdə körpə uşax var, beşiyi var, yürməc-zad. Hə. Məə də dedi ki, yatın, mən yatmıjam. Bu, deyir, girir yorğanın altında uzandı, deyir. Evdə də şiş vardı beş-altı dənə. Şişi də qoydu ojağın içinə. Ojağın içinə qoydu, deyir, şişdəri, başdadı qızarmağa. Hamımız yatmışıx. Gejə saat üşdə-dörtdə, bir vaxtı gördü, deyir, babamın çığırtısı gəlir. Hə. Oyandıx gördük ki, bir dənə cini tutubdu. Bunu saxlıyıbdı. Amma indi hadisəni bizə danışır ki, bir vaxtı gördüm ki, siz yatmısız hamınız. Evdə də sakitdikdi.

Gəldi, deyir, evə arvaddar doluşdular çoxlu. Hamısı körpə uşaxlı. Qujağında uşaxları. Bəziləri deyir ey, hal döşü, hal döşü. Döşdərini çiyinnərinə atırlar bu qayda. Hə. U vaxda kimi gözlədim, deyir, bular soyundular paltarını, uşaxları qoydular. Evdə uşax vardı yürməcdə. Uşağın üstünə qoydular. Unnan sonra boğazlarında şəddə vardı uların. Bizdə qadınnar salır ey, əsasən qaraçılar, muncuğa oxşuyan, heylə muncuxlar vardı dəssə-dəssə. Buları çıxartdılar atdılar evə, deyir. Mitillərin üstü doludu uların pal-paltarıynan. Başdadılar, deyir, bu xalçanı sökməyə. U məqama kimi gözlədim, deyir, bular arxeyin işdədiyi yerdə, şişi alıb bir-ikisini dağlıyıbdı. Harasınasa dəyən kimi o görükür, o köz ona dəyən kimi. Bircəciyi qalıbdı, qalanı hamısı qaçıbdı. Bircəciyi qalıbdı, u da körpə uşaxlı. Qadın idi, adicə qadın idi, deyir. Deməli, o məqama kimi onu saxlıyıblar ki, körpə uşağı olduğuna görə yalvarıb yapışır. U dəyqə üstünə iynə sancırlar onun. Dedi ki, məni buraxın, mənim balam var, bir də bizim nəslimizdən bura gələn olmaz. Unnan sonra, deyir, babam buraxdı, deyir. Unnan bircə dənə şey qalmışdı taxılan muncuxdan. Haası qadının doğuş vaxtı çatıbsa gətirib qoyarlar, boynuna taxarlar ki, una cin-şeytan toxunmasın.

Unnan başqa bir dənə də hadisə baş vermişdi. Unu da ular danışırdı. Birinin, deer, pasdayannı atını incidirlərmiş. Amma mən özüm gözümnən görmüşəm ha. Qardaşımgilin atı vardı. Hər səhər gedib görürdü ki, atın saçını elə hörüfdü, yalmanını. Gözümün şahidiyəm ha. Elə hörüfdü, unu daa aşmaya mümkün yoxdu. Deməli, onu gətirirlərdi evə, qaçıynan kəsib atırlardı. Daa unu aşmağa mümkün yoxdu. Deer ki, unu cin eliyib. Birdən gedib görürdü ki, bunun yaxşı atı vardı, qardaşımgilin. Gedib görürdü ki, atın mıxı yerində o qədər fırlanıbdı ki, kəndirin izi düşüb. Elə bilginən bütün gejəni at burda kruq eliyib. Gəlib evdə deyib ki, atın saçı belədi, yerə həm də kruqavoy izi düşüb. Deyirlər ki, cin minib unu səhərə kimi. Onun dərdindən atın yalmanına həmişə sancax taxarlardı, yalmanını qırxarlardı.

Bir dəfə də belə hadisə olub. Bizə danışırlardı ha. Deyir heylə birinin atını çox incidib. O qədər incidib, incidib, axırda əlacı kəsilib, gətirib atın belinə müşəmbə salır. Müşəmbəni də möhkəm sarıyır qarnının altınnan, üstündən qır tökür. Səhər gedib görürlər ki, oturub atın belində. Bir dənə arvad xeylağıdı, atın belində, yapışıb qalıb ora. Üstünə iynə taxıblar, gətirib işdədiblər unu. Sonra evin ağsakqalı deyib ki, yazıxdı, buraxın getsin. Una tövbələtmə verirlər.

Tövbələtmə eliyəndə əraziyə toxunmur. Tövbələtmə eliyib ki, amanın günüdü məni buraxın, bir də sizin urux-turuğuza, nəslizə dəymərik. Heylə tövbələtmə eliyib unu buraxanda, azad eliyəndə u toxunmur. Heylə çox hadisələr danışırdı mənim atam.

### VII mətn

Bir dənə ağsakqal olub, hansısa kəndin, nurani olub ha, ibadət əhli. Yolnan gəldiyi yerdə, qəbirstannığın yanınnan keçəndə görüb ki, yolnan bir kadın gedir, başında da teşt, gejənin bir vaxtı. Bu da meçitdənmi, hardanmı gəlirdi. Hə. O saat bilib ki, bu cindi, tiyanda apardığı da nəsə, obşim, təhlükəli şeydi. Gözünə görüküb ha, gejə vaxtı. Buna çığırıb ki, kaftar, dayan, görək sən nə aparırsan. Başdıyıb yalvarmağa ki, amanın günüdü, balalarım ajınnan ölür, mən olara aparıram. – «Apardığın nədi axı?» Arxın yanına çatıbdı. İndi istəyir ki, teşti yerə qoyub içindəkini suya çalxalasın. Deyir ki, filan kadının içalatıdı, unu gətmişəm. Yuyub aparıb balalarıma verəjəm. Kişi buna imkan vermiyib. Deyib ki, buları apar yerinə qoyginən, yazıxdı. U da məhv olar. Deyir: «Axı mənim də balalarım aj qalar?» Nəsə, kişinin qorxusunnan aparıb.

### VIII mətn

Atın üstündə bir dənə hal tutublar. Diməli, gəlib gejə atı minərmiş, gətirib bağlıyarmış toolaya. Toolaynan bir atı varmış onun. Səhər durub görərmiş ki, ilxı bütün qan-tər içindədi. Bir gün də yaxşı madyanı varmış. Gətirərlər bunun üstünə bir yaxı salarlar qırdan. Gejə onu hallar, cinnər minəndə yapışıb qalarmış orda. Unu, deer, tutdux gətdik. Amma kadın idi deer. Düz bir il işdətdik, deyir, unu. Bir ildən sonra, deyir, iynədən qorxarmış, yaxasına iynə sancırdı. Bir dəfə suya gedəndə deyir: «İynəni çək yaxamdan». Unnan da qaçıb getmişdi. And içdirmişdi ki, sizin yeddi arxa dönənizə toxunmuyajam. Helə də toxunmuyub. Bizim nəslimizdə nə ürək gedən, nə havalanan, dəli olan, helə bir şey olmuyub.

### IX mətn

Məllim vardı, indi onun qardaşı var, Adil məllim, durur hal-hazırda. Özündən də xəbər alsaz deyə bilər. Tələbə idik, məktəbdə oxuyurdux. O bizə söhbət elədi ki, bir uşax dedi ki, ağ atımız var, ölür ayax üstə. Bilmirik nolub. Deyəndə dedi ki, heylə bir ağ at bizdə də vardı. O ağ at bizdə elə bir günə düşdü ki, daa ölümcül hala. Sonra bir nəfər atama deyibdi ki, unu hal arvadı minir, hal minir. Bu hal minir söhbətinə atam

gəldi bir xaralı möhkəm qırladı, saldı atın belinə, möhkəm bağladı. Buraxdı atı. Sabahı durdux gördük ki, bir uşax boyda, birinci sinifə gedən uşax boyda bir şey atın belinə yapışıb qalıbdı. Atam, deyir, atın belində onun döşünə iynəni taxdı, sapı möhkəm bağladı iynəyə, taxdı döşünə, saxladı. Hər gejədə, deyir, heç olmasa iki kəl arabası odunu daşıdı, çırpı daşıdı məhləyə. Məhlədə-bajada odun-çırpı daşımadığı, yığmadığı yer qalmadı. Bin gün, deyir, anam dedi ki, yazıxdı bu hər nədisə, bunu da Allah yaradıb, u iynəni aç, çıxsın getsin. Yimir, içmir, gejə sabahatan odun daşıyır, günüz yox olur. Nəysə, deyir, atam insafa gəldi, iynəni aşdı, bu çıxdı getdi. Sabahı durdux gördük, deyir, bu bir ayda daşıdığı odunnan, çırpıdan bir dənə tilişkə qalmıyıb. Bir gejənin içində daşıyıb aparıb. Bax bunu da belə eşitmişəm, gözümnən görməmişəm.

### X mətn

Qadın xeylağıdı hal. Saçı-zadı tökülüb (çiynini göstərir – top.), kəfən əynində. Deyirlərdi keşmiş kişilər ki, onnar pis insannardı, xortduyublar.

### XI mətn

Gəlin köşdü getdimi, gəlin oldumu, bax olara rəmşiyirlər, olara toxunurlar. Oların, irağ olsun, dəli olanı olur. Bir olara, bir də təzə uşağı olan qadına da toxunurlar. O qadınnarın da əksəriyyəti ölür. Odur ki, uşağa yatan qadının gərək yastığının altına xam iynə sancarlar, çörək qoyarlar. Bir-iki dənə arpa, buğda, sonra varsa evdə Quran, sonra pıçax, unnan sonra tüfəng olsa, tüfəng daim yastığının altında olar. Sonra o qadın gejə vaxtı eşiyə-zada çıxanda gərək yiyəsiz çıxmasın. Qırxı çıxana qədər qadını bax bu cür göz dağı eliyirlər ki, olar rəmşiməsinnər.

### XII mətn

Anam olubmuş, iki gün imiş, üş gün imiş. Nəsə. Alma ağacının altında buna yer salıblarmış. İsti vaxtıymış. Nənəmin qayınatası gətirib bunun yanına koğa qoyub. Haçalı uzun ağac olub. Deyir: «A bala, koğanı-zadı gözdən qoyma, gəlirəm». Bu halda görüb ki, bir dənə qadın, yekə, əlində bir dənə alma. Anam rəhmətdik elə bil ürəyinə gəlib, nədimi, deyib: «Yox». Bu uşağa əlini uzadanda bunun da boynunda muncux var imiş, iri-iri muncuxlar. Anam belə koğanı atıb bunun muncuğunu qırıb. Qıranda bu çığırıb, başdıyıb yığmağa. – «Muncuğuma dəymə, muncuğuma dəymə». O cümlədən ikisini də anam

götürübmüş. Nəsə, səsə-küyə gəlibdi qayınanası. – «A bala, nolub?» Deyir: «Bəs belə-belə». Deyir: «Sən də götürə bildinmi muncuxdan?» Deyir: «Hə». Birini anam böyüyüb gəlin gələndə anama verib. Deyib: «Apar, lazım olar». Anam da verib böyük bajıma, u da kiməsə verib. Heylə yaddan çıxıb. U muncux olan yerə cin, hal yaxın durmurmuş.

**XIII mətn**

Mənim Bakıdakı qızımın ataları rəhmətə gedəndə, sən də mənim balam, onun atası rəhmətə gedəndən sonra u qız anadan oldu. Qız oldu. Buların babası da, bu aynəbənd yoxdu, seyvanda yatırdı qorxarlar deyib. Gejə gördüm ki, məni çağıran var. Qız da təzə olubdu. Gördüm abuşkənin qabağında çağıran var, zənən heylağıdı. – «Nüvar, Nüvar», – elədi, çağırdı. – «Hə», – elədim yuxudan. Hə eliyəndə dedi: «Aaz, xalanam ey, çıx çölə». Çölə çıx deyəndə durdum. Bizim o biri məhləmizin qabağı göy çəmənnik idi. Gördüm bu çəmənnikdə iri-iri arvaddardı, çalırlar, oynuyurlar. Hündür arvad idi. Ağ zada bükülmüş, çərşaba kimi bir şey da, nə bilim mən. Amma döşdəri də, sən də mənim balam, bax belə sallanırdı. Gördüm bu döşünün birini çiyninə atıb arvad oynuyur. – «Aaz, düş gəl, aaz, düş gəl», – eliyir mənə. Mən də getmişəm. Pilləkən qalıb bərdə, seyvanın o biri tərəfinə getmişəm. Oradan nətəər yıxılaramsa yerə, axı pilləkən bu tərəfdə qalıb. İndi oları görürəm, çağırırlar, oynuyurlar. – «Aaz, düş gəl, aaz, düş gəl», – eliyirlər mənə. Ordan yıxıldım. Yıxılanda çığıraram, çığıranda rəhmətdik kişi yuxudan dura, görər ki, yıxılmışam. – «Ay bala, pissimillah elə, ay bala, pissimillah elə». Ağzı Qurannı kişi idi. – «Pissimillah elə». Böyük qızım da qonşudadı. Bulardan böyükdü. – «Yeganə, Yeganə». Çıxar Yeganə çölə, deyər maman yıxılıbdı, gəl buna kömək elə. Məni ordan qaldırarlar. İndi gözüm ordadı. Deyirəm: «Ay əmi, ora bax, gör nətəər oynuyurlar orda». – «A bala, pissimillah elə». Pissimillah eliyib məni qolumdan tutub qaldırdılar, gətirdilər öyə. Səhəri dirigöz aşdım.

**XIV mətn**

Əmim arvadı baxıbdı bizə. O deyir bir arvad olur. Bizim öz babamız o vaxtı tutub onu atın belində. Bizim əmimiz Bakıda mantyor işdeyirmiş. U vaxtı atnan gedib gəlirmiş. U Bakıdan gəlib atnan. Bir qara atı var imiş. Bunnan gedib gəlirmiş Bakıya. Gəlir bu atı saxlıyıb, bağlıyıbdı. Durub səhər görüblər ki, atın yalmanı

hörülüb, at suyun içindədi, tərin içindədi. Böyük əmimə deyər ki, u ata nolub belə saşdarı hörülüb, yalmanı da. Unnan özü də tərin içindədi? Əmim arvadının da böyük bir bacısı varmış, ara arvadı kimi. U deyər ki, onu hal minib çapıb, höörübdü. Deyər ki, bəs buna nağarax? U deyər ki, bəs buna nağarax? Deyərlər ki, onun belinə qırı yapışdırın, buraxın. Qırı yapışdırıb buraxırlar. Bir də görürlər ki, at gəlir kişniyə-kişniyə, belində bir hal, cin, nə bilim, nədi, belə bir şey gəlir. Gəlir deyər bulara ki, məni burdan qoparıb buraxın, mən sizin yeddi arxa dönənizə dəymiyəjəm. Deyəndə bular bunu buraxmazlar. Deyər ki, bu atı belə elədiyə görə bir həftə bizə işləyəcəksən. Bir maşın odun, deyir, dartdı, daşıdı yığdı məhləmizə. Bunun, deyir, üstünə sancax saşmışdı, deyir. Aşdı buraxdılar. Buraxdıx, deyir. Səhər gördük bir dənə odun qalmıyıb məhlədə. Bu gətirdiyi odunun biri də yoxdu.

Sonra, deyir, mənim bir dənə bajım hamilə olan vaxtı su başına gedər su doldurmağa. Görər ki, iki dənə uşax səsi gəlir. Ağlıyır iki dənə uşax. Bunu görməz ha. Anası gələr, deyərlər ki, ay ana, biz acmışıx, ət istəyirik. Deyər ki, filankəsin beyjə uşağı olajaxdı, – arvad danışdığını deyirəm ha, əmim arvadının, – uşağı olajaxdı, uşağı olanda gedib onun içalatını çıxardıb gətirib verəjəm sizə. Deyib: «Ay ana, unu nətəər çıxarajaxsan?» Uşaxlar bunnan xəbər alır. Bu da oturub qulax asır buna. Deyib: «Gedəjəm pərvana qonajam, bir dənə tük olajam, una yimək gətirib verəjəklər. Uşax olannan sonra u yiməyin içinə düşəjəm, u yiməknən gedəjəm onun qarnına. Onun içalatını çıxardıb götürüb gələjəm. U belə danışar.

Qayıdır. Danışar bajısına ki, bajı, hal-qəziyyə belədi. Belə bir səs eşitdim, amma üzlərini görmədim. Deyib: «Hə, onda gözləmək lazımdı». Bunun uşağı olubdu. Hamı da oturub yanında. Bu arvad bunu gözləyib da. Görübdü bir dənə tük gəldi düşdü yiməyin içinə. U saat tükü alar. Alar qoyar böyrə. Baxıb görərlər gəlin özündə yoxdu. Gəlin özündən gedibdi. Deyər ki, tükə da, nə bilim nətəər deyərsə, deyər ki, bəs bunun zadını qaytar qoy yerinə. Deyər ki, bir də gördük ki, başında teşdə guya arvadın içalatı da içində, qaytarıb gətdi, deyir, qoydu yerinə. Arvad ayıldı. Deyib: «Daa məni buraxın, sizin yeddi arxa dönənizə dəymiyəjəm». Həmişə rəhmətdik cijim heylə danışardı. Olar, deyir, tükü üzünə töküb gəzirlər.

## XV mətn

İndi Ağ arvad deyirlər, keşmişdə hal arvad deyiblər. O cindi, qəbirdən xortduyub çıxmış bir insandı. O insannarla ünsiyyətdə döylü. O xəlvəti insannarı aldada-aldada aparır, özünə yoldaş eləməyə aparır. Ona da aldanan pişik olur. Ona da aldanmamax üçün pissimillahı unutmuyasan.

Hal əlini salıb zahının ciyarını çıxarır, aparıb suya salır. Suda çalxaladıxda zahının qanı axır, ölür. Suya salmamışdan duyux düşsə, insannar dalıynan tüfəng atanda, – o pissimillahdan, iynədən, bir də tüfəngdən qorxur,– qaytarıb qoyur yerinə. Cinin bir növü demək olar ona.

### XVI mətn

Uşağı olan arvaddarın sou düşməmiş, onu sorub aparır. Suya çəkən kimi arvad ölür. Halın doğan arvada yaxın düşməməsi üçün onun ətrafına hərləmə cız çəkmək, şirin çayla yumurtanı yedizdirmək lazımdı. Tam yidimi, daa hal arvadının ona gücü çatmır. Tam yimiyəndə gücü çatır.

### XVII mətn

Özü də peşəsi çənbərə (çənbərə malın gönündən toxunurdu, malın boynuna taxırdılar – top.) toxuyardı arabaya. Çənbərə əmi deyirlərdi ona. Deer ki, bir dəfə söhbət elədi ki, mən də on bir yaşında uşax idim. Söhbət elədi ki, kəntdən gəlirdim, gördüm ki, uşax səsi gəlir, ağlaş. Uşax ağlıyır. Anası dedi ki, kiriyin, ağlamıyın. İndi gedib sizə ət gətirəjəm. Dedi: «Hardan gətirəjəksən?» Dedi: «Filankəsin arvadı həmlisini yerə qoyajax, gedib onun içini çıxardıb gətirəjəm, yiyib dolanarsız», – deyəndə bu kişi bunu eşidər. Dayanıb qulax asır. Evə getməz, düz gedər həmən adamın qapısına. Bir kəntçidi da, qonşudu. – «Salam əleyki». – «Əleykimət salam». Öy yiyəsi deyər ki, keçək da. Deyər ki, yox, mən burda oturajam. Deyir: «Ə, vallah, öydə arvad azarlayıb, hamilə var, uşağı olajax». Deyib: «Olajax, bax keçib u baş tərəfində oturajam, yoxsa gedirəm». Deyib: «Yəqin nəsə bir möcüzə var bunu deyir». Keçib oturur. Sonra halın balaları xəbər alıb sən hancarı onu gətirəjəksən. Deyib: «Tük olajam, o xörək yiyəndə onun qaşığına düşəjəm, gedəjəm onun bədəninə, çıxardajam, o məni görmüyəjək». Gözü belə atdan yuxarı baxıb, görüb ki, bir tük gəldi düşdü qaşığın içinə. Arvad qaşığı ağzına aparanda tutub qolunnan. Tükü ordan götürüb, deyib: «Mənə kirpit gətirin, bunu odduyajam. Bəs sən burda bu cürə qadını öldürürsən?» Deyib: «Məən də peşəm odu». Onnan sonrasına and için ki, sənin yeddi arxa dönəninə, qan çəkən, iyin gələn yerə

getmərəm, məni öldürmə. Ondan sonra onu buraxır. Kim hamiləliyini yerə qoyarsa, onun paltarını aparıb qadın olan yerə qoyurlar ki, o and içib ki, sənin iyin çatan yerə gəlmiyəjəm. Yeddi, səkgiz ilə qədər xalamgil saxlıyırdı onun paltarını.

*Xalasının ərindən eşidib.*

### XVIII mətn

Qadınnar uşağı olan zamanda gəlir elə bir dona girir, ona görükür ki, o adam ölür da. Gərək o adamın yanında özünkündən bir adam ola, zahının dilini çıxarda, qulağını çəkə. U, deyir, hörümçəyin iri şəklində gəlir. Çay qoyubsan, xörək qoyubsansa, una girir. Mənim özümün babam o halı tutub. Motal deyərlərdi, keşmişdə dəridən bağlıyırlardı. Ora salan kimi motal üfürüldü nə boyda oldu u halda nə qədər hüküm varmışsa. Zahı çaydan bir qurtum alan kimi. Elə bir libasda girir u çaya, acca balaca görünür. Xörək qoyublarsa, xaşılmı, quymaxmı, unnan dadırsa, u qaşıxnan gedir onun qarnına. Unnan u zahı ölməlidi. Ölübdü də. Hal-hazırda mən yaxşı bilirəm ki, ölmədi də, diriltdilər. Mən uşağ idim onda. Qulağını çəkdilər, ağzını aşdılar. Hal uddu dedilər. U arvad heylə özündən getdi. Anamı heylə diriltdilər. Qulağını çəkdilər, ağzını aşdılar, övkələdilər, nağardılar, qusdurdular arvadı. Adam sifətində gəlir u. Qurban olduğum onu heylə yaradıb. U sifətdə gəlir, adama ziyannıx vurur. Onu tutub orda boğub, boğub, boğub öldürüblər. Hal sounun girəvəsində gəzir ki, görək bunu hara qoyajaxlar. Onu aparıb yiyir. Ağajdan pambıx düşür ey, yaz açılan vaxtı, u fason görünür. Babam deyir u fasonda gəlib düşür çayın içinə. Ordan da arvadın qarnına getdi. Bir vaxtı görürlər arvad ölür. Bu içdiyi çayı sifrax eylədi. Həmin pambıx fasonda şey gəldi düşdü. Düşən kimi qaşıxnan aldı qoydu motala. Qoyan kimi cana gəldi uje.

### XIX mətn

Bu zahı qadınnarı həmişə gözləyirdilər heylə şeylərdən ki, ular apara. Uların rəvayətinə görə, adicə bu mal ciyərini alanda nənəmiz, babamız onu bütöy yumağa bizə icazə verməzdi ki, hissə-hissə yuyun. Bütöy yuyulanda o zahı üçün ağır olar, pis olar hardasa bir zahı varsa. Onda hala yol açılır. Belə eşitmişik nənələrimizdən. Mən də heş vaxt icazə vermərəm ciyar bütöy suya salınsın. İndi bizə qanun kimi qalıb nənəmizdən, babamızdan. Hər şəkildə insana görükə bilər.

### XX mətn

U hal deyiblər, cin deyiblər, unu tutublar ulu babalarımız. Bir balaca uşağa, qanmaza deyib ki, iynəni çıxart. Çıxardan kimi qaçıbdı. Qaçanda nəslimizə qarğış eliyib ki, Allah-tala heş vaxt işinizi qutarmasın. İndi heylə nəsilliknən nə qədər işdiyərik, işimiz qutarmaz. Belə bilirəm.

## CİN

### I mətn

Gejələr, axşamlar dam divlərində, şilvər altında olurlar. Gözə görükmür. Onu da, deyir, gərək gejə vaxtı su atmıyasan çölə, ya isti, ya qaynar. Su atanda mutlax, deyir, balaları da olur yanında, balalarının üstünə tökülür. Olar da, deyir, başdıyır həmin adama ziyannıx vurmağa. Özü də olar gejə olurlar, gün işığında yox. Gejə gəzirlər. Xətanı da, ziyannığı da çox vaxtı gejə eliyirlər. Deyirlər bir adam dəli olub. Bax dəli olmax odu ki, məsələn, qaynar suyu tökür, yadına düşüb pismillah da dimir, onda görürsən ki, o xəta eliyir. Gəlir elə bir şərayit yaradır o qorxusunnan dəli olur.

### II mətn

*Söyləyicidən cin haqqında nə eşitdiyini soruşduqda bizə aşağıdakı mətni danışdı.*

Səkinə arvad varmış. Kimin uşağı olursa onu aparırlarmış. Gəlib çağırarlar ki, filankəsin uşağı olur, gəl gedək. Bu çıxan kimi minər dalına, aparar gedər meşənin içinə. Deyir ki, bu arvadın oğlu olsa, səə bu qədər qızıl verəjəyik, qızı olsa səni öldürəjəyik. Bu da gəlir bədbaxın qızı olur. Arvad da özüynən ehtiyat üçün mum götürübmüş, arı mumu. Nəfəsini verib mumu yumuşaldıb, yapışdırıb buna. Deyər: «Hə, a bala, gözüüz aydın olsun, oğluuz oldu». Onnan sonra bunu da mindirib maşına, gətirib qoyarlar evlərinə. Üçüncü günü qundağı açanda görürlər ki, əriyib mumu, qalıb amı. Heş nə yoxdu, bu qız uşağıdı. Hər gün gəlib meşənin qırağında durub o arvadın qapısının ağzında: «Ay Səkinə xala, gəl ha. Sən bizi aldatmısan, vəziyyət bu yerdədi».

### III mətn

Anam deyirdi ki, hələ uşax-muşax olmamışdan əvvəl gördüm kişi yoxdu öydə. Gejə səhərə yaxın gördüm kişi üstü-başı bütöy su, şeh gəldi. Mən bunnan xəbər aldım. – «Sən hardan gəlibsən belə?» Dedi: «Xəbər alma. Axşam, burda qalsın, namaz qılırdım. Namazı

qılıb salam verəndə gördüm arxam tərəfdə ağsakqal bir kişi dayanıb öyün içində. Qapını açıb girib. Qutarannan sonra dedi: «Molla dayı, qutardınmı namazı?» Dedim: «Bəli». Mənə anam söhbət eliyirdi. Dedi: «Onda gedək bizim bir uşax var xəstə, ona bir dua yaz». Dedim: «Gejə vaxtı? Səhər gedərik da». Dedi ki, indi gedək. Ağsakqal, bir nurani kişidi. Durub dinməz-söyləməz ayləyə-zada diməmiş düşüb yola. Bura sənin, ora mənim, nə bilim, hara gediblər. Gördüm işıx gəlir. Oturublar, bir uşax da yatıb. Hamı deyib molla dayı, xoş gəldin, xoş gəldin. Hiss elədim o saat ki, bu nə əhvalatdı. Dualığı çıxartdım dua yazmağa. Dedi: «Onu qatda qoy cibəə». Dedim: «Niyə?» Dedi: «Heylə? Bizdə dualıx var». Çünki bizim dualarda pismillahi-rəhmani-rəhim yazılıb. Bu pismillah sözü də, deyilənə görə, bularda olan döylü. Gətdi kibrit böyütdəkliyə dualıx verdi. Dedi: «Bunnan yaz». Aşdım dualığı, nə bilirəmsə şifahi ordan götürmüşəm. Ə, burda nələr var? Bismillahdan başqa burda nələr var? Yazdım, dualığı qatdıyıb qoydum cibimə. Yazıları zərnən yazılıb deyir. O qoja kişi dedi ki, molla, o dualığı qoy ora. Dedim: «Yox, sizdən də mənə bir yadigar qalsın da, nolar». Dedi: «Dualığı qoy ora». Qoymadım. Öyün yanına kimi dedi dualığı ver, yoxsa tapmazsan öyüzü. Çıxartdım dualığı verdim. – «Buyur götür». Çörüldüm gördüm heş kəs yoxdu. Gəlib namazımı qılıb yıxılıb yatdım.

## IV mətn

Bu rəhmətdik Molla Məlik kişi öydə yatdığı yerdə, həmən u Əhmədin atası. Bizə çox gəlib-gedən idi. Mən də iri uşağam da, malzad güdə bilən. Deyir: «Nurəddin, gejə öydə yatmışdım, gejə yarı olardı, nə olardı, bir də gördüm ki, deyir, qapını döyən oldu. Dedim: «Ə, kimsən, gəl». Dedi: «Molla, tez ol yığış, səni aparırıx. Xəstə var, bizə deyibdi ki, duanı gərək sən yazasan. Sən dua yazmasan qadın xeylağı əldən gedir». – «Nə deyirəm». Bulara dimir ki, dayan, dualığı götürüm. Dualığı götürür vurur qoltuğuna, öz dualığını. Bular bilir, bilmir, bilmirəm. Bunu alır dallarına, götürür gedirlər. Yolda xəbər alır: «Ə, məni siz hara aparırsız?» Deyir: «Surxayın[1] başına». Aman Allah. Deyir: «Yaxşı, aparın da, nə deyirəm». Aparıb qoyurlar yerə. Görür ki, bir dənə gəlin xeylağıdı, yerdə uzanıbd. Deyir: «A bala, mən indi buna dua yazajam, bu əmələ gələjəkdi. Amma məə başqa təziq olmasın». Dualığı cibindən çıxardır, dua yazmax istə-

[1] Ərəb və Kükəl kəndlərinin yuxarı hissəsindəki dağın adıdır.

yəndə baxır ki, bular əkişirlər bir-bir. Bunu aparanın tutur yaxasınnan: «Oğraş, məni bura nətəər gətirmisiz, hindi aparın qoyun yerimə. Mənim əlimdə siz hamıız fösüz. Siz mənim əlimdən qaçammazsız». Alıb dalına gətirib qoyurlar bura. Deyir: «Molla, sən niyə öz dualığınnan yazdın axı?» Təklif verirlər ki, biz dualıx gətirək, bizim dualıxnan yaz. Deyib: «Yox, mənim öz dualığım var».

**V mətn**

Bizdə bir kişi vardı, indi rəhmətə gedib. Ağıllı başdı kişi idi. Deyir, Qaradeyin kəndində vaxtsız iclasımız oldu. Sovet sədri idi. Təxminən gejədən xeyli keçmiş atı mindim, evə gəlirdim. Meşənin kənarıynan gəlirdim. Gördüm yoldan xeylax aralıda dəmir-dümür döyürlər, elə bil ki, səs-küy, qovma-qovma var. Dedim deyirlər cin var, şeytan var, gedəjəm görəm bu nədi? Getdim, deyir. Atın başını eşdim, getdim, deyir. Getdim gördüm nə? Qaraçılar o vaxtı dəstə-dəstə gəzirdilər. Görürsən bir nəsil, üş-beş aylə komplekt gəzirdilər, dəstə-dəstə gəzirdilər, ərli-arvadlı, oğullu-qızlı. Bizim kəndə çox gəliblər. Bulardı, sajayağı düzəldirlər, maşa düzəldirlər.

**VI mətn**

O dəyirmana baxanda görür ki, dəyirmanın suyu yoxdu. Gedər yuxarı, calğalar vardı Hüşün altında, ordan gejə çaya gedir o. Qayıdanda görür o calğalıxda bir zıqqıltı toy var, hamı ev camaatı orda oturub. – «Ədə, Qara, gəl. Ədə, Qara, gəl». Qara gələr. Qaraya yekə bir nimçə aş. Qoyar Qaranın qabağına. – «Ədə, döşə. Ədə, döşə». Qara nimçəni belə tutub, hak-hesabı başa düşübdü, deyir: «Bismillah» – deyib ayna baxır, bayna baxır, heş kimsə yoxdu. Özü olub, bir də nimçə. Nimçədə at poxudu, mal təzəyidi. Bir aya kimi o nimçə qaldı bizdə, deyir. Səni, gejə kafirlər gəldi apardı nimçəni.

*Başqa söyləyicinin əlavəsinə görə nimçənin içinə sancaq qoymuşdu. Təmizləyəndə sancağı götürər, həmin gecə nimçə yoxa çıxar.*

**VII mətn**

Cin Qınyazın babasının cildinə girib Ərziman dayını toya çağırıb. Ayılıb Ərziman dayı. Deyir: «Ə, bu vaxtı toy olar?» Deyir: «Dur da gedək». Toya çatmamış deyir: «Gəl bir dənə çimək, islax olax». – «Ə, mən gejə vaxtı çiməjəm?» Pismillah deer, bir də baxır, heş kim yoxdu.

**VIII mətn**

Deyir quru arx vardı. Onun içindən keşdim. Tək olub ha. Gördüm bir dəstə çalğıçıdı, oynuya-oynuya, çala-çala gəlirlər üstümə. Səsnən-küynən, əməlli başlı çalırlar. Amma qabaxda ağaş körpü var. Gördüm lap yaxınnaşıblar. Oynayan kimdi, çalan kimdi. Nağara-zurna çalırlar. Birdən, deyir, yadıma düşdü ki, bular cin olar ha. Deyirlər cin, cin. Ayağımı qoyub körpüyə pissimillah eliyib götürüldüm. Bizdə calğalar vardı, oratan qaşdım, deyir. Gördüm arxamnan heş kim gəlmir, nə də çalğı var.

**IX mətn**

Bir dənə kişi olur, atdı gəlirmiş. Gələndə görüb ki, xaraba bir dəyirman var. Dəyirmanın yanında görüb ə, burda toydu, zıppıltıdı. Çatan kimi görür öz kətçiləridi hamısı. Yaxınnaşıb: «Filankəs, salam məlöyküm». Atdan düşüb. Atı bəri çəkir. Bunu çəkirlər ortalığa. – «Ə, burda otur, belə, filan». Tez-tez də bunun qulağına biri gəlib deyir ki, pissini yadınnan çıxartma. O müsəlman cini olub. Bunu oynadajaxlar. Başdıyırlar bunun qənşərinə pilo gətirirlər. Üstündə çolpası, filanı, qızardılmış. – «Ə, bir çörək yiginən». Sonra da tez-tez də deyir ki, gördüyü, bidiyi dimə ha. Gördüyü, bildiyi dimə. Yanı pissimillah dimə sözüdü. Bu, deyir, çəkir beləjə qənşərinə, götürüb – indi bizdə, müsəlmannarda adətdi çörəyi, xörəyi qabağa çəkəndə pissimillah deyəsən, – pissimillah eliyəndə barmaxları bunun batar mal poxuna. Kəlləsinə belə qapaznan vurarlar, hamısı yoxa çıxar. Durur ayağa, baxır görür ki, atın bütün yalmannarının hamısını hörüblər. Quyruğunun ucuna kimi yalmannarının hamısı hörülüb.

**X mətn**

Traktor sürürdü bu aralbirli Ataşla. Gördüm ki, qaş qaralan vaxtı öyə gəlirdi, kişi gəlmədi. Ha gözlədim, gözlədim gəlmədi. Harda qaldı? Atam gələr simenə, bu düşər gələr. Gələndə bu Əfəndi babanın qəbirstannığınnan o üzdə görər zıppazıp toydu. Toy tamaşadı. Zıppazıp çalırlar, oynuyurlar. Çalırlar, oynuyurlar. Hara deyim səə, bu Şəmsanın başında köhnə dərman olubdu, u dərmanın yanına apararlar. Təzədən çala-çala da qaytararlar. Bu havaxda Ataş görər ki, kişi gəlir maşının işığına. Deyib: «Mahmud, burda nağarırsan?» Deyib: «Vallah, mənim başıma bir oyun gəlib. Gəl məni ötürginən». Traktoru saxlıyar, düşər gələr. Bu öyün böyründə yekə qaracalıx var idi. Kişi gələr arxdan keçəndən sonra deyər: «Bu da sənin öyün, yer get». Gələr o ağajı görəndə fikirləşər ki, bu bizim ağajımız döylü.

Sonra axlı başına gələr, deyər ki, bismillah. Pismillah deyəndə görər ki, yox, bu bizim ağajdı. Bu gəldi, gətdim əlini, ayağını yudum. Dedim: «Ə, bu vaxtı sən hardasan?» Dedi ki, arvad, qoy bir nəfəsimi alım, bu söhbəti səə elijəm». – «Hə, elə, nə deyirəm». Bu gəldi oturdu, bir stəkan çay işdi, dedi: «Hə, başıma belə iş gəlib».

### XI mətn

Cin gözəgörünməz maxluxdu da. Sənin ayağının altda bax bu otdan da, qarışqadan da çoxdu. Gəzir, sən görmürsən axı. Ona meşat eləmiyəsən, onu incitmiyəsən, qaynar suyu yerə tökmüyəsən. Onnan sonra soğan qabığını aparıb hara oldu tullamıyasan. Yoxsa onnarın ajığına gəlir, sənin başına oyun açır. Deyir ki, ikindiynən axşamın arasında zibili süpürüb çölə tullamıyasan. Oların ajığına gəlir axı. Yığılır, girəvə keçən kimi səni vuranda da görürsən ki, əmələ gəlmirsən. Gedirsən o mollanın yanına, görürsən müalicə olmur.

### XII mətn

Qadın cinsinə hal deyirlər, kişi cinsinə cin. Hamısı bir şeydi. Uların tamın yiyən adam dəli olur.

### XIII mətn

Bunu bir gün mənə söhbət elədi. Dedi, ə, Qüdrət, mənim başıma bir iş gəlibdi. Bizim evdə bir dənə pişiyimiz varıydı. Bu pişik axşam olanda, şər qarışan vaxtı yox olub, çıxıb gedirdi. Səhər işıxlanar-işıxlanmaz gəlirdi çox ağır vəziyyətdə, yornux. Elə bil pişiknən, vəşi heyvannan boğuşub gəlib. Gözləri də qıpqırmızı qızarırdı pişiyin. Ha bir gün, ha iki gün belə, axırı u pişiyin yiyəsinin danışmasına görə, pişik çıxıb gedəndə pişiyin arxasınca gedər. Gedər çöllü-biyabanda görər ki, toy səsi gəlir. Pişik qabaxda gedir, amma pişiyin xəbəri yoxdu yiyəsinin arxadan gəlməyindən. Qüdrət kişi belə söylədi. And içir, həqqi olmuş işdi. Pişik gedər, toya yaxınnaşanda bunu qarşılayırlar toydakılar: «Ə, Abdulkərim, xoş gəldin, səfa gəldin». Bu pişik oldu yaraşıxlı, viddifasonnu, orta yaşdı bir adam. Başdadılar toyda çalıb oynamağa. Bu pişiyin yiyəsi bunu görər, bir az da eymənər. Qayıdar gələr evə. Öyə gələndə gəlib arvada da bir söz diməz. Səhər işıxlanar-işıxlanmaz pişik gələr. Pişik gələr girər evə. Görər pişik yenə yornux vəziyyətdə gəlibdi. Bu kişi arvada deyər ki, ay arvad, qapını ört. Pəncərəni də örtdülər, qapını da. Yay vaxtı olardı. Qayıdar bu pişiyə deyər ki, ə,

Abdulkərim, xoş gəlmisən. Belə deyəndə – Qüdrət kişi and içir ki, o kişi məə belə söhbət elədi, – bu pişik nətəər tullandısa mənim üstüməbaşıma, gözümü cırmaxladı. Yaxşı oldu ki, gözümə-zadıma cırnağı dəymədi. Özünü vurdu qravatın üstünə, u yastığa, u mitilin üstünə. Burdan axırı özünü pəncərəyə nətəər çaxarsa, pəncərənin şüşəsi qırıldı, pişik getdi. O gedən pişik hələ də gedir, gənə də gedir. Da ikinci bir qayıtmadı. Hə, o kişi də belə danışırdı.

**XIV mətn**

Görübdü ki, toy var. Cin yığıncağına düşüb da. Bunu çala-çala, oynada-oynada Türyançayın yanındakı böyük çinar ağacımı, gər ağacımı olub, – mən uşax olmuşam o vaxtı, qayınanam danışıb, – bunu aparıb burda okqədər oynadırlar ki, kişinin ürəyi gedir, özləri çıxıb gedirlər. Kişi ayılıb, bu qorxazar olub. Nəsə, mal güdənmi, qoyun güdənmi, xəbər göndərib ki, bəs Əbülfət çayın qırağında bu vəziyyətdədi. Gəlib aparıblar. Bunu hər yerə aparıblar, deyilənə görə, buna əlac olmuyub. Kimsə deyib: «Bir gün axşamatan bu yorulanacan çalsın, oynasın. Onnan o sağalajax». Heylə də eliyiblər. Gətirirlər u yazıxdan ötrü okqədər çaldırıblar, u oynuyub, oynuyub, oynuyub, ürəyi gedib yıxılıb. İndi rəvayətdi da. Amma rəhmətdik qayınanam danışırdı.

**XV mətn**

..... əyinə dəyməmiş paltarı. Əyinə dəymiş paltarı geyməz u. Geyinir u paltarı gedir başqasını qorxuzmax üçün, başqasını çağırmax üçün. Kəl güdürmüş. Burda cin yığnağına düşər, çalğıya düşər. Okqədər bunu oynadarlar, eliyərlər, bu dəli olar. Gəldi dəli oldu. Camaat dedi ki, gəlin buna üş gün-üş gejə çalğı çalağın, görək ağıllanarmı. Mən gözümnən gördüyümü deyirəm. Getdilər aşıx gətdilər – çalğıçı. Üş gün-üş gejə bu Abuzər kişinin evində çaldılar, bu Əlöysəti oynatdılar. Nə yatmadı, nə yorulmadı. Unnan sonra Əlöysət ağıllandı.

**XVI mətn**

Gejəyə qalar, qəbirstannıxdan yolu düşər. And içir. Bax anam (qayınanasına ana deyir – top.) gələndə xəbər al. Yol ordandı ha, başqa yerdən yol yoxdu. Girib qəbirstannıxda otuzdurublar. Görüb toydu. Dambadab çalırlar, oynayırlar. Bunu otuzdurublar qəşəng yerdə, at poxunnan da, deyir, dolma qoyurlar. Hə. Dolmanı qoyublar, nağarıblar. – «Yi, yi, bildiyi dimə. Yi, yi, bildiyi dimə». Bildiyi də

bismillahdı. Bu da əlini uzadıb yeyim deyəndə, deyib: «Pissimillah». Pissimillah deyən kimi baxıb görüb bir qəbrin üstündə oturub, heş nə yoxdu, qabağında da at poxu.

## XVII mətn

Cin ağ ata hərisdi. Dümağ olur. Həmişə qarağan kolunun dibində olur. Özünü görmüşəm. Düm ağ olur, kəfənə oxşuyan kimi. Bir dəfə gündüz görmüşəm, bir dəfə də gejə.

## XVIII mətn

Mənim babam səhər durub görürdü ki, bunun atının yalını hörüblər. Bu gözləyib. Ayə, bu nə deyən sözdü? Axır ki, çox əlləşib nə bunu tapa bilib, nə tuta biliblər. Amma səhər dururmuş atı yəhərləməyə, görürmüş at suyun içindədi. Atı nə qədər minibsə bu cin, guya bu at tərin-suyun içindədi. Bu da pusub-pusub tutammıyıb. Axır gedib səən kimi adama məsləhət eliyib. Deyib ki, atın belinə qır yapışdır, gör nə görürsən. Gəlir bu da guya babamın özü danışıb bunu, mən genə guya sanıram. Gətirib palazın üstünə qırı yaxıb, salıb atın üstünə. Səhər durub, gedib görüb babam, deyir, pars demirik biz, gəlib görüb oturub atın üstündə. Bu gəlinciyi götürüb babam, deyir, vurdum, öldürdüm. Öldürəndən sonra bu nə tərləmədi, nə yalı hörülmədi, nə də cin onu minmədi. Demək, gəlincik imiş, camaatın gözünə cin görünürmüş.

## XIX mətn

Bizim bu Hidayət dayı var ey, rəhmətdik, bax u hər axşam öydə yatırmış. Gejənin bir öyündə çıxır gedirmiş. Aş, yemək, işmək, filan şey. Pismillah eləmə yoxdu, eləməsə, ordadı. Unnan evlənibmiş ha. Gəlib öydə arvada deyib ki, su qoy da yuyunum, pis olmuşam. Deyib: «A kişi, sən belə hara gedirsən?» Deyir: «Niynirsən məni, sən öz işinnən məşğul ol». Hər axşam, hər axşam. Bir gün arvad bunun dalıynan gedibdi ki, görüm bu kişi hara gedir da. Cinni qovu var imiş. Cinni qovuda görüb ki, pah, yimək, işmək. Arvadın da gözünə görünüb da bu. Birdən arvad deyib ki, pismillah, bu nə işdi, ə? Hamısı dağılıblar, görüblər at poxu, it poxu, zirt-zibil hamısı orda. Kişini də götürüb gəlib. Deyib: «Demək, sən belə eliyirsənmiş?» Deyib: «Hə, mən u cinin biriynən evlənmişdim».

## XX mətn

Qəsil kəndində bir şəxs var idi, adı yadımdan çıxıb. Bir gün, deyir, Aşağı Qəsildən gəlirdim deyir. Qarağan Sədidə Emin kişi var idi, u kişi danışırdı, mən də uların yanında idim. Qojaların söhbətinə yaxınnaşammıram. Tükanda söhbət eliyir ki, bir gün Aşağı Qəsildən gəlirdim çay qırağı qəbirstannığın yanınnan. Gejəyə düşmüşəm. Gəlirdim, bir vaxtı qəbirstannığın yanınnan keçəndə gördüm bir keçi məliyir. Baxdım, deyir, ə, burda keçi nağarır gejənin bu vaxtında. Atı saxladım, deyir, gördüm məliyə-məliyə atın qənşərinə gəldi. Baxdım gördüm keçidi. Əlimi uzatdım atın belindən, deyir, bunun buynuzunnan tutdum, qalxızdım qoydum atın qujağına. Qujağına qoyannan sonra at yeriyə bilmədi. İh-ih, elə biləsən bu atın boynuna iyirmi ton yük qoymusan. At yeriyə bilmədi. Əstəfirlah, ə, bu at niyə yeriyə bilmədi? Sonra birdən qəlbimə gəldi ki, ə, görüm bu keçi erkəkdi, dişidi. Bunun, deyir, paçasının arasına əlimi salanda bu keçi dedi ki, erkəyəm, dişini niyirsən? Deyən kimi bunu daldan qalxızıb saldım yerə. Salan kimi at altımdan çıxdı, elə getdim, deyir, elə getdim, deyir. Emin, deyir, ürəyim partdamışdı, deyir. O vaxtı heylə şeylər olubdu.

## XXI mətn

Meçidimiz çayın qırağında idi. Ordan söküb müharibə döyründə gətdilər anbar adına tikdilər, amma meçidimiz idi. Orda onu tikəndə qarolçular olur, o adamlar indi yoxdu, dünyasını dəyişib, həm də bir tükandar var idi, rəhmətdik Əhliman kişi, o da ölübdü. Əhliman kişi dediyim gələ burda otura. Çöl tərəfində yantay tikiblər. Həm tükanı qoruyurlar, həm anbarı qoruyurlar. Bir vaxtı gejə burda başlayırlar çalğı çalıb oynamağa. Bu kişini durğuzarlar ki, Baxtıyarın toyudu, oyna. Bu kişi burda o qədər oynuyur, o qədər oynuyur ki, daha bu burda həkdən düşür. Bir vaxtı, deyir, oturur pismillah eliyir, görür ki, ə, heş kəs yoxdu, mal poxunun üstündə oturubdu, üst-başı mal poxudu. Burda oynuyur bu. Ordan bu adam çıxdı. Getdi qalxoz sədrinə dedi ki, mən qarolçu deyiləm. Mən ordan qutardım.

## XXII mətn

Cinnər sonra artıblar. Həddən artıx artıblar. O vaxtı Süleyman peyğəmbər Allahdan təmənna eliyib, olar yeddinci göydədi. Qalxıblar yeddinci göyə. İndi yerdə, Allah qismət eləməsin heş kimə, kor-çolax qalıb deyir.

## XXIII mətn

Deyir ki, subutka aparırdım, deyir. Demək, saat on birdə, on ikidə, kalxozun, kim nə pambıx yığıbdı, kim süd veribdi, ət veribdi, nə eliyibdi, buların hamısını kağıza yazır. Deyir ki, bunu bir adam aparıb sovetə verib gəlsin. U vaxtı keşmişdə heylə idi. Bu kişi bir az cəsarətli adam idi. Atı minər, deyər ki, mən aparıram. Aparar subutkanı verər, qayıdıb gələr. Qayıdıb gələndə Ağ gölün körpüsü deyirik. İndi qanaldı, böyük körpü də yoxdu. Ağ gölün körpüsündən belə keçəndə görür ki, bir keçi məliyir, çəpiş məliyir. Deyib: «Ə, bu çəpiş hardadı?» Ha o tərəfə baxıb, ha bu tərəfə baxıb. Atı saxlıyıbdı. Atı da bir az kərəldibdi qulağını. Deyib: «Ə, qoy baxım buna, görüm. Səni, qoyun gedibdi, qoyun gedəndə çəpiş qalıbdı burda». Bu boytta bir bala, keçi balası. Deyib: «Nə yaxşı oldu ə? Elə bu axşam bura gəlməyimin xeyri bu oldu». Balanı götürüb qoyub atın üstünə. Yəhərin qabax tərəfinə qoyubdu, gəlibdi. Bu onu qoyanda bu boytta şey imiş. Sonra bir az bəri gəlmiş görüb ki, ə, bu oldu bu qədər. Demək, yarsı atın bu üzündən sallanır, yarsı bu üzündən sallanır. Əstafirlax, bu keçi böyüdü görəsən? Yəqin uzanıbdı. Bir az da gəlibdi. Xeylax gəlibdi, görüb ki, bu atın yarısına çatdı. Deyib: «Əstafirlax, görəsən mənim başıma hava gəlibdi? Bu niyə belə?» Bir az da gəlibdi. Aşağı Korarxın yanına gəlibdi. Orda bir çinar var. Çinarın yanına çatmış görüb ki, bunun bu tərəfi bu yannan, bu tərəfi də bu yannan yerə çatmağa bircə belə qalıb. U tərəf ayannan uzanıbdı belə, bu tərəf bayannan uzanıbdı. Bu boytta şey götmüşdü ora. Bu uzanıb belə. Bu özü unnan qorxub. Bu tərəfindən götürüb tulluyubdu yerə. Yerə tulluyubdu. Deyib: «Hə, ikicə dəyqə də sən məni tullamaseydin, səni atdı-zaddı yorjeydim yerə». Demək, dırnax yerə çatanda onu atdı-zaddı yorjeydi yerə.

## XXIV mətn

Cinə baxan, cin işinə baxan u idi. Mən onun yanına çox getmişdim, u arvadın yanına. Bajım xəstələnibdi getmişəm, uşax xəstələnibdi getmişəm. Heylə, obşim, getmişəm onun yanına. Dua-mua zad yazırdı, çıxıb gəlirdim. Bu söhbət eliyirdi ki, mən gedən vaxtı başqa biri gəlib otmuşdu orda, una söhbət eliyirdi ki, mən deyir gejə saat üşdə, dörddə, ikidə gəlib məni aparırlar. Cinnər aparır məni. Biz gedirik deyir. Bakıya gedirik, Şəkiyə gedirik, Gəncəyə gedirik. U gejə ha. Bu formada, deyir, fırlanırıx. Olardan, deyir, otuz dokkuzu xaşpərəstdi, hamma mən müsəlmanam. Olar həmişə məə köməklik

eliyir, məni eşidirlər. Nəysə, bir vaxtı kişi oyanar, görər ki, yoxam, yerimin içində yatmamışam. Kişi, deyir, ha gözləyər, görər mən gəlməmişəm. Ha gözləyər, görər mən gəlməmişəm. Bir də sabaha yaxın, deyir, sabah işıxlanan vaxtında gəlib yatıram yerimdə. Buraxırlar məni, gəlib yatırdım yerimdə. Başdıyır kişi, deyir, məni döyməyə. Deyir: «Köpəyin qızı, hara getmişdin, harda idin sən? Mən axşamnan səni pusuram ki, görüm bu hardadı. Harda idin? Bax, di görüm harda idin?» – «A kişi mən öz başıma döyüləm, məni aparırlar». Belə-filan, kişi inammır. İnammır ki, inammır. Nəsə, deyir, gənə gəldilər. Apardılar. Məni aparanda dedim: «Vallah, belə-belə. Kişi məni basıb döyüb, əzim-əzim eliyibdi. Mən getmirəm, filan». İnanırsanmı, deyir, arvad özü söhbət eliyir ha. İnanırsanmı, deyir, kişiyə bir toy tutdular u cinnər, bir toy tutdular, kişi yumax boytda oldu. Bu baş, deyir, gəldi qılçaan altınnan keşdi bayankı üzdə əlini qoyudu bu formada. Heylə oldu deyir. Nətəər olsa, deyir, yoldaşımdı, mən götürmərəm onun əziyyətini. U birsi axşam gələndə mən getdim bulara dedim. Dedim u mənim yoldaşımdı, uşaxlarım var, siz ona u əziyyəti verdiniz. Olmaz axı belə şey. Nəysə, deyir, onu mənə bağışdadılar. Onu məə bağışdadılar ki, səə bağışdayırıx, bir də belə iş görməsin. Hə, unu buraxdılar, deyir. Buraxdılar, deyir, oldu bayaxkı kişi. Bayaxkı adam oldu, deyir. Unnan sonra mənə dedi: «Ay arvad, mən səyf eləmişəm. Səə bir söz demərəm». Unnan sonra getdim, deyir. Bax, toya gedirik, tamaşaya gedirik, kefə gedirik, ora-bura çapırıx atımızı. Nəysə, bu xəstələnən vaxtı – bizim arvad, demək, keçən ilin fevralında xəstələndi. Mən getdim onun yanına. Dedim belə-belə, buna baxginən. Nəsə yazdı götdü. Dedi ki, tasa baxıram mən. Xasnan çərşənbənin arasında, bir də şənbə günü tasa baxıram mən. Baxıb deyərəm sənə. Nəysə, çıxdım gəldim. Dedi sabah yox, birisi gün gələrsən. Getdim gördüm bu boytda dua yazıbdı. Arvad da yönünü çöyrüb barı tərəfə, bir şey yemir, işmir. Hıkkıldıya-hıkkıldıya, zıkkıldıya-zıkkıldya qalıbdı. Nəsə, duanı gətdim üstünə tikən kimi arvad qalxdı. Qalxdı gəldi otdu stulun üstündə. Yidi də, işdi də, gəzdi də. Hərləndi hər yeri gəzdi gəldi.

**XXV mətn**

Deyirlər ki, bir cin var, pişik şəklindədi. Olar isməzcan duasını bilir. Gözə görünmür. Çörək yiyəndə pismillah eləməsən, çay içəndə pismillah eləməsən yarısını o içir. Sən bilmirsən onu. Adam

kimi gəzir, geyinir. Gərək paltarıı çıxaranda üstünə iynə taxasan, sancax taxasan. Aparır o cinnər, hal arvadı, onu geyməyə. Olar isməzcan bilir, oxuyan kimi paltar öz-özünə uçub gedir.

## KAFTAR

Bizim bu Qolqəti kəndi var ey, orda Məlik kişi vardı, u söylüyəndə eşitmişəm. Bir dəfə elə belə getdik axşam olarda qaldıx, başdadı bizə nağıl söyləməyə. Dedi mən nağıl söyləmirəm, olmuş işi söylüyürəm sizə. Mənim dedi bir dənə atım vardı. Aparıb, deyir, qoruğa buraxırdım. Sabah-ertə gedib görürdüm ki, at qan-tərin içindədi. Bunu bir-iki ağsakkaldan xəbər aldım. Dedi: «Ə, səən atı gejə minirlər». Dedim: «Ə, kim minər?» Dedi: «Nəsə səən atı minir gejə». Yolum, deyir, Məkkəyə düşdü. Hardansa belə qır tapdım, gətdim. Qırı, deyir, gətirib, qazana töküb, əridib atın belinə sürtdüm. Atı buraxdım gənə heylə. Səhər, deyir, gördüm ki, at gəlir, üstündə də bu. Yapışıbdı da, düşə bilmir. Gördüm, deyir, kaftar. Dedim, deyir, aaz, iynəni bəri gətir. İynəni gətirir, bu atın üstündə bunun yaxasına saşdım, deyir. Aşırıb saldım yerə. Yerə salannan sonra, deyir, bunu.... Dedi: «Səən nə deyirsən mən eliyim, olsun ki, məni öldürmə, məni burax, çıxım gedim». Dedim: «Bilirsən, sənə heş nə eləmijəm. U bağda tıraçax var ha. U tıraçaxı bu gün daşıyıb bura yığırsan, axşam çıxıb gedirsən». Gətirib xərək yığır ora. Xərək yığır, bu çıxır gedir. Deyib: «Sən allah, iynəni də çıxartginən». Deməк, onun yaxasına iynəni sancanda u ancax iynədən qorxur. Nəsə, bu buraxır, çıxır gedir. Çıxıb gedən kimi danayı gejə gəlib nə qədər tıraçax varsa, aparıb yerinə tökür, çıxır gedir. Deyir: «Səə nəhlət olsun, tıraçaxı yenə aparıb tökdü ora».

## TƏPƏGÖZ

### I mətn

Türmədən gəlmişəm, iki yoldaş idik. Gəldik gördük ki, dağın arasında bir dənə yekə, nəhəng bir kişi gəlir. Gəlhagəldə görürük nə? Bir divdi, dalında bir şələ odun, qabağında bir sürü qoyun, gəlir. Gəlib, deyir, çatdıx, salam verdik, salamımızı aldı. Dedik: «Bizi qonax saxlarsan?» Dedi: «Niyə saxlamıram, gedək». Onnan gəldik deyir. Gəldik çıxdıx, deyir, mağaraya. Daşı aşdı, qoyunnarı saldı, bizi də saldı qoyunnarın içinə. Gözümün qabağında ağzına daş qoydu, deyir, girdi içəri. Başdadı, deyir, bizi yoxlamağa, hansı kökdü, hansı arıxdı. Bu

kökü, deyir, taxdı şişə, gətdiyi şələdən tonqal qaladı. Oda tutdu dəmiri, şahqaşah insanı, deyir, bişirdi. Belə sirkələdi, ödüm, deyir, ağzıma gəldi. Yoldaşımın birini yidi. – «Sən arıxsan, bir-iki gün kökəl, yiyəjəm». Kişi danışanda uşax idim ey onda mən. Ətim ürpəndi ki, yanı belə şey olar. Hər nəsə. Bunu yidi, deyir, getdi. Ay Allah, mən nağarım? Şişi qoydum, deyir, közə. U şiş elə oldu qıpqırmızı. Bunun gözü də bir dənə kəllədə imiş. Bu şişi qoydu közə qıpqırmızı qızardı. Onnan sonra gördüm, deyir, bu yiyib yatıb xorhaxor. Özündə döylü. Qoyunun birini kəstim, cildini, deyir, geydim əynimə. Onnan sonra başdadım bu şişi soxdum bunun gözünə. Nərə çəkib qalxdı: «Səni çiy-çiy yiyəjəm. Sən öldürdün məni», – deyib belə qalxır ayağa. Mən də girdim qoyunnarın içinə. Belə-belə gəzdim, deyir. Bu gəldi, gözü görmür, belə-belə vurur. Bu hara vurursa, mən qaçıram belə. Bu görmür, mən görürəm bunu. Qoyunnarı yoxladı, tapmadı. Daşa güj elədi, qaldırammır axı bu, hara qaldırır. Paçasını belə qoyub mağaraan ağzına. Dört qoyun çıxdı, beşinci mən çıxdım, deyir. Rəhmətdik Nurəddinin dədəsi idi. O söylüyürdü. Yoldaşımın birini, deyir, itirdim heylə. Gözümün qabağında heylə yedi, deyir. Nəysə, beşinci qoyun mən çıxdım. Dərimi çıxartdım, deyir. Bu saymaxda olsun, mən qaşdım. Qaş ki, qaçasan. Gəldim bir kətdə gejələdim, deyir. Heylə-heylə gəlib çıxıbdı evinə. Evindən də olara gəlmişdi. Heylə söylüyürdü rəhmətdik. Mən də o vaxtı balaca uşağıydım.

**II mətn**

Kəlləgöz, o da insan şəklində insandı. Təpədə gözü var. U gəlibmiş, biz tərəfdə zağalarda qoyun saxlayırlar, gün olan vaxtı güneydə otduyurmuş, sonra gətirib zağaya salırdı. Orda o Kəlləgöz gəlib u qoyunnarı qırırmış, aparırmış, nağayrırmış. Axırı bir gün bir qoçax çoban olar. Bu qoçax çoban şişi qızdırar, okqədər güdər ki, Kəlləgöz qoyunnardan qırıb, bişirib yeyəndən sonra yatar. Şişi qızdırannan sonra gətirər şişi soxar. Şişin bir ucu da girər torpağa. Unu öldürər. Bax belə bir şey eşitmişəm. Unu danışırdılar ki, unnan sonra u qoyunnar, u çobannar Kəlləgözün qırğınınnan xilas olub.

## ZÜMRÜD QUŞU

Allahın dərgahında bir quş var, Zümrüd quşu. Bunun yeddi min qanadı var. Bütün qanaddar daş-qaşdı, zər-zibadı, qızıldı. Deyir, birdən görür Zümrüd quşu qanadını çırpır göyə yayılıb səsi. Deyir: «Ya Zümrüd, sənə nolubdu?» Deyir: «Ya rəsulallah, mən qanadımı ona görə vururam ki, o qanadımı vuranda bütün məlayikələr səjdəyə du-

rur. Deyir, qanadımı ona görə vururam ki, Məhəmmədin ümmətləri səə ibadət eliyirlər». Deyir: «Nə deyir?» Deyir: «Şəhadət gətirirlər Allaha. Allah birdi, təkdi, şəriki yoxdu. Məhəmməd peyğəmbər onun quludu, rəsuludu».

Bunun hamısı Quranda təfsir olunur, izah olunur.

## NAXIŞ

Bir dəfəm də, deyir, bir kişinin naxışı çox yatırmış. İki yoldaşdılar, deyir, çəltik bağlıyıbdılar yan-yana. Gedir görür ki, yoldaşının suyu gurhagurdu, çəltik ləklərinə axır, bunun ləklərinə axmır. Deyir: «Ay Allah, görəsən bu nədəndi?» Gejənin bir aləmində gedir görür ki, bunun çəltik ləklərinə gedən suyu hündür bir cannı kişi kəsir. Deyir: «Sən nağarırsan?» Deyir: «Mən u kişinin baxtıyam. Onun ləklərinə su açıram ki, onun çəltiyi bol olsun». Deyir: «Bəs mənim baxtım hanı?» Deyir: «Udey, bax, orda kölgədə sənin baxtın yatıbdı». Gəlir görür ki, arxası üstə yatıbdı. Deyir: «Burda niyə yatmısan? Onun baxtı səhərdən orda partdıyır». Deyir: «Səsii çıxartma. Çöyrülərəm arxası üstə çörək tapmazsan». Bax belə şeylər az-çox olub.

## ƏCİQ-MƏCİQLƏR
### I mətn

Rəvayətə görə, uşax vaxtı eşitdiyimi deyirəm, deyir, Qaf dağı var. Onun dalında əciq-məciqlər tayfası var. Elə millətdi, deyir, gündüzlər axşamatan gəlirlər, dağa diriyirlər ağızlarını, dağın torpağını yiyirlər, deyir. Bircə belə nazikliyində qalanda çıxıb gedirlər. Səhər, deyir, qayıdıb gəlib görürlər dağ gənə birləşib, olub bayaxkı kimi. Bir də, deyir, axır-zaman vaxtdarı olar, deyir, bircə nəfəri deyəcək ki, Allah qoysa, sabannarı gəlib bu dağı keçəjəyik oyza. Səhər gəlib görürlər birjə belə qalıb, onda deşib keçəjəklər oyza. Axır-zaman vaxtı olajaq, deyir, o şeylər. Olar da, deyir, elə bir tayfadı ki, demək, deyir, dünya düppədüz düzlənəjək axır-zamanda. Gəlib şahtikan ağacını görəndə, deyir... Dünyaya heylə bir millət peyda olajax. Qabaxlarına nə keçsə yiyəjəklər, deyir. Dənizin suyunu qutarajaxlar içib. Balaca da olsa, yanı heylə bir məxlux

olajax. Əciq-məciqlər deyirlər ona. Bu şahtikan ağajına diijəklər ki, payho, nə yekə ağajdı deyib tüfənglərini asajaxlar.

Rəhmətdik Sırac dayıdan eşitmişəm.

### II mətn

U vaxt ki, ular gələjək, buralara çıxajaq qiyamətə yaxın. Buların bir oğlu olajax – divlərin. Adını qoyajaxlar Allahqoysa. Deməк, bular hər gün tökülürlər bu dağı yarırlar, yarırlar, gejə olur, kələkləri kəsilir, qayıdıb gedirlər. Gəlib görürlər dağ gənə bitişib. Bir gün buların oğlu olur, adını qoyurlar Allahqoysa. Oların da uşaxları deyilənə görə tez böyüyür. Səhərsi gün uşağı da götürüb gəlirlər neçə gündənsə sonra başdıyıblar dağı yarmağa. Uşax deyib ki, yarıb sonra gedəyin. Kimsə deyir: «Allahqoysa, səhər gəlib yararıx». Gəlib görürlər ki, dağ nətəər qoyub gedirlər heylədi. Yarıb tökürlər, keçirlər bizim dünyaya. Əvvəlcə bütün suları içirlər. Onnar ömrü uzunu susuz qalıblar. Onnan sonra da gəlirlər da, nə bilim, nağayrırlar, neynirlər.

## QURD HAQQINDA

### I mətn

Qurd çox qüvvətdi heyvandı. Amma hal-hazırda qurd öz qüvvəsini bilmir. Qiyamət günü küləknən qopajax. Bütün cannı qopajax, qurd qalajaxdı. Dərisi boğazınnan qopajax, qızıl ət olajax, caynağı onun yerdən qopmuyajax. Onda qurt qüvvəsini biləjək. Əgər qurt indi qüvvəsini bilsə, qurt bilirsən neylər? Qıra, heş bir cannı qoymaz qalmağa. Qurd elə bir hissiyatdı heyvandı. Məsələn, gəlib düşür malın ləpirinə, bilir ki, bu mal dünən gedib, ya sırağagün.

### II mətn

Qurd deyir ki, qulaxlarım olmasa mal təzəyinin arxasında gizlənərəm. Okqədər unda sinmə var. Özü də o heyvanın birinci hulqumunnan tutur. Əgər hulqumunnan güjü çatmırsa, hərlənir daldan yelindən dartır. U, deyir, dartdığını bilir, udduğunu bilmir. Bəlkə də üş kilo əti birdən udur. O zalım heyvandı. Allah uzax eləsin.

## *PEYĞƏMBƏRLƏR VƏ DİNİ ŞƏXSİYYƏTLƏR HAQQINDA*

## MƏHƏMMƏD PEYĞƏMBƏR

## I mətn

Üş peyğəmbər sözləşib həccə gediblər. Süleyman peyğəmbər, Vəli peyğəmbər, bir də Məhəmməd peyğəmbər. Bu üçü gediblər. Bulara yimək olmuyub. Gündə bir dənə bu qurban olduğum qoyun göndərib olara erkək. Kəsiblər yeyiblər. Bunu yığır-yığışdırır sürünü-sümüyünü bir yerə qoyurlar. Sabahısı günü gənə də gedirlər hacca. Qayıdıb gələndə görürlər ki, bir erkək bağlanıb ora. Amma sür-sümük qoymuşdar ora. Bunu da büyün kəsib yeyirlər. Sabah genə gələndə görürlər erkək bağlanıb ora. Bu səfər üçüncünün nööbəsidi. U, nööbəyə çatanda görübdü ki, üç ayağı var. Bunun birini qoymuyub, yadınnan çıxıb. Kimsə yadınnan çıxıb qoymuyubdu. Üç ayağın üstündə durubdu. Deyib: «Sən niyə belə qələt eləmisən? – Qurban olduğuma ayan olub axı bu. – Üç ayax yaratmamışam bunu. Heyvanı dörd ayax yaratmışam. Bunu niyə üç ayax eləmisən?» Baxıb görür ki, orada qalıb ayağın biri. Da bu hara çatır. Qurban olduğum Süleyman peyğəmbər deyib: «Sən düz hərəkət eləməmisən. Mən deyəmmiyəjəm birini əskik eliyib. Özünə ayan oldu u. Sən bunu əskik qoymusan».

## II mətn

Xristiannar din düşmanı olub. İstəyirlərmiş ki, bunu öldürsünnər. Bu da hara gedirmişsə, istəyirmiş ki, müsurmannığa döndərsin buları. Müsurman olsun bu xaşpərəstər. Bular da dönmək əvəzinə istəyirmişdər ki, bunu öldürsünnər. Bu da qaçırmış. Qaçıb gedəndə tulluyublar odun içinə. Görüblər ki, odun içindən bu havaya qalxdı. Deyiblər ki, əşi, belə şey olar? Yaqın bunu nəsə qaldırıbdı göyə. Bu səfərləri gənə də qaçıbdı. Giribdi dağda arçan ağajının koğuşuna qurban olduğum peyğəmbər. Ora giribdi, deyir, orda gizlənibdi. Gəlibdi, deyir, bütöy ağajın hərləməsinə hərləniblər. Axı bura gəldi bu. Ağajın dibinə kimi qazıblar, görüblər ki, yoxdu. Görüblər ki, bir dənə hörümçək tor çəkibdi, demək, koğuşun qabağına öy kimi. Heş hara görünmür. Deyib: «Əşi, bura girsə, burda hörümçək toru nə gəzir». Bu içəri girən kimi hörümçək tor çəkir. Demək, ona görə hörümçəyi öldürmək günahdı. O, kömək edib də qurban olduğum peyğəmbərə. Tor çəkib ki, görməsinnər. Sonra deyib ki, gət bu ağajı mişarlayaq, bu ağajın içindədi peyğəmbər. Ağajı mişarlayanda, deyir, qurban olduğum peyğəmbəri kəsiblər. İndi ona görə də arçan ağajınnan elə qəşəng iy gəlir, həm də içi qıp-qırmızıdı. Deyirlər

onun qanıdı. Qurban olduğum peyğəmbərin qanınnan iy gəlir heylə. O ağaj nəkqədər yerin altında qalsa da, çürümür.

### III mətn

Qırx dənə gavur gəlibdi. Buna deyib ki, sənin Məhəmməd olmağıı onnan sübut edəjəyik ki, aparajayıx səni köhnə qəbirstannığa. O köhnə qəbirstannıxda 700 il bunnan əvvəl ölən Məhəmməd addı adamı tanıyarsansa, onda sənin Məhəmmədliyin sübuta yetər. Yoxsa sənin peyğəmbərliyini biz qəbul eləmiyəcəyik. Nəysə, gediblər. Köhnə qəbirin ayağında durub qurban olduğum Məhəmməd peyğəmbər. Gavurlar qılınclarını tutur əllərində ki, bunun boynunu vurmağa. O, buna hay vermiyəjək. Onunçün onu köhnə qəbirstannığa aparıblar. Çağırır, deyir: «Məhəmməd». Hay vermir. Bir də çağırır. – «Məhəmməd, səndən döyüləm. Niyə hay vermirsən?» Deyib: «Bəli, Məhəmməd, gəldim, nolub?» Deyib: «Məə niyə hay vermədin?» Deyib: «Ya Məhəmməd, qurban olum, hay verərdim səə. Birincidə sənin səsii eşitmişdim. Amma burdan bir Məhəmməd də keçib, əlhəm surəsini oxumuşdu. O əlhəm surəsini də bizə bölüşdürübdü. – «Onnan səən paya nə qədər düşdü?» Deyir: «Gördüyün dağın dalı mənim payıma düşdü. Onunçan, deer, hay vermirdim». Gavurlar bunnan sonra məscidə gəlib deyirlər: «Sənin peyğəmbər olduğunu biz bildik».

### IV mətn

Fatmeyi-Zəhra onun qızı olub da. Gəlib deyib: «Ay baba, səni çağıran var». Deyib: «Dinən ki, gəlir». Buna ayandı axı, Azreyildi bunu çağıran. Deyib: «Ana, mənim yerimi sal, üzümü də qibləyə çöyür». Deyib: «Ay bala, niyə heylə eliyirsən ki?» Deyib: «Yox, mən deyən kimi eylə». Yerini salıb, yönünü də qibləyə çöyürüb. Deyib: «Ay baba, yenə gəldi ey». Qız özü eymənibdi. Deyibdi ki, nə deyir? – «Deyir baban öydədi? Mən də dedim ki, yatıbdı, uzanıb». – «Gəlim, gəlmiyim?» U da deyibdi qoy gəlsin. Gəlibdi. Azreyil bunnan danışıb, deyib: «Nə istəyirsən məndən?» – «İndi ki gəlmisən, ömrüm bitibdi, canımı alcaxsan, buna söz yox. Amma vay ümmətim, vay ümmətim. – Bax ümmət deyirlər da bizə. – Amandı, onnarı cəhənnəm odunnan irəd eliyin». İndi, deyir, ay baba, sən də danışırsan, biz də deyirik. Amma elə adam var ki, cəhənnəmi özü satın alıb da bu dünyada. Biz indi nağarax una. Gənə deyib: «Axırzaman cənnətə, gənə cənnətə, gənə cənnətə». Üş dəfə deyir:

«Millətim, millətim, millətim. Amandı, millətimi sonrakı evindən saxla». İndi ona görə söz-sözə gəlir, Allah sonrakı evindən saxlasın da adamı. O da heylə tapşırıx verib Azreyilə.

## V mətn

Bir gün peyğəmbər evdə oturmuşdu, deyir. Gördü ki, qapını takqıldadan var. Qızı Fatma dedi ki, baba, kimdi bu? Dedi: «Qapını aşginən». Dedi: «Baba, kimdi?» Dedi: «Nəhlət boğazına keçmiş şeytandı. Mənim yanıma gəlibdi. Aş qapını, gəlsin». Dedi: «A zalım, niyə gəlmisən?» Dedi: «Mən Allahnan öz düşmançılığımı səə diməyə. Allah məə deyib get peyğəmbərin üzünə düşmançılığıı diginən». Başdadı peyğəmbərin yanına gəldi, dedi ki, sənin nəslindən ruzi-məhşərə kimi düşman olajam. Həmişə oları yoldan çıxardajam, bajardıxca oları cəhənnəmdə yandırajam. Oları bu dini oxumağa, kəlmə-şəhadət gətirməyə qoymuyajam. Can verəndə ona bir içim su verəjəm, Allahı yadınnan çıxardajam. Onçan bizdə can verəndə molla gətirirlər ki, Quran oxu.

## VI mətn

Bizim düyüləri görürsən başı dişdəkdi. Unu qurban olduğum o vaxtı görür millət ajınnan ölür, deyir: «Mən nağarım bu millətə irizqi qayırım». Nəsə, gedir düyü əkir. Düyü düzü-dünyanı götürür. Gavurlar deyir: «Əyə, səni, bir dənə Məhəmməd, Allahın misalı, düzü-dünyanı düyüynən doldurub. Nağarmax lazımdı bunun düyüsünü əlindən alax. Allah-tala əmr eləmişdi qurban olduğuma ki, başın dişdə ək. Başını dırnağıyla belə qopardıb əkir. Bir dənəsini qopardıb əkir, hamısının başı qopubdu. Gavurlar əmr eliyir ki, bunun düyüsü biçilsin, yığılsın, bunu alax əlindən. Biçirlər, yığırlar, döydürürlər. Deyir: «Bilirsən nə var? Belə-belə oxala düyünü, bizim düyü sizin düyüdən döylü». Baxıb görür ki, bunun başında belə dişdək yeri var. – «Sənin düyün pramoydu, mənim düyüm dişdəkdi, sənin düyündən döyül, toxunmayın». Ondan sonra o gavurlar onun irizqisinə dəymir. O da bu millətə irizqi paylayır. Qoy millətim irizqili olsun. Bu çörəyi, o irizqini qurban olduğum peyğəmbər verdi bu millətə – müsürman millətinə. İndi müsürman var?

## VII mətn

Durax gətirdi. Dedi ki, Allahnan sən kəlmələşməyə getcəksən. Durax gəldi. Həzrət Mikayıl bunu durağa aldı. Çıxdı göy alə-

minə. Dördüncü göydə Həzrət Cəbrayıl dayandı. Dedi gəl gedək da mənnən. Dedi: «Burdan bayna məə icazə yoxdu». Dedi: «Yox, gəl». Peyğəmbər gedirdi qabaxda. Allahın şuasınnan gördü ki, bunun rəngi saralır. Dedi: «Qayıt dala, get yerdə dur». Amma peyğəmbər gördü ki, pərdə çəkilib. Allahnan salamlaşdı, orda görüşdü. Dedi ki, mən sənin eşqəə bu dünyanı yartmışam. Amma qövməə get dinən beş vaxd namaz qılsın. Beş vaxd namaz əlli rükət qılcaxlar. Oruş tutcaxlar bir ay, zəkat vercəklər, fitrə vercəklər, unnan sonra bir dəfə də hacca getcəklər. Həzrət Cəbrayıl bunu neçə dəfə qaytarıb ki, qılmıyajaxlar, get azalt. Dörd dəfə gedib, hərəsində on dəfə, on dəfə azaldıb, axırda deyib ki, bir də get. Beş vaxt namaz qılsın. Beş vaxt namaznan ayannan bəri gələndə Düldülnən gəlir. Deyir ki, sabannarı mən meçitdə gedib deyəndə Allahnan kəlmələşməyə getmişdim, camaat məə inanmıjax. Bu gördü gələndə... Yolüstü gəlir bu havada, atnan. Gələndə bu tanıdığı adamlardan topa-topa düşüblər dəvələrdən. Məsələn, Göyçayda, Ağsuda, Şamaxıda belə karvannar gəlir. Bu karvannarın hamısını gördü bu. Bu gəldi öz yerinə girəndə gördu yorğan-döşəyi istidi. Bu adamlar da gəldilər, çatdılar. Səhər namaza gəldilər. Dedi: «Ey camaat, mən beyjə Allahnan kəlmələşməyə getmişdim. Həzrət Cəbrayıl apardı, mən Allahla kəlmələşdim. Allah bizə beş vaxt namaz, bir ay oruc, zəkat vermək, hacca getmək buyurubdu. Əlli rükət idi, azaltmışam, beş rükətdə saxlamışam. Bu bizə fərz buyrulub. Bunu biz qılmalıyıx. Bunu inkar eliyə bilmərik. Orda camaat deyir: «Ya peyğəmbər, havaxt getdin gəldin sən?» Deyir: «Şaadlarım var». Deyir: «Kimdi?» Deyir: «Dursun, Şamaxıda filan ağacın dibində oturub çörək kəsirdin ikiiz bir qabda?» Deyir: «Hə». Deyir: «Bir şaad». Deyir: «Filankəs». Deyir: «Hə». Deyir: «Ağsuda filankəslə dəvəni açıb yükünü qoyurdunmu yerə?» Deyir: «Hə». Deyir: «Bu iki şaad». – «Filankəs, Göyçayda dəvə yüklüyürdünmü gəlməkdən ötrü?» Deyir: «Hə». Deyir: «Bu da üş şaad». Onnan sonra peyğəmbərin ərşə gedib-gəlməyini camaat tasdıxladı.

### VIII mətn

Gedəndə, deyir, gördü ki, bir şəxs «Yasin-Quran» oxuyur. «Yasin-Quran» oxuyanda getdi. Dedilər ki, ya peyğəmbər, «Yasin-Quran» oxuyur. Dedi: «Bu «Yasin-Quran»ın sədası bütün kainata yayılır. Onun içində gedirik biz». Sabah getdi, qabaxda gördü ki, bir

«Əşər» oxunur, yanı yarımçıx sura. «Əşər» oxunanda dayandı. Dedi: «Ya peyğəmbər, burda niyə dayandın?» Dedi: «Bunun dairəsi burdadı. Savabı burdadı. Burda dayanax, savabına nail olax».

**IX mətn**

Məhəmməd peyğəmbərin qızının üstünə günü gəlibmiş. Övladı olmuyub, arvad alıb. Deyib ki, baba, gəlirlər. Görüb dəvədə gəlir. Deyib: «Darıxma». Deyir: «Darıxıram axı, dey, gəlirlər. Dəvədə gəlirlər». Yuxa bişirirmiş gəlin. Deyir: «Baba, darıxıram, gəlirlər». Deyir: «Darıxma, dalıı söykə çinara». İndi çinar, deyir, yeddi dəfə qabıx qoyur. Gör günü nə qədər pis şeydi. Xamır da qutarmır. Deyib: «Mən xamırı nətəər qutarım?» Deyib: «Bala, onda kündədən kəsib xamırın üstünə tullama, onda xamır tez qutarajax». Bu belə eliyib. Bir vaxd görüb xamır qutarıb. Orda bir mahnı deyib ey. Ojağa da süd qoymuşdu. Gələn deyir ki, a gözü kor gəlin, südün daşdı, götür. Deyib ki,

A nəcəəz gəlin,
Bədəni yəhər qaşında
Gözü ojax başında
Düş götür, indi döyran sənindi.

Ona görə indi, deyir, xamırı kəsib üstünə tullamax yoxdu.

**X mətn**

Məhəmməd peyğəmbər yolnan gedirmiş. Ağsakqallarnan cavannar orda söhbət edirlərmiş. Məhəmməd peyğəmbərin qarşısınnan bir cavan oğlan keçir, on dörd yaşında. Deyir ki, bunun nə öləsi vaxtıdı. Bir az da gedir, görür bir qoca kişi gəlir. Deyir ki, bunun nə yaşıyası vaxtıdı. İnsannar da təəccüblənir ki, bu nə deməkdi. Sorunçurlar: «Ya peyğəmbər, niyə belə deyirsiz?» Deyir ki, o, on dörd yaşında cavan oğlanın heç bir günahı yoxdu. Ona görə ölüm arzuluyuram ona ki, o cənnət quşudu. Qocaya da ona görə yaşamax arzuluyuram ki, bir az da yaşasa bəlkə günahlarınnan bir az yuya.

**XI mətn**

Baxəddin əfəndi var idi. Ərəb-Bəsər kəndindən idi. Kəndimizdə hüzür yeri idi, namaz qılmağa getmişdik. Yığılmışdıx bir öyə. Deyir ki, peyğəmbərimiz gördü ki, qızının qulluxçusu evi süpürür. Dedi: «Mal ayağına evdən zibil çıxartmazlar, küncə süpür». Dedi: «Qızım, hansı ayədədi u? Quranın hansı ayəsindədi u zibili öydən çıxartma-

max?» Dedi ki, nənələrdən qalıb. Mal ayağına məhlə süpürməzlər, öy süpürməzlər. Süpürərlərsə, zibili atmazlar bayıra. Dedi: «Hə, atalar sözü, nənələr sözü elə şəriyət deməkdi, Quran deməkdi».

### XII mətn

Qurban olduğum Məhəmməd peyğəmbər gəlibdi bir gejəsi birinin qapısını döyübdü. Deyib ki, məni qonax saxla. Gəlib girib içəri. Baxıb görüb ki, öydə bunun pişiyi də yoxdu. Deyib: «Bəs sənin malın-qaran?» Deyib: «Heş nəyim yoxdu. Elə ikimizik. Ayləni təzə qurmuşux. Heş bir şeyimiz yoxdu». Deyir: «Dur məni ötür, mən gedirəm». Deyir: «Hara gedirsən?» Deyib: «Əyər bura beyjə bəla gələrsə, bu bəla mənə enər. Dur məni ötür, mən gedim. Bəla gələr məni aparar». Durub ordan salamatdaşar kişiynən, çıxar gedər. Bu səfər bu birsi darvazanı döyər. Orda it hürər. İt hürəndə deyir: «Hə, burda qalmax olar». Girər, görər kişinin məhləsində mal da var, qoyun da var. Deyir: «Hə, bura bəla gəlsə, bu bəla bunu aparar, məə dəyməz». Gejə orda axşamlıyır, qalır, səhər çıxır gedir.

## NUH

### I mətn

Nuh bir nayçı adammış. Kim yolunnan azırmış, deyirmiş a bala, belə eliyin, belə eliyin. Vaxd gələndə bu yer üzünü su alajax. Gəmi qayırtdırır. Birini a Vaqif (söyləyicinin oğlu – top.), sən qayır, birini sən qayır. Su gələndə gəmiyə yığışıb getmək yaxşıdı da. Mənim kimi bir şələşür arvad təndir odduyanda, bu Nuh kişi gəlir buların həyətinə çıxıbdı. Deyir: «A Nuh kişi, bəs sən deyirdin gəmi bağladın, sel gələjək, gəmiləri aparajax. Bəs bu gəmilər qaldı burda axı». Töybə, dayan, çaşdım. Bu Nuhun gəmisində arvad-uşax hamısı gedib ayaqyoluna. Allah-tala tərəfindən bir yara gəlibdi o böyüyə, o kiçiyə. Təyin eliyiblər ki, Nuhun gəmisində o zibil onun dərmanıdı. Gedib kim onu sürtmüşsə, o yaralar hamısı sağalırdı. Kişiyə bu arvad sual verəndə haçan çıxajax su. – «Elə bax sənin bu təndirindən» – deyib çomağını vuran kimi su verib fantan. Nuh tullanıb oturur gəminin içində. Qalanını su yuyub aparıb. Bunu söylüyüb rəhmətdik atam ki, a bala, həmişə Allaha inanın, bu olan şeydi.

### II mətn

Nuhun gəmisi gedəndə, deyir, zalımlar, düşmənnər, nəsə, ermənilərmi... Keşmişdə, ayannan bəri, dünya bünövrə olannan ermənі-

lərlə, xaşpərəstlərlə müsurmannarın davası həmişə olubdu. Gəmidə vuruşublar, döyüşüblər. Bir dənə yaralı müsurman, imamlardan hansısa, susunnan yanırmış. Başdıyıb qaranquş, deyir, ağzında su gətirməyə. Görübdü ki, bir dənə... Onunçan da qaranquşla ilan düşməndi. Görübdü ki, qaranquş gətirib yaralıya su verir. Ağzını çalıb ki, tuta, tükü çıxıbdı. İndi görürsənmi qaranquşun quyruğu belə haçadı. Ortadan tükü, deyir, ilan çıxarıbdı. İlan bu səfərləri, deyir, tulux varmış, tuluxda su varmış, o tuluğun suyunu da deşib, deyir, açıbdı. Bu səfərləri qaranquş, deyir, – deməli insannara onunçün sığınıb, həmişə insannara kömək eliyirmiş da, – palçıx alıb ordan, tuluğu bərkidib. Su axmasın, ordan işsinnər. Ona görə də qaranquş insannara sığınıb. Gəlib öydə tikir, pəyədə tikir yuvanı. İlanla qaranquş düşmandı bir-birisiylə.

### III mətn

Allah gördü ki, insannar azışıbdı, rəvayətin dediyinə görə, Quranın dediyinə görə, gözümnən görməmişəm, bir şey eləməmişəm. Danışannarın sözünü danışıram. Özümnən nə qondarmışam, nə də üstünə qoyuram. Məə də deyiblər, yadımda qalanı deyirəm da səə. Allah-tala Nuh peyğəmbərə dedi ki, gəmi düzəltmək lazımdı. Gəmi düzəltdi iki mərtəbə. Alt mərtəbəsinə heyvan aləmi götməlisən, üst mərtəbəsinə insan götməlisən. O adamın adı yadımdan çıxıbdı. Orda bir şəxsə deyir ki, getginən meşədən ağaş gətir, mən gəmi düzəldəjəm. Allah tərəfindən mənə nida gəlib, mən gəmi düzəldəjəm. Bu da dedi ki, mən gedib gətirərəm. Bu da gedir meşədən ağacı qıranda şeytan nəhlətdəmə buna rast olur. Deyir: «Ə, nağarırsan?» Deyir: «Ağac qırıram. Nuh istəyir, gəmi düzəldəjəkdi. Yer üzünü su alajax, insannardan ora götürüb xilas eləməkdən ötrü». Deyir: «Ə, Nuh səni aldadır. Səə yimək vermijək, eləmijək, tulla getsin». Bu açır kəndirdən, tulluyur. Ürəyinə gəlir, qoltuğumda da olsa, bunnan aparım bir az. Bu başdıyır bu ağacdan qoltuğuna yığır, götürür gəlir. Çağırır Nuhu: «A Nuh kişi, bir az ağac gətmişəm, gəl bax». Deyir ki, darvazanın böyrünə tökginən. Bu şəxs dilimin ujundadı ey, adı yadımdan çıxıbdı. Bu şəxs ağajdarı yığdıxca görür ə, bu xərək həmən xərək oldu, meşədə topaladığı xərək. Bu da həmən xərəkdi. Bu ağajdarda dəyişiklik yoxdu axı. Bu qoltuğunda gətdi bunu. Axı bu ağajdar hardan gəldi? Dedi: «Ya rəbbi, bu nə hadisədi?» Nuha dedi ki, a kişi, bu bəsdimi? Dedi: «Sən qırdığın ağajdar hamısı burdadı». Dedi: «Məə bir kişi dedi ki, səə Nuh yimək vermijəkdi, mən də onunçün

bir qoltuğumda gətirdim». Deyir: «Allah tərəfindən məlayikələr də sənə kömək olub, sənin xəbərin olmuyub bu işdən». Bu başdadı, deyir, indi usta axtarır bu işi həll eləməkdən ötrü. Gedir ustanı axtarır, bir şəxsə deyir ki, məə gəmi qayırcan, özü də az müddətə, ay keçir. Qayıranda eşidir, məsəlçün, sən eşidirsən Nuh gəmi qayırır, gəlir bunnan da şərtdəşir ki, qızımı səə verəjəm. Nuhun da bir qızı olur. Mənim gəmimi qayır, zəhmət hakkın budu. Gəmini qayırtdıranda eşitdilər bunu ki, gəmi qayırtdırır Nuh, dünyanı su alajax, yer üzünü. Mən də getdim ki, Nuh, mən də gəmiçiyəm, səə kömək eliyim bu işə, amma şərtimiz var, qızıı məə vercəsən. Allah tərəfindən vəhy gəldi ki, dinən ki, razılığını versin. Dedi: «Verə-rəm». Başdadılar bular gəmini qayırdılar. Üçüncü bir adam eşitdi ki, Nuh belə bir gəmi qayırır, özü də qızını vercək. Bunun qızı o qədər gözəl olubdu, rəvayətin deməyinə görə, görməmişəm, eləməmişəm. Hə. Buna da söz verdi. Gəmini qayırır, hazırlayır, qoşur. Hə, axşam olur. Gəmini qutarır. Bu adam gedəndə bu birinci adam, ikinci, üçüncü, hamısı topadı da burda, dedi: «Nuh, biz gedirik. Səhər gəlib zənənimizin nikahını kəscəsən, vercəsən, aparceyik». Başdıyır bu kirişkələnir. Allah tərəfindən vəhy gəlir ki, üçünə də söz ver. Deyir: «Gəlin səhər adamınızı aparın». Üçünə də söz ver deyəndən sonra başdıyır Həzrət Cəbrayıl gəlir Nuh peyğəmbərin yanına. Deyir: «Nuh, Allah-tala deyir ki, qızı olan otağa qancıx eşşəyi də salsın, qancıx iti də salsın. Uların üçünü də içəri salsın, gejə orda qalsın. Səhər duranda ayağa, adamlar gələndə hərəsinə birinin nikahını kəssin, versin». Deyib: «Baş üstə». Gedib bu forma eliyir. Səhər gəlir, bu adamın yiyələri gəlir. Deyir ki, Nuh, nikahını kəs indi, adamımızı aparıb gedirik oğlumuza. Deyir: «Yaxşı». Açır qapını, görür ki, üş dənə qız var, biri-birindən seçilmir. Bilmir hansı, hansıdı. Başdıyır bunu aparır, nikahını kəsir, hərəsinə birini verir, götürüb gedir. Aparıb gedəndən sonra Nuh peyğəmbər fikirləşir ki, ə, mən nətəər tanıyım, mənim qızım bunun hasıdı, hası döylü. Bu məsələ gəlir Nuhun qəlbinə. Başdıyır Nuh peyğəmbər deyir ki, mən bulara qonax gedim. Qonax gedəndə burda hal-əhval tutajam bulardan ki, ay kürəkən, ay qoum, bu gəlin nətəərdi, nə cürdü, xasiyyəti nətəərdi, bunun səndən nətəər münasibəti var. Hə. Gedir birinin öyünə. Gedəndə deyir ki, mənim qızımnan yarımısanmı, sənin işi görürmü, səə hörmət eliyirmi, sənin qaydaa qalırmı? Deyir: «Yaxşıdı, işdəri də yaxşıdı, hər şeyi yaxşıdı, amma cəh-cəh cəngildeyir. Sənin sağlığın, dediyimizə də peşman olurux, əlimizi-

ayağımızı tutur». Deyir: «Hə». Amma orda bir iş vardı, u yadımnan çıxdı. Gavurların gəlib u gəmini bulamax məsələsi var.

– «Eybi yoxdu dayı, axırda danışarsan».

Deyir: «Hə, bu itdən əmələ gəlmədi». Sonra oradan bir-iki gün keçəndən sonra qayıdıb gəlir öyünə. Təzdən deyir ki, qoy ikincinin yanına gedim. Gedim görüm nətəərdi. Gedir ora. Deyir ki, nağarır, nətəərdi, yemək yeyəndən sonra, nətəhərdi sənin bu gəlnin? Dedi: «Gəlnim yaxşı gəlindi, Allah səndən razı olsun. Amma eşşək kimi şeydi, deyir. Bizdəməsən, deyir, durub bir işin dalınnan getmir». Dedi: «Hə, bu demək eşşəkdən əmələ gələndi». Bu səfər getdi üçüncü qızın yanına. Axşam oldu yemək-zad yidilər. Yoldaşına dedi ki, dur bandayı qarpızı gətirginən. Yoldaşı da həmli olubdu rəvayətin diməyinə görə. Çıxıb u bannan qarpızı gətirir, qoyur sufraan üstünə, pıçağı da gətirir. Deyir: «Yox, bu qarpız döylü, u biri qarpızdı. Çıx u birisini gətir». Rəvayətin diməyinə görə, Quranın diməyinə görə qırx dəfə bu bana çıxır, düşür. Axırda deyir ki, hə. Qırxda deyir ki, hə, elə bu qarpızdı. Hə, gət, elə düz gətmisən. Başdıyır bunu kəsirlər, yiyirlər. Deyir ki, unnan sonra hal-əhval tutur qızınnan, gəlnindən ki, nətəhərdi bunnan sənin həyatın. Deyir: «Qızın yaxşıdı, Allah unnan razı olsun. Bu qarpız, deyir, bir dənə olub banda. Özü də bu boyludu. Nərdiyannan qırx dəfə mən bunu çıxartdım, düşürtdüm, gənə dimədi u zəkqutum orda bir dənədi da, niyə iki dənə deyirsən məə. Bir dənədi da, unu gətmişəm da. Allah səndən razı olsun». Nuh unnan sonra arxeyin oldu ki, diməli, yüz faiz ki, öz qızım budu, filankəsdəyi it nəslidi, filankəsdəyi eşşəkdən əmələ gəlmədi. Bu formada başdadılar bular burda devran sürməyə.

Bu devrannan sonra başdadı yer üzünü su aldı. Bir qarı nənə də olubdu vaxtiylə. Bu qarı nənə deyibdi: «A Nuh, eşitdim yer üzünü su alajaxdı. Məni də göt. U qayırdığın gəmiyə məni də göt, mən burda qalmıyım, nolar. Səə hər gün gətirib bir kasa süd verirəm». Deyir ki, qarı nənə, baş üstə. Nuh elə bir fikir dəyişir, özünü elə unudur ki, bu çatışmanın içində, bu qarı heç yadına düşmür. Qarı yadına düşmür. Yer üzünü başdıyır su almağa. Nuhun bir Sam adında oğlu olub. Oğluna deyibdi: «Ay oğul, yer üzünü su alajaxdı, sən də boğulub öləjəksən». Deyir: «Yox, çıxmıram mən. Mən çıxmıram». Nuha da, deyir ki, Allah-taladan vəhy gəlir ki, Həzrət Cəbrayıldan vəhy gəlir ki, özünə məxsus, özünə tabe olan, mənim dinimi qəbul eliyən adamlardan götürsün gələcək nəsil artmaxdan ötəri. Nuh peyğəmbər başdıyır kətdə, məəçün, görür da, adamlara baxır. Deyir: «Ə, yer

üzünü su alajaxdı, sən müsürmannıx eliyirsən, Allahın şəriyətini, Allahın varlığını sübut eliyirsən, deyirsən, una şək gətirmirsən. Min gəmiyə, qalxax göyə. Su enəndə gənə həyat qurax, nəsil artsın, üzülməsin. Adamlar hamısı qalacax suyun altında». Deyir ki, yaxşı. Deməli, bular gəmidə olan vaxdarı qəlblərindən buların keçir ki, biz yerə düşəndə xaşpərəst donuna girərik, xaşpərəstdərin yolunnan gedərik. Biz bunu aldatmışıx. İntaası düşəndən sonra hərəmiz bir dinə qullux eliyərik. Allah-talaya ayandı bu şeylər. Allah-tala Həzrət Cəbrayılı göndərir ki, get Nuha dinən, Əzrayılı göndərir ki, həştad nəfər olur, get həştadının da canını al. Cəbrayıla da deyib ki, get Nuha dinən uların hamısını tullasın suya. Cəmdəyini da saxlamasın ki, yerə enəndə basdırajam. Olar asıdılar məə, oları buraxsın dənizə. Buları tulluyur dənizə. Nuhun rəvayətinə, diməyinə görə üç oğlu olur. Başdıyır bular yavaş-yavaş yerə enməyə. Quşdardan, heyvannardan bir erkək bir dişi götürür. Gəminin birinci mərtəbəsinə uların hamısını yığmışdı. Amma Quranın diməyinə görə, danışılana görə, biz quzğun deyirik. Bu quzğunun fərəsini tapıbdı, xoruzunu tapmıyıb. Nə qədər axtarıb, döndərib, tapmıyıb. Bir günü sular qalxanda bir quş görübdü səni elə bir qar yağır ki, elə bir qar yağıbdı ki, başdıyır bu quş qar yağdıxca qar çatıbmış qalxır ağacın başına. Ha yavaş-yavaş ağacın başına. Görür ki, ə, ağacın başına, təpəsinə yaxınnaşıb qar, hərləməsinə yaxınnaşıbdı. Nuh əleyhsalam görüb ki, ağacın başında bir heyvanat var. Gəmini veribdi onun yanına. Gedib görübdü ki, bu quzğundu. U quzğunun da üş yüz il yaşıyanı, deyir, yumurtduyur, bala artır, nəsil artır, rəvayətin diməyinə görə, görməmişəm, eləməmişəm. Hə, başdıyır bu quşu götürür ki, a quş, mən səni axtarırdım, sənin fərəni tapmışdım, amma səni tapmırdım. Elə yaxşı oldu sən rast düşdün, gəl bura. Bu quş uçur gəlir, minir gəmiyə. Gəmidə bu qalır.

Nuhun oğlu da buna ası düşür. Deyir: «A kişi, u hündür ağacın təpəsinə çıxajam». Deyir: «A bala, hündür ağacın da başını su alajax». Nuh əleyhsalamın oğlu Sam atasına tabe olmur. Suda boğulur, batır. Öləndə başdıyır bu, ata ürəyidi da, başdıyır bu çağırmağa: «Ay ata, məni də götür da». Bu gəmini saxlıyanda Allah tərəfindən Həzrət Cəbrayıl gəlir ki, u ölməlidi. Səni eşitmədi, səə tabe olmadı, u getdi. U dünyasını dəyişcək. Məə də ası düşdü, səə də. Onnan sonra, qardaş, bu gəmi yavaş-yavaş yer üzünə enir. Yer üzünə enəndən sonra başdıyır bu heyvanatdar yayılırlar. Yayılma gedir, başdıyır nəsil artmağa.

Bu qarı nənə sabannarı durur süd gətməyə. Oyanır, ayılır. Deyir ki, ay aman, gejikmişəm mən. Durur görür ki, qapıda inək durubdu. İnəyi başdıyır sağır, südü götürüb gedir. Deyir ki, Nuh. Deyir: «Hə». Deyir ki, yaxınnaşmıyıbdı ki, u iş. Deyir: «Qarı nənə, nətəər iş?» Deyir: «Da u hak-hesab, sən deyirdin yer üzünü su alajax». – «Qarı nənə, – dedi, – su aldı da, qutardı da. Bunnan bir şey başa düşüb annamadın». Dedi: «Bu sabannarı inəyim gələndə dizdən aşağı palçıx idi». Dedi: «U iş oldu qutardı». Diməli, bizi yaradan Allah u qarı nənəni yuxuya verdi. U qırx gün rəvayətin deməyinə görə, qırx gün Nuh suyun üzündə qalıb, u qırx gün qarı nənə nə ajmıyıb, nə sussamıyıb, nə oyanmıyıb. Orda yuxuya gedib, öz öyündə. Allah onu öz öyündə saxlıyıb inəyinnən barabar. Deməli, gənə unu sağıb südünü gətirib. Deyir: «Qarı nənə, u iş qutardı. Su souşdu getdi. Allah səə şükür, bizdən uzaxlaşdı».

Unnan sonra başlayır yavaş-yavaş nəsil artmağa, qardaş. Nəsil artannan sonra, onnan sonra gəlir Firön adında Allaha ası düşən bir şəxs olur, mənəm Allah deyən. Heylə bir şəxs olur. Musa peyğəmbərnən başdıyır bu höcətdəşməyə. Mən eşitdiyimi, bildiyimi danışıram ha səə. Daa başqaları nə olub, nə olmuyub orasını mən bilmirəm. Mən öz ağlıma, məə deyilən, şüurumda qalanı söhbət eliyirəm. Buna deyir ki, sən bizə tabe ol, Allahın varlığını sübut elə, səndən Allah olmaz. Bu da rəvayətin deməyinə görə, elə bir bina tikdiribdi ki, başdıyıb deyibdi ki, sənin Allahını öldürürəm mən. Başdıyır, deyir, nizə atmağa, ox-yay atmağa. Bunu atır göyə, nizə düşür yerə, heş nə olmur. Allah-tala ordan balığa deyir ki, balıx, u çox zəhmətdər çəkərək nizə atır mənə, Allahı öldürürəm deyib. Onun nizəsinin ucuna özünü ver, qanınnan nizəyə düşsün, o elə bilsin ki, Allahı öldürüb. Musa peyğəmbərə desin ki, mən sizin Allahınızı öldürdüm. Bu dey, bu da onun qanı sübutdu səə. Mən Allaham sizə. Hansı heyvana deyirsə, vermir, quyruğunu vermir. Candı da. Can şirin şeydi. Deyir: «Bəlkə ölərəm». Balığa onunçən də Allah-tala pıçax çəkməyi qadağan eliyib. Onun ətini də bizə halal eliyibdi. Deməli, onunçün biz balığı kəsmirik. Canını Allah özü alır, təslim eliyir. Diməli, yara gördü, pıçax yarası gördüyünə görə, nizə yarası gördüyünə görə, da pıçaxla kəsməyi Allah-tala qadağan elədi. Bu başdadı burda hərəkətdər eləməyə. Firön başdadı adamları öldürməyə. Cərgəni düzdü. İki cərgədi. Biri min, biri min bir. Rəvayətin diməyinə görə, Quranın diməyinə görə, hər gejədə, sutkada min bir uşax dünyaya gəlir, min dənəsi də dünyadan köçür. Demək, artım bir dənədən gedir

dünya üzündə, miqyasında. Başdıyır bu formada iki cərgə düzür. Mini-ni öldürür, boynunu vurdurur, basdırtdırır, bu min biri buraxır ki, gedin azad yaşıyın. Musa peyğəmbər gəlir deyir ki, u milləti qırmaginən, səndən Allah olmaz. Sən belə hərəkətdər eləmə. Deyir: «Sabahları sənin Allahın olmağını mən sübut elijəm. Sabahları çıxarıx u Qara dənizin qırağına. U Qara dənizə deyəjəyik ki, su, dala qayıt. İkimiz də deyəjəyik bir-bir. Əyərlərim sənin sözünnən su qayıtsa dala, mən sənə tabe olajam, amma mənim sözümnən qayıtsa, sən məə tabe olajaxsan. Ehtiraz eləmir. Deyir: «Yaxşı, nə deyirəm». Səhər Firön də qoşununu yığır gətirir, bu da öz qövmünə, hamsına deyir ki, gəlin dənizin qırağına. Allah tərəfindən belə bir vəhy gəlir ki, Firön bizdən əl çəkmir. Sabahları orda, u dənizin qırağında suya biz deyəjəyik ki, su, dala qayıt. Mənim sözümlə qayıtsa, Firön bizə tabe olajax. Onun sözündən qayıtsa, biz una tabe olmalıyıx. Qardaş, bu formu da ular gəlirlər Qara dənizin qırağına. Gələndə bu Musa peyğəmbərə deyir ki, birinci sən deməlisən. Firön də gejə sabaha kimi sakqalından asılır, yuxu yatmır. Deyir: «Allah, sən məni sabahkı gündə orda sındırma, u millətin içində, mənim sözümü eşit». Musa peyğəmbər arxeyin idi peyğəmbərliyinə. Yatıbdı. Daa heç bir şey dimiyib yatıbdı. Namazını qılıb, yıxılıb yatır. Amma bu Firön sabaha kimi, «ya rəbbi, u millətin içində məni sındırma» deyib asılıb sakqalından. Hə. Onun bu asılmağına görə, yalvarmağına görə, saa inanıram, saa etiqad eliyirəm. Allahnan öz arasında deyir ha bunu, camaatın içində dimir. Sən məni sındırma. Bu da başdıyır deyir ki, yaxşı, sındırmaram. Musa peyğəmbərin sözüynən su qayıtmır. Amma Firön deyən kimi su, dala qayıt, qayıdır. Deyir: «Hə, indi mən səni qırajam», – Firön deyir. Mənim deməyimnən görürsən su dala qayıtdı. Allah-tala Həzrət Cəbrayılı göndərir ki, Musa peyğəmbərə dinən ki, iki rükət məə namaz qılsın, Qara dənizdən una on iki dənə yol açajam. On iki dənə yol açandan sonra u yola düşsün keşsin dənizin o qırağına. Firön də onun dalından gedəndə onun qoşununu-zadını u dənizdə batırajam. Undan arxeyin ol, unu xilas elijəm. Başdıyır bular çaparaxda Allaha iki rükət namaz qılır. Burda imamlar, peyğəmbərlər olur onun yanında. Bular da namaz qılır, Allaha dua eliyirlər. Başdıyır Firön buları qırma-ğa. Camaata əmr eliyir ki, gəlin hücuma, bular bizə təslim olmalıdı. Bular təslim olmur, qırajam. U dəyqə yollar açılır on iki dənə, Quranın diməyinə görə, on iki dənə yol açılır, qaya kim su durur. Suynan bular hamısı keçir. Məəçün, ana balanı görmür, bala ananı. Bular züzüknən keçirlər ki, bəlkə su qovuşdu. İçində olur da, şübhə gətirənlər olur ki,

bu sudu, aralanar, birdən qopar, yapışar. Su möhrə kimi durubdu. Hər nəsə, uzun sözün gödəyi, bu keçir sudan uyza. Görür ki, Firön gəlir durur suyun qırağında camaatıynan. Yollara da baxır, suya da baxır, deyir ki, ə, nətəər keçim burdan. Başdıyır ürəyində şəkk gətirməyə. Şəkk gətirəndə Allah-tala Həzrət Cəbrayıla deyir ki, madyan atı min, get Firönün atının yanına, düş suya. Suya girəndən sonra qoşunu da onun dalıynan girməlidi. Qoşunu da girir, bular hamısı, çöldə bulardan bə eliyən qalmır. Hamısı suyun, dənizin içindən keçib gedirlər Musa peyğəmbərin qoşununu, camaatını qırmağa. Orda suya deyib ki, su, qovuş. Su gəlir qovuşur. Bu millət hamısı burda, Firönün milləti qırılır Firön içində olmax şərtiylə. Firönü Allah-tala suyun üzündə qalxızır qoyur çöldə, hamısı qırılır, bu qalır. Deyir: «Firön, məə tabe olginən» – Allah tərəfindən vəhy gəlir. Deyir: «Mən Musaya inanıram. Musa, məni qutar, Musa, məni xilas elə». Musa deyir: «Mənim güjüm çatan yer döylü ora. Ora Allahı çağırginən». Deyir: «Yox, Musa, mən səni çağırıram, sənin praşoğa düşüb bura gəlmişəm mən. Mən bilseydim səndə belə hökm var, səndə yoxdu, Allahda var, mən Allaha tabe olardım. Mən səni çağırıram, məə kömək elə». Deyir: «Mən səə kömək eliyə bilmərəm. Bizi yaradan Allah var, Allah kömək eləsin». Allah-tala Azrayıla deyir ki, get onun canını al. Canını alanda bu suyun üzündə qalır. Başdıyır Musa peyğəmbərin qövmü bunu çəkib aparır basdırmağa. Bunu basdırırlar yerə, səhər gəlib görürlər ki, çıxıb durub çöldə, meyidi çöldədi. Başlayırlar deyirlər ki, bəlkə içimizdə bunun düşmanı-zadı var, u düşman çıxardıb. Başlayır bunu betonlayır yanını da, üstünə də, beton tökür ki, bunu heş kəs, məəçün, qazıb çıxardam-masın, yarammasın. Bunu bu forma basdırırlar, betonlayırlar. Sabahları gəlib görürlər ki, betonu oxam-oxam olub, bu gənə çöldədi. Allah-taladan vəhy gəlir ki, Allah-tala deyir, get Musa peyğəmbərə dinən ki, unu axır zamana kimi heylə saxlıyajam, Firön kimi. U anadan olandan heylə nətəər qalıbdı u sifətdə unu mən saxlıyajam. Rəvayətin deməyinə görə, danışılana görə, Firönün meyidi bir otaxda hası ölkə-dəsə durur, deyilənə görə. Görməmişəm eləməmişəm. Onu deyir tirvizerdə də göstəriblər, deyiblər, görənlər olubdu. Ağdaş rayonunda da deyirlərdi biz onu heylə cəsədini görmüşük. Unu da axır-zamana nişanadan ötəri saxlıyır Allah-tala ki, u vaxtı məsəlçün, dəli olmusan, belə eləmisən, səni saxlıyan mənəm, kayinat mənə tabedi, mən kayi-nata tabe deyiləm.

### IV mətn

Nuh şeytana mənə bir gəmilik ağac gət deyir, gəmi qayırajam. Deyib səə doyunca aş verəjəm. Gəlib görür ki, şeytan ayandan bəri əlində, ayağında, çiynində götürüb meşəni, dartıb gətirir. Qabağına qazan qoyur. – «Ə, bu nədi?» Deyib ki, səə xörək bişirmişəm. – «Məni araya qoyma». Dedi: «Ə, nətəər araya qoyma, yiginən, ə». Deyib: «Yimərəm». Dedi: «Ə, bismillah di». Dedi: «Yox». Aşağı-yuxarı buna bismillah dedirtdiribdi. Xörəyin yarısını yiyib, yarısını yiyə bilmiyib. – «Ə, yi da». Dedi: «Yox, doydum da». O, nə qədər ajığı tutub silkələnibdi, ağajdarın yarısını yolda qoyub, yarısından bir dənə gəmi qayırıbdı.

## DAVUD PEYĞƏMBƏR

### I mətn

Süleyman peyğəmbər Davud peyğəmbərin oğludu. Davud peyğəmbərin birində deyilənə görə, on iki oğlu olub, o birində deyilənə görə, iyirmi dörd oğlu olub. Bir günü namaz qılır, imam durur qabaxda. Sağ çiyninə salavat verir, oğlanlarını görür, sola salavat verir, oğlanlnarını görür. Obşim, qürrələnir bu. Peyğəmbərin heç vaxt Allah yadından çıxmamalıdı. Səjdədən qalxanda görür oğlannarı qalxmadı. Namazı qılır qutarır, oğlannarı bir-bir yuyub dəfn eləmək məqamı gəlir. Axırıncını yuyanda gözündən yaş gəlir bunun. Yaş yerə düşməsin deyə Allah-tala əmr eliyir Həzrət Cəbrayıla ki, yaşı qoyma yerə düşməyə. Orda Həzrət Cəbrayıl naqruskaya düşür, güjə düşür. Yeddinci göydən yaşı qoymur yerə düşməyə. Əlini verir altına. Deyir: «Ya rəbbi, yaş yerə düşsəydi nolajaydı?» Deyir: «Qiyamətə qədər yer üzü quru qalajaydı[1]». Nəysə, deyir ki, get Davuda dinən ona bir oğul verəjəm. O, yer üzünün Süleymanı olajaxdı. Yaranmışın dilini biləjəkdi.

### II mətn

Deyib guya Məhəmməd peyğəmbərdimi, yoxsa Davud peyğəmbər Allah-talaynan kəlmələşib. Davud peyğəmbər olub. Gedəndə görür bir uşağın gözü kordu. Beş-altı da uşax arxda çimir. Bu uşax qıraxda oturub palçığın içində. Deyib: «Ay Allah-tala, səə ağır getməsin. Yazıxdı da, bu uşağın da gözünü aşginən, bu uşax da uşaxlarnan çimsin, yazıxdı. Deyir: «Da deyirsən, deyirsən da, açım».

---

[1] Davud peyğəmbərin göz yaşı yer üzünə düşsəydi, yer üzü su altında qalmalı idi. Amma söyləyici yanlışlıqla bunun əksini deyir.

Nəysə, gözünü açır. Keçir, gedir bu. Qayıdanda gəlir görür ki, suyun üzəri qıpqırmızı qandı. Uşaxların da birinin gözü kor olub, birinin qarnı yarılıb. Allah-tala deyir ki, gördün, ay peyğəmbər, nə gündədi? Deyir: «Nəyə görədi?» Deyir: «Bu uşağın gözünün açılmasına görədi». Deyir: «Bəs nətəər oldu bu belə?» – «Uşax, – deyir, – gözü açılan kimi qarğıları yonub soxur suya. Uşaxlar da görmür. Tullanıb suya, birinin gözünə batır, birinin qarnına batır». Deyir: «Ya rəbbi, səən böyüklüyə çox şükür. Bilməmişəm, səyf eləmişəm. Sən eylə düzünə eləmisən. Məsləhət bilmisən ki, kor eləmisən bunu».

### III mətn

Davud peyğəmbərin yetmiş iki metrə boyu olub. Çöldə-bayırda yaşıyırmış heylə. Bir gün Allah-tala həzrətdəri Həzrət Cəbrayıla deyir ki, get u Davuda dinən ayıbdı, özünə bir dəyədən-zaddan qayırsın. Deyir: «Ya Davud, özəə ayandı da, Allah-tala həzrətdəri məni yanaa göndərdiyi». Deyir: «Məə neçə il ömür verib?» Deyir: «Üş yüz il». Deyir: «Üş yüz il nədi ki, ondan ötrü bir də zəhmət çəkim özümə bir daldanacax qayıram». Qayıdıb deyir: «Ya rəbbi, özəə ayandı Davudun sözləri». Deyir: «Get una dinən ki, dörd yüz il də üstünə qoydum. Yeddi yüz il oldu onun ömrü, amma ayıbdı, özünə bir yer qayırsın». Gəlib deyir: «Ya Davud, Allah-tala həzrətdəri buyurdu ki, onun ömrünü yeddi yüz il elədim. Özünə bir yer qayırsın». Deyir: «Baş üstə». Bir dəyə qayırır, deyir, bu qayış balağından yuxarısı dəyəən içində, ordan aşağısı qalıb çöldə. Belə bir peyğəmbər olub Davud.

## SÜLEYMAN PEYĞƏMBƏR

### I mətn

Davud peyğəmbərin oğludu. Onun özündən qabax, diməli, on dənə qardaşı olub. Atası namaza durub. Namaza duranda, diməli, ular hamısı başdarını səcdəyə qoyanda, ölüblər. Çağırır arvadını, deyir: «Bilirsən nə var?» Deyib: «Yox». Deyib: «Uşaxlar ölübdü. Küy-kələk də salma». Arvad deyir ki, məslahatına min şükür. Özü vermişdi, özü də aparıb. Deyib: «Bəli, buna da çox şükür. İndi, deyir, sən su qoy, mən uşaxları yuyum. Undan sonra gedim camaata deyim, gəlsin qəbir qazsınnar, uşaxları aparıb basdırax». Heylə də eliyir. Yuyur hamısını, kəfən-dəfən, qoyur böyür-böyürə. Gedib deyir: «A camaat, bəs hal-qəziyyə belə-belə. Yuyulmuş hazır meyit var. Qəbrini qazın, gəlin gö-türün aparın, uları basdırağın». Camaat yığılır, hamısı uları kəfən-

dəfən eliyirlər. Allah tərəfindən Həzrət Cəbrayıl peyda olur Davud peyğəmbərin yuxusuna. Burda götürüb deyir ki, ya Davud peyğəmbər, bundan ötrü ürəyi sıxma. Allah-tala əznişan buyurur ki, birdi birliyim hakkı, una bir öylad verəjəm, yer üzünün padşahı olajax. Bir vaxt keçəndən sonra Süleyman peyğəmbər gəlir dünyaya. Buna peyğəmbərlik verilir. Buna xalça bəxş eliyir. Buna Allah-tala tərəfindən süfrə bəxş olunur. Süfrəni açanda bütün naz-nemətdər, hər şey məlayikələr gətirib qoyurmuş. Süleyman peyğəmbər üş yüz il yaşıyır. Amma eşitdiyimə görə, çox qadın sevən olub. O üş yüz ilin hamısında cavan olub, qojalıx söhbəti olmuyub. Bir günnəri əlini qoyub başının arxasına, deyir: «Nolaydı mən olardım». Allah-talaya əyan olur ki, bu niyə deyir mən olaydım. Yəni Allah mən olaydım. Deyir: «Ay Süleyman peyğəmbər, mən səə nələr verməmişəm». Nəysə, belə qalır.

### II mətn

Süleyman peygəmbərin özünün xalçası olub, gəzirmiş havada. Gəzəndə bir dənə çoban qoyun güdürmüş. Baxıb, baxıb, deyir: «Sübhanallah, subhanallah» – deyən kimi enir aşağı. Deyir: «Sən nə danışırdın?» Deyir: «Mən heş nə danışmırdım». Qorxusundan deyir ki, heş nə danışmadım. Deyir: «Yox, sən nəsə bir söz dedin». Deyir: «Nitqimə gəldi, dedim ki, sübhanallah, ora bax, gör nətəər gedir bu». Deyir: «Mənim bir belə varımnan, döylətimnən sənin bir dənə sübhanallahın böyükdü». Hə, belə şeylər olubdu.

### III mətn

Süleyman peyğəmbər biriynən kəlmələşəndə deyir: «Mən bir iynənin deşiyindən bir karvan keçirdərəm». Biri deyib: «Keçirdə bilməzsən axı. İynənin deşiyindən bir heylə karvan keçə?» Deyib: «Sən bilmirsən». Eylə bir kəlmə sura oxuyub ki, u bir dəstə dəvə karvanı bir vaxtı görüblər iynə burdadı, karvan keçib gedib. Onunla kəlmələşib, o hərəkəti eliyibdi.

### IV mətn

Səfərə gediblər xalçaan üstündə. Unu heyvannar qoruyublar. U diliin bilmədiyi bir həşərat, bir heyvan olmuyub. Görüb ki, qarışqalar danışır ki, – yernən gedirlərmiş siftə, – Süleyman peyğəmbərin qoşunu gəlir, girin yuvanıza, tapdalıyıb əzəjəklər bizi.

U saat Süleyman peyğəmbər əmr eliyib xalça qalxıb göyə, göynən gediblər.

### V mətn

O vaxtı ölüm olmuyajaymış. Azreyil Süleyman peyğəmbərə deyir ki, sənin canını almağa gəlmişəm. Suleyman peyğəmbər də 850 il yaşıyıbdı. Deyir: «Ölüm də var?» Deyir: «Bəs nətəəri, ölüm də var». Deyib: «Heş uşaxlıxdan bir rahatdıx düzəltməmişəm axı. Qazmanın içində, quyuda olurux biz. Hə. Mən dünya varından ixtiyar özümdədi deyənə özümə bir rahatdıx düzəltməmişəm». Allah-tala da dimişdi ki, nə qədər vaxt, ömür istəsə verginən. Almaginən canını. Dinən ki, nə qədər səə ömür verim. Hə. Disə ki, beş il, üç il, nə ömür istəsə verginən. O da deyib ki, danışılana görə, məə bir beş il ömür olsa, mən uşaxlara bir rahatdıx düzəldərəm. Bu usta-zad tapa, ağac gətirə, başdıyıb uşaxlarına rahatdıx düzəltməyə. Bir vaxt Azreyil gəlir canını almağa. Deyir: «Bu beş il nə tez gəldi, getdi, ə?» Deyir: «Səə elə gəlir da. Beş il tamamdı». Hə. Deyir: «Sənin indi canını almalıyam». Başdıyır canını alır.

### VI mətn

Süleyman peyğəmbər də çox az yaşıyıbdı. Otuz ildi, neçə ildi yaşıyıb. Allahın evini tikirdi. Qutarmağa üş gün qalmışdı, deyir. Azreyil gəldi ki, ya Süleyman, canını almağa gəlmişəm. Dedi: «Ya Azreyil, mən öləndən sonra bunu tikmijəklər, qoy tamamlıyım». Dedi: «Ya rəbbi, eşidirsən də Süleymanın sözünü». Deyir: «Ya Azreyıl, canını al, amma asaya söykənsin. Söykəni saxlıjam». Elə bu qaydada, ölmüş halında asaya söykənib durub. Camaat elə bilir Süleyman peyğəmbər cannıdı, durub baxır. İşləyirlər, işləyirlər, qutarırlar. Yüz faiz qutardımı? Qutardı. Gəlirlər indi təhvil verməyə. Deyirlər: «Ya peyğəmbər, qutarmışıx». Görürlər Süleyman peyğəmbər dinmir. Silkələyirlər, görürlər Süleyman peyğəmbər üş gün bundan qabaq ölüb.

### VII mətn

Süleyman bığıburma oğlan idi. İki nəfər kişi gəlib girir evə. Deyir: «Ya peyğəmbər, bax bu kişinin yüz qoyunu gəlib mənim üzüm bağımı elə yiyib ki, ağacı qalıb». Gedib baxıb, gəlib deyirlər ki, ya peyğəmbər,

düzdü, ağacı durur. Yazın açılan vaxtıdı da. Deer: «Ə kişi, sənin yüz qoyunun oldu bu kişinin. Bunun bağını məhv eliyibdi». Uşax da qapıda durub baxırdı. Dedi: «Ata, icazə ver, şəri mən kəsim». Deyir: «Buyur, oğlum». Deyir: «Ə kişi, gələn il üzüm yarpaxlıyıb üzüm verənə qədər u qoyunun yunu da sənindi, balaları da sənindi, südü-pendiri də sənindi. Gələn il tənəyin üzüm gətirəndə qoyunnar kişiyə qayıdajax». Dedi: «Razıyam». Ondan sonra Süleyman peyğəmbər başdıyır şəri kəsməyə.

## VIII mətn

Süleyman peyğəmbər Davud peyğəmbərin oğludu. Davud peyğəmbər şər kəsirdi. Balaca Süleyman da qapı açıx idi, qapıya söykənib durmuşdu ki, görək atası şəri nə cür kəsəcək. U da şəri düzgün kəsmədi. İki nəfər adam idi. Əkinçinin taxılını çobanın qoyunnarı batırmışdı. Girib içəri ziyanlıq vermişdi, böyük ziyanlıq. İndi gəlib onun şərinə baxdırırdılar. Şəri Davud peyğəmbər kəsdi o birisinin xeyrinə. Dedi ki, çobanın qoyunnarı hamısı alınıb əkinçiyə verilməlidi. Çünki əkinçinin taxılını yeyib batırıb. Hamısın olmaz axı. Qutaranda narazı oldu şərçilər. Balaca Süleyman dedi ki, olmazdı, a ata, düzgün kəsəsən şəri? Dedi ki, düzgün kəsmədim şəri? Dedi: «Yox. İcazə versən mən kəsərdim». Dedi ki, kəs. Dedi ki, əkinçi əkən torpax qaytarılsın çobana, çobanın qoyunnarı da qaytarılsın əkinçiyə. Əkinçi qoyunnarın yununla, pendiriylə dolansın. Torpağı çoban əksin. Taxıl biçilməli deyəndə disin, a əkinçi, qoyunnarımı ver, gəl taxılını apar.

## IX mətn

Bunun dədəsi peyğəmbər imiş, atası. Hər səhər gedib atasına baş çəkərmiş. Görə nətəər işə baxır bu, nətəər camaatı idarə eliyir. Gəlib girir içəri, dədəsiylə salamlaşıb. Çıxanda görüb ki, bir arvad oturub. İndi arvadın da rəvayəti var. Arvada deyib: «A xala, niyə oturmusan burda?» Deyib: «A bala, dərmandan gəlirdim, bir ağnağazı... Deyir, uşaxlarım acından batır. O ağnağazını külək başımdan götürdü apardı. İndi uşaxlar qırılır acından. Girmişəm peyğəmbərin yanına, Allah kömək olsun, yüz kilo taxıl verib məə». Deyib ki, gir unuu tələb elə. Zornan salıb içəri. Peyğəmbər deyib: «Aparın iki yüz kilo verin». Süleyman da durub orda. Deyib: «A xala, noldu?» Deyib: «İki yüz kilo verdi». Deyib: «Gir öz unuu tələb elə». Girib bu səfər beş yüz kilo verib. Arvad çıxır. Süleyman deyir: «Noldu a?» Deyib: «Beş yüz kilo verdi». Deyir: «Aaz, səə dedim gir öz ununu istə». Girib, deyir, peyğəmbərə: «Mən öz unumu

istəyirəm». Deyib: «Mən sənin unu hardan alım? Külək götdü, çıxdı, getdi». Bu halatda peyğəmbərə çağrı gəlir ki, bir paraxod dirənibdi sahilə. İndi camaat onun içindən çıxıbdı ki, bu peyğəmbərə çatajax, kimə çatajaxsa bunun yiyəsini tapsın. Peyğəmbər çağrığa deyir: «Nə bilim mən kimindi?» Bu halatda arvad yadına düşdü. Deyir: «O ağnağazı paraxodun o lüləsini ölümdən qutarıbdı». – «Bu nətəəri olub?» Paraxod deşilə, deyərlər: «Ya rəbbi, ya rəsulallah, sən yetir bizə, özümüzü müdafiyə edək, ölümdən qutarax, bütün bu paraxodu verəjəyik o adama». Hə. Peyğəmbər çağırıb bu tacirlərin hamısını. – «A balam, nolubdu, nətəər oldu, kimə çatajax». Deyibdi: «A dayı, hal-qəziyyə belə-belə». Peyğəmbər də çağırır o arvadı, deyir: «A bala, get o paraxod sənindi». Bu da bir əhvalat. Paraxodu verir arvada. Bu da bir qismətdi da.

### X mətn

Bir günü qəbirstannığa meyid aparası olurlar, Süleyman peyğəmbər deyir ki, ordan xəbər gətirən olarmı? Sarı qarışqa olur balaca, deyir: «Ya Süleyman, ordan mən xəbər gətirərəm. Balaca şeyəm, u çəpərin arasına qoyun, mən xəbər gətirim». Qoyurlar qarışqanı çəpərin arasına. Ölünü də basdırannan yeddi metr aralanannan sonra sorğu-sual gəlir ora, sual eləməyə. Gələn kimi bu qarışqaya tatar vurur. Deyir: «Çıx burdan çölə». Balaca qarışqadı da. Çıxır çölə, dümələn-dümələnə gəlir Süleyman peyğəmbərin yanına. Deyir: «Ya qarışqa, noldu?» Deyib: «Ya Süleyman, sənin xeyrinə bir şallax yedim. Məni qovdular ordan». Orda Allah tərəfindən vəhy gəlir ona. Deyir: «Ya Süleyman, Quranda üş şeyi açıxlamamışam. Deyir, birinci o torpağın altıdı. Mənim sirrimdi ora. İkinci, deyir, buludun içində ildırımın çaxmağıdı. O nədisə, onu aşmamışam. Üçüncü erkək at gedəndə ö, ö, eliyir e, onu yazmamışam. Olar açıxlanmıyıb «Quran»da, olar mənim sirrimdi». Çünki buludun içindən samalyot keçir, heç bir şey yoxdu. Amma ordan qurbağa yağır, qar yağır, yağış yağır, palçıx yağır. U açıxlanmıyıb Quranda. Bu üç şeyi açıxlamıyıb «Quran»da.

### XI mətn

Küləyin də ixtiyarı Süleyman peyğəmbərdə olub. Əs desə, əsər, dayan desə, dayanmalıdı.

### XII mətn

İki nəfər kəndə gəlir Süleymanı axtarır. Yəqin lazım imiş da. Gəlib bir uşağa rast olurlar. Uşax da olur Süleyman. Hə. Deyir: «Ə, Süleyman var burda. Onu tanıyırsanmı?» Deyib: «Yox, tanı manam, bil mənəm». Çıxır gedir uşax öyə. Bular da hərlənib Süleymanın öyünü tapırlar. Gəlib görürlər həmən uşax burdadı. Deyiblər: «Sən kimsən, a bala?» Deyib: «Həmin Süleyman». Deyib: «Bəs biz səndən soruşdux ki, Süleymanın öyünü tanıyırsan, dedin tanımanam, bilmənəm». Deyib: «Mən heylə dedim da, tanı mənəm, bil mənəm. Mən heylə dimişəm». Olar deyib: «Baho, pis başa düşmüşük».

## XIII mətn

Bir günü qarışqaların padşahı gəlir ki, ya Süleyman, sizin bu uşaxlar bizim uşaxları incidir axı. Deyir: «Allahın heyvanı, nağarır incidir?» Deyir: «Yolnan gedirlər, xəbərdarlıq eləmirlər, tapdalayırlar, öldürürlər, nə eləyirlər». Süleyman peyğəmbər gülür. Deyir: «Allahın heyvannarı, çıxmayın da yola. Mən nağarım?» Deyir: «Yox, helə döylü, Süleyman. Uşaqların əl-ayağını yığışdır. Dava eliyərik sənnən, sonra peşman olarsan? Deyir: «Allahın heyvanı, dava eliyib nağararsız?» Deyib: «Helə?» Deyib: «Hə». Fərz eliyək ki, keçmişdə dava eləmək üçün müəyyən yerlər olurdu da. Çünki atılan şey yox, hamısı əldə qılıncnan, qalxannan, toppuznan. Deyir: «Süleyman, sabah qoşunu çək, fərz eliyək, meçit məhləsinə, davadı». Deyir: «Nə deyirəm». Süleyman peyğəmbər xəbər verir sərkərdələrinə ki, qoşunu çəkin filan yerə, qarışqalar bizə dava elan eləyir. Gecəynən o torpağın altını elə lağım elədilər ki, qarışqalar ha, Süleyman peyğəmbərin qoşunu gedən batır. Süleyman peyğəmbər görür qoşun hamısı getdi yerin altına, çağırır qarışqaların padşahını, deyir: «Allahın heyvanı, səhv eləmişəm, tapşıraram indən sonra tapdalamazlar». Bax, belə bir rəvayət mən eşitmişəm.

## XIV mətn

Bir gün, deyir, qarışqa gəldi ki, Süleyman peyğəmbərə ki, sənin dəstən gələndə mənim qılçamı tapdalayırsız. Sənin qoşunun gələndə – atlı qoşunun, mənim qılçamı tapdayır. Mənim qılçamın hesabını ondan alginən. – «Mən sizə dedim ki, yol üstündə, quru ağacda yuva tikməyin. Ona görə ki, quru ağacda yuva tikəcəksiz, camaat sizi yandıracaq odda, mənnən hak-hesab çəkəcəksiz. Yol üstündə tikəcəksiz, malım, qoşunum, heyvanlarım sizi tapdalıyacaq. Yolnan gələcək da. Yolu, quru ağacları sizə haram buyururam». İndi

onunçan da Allah-tala Süleyman peyğəmbərə bütün heyvannarın dilini bildirib.

## İBRAHİMXƏLİL PEYĞƏMBƏR

Öylənər. Bir gün qurban olduğum gedər ki, uşağına baxsın da, vəziyyəti nə yerdədi, hancarıdı. Gedər, oğlunu tapmaz öydə. Arvadına deyər ki... Arvad nətəhər qulluq eləyirsə, qulluğu xoşuna gəlməz. Deyər ki, oğluma denən ki, atan gəldi, səni tapmadı. Ona denən ki, qapının kanını dəyişsin. O da gələr İsmayıl peyğəmbərə deyər ki, bəs belə-belə, atan gəldi, səni tapmadı, amma dedi ki, qapının kanını dəyişsin. Amma başa düşə bilmədim ki, bu nə deyən sözdü: «Qapının kanını dəyişsin». O ba deyib ki, arvad, səni boşamalı oldum. O vaxtdan qalıb ey arvad boşamaq. Deyib: «Niyə?» Deyib: «Nə bilim, atama qulluq eləməmisən, səni boşamalı oldum». Gedir boşayır.

Hərlənir, bir aydan sonra təzədən öylənir da. Gənə gəlir. Gəlir görür buuy, arvad bunun əlini yumaq, üzünü yumaq, gəlin. Yaxşı qulluq eləyir. Gənə İsmayılı tapmır öydə. Deyib ki, qıza, gəlmişəm, İsmayıla deyərsən ki, atan deyir ki, kandan möhkəm yapışsın, kandan möhkəm yapışsın ha. Bu da gələr. Deyər: «Ay İsmayıl, vallah, bir qoca kişi gəlmişdi, mən tanımadım. Amma gedəndə dedi atasıyam onun. Denən kandan möhkəm yapışsın. Onu mən başa düşmədim axı. Nə deyən sözdü?» Dedi ki, deyir ki, səndən möhkəm tutum, səni boşamayım. Mən bir dənə arvad boşamışam, dədəmin sözüynən. Belə olub boşamışam. İndi ona görə sənə deyib ki, denən kandan möhkəm tutsun. Görürsən, heylə də işlər olub da.

## MUSA PEYGƏMBƏR
### I mətn

Deyir, Həzrət Musa Allah-talaynan kəlmələşməyə gedirdi. Gördü yolun üstündə bir şəxs oturub. Dedi: «Ya Musa, hara gedirsən?» Deyir: «Allah-talaynan kəlmələşməyə gedirəm». Deyir: «Mənim də bir dərdim, xahişim var, nolar ona yetirəsən». Deyir: «Nədi?» Deyir ki, mən burdan aşağı özümü quma basdırıb otururam, gündüz heç bir tərəfə çıxmağa təhərim yoxdu, çılpağam, tam çılpağam. Gecələr durub əlimə keçəndən dolanıram. Belə bir ağır vəziyyətdəyəm. Allah-taladan mənə bir təmənna, görək mənə bir yöntəm. Bütün dərdlərini deyəndən sonra deyir: «Ya Allah, özə əyandı, qulun zarıyır, deyir tam çılpağam. Allah-talaya ərz eylə mənim adımdan ki, mənə də kömək eləsin».

Dedi: «Get ona denən ki, buna da şükür eləsin». Bu gedib deyir. Deyib: «Səə qurban olum, bunun nəyinə şükür eləyim. Günün altında yanıram, qumun içində. Bunun nəyinə şükür eləyim?» Elə onda, deyir, bir tufan qopdu ki, toz-duman alıb bütün dünyanı. Bu qalıb təmiz düzün ortasında. Ondan sonra deyib: «Ay Allah, qələt eləmişəm, səhv eləmişəm. Min-min şükürlər olsun. Mən niyə sənin işinə qarışmışam». Bunnan da ona qane olur.

### II mətn

Hansısa peyğəmbər olub, İsa peyğəmbərmi, Musa peyğəmbərmi. Gəlib buna deyirlər ki, filankəs səndən belə danışır. Çıxardır buna bir sıxma qızıl verir. Deyir: «Apar ver, çox danışsın». Gənə də başlayıb ağzına gələni danışmağa bunun haqqında. Gəlib deyib: «Əşi, sən nağarırsan? Daha da biabırçı işlər gördü o sözləri danışıb». Çıxardır bir sıxma da verib. – «Apar ver, danışsın». Aparıb verib. Gəlir: «Əşi, sən nağarırsan? Bir məni başa sal görüm. O səni rüsvay-cahan eləyir, sən deyirsən ki, apar qızılı ver, məndən danışsın». Deyir: «A bala, sən nə bilirsən ki? O mənim günahımı yuyur».

### III mətn

Musa peyğəmbərə peyğəmbərlik belə verilib ki, o uşaqlıq vaxtında çoban imiş. Dağın yamacında qoyun güdürmüş. Qoyunun içindnən bir quzu kənara qaçır. Musa peyğəmbər də bunun dalıynan qaçır. Allahın heyvanına söymür. Oxşaya-oxşaya quzunu tutur. Onun belə səbirliliyinə görə, Musa peyğəmbərə peyğəmbərlik verilir.

### IV mətn

Deyib getginən hansı dağınsa dalına. Ora gələcəm, orda da danışarıq. Gedib görüb, ə, Allah-tala gəlir, gəlir, dağ əriyib yox olur. Ondan sonra deyir: «Allah, sənə töybə eliyirəm da, sənnən danışası olmadım mən».

### V mətn

Yer kürəsində nə qədər inni-cinni var, yaşayış yeri var, qurban olduğum bizim Məhəmmədin eşqinə yaradıb hələ Musanın dövründə. Musa birinci peygəmbər olub da yer üzünə gələn. Musa tufandan qutarandan sonra deyib ki, ya rəbbi, ya rəsulallah, məni bu boyda tufandan qutardın, nolaydı məni axır-zaman nəbisi Məhəmməd ümməti eliyərdin. Hələ o vaxtı, kim bilsin neçə milyon il qabaq, hamısı

bilirlərdi ki, axır-zaman nəbisi gələcək yer kürəsinə, adı da Məhəm-məd olacaq. Hələ Musa o vaxtı deyib.

## VI mətn

Allah deyir:– «Get u şumu sula gəl, cavab verəcəm». Musa peyğəmbər gedir, beli götürüb gedir. Taxıl əkənlər suyu qoyarlar, suyun qabağıynan gedərlər ki, harda alaq var, onu ala-ala ki, su çıxsın. Bu suyun qabağıynan alağı ala-ala sulayır. Canını qutarmaq istəyən cücülər başlayır bunun qıçlarına dırmaşırlar. Bu gah ayağını yerə döyür ki, tökülsünlər, nağayrır, axırı əzişdirir belə. Nəsə, sulayır qurtarır, gəlir Allah-talanın hüzuruna. – «Ya rəbbi, mən suladım, siz də mənim cava-bımı deyin gedim camaata çatdırım». Deyir: «Ya Musa, sən taxıl sula-yanda ölümdən qutarmaq istəyən cücülər ayağa çıxdı. Səni biri dişləyirdi, sən hamısını ovxaladın, xışmaladın, tökdün yerə. Sən niyə onu elədin?» Dedi: «Ya rəbbi, sənin qarşında taxsırkaram. Düz deyirsən». Allah-tala ona görə hamını cəzalandırır ki, sizin içərinizdə eləyibdi bu günahı. Siz onu yola gətirməlisiz. Ona görə u bəlanı camaat çəkir.

## VII mətn

Musa peyğəmbər Allahnan kəlmələşməyə gedəndə deyir: «Ya Musa». Deyir: «Hə». Deyir: «Hara gedirsən?» Deyir: «Allahnan kəlmə-ləşməyə». Deyir: «A Musa, u Allaha denən ki, mənə o qədər var-dövlət verib ki, onu mən yığıb-yığışdıra bilmirəm. O Allah xətrinə, bu var-döyləti azaltsın. Deyir ki, nə deyirəm. Deyərəm, etiraz eləmirəm. Gedir Allahın yanına, deyir, qayıdır gəlir. Gələndə görür ki, bu keçi sağır, bu şəxs, var-dövləti azaltsın deyən. Dedi: «Ayə, filankəs, ayə, filankəs». Hay verdi. Dedi: «Ə, nağarırsan?» Dedi: «Keçi sağıram». Dedi: «Ə, Allaha mən dedim, dedi məə az şükür eləsin. O nə qədər şükür eləsə, mən onun var-dövlətini verəcəm». Dedi: «Ə, Musa, qara keçidən ağappaq süd olur. Mən ona nətəhər şükür eləməyim, ə? Mən ona yuxuda da, yatanda da şükür eləyirəm ki, bu var-dövləti verib. Dedi: «Allah-talaya şükür elədiyə görə, o var-dövləti həmişə sənə verəcək. Başqa yönü yoxdu».

## VIII mətn

Mənim kimi bir kasıb kişi çiynində odun dağdan düşürdü. Dedi: «Musa, hara gedirsən?» Dedi: «Allahnan kəlmələşməyə». Dedi: «Sözüü qutarannan sonra məndən də bir kəlmə diginən. Diginən u

kişi bir ulağ istəyir. Nolar, çiynində daşıyır odunu». Dedi: «Baş üstə, deyərəm». İşini qutarır, deyir: «Qonşunu iki ulaxlı isdəsin, özü bir ulaxlı olar. Get heylə di». Dedi: «Baş üstə». Qayıdanda genə bu kişi rast düşdü buna. Dedi: «Dedinmi, ya Musa?» Dedi: «Bəli, dedim». Dedi: «Nə oldu?» Dedi: «Qonşunu iki ulaxlı istə, özün bir ulaxlı olajaxsan». Dedi: «Qonşunun bir ulağı var, mənim gözümü tökür o. İndi təzədən birini də deyim, iki olsun?»

## IX mətn

Bir nəfər adam eşşəknən dağdan odun düşürürdü. Bir adam da piyada bir-iki ağac kəsib şələyə vurub, düşürdə bilmir, gətirə bilmir. Çox əziyyətnən düşür burdan. O birisi deyir: «Ay ağa». – «Hə». – «Deyir ki, sən qonşunu iki eşşəkli istə, səə də Allah bir eşşək versin, sən də dalında gətirmə». Deyir: «Allah onun bir eşşəyini əlindən alsın, elə mən dalımda daşımağa öyrənmişəm, dalımda gətirərəm». Gör paxıllığın dərəcəsi nə qədərdi. Ona görə də paxıl adamın yeri cəhənnəmdi.

## X mətn

Musa peyğəmbər Allahnan kəlmələşməyə gedirdi. Kəlmələşməyə gedəndə dedi ki, ya rəbbi, mənim qarnım ağrıyır, mən buna nağarım? Dedi: «Ay Musa, getginən gər xəzəlinin suyunu qaynat iç. O səən qarnının ağrısını kəscəkdi». Gəldi, deyir, gər ağacının xəzəlini qaynatdı, suyunu işdi, kəsdi. Aradan bir müddət keşdi bunun qarnı yenə ağrıyası oldu. Dedi: «Allah-tala məə dimişdi ki, gər ağacının xəzəlini qaynat iç, sağalsın. Bir də niyirəm gedib una deyim. Elə gər ağacının xəzəlini qaynadım içim». Gər ağacının xəzəlini qaynatdı işdi, qarnının ağrısı kəsilmədi. Daa da artdı. Gedib Turisinə danışanda dedi ki, ya rəbbi. Diib: «Hə». Dedi: «Mənim başıma bir iş gəlib». Dedi: «Nolub?» Dedi: «Qarnım ağrıyırdı, sən mənə dedin get gər ağacının xəzəlini qaynad işginən qarnının ağrısı kəsilsin. Ağrıyırdı gənə». Sən heylə dideyəə görə mən gənə qaynatdım işdim qarnımın ağrısı kəsilmədi, daha da artdı. Dedi: «A Musa, mən ağzımnan dimişdim u ağaca ki, Musaya xeyir elə, şəfacıl olginən. Axı indi mən deməmişəm una. Elə bir dəfə mən diməknən ömürboyu sən onnan şəfa umursan?» Deməli, mən bu günnəri sənə sağ ol deyirəm. Elə həmişə filankəs məə sağ ol deyib bu işi belə eliyim. Olmaz axı. Demək, hər bir işin xeyri, şəfası ağızdan çıxıb cana zəhmət verməyindədi.

## İSA PEYĞƏMBƏR

İsa peyğəmbər allahlıx eşqinə düşür. Deyir, mən Allahı görməyə gedirəm. Harda rastıma çıxajax, namazı qılajam, Allahı görəjəm. Evdən heş nə götürmür. Quru çörək götürür yeməyə, dolça götürür ki, su içməyə, bir də iynə-sap götürür, bir də təsbeh götürür. Bir az yol gedəndə görür bir dənə qoja kişi əyilib su içir. Ovcuynan alıb su içir. Dolçanı orda tulluyur. Deyir: «Da ovcumnan quruşqa eliyib içə bilərəm». Bir az da gedəndə görür bir dənə kişi oturubdu, barmağıynan təsbeh çəkir. Təsbehini də qoyur orda, ağaşdan asır. Bir az da yol gedir, namaz qılır, Quran oxuyur, çöldə-biyabanda qalır, ağlıyır. Okqədər ağlıyır, ağlıyır, kor olmağa az qalır. Bu Həzrət Cəbrayıl enir aşağı, deyir: «Ya İsa, nolub, sən nə istəyirsən?» Deyir: «Mən Allah-talanı görmək istəyirəm, onunla kəlmələşmək istəyirəm. Deyir: «Axı onu görmək çətindi». Deyir: «Yox. Okqədər ürəyimi Allaha sidq eləmişəm ki, öləjəm, Allahı görəjəm». Deer: «Onda gedək». Nə bilir bu Həzrət Cəbrayıldı. Gedir deyir. Allah-tala İsaya pərdənin dalınnan cavab verir. Həzrət Cəbrayıl deyir: «Bu şərtnən səni cənnətə çıxardıram ki, sən kəlmələşib düşərsən». Deyir: «Oldu». İsa çıxanda, deyir, indi buna söz veribdi axı. Allahnan kəlmələşib bu düşüm deyəndə xəlvətcə çarığının birini ora qoyub düşür. Peyğəmbər bunu gətirəndə deyir: «Hə, səə söz vermişdim qayıtdım, indi icazə ver çarığımın bir tayı orda qalıb, gedib götürüm». Bu qayıdır çarığını götürməyə, çıxmır. Deyir: «Bax səə söz verdim, çıxdım. İndi özüm gəlmişəm, çıxmıram». Deyir, o Allah-talanı görərdi, yumax üstündə qalıb. Gərək dünyanın malı üstündə qalmıyaydı. O yumağa görə, Allah-talanı görə bilmiyib.

## HƏZRƏT MİKAYIL

Mikayıl gəzirdi, dolaşırdı, çörək pulu axtarırdı, dolana bilmirdi. Bir çəkməçinin yanında şəyird olur. Cavan oğlandı. Bu çəkmə tikən yaşdı adamdı, həm də müştərisi çox olur. Bu Həzrəti Mikayıl o qədər gözəl çəkmələr tikir ki, ustanın xoşuna gəlir. Bir günü bir yaraxlı-yasaxlı kişi – cavan oğlan girir içəri. Girən kimi bu yaşdı usta durur ayağa, bu oğlan durmur. Həzrət Mikayıl durmur. Amma bu nə danışmır, nə gülmür. Heş bir şey danışmır, işini işdəyir. Deyir: «Məə bir cüt çəkmə tikirsən, içi belə, çölü heylə, möhkəm. Özün bilirsən,

mən davada oluram, dağılsa, sökülsə, cırılsa, boynunu bu qılışnan vurajam». Durur kişi üş-dörd kərə baş əyir. Deyir: «Baş üstə». Bir həftə vaxt verir. Bir həftə vaxd keçəndə... Boynunu qılışnan vurajam deyən kimi bu oğlan başdıyır gülməyə, gülümsüyür. Bu gedəndən sonra usta deyir ki, sən neylədin belə? Deyir: «Niyə?» Dedi: «Axı u cəngavər adamdı, sərkərdədi. U bizim nəslimizi kəsə bilər. Sən niyə güldün? Axı sən gülmürdün, danışmırdın. İndi bax nə səbəbə güldün?» Dedi: «Heş nə, xəbər alma». Dedi: «Həftə tamam olunca səə tafşırıram, sən tik u çəkmələri». Dedi: «Baş üstə». Bir gün keşdi, iki gün keşdi, üş gün keşdi, dörd gün keşdi. – «Tikdinmi?» Dedi: «Tikərik da». Deyir: «Nə tikərik? Mənim nəslimi qırdırajaxsan sən? Nə tikərik? Niyə başdamamısan sən?» Altıncı günü bir cüt məst tikir qoyur. Hansı ki, indi mollalar ayağına geyirlər ey. Məst tikir qoyur. Kötüyün üstünə qoyur. Deyir: «Tikdinmi?» Deyir: «Bəli». Deyir: «Hanı bəs?» Deyir: «Budey». Dedi: «Ə kişi, unu çəkməyə astar qoyullar, sən mənim başıma nə oyun gətirirsən?» Deyir: «Gələndə mən verəjəm». Həftə tamam olur. Görür çarşava bürgəhli bir kadın tükannara baxa-baxa gəlir. Gəldi bu tükanın ağzına çatanda dedi ki, qardaş mənim ərim sizə çəkmə buyurubdu. Deyir: «Bəli, buyurubdu». Dedi: «Hazırdımı?» Dedi: «Əyər u hazır döyülsə, çəkməni tikmiyin, bir cüt məst tikin». Dedi: «Niyə?» Dedi: «Kişi rəhmətə getdi, ayağına geyindirib dəfn elijəyik». Dedi: «Buyur, bajım. Tikib qoymuşdum, hazırdı». Usta baxdı, çox mat qaldı bu işə. Qadın getdi. Dedi: «Məni agah eylə görüm bu nə işdi?» Dedi: «Soruşma». Dedi: «Yox, bunu aşmalısan». Dedi: «Mən Həzrəti Mikayılam. Mən nə şəyirt döyüləm, nə bir şey döyüləm. U kişi sizi hədəliyəndə onun ölümünə bir həftə qalmışdı. Unçün güldüm mən ki, ay yazıx, bu çəkmələri sən geymijən heç. Hə. Udu ki, mən məst tikdim, məsti də verdim, aparıb getdi». Belə eşitmişəm bu rəvayəti.

## XIDIR NƏBİ
### I mətn

Dədəm görüb, mamam görüb. Nənəm söylüyürdü ki, balaca bir kişi idi. Xıdır Nəbi quruda olur, Xıdır İlyas suda. Deyir suya niyə girirsən ki, batırsan, Xıdır İlyası çağırırsan. Amma Xıdır Nəbi çöldə olur. Mən özüm görmüşəm Xıdır Nəbini. Mən əppək bişirəndə gəlibdi bizə. Bayram idi, çörək bişirirdim. Heç kəs yox idi məhlədə. Orda bir topa narımız vardı, bir dənə də armudumuz. Çörəyi taxtanın üstündən yığışdırırdım. Oruclux bayramı idi. Bir də gördüm ki, bir kişi

qapıdan içəri girdi. Vallah, bir libasda girdi ki? Çuxası cırıx, cındır ey. Həmişə, deyir, o heylə gəzir. İrağ olsun, dərviş kimi də. Gəldi çatdı məə. Dedi: «A bala, xoş gördük, bayramın mübarək». Dedim: «Çox sağ ol, xoş gəldin, dədə can». Dedi: «Çox sağ ol, atam». Dedim: «Gedək da öyə». Dedi: «Yox, mən öyə getmirəm». Dedi: «Get iynə gət». Rəhmətdik Niftalı dayıya söyləmişdim bunu. Məə dedi ki, nahax söylədin məə. Gətdim bu iynəni. Dedi: «Ovcunda tut». Ovcumda tutdum iynəni. Nə bilim, nəsə oxudu, elədi, üfürdü. Dedi: «Qırmızı olmağını istəyirsən, yoxsa öz rəngində qalmağını istəyirsən». Dedim: «Yaxşı olcaxsa, qırmızı olmağını istəyirəm». U vaxtın iynələri polad olurdu. Hər vaxtda sındırmax olan şey deyildi. Əlimi aşdım gördüm ki, vallah, elə bil, əlimdə sipiral kimi qızıb iynə, qıpqırmızı. Aldı məndən iynəni, ortadan böldü. Dedi: «Apar nar ağacının dibində onu basdır». Basdırıb qayıdınca gördüm kişi yoxdu. Buy, bissimillah. Ay aman, yüürdüm Məleykə bajıgilə. – «Sən allah, bura bir kişi gəlmədi ki?» Dedi: «Yox». – «Hə, kişi girdi məhləyə, məə belə bir iynəni verdi, ora basdırıb qayıdınca...». Hə, bax bir stəkanda da su gətizdirdi. Barmağını saldı, dedi ki, iç, həm də suyuna gir. Suyu məhləyə çilədim, ölüm olmadı. Qayıtdım getdim, gördüm kişi yoxdu. Kimə getdim, olası olmadı. Sonra Niftalı dayıynan uşaxların babası gəldi. Dedim: «Allah hakkı, belə bir iş gəlib başıma». Niftalı dayı dedi ki, hayıf səndən. Aaz, Xıdır Nəbidi ey o. Bir də onu dedim ki, isti çörəkdi, alın çörək yeyin. Dedi: «A bacı, biz özümüz çörək paylıyanıx, çörək gətirənik. Yox, yox, halal xoşun olsun, istəmirəm». Onu da mənə dedi. Suyu məhləyə çilədim, ölüm-itim olmadı. Özüm yaxşı oldum. Hara getdim işim avanda düşdü. Xıdır Nəbi dəyqəyə min löyündə olur. Ya oruclux bayramında, qurban bayramında gəlir. Hər saat gələn döylü ha. İldə bir kərə, iki ildə bir kərə gəlir da.

**II mətn**

Olar bax bu saatdarı köhnə babaların dediyinə görə, oların gəzən vaxtıdı (Novruz bayramı ərəfəsində – top.). Xıdır Nəbi suda olur, Xıdır İlyas quruda gəzir. Vaxt gəlir görüşmək istəyəndə o sudan çıxır, görüşürlər. Allah qismət eyləsə, o sənə də görünə bilər. Oların əlləri rəhmətdik atam deyirdi ördək, qaz əlləridi. Bir-birinə yapışıxlıdı. Məsələn, elə adama Allah qismət eliyir, görüşəndə görürsən. Mən özüm onu, bu qiblə hakkı, yuxuda görmüşəm. Balacaboy kişi idi. Sakqalı sarıyanız, başında sarı buxara papax, əynində qara çuxa kişi idi. Sudan çıxdı, dedi: «Sən niyə azışırsan bala, azışma. Axı

sənin balaların var». Arxın üstə durmuşam, əllərimi də namaz qılan formada dizimin üstünə qoyub oturmuşam. Mən unnan dilək istəyə bilmədim. Dedi: «Nə dilək istəyirsən məndən, dilə, verim sənə». Buratan məə dedi. Başdadım ağladım. Dedim: «Mən səndən nə dilək diləyim. Başıma o qədər oyunnar gətiriblər ki, adım yaddan çıxıb». Belə çörükən kimi kişi elə bil balıx idi, cumdu suya.

### III mətn

Xıdır gəlib bu çinarın dibində durub. Deyəsən, rəhmətdik Rəsul kişi olub. Deyib: «Ə, məə Allah yolu ver». Bunu itəliyəndə arxa yıxılıb, deyir. Buğdası tökülübdü. Bu da belə eliyir (əlini tərpədir – top.), deyir, buğdalar xurcuna yığılıb. «Ya allah», – düşüb yolun ağzına, gedibdi. Xıdır heş adama görünən şey deyil. Amma bizim yanımızdadı ha. Bilinmir hansıdı, hansı döyül. Sonra yuxarıda da kimsə rast gəlibdi ona. Allah yolu istəyibdi. Deyib: «Məə Allah yolu ver». O cibinə əl salınca bu kişi yox olub.

### IV mətn

Əl saxlıyıb, Xıdır Nəbi avtobusa minib. Minəndə görüb ki, camaat hamısı oturubdu. İki dənə də cavan qız oturubdular. Qızlar buna baxır. Bunun üstü-başı köhnəymiş. Barmaxları da bitişikdi qaz barmaxları kimi. O cavan qızlar durub ona yer vermiyiblər. Elə o qapının ağzında tutub dayanıb. Bu qızlar baxıb buna gülüblər. Bu da gözünün altıynan baxıb bulara, heş nə dimiyib. Deyib ki, saxlaginən, şoferə. Baxıb saxlıyıbmış. Deyib ki, saxla, burda iki dənə qancıx eşşək var, qoy düşsünnər. O saat qızlar durub ayağa, deyir, tüşüldəyə-tüşüldəyə ikisi də olub eşşək. Özü də düşüb. Baxıblar o yana-bu yana, kişi özü də yox olub. U qızların ikisi də eşşək olub.

### V mətn

Xıdır Nəbi, Xıdır İlyas eşitdiyimə görə, olar gözə görükmürlər. Təsadüb hallarda gözə görükürlər insan şəklində, amma nəsə adam hiss eləmir bir şey istəyə. Yox olub gedirlər. Şəxsən mən bir rəvayət eşitmişəm. Qalxoz təzə qurulan vaxtı mən uşax idim. Bax bu kəndin başında xırman qoymuşdular. Yay idi. Hava tutulmuşdu. Elə bildim gejədi. Hamı qorxdu, vahiməyə gəldi. Elə bir çaxnaşma oldu. İnsanın ağzı boyda buz töküldü yerə. Bu yollardan, bu xəndəklərdən bir həftə u çəkilmədi. Dağın suyu gəldi bu kəndin içindən getdi. O cümlədən o xırmanı da apardı getdi. Niyə? Rəhmətdik Cəbrayıl əfəndi u taxılı

qoruyurdu xırmanda. U söhbət elədi ki, bir ağsakqal kişi gəldi, buğda istədi bizdən. Amma qalxoz sədrinin atı arpa əmbizinin üstündə yiyir. Bağlamışıx ora, yiyir. Bağlamasax, bizi işdən çıxardar. Dedik ki, bu camaatındı, qalxozundu, verə bilmərik. Dedi: «Bəs u at niyə yiyir?» Dedik: «U qalxoz sədrinin atıdı». Çörüldük gördük u kişi yoxdu. U kişi yox olan kimi gördük yer-göy birləşdi. Bax bu küçədə, putkanın yanınnan qabaxda küçə var. Ora kimi ildırım düşdü. Dəfələrlə neçə-neçə malların ayağının u ildırım yaran yarnaxlara düşüb qırılan bilirəm.

**VI mətn**

Kimsə Xıdırı gördüyünü söyləsə, o saat Xıdır yox olub gedəjək. Onların sirri gərək açılmasın axı.

**VII mətn**

Xıdır adi adamdı. İnsannar belə pisləşdikcə, mırdarlandıxca on-nan sonra gözə görünmür. Adam olub, canı yanan adam olub. Mə-həllə-məhəllə gəzib. Olar dörd qardaşdı. Azreyildi, Cəbreyildi...

*Söyləyici ikisinin adını yadına sala bilmədi.*

**VIII mətn**

Olar iki qardaş olub deyilənə görə. Biri axşam olanda atnan kəndi gəzir, deyir. Xıdır Nəbi dünyaya düşənin taleyini yazır. Ana bədənindən düşür ha, u gəlir taleyini yazır. İkinci gün, üçüncü gün ki, bunun gələcəyi bu olacax, onun gələcəyi u. Biri oların can alandı, biri tale yazan, biri də ki, da bilmirəm, onda bir az səhvim var, malın göbəyini kəsir.

**IX mətn**

Xıdır Nəbi yaxşı kəssədi, zaddı. O deyir gündə görükmür, gejə gö-rükür. O adam guya yaxşı adamlara görükür. Əsas uşağa görünkür. Onda, deyir, nə istəsən onu görəndə, adamın yadına düşüb deyəndə nə istəsən öz əliylə gətirib vermir ki, yanı onu yetirir. O Xıdır Nəbi də bax belədi.

**X mətn**

Dörd nəfərdi o – Xıdır Nəbi, Xıdır İlyas, biri də olub, dörd nəfər. Peyğəmbər də dimək olar olara. Oların biri suda dada çatandı, biri quruda dada çatandı, biri də havada. Bular insannara görünürlər. Amma elə qeybə çəkilirlər ki, fərz eliyək, məə, səə görükübsə, biz bunu bilmirik. Hara getdi, bu kişi nijoldu, bunu bilə bilmirik. Ular heylə Allah

tərəfindən daima gəzirlər dünyanı. Harda oları dara düşüb çağıran olsa, dadına da çatıllar. Olar heylə Allah tərəfindən göndərilmiş köməkçilərdi.

### XI mətn

Elə bir donda gəlir ki, camaata görükür ki, dilənçi fasonda gəlir. Kiməsə deyir, məni qurban olduğum göndərdi ki, özündən alçax kim varsa, başına ip sal, götür gəl mənim üstümə. Gəzdim gəldim, gördüm ki, bir it yatıbdı. Cibimdən ip çıxardım, saldım bu itin başına, apardım. Aparanda bu qurban olduğum dijək ki, bu nədi gətirmisən mənim yanıma. Bunu aşdım qoydum, ipi saldım boğazıma, özümü apardım. Özümdən alçax heş kəsi bilməmişəm. Nəkqədər kasıb da, nəsə də, onu özündən alçax hesab eləmiyib, özünü aparıb qurban olduğumun yanına. U qurban olduğum da deyir ona böyük hökmdarlıx verib. Deyib: «Sağ ol səni, bu dərəcədə qanacağın, mərifətin çatıb bunu etmisən». Deyib: «Çox gəzmisən?» Deyib: «Hə, gəzmişəm». Deyib: «Bir aydı mən bütün kəndi, yolu-irizi gəzirəm ki, kimdi münasif adam mən onu çatdırım ora – kişiyə. Baxdım gördüm yoxdu, özümü aparsam yaxşıdı». Deyib: «Sən özünü helə hündür bilmisən insanı mənim yanıma gətmisən? Onu da mən yaratmışam, səni də. Özün yaratmısan ki?» Özünü aparıb. Qurban olduğum da deyib ki, səə özüm çağırıb hökmdarlıx verə bilmərəm. Sən elə özümə bərabər adamsan.

### XII mətn

– «Ay xala, ay xala». Dedim: «Bəli». Dedi: «Çıx çölə». Çıxdım. Dedi: «Ay xala, gəlmişəm, mən çörək istəyirəm». Girdim, deyir, öyə, çörək gətirdim, para çörək. – «Ay xala, məə sözün, söhbətin ola?» U da həmişə oturub-durub deyirmiş ki, bu kişi məə irast gəlsin. Deyir: «Xeyir, heş nə istəmirəm». Deyir: «Onda məə bir az şor gətir çörəknən yiməyə». Bajım girib öyə buna şor gətirsin çörəknən yiməyə, görüb yoxdu.

### XIII mətn

Xıdır Nəbi həm xeyir-bərəkət gətirir, həm də xeyir-bərəkəti çəkməyə gəlir.

### XIV mətn

Xıdır Nəbi qurudadı. Xıdır Nəbi günnərin bir günü Allah rəhmət eləsin Veys babaya. Eşidirsənmi? Veys babaya, Şıx Mərdan babaya, bir də Abad kəndində Hajı əfəndi baba var. Abad kəndinin qəbirstannığında dəfn olunubdu. Hajı əfəndi baba Xıdır babaynan yaxın olubdu. Xıdır

babaynan ha. Eşidirsənmi? Olar görüşürdülər bir-biriylə. U Hajı əfəndi baba da... U Ləki camaatı da u vaxtı çəltik əkirdilər belnən. Bu burdan gəlib keçib gedəndə Ləki vağzalınnan Ağdaşa gələn vaxtında bular buna rast olur. Deyirlər ki, ay Hajı əfəndi baba, nolar u dosta deyəsən ki, bir kərə də bizə gəlsin, biz də onu tanıyax, söz-söhbət eliyək. Deyər ki, mən deyərəm, bəlkə siz qəbul eləməzsiz. Deyirlər: «Qəbul eliyərik». Bu gedir, sonra Xıdır babaynan rastdaşır. Deyir ki, ya Xıdır, bilirsən nə var? Deyir: «Yox». Deyir: «Məə bir sərəncam olubdu, Ləkidə filankəs, filankəs, filankəs var, üçü məə müraciyət elədi ki, u Xıdır babaya di, bir az da gəlsin biznən söhbət eləsin». Əməlli qulax as ha. Deyir: «Yaxşı». – «İndi mən səə u vəsini deyirəm, u tərəfini özün bilərsən. Havaxt məslahat olar olarnan görüşərsən, görüşməzsən özün bilərsən».

Xıdır baba gəlir. Günnərin bir günü bular çəltik zəmisi bağlıyıllar üçü də. Bildinmi? Bel əllərində. Bular yer ləklədikləri yerdə deyir: «Əssalamü məleyküm və rəhmətullah». Bular da deyir: «Əssalamü məleyküm və rəhmətullah və bərakatü». Deyir ki, a bala, gəlmişəm, nə qulluğunuz var. Xıdır baba deyir ha. Məni ismarış eləmisiz, gəlmişəm. Nə dərdiz var deyin. Deyir: «Helə?» Deyir: «Helə». Deyir: «Çox gözəl. Əyər sən Xıdırsansa, mənim bu belim kürək olsun». Xıdır Nəbini bular tanımır. Deyir ki, sizin beliniz kürək olsun. Bir kərə basıllar girmir, iki kərə basıllar girmir, belə çöyrülüb görürlər Xıdır Nəbi yoxdu. – «Ə, bizim başımıza kül olsun, a bizi Allah yox eləsin. Kişi ayağıynan gəlir bizə deyir, biz heyvan ola-ola, biz eşşək ola-ola başa düşmədik». Bildin?

## XV mətn

Günnərin bir günü Xıdır Nəbi bərdən arı – o tərəfə gedir. Gedir qapıya girir – məhləyə, ayna baxır, bayna baxır, arvad məhlədə olur. Deyir: «A baba, buyur gəlginən». Deyir: «Kişi hardadı?» Deyir: «Əhməd əfəndi namazdadı». Deyir: «Gəl, Əhməd əfəndi indi namazdan fərrux olajaxdı». Bu namazı qutarır, durur gəlir. Görüşürlər, öpüşürlər, söz-söhbət, ixtilat. Deyir ki, hara gedirsən, qal, qonağım ol. Deyir: «Yox, bərdən arı Qəmərvana gedəjəm». Bu kişi də qayıdır öyünə. Bax, helə söhbət eliyirlər, arvadı da durur hal hazırda.

O bütün məmləkəti gəzir dərviş fasonunda, dilənçi fasonunda, sail fasonunda, alim fasonunda. Bu hər dona girə bilir. Bunu heş kim tanıya bilmir. Bunu hardan tanıyıllar? Bunun barmaxlarının arası var ha, onnan tanıyıllar onu.

## XVI mətn

Bu gəlir burda bir Pirkəkə kəndi var. Bunun burda bir alim dostu var. Bu gəlir bunun qapısına dirənir. Çağırır, çağırır ki, filankəs, filankəs. Deyir: «Namaz üstədi». Deyir: «Çox gözəl». Deyir ki, namaz qutarannan sonra deyərsən ki, Xıdır baba gəlmişdi, onun namazı namaz döylü, batildi. Soruşcax ki, niyə? Unnan ötrü ki, u namazı qılıb başın yerə döymürdü, u dokqaz döyürdü ki, görəm uşaxlar pazı vurubdumu, dokqazı bağlıyıblar. Qapı dokqaz idi da onda. Paz götürüb vurullardı ki, malı-zadı gəlib aparallar. Bildinmi? Hə. Buna görə deyərsən ona ki, u namaz qılmırdı, dokqaz döyürdü. Namaza duran adam dokqaz döyməz, fikri namazda olar, dokqaz sonrakı işdi.

## XVII mətn

Mömin bəndələrin gözünə görükür. Belə bir balaca kişidi. Rast olur adama, hər adama yox. Özü istədiyi, özünə məqam adamlara rast olur. Gəlir səən yana, salam verir, səndən dilək diliyir, sənin nə diləyin varsa, unnan istəyirsən. Unu sənə verir də, vermir də özü bilər. Bir də görürsən yoxdu.

## XVIII mətn

Keşmişdə kəl-kotannan işdeyirdilər da. Traktor, maşın, ayan-bayan yox idi. Tək korpuslu kotan idi. Kələ qoşurdun, kəlnən yer sürürdün. Kotanı xarab olur, arabaya qoyur, Ağdaşa aparır kotanı qayırtdırmax üçün. Buralarda da heylə usta yox idi. Aparır kotanı qayırtdırıb gəlir. Şəmsabad qozu var, u qozun dibindən keçir bəri. O qovaxların dibinə çatanda arxaya baxır, görür ki, əlini qoyub kotanın dəstəyinin üstündə bir adam oturub orda. Bu adam buna deyib ki, oğul, qorxma. Məni görüb qorxdun deyəsən. Qorxma. Nə istəyirsən? Deyib ki, baba, heş bir şey istəmirəm. – «Yox, uruzqudanmı, can sağlığındanmı, nə istəyirsən?» – «Uruzqu istəyirəm». – «Uruzqu verdim səə», – deyir. Çöörükür baxır, görür yoxdu arabada. U Xıdır Nəbi heylə bir kişi idi.

## XIX mətn

O cavan da gələr, qoja da gələr, hansı şəkildə desən gələr. Onun çox möcüzələri var. Yaşlı kişilərin dediyinə görə, o Xıdır baba bir insana üş dəfə görünməlidi həyatı boyu. Əgər onu bilsən, onu tanıyası olsan, hiss eləsən Xıdır babadı, elə ətəyindən tutsan, nə dilək

eləsən yerinə yetirər. Xıdır babanın heylə hökmü var. O Alahın ən yaxşı dostudu. Özü də deyib, kim Xıdır babanı tanıyıb nə istəsə, onu verəjəm, ona yetirəjəm.

Görüb ki, kişi gəlir o üzdən bəri. Belə bir dərviş libasında gəlir. – «Əşi, bunnan Xıdır baba olar, dilənçidi, saildi». Çöyrülüb belə baxıb, görüb kişi yoxdu. – «Əşi, neynədim mən? Bunu tutaydım, saxlıyardım. Hara keşdi getdi bu?» Xıdır babanın heylə görüb, heylə də buraxannar olub.

**XX mətn**

Hər kəs Xıdırı görsə, onun gözünün işığı kəsilməz. Tamam ölənə qədər onun gözünün işığı kəsilmir. Bir də onnan niyyət istəyir.

**XXI mətn**

Xıdır İlyas sudadı, Xıdır Nəbi quruda. Dara düşürsən, buları çağıranda bular dadaa çatır. O şəxsə görükə bilir ki, Allahın göndərdiyi əmrlərə əmələ edə, beş vaxt namaz qıla, oruc tuta, Allaha ibadət eliyə. Bir də nə iş görsən insafıı əldən qoymuyasan. Oğurlux eləmiyəsən, əliəyrilik eləmiyəsən. Onnan sonra, canım səə söyləsin, pis yola getmiyəsən, başqasının qadınına nəfsin keçmiyə. Ona görünkə bilər. Onun səə dediyi sözləri bir adama söyləsən, o saat yox olajax. Yanı səndən uzaqlaşajax. O nə eliyibsə, heç kəsə, hətta ataya da, anaya da danışmayasan.

**XXII mətn**

Belə rəvayət eliyirlər ki, Allah Xıdır İlyasa dirilik suyu verib içməyə. O, suyu içib artıx qalanını tulluyub. Həmin su gəlib Türyançaya düşüb. Ona görə də Türyançayın suyu təmiz və şəffaf olub. Onunla sulanan torpağa bir həftə su lazım olmur, əkin daha bərəkətli olur, amma Kürün suyu ilə sulanan torpax iki gündən sonra cadar-cadar olur.

**XXIII mətn**

Allah deyir ki, ya Xıdır, məsələn, Yevlax körpüsünün ortasında bir adam dayanıb, get onnan özünün harda olmağını soruş. Gəldi. – «Salam əleyki». – «Əleykimət salam». Dedi ki, Xıdır peyğəmbərin harda olmasın mənə deyə bilərsənmi? Bu baxdı, dedi: «Deyərəm, niyə dimirəm». Belə bir kitabça çıxardır cibindən, açır belə varağı, baxır, deyir: «Nə yerdə döyül, nə göydə döyül». Körpünün üstündədi

axı bu. Deyir ki, ya Musa, vur əlindəki düşsün. Əlinin altınnan vurur, kitab düşür. Dəftərçə düşür əlindən. Orda Xıdır peyğəmbər qeyb olur. İndi oğlum, hamısı elmlə olan şeydi. Hamısı Qurannan götürülüb elmlər.

## XXIV mətn

Bax bizim bu gəlinin cijisinin əmisi. Gəlib orda namaz qılırmış cumadan cumaya. Yaxşı onun məhləsi narlıq olubdu. Onun dibində namaz qılırmış onnan. Gəlib onu tapmıyanda məhlədə gəzirmiş. O kişi görürmüş onu. Valıh dayının arvadı əppəyi bişirə bir teşt, gətirər təndirin başına. Görər, vallah, bir kişi gəldi. Nə bilir bu kimdi. Deyir ki, a bajı, ərin öydədi. Deyir: «A kişi, nə bilim mənim ərim öydədi, öydə yoxdu?» Deyər ki, onnan namaz qılmağa gəlmişəm. Ərin hara gedib? Deyər: «Bilmirəm hara gedib». Buna ajıxlı cavab verib. Çöyrülər belə baxar, görər, Allah haqqı, kişi yoxdu. Arvad əppəyi bilməz hancarı sərər, hancarı qayırar. Bala, elə aradan bir az keçməmiş Valıh dayı gələr çıxar. Gələr. Deyər ki, a Valıh dayı, vallah, bir kişi gəlmişdi. Mən də ona sənin yerini demədim. Deyir: «Hancarı kişi idi?» Deyir: «Vallah, çöyrüldüm gördüm kişi yoxdu». – «Allah öyüü yıxsın, – öylərini də dağıtdı, – a xəstə, o Xıdır peyğəmbər imiş. Allahın məsəli, o məndən namaz qılmağa gəlibmiş». Deyib: «Mən nə bilim». Başına-gözünə çırpıb. Azarlayan, ürəyi gedən hamısı onun üstünü ziyarət eliyir.

## XXV mətn

Gəldi, deyir, gətdim buna çörək qoymağa. Dedi, deyir, oturmuyajam. Burda iki dənə qız var, evlənmiyibdi, mən oların bəxtini açmağa gəlmişəm. Gətdim, deyir, çay qoydum, çörək, gördüm yoxdu.

– Baxtını açdı, nənə?

– İkisi də getdi.

## XXVI mətn

Bizim bu kəndə bir nəfər qadın pis vəziyyət keçirib, amma mömin olub. Gəlib ona bir kağızın içində nəsə bağışlayıb gedir. Sonra açıblar görüblər kağızın içində iki qıça qənd var, bir dənə də qızıl onnux. Bu qızıl onnux mənim beynimə girmir. Amma qənd

girir. Bu şeydən sonra olar imkanlaşıb. Hətta bu kadına ömründə bunnan sonra it hürmüyüb. Ən qəddar it buna hürmüyüb. Bu qadın sübut eliyə ki, mən Xızır Nəbini görmüşəm, ona görə it mənə hürmür. Bax belə bir rəvayət olub.

### XXVII mətn

Dörd ayaxlı heyvan yoxdu. Onda u, deyir, ora qonax olmur. Niyə? Una görə, deyir, göydə qada enəndə nə u kişiyə gəlməlidi, nə Xıdır əleyhsalama. Una görə, deyir, una qonax olmur. Xəbər alır. Deyir: «İtindən, pişiyindən dörd ayaxlı nəyin var?» Deyir: «Heş nə». Deyir: «Sağ ol, mən getdim». Ötür o birsi qapıya. Hayatda mal-qara, it-pişik yaxşı şeydi.

### XXVIII mətn

Gözə görükən şeydi. Təzə körpü salarsansa, yol salarsansa, orda işdiyən adamlara görükür. Belə rəvayət var ki, deyirlər guya bir adam bir körpü salarmış, u körpünün yanında qarolda dururmuş ki, Xıdır Nəbi burdan gedəndə onnan bir dilək istəyəcəm. O da, deyir, gəlibdi körpünün qabağında dayanıb. Görüb bir nəfər ağsakqal kişi gəlir. Deyibdi ki, a kişi, burdan Xıdır Nəbi keşcəkdi, səni qoymuram keçməyə. Hə. Arı-bəri, bular höcətdəşiblər. Bunu körpudən keçmə-yə qoymuyub ki, birinci Xıdır Nəbi keşməlidi. Mən onnan dilək istəməliyəm. Belə çalmalaşanda bu adam yox olur. O saat kişi başa düşür ki, bu adam Xıdır Nəbi imiş. Xıdır Nəbi, demək, elə keçirmiş ordan ki, görünürmüş, amma bildirmirmiş ki, bu Xıdır Nəbidi.

### XXIX mətn

Xıdır Nəbi burdan (dərənin ağzınnan – top.) keçəndə deyir ki, qoyunu dərəən ağzınnan yığışdırın. Amma hava belə işıxlı idi. Hə. Deyibdi ki, qoyunu yığışdır burdan, sel gəlib qoyunu aparar. Demək, çoban buna inanmır. Deyir ki, əşi, hava işıxlıdı, sel nə axtarır. Sən də elə söz danışırsan ki? Bu aralanan kimi hava qaralıb, şakqıldıyıb sel gəlib kişinin qoyununu aparır. Bax, belə şeylərə də rast gəlib.

### XXX mətn

Bir bajı idik, deyir, bir qardaş idik. Qardaşım, deyir, o vaxtı kəl-arabaynan gedəndə yolda görübdü ki, bir dənə kişi çağırır bunu. Deyib:

«Ay oğul, saxla, mən də səən aravannan gedim». Saxlıyıbdı. Minib arabaya. Deyibdi: «Baba, mən bu yaxın kətdə saxlıyajam arabanı». Deyib: «Elə mən də oratan gedəjəm». Yavaş-yavaş danışa-danışa gələndə bu deyər ki, ay oğul, sən nə işin sahibisən? Nağarmax istəyirsən, ürəyindən nə keçir? Deyir ki, ay baba, bircə mən oxumax istəyirəm, oxumaxdan başqa heş bir şey fikirləşmirəm. Deyəndə bu kişi durar üş dəfə bunun kürəyinə belə vurar ki, oğul, Allah qoysa, oxuyarsan. Nənəm ölüncə deyirdi ki, xan Şuşinski oxuyanda mənim qardaşım onun yanında, nətəər deyərlər, üstün idi. Bir heylə, deyir, gözəl səs veribdi una. Ölüncə, deyir, u çörəyi yidi qardaşım. Kənd toylarında saz çalıb oxuyardı.

### XXXI mətn

.......................... gətirəndə görər ki, bir dənə kişi yorulubdu, oturubdu. Deyər: «A dayı, burda niyə oturmusan?» Deyir: «Ay bala, darıxmışam, oturmuşam, niirsən, çıx get». Tağı baba bunnan əl çəkməz. Tağı baba çox Allah vermiş adam idi. Məən bugünki kimi yadımdadı. U kişinin bostanı-zadı olardı. Hə. Tağı baba nə qədər eliyər, kişi durmaz ayağa. Görər ki, kişi sussuyan kimidi. Götürər su verər Tağı baba buna. Su verir, suyu içər. Unnan sonra durar Tağı babaya deyər ki, Allah səni ölüncə çörəkli eləsin. Məən bugünkü kimi yadımdadı. Bax u Tağı baba ölüncə – doxsan beş yaşında öldü, – onun beli bükülmüşdü, gənə tərəvəzdə əlləşirdi.

### XXXII mətn

Gəlibdi. Deyib: «A dayı, xoş gəlmisən». Gülara xala buna deyibdi. Deyib ki, xoş gəlmisən. Deyib: «Sağ ol, ay bala». Seyvannarı uların alçax idi. Seyvanın qırağında u kişi yanını qoyub oturub. Deyib: «A bala, bilirsən mən nə istəyirəm?» Deyib: «Nə istəyirsən, ay baba, nə istəsən verəjəm». Deyib: «Bax bu çal çolpanı tut məə ver». Məhlədə bir xallı-xallı çolpa var imiş. Deyib: «Ay baba, bu saat tutum». Tutub çolpanı verib. Çolpanı verib. Sonra deyibdi ki, məə bir dənə əppək ver. Deyib: «Ay baba, əppəyim var, qonağa layax döylü. Qoy gedim, qonşu indicə çıxartdı əppəyi təndirdən, təndirdən çıxan isti əppəyi götürüm gəlim». Yüürübdü Gülara xala qonşuya, u qonşudan gəlincə kişi çıxıb gedibdi, çolpa da seyvanın başında. Gülara xala yolun ayağınatan yüürər ki, kişi çolpanı qoydu, çıxdı getdi, əppək də əlində. Sonradan deyib: «Hə, bu yəqin ki, Xıdır Nəbi imiş. Mən bunu tapa bilmədim».

## XXXIII mətn

Doğa buluyur. Bir də görür bir kişi dedi ki, salam məlöykü. Belə baxdı. Dedi: «A kişi, sən hardan gəldin?» Dedi: «Dey, burdan». Bunun da iki qapısı var. Taxta dərvaza, əl qapısı. – «Mənim burda böyük qapım var, darvazam var, sən bayannan hardan gəldin?» Umud deyir ki, mən də burdayam ha, bunu danışan adam. Dedi ki, deyir, a kişi, gəldim da. İndi səyf elədim, nağardım. Çəpəri tapdalamışamsa, bir şeyə əngəl eləmişəmsə, sən məə niyə ajıxlandın? Filan-peşman. Nəsə, çıxır gedir. Bir vaxt görür kişi yoxdu. – «Ədə, bu kim idi? Yəqin Xıdır Nəbi idi, çıxdı getdi».

Xıdır Nəbi quruda olur, Xıdır İlyas suda. Unçan belə misal var. Niyə dərin suya girib Xıdır İlyası çağırıram ə, mən.

## XXXIV mətn

Öyə gedirdim. Gördüm yolun qırağında gəndalaşdıx var. Bu qızlardı, gəlinnərdi burda başdıyıllar danışmağa, gülməyə. Mən bunnan soruşdum ki, nolub aaz. Deyir: «Orda bir kişi var, çılım-çılpax, cındır-mındır». Dedim: «Olsun da, çıxın gedin». Getdilər deyir. Bu kişini götdüm getdim öyə. Arvad əppək bişirmişdi. Gətdi əppək qoydu. Yidi, deyir, əppəyin parasını. Durdu dedi: «Məni apar ötür». Apardım ötürdüm. Qayıtdım gəldim. Arvad dedi: «Ay kişi, u kişi çörək yimədi?» Dedim «Yidi». Dedi: «Yox, ora qoyduğum əppək sappasağ durur». Deyir: «Aaz, nə danışırsan? Gözümün qabağında yidi». Hara çatar da. Amma gedəndə məə dedi ki, Allah işii avand eləsin. Oğul, Allah haqqı, unnan indiyədək öz-özündən pul gəlir əlimə.

## XXXV mətn

Xıdır Nəbiynən Xıdır Əleyhsalam iki qardaş olub. Sağ əli həmişə yaxasında olub, əlini göstərməzdi.

## XXXVI mətn

Ağcazı kəndindən qovu keçir, Ərəbocağı kəndində itir. Söyləyicinin dediyinə görə, həmin qovunu Xıdır Nəbi salıb. Əsasının ucunu yerə sürtə-sürtə gedib, əsanın yerində həmin qovu əmələ gəlib.

## XXXVII mətn

Təzə körpü salınanda birinci ordan Xıdır Nəbi keçir. Qonşusu Həmiddən eşidib. Körpü salırdı. Deyib ki, Allahdan imkan olardı, burda durardıq, Xıdırı görərdik.

### XXXVIII mətn

İncilin yarpağı rəngdə paltarı olur Xıdırın. İncili söymək olmaz, onu kəsmək olmaz. Onun dibində ölüya olur, onun dibində Qurban olduğum (Xıdır Nəbi – top.) hərlənir, gözə görükmür.

### XXXIX mətn

Dünyanın əvvəlindən axırına qədər bütün qapıları ziyarət eliyəjək. Kim savab adamdı o onu görəjək, tanıyajax.

### XL mətn

Bir gün peyğəmbər, deyir, oturmuşdu, zikr eliyirdi. Gördü bir şəxs girdi içəri uzun boylu, qarabuğdayı. Dörd rükət namaz qıldı, Allaha dua elədi, durdu peyğəmbərlə görüşdü. Peyğəmbəri möhkəm silkələdi. – «Salamat qal» – deyib çıxdı qapıdan. Peyğəmbər bu şəxsi tanımadı. Aradan bir şey keçmədi, Həzrət Əli gəldi. Dedi: «Həzrət Əli, u qapıdan çıxan şəxsi görmədin?» Dedi: «Bir şəxs gedirdi, uzaxdan gördüm». Dedi: «Unu tanımadın?» Həzrət Əli dedi: «Sən tanımadığıı mən necə tanıyım?» Cəbrayıl gəldi, dedi ki, ya peyğəmbər, o Xıdır əleyhsalamdı, dedi. Sənnən gəldi görüşdü, dedi. Səndən ayrılanda səni onçün möhkəm silkələdi ki, qəlbəə yerisin.

### XLI mətn

Seyvanda, deyir, namaz qılırdı. Namaz qılanda deyir, hə, Xıdır Əleyhsalam gəlib kəndin içiylə gedirdi. Dedi: «Namaz qılır». Dedi: «Dədən namaz qılmır, dədən dokqaz döyür». Hə. Bu uşax getdi ki, dokqazı döyəsi mənəm, dədəm hardan dokqaz döyür? Baxdı gördü ki, dədəsi seyvanda namaz qılır. Yüürdü dədəsinin yanına. Bu gedən kimi namazı qutarmış olur. Dayandı, namaz qutardı. Dedi: «Dədə». Dedi: «Hə». Dedi: «Orda bir kişi var, qapıda. Dedi ki, dədən hardadı. Dedim ki, namaz qılır. Dedi ki, dədən dokqaz döyür». Dedi: «Ə, nijoldu?» Dedi: «Yolda idi». Dedi: «Ə, u Xıdır əleyhsalamdı. Mənim qəlbimdən keçirdi ki, görəsən uşax dokqazı döyübdü, döymüyübdü? Keşmişdə xanalar olardı, onu, məəçün, dokqazı qoyub onu vurullardı ki, mal ordan çıxmasın. Buna xana deyərlərdi. Kişi də namaz qıldığı yerdə fikirləşirdi, görəsən, uşax dokqazı döyübdü, döymüyübdü. Dokqaz döymək onnan qalıbdı. Çıxıb uşax baxıb o yana, bu yana, deyib: «A dədə, yoxdu». Deyir: «Hə, u Xıdır əleyhsalam idi, ay bala. Bax, onu sən gətirsəydin qonağımız olardı».

Deməks, Xıdır bu formada gəzir. Bir də axır zamanda ölüm bulara olajaxdı. Ona kimi olara ölüm məsələsi yoxdu. Ona kimi olar həmişə gəzir, səyyardı olar. Həmişə, məəçün, dara düşəndə Xıdır əleyhsalam, mənə kömək elə, əsas da o vaxtı camaatın arabası-zadı batıb eliyirdi. Çiyinnərini verirdi arabaya «Xıdır, bizə kömək elə. Xıdır, bizə kömək elə bu arabanı qaldırax». Bizim kənddə bir şəxs var idi. Arabaynan avar gətirəndə bunun arabası batır. Özü də düm təkəm, deyir. Bu şəxs danışanda eşitmişəm ha. Düm təkəm, deyir. Ayna-bayna baxıram, deyir. Kəllər dizə kimi palçığa batıb, çıxa bilmir. Daldan, deyir, ya pismillahi-rəhmani-rəhim – bizim u Xəlfə Kərim baba var orda, – ya Xəlfə Kərim, ya Xıdır, sənin köməyin, ya Xəlfə Kərim, sənin duanın hörməti, Xıdırın da köməyi, hörmətinə bu arabanı burdan çıxarın. And işdi həmin adam elə biləsən araba heş batmıyıb. Çiynini verən kimi araba çıxdı. Bir səda gəldi ki, get, sənə yaxşı yol. Amma heş kəsi görəmmədim. Gejə idi, qarannıx idi. Xıdır əleyhsalam həmişə dara düşənə kömək olur.

**XLII mətn**

Cavannıxda, deyir, arabaynan dən aparırdıx. Araba gəldi, deyir, bir gölməçədə batdı, kəllər onu çıxara bilmədi. Biz də iki nəfərik. Düşdük təkərlərdən-zaddan basax. Bir yoldaşım o tərəfdən tərpədirdi, mən də bu tərəfdən. Onda gördük, deyir, arxadan bir adam arabanı basır. Bu basmaxnan, deyir, araba çıxdı. Araba çıxdı, deyir, çöyrüldük gördük adam yoxdu. Onnan sonra biz bunu müəyyən adamların, əfəndilərin yanında söylədik, dedilər: «A həriflər, Xıdır Nəbi olub». Bunu şəxsən məə o kişi söhbət elədiyini eşitmişəm.

**XLIII mətn**

Burada bizim Abxal kişi vardı, qarolçu idi. Ayıldım, deyir, gördüm yaxşı hava var. Qoyunu açdım ki, otdasın. Qoyun, deyir, başdadı getməyə. Bir az getdim, deyir. Gördüm qabaxda bir adam durub. Qorxdum deyir. Kişi dedi ki, hara aparırsan qoyunu. Dedim: «Otarajam». Dedi: «Hələ axşamdı, qoyun bölük düşər. Apar sal yerinə, sonra apararsan». Qoyunu geri qaytaranda çöyrüldüm, kişi yoxdu.

Xıdır Nəbiynən İlyas əleyhsalam ildə bir dəfə Məkkədə Həcc zamanı görüşürlər. Amma beş milyon, üş milyon ki, adam yığılır ora, oları tanımıllar.

## XLIV mətn

Yaxşı adamlara görünür o. Danışır səndən, səə xeyir-dua oxuyur. Əlində əsası var, gödək kişidi, deyir. Dala çöyrülüb baxıb görürsən yoxdu. Öz-özünə uçub gedib.

## XLV mətn

Bizim kənddə kadın xeylağı, deyir, ləmpə şüşəm yox idi, işığımız da yanmırdı. Dedim: «Ya rəbbi, bu ləmpə şüşəsinə neynim? Sınıb ləmpə şüşəsi. Axşam olacax, bunun başına nə qoyum». Belə fikirləşdim, deyir, otdum. Gördüm, Allah haqqı, bir kişi məni çağırır. Əlində əsa, gödək kişidi. Dedi, deyir: «A bala, bura ləmpə şüşəsi qoyuram». Ağaca taxdı, deyir. Yüürdüm, yüürdüm, çatmadım. Bəndin üstünə çıxdı kişi, getdi. Hara getdisə, kişini görəmmədim. Heylə yaxşı adamlara görünür, pis adamlara görünmür.

## XLVI mətn

Bir nəfər adam Zərdabdan söhbət eliyirdi. Getdim bir qaz əlli üş maşını qarpız yığdım, Rusiyetə aparajaydım. Gətdim Rusiyet maşınına yığmağa. Kürün üstündə maşın batdı. Gördüm yox, olan şey döylü. Axşam da maşını qaraja təhvil verməliyəm. Artıx vaxd daralıb. Darıxmışdım deyir, bilmirəm nağarım. Özü də, deer, bir az da söyüş söyən adam olubdu. Elə belə idi ki, baxdım, deyir, gördüm maşının arxasında adam durubdu. Dedi: «Salam məlöykü». Dedim, deyir: «Əlöykümət salam». Dedi: «A bala, nolubdu?» Dedim: «Batıbdı». Dedi ki, xodda, mən də kömək elijəm. Gülmək tutdu, deyir, məni. Dedim ki, sabahdan bu maşın çıxmır, sən məə nə kömək elijən? Dedi: «Bala, pismillahi-rəhmani-rəhim elə, mən də kömək elijəm». Pismillahi-rəhmani-rəhim, ayağımı qoydum, deyir, maşın getdi xoda. Tərpətdim, deyir, gördüm, doğrudan da, bu kişi də kömək eliyir. Maşın, deyir, çıxdı çölə. Maşının təkərlərində bu boyda palçıx. Düşdüm, deyir, yerə ki, kişiyə deyəm, əmi, çox sağ ol, gördüm kişi yoxdu. Bax, Xıdır Nəbi insannara belə görükür.

Xıdır Nəbinin nişanı haqqında belə rəvayət eliyirlər ki, Xıdır Nəbinin sağ əli dirsəyə qədər ağdı. Əlini heş kəsə göstərmir. Allah səə qismət eliyərsə, onun əlini görərsənsə, onu tanıyarsansa, onnan yapışsan, desən nə ehtiyacın var, o, onu yerinə yetirəndi.

## XLVII mətn

Bəylər kişi vardı, u danışırdı ki, mən çöldə mal güdürdüm, novatçıydım, naxırçıydım, yoxsa çoban idim, deyir. Neysə, axırı malda

idim, deyir, qoyunda idim. Mən düzdə idim, deyir. Bir nəfər ağ atdı elə bil göydən düşdü, deyir. Bilmədim hardan gəldi, deyir. Bu düşdü mənnən söhbət elədi ki, haralısan, nəçisən, nətəərsən? Dedim filan yerliyəm, burda qoyun otarırıx. Bu haqqda danışannan bir xeylax sonra bu mənə dedi ki, nə istəyirsən məndən. Mən heş nə istəmədim. Dedi ki, var-döylət, nə istəyirsən? Dedim ki, səndən heş nə istəmirəm, bircə can sağlığı istəyirəm. Elə mən can sağlığı deyən kimi baxdım ki, bu kişi yoxdu. Hə. İndi o kişinin bu saatdarı doxsan-yüzü addıyır yaşı. Canı da buz baltası kimi. Can sağlığı verib gedibdi una.

## XLVIII mətn

Mənim bir əmiliyim naxırçı idi, çöldə mal güdürdü. Bir gün gəldi u bizə, qardaşına söhbət elədi ki, buyünnəri bir möcüzə görmüşəm. Qardaşı xəbər aldı ki, nə möcüzədi. Dedi ki, vallah, yorğun idim. Çörəyi yidim, elə püşdədə uzandım malın yanında, məni yuxu tutub. Gördüm bir alçax, gödək bir kişi, əli xırdadı, barmaxları iri, ağsakqal adam məni çağırdı. Ha beləcə durub oturdum. Deyir, məə dedi ki, nə istəyirsən məndən. Deyir, dedim ki, dayı, mən səndən nə istəyim, heş bir şey, sağlığı. Deyir, dedi yox, nəsə bir şey istə məndən. Deyir, dedim səndən sağ can istəyirəm. Heş nə, nə istəyim. Sağ can istəyirəm. Heş nə, nə istəyim deyən kimi, deyir, gördüm heş kəs yoxdu. Çox, deyir, zad elədim bəlkə məni qara basır, yuxudan hələ ayılmamışam. Durdum ayağa gəzişdim, deyir, gördüm yox, yuxu döylü bu. Sonra unu bir neçə mollaya-zada söhbət elədi. Dedilər u Xıdır Nəbidi. Hər adama u görükmür. İndi sən kasıb adamsan, naxırçısan, pak bir adamsan, görüküb səə, sən də heş bir şey təmənna eləməmisən. Nə disən unu yerinə yetirəjəydi. Sağ can istəmisən, lap yaxşı eləmisən. U kişi də həştad yeddi yaşında idi, dünyasını dəyişdi. Dünyasını dəyişənətən də naxıra getdi. Da azarlıyım, yatım, nə eliyim unda olmadı.

## XLIX mətn

Üş yoldaş bular gedirlər. Deyirlər filan yerdə su axır. Üş cürə sudu, onun üçüncüsünü içən ölmür, qiyamətədək yaşıyır. Kəndin o vaxtı böyüyünə kəndxuda deyirlər. Bu da gedir, Xıdır Nəbi də gedir, bir adam da gedir. Bular gedəndə tuluğa yığırlar ki, çıxarıx çöldə arxeyin yeyərik, sudan da içərik. Amma Xıdır Nəbi gedən kim girir

çimir də, sudan da içir doyunca. Çıxıb gəlirlər. Bular rahatdaşır ki, oturum içim. Hansı quşdusa bilmirəm, gəlir tuluğu deşir. Deşən kimi hamısı axır. Bular içə bilmir. İndi həmən Xıdır Nəbi hələ də yaşıyır. Dara düşənnər kömək eliyir.

## NƏMRUD

Nəmrud okqədər padşahlıx eliyib, qürrələnib, Allaha-zada sitayiş eləmiyib. Deyib: «Mən elə bir bina tikəjəm ki, o binanın başına çıxıb Allahı tapajam. Görüm, o Allah hardadı. Demək, bu asi düşüb da. Bu okqədər tikdirib binanı. Tikdirib, tikdirib. Bir qadın o binaya çıxıb. Dokquz ay, dokquz gün, dokquz saat, dokquz dəyqədən sonra binanın içərisində yarı yolda həmlini yerə qoyubdu. Onda Allah-tala: «Səni elə eliyərəm ki, sabah bu millət bir-birinin dilini başa düşməz, sən ki, o qadına u zulmu elədin». Səhər durub kərki istəyəndə mişar atarlar, mişar istəyəndə mismar atarlar. Mismar deyəndə palçıx atarlar. On səkkiz min aləmə bölünüb o millət, yetmiş iki dilə. Onnan sonra kim kimin dilini başa düşübsə, topalaşıb belə gedir, o birisi də topalaşıb belə gedir. Onnan yetmiş iki dilə ayrılıb. Bunu mənə babam Kərbəlayi Oruş kişi danışıb.

## HƏZRƏT ƏLİ

### I mətn

Bir gün də, deyir, Həzrət Əli dini bərpa eliyirdi. Bu dini bərpa eliyəndə, məsəlçün, Gəncədən çıxır İsmayıllıya gedir atdı, Düldülnən. İsmayıllıda, məsəlçün, dini təbliğ eliyir, camatı dinə dəvət eliyir, gəlmiyəni öldürür, neynir. Qayıdır gəlir Gəncəyə. Başdıyır bu Düldül Allah-talaya şikayət eliyir. Deyir: «Ya rəbbi, deyir, Gəncədən İsmayıllıya gəlirəm, yornux olanda gecə də qayıdıram Gəncəyə. Bu yorlarda yoruluram. Mən də canam. Sən bu Həzrət Əliyə deyə bilmirsənmi ki, bir yerdə axşamlıyax, genə başdıyax işimizə. Allah-tala Həzrət Cəbrayılı göndərir ki, get, Həzrət Əliyə deynən qayıdanda qənşərinə hardan qəbirstannıx düşsə, girsin qəbir əhlindən öy alsın rahatdıx istəyən kimi. Ona atına da, özünə də yer olajaxdı. Orda gejə dincəlsin, səhər öz işinə getsin, davam eləsin. Bu gəlir elə bir qəbirstannığa rast düşəndə gəlir girir qəbirstannığa. Gedir qəbir əhlinin birinin baş ağacının üstündə durur, deyir: «Ey qəbir əhli, beyjəlik məni Allah qonağı saxla». Rəvayətin deməyinə görə, görməmişəm, eləməmişəm, qəbir

aralanır, deyir: «Özəə də yerim var, ataa da yerim var, buyur gəl içəri». Həzrət Əli atını salır, girir içəri, görür ki, qıraxda bir yer var atını saxlamağa. Pərdə çəkilib qabağına. Bir oğlan da oturub burda. Hə. Bunnan görüşür, eliyir. Həzrət Əli girəndə görür ki, bu oturduğu otağın içində bu küşdə də örtük çəkilib, o küşdə də örtük çəkilib. Deyir: «Bu örtük nədi?» Deyir: «Xəbər alma». Deyir: «Nətəər xəbər alma, mən sənin qonağınam, sənin dərdəə şərik olmalıyam. Örtüklər nədi? Bunun mənasını mənə deginən». – «Gəl, dedi, sən məni tərpətməginən, dərdimi artırmaginən». Deyir: «Yox, məə bunu diginən». Hə. Başdıyır bu, deyir: «Bunun biri mənim anamdı, biri atamdı». Deyir: «Bu nə deyən sözdü?» Bu başdıyır pərdəni çəkir. Deyir: «Mən dua eliyəjəm, sən də amin de». Deyib: «Onun biri anamdı, biri atamdı, xıncır olublar olar».

– Xıncır nədi?

– Demək, vəşi bir heyvan sifətində. Vəşi, məəçün, donuz kimi, ayı kimi, heylə şəkildədi bu. Başdıyır dua eliyir, bular insan olur, çöyrülüb Allah tərəfindən insan olub. Pərdəni çəkir. Pərdəni çəkən kimi başdıyır bu oğluna deyir ki, ay oğul, burda da qonax? Öydə sənin qonağının əlindən bezar olduq. Gündə qonaqnan gəldin öyümüzə, yedin-işdin, kef elədin. Biz daa qab-qaşıx yumaxdan bezar oldux. Atası dedi: «Mən qazanıb gətirirəm, sən ona-buna yedizdirirsən. Burda da qonax?» Deyəndə Həzrət Əli Allah-talaya deyir ki, ya rəbbi, səyf eləmişəm. Başa düşməmişəm, bilməmişəm bu sirri. Təzdən olar xıncır olur. Belə əhvalatdar olubdu Həzrət Əlinin dövründə, qardaş.

### II mətn

Bir gün də, deyir, qəbirstannıxdan keçirdi. Qəbirstannıxdan çox zığıltı səsi gəlir. Bu zığıltı səsi gələndə dedi ki, ay qəbir əhli, nolub, niyə zığıldayırsan, nədi sənin dərdin, nədi sənin əzabın? Dedi: «Mən o qədər u dünyada pis işdər işdəmişəm ki, Allah-tala onun əzabını alır məndən». Dedi: «Sənin öydə aylərdən kimin var?» Dedi: «Heş kəsim yoxdu, bir uşağım var». Deyir: «Bəs o harda olur?» Deyir: «Boyaxçının yanıda qab-qacax yuyur». Hə. Bu boyax boyayannarın qabını-qacağını yuyur. Həzrət Əli gəlir kəndə. Gələndə xəbər alır bunu, şəxsi. Xəbər alır, örgənir, görür ki, bunun oğlu var. Oğlu görür ki, arxın qırağında boyax yuyur. Deyir: «A bala, o atana niyə bir Quran oxutdurmursan, xeyrat vermirsən?» Diib: «Ə kişi, nəyim var, nə verim? Yiyirəm burda, çıxıb gedirəm. Mənə pul vermir, para vermir.

Bunnan mən dolanıram. Nəyim var ki, sənə pul verəm, atama, anama hələ bir Quran da oxutduram. Heş nəyim yoxdu». Deyir: «A bala, versən verərsən». Diib: «A kişi, hardan verim?» Allah bunun nitqinə salır, deyir: «Bala, u qabda yuduğun u kirli sudan da olsa, verərsən». Deyəndə, deyir, bir balıx, u vaxtı sel gəlib, arxın yanına düşübdü. Suyu quruyub, balıx orda can verir, ölüm halındadı. Başdıyır bu sudan, deyir, alır, tulluyur, alır tulluyur. Həzrət Əli görür ki, balıx düşdü suya. Bu uşağın xəbəri yoxdu. Deyir: «A bala, bəsdi. Verdiyin xeyratı Allah qəbul eləsin. Bəsdi». Danakı gün gənə gedəndə burdan görür ki, qəbir əhlindən səs gəlir. Deyir: «Ey qəbir əhli, nətəərsən?» Deyir: «Allah, deyir, səbəbkardan da razı olsun, oğlumdan da razı olsun, məə ehsan verdi, deyir. Allah onun ehsanını qəbul elədi, məni əzabdan qutardı». Rəvayətin danışmağına görə, qojaların danışmağına görə, belə bir şey eşitmişəm. Bunu gözümnən görməmişəm, bir şey eləməmişəm.

## III mətn

Həzrət Əli öz-özünə fikirləşir, deyir ki, görəsən mənim kimi pəhlivan varmı? Ona deyirlər ki, filan qəbirstannığa get, orda Rüstəm adlı bir pəhlivan dəfn olunubdu. Onnan söhbət elə. Həzrət Əli gedib qəbirstannığa. Rüstəmi üç dəfə çağırıb. Rüstəm hay verib. – «Mən Həzrət Əliyəm, sənnən görüşməyə gəlmişəm». Rüstəm deyir ki, onda Zülfüqarı aşağı sal, mən tutum, qaldır. Əli Zülfüqarı qəbrə endirir. Rüstəm qılıncdan tutur. Əli nə qədər çalışır, dizləri torpağa girir, lakin Rüstəm yerindən tərpənmir. Rüstəm deyir ki, ayə, niyə qaldırmırsan? Həzrət Əli cavab verib ki, ay Rüstəm, yarıya qədər dizlərim torpağa girib, səni qaldıra bilmirəm. Rüstəm ona cavaf verir ki, ya Əli, sənə aslanım deyən adam mənə pişiyim desəydi, dağı dağ üstə qoyardım.

## IV mətn

Həzrət Əliyə deyir ki, Allahın məsəli, Məhəmməd peyğəmbər, bu kişiynən get sən. Gəlir deyir: «Sən məni oranın hökumətinə sat, sən dolan, görəh mən nağarajam». Demək, bu Tərtər çayının üstündə də bir əjdaha variymiş. Bura su işməyə gedə bilən yox idi. Kimə su lazım olsa, bir boşqab aş, bir də bir uşax apararmış nöybə çatanda, mal novatı kimi. Həzrət Əliyə də oranın hökuməti deyir ki, sən öküzləri güdəjəksən. Nə bilir bu Həzrət Əlidi. Nəsə, öküzün birinimi, ikisinimi canavar yiyir. İndi şəhərdəndi da gedəsi adam ora, u döyün qabağına. Döy oturub ha orda. U deyir ki, aparın Əlini.

Həzrət Əlini aparırlar. Kasıb adamdı da. Əli balaca adam olub diyilənə görə. Aparanda görüb bir arvad da ağlıya-ağlıya bir uşağın qolundan tutub, bir sini də aş gedir. – «A bala, kətdən də məni göndərdilər da, mənim nobatımdı» – diyəndə deyib: «O aşı ver məə». Yiyib, deyib: «U uşağı da qaytar get geri, su gələjək». Nəsə, gedib ora, görüb ki, bir dənə adam gəlir. Nə yiməyi yox, nə işməyi yox. Ayə, bunun boynunu vurun, nağarın. Həzrət Əli Zülfüqarı sıyrıb düşür bunun üstünə. Okqədər ki, buları qırıbdı, bu Tərtər çayınnan görüblər ki, su qan axıb gəlir. Tərtər sözü ərəb sözüdü. Tərtəmiz deməkdi. U çayın adı qalıbdı Tərtər. Yanı tərtəmizdi, bu sudan işmək olar. Yanı undan sonra bu su gəlibdi.

## HƏSƏN KAŞİ

Həsən Kaşi adında bir adam olur. Haca gedirlərmiş o vaxtı. Üç aya gedib, üç aya gəlirlərmiş. Ora da gedəndə gərək orda nikah eliyərmiş hərə bir arvada. Həsən Kaşi qabax gedəndə bir arvadla nikah olub, bundan bir qız uşağı olub. Həsən Kaşi hörmətdi adam olduğundan bunu hörmətdən salmaxdan ötrü bular bunu bilir axı, tanıyırlar. Deyiblər bunun öz qızını nikah kəsəyin buna, qızıynan yaşasın. Nəysə, qızı qoyurlar bunun yanına. Nəsə, Həsən Kaşi bir şey başa düşmüşmüş, nəymi, deyir: «A bala, səən cijiin adı nədi, kimsən, nəçisən?» Həsən Kaşi baxıb görür ki, bu, bunun qızıdı. Deyir: «Mən sənin dədənəm, atanam, bunu heş kimə demə». Özü-özlüyündə deyir ki, indi görün sizin başınıza nə oyun açıram. Gəlir kitabı yazır. Dəstəmazı sındırmax lazımdı, bir. Ölünün götünə çüy vurmax lazımdı, iki. Qoltuğunun altına ağac-mağac qoymax lazımdı, inkir-minkir gələndə ağaca dirənsin, üç. Belə-belə yazır qoyur söyüd ağacının yarığına. Deyir: «Ay camaat, bizə kitab gəlib, filan söyüddükdədi». Söyüd də tez yetişən ağacdı. İlin dokquz ayı inkişaf eliyir. Söyüddədi, özü də filan meşədə. Gedib söyüdü kəsirlər, yarırlar, görürlər ki, ordan kitab çıxdı. Belədi, belədi, deyirlər: «Hasan Kaşi düz deyir». Ondan sonra başdıyırlar bu forma özləri dindən çıxıb olurlar şiə.

## ƏZRAYIL
## I mətn

– «Bir oğlan üzüm yığır, get onun canını al». Əzrayıl gəlir əbürşümün altına. Görüb şümal kimi bir oğlandı. Okqədər gözəldi ki? Bu qayıdıb gedir. Qayıdıb gedəndə deyib: «Noldu? Səni mən hara göndərmişdim? Nağardın?» Deyir: «Qurban olduğum, saa agahdı, qıymadım canını almağa». Deyir: «Qayıt get al, səndən görmüjəklər». Get, işii gör. Qayıdır, gəlir gənə ağacın dibinə. Üzüm yığanda ayağının altından birdən budax qopur, gup düşür yerə, ölür. Deyir: «Gördünmü, səndən görmədilər, putaxdan gördülər. Putax sındı, o da yıxıldı».

### II mətn

Allah məxluqata deyib ki, kim Azreyil ola bilər, Azreyilliyi kim apara bilər? Bir nəfər deyib ki, mən apararam. Deyib: «Get, al». Sınıyır da Allah-tala bunu. Bu gedir görür ki, bir dənə it püşdədə yatıbdı – günün qabağında, balaları da yanında. Azreyillik eliyir da bu. Siftə itdən başdıyıb ki, görüm ürəyim gəlirmi. İtdən başdıyanda yazığı gəlib. Deyib: «Balaları var, mən onun canını nətəər alım? Canını alsam balaları yetim qalajax». Qayıdır gəlir. Bir qoja kişi var, yaşı ötmüş, istəyir ki, bunun canın ala. Deyir: «Əşi, bu qədər ömür sürüb, indi rahat günə çıxan vaxtı onun canını mən nətəər alım? Qoy gedim Allaha gəyişim, görək bu sözlərə nə deyir». Gəlir Allaha gəyişir. – «Bəs belə-belə, mən getdim bir itə rast gəldim. İt balalarını əmizdirib yatmışdı yanında. Balalarına yazığım gəldi. Sonra bir kişi vardı, ömür-gününü sürmüşdü, istədim bunun canını alam, sonra dedim ömür-gününü keçirib, indi firavan günə çıxıbdı, indi oturur istirahət eliyir, bunun canını mən nətəər alım?» Deyir: «Səndən Azreyil olmaz, sən get». Undan sonra həqiqi indi insannarın canını alan Azreyil deyir: «Mən alaram». Bu, çox cannar alıb. Bir günnəri sual verib Allah-tala buna ki, ömründə bir belə cannar almısan, heş peşman olduğun yoxdu ki? Deyir: «İki dəfə peşman olmuşam, iki dəfə yazığım gəlib». Deyir: «Niyə?» Deyir: «Bir qoja kişinin canını almışam, onda yazığım gəlib, köyrəlmişəm. Bir də zahı qadının canını alanda yazığım gəlib ki, öldürdüm, balası yetim qaldı». Allah-talaya ayandı da bu hədis. Demək, u qadının canını alanda qalan uşax zulumnan, yetimliknən böyüyüb qoja kişi olan vaxtı bunun da canını Azreyil alanda, demək, bala da bunun əlindən çıxıb, ana da. Deyibdi: «Sənin yazığın gəldiyi qoja kişi həmən zahı qadını öldürəndə qalan körpə, yetim olub. Başa düşdünmü? Demək, sən onun canını alanda yazığın gəlməsəydi, o

qoja kişini də öldürəndə yazığın gəlməzdi». Çünki, deyir, Allah-tala ananı öldürəndə siftə götürüb u yetimi yeddi kərə yerə vurur, görür ki, canı var, dözür, sonra onun anasını öldürür. – «Sənin niyə yazığın gəlir, sən Azreyilsən». Undan sonra Azreyil olur zalım. Da yazığı gəlmir qojaya, cavana. Vaxtı bitəni öldürür.

## III mətn

Deyir: «Ya rəbbi, mən onun canını ala bilmiyəjəm, mən ona qatdaşa bilmiyəjəm axı. Bir, ikinci də mən qarğışcıl olajam. Millət hamısı mənə qarğış tökəjək». Dedi: «Heylə döylü. Mən elə elijəm heş kəs günahı səndə görmüjək. Birini odda yandırajam, birini suda axıdajam, biri ağajdan yıxılajax, biri maşından yıxılajax, amma hamısının canını sən alajaxsan. Buna görə də Azreyil Allahın yaxşı dostu olub.

Azrayıl bir günnəri, deyir, düşür Allahın yanına. Deyib ki, ya rəbbi, bu işdəri mənə tapşırdın, bəs səndən sual eliyim mən də. Mən də sənin məlaykənəm. Mən buların canını aldığım nə qədər müddət olajaxdı? Allah-tala buyurdu ki, dünyanın axırına qədər. Səni o qədər yaşadajam ki, dünya tar-mar olana qədər. Deyir: «Onun müddəti havaxtdı?» Deyir: «Unu mən bilirəm, heş kəs bilməz». Deyir: «Mən onatan yaşıjam?» Deyir: «Hə, sən onatan yaşıjan». Deyir: «Bax gör, nə qədər sən yaradasan oların hamısının canını ala-ala gələjəm. Axır vaxtında bəs mənim canımı kim alajax? Mən də öləjəm?» Allah deyib: «Hə, öləssən». Deer: «Hancarı olajax, öləjəm mən?» Deer: «Sən, deer, bütün insannarın hamısının canını alandan sonra dünyanı elə elijəm ki, – bizdə indi yuxarı küləyi deyirlər, – yuxarı küləyinə elə tufan verəjəm ki, dağ-dərə, yer-göy hamısı bərabər şəkildə olajax. Günbatana yumurtanı qoyajaxlar, gündoğandan baxajaxlar görəjəklər orda yumurta görünür». U dərəcə Allah-tala yeri-göyü u şəkilə salajaxdı. Deer: «Bəs onda bir mən qalajam? Mənim canımı...». Deer: «Onda sənin canıı mən alajam». Deyir: «Hancarı alassan mənim canımı?» Deyir: «Sənin canıı elə alajam ki, deyək ki, bir karofka yağın içindən elə bil tük görmüsən. O tükü ordan çəkib çıxardanda, gör nə dərəcədə o yağın içindən o tükü çıxardırsan, sənin canını o cür alacağam». Deyir: «Onda da mənim ağrım, acım olacaqmı?» Deyir: «Azreyil, elə çığıracaqsan ki, günbatanda olsan, gündoğanda kim olsa, – dedi, – mən yaratdığımdan kim olsa, onun qulağı batacaq. Sənin o dərəcə, deyir, heylə çığırtın olacaq». Deyir: «Niyə?» Deyir: «Bəs sən bilmirsənmi mənim yaratdıqlarımın canını ala bilirsən, sən gör nə qədər millətlərin canını almısan, sənin də

canını heylə alanda çığırtın ərşə çıxacaq». Allah-talaya heylə bir sual vermişdi.

## IV mətn

Həzrəti Adəm surəti yaratmax üçün Həzrəti Cəbrayıla, Mikayıla, İsrailə Allah-tala tərəfindən əmr olunur ki, ayrı-ayrı torpaxlardan, təmiz sulardan, nə bilim, dağ torpaxlarından möhkəm olmax üçün gətirin, palçıx qatıb Adəm surəti yaratmax üçün gətirin cənnətin qapısının ağzına qoyun. Bular gedirlər gətirməyə. Palçıx çığırır, bağırır, nağayrır ki, məndən heş nə götürmüyün. Biz eşitmişik ki, yaxşı bəndələr cənnətə gedəjəkdi, bizim cəhənnəmdə yanmağa təərimiz yoxdu. Bular heş nə götürə bilmirlər, qayıdıb gəlirlər. Əzrayıla əmr olunur ki, get u torpaxlardan göt, nə lazımsa, gətir qoy ora. Bu da gedib, gənə də çığırıblar, nağayrıblar, vinimaniya vermir. Torpaxlardan götürür, gətirir. Həmin yerə qoyur, cənnətin qapısının ağzına. Sulardan gətirir – iyli sulardan, təmiz sulardan gətirib tökür onun üstünə. Burda bulardan palçıx qatılır. Deməli, qırx gün bu palçığın üstünə yağış yağır. Qırx gün şaddıx yağışı yağır, bir gün qəm yağışı yağır. Palçıx qatır u sulardan, hazırlayırlar, başdıyırlar burda Adəm surətini yaratmağa. Adəm surətini yaradırlar, Allah-tala tərəfindən buna yavaş-yavaş ruh daxil olur. Ruh daxil olur dizlərinə, gözünə, damarlarına, baxır dünyaya. Dünyaya baxır. Dizlərinə ruh gələndən sonra başdıyır hərəkət eləməyə. Hərəkət eliyir, qalxır. Allah Həzrət Əzrayıla deyir ki, yaranmışın hamısının canını almağı səə tapşırıram. U da deyir ki, əşi, yaranmışın canını alanda ular axı günahı məndə görəjəklər sən qırdın, batırdın, nağardın. Allah-tala una deyir ki, mən elə elijəm ki, heş günahı səndə görən olmujaxdı. Rəvayətdi, intaası görürəm hamısı doğru çıxır.

## V mətn

Həzrəti Azreyili yollayıb Allah. Gedib palçıxdan gətiribdi. Ağlaşa-ağlaşa qalıbdı bu adam. Deyib ki, səni apardığım kimi genə qaytarıb yerinə qoyajam. Həzrəti Azreyil deyib. Nəsə, gətirib palçığı. Deyib: «Nə dedin?» Deyir: «Söz verdim ki, palçığı gətirib qoyajam yerinə». Undan sonra Allah-tala Adəmi palçıxdan xəlq eliyəndən sonra bu ölüm məsələsini ortalığa atanda başdıyıbdı ağlaşmağa camaat. Dağlar, daşdar bu ölüm məsələsini götürmüyüb axı. Götürmüyəndə başdıyıblar ağlaşmağa. Deyib: «Get gör nağarır?» Deyib: «Ağlıyır». Bir gün, iki gün, üçüncü gün yavaşıyıb. Ölümü

verib insannara. Ölümü insannara verəndən sonra gedib qəbri qazıb hamı oturub qəbriin qırağında ki, mən öləjəm, Ağasən basdırajax, u birisi öləjək bu birisi basdırajax. İşdiyən olmur. Bu şeytanı da cənnətdən çıxardandan sonra salıbdı qarğı düdüyünə. Bu insannar ayaxların sallıyıb oturub, ərlərini ağdan-qaraya vurmuyublar. Deyib ki, açın buraxın şeytanı. Buraxan kimi şeytan gedib deyib ki, ə, Əhmədiyyə taxıl əkib ey, sən niyə əkmirsən? Undan sonra camaat başdıyıb işdəməyə. Unacan öləjəm deyib heş kəs işdəmirmiş.

### VI mətn

Azreyil ölən adamın gözünə görükür. Onun cənnət və cəhənnəmini görsədən dəqiqədə canını alır, da deyə bilmir. Hara gedirsə, onu da görsədir ha. Cənnəti də, cəhənnəmi də. Cəbreyil can verəndi, Azreyil alandı.

### VII mətn

Olar üş qardaş olubdu: Həzrət Cəbrayıl, Həzrət Mikayıl, Həzrət Əzrayıl. Deyir, Allah-tala deyib Həzrət Cəbrayıla ki, get məə torpax gət, bir ovuc, mən ondan insan düzəldəjəm. Həzrət Cəbrayıl gəlib, torpax çığırıb, vermiyib. Deyir: «Mən torpağımı verə bilmərəm. İnsannar azğın olajax, nə olajax, cəhənnəmdə yanajax. Cənnətdik olarsa, verərəm». Bular hamısı cənnətdik ola bilməz axı. Həzrət Cəbrayıl qayıdıb gedib. Ondan sonra Həzrət Mikayıl enib. Həzrət Mikayıl da ala bilmiyib. Ondan sonra Həzrət Əzrayıl enib. Torpax çığırdıxca bu enib aşağı, götürüb bir ovuş, qalxıb. Ondan sonra deyib ki, sən can alajaxsan. Səni elijəm Əzrayıl. O da deyir: «Axı mən u qədər millətin canını alsam məni günahkar biləjəkdi». Deyir: «Mən elə elijəm heş kim səndə günah görmüjək. Biri atdan yıxılajax, biri suya düşəjək. Deyəjəklər filankəs suya düşdü öldü. Dimijəklər Əzrayıl aldı canını». Həzrət Mikayıl qəbrdə sorğu-sual alır, Həzrət Cəbrayıl köməklik edir. Həzrət Cəbrayıla da Allah-tala yetmiş metrə qanad verir. U yetmiş metrə qanad, uşax atdan yıxılsa, suya düşüncə o nətəər şığıyırsa, yeddi yüz metrədən çox olur. Heylə u qənədiynən şığıyır uşağı alır bəlanın əlindən.

### VIII mətn

– «Niyə gedim onun canını alım?» Göndərib ki, get, elə elijəm səndən görmüjək. Hərəni bir löyündən canını alır. Biri yıxılıb ölür, biri suda batıb ölür, biri tübəngnən ölür. Hamısının canını alan Azreyildi.

Amma heç undan görən yoxdu. Deyirlər ki, yıxıldı öldü ey. Ağaşdan yıxıldı ey. Halbuki Azreyil çökür hulqumuna, canın alır, durur orda.

## IX mətn

Allah-tala Əzrayıldan soruşubdu: «Bu qədər cannar almısan, yazığın gəldiyi, bir də qorxduğun olubmu?» Dedi: «Bir nəfərə yazığım gəlib, bir nəfərdən də qorxmuşam. Dəryanın üzündə gəmi qərq olub, hamilə gəlin, – sən də bağışda məni, – hamilə gəlin həmlini qoydu yerə, döşünü verdi uşağın ağzına, oğlan uşağı idi. Buraxdım, axa-axa getdi. Una yazığım gəldi». Dedi: «Hə». Dedi: «Bir gün də yolnan gedirdim. O tərəf, bu tərəf meşə idi, orta yoldu. Yolnan gedirdim, gördüm daldan yaman guppultu gəlir. Elə bildim qoşun gəlir üstümə, atdı gəlir. Dedim, çox atdıdı, qoşundu. Gəldi, baxdım gördüm bir nəfər oğlandı. Elə bildim ki, dalımnan qoşun gəlir». Dedi: «Yazığın gəldiyi də o uşaxdı, qorxduğun da o uşaxdı. Ananın ki, döşünü verdin ağzına, bax u həmən uşaxdı. O, bir balıxçıya irast gəldi. U da uşaxsız idi. Apardı ananı kəfən-dəfən elədi, uşağa da baxdı. Həmən qorxduğun da odu, yazığın gəldiyin də».

## X mətn

....... canını al. Gəlir görür ki, cüt əkir. Yerin başında, ayağında, ortasında haftavada su var. Bu adam harda namazının vaxtı çatırsa, orda öküzləri saxlıyıb orda namaz qılırmış. Gələr baxar Azreyil, deyir, bunun canını almaz. Qayıdıb gedər. Deyər: «Ya rəbbim, səə ayandı. Mən getdim gördüm bu kişi abiddi. Üş yerdə haftafa, dəstəmaz suyu, namaz qılır». Deyibdi: «A kişi, get baxma namaz qılmağına. Təpəsinin ortasından bir qılış vur, ayağından çıxsın. Onda görəjəksən nə olajax». Gələr, deyir, indi Allah-talanın sözünü Azreyil atkaz eliyə bilməz. Qılıncı, deyir, vurar bunun təpəsinin ortasından. Bunun qarnından yeddi donuz potası çıxar, başdıyar şumda qaşmağa. Bu da, deyir, nəyi göstərir? Paxıllığı, ürək xainliyini.

## XI mətn

Deyir, ya rəbbi, səə əyandı da, axı məni yaman qarğıyırlar. Mən nağarım? Mən axı sənin əmrini yerinə yetirirəm. Deyir: «Get Hüşündəmi, Qarağandamı, hardamı, filan öyə. Orda səkkiz bajının bir qardaşı var. Alt-üst öyləri var. U çıxanda ayaxlarından tut, pilləkəni yumalana-yumalana gəlsin. Düş canını al, çıx gəl». Deyir: «Yaxşı». Gəlir görür ki, oturublar yuxarda, yeyirlər, içirlər. Bu durub qapının dalında, oğlan

düşəndə bu belə eliyib ayağını oğlanın ayağına. Gurub-gurub gəlib aşağı düşüb. Gəlib canını alıb, çıxıb gedib. Dayanıb görüb yox, yenə bunu qarğıyıllar: «Hardan gəldin çıxdın bizim şad günümüzdə». Deer ki, get filan yerdə arvad var. Məhlədə gəzdiyi yerdə ayağına bir şey qoy, yıxılsın, canını al. Alır bu arvadın da canını. U yasdan bura kimsə gəlir. Deyir: «Ay bala, hamımız Azreyilə qarğıyırıx. Məən balam u hündürlüyə seyvandan yıxıldı, beş dəyqəyə öldü». Deyir: «Elə bu da bu məhləən qabağında yıxılmaxnan öldü». Belə-belə.

### XII mətn

Əvvərlər Azrayıl gözə görükürmüş. Camaat şikayət eliyirmiş, söyüş söyürmüş. Azrayıl Allah cali-calaya dedi ki, ya rəbbi, camaat mənnən mübahisə eliyir, dava eliyir. Dedi: «Daa görünmüjəksən». Bir şeyin bəhanəsi olajax. At unu yıxmasaydı, u ölməzdi. U minməsəydi atı, at onu yıxmazdı. U maşına minməsəydi avarıya eliyib ölməzdi. U şeylər hamısı onun üstündə qalır da. Amma oların canın Azrayıl alır.

### XIII mətn

Mən onu eşitmişəm ki, Allah-tala cənabi Cəbreyilə tapşırıb, çağırıb deyib ki, insannarın canın sən alcaxsan. Deyəndən sonra bu boynuna götürmüyüb. Deyib: «Niyə?» Deyib: «Mənim işim deyil». Ondan sonra cənab Azreyili çağırıb. Cənab Cəbreyillə, cənab Azreyil iki qardaş olub. Cənab Azreyilə tapşırıb ki, belə bir işi sən boyuna götürəjəksən. O da deyib yaxşı. Deyəndə qardaşı deyib ki, ə, sən nətəər eliyəjəksən ki, xalxın qarğışının altında qalmıyasan? Deyib ki, mən elə eliyəjəm ki, birini daşdan yıxajam, birini qayadan yıxajam, birini suda batırajam günahı məndə görməsin.

### XIV mətn

Bir gün qurban olduğum yeri yaradır, göyü yaradır, hər şeyi, cannı-cinnini yaradır. Hər bir şeyi xəlq eliyəndən sonra baxır görür ki, burda yalnız insan çatmır. İnsanı yaradır. İnsanı yaradır, u vaxda qədər gözləyir ki, baxır görür yox, insanı belə getsə, yer götürmüjək. Fikirləşir, deyir ki, indi bir can alıcı seçməliyəm. Yığır məleykələri başına. Şeytanın özü məleykə olub, şeytan olmuyub. Başdıyır bir-bir, bir-bir hamısını ad eliyir ki, bəs bu günnəri biriz can alıcı olmalısız. Hansına deyirsə, deyir: «Yox, unu mən bajarmaram. Ona görə ki, biri uşax üstə ölcək, biri toyu olanda ölcək, biri gəlin yanına gedəndə oğlanın vaxtı tamam olcax. Bu ağır səfərdi, mən eliyəmmərəm».

Birinci şeytandan başdıyır, şeytan deyir qutarır, o birilər deyir. Axırıncı... Azreyilin adı Azreyil olmuyub. Qurban olduğumun adı olub Cəbrayıl. Ən sevimli də məleykəsi olub. Ən axırıncı çörüküb Cəbrayılın üzünə baxanda Cəbrayıl deyib: «Rəbbil-aləmin, buyruğundan bilirsən ki, imtina eləməmişəm, eləmərəm də. Amma ağır səfər oldu bu». Deyir: «İndi ki sən imtina eləmədin, elə elijəm ki, sən heç yada düşəsi döyülsən». Deyir: «Ya qurban olduğum, nətəəri? Kişinin nişannı oğlu öləsi olajax, mən yada düşmüjəm nə deyən sözdü?» Deyir: «Elə elijəm yada düşmüjən». – «Nətəəri?» Deyir: «Birini maşınnan öldürəjəm, birini samalyotnan öldürəjəm, biri su içəjək, soyux su. Dijəklər soyux su içibdi, undan ölübdü filankəs. A, filankəsin baxtı yatıb, onun da ajalı çatıbdı, una görədi». Hə. Nəysə, belə olan halda məleykələr peşmanladı hamısı ki, gərək qəbul eliyeydik. Şeytan ajıx elədi. Allah-talaya ajıx elədi. Dedi: «İndi ki mənim adımı şeytan qoydun, bunu bildim. Mənim azuqəm nə olajax? Nə yiyəjəm?» Dedi: «Bu boyda gen dünyada bir yeməyin gözəə göründü, heləmi?» Dedi: «Hə». Dedi: «Kim pismillah eləmiyib süfrəyə otursa, onnan yoldaş olarsan». Bax, onun azuqəsi də ondan qalıb. Pismillah da ondan qalıbdı ki, yanı yadaa salginən ki, pismillah eləməmiş çörək yiyirsənsə, kimsə səə ortaxdı, sən unu görmürsən. Bax şeytan u vaxdan insannan ortaxdı.

### XV mətn

Allah-tala Azrayılın canını alanda sarı yağdan tük çəkər kimi onun canını alajax. Azrayılın o vaxtı elə bir dəhşətlə çığırajax ki, heylə o dərəcədə onun canını alajax. Günbatanda əgər onun canı alınajaxsa, gündoğanda onun səsi eşidiləjək. Dünyada insannar qutarandan sonra Azrayılın canını imenni Allah özü alajax heylə bir şəkildə, kitabda da heylə yazılıb.

## ŞEYTAN

### I mətn

Allah-tala insannarı özü yaradıb. Dörd qütbdən – şimal, cənub, qərb, şərq yerlərindən hərəsindən bir ovuc torpax gətirib. Torpağı yığıb insan fiquru eliyibdi. Fiqur eliyəndən sonra indi buna can verə bilmiyibdi. Uruhun yaradıb. Deyibdi ki, bu uruhu onun bədəninə, ürəyə sala bilsəm, ürək hərəkət elijək, insan başdıyajax hərəkətdə olmağa. Nə qədər eliyibdi, uruha deyibdi, uruh gedib ağızdan içəri baxıbdı, görüb içəri qarannıxdı. Deer: «Mən girə bilmərəm». Nə qədər əmr eliyibdi Allah-tala, girə bilmiyib. Girə bilmiyəndə şeytan

çıxıb böyürdən. Deyib ki, mən uruhu salaram onun bədəninə. Deyib: «Necə salarsan?» Deyib: «Mənə icazə ver, mən girim içəri, mən onu çağırım». İçəri girib. İçəri girəndən sonra içərdə dınqıltı eliyibdi. Dınqıltı, səs eliyən vaxtında uruh məjbur olub ki, girim, görüm orda nə səs var. Səsə ora gedən kimi ağzı qapıyıb. Qapıyan kimi uruh qalıb bədəndə. Bəzən belə də fikirləşmək lazımdı, nə qədər düzgün insannar olmuş olsa həyatda, ürək həmi şeytan sözünə aldanır, həmi də görürsənmi bir çalğı-zad olanda ürək okqədər belə şirin una yapışır ki. Deməli, belə şeyləri götürəndə, mülahizə eliyəndə bular uyğun gəlir. Qurban olduğumun buyurduğu kimi elə düz gəlir.

## II mətn

Deyir, o vaxtı qurban olduğum şeytana deyib ki, məndən nə istəyirsən istəginən verim saa. O da deyib ki, səndən heç bir şey istəmirəm. Səndən istədiyim bir o olubdu ki, insanın qəlbini ver məə. Nəhlətə gəlsin u şeytanı. İndi bax bir cavan oturduğu yerdə görürsən nə yoldaşına hirssənir, nə qayınanasına hirssənir. Girir onun qəlbinə. Görürsən, iraq olsun, başına bir hadisə gətirir. Şeytan qəlbi bax budu. Gəlib girir qəlbinə, səni yoldan çıxarır, qəlbii alır əlinə. Görürsən ki, nə deyirsə eliyir.

## III mətn

Şeytan görür ki, abid gəlir. Deyər: «Mən nətəər eliyim, nətəər bundan qisasımı alım?» İsmi-əzəmi oxuyur, gözü kor olur, əli çolax olur, qılçası əyri olur. Oturur suyun qırağında. Suyu da abidin gözünə elə görsədir ki, su diməli daşa-daşa gəlir. Çay dolub. Başdıyır abid bura gəlib çatır. Deyir: «Ə, burda niyə dayanmısan». Deyir: «Çaydan keçmək istəyirəm, keçə bilmirəm. Əlim çolax, gözüm kor, ağzım əyri, bilmirəm nətəəri keçim». Deyir: «Məni min, səni keçirərəm». Deyir: «Nolar, heylə bir iş eləsən savabkarlıq olar». Bu abidi minir. Deyir: «Axı mənim əlim çolaxdı, mən nətəər səni qucaxlıyım?» Deyir: «Tut sakqalımdan». Başdıyır abidin sakqalından tutmağa. Keçir ayna, sudan çıxan kimi hoppanır düşür bunun belindən. Deyir: «Ay kafır, sən şeytansanmış?» Deyir: «Hə, şeytan idim. Səni minməyə girəvə axtarırdım. İndi girəvə keşdi əlimə, mindim səni». Görür bunun əlində zincir də var, sijim də var. Deyir: «Ə, bu sijimi niyirsən?» Deyir: «Bu kənddə bir qadın, bir kişi var, oları bunnan bağlıyıram, olar qırır. İnanmırsan gedək gör». Gedir görür ki, deyir, burda yolun qabağındadı. Görür ki, bir qadın təndiri

odduyubdu. Bir balaca da uşax bunun yanındadı. Şeytan aparır almanı qoyur. Arvad görür ki, günorta namazı keçir. Keçəndə başdıyır bu namazı qılmağa. Deyir: «Namazı qılım, sonra əppəyi yaparam». Başdıyır bu namazı qılmağa. Namazı qılmağa başdıyanda şeytan aparır almanı qoyur təndirin qırağına. Əliynən yavaş-yavaş, yavaş-yavaş fırlayır. Uşax da almanı götürür, qırmızı alma. Yavaş-yavaş, birdən almanı tulluyur təndirin içinə. Təndirin içinə tulluyan kimi uşax baxır, görür təndirin içinə düşdü alma. Hoppanır gedir təndirə. Başdıyır bu təndirdə odnan oynamağa. Bu burda olsun, arvad öz niyyətinnən. Daa uşax təndirə düşdü, yanar-zad qəlbinə gətirmir. Tam fikri özündə namazını qılır, duasını oxuyur, bağışdıyır. Ayağa duranda deyir: «Səni nəhlətə gələsən. Uşağı aldadıb təndirə tulluyursan ki, qoy burda yansın, namaz batil olsun. Mənim uşağımı Allah saxlıjax. Səən ora tullamağınnan döylü ki?» Ondan sonra deyir: «Görürsən, bax sijimimi qırdı».

Bu səfər, deyir, qabaxda indi abiddi. Başdadı, deyir, keşdi gördü ki, bu günorta namazını başdıyıb qılmağa. Başdıyır bunun qənşərinə keçir, ismi-əzəm oxuyub, cin balalarını bunun qabağında oynadıb, dombalax aşdırıb, min cür oyun çıxarıb. Bunun başına aşmadığı oyun olmur. Öz fikriynən, öz ağlıynan başdıyır burda namazını qılır, duasını verir, Quranını oxuyur. Ondan sonra deyir: «A nəhlətə gələsən, sən niyə məni qoymursan namaz qılmağa? Sən elə bilirsən mən fikrimi dəyişəjəm? Dəyişmijəm».

## IV mətn

Bir gün, deyir, şeytan gedəndə görür bir öydə şaddıxdı, danışıllar, gülüllər. Balalarına deyir: «Mən gedirəm, siz gedin o öyü qatışdırın, dava salın orda». Balaları gedir, ha əlləşir, ha əlləşir, dava salammır. Bekaf gəlillər. Anaları deyir: «Niyə dava salmadız?» Diillər: «Öylərində bir uşax var, şeytandan pisdi. O qədər özləri gülüllər ki, da bizi yada salmıllar. Allah lənət eləsin».

## V mətn

Bazara gedirdi, deyir, Süleyman peyğəmbər. Gördü ki, bazar elə sakitdi ki, hamı elə şirin dilnən alver edir. Dedi: «Şeytan hardadı görəsən?» Dedi: «Şeytan qapın ağzında». Əlində bir cəm, bir kəndir. Cəmdə də bal var. Gəldi dedi ki, nə əcəb gejikmisən? Dedi: «Hə, gejikmişəm bu gün». – «Gördüm bazarda çox sakitçilikdi, dedim şeytan hardadı görəsən. Gördüm gəlirsən. Bu bal nədən ötrüdü?» Dedi: «Aranı

qatıram. Biri aralanıb gedəndə söyüşü şirin eliyirəm. Bal sürtürəm onun dodağına, u qayıdır bir də cumur buna». – «Bu kəndir nədən ötrüdü?» Dedi: «Bu kəndir uların ikisinin də bədənində var. Kəndirimiz var orda. Olar aralananda kəndirnən dartıram oları ki, aralanmayın».

## VI mətn

Şeytan Allah-talanın hüzuruna gedib ki, allahlığı ver mənə. Nəysə, deyilənə görə, fikri Süleyman peyğəmbəri oda atmax idi, yansın. Nəysə, getdi Allah-talanın hüzuruna. Dedi: «Şeytan, verdim sənə allahlığı bir gün. Get, nə bilirsən elə». Gəldi girdi kəndə, car çağırdı: «Ey camaat, məə səcdə eliyin, gəlin dalımca. Yerin-göyün Allahı mənəm». Camaatı yığdı getdi meşəyə. Qırdı meşəni, tonqal qalatdı böyük. Qalıyannan sonra peyğəmbəri kəməndə qoydu tulladı oda, yandırsın. Getdi düşdü o qırağa. Gətdi bir də tulladı, bu qırağa düşdü. – «Ə, mən nağarım?» Biri dedi: «Get zinadan iş görən gət. Ona baxıb tullujax». Getdi zinadan iş görən gətirdi, ata bilmədi. Hə. – «Gənə atammadım». Dedi: «Get zinadan əmələ gəlmiş gət». Getdi zinadan əmələ gəlmiş gətirdi. Atdı oyza-buyza. Allah-talaya deyilənə görə ayan idi. Odu ayna-bayna elədi. Odun içini elədi cənnət baxçası. Gördü səni, peyğəmbər cənnət baxçasında gəzir. İndi bu çəpər onnan qalıb. Məsələn, əmin oğlunnan, əminnən çəpər çəkməmisən, hasar çəkməmisən, u çəpər, deyir, unnan qalıb deyilənə görə.

## VII mətn

Peyğəmbər, Allahın məsəli, deyir, yolnan gedirdi. Şeytan dedi: «Mən də sənnən yoldaş olajam». Az-çox getdilər, axşamladılar bir kəntdə. Peyğəmbərə dedi: «Məən balalarıma göz ol, bu kəndə gedirəm». Dedi: «Mən səə bala-zad saxılya bilmərəm». Şeytan ayna gedən kimi apardı hərəsini bir kola tulladı. Gəldi dedi ki, məən balalarım? Dedi: «Mən səə bala saxlıyanam? Çıxdı getdi». Çağıran kimi hamısı hazır oldu yanında. Gənə yığdı, götdü getdi. Getdi, məsələn, Qarağan kəndində axşamladı. Peyğəmbərə dedi: «Mənim balama göz ol, bu kəndə gedirəm». Dedi: «Mən səə bala zad eliyəmmərəm». Ana ayna gedən kimi balaları qazdı basdırdı yerə. Gəldi dedi: «Mənim balalarım?» Dedi: «Mən bala-zad görməmişəm». Çağıran kimi, deyir, yerdən çıxdı. – «Nəhlət səə şeytan. Mən nağarım, ə?» Gənə yol elədilər, getdi. Dedi: «Səni, bunu bu dəfə yiyəjəm. Yiyəjəm, çıxsın getsin». Yidi, deyir. – «Mənim balalarım hanı?» Dedi: «Bilmirəm». Çağıran kimi insanın qəlbindən səs elədi. Unçən ölüncə də insanın qəlbindədi şeytan.

### VIII mətn

Balasıynan durmuşdu kövərdə. Bayannan bir eşşəkçi gəldi. Eşşək nətəər oldusa yüklüydü, soncuxladı. Kişi, deyir, şeytana bir xeylax qalmış dedi: «Nəhlət səə şeytan, nə soncuxluyur, ə, bu azar dəymiş». Şeytan deyir: «Ay ana, biz burda durmuşux, eşşəkçi ayannan bəri səə nəhlət oxudu». Dedi: «Ay oğul, burda olmağıma baxma, barmağım eşşəyin götündədi».

### IX mətn

Şeytanın balası gələn kimi ağzını belə çalıb şeytanın balasını udur. Udan kimi şeytan yüürür bunun üstünə ki, da bunu qarsalasın, nağarsın? Alsın da balasını. Balası içəridən deyir ki, ay ana, dəymə, dəymə. Sən çöldən, mən içəridən, görək buna nağara bilərik. Bunu yoldan çıxarda bilərik? Şeytana Allah nəhlət eləsin. Şeytan heylə şeydi.

### X mətn

Bir günnəri biri, deyir, cüt əkirmiş. Cüt əkəndə şeytan öz balasını götürüb gedir ki, get onu başdan çıxart, azışsın, görək söyüş söyəjəkdi. Günah qazansın da. Şeytan hərlənir keçir kəlin qabağına. Cütcü şeytanı alır tulluyur qırağa, atır tulluyur. Axırı məjbur olur götürür şeytanın balasını udur. Şeytanın özünə ayandı axı. Özü tapşırıbdı. Gedir yanına çatır. Deyir ki, məəm balam bura gəlmişdi, nijoldu? Deyir: «Nağardımsa, dayanmadı, axırda uddum». Deyib: «Lap yaxşı, indi u içərdən, mən çöldən, gör sizə nağarajam».

## *PİRLƏR VƏ ÖVLİYALAR HAQQINDA*

## HACI BULUD BABA

### I mətn

Əsl mülkü Ərəbdədi, indiki meçidin üstündə. Onun orda mülkü var. Ora da ziyarətgahdı. Hajı babanın əsli olub ləzgi. Gəlibdi arvadsız-uşaxsız bir adam, sığınıb Ərəbə. Orda özünə bir meçit-zad tikib, indi yeri də bilinir. Hə. Başdıyıbdı başına adamlar yığıb. Özü də onun adı Hajı baba döylü, Hajı Bulud babadı. Əsli olubdu dağıstanlı. Başdıyıb məktəf açıb, suxtalar tutub öyrətməyə, neynəməyə. Nəsə, bir günü görür kəndin içində bir cüt ləzgi ixtilat eliyir, balaca uşaxlar. Çağırır uşaxları: «A bala, bura gəlin». Gəlirlər. Deyirlər:

«Yetim şeylərik, ay baba». Buları aparıb saxlıyır. Həmi ayəti öyrədir, həmi bulardan istifadə eliyir. Bu uşaxlara çox böyük hörmətdər eliyir, böyüdür. Buları öyləndirir. İki qardaş imiş bu uşaxlar. Bir müddət burda yaşıyannan sonra deyiblər: «Ya baba, icazə versən, biz gedərdik ölkəmizə». Deyib: «Gedin». Bu uşaxlar da dağıstanlıdı. İcazə verir, gedirlər. Orda çox fikirləşirlər. Bir-iki ildən sona deyirlər: «Biz nağarax ki, bu kişinin xəcalətindən qutarax? Bu bizə çoz əziyyət çəkib, bizim üstümüzdə çox haqqı-sayı olub. İki qardaş məsləhətdəşirlər ki, gedək qonax çağırmax adıynan gətirək, yolda öldürək, başqa çarə yoxdu. Öldürməsək onun xəcalətindən qutarammıyajeyik. Hərəsi bir at minir, bir at da bu kişi üçün gətirirlər. Gəlirlər: «Ay baba, da indi sən bizə çox zəhmətdər çəkmisən, bizi öy-eşik eləmisən, aylə sahibi eləmisən. Biz istəyirik səni aparıb hörmət eliyək». Deyir: «Oğlum, nə deyirəm». Amma Hajı babanın özünə ayan imiş buların fikri nədi. Üzə vurmur. Deyir: «Nə deyirəm, gedək». Gedirlər. Fərz eliyək belə ki, köhnə Qurtqaşının meşələrinin ortasıynan yolları varıymış. Meşənin sıx yerinə bular çatanda bular himləşirlər ki, baba, bir loxma çörək yiyək, neyliyək. Düşürlər, çörək-zad yeyirlər. Deyirlər: «Baba, bilirsən nə var?» – «Yox». – «Sənin xəcalətindən çıxmağa bizdə hünər yoxdu. Biz ancax səni öldürüb səən xəcalətindən çıxajeyik». – «A bala, sizin bu fikriniz qətidi?» Deyib: «Baba, hə». Deyib: «Unda icazə verin dəstəmaz alım, namazı qılım, bir ayət də oxuyum, onnan sonra öldürün». İndi Allahın işinə bax. Bu mametdə heş demə bu meşənin içində qaçax yaşıyırmış. Birdi, ikdi da deyə bilmirəm. Bu qaçaxlardan söhbəti eşidən olub. Qaçaxlar yaxınnaşıb pusullar. Deyirlər: «İndi sizin anaazı ağladarıx». Bu uşaxlar üçün. Uşax yox, yekə kişidirlər da. Qurban olum goruna, Hajı Bulud baba dəstəmaz alıb, iki rükət namaz qılır (Söyləyici ağlayır – top.). Başdıyır: «Ya rəbbi, ya rəsulallax, əgər sən mənim günah işlərim varsa, günahımdan keşginən. Bismillahi-rəhmani-rəhim» – Yasini başlıyır. Yasini qutarır, durur gəlir. Deyir: «A oğul, mən hazır». Bular xançalı sıyrıb buna vurmax istəyəndə part, part, ikisini də yıxıllar yerə. Hajı baba təəccüb qalır. Qaçaxlar çıxır ordan: «Baba, səə qurban olax. Gördün səən qanı Allah-tala nətəər aldı bulardan». Ordan Hajı babanı qaytarıllar dala. Qaçaxlar da çıxıb gedirlər işinə.

**II mətn**

Haj baba, səə ağır getməsin, əstəfrillah, töybə, əstəfrillah. O Haj baba, deyir, cavan oğlandı. Kətdən bir qız alıblar, nişannıyıblar. Gəlin öyü də bəzənib. Nikahını kəsib gətirən vaxtı kənardan bir oğlan çıxıb yolda bunun nişannısını götürüb qaçır. Haray düşüb ki, babanın nişannısı getdi. O da özü-özündən həya eliyib, bir dənə dəvəyə minib çıxıbdı Dağıstannan. Burda Tağı əfəndi babaya rast düşüb, Xosroda. Tağı əfəndi baba da bir kasıb ayləymiş. Amma kəsərli kişi imiş. Deyib: «Kimsən, nəçisən, a bala». Cavan oğlan olub, yaraşıxlı, göyçək. Deyib: «Məni kim qonax eləsə, elə ona nökər olaram». Deyib: «Kəlləndə bir şey var?» Sual verib bir-iki yerdən, görüb var. Bunu götürüb yanına, örgədib. Ərəbdə ona meçit tikilib. Öyü də var orda. Nəysə, mən bilən öylənmiyib. Qoy yadıma burası düşüb. Söhbətin yaxşı yeri buradı. Addarını dimijəm adamların. Onun meçidində yalan olmasın neçə dənə xalça vardı. Biri Qızdarxanımın əmisidi, biri dədəsidi, biri əmisi oğlu. Babanı elə izləyirmişlər ki, sabah erkən namaza gedərkən xalçanı ordan götürələr. Bular axşamdan rahatdanıb gedincə bir vaxd görürlər sabah açılır. Heş üş metr yol getməyiblər. Baba icazə vermir da. Bir ay da bu fasonda bu adamlar bu meçitdən hərəkət eliyib. Kişinin özünə ayandı axı. Bir gün elə olur ki, bu namaza çatmaxda olar bura çatmaxda. Açıb qapıları, deyib: «Allah, sizin üzüzü qara eləsin. Girin u xalçaları, gəvələri yığışdırın. Öləndə də əlizi, ayağızı uzadıb öz öyüzdə ölmüyəsiz». O adamların biri Bağırsax dərəsində türmədə öldü. Bir söznən o kişi hərlənib, fırlanıb gəlir Xosroya. Burda da kəfən-dəfən olunub basdırılıb.

Dağdan bir dəli ceyran Allah-tala tərəfindən gəlir hər gün buna ayləsi olmadığınnan süd verirmiş. Sonradan öylənib onu bilmirəm. Bunu bir arvad xelağı, yaqın bunun öz arvadı imiş, görüb ki, ceyran gəlib qapıda dayandı. Baba da vedrəni götdü, getdi sağdı. Arvad deyər: «A kişi, bu südü hardan aldın?» Deyir: «Nəyə lazımdı». Bir-iki gün belə, arvad bunu pusubdu. Görüb ki, ceyran gəldi gənə dayandı. Baba bunu sağdı, əlini də belinə çəkdi ki, heyvan get, daa gəlmə. Yəni gördülər da. Allah-talanın işi sirr olmalıdı. Tağı əfəndi baba deyib ki, kim yaralı ölsə, məən üstümə gəlsin. Biri bayandadı, biri ayanda (Tağı baba ilə Hacı babanın qəbirlərini nəzərdə tutur – top.). Tutqusu olan, dəli olan bu babanın üstünə gedir, yaralı olan Tağı əfəndi babanın. Olar ikisi də yatır orda.

**III mətn**

Hajı babanın bizim kənddə yaxşı bir dənə meçidi var, məktəbin dal tərəfində. O kişi orda namaz qılırdı. Onun xəlifələri varmış, nə bilim, Qutqaşınnan, Göyçaydan, ordan-burdan. Axşam tərəfi gedirlərmiş ikindi namazı qılmağa. Orda namaz qılanda oğrular da gəlib da bura. Bunun meçidində də xalça, palaz, nə desən var. Heç olarla meçidin arası 15-20 metr olar. Bular da gecə sabahatan namaz qılıllarmış da o vaxtı. Gedib ora çatmamış sabah olurmuş. Bilirsənmi, kişiyə ayan olub da. Ha bir gün belə, ha iki gün belə. İki-üç dəfə gedəndən sonrasına tanıyıb da, bilibdi. Deyib: «Ay zalımlar, bilirəm gəlmisiz. Biz getdik, nə var yığışdırın aparın, gedin. Amma biriz də öydə ayağızı uzadıb ölmüyəsiz». Onnar da nəsilliknən bəzisi orda ölüb, bəzisi burda ölüb. Bax heylə kişi idi o. Unnan sonra o qaçıb gəlib bura. Onun çarığı, hasası, bir dənə də plaşı bizim kətdə seyid var, ondadı. Hər kim nə varsa, gedir ora, o başmağı, plaşı əyninə geyib babatıyır, yaxşı olur. Onnan sonra qaçıb gəlir bura. Burda özünün bir balaca damkası olubdu. Bir qoca arvad da buna baxırmış. Əppək-zad verirmiş. Bir günnəri bu yimiyib. Deyib: «Niyə yimirsən?» Deyib: «Təərim istəmir». Heş dimə bir dənə ceyran gəlirmiş. Gündə bunu sağıb bu qurban olduğum yeyirmiş. Bir günnəri arvad deyib: «Vallah, bunu pusajam. Bu öydə çörək yemir axı. Gedim görüm bu nə yiyir ki?» Gedib yavaş-yavaş, görüb ki, – qurban olduğuma ayandı axı, – bir ceyran gəldi buna sağıldı getdi. Deyib ki, ceyran, get, daha gəlmə. Unnan da ceyran gəlmədi ora. Sonrasına gəldi, çox peşman gəldi bu. Bildi da arvadının bura gəldiyini. Daa arvad üstünü vurmadı. Unnan da u ceyran getməknən də getdi. U da orda qərq oldu qaldı.

**IV mətn**

Hajı baba özü ləzgi olubdu. Hajı baba dəmirçi olubdu. Sovet dövrü gələnə yaxın onu aparmax istəyiblər. Bax bu vesilka eləmirlərdi, represiya deyirlər indi. Unu Sırac dayı danışanda eşitmişəm. Gəlib onu tutublar, aparıblar Ağdama. Ağdamdan da Bakıya aparanda faytonla, o vaxtı maşın-zad yox idi, gəlib öyünün tuşuna çatanda – onun öyü qəbirstannıxdan aşağı tərəfdə olubdu, – atdar dayanıbdı. Nəkqədər eliyib, urus imiş bunu aparan, atdar getmiyib. Urus deyib: «Bu niyə belə?» Deyib: «A heyvannar, sizdə taxsır yoxdu, yeriyin». Vurullar, getmir axı. Deyən təki atdar başdıyıb hərəkət eləməyə. Unu orda u urus buraxmışdı. Sonra, deyir, o dağdan gedib süd sağıb gətirirmiş. Unu Hajbala gilin nənəsi Göyçək qarı söylüyəndə eşitmişdim ki, arvad görər bu dağa gedibdi ceyran sağıb gətirməyə. Bunun

topuğunda qar var yayda. Sağıb gətirirmiş, arvada deyirmiş al bu süddən yayma bişir, filan şey bişir. Adı bir cürdü ey onun. Hajıya getdiyinə görə Haj baba deyirlər. Deyib: «Bu nədi?» Deyib: «Xəbər alma, arvad». Deyib: «Ə, di görüm, bu qar dabanında hardandı?» Deyib: «Bəs mən gətirdiyim ceyran südüdü, filan yerdən gətirirəm». Kəsərli ölüya olub, yaxşı ölüya olub. Heş kəsnən işi olmuyub. Dəmir aparırdın bel bağlamağa, deyirdin pulum yoxdu, elə pulsuz-zadsız bağlıyıb verirdi.

### V mətn

Bir kişini nökər saxlıyıblar, Hajı babanı. Deyib ki, ay nökər, o xəndək atılasıdı. Deyib: «Baba, atacam da xəndəyi». Ha bir gün, ha iki gün, diib: «A bala, at da bu xəndəyi, vaxd keçir». Kişi belini götürür çıxır gedir. Gələndə görür ki, bir neçə yerdən torpax atılır. Gəlir durur xəndəyin yanında, görür bir dənə Hajı Bulud baba özüdü. «Ay yetim, deyir, xəndəyi kimnən qazmısan?» Deyir: «Özüm qazmışam». – «Axı mən ayannan görmüşəm». Baxıb görürlər bu xəndəyi heç əlli adam qazıb qutara bilməz. Qoruğun bütün dörd tərəfini qazıb qutarıb. Bu nə işdi? Kişi şübhələnib.

Sonra gejə, deyir, malın yanında yatır. Nökərdi da, malın yanında yatızdırıllar. Gejə kişi gəlir ki, bu xəndəyi kimnən qaza bu. Şübhələnə gejə gələ bu. Uzaxdan baxanda görür pəyə işıx verir. Pəyədə işıx var. Qapını döyəndə görür qarannıx zülmat kimidi. – «Ə, ləmpən var, işığın var?» Deyir: «Baba, heş nəyim yoxdu mənim». Qayıdır gedir. Gedir uzaxdan baxır, görür yenə pəyə şam-çırax. Qayıdır gəlir. Tutur qolunnan, götürür gedir evə. Üzürxaxlıx eliyir. Haqqını da verir. Deyir ki, bir səhv eləmişəm, can bala, bağışla, sən bizə layıx adam döyülsən. Üzürxaxlıx eliyir, buraxır gedir.

### VI mətn

Şeyx Şamil bununla dolanmıyıb, o da oranı tərk edib. Görür bu uşax qolunu belə eliyir, bax belə. Qorulur oyza, qorulur buyza. Bu yaxında bir nəfər savaddı adam söhbət elədi. Qorulur oyza, qorulur buyza. Kişi soruşur ki, ay bala, səə noldu? Deyir: «Səən uşaxların meşəyə oduna gedibdi, təkərin biri çıxıbdı, qalıblar orda. Çiynimi verib u təkəri qaldırdım. İndi bir təkərin üstə çıxıb gələjəklər». Həqiqətən də, görür ki, bir təkərin üstündə araba da dolu odunnan, kəlnən götürüb gəlirlər.

Bir günnəri Hajı Bulud baba Xosrova Tağı babanın yanına gedir. Deyir: «Sən mənim qulum-zadım deyilsən, mən sənin qulunam. Sənin qüvvəni bildim mən». Tağı baba gedib gətirir. O kişinin yanına gəlir. Tağı babanın yanına gələndə a hərfinin bilmirmiş. Tağı baba onu oxudur, dərs verir ona. Az bir vaxda Tağı babanın yanında təhsil alır, Quranı, ərəb əlifbasını, hamısını öyrənir, bilir. Şəmil vardı, onun atası deyirdi ki, onun sağlığını görmüşəm – Hajı babanın sağlığını. Deyirdi ki, bizim kəntdən də öylənmişdi. Özü də çox bərk işdiyən idi.

Otu olar artıx. Cavan vaxtında deyər ki, satajam. Yolda gələndə deyərlər ki, əgər biz yüz əlli maata otu alsax, o bizi aldatmış olar, yüz maata alsax, biz onu aldatmış olarıx. Gəlib deerlər ki, bəs biz ot almağa gəlmişik, qiymətini de. Deyir: «A bala, özüüz kəsmisiz qiymətini. Sən demisən ki, yüz əlli maat, o deyib yüz maat. Hansı sizə sərf eliyirsə, o qiymətə aparın». Gör o kişi ən məşhur ölüyadı.

**VII mətn**

Göyçayın Mirzəhüseyin kəndinə qar çox yağar. İki nəfər gələr ot almağa Xosroya. Gələndə gendən görər ki, orda ot var. Bir-birinə deyər ki, kişi bu otu satsa, alardım. Deyər: «Neçəyə?» Deyər, məsələn, əlli maata. Gəlib çağırallar: «Ay öy yiyəsi, ay öy yiyəsi». Kişi çıxar. Deyər: «Eşidirəm, buyurun». Gəlirlər: «Salam məlöykü». – «Əlöykümət salam». Deyər: «Bu otu satırsanmı?» Deyər: «Satıram». Deyər: «Qiymətini de». Deyər: «Özünüz kəsmisiz, götürün gedin». Onun biri o saat başa düşər ki, Allah tərəfindən buna vergi var, bu adam bildi. Otu yandırmaxdı ziyanı yoxdu. Üstünə pəşo eləmək, zir-zibili aparıb üstünə tökmək olmaz. Biri bir dənə qatışıx eləmir. Otun mal yeyənini yeyir, yemiyənini götürür. Onun malı qalır, o birisinkinin hamısı ölür.

**VIII mətn**

İki dənə ceyran, deyir, gəlib u dağın dalında durarmuş. Unu gedib Hajı baba sağırmış, sabannarı da gətirirmiş. Gətirirmiş arvada, arvad yatıb yuxudan duruncan. Buların da bircə dənə inəyi olub. Südü də elə çox olub ki? Deyir: «A Hajı Bulud baba, vallah, bizim inəyimizin bir südü olub, axşam sağıram, sabannarı durub görürəm qazan dolub». Arvadı nəkqədər eliyir, sirrin vermir. Bir gün bunu pusur. Gedib görür kişi süd gətdi. Keşmişdə mis sərnişdər olub. Arvad gördüyünə görə ceyrannara gedib deyir ki, qurban olduğum, ya heyvan, gəlmiyin da. Arvad gördü mənim sirrimi. Gedib danışar.

## IX mətn

Deyibmişlər maral südündən yayma bişir, gəlim. Deyib: «Ə, sən gəlincə maral südündən mənim yaymam hazır olajaxdı». Hajı Sadıx əfəndi bir də gördüm, deyir, qapını açdı, girdi içəri. Gör Bulotannan Xosrov arası nə qədər məsafə var. Heş, deyir, beş dəyqə çəkmirdi gəlirdi ora. Yaqın, deyir, Allahın qüdrətidi, uçub gəlirmiş, deyir. Hə. İşıx verirlərmiş birdən. Göyçaya aravalı gedirlər da, gejələr gedirlərdi da. Bir də görürdün, deyir, bir işıx da Çalbruz dağınnan gəldi. İki işıx bax belə bir-birinə sarıla-sarıla yoxa çıxıllar. Gedərdin görərdin Hajı babanın yanında hardansa gəlmiş qonax var. Bax belə-belə rəvayətdər çox danışıllar.

## X mətn

Hajı Bulud baba Veys babanın üstünə gedirmiş, gəlib Ərəbdə qalıb. Onu orda yaxşı qarşılamıyıblar. Bizim kənddə 90-95 yaşlarında bir qoja arvad olub. Bir-iki dəfə onnarın evində qalıbdı, paltarını-zadını tikdirməyə gəlibdi. O görübdü ki, bu heş nədən doyur. Nə qoyursa qənşərinə, doyur. Sonra o evdə qalmıyıb, gedib ki, kəraməti gedər.

Onun balaca bir qazançası olub. Axşam öyünə mömin adamları çağırarmış ki, yemək yeyək. U balaca qazançada hamı doyarmış. Onda görüblər ki, bu kəramətdi adamdı.

Evlənmiyib, subay olub. Bizim bu Ərəb dağlarında ceyrannar yaşıyırmış. Bir də kəramətini onda görüblər ki, ceyrannar axşam o dağdan gəlib onun ətrafında toplaşıb yatıllar. Səhər buları sağır – maralları, ceyrannarı, deyir: «Ay heyvannar, çıxın gedin». Qayıdıb çıxıb gedirlər. Bunda da kəramət görüblər yaşlı kişilər. Mənim də atam belə sölüyüb. Burda da dəfn olunur (Xosrov kəndində – top.).

## XI mətn

Hajı baba olubdu Ərəbdə. Olubdu ləzgi. Evlənmiyib. Sonra onun evindən oğurluq eliyiblər. Xalçasını oğurlayıblar. O Ərəbdən köçür, gəlib orda ev tikib – Xosroda. Burda xeyli yaşıyıbdı. Orda bir arvad – Sona adında, buna deyib məni alginən. Bu yaxın durmuyub. Deyib ki, gedib şikayət elijəm bu məə belə nalayix hərəkət eliyib. Buna baxmıyıblar. Sonra bir adam ölüb. Deyiblər bu adam Haj babanın əliylə ölüb. Bunu gəlib hökumət tutubdu çarın döyründə. Qoyub at arabasına. Atları nə qədər eliyibdi, getmiyibdi. Deyib: «Ay heyvan, sizdə taxsır yoxdu,

gedin». Gedibdi. Bunu göndəriblər Sibirə katorqaya. Bilirsən ki, Sibirdə də katorqaya adam gedir iyirmi beş il, otuz il. Hətta xoruza məhkəmə iş kəsib Sibirə göndəriblər. Barıdan daş salıb uşağın başına, uşax ölübdü. Ona iş kəsib, məhkəmə işə baxıb, on il, on beş il. Ayağını zəncirləyib göndəriblər ora. Hajı babanı göndərirlər. Bir urus generalının qadınının uşağı olasıdı. Heç bir əlac eliyə bilmirlər. Türmədə olannardan biri gedib generalın yanına, deyib: «Bir şey deyəjəm». Deyir: «Yaxşı, di». Deyir: «Burda, deyir, adam var, ona o əlac eliyər». Deyir: «Yaxşı». Bu olmuş işdi ha. Gəlib bunu aparır. Namaz qılannan sonra təsbehini salır suya, deyib: «Aparın verin o qadına içsin». İçəndən sonra bu uşax olur. İndi buna nə qədər kəsmişlərsə də, nahaxdan olsa da, bunu burdan buraxıllar. Deyib oranın hökümətindən kağız alarsan ki, bunu gətirdik sağ-salamat bura qoydux. Bu bura gələndən sonra bir iş olar. Həmin u Sona arvadı... Haj baba deyər ki, mən ona heş-zad demirəm. Allah mən gedən yerə aparsın. Tutallar. Onun əliylə bir adam ölər. Ona iş verərlər, düz katorqaya. Qayıdıb gəlməz də.

## XII mətn

Onun əsli ləzgidi. Aşağıda Əmirmahmud qəbirstanlığında da var. Qəbirstannıxdan aşağıda qarağac var ey, bax orda ölüya olub. Ular hamısı ləzgidi. Nəvətavada da var. Yolun alt tərəfində qəbirstanlıx var. Qardaşdarın biri ordadı, biri Ərəbojağındadı. Ən böyüyü Ərəbojağındadı. Biri budu (Hacı babanı nəzərdə tutur – top.), biri Əmirmahmud qəbirstannığında olandı. Qalannarından məlumatım, xəbərim yoxdu. Deyilənə görə, özüm eşitdiyimi deyirəm, o vaxtı malda xirtdək xəstəliyi olurdu. Boğaz xəstəliyi yoxdu insanda, o formada. Xır-xır eliyirdi, sonra ölürdü. Dabağ olan kimi. Şakir məllimin, Abbəkirin cijisi vardı. Dedi bu ölüyanın yanınnan ot biçib gətirib verəndə sağalırdı. Yanı mal piridi. Biri də Kor arxın yerindədi, Şıxlı sərhədində bax u qardaşdarın.

## XIII mətn

Bir günnəri tək adamdı, namaz qılır, oruc tutur, müsurman adamdı. Ağsakqallar, mollalar bunu evlərinə qonax çağırar. Deyər: «Ay Haj baba, sən deyirsən ki, belədi. Bir ceyran südündən bizə yayma versənə». Deyir: «Verərəm. Haçax istəyirsiz onda verim». Deyirlər: «Sabah. Sabah ceyranı sağarsan. Deyirsən ki, ceyran gəlib sağdırır gedir». İki dənə adam göndərirlər. Yaxşı bacarıxlı adam. Pusquda durullar, görürlər ceyran

gəldi. Hamısının yeli dolu. Gəldi o yana-by yana gəzişdi. Deyir, kişi oyanmadı. Ayaxlarıynan alçax balkonu var, o balkonu vurdular. Haj baba durdu. Olarda, məsələn, iki əmcəyi var, dörd əmcəyi var. Yarı süd sağdı, yarısını saxladı. Dedi: «Ay heyvan, yeriyin gedin. Balanıza aparın qalan südü». Olar, deyir, yüürə-yüürə çıxdı getdilər. Yaymanı bişirər bu, ağsakqallar yığılar. – «Yayma yiməyə gəlmişik». Bunu sınıyıllar. Gələrlər inanallar. Bunnan sonra hamı buna inanar.

### XIV mətn

Bu ara-çörə yağış yağmıyanda yığılallardı, çörək bişirərlərdi bir yekə təndir. Onnan sonra qoyun götürüb çay boğazında çardax kimi şey qayırıb siftə kəsib bişirib, namaz qılıb, Allaha dua edib sonra yiyərlərdi. Görərdilər ki, yağır. Onnan sonra yiyərlərdi çardağın altında. Hajı Sadıx əfəndini gənə aparallar. Bir kərə qılar namazı, dua edərlər, yağış yağmaz. İki kərə qılallar namazı, dua edərlər, yağış yağmaz. Üç kərə qılallar, dua eliyərlər, yağmaz. Orda ağsakqallar, mollalar da var. Deyir gedin Hajı babanı gətirin. Hajı Sadıx əfəndi deyir ki, Hajı babanı? Ha yağdı ha. Neysə, atı minib gedər, çağırallar, gələr. Deyər: «Baba, çay boğazında yığılıb camaat namaz qılır, Allaha dua eliyir. Səni orda istəyirlər». Minər ata, gedər. Namazı qılar, dua edən kimi yağış tökər. Bax, belə adamlar da var. Haj baba heylə kişi idi.

### XV mətn

Onnarın (Haj babanın – top.) yeri məktəbə yaxın idi. Ora heş kəs toxunmurdu. Köçəndən sonra ordan bir dənə armud ağacı çıxar. Məhəmməd müəllim vardı, oranın direktoru. O söhbət edirdi. İki adam gedib o ağacı kəsib gətirərlər. İkisi də küllü-küp olar. Bir neçə il çəkmədi təmiz aylələliknən məhv oldular.

### XVI mətn

Sonra başqa bir rəvayət var. İki evliya, həmən evliya Hajı babadı. İki evliya bir yerdə yuyunan vaxtdarı olub. Hajı Sadıx əfəndi suyun üstünə xalçanı salıb, çıxıb oturub suyun üzündə. O biri da başdıyıb ki, – olar bir-birinə addarı ilə müraciyət eliyib, – Sadıx, bəsdi, Sadıx, bəsdi, görən olar. Kəramətdi da bu, xalça suyun üstündə dura. Belə şeylər olubdu.

### XVII mətn

Haj baba hər axşam Həzrət babada gedib namaz qılırmış. Həzrət baba İsmayıllı rayonunun üst tərəfindədi. Ora yayda da çən olur, soyux olur. Bir günü qonağı olubdu. Görüb ki, Hajı babaan başmağında qar var. Deyib: «Bu qar nəçidi?» Deyib: «Unu soruşma». Çox əni-müsibətdən sonra deyib ki, mən hər gün, hər axşam gedirəm Həzrət babaynan bir yerdə namaz qılıram.

## XVIII mətn

Haj baba cavan bir oğlan olub. Bir gün bir kişi qab gətirər, deyər ki, mənim bu qablarımı qaleyla. Havaxt gəlim? Deyib: «Sabah günortadan sonra gəlib apararsan». Bu qab gətirən kişi bir az tez gedib. Gedib görüb ki, ojaxda tiyan var, böyük tiyan. Bu oğlan qoluun çirməliyib bura kimi, əliynən nəsə qarışdırır. Lehim var, qabların zədəli yerinə lehim sürtürlər axı. Bu lehimi töküb bu qabın içinə, əliynən qarışdırır. Bunu bu kişi gözüynən görüb. Belə çöyrüküb deyib: «Axı səə günortadan sonra gəl dimişdim. Niyə tez gəldin?» Deyib: «Nə bilim, gəldim da». Deyib: «Bu sirr burda qalsın. Əgər mən sizdən qabax ölsəm, danışarsız, siz ölsəz, siznən bərabər getsin bu sirr». Belə möcüzələri olub. Hajı baba öləndə vəsiyyət eliyib ki, məni öz öyümün içində basdırın. Elə orda da dəfn olunub. Haj babanın ölüya olduğu bunnan sonra camaata məlum oldu.

## XIX mətn

Hajı Bulud baba gəlib ora (Ərəb kəndinə – top.), özünə bir yerdə koma düzəldib yaşıyırmış. Onun ordan bir xalçasını oğurlayıblar, atını oğurlayıblar. Qarğış eliyib, çıxıb gəlib. Ajığ eliyib gedəndə Tağı baba unu burda saxlıyıb: «Gəl, sənə yer verəjəm burda». Burdan ayanda palıdlıx var. Onun orda evi olubdu. İndi də oranı biz ziyarətgah kimi saxlıyırıx.

## XX mətn

Hamıya deyib ki, qəbirstannığın yanınnan xəndək atajayıx. Ora gəlirlər cavannar. Özünə də camaat kimi yer götürür ki, mən də yer qazam. Özü heş gəlmiyib. Deyib ki, ə, bizə yer ölçüb verib, özü amma gəlmiyib. Bular işdiyib istirahət eliyən vaxtı «ə, bu baba niyə gəlmədi, bu baba niyə gəlmədi». Bir də görürlər bu götdüyü yer öz-özünə qazılır. Otduxları yerdən görürlər ki, torpax tullanır ordan.

Özü yoxdu, amma torpax tullanır ordan. Olar özləri qutarınca onun da yeri qazılıb qutarıbdı. Özü amma gəlmiyib.

### XXI mətn

Burda Nəbi kişi olubdu. Arabası olub, daş gətirib özünə ev tikmək üçün. Çaydan[1] gətirirlərmiş da daşı o vaxtı. Çaydan daşı gətirəndə ağır daşdardı, arabaan oxu sınıb. Palçığa düşüb, qazıyıb təkər, ox sınıb. – «Ə, nağarax?» Qarannıx düşən vaxtı olub. Biri deyib ki, hə, gəlsin də baba kömək eləsin. Bir də görüblər böyürdən çıxıb. – «A bala, nolub? Bərkə düşmüsüz, məni çağırırsız». Deyir: «A baba, belə-belə. Gəlib bura düşdük, arabaan da oxu qırıldı». Deyib: «Ziyan yoxdu. Baban çıxardajax, araban da gedəjək öyə, evdə düzəldərsiz». Keçib, deyir, qabağa, «trö, trö» eliyə-eliyə arabaan çıxardıb. Arabaan dartıb çıxardıb kəllər. Düşüb qabağa: «Sürün, gedin». Gətirir daşı boşaldır, kəli açır. Kəli açannan sonra araba qırılıb düşüb yerə.

### XXII mətn

– «A Məmməd, ev tikirsən, bəs niyə babaa çağırmırsan, gəlim bir mübarək deyim». Gəlib baxıb, görüb ikimərtəbə binadı. Gəlib görüb pərvanı vurublar. – «A Məhəmməd, düz ağac tapmamısan, belə əyri ağac qoymusan?» Deyir: «Vallah, baba, düz ağac tapmadım, bu uzun idi deyə bunu qoydum. – «Ziyan yoxdu, baban düzəldər». Ayağının altına kətili qoyub, çıxıb əliynən basıb u əyrini düzəldib. Hələ də u pərvan durur elə heylə düppədüz.

### XXIII mətn

Camaat yığılır meçidə namaz üçün. Kimi dəstəmaz alır, kimi söhbət eliyir. Bu baba da əlində parç gedib ki, tağəyrət eləsin, gəlib dəstəmaz alsın. Gedəndə birisinin ürəyindən keçib ki, – burda bir qarğı var, hündür qarğı, divar kimi, bəzi adamlar inanmayan kimi, – indi bu babanın möcüzəsi varsa, bu qarğını tullansın da. Öz-özünə qəlbindən keçirib. Parçı yerə qoyub, – camaat gözünnən görüb ha, – dal-dala gəlib elə qaşdı ki, tullanıb düşür anki tərəfə. Ayannan qayıdıb gəlib: «A Qara, utanmırdın sən, mən qoja kişiyə əziyyət verdin.

---

[1] Türyançay nəzərdə tutulur. Dağ çayı olduğundan sel gələndə özüylə iri daşlar gətirir. Həmin daşlardan evlərin inşasında istifadə olunur.

Səən qəlbin təmiz qəlb deyil». Kişi yıxılıb ayaxlarınnan öpməyə ki, can baba, məni bağışda. Nə bilim, fikirləşdim da.

### XXIV mətn

Məhəmməd Tağı əfəndi vardı. İndi onun üstünə ziyarətə gedirlər. Bunu da vəs eliyib Hajı Bulud baba. Onun yanında olubdu. Onun yanında olan halda bu Məhəmməd Tağı əfəndi bilmiyibdi ki, bu ölüyadı. Yanına götürübdü bir nökər kimi. Uşaxdı. – «Bala, toolaya bax, toolaya bax». Məhəmməd Tağı əfəndi, Səməd əfəndi keşmiş dövrdə bu kənddə dindən dərs deyirlərdi. Günnərin bir günü kişi öydə yoxuymuş. Harasa getmişmiş. Hajı Bulud babaya da tapşırıb ki, toolaları-zadı kürüginən. Çaydan-çörəkdən yiyib çıxıb öydən. Gəlib arvaddan soruşur ki, Hajı Bulud baba hanı? Deyir: «Toola kürüyür». Toolanın qənşəriynən gedir, ayaqyoluna gedir əli aftafalı. Gedəndə görür ki, küzməkdən peyin tullanır. Özü öz başına peyin tullanır. Girir, görür qapının ağzında, toola kürüyən kürək olur, una söykənib durur özü. Amma peyin özü öz başına tullanır küzməkdən. Qayıdır tez gəlir öyə. Gəlir bu da. Deyir: «Oğul». Bunatan bilmirdi. Deyib: «Bəli». – «Mən səni indiyə kimi saxlamışdım nökər kimi. İndi mən səni ta nökər sifətiylə saxlamıram. Ölüncən qalsan öz evindi. İşdi, güjdü, bir şeyə baxsan da, baxmasan da, özün bilərsən. Getsən də, özün bilərsən. Mən, can bala, səni daa nökər sifətində saxlamıram». Unnan bilibdi o ölüyadı. Ölüb qeybə gedəndə vəs eliyib ki, mənim üstümə ziyarətə gələnnər birinci Məhəmməd Tağı əfəndi babanın üstünə getsin, sonra mənə gəlsin.

### XXV mətn

U deyir Ərəb kəndinə ceyrannanmı, dəvəynənmi gəlib. Hasası-zadı olub. Bu gəlib düşəndə ora uun hasasıın götürüblər, oğurlayıblar da. Deyib: «Mən sizə uruzğu gətirmişdim, amma ağzıız olmadı yiməyə. Mən getdim», – deyib gəlib bu Xosro kəndinə. Bu özü də kasıb olub. Bu birinə deyib ki, gəl axşam səni qonax eliyirəm, süddü aş bişircəm səə. Bu bunu lağa qoyub ki, buna bax, çağırır ki, gəl səə süddü aş bişircəm. İnamı olmuyub da. Bu deyib: «İrast ki, belə deyib, gedirəm da una qonax». Bir cüt, deyir, cüyür gəlib durub qapısında. Bu, deyir, vedrəni götürüb gedib, özü sağıb gətirib, yaxşı, deyir, süddü aş bişizdirib. Bunu da yedizdirib. Sağıb

qutarannan sonra cüyürlərə də deyib ki, elə gözdən gedirsiz, ələ düşmüyün. U sağıb qutarannan sonra ular heylə çıxıb gediblər dağa.

### XXVI mətn

Mənim babamın babası, ulu babası, Şamaxıdan gəlib. Arvada deyir ki, durginən qazanı qoy ojağa, aşı bişir, Hajı baba gələjək indi. Durur arvad qazanı qoyur ojağa, suyu tökür, yiməyi hazırlayan vaxtı deyir ki, oğluna. Bildinmi? (söyləyici sualı toplayıcıya verir – top.) Oğluna deyir ki, çıx balkonun başına, əlii bu qayda ağza ver, yavaşca çağır. Dinən ki, Haj baba, babam deyir ki, Abdulla əfəndi, zəhmət çəksin buyursun gəlsin. Deyir: «A kişi, unnan ordan gələjək?» Deyir: «Mənim borcum çağırmaxdı, onun borcu gəlməkdi. Sən dur üç ağız çağır». Durur bu balkonun başınnan çağırır ki, Abdulla əfəndi deyir ki, Haj baba, dayanma, dur gəl. Hə, üş ağız çağırır. Bu Məhəmməd əfəndi gəlibdi. Deyib: «Çağırdınmı?» Deyib: «Bəli, çağırdım». Hə. Deyir: «Keş əyləş». Bu əyləşməmiş, hələ bu ayax üstə ola-ola qapı döyülür. Deyir: «Buyur gəl». Qapını açıb, Haj baba qapıdan içəri daxil olur. Daxil olanda deyir ki, Abdul əfəndi, bu vaxtda adam adama əziyyət verər. Deyir: «Verər». – «Niyə?» Deyir: «Mənim borcum çağırmaxdı, sənin borcun gəlməkdi. Əziyyət döylü, keş əyləş. Səndən ötrü süddü aş qoymuşam dəmə, sənnən söhbət eləmək lazımdı. Söhbət eliyəjəyik, sən o yana, mən bu yana. İstəsən qalarsan, istəsən gedərsən, öz işindi». Burda oturullar, filan qədər söhbət eliyirlər. Hajı baba deyir ki, mənə indi, Abdul əfəndi, icazə varmı getməyə. Deyir: «Buyur, gedə bilərsən». Hajı baba qeyb olur, gedir.

### XXVII mətn

Haj babaynan Veys baba ikisi biri göy yaloda, biri qırmızı, yaşıl yaloda dallı-qabaxlı gəlib düşüblər ora, Veys babaya. Məhəmməd də kənarda yatmış imiş. Bu qorxub. Deyib: «Məhəmməd, qorxma oğul, qorxma. Niyə qorxursan?» Gördü ki, gəldilər düşdülər kümbəzin ağzında, girdilər içəri. Hərəsi bir bardax götürüb düşdülər dəstəmaz almağa. Dəstəmaz aldılar girdilər içəri, namaz qıldılar. Gənə çıxdılar, başmaxlarını geyib çağırdılar məni. – «Məhəmməd, bura gəl». Gəldim. – «Sən qorxma, özü də o bardaxdayı suyu evdən gətirmə. Arxın axar suyunnan doldur qoy bura. – Evdə cürbəcür əl dəyir da. – Özün də qorxma». Bir də gördüm yoxdular. Baxdım gör-

düm dallı-qabaxlı, deyir, getdilər Xosroya. Onnardan da biri olur Hajı baba.

### XXVIII mətn

Züryətsiz, bir dənə kişi özü olub. Deməli, maral gəlirmiş, ceyran, həm orda kişini ziyarət eliyirmiş, həm də sağılıb gedirmiş. Bax u Bulud həm də ziyarətgahdı. Gəlib orda sağılıb gedəndə .... Bir günü, deyir, sağına gələndə görüb axsıyır. Baxıb görüb ki, güllə dəyib bunun qılçasına. Heyvanın qılçasına güllə dəyib. Onu görən kimi çuxasını, mən indi rəvayəti deyirəm, görməmişəm, eşitdiyimi deyirəm. Çuxasınnan kəsib özü unu bağlıyır. Buraxıb heyvanı ki, yaralıdı. Hərlənib, deyir, günnərin bir günü aradan bir qədər keçəndən sonra ooçu rast düşər ona, atar. Atanda, deyir, görər ki, bunun qılçası bağlıdı. Baxıb görər ki, kişinin çuxasının ətəyidi. Gələr, deyir, kişiyə diz çökər, yalvarar. Deyib: «Bala, u yaralıdı. Yaralı heyvana ikinci güllə atmısan. Allahın bilsin, deyir, sən özün bil». Deyilən görə, o ooçu yaşıya bilmiyib, onnan da, deyir, tələfata gedib. Bax, heylə bir kişi olub o.

### XXIX mətn

Bax Xosrodayı Hajı Bulud baba var ey. Bax məən nənəm danışırdı ki, Hajı Bulud babaya kənd camaatı inanmırdı. Nənəm dedi u kişi bir dəfə gördü ki, buna inanmıllar, kişiyə pis təsir elədi. Ojax qaladı, deyir. Gözümüznən bunu gördük, deyir. Ojağı qaladı, deyir, mis qazannar olurdu keşmişdə, u qazanı qoydu ojağın üstünə, altı da guppagup yanır. İçinə, deyir, tökdü gümüşü. Gümüşü tökdü, deyir, əliin də saldı, belə çirmələdi, qarışdırdı. Hamımızın gözü kəlləsinə çıxıbdı. Qazanın altına da baxırıx, guppagup yanır, əyilib içinə də baxırıx. Kişinin əli içində, qarışdırır. Unnan sonra, deyir, camaatın inamı u kişiyə oldu.

### XXX mətn

Yetim olub, heş bir kəsi olmuyub, əmisi olub, əmisi də bunu dolandırmıyıb. Dolandırmıyanda tərk eliyib, çıxıb gəlib da, insandı, bir loxma çörəkdən ötəri, cavan uşax olub. Gəlib burda da, bu kənddə başdıyıb qoyuna getməyə, camaatın qoyununa. Nətəəri olub onu deyəmmərəm, köçüb gedib Kükəl kəndinə. Gedib Kükəl kəndinə. Kükəl kəndində buna camaat yığılıb bir ev düzəldiblər, bir nəfər də varlı adam buna bir xalça verib namaz qılmaxdan ötəri. Bu adam da hər deyəndə evdə olan adam olmuyub da, qayb olub gedib,

həftədə bir gəlib, on gündən bir gəlib. Bir gün gəlib, gəlib, görübdü ki, xalçanı götürübdülər. U kəndə qarğış eliyib. Deyib: «Siz çox qazanın, az yiyin». Vijdan haqqı, bizi yaradan, hələ də u kənd u zəlilliyi çəkir, gənə də. Böyüyü də, balacası da, u cavannar, qojalardan eşidir ki, baba bizə belə qarğıyıb, hamı nifrət eliyir hələ də u xalçanı oğurlayana ki, bizi bu günə u oğru qoyub.

## XXXI mətn

Bir gün atamız gəldi ki, u uşaxlara deyin, baba deyir getsin məə bir maşın sakqız odunu gətsin bir araba. Unda maşın yox idi. Söyündük, deyir, sabahatan yatmadıx ki, baba bizi işə buyurub. Odunu niyirdi baba? Kimisə imtahana çəkməkdən ötəri. Getdik, deyir, nəysə, üş qardaş bir araba odun qırdıx. O ki var yığdıx ki, qoy babanın xoşuna gəlsin ki, çox gətiriblər. Gəldik, deyir. Babadan oyza körpü var, Nour arxı körpüsü, xeylax uyana. U körpüyə çatanda arabanın zadı qırıldı, oxu. Düşdük, deyir, baxdıx gördük ki, oxun azcaja özəyi qalıb. Böyük qardaşım, deer, dedi ki, açax kəlləri, boynu qırılar. Araba ağırdı, təkər düşsə, kəlin boynun qırajax. Belə deyəndə bir səs gəldi, amma görmədik. Deer dedi ki, qorxmuyun, quzular, sürün getsin. Sürün getsin, deyir. Qardaşım, dedi ki, bu hayna getsə babadı, sürün gedək. Gəldik, deyir, arabanı boşatdıx. Qəndəkdən keşdik dolu arabaynan. Arabanı boşaltdıx, gəldik evimizə. Kəlləri aşdıx, ot qoydux. Özümüz yığılmışıx seyvanda yaydı, deyir, qarpıznan əppək yiyirdik. Dədəm öydə yox idi. Dədəm gəldi, surfanın qırağında oturanda təkər guppultuynan düşdü yerə. Deyir, dədəm diksindi durdu ayağa, dedi: «Ay uşax, bu nə hak-hesabdı? Təkər niyə yerə düşdü?» Deyir, söhbət elədik ki, bəs dədə, körpüdən uyza qırılmışdı arabanın oxu. İstədim kəlləri açax, babaan belə səsiin eşitdik, özüün görmədik. Gətdik odunu da boşaltdıx, məhləyə gəlmişik, indi düşdü bax təkər. Getdik gördük, deyir, orta özək qalmışdı barmax yoğunnuğa, u qalıbmış, u da qırılıb.

## XXXII mətn

Deyirlər bir başmağı qalıb. O vaxtı qoja bir qadın olub burda, u qadında qalıbdı. Onun mücrəsi olubdu. Bir dənə başmağı qalıbdı. U başmagı da körpə uşağın-zadın ağzına su gələndə belə çəkirlərmiş, çəkən kimi u su kəsilirmiş, da ağzınnan uşağın su gəlmirmiş.

## XXXIII mətn

Pıraxəlil baba deyirlər ey, dağın üstündə bir yer var. Ordan daş gətirəndə arabalar, arabaan biri tez istıyib keşsin qabağa gəlsin. Burada da heyvan-zad kəsilib, yimək bişib. Deyib: «Yiməyin çoxunu mən yiyim». Da ajgöz adam imiş. Burda da Hajı Bulud babaya əyan olubdu. U dəyqə də arabanın təkəri çıxıb, ox üstündə qalıb. Dua eliyib ki, keşsin qabağa gəlsin. Nəysə gəlibdi. Yimək qoyulanda çoxu ona qoyulub. Çoxu qoyulanda yiyə bilmiyib. Deyib: «Noldu, sən orda belə elədin. Arabanı keşdin, ox çıxdı. Mən də dua elədim gəldin çıxdın. Niyə yimirsən?» Bu adam çox pərt olur. Çox möcuzatdarı olub onun.

## XXXIV mətn

Bunun yiyəsi biçinin günüdü biçinə gedirmiş iki oğlunu da yanına alıb. Deməli, ayləsi biçinə gedəndə kişi arvada tapşırır ki, bizə günortaya xingəl bişir, çığırtmalı xingəl. Biçinin birinci günüdü, biz gedirik biçin biçməyə. Bu uşax da qoyun nööbəsi bu kişidə olub, uşax da buların yerinə qoyuna gedib. Gejə uşağa vergi verilər. Vergi verilər, bu fikirləşər mən nətəər eliyim, mənə vergi verilib, mən bunu birdən birə deyə bilmərəm ki, mən daa qoyuna gedəmmərəm. Nəsə, vergi veriləndə gedir u biri qoyununu güddüyü adamın, tanıdığı adamın ayləsinə deyir ki, məə bir mis kasasında un ver. Deyir: «A bala, niyirsən mis kasasında unu? Ajdığın var, çörək yi, çay iş». Deyir: «Yox». Diməli bir istəkan un tutan bir mis kasasının siləsindən unu gətirir bu Xacca arvadın yanına. Hası ki, bu gün qoyun nööbəsi bulardadı. Deyir ki, xala, bunnan məə yuxa bişir. Arvad deyir: «Ay bala, yuxa bişirəjəm, buralardasan da, ajdığın var, çörək yiginən. Bu nədi, bunnan nə yuxa olar?» Deyir ki, yox, bax bu unnan məə yuxa bişir. Çox zad eliyir, arvaddan əl çəkmir. Allaha and verir ki, sən allah, bunnan məə yuxa bişir. Mən bu onun yuxasını buyün yiməliyəm. Arvad gətirir balaca bir limçə qoyur. İstəyir ki, bu limçəyə unu ələsin. Deyir: «Yox, ona ələmə, teştə ələginən». – «A bala, bu nədi, teştə bunu nə əliyim mən. Bunnan nə olan şeydi?» Deyib: «Teştə ələ». Arvad kasadan unu boşaldır ələyə, ələk unu tutmur. Unu əliyir. Ələdikcə un qutarmax bilmir. Nəysə, iki dəfəyə bir kasa unu əliyir, bir teşt un olur. Arvadı tutur titrətmə, ağzı da oruc. Aylə də tapşırıb xörək qayır, çöldən gələjəm. Nəysə, arvad titrədə-titrədə xamırı yoğurur, xamır olur bir teşt. Bir istəkan unnan bir teşt xamır. Bunun ayləsi də çox əzazil adam olub. Deməli, oturur başdıyır yuxa bişirməyə. Ha bişirir, yuxa qutarajax, yuxa qutarmır. Kişi gəlir. Gendən görür ki, arvad sajın qırağında yuxa bişirir. Deyir:

«Dəysin başaa, dəəsən, hələ indi bişirirsən yuxanı». Arvad ha belə əlini ağzına tutur, işarə eliyr ki, səs eləmə. Kişi başa düşmür. Deyir: «Dəəsən, təzə fasondu bu. Məə nə əl-qol eliyirsən?». Nəysə, durur irəlliyir. Deyir: «A kişi, səs eləmə amanın bir günüdü. Səs eləmə, söylüjəm». Gəlirlər oturullar. Kişini çağırır böyrə, deyir ki, bax bu kasanı görürsən, mis kasasıın. Deyir: «Hə». Deyir: «Bunun siləsindən un gətirib bu uşax. Mənə Allaha, tutduğum oruca and verib, mənə yuxa bişir deyib. Əl çəkmiyib. İndi yuxanı bişirirəm. Nə yuxa qutarır, nə xamır qutarır, nə un qutarır. Vergi verilib bu uşağa. Bu uşağı qoyuna-zada göndərmiyin. Camaata da di. Nə hörmətiz var eliyin, nə istəyir unu eliyin, bunu qoyuna göndərmiyin». Belə olur, qalır. Yiyirlər, içirlər, axşam bu qoyun nööbəsini təhvil verir. Yer qayırıllar buna, guya yatsın deyə. Sabaanı durub görürlər yoxdu. Üş gün uşax yox olur. Həmən arvadın bax bu saat getsən evinin yanında on iki dənə daş var. Ves kənt yığılsa, bu daşın birini götürmək mümkün döylü. Durur daşlar da. Deməli, bu üş gündü də yoxdu, möcüzəsini göstərdi. Bax unnan u kişi orda qayb olub. Orda onu deməli hər cumadan cumaya müəyyən adamlar var ki, görür. Cumadan cumaya yaloynan gəlir girir yerinə, yaloynan da gedir. Çox ağır ölüyadı.

## VEYS BABA
### I mətn

Üş yerdə onun qəbri var. U Veys baba fağır olub, dəvə güdüb özgəyə. U vaxtı arpadan, qarğıdalıdan cad bişirirdilər. Bir əppək qoyublar da, səhər dəvə güdməyə gedir. Yolnan keçən deyir ki, ajdığım var. Kəsib yarsını verirmiş una, yarsını özünə saxlıyırmış. Sonra qurban olduğum u peyğəmbər bilirmiş unu. Görüşə bilmirdilər. Bax, təsbeh u vaxdan qalıb mollaların dediyinə görə. Neçə dəfə bunu tapa bilmiyib. Anasımı, yoldaşımı peyğəmbərin deyib: «Yoxdu öydə». Bir də gedəndə deyib ki, qurban olduğum hardadı? Deyib ki, bəs dişi ağrıyırdı, gedib dişini çəkdirməyə. O vaxtı həkim yoxuydu, dəllək çəkirdi dişi. Gedib dəlləyin yanına. Peyğəmbərin yəqin bu olar ağrıyan dişi, bunu çəkdirim. Otuz iki dişini çəkdirib, hamısını çəkdirib. Bilmir hasıdı ağrıyan dişi peyğəmbərin, hası dişi çəkilib. Kağıza büküb gətirib qoyur. Qurban olduğum peyğəmbər dişini çəkdirəndən sonra gəlib görüb ki, öydə kağızın üstündə diş var.

Deyib: «Bu nədi?» Deyib: «Vallah, bir ərəb gəlmişdi bura, səni xəbər aldı. Dedik ki, dişini çəkdirməyə gedib. Getdi bir qədərdən sonra qayıdıb gəldi. Dedi kin, bunu al qoy öyə, onun dişidi». U saat qurban olduğum bilib ki, Veys babadı bu. İndi bizim mollaların dediyinə görə, azərbaycanlı olub onun əsli. Azərbaycanda ölən vaxtı u biri məmləkətlərdən də gəliblər. Deyiblər bizimdi, biz aparajayıq. Nəysə, mübahisədən sonra belə qərara gəliblər ki, yatax durax, genə məsləhətdəşək, kim aparası olarsa, u aparar. Səhər durub görüblər eyni cənazədi, eyni şəkildə üş meyid var. Birini ərəblər aparır, bir qəbri də onun məncə İraqdadı. Bizimkilər deyir əsl meyit burda basdırılıb, ular, deyir, burda basdırılıb.

## II mətn

Öləndə vəsi eliyib ki, mənim əbamı Həzrət Veysələ verərsiz. Heylə də eliyiblər. Üç nəfər, Əli başda olmaxla aparıb verirlər ona. Geymir, saxlıyır, tez-tez açıb baxır. Neçə illərdən sonra dünyasını dəyişəsi olanda vəsi eliyir ki, məni ağ dəvənin belinə qoyarsız, dəvə harda yatsa, orda dəfn eliyərsiz. Heylə də eliyirlər. Rəvayətə görə, dəvə nə qədər yol gələndən sonra hansı ərazidəsə dəvə yatır, tez də durur. Basdırası olmullar. Gəlir... İndiki Qaxay kəndi ərazisinin adı Xınalıx olub, indi Qaxay adlanır. Orda yatası olub. Orda basdırası olublar. Orda basdıranda dəvənin dalıynan gələn adamlar iddia eliyiblər ki, bizimkidi, burda basdırmıyın. Arada bir dəstə adam da olubdu ki, yox, bizimkidi, biz aparajayıx. Yerli əhali deyib ki, ola bilməz, bura gəlib, burda da dəfn olunmalıdı. Görüblər ki, burda qan düşəcək, ağıllı bir adam deyib ki, hərə bir dənə cinazə düzəltsin, tabut düzəltsin. Qoysun meyidin yanına, cəsədin yanına. Hamı çəkilsin getsin. Hansında girib yatarsa, onun olmuş olur. Bu, Allahın möcüzəsidi. Bəlkə heylə olmuyub, bəlkə də heylədi. Gəlib səhər görüblər ki, üçündə də var. Hərə öz cinazəsini götürüb aparır. Faktdı, biri Türkiyədə var, eşitdiyimə görə, biri burdadı, biri də hardasa. Bax, bunun əhvalatı belə olub.

## III mətn

Allahın birinci elçisi qurban olduğum bizim peyğəmbər olubdu. İntaası genə onnan danışa bimiyib, kəlmələşə bilmiyib. Veys baba özü peyğəmbərnən danışa bimiyib. Ha bir gun gəlib, qızı deyib ki, ay baba, vallah, səni çağıran var. Deyib ki, get dinən namaz qılır. Çıxammıyıb. Ha bir gün gəlib, ha iki gün gəlib, bir gün meçitdə

olub. Gənə gəlib Veys baba ki, bunnan danışsın da, bunnan kəlmələşsin. Veys baba da bayanda olur da, bu tərəfdə (Qaxay kəndi – top.). Axşamatan dəvə güdürmüş. O vaxtı dəvə var imiş axı. Neysə. Bir günnəri gedir gənə qurban olduğumu öydə tapmıyıbdı. Otuz bir dənə dişini çıxardıb qoyubdu. Dilo olub da keşmişdə, qoyubdu o diloya dişdərini. Qurban olduğum peybəmbər gəlib görüb əyə, öyə işıx düşübdü. Veys babanın dişdəri heylə işıxlı olub. Baxıb görübdü ki, otuz bir dənə diş. İndi bax təsbeh ordan qalıbdı. Otuz bir dənə diş, qurban olduğum da öz dişini çıxardıb onun yanına qoyubdu ki, bunnan təsbeh düzəltsin. Bax, təsbeh unnan, Veys babanın dişiynən peyğəmbərin dişindən əmələ gəlib.

**IV mətn**

Ağdaş çayının üstündə, aşağıda bir Veys baba var. Ona başqa ölkələrdən ziyarətə gəlirlər. Heylə biri gələr, deyər bu Azərbaycanda Veys baba var, gəlmişəm onu ziyarət eləməyə. Onun yerini məə deyin. Bir nəfər götürər aparar, deyər bax burdadı yeri. İki kişi, bir qadın ora gedər ziyarətə. At gedər-getməz, yarı yoldan qayıdar. Atam dedi mən getdim, ziyarət elədim. Ata minəndə at dedi, kəs başımı, qoymaram. Orda bir arvad var idi. Deyər ki, a dayı, sən ziyarət eləmisən, at eləmiyib. Getdi kişinin tutyəsindən aldı, bir qabda suya çaldı, atın başına çəkdi, heç elə bil bayax partdıyan at döylü. İndi var yaxşı kəssələr.

**V mətn**

Peyğəmbərin bir dənə dişi düşür müharibədə. Həmən bu Veys otuz iki dişinin otuz ikisini də çıxartdırıb. O dişdərini kağıza büküb gətirib. Gəlib görüb ki, peyğəmbər evdə yoxdu. Arvadınnan soruşub ki, Ayşədir adı, peyğəmbər hardadı? Deyib: «Səcdədədi, namaz qılır əsabələrinnən». Deyib: «Mən onu görə bilmədim, bax bunu ona hədiyyə gətirmişəm. Onun bir dənə dişi düşüb, ona görə mən otuz iki dişimi hədiyyə gətirmişəm». Deyib: «Qonağımız ol da. Dayan, gəlsin, çay-çörək yi». Deyib: «Anam icazə vermədi. Anamdan icazə almış olsaydım, mən beyjə sizə qonax olardım». Görürsən, ana necə qiymətdi şeydi ki, o, anasınnan icazə alır, genə orda qala bilmir. Ordan da dişdəri verib, qayıdıb, çıxıb gedib evə.

**VI mətn**

Buna deyirlər Veysəl Qərani. Bu keşmişdə olubdu Allahın ən yaxşı adamı. Heylə deyirlər ha, ən yaxşı adamı. O da dəvə güdürmüş. Onun, bunun dəvəsini güdürmüş. Sonra dəvə karvanınnan harasa gedirmiş. O, burda qeyb olub. Allah-tala deyib ki, mən Veysi özümdən ötrü yaratmışam, amma bütün milləti Məhəmmədə görə yaratmışam.

## HACI SADIQ ƏFƏNDİ

### I mətn

Namaz qılırdı. Namaz qılanda, məsəlçün, Qəsildən Bulotana gələndə namaz qılmağa, gözlədi, gəlmədilər. Gözlədi, gəlmədilər. Dedi: «Ə, bu adamlar niyə gəlmir?» Getdi dedi ki, ə, Qəsildə bir ağac var, u ağacın dibində camaat namaz qılıb qayıdır. Dedi: «Ə, u nətəər olan şeydi. Mən bu kəndin imamıyam, mən olara umud olmuşam, niyə gəlmir, ə?» Getdi gördü ki, başı sarıxlı bir şey, bir adam oturub. «Kimsən, ə, sən?» Dedi: «Mən bu ağacın imamıyam». Dedi: «Ə, sən nətəər imamsan. Ə, imam mənəm, camaat də gəlib namazı qılmadı məscitdə. Sən kimsən, hardan gəlmisən?» Deyir: «Yox, belə». Durdular bular süprüşdülər. Süprüşəndə bu imam bu şəxsi yıxdı. Şərtdəri bu idi, başını kəsmək. Qılıncını çıxartdı başdadı bunun başını kəsməyə. Yıxdı axı bu imam. Yıxan kimi dedi: «Ə, sən mənim başımı niyə kəsirsən?» Dedi: «Ə, şərtimiz var da, kəsməliyəm». Dedi: «Ə, kəsmə. Gündə səə iki qızıl verəjəm. Mənim kəsmə başımı. Səə xeyir verim da. Mənim başımı kəsəndə nə xeyri olacaq səə. Günü iki qızıl verim. Döşəyin altını qaldırajaxsan, görəjəksən iki qızıl var. Götür xaşda». Dedi: «Ə, nə yaxşı oldu. Hər gün zəhmətsiz iki qızıl götürərəm da». Kəsmədi, dedi, bunu. On gün getdi. On gün bu qızıldan aldı xaşdadı, satdı yidi. On birinci gün baxdı belə, gördü ki, yoxdu qızıl. Gördü camaat da gəlmir. Tərpəndi. Gördü camaat dayanıb orda, toplaşıb ora. Həmən kişi ordadı, camaat da namaz qılır. Tərpəndi getdi ora. Dedi: «Sən gənə hardan peyda oldun, ə?» Deyir: «Məə qızıl verjəydin». Deyir: «Ə, səən qızılın qutardı. Srokun bitdi səən». – «Ay aman, ay dad». Dedi: «Ay aman, ay dad yoxdu». Dedi: «Süprüşəjəyik, hansımız yıxsax onun başını kəsəjəyik». Şeytan ənəlhəni yıxdı dizinin altına. Bu şeytan ənəlhə idi. Yıxdı, xançalı aldı: «Çəkirəm başaa». – «Ay aman, ay dad». – «Kəsirəm başıı». Dedi: «Ə, bayax mən səni yıxdım axı. İndi noldu? Burda nə var, bunu məə di». Dedi: «Ə, sən imanını satdın məə. Sən bayax Allahnan idin, Allah qüvvəsi var idi. İndi sən

Allahın qüvəsindən qutardın, nəfs bəlasına keşdin. U qızılları səə verdim, sənin imanıı əlindən aldım. Səni yıxdım. Onçün sənin başıı kəsirəm. Mənə dəymirsənsə, buraxıram, dəyirsənsə, buraxmıram. Dedi: «Ə, mənə dəymə, sənnən işim yoxdu». Ant verdi una. Dedi: «Sənin nəslinnən işim yoxdu».

İndi azarı alım, şeytan bəlası adamların içində var. Elə bir bədəninə girir, elə bir şirin dilnən girir, deyirsən, bunnan yaxşı, dilvənd adam yoxdu. Amma içini bilə bilmirsən. Kətdə elə adam olubdu ki, gəlibdi, oturub evində əppəyini yiyib, çayını içib, axşam da gedəndə seyvanın qırağında ya bir qujax odununu aparajaxdı, ya motalını götürüb gedəjəkdi. Belə adamlar olub. Deməк, bu şeytan adamdı da. Allahını istəyən döylü.

**II mətn**

Hajı Sadıx əfəndinin oğlu da molladı. Hər axşam bu oğlunun yuxusuna girib ki, gəl məni burdan çıxart. Savalan yoluun qırağında qəbri var. Bir aya kimi bu oğlunu dincəltmir. Oğlu daa bezib, gedib mollaya deyib ki, bu atam məni dincəltmir ki, gəl məni burdan çıxart, bala, burdan çay gələjək. Bu da gedər mollanı götürüb. Görüb nətəər qoyulub bu adam amanat durub burda. Götürüb. And içirlər ki, deyənnər ha, heş üş metrə bayna çəkməmiş Türyançaya sel – çay döyülmüş ha, qəbirstanlıx imiş – elə axır, gurhagur gedir. Ağır ölüyaların hökmüdü ha. Onnan sonra basdırıblar qırağa.

**III mətn**

Bizdə Hajı Sadıx əfəndi olubdu. Kəndin ayağında meçidi də var. Orda Hajı Sadıx Zamanı gəlib tapıb. Bunu tapannan sonra deyibdi ki, burda qalmax istəyirəm. Sən də elmdar adamsan. Burda ikimiz ibadət eliyək. Mən də bu kəndin nümayəndəsi. Məə də burda torpax tap ver. Mən torpax alım, burda sənnən ibadət eliyək. Mən də olum bu kətçiin biri. Başdıyıblar bular burda, oların böyründə Mehdi olub. U Mehdinin dədəsindən Hajı Sadıx əfəndi bu kişiyə yer alıb. Demək, o vaxtı zəkat deyirlərdi. Atamız, babamız taxıl əkəndə zəkatını fağırafüqəraya verirlərdi. O vaxtı da kəndə kim molla gəlirdisə, o mollanın dənini, dəyirmana getməyini, odununu bu camaat idarə eliyirdi. Mal nobatıdı, mal nobatına gedim yoxdu. Camaat özü gedərdi onun yerinə. Taxıl əkmirdi, biçib eləmirdi, onun taxılını camaat zəkatdan gətirib verirdi. Hajı Sadıx əfəndi o vaxtı uşax oxudurdu, tələbə oxudurdu.

Tələbə oxudanda zəkatı yığıb Hajı Sadıx əfəndiyə verirlərdi ki, tələbələrə baxırsan, bişirtdir tələbələrə yemək ver.

Bular ikisi Hajı Sadıx əfəndi ilə namaz qılıllar. Bular axşam namazını qılıb gələndə Hajı Sadıx əfəndiynən Xəlfə Kərim baba kəndin qırağında oturub. Oturanda görür naxırda inək gəlir. Hajı Sadıx əfəndi deyir ki, bu inəyin qarnındakı balanın başı təpəldi. Xəlfə Kərim baba deyibdi ki, Sadıx, düzgün bax. Danaan alnı təpəl deyil, quyruğunun uju ağdı, alnına yapışıb. Sən onu görə bilmirsən. Mərc gəlib. Doğubdu inək. Hajı Sadıx əfəndi görübdü düz deyir, quyruğu ağdı. Ana bətnində alnına yapışıb. Onunçan onu sən seçə bilmədin.

Vaxd gəlir qılçalarını yel tutur bu Xələfə Kərim babanın. Qılçalarını yel tutanda Hajı Sadıx əfəndi əl arabasına qoyub meçidə gətirərmiş, meçitdən apararmış. Bir gün bunun nəhlətə gəlsin şeytan qəlbinə girir ki, ə, Qabıstanın bir ərəbi gəlibdi bura, məə sığınacax olubdu. Mən bu boyda şəxsiyyət, alim, arabada bunu gətirirəm, aparıram. Deyib: «Sadıx, arabanı qoy yerə, qoy yerə. Əstəfirlah tüpür, əstəfirlah tüpür». Başdıyır arabanı qoyur yerə, əstəfirlah tüpürür. Deyir: «Sadıx, mən bir Qabıstanın ərəbiyəm, səən şəxsiyyətə yaraşmıram. Qoy məni, yeri get namaza. Deyilənə görə, Hajı Sadıx əfəndi deyib: «Məni bağışda Xəlfə, nəhlətə gəlsin şeytan. Daa bir işdi səhv olub, məə halallıx verginən». Deyib: «Halal xoşun olsun. Amma qəlbii təmiz elə». Başdıyır bu cür bular gün-güzaran keçiriblər.

Bir günü bu çay boğazınnan – Qəbələdən gəlirmiş Hajı Sadıx əfəndi. Gələndə görür ki, Ərəb-Kükəl camaatı çaydan çıxır. Camaatın qənşəriylə gedir. Gedəndə deyib: «Ə, hardan gəlirsiz, hara gedirsiz?» Deyib: «Müsəllə eliyirdik ki, yağış yağsın».

– Müsəlləh nə olan şeydi, dayı?

– Duadı da. Namaz qılıllar daşın üstündə, qızğın daşın üstündə, çayın içində. Paltar-maltar salmıllar, hamısı dizi üstə daşın üstündə durub Allaha dua eliyirlər. Una da Xosrodayı ölya yoxdu? O şəxs (Hacı baba – top.) Ərəbdə olub vaxdiylə. O da orda gedib müsəllə eliyib. Hajı Sadıq əfəndi deyib ki, Hajı babanın sözünü Allah eşitsə, mən sıbatımın parasını qırxdıraram, sakqalımın. Ağzınnan çıxdığıynan yağışın yağmağı sikunda çəkmiyib. Bunu rəhmətdik molla Cəbreyil kişi var idi, Hüşündə, o danışırdı. Mən də uşax idim, onda eşitdim. Dədəm dedi ki, Hajı Sadıx dedi, üzümün parasını qırxdıraram Allah onun sözünü qəbul eləsə. O dəyqə yağış, deyir, göydən

süzmələndi, töküldü. Duası qəbul olundu. Hajı Sadıx əfəndi üzünü qırxdırdı deyir. Üzüm ağrıyır deyə gizli saxladı.

Sonra vaxt gəlir Xəlfə Kərim baba Hajı Sadıx əfəndiyə deyir ki, Sadıx, mən ölürəm. Vaxd çatıbdı, mən ölürəm. Mən öləndə məni bu kənddə basdırma. Məni keçirt, Cardama gedən arx var, onnan oyza. O vaxtı qəbri belnən qazıllardı. Bel əlində belə sürüyə-sürüyə apararsan. Aparılarsan, u bel birinci çıxajax əlindən. Birinci çıxanda basdırma. İkinci bel harda çıxsa, orda məni basdırarsan. Bu aşağı kənddər Cardam, Yecə, Qarağana gedən kəndin yolları da arxın o üzüylə olub. Onçan da deyib məni bu yolla aparginən. Birinci bel çıxanda məni basdırma. Harda ikinci bel əlindən çıxdı, orda məni sol tərəfə basdır, sağ tərəfə basdırma. O da deyib: «Baş üstə». Bu da bu formada bunu götürüb gedir camaatnan. Birinci beldə basdırmır. İkinci bel çıxanda sol tərəfə, indi olduğu yerdə dəfn eliyirlər. Ora dəfn eliyəndən sonra bizim camaatın ölüləri hamısı gedib ora basdırılır. Hajı Sadıx əfəndi öləndən sonra bura bizim qəbirstannıx olub.

Hajı Sadıx əfəndiynən də o vaxtı orda bir şəxs olub. Demək, o vaxtı şıxlar, kim vardısa gəlib onnan Allaha dua eliyərmiş. Başdıyıb bu şəxs deyibdi ki, Hajı Sadıx əfəndi, sənnən neçə vaxtı burda ömür sürmüşük, ibadət eləmişik. Deyir: «Mənim vaxtım çatıbdı». Öydən kosöyü götürüb, halallaşır bunnan. Deyir: «Mənim dalımca gəlmə. Bu kösöy harda... Səhər bağı-baxçanı gəzərsən. Harda bu kösöy varsa, orda qeyb olajam. Məni yumax, qəbir qazmax lazım döyül. Allah tərəfindən sirrimi səə deyirəm». Başdıyır gedir, indi bizim qəbirstannıx olan yerdə... Səhər gəlib bağı gəzəndə görür ki, ağac küçüklüyür, ağacın böyrü də çinar ağacı olub, o da başdıyıb göyərib. Kösöy göyəribdi. Bu görəndən sonra kösöy keçib. Axı o dilinnən ilqar eləmişdi ki, bu tüstülüyəcəkdi. O tüsütüynən gəlib tapajaxsan. Hajı Sadıx əfəndi də bunun tüstüsünə gedib onu tapıb. Onnan sonra Hajı Sadıx əfəndi vəsi eliyib öləndə ki, gələndə qəbirstannığa birinci u şəxsə dua verin, sonra mənə dua verin. Bular bu formuda olub qardaş, azarı alım.

*Söyləyici həmin şəxsin adını yadına sala bilmədi.*

## XƏLFƏ KƏRİM BABA

### I mətn

Xəlfə Kərim baba deyib ki, mənim cənazəmi dəvənin üstünə qoyun, dəvə harda dayansa, orda basdırın. Şam kəndində bunun cənazəsini dəvənin üstünə qoyublar. Dəvə gəzə-gəzə gəlib orda (Bu-

lotanda – top.) yatıb. Orda da dəfn eliyiblər. Həmən Şam kəndindən keşmişdə rəhmətə gedənnər, indi də lap qohumu olannar gətirib orda dəfn eliyirlər.

**II mətn**

Söyləyicinin dediyinə görə, Xəlfə Kərim baba şikəst olub. Hacı Sadıq əfəndi hər gün onu arabada meçidə namaz qılmağa aparıb gətirərmiş. Bir gün də onu aparanda Hacı Sadıx əfəndi ürəyindən keçirib ki, ay Allah, mən nə vaxtacan bunu arabada gəzdirəcəyəm? Hajı Sadıx əfəndinin ürəyindən keçən fikir Xəlfə Kərim babaya ayan olur. Deyər ki, ay bala, qada alım, saxla. Deyər: «Niyə, ay baba?» Deyər ki, bəs sən ürəyindən bu fikri keçirmisən. Onnan sonra Hacı Sadıx əfəndi yalvarıb ondan üzr istiyər. Xəlfə Kərim baba Şamaxılı olub. Həmən yerdən keçəndə xəstələnir. Tapşırır ki, mənim cəsədimi dəvənin üstünə qoyun. Dəvə harda yatsa, basdırın. Heyləcə onu dəfn eliyirlər. Əvvəllər onun nəslindən olannar öz ölülərini gətirib onun yanında basdırırdılar. Amma indi buna əməl olunmur. Ancaq üstünə ziyarətə gəlirlər.

## PİRKƏKƏ

**I mətn**

Yazırsan? Hə, yaxşı, yaz. Mən də yazmışam o vaxtı. Kəkə adında ərəb olub. Gəlib burda nobata gedib, mal güdüb. Bu hər axşam bir adamın evində qalırmış – aylədə, çörək-zad yiirmiş. Bir günü gedəndə, malı axşam gətirəndə bir qarı nənənin inəyi gəlmir. Qarı bu Kəkə babaya başdıyır nalayix sözlər diməyə. Niyə gəlmiyibdi, belə. Bu ajığı tutur, belə hirssənir, özü gedir malın dalıynan. Hindi aşağıda bizdə pir var, ölüyadı. Gedir ora. Qarı da, deyir, bunun arxasınca gedirmiş. Gedir görürür inək həmən yerdə otduyur. Bu başdıyır həmən inəyə diməyə ki, ay heyvan, səən sahibin məni ajılıyır, mən yorulmuşam, sən niyə gəlmirsən öyəə? Dilə gəlir həmən inək, mal. Deyir ki, mən evə gedən kimi u qarı təmiz südümü alır, balama yem qalmır, ərzaq qalmır. Arvad, deyir, belə döşünə vurur, deyir: «Vay, inək də danışarmı» – deyən kimi yer aralanır, həmin Kəkə yerə qayb olur. Onnan sonra bu kəndin adı qalıb Pirkəkə. Onun adı Kəkə olduğuna görə, həmən o ad da kəndə verilib.

**II mətn**

Orda bir ləzgi mala gedirmiş. Mala gedəndə aparıb malı güdübdü noxurun içində. Noxurun içindən qayıdıb gələndə axşam görüb ki, bir qarının inəyi gəlmədi. Gəlib ki, ay nobatçı, hanı mənim inəyim? Deyib ki, sənin inəyii xirtdəyətən yidizdirmişəm. Mən nə bilim harda qaldı? Bilmirəm, malnan gəlmiş olar. Deyir: «Yox, bu saatdarı sənin başını yaracam, səni öldürəcəm, inəyimi tap ver mənim». Deyib: «Ay arvad, mən nağarım, mən nətəər eliyim». Nəsə, elə ordan malı kəndə ötürüb qayıdıb dala. Düz həmən mal güddüyü yerə. Mal güddüyü yerə gedəndə gedib görür ki, həmən mal olan yerdə, bu saat pir olan yerdə inək otduyur. Deyib: «A heyvan, sənin yiyən mənim başımı yarır. Sən burda nə itib qalmısan? Səni bu günnəri otarmışam, səni doydurmuşam, sən burda niyə qalırsan, niyə məni sözə gətirirsən?» İnək, deyir, orda dil açıbdı. Dil açıb deyib ki, mənim yiyəmin üzü qara olsun. Mənim son qurtumunatan təmiz südümü alır, balama heş bir şey qalmır. Ona görə də mən maldan sonra qalıram ki, bir az da artıx otduyum ki, balama süd olsun. Hə. Deyib ki, gəl düş qabağıma. Aparım səni yiyənə tapşırım, amma onun üzünü mən görmüyüm. İnəyi qatıb qabağına burdan qapı çağı getmiş görüb ki, yiyəsi gəlir. Elə orda da kişi yıxılıb yerə, ölübdü. Elə orda da basdırıblar. İnəyi arvad götürüb gedibdi. Kişini axtarıblar tapmıyıblar. Nəsə. Deyib ki, filan yerdə idi, kişi qaldı orda. Gəlib axtarıblar, görüblər kişi elə burdaja yıxılıb. Elə ora da basdırıblar. Bu aralarda on beş gün olar, iyirmi gün olar bizim malımız hamısı dabax olmuşdu. Apardılar sürüynən qoyunu da, malı da. Apardılar onun hərrəməsinə hərrədilər, Quran oxudular, unnan sonra tutyəsindən götürdülər gətirdilər.

## ƏRƏBOCAĞI

### I mətn

Böyük kanal olmuyub o vaxtı. Ziyaratın alt tərəfində orda məskən salıblar. Dəvələri yatızdırıblar bular, unnan sonra üstünün yükərini götürüb yerə qoyublar. Bular yatıblar. Səhər durmax istəyəndə hamı durubdu, görüblər bir nəfər yoxdu. Ha orda, ha burda, görüblər bir belə yerdə bu adam yerə qərq olub. Bu qədər – təxminən əlli sanı bunun çuxasınnan çöldə qalıb, torpaxdan çöldə.

### II mətn

O ərəb gətirib orda çay qoyur. Orda məskunlaşır. Dəvələri yatızdırallarmış, çay içirlərmiş, ordan da minib gedirlərmiş. Unnan

sonra orda gəlib axşamlıyıb bir nəfər ərəb qalıb. Bir nəfər yox ey, çox adam qalıb. Bir nəfər, yəqin Allaha yaxın adam olub. Bu səhər-səhər həmin ziyarət olan yerdə durub namaz qılır. Namaz qılanda yer yarılıb, bu qərq olub yerə. Bir vaxd görüblər ki, çuxasının uju qalıb, ərəb getdi yerə. Elə unnan onun üstünü çəkiblər. O vaxd, bu vaxd ora ziyarətgahdı. Məəm babam ki var, Abdulla olubdu adı. U daa orda qalmağa qorxub. Gəlib ki, burda bir koma öy... Elə bizim bu məhlədə olubdu, Məhəmməd kişi deyirik. Şəbeh Məhəmməd deyirlər o vaxtı. U Məhəmməd kişi bax burda yer verib. Nəsə yavaş-yavaş, tikilə-tikilə kənd orda məskunlaşmıyıbdı, başdıyıb burda böyüməyə. Babamı burda həmən Məhəmməd kişi öyləndirib.

## MUSTAFA BABA
### I mətn

O, qoyun güdüb. Əsli-kökü Qəbələli olub. O, qoyun güdüb. Güdə-güdə gəlirmiş. Orda bir ocax qalıyıb, bizim ata mülkümüzdə. Ojağın qırağına bir dənə kösöv taxıb deyib: «Səni görüm burda ziyarətgah olasan. Gejə də orda qalıb. Allah tərəfindən ona iki dənə şirin nar, ağaşda şirin nar olub, onu yiyib sabahı açır. Sabahları durub yol başdıyıb gedib. Gedib, bir vaxtı hərlənib qayıdıb gələndə gəlib görür ki, həmən u kösöy göyərib bir dənə qarağac olubdu. Beləcə pöhrəliyib qalxıbdı. İndi çinar boydadı o qarağac. Qardaşdarı, bajıları, hamısı gəlib orda kök salıb. O öləndə onun qohum-əqrəbası üstündə dava salıb ki, gərək gedə Qəbələyə. Aparıblar meyidini. Gejəliknən uçub gəlib bax orda qeyb olub. Qurban olduğum vəsi eliyib ki, birjə mənim üstümə çay daşı, bir də həsir gətirin. Bax, bax, bu havadadır həsir. İlbəil üstünə toxuyullar, gətirirlər, qoyullar. Onun üstündə daş yoxdu. Bax, ona başdaşı qayırıblar, səhər gəlib görürlər böyrü üstə köndələn durub böyründə.

### II mətn

Ora Mustafa babadı. Mən ora getmişəm ziyarətə. Dedim bu niyə Mustafa baba adlanır. Dedi ki, o ölüf. Öləndə üş-dörd kənd, u deyib mən aparıb basdırajam, bu deyib mən aparıb basdırajam. Deyiblər qalsın sabaha. Sabah da görüblər ki, üş dənə cənazədi. Amma əfəndi baba hansındadı bilmirlər. Bular götürüb gətirib basdırıblar. Öləndə kişi vəsi eliyib mənim üstümə bir dənə həsir gətirin qamışdan

toxunma. İndi də üstündə həsir var bu boyda. İndi nə bilim mən, yaxşı kəslər olub keşmişdə. Həmin pir Mirzə Hüseyndə yerləşir.

## ABADLI HACI ABDULLA

Bizim bir Dağıstannan gəlmə mollamız vardı, molla Musa baba deyərlərdi una. O söhbət eliyirdi. Deyir mən Hajı əfəndidən dərs alırdım Abad kəndində. Bir günü, deyir, Hajı Bulud əfəndi ora qonax gəldi. Mən də oların bir tələbə kimi çayını-zadını gətirirdim. Evdə də, deyir, lampa yanırdı. Hajı əfəndi deyir: «Ya Bulud, hədis eliyək, Xıdır əleyhsalam gəlsin». Deer olar hədis elədilər. Bir də baxdım gördüm, deyir, evdə işıx dəyişir. Ha işıx dəyişir, işıx dəyişir. İşıx, deyir, gün rəngini aldı, ləmpəən işığıın itirdi. Xıdır əleyhsalam, deyir, peyda oldu. Başdadılar, deyir, üş nəfər Qurani Kərimdən hədis eləməyə. Bizim Azərbaycanda okqədər qüvvəli ölyalar var ki?! Veys baba kimi, Abdul ata kimi, Hajı Bulud baba kimi, Hajı əfəndi kimi çox qüvvəli ölyalar var Azərbaycanda.

## HACI BİNNƏT BABA
### I mətn

Kəndin aşağı tərəfidi. Yol burdan gəlib keçib gedir. Gejə balığa gedənnər... Gejə aydınnıx olur, Kürə tor tökürlər, axıdıllar, gedirlər, başda hardasa çıxan yeri var, yığıllar. Görürlər balıx var, yığıllar gəmiyə. Yoxdu, təzədən belə salıllar. Belə balıx tutmağa gedirlər. Ağ balıx deyirik biz. O iri balıxlardan. Hə. O vaxtı görürsən gejənin şərində biri deyir ki, Hajı Binnət babanın şeyx olmağını biz nədən bilək? Deyir ki, onnan bilərik ki, biz gedəndə bizə süddü-balıxlı aş bişirər. Bu da buna ayandı. Eşidir bunu. Nəysə. Səhər açılır, gəlir durur yolda. Qırx dənə gəmi olur. Hər gəmidə də iki dənə adam. Gəldikcə gəmilərə deyir dayanın, dayanın, dayanın. Yığıldı, qutarannan sonra deyir ki, yığıldınızmı bala, daa balıxda adam qalmadı ki? Deyir ki, yox, hamımız gəlmişik. Deyir: «Çıxın çölə». Hamı çıxannan sonra hər gəmidə də iki adam olub. Qırx gəmidə də səksən adam eliyir da. – «Gəlin gedəyin, dediyiniz hazırdı». – «Ə, biz nə dimişik?» Gedirlər. Deyir: «Oturun». Gödəkcədən, palazdan salır da. O vaxtı nə olub ki? Bir çay nəlbəkisində, hər iki adama bir nəlbəkidə süddü-balıxlı aşdan gətirib qoyur. Sən məə baxırsan, mən səə baxıram. Deyirəm mən alsam, səə qalmıjax, sən alsan, məə qalmıjax. Deer: «A bala, fikirləşmiyin. Bildiyinizi deyin, xörəyizi

yeyin. Xörəyimiz çoxdu, qabımız qıtdı». Yəni, pismillah eliyin xörəyinizi yeyin. O iki nəfər adam bir nəlbəki aşı yiyib qutara bilmir.

### II mətn

Marallar da gəlib anasına sağdırarmış. Bu da gedir Məkkədə namaz qılır gəlir gündəlik. Qayıdıb gələndə anası bir günü deyib ki, bala, elə bilərsən ki, öz hesabına gedirsən, onu heylə hesab eləmə. Deyir: «Haraya?» Deyir ki, o getdiyin yeri deyirəm». Getdiyi yer də, Məkkəyə gedir namaz qılır. Deer ki, mən öz hesabıma gedirəm. Deyir ki, heylə? Deyir: «Bəli». Deyir: «İndi baxax görək gedə bilirsən, yoxsa yox». Maralı sağır, südü gətirib tökür qazana, ojağa qoyur bişməyə. Duvax deyirik biz, ağzına taxta duvax qoyurux. Duvağın da üstündən gətirib mal təzəyi qoyur. Baba gedir, gedir, gedəmmir. Ağlıya-ağlıya qayıdır gəlir evə. Onnan qabax görmüşdü da, qaydıb gələndə başmağında qar var. Buralarda qar nə gəzir? Hardasa dağdan, dərədən keçəndə qar olub, ayağında qalıb da. Onnan bilib ana da, yoxsa bildirmirmiş. Heyləjə bu qayıdıb gəlir. Deyir: «Ana, bağışda, sən deyən imiş. Qələt eləmişəm».

### III mətn

Deyib ki, mənim də əməyim var, sən gedirsən, qayıdırsan. Deyib mən özüm gedirəm, sən nə eliyə bilərsən. Anası, gedəndən sonra – olar mal sağmırmış, ceyran sağırmış, – südün ağzına, qabın üstünə gedib ayannan təzək tapıb gətirib qoyub. Gedib, gedib, gün doğub qayıdıb. Qayıdıb gəlib, deyib: «Səyf eləmişəm». Evladı var imiş, bir oğlu, özündən qabax ölüb. Ölübdü, görüblər ki, bayatılıyır. Deyiblər ki, a Binnət, nə bayatılıyırsan? Deyib ki, bir evladım var idi, dünyasını dəyişib. Deyib:

Əzizinəm, arı şanda
Bal eylər arı şanda
...............................
Ürəyim açışanda.

Uşağın öldüyünü bilib. Ayan olub ona.

### IV mətn

Hajı Binnət baba Məkkədə ölüb. Binnət babanın tutyəsindən alnına vurullar. Qorxan adama tutyəsindən içirdirlər, sağalır.

## MƏLİKBALILI HACI ABDULLA

### I mətn

Məlikbalılı Hajı Abdulla baba əsli buralıdı. Oğlu, uşağı, qız nəvəsi ulardan qalıbdı. İlyaz əfəndi onun oğludu. Ərəbistanda dərs alıb. O vaxtı Ərəbistanda anasını yuxuda görüb danışılana görə. Bekaf olub. Onda müfdi deyirlərmiş savadlı adamlara. O müfdi deyib ki, Abdulla, niyə bekafsan? Deyib ki, anamı yuxuda görmüşəm. Deyir: «Dur getginən». Deyir: «Mən hancarı gedim?» Deyib: «Get bir qara at gələjək qarşaa. Onu min, gözüü yum. Gözü açanda bağınızda görəjəksən özü. Atı burax, otduyar, gələn vaxtı atı minib gələrsən». U vaxtı atı minir, gözüün yumur, açanda görür ki, öz bağlarıdı. Ordan gəlib görür ki, anası dooğa bişirir. Anası dooğa bişirəndə bunu yada salıb ağlıyırmış. Deməli, dooğanı bişirib yerə qoymamışdan qabax Abdulla özünü çatdırıbmış. Bu Allahın hökmüylədi. Amma qəbri Məlikbalıdadı. Məlikbalıdan ayannan bəri gələndə görür ki, bir qarağaşdıx var. Oturur orda itsirahət eliyir. Gəlib deyir ki, məni orda dəfn eliyərsiz. Onnarın nəsli hamısı ordadı, Məlikbalıdadı.

### II mətn

Adı da Hajı Abdulla olubdu. Onun əmisi oğlu olubdu. İndi də duur. Nəvəsi onun üstünü-zadını düzəldib. O Hajı Abdulla da Məlikbalı torpağındadı. Bizim olub vaxtıyla, ora basdırılıb. Nəvəsi, nəticəsi, kötükcəsi çox böyük nəsil olub. Nəyə nəzir desən, nəyə niyyət tutsan, qurban olum onun kəramətinə, o qabula keşməlidi. Heylə bir Hajı Abdulla adlı ölüya var burda. O gejə gedib u qarannıx yerdə namaz qılırmış. Ayrıca öydən bir on beş metr kənarda namaz qıldığı yer var. Ona görə ona Qarannıx baba deyirlər. Qarannıxda namaz qıldığına görə ona Qarannıx baba deyirlər. Bu saat da durur namaz qıldığı yeri də.

Atam, əmim deyirdi ki, Hajı Abdullanın üstünə nə nəzir deyib getsən, u iki ola bilməz. U düzəlməlidi. U heylə çox təmiz adam olub. Onun oğlu olub İlyaz əfəndi. Özü də oxuyubdu Ucar rayonunun Qazıqumlax kəndindən Yəhya əfəndiynən, İsmayıl əfəndiynən. Dəvəçi rayonunnan bir nəfər məə Bakıda rast gəldi. Dedi mən İlyaz əfəndiynən oxumuşam, İstanbulu qutarmışam. Sonra Şəmsabadda Muxtar əfəndi vardı. Ərəb, fars dilini Azərbaycan dilinə perevod eliyirdi.

Deer bir uşax gedirmiş. Bunun da ayağında çarıx var imiş, Hajı Abdullanın. Uşağın ürəyindən keçib ki, heylə bir çarığım olaydı. Ona əyan olub. Deyib: «A bala, bura gəl». Çağırıb. Çıxardıb

ayağınnan çarığı geydirib uşağa. Deyib: «Ay baba». Deyib: «Yox, oğul, get». Bunun birinci möcüzəsiin belə eşitmişəm.

Onun ikinci möcüzəsi. İndi durur u adam. Uçaskovu vardı. Onun üstünə nəzir qoyurdular. Uşaxlar yığışdırıllar da. Katib, raykom rast gəlib, deyib: «U məktəbin uşaxları orda nə gəzir? Unu ordan sökün, dağıdın, nağarın». Uçaskovuya deyib ki, gedərsən orda qəbrin üstünü-zadını... Elə gedən kimi ağzı əyilib durub qulağının dibində. Baxşeyiş Hüseyn idi. Özü də durur. Unnan ikinci möcüzəsi bu olub.

## YEDDİ QARDAŞ

### I mətn

Mən uşax olanda deyirdi gamışdarımız vardı. Bu tərəfdə də Çini arx vardı. O arxa, deyir, aparıb orda suluyub gətirirdi. Dizdən də qar idi. Gətdim, deyir, bərdən arı. Gamışdar da çıxdı getdi. Ağlıya-ağlıya gamışdarın dalıyca ho-ha eliyə-eliyə gedirdim. Gedəndə, deyir, birdən gördüm ki, orda, həmən ağaşdıxda cərgəynən qarın üstündə belə kürklərini salıblar, yeddi nəfərin yeddisi də yönü qibləyə namaz qılır. Biri durdu ayağa, kürkünü aldı, deyir, çiyninə saldı. Gəldi, deyir, başdadı gözümün yaşıın silməyə kürküylə. – «Oğul, ağlama. Bu saat. Ay heyvannar, incitmiyin uşağı, qayıdın gəlin, gedin yerizə». Heylə deyən kimi bayaxdan qaçıb gedən gamışdar qayıtdılar dala. Gəldilər, deyir, girdilər dama. Məndən aralandı, deyir, getdi onların yanına, çatanda çöyrükdüm baxdım ki... Dedi ki, oğul, evdə heş-zad dimə ha. Diməsən xeyir taparsan. Çöyrükdüm baxdım ki, pırr elədi. Elə bil bir dəstə quş uçdu. Baxdım gördüm ki, heş kəs yoxdu orda, amma qarın üstündə kürkün yeri qalıb. Gəldim evə, deyir. Gələn kimi atama söylədim ki, ay lələ, bax belə-belə iş gördüm mən orda. Deyir: «Oğul, nahax söylədin sən onu».

### II mətn

Mikayılgilin dədəsi vardı Abdulla kişi. Dəyirmanın başında olurdular. Orda o, dəmirçi işdeyirdi. Mən uşax idim, gedib gəlirdim. Mən gedən vaxtdarı o kişi yatırdı, xəstəydi. Boynu qıpqırmızı şiş idi. Deməк, o kişi kömürdən ötrü gəlibdi ordan bir dənə palıd ağacı kəsibdi. O da cılğı mismar olubdu üstü. Deyib: «A kişi, bunu kəsmə, ziyanın çəkərsən. Ora ölüyadı, onun ağacını kəsmək olmaz». Deyib: «Eh, heş nə olmaz». And içir ki, kəsib yerə yıxdığınnan buna bir titrəmə gəlib ki, o dəqiqə dombalıb deyir o qırmızı nəsə çıxıb ordan.

Mən uşax idim. Özüm də gedib görmüşdüm o kişinin boynunu. Boynunda qıpqırmızı vəzi şiş. Elə o yatmaxnan da yatar, durmuyub ayağa o kişi. Kəsdikləri palıd da üstü cılğı mismar elə heylə qalmışdı orda.

### III mətn

Gamışdarı var imiş, onu aparanda görüb yeddi dənə kişi belə saf alıb namaz qılır. Uşax da bilməz da bu kişilər kimdi, nəçidi. Qar da yağırdı. Gamış da gedir. Uşax da ağlıya-ağlıya gamışı qaytarmağa gedirdi. Onda görür ki, kişi də namazı qılıb başdadı: «Ay heyvan, hara gedirsən, qayıt dala», – deyəndə camışdar yüürə-yüürə aynan bəri qaçıb məhləyə girdi. Unu mənə rəhmətdik anam söylüyürdü.

### IV mətn

Yeddi qardaş ölüya babanın siftə məhləsi Ərzimangil olan yer olub. Ordan onnar bir gejənin içində qərq olublar. Namaz qılıblar pirin həyətində. O yaman ajıxlı ölüyadı, babadı. Şakir müəllimin cijisi söylüyürdü. U görüb oları. Birinin adı Məhəmmədəli olub. Yeddi qardaş olublar. Bir gecənin içində onnar uçub gedib orda qərq olublar.

### V mətn

Burda pambığımız vardı bizim. Keşdim ordan, gördüm ki, bu Mustafa qardaş orda oturubdu. Dedim ki, ay Musafa qardaş, orda oturmaginən ey, o, sənə zərər edər. Ora ağır ölüyadı ha. Dalı ora sən niyə çevirmisən? Dedi: «Əşi, qurban olum ölüyaya, heş nə olmaz». Onnan gördüm onu, on il xəstə düşdü. O yaman ağır ölüyadı. Ölüya onu vurmuşdu.

### VI mətn

Ana babamnan yatırdım. Babam ocağı qaladı, dedi: «Oğul, dur bu saat çay gələjəkdi». Çayı da ayrıca beş litirlik samovarda dəmliyirlər. Səhər onu içib Göyçayın bazarına gedəjəkdik. Mən ordan belə baxdım, gördüm ağacın dibindən, həmin qarağac idi, ora mismar vurmuşdular, yüz adam da gəlsə, istəyir çastnıy adam, mən həmişə deyərəm, deyirəm, üstündə də dururam. Gördüm yerdən yalo qalxdı. Yaşıl yalo. Qırmızı döyüldü, yaşıldı. Ordan qalxdı ağacın başına, ordan qayıtdı töküldü o ağacın qoluna, budağına, yerə. Bir dəqiqə çəkmədi yenə də qalxdı. Hava hələ yaxşıca işıxlanmıyıb. Üçüncü dəfə də qalxdı, onnan sonra gözlədim bir on dəqiqə, qalxmadı.

Sonra orda bir Alış kişi vardı. Deyirdi bu iyirmi dördüncü ilin qışı yox, onnan qabağı, iyirmi dördüncü il də Lenin ölən ildi, bərk qar yağıb. Bir gamışımız vardı. Arxa, suya gətirdim, onnar qaşdı deyir bağ tərəfə. Bir az getdim, gedəmmirəm axı, qar dizə çıxır. Ordan (Yeddi qardaş ölüyadan – top.), ağsakqal bir kişi çıxdı, əlində hasa. Dedi ki, ay heyvannar, uşağı niyə incidirsiz, qayıdın dala. And içir ki, o saat heyvannar qayıtdılar dala.

**VII mətn**

Bir kişi vardı, aboxeist Əlövsətin babası. Deyir ki, tənək kəsirdim. Cır tənək ha. Onnan mala toxuyullar çəltik yerini malalamağa. Deyir, birini kəsdim, ikisini kəsdim, üçünü kəsəndə gördüm birinci yoxdu. Tənəklər yamacdan çıxıb qalxıbdı ağacdarın başına. Onnan sonra qayıtdım çıxdım.

**VIII mətn**

Bu yaxın ildə kalxozda pambıx əkirdilər. Gedər görər ki, gün bayannan doğur da. Bu tərəf də yaxşı kölgədi. Deyər bir az uzanım. Uzanar bu Mustafa, bu irəvanlı, dalını pir tərəfə çöyrər. Deyir nəysə məni elə vurdu ki, elə bil ciyərim çıxdı. Durdum ayağa, o yana-bu yana baxdım, heş şey görmədim. Çıxdım gəldim. Fikirləşdim ki, mən dalımı o tərəfə çöyrüb yatdığıma görə... Orda hələ də hökm var. İndi də var. Çox qüvvətlidi. Bir də bu müharibə zamanı bir neçə adamın imkanı olmuyubdu qəbirstanlığa gətirməyə qızını, nəvəsini ora basdırıb.

**IX mətn**

Səə mən bir söz deyim, amma onu ora yazma. Kalxozun hötəkbuzoyun güdən mənə dedi ki, orda bir donuz yatır. Mən də ovçuyam. Dedim onu ataram mən. Sonra fikirləşdim ki, onu orda mən ata bilmərəm. Çünki onun qanı ora tökülər. Sonra ha bir kərə gedərəm, ha iki kərə gedərəm, çağıraram, o yanda ataram. Sonra bir günnəri ova getmişdim. Gələndə Əlövsətin atasının mülkündə, bağın aşağısında kollux vardı. Gördüm mənim itim ora getdi. Qismətdən deyirəm ha. Orda Allah-tala icazə vermədi. Onun üçün Allaha mən yüz faiz inanıram, peyğəmbərə də, pirə də, hamısına. Bu havaxda Abbəkir də, ayləsi də gəldi, səs-küy elədilər. Bir sümük tapdılar, atdılar ora. Atan kimi şarıltı oldu. İt də o yannan cumdu. Donuz bərdən çıxdı. Donuz bu qıraxdan hoppananda bir güllə atdım. Getdi, amma gördüm sirkannıx o yanda tərpənir. Çəpəntayına da birini də

atdım. Orda o pirdə Allah-tala onu atmağa mənə icazə vermədi. Heyvanın pulu mənə qismət idi, amma orda yox. Onu Allah-tala özü gətirdi. Bax bu öylərin yanında onu vura bildim.

## QARAĞAC PİRİ

### I mətn

Ləzgi köçü gəlir. Ləzgi köçü gələndə içində bir alim gəlir. Alim əlinin əsasını sancır ora. Sancanda onun əlinin əsası ağac olub. Dişi ağrıyan mismar saşsın, boğazı gələn üstündə yatsın. Məhəmməd əfəndi deyib ha. Onun, deyir, qardaşı da Əmirmahmud qəbirstannığındadı. Məhəmməd əfəndi Qarağac pirindədi.

### II mətn

Deyirlər ki, Məkkəyə gedirmiş kimsə bir nəfər, gedəndə əlində quru bir həsa olubdu. Dayanıbdı, tonqal qalıyıb, nağarıb, u həsasın ora sancıb gedib. Qayıdan vaxt görüb ki, həmin həsa olubdu bir dənə ağac, göyərib.

## ÇƏLƏBİLƏR PİRİ

### I mətn

U çələbilər olubdu Qarabağda altı-yeddi qardaş. Ən böyüyünün adı Çələbi imiş. U gəlib burda ölüb. Onda onu basdırıblar mənim dədəmin öyünün yanında. İldə iki kərə, üç kərə uun qardaşdarı gəlib üstünə ziyarət eliyirdi. Çələbilərə başı ağrıyan gedir. Dediyim Məhəmməd əfəndi, qarağac var ha, ora dişi ağrıyan, ağzı əyilən gedir. Ağzı əyilən gedir üstündə yatır, düzəlir.

### II mətn

Çələbilər piri var. Gəlib, nəsə, burda ölübdü. Keşmişdə harasa köş aparıb, köş gətirirlər da. Köş gəlibdi, nəsə ajalı burda yetibdi. Burda ölübdü. Əmirmahmud qəbirstannığında basdırıblar. Mənim yaşım yox, cijimgilin yaşdarı olan vaxdarı o ölübdü. Hər il o adamın nəvələri, nəticələri, kötükcələri hələ də onun üstünə gəlirdilər. Gətirib qoyun kəsib orda ziyafət edirdilər.

## MƏHƏMMƏD ƏFƏNDİ

Namaz qılıb gələndə yayda başmağında onun qar olubdu. Sonra nənəm deyib ki, əşi, bu istidə başmağında qar var. Deyər ki, sən axmaxlamısan. Qar nağarır? Tez durub, deyir, başmağını götürüb silkəliyibdi. Deyir: «Bayaxları ora getmişdim, küllükdü, yaqın kül tökülüb başmağıma». Bax, belə bir şey olubdu.

Sonra onun bir kürkü vardı. İlan gəlib kürkün altında yatardı. O kürkü əlli beş-əlli altıncı illərə qədər dururdu. Yekə kürk idi, özü də qoyun dərisindən. Arvad qorxubdu. Çəkinəndə deyib: «Nolubdu». Deyib: «Burda ilan var». Deyir: «Sən axmaxlamısan, nədi? Gah deyirsən qar var. Görmürsən çatıdı. Bir bax. Bayaxları hötəyi aşmışdım, indi çatını gətirmişəm». Baxıb görür çatıdı. Sonra görür yoxdu. Deməkcildinə girə bilir də heylə. İlan cildinə, o birisinə, bu birisinə. O cilddə, o formada olur.

## QARAQOVAQLIQ

Odey, Qazıqumlaxda bir dənə pir – Qaraqoaxlıx var. Uşax idim, burdan yol gedirdi. Gördüm, adə, altı-yeddi dənə ağajdıx, dibində bunun bir maşın odun olar. Heş kəs bunu götürmür. Atamdan xəbər aldım: «A kişi, orda nə yaxşı odun var, onu aparıb yandırmıllar». Dedi: «Ay oğul, mən də görməmişəm. Bura bir kişinin məhləsi olub. Qədir gecəsi olub, ağajdar səjdəyə yıxılıb. Kişi deyib arvada ki, dur apar buzoyu bağla, xəzəldən yisin. Arvad, deyir, aparıb bağlıyıb, gəlib yatıb. Səhər durub görürlər ki, ağajdar səjdədən qalxıb, buzovlar asmanca qalıb heylə. Kişi, deyir, məhləsini tərk edib köçüb ordan». Yel tutannar ora gedir.

## GÖY AT PİRİ

Veys babanın əsabəsi olub. Atdı belə ötürmüş, Zərdab, Kürdəmir keçməyə, orda atın ağzı köpüklənib, yorulub. Düşüb orda atı bir ağaca bağlıyıb, atdı-zaddı, deyir, yerə batıb. Ona görə də ona göy at piri deyirlər. Göy öskürəyə görə ora ziyarətə gedirlər. Qarağacın üstünə (qarağac həmin pirin həyətindədi – top.) göy əski bağlıyıllar, göy çolpa gətirirlər, bir də şirniyyat.

## MOLLA ƏHMƏD BABA

Qaynanamın babası olub. Uzax kəndə gedib atı minib. Məsələn, qoşu kəndə. Gedib oturmuşdu deyir. Hələ yemək vaxtı döyül. Söhbət eliyirdi. Dedi: «Məə icazə verin öyə gedim. Gəlmişəm sizin

hüzuruza, qayıdım gedim». Dedilər: «Niyə?» Dedi: «A kişi, mənim hayatıma adam gəlib, əziyyət çəkirlər. Gedim mən, qayıdım gedim». Nəsə, icazə verirlər buna, atı sürüb gedir. Görür ə, dokqazın ağzında dayanıb iki adam. Dokqazı açammıllar, qapını. Deyib: «Ə, aşmıyın». Düşüb atdan bularnan görüşüb, deyib: «Gəlin bura». Deyib: «Niyə gəlmisiz?» O yan, bu yan, deyiblər: «Oğurluğa gəlmişik». Bunun bir kəlçəsi olar. Bir dənə də camışı. Kəlçədən, camışdan ötrü çox oğurluq olub o vaxtdarı. Diib: «Onnan ötrü gəlmişik». Durğuzub arvadı, deyib: «Süddü aş bişir». Yidizdirib, içizdirib buları, deyib: «Gəlin bəri». Kəndiri bağlıyıb başına, deyib: «Ala, göt get. Siz əziyyət çəkmisiz burda». Deyib: «Əşi, yox, aparammarıx». Deyib: «Yox, mümkün döylü». Dokqazdan çıxarıb buları, deyib: «Gedin». Kişi gəlib yatıb. Səhər durub görüb dokqaza bağlıyıb ikisini də, çıxıb gediblər. Heylə bir adam olub bunun (oğlunu nəzərdə tutur – top.) babası. Adı Molla Əhməd olub.

## QARA BABA

İndi Zəkigilin məhləsinə düşüb. Xəndək var idi. U xəndəyin yaxasında bir dənə qara qoağ var idi, yekə. Sonra müharibə dövrü qara qoağa od düşər, nolar, yanar yarıdan bir az. Gənə də heylə qalmışdı. Müharibədən sonra idi. Kükəl dəyirmanına gedirdim mən. Apardım dəni qoydum dərmana, ayannan bəri qayıdanda gün tamam da belə saralmışdı, lap dar ikindi idi. Gördüm bir dənə yaşıl yalo o qoağın başınnan qalxdı, şığadı belə getdi günbatana sarı. Gəldim, ölənnərinizə Allah rəhmət eləsin, rəhmətdik anama dedim ki, hal-qəziyyə belə-belə. Dedi: «Bala, ölüyadı da, o da ölüyadı. Hara getsə, Xəlfə Kərimin üstünə ziyarətə gedir». Bulotanın başında ağaş da var. Ora ölüyadı, Xəlfədi. Əsli qavıstanlıdı. Yəqin adna idi. Da orasını unutmuşam.

Sonra u Xəlfə Kərimin üstünə bu yaxın vaxdara kimi, təxminən 70-ci illərə kimi, hər il tut dəyən vaxtında qavıstanlılar görərdin ki, böyük camaat dəvəynən-zadnan aşdarı bişirib, dəvələrə yüklüyüb, gətirib orda xeyrat verib gedirdilər.

Sonra o qoağı ləğv elədilər, xəndəyi düzlədilər. Dedilər ki, Qara baba guya bu palıda addıyıb. Palıdın da başınnan u cür yalo çıxıb. Gedənnər görən olub. Deyiblər: «Hə, ölüya, dimək, bura addıyıb».

## HACI İBRAHİM

Bizim kəntdə Hajı İbrahim kişi olubdu. Onun arvadı, deyir, səhər görüb ki, onun başmağında qar var. Yay ayında ha. Deyir, unu danışmazlar. Deməli, bular Şalbruz babaya gedirlərmiş. Dağıstanda Şalbruz baba var. Orda, deyir, namaz qılıb gəlirlərmiş. Ayaxlarında qar gəlirlərmiş öyə. Deməli, heylə adamlar uçullarmış.

## ŞIX MAHMUD BABA
### I mətn

Sonra burda Soltan Şıx Mahmud baba olub. O mənim göyüm idi. O məhlədə ki, sən durmusan, o məhlə Şıx Mahmud babanın məhləsidi. Danışıllar ki, Uzun Mahmud olub, ləqəbi Uzun Mahmud olub. Bir az da ağır eşidir. Yolda gedəndə görür ki, ləzgi ağlıyır, at ölübdü. Yükün altında ölübdü at. Deyir: «Niyə ağlıyırsan?» Deyir: «Yük belində atım ölübdü. Yoldakılar çıxdı getdilər, burda qaldı». Deyir: «Ölməz sənin heyvanın, durar ayağa. Özü də qarnında balası var, dişi balası var». Deyir: «Ay Allahın heyvanı, dur ayağa, kişinin yükünü yerdə qoyma». Ölmüş at dirildi. Dirildəndə dedi: «Sənin adın nədi?» Dedi: «Mənim adım Mahmuddu. Mənim adım Soltan Şıx Mahmuddu». Deyir, çağıranda onu bir az ağır çağır, bərk çağırginən ki, eşitsin. Çarığı var. Çarığı bu saat durur. Burda bir Əminə arvad var, ona veriblər, saxlıyır. U çarığı mal yiyib, gamış yiyib, peyinə gedib, peyinin içindən çıxardıblar. Ağzı əyilir, Allaha asi düşən adamların ağzı əyilir. Onu gətirirlər, çarığı sürtən kimi onun ağzı düzəlir.

## QƏRİB BABA

Burda yel piri var, adını bilmirəm. Qərib baba deyirik biz, da adını bilmirik. Calğalıxda bir bişmiş kərpiş-zad da var. Bir böyük kol var. İçində gər ağacları var. Unu çalannar var. Burda bir ləzgi Mahmud var. Kolu çalanda deyib: «Çalma buranı, kol azlığıdı səə?» Uyza-buyza baxıbdı, kimdi bunu deyən. Görübdü heş kəs yoxdu. Diməli ordadı. Bişmiş kərpişlər. Keşmiş qəbirstanlıx olub ora.

## SÖHRAB BABA

Keşmişdə dəvəynən nöyüt-zad aparıllardı. Orda rəhmətə gedib, orda basdırıblar. İndi kimi yel tutur, bir xəstəliyə tutulur, üstünə gedirlər, sağalır.

## ŞIX ŞAHQUBAD

Əsli Ləkidən olub. Kərpici Ləkidən əlnən gəlib. Adamlar düzülüb, kərpici əlnən ötürə-ötürə gətiriblər. Şıx Şahqubadı ziyarət etmiyib Veys babaya gedənin ziyarəti qəbul olunmur.

Şahqubadın üstündən keçib gəldiyimizdən əvvəl onu ziyarət etmək, sonra Veys babanı ziyarət etmək lazımdı.

## DALAQ PİRİ

Veys baba dalaq pirində namaz qılıb gedəndə daş qoyub ki, bu da məndən yadigar qalsın, filan xəstəliyə görə bura gələnlər şəfa tapsın. Başqa bir variantda isə deyilir ki, Veys baba dalaq piri olan həyətdə gecəliyib. Yol keçəndə orda gecəliyib. Daşı da özündən sonra qoyub gedib. Pirə ziyarətə gələnlər ora duz qoyurdular, duz əriyəndə dalaq da əriyirdi.

## HACI SƏLİM BABA

Qolqətidə ölüyadı. Vaxti ilə kənd məscidində dini tədris edirdi. Qoşaqovaxlı Hacı Mir əfəndi onnan dərs alıb. Camaat yığılıb Hajı Səlim əfəndi üçün ev tikmək istəyib. Hacı Səlim əfəndi deyib ki, mən tikmirəm dimirəm ki? Qarğıdan bir ev tikin, çölünü palçıxla suvayın. Onsuz da o dünyada mənim yerim hazırdı. Bu dünyadakı ev isə müvəqqətidir.

## ŞİŞPƏR BABA

Çoban hər ildə qoyunnarı arana gətirirmiş. Gəlib, deyir, orda dağ var, Qutqaşın tərəfdə, onun üstünə ziyarətə gedirlər. Ölüya var u dağda. Şişpər baba deyirlər. Orda görünkür, deyir, iki dənədimi, bir dənədimi çoban idi, dağda tonqal qalıyıllar. Tonqalda isiniblər. Deyib ki, ya ölüya baba, biz arannan qayıdınca... Payız vaxtı gəlirlər bura – arana. Qışı aranda qalırmış, yaz vaxtı gedirlərmiş. Bax belə vaxdar ləzginin dağa gedən vaxtıdı. Deyib ki, ay baba, biz gedirik arana. Biz qayıdıb gəlincə tonqalda od qalsın, bu qoyunnardan

yeddisini qurban kəsərəm. Qayıdıb gəlirlər. Gəlib görürlər ki, deyir, həmin tonqalda od qalıbdı. Qış uzunu qalıyıblar, o vaxdan da tonqalda od qalıbdı. Ölüya baba sınamaxdan ötrü eliyib da bunu. Təzədən tonqalı yaxşıca qalıyıblar, yiyiblər, içiblər, gülüb-danışıblar çobannar. İtdəri də yanında. Sürü də otduyur dağın ətəyində. Elə isinib ki, bu çoban, nətəəri. Başdıyıb köynəyini çıxardıb. Bit düşübmüş köynəyinə. Biti tapıb tulluyub tonqala, deyib ki, bax bu bir dənə qurban, irax olsun, onun diliynən, bu iki qurban. Heləliklə yeddi dənə deyir. Yedincini tamam eliyəndə elə orda köynəyi də əlində, deyir, daş olub çobannar da, itdəri də, qoyunnarı da. Baxırsan, elə bil qoyun sürüsü otduyur dağda. Hamısını ölüya baba daş eliyib onnarı.

## MİKAYIL ƏFƏNDİ

Mikayıl əfəndi bu kəndçi olubdu. Bizim ulu babamız olubdu. Aşağı məhlədə onun ojağı var. Ziyarətə gəlirlər. Onun yoldaşı bir gün səhər duranda başmağında qar görübdü. Elə orda soruşur, nağarır, nə eliyir. Sonra ceyran gəlirmiş, bunu sağırmış. Biz görməmişik, deyilənə görə, malı sağıb gətiriblər. Bunu mənim anam, atam görübdü. Südə barmağını çalırmış, uyuşub qatıx olurmuş. Sonra ağzı əyri adam gəlib hardansa. Yatıb onun ojağıın üstündə, ağzı düzəlib. Bunu mənim atam söylüyüb. Sonra yara, hal-hazırda qılçasında, müəyyən yerində yara olannar gəlir. Yaraya tüpürürmüş, yara sağalırmış. Belə möcüzələri olub.

## SEYİD ŞAHMƏRDAN

### I mətn

Əgər o pirin üstünə sən natəmiz getsən, o adamı daşa çevirər. Mələk qarı deyir bir dəfə ora getdik. Getdik, deyir, nə hadisə üz verdisə, o camaatın içində kim vardısa, o bir daş-kəsək yağdırırdı, deyir, elə bil göydən kəsək yağır. Qaşdıx gəldik. Layaxsız adamları üstünə qoymurmuş o.

### II mətn

Onun nəslindən olan adam ona qorux çəkir. Üstünə qoyulan nəziri götürür. Başqasını götürməyə qoymur pir. Seyid Şahmərdan üstünü götürməyə qoymur. Üstünü götürüblər uçulub tökülüb.

## MUSTAFA BABA

Mustafa baba Seyid Şahmərdan babadan hardasa, dörd yüz, beş yüz metrə aralıdadır. Bir dənə yulğun ağacıdı. Onun dibinə basdırılıb. Biz də ona yaz oyananda nazir deyərik ki, ya Mustafa baba, sənin Quranını oxudarıx ilan xatasınnan bizi uzax elə. Bizə xata gəlməsin ilannan. Bunu da həm o başdan oxudarıx, həm bu başdan ki, bunnan uzax olax.

## HACI HÜSEYN BABA

Mən bilən bizim kənddə Hajı Hüsöyn baba olub. Deyib ki, u Abaddayı Hajı baba deyirlər ki, görür hər şeyi. Görüm o yaxşı görür, mən yaxşı görürəm. Getdi, deyir, görüşdü onunnan. Görüşəndə, deyir, axşam mal qabağına çıxdılar. Bir gəlin mal aparırdı. Qabağında gamış aparırdı. Dedi: «Gamış beyjə doğajaxdı». Hajı Hüsöyn baba da dedi ki, qarnındayı balası təpəldi. Hajı baba dedi ki, yox. Quyruğunun uju ağdı. Başındadı quyruğu. İçəridə ey, qarnında görür bunu. Səhər qadın mal sürəndə dedi ki, gamış doğdumu? Dedi: «Doğdu». – «Təpəl idi, yoxsa quyruğunun uju ağ?» Dedi: «Quyruğunun uju ağ idi». Dedi: «Hə, Hajı baba məndən yaxşı görür».

## HACI ƏHMƏD BABA

Kor arxda Hajı Əhməd baba olub, bir də burda Hajı Hüsöyn baba olub. Bizim Hajı Əhməd babaya qohumluğumuz çatır. U Hajı Əhməd babanın nəvəsində mənim bajım var. Orda ərdədi. Onun qızı danışırdı. Hajı Əhməd babanın qızı danışırdı. Deyirdi ki, atam xörək bişirəndə öydə deyərdi ki, çıxın seyvanın başınnan Hajı Mirəfəndi babanı da çağırın, Hajı Hüsöyn babanı da çağırın. Biz deyirdik ki, a baba, burdan Hajı Hüsöyn baba nə eşidir. Deyirdi: «Sizin borcunuza döylü. Seyvanın başınnan çağırın, gələjəklər». Deyir iki dəyqə çəkmirdi, bir də görürdün gəldilər. Sonra, deyir, xörək bişirirdik. Yeyəndə, deyir, odu ağızlarına alırdı bir-birilərinin üstünə übürürdü. Çırtdax, deyir, tökülür bir-birinin üstünə. Məleykə arvad var idi, qurançi idi. Bajımın qayınanası idi. Mən ora gedəndə danışırdı ki, biz uşax idik, çölə çıxırdıx. Görürdük çöl göyərçinnəriynən seyvan doludu. Gəlirdik ki, ağa, çöl göyərçinnəriynən seyvan doludu.

Deyirdi: «Ular mələklərdi, oğul, çöl göyərçinnəri döyül. İnsannarın əməllərinə baxıllar».

## ŞƏRİF BABA

Həmişə danışırdı ki, ular, ay bala, üş qardaşdılar. Uların öyladı olmuyub. Ular vəsi eliyibdi bizi yol qırağına basdırın. İndi bizim getdiyimiz haman yolun qırağındadı Şərif, Hajı baba ordadı, biri də Bulotana basdırılıb. Da indi hardasa bilmirəm. Deyirlər orda da bir dənə ağac çıxıb unnan. Hamı gedir. Onun da nəziri duzdu. Vəsi eliyibdi ki, mənim yanıma gələn duz gətirsin.

– Hansı öluya vəsi eliyib?

– Şərif baba. İndi onun yanına duz aparıllar.

## QARA SEYİD

Sonra belə danışıllar. Bir adamın atı əl vermirmiş. And içib ki, minəjəm səni, düşmüjəm belindən. Amma havaxta kimi düşmüjəksən? Tutdu atı, mindi, deyir. Amma and içmişdi ki, sənin belindən düşmüjəm. Düşsə qənim olur axı. Getdi, deyir, Qumlax kəndində Qara Seyid var idi. Getdi onun yanına ki, mən belə and içmişəm, nağarım? Deyir: «Mən una fətava verərəm. Hajı baba var Abadda. U Hajı babanın xətrinə dəyər. Sən get onun yanına, qayıdanda məni görginən. Mən, deyir, fətavanı qayıdanda dijəm. Mən disəm, Hajı babanın xətrinə dəyər». Bu səfər Abada sürüf. Şıxlıdan Abada sürüf. Gedib orda Hajı babaya deyib belə-belə. Mən and içmişəm, onun belindən düşmüjəm? Mən yorulmuşam, onun belindən düşmək istəyirəm. Pəşom var, nəyim var. Da indi düşmək istəyirəm. Bu and məə qənim olub. Keşmişdə andın da qiyməti olub da. Hajı baba deyib ki, sür u qarağacın dibinə. Sürüfdü. Çıx qarağaca, düş qarağacdan. Atın belindən çıxıb ağaca, düşüf ağacdan. Gələndə də gəlib seyidin yanına. Deyibdi ki, hindi sən diginən dərdimi. – «Dijəydim ki, çıx calğaya, düş calğadan». Deyir: «Hə, Hajı baba da məə heylə dedi. Çıxdım qarağaca, düşdüm qarağacdan».

## NİFTALI BABA

Niftalı baba deyirəm eşitdiyimə görə, o vaxtı hər gejə gedib Həzrət babada ziyarət eliyirmiş. Bu ziyarət eliyən vaxtında yay zamanı bunu heş kəs bilmir. Axşam camaatnan yatır evdə, u, gejə gedir. Bir gejə də gedib

ziyarət eliyib qayıdıb gələndə gəlib yatır. Səhər həyat yoldaşı durur görür ki, bunun başmağının qırağında qar var. Bu qarı görüf məhətdəl qalır ki, yaxşı, qar yağmıyıb, bir şey olmuyub, yayın günündə, bu isti vaxtı qar hardan olsun? Səhər duranda deyir: «A kişi, bəs sənin başmağının böyründə qar var. U qar hardandı?» Deyir: «Sənin görən gözlərin tökülsün», – deyən kimi arvadın gözləri kor olur, özü də burdan uçub gedir. Hara getdiyi bilinmir. Amma yeri məlumdu. Burda ziyarətgahdı.

## HƏZRƏT BABA

### I mətn

Həzrət baba Şah dağındadı. Həzrət baba, qurban olduğum, dimək onun atasının iki dənə arvadı olur. Nəysə, bu qurban olduğum ancax çəltikdən, düyüdən qaçıbdı. Harda oturub u çəltik onun paltarına bulaşıb. Deyib: «Gedəjəm elə yerdə durajam ki, çəltik məə bulaşmasın. Axı mən günahkar oluram». Nəysə, qurban olduğum axşam yatır. Savannarı anası görür ki, yoxdu. Gərək onun dalınca gedək. Gedirlər, nə bilim, dağ görur, dağdan xəbər alır, çay görür, çaydan xəbər alır. Hamısı da xəbər verir ki, keşdi getdi. Gedirlər. Həzrət baba dağın başında durmuşmuş. Görüf ki, gəzirlər arvaddar. Yornux gəlir. Düşür qabağına, gəlir. Deyir anasına ki, ana, sən mənim doğma anamsan, amma u ögeydi. Qoy əvvəl unu çıxardım öz yerimə, unnan sonra düşüf səni apararam. Deyir: «Yaxşı». Əzəl ögey ananı çıxardır yanına. Düşür ki, anasını çıxarda, u hə-hü eliyib gəlincə ölüfdü. Anasını kəfən-dəfən eliyir, basdırır, unnan sonra çıxıb ki, ögey anasını düşürüf gətsin ki, anam rəhmətə gedib. Çıxıb görüf ögey ana da orda ölüf. Özü də ögey anasının yanında ölüf. Ora ziyarətə gedənnər görür ki, öz anası yerdədi, ögey anasıyla özü dağın başında.

### II mətn

Ata-anası aş bişirib düyünü yiyirlər. Nətəər olubsa, biri düşüf yerə. Bilmiyib da, bunu Həzrət baba tapdalıyıbdı. Başdıyıb ağlıya-ağlıya gedib dağın başında qeyb olubdu. İndi də ağlıyır. Ağlıyır ki, o düyünü mən niyə tapdaladım. Bir dənə düyü yeddi qulfallahdı. Yeddi qulfallah da bir dənə Qurandı. İndi deyir gənə də ağlıyır. Nə vaxt gedirsən şapbaşap su tökülür.

## KOMURAD

### I mətn

Əli peyğəmbər müharibəyə gedər. Müharibəyə gedəndə bir dənə erməni qızı görər. Erməni qızınnan bunun xoşu gələr. Qız da bunnan əl çəkməz. Nəysə, evlənəllər elə müharibədə. Elə orda qoyar erməni qızını. Müharibə qutarannan sonra çıxar gələr. Çıxar gələr, gələnnən sonra onun oğlu olar. Diyər ki, əyərləri oğlun olsa, qolunda bazubənd varmış, onu bağlıyarsan qoluna. Qızın olsa, deyir, medalyon verir, onu taxarsan döşünə. Yanı vaxd-gün bəlkə gəlib tapdım. Bu da çıxar gedər. Uzun müddət bu tərəflərə fırlanmaz. Bir vaxd gələr, görər ki, bir uşax var. On yaşında oğlan uşağıdı. Bu bütün uşaxları götürüf çaxır yerə. Hamısına qalib gəlir. On dənə uşağı leş-leşə qoyur. Gəlir deyir ki, sən kimsən ey. Öz atasıdı ha bu. Əli peyğəmbərin erməni qızınnan olma uşağıdı. Deyir: «Ey uşax, dayan görüm sən kimsən?» Deyir: «Neynirsən, hər kiməm, nəyəm. Gəl güləşək». Deyir: «Nəsən sən? Balaca uşaxsan». Deyir: «Gəl qüvvəmizi yoxluyax». Yoxluyub qüvvəsini, Əli peyğəmbər görür ki, bu qüvvədə var. Bu balaca uşax çox qüvvəli uşaxdı. Görür ki, bapbalaca uşax bunu yıxmax istəyir. Bu qojalıb eliyib deyənə. Görüf uşax buna qalib gələjək, dizlərin yerə qoyub, yarıyacan dizi, deyir, torpağa girir. Elə nərə çəkir, uşağı götürüf atır havaya. U uşax göyə qalxanda fırlana-fırlana gəlib yerə düşmək istəyəndə görüf ki, qolunda özü verdiyi bilərzik. Adı Murad idi. Deyir: «Adını Murad qoyarsan». Başdıyıb deyir: «Ko Murad, ko döyül. Ko Murad, ko döyül». Yanı ko Murad, ko döylü, ko döylü. Da hara çata. Gəlib düşüf dağa, dağ yarılıbdı. Uşax giribdi dağa. Bax u dağa ziyarətə gedillər. Ko Murad dağı deyillər. Qəbələ tərəfdə yerləşir.

**II mətn**

Ərəflər gəldi axı, burda dava eliyiblər. Verib bir üzük, qıza deyib ki, mənim qızım olsa, bu üzüyü barmağına taxarsan, oğlum olsa, qoluna bu bilərziyi bağlıyarsan. Əli diyib. Deyir: «Yaxşı». Heylə də olub. Uşax gəlir olur oğlan uşağı. Bilərziyi mən bu saatı qoluma bağladığım kimi, qoluna bağlıyır uşağın. Uşax gəlir on beş yaşına çatır.

Bir gün Həzrət Əli gəlib çıxır Qəbələyə. Onnan da adı qalıb Qəbələ. Gavurlara qələbə çalıb orda. Onlarla dava eliyib, qələbə çalıb orda. Gəlir ora, gələndə görür, ayə, on beş yaşında uşaxdı. Bir iyirmiyə qədər uşax var, hansınnan yapışırsa götürüf çırpır, tulluyur. On beş yaşındadı, şir kimi oğlandı. Deyir, indi u dağ durur. Onun adına bağlıdı. İndi söylüjəm unu. Bu başdıyır deyir ki, səni, bu uşax

gələcəyi, – indi özündə fikirləşir, – məə də üstün gələ bilər. Deyir ki, uşağa: «Gəlsənə mənnən güləşək». Deyir: «Güləşək». Başdıyır qurşax tutullar. Görür ki, səni, girri uşaxdı, bu fırlayır bunu, tanımır oğlu olduğunu ha, biləyi keçir əlinə, atır bunu. Atır, gedir orda dağ var, təpəsinə düşür. Gedəndə görür qolunda bilərziyi var. Orda deyir: «Ko Kamran. Ko, ko, ko Kamran». İndi o dağ qalır Ko Kamran. Fırlanır bayannan, gedir görür öz oğludu, ölüfdü, bilərzik də qolunda. Götürür qujağına, daa gecdi.

## SOV HƏMİD BABA

Sov Həmid baba olubdu ilannarın paccahı. Gəlib görüf ki, ilannar hamısı komalaşıb durublar o tərəfə keşmək istəyirlər da. İndi gəmiynən o tərəfə keşmək istəyirlər da. Bu da gəlib öz torpağınnan buların başına səpib ki, orda olannara dəymirsiz ha. İndi ilan görəndə torpax tulluyursan ki, Sov Həmid babanın torpağınnan olsun. Onnan sonra dünyada o tərpənməz. Orda qalar. İndi olar ayna davaya gedirlər. İlannarın davasını görsən məəttəl qalarsan. Necə qaraçıynan qaraçı dalaşır ha, bax ilannar da heylə dalaşıllar. Ular gəmiyə doluşub düz gediblər, nə bilim, İran tərəfinəmi, haramı, davaya. Orda, deyir, möhkəm dava eliyiblər. Oları, deyir, qarşılıyanda – Sov Həmid baba oları gözlüyür axı, – görüf, ay allah, birinin qənədi yoxdu, birinin quyruğu, hamısı dişdənmiş. Bax heylə gəlibdi. Kişi də bir söz demiyib ki, da hindi deyib ki, nəhlət xalasına, niyə heylə eləmisiz. Mən sizə torpax tullamışam axı. Bularda olmayıb da taxsır, o yandakılarda olub.

İndi bir ilan görəndə torpağı alıb Sov Həmid babanın tutyəsidi, Sov Həmid babanın tutyəsidi deyib üstünə tulluyursan ilan daa qaça bilmir.

## EYİF BABA

Ədalətsizlik eliyib, nağayrıb, neyliyib, ajıx eliyib çıxıb gedib, oturub öyündə. Bir gün, deyir, buna hardansa iki ceyran balası irast olur. Bunu saxlıyır, südünü sağır, nağayrır, neyliyir. Bir gün buna irast olur. Deyir: «Ay Eyib, nətəərsən, filan, peşman? Onun yanında vəzir olubdu axı. Bir qonax eləməzsən?» Deyib: «Niyə eləmirəm?» Gətirib buna ceyran südündən yayma bişirib. Yaymanı yeyib deyib: «Ay Eyib, bu inək südünə oxşamır, bu nədi belə?» Deyib: «U ceyran

südündəndi», – deyəndə deyib: «Ə, məsxərə danışma». Baxıb görüf ki, ceyran. Deyib: «Bu gündən sən oldun Şıx Eyib». Sov Həmid babaya da ilannarın padşahlığını, sahibliyini tapşırıb. Sov Həmid babanın qəbri Şıx Eyib babanın yanındadı, Şamaxıda.

## PIRAXƏLİL BABA

### I mətn

Buralar hamısı yəhudilərin əlində olubdu. O dövrdə erməni olmuyub. Xaşpərəst olubdu, yəhudi deyirlərmiş unda. Yaşıyıllarmış ayrı bir yerdə. Yəhudilər ki, buları qovan vaxtında, öldürmək istəyən vaxtında bular bajı-qardaş ikisi qaçıllar. Qaçıllar gəlirlər dənizin qırağıynan. Onda burda dəniz olubdu. Dənizin qırağıynan bajı-qardaş qaçıb gələndə ular unu qovullar. Qız çöyrülüf dala, görüf ki, yəhudi çatıb una. Əlini qaldırıb Allaha: «Ya rəbbi, məni burda qərq elə. Bular məni para-para eliyəjəklər». Yer yarılıb düşür u qız ora. Onun baş ağacı orda qalır. Gəlib ora başağacı basdırıllar. Bu Pıraxəlil qaçır. Qaçır, qaçır, ora çatanda görüfdü bajısı da yoxdu, qərq olubdu. Deyib: «Ya rəbbi, məni qərq elə. Mən də uların əlinə düşmüyüm». Pıraxəlil babaya biz əvvəllər mal aparıb ziyarət elətdirərdik malımız dabax olmasın deyə.

### II mətn

U Pıraxəlil babanın bajısı həmən u dediyim Kürün yanında, bərki tərəfində ceyran güdürmüş. U ceyran güdəsi vaxtında görüf ki, bir nəfər adam gəlir o yannan. Bu kişi xaylağını görəndə deyibdi: «Ya rəbbi, sən məni nə cür gizləyirsən gizlə, naməhrəmə mən görükmüyüm», – deyən kimi Allah onun duasını eşidib. Yer yarılır, yerə qərq olur. Həmən u qərq olduğu yerdə, batdığı yerdə hal-hazırda onun qəbri durur. Dörd yanını da düzəldiblər bu formada. Həmən yeri də camaat ziyarət eliyir. U ziyarətin üstünə getməyin nəziri də iynədi, sapdı. Bunu eşitmişik. Ancax hansı tərəfdən u ora gəlib peyda olduğunu bilmirik. – «Dayı, nə üçün onun nəziri inyə-sapdı?» – «Əlində iynə-sap tikiş tikdiyi yerdə qərq olduğuna görə ora iynə-sap aparıllar».

## MƏŞƏDİ MİRİSMAYIL AĞA

Göyçə mahalında Tovluca kəndində Məşədi Mirismayıl ağa vardı. Özü seyiddi, böyük seyiddi. O Məşədi Mirismayıl ağanın öyündə gürz vardı. Mən görməmişəm, amma gedənnər, qayınanam

deyirdi ki, balığa bənzər şeydi. İpəyə, mənguləyə bükülmüş, sandıxda durur Mirismayıl ağanın öyündə. O Mirismayıl ağanın öyü də ojax idi. Nə niyyətlə getsən o niyyət qəbul olurdu. Hətta zincirlə sarınmış dəlini aparan kimi Mirismayıl ağa rəhmətdik, deyirdi ki, açın buraxın. Açıb buraxan kimi o adam ağlıyırdı. Gəlib oturub çay istəyirdi. Bu möçüzələri mən görmüşəm. O öydə bir inciklik kimi bir şey olanda, məsəlçün, uşaxlar ehtiyatsızlıx üzündən bir haram şey – araxdımı, filandımı gətirəndə sabah durub görürdülər ki, o gürz yoxdu sandıxda. O Mirismayıl ağa o saat bilirdi ki, o gürz gəlib Tovuz rayonundakı Aldədənin qəbrinin üstündə yatıb. Kim soruşsa ki, sən düz demirsən, mən sübut eliyərəm.

## *BAŞQA ÖVLİYALAR HAQQINDA RƏVAYƏTLƏR*

### I mətn

Mənim bir nənəm var idi, Allah ölənnərinizə rəhmət eləsin, öluyanın yiyəsi idi. Həm oranı qoruyub, həm də o həyətdə idi. O guya dediyinə görə, həmən u kişinin qonşuları olub. Bu ceyran hər axşam, bir də səhər saat beşdə hava işıqlaşmamış gəlib özünü sağdırırmış, gedirmiş. Həmən bu kişinin həyətində ha. Bir axşam çağı qonşunun birinə duz lazım olur. Gəlir deyir ki, duz. Belə baxır, görür arvad şarhaşar ceyranı sağır. Bunu görmüyüf axı. Birdən-ikidən görmüyən adam, təəccüblənir. İndi bu Allah-talanın işidi da, qurban olum Allaha. Arvadı çağıranda arvad durmuyub. Tamam sağıb qutarannan sonra gəlib deyib: «Nolub?» Deyib: «Heş nə». Öyə girib deyib: «Kişi, ceyran daa gəlmijək. Bizim sirrimiz açıldı». Duzu veriblər arvada. U gündən ceyran ora gəlmiyib.

### II mətn

Maral, ceyran gələrdi. Qurban vaxtı gələrdi. Elə bil biri yatıb qalardı o həyətdə, qalanı ziyarət edib gedərdi. Sonra xəstə olan gəlir ora. Ziyarət edərdi, üş gün yatardı, sağalardı, çıxıb gedərdi. Biri oların həyətində, biri də rəhmətdik Şəmil gilin ocağına. Qurban bayramında gəlirmiş. İndi maral, ceyran, cüyür, nə isə, biri yatıb qalırmış qapıda. Gəzirlərmiş, qalannarı ziyarət edib gedirmiş. Amma onnardan da xəstə olanı, indi qıçı sınıb, yaralanıb, nə isə, yatır oların qapısında. Orda da sağalıb çıxıb gedirmiş. O vaxtın adamları da olara toxunmurmuş. Bilirlərmiş da ziyarətə gəlib ocağa.

### III mətn

Çox namaz qılırdı, mollalıx eliyirdi. Oyza gedib namaz qılırmış, Məkkəyə. Məkkədə namaz qılanda uçub gedərmiş. Bu da deyib: «Balam, – bunun arvadı, – sənin ayağıın atda qar var, bu hardandı?» Deyir: «Niyirsən onu xəbər alıb». Deyib: «Alıram da». Deyib: «Vallah, Süleyman kişiyə söyləmiyin, mən Məkkədən içəri girəndə bu çölə çıxdı». Bir də gedib gələndə görüfdü, Allah haqqı, baldırında su var. Deyib: «Vallah, uçub gələndə gördüm bura qədər Kürdü. Kürün üstündən keçəndə ayağım bura qədər suya giribdi». Pir deyirdik una biz. Bir adamnan hax almaz imiş. Hak almıyanda Allah onu cənnətə ləyağ eliyibdi.

**IV mətn**

Hansı kəntdəsə eşşək Mehdi var imiş. Hər gün gedib sabah namazını da, günorta namazını da Məkkədə qılıb gəlirmiş. Bunu arvad başa düşürmüş ki, bu başmağında qar gəlir. Bu Vaqif (söyləyicinin oğlu – top.) kimi birisi də deyib ki, mən də gedim Məkkəyə. Pulu-parası qutarır, bunu gətirən yoxdu. Bu kişi çox sıxılıb. Burda buna cavaf veriblər ki, sizin kətdən sabah bura namaza adam gələcəkdi. Sən onnan yapış, səni o apara. Gəlhagəl görər bu Mehdedi. Yüürüf yapışır bunun yaxasınnan. – «Ay Mehdi, haçan gedəjəksənsə mən də sənnən gedim». – «Mən özüm birtəri gəlmişəm». Deyib: «Yox ey, hara gedəjəksənsə, mən də ora gedəjəm».

Üzdən-gözdən salar bunu. Nəysə, buna boyun olar. Namazını qılar, başmağını tapıb burdan bizim qapı qədər gedər, gözdən aralanar. Kişi uçur da. Deyib ki, sən möcüzə görürsən, onu danışan kimi mən öləjəm ha. Danışma. Deyir: «Anddı, Qurandı danışmaram». Tutar bu Mehdinin bilmirəm kürəyindənmi tutar, harasınnansa, gətirər, təxminən deyirəm ha, bizim bağın ayağında deyər düş. Deyir: «Daşın biri atdadı, biri üstdə ha». Deyir: «Yaxşı». Gedir evə. Ay bala, bu kişi iki aydı, üç aydı gedib gəlib çıxa bilmirdi, kimnən gəldi. Bu söz kişini o qədər oyar, ölü yerindəmi, meçitdə namaz qılandamı, nə bilim, u deyib Eşşək Mehdi gəlmədi namaza, bu deyib Eşşək Mehdi gəlmədi namaza. Bu kişi bunun möcüzələrini görüf axı. Deyib ki, ə, eşşək siz özüzsüz. Siz məni çox darıxdırdız. Bax mən filan yerdən onun qənədinə yapışıb uçub gəlib onun qapısının ağzında düşmüşəm. İndi durun gedəyin o kişi ölüf. Onu yuyub, kəfən-dəfən eliyib basdırax. Gəlib görürlər kişi çoxdan ölüf. Adamı tanımax olmur da.

# OVÇU PİRİM

## I mətn

Bütün insin-cinsin dilini bilirmiş. Bir at alıb. Atı varmış. Canavar uluyubdu. Deyib ki, beyjə Nadirin qoyununu yiijəm. Ovçu Pirim deyib ki, qoyunuzu yiijək, iti bağlıyın ora. Canavar gəlib qoyunu apara bilmiyibdi.

O, arvadnan gedirdi. Canavar uluyubdu. Deyibdi: «Ovçu Pirim, sən ki qoymadın qoyunu yiməyə, səni yiijəm». Arvad deyibdi: «Nolub, nə deyir?» Deyir: «Neynirsən?» Nə qədər eliyib, deyib: «Deer ki, beyjə səni yiyəjəm». Gedər dərmana, dərmanda qırx metrə dərinniyində quyu qazar. Düşər ora, deyər: «Mənim üstümü örtün. Quyunun ağzını örtün». Canavar lağım atar düz quyunun içinə, onu yiyir. Ovçu Pirimi yiyər. Belə-belə eşitmişəm.

## II mətn

Heyvannara yaş verməyi bajaran adam olubdu. İlanın yanınnan keçəndə deyib ki, bunun altmış yaşı olar, bunun on dörd yaşı olar. Altmış yaşında qara ilan on dörd yaşında qızıl ilanın balasıyla kürsə gedirmiş. Tüfəylə qara ilanı atıbdı, gedib qızıl ilanın balasına dəyibdi. Mən belə eşitmişəm ha. Dəyibdi, deyir. Bu da, deyir, şah qızı olubdu. İnsan dili bilən adamı göndərib ki, get Ovçu Pirimi gətirginən. Deyib ki, şah sağ olsun, onun əlində tüfəyi var, tüfəynən qırar bizi. Əvvəl dimişdi qoşun çək get onun üstünə. Dedi: «U qırar bizi. Tüfəyi var onun». Dedi: «Get unu mənim yanıma çağır». Gəldi dedi ki, şahımız səni çağırır. Getdi, deyir. Hamıyla, deyir, halallaşdı. Hamma şah, deyir, dilini bilmirdi. Bu perevod eliyirdi, insan dilini bilən. – «Nəyçün mənim qızımı atıb öldürüfdü?» Deyir: «Mən gördüm ki, onnan kürsə gedən ilanın altmış yaşı var. İnamıma kəsr gəldi ki, altmış yaşında kişi on dörd yaşında qızla kürsə getməməlidi, yəni yaxınnıx verməməlidi. Mən qızı vurmamışam. İlana atmışdım, getdi una dəydi». Deyir: «Tanıyar o ilanı?» Deyir: «Tanıyaram. Gəlsə, tanıyaram». İlannarı çağırdı. Dedi: «Bax, budu, bu ilan idi». Bir ilana əmr verdilər zəhərən bunu vurdu, yox elədi. Dedi: «Bunun qarşılığında məndən nə istəyir? Bunun vijdanına görə da». Vijdannı adam olubdu. Deyir: «Mən unnan nə istəyim?» Deyir: «Dinən ki, dilimin altına tüpürsün». İlan dili bilən buna dedi ki, dinən dilimin altına tüpür. Dedi: «Baho, mavrnan maşrığın arasını istəyir bu məndən. Bütün dilləri istəyir məndən». Əlacsız qaldı, tüpürdü, deyir. Qapıdan çıxanda gördü ki, bülbül bülbülnən söhbət eliyir. Dili bunnan bildi da.

## III mətn

Bir rəvayətdə danışıllar ki, bir dəfə Ovçu Pirim oğluyla ova çıxmışdı, deyir. Atası dəyərli şeylərə atardı. Bərzəkmi, turacmı, qırqovulmu, amma oğlu hər şeyə tüfəng atırdı. Dolaşa vardı, deyir. Qayanın başında oturmuşdu. İstədi ki, dolaşanı ata. Atanda dedi ki, dayanginən, ular söhbət eliyir, ulara qulax asım. Söhbət elədilər, deyir. Dolaşa dolaşaya dedi ki, yüz il bunnan qabağa bu qayanın başında idim. Üş dənə atdı gedirdi yolnan. Bir dənə ağ firəng kişi də bu qayanın ətəyində yatmışdı. U gedən adamın biri ağa olubdu, ikisi nökər olubdu, vəzir-vəkil olubdu. Deyib ki, gedin u ağsakqala deyin ki, mənim yanıma gəlsin. Ağa deyibdi. Eyvaz olubdu, xan Eyvaz olubdu. Koroğlunun oğulluğu da. Gəlib deyirlər: «Salam». – «Əleykimət salam». – «Ağam səni çağırır». Deyib: «Mən özüm unu çağırıram». Yəni u mənim yanıma gəlsin. Deyiblər: «Getmirsən onun çaarığına? U gələr səni asar, kəsər». Deyir: «Mənə heş nə eliyə bilməz. Mən burda yatmışam özüm üçün. Əgər mən lazımamsa una, u mənim yanıma gəlsin». Dolaşa dolaşaya danışır ha bu şeyləri. Deyir getdilər dedilər ki, ağa sağ olsun, biz getdik, u adam həm kardı, həm laldı. Salam verdik, salamımızı almadı, danışdırdıx, danışmadı. Yalan satıblar ha. U da, deyir, gəldi özü. Dedi: «Salam əleyki». Dedi: «Əleykimət salam». Dedi: «Ə, bəs deyirdiz bu laldı». Dedi: «Bizə cavab vermədi». – «Eşitdiz, cavab verdi axı». Dedi ki, ov görməmisən? Dedi: «Özüm elə ov axtarıram. Olsa, mən də ov eliyərəm». O saat, deyir, xan belə elədi, dedi: «Atıızı biriiz verin buna, qılıncıızı da verin buna». Verdilər, deyir. Bərk çapdı bu ağsakqal kişi yox oldu. Gördülər gözdən itdi. Gözdən itəndən sonra dedilər ki, at da getdi, ip də getdi. Atımızın biri getdi da. Bu adam mindi getdi. Tanımırıx, eləmirik. Adını bilmirik, familyasını bilmirik. Onda gördülər ki, bir toz qopdu, gəlir, deyir. Əlində bir dənə ovnan gəlir, deyir. Ceyran olubdumu, ya cüyür olubdumu, tutub gətirib. Havaya atdı belə, qılıncnan çaldı, deyir, qoyunu çapırsan ey, ha belə. Tən böldü, parası sizin, parası mənim. Dedilər: «Sən kimsən belə?» Dedi: «Mən Xan Eyvazam». – «Bəs burda nağarırsan?» – «Hər gün bu dağa gəlirəm. Koroğlunun atlarının nərəsini, dəlilərinin nərəsini eşidirəm burda. Mən bunnan həz alıram. Ömrümün axırıdı da. Hər gün bu dağda yatıram. Mən bu dağda yatan kimi atdarın kişnəməyini, Koroğlunun dəlilərinin nərəsini

eşidirəm bu dağda». Dolaşa dolaşaya bu söhbəti eliyirdi. Hamma yüz il bunnan qabağa, deyir, bu da. Hə, bunu belə bilirəm.

### IV mətn

Ovçu Pirim gedir birinin məhləsinə. Birinin məhləsinə gedəndə görür ki, it hürür. Girir evə, görür ki, evdə də pişik miyoldayır. Deyir: «Ya Pirim, sən bunu bilirsən axı. Bu nə deyir?» Deyir ki, it deyir atımız ölseydi, mən yaxşı yiyərdim, pişik deyir ki, öy yiyəsi ölseydi xeyrat olardı, mən də yiyərdim.

## *TARİXİ ŞƏXSİYYƏTLƏR HAQQINDA RƏVAYƏTLƏR*

## İSGƏNDƏR

### I mətn

Makedoniyalı İsgəndər cəsur, qoçax bir sərkərdə olub. Şəxsən onu mən çox bəyənmişəm. O yaşamax üçün, ölməmək üçün dirilik suyu axtarıb, içmək istəyib. O dirilik suyu hardadısa, yerin altındadı, hardadı, deyə bilmərəm, o mənzilə gedir İsgəndər. Lakin girməyə cəsarət eləmir. Ona görə ki, tək getmək istəyir. Özüynən qoşun aparmır ki, olar da içib qala bilər. Qoy mən qalım. Bu məqsədlə tək getmək istəyir, amma cəsarət eliyə bilmir. Bunun qoşununun içində atası iki gözdən şikəst olan bir saldat olur. Ona görə də atasını özüynən gəzdirir. Atası oğlunnan soruşur ki, oğul, burda çox dayandınız, nədir məqsəd? Deyir: «Ata, İsgəndər zülmətə getmək istəyir, qorxur gedib qayıdanda yolu tapa bilməsin». Deer: «İsgəndərə deyərsən ki, təzə doğmuş madyan atını minsin, balasını qıraxda saxlasın. At gətirəjəkdi onu». Gedir deyir. Deyir: «Sən bunu hardan bildin?» Deyir: «Mənim kor bir atam var, onu özümnən hərləyirəm, o dedi».

Gedəndə bir adama rast gəlir. – «Salam məleyki». – «Əleykimət salam. Sən kimsən?» Deyib ki, Mən İsgəndər Makedoniyalıyam. – «Hara belə?» Deyib: «Dirilik suyu işməyə». Deyib: «Sən kimsən?» Deyib: «Mən Xızır əleyhsalamam». – «Sən hara gedirsən?» Deyir: «Mən dirilik suyuna gedirəm». Hər ikisi yoldaşdaşıb gedirlər. Gedəndən sonra gedib bular çox çətinliklə dirilik suyunu tapıblar. Dirilik suyu nətəər olan şeydi? Suların içində qara su var, dirilik suyu odu. İsgəndər müraciyət edir ki, iç. Ağ su, qara su var. Hansını içirsən, iç. Xızır əleyhsalam deyir ki, siftə siz için. İsgəndər fikirləşir ki, elə içdiyimiz su ağ sudu da. Qara su dirilik suyu ola bilər. Bu fikirlə götürüf qara sudan içir. Deer: «İndi siz için». Xızır əleyhsalam götürüf

ağ sudan içir». Ona görə də İsgəndər çox yaşıya bilmir. Rəvayətə görə, Xızır əleyhsalam Allahın peygəmbərlərindən biri olub. Suyu içib bu günə qədər də yaşıyır, yaşıyajaxdı dünyanın sonuna qədər.

Deyilənə görə, böyüklərin dediyinə görə, üç nəfər insan yaşıyır, onnar ölmüyüf, ölmüyəjək dünyanın axırına qədər. Xızır əleyhsalam quruda yaşıyır, İlyas əleyhsalam suda yaşıyır, İsrafil əleyhsalam göydə yaşıyır. Bu üç adam yaşıyır, yaşıyajaxdı, deyilənə görə.

### II mətn

Ona İsgəndər Zülqəreynə də diyillər, İsgəndər Makedoniyalı II Filippin oğlu da deyillər ona. Amma diyillər atası-anası ölüfdü, II Filippin oğlu döylü o. Onu Makedoniyalı II Filipp oğurluğa götürüf. O çoxbilmiş olub. Dünyanı ala-ala gedibdi. Hətta Hindistanatan gedib. Hindistanda onun əsgərini ilan, bir də cücülər qırıb. Sonra vaxtı tamam olub ölüfdü. Bu bilib da ölür. Bu çox gedibdi qızıl tapmağa. Çox qızıl yığıbdı. Hətta diyillər bizim bu Surxay dağında da onun qızılı var. Tilsimə salınıb qalıbdı. Qoyub gedib, aparammıyıb. Xıdır Nəbiynən Xıdır İlyas da olub bunun saldatı. Gedillər, bir yerə çıxıllar. Görüllər, nəsə burda var dərində. Buna diyillər ki, gedək baxax. Görüllər ki, dirilik suyu döyül. Bu qızıldı, cəvahirdi. Diyillər ki, bunnan götürən də peşmandı, götürmüyən də. Bunnan götürən də olub, götürmüyən də. Götürən deyib bu ləl-cəvahirdən niyə çox götürmədim, götürmüyən də diyib, az da olsa, mən də götürərdim da gərək. Dərə kimi yernən gediblər. İki yol vardı. Sol tərəfdə İsgəndər Zülqəreynə öz qoşunu ilə gedirdi. Bu bir az da xoşagəlməz idi. Sağ tərəfdə Xıdır Nəbiynən Xıdır İlyas. – «Bulağın yanında dəstəmazı alıb namazı qılax, çörəyi sonra yiyək». Balığı da qoyublar bura. Namazı qılıblar, gəlib görüllər ki, balıx dirilib girib suya. Görüfdü həmin dirilik suyu budu. Xıdır Nəbiynən Xıdır İlyasa qismət olub. Onunçan Xıdır Nəbi çöldədi, Xıdır İlyas suda. Bulotanlı tələbə yoldaşım vardı. O danışır. Deyir selinti gəlmişdi, ağac-uğac. Çayın suyu qurudu, getdik bunnan yığdıx gətirdik. Yoxuşda altdan yuxarı çıxanda kəl çıxartmadı. İşkir var – ağacdan olur – o sındı. Nəysə, bir kişi gəldi çıxdı. – «A bala, nağarırsız belə?» – «Bə işkir sındı». Deyir: «Zərər yoxdu. Düzəldin taxın, köməkləşib çıxardağın, Allah qoysa. Düzəltdilər bu işkiri, taxdılar ora. Başdadılar o yoxuşdan altdan yuxarı çıxmağa Görüllər, sən öl, yüyürə-yüyürə çıxdı. O daldan kömək eliyib. – «Kişi nijoldu ə?» Kişi yoxa çıxdı. O müxtəlib dona girir. O cındır dona girir, yaxşı geyinmiş padşah kimi də dona girir, orta da

geyir. Haçan çağırsan Xıdır Nəbini orda səə köməkliyi olar. Xıdır İlyas mütləx və mütləx suda olur. Amma özün də gərək vijdannı olasan, onu-bunu incitməmiş olasan, Allahı tanıyasan, peyğəmbəri tanıyasan.

**III mətn**

Bu Surxay dağı var ey, orda bulax var. İsgəndər Zülqəreynə gəlib burdan keçəndə görüf yükünü apara bilmir. Dağın dibiynən gedəndə, deyir, orda tilsimə salıb. Qızılını-zadını basdırıb ora. Ölən vaxtı deyib ki, məni qoyun cənazəyə. Nə vaxtdı harda mənim əlim düşərsə cənazədən, onda basdırarsız. Ha belə götürüb gedirlər, hərləyirlər bunu. Gedib hansı məmləkətəsə çatanda yaşdı, nurani kişi deyər: «Bu nədi?» Deyər: «Meyitdi». Deyər: «Bunu hara aparırsız?» Deyib, belə-belə. Yerdən götürər bir ovuc torpax bunun əlinə tökə, tökən kimi əli düşə yanına. Orda basdırıllar. Deyər ki, mən öləndə mənim var-döylətimi keçirin anamın qabağınnan. Hər bir şeyimi keçirin, onnan sonra məni keçirin. Yəni nə diyən sözdü? Belə mənası çıxır ki, qızılım, bir belə malım, varım, döylətim var. Bu mənim dadıma çatmadı. Əzəl axır Allah yaradıb, Allah da canımı almalıdı. Yəni məleykə vasitəsiylə, Allahın əmriylə. Anasına təsəlli olmaxdan ötəri. Anası da zad eyləməz ki, bu qədər varın, döylətin qabağında oğlum getdi. Yəqin ki, saxlıya bilsəydi, o dövrün doktoru, alimi, o vaxtın loğmanı saxlıya bilərdi.

**IV mətn**

İkinci dəfə İsgəndər bir də istədi getsin suyun dalınca. Bir qədər gedəndən sonra gördü ki, nəsə düşüf yerə, otun içinə. İstədi onu götürə, orda suyu taparam, qabı tapmaram. Nəysə, bunun fikrinə gəldi ki, zəhərləyib qoyarlar. Mənim gəldiyimi bilərlər, elə burda ölərəm. Nəysə, qabı götürdü getdi. Getdi bu suyu tapdı. Bir az gödək danışıram da. Suyu tapdı, doldurdu, işmək istəyəndə dedi: «Ay burdan dilənçi gəlib gedərdi. Yəni qabı yoxluyardım. Doldurub ona verərdim, o içərdi, sonra mən içərdim. Ölməsə, ona bir şey olmasa, mən içərdim». Çatan kimi dilənçi rast gəldi. Dilənçi gələn kimi «gəl bura» dedi. Doldurub suyu verir una, dilənçi işdi. İçəndən sonra indi bu özü işmək istəyir. Baxır bulax tamam qurudu. Bir qıram da yoxdu su. Başladı İsgəndər şah da peşman oldu, dilənçi də peşman oldu. Dilənçi peşman oldu ki, saysız-hesabsız illər dilənçi formasında

yaşamağının nə mənası. Bu da peşman oldu ki, mən böyük şaham, yer üzünün rəhbəriyəm, hökmdarıyam, məə də qismət olmadı.

## V mətn

U dirilik suyunnan işmək istəyəndə orda çox pis vəziyyətdə bir it görüf. U it çox pis vəziyyətdə olub. U dirilik suyunu ona görə işmiyib ki, içəjəm, ölmüjəm. Mən də bu vəziyyətə düşəjəm. Belə vəziyyətə düşməkdənsə, insanın eybini torpax örtsə yaxşıdı. Ona görə işmiyib suyu.

## VI mətn

Tutuquşu olur axı. Tutuquşu buna deyir ki, nə axtarırsan? Deyir ki, dirilik suyu axtarıram. Deyir: «Gəl gedək, dirilik suyunu mən səə göstərəjəm, amma dimijəm hansısa». Gedirlər, belə bir uzun səhradan keçirlər. Çatıllar bir yerə. Baxır görür ki, iki dənə bulax axır. Bu bulağın birinin suyu bulanıxdı, biri dup-durudu. Tutuquşu deer ki, seşginən. Bu suların hansı sənin qismətindi onu içəsən. İsgəndər Zülqəydə elə bilir ki, duru su dirilik suyudu. İçir duru suyu. Duru suyu içir. Çölə çıxanda bu tutuquşu bunnan soruşur ki, sən düzmü elədin, səyf elədin? Deyir: «Hə, mən dirilik suyu işdim». Deyir ki, yaxşı fikirləş. Deyir: «Dirilik suyu idi mən işdiyim». Deyir: «Yox, dirilik suyu o biri idi». İsgəndər istəyir ki, dala qayıtsın, görür ki, əjdahalar hasar qurubdu. İsgəndər çöyrülüb dala baxır. Tutuquşu deyir ki, qabağa getginən, dala yol yoxdu. Qayıdır gəlir. Yolda ürəyi partdıyır, ölür. Anasına xəbər gəlir ki, İsgəndər ölübdü, gətirirlər. Deyib: «Mən onu bilirdim. O dirilik suyunun dalıynan getmişdi. O bütün dünyaya ağalıx etmək fikrində idi». Bəs, deyir, məsəl var ki, Suleymana qalmıyan dünya heş kimə qalmaz. İsgəndərin meyidini, deyir, da heylə qaytarıb gətiriblər.

## VII mətn

Atalarımız belə deyərdi ki, Xıdır Nəbi qiyamata kimi ömür istəyibdi. Xıdır Nəbi ömür istəyib dünyanın axırına kimi, amma İsgəndər Zülqəydə hökmranlığı, yer üzünün hökmranlığını istəyib. Elə belə danışıllar ki, deyir, döylət dalınca gedənnərdən hansısa gətirib qızıl tulluyub qabağına, qızılı istəmiyib ki... Bunnan qabağa ataların belə bir sözü var idi. Deyirlərdi ki, bu dava-müharibə nə üstündə olur? Bir qadınnar, zina üstündə olur, bir də qızıl, sərvət üstündə. Amma İsgəndər bunu istəmiyib.

Sonra İsgəndər Zülqəydədən belə bir şey danışım. Bir dəfə, deyir, bir dərədən keçəndə qoşun geri qayıdırmış yorulub. Bəlkə eşitmiş olarsan bunu. Hə. Yorulubdu. Mən bu şeyləri iki yerdən eşimişəm. Biri elm-haldan, biri də fəzilət kitablarınnan. Qayıdanda belə deyibdi ki, bu dərədən keçəndə kimin ayağına nə ilişsə, götürsün. Qabaxdakı bir dəstə belə deyib ki, az yorğunux, hələ əlimizə gələni də götürüb veş-meşoğumuza qoyax. Deyir, heş nə götürmüyüb. İkinci deyibdi ki, padşahdı da, kamandirimizdi. Bunun dediyini yerinə yetirək. Az da olsa, alax cibimizə qoyax. Tuneldən keçirlərmiş ha. Yol qarannıxdı. Ayağıza dəyən şeyləri götürün. Götürün veş-meşoğuza qoyun. Axırdakı deyib ki, kamandirin sözü Allahın sözüdü. Nə varsa, götürün. Veş-meşoğlarını doldurublar. Çıxannan sonra deyibdi ki, işığa çıxannan sonra ha, düzə çıxannan sonra deyibdi ki, kim nə götürübsə, düzə töksün, baxsın. Birinci deyib heş nə götürməmişik. İkinci, deyir, ciblərini çıxardıb töküblər, görürlər qızıldı. Üçüncü, deyir, veş-meşoğu. Ciblərinə yığan da, deyir, daşı alıb başlarına vurublar ki, biz niyə veş-meşoğlarımızı doldurmadıx. U veş-meşoğa doldurannar belə deyiblər ki, niyə ciblərimizi doldurmadıx. Heş götürmüyənnər başlarına vurub. – «Ə, bunun sözü Allahın sözü idi da. Biz də götürəydik». Deyib özü də nə götürübsə, özündən olsun. Hə. Bu İsgəndər Zülqəydənin sözü.

### VIII mətn

Bir sözünü də eşitmişəm İsgəndər Zülqəydənin. Bilmirəm Dərbənd qalasıdı. Qalaların birinə, deyir, rast gəlib. Mən bilən Dərbənd qalasıdı. Oraya girəmmiyiblər. Çox çətinnik çəkiblər. Oranı almax üçün çox çətinnik çəkiblər. Çətinnik çəkəndə, deyir, yoldaşdarı içində belə bir söz işdədib ki, zahid yeri bilmirsiz ki? Zahid də ibadət əhlidi də. Bu Qəbələ mahalınnan biri deyibdi ki, mən eşitmişəm. Bizim dağlarda zahid var. İsgəndər Zülqəydə də ona çöyrülüb deyib: «Gedək o dağları mənə göstər». Gejə görüblər ki, bu dağdan o dağa, deyir, işıx keşdi. İşıx yana-yana keşdi dağa. Görüblər da. Gəlib görüblər ki, şıxdı, zahid. – «Neçə ildi burdasan?» Deyir: «Yüz il qohum-əqrabanın içində oldum, orda bir vəfa görmədim. Yüz ildi burda dağda yaşıyıram». – «Yidiyin nədi?» Ot göstərdi. Göy soğan kimi ot göstərdi. Dedi: «İcazə olar mən də bunnan alım?» Dedi: «Al». Aldı ağzına qoydu. Gördü gözəl taamlar bu otdadı. Dedi ki, səə ehtiyacımız var. Dedi ki, nədi ehtiyacız. Dedi: «Bir qalaya rast gəlmişik. – Mən bilən Dərbənd qalasıdı. – Ora çox çətinnik çəkirik.

Bizə köməyin dəyər. Qılıncımıznan, qoşunumuznan, zorumuznan ora girə bilmirik da, alammırıx qalanı». Deyir ki, inşallah, kömək eliyərəm. Dedi olar qayıdanda zahid orda dua eliyib, göydən ildırım düşüb qalanı iki-üş yerə bölübdü, dağıdıbdı, deyir. Qalanın içindəki adamlar deyibdi ki, ya İsgəndər Zülqəyədə, biz elə bilirdik yerin hökmranlığı sənin əlindədi, göyün hökmrannığı da sənin əlində imiş. İldırım çaxdı da. Amma zahidin duası idi.

## IX mətn

İsgəndər Zülqəreynə böyük bir şəxsiyyət olubdu. Gündoğannan günbatanın arasında o sərkərdə olub. Özü də ona Allah tərəfindən qızıl buynuz verilib. Bir günüsü sərkərdəsinə, qoşun başçısına deyir ki, iki min qoşun hazırlayırsan, mən dirilik suyu işməyə gedəjəm. Amma deyib iyirmi yaşınnan iyirmi iki yaşına qədər olsun iki min qoşun. Yaşdı olmasın. Bir kişinin bura iki oğlu düşüb. Diib: «Ay oğul, nə var?» Diib: «Ata, belə-belə». Məsələni danışır. Deyib: «Ay ata, İsgəndər bilər, bizi də öldürər, səni də». Deyib: «Bala, çuala qoyun məni ata şəlliyin, yüklüyün, məni də aparın lazım olaram». Nəysə gediblər həmən dirilik suyu olan gölün qırağına. Bir bardaq su gətiriblər buna. Bu kişi də burdadı. Bir bardaq suyu gətiriblər. Bu İsgəndər suyu işmək istəyib, işmiyib. Deyib: «Əşi, bir mən qalmaxnan olmaz ki? Aparajam aylǝli-zaddı içəjəm, anam da içsin, elə yaşıyax». Axı dünyada sabğ qalan olmamalıdı, hamı ölməlidi. Bardağı asır bu, meh gəlir bardağı salır yerə. Bardax sınır. Səhər ayılır görür ki, bardax sınıbdı. Durur dəbərir gölün qırağına. Görür ki, göl quruyub. Sərkərdəni çağırır, deyir ki, mənim vaxtım tamamdı, mən öləjəm. Sənə üş vəsəm var. Deyir: «Nədi?» Deyir: «Birinci vəsəm odur ki, mənim əlimi açıq qoy. Sağ əlimi harda yumsam orda məni basdır». Deyir: «Bu bir. İkinci vəsəm odur ki, anama deynən mənə güjdü ehsan versin. Dünyanın sahibidi da bu. Yemək yeyilməyə başdıyanda desin ki, oğlumun vəsiyyəti var. Ay camaat, vəsi eliyib ki, dərd əhli yiməsin». Deyir: «Üçüncü vəsəm odur ki, üşgünnüyüm çıxannan sonra üş cuma anam gəlib məni çağırsın qəbrimin ayağında durub. Üş dəfə «ay İsgəndər» eləsin, una hay verəjəm». İsgəndər ölür, onu aparıllar. Yayın günüdü, meyid ağırlaşa bilər. Bu kişi gəlir. Deyir: «Ay oğul, bunu niyə dəfn eləmirsiz?» Deyir: «Ay dədə, vəsi eliyib ki, əlimi yumana qədər məni aparın». Kişi alır orda bir çimdik torpax qoyur bunun ovcuna.

Torpağı qoyan kimi əlini yumur. Deyir: «A bala, dünyadan nakam gedibdi, torpaxdan gözü doymuyub. Dəfn eliyin». Dəfn eliyirlər, birinci vəsəsi gedir. Gəlir bunun ikinci vəsəsini anasına nağıl eliyirlər. Anası buna güjdü ehsan verir. yemək gəlir ortalığa, ana da ortada gəzir. Qaşığı hamı əlinə alanda deyir: «Oğlumun vəsəsi var ki, dərd əhli yeməsin». Hamı qaşığı qoyur yerə. Ana bilir ki, oğlu bunu təsəlli üçün deyir. Anam bilsin ki, dünyada dərdi olmuyan yoxdu, hamının dərdi var. Deyir: «Ay camaat, indi mən yeyəjəm, siz də mənə baxın yeyin». Bunu yiyirlər. Üşgünnüyü çıxır. Ana ziyarata gedir bunun üstünə. Birinci günü üş dəfə çağırır: «Ay İsgəndər, ay İsgəndər». Hay vermir. Ağlıya-ağlıya gəlir. İkinci cuma bir də gedir. Üş dəfə «ay İsgəndər, ay İsgəndər, ay İsgəndər» İsgəndər hay vermir. Çox məlul-müşkül arvad gəlir öyə. Üçüncü cuma gedir. Deyir: «Ay İsgəndər Zülqəreynə». Deyir: «Eşidirəm, ay ana». Deyir: «Ay oğul, iki cuma gəlmişəm, mənə niyə hay vermirsən?» Deyir: «Ay ana, məndən aşağıda altı İsgəndər yatır. Yeddinci mənəm. İndi bildim ki, gələn mənim anamdı, Zülqəreynə dedi». İndi oğlum, İsgəndərdən mən bunu eşitmişəm.

## X mətn

Zülqəreynə çox qəhrəman padşah olub. Qırx yaşında ölüb. U hansı ölkəyə girib, hansı kəndə giribsə, talıyıb, gətirib qoyarmış anasının yanına. Sonra ikinci kəndə, ikinci şəhərə gedərmiş. Belə-belə çox var-döylət toplayıb. Bunun bir gün ajalı yetir, ölən vaxtı olur, qırx yaşında. Anası dört dənə oğlanı gətirir, deyir: «Günüzə hərənizin bir qızıl verəjəm. Bu cənazəni mənnən gəzdirəjəyik. Mən uhqədər gəzdirəjəm ki, görüm yer üzündə elə bir loğman, elə bir bilici varmı ki, İsgəndəri diriltsin». Çox gəzillər. Belə çay qırağına gedəndə görüb ki, sudan əl çıxıbdı, beş barmax. Belə-belə eliyir, batır, əlini göstərir, batır. Uşaxlara deyir: «Ə, cənazəni qoyun, yazıxdı, gedin u batanı çıxarın» – İsgəndərin anası deyir. Uşaxlar soyunub düşüllər. Hansı əlini atır, bu burdan batır, ordan çıxır. Dört nəfər həlak olub, bunu tuta bilmir. Onda Xıdır Nəbi gəlir, deyir: «Nədi, ay ana, bu belə». Deyir: «Bu cənazədi, – dedi. Mənim oğlum İsgəndərdi, – dedi. Bunu, dedi, diriltmək üçün gəzdirirəm». Dedi: «Bəs uşaxlar neynillər orda». Deyir: «Orda insan axır, onu tutullar, tuta bilmillər». Deyir: «Oları çağır, gəlsin bura». Çağırır uşaxları, gətirir bura. Deyir ki, uşaxlar, nəyə gedirdiz? Deyib ki,

ordan adam axırdı. Nə illax eliyirdik tuta bilmirdik. Deyir ki, ordan axan adam əl görsədir ki, siz cənazə aparan beş nəfər, dört nəfər cənazə götürən, bir nəfər də yanızdakı İsgəndərin anası. Deyir, beş adamın qəlbi bir olsa İsgəndər dirilər. Qaytarın aparın cənazəni, basdırın. Onu orda Xıdır Nəbi məslahat eliyənnən sonra qayıdıb basdırıllar. Bunu da belə eşitmişəm.

## NUŞİRƏVAN VƏ BAYQUŞLAR

Bir kəndin yanında xaraba kənd imiş, görür ki, iki bayquş söhbət edir. Deer: «Allahverdi xan, nə danışır u bayquşlar». Deyir: «Şah sağ olsun, bunun biri dişi bayquşdu, biri erkək bayquşdu. Erkək bayquş dişi bayquşa deyir ki, qızını mənim oğluma ver. O cavab verir ki, üç xaraba kənd versən, qızımı sənin oğluna verərəm. Erkək bayquş deyir ki, əgər Nuşirəvan şah olub belə getsə, üç kəndi yox, bütün ölkəni xarabalıx verəjəm». O da heylə bir şəxsiyyət olubdu.

## FÜZULİ VƏ KƏRPİCKƏSƏN KİŞİ

Kərpişkəsən varmış. Kərpiş kəsirmiş, həm də Füzulinin sözlərini oxuyurdu. Sözlərini oxuyanda yaxşı oxumur da. Əynəş-üynəş oxuyurmuş. Həmən u Füzuli də başdıyıb bunun kəsib tökdüyü kərpişdəri tapdalıyıb. Deyib: «Kişi, sən nağarırsan?» Deyir: «Bəs sən nağarırsan». Deyib: «Mən nağarıram? Kərpiş kəsirəm». Deyib: «Mən də tapdalıyıram». Deyib: «Niyə?» Deyib: «Bax sən nə oxuyurdun?» Deyib: «Mən söz oxuyurdum». Deyib: «A kişi, o sözü sən nətəər oxuyursansa, mən də bu kərpişi tapdalıyıram. Görək xətrinə dəyirmi? Sən mənim sözlərimi heylə tapdalamısan kərpiş kimi». Hə, bax belə eşitmişəm.

## ŞAH İSMAYIL

Kişiyə qonaq gəlir Şah oğlu Şah İsmayıl. Deyir: «Məni Allah qonağı saxla». Deyir: «Allahına da qurban olum, peyğəmbərinə də, buyur». Fikirləşir, deyir ki, bu öydə məndən böyük var? Elə olsun ki, mən qaldığım öydə məndən böyük olmasın. Deyir: «Mən səndən böyüyəm». Deyir: «Yox, böyük başqa şeydi». Deyir: «Kim?» Diyir: «O balaca uşaq». Deyir: «Heləmi?» Deyir: «Hə». Deyir: «Axı, uşax nətəər böyük ola bilər?» Deyir: «Ona görə uşax böyük ola bilər ki,

uşax, məsəlçün, deyir ki, mənə süd ver. Südü verir. Qatıx da ver. Qatığı da verir. Yağ da ver. Yağı da verir. Uşax qatır hamısını bir yerə, indi ayır bunu. Ayırmırsan, ağlıyır. Nətəər ayırasan? Düzdü, hamısı bir şeydi, süddən əmələ gəlib, amma buların ayrı-ayrı tamı var. Deyir, yox, ayır. Diyirsən, axı, nətəər ayırım. Deyir, yox. Hökm eliyir ki, ayır? Deməli, o oldu məndən böyük, çünki hökm eliyir. Ona görə diyir məndən böyük olan yerə məni qonax vermiyin.

## NADİR ŞAH

Keşmişdə, deyir, bir kişi alma satmağa gedirmiş. Görür yolda bir dəstə uşax oynuyur. Milisoner formasında uşaxlar yüürür gəlir bunun yanına ki, şah səni çağırır. Şah formasında Nadir oturubdu, olara əmr verir. Deyir ki, şah səni çağırır. Deyir: «Şah hardadı?» Deyir: «Orda». Bu kişi gəlir, bir bağlama gətirib verir ki, apar ver şaha. Deyir: «Yox, alma bizə lazım deyil, şah səni çağırır». Almanı tökür ortalığa ki, götürün yiyin da. Almanı verib xəzinədara, bağlamanı. Deyib özümüz paylıyarıx. Deyir: «A kişi, yer get da». Deyir: «Hara gedirəm, şahdan mən gərək hədiyəmi alım». Deyir: «Məndən nə pay alajaxsan? Oynuyurux da, yalançı oyundu». Deyir: «Yox, yalançı oyun döyül». Namə yaz ki, mən filankəsov filankəs şah olanda məni vəzir götürəjəksən. Məsəlçün, Əhməd. Əhmədi özəə vəzir götürjən. Altına qoluu çək, qoy». Şah Nadir adını, familyasını yazır, altınnan da qolunu çəkir, verir əlinə. Aradan iyirmi il keçir, quş uçurdanda qonur Nadirin başına. Yaxşı da ədalətdi hakim olur. Bir gün kişi gedir Nadirin kabinetinə qabul eləsin məni. Deyir: «Şah sağ olsun, sənin naməni gətirmişəm». Baxır iyirmi il bunnan qabax yazıb ki, şah olanda səni vəzir götürəjəm. Deyib: «A kişi, nə bildin ki, mən şah olajam?» Deyir: «Uşax uşaxlığınnan gördüm sənin qayda-qanunu, bildim səndən şah olar. Sənin – dedi, – ədalətini mən gördüm».

## SURXAY XAN
### I mətn

Surxay olubdu bir nəfər varlı adam. Baxıb görüb ki, buralarda yurd salan döylü, Koroğlu kimi qaçıb gedib u təpə ki görünür, orda yurd salır. Təpənin arxa tərəfində düzənnik kimi yer var. Yaxşı zoğallıx var, fındıxlıx var. Gedib görmüşəm ha. Yaxşı orda bağı-baxçası olub. Sonra iki dənə şüş təpədi. Oların altıynan onun yeraltı tunelləri olub. Nədən

ötrü nə bilim. Hə. Bu kəntdər hamısı onun kəndi olub. Bulardan vergi alırmış, neynirmiş. Sonra u Ərəbin altında çökək ağcalar deyirik, u Ərəb qəbirstanlığının təpələrinin altında. Oranı düzlədilər indi qismən. Bayaxdan hərləməsi nə hündürlüyə deyim, dam hündürlüyə belə təpəlik idi. Orta göl idi. Belə 90 hektarlığın yeri. Vaxtiynən guya vulkan püskürüb orda, göl əmələ gəlib heylə. U Surxay xan ordan qopanda ki, həmişə bu kətdərə gəlir, atı gəlib orda su içib gələrmiş. Nadürüst arvad bir günü u ata baxan mehtərə gözü düşür. Xanın arvadı tapşırır ki, xan gələndə onun atının arpasına duz qat çoxlu, su da vermə, qoy yisin. Atı heylə duzlu arpaya şeyliyirlər. Səhər ertə xan atını minən kimi nə qədər eliyir, yığışdıra bilmir. At gəlir özünü u gölə elə soxur ki, xan da qərq olur, at da. Qaldı onun orda yeraltı xəzinələri olub. Bu Əhmədin atası Molla Məlik kişi olub. Əsilləri tilsim-zad aça bilən cindar olub. Gedirlər, bu kişi girir içəri qabaxda, əlində də şamı olur, məəşəli olur, nə olur. Dalıynan gedənnər bir az gedirlər: «Ay molla, biz yandıx», – deyib qayıdıb çıxıllar. Da u molla da tək getmir.

Rəvayət görə Surxay xanın özünün adı Xosro olub. Bunu eşitmişəm. U təpənin adı Surxay olduğunnan onun da adını təpəynən adlandırıblar. Surxay xan deyirlər, yəni Surxayda yaşayan xan. Amma əsl adı Xosro olub. Bunu eşitmişəm.

### II mətn

Vaxdiylə xannıx dövründə xannıx olub orda. Dimək, bu Xosro xan xannıx eliyən vaxtında, Şamaxı xanı, Vartaşen xanı, Şəki xanı vaxtında, bunun qardaşı Surxay olub. Biz Surxay deyirik. Bayanda Baba dağın dibində Ağcabərə yaylağı var. U Ağcabərə yaylağında bir kişinin üş dənə qızı olub. Sonra bu Surxay xan olanda belə gəzə-gəzə gedəndə... Bu Ağcabərə yaylağı belə yaylaxdı ki, o tərəfi Qubaya düşür, bu tərəfi Şirvana gəlir. Da ikinci bir yer yoxdu. Orda Ağca adında bir qız olub. Unu götürüb gəlib. Gələndə bu Xosro xan – böyük qardaşı, bu qıza aşix olub. Öz qardaşının qollarını kəsdirib. Qollarını kəsdirən vaxtında bu Şamaxı xanı Şəki xannığına, ora-bura adam yolluyublar ki, bəs belə bir zalım xan olub orda. Onu birtəri eliyək, nağarax. U xannar da deyir ki, – ora da bir az çətin yerdi da, – nə eliyib öz qardaşına eliyib da. Daa biz niyə bunnan ötrü ora qoşun çəkək, qırıb eliyək. Bu gətdiyi Ağca qız da dursun burda. Bu Ağcalar da axmazdı. Demək, Kaspi dənizinin qolu olubdu bax buralarda. Axmaz olub. Yerləri bilinir. Ağca xanım deyibdi nökərə: «Ata duz yedizdir, su vermə». Dimək, bizim o vaxtdarı yolumuz

olubdu Göyçayın çökəttəməsindən, dağ dibi Şəkiyə gedir, Vartaşenə. Körpülər də durur orda, hamısı bişmiş kərpişdəndi. Xosro xan da atı minib istəyir getsin harasa, at bunu dartıb salır bax bu Ağcalardakı axmaza. Susuz atdı, duz yimiş at. At da belə şeydi ki, sussadı qutardı. Xosro xan bu Ağcalar axmazında ölür. Sonra deyilməyə görə, bu Xosro kəndi onun adına olub onun meyidi ordan çıxdığına görə.

Sonra Nizami Gəncəvi yazır ki, sütunsuz, heş bir dağa söykənməmiş, bu dağa Bisitun dağı deyirlər. U Şamaxıdan bəri beləsinə u Baba dağına mən çox getmişəm, – hamısına. Demək, u qala olan yerdən başqa heş yerdə heylə dağ yoxdu ki, dört tərəfi açıx olsun, özü də ortada bir dağ olsun. Yani sütunsuz. Bir xod yuxarı çıxardıblar, bir xod aşağı düşür. Aşağı düşən xoda adam düşməyə qorxur. Zülmət kimi olur içi. Əyri-üyrü bu pilləkənnər kimi. Şirin Bərdədi, Xosro xan da iranlı, unu düz yazıb. U qaldısa Bisütun, u burdadı. U kitabda dağı necə çapır ha, dizini yerə qoyub külüknən, eynən bu dağa oyannan baxanda deyərsən, elə Fərhad çapdığı yer burdadı. Oraya su çəkiblər hardansa. O yazırdı süd bulağı, amma orda su bulağı var.

**III mətn**

Var-döylət yığarmış soyğunçuluxnan. İndi onun özünün orda bünövrəsi var, ev-eşiyi olubdu. İntaası tilsimə salıblar. U Surxay bəy, diməli, gələnnəri u formada qırıb batırırmış. Bu o qədər camaatı qırıbdı, varını-döylətini alıb, yığıb burda istifadə eliyib. Bu Surxay bəydən ayləsi də narazı olubdu, deyilənə görə, naraxatçılıx olubdu. Bu Surxay bəyin arvadı nökərə, ata baxana sirr veribdi. Deyib ki, bu Surxay bəy mənim canımı xirtdəyə yığıbdı. Bunu bir gör ləğv eliyə bilərsənmi. Nökər də deyib: «Nətəər eliyim, nağarım?» Deyib: «Bura dənizdi. Onun atına duzdu yemək ver, duzdu arpa ver, su işməsin. U da ata minəndə özünü möhkəm bağlıyırmış atın üzənginə, ayax qoyulanına ki, ayaım çıxmasın da, qoşunun qabağını kəsim, quldurlux eliyir bu, talıyır eliir, gətirir. Bunu da görürlərmiş. Bir şəxs olub, ərəb olubdu, karvannan gələndə, bu Göyçay tərəfdən gələndə bu Surxay kişi də u dağın təpəsində bir şüşü var, çıxıb u şüşdə oturarmuş. U şüşdən u tərəfdən, bu tərəfdən gələnin hamısını görürmüş. Bir ərəb gələndə görür ki, burda oturubdu Surxay kişi. Fikirləşib, görüb ki, karvan gəlmədi. Karvan dala qayıtdı. Hə. Başdıyır bu arvadını çağırır ki, məə bir kasa qatıx gətir. Məə bir kasa qatıx gət. Deyir: «Niyirsən qatığı?» Deyir: «Nəyə gərək, qatıx gət məə. Karvan gəlirdi, qayıtdı

dala. Bir nəfər, deyir, baxır, qalanı qayıtdı dala». Başdıyır bu, deyir, yapıncısını göyə atıb, göyə atanda dalıynan da qatığı atıb. Ordan ərəb deyibdi ki, ə, ordayı qaraltı qara quş idi, quzğun idi, uşdu. U da uçanda pəşo eliyir. Uşdu, pəşo elədi, getdi. Gəlin qayıdın dala. Gəlin gedəyin, Surxay bəy yoxdu öydə. Hə. Bu gələndə də bir vaxd görür ki, Surxay bəy düşübdü, qabağını kəsib. Deyir: «Axı sən orda görükmədin?» Dedi: «Mən gördüm ki, siz dala qayıdırsız. Sən məə baxırsan, amma camaatı dala qaytardın. Mən arvaddan, dedi, bir kasa qatıx aldım. Unnan sonra, dedi, yapıncını göyə tulladım, dalıynan da qatığı tulladım. Sən də elə bildin ki, qara quş idi, uşdu getdi, dalıynan da pəşo elədi. Hə, sən una allandın. Səni gətirdim». Dedi: «Mənim anamın gözləri kor oleydi ki, bir dəyqə mənim ayağım yerdə olubdu. Ayağım yerə dəyibdi». Deməli, insanın gözünün nuru ayaxdadı. Deməli, nə qədər bizim ayağımız torpağa dəyməsə, o qədər bizim gözümüz işıxlı olar. Diməli, alimlər deyir ki, insanı dabanınnan vuranda ölən şeydi. Ona görə ki, bütün damarların hamısının toplantısı dabandı. – «Dayı necə olub ki, bir dəyqə ayağı yerdə olub?» – «Anadan olannan sonra anam məni yerə qoyub, gəzmişəm, məhlədə iməkləmişəm. Anam həmişə məə deyibdi ki, ay bala, mənim dedi, qolum sıneydi ki, səni mən bir dəyqə qoymuşam iməkləmisən, sənin ayağın yerə dəyib. Mən səni o qədər qoruyurdum ki, sənin ayağının yerə dəyməyini istəmirdim».

– «Dayı, Surxay xanın axırı necə oldu?»

– U qadın Surxay xanın nökərinə deyir ki, – görməmişəm, eləməmişəm, – deyir ki, bunun atına yem verginən. Arpa da ver, duz da. Bu qədər arpanı, duzu verir, bu at yanır susunnan. Cızdax yanan kimi yanır. Bu görür ki, qoşun gəlir. Gələndə nökərə deyir ki, atı gətir. Atı gətirir, minir. Ata özünü bağlıyır möhkəm. Onnan sonra qayış olur üzəngidə, qayışları-zadı keçirir, atı minir. Atı minən kimi at suyu görür. At suyu görən kimi bu saxlıya bilmir, at özünü atır dənizə. At özünü atan kimi Surxay bəy orda boğulub ölür. Özünü xilas eliyə bilmir. Unnan sonra qalıb nökər. Surxay bəyin qazancı, varı-döyləti. Surxay bəyin arvadı bu şəxsə gedir. Unnan sonra orda nə qədər qızıl, gümüş varsa, deyib bura yol üstüdü, gedib bir tərəfdə, bir kənddərin birində özümüzə aylə qurax. Oranı da gətirib tilsimə saldırıb. Oranı heş kim aça bilmir.

Guya danışılana görə, Ərəb-Kükəl kəndindən bir şəxs olubdu keşmişdə. U şəxs tilsimi bilibdi. Gedib ora. İndi uçub dağılıb, yeddi qapı olubdu orda, dağın altında. U qapıların hamısını bu şəxs oxuyub, oxucu olubdu, cindarlığı tam bilibdi ana südü kimi. Onu oxuya-oxuya gedib

giribdi ora. Yeddi qapının yeddisi də açılıbdı bunun üzünə. Giribdi, görübdü ki, öyün küncündə qızıl ənbiznəndi. Həmişə də dədəmgil də deyirdi tükannarda, məəçün, bizə qızıl verilirdi pulun əvəzinə. Kağız pul kəsilmirdi o qədər. Bu kişi çatannan sonra bura bu qızıldan – keşmişdə də xurcun olub iki gözdü, – bu xurcunu alıb başdıyıb bu qızıldan yığıb xurcuna. (Kasetin bu hissəsi pozulduğuna görə kişinin mağaradan necə çıxdığı aydın olmur. Amma məlum olur ki, o qızılları özü ilə götürə bilmir – top.) Gəlib Quran kitabını açıb başdıyıb oxumağa. Açıb oxuyanda görübdü ki, orda bir səhv olubdu. Deməli, u özüynən apardığı çörək cibində olubdu, artıx qalan loxması. Diməli, bu çörəyi cibinə qoymalı döylüymüş, dəsmala bağlıyıb başına qoymalıymış. Başında çıxartseydi bu qapılar açılceydi, bu qızılı gətirceydi. Təzədən da Allah tərəfindən nətəhər olub qayıdıb, da gedib girmiyib. Deyib: «Daa bəsdi. Bu Allahın qismətidi. U hamısı u yığıntıdan-zaddan qalmadı, haramdı. Unu gətirib haşdamax, eləmək məə düzgün döylü», – deyib, onunçan da o işin üstündən o atkaz eliyib. Getmiyib daha dalıynan.

**IV mətn**

Gəlibdi İranda müharibə eliyib, kimnənsə, nətəərsə, bilmirəm, mən də babalardan eşitmişəm. U gəlibdi Qəbələ mahalına, ordan onun üstünə hücum eliyiblər. Onun da deyilənə görə, yeddi min qoşunu olub. Sonra u ordan dözə bilmiyib bir dəfə qoşunnan qaçıb gəlir Surxaya. Bu Surxayda bir müddət yaşıyannan sonra burda sabın bişirib aparıb... Onda Ağdaş burda olub, körpünün ağzında ağ daş olduğu üçün adı qalıb burdan. Niqalayın devrində karvannar burda gəlib dayanıllarmış. Unnan u dağ Surxay dağı qalıbdı. Sonra u Qəbələdən gələr bir dəstə qoşun, da bilmirəm kim olub, nəçi olub, hücum eliyib buna. Bu da burada sabın bişirib Surxayda, Ağdaşda, burda çayın boğazında satırmış, gətirib birtəri orda saxlıyırmış gizli. Yerini öyrənib ora hücum eliyirlər. Orda Surxay xanın qoşununu qırıblar. Dəniz burda olub, bizdə Ağcalar deyərlər, u Bakının dənizi burda olub. U atını sürüb, istəyir keşsin İrana – öz vətəninə, elə u dənizdə də batıb. Atdı-matdı ölüb gedib rəvayətə görə.

**V mətn**

Orda bir xan olub, Surxay xan. O bu yerlərin hökmdarı olubdu. Yanında da deyirlər bir adam olubdu Xosroy kəndindən, bunun qəlyanını yandıran. Yerdən bir dənə işıldaquş götürüb qoyur bunun qəlyanına. Xan ha çəkib, çəkib, görüb, sən öl, yanmır. Onunçün

deyirlər ki, bu Xosro kəndinin adamı xanın qəlyanına işıldaquş qoyan xosroludu. Yəni heylə kələkbazdı. Xan görübmüş ki, İrannan karvan gəlib kürün qırağıyla gedirmiş. O saatdarı burdan qoşunu yığıb gedib orda kəsib qabağını onun qızılını, pulunu, malını alırmış. Aləmə bu xəbər çatıbdı ki, filan yerin xanı belədi. Buların içində bir dənə tacir olur, varlı. Görür ki, nəsə bir qara şeyin üstünə bir quş gəldi peyinnədi ağ, getdi. Ordan demək, Kürün qırağınnan əlli-altmış kilometrdən bunu görübmüş. Bu nədi? Bu xandı. Yapıncının üstünə qatıx tökdürür ki, məni tanımasınnar. Tacir başa düşür ki, bu xanın hiyləsidi. Bu quş döylü, quş belə olmaz. Gizlənir. Surxayda, hündür dağda odun yandırıllarmış bir-birinə xəbər vermək üçün. İsgəndər yığdığı qızılı apara bilmiyib, orda gizləyib, tilsimə salıb gedib.

### VI mətn

Atı vardı. Atını minib gedib. Axı dimirəm bu tilsim sözlərindən bu bilibdi (Molla Məlik kişi – top.). Gedib. Bu guya həngaməsız, qapısız, dərəsiz bir qaladı. Fırlama daşnan bağlanıb. Oxuyub, oxuyub, deyir guya burdan xurcunda qızıl gətirəjəkdi gedib. Açılıb qapı. Fırlanıb açılıb guya. Girib içəri. Amma onu da belə deyirmiş ki, guya orda qızıl olan anbarın yanında bir qız uşağı var. O gülür, gülür, özünü itirməsən qızıl olub tökülür yerə. Bunu da eşitmişəm, belə deyiblər. Deyir qızıldan yığıb xurcuna, götürmək istəyəndə u daş fırlanıb bağlanıb. Qalıb içəridə. Qarannıx yer, nağarsın. Boşaldıb, gənə u bildiyindən oxuyub daş fırlanıb, çıxıb gəlibdi. Bir həftə qorxusunnan yatıbdı.

## *İLANLAR HAQQINDA*

### İLAN DAVASI
### I mətn

Deyir ki, oturmuşdu, buların anası da çörək bişirirdi, çörək yiyirdik. Bular üç qardaş olub. Buların hansısa görübdü ki, nəsə gəlir ordan bəri. Baxıblar. Atalarına ağa deyirlərmiş. Biz də ağa dimişik babamıza. – «Ağa, ağa, u nədi?» Baxıb görüblər bir dənə ilandı quyruğu üstə qabaxda, bəlkə on min ilandı. Çal-çəpər, yer-yurd dolubdu. Kişi deer: «Tez əppəyi gətirin tökün hərə bir yannan». Gətirir, deyir, nənəm süfrə salır həyətin qabağına, gətirir əppəyi tökür bura. Böyük ilan gəlib durur sufranın qırağında. Atam deerdi üş dəfə baş əyir ilan belə sufraya.

Çöyrüküb belə baxır. Babam görüb ki, çörək azdı. Yüyürüb qonşudan da bir üş-dörd çörək gətirir. Doğruyub tökürlər sufranın üstünə. İlan, deyir, çöyrüküb belə baxır qoşuna, qoşunnan gəlir da bular. Əyilir loxmanın birini alır. O cümlədən hərə, deyir, loxmanın birini götürdü, o birisi gəldi götdü, o birisi gəldi götdü. Bir heylə loxmanı bu ilannar götürür. Olar da hər şeyi qanır. İlan qalxdı belə çığırdı. Çöyrükdü, deyir, belə baxdı ilan, düzəldi yola. Bular, deməli, çəpərin üstündən keçir, çəpər yatır, bir heylədilər. Düz, deyir, dokqaz var imiş, mal dokqazı, altınnan atam and içirdi rəhmətdik, üst-üstə elə bil bu hündürlüyədi. İlannar bir-birinin üstündə idi. Keşdilər deyir, düşdülər yola. İndi biz deyirik, bəs olar hara gedir. Atam deyir: «Müharibəyə».

**II mətn**

Oradan bizə kişi əl elədi ki, gəlmiyin. O üzün qırağına (Kürün sol sahilini nəzərdə tutur – top.) ilan tökülüb ora. Bu gəmidə iki nəfər olur. Biri çıxır qırağa, gəmi çəkən qalır. Oyüzdən bura gətirəcək. Ordan ilannar doluşullar. Kişiyə deyir ki, keçir buyza. Bu da ilannarı keçirir. Başını gəminin qırağına vuran kimi ilannar düyünlənir, hamısı dəstəynən, qoşunnan gəlir. Biz qorxumuzdan ona yaxın dura bilmədik orda. Bir fəsil gəldi ki, axşam üstü idi. Dedilər ki, çəpərə dolub ilannar. Tamaşa elədik, elə bil ot-əncər idi. Kənardan durub baxırdıx. Çoxusunun quyruğu yox idi, çoxusunun belini elə bil çapmışdılar. Bizə bayaxkı kişilər dedilər ki, mənim yoldaşımın babası varıydı, Əsəd baba, o dedi ki, o ilannan işiz yoxdu, olar davadan gəlir. Götürdü onun yoldaşı çörək gətirdi, duz gətirdi o çəpərin qırağına qoydu, u çəpərə duz səpdi. Səhərisi durdux gördük u ilanın birisi də yoxdu, hamısı çıxıb gedib.

**III mətn**

Ölüyanın üstündən tutyə gətirmək olmaz. İlan ziyarətə gedən şeydi. Hər kəs ölüyanın üstündən tutyə gətirib evə qoyursa, ziyarət yeri uzaxdısa, misalçün, burdan Hajı babanın üstünə gedirsə, bilir ki, bu öydə tutyə var, bu öyə gəlir. Onu da kim vurursa, onu öldürür. Bu da düz deyil, çünki ziyarətə gəlir.

## OCAQ İLANI

Hər adna axşamı ojağımızın içindən, deyir, ağ tikan çıxardı. Səhərə kimi də solub gedərdi. Gedirdim ojağı qalamağa, belə-belə ilannarı, deyir, ayna-bayna kişdeyib ojağ qalıyırdım.

Bir gün də, deyir, ev-eşiyi yığışdırırdım. Nə anam yoxdu, nə atam. Keşmişdə taxt kıravatdarı olardı. Yannarı da taxta, üstü də taxta. Onun üstünə yaxşı xalça salallardı. Qonax gələndə onun üstündə oturardı. Bir gün də gördüm ki, bu öyü yığışdıranda gördüm bu xalçaan arasında ilan balalıyıb. Diməli, ojaxdı da bura. Bu ilannarı yığdım bir qablamaya apardım bir qırağa qoydum. Xalçanı apardım saldım hava dəysin. O vaxtı bizim sürüynən qoyunumuz olardı. Keşmişdə günorta qoyun bərəyə gələrdi. Ora qoyun sağmağa gedərdik. Süzüb qazannara düzmüşük qoyun südünü. İki qazan, üş qazan, deyir, süddü. Mən də öyü yığışdırırdım, gördüm xalçaan arasında ilan balalıyıb. Bunun balalarını bir qaba yığıb aparıb bir yana qoydum, xalçanı da çölə saldım. Gördüm bir ilan gəldi. Özüm, deyir, gizlənmişdim. Bax, vurnuxur ayna-bayna. Əlinə adam keşsə vurar da. Anam girdi içəri. Dedi: «Sənin başın batsın, bəlkə səni vurardı». Sonra, deyir, xalçaları saldım kıravatın üstünə, gətdim ilan balalarını da qoydum həmin yerinə. Siftə balasını görmüyüb, gedib qabların hamısını zəhərləyib. Gətirib, deyir, bunun balasını yerinə qoyanda bilmir nağara. Gördüm, deyir, getdi girdi külün içinə, gəldi südə girdi. Süd də, deyir, oldu qap-qara kömür. Anam gəldi dedi: «Süddər niyə belədi?» Dedim: «Hal-qəziyyə belədi». Deyir: «Yaxşı ki, səni vurmuyub». Balasını görəndən sonra getdi heylə elədi.

## *GENOLOJİ RƏVAYƏT*

Fətəli xan adında bir kişi olubdu. Onun beşdimi, yeddedimi oğlu olub. Oğlunun birinin adı Hajı Qara olubdu. Atasınnan təər eliyib. İndi tarixlərdə başqa cür yazılır, amma rəvayətdə başqa cür deyilir. Bu oğlan gözəl bir oğlan olub, boylu-buxunnu, yaxşı mərifətdi oğlan olub. Nə qədər olsa, xan olub da. Gəlib orda da bir qəbilə yaşıyır. Şüşü qəbiləsi, dağın dibində. Kəndin başındakı dağın dibində yaşıyası olub. Kənd əvvəl orda olub. Altı öy olub kənd. Bu oğlan altı nəfərin yanında nökər dayanıb. Buların atını, qoyununu, malını otarırmış, baxırmış. Okqədər bajarıxlı, diribaş oğlan olub, həm də gözəl olub. Hajı Qara istəyib ki, öylənsin. Buna qız vermiyiblər ayrı məzhəbdən olduğuna görə. Da onu mən burda ayırd eləmirəm. Ona qız vermiyiblər. O vaxtı Şamaxı xanı, Bərdə xannığı, Şəki xannığı bir-birinə dəvə ilə gedirdilər. Xannar gəlib ordan keçəndə dəvə yolu deyirlərmiş ora, ordan keçəndə bu yüürüb dəvənin ovsarınnan tutur, olara su verirmiş, oları qarşılıyırmış. Bir gün xanın biri görür ki, bu çox mərifətdi oğlandı. Su-zad içir, deyir: «Oğul, çox mərifətdi

oğlansan, bu çaydan Göyçayın sərhədinə kimi bu aranın bəyliyini verdim sənə». Yerli adamlar məhətdəl qalır. Deyir: «Ə, biz burda külük döyürük, kətçiyik, oturax biz...». Da hara çatar. Bəylik bunun əlinə keçəndən sonra gətirib buna qız verirlər ki, biz də bu torpağa ortax olax. Bu Hajı Qaranın dörd oğlu olub. Bir oğlunu öyləndirib kəndin başında qoyub, bir oğlunu öyləndirib bax bu arada bir Nəriman uşağı var, ora qoyub. Bir oğlunu öyləndirib aşağıda Şövkətgil var, ora qoyur. Bu nəsil Cahangir uşağı adlanır. Yuxarıdakı Hüseyn uşağı, ortadakı Nəsillah uşağı adlanır. Dördüncü oğlunu bu torpax azlıx eliyib aparıb Şordəhəyə qoyub. Şordəhə kəndi var aşağıda – Bəylik Şordəhəsi. Bəylik Şordəhəsi onnan qalıb ha. Nəsə, yerli bəylər bunu zad eliyiblər. Vəfat eliyəndən sonra yelli bəylər bəyliyi alıblar özlərinə.

Bu kənddə iki bəy olub. Biri olubdu Şəkidən Abbasqulu bəy. Kəndin yarıdan aşağı onun əlində olub. Kəndin u ortadan yol gəlir ey, onnan yuxarı Məleykə xanımın olub. Məleykə xanım Hajı Qaranın qız nəvəsidi.

## *TOPONOMİK RƏVAYƏTLƏR*

### HEYDƏR ÖLƏN DƏRƏ

Vaxtiynən burda Heydər adında sərkər olub. Sərkər də baş çobandı. Böyük onun döyləti olub burda. On min qoyunu olub. Bu okqədər çobannara hörmət eliyirmiş ki? Döyləti çobannan saxlıyarmış da. Bu çobannarı u qədər çox istəyirmiş ki? Çobannarı dağdan düşür, qoyun otarıb gəlib, oturub çörək yediyi yerdə çobannarı yumruğuyla belə-belə incidirmiş ki, çobannar buna söysün. Ona, deyir, xoş gəlirmiş. Döylət saxlıyıllar. Bu kişini də saxlıyan çobannardı. Bular çıxıbdılar. Tezdən qoyunu çıxardıblar, yaylıma deyirik biz, otarmağa. Yidizdirib gətirib bir az saxlıyannan sonra başdıyıllar sağmağa. Deməli, çobannar hamısı çıxıb. Bunun yeddi çobanı olub. Qoyunu götürüb çıxıblar, alaqarannıx olub, dağa. Hə. Hindi da uje gün qalxıbdı, bular uje qoyunu kölgəyə gətirirlər, həm də sağmağa. Deməli, öyün kadını, yatağın kadını yekə bir qazan asıbdı, qulflu qazan, içində süd, yayma bişirir çobannar üçün. Deyir, qablara çəkim qoyum, çobannar qayıdanda başdasınnar yiməyə. Deməli, yayma bişən məqamda bir dənə iri bir gürzə atılar düşər qazanın içinə.

Həqqi olmuş işdi ha. Atılar düşər qazanın içinə. Burda bu gürzə təmiz həll olar da, zəhəri-zadı qarışar bu qazandayı yaymaya. Bu qablara çəkib bərdən arı düzər ki, çobannar düşən kimi başdasınnar yiməyə. Siftə sərkərnən kadın özü yiyibdi yaymanı. Yeyən kimi ikisi də zəhərlənib. Ay başım, ay qarnım. Elə girib içərdə yatdıxları yerdə ikisi də ölər. Çobannar nə bilir bunu. Dağdan çobannar düşər. Aj çobandı da. Qoyunu ora qoyub gəlib görüblər ki, yeməklər hamısı çəkilib qablara. Qaşığı alıb başdıyıblar yiməyə. Yeyən başını qoyub yerə, dünyasını dəyişib. Yeyən başını qoyub yerə, dünyasını dəyişib. Axırda bir dənə çoban qalıbdı. Ən sanballısı, qananı, qanan çoban, ən dalagələni. Gəlib görür ki, ədə, hamısı leş-leşədi. Ay aman, ay dad. Bu nə olar? Aşağı yüürər, yuxarı yüürər. Başdıyar fikirləşməyə. Fikirləşər, ha belə, deyər: «Hə, qaşıx xörəyin üsündə qalıb. Hara getsə, bu xörəkdə nəsə var». Bu başdıyıbdı xörəyin bir dənəsini götürüb. İti çağırıb, öz itdərinin birini. İtin qabağına qoyub it yisin. İt yeyən kimi çığıra-çığıra ölüb. Deyib: «Hə, xörəkdəndi». Heylə olub o çoban tapıb ki, həqiqətən, xörək zəhərli olub, bu aylə də xörəkdən qırılıb. Unçən də u dərənin adını qoyublar Heydər ölən dərəsi.

## ŞƏKİLİ KƏNDİ

Bu Nuxadan, Şəkidən bir dənə oğlan yoldaşınnan gəlirmiş bura. Kənd yoxuymuş ha. Bilmirəm niyə gəlib. Gələndə, Ağdaşdan gələndə bir çökəyə enib qalxırsan ha. Türyançay ordan gedirdi. Orda fayton batar. Qış idi. Onun yoldaşı soyuxluyub ölər. Öləndə gətirib bura basdırallar. Oğlan deyər ki, mənim yoldaşım burda ölüb. Burda qalıb, getmiyib. Sonra uların nəsli hamısı köçüb gəlib bura. Unnan da bu kəndin adı qalıb Şəkili.

## QAROĞLAN

Qaroğlanın yanında türkman yurdu olub. Onnar o tayfadan qalıb. Köç zamanı köçə bilmiyən qalıb orda. Türkman qaraçıdan pisdi.

## KÜKƏL VƏ HÜŞÜN KƏNDLƏRİ

Deyirlər bular iki qardaş olublar. Birinin adı Kükü olubdu, birinin adı Hüşü olubdu. Bu Kükü deyilən Kükəldə yerləşib – qanaldan aşağı, bu Hüşü deyilən burda yerləşir, Üşdağ deyirlər,

dağın dibində. Get-gedə təkmilləşib Kükü Kükəl olub, Hüşü Hüşün olubdu.

*Söyləyici qardaşların Şamaxıdan gəldiyini qeyd etdi.*

## BƏYİN QƏLYANINA İŞILDAQUŞ QOYAN XOSROLU

Bir məclisdə bəy çox lovğalanıbdı. Bəs mən belə asıram, belə kəsirəm. Deyilənnərə görə, Samux tərəfin bəylərindən olub bu tərəfə gələn. Bəy də qəlyan çəkirmiş. Unda sulu qəlyan deyilən qəlyan var. U burda dəb döyülmüş. Hə. Deyir: «Mənim qəlyanımı odda». O, işıldaquşu qoyub qəlyanına, yandırıb. Elə bilir qəlyan yanır. Bir müddətdən sonra baxıb görür ki, işıldaquşdu bura qoyulan. Ona görə xosrolulara bəyin qəlyanına işıldaquş qoyan xosrolu deyirlər.

## HACILI KƏNDİ

Hajılı kəndi var. Niyə ora Hajılı deyirlər? Axı maşın işdəmiyibdi o vaxtı. Daş tökübdülər, olubdu çaparxana. Atdar çapa-çapa gedir. Hər iyirmi dörd kilometrdən bir stansiya deyirlər da, çaparxana deyirlərmiş. Atın nəfəsi iyirmi dörd kilometrə çatır. Fərz elə ki, bu sərnişinnər oturub faytona hacca gedir. Çapa-çapa gəlib Hajılı kəndinin yanına çatanda stansiya hazırdı da. Orda atdara yer, yem, adamlar, zaddar, tola, hamısı. Ora çatan kimi fayton hazırdı. Düşüb bu faytondan o faytona minir, olar tərpənir, bu atdar istirahətə qalır. Hacca gedən camaat yığılır ora stansiyaya, ordan da gedir hacca. Hajılar yığılan yer, hajılar yığılan yer qalı hajılı.

## *MÜXTƏLİF MÖVZULU RƏVAYƏTLƏR*

### İNAM

### I mətn

Bir gün, deyir, bir çoban qoyun otarırdı. Gördü bir kişi gəldi, əlində də bir əsa, dəryanı vurdu keşdi. Çoban baxdı: «Ə, bu niyə batmadı, niyə issanmadı?» Bu kişi salam verən kimi çoban bunu tutdu. Dedi: «Ə kişi, sən nəynən keşdin, filan-peşman?» Dedi: «A bala, keşdim da». Dedi: «Yox, onnan bazarda satıllar?» Dedi:

«Satıllar». Dedi: «Sən olasan o bir Allah, qoyunun yanında dur, mən də gedib alım gəlim». Getdi, deyir, bu tükana, o tükana. Bir hak-əhli kişi var idi, dedi: «Oğul, məndə var onnan». Bunun ovcuna iki dənə noxud qoydu, dedi: «Bax, bu sən axtarandı. Bax, qaçırtma ha. Göstərmə heş kəsə». Dedi: «Yaxşı». İnandı. Şıx da qoyunun yanında durub gözdüyürdü. Bir də gördü çoban əli yumulu budaha dəryanı vurdu keşdi. – «A bala, aldınmı?» Deyir: «Aldım». – «Baxım görüm?» Deyir: «Yox, o kişi məə deyib ki, heş kəsə göstərmə». – «Ay oğul, bir baxım da, görək nədi?» Dedi: «Yox». Dedi: «Baxmıjam, belə yoxlayım». Ovcunnan alıb tulladı suya. İnama görədi ha. Haman gündən çoban da oldu şıx. Hər şey inamla bağlıdı.

**II mətn**

İki gəlinin övladı olmuyub. Bu gəlinə axund deyib ki, sən Veys babaya gedib sidqi ürəkdən ziyarət eləsən sənin öyladın olar. Gəlinin birinə deyib, varlıya. Sonra varlı gəlib söylüyüb, yoxsul da bunu eşidə. Deyir: «Nolar, məni də aparın gedəndə, mənim də öyladım olsun. Bəlkə Allah tərəfindən verdi». Nəysə, varlının atası səhər durub tezdənən kəlləri qoşub, bu gəlini götürüb aradan çıxır. Yoxsul durub nəkqədər eliyib yüyürüb, çata bilmiyib. Yüyürüb bularын dalıynan. Okqədər yüyürüb, okqədər yüyürüb, bir dənə murquz topasının dibinə ağzı aşağı yıxılıb. Yıxılanda durub dizi üstə qibləyə tərəf durub deyir ki, ay murquz, can murquz, mən yıxılmışam, sən durquz. Murquza deyib ha. Səndən yeddi oğul istərəm, bir dənə qız. Allah-tala bunun ziyarətini qəbul eliyib. O qaçıb gedən gəlinin ziyarətini qabul eləmiyib. Ona sidqi ürəkdən o gəlinin istədiyi qədər öylad verir. Yeddi oğul, bir qız. Kor-peşman olar qayıdır. Bu gəlin də hirsindən, havasınnan ki, bu gəlinin öyladı olub, bunun yox. – «Sən, – deyir, – onu aparsaydın, mənim də övladım olardı». Heylə qayınataynan höcətdəşir. Axır nəticədə ayrılıb gedir. Bax bunu eşitmişəm.

**III mətn**

Bir çoban olur. Çobanın iti olur. İti basdırır dağda, üstünə də bir ağac basdırır başağacı kimi. Çıxır gəlir. Bir vaxtı görür ki, camaat hamısı dağa axışır. Əyə, kimi aparır qurban kəsir, kimi çörək aparır, qənd, şirniyyat, hərə bir şey. Gəlib soruşur: «U nədi belə?» Deyir: «Orda böyük bir ziyarətgah var». Maraxlanır ki, qardaş, u ziyarətgaha camaat gedir, qoy mən də gedim. Gedib görür ki, bunun basdırdığı

itdi. Yanı insanda o qədər inam olur ki, o bilmir ordayı itdi. Əsas inamdı. Quru ağaca inamın varsa, sənin arzu-niyyətin yerinə yetir.

## QAZANILMIŞ SAVAB

Biri də üş nəfər yoldaş hacca getmək fikrinə düşüblər. İkisi yaxşı hazırlaşıb, biri də deyib gedim şəhərdən alverimi eliyim, ayan-bayanımı, hazırlığımı edim, gedərik. Şəhərin arasıynan gedirmiş, görür ki, bayram keçirirlər, hərə əlinə nə keçdi alıb aparır. Bir nəfər adam görür ki, zibil yeşiyindən ölü toyux götürdü, bükdü tumanına apardı. Kişi fikirləşir, deyir ki, qara basır məni, düz görməmişəm. Gedir, hərlənir, qayıdır gəlir, adamı çağırır, götürüb aparanı. Deyib: «U nədi heylə?» Deyib ki, Allahdan danmadığımı səndən niyə danıram. Hamı gördüm bayram keçirir, mənim uşaxlarım da, öydən iy çıxmalıdı, gördüm imkanım yoxdu, imkansızam, o toyuğu apardım, indi bişirirəm, uşaxlarıma verəjəm. Çıxardır cibindən pulunu verir, deyir: «Apar o toyuğu at getsin. Ala bu halal pulu. Nə varsa al gət, uşaxlara bayramlıx elə. Bax bu pulu da səə verirəm, mənim hacı pulumdu. Ala uşaxlara bax. Bir il una uşaxlara baxa bilərsən. Mən gedəsi olmadım». Deyir: «Nətər, hazırlaşmışıx?» Deyir: «Yox, mənim pulum əldən çıxdı. Yetimə verdim». Bular gedirlər həccə, bu getmir. Bular həcdə namaz qılanda görürlər ki, qabax cərgədə birinci namaz qılan budu. Deyir ki, ə, bizi aldadıb, bu deyirdi gəlmijəm, bəs nəynən gəlib? Çox götür qoydan sonra deyiblər qutarax, onnan söhbət edək. Gedib görüblər yoxdu. Bir neçə gün namaz qılanda bu adama rast gəliblər. Gəliblər evə. Sən neynəmisən ki, bizdən qabax həccə getmisən? Mən söhbət elədiyim kimi söhbət eliyib una. Deyib ki, qabax cərgədə namaz qılırdın. Əl-açıxlıx, yetim-yesiri sevindirmək, həccə getməkdən bin neçə dəfə artıxdı.

## QONŞUNU İKİ İNƏKLİ İSTƏ

Onun, deyir, bir inəyi vardı. Bu qonşuun da heş nəyi yox idi. Arvad buna dedi ki, qonşuun bir inəyi var. Sən də onun kimi kişi döyülsən? Bir inək də sən çakqaşdır da – danadan-zaddan, sənin də inəyin olsun. Bu çox götür-qoy eliyəndən sonra dedi: «Gedirəm. Gedib Allah-taladan mən də istəyəcəm». Düzəlir yola. Bir qədər getmişdi, deyir, bir kişi rast oldu buna yolda. Dedi: «Hara gedirsən?» Dedi ki, vallah, belə-belə. Dedi ki, bilirsən nə var? Dedi: «Yox». Dedi: «Qayıt dala. Get dedi Allaha dua elə, u qonşunun bir dənə inəyi var, u balalasın, balasını səə versin, sənin də bir dənə inəyin

olsun». Dedi ki, ə, onun bir inəyi var, mənim ürəyim partdıyır. Əgər u inək balalıyıb iki dənə olsa, u saat mən ölərəm. U məə inək verər? U məə inək verməz. Dedi: «Onda qayıt dala». Unnan, deyir, qayıtdı dala.

İndi ay dədə, insanda paxıllıx da çoxdu.

## ÖMURDƏN PAY

Bu da bizim ənənədən qalıb. U vaxtı insan min il yaşıyıbmış. Yaşıyanda bir ağsakqal, qoja adam görüb ki, bir cavanın Azreyil canını alır. Deyir: «Alma onun canını». Deyir: «Onun vaxtı tamamdı axı». Deyib: «Mən ömrümdən qırx il verirəm una». Demək, bunun min ilə yüz yaşı var çatmağa. Deyib: «Mən ömrümdən ona qırx il verirəm, qoy u yaşasın, cavandı». Bu qırx il tamam olub. Bu adamın, yaş verənin unnan da tez tamam olub. Gəlib Azreyil ki, canıı alıram. Deyir ki, mənim hələ qırx ilim var. Deyir: «Sən qırx ilii vermədin o cavan oğlana?» Deyib: «Vermişəm, verməmiş olum. Şahıd var?» Bax bu şahıd da bunnan götürülüb. Bax, belə şeyləri mən eşitmişəm.

## TANRI BORCU

Allah-tala əsabəsini göndərir ki, get Kərimə borş vermişəm. Uşağı göndərirsən ey, get Kərim dayında borş var, unu gətir. Deyir: «Əşi nədi?» Deyir: «Özünə disən, biləjəkdi». Gəlib dedi ki, səə Allah-tala borş verib, unu verginən. Dedi: «Məə borş-zad vermiyib». Getdi. Dedi: «Aldın?» Dedi: «Yox». Dedi: «Get dinən u nəfəsi una borş vermişəm». Dedi: «Ala (Söyləyici aldığı nəfəsi çölə buraxır – top.)». Nağarajaxsan? Nəfəsdi, girib-çıxdığını bilirsən?

## TÜK SANI ÖMÜR

Deyir, Allahın adamıdı bu. Allah-tala deyibdi mən buna nə qədər yaxşılıx eliyim, nə qədər hörmət eliyim ki, bu öz borcunnan çıxsın da. Mən baxıb görürəm bu yaxşı adamdı. Buna ayan olur. Gedib görür bu cüt əkir. Deyir: «Bunun bax bu tələsik, yornux, bezmiş vaxtında, unu danışdırajam, görək nə deyir». Gedir deyir ki, Allah-taladan nə istəyirsən? Pul istəyirsən, mal istəyirsən, can istəyirsən? Deyib: «Allah-taladan ömür istəyirəm». Deyir: «Nə qədər?» – deyəndə bu cüt əkdiyi yerdə əlini qoyur öküzün qarnıın

altına. Deyir: «Əlimin altındayı tük sanı ömür istəyirəm». Allah-talaya əyandı da, verir. Əlinin altındakı tükü sanamax olan şey döyül. Verir. Gəlir əlli olur, altmış olur, yüz olur, yüz əlli olur. Bu baxıb görür ki, bir vaxtı burnunnan su axır, gözü görmür, qulağı eşitmir. Xörəyi qaldıranda ağzına aparammır, böyrünə tökülür. Deyir: «Ya Allah, səndən bir ucuz ölüm istəyirəm. Mən çox əziyyət çəkirəm». Deyir: «Özün istədiyin qədər səə vermişəm». Ona görə nə olur olsun, deyəsən Allah bilən məslahatdı, Allahın işidi, hər şey Allahın əlindədi. Da ona əmr eləmək olmaz ki, məə var da ver, dövlət də ver, gözəllik də ver. Onun hamısını demək olmaz.

## ÇÖRƏYƏ EHTİRAM

– «Üş başdı, mən amma beş başam. Mən yiirəm iki kilo, ona verirəm üş kilo ki, qoşudu, gözü məndə olmasın». Nəsə. Bu bunu deyəndə deyir ki, nətəər olur? Qurban olduğuma ayandı axı, hər şey ayandı. Bir günüsü gedəndə deyibdi ki, səə qurban olum, mənim var-dövlətimdən ona ver, o da yaşasın. Mən əlimnən verirəm, bərəkəti yoxdu. Deyir ki, ona verərəm, amma o hələ Allahını tanımır, mənim adımı çəkmir. Mən onu xəlq eliyib hayata gətirmişəm ki, xeyirnən şər qazanmaxdan ötrü. Bu həmişə şər adamdı. Vermək məslahat olsa, özüm verərəm. – «Gənə var da, ver. Məndə artıxdı, məndən kəs ona ver». Deyir ki, mən nə bəhanə axtarım. Həmişə görürəm sənin varındı, kəsməyə bəhanə tapmıram. Deyir: «Bə mən nağarım ki, azalsın? Mən gejə-gündüz Allah-talaya şükür eliyirəm. Verdiyinə çox şükür». Deyir: «Unda yuxa bişirtdir, yığ xurcunun gözünə – bunnan qabax xurcun olub – atın belinə min, uzax səfərə get. Gejə u yuxadan yiyə-yiyə get. U yuxadan, çörəkdən bir qırıx yola düşərsə, bu yolnan getcək da, unu tapdalasın, bərəkət ərşə çəkilsin». Bu, bu dediyini eliyir. Gedəndə surfa bağlıyır. Yeyəndə gördü ki, bir qırıx düşdü yerə. Gətirir onun yanını cızır gejə. Gündüz gəlir onu tapır. Allah-tala onun bərəktini gənə artırır. Bəhanə tapmır ki, u halalına haram qatmır, çörəyin də qədrini bilir. Niyə deyir bir qırıx çörəyin yerə düşəndə tap, öp, gözünün üstünə qoy. İndi bu saatdarı bu işdər baxır görürsən qeyri-mümkündü.

## AĞLAMAQ PİSDİR

Üş qadın yolnan gedirmiş. İkisi, deyir, ağlıya-ağlıya, dil deyə-deyə gedirmiş. Biri, deyir, gülürmüş. Elə dayanmadan bulara gülürmüş. Allah-tala peyğəmbərə deyir ki, üş qadın gedir yolnan. İkisi ağlıyır, biri gülür. Bulardan soruş görək biri niyə gülür, o birilər niyə ağlıyır. Qurban olduğum peyğəmbər deyir ki, ağlıyan qadınnarın birinin yoldaşı ölübdü, birinin qardaşı. Unçun onnar ağlıyır. Deyir: «Bəs gülən niyə gülür?» – «U da, deyir, olara gülür ki, nolub, ölüb, ölüb. Allah rəhmət eləsin. Qalannarı sağ eləsin. Həm də söyünür qardaşımın toyu olajax, gedəjəm toya diyib gülür». Qurban olduğum da deyib ki, get oların nəyi varsa, onu öldür. Qoy olar həmişə ağlar qalsın. Yəni ağlamax pisdi da. – «O güləni də qoy həmişə gülsün. Xeyir iş olsun, həmişə gülsün». Ağlamax bədlik gətirir, pislik gətirir.

## ÇOBANIN CƏNNƏTƏ GETMƏSİ

Çobanın çarıxlı-patavalı cənnətə getməyini eşitmişdin? Danışım onu da? Qəbirstannıxda qəbir qazılırmış, ölü dəfn edirlərmiş, çoban da gəlib çıxıb ora. Deyib ki, bu nədi belə? Deyib ki, ölüdü da. – «Neçə il yaşıyıbdı?» Deyibdi əlli il, altmış il, məsəlçün. Deyib: «İndi mən də öləjəm?» Deyib: «Hə». – «Havaxd öləjəm?» Deyib: «Nə bilim, on, iyirmi, otuz, qırx il, nə yaşasan bir gün öləjəsən». Girib qəbrə meyitdən qabax. Diib: «Torpaxlıyın». Deyirlər ki, sənin ölməyinə nə qədər var. Allah-talaynan danışıblar ki, ya rəbb, ya rəsulallah, çoban çıxmır qəbirdən. – «Dinən ömrünü iyirmi il də artırdım». Deyir: «İyirmi ildən sonra öləjəm?» Deyir: «Hə». Deyir: «Onda basdırın». Gənə Allah-talaya əl götürüblər. Deyib: «Otuz il artırdım». Deyib: «Onnan sonra ölmüjəm?» Deyib: «Öləssən». Deyib: «Üstümü basdırın». Nəsə, çıxmıyıb. Elə çarıxlı patavalı, dəyənəkli üstünü basdırıblar. Onnan qalıb çobanın çarıxlı-patavalı cənnətə getməyi. Sonra, deyir, cənnətdən kimsə gəlib, deyib çoban orda idi, cənnətdə idi.

## MEHRİBANÇILIQ

### I mətn

Sonra belə danışıllar, çöldə bir kişiyə bir kişi rast gəldi. Dedi ki, məndən nə istəsən, səə verərəm. Dedi: «Öyə məslahat eləsəm olar?» Dedi: «Get eləginən». Gəldi oğluna, arvadına, gəlninə dedi ki, bir kişi var, nə istəsən səə dedi verərəm. Oğlu dedi: «Pul istə, maşın alax. Pulumuz olsun». Arvad dedi: «Öy al, öyümüz olsun». Hərə bir fikir

dedi. Axırıncı dedi gəlin idi. Gəlinə dedi: «Oğul, sən nə istəyirsən?» Gəlin dedi: «Mən mehribançılıx. Get diginən mehribançılıx istəyirəm. Aylə arasında mehribançılıx olsun». Gəlin bunu istədi. Getdi dedi ki, mehribançılıx istəyirəm. Dedi: «Niyə pul istəmirsən?» Dedi: «Düzdü, oğlum pul istədi, arvad öy-eşik istədi». – «Bəs o mehribançılığı kim istədi?» Dedi ki, gəlin istədi. Dedi: «O öydə, o aylədə ki, mehribançılıx var, orda hər şey olcaxdı. Düzdü. Mehribançılığı verdim sizin ayləyə».

**II mətn**

Bir kişi sabanı durdu gördü qar yağıb. Amma bulardan bir adam irizi gedibdi. İrizin dalıynan getdi. Söz misalı, getdi gördü mal yoluun dalında bir kişi oturub. – «Salam məlöykü. Əşi, sən bizə niyə gəlmişdin, havaxt getmisən?» Dedi: «Mən sizin naxışınızam, gedirəm da». – «Ə kişi, nə danışırsan? Hara gedirsən? Qayıt gedək». Dedi: «Məə di görüm döylətizi alım əlinizdən, yoxsa hörmətizi?» Üş oğlu var idi. Dedi: «Vallah sən mənim ağzımı elə yerə dirədin. Gedim uşaxlara deyim». Böyük oğluna dedi. Dedi: «Dədə dinən ki, döylətimizə dəyməsin». Ortancıl oğlu da bu sözü işdətdi. Dinən ki, döylətimizə dəyməsin. Balaca oğluna dedi. Dedi: «A dədə, ged ona dinən ki, niyirik döyləti? Aramızda olan xətir-hörmət qalsın, döyləti alsın». Balaca oğlunun sözü bunun xoşuna gəldi. Getdi dedi ki, aramızda olan xətir-hörmətə dəymə, döyləti alırsan, al da. Dedi: «Ə kişi, mən aranızda olan xətir-hörməti almasam sizin döylətinizi hancarı ala billəm. Get dedi o döylətiniz, o hörmətiniz». Nə qədər mehribançılıx olsa bir öydə, bir ailədə, bir təşkilatda, bir rayonda, bir kəntdə, o qədər yaxşı olar.

## AĞAC DİBİ SULAMAQ

Hə. Qəbirstannığın yanınnan gələndə görür ki, bir oğlan gəzir qəbirstannığın yanında. Deyir: «A bala, dayan». Dayananda deyir ki, a bala, sən niyə bu ataa, anaa borcunu vermirsən? Axı onun səsini eşidirsənmi? Görürsənmi nə qədər döyürlər onu? Deyib ki, nağayrım, yoxumdu. Onun borcu var imiş, atasının, vermiyib gedibmiş. Deyib ki, sənin atanın borcu var. Verə bilmirsənsə, gündə heç olmasa iyirmi-otuz ağacın dibinə su tök, borcunu qutarar onun. Gör, iyirmi-otuz ağacın dibinə su tökmək borcunu qutarır o kişin. Hə, bax belə.

## MAL-QARASIZ HƏYƏT

Şəkili bir məhləyə qonax gəlibdi. Deyib: «Bu kişinin həyətində toyuğu yox. Deyib mal ayağında malı olar da». Axşam görür ki, malı-qoyunu da gəlmədi. O saat şələ-şüləsini götürüb çıxıb məhlədən. Deyir: «Ə, niyə çıxırsan?» Deyib ki, bu axşam bu evə gələn qada məə gəlcəkdi. Toyux, mal qaytaran şeydi da qadanı. Belə şey də sizdə yoxdu. Bu evdə artıx adam mənəm. Bu evə gələn qadanı mən sovutmalıyam. O saat götürüb o biri qonşuya keşdi. Düzdü, qadanı mal qaytarır.

## QƏDR GECƏSİ

Mənim atam belə rəvayət danışardı. Guya mənim nənəm səhər-səhər qədr gecəsinin səhəridimi, yoxsa qədr kecəsinə açılan səhərdi. Durub görüb ki, – söyüddəri var imiş buların bir ağac, – söyüd başını qoyub yerə. Arvadın da bir dənə inəkləri var imiş, balalıyıb. Arvad da aparıb danaları bağlıyıb ki, söyüddən yisin. Söyüd yıxılıb da. Heş bir şey dimiyib bulara. Səhər duranda deyib: «Dana hanı?» Deyib: «Aparıb bağlamışam söyüdə». Durub görürlər söyüd qalxıb. Söyüd səjdəyə gəlməli idi. Söyüd ağacı deyilənə görə guya müqəddəs ağacdı. Deməli, həmin gecə, qədr gecəsində bütün müsəlmannar yatmamalıdı. Səhərə qədər zikr eləməlidi.

## HALAL, TUTYƏ VƏ HARAM

Bir kişiyə bir meçid tikdirəsi olurlar. Bir nəfər kəndin sakini, mötəbər adam ustanı gətirib meçidin yerini göstərir, tikinti materiallarını göstərir və buna xidmət eliyəsi şəxsi göstərir. Bu usta işə başdıyır. Usta olmağına baxmayaraq özü-özlüyündə çox dəyərli adam olubdu. Usta görür ki, heş bu kəndin sayılan adamlarınnan, böyükdən, kiçikdən, gəlib buna salam məlöykü, işin avand olsun deyən yoxdu. Buna narahat olur. Fəhlələrdən sorunçur ki, o kişi kim idi. Deyir kəndimizdə belə bir şəxsdi. Ağsakqal, mötəbər bir adamdı, meçidi də o tikdirir. Deyir: «Ona gedib deyərsənmi ustam deyir ki, üç adam bir sufrada çörək yeyir. Birinci halaldı, ikinci tutyədi, üçüncü haramdı». Deyir: «Deyərəm». Gedir deyir. Kişi cavab verir. Deyir ki, bismillah

eliyib yiyəninki halaldı. Bismillah, axırında əlhəmdullah deyəninki daha əfzəldi, tutyədi. Bismillah eləmiyib, əlhəmdullah eləmiyib, Allah sən yetir demiyəninki haramdı. Gəlib bu cavabı həmin fəhlə ustaya deyir. Deyir: «Bəli, bu kənddə adam var. Gəlməsə də eybi yoxdu. O kişiyə mənim böyük hörmətim var».

## BABƏK, NƏSİMİ VƏ MOLLA NƏSRƏDDİN

Bir şıxın, deyir, üş şəyirdi olur. Bu şıx da çox böyük şıx olur. Bunun bir erkəyi var idi. Ət lazım olanda kəsirdi bir az götürürdü, surasını oxuyurdu gənə olurdu qoyun. Bir gün bu şıx öydə olmur. Şəyirdlər deyir ki, biz ki onun surasını bilirik. Kəsək yiyək, oxuyax, gənə dirilsin. Kəsirlər dirilmir erkək. Babək kəsir, Nəsimi soyur, Molla Nəsrəddin də gülürmüş. Nəsə, erkək dirilmir. Gəlir şıx. Deyir: «Niyə belə?» Deyir: «A usta belə da. Kəsdik, dirilmədi». Deyir: «Kim kəsdi?» Babək deyir: «Mən kəsdim». Dedi: «Səni kəsiləsən». Dedi: «Kim soydu?» Nəsimi dedi: «Mən». Dedi: «Səni də soyulasan». İrəhmətdik mollaya deyir: «Sən nağarırdın bəs?» Deyir: «Olara gülürdüm». Deyir: «Allah səni də gülüş günə qoysun». Unnan o gülüş günündədi.

*Qubalı Bədəl kişidən eşidib.*

## ZAMAN ÖLDÜ

Arvaddar oturmuşdu ixtilat-zad eliyirlər. Padşahın da Zaman adında bir oğlu var imiş. Biri deyir: «Udey bax, saman düşür göydən». Biri deyir: «Saman düşdü». Biri deyir: «Zaman düşdü». Biri deyir: «Zaman öldü». Samannan başdıyır ha bu. Bir vaxtı xəbər gəlir ki, bəs padşahın oğlu ölübdü. El ağzı fal ağzı budu bax.

# MƏRASİM FOLKLORU

## TAS QURMA

### I mətn

Onu əsasən eliyirdi arvaddar. Bir də görürdün iki arvad, mən qaraçıları görmüşəm, uşax vaxtı. Bir də gördün iki qaraçı – biri cavandı, biri qoja, gəldilər. Bir tasdı, kasadı, yazılı kasadı, cəm deyirlər ona. Onu açırdılar. Deyirlər mən səni qırx açar suyuna salajam. Yəni bu suya əlini salsan səə heç bir cin yaxın düşməyəjək. Bunu əsasən arvaddara eliyirlərdi. Arvaddar bir də gördün özündən gedir, qorxardılar. Cəmin içində yazılar vardı. Nə yazı idi bilmirəm. Dəmiri qızdırıb yazmışdılar. Qırx dənə də açar salırdılar o cəmin içinə. Cəmin içinə su tökürdülər. Sonra bu biri güzgünü belə tuturdu suyun üzünə. Güzgünü nətəər tuturdusa, bu su güzgüdə əks olunurdu. Cavan tutur. Bu arvad da suya baxmırdı, güzgüyə baxırdı. Güzgüyə baxıb başdıyırdı: «Get, lənətə gələsən». Təkrar eliyirdi bir də: «Lənətə gələsən, sənin nəyinisə bağladım». Yadımdan çıxıbdı. Onnan sonra bu arvadın, hası ki qorxuluğunu götürür, əvvəl sol əlini, sonra sağ əlini salırdı suya. Salıb başdıyırdı nəsə dodağının altında oxuyurdu. Daa onu bilmirəm nə oxuyurdu. Yavaş-yavaş oxuyurdu. Onnan sonra guya bu cinnəri qovdu. U cinnər bu həyətə gəlmiyəjək. Bular şübhəsiz ki, əsatir şeydi, yalan şeydi.

Cinnərin başçısı gəlirdi. Ona əmr eliyirdi ki, nə əshabələrin, nə özün bu həyətə ayax basmırsan. Belə də bir şey eliyirdi. Üş dəfə üfürüb arvadın əlini qoyurdu suya, sonra üş dəfə də arvadın üzünə üfürürdü. Çubux olurdu, u çubux da elə bil qızmış şişnən yandırılmışdı. Elə zənd elə ki, uşaxlar oynuyanda alabəzək-alabəzək ağaclar düzəltmirlər. Bu soyulub xüsusi ağac idi, yandırılmışdı zənd elə ki... onu da çox müqqədəs ağac kimi büküb qoyurdu, cəmi də. Sonra orda bir iş eliyirdi. Arvaddarın bəxtini də, deyir, cəmdən oxuyur. Deyirdilər sənin bəxtində belə şey var, oğlun bəxtəvər olacax, qızın bəxtəvər olacax. Qutarannan sonra suyu aparıb axan arxa atırdılar. Axan arxdan da suyu götürürdülər. Qutarannan sonra açarı, cəmi aparıb suya salıb carlayırdılar, onun da duası var idi.

### II mətn

Sonra Qardaşxan addı bir kişi var, yaşıyır. Yaş etibarı ilə hardasa yetmişdən yuxarı yaşı var. O qaçırdı öydən, çıxıb gedirdi. Düşürdülər dalına, orda-burda axtarırdılar, çətinliklə tapırdılar. Elə

vaxd olurdu tapammırdılar, özü qayıdıb gəlirdi. Onu cindar Alı deyilən bir kişi var idi, rəhmətdik gözəl kişi idi. O tas qururdu. Bax o kitabı açırdı. Özüm gözümnən görmüşəm. Zincirli gətirərdi. Zincirlə bağlı onun yanına adam gətirirdilər. O onun zincirini aşdırırdı. Həqiqi aşdırırdı ha, bu hakdı. Aşdırırdı. Heş nə, mis kasadı, hardasa litr su tutar. Onun içinə yarısına qədər su tökürdü, qoyurdu xəstənin qənşərinə, çağırırdı. Çağıranda rəvayətə görə, deyilənə görə, cin gəlirdi.

– Necə çağırırdı, dayı?

– Ajıxlanırdı, söyürdü, hətta özünün deməsinə görə – əsas işdeyirdi Kürün o tayına, Bərdə zonasına. Gəlib atılıb-düşüb minib bunun boynuna cin. – «Ay kafır, düş boynumnan, mən Alıyam, mənə heş bir şey qayıra bilməzsən». O adam, ümumiyyətlə, xəstələri sağaldırdı.

– Tasın axır necə oldu, dayı?

– Heç nə. Gəlirdi ora, kimliyini soruşurdu. Deyirdi, bu adamdan nə istəyirsən, tələbin nədi? Deyirdi heç nə. Gəlirdi ora, o mənim balamı yandırıbdı isti su töküb, qaynar su töküb. Həqiqətən də bu gün də isti su çölə tökmək, atmax düzgün döylü. Tökərsə, deyilənə görə, pismillah eləməlisən. Cini kasada xəstə görürdü. Danışırdı. Cinnər razılığa gəlirdi ki, bu adamnan işin yoxdu. O adam da sağalırdı. İndi Qardaşxan olubdu əməlli-başlı adam.

### III mətn

Kasaya su qoyurdu. Suyun başında da başı örpəkli qadın oturudu. Nəsə oxuyurdu, cinnər gəlib yığılırdı. Hamısını butulkaya doldurub ağzını bağlıyırdı, od qalıyırdı, butulkanı da tulluyub oda yandırırdı. Onnan sonra dəli olan adam sağalırdı. Qız deyirdi biri erməndi, gəlmir, biri cuhuddu, gəlmir. Kişi and işdirirdi, çubuğunu yerə döyürdü, döyürdü, oxuyurdu. Deyirdi baba, o da gəldi. Yazılı kasa olurdu. Ona suyu tökürdü. Cin gəlirdi girirdi butulkanın içinə. Qız suda görürdü da oları.

*Cinləri tutan söyləyicinin babası idi.*

### IV mətn

O molla idi. Kimi ürəyi gedirdi... Qarabağdan gəlirdi. O kasaya suyu tökürdü. Mis kasasına, çiniyə yox. Kimin ürəyi gedirdisə, gətirirdilər onun yanına. Elə olurdu qolunu-qılçasını iplə bağlıyıb gətirirlərdi. Gətirirlərdi, ağrın alım. Suyu tökürdü kasaya. Belə əlində çubux var idi. Çubuxla vururdu kasaan qırağına. Mən özüm

görürdüm u cini. Xırda-xırda, elə bil ki, kasaan içinə yığılırdı. Deyirdi: «Filankəsi niyə tutmusan?» Deyirdi: «Yaxşı eliyib tutmuşam». Deyirdi ki, isti su tökdü balalarımı yandırdı. Onçan onu heylə boğuram. Nə qədər elədim, özümü verdim balalarımın qabağına. İsti su tökəndə gərək pismillah eliyəsən. A cinnər, balalarınızı götürün gedin. Mənim balalarımı yandırıb ona görə mən ona cəza verirəm. Okqədər adam gəlirdi maşınnan, arabaynan. Yaxşı ona gəvə, xalça, üzük, sırğa, qızıl verirlərdi ki, bu adamı qutardı.

U məni dedi mal sağdığı yerdə ayağını qoydu balamı öldürdü. Onçan da mən onu helə eliyirəm. And verdi, zad elədi, getdi zaddan zəm-zəm suyu gətdi, bilməm nə gətdi. Gətdi onun yarasına məlhəm tökdü. Yaxşı oldu. Arvad əməlli oldu.

– Dərmanı kimlər gətirdi?

– Cinin padşahı. Gətdi arvadın üstünə tökən kimi arvad yaxşı oldu.

– Kasanın başında kim olurdu? Cinnəri kim görürdü?

– Alı kişi, özü görürdü.

– Bəs necə çağırırdı?

– Çağırırdı ki, buna nağarmısızsa, gəlin bura. And verirdi, qəşəm verirdi. Görürdün, deyir, gəldilər. Onu da başa düşən adam görürdü. Balığın gözü olur ha, ağ rəngdə, suyun içində heylə gəzirdilər.

Cin nişannı qıza, qırmızı paltar geymiş qıza hərisdi. Eləsi olurdu cin yığnağına düşürmüş. Ləyən çalıb oynuyurmuş. Qızın biri cin yığnağına düşüb. Gətirib qabağına kasada mal poxu qoyar. Tövbə, əstəfirillah. Deyər aşdı da, al yi. Deyər ki, ürəyindəyini dimə. Al yi, amma ürəyindəyini dimə. Pisimillah deyən kimi hamısı qaçıb dağılır. Ağlı olan kasanın qırağınnan bərk yapışar, tutar bərk. Görər kasa əlində qızıl tasmış.

**V mətn**

Kasanı qoydu yerə, arvadı da qoydu onun yanına. Dəli qadın idi ha. Başına bir kalağayı saldı, qabaxlarına su qoydu. Suyun içinə nə bilim nəsə qoydu. Mum idi dəəsən. Sonra başdadı oxumağa. Oxudu üfürdü, oxudu üfürdü. U dəli özü dedi ki, u cinnər gəldi hamısı. Qarğıdan bir tütdək qayırmışdı. Unu verdi əlinə, dedi ki, ular ora girəndən sonra ağzını tıxa. Hə. U adam da dedi ki, baba, hamısı girib, biri girmir. Oxudu, oxudu, o da girdi. Girən kimi ağzını pambıxla tıxadılar u arvadnan ikisi. Dedi: «Bax səni dəli eliyən cinnər hamısı bu qarğının içindədi» Qoydu pəncərənin qabağına. Dedi: «Onu yandırajam özüm». O gündən u adamın dəli olmağını

görmədim. Unnan da getdi. Cinnəri Həzrət Süleyman peyğəmbərin duasına and verdi ki, u qadına toxunmayın.

## İLAN TUTAN SEYİD

İlan tutan seyiddəri görmüşəm. Seyiddər gəlirdilər. Gəlib girirdilər məhlənə. İndi bizim qarajda, maşın qarajında ilan var, tapa bilmirik. Birini qonşu öldürüb, əmi uşaxları öldürüb, gürzədi özü də. Birini də tapa bilmirik. Uşaxlara tapşırmışam ora getmiyin. Gəlirdi seyid girirdi həyətə. Girən kimi deyirdi sənin həyətində ilan var, özü də gürzədi. Tutummu? Deyirdin: «Tut». Bir də gördün çağırdı, ilan gəldi.

– Necə çağırırdı?

– Vallah, çağırdığı söz yadımda qalmıyıb. Amma bir ad deyib çağırırdı. Bir cız çəkirdi, bax bu boyda. Onnan sonra guya torpax gətirib, müqəddəs seyidin üstündən torpax gətirib o cızın üstüynən səpirdi. Belə səpəndən sonra girib dururdu cızın ortasında. Başdıyırdı çağırmağa. Gürzəsən, gəlginən, talxasan, gəlginən, yelmarsan, gəlginən. Nəsə ad çağırırdı. Bir də görürdün möhrənin üstündən düşdü, gəldi. Gəldi, gəldi, bu cıza ki, şey səpib, ona çatanda görürdün ilan yavaş-yavaş bu şeyin içindən çıxdı, burulub yatdı.

## QIRXA DÜŞMƏK

Demək uşax olannan qırx günə qədər elə qadınnar var ki, qırxa düşür. Uşağı pastayannı ölən qadın zaxılıx müddəti, qırx gün müddəti keçənə qədər gəlib təzə uşağı olanın üstünə girən kimi onun qırxı tökülür təzə uşağı olan ananın üstünə və onnan sonra əksinə olur. Həmən qadının uşağı qalır, bu qadının uşağı başdıyır ölməyə. Onun üçün bizim bu kəntdə Fazil deyilən bir kişi var, olarda qırx açar cəmi var. Demək, u qırxa düşən uşax elə bir vəziyyətə düşür ki, birinci, uşax həmişə ağzı yuxarı yatanda qılçalarını belə üst-üstə çarpaz qoyur və uşax tük gətirir. Elə bir tük gətirir, uşax təmiz arıxlıyır, yemir, işmir. İstəyir nə boyda uşax böyüyür böyüsün, u vəziyyətdə böyüməlidi. Yaşıyana qədər böyüyə bilir. Amma baxan kimi hamı bilir ki, qırxa düşübdü. Tük gətirir uşax uzun-uzun və bir də həmişə qılçasını belə üst-üstə çarpaz qoyur. Həmən u qırxaçar camının suyunu gətirirlər, unu vedrəyə salıllar, təmiz vedrəyə, gətirirlər həmən suda həm ana, həm də uşağı çimizdirirlər. Onun çimizdirmə formasını izah eliyim bir-bir? Deməli, iki çərşənbə olur, bir şənbə, siftə iki dənə çərşənbə, ən

axıra şənbəni salırsan. Onnan sonra uşağın qırxı tökülür, unu da elə eliyirsən ki, uşaxnan qadın bir-birini görmürlər. Əvvəl uşağı çimizdirirsən. Başqa adam çimizdirir. Götürürlər qırağa qoyullar, sonra ana çimir. Oları gətirib üz-üzə çıxarıllar. İki çərşənbə, bir şənbə eliyəndə uşax o bəladan xilas olur. Yoxsa o uşax ölməlidi, uzun yaşamır.

## ŞIXLIQ ALMAQ

Şıxlıx dərəcəsi almax üçün keşmişdə bir var Allah-tala tərəfindən bu hak aşıxlarına verilən kimi verilə, şıxlara da heylə şıxlıx verilir. Bir də bu Bədəl baba kimi istəyir ki, şilkə girə, şıxlıx dərəcəsi ala. Dairəvi çız çəkib, suranı oxuyub, girib orda ibadət eliyərmişdər. Bunun da otuz günü otuz xurma yeyərmiş, on gününü də bu xurmanın çərdəyini soora-soora dolanardılar.

## MÜSƏLLƏYƏ ÇIXMAQ

### I mətn

Ehsan deyirdilər. Qəbirstanlıxda ehsan paylandı. Ehsan qazanını su apardı. O şəkildə yağış yağmışdı. Ancax kişilər iştirak edirdi. Abadda olub bu hadisə.

### II mətn

Müsəlmannarda belə bir adət olub. Aparıb gözəl qızın birini suya tulluyublar ki, bunu Allahın yolunda qurban veririk, yağış yağsın. Doğrudan da yağıb.

Sonra bizim özümüzdə bir il kalxoz idik. Xosro idi, biz idik, Aralbir idik, bir kalxoz idik. Şəmsabad, Tofiqi, Əmirmahmud, Qarağan – dörd kənd də bir kalxoz idi. Deməli, pambığı səpdilər yerə. Pambıx da suynan çıxarsa, oldu, yoxsa əmələ gələn şey döyül. Şəmsabad ən çox pambıx verən kəndlərdən biri idi. Demək, pambıx gərək nəmnən çıxsın. Yağış yağsa yaxşı olur da. Pambığı əkdilər, qardaş, yağış yağmadı. Bax, bu kənddən, o kənddən – hərəsindən bir qoyun götürüb getdilər dağa. Müsəlləyə çıxdılar, bax bu Surxay dağına. Təkcə bizimkilər getməmişdi, çox adam getmişdi. Ancax kişilər. Demək, aparıb orda qoyunnarı kəsdilər, orda payladılar yığılan adamlara. Oğul, Quran haqqı, Allah Məhəmmədə göndərən u Quran haqqı, o gejə bir yağış yağdı. Atam çıxdı öyün qabağında alt tuman köynək, çıxdı durdu yağışın altında. Təpəsindən dırnağına kimi issandı. Dedim: «Ay dədə, nağarırsan, xəstələnərsən?» Dedi: «Oğul, əhd elədim ki, u dağda, yağış yağsa,

təpədən dırnağa o məni issadana kimi duracam onun altında». Oğul, bir yağış yağdı, bir yağmax yağdı. Səhər də yağdı. Bir sutka yağdı.

# ETNOQRAFİK MƏTNLƏR

## İNAMLAR

1. Qəbrin üstünə su tökməzlər. Guya meyidin başına dəyir. O bir qışqırmax qışqırır ki, insannan başqa hamı eşidir.

2. Ölünün də paltarını evdən çıxarırsan. Evdə qalmax miras sayılır. Kimliyindən asılı olmayarax, ölübsə, onun paltarı evdə mirasdı. Miras həmişə bədbinnik gətirər, deyilənə görə. Ona görə onu gərək mütləq evdən çıxardasan. Özu də basdırmax da deyir günahdı. Onu gərək kiməsə verəsən ki, yetimə-yesirə, geyinə. Ölünün paltarı əgər evdə qalırsa, deyir onu kiməsə vermirsənsə, o hər gün orda qışqırır. Molladan eşitmişəm.

3. Qəbir insanı elə sıxır ki, anadan əmdiyi süd burnunnan gəlib tökülür. Orda o elə qışqırır ki, onun səsini axund eşidir. Başqa adam eşitməsin deyə deyir çəkilin geri.

4. Saxsağan qırçıldayanda qonaq gəlir. Bu məsəl hardan yaranıb? Deyirlər ki, bir kişi yeddi arvad ala bilər. Arvaddar da saxsağanın ayağına məktub bağlıyıblar get bizə xəbər gət görəh biz də beş kişiyə gedə billikmi. Gedib saxsağan, gəlmiyib. Məktubun cavabını gətirmiyib. İndi ona görə o saxsağana vergi verilib. Məsələn, görürəm saxsağan sabah-sabah döyür. Deyirəm Hapıtlıdan keçib ha. Yaxındadı, bu saat gələjək. Görürdün çıxdı. Bir də var ki qırçıldıyır, deyirəm hə, bir həftədən sonra gələjək.

5. Uşağı qalmıyan qadın niyyət edir ki, ay Allah, bu uşax qalsın, onun başında tük saxlaram. Barmax yogunnuğunda kəkil saxlanılırdı. Sonra aparıb onu Ko Murad üstündə kəsirdilər. Uşax böyüyür, bir beş yaşına çatanda onu aparıb ora. Həm qurbanını, həm də saçını kəsir.

6. U bayquş deyil, bəy quşdu. O xeyirli xəbər gətirir. O zaman burda meçitdə namaz qılırdılar. Yer yoxiydi, gəlib bizim seyvanda qılıllardı namazı kişilər. Onda burdakı uşaxlar kirpit yandırıb, kösöy atıb tulluyullar dalıycan. Dedi: «Yox, dəymiyin». Dedi: «O say quşdu. Adı bayquş olsa da, say quşdu. Xeyir xəbər gətirir». Guya u bayquş bəd zadlara gəlir, məlumatdara gəlir, bəd xəbərlərə gəlir. Kirpit yandırırsan, kösöy atırsan ki, onu aparsın da, olmasın.

7. Bayquş gün dönəndən sonra görürsən bir ağacın başında bəyniyir. Həmin məhlədə mütləq ölü çıxmalıdı. Gün dönəndən sonra ağlıyan bayquş olar. Ağlamıyasan gərək.

8. Toyux yumurtası, qara kömür, qırmızı karandaş apar qoy axır çərşənbədə arxın qırağına. Baxtın yaxşıdırsa, qırmızı qələmnən yazajax, yaxşı deyilsə, qara kömürnən yazajax. Onu mən eləmişəm qırmızı idi.

9. İlin axır çərşənbəsində hava təmiz qaralannan sonra güzgü olan otağa girirsən, əlində də lampə. Otax da zülmət qarannıx olmalıdı. Lampə işığınnan başqa içəri işıx düşməli döylü. Lampəni tutursan güzgüyə. Bir az keçəndən sonra sənə qismət olan qız güzgüdə görünür.

10. İlin axır çərşənbəsində duzlu çörək bişirtdirirsən, qır duzlu olur. Onu yiyib yatırsan, sənə qismət olan qız sənə yuxuda su verir, badədə.

11. ... içirdi, qızlar da içirdi. Oğlan içəndən sonra... Qız qabaxca özü içirdi, onnan sonra verirdi oğlan içirdi. Oğlan içəndən sonra elə olurdu ki, oğlan vurulurdu o qıza. Deyirdi mən da bu qızı alajam. Ona Xıdır əli kimi Bayram əli dəyib da. Çərşənbə günü, bayram günü Bayram gəzir. Kəndərdə dərəbədərə, divar-divar kəndərdə gəzir. Bayram addı adam gəzir. Belə.

12. İlin axır çərşənbəsi su dayanır. Saat neçədə dayanırsa, u bilinmir. Onda bəzi adamlar oturur u suyun kənarında. Onnan tələb eliyirsən nə lazımdı. Allah-tala onu səə yetirir.

13. İlin-ayın axır çərşənbəsində, il təzələnəndə obaşdannan durub su dolduranda arxa Zəm-zəm suyu axır. Zəm-zəm suyu budu ki, dirilik suyu kimidi. Cənnətdən gələn su olur. Onunla kim yuyunsa da, işsə də, xörək bişirsə də, o, deyir, sağlamlıx gətirir insannara, heyvannara. O gejəsi, deyir, arxlara su cənnətdən axır Allah tərəfindən.

14. Arvad deyir, xaşıl bişirmişdi nənəm. Yedik, yeyəndən sonra apardıx, deyir. Dedim görüm hansı kəndə gedəjəm. Apardım, deyir, xaşıldan evimizin böyründə – belə mən gördüm də, evlərinin böyründə belə kol-kos var, – kol başında iki yerə, üş yerə qoydum xaşılı. Əgər Ərəbə sarı aparsa, biləjəm ki, Ərəbə gedəjəm. Belə aparsa, deyəjəm, məsələn, Dəhnəyə gedəjəm. Deyir, xamırı qoydum ora, gördüm qarğa gəldi aldı ağzına qəbirstannığın üstündən ayna keşdi. Keçəndə dedim ki, hə, mən belə gedəjəm. Elə oldu ki, qarğa xaşılı apardığı yernən – oraynan mən bunu gətdim. Mən də heş bilmirəm. Evə gətirəndən sonra neçə ildən sonra dedi ha, belə-belə. Xaşılı qoydum, o gerçəkdi.

15. Yumru-yumru fındıq boyda xamır düzəldirdik. Baxırdı ki, uşax xəstələnib, ona nəzər dəyib. Həmin xamırlara şübhələndiyi

adamların adını qoyurdu. Fındıq boyda yumurlayıb onnarı közün qırağında düzürdü. O orda qap-qara qaralırdı. Birdən görürdün partdıyırdı xamırların hansısa. Onu götürürdü, yaxalıyıb onun suyunu xəstələnən uşağa verirdi, bunnan onun dərdi qutarsın.

16. Göz qaytarmaxdan ötrü bir balaca qırmızı torba tikirdin, onun içinə it poxu qoyurdun, onnan sonra iki dənə qaratikan çubuğunu sancırdın üstünə, bir qırmızı istiot, bir üzərlik onun üstünə bağlıyıb asırdın darvazadan. Yol darvazasınnanmı, mal darvazasınnanmı, göz qaytarmaxdan ötrü.

17. İndi yat, gejəyə yuxu görürsən. Yuxu görürsən da pis və yaxud yaxşı. Deyirlər ki, ölüyaya get. Heş nəyə yox, sidqi ürəkdən dəstəmaz alıb incil topasının dibinə, bir də heyva topasının dibinə ziyarət eləsən Allah qəbul eliyər.

18. Uşax görürsən səni incidir. Əlini qalxızıb onu vurmax istəyirsən. Onda yavaş da olsa vur. Əyər qalxızıb əli saxladınsa səndən qabax cinnər vurur onu. Deyir: «Sən qıymırsan, mən qıyıram».

19. Axşam xörək bişirdin, qabını yuma. Mələklər gəlir o qabları iyliyir, ev yiyəsinə xeyir-dua oxuyub gedir.

20. Vaxd vaxtı malın üstünə gələndə ləmpəni yandır. Mələklər gəlsin öyün cığırını tapsın ki, öyə xeyr-dua oxumağa gəlib.

21. Qazan qoydun oda, xörək bişirirsən. Onda denən ki, Məhəmməd peyğəmbərin, ölyaların, ənbiyaların ehsanı olsun.

22. Qazanda pilo bişirirsən. Düyünü tökürsən qazana. Denən şeytannan savayı gözü bu ocaxda olan kimsələr gəlsin ziyarət eləsin getsin. Elə söyünürlər ki? Deyir: «Allah səə şükür, evimdə qazan asılır, mənim adım çəkilir, balalarım yaxşı sufraan başında oturur». Bəzən gəlir görür, vaş, heş nə yoxdu. Qəbirdə o gün yata bilmir. Deyir: «Gör nə zülümdə yaşıyır olar». Gərək ojağa qazan asanda deyəsən ölülərimin ehsanı olsun. Gətirsinnər yaxşı kəssələr öyünə bərəkət töksünnər getsinnər.

23. Deyir görürsən də isti əppək bişirsən. Yolnan adam gedir. Onu çağır o isti əppəkdən ona yidizdir.

24. Buğdanı qovurulladı, tökürlərdi ləyənə, əliynən üstünü sığallıyırdılar. Yanına su da qoyullardı. Deyirlərdi Xıdır Nəbi gələjəkdi. At suyu içir gedir, Xıdır Nəbi də əlini qourdun üstünə basıb gedir.

25. Göy qurşağı Ayşə Fatmanın qurşağıdı. Guya yağış yağır, böyük leysannarın qabağını kəsməkdən ötrü qurşağını sərir, onun qarşısını alır.

26. İlan görünkəndə deyir: «İlan, səni Süleyman peyğəmbərin goru çalsın». İlannar u peyğəmbərin əmrinə tabedir.

27. Ölünün ayax tərəfində adam otursa, gərək dura. Onda uzun can verir.

28. Nənələrimiz deyərdi ki, yağışın suyunnan götürüb qoy ojağa su quruyanda yağış kəsəcək.

29. U daşı Babadan gətirirlər. Baba Mərəzədə ölüyadı. Dağın başındadı. Həmişə getsən şarpaşarp su damır ordan. Onu gətirirsən ki, yağış yağmıyanda, eləmiyəndə suya qoy unu. Onun da xeyratı xaşıldı. Xaşılı bişir, o saatdarı yağış tökəcək, nə tökəcək. Unnan sonra üş gün, iki gün, neçə gün də qalsa suda, yağannan sonra çıxart. Unnan sonra yağış kəsir.

30. Məsələn, anaa ilkisənmi? Külək bərk əsir da, ələ alırsan daşı, üş dəfə təndirin başına dolanırsan.

Mən anamın ilkiyəm,
Ağzı qara tülküyəm.
Kəs yağış, kəs külək,
Kəs yağış, kəs külək.

Heylə deyirsən, daşı üş dəfə hərləyirsən, tullayırsan təndirin içinə. Unnan kəsir.

31. Küləklər çox güclü əsəndə kimsə anasının ilkidisə, bir ələk götürür əlinə, bir dənə də xəlbir. Üş dəfə öyün hərləməsinə deyə-deyə gəzir ki, mən anamın ilkiyəm, ağzı qara tülküyəm, mən anamın ilkiyəm, ağzı qara tülküyəm, mən anamın ilkiyəm, ağzı qara tülküyəm. Üş dəfə heylə deyəndən sonra ələyi, xəlbiri gətirib qoyur yerinə. Onnan da, deyir, külək guya dayanır. Bular da hamısı el məsəlidi da.

32. Ölünün baş ağacını suya salanda guya yağış yağırmış. Çıxardanda kəsirmiş. Belə anikdot kimi söhbət gedirdi.

33. Namaz qılan kişilər olurdu. Oların möhürü olurdu, kaba torpağınnan gəlirdi. U möhürdən bir az qırıb havaya tulluyanda yağış kəsirdi.

34. Yağış yağır dalbadal, kəsmir. Deyirlər nağarax bu yağış kəssin. Bir vərəqə qırx dənə keçəlin adını yazıllar. Onu bir çöpə taxıb qoyullar yağışın altına. Guya ki, u yağış keçəllərin başına yağır da. Ki kəssin. Onnan sonra kəsir.

35. Ölü öləndə qəbrin içinə yağış düşərsə, onda yağış dayanmır.

36. Baş ağacını arxa tulluyanda yağış yağar.

37. Damcının üstünə duz səpirlər ki, yağış kəssin.

38. Damcını yandırıllar ki, yağış kəssin.

39. Vaxtsız yağış yağdırmax günahdı.

40. Qozun qabığını, ləpəsini də ojağa tulluyub yandırırsan, onda da yağış yağır.

41. Onnan sonra guya göy qurbağanı, göy balaca qurbağa olur ey, onu da öldürsən yağış yağır.

42. Tısbağanı qarnı üstə suya salanda yağış yağar.

43. Gülləynən ölən yoxdu? Onun torpağınnan götürüb gətirib dəmirin üstündə qovurullar, onda yağış kəsir. Kəsmiyən yağışdar olur ey, onda.

44. Əri ölən dul arvad eşşəyin başına su töküb yuyanda, onda da yağış yağır.

45. İkindi vaxtı ajınnan da ölsən yemək yemə. Allah-tala o vaxtı rızqı paylıyır. Kim toxdu ona vermir, kim ajdı ona verir. Görürsən biri gəlir çay, qənd istəyir. O vaxtı vermiyin. Ya bir saat əvvəl verin, ya da bir saat sonra. O vaxtı mala da, insana da rızqı paylanır. Qapılarınızı açıq qoyun. Darvazanı açıq qoyun.

46. Məleykələr biri-birinə qarğış tökəndə deyir səni qab yuyub yaxalamamış qoyannardan ol. Zibili süpürüb qapının dabanına yığannardan ol, dırnaq kəsib yumuyannardan ol.

47. Bütün ağırlıx pilləkəndən tökülüb gedir. Evə girəndə bissimillah desən cinnər qaçır. Allahın adı gələndə cinnər qorxur. Elə bil ki, bissimillah deyəndə deyir ki, burda yemək yoxdu bizə.

48. Çörəyə əl atanda bissimillah dimiyəndə cinnər yiyir u çörəyi, sən yimirsən. Gərək bismillah eliyib yiyəsən.

49. Evdə həmişə məlayikələr var. Evdən içəri girəndə salam məleyki və rəhmatullah və bərakatu deməlisən. Bizə çatan rəvayətə görə evə girəndə u salamı verməlisən.

50. Niyyət edəndə əvvəl yaxındakı pirə niyyət edərlər, sonra uzaxdakı pirə. Yoxsa yaxındakı pir küsür, inciyir.

51. Nahaq qarğış adama keçən döylü.

52. Nahaq qarğış eyləsən özə keçir.

53. Ana qarğışı keçməz. Süd qoymaz onu keçməyə. Vay o övladdan ki, ata qarğıyır. Ataan qarğışı keçir.

54. Qarğışın iki ucu var, bir tini. Nahax yerə eliyirsən, qayıdır səə düşür.

55. Pis yuxunu suya danışallar ki, suyla axıb getsin, baş verməsin. Suya gedə bilmiyəndə «Ay Allah, sən özün xeyrə yaz» deyərlər.

56. Yatanda başının altına çörək, duz, kömür, qayçı qoyullar ki, səksənməsini alar.

57. Güzgü sınanda yaxının, əzizin ölür. Güzgü sınanda gələn qadanı qaytarmax olmur.

58. Süfrəyə duz dağılanda qonax gəlir. Balaca qaşıx düşəndə uşax, böyük arvad, çəngəl düşəndə kişi qonağı gəlir.

59. Duz dağılanda o öydə dava olur. Dağılmış duzun üstünə qənd qoyanda davanı kəsir.

60. Boşqabın əldən düşüb sınması xeyirdi. Gələn qadanı aparır.

61. Ölünün dalınca danışmax günahdı.

62. Duaya söyəndə kəsərdən düşər.

63. Uşağın boynunun kökündən öpdün, küsəyən olar.

64. Hamilə qadının xəbəri olmadan başına duz səpirlər. Arvad əlini bığına apararsa, oğlu, üzünə apararsa, qızı olajax.

65. Qadının saçınnan tel ayrılıb üzünə düşərsə, qonax gələjək.

66. Körpə uşaxnan körpüdən keçəndə cibə bir parça çörək qoyasan, qorxmamaq üçün.

67. Deyirlər, guya göy qurşağının altınnan qız keçsə oğlan olar.

68. Un üyüdüb gətirəndə başınnan bir sıxma götür ki, bərəkət qaçmasın.

69. Ölünün dalınca daşı atallar ki, yönün arı olsun, dabanın bəri.

70. Gəlin köçəndə daş atırsan ki, bir də qayıdıb gəlməsin.

71. Ləmpəni yandıranda «Allahın məsəli» deyəsən.

72. Güzgüyə baxanda «Allahın məsəli» çəkəsən.

73. Ölünün dalınca daş atallar ki, bir də öydən ölü çıxmasın.

74. Ölünün dalınca daş atıllar ki, dalınnan bu daş getsin. Adam getməsin.

75. Allahın bir eşidən tərəfi var. Nə istəsən çox istə.

76. Allahın bir açıx tərəfi var. Qarğıyanda eşidəndə pis olar.

77. Guya ölünün pisinə danışanda onun günahı yuyulur.

78. Pis adamın dalıynan öləndə daş atallar.

79. Üş gün ölü yuyulan yerdə şam yandırıllar ki, ölünün ruhu şad olsun.

80. Qəbirstannıxdan keçəndə salavat çəkəsən.

81. Çörəyin üstündə salam olmaz.

82. Qızın başını sığallıyanda tez böyüyər.

## YASAQLAR

1. Körpə uşağın əysisini axşam çölə sərməzlər. Səməndə cin əysini aparır, obaşdan gətirir sərir ora. Əysini aparannan sonra uşax dayanmır, həmişə ağlıyır.

2. Körpə uşağı qoymazlar güzgüyə baxmağa. Deyirlər onda cinnər gəlir yanına.

3. Körpə uşağı güzgüyə baxdırmax olmaz, yoxsa dili batar.

4.Uşax iməkliyəndə barıdan tutub gəzməsi pis şeydi. Şeytannar barı dibində oturur. Uşax ayağını tapdalıyanda ona pislik eliyirlər.

5. Şər vaxtı qapıdan çıxanda pissimillah deyəsən.

6. Ayax alta soğan qabığı və sabınnı suyu tökməzlər. Soğan qabığı quran xəzəlidi. Onu gərək təmiz yerə atasan. Sabın suyu da mındardı, ona görə ayax alta atmıyasan.

7. Şər qarışan vaxtı ocax qırağında oturmax pis şeydi.

8. Şər vaxtı qapı ağzında oturmax olmaz, ora cinnər yığılan yerdi.

9. Axşam qarışan vaxtı xeyir-şər paylanır. Qapı var ki, ona xeyir nəsib olur, qapı var ona şər qismət olur.

10. Şər qarışan vaxtı ələk, balatı, su vermiyəsən. Onda məhlənin bərəkəti gedir.

11. Malın doğub, qırxıdı, qonşudan ağartı gətirəndə onda yanına qənddən, duzdan, kömürdən qoyub verirlər.

12. Axşam evdən qonşuya heş nə verməzlər, onda xeyir-şər qarışan vaxtıdı. Nə biləsən xeyirdi, ya şərdi.

13. Axşam qonşuya heş nə verməzlər, onda bir başı xeyirdi, bir başı şərdi. Alana xeyirdi, verənə şərdi.

14. Qonşuya bir ağartı verirsən, bir şor verisən, yağ verisən, nə verirsənsə, unu gərək boş qaytarmax olmaz. Cünki onda, deyir, ruzusu kəsilir malın.

15. Ələyi əliyəndən sonra onun içində qoymazlar, bərəkəti qaçar. Cinnər, şeytannar gəlib əliyər. Dəyirmannan gələn kimi üstünə daş qoyardılar nənələrimiz ki, bərəkəti qalsın.

16. Sarımsağı ələ vermək pis şeydi.

17. Qapının arasında görüşmək düz döylü.

18. Süpürgəni tapdalıyanda şərə düşürsən, tüpürəndə şərdən çıxırsan.

19. Süpürgəni dik qoyanda deyirlər, guya sən ölünü dik qoyursan.

20. Süpürgəni köndələn qoyallar həmişə. Heş vaxt dik qoymazlar. Düşmanın başı dikdi.

21. Süpürgəni dik qoyanda düşmanın başı dik qalır. Yıxılı qoyanda yıxılı qalır.

22. Süpürgəni dik qoymazlar, onda öydən ölü çıxar.

23. Evi süpürəndə süpürgə üstünə dəyərsə, şərə düşərsən. Şərə düşməyəsən deyə, tüpürərlər.

24. Süpürgəni əldən ələ vermək pis şeydi.

25. Qonşudan gətirilən süpürgəni saxlıyanda deyir ki, Allah buranı dağıtsın, mən öz məhləmə gedim.

26. Öyün parasını süpürüb yarısını başqası süpürəndə pis olar. Deyir onda nə qədər kəfən alsa da, kəfəni yarımçıx qalar.

27. Şər vaxtı qapını örtülü qoymax olmaz. Onda rızqı paylanır.

28. Şər vaxtı qabı yuyub çölə atmazlar. Onda bərəkət qaçır.

29. Xamırı kəsib xamırın üstünə qoymazlar. Onda bərəkət kəsilir.

30. Şər vaxtı qapını örtülü qoymazlar. Onda qapı həmişə örtülü qalır.

31. Dar vaxtı məhlədən keçməzlər.

32. Axşam vaxtı öyün zibilini tullamazlar, onda bərəkətini tulluyursan.

33. Ələyi təknəən içində ağzı yuxarı qoyanda cinnər gəlib unu əliyir.

34. Evdən qonşuya bir şey verəndə yanına duz, kömür qoyallar. Bərəkəti alana getməsin deyə yanına düz kömür qoyallar.

35. Döşəhcəyə, palaza uşax işədi, yumazlar. Ayda, ildə, bayramdan bayrama yuyallar şiyələr.

36. Soğan, sarımsax cinnərin daş-qaşıdı. Onnarı yandırmax günahdı.

37. Qaynar suyu tulluyanda da bissimillah eliyib tulluyasan.

38. Qapı arasında yatmax da pis şeydi.

39. Meçidə arxa çevirməzlər.

40. Gejə su başına gedərsən, pissimillah elə. Su başında cinnər olur. Pissimillah eliyəndə gözə görükmürlər.

41. Gejə vaxtı arx başına getməzlər. Həmin vaxtı cinnər arxın başında olur. Arxa gedəndə gərək pissimillah deyəsən.

42. Ayakqabını özündən yuxarıdan asmazlar, günahdı.

43. Qəbirstannığa əl uzatmazlar. Meyidlər onda onu görür, deyir hansımızısa çağırır. Uzadanda da barmağı dişdiyəsən ki, peşman olmuşam.

44. Qəbirstannığa əl uzatmazlar. Onda deyirlər qəbr adamı çəkir.

45. Qəbrə əl uzatmazlar. O da deyir ordan əlin uzadır ki, gəl məni apar.

46. Qəbri saymazlar ki, çaparax kimsə ölər.

47. Qəbirstannığa əl uzadan ölünün günahına şərik olur.

48. Pirə, qəbirstannığa başıaçıx, ayağı açıx getməzlər.

49. Ölünün dalınca danışmax günahdı. Deyirlər şeytan da ölüdən əl çəkib.

50. Ocağa su tökməzlər, od sıçrıyıb cinnəri yandırar.

51. Gejə ağlamax olmaz. Mələkləri narahat edir. Onda deyərlər səni görüm ağlar qalasan.

52. Gün batan vaxtı qapı arasında durmax olmaz.

53. Piləkənin başında oturmax olmaz.

54. Günün dalınca ağlamax olmaz, mələklər qarğıyır.

55. Gejə vaxtı ağlamax olmaz. Ağlamax ağlamax gətirər. Gejənin zəhmi ağır olur.

56. Ojağa su tökməzlər, cinnərin balası yansa, sənə toxunar. Tökəndə bissimillah elə, tök.

57. Ən qorxulu söyüddü, incildi, nar ağacıdı. Gejə vaxtı görərsən qanmaz uşax-zad pəşo eliyir, olmaz. Bu ağajdarın dibindən gedəndə ehtiyatdı olasan, pissimillah deyəsən.

58. Murdar suyu incil altına tökməzlər.

59. Gün batannan sonra uşağı vurmazlar. Deyirlər onda səndən qabax cinnər vurur.

60. Saç ayax altda qalanda başı ağrıyar adamın.

61. Saçı tulluyanda şeytanın ayağına dolaşır.

62. Tək, çərşənbə günü üz qırxmax, baş qırxmax, suya girmək günahdı. Onda düşən tükü cin, şeytan götürür.

63. Gejə vaxtı dırnax kəsəndə ömürdən gedir. Dırnağı tək, çərşənbə, şənbə günü tutmax olmaz. Cuma, adna, bazar tutallar.

64. Axşam-axşam baş yumazlar, saçı da daramazlar. Saçı tullamazlar. Cinnər gəlib aparır, nəsə eliyir.

65. Dırnağı kəsib hara gəldi tullamax olmaz. O vaxtı onnan soruşcaxlar hara tullamısan.

# NAĞILLAR

## RÜSTƏMZAL

Həyat yoldaşı ölmüşdü, üç oğlu, bir qızı qalmışdı. Qızı bir dənə oğlanı şəhərdə görəndə utanırdı, başını aşağı dikirdi. Bunu buna yaxdılar ki, bunun bunnan əlaqəsi var, ona görə bunu görəndə başını aşağı dikir. Bu yaxma qızın atasına da gəlib çatdı. Dedi: «Öldürəjəm, gənə adım tarixdə qalajax ki, qızı pis yolun yolçusu oldu, qızını öldürdü». Ölçdü-biçdi, deyir, bir həkim çağırdı yanına. Dedi: «Elə bir dərman varmı ki, atam, sifətim dəyişilə, məni tanıyan olmaya, amma güjüm özümdə qala?» Dedi: «Var». – «Sonra elə bir dərman da varmı ki, atam, güjüm də qala, sifətim də özümə gələ?» Dedi: «Var. Hər şeyə mümkün var». Bu, deyir, dərmanı atdı, gejəliknən evdən çıxdı qaçdı, şahlığını da buraxdı ki, öldürəjəm, ləkə qalajax boynumda ki, pis yolun yolçusu idi, öldürdü qızını. Öldürmüjəm, ləkədi da, xəcalət çəkir. Bu söz dedi-qodu kimi şəhərdə danışılır ki, Rüstəmzalın qızı uje bir dənə oğlanla əlaqədədi.

Getdi bir ölkəyə çıxdı, bir gəlinin evinə. Dedi: «Gündəlik pulunu verəjəm, get bazarlıx elə, gətir, bişir, sən də ye, mən də yeyim da». Bir gün bu gəlin ah çəkir. Ah çəkəndə deyir: «Nolub?» Dedi ki, bizim suyun başında bir əjdaha oturub, ona ayda bir dənə qul, bir də aş verilir. O qulnan aşı yeyəndə bir müddət su buraxılır bizə, su götürürük. Bu gün padşahın yeganə bir qızı var, o gedir ora. Camaat üzə dirənib ki, bizdə uşax qalmadı axı, amma sən vermirsən uşax. Padşah, deyir, qızını göndərirdi. Rüstəmzal çaparax durdu düşdü yola. Gördü ki, ağlıya-ağlıya bir qız gəlir, yeməyi gətirir. Dedi: «Ay qızım, gət bəri». Dedi: «Əjdaha sənsən?» Dedi: «Yox, əjdaha özü ajıb gələjək bəri. Gət bəri». Aşı yidi, deyir. Qoja kişi idi da, deyir. Başını qoydu qızın dizinin üstünə, dedi: «Əjdaha ajanda durub gələjək, onda məni çağırarsan». Qız dedi ki, gələn var. Oyandı gördü əjdahadı. Tutaşıllar, deyir, əjdahaynan. Əjdahaya dedi ki, yer üzündə kimnən qorxursan? Dedi: «Rüstəmzaldan». Dedi: «Qarşındayı o döylü ki?» Dedi: «Yox, sən sapsarı, kirə udmuş adama oxşuyursan». Əjdahanı da öldürdü. Qıza dedi ki, yer get, amma heş kimə deməginən ki, əjdahanı öldürdülər. Danışma ha. Dedi: «Danışmaram». Gənə ayrıldı getdi o gəlinin öyünə. Bir arvadın öyündə olurdu, arvad bişirirdi, bu yiyirdi. Atı da yava idi, buraxmışdı kolluğa, otduyurdu at orda. Qız gəldi atasına dedi ki,

əjdaha dedi yer get, səni yemirəm, sən padşah qızısan. Atasına belə deyir ha. Su da gəlir. Padşah qızını çağırtdırır deyir ki, ya boynuu vurdurajam, ya da deməlisən bu nə sirrdi. Dedi: «Ata, bir dənə kişi idi, əjdahanı öldürdü. Öldürəndə də belə bir söz işdətdi ki, yer üzündə sən kimdən qorxursan? Əjdaha da dedi ki, Rüstəmzaldan qorxuram. Mən döyüləm ki? Dedi, yox, sən kirə yimiş adama oxşuyursan». Dəyişilmişdi da rəngi. Dedi: «Mənim ölkəmdən olan camaatın hamısı mənim qızımın gözünün qabağınnan keçsin. Bu döylü, bu döylü, axırda dedilər ki, filan qoja arvadın bağında at otduyur, bəlkə o atın sahibidi. Dedi: «Elə o olar, gedin götürün gə-lin». Gələn kimi qız dedi ki, budu. Padşah bunu saxladı. Dedi ki, sənə nə lazımdı? Dedi: «Mənə bir otax ayırajaxsan, atıma bir mehtər ayırajaxsan, bir də bir adam ayırajaxsan mənim biş-düşümü elijək». Dedi: «Bu şeylər olajax hazır. Sən mənim oldun pəhlivanım. Harda çətinliyim olsa, kimsə mənim üstümə müharibəyə gəlsə, onun qarşısına çıxarsan». Rüstəmzal dedi: «Oldu, çıxaram». Bir dəfə də getdi müharibəyə, qələbə çaldı gəldi. Qutarıb gələndən sonra gejə, deyir, ayləsi yadına düşdü, uşaxlar yadına düşdü. Gələsi oldu. Dedi: «Mən adres verəjəm, hər nə olsa, xəbər verərsən, mən sənin dadına çataram. Mən evə getmək istəyirəm, mənim aylәm var, uşaxlarım var». Buna bir dəstə adam, pul-para verib yola salır. Gəldi gördü ki, qırx dənə çadır bir qurulubdu, camaat qaynaşır burda, amma bir çadır da tək qurulubdu, aralıdı. Deyir ki, bu tək çadırın üstünə getsəm dijəklər ki, bu nə özündən deyən adamdı tək çadırın üstünə gedir məlumat almağa. Qoy bu çox çadırın üstünə gedim. Gəldi dedi ki, bu nə sirrdi? Dedi ki, bizim padşahımız Rüstəmzalın qızını istəyir, – Rüstəmzal da bunun özüdü ha! Sifəti dəyişilib axı, tanımırlar, – razılıx vermirlər. Qardaşdar deyir nə vaxt bizim və bacımızın arxası yerə basılar, onda qız sizin olar. Sabahlarım meydan qurulajax burda, pəhlivannar onun oğlannarının və qızının arxasıın yerə verəjək, onnan sonra qız razılıx verəjək. Onunçün yığılıb camaat bura. Dedi ki, gedin padşahınıza deyin ki, Rüstəmzalın üç oğlunun və bir qızının arxasını yerə vursam mənə nə verər? Deyir: «Nə istəsən verər. Xəzinəni sənə açıx elan edər». Deyir: «Yenəjəm oları mən». Buna çadır qurdular, atına mehtər, biş-düş üçün ayrı bir adam ayırdılar. Səhər birinci oğluynan çıxdı, deyir. Günorta vurdu oğlunun arxasını yerə, əlini bağladı, gətdi özü olduğu çadıra. İkinci gün çıxdı, deyir, ikindi vaxtı, gün batabatda oğlunun arxasını yerə verdi, bunu da gətirdi çadıra. Üçüncü gün üçüncü oğlunun arxasını

verdi yerə, bunu lap axşam verdi yerə. Dördüncü günü qızıynan güləşə çıxdı. Axşama kimi qızın arxasını yerə verəmmədi. Beşinci günü günorta qızın arxasını yerə verdi. Verəndə qız ağladı, deyir. Ağlamaz axı, pəhlivan ağlamamalıdı basılanda. Deyir: «Mən ona görə ağlıyıram ki, Rüstəmzalın nəsli batdı». Belə deyəndə dedi ki, batmaz, inşallah. Qızın da əl-qolunu bağlıyıb aparmışdı oğlannarın yanına. Gejə, deyir, dərmanı atdı, sifəti özünə gəldi. Getdi böyük oğlunu belə tərpətdi. Oğlu dedi: «Ata gəlibdi». Rüstəmzal dedi: «Səssiz olun». Oğlannarını, qızını da durğuzdu. Deməli, dar ayaxda ata gəlib çatdı da. – «Səhər uyuşarsız qoşunun canına». Qız dedi: «Padşahın üstünə özüm cumajam». Gənə Rüstəmzalı taxta qaldırdılar. Buların öyləri ayrı idi axı. Qız atası olmuyanda bir xalı toxumuşdu. Qız dedi ki, atam başının dəstəsiynən qonağımız olsun, bizə gəlsin. Yüz adamnan gəlmişdi atası. Yidilər, işdilər, gedəndə qız dedi: «Ata, sən çöldə olanda bir xalı toxumuşam. Bu camaata icazə ver xalının üstündə otursun hamısı. Yüz adam oturdu deyir. Qız xalının bu ucunnan tutub dartdı. Dartanda bir oğlanın altındakı xalı cırıldı, qalanı çıxıb gəldi. Doxsan dokquz adam töküldü ayna-bayna, o oğlanın altındakı xalı isə cırıldı, altında qaldı. Çöyrüldü dedi: «Qızım, bu nə olan şeydi?» Dedi ki, ata, mən o oğlanın güjünü bilirəm, o oğlan öz güjünü bilmir. Mən onnan həmişə həya eləmişəm ki, mənim atamı yeri gələndə basar. Onun üçün həmişə başımı aşağı eləmişəm ki, mən sənə tabeyəm. Mənim atamı sən basarsan. Görürsən palaz onun altında cırıldı qaldı». Onnan sonra dedi: «Qızım, səni o oğlana verirəm. Oğlan, nə deyirsən?» – «Mən razı». Qız dedi: «Yox, kim mənim arxamı yerə versə, ona gedəjəm». Oğlan dedi: «Başqa qadın nikahsız başqa oğlana naməhrəmdi. Nikahım yoxsa mən sənə əl vurammaram». Belə deyəndə: «Qızım, sən nə deyirsən?» – «Onun fikrindən mən də razıyam, müsəlmançılıxda başqa qadına nikahsız əl vurulmamalıdı». Onnan sonra qızı ona verdilər.

## OVÇU PİRİMİN ÖVLADLARI

Bir ovçu Pirim olur. Üş dənə oğul evladı olur. Heş birini də evləndirmiyifmiş. Bir gün baxır ki, əhvalı xarabdı. İnsanın ölümünə üş gün qalmış Allah tərəfinnən onun qəlbinə agah olur ki, vaxdın daralıf. Bu kişiyə də agah olur. Çağırır arvadını, diir: «Arvad, uşaxları bura çağır». Çağırır. Diir: «Bala, mən dünyamı dəyişirəm. Sizin də heş

birizi ya evləndirməmişəm, ya sizə bir gün-güzəran eliyə bilmədim. Özümün də bir günüm, güzəranım olmuyuf. Sənətim ovçulux oluf, ovçuluxnan da sizi böyütmüşəm. Sizdən bir xayişim budur ki, mehriban olun bir-biriznən. Bir-birizin qəlbinə dəymiyin. Bir də çalışın düz danışın, halal yiyin. Onda sizə heş bir yerdən zaval ola bilməz».

Nəhayət, kişi söhbət eliyə-eliyə dünyasını dəyişir. Baxırlar ki, kişi öldü. Kişini dəfn eliyirlər. Kişidən qalanı, məsələn, bir il, iki il yiyirlər. Baxırlar ki, – üsdünə gəlmiyənnən sonra arxın suyu da davam eləmir, – hər şey tükənir. Bu qardaşdarın içində balaca qardaş hamıdan ağıllı olur, dərrakəli olur, düşüncəli olur. Diir: «Ay qardaşdar, siz məə diməlisiz, icazə versəəz, mən sizə diməli oldum». Böyük qardaş diir: «De, a bala, görəh noluf?» Diir: «Bax bu atamdan qalanı yiyif qutarırıx, biz bir qapıdan çölə çıxmalı döyülüh, çörəh qazanmalı döyülük?» – «Nağarax?» Diir: «Atamız nağarıf? Bizim də əlacımız ona çatır. Çıxax bir ovdan-zaddan eliyək. Yidiyimizi yiyək, satdığımızı satax çörəyə verək. Evdə havaxta qədər oturuf ata qazancını yiyif qutarajayıq?» Böyük qardaş diir: «Çox gözəl, ağıllı fikirdi. Daşqanı qoşun, irahlanax, gedəh dağa». Anaları baxır ki, uşaxlar daşqa-zad qoşur: «A bala, nağarırsız?» – «Bizə bir on günnük-on beş günnük çörək hazırla, biz çıxax da, ovdan-zaddan eliyək, atamızın sənətini işdədək heç olmasa. Qeyri biz nə eliyə billik ki?»

Anaları bular üçün çörəh-zad, nə lazımdı ehtiyat eliyir yaxşı. Düyü, yağ, kişmiş, ayan-bayan ki, xörəh də bişirir arada, quru çörəhnən insan olmaz. – «Ət də ki, da özüüz ovluyajaxsız, olajax». Düzəlillər yola. Gedirlər bir meşənin yaxşı bir yerində daşqanı saxlıyıf düşüllər. Böyük qardaş kiçiyə diyir: «Bala, indi nağayrax?» Diir: «İndi bilirsiz nə var? İndi hər gündə ikimiz ova gedəjəyik, birimiz qalajax, həm atdara baxajax, həm ayın-oyunumuza göz olajax, həm də ki, xörəh bişirəjəh, ojax qalıyajax, odunu yığajax, belə». Deer: «Lap yaxşı, bəs indi kim qalır?» Deer: «Hər hal, böyük qardaş qalmalıdı da. Birinci gün sən, ikinci gün ortancıl qardaş, üçüncü gün mən. Bu formaynan növbəynən qalax». Diir: «Yaxşı».

Böyük qardaş qalır. Bular hazırranıf ova getməh isdiyəndə böyük qardaş kiçiyə diir: «Qardaş, nağayrım, nə bişirim?» Diir: «Axşama yaxşı plov bişir». Diir: «Yaxşı». Axşam plov bişirməh üçün bu atdarı da ota buraxır, gedir sakqız odununnan doğruyur, bir-neçə gətirif yığır daşqanın yanına. Ojax qalıyır, başdıyır xörəh bişirməyə. Düyünü bişirir, həlim hasilə gələndə həlimi süzür, düyünü ojağa dəmə qoyan kimi baxır ki, bir top boyda şey yumalana-yumalana

gəldi. Gəlir çatır, diir: «Töt». Başa düşmür. – «Töt». Gənə başa düşmür. Çömçəni yumalıyır, işarə verir ki, yəni həlim tök. Həlimnən bu tökür bir qaba, bu içir, bu tökür, bu içir, təmiz həlim qutarır. Bir qurtum qalmır. Dad eliyir ki, tök. Bu qorxusunnan başdıyır aşdan az-az yığmağa qablara. Bu yığır, bu yiyir, bir qram aş da qalmır. Təmiz qutardımı? Hə. Çıxır yumalana-yumalana gedir. U fikirrəşir ki, ayə, axşamdı, qardaşdarım gələjəh, dijəh yiməyin hanı sənin? Mən nağayrım, neyniyim? Çaparağı qabları yuyur, yığır yerinə, başdıyır çörəh-zad isitməyə, eləməyə. Görür ki, gəldi uşaxlar. – «Ayə, hanı sənin yiməyin?» Diir ki, bişirə bilmədim, atdar itmişdi, atdarı axtarmağa gedif hindi tapıf gətirmişəm. Heş nə bişirəmmədim. Daa utandığınnan boynuna almır ki, noluf. Bəli, gətirdikləri ətdən-zaddan bişirirlər, çörəh yiyif yatırlar. Balaca qardaş o saat başa düşür burda nəsə bir kələk var.

Səhər açılır, balacaynan böyüh gedəsi olur, ortancıl qalır nöybədə. Balacaya məsləhət eliyir: «Qağa, nə bişirim?» Diir ki, aş bişir axşama. Mənim ürəyim aş isdiyir. Bu da genə aş bişirir, həlimi süzür, aşı dəmə vuranda baxır ki, bir dənə top boydana bir şey yumalana-yumalana gəldi. Gəlir çatır, diir: «Töt». «Ə, bu nə diir görəsən, bu nə zad eliyir?» Çömçəni-zadı oyzə-buyzə dığırradır ki, yəni başa düşsün da. – «Töt». Diir: «Yəqin həlimdən isdiyir». Həlimdən tökür, bu içir, bu tökür, bu içir. Təmiz həlim qutarana qədər əl çəkmir. Gənə də başdıyır ki, töt, töt. Başdıyır aşa. Aşı da təmiz yiyir. Qalmadı ki, bir qram? Yox. Əl çəkir, çıxır gedir. Bu yazıx da xəcalətinnən: «Nağayrım, neyliyim, nətər eliyim?» Qabları bu da yuyur, yığır yerinə, çaparağı başdıyır çörəh-zad isitməyə. Böyüh qardaş açıx-aydın çöldəykən bildirir ki, axşama yiməh yoxdu. Amma kiçik qardaş umud olur ki, bəlkə bu bişirdi. Gəlif görüllər ki, heş nə yoxdu. «Ayə, bəs niyə yeməh bişirməmisən? Bu nə işdi?» Diir ki, bəs, atdarı itirmişdim, indi tapıb gətirmişəm, heş nə bişirəmməmişəm. Böyük bilir, səsini-zadı çıxarmır. Diir: «Yaxşı, çörəhdən-zaddan gətir yiyəh». Vurduxları ovdan çörəh-zad bişirif çörəh yiyirlər, eliyirlər. Balaca diir ki, sabah, Allah qoysa, mən sizə aş bişirəjəm. Diirlər: «Yaxşı». Səhər açılır. Bu böyüknən ortancıl qardaş gedir, balaca qalır. Gedir bir yaxşı qara arçan kəsir. Arçan iki cürdü: bir ağı var, bir qarası. Bu ağ müəyyən meşə ağacı kimi kövrək olur, qara arçan hər deyiləndə qırılan deyil, özü də möhkəm yanır. Gedir bir dənə yaxşı yoğun qara arçan kəsir. Gəlir başdıyır ojağı qalıyır günortadan sonra xörəh ehtiyatına. Bu arçanın yoğun başını qoyur ojağın içinə,

nazik başını çöldə saxlıyır. Bəli. Həlimini süzür, aşı dəmə vuranda baxır görür top boyda bir şey yumalana-yumalana gəldi. Gəlir əmr eliyir: «Töt». Diir: «Dayan, darıxma, tökəjəm». Arçanı çıxardır ojaxdan, oddu başınnan bunu çırpa-çırpa, pramoy bu gedir meşənin qalın bir yerində düşür balaca bir quyuya. – «Ayə, mən nağayrım?» Həmən bu yanıx arçanı bura işarə basdırır, quyunun yanına. Quyuun yanına işarə basdırır, qayıdır gəlir.

Bəli, axşam olur, qardaşdar gəlir. Gəlif görür, sən ölmüyəsən, aş dəmdə, həlim orda. Bular xəjalətdənə-xəjalətdənə aşdan yeyirlər, həlimdən içirlər, ixtilat-söhbət. Böyük qardaş diyir ki, indi söylə görüm sən neylədin ki, bu aşı bişirə bildin? Diir: «Ə, yekə kişisən, ovçusuz özü də, ova çıxmısız. Adi bir yumru şeydən qorxub yeməyi yedizdirmisiz ona, özü də biriz diir at itirdim, biriz diir it itirdim, bişirəmmədim, bəhanə eliyirsiz. Siz nətər ovçusuz? Həmən o yumru şeyi, nədisə, döyə-döyə apardım, meşənin u qalın yerində balaca bir quyuya düşdü. Amma quyu çox dərindi. Əlimdəyi ağacı nə qədər salladım, gördüm yox. İşarə qoymuşam, sabah ova getməh lazım deyil. Sabah gedif o nədisə onu tapıf öldürməliyih». Buların canına düşür üşütmə ki, ə, bu bizi işə salajax. O nədisə bizi öldürəjəh.

Bəli, səhər açılır, səhər çörəhlərini-zadını yeyif düzəlillər yolun ağına üçü də. Uzun bir sijim götürür, kəndir, gedillər. Quyunun başınnan baxıllar, görüllər quyu zırıltıdı. Bura insan düşəsi təhəri yoxdu, çox dərindi. Diir ki, balaca qardaş, indi hansız duşürsüz? Böyühlər diir ki, heş birimiz. Biz ora düşəmmərih, qorxurux. Diir: «Qorxursuz?» Diir: «Hə». Diir: «Onda kəndiri bağlıyın belimə, məni sallıyın. Amma quyunun başında olun, mən kəndiri silkəliyəndə bilin ki, çıxmax isdiyirəm». İki başdı qılıncı olur atasının, ov qılıncı. Bu qılıncı da bağlıyır belinə, düşür. Düşür, nəysə, quyuun dibinə çatanda kəndiri açır. Baxıf görür ki, bir dənə devdi uzanıb bir cavan on beş-on altı yaşında qızın diziin üsdündə. Qız da ağlıya-ağlıya bunun başını tumarrıyır. Qız oğlanı görür, diir: «Ay oğlan, a bədbaxt, niyə gəlmisən sən bura? Bu div durdusa, səni parça-parça elijəh. Sən burda nə gəzirsən? Çıx getginən, yazıxsan». Deer: «Məə diginən görüm, onun canı hardadı?» Deer: «Odey, orda, putulkada». Devin canı şüşədə olur, eşitmiş olarsan bəlkə. Buların, deməli, canı bir göyərçin olur, o da şüşədə olur. O göyərçini öldürsə, bu ölur, yoxsa ölən şey döylü bu div. Siftə canının yerini öyrənir, onnan sonra xançalı çıxardır, soxur devin ayağına. Div çığırır qıza ki, görmürsən, milçək ayağımı dişdiyir. Bir dəfə, iki dəfə, üçüncüdə

məcbur olur möhkəm batırır. Durur ayağa, oğlanı görür, diir: «Hə, Allah tərəfinnən məə azuqə gəlifmiş, bilməmişəm», – diyəndə oğlan diir: «Hə, azuqəyəm, gəlmişəm». Bu oğlanı üfürür, havaya qaldırır. Qaldıranda oğlan putulkanı götürür, putulkanı əlinə götürür. Görür ki, putulkanı götürdü, əlacı kəsilir oğlanı salır yerə. Diir: «Putulkanı ver məə». Diir: «Yox, putulkanı səə vermijəm. Sən məə dağ çəhmisən. İndi məə sən söylə görüm bu qız kimdi, nəçidi, burda nə qayırır?» Diir: «Bu filan padşahın qızıdı, bunu götürüf qaçırmışam özümə ailə kimi, məə baxır». Diir: «Hə». Nəysə, bunu öldürür, göyərçini öldürür, div də ölür. Bunu iki şakqa eliyir qoyur bir tərəfə. Qız oğlanın bu hünərini görüb ürəklənir, diir: «Səə qurban olum, hələ bunnan bayana iki dənə bajım da burdadı. Oları da xilas eləginən, eliyə bilərsənsə».

Keçir görür, gənə adi qayda üzrə divdi uzanıf. Qız gözünün suyunu tökə-tökə bunun başını, gözünü tumarrıyır. Qıza diyir: «Buun canı hardadı?» Diir: «Odey, orda, taxçada». Canın yerini öyrənənnən sora başdıyır xançalı ayağına soxmağa. Oyanır nəhayət, baxır görür insandı da. Diir: «Hə, deməli, Allah tərəfinnən mənə yimək gəlifmiş, bilməmişəm». Üfürür bunu da qaldırır havaya. Havaya qaldıranda oğlan putulkanı götürür. Putulkanı götürəndə əlacı kəsilir. İndi bu bunu havaya qaldırır ki, soruf udsun. Əlacı kəsilir oğlanı salır yerə. Diir ki, putulkanı ver məə. Deyir: «Yox, putulkanı səə vermiyəjəm. Söylə görüm bu qız nəçidi, bunu hardan gətirmisən?» Deyir: «Filan padşahın qızıdı, gətirmişəm özümə qullux elətdirməyə». Nəsə, bunu da öldürür. Bu qız deyir ki, üçüncü otax da var hələ bizdən uyza. Üçüncü otaxda bizim bir bacımız var. Səə qurban olum, xilas eliyə bilirsənsə, onu da xilas elə. Gedir bunu da xilas eliyir, divləri öldürür. Qızlar bilir ki, divlər qutardı. Deyir: «Oğlan, indi ki bizi xilas eylədin, buların üçünün də xəznəsi var, heç bir padşahda belə bir xəzinə yoxdu. Padşahların xəzinəsini çapıb-talıyıb gətirib yığıblar bura, yerin altına». O üş dənə xəzinəni göstərirlər buna. Deyirlər ki, bular olsun sənin, bizə bir iynə də lazım döylü, bizi işıxlı dünyaya çıxart.

Bəli, yığır buları quyunun başına. Kiçik qıza baxır, deyir: «Hə, bu mənim». Böyük qıza baxır, deyir: «Bu böyük qardaşımın». Ortancıl qıza baxır, deyir: «Bu da bu qardaşımın». Bu qəlbində belə tutur. Kiçik qız biləndər olur. Oğlanın qəlbindən keçənlərin hamısını biləndən sonra yığılıllar kəndirin başına. Kiçik qardaş başdıyır kəndiri silkəliyir ki, bilsinnər. Çəkirlər qızı, çıxardıllar. Baxıb görürlər çıxanda qəşəng bir qızdı. Böyük qardaş deyir: «Hə, mən evləndim, bu mə-

nim aylәm». Ortancılın belinә bağlıyır, ortancıl da çıxır. Baxıb görürlәr bu da bunnan qәşәngdi. Ortancıl deyir: «Bu da mәnim, mәn dә evlәndim». Kiçik qıza nöybә çatanda qız deyir: «Oğlan, özün çıx, mәni özün çıxart». Deyir: «U nәyә görә?» Deyir: «Ona görә ki, qardaşdarın kәndiri kәsәjәk. Sәn öz qәlbinnәn ölçürsәn, sәnin qardaşdarın sәnә xayindi. Ona görә xayindi ki, sәn olardan çox biliklisәn, çox da ürәklisәn. O ürәkli olub bilikli olmağaa görә sәә xayinnik eliyirlәr. Bu bir. İkinci dә mәn bajılarımdan çox göyçәyәm, bunu özüm bilirәm. Mәni görsә, başı qarışajax mәnim üstümdә dava elәmәyә, sәn yaddan çıxajaxsan. Mәn dә sәni çıxardammıyajam, imkan vermijәklәr». Nә mümkün eliyir, deyir: «Heylә şey ola bilmәz. Sәnin söylәdiklәrinin hamısı söhbәtdәrdi. Mәnim qardaşdarım heylә qardaş döyül. Bağla kәndiri belәә». Bağlıyır, silkәliyir, deyir: «Çıx, sonra mәn çıxaram». Çıxır. Deyir: «Amma heylә bir şey olsa, mәnim kәndirimi kәssәlәr, burda qızıl olduğunu dimirsәn olara. Bajılaraa da tapşırırsan. Qorxma, mәnim kәndirimi kәssәlәr dә, mәn çıxajam burdan».

Nәysә, qız çıxır. Qız çıxan kimi, u deyir qız mәnimdi, bu deyir qız mәnimdi, başdıyr bular qızın üstündә dedişmәyә. Qız deyir: «Hansızın ollam, nәtәәr ollam, sizin işizdi. Qardaşızı çıxardın quyudan sonra». Oğlan da kәndiri bağlıyıb belinә, silkәliyә-silkәliyә qalıbdı, çәkәn yoxdu. Nәhayәt çәkirlәr. Yarıya qәdәr çәkmiş ortancıl deyir: «Qız mәnimdi». Böyük deyir ki, yox, qız özümündü, heç birizin döylü deyәn kimi ortancıl kәndiri vurur. Tәpәsi üstә gedir, yer yarılır, düşür aşağı – qarannıx dünyaya. Baxır görür işıxlı düzdü, amma buna işıx dimәk olmaz. Çöl havasının, demәk, sәhәrin toran vaxtı olan fasondadı işıx. Gәzir dolanır meşәni, çox ora-bura çırpır özünü. Gedir görür ki, bir yekә palıd ağacı var, palıd ağacının başında bir öy boyda yuva var. Bunun dibindә oturur dincәlmәyә. Oturur dincәlmәyә, bunu yuxu aparır. Demәli, palıd ağacının başındayı bu yuva, ev boyda olan yuva olur Zümrüd quşunun. Bu ildә orada balalıyır, bunun körpә-körpә balalarını ilan yiyir. Bu bezikir, gedir ki, bir dәyirman daşı tapım gәtirim bir üş-dört gün gözlüyüm, – balaları tәzә çıxıbmış, – gözlüyüm görüm mәnim düşmanım kimdisә daşı salım balalarımı yimәyә çıxmax istәyәndә tәpәsinә, öldürüm. Bir vaxtı ayılır sәsә-küyә, görür bular çığrışır. Quş balasıdı, çığrışır. Belә fikir verib baxanda görür adam yoğunda ilandı, dırmaşır ağzını açıb balaların yanına. Balalar unu görüb çığrışıllar. İlanı başınnan doğruya-doğruya doğruyub tökür yerә.

Yerdə öz köynəyini çıxardır, ilanın ətini yığır köynəyə, çıxardır qoyur yuvaya. Uzanır, gənə yuxu tutur bunu. Zümrüd quşu gəlir dərman daşı belində. Görür kakraz ağacın dibində nəsə bir qaraltı var. Daşı tullamax istəyəndə balaları çığrışır: «Ana, amandı ana, dəyməynən. Bizi düşmanımızdan xilas eliyib. Bizim düşmanımızı doğruyub gətirib yığıbdı yanımıza öz paltarında». Aparır dəyirman daşını bir kənara tulluyur, qayıdır gəlir. Gəlir baxır, görür ki, insan köynəyidi da. Köynəyi eşəliyir oyza-buyza, baxır görür insan yoğunnuxda bir dənə ilandı, doğruyub yığıb köynəyinə, çıxardıb qoyub bura. Allah tərəfindən quşa dil verilir. Quş dilə gəlir, deyir ki, indi sən söylə görüm kimsən, nəçisən, haralısan, burda nə gəzirsən, mənim balalarımı nə cür xilas elədin. Bu başına gələn əhvalatı söylüyür, deyir: «Belə divləri öldürdüm, üş dənə qızı xilas elədim. Kiçik qız məə belə dedi, mən onun sözünə baxmadım. Qızı qaldırdım, sonra özüm çıxmağa... qardaşdarım kəndiri kəsdi, yer yarıldı, indi düşmüşəm sizin ölkəəzə. İndi səndən bir dənə təmənnam budu ki, məni işıxlı dünyaya çıxarda bilsən, işıxlı dünyaya çıxart». Deer: «Ay oğlan, səni işıxlı dünyaya çıxarda bilə-rəm. Çıxardaram da. Amma güjün çatmaz ona». Deyir: «Nətəəri?» Deyir ki, mən səni ora çıxartmaxdan ötrü qırx dənə üç illik erkəyin cəmdəyi lazımdı, onların dərisini də qırx dənə tulux bağladarsan, qırx tulux da su, yol azuqəsi məə. Mən səni çıxardaram onda. Buna da güjün varmı? Deyir, yoxsa mümkün döylü. Nə deyirsən hazıram qulluğunda, ancax mən yol azuqəsiz hara gedə billəm. Bir günnük döylü, iki günnük döylü canıma cəfa basam gedəm». Oğlanın əlacı kəsilir, deyir ki, bu ölkəəzin padşahı nətəər adamdı. Deyir: «Ölkə-mizin padşahı həm əzazildi, həm də yaxşı adamdı. Yaxşı adamdı belə ki, qəribə hörməti olan adamdı». Deyir: «Onda gedərəm deyə-rəm, bəlkə məə kömək göstərdi».

Nəysə, axşamatan hərlənir, axşam gedir təhmini bir qapını döyür, tanımadığı qapını, nabələd adamdı. Bir qoja qarı çıxır: «Bala, sən kimsən, nə deersən?» Deer ki, ay ana, qəribəm, qalmağa yerim yoxdu. Bəlkə məə daldalanmağa bir yer verərsən? Deyir: «Buyur». Gəlir oturur oğlan. Yaxşı buna çay-çörək, ayan-bayan verir, yedizdi-rir, içizdirir. – «Bala, sən kimsən, haralısan, nəçisən?» Deyir ki, mən işıxlı dünyanın adamıyam. – «Bəs burda nə gəzirən?» Başına gələn əhvalatı söylüyür ki, bəs qardaşdarım məə belə xayinnik eliyib, kəndirimi kəsib salıblar bura. Deyir: «Hə». Nəysə, çox ixtilatdan sonra yıxılıb yatıllar. Səhər açılır, arvad deyir ki, bala, sən indi hara

gedəjən, nağarajan, unu deyəmmərəm, bizim ölkəmizdə su nöybəynəndi. Deyir: «Xala, nöybəynən nədi? Su niyə nöybəynəndi?» Deyir ki, bizim çayımızın boğazında bir əjdaha oturub. Gələn suyu udub aşağı su buraxmır. Mal nöybəsi kimi padşah nöybəyə qoyub adamı. Gündə bir adam, bir teşt aş gedir u əjdahaya. U adamnan u aşı yiyənə qədər nə qannı su gəlsə unu içirik. Unnan qeyri su görmürük. Nə də qoşun-zad ona tədbir çəkə bilmir. İndi bu gün padşahın aman-zaman bir dənə qızı var, nöybə padşahın özünündü. Onun qızı getməlidi. Ona görə bütün vilayət əhli u qızla görüşə getməlidi. Çünki axırıncı gündü. Padşahın da unnan savayı heş bir kəsi yoxdu. Odur ki, mən ora gedəjəm. İndi sən də istərsən evdə ot, istərsən getginən. Gedəjəksən sorğu-suala düşəjəksən. Dijəklər kimsən, nəçisən? İstəyirsən ot evdə. Deyir: «İrast ki, sorğu-suala düşəjəm, evdə otursam yaxşıdı». Arvad gedir. Arvad gedəndən sonra... Bu burda arvada sirr vermir, belə deyir ki, yəni kimsə məni xəbər almasın da. Bu özü tanıtdırdı ki, hə, bu nabələd adamdı. Arvad gedəndən sonra bu da gedir. Çayın qırağıynan gedir ki, görüm bu əjdaha nətəəri şeydi, harda oturur, bir çayın suyunu bir şey udsun bu nə deyən sözdü? Gedir baxır, görür ki, meşənin, dağın sıldırımınnan su gəlir, aşağıda da əjdaha ağzını diriyibdi, bir qram da su qoymur aşağı keçməyə. Bunu görür, ölçüsünü-biçisini götürəndən sonra qayıdır gəlir, oturur bunun yanına gedən yolun üstündə. Da getmir camaatın yanına. O vaxta qədər gözlüyür ki, baxır görür gözəl-göyçək bir qız başında bir teşt aş ağlıya-ağlıya gəlir. Gəlib qız bunun bərabərinə çatıb keçmək istəyəndə irəli çıxır yolun üstünə. Deyir: «Ay qız, dayan». Dayanır. Deyir: «Söylə görüm niyə ağlıyırsan, nolubdu?» Deyir: «Səndən ki mənə çarə olmujaxdı, niirsən?» Çox deyir, əl çəkmir oğlan. Deyir: «Di da görək nolub səə, niyə ağlıyırsan, hara gedirsən belə, bu teşt nədi?» Deyir: «Bu teşt aşdı». – «Bunu hara aparırsan?» Deyir: «Aparıram, əjdaha bunu da yiyəjək, məni də yiyəjək, ona qədər camaata su verəjəkdi, qannı su». Deyir: «U teşti qoy yerə, ajam, mən də yiyəjəm o aşdan». Deyir: «Yox, heylə şey olarmı? U teşt yarımçıx olsa məni bir də dala qaytarar». Deyir: «Aaz, aşağı qoy aşı, aş yiyəjəm». Nəysə, qızın başınnan teşti alır, qoyur yerə. Deyir: «Otur aşağı. Çörək yimisən?» Deyir: «Heş üş gündü, dörd gündü mən çörək yimirəm. Mənim boğazımdan çörək keçmir». Deyir: «Onda otur ürəkli çörək yi. Doyunca bu aşdan yiyək, o əjdahanı mən öldürəjəm, qorxma». Deyir: «Sən nə danışırsan, dədəmin yüz

minnərlə qoşunu var, qoşun çəkib onun üstünə, heş nə eliyəmmiyib. Sən unu öldürəssən?» Deyir: «Əjdahanı mən öldürəjəm da. Səə dedim ki, mən öldürəjəm, ot doyunca... Bu şərtnən ki, sən mənnən axıra qədər çörək yijəksən. Yiməsən, getmijəm, öldürmüjəm». Qızın əlacı kəsilir, təəbi kəsər-kəsməz oturur oğlannan aşdan yiməyə. Amma zənən gözüdü, müştəri gözüynən oğlana baxır, görür oğlan ayrı oğlandı. Misli-bərabəri yoxdu. Yiyirlər qutarıllar, oğlan deyir: «İndi sən bir iş elə». – «Nə iş?» Deyir: «Sən göz-qulax ol, nə hərəkət elədiyimi axıra qədər nəzərdən qaçırma. Tam mən işimi görüb qutarannan sonra sən unda gedə bilərsən». Deyir: «Yaxşı». Qız baxır ki, oğlan dinməz-söyləməz getdi, əjdahanın quyrux tərəfindən başdadı üstünə çıxıb üstüynən getməyə baş tərəfinə doğru. Gedir, baş tərəfinə çatanda qılıncı çıxardır, əjdahanın kürəyindən soxur qılıncı, kürəyini yarır, girir içinə. İçinə girir oğlan, yox olur. Qız deyir: «Hə, bunu da uddu, mən də aşı belə elədim, mən nağarım?» Bir vaxtı fikir verir, baxır görür ki, əjdaha çörükdü arxası üstə. Əjdaha arxası üstə çörükdü, su da başdadı getməyə. Girir əjdahanın içinə, içəridə ürəyini kəsir əjdahanın. Ürəyini kəsir, doğruyur, əjdaha ölür. Oğlan nəysə, bir qədər çətinniknən bu səfər qarnını yarır çıxır. Qız baxır ki, oğlan əjdahanın qarnının üstündədi. Özünü toxuyur suya. Əjdahanın qanına əlini buluyur, möhkəm oğlanın hər iki çiyninə arxadan əllərini çırpır ki, irizi düşsün. Oğlana deyir ki, səndən xayiş eliyirəm, mən sözümü sübut eləməkdən ötrü bu qan sənin bədənindən getməsin. Yoxsa mən sənin əjdahanı öldürməyii sübut eliyəmmiyəjəm, nə də özümü, məsəl, xilas eliyə bilmiyəjəm atamın əlindən. Deyir: «Yaxşı».

Bəli, qız bu sözü deyib götürülür. Baxır camaat ki, budu, padşahın qızı gəlir. Teşt yoxdu, qız gəlir. Çığrışıllar ki, hara gəlirsən? Deyir: «Muştuluğumu verin, daa suyunuz əbədi gəlir». Muştuluxçu muştulux dalıynan yüyürür padahın yanına ki, bəs qızın deyir su əbədi gəlir. Əjdahanı bir oğlan öldürdü. Bəli, millət yüyürür çayın qırağına, görür nə? Su daşa-daşa gəlir. Padşah deyir: «Oğlanı tapın». Oğlan qaçır gizlənir meşədə. Qaçır gizlənir meşədə, camaatı tökür, qoşunu tökür: – «Oğlanı tapın». Oğlanı tapa bilmirlər. Axşam olur. Axşam olur, oğlan pünhan gəlir qarışır camaata. Baxır görür ki, padşah tapşırıx verir, oğlan tapılmalıdı. Əyər oğlan tapılmasa, özüzdən küsün. Sizin hamızı qırdırajam. Bəli, bu söhbəti eşidir. Qızına deyir ki, indi sənin bir əsasın varmı, bir yerində, bədənində bir işarə görmüsənmi tanıyasan? Deyir ki, işarə var. Deyir: «Nədi?»

Deyir: «Tapılanda dijəm». Dimir. Deyir: «Səhər nəhqədər mənim ölkəmdə millət varsa, beşikdəyi uşağa qədər gətirirsiz, filan qapıdan bir-bir keçirlər içəri». Yoxlanılır hamısının bədəni. Qızına da bir dənə alma verir, deyir: «Ala, bu almanı tutub sən də durursan u yoxluyannarın yanında. U oğlanı görəndə u almanı kimə versən, biləjəm o adamdı». Bütün hamı yoxlanılır, oğlan çıxmır üzə. Elan eliyir ki, kimin evində qonax var. Bu qarı irəli çıxır, deyir ki, padşah sağ olsun, üş gündü mənim evimdə bir cavan oğlan qonaxdı. – «Bəs hanı oğlan?» Deer ki, vallah, gejə gəlir yatır, sabannarı – qoja adamam – mən durunca görürəm yoxdu. Nəhayət, camaat hamısı keçəndən sonra oğlan gəlir özünü çatdırır. Oğlan qapıdan girəndə qız almanı verir oğlana. Padşah ordan çığırır: «Sübutun». Sübutun deyən kimi oğlanın köynəyini qaldırır yuxarı, deyir: «Ata, buyurub baxa bilərsən. Sübutum mənim qannı əllərimin izi». Baxıb görürlər ki, oğlanın arxasında hər cınağında qızın əlinin izi var, qannı izi düşüb. Bəli, oğlanı çox böyük təntənəynən padşah apartdırır öz imarətinə. Yaxşı oğlana yimək-işmək, qullux, qastum-zad geydirmək, nağarmax. Padşah deyir: «Bala, bilirsən nə var?» Deyir: «Xeyr». Deer: «Mənim aman-zaman bir dənə evladım var, u da qız evladım. U qız həddi-buluğa gəlib çatanda özüm öz qəlbimdə belə qərara gəlmişəm ki, bu qızı kimə versəm, padşahlığı da ona verəjəm, tacı-taxtımı. İndi qismət sənindi. Səə sabahdan toy elijəm, qızımı da verəjəm səə, padşahlığımı da». Deyir: «Padah sağ olsun, sənin mənə qızın lazım döylü, nə də padşahlığın lazım döylü. Hamısı özəə qismət olsun. Səndən mənim bir dənə təmənnam var, məni təmənnama çatdır». – «Hələ səə bu boyda qız verirəm, bu boyda səə vəzifə verirəm, onnan ölkəni səə verirəm. Sən nə danışırsan?» Deyir: «Heç nə lazım döylü. Mən işıxlı dünyanın adamıyam, burda yaşıya bilmərəm. Məə işıxlı dünyaya çıxmağa köməklik elə». Deyir: «A bala, mən səə nə cür köməklik eliyə bilərəm. İşıxlı dünya bizdən iki qat yuxardadı. Ora da insan çıxıb gedib gələsi yol döylü, iriz döylü. Mən səə heç cürə köməklik eliyə bilmərəm». Deyir: «Sənin məə bir dənə köməyin lazım, iki dənə yox». Deyir: «Nədi?» Deyir ki, məə üç illik qırx dənə erkək qoyun lazımdı. Amma oların da dəriləri gərək elə soyulsun ki, qılçalarınnan, boğazlarınnan kəsilən yerlər bağlansın, olar suynan doldurulsun. Qırx tulux su lazımdı məə, qırx dənə də erkək cəmdəyi. Məə hörmətin varsa, bunu eylə. Qeyri heş nəyi istəmirəm. Padşahın əlacı kəsilir, əmr eliyir, deyir ki, qırx dənə üç illik erkək

kəsin. Qırx dənə üç illik erkək kəsilir, qırx tulux su hazır olur. Oğlana deyirlər: «İndi bu hara gedəjək, nətəər olajax?» Deer ki, yığın, mən düşəjəm qabağa, hara lazımsa gedəjəm. Yığıllar aparıllar. Zümrüd quşu deyir: «Dəəsən tapmısan?» Deyir: «Tapmışam». Əti də yığır, suyu da yığır. Oğlan da oturur tən ortada. Deyir ki, oğlan, indi bilirsən nə qayırassan? Deyir: «Yox». Deyir: «Mən qa eliyəndə bir cəmdək ət ver, qu eliyəndə bir tulux su. Vəssalam, səən vəzifən bu. Eliyə bilərsənmi?» Deyir: «Eliyərəm». Bəli, bir günnük yol qalanda bir dənə də cəmdək qalıbdı, cəmdək düşür əlindən. Əlacı kəsilir, xançalı çıxardır öz qılçasının balıx ətini kəsir, verir Zümrüd quşunun ağzına. Zümrüd quşu ət dilinə dəyən kimi görür ki, bu insan ətidi, şirindi. Daa su da istəmir. Bunu çıxardır işıxlı dünyaya. Düşürdür belindən, deyir: «İndi oğlan, sən get, sonra mən gedərəm». Deyir: «Yox, siftə sən getginən, sonra mən getdəjəm». Çox əlləşir quş bunnan, görür oğlan getmək istəmir. Yeriyəmmir axı, qılçasını doğruyubdu. Deyir: «Oğlan, qılçaa çirmələ». Çirməliyir, çıxardır ağzınnan əti, qoyur yerinə yerbəyerində. Tüpürcəyindən çəkir üstündən, qılça sağalır. İki dənə tük çıxardır bədənindən, verir buna. Deyir: «Mən özüm daa gələ bilmirəm, mənim bura gəlməyə qüvvəm çatmaz. Nə murazın olsa, bu tükü tükə vurarsan Allah tərəfindən gələjək». Deyir: «Yaxşı». Nəysə, bular ayrılırlar, oğlan gedir evləri Şəmsabaddadırsa, gəlir Xosro kəndində məskən salır. Bir padşahın evinə gedir, deyir ki, mən yiyəsiz adamam, vəzifəm də çobandı. Məə bir qarın çörəyə qoyunnan, quzudan nəyin var, ver güdüm. Padşah deyir: «Məə lazımdı bir dənə, intaası məhlədə-bajada əl buyruğuna lazımdı. Məhlədə-bajada ol, kim hara buyursa, get o işi gör». Deyir: «Yaxşı». Bu minvalla burada qalır. Başdıyır bu əl altınnan öyrənməyə ki, Ovçu Pirimin evladları var idi, oları tanıyırsızmı? Deyirlər: «Tanıyırıx». Deyir: «Bəs olar durvalmu?» Deyirlər ki, sən oları hardan tanıyırsan? Deyir: «Mən tanımıram, atam söhbət eləmişdi ki, filan kənddə belə bir Ovçu Pirim var, onun üç oğlu var. Hə, atamdan eşitmişəm. Ona görə ağlıma gəldi, xəbər aldım». Deyirlər: «Hə, durur. Olar üş qardaş idi. Bir qardaşdarı meşədə itibdi. O iki qardaş üş dənə qız gətiribdi. Kiçik qızın üstündə bir-birini dedirlər, evlənə bilmirlər. Bir-birinin qorxusunnan evlənə bilmirlər. İndi qərara gəliblər ayın, məsəl, iyirmisi böyük qardaşa toydu». Buna da bu lazımdı. Deyir: «Hə, yaxşı vaxtı gəlmişəm». Bəli, ayın iyirmisi çatanda baxır ki, padşaha məktub gəldi. Padşahın arvadı dedi ki, səə məktub gəlibdi. – «Hardan?» – «Şəmsa

kəndindən». – «Kimdi?» Deyir: «Bəs Ovçu Pirimin oğlu göndəribdi, özünə toy eliyir. Bizi toya dəvət eliyir». Deyir: «Hə, lap yaxşı». Bəli, bunu eşidir oğlan, padşaha deyir ki, padşah sağ olsun, nolar, mən də cavanam, ömrümdə toya-zada getməmişəm. İcazə versən, mən də gedərdim toya. Deyir: «A bala, ora qor-qodux, nökər yeri döyül o toy. Səən mən gedən yerdə işin yoxdu. Yetimsən, yetim yerində quyrul qal». Deyir: «Yaxşı, nə deyirəm». Padşah, axşam olur, hazırlanır, atını minir, gedir toya. Oğlan birdən yadına düşür ki, ə, bu quş bəs məə belə bir şey veribdi. Bunu bir yoxluyajam görüm. Bu tükləri götürür, keçir padşahın bağına, tükü tükə vurur, deyir ki, Allah tərəfindən bir at istəyirəm, bir dəst paltar, bir dənə yarax. Baxır görür ki, bir dənə kəhər at gəldi yəhərli-yüyənli, üstündə də paltar. Paltarı geyinir, yarağı götürür, onnan sonra düzəlir yolun ağına. Toyun o vaxtına qədər ki, kənarda durub, uje bəy tərifi çatıb. Bəy tərifi çatanda bəy ortalığa gələndə atdı-zaddı girir məclisin içinə yaraxlı-yasaxlı. Deyir ki, aşıxlara, məə bir dənə hava çalın. Deyir: «Ay oğlan, havanı çalax, atın belində oynuyajaxsan?» Deyir: «Hə». Havanı çalıllar, bir qədər atın üstündə oynuyannan sonra qılıncı sıyrır, fırlanır qardaşı tərəfdən, qardaşının boynunu vurur, çıxır aradan. Camaat tökülür, görür yoxdu. Düşür kolun dibində tükü tükə vurur, at da gedir, paltar da. Meşəynən qaça-qaça gəlir, gəlir girir yerinə. Gejənin bir vaxtı görür padşahı palazın arasında gətirirlər. Padşahı da o ki var döyür məclistə. Ağlaşma, şivən. – «Səni kim zad eliyib?» Deyir: «Bir kopoğlu girdi məclisə, bir kəsnən də işi olmadı. Məni döydü, məni döyəndən sonra getdi yazıx, yetim oğlanın boynuun vurdu, çıxdı getdi». Deyir: «Hə».

Nəysə, bir qədər gözlüyür, aradan fasilə keçir. Anası deyir ki, bu ortancıla, a bala, bu qızların birini, heç olmasa, sən ad eylə, sən öylən. Deyir: «Buların üçünü də ad elijəm, birini yox». Bəli, gənə padşaha namə gəlir ki, yerdə qalan yetimə toy eliyirlər. Bunu oğlan eşidir, gənə padşaha deyir ki, nolar, icazə ver mən də gedim. Deyir: «Yox, səən orda işin yoxdu, nökərsən, nökər yerində quyrul qal». Deyir: «Lap yaxşı». Toy məqamı çatır, padşah toya gedir. Padşahın bağının bir daldasında durur. Tükü tükə vurur, Allahdan at, silah təmənna eliyir. Buna at, silah gəlir. Geyinir-gejinir, gedir, o vaxda qədər gözlüyür ki, bəy ortalığa gələndə girir məclisə, deyir: «Məə də bir hava çalın, mən də oynujam». Deyəndə bu padşahlar, vəzir-vəkillər deyir: «Ə, bunun o biri qardaşının da toyunda belə bir oğlan gəlmişdi. Bu kopoğlu da sonra xatakar olar, buna xata eliyər». Bu

evində olduğu padşah durur çıxır məclisdən, qaçır. O biri padşah ona baxır qaçır. Nəysə, baş qarışır, qaça-qaç düşür. Oğlanın başını kəsir, çıxır aradan. Padşah deyir: «Sizə dedimmi. Bəlkə də burda dursam, mənnən də işi olacaqdı». Nəysə, gəlir tükü tükə vurur, at gedir, silah gedir. Gəlir girir yerinə, yıxılır yatır. Səhər açılır, padşahdan xəbər alır: «Padşah sağ olsun, yaxşı oldu toy?» Deyir ki, Allah nəhlət eləsin pisə. İki qardaş toy elədi, ikisinin də başını bir nəfər kəsdi, çıxdı getdi. Deyir: «Padşah, o bir nəfər mənəm. Səni də döyən mən idim». – «Diməli, mənim çörəyimi yeyib məni döyurdün?» Deyir: «Da səndən xayiş elədim, cavanam, qoy mən də gedim toya, irava bilmədin. Mən də cavannığıma sığışdırammadım məə heylə diməyi». Deyir: «Yaxşı məni döydün cəhənnəmə, qardaşdarının başını niyə kəsdin?» Başdıyır padşaha nağıl eliyir bu başına gələn əhvalatı. Hamısını danışannan sonra padşah deyir ki, hə, haxlısan. Elə mənim özümə də haxlı eləmisən. Səən hər bir günahınnan keçirəm. İndi sən get ananın yanına, anan yazıxdı. Deyir: «Onsuz da anamın yanına gedəjəm». Gəlir, anasına da əvalatın hamısı nejə olur söylüyür. Deyir: «Ana, hindi mən özümə toy eliyəjəm». Deyir: «Ay bala, dadi-püssat yoxdu sən özə toy eləmək üçün». Deyir: «Məə heş nə lazım döylü». Gəlir bu evində olduğu padşahın yanına. Deyir ki, sən ki mənim günahımdan keşdin, səni döyməyimə görə məə cəza vermədin, mən də indi gəlmişəm səə bir oğullux eləməyə. – «Bala, nə oğullux?» Deyir: «Padşah sağ olsun, mənim üş dənə xəzinəm var, araba ver, daşqa ver, adam ver u xəzinəni yığıb gətirim, birini səə bağışdıyajam. Onun bir dənəsində olan qızıl sənin illik ümməniyyəndən də artıxdı». Padşahın gözü çıxır kəlləsinə ki, ə, bu nədi, bu nə danışır. Bəli, verir at, araba, oyan-bayan, adam verir. Gedirlər, bu divlərin xəzinəsini özü üçün yığdırır, biriin də padşah üçün. Birinci padşahınkını verir, ikinci özünkünü gətirir. Gəlir, yaxşı şadlığa, qəşəng bir toy eliyir. Elə bir toy eliyir ki, misli görünməmiş. Onnan sonrasına qızların üçünü də özünə nikah eliyir. Hər qızın yaşayışı üçün böyük-böyük imarətdər tikdirir ayrı. Bəli. Kef-kefiyyətnən başdıyır bu oğlan yaşamağa, kefi kök, damağı çağ. Padşahlarnan başdıyır gəzməyə, da bir cür adamlarnan yox. Harda nə məsləhət olurmuşsa, padşahların nə işi olurmuşsa, bu oğlanı çağırırmışdar ki, məsləhət ver bizə. Okqədər Allah-tala ağıldan-kamaldan ona verir. Belə kefi kök başdıyır dolanmağa.

## GÜLQAHQAHIN NAĞILI

Nağıla çox həris Əhməd kişi vardı, indi rəhmətə gedib, əksəriyyət nağılları ondan öyrənmişəm mən birinci-ikinci sinifdə olanda. Hər axşam gəlirdi bizə, atalığımın əmisi oğlu idi. Hər axşam cijim ona bir qazan xaşıl bişirirdi nağıl söylətməkdən ötrü. Sən indi deyirsən nağıl söylüyüm, hə? Bir dənə nağıl söylüyüm, gənə diyirəm, əliboş olmasın.

Deyir iki padşah olur, birinin qızı olur, birinin oğlu olur. İkisi də qardaşdılar da. Deyillər elə bu övladlarımızı beşihdəykən göbəkkəsmə eliyək. Keşmişdə göbəkkəsmə deyillərdi. Körpə ikən ad eliyillərdi bir-birinə. Diyir: «Yaxşı». Gəlir elə olur ki, bu qardaşdarın biri varsız olur. Padşahlıxdan düşür, varını-dövlətini itirir, düşür qüvvədən. Biri padşah olur, həmən qüvvəsində qalır bu qızın atası. Oğlan baxır ki, bunnan nəyisə gizdədillər. Nəysə, çox minnət eliyənnən sora diyir ki, oğul, əmin qızı səə göbəkkəsmə idi. Atan ha belə vəzifədən düşdü, kasıflaşdı, indi qızı səə verməh isdəmir. Ona görə də atan səni başqa adamın qızı ilə o qız köçənə qədər, kişiyə gedənə qədər öyləndirməyə can atmır. Səən evlənməməyinin səbəbi budu. Diyir: «Yaxşı». Durur ayağa, düzəlir yolun ağına. Deməli, buların ikisinin arasında böyük bir dağ varmış. Bu dağda da Baxtiyar addı bir cavan oğlan, çobandı, qoyun güdür neçə illərdi. Çoban baxır ki, bir cavan oğlan atdı gedir, amma ömründə u tərəflərə insan gəldiyini görmüyüf. Bu, birinci işdi. Diir: «Gedəjəm bunun dalıynan, görüm bu hara gedir». O vaxda qədər bunu izdiyir ki, deməli, axşam tərəfidi, qız qədeyi-qüdrət bulax başında olur. Bir neçə qıznan bulax başında olur. Oğlan gedir çatır, düşür atdan. İcazə istiyir ki, icazə versəz sudan içərəm. Qız tanıyır əmisi oğlunu. Büruzə vermir qızdarın yanında ki, mənim əmim oğludu, göbəkkəsməmdi. Hə. Bu su içir, əl-üzünü yuyur, qırağa çəkilir. Qız qızdara işarə eliyir ki, qul-qaravaşdara ki, siz bir az aralanın, bu oğlana bir kəlmə diyəjəm. Da gənə də bildirmir, üstü örtülü. Qul-qaravaş bunnan aralanır. Diir: «Əmioğlu, xeyir ola, sən ömründə bu tərəfə gələn döyülsən?» Diir: «Belə bir əhvalat eşitmişəm. Gəlmişəm sənnən xəbər almağa ki, ilqarı üsdündə durmusan, yoxsa atan didiyini diyirsən?» Diyir: «Əmioğlu, o nə söhbət? Atam yüz söz disin. İrast ki, dilinnən çıxıf atamın, anamın, mən də səni gözdəmişəm indiyədək. Hansı dəqiqə desən, mən hazıram». Diir: «Onda gözdüyəjəm. Məsəl, axşam saat on ikidə, bir at yəhərriyir, yüyənniyir, minirsən, səni götürüf gedəjəm». Diir: «Oldu».

Çoban da qulax asır, xəlvətdə gizdənir, buların bu söhbətinə. Çoban da çox yaraşıxlı, çox gözəl bir oğlan olur. Qulax asır, bəli, bular bu söhbəti tamamladımı, hə. Bildi ki, saat on ikidə bu qız gələjək, bu oğlan da götürüf qaçajax. Diir: «Onda sən aralan, meşədə-zadda durginən, buralarda səni görüf duyux düşən olmasın», – əmisi oğluna.

Əmisi oğlu çıxır gedir bir başqa meşəyə, gözdüyür ki, saat on iki olsun. Çoban da qoyunu gətirir, salır eləyir. Çoban adamdı, nə bilir saat nə diyən sözdü. Bu gözüün açıf görüf günbatannan gündoğanın arasında qoyun güdməyi. Bir qədər gözdüyür, görür qarannıxladı, diyir: «Əşi, hərhal o didiyi vaxt olar da. Gedəjəm, o oğlannan qabağa gedəjəm ora». Gedir, gedir, padşahın qapısını tıqqıldadır, bu qarabaşdar qıza diir ki, az, elə bil bayaxkı oğlandı, səni çağırır. Qız durur ayağa, diyir: «Balam, bu əmimoğlu nə tez darıxdı, heç hələ saat doqquz, on yoxdu. On ikiyə danışmışdıx». Qızdara deyir ki, durun gedin, yaxşı iki dənə at yəhərriyin, ikisini də qızılnan yüklüyün, gətirin qapının ağzına mən paltarımı dəyişincə. Bəli. Gedir qul-qarabaşdar xəlvəti xəzinəni açır, atdarı yəhərriyif-yüyənniyif iki at yükü qızılı yığıf onnarın belinə. Qıza xəbər eliyir ki, hazırdı atdar. Qız gəlir, atın birini minir, birini də yedəyinə alır ki, əmisi oğluna versin. Qız bunun tərəfə gəldikcə çoban bir az öydən aralanır, qız gəldikcə çoban bir az aralanır. Nəhayət, qız səsini çıxardır, diir: «Ay oğlan, dayan da, hara gedirsən? Dayan, atı min, gedəh».

Atı qız muna verəndə görür əmisi oğlu döyül. Amma elə bir oğlandı ki, elə bil məə ki, meşəyə işıx salıbdı. Diir: «Deməli, Allahtalanın yazısı yoxdu mənim əmim oğluna. Allaha pənah, gedəjəm bunnan». Oğlan atı minir, düşür qabağa, gethaget, gethaget, gethaget, nəysə, öz qoyun güddüyü padşahın vilayətinnən addıyır başqa bir padşahın vilayətinə. Sabah uje baxıb görüllər ki, böyüh bir çəmənnih sahə var. Bir hektar, iki hektar yerdi, çəmənnihdi, heş nə yoxdu burda, tikinti-zad. Qız diir ki, saxla atı. Saxlıyır. Diir: «Elə bax burda düşəh». Düşüllər bura. Qız bilir, padşah qızı bilir ki, olmaz qanunsuz qeyri-padşahın yerinə düşməh. Oğlan nə bilir, çoban şeydi, nədən xəbəri var. Düşüllər bura, səhər açılır. Səhər açılanda qız diir ki, bilirsən nə var? Diir: «Yox». Diir: «Gedirsən şəhərə, car çəkirsən ki, məə qırx dənə usda lazımdı. Qırx dənə usda homalıyırsan, şərt kəsirsən ki, qırx dənə usda qırx gün məə qırx göz öy tikəjək». Məə belə usda lazımdı. Hindi kimdi usda gəlsin. Birə iki qat da hakqını alajax.

Bəli. Gedir şəhərə, car çəkir, yüzədək usda yığıldı bunun başına. Yığıf qutarır, diir: «A qardaş, indi bilirsiz nə var?» Diyillər: «Xeyr». Diir: «Məə qırx dənə usda lazımdı, qırx gün hər birisi bir göz öyü həll eliyif, tamamlıyıf, məə verə bilsin. Məə belə usda lazımdı. Birə iki qat da hakqını alajax». Buların hamısı dağılır gedir, iyirmi-otuz nəfər qalır. Nəsə, bir-bir, iki-bir döşünə döyənnər yığılır, qırx nəfər düzəlir. Usdaları qapıya gətirir. Qız diir: «Tərpən get bazara, iki fayton yeməh-içməh al, götür gəl». Qızıl bunda, pul bunda. Gedir, bəli, iki fayton yeməh-işməh, ayan-bayan alır gətirir. Diir: «İndi get, bir iyirmi dənə də erkəh al gətir». İyirmi dənə də erkəh alır, başdıyır usdalara qullux eləməyə. Usdalar başdıyır bulara öy tikməyə. Bir nəfərə pul verir, diyir: «Get padşahın öyü nə çertiyojdadı, onun çertiyojunu məə gətir». Gedir bu da, – gözünə döndüyüm puldu da verilif, – çəkir çertiyoju, gətirir verir. Padşahın evinin çertyojunda ev tikdirir. Nəysə. Tam evlər hazır olub, bular yaşayışa başlıyan vaxdı birdən padşah duyux düşür. Vəzir, vəkil gəlir ki, bəs sənin karvan qoruğunda bir nəfər gəlif, eyni sənin imarətin ölçüsündə, biçisində, fiqurasında imarət tihdirif. Baş vəzirə diyir: «Ə, dur get, gör bu nə əhvalatdı?»

Baş vəzir də çox şorgöz adam olur. Durur gedir, çoban öydə olmur, qız çıxır çağıranın qarşısına. Baxır ki, bir kişidi. Vəzir qızı görən kimi ürəyi gedir yıxılır. Səhər tezdən... Vəzirə də vaxt verif ki, on dəyqəyə məə xəbər çatdır. Axşamatan bu ürək getməynən vəzir qalır burda. Bir kəsin xəbəri olmur. Bu da nabələd zənən xeylağı, dimijəhdi ki, burda kimsə ölüb. Nəhayət, xəbər düşüb, padşah deyir: «Görün nijoldu bu zalım oğlu? Hara getdi, ilim-ilim itdi? Səhər tezdən gedən adam axşamdı gəlmiyif». Gedillər görüllər ki, xalxın darvazasının ağzında yıxılıf qalıfdı. Götürüf gəlillər, ayıldıllar bunu. Padşah diyir: «Ədə, bunu çəkin boynuun vurun, bunnan mənə vəzir olmaz». Diyir: «Padşah sağ olsun, bir cəllad macalı ver». Diir: «Buyur». Deyir ki, mən getdim gəldim, sən getsən gələmməzsən. – «Niyə?» Diyir: «Heylə. Orda bir gözəl var, özümdən asılı olmuyarax gördüm, ürəyim gedif, bilməmişəm». Diyir: «Yaxşı. Adə, onda yeməh-işməh təşkil eliyin». Nökərə diyir: «Get dinən ki, axşama padşah sizi qonax çağırır». Gedillər. Padşah burda əlhayda olmaxda olsun, Baxtiyar çoban gəlir öyə. Qız diir ki, Baxtiyar. Diir: «Hə». Diir: «Bizi axşam padşah qonax çağırıf». Diir: «Bu nə qonaxlıxdı, nə münasibətnəndi?» Diir: «Sora deyəjəm, darıxma, tələsmə, hövsələn olsun. Hamma gedəndə mən haraynan ayağımı qoyub getsəm, məən arxamnan gəlirsən. Oyzə-buyzə ayağıı qoymursan. Pad-

şah çöl qapının ağzınnan ev qapısına qədər qırx arşın quyu qazdırıfdı. Tamam seyvanın ağzınadək. Üsdünə də xalça-gəvə döşüyüfdü ki, səni quyuya salsınnar».

Bəli. Gedillər, qız haraynan gedirsə, bu da gedir. Baxıllar, quyudan keşdi, quyudan hasil olmadı heş nə. Padşah him eliyif poverə ki, gedənin aşına zəhər çırpsınnar. Pover bu hak-hesabda... Him eliyir gedəyə. Barmağında üzüyü olur, çıxardır, diyir: «Barmağaa tax, xörəh gələndə xörəyi möhkəm əlinnən qarışdır, onnan sora yi». «Noluf?» Diif: «Heş nə. Sən mən diyəni elə». Xörəh gəlir, yiyillər, eliyillər. Padşah duruf gəlir, indi xörəh yiyilifdi, söhbət eləməyə, guya qızı görməyə. Hələ görmüyüf qızı. Gəlif, bular qonaxlar olan evə gələndə qız ayağa durur, zənən xeylağıdı ki, bu içəri girif, padşahdı. Padşah guldurumgup gedif. Hamı diyir: «Ay aman, ay dad, buna nə oldu?» Qız bilir, heş kim bilmir. Bu Baxtiyar çoban da pərt olur ki, buna nə oldu? Pıçhapıç düşür ki, yoxsa zəhər qatılan aşı padşaha vermisiz bilmiyif? Qız deyir ki, biz gedirih, narahat olmuyun, bir-iki saatdan sora durajax ayağa. Heş bir şey olmuyuf, qorxmuyun. Çıxıf gəlillər. Gəlillər, Baxtiyar çoban diyir: «Sən bilən o kişiyə noldu?» Deyir: «A bədbaxt oğlu, onun vəziri səhər gəldi, axşam apardılar faytona qoydular, özü də genə həmçinin məni görüf ürəyi getdi. Məə gözü düşüfdü, qonaxlıx da o münasibətlədi. İsdiyir ki, səni öldürsün, məni alsın. Üş günnən də artıx biz bir padşahın vilayətində yaşamalı döyülük. Bu da məən eşqimə səə akazıvayetsa ona görə dillənmiyif». Diif: «Hə, gəlsənə burdan köçüf gedəh. Mənim burda başımı ağrıdajaxlar, öldürəjəhlər məni». Diir: «Qorxma, onların axırına mən çıxajam».

Bəli. Bular gəlir. Padşah nəhayət gejə yarı ayılır. Vəzir, vəkil oturuf gözdüyür da, nə hünəri var getsin. Deyir ki, nijoldu qonaxlar? Diyillər ki, getdi. Diyir: «Hə, tökdü tökün görəh nətər eliyirsiz bu adamı məən başımdan irədd eliyirsiz?» Hərə bir söz deyir, beyninə batmır. Baş vəziri çox əzazil kopoğluymuş. Söz çatır muna, diir: «Baş vəzir, gözüm yenə səni görür, bir tədbir». Diir: «Padşah sağ olsun, birincidə, ikincidə heş bir şey eləməh olmaz. Birinci, ikinci gərəh sınaşıx olsun, üçüncü ölüm ayağı». Diir: «Yaxşı, nə bilirsən, onu di». Deer ki, səhər onu çağır, dinən ki, get Qiyamət dağınnan məə ətir çiçəyi var, o çiçəhdən gətir, həkim dəyirman buyuruf. Qiyamət dağına da heş bir kəs gedif dala qayıtmıyıf. Kopoğlu ora nətər gedəjəh, nətər də dala qayıdajax. Qayıdarsa, hasatdı. Diir: «Yaxşı». Bu da öz evlərində oturub qıznan. Deer: «Baxtiyar çoban, səən tökdüyü tökdülər». Diir: «Nətər?» Diir: «Səhər səni Qiyamət

dağına göndərəjəhlər çiçək gətirməyə, yox kəlməsi dilinnən çıxmasın. Dinən baş üsdə, gedərəm də, gətirrəm də. Qırx dənə qoyun, qırx tay qənd, qırx gün də möhlət verərsən, gedif gətirrəm».

Gəlir çağırıllar bunu, gedir səhər açılan kimi. Padşah deyir ki, bəs həkim məə belə bir dəyirman buyurub, Qiyamət dağındadı o çiçək, gərəh unu gedib məə gətirəsən. Deyir: «Padşah sağ olsun, gedib gətirərəm, qırx dənə yaxşı say-seşmə erkəh, qırx tay qənd, qırx gün də möhlət». Diir: «Ə, vəzir, bu nə danışır?» Diir: «Padşah sağ olsun, yəqin ki, belə şeylər lazımdı da o yola». Sora qulağına xısıldıyır, diyir: «Nolub, ə, nə zada düşmüsən, bu nə danışır? Qırx dənə erkəyi bu zalım oğlu yimijəh, yenə sənindi da. Nə diyir ver, getsin». Diir: «Yaxşı». Qırx dənə erkəh ayırtdırır sürüdən, qırx tay da qəndiçayı yığır zada, göndərir bunun evinə. Qırx gün də möhlət. Gənə də bu başdıyır ayləsinə yalvarmağa ki, gəl burdan çıxax gedəh, məə lazım döylü belə həyat. Gedəh başqa yerə. Diir: «Yox, işində ol». Diir: «Bəs indi mən qırx gün düzlərdə gedif gəzəjəm?» Diib: «Xeyr, vaxdı çatanda mən diyəjəm». Otuz yeddi gün tamam olur. Axşam tərəfi diyir ki, Baxtiyar, bilirsən nə var? Diir: «Yox». Diir: «Səni göyərçin eliyif uçurdajam, gedif düşəjəhsən u dağa, düz u çiçəyin üsdünə. Bir dəsdə u çiçəhdən dərərsən, qılçaa bağlıyarsan, gənə göyərçin elijəm, uçuf gələjəhsən. Sutka yarım arı, sutka yarım bəri yol gedəjəhsən». –«Yeməyim nə olajax?» – «Xurma yiginən. Hər sutka yarıma üş dənə xurma bəs eliyir. Altı dənə xurma səə bəs elijək». – «Su?» Diir: «Sussamıyajaxsan». Nə isə, otuz yeddi günün tamamında bunu salır yola. Gedir düşür çiçəyin üsdünə, çiçəhdən dərir, gənə oxuyur, eliyir bunu göyərçin, uçurduf götürüf gəlir. Bir səyfim oldu. Diir ki, çiçəyin dibində hələ tarixi görükmüyən ağ daş var, üsdündə xalı. O daşdan bir dənə gətirərsən, səən cannı şahidin o olajax. Bir dənə də daşdan gətir. Diir: «Daşı göstərmə. Çiçəyi ver, gör hələ nə dijəh? Ayan-bayan eləsə, onsuz da səni öldürməyə bəhanə axtarır, onda daşı göstər, dinən bax bu daş. Əgər başıız çıxırsa, baxın. Yox çıxmırsa, kimin başı çıxırsa, gətirin baxdırın, görün o dağın daşıdı, yoxsa yox». Nəhayət, sübuta yetirir. Verir çiçəyi, çıxır gəlir.

Axşam oturullar, diir ki, tökdü tökün görək bu səfər nə diyirsiz. Hərə bir söz diyir, padşahın beyninə batmır. Bu baş vəzir zalım oğlu axıra qalır. Diir: «Hə, baş vəzir, indi sən di görəh nə diyirsən?» Diir ki, padşah sağ olsun, heş bu işdən mənim gözüm su içmir. Ancax bildiyimi dimənliyəm. Diyir: «Di, görək». Diir: «Bunu səhər çağır, dinən ki, get Gülqahqahın ağzının gülünü gətir məə. Gülqahqah gö-

yün yeddinci qatında mələkdi. Bu zalım oğlu göyün yeddinci qatına da qalxajax yanı? Görəh bu nə göstərir». Diir: «Hə, bu ağlabatan söhbətdi, əşi sən elə doğrudan da baş vəzirə layiqsən ki, səni qoymuşam bu vəzifəyə». Bəli. Burda qız diyir ki, Baxtiyar çoban! Diir: «Hə». Diir: «Səən töhdüyü töhdülər. Səhər səni çağırajaxlar, amma bu işə mənim gücüm çatmır». Diir: «Gücün çatmır, onda mən getdim. Gedirsən, dur gedəh, getmirsən, mən getdim». Diir: «Ə, bədbaxt oğlu, bir tərəfin qaçaxdı elə sənin. Bilirsən nə var?» Diir: «Yox». Diir: «Get suya gir, dəstəmaz al, gəl yanıma». – «O nəyə lazımdı?» Diir: «Məə lazımdı». Durur gedir, suya girir, dəsdəmaz alır, gəlir. Əlacı nədi? Qız getmir, bu da tək gedə bilmir. Diir: «Baxtiyar çoban, ordan təknədən bir dənə çörək götür, gət qoy bura». Götürür, gətirir qoyur sufranın üsdünə. Diir: «İndi əlii qoy o çörəyin üsdünə, and iş ki, bir Allah hakqı, anamdan əmdiyim süd hakqı, bu çörəh hakqı, Gülqahqahı görsəm, səni unutmujam, səni yaddan çıxartmıjam». Diir: «Gülqahqah kimdi?» Diir: «Sən hələ and iş, dijəm». And içir. Diir: «Sabax səni çağırajaxlar, dijəhlər get Gülqahqahın ağzının gülünü gətir məə. Yox sözü dilinnən çıxmasın. Dinən baş üsdə. Məə qırx gün möhlət, həştad dənə erkəh, onnan sora həştad tay un, həştad tay qənd, bir də bir xurcun gözü qızıl yol xarcı göndərginən, qırx gün də möhlət ver, gedib gətirərəm. Yadında qalarmı?» Diir: «Qalar».

Bəli, səhər açılan kimi alıllar başının üsdünü. Çağırıllar, hay verir: «Noluf?» Diif ki, səni padşah çağırır. Diir: «Amma eşidəm ki, padşaha baş əymisən, o günü mənnən səninki qutarır ha. Baş əyməh-zad lazım döyül. Gir dinən nədi sözün, ağayana». Diir: «Baş üsdə». Gedir girir içəri, qapını açıb diir: «Məni niyə çağırmısan?» – «Sənin təzimin hanı, salamın hanı?» Diir: «Əşi, məni niyə çağırmısan? Çaarığı de». Diir: «Səni onnan ötrü çağırmışam ki, mən xəsdəyəm, həkimlər, loğmannar məə buyurufdu ki, Gülqahqahın ağzının gülünü iyniyəsən gərəh, sağalasan. Yoxsa sağalmıyajan, çarə yoxdu. Məə gedib onu gətirməlisən». Diir: «Baş üsdə. Həştad dənə qoyun, həştad tay qənd, həştad tay un, bir xurcun da qızıl göndərsən, qırx gün də möhlət gedib gətirərəm». Padşahın gözü kəlləsinə çıxır ki, ə, bu zalım oğlu məni taladı təmiz. Bu məən sürümdə qoyun qoymadı. Vəzir diir: «Ə, qorxma, ver getsin. Hamısı gənə özəə qayıdajax». Bəli, sabah açılır, bu diyən kimi hər şey gəlib yığılır. Deyir ki, Baxtiyar çoban, indi bilirsən nə var? Diir: «Yox». Diyir: «Hindi dayanmax vaxdı döylü. Halal-hümmət eylə, o işdiyin and bilsin, özün bil. Gələrsən də özün bilərsən, gəlməzsən də özün bilərsən. Amma mən bilirəm ki, Gülqahqahı görüb sən bura gəlmijəhsən».

Nəysə. Deyib: «Səni göyərçin eliyib uçurdajam. Gedəjəksən on beş günnük yoldu, on beş gün gejə-gündüz yol gedəjəksən. Səni salajam bir dənə hovuz var, hovuzun başına. Dörd hərrəməsi güllük-çiçəklik, iydəlik, ortada göldü. Gizdənərsən o ağaclığın içində. Üş dənə göyərçin gəlib düşəjəh u gölün başına. Düşənnən sora üş dənə bajıdılar, olajax üş dənə mələk. Baxarsan, fikir verərsən, hansı güləndə ağzınnan gül parrıyırsa, arxaa olara çörüf, dalın-dalın gedif, unun paltarını gətirirsən, gizdənirsən gənə möhkəm bir yerdə. Olmaya-bilməyə zənənə baxarsan ha. Gizdənərsən. Olar çıxajaxlar sudan. Sərinniyif çıxajaxlar, xəbər alajaxlar, görəjəhlər bajılarının paltarı yoxdu. Gülqahqah qayıdıf girəjəh suya. Bajıları paltarını geyinif diyəjəh: «İnsansan, heyvansan, hər nəsənsə, bizim bajımızın paltarını ver». O saat aparıf vermə. İki dəfə belə dijəhlər, üçüncüdə dijəhlər ki, insansan, heyvansan, hər nəsənsə, bajımızın paltarını ver, nə diləyə gəlmisən yetirməsəh, anamızın südü bizə haram olsun. Onda gənə arxaa çörürsən olara, paltarı hardan götürmüsən ora qoyuf, gəlif girirsən ağajdığa. O zənən səni görmür, sən də zənəni. Paltarını ver, arxayın ol, onda səən diləyii verif yola salajaxlar». Diir: «Yaxşı».

Düzəlir yolun ağına. Gedir on beş günün tamamına düşür həmən hovuzun səkisinin üstünə. Bəli. Gedif gizdənir ağajdıxda, səhər açılır, gün qalxır. Xeylax gün qalxannan sonra, günortaya yaxın həqiqətən üş dənə göyərçin fırrana-fırrana düşdülər. Düşən kimi üçü də bir-birinnən gözəl qız olur ki, da heç aləmdə görünməz. Yanına çırpır əlini ki, mən nə qələt elədim and içdim. Nə işim vardı mənim gedib u yerdə. Hazır burdaca rahat yaşıyardım. Nə isə, bular girirlər üş bajı çimirlər, xeylax sərinniyənnən sora çıxırlar baxırlar ki, böyük bajının paltarı yoxdu. Gülqahqah qayıdır girir suya. Bu bajılar diir ki, insansan, heyvansan, hər nəsənsə, bizim bajımızın paltarını ver. İki dəfə diyirlər, xeyri olmur. Üçüncüdə deyir ki, insansan, heyvansan, hər nəsənsə bajımızın paltarını ver, anamızın südü bizə haram olsun, nə diləyə gəlmisənsə yerinə yetirək. Aparır gedir. Bulara arxasını çevirir, paltarı qoyur həmən səkiyə, hardan götürmüşdü onun üsdünə, qayıdır gənə gəlir meşəyə. Paltarını geyinir Gülqahqah. Suda fikir verib oğlanı görmüşdü. Hələ suda idi, oğlana baxdı, fikir verdi, dedi: «Ya rəbbi, ya aləmin, sən özün mənim taleyimi bunun taleyinə birrəşdir, yoxsa mən partdıyıf ölməliyəm». Oğlan o dərəcədə yaraşıxlı oğlan idi. Paltarını geyinənnən sora didi: «Oğlan, gəl görəh nədi qulluğun?» Gəldi. Gələn kimi şahpərisini salır bunun ayağının altınnan, qaldırır göyün yeddinci qatına. Aparır oğlanı düşürür bir imarə-

tə. Diir: «Gəzif baxırsanmı mənim evlərimə?» Diir: «Bax deyirsən, baxax da». Birinci öydən başdıyıf qırxıncı öyə qədər çıxıllar. Qırxıncı öyün qapısından seyvana çıxıllar, seyvanda durullar. Baxtiyar çoban baxır ki, ev evdi, amma nə dirəyi var, nə dayağı, havadadı. Qəlbinnən keçirir ki, ya rəbbi, ya aləmin, özüm də aj, bu evdə də dilə dəyəsi bir tam yox, onnan sorası yatmağa mitil yox, bir iynə yox. Burda mən neyliyəjəm? Gülqahqah əlini əlinə vuruf gülür. Diir ki, səən ajdığıı sən deməsən biz bilmirih? Nə tez qaydaa qaldın? Diir: «Mən nə didim ki?» Diir: «Yox, çox möhkəm qorxuya düşdün sən evlərin boş olduğuna görə. Gəl, gəl gedəh çörəh yi. Başdıyır ayannan bəri gəlir, baxıf görür ki, ə, evlər alışıf yanır. Tarı yaradan insan üçün nə lazımsa hamısı layiqincə. Hamısı doludur öylər. Gəlir birinci girdiyi öyə, görür ki, deməh, Tarı yaradan nazı-nemət sufraan üstündədi. Diir: «Baxtiyar çoban, buyur». Yiyif qutarannan sora çörəyini... Bajılarınnan birini əlaltıynan göndərmişdi ki, ibadətgaha, ilahiyə ibadət eylə, icazəmi al mənim. Mən bu gejə bu oğlanla bir mitildə olmalıyam. Gedib ibadət eliyir, icazəsini alır, qayıdır gəlir. Bu Allahın yazısıdı. Axşam Baxtiyar görür bir dənə yer salınıf, u bajılar ayrı otaxdadı, bu heç. Bir dənə yer salınıf. Çox gözdüyür ki, yəqin bu yer mənnən ötrüdü, bu da duruf gedəjəh da bacılarının yanına. Çox əsniyir, eliyir, diir: «Baxtiyar, niyə duruf yatmırsan?» Diir: «Vallah, mən bilmirəm, harda yatası oldum. Bu yeri bir dənə salmısan. Mənnən ötəridi, özünnən ötəridi, bilmirəm, axı». Diir ki, yer ikimizindi. Dillənmir, bunun da ürəyinnəndi. Durullar yatıllar. İki gün bunu saxlıyır. İki gündə Baxtiyar çoban elə olur ki, sapsarı heyvaya dönür. Diir: «Baxtiyar, Allah-tala yerdə yaşatdığınnan bizə bir faiz azuqə verifdi, hər loxmamız bir öynəni üftə eliyir, özün də iki gündü yiyif görürsən, ikinci loxma yimisən?» Diir: «Yox». Diir: «Bir loxma bizi əhatə eliyir, sən niyə belə saralırsan?» Diir: «Nə bilim». Diir: «Yox, düzünü de. Nə var, nə cür gəlmisən, nə diləyə gəlmisən». Diləyini söhbət eliyir, ayləli olmağını gizdədir, gəlməh isdəmir padşahın qorxusunnan. Diir: «Baxtiyar, yekə kişisən, sənin aylən var, özü də mənnən bir iyirmi faiz aşağı biliksizdi. Çox möhkəm bilikli bir aylən var, bu bir. İkinci, sən gələndə dəsdəmaz alıb çörəyə and işmisən, anaan südünə and işmisən. Niyə məə düzgün söyləmirsən? Guya söyləmiyəndə mən bilmirəm? Sənin yola düşən vaxdın sabahdı. Dur hazırran, gedirih, paltarını geyin». Geyinir paltarını. Bajılarını çağırır, bajılarıyla halallaşır. Bu qırx göz öydən bunun payına nə düşürsə, deməli, bu evlər bizimki kimi kubikdən,

barıdan döylü. Bu qızıldan imarətdi. Öz payına düşəni qənədiynən qatdıyır, qoyur kürəyinin ortasına, Baxtiyara diir: «Ot ortada. Sən ortada ot, qurcalanıf eləmə. Yuxun gələndə yat, gəlmiyəndə otu». – «Bəs, yolu sən tanıyajanmı?» – «Sən ot, narahat olma». Deməli, bu yola düşəndən padşah toya başdıyır. Vəzir diir: «Arxeyin toyuu elə, u qələt eliyir. Göydən gedif Gülqahqahın gülünü gətirmijəh ki?»

Gəlillər padşahın vilayətinə çatır, oğlanın öyünün üsdünnən hərrənir padşahın öyünün üsdünə. Baxır görür ki, vur çatdasın, bütün küçələrdə çalğı çalınır. Baxtiyar qurcalanır. Diir: «Baxtiyar, narahat olmaginən, hələ sabah aparasıdı gəlini. Hələ ki, arvad öydədi, qorxma».

Bəli, gəlillər, düşüllər. Qız açır evini çöl qapısınnan, cılğı qızıldan evi açır. Məclisdə olannar hamısı deyir ki, ayə, qonağın evi yanır. Məclis adamı tökülüf gəlir ki, qonağın evi yanır. Görullər ki, yox, ev ayandadı, çöl qapısının ağzında nəsə yanır. İçəri, bəli, girə bilmillər, buraxmıllar. Səhərə qədər camaat baxıb görür ki, bəli yanır da. Səhər açılır, görüllər ki, yox, ədə, bu gənə də yanır. Baxıf görüllər ki, bu imarətdi, yanqı döylü. Gülqahqah gülür, bir dəsdə gülü çıxarıf verir ağzınnan Baxtiyara, diir ki, bu qırx gündü toy eliyir, camaata yiməh-işməh verir, hər hal ona yer elijəh, səni öldürməyə bəhanə axtarajax. Onda ona get deginən ki, Gülqahqahın özünü də gətirmişəm, inanmırsan adam göndər gedib baxsın.

Bəli, aparır gülü verəndə diir: «Vurun, kopoğlunun boynunu, məni araya qoyuf. Gedif dağdan gülü-çiçəyi yığıf gətirif, Gülqahqahın ağzının gülüdü». Diyəndə diir ki, padşah sağ olsun, hökm görmüşəm, amma cəllad macalı olmadan hökm görməmişəm. Cəllad macalın varmı? Diir: «Var». Diir: «Adam göndərə bilərsən, Gülqahqahın özünü də gətirmişəm, imarətini də gətirmişəm. Çöl qapının ağzındakı Gülqahqahın imarətidi, sənin xəzinəndə heç bir heylə qızıl yoxdu. İmarəti də qızıldandı. Özünü də ki, gətirmişəm, öz evimdədi. Adam göndər, gedib baxsınnar, gəlsinnər səə məlumat versinnər. Haklıyam, nahakqam onnan sonra. Baş vəzir deyir: «Padşah sağ olsun, icazə ver, mən gedəjəm». Gedir. Gülqahqah şaqqıldayıf gülür, gülün işığı bir yannan, özünün yaraşığı bir yannan, ürəyi gedir yıxılır. Bildir ölmüsən, bu il ölmüsən. Günortayacan gözdüyüllər, vəzir gəlmir. Günortaüstü faytonnan gəlillər, görüllər vəzir tirtap uzanıf. Götürüf aparıllar. Bəli, loğman-zad bunu ayıldır, eliyir. – «Adə, söylə görəh noluf?» Diif: «Padşah sağ olsun, düz diir. Bir zənən güldü, zənənin sifətini o qədər görə bilmədim. Ağzınnan yalo

parladı. Yalo qəlbimi sıxdı, yıxdı məni». Deer: «Bilmirəm, elə tədbir tökürsüz ki, bu dəfə də tədbiriz baş tutmasa, elliyizi də qırajam».

Hərə bir söz diyir, gənə beyninə batmır. Deer baş vəzirə ki, vəzir, sən dillən görəh. Diir: «Padşah sağ olsun, bir dənə biliyim qalıbdı. Bunnan sora isdiyir məni öldür, isdiyir öldürmə, öz ixtiyarındı». – «Nədi u?» Diir ki, səhər onu çağır, dinən get u dünyadan məən atamdan, anamdan xəbər gətir. Bu kopoğlu yəni u dünyaya da gedif gələjəhdi? Görəh ona nə dijəh gəlif? Hələ ki, u dünyadan bir adam xəbər gətirmiyif bu dünyaya. Deer: «Hə, ağlabatan sözdü». Diir: «Amma bunnan sora gənə də diirəm, isdiyirsən mənim öldür, isdiyirsən dirilt. Öz işindi, mənim bildiyim heş bir şey yoxdu, mənnən söz tələb etməginən». Gülqahqah diir: «Baxtiyar, gənə səən töhdüyü töhdülər, a yetim. Səhər səən tezdən çağırajaxlar. Çağıranda qorxma. Dijəh ki, get atamdan, anamdan, o dünyadan məə xəbər gət. Dinən qırx arşın dərini, qırx arşın eni, qırx arşın uzunu quyu qazdır. Onun içini dolduran qədəri quru yarma odun yığdır yanına. Qırx tulux da nöyüt. Qırx dənə də spişka çəkən. Hazırlayanda məə xəbər ver, gedif xəbər gətirəh. Yadında qalarmı?» Didi: «Qalar». Didi: «Olar nəyə lazımdı?» Didi: «Səni salajaxlar o quyuya, o odunu, nöyütü də tökəjəhlər üstəə, qırx yerdən qırx nəfər hamısı birdən spişka çəkəjəh, o odun yanajax səən üsdündə», – diyəndə didi ki, yaxşı gün ağladız məə. Ordan insan çıxar? Didi: «Ə, avam olmaynən, şahpərimi çəkəjəm üstəə. Sənnən qabağa səən qıravatın da, yiməh-işməyin də, bir sutkalıx hər şeyin orda hazırdı, quyu qazılan kimi. Şahpərimi də çəkəjəm üsdəə, üsdəə kül də düşəsi döyül. Təmiz odun yanıf kül olanda onu sorajam havaya, səən üsdəə onnan bir damcı da desən gənə düşəsi döylü. Onnan sora çağırarsan ki, kəndiri sallıyın, mən çıxım. Bu özü olara inandırıcı olajax. Amma çıxanda denən ki, atan da yaxşıdı, anan da yaxşıdı. Sənnən böyük qardaşın ölüfdü, heç onu məə dimənisən. Toy eliyir, məni də toya çağırıf. Əyər getməh isdəsən ikimiz gedəh. Getməsən məə bir az xaşdıx ver, mən gedim u kişinin toyuna, gedim dəyim gəlim. Söz vermişəm. Yadında qalarmı?» Didi: «Qalar». Sabahı bunu çağırdılar. Çağırdılar, durdu getdi. Məni niyə çağırmısız? Didi ki, mən çox darıxmışam. Mənim bu darıxmama qarşı həkimlər, loğmannar diir ki, atamdan, anamdan, o dünyadan bir xəbər bilginən. Məə gedif ordan bir xəbər gət. Deer: «Baş üstə. Qırx arşın dərini, qırx arşın eni, qırx arşın uzunu bir quyu qazdır. Onun içini dolduran qədər yaxşı quru yarma yığdır yanına, qırx tulux da nöyüt, qırx dənə də spişka çəkən. Mən

gedif xəbər gətirərəm. Havaxd hazır olsa, məə xəbər eləginən». Vəzir deyir: «Padşah, indi daa düzəldi işimiz». Diir: «Baxax da görəh».

Bəli. Padşahın əlində nə idi? Bir gündə hamısını hazırradı, adam göndərir ki, gedin diyin, gəlsin, hazırdı. Gəlir Baxtiyar, baxır görür ki, ə, bunun dibinə baxınca adamın gözü qaralır. Diyir: «Ə, bəlkə olmadı helə, oldu belə. Bu şua məni saxlamadı burda, yandım kül oldum». Çox fikirdən sora diyir ki, kəndir bağlıyın belimə, məni sallıyın quyuya. Kəndiri bağlıyıllar bunun belinə, sallıyıllar quyuya. Quyuya sallıyanda bütün vəzir-vəkil diir ki, padşah, daa mən heç vaxt inanmaram ki, burdan insan çıxa. Quyuya düşənnən sora diir: «İndi odunu tökün üsdümə». Odunu töküllər şaqqaşax, quyunu doldurullar möhkəm. Nöyütün hamısını cift eliyillər oduna, qırx nəfər hamısı birdən spişkanı çəkir. Üş sutka yanır. Üş sutkanın tamamında təmiz odun da yanır kül olur. Kül olannan sora Gülqahqah evdə Allaha ibadət eliyir. Tarı elə bir hava verir ki, bir damcı bunun üsdünə üst bulandıran şey düşmür. Kül qalxır havaya yox olur. Çağırır ki, kəndir sallıyın mən çıxım. Camaat baxır ki, ə, budey, necə düşüf heylədi, tərtəmiz, gül kimi. Kəndir sallıyıllar. Vəzir diyir ki, padşah sağ olsun, yox, biz bunnan bajarmıyajayıh. Çıxarıllar bunu qırağa. Diyir ki, hə, söylə görüm hara getdin, hardan gəldin. Diir: «Padşah sağ olsun, sən məni göndərdin ki, get atamın, anamın xəbərini bilginən. Bəs, sən nə yaxşı, sənnən böyük qardaşın ölüb, heç onu mənə deməmisən». Deer: «Nə bilim, məə həkimlər atamı-anamı demişdi. Heç yadıma düşmüyüf». Diir: «Atan da yaxşıdı, anan da yaxşıdı, qardaşın da toy tədarükündədi. Kişiyə söz vermişəm ki, mən də gələjəm. Məə and verif ki, gəl. Məə bir az xaşdıx ver, bir də bu quyunun odununu, nöyütünü təşkil eylə, mən gedim. O kişinin yanında yalançı olmuyum. Onun toyunda iştirak edim». – «Bəs bizi çağırmadı?» Diir: «Hamınızı çağırıfdı. Hamınızı, birinizi yox. İndi getmək isdiyən olarsa, mənnən gedərsiz». – «Hə, birjə elə böyrümdə qaşqınım əysik idi ki, qaşqınnan gəzməyə çıxım. Nə tulasan sən ə, mən gedən məclisə gedəsən». Diir: «Yaxşı, nolar, onda mən özüm bir az qızıldan-zaddan taparam, verrəm, məni də ora qeydiyyata aldırasan. Olarmı?» Padşah nəfsidi da. Diir: «Hə, olar. Qızıl versən, olar». Bəli, bir kisə qızıl yığıf Gülqahqah, diir ki, apar ver. Bu qızıl onu göndərəjəhdi tez ora, yoxsa fikrini dağıdar. Bir kisə qızılı görəndə, padşahın gözü çıxır kəlləsinə ki, hə, verdiyim qızıl qayıtdı dala: «Tez olun, ə». Odunu-zadı hazırradır, ehtiyatını görür, Baxtiyarı çağırtdırır ki, gəlsin bizə yön öyrətsin. Gəlir baxır, görür

ki, hər şey hazırdı. Diir ki, padşah sağ olsun, sən, sənin vəzirin odunun altında dözməzsiz, siz bir az ağayana adamlarsız. Siz nə görmüsüz bulanmağı, təmizdənməyi. Mən irəva görmürəm odun sizin üsdüzə tökülə, odunu dinən yığsınnar. Yığıllar, bir adam boyu quyudan qalanda diir: «Hə, indi düşün ortada düzülün hamınız, böyürlərinizə yığsınnar odunu. Buların hamısını quyunun ortasında ayax üsdə saxladır, diir: «İndi yığın dörd hərrəmələrinə odunu». Yığıllar buların sinəsinə qədər. Sinələrinnən qoymur yuxarı yığmağa, guya buna hörmət eliyir. Diir ki, sinədən yuxarı yığmıyın, darıxmasınnar çox. Bəli, nöyüt tökənnərə bu əmr verir, deyir ki, tökün nöyütü. Qırx tulux nöyüt odunun üstünə tökülənnən sora diir ki, çəkin spişkaları. Spişkaları çəkillər hərə bir tərəfdən. Alışıf yanır axı. Hamısı əlini belə-belə eliyif çıxmaxdan ötəri, bu yerdə qalan nökər-naib diir ki, olar nağarır heylə? Diir: «Nağarajax, bədbax oğlu, qardaşının toyudu oynuyur da. Diir bizi isdiyən şabaş gətsin». Bütün bu ki nökər-naib də tökür özünü odun içinə ki, guya şabaş aparıllar. Hamısının kökünü kəsdimi? – Hə. Qayıdır, çıxır gəlir öyünə. Gülqahqah diyir: «Noldu?» Diir: «Habelə da, yandılar. Örgətdiyin fasonda da eləmişəm». Diir: «Hə. İndi Baxtiyar, bilirsən nə var?» Diir: «Yox». Diir ki, sən indi gedirsən oturursan padşahın taxtında, ölkəyə padşahlıx eliyirsən. Nə qədər onun xəzinəsində qızıl var, xalqın malıdı, unun döyül, unun hamısını səhər paylıyırsan xalqa. Nə qədər varı-döyləti var, malı-qarası var, qoyunu var, nəyi var, hamısını paylıyırsan kasıflara, düşkünnərə. Çünki oların malıdı u, unun malı döyül. Bir iynəsi qalmır unun, evinnən savayı. Bu evində də oturuf ədalətli şahlıx eliyirsən bulara. Oldumu? Diir: «Oldu». Diir: «Belə diməhdə sənnən mən, söhbətinnən mən bir az şübhələnirəm». Diir: «Nəyə görə». Diir: «Sən elə bil ki, nəsə diməh isdiyirsən». Diir: «Baxtiyar, mən getməliyəm. Mənim ürəyim genişdi, mən dözürəm, amma mən fikir verirəm ki, səən aylən xiffət çəkir biz ikimiz bu evdə olduğumuza görə. Mən Allah qarşısında günah işdədə bilmərəm. Mən gedirəm. Nə vaxdı ehtiyacız olsa, lazımız olsa, mən sizin qulluğuzda hazıram, Allahın izniylə. Mən narazılıx sala bilmərəm ayləyə. Sənin bir oğlun olajax, bir qızın. Oğluu üzünnən gün doğajax, qızıı üzünnən ay parlıjax. Bircə xayişim odu ki, məən adımı qızaa qoyarsan. İnşallah da, yaxşı olar o uşağın axırı. Olarmı?» Diir: «Olar». Axşam yatdılar, söhbət elədilər, yatdılar. Buları yuxu aparar, sabahı Baxtiyar durur baxır, görür ki, nə Gülqahqahın evi var, nə özü var. Çıxıf gedif. Unnan sora arxayın

orda başdıyır padşahın nəyi var, xalqa paylamağa. Padşahın bir iynəsi qalmadı ki? Yox. Başdıyır camaata padşahlıx eləməyə. Hamı da and içir ki, ədə, belə bir ədalətli padşah heç bir ölkəyə qismət olmuyufdu. Nə qədər yiyir, içirsə, yox dərgahınnan Allah-tala onunkuun yetirir. O heylə qəlbi təmizdi, məleykəynən söhbət elədiyinə görə. Nəhayət, gəlir onun övladı olur, bir oğlu, bir qızı. Nejə diyir, elə də olur. Uşaxların biriin sifətinnən gün çıxır, birinnən ay. Qızın da adını qoyur Gülqahqah. Nəysə, çobannıx aləmi bunu axır vaxdlarında əməlli başlı eliyir qəlbi açıx insan. Allah eylə keyfiyyət qismət eliyir, yaşıyıllar.

## BİLİCİ GƏLMİŞ QƏHRƏMAN

Diir bir qoja olur, uzun illər balıx ovçusu olur. Daa uje qojalıf əldən düşmüşdü. Buların da padşahının övladı olmurdu. Qoja da kasıb bir qoja idi. Gejə-gündüz dua eliyir: «Allah məə elə bir yöntəm verə ki, müalicə yöntəmi, bu padşaha, ayləsinə dərman eliyəm, uşağı ola, mənə də, dolanmağıma da kömək eliyə».

Nəhayət, bir gün gedir, bir yaxşı balıx tutur. Elə bir balıx ki, demək, bu tarixi görünməz balıxdı. Bunu söyünə-söyünə gətirir. Gətirir bir padnosa qoyur, üsdünə cuna-zad çəkir, eliyir. Diir: «Arvad, aparım verim padşaha, bəlkə bir-iki kilo unnan-zaddan verdi, heç olmasa çörəyimiz olsun». Aparır padşaha. Diyillər ki, balıxçı kişi səni gözdüyür. Diir: «İcazə verin gəlsin». Gedib görür ki, əlində padnos var, diir: «A kişi, u padnos nədir?» Diir ki, padşah, qırx ildi balıx tuturam, ömrümdə görmədiyim balıx tutmuşam. Didim, aparım padşahımıza verim, xətri xoş olsun. Açır padşah, balığa baxır, diir: «Kopoğlu, məni araya qoymusan demək sən? Mənim məhləmin üsdünnən erkək sərçə uça bilmir, sən erkək balığı mənim öyümə gətirmisən?» Diir: «A kişi, etmə, eləmə, mən səə hörmət elədim, pisdik məqsədi ilə gətirməmişəm. Balığın nə erkəyi, nə dişisi?» Diir: «Yox». Əmr eliyir ki, bunu aparın salın zindana. – «Ay aman, ay dad, yekə kişisən, mən səə nə pisdik eləmişəm məni zindana salırsan?» Bir vəzir bu vəzirlərin içində balıxçıynan dost idi, qoja vəzir idi, dost idilər. Didi: «Bilirsən nə var?» Didi: «Yox». Didi: «İndi heş kimə bildirmə. Hindi ki, belə eliyir, səhər icazə al, get yanına. Dinən ki, səən məhlənnən erkək sərçə uça bilmir, heləmi? Dijək: «Hə». Dinən onda arvadının qırx dənə kənizi var. Xahiş eliyirəm, bir dənə otax ayır, u kənizdəri yığajam ora, bircə-bircə soyunduruf çıxarajam çölə. Onda biləjəksən, səən məhlənnən erkək sərçə uçuf, uçmuyuf.

Yadında qalarmı, qoja?» Didi: «Qalar». Didi: «Onda nə məqsəd var? Bəlkə soyundurdum u məqsədnən, özüm heç olmasa bilim». Didi: «Bir qara neqr unun birinci arvadıynan yaşıyır. Özünün heç xəbəri yoxdu. Özü də kənizdərin içində gəzir arvad paltarında. Həə, u qara neqr soyunanda bəs elijək. Onda dili gödələjək». Didi: «Oldu. Sora olmaz, boynumu vurdurar». Didi: «Olmasa, mən irəli durajam, dijəm mən demişəm. U nə söhbətdi, biz dosdux, qardaşıx».

Bəli, bunu salıllar zindana. Arvad ha gözdüyür, kişi gəlmir. Səhər gəlir padşahın qapısına, xəbər verillər ki, balıxçının ayləsi gəlif. Diir: «Buraxın, gəlsin». Buraxıllar, gedir yanına. Diir: «Padşah sağ olsun, o kişinin qırx ildi balıx tutduğunu bütün aləm bilir. O tarixi görünməmiş balıx tutmuşdu. Dünən dedi ki, unu aparıf padşaha verəjəm, bir-iki kilo bəlkə it ununnan verə, çörək bişirək. – İt unu da bu arpa ununa diyillər. – Hə. Nə özü gəldi, nə unu gəldi. Bilmirəm bu kişi nijoldu. Bura gəlif, gəlmiyif?» Didi: «Gəlif, zindandadı». Didi: «Niyə?» Didi: «Niyəsin sora bilərsən». Elə bu dəmdə nökərlərdən biri gəldi, didi: «Padşah sağ olsun, balıxçı kişi diir ki, bir iki-üş kəlmə sözüm var. İcazə versin, gedim sözümü ona diyim». Didi: «Get, göt gəl, ayləsi də burdadı». Gedif balıxçını gətirillər. Diir: «Kişi, yoxsa yuxuu qarışdırmısan beyjə yatıf? Nə sözün var mənnən? Dünən deyəmmirdin sözüü?» Diir: «Padşah, dünənnəri düzü sən məni zindana göndərəndə inandırıcı kimi gəlmədi. Didim bəlkə məni qorxuzursan, zarafat eliyirsən. Baxdım gördüm həqqi zindandayam da». Didi: «Sən nəsən ki, mən sənnən zarafat eliyim». Didi: «Nətəri? Bir ata-ana səni dünyaya gətirif, bir ata-ana da məni dünyaya gətirif. İndi sən varrısan, mən kasıf, u Allahın qismətidi». – «Hə, di sözüü». Didi: «İcazə ver ayləm çıxsın çölə, bu söhbəti gərək biz ikimiz bilək, qeyri bilməyə». Çıxardıllar arvadı, heş kəs yoxdu ki? Yox. Didi: «Padşah, sən dünənnəri qəribə bir söhbət elədin ki, mənim hayatımdan erkək sərçə uça bilmir, erkək balıx gətirmisən. Heləmi?» Didi: «Hə». Didi: «Xayiş eliyirəm, qırx dənə arvadın varmı?» Didi: «Hə». Didi: «Qırx dənə kənizin varmı, hər arvada bir qulluxçu?» Didi: «Hə, var». Didi: «Xahiş eliyirəm, u qırx dənə kənizi bir evə yığ, özün də otur qapıda, buları mən soyunduruf qapıdan çıxarajam». – «Nəyə görə? U nə hak-hesabdı?» Didi: «İndi bir sözdü diyirəm da. Dimirsən erkək sərçə uça bilmir». Padşah fikrə getdi, gördü ki, yox, bu sözdə həqiqi deyəsən bir söz var. Əmr elədi, kənizdəri yığ bir otağa. Yığdılar kənizdəri bir otağa, didi: «Padşah, özün qapının ağzında ot, sora məə inanmazsan». Otdu pad-

şah qapının ağzında. Didi: «İndi bir-bir soyunun, padşahın qarşısınnan keçin, çıxın çölə». Bir-bir, bir-bir, bir-bir, hamısı soyundu çıxdı, axırda bir iki-üş nəfər qalmışdı, qojanın kürkünə bit düşdü ki, ə, buların hamısı zənəndi, bu zalım oğlu məni aldadar, boynumu vurdurar. Nəysə. Axırıncı cannı bir kəniz soyunanda baxdı gördü ki, pəzəvəng bir neqr. Didi: «Hə». Soyundu, padşahın qarşısınnan keçəndə padşah durdu ayağa. – «Qoja, bu hardeydi?» Didi: «Özünnən xəbər al da. Dimirsən erkək sərçə uçammır hayatımdan, bu, sənin birinci arvadının kişisidi. Sən elə-belə kişisən, kişi budu». Didi: «Hə, bəli». Arvadı da, qara neqri də çəkdirdi dara, heş bir kəsə bildirmədi. Öz biyabırçılığınnan qorxdu. Kişinin də o ki var yükünü tutdu uruzqudan, qızıldan, puldan, didi: «Kişi, bu söhbət açılan günü ölmüsən». – «Yaxşı, məən nəyimə lazımdı, sən məcbur elədin, mən də açdım». – «Sən nə bilirdin bunu?» Didi: «Səən arvadın gələn günnən burdadı bu adam». – «Yaxşı».

Bu minvalnan bular yaşamaxda olsun. Padşah didi ki, vəzirə, vəkilə, mənim bir arvad əysiltdiyimi bilirsiz. Mən evlənməliyəm. Didilər evlənməlisən, nə diyirik. Bunu evləndirdilər. Buna bir dənə qadın aldılar, gətirdilər yaxşı toynan-tamaşaynan, gəldi arvad hamilə oldu. Arvad hamilə oldu, yüküün yerə qoyana qədər heç bir sirri söyləmədi. Altı aylıxdan sora baxdı gördü ki, uşax qarnında danışır bunun. Bunu qorxusunnan heş kimə bildirmədi ki, padşahın qəzəbinə gəlləm, öldürtdürər məni. Heş kim inanmıjax ki, altı aydan sora uşax qarında danışar? Bu nə söhbətdi? Nəhayət, gəldi uşax dünyaya. Uşax dünyaya gələndə yerə düşən kimi – biz mamaça deyirik, bilmirəm siz nə deyirsiz qadının uşağını tutana, – mamaçaya dedi ki, əlini yusan da olar, yumasan da. Məə bir istəkan çay ver. Mamaça uşağı tulladı yerə, çıxdı öydən çığıra-çığıra. Tutdular bunu: «Noluf, niyə çığırırsan, padşah eşidəjəkdi, ayıfdı». Bəli. Arvadı birtəhər sakitləşdirillər. Nə mümkün eliyillər, girmir arvadın yanına. Diyir: «Mən o uşağın yanına daa girəmmərəm». Uşax başdıyır anasına müraciyət eləməyə ki, dinən da məə çay gətirsinnər. Uşağa çay gətirəndə nökərlərdən biri görür. – «Ə, bular bu çayı hara aparır?» Fikirrəşir, diyir: «Yəqin zahıya aparır». Bəli. Çay gəlir, uşağa verən kimi başdıyır çayı içməyə. Arvad hulqumunda söz durmaz, ata-baba misalımızdı. Arvadlardan biri kənizdərə qandırır, diyir ki, bəs arvad bir uşax doğuf, oğlan uşağı, yerə düşən kimi partapart çay içir. İndi də yimək tələb eliyir. Özü də, diyir, padşaha gələn yiməkdən gətirin. Bəli. Padşaha gələn yiməkdən gətirin. Padşahın arvadıdı,

nədi ixtiyarları. Padşaha kənizdərdən biri diyir ki, padşah sağ olsun, gözüüz aydın olsun, uşağıız oluf. Bir oğlan uşağı doğufdu, çay içir, indi də səə bişən yiməkdən bişirtdirir özünə. Deyəndə padşah diir ki, bədbax qızı, bədbax, ələə dolamağa adam tapmırsan, məni ələə doluyursan? Deyəndə didi ki, padşah sağ olsun, vallah, düz deyirəm. İnanmırsan, göndər vəzirdən, vəkildən birini, getsin. Vəzirə didi: «Vəzir, dur getginən, bu nə diyən söhbətdi? Bu misildə görünməmiş şeydi, belə şey ola bilməz». Durur vəzir gedir görür, uşax oturufdu, çay içir. – «Anadan olan uşax budu?» Diyillər: – «Hə». Diir: «Payatonnan». Payatonnan deyəndə uşax diir ki, noluf? Sizlərdə xoşgəldin deyillər, yoxsa payatonnan deyillər. Adam görməmisən?» Deer ki, get gör unnansa mənim yeməyim nijoldu? Vəzir gedir, padşaha diyir: «Padşah, səən hökmün yalandı, bu elə hökm verir məə ki, get gör məəm yiməyim niyə gejikdi. Padşah, bu nə hak-hesabdı?» Deyəndə padşah diyir ki, əstəfirillah. Gedillər, nə isə yimək bişir, buna bir boşqab yimək gətirillər, diyir: «Nədi ki bu, çağayam, məə çağa payı gətirmisiz? Məə yemək gətirin. Noldu, padşaha gələndə yeddi-səkkiz sort gətirirsiz, məə bir boşqab aş gətirirsiz». Gedillər. Bəli. Padşaha gələn növdə, yeddi löyündə xörək buna da gətirillər. Hamısını sıyırır, süpürür, yeyir. Diyir: «Sizin padşahınız o qədər kasıbdı ki, iki saatdır dünyaya gəldiyim, məə bir dəst paltar göndərmir ki, geyim həyətə-bacaya çıxım». Gedillər padşaha diyillər, padşah diyir: «Bunu mən öldürməsəm olmuyajax. Bunu mən öldürməliyəm». Uşağa agah olur. Bunu Allah-tala gətirif bu formada, padşaha görk üçün. Evladı olmurdu axı onun. Nəysə. Gəlir baş vəzir təzədən diyir: «Bala, yiməyi qutarmısansa padşah səni çağırır». Diyir: «Bilirəm məni niyə çağırır, get ona dinən ki, məni öldürtdürə bilməz, nə də öldürə bilməz, bu bir. Qulağında qalsın, yaxşı eşit. İkinci də, mən öləsi olsam, mən ölənnən üş gün sora bu yurdda bir nəfər qalası deyil, hamı qırılajax. Bu iki. Üçüncü də, atamın üsdünə elə bir qoşun hazırraşıf ki, hələ görsün o qoşunnan yaxasını qutara biləjək, yoxsa yox. Mən ölsəm o qoşunun əlinnən çıxammıjax. Yurdu viran olmalıdı. Gedir vəzir, diyir: «Padşah, bu uşax döylü, bu, Allahın bir əlamətidi. Belə söhbətdər eliyir». Diyir: «Ə, gedin unu mənim yanıma gətirin». Gəlillər, diyillər: «Ə, atan səni çağırır». Diir: «Xeyr, sözü varsa, gəlsin burda desin. Sora vəzir, nökər göndər ilxıya, çöldə olan ilxıya, beyjə bir at balalıyajax, erkək balası olajax, o atın balası məə lazımdı. Gərək o at mənim gözümün qabağında balalasın, üç ayağı səkil olajax, özü də erkək». Qayıdır gedir

pahşahın yanına, diyir: «Padşah, belə tələb eliyir. Diyir get ilxıdan filan atı dinən gətirsinnər, beyjə balalıyajax, erkək balası olajax, üç ayağı səkil olajax, onun balası məə lazım olajax. Gərək gözümün qabağında balalasın». Diir: «Ə, gedin atı gətirin. Bu, – dedi, – həqiqi olsa, daa mənim sözüm yoxdu buna. Bu bir möcüzə oldu onda». Gedillər atı gətirillər ertədən, ilxıdan, tolaya salıllar, arpa-saman qoyullar. Gejənin bir vaxtı çığırır nökərlərə ki, nolufdu, beş dəyqə gej yatsaaz olmaz? Durun gedin o atın balasını əmizdirin, balalıyıf. Gedif görüllər ki, həqiqi, at balalıyıf, erkək balası var, üç ayağı səkildi. Bəli, qayıdıf gəlillər, padşaha diyillər: «Padşah, bu evlad döyül, bu səni, sən öl, birtəri elijək. Nejə deyif, at heylə bala balalıyıf, üç ayağı da səkildi. Bəs bizi göndərdi, getdik baxdıx, elədik, əmizdirdik gəldik». Diir: «Hə».

Nəysə, səhər açılır. Səhər açılanda üç nəfər elçi gəlir, əllərində bir namə. Bu hansı ki, gələn elçilər başqa vilayətin padşahının elçiləridi. U padşah da çox qüvvətlidi, heş bir padşahın onun qoşununa-zadına güjü çatmır. Amma bir neçə dəfə də bu padşahın üsdünə hüjum edifdi, bir şey ortalığa hasil olmuyufdu. Gəldilər, dedilər ki, bizi padşahımız göndərif, elçiyik. Bu məktubu padşaha verməliyik. Getdilər xəbər verdilər, didi: «Buraxın, gəlsinnər». Buraxdılar, elçilər gəldi padşahın yanına. Salam verdi, naməni çıxarıf verdilər padşaha. Padşah naməni oxuyanı çağırdı, didi: «Oxu, gör, nə yazılıf?» Oxudu, didi: «Padşah sağ olsun, yazıfdı ki, mənim oğlum artıx yetişifdi, ona mən daşdan qastyum isdəyirəm, məə daşdan qastyum tikdir ver. Əgər tikdirə bilməsən yurduu düzdüyəjəm». Diir: «Gedə bilərsiz». Diir: «Yox, cavab alıf getməliyik, tapşırıx belədi». Padşah diir: «Aparın buları başqa bir otağa yerləşdirin, yemək-içmək verin, axşam məsləhət eliyək, sora». Bəli. Buları qonax eliyillər. Bular bir evdə oturur, bulara yemək-işmək gəlir, yeyif-içillər. Bular burda yeyif-işməkdə olsun, padşah vəziri-vəkili yığır, diyir: «Ə, bu nə hak-hesabdı, bu nə diyən sözdü, buna nə cavab verək, daşdan paltar tikmək olar?» Ordan vəzir diyir ki, gəlsənə bu təzə olan uşağa müraciyət eliyək. Bəlkə bu bizi bu bəladan ötüşdürə bilər. Gedif diyillər ki, uşağa, atan çağırır. Diir: «Atamın nə sözü var, zəhmət çəkib dursun gəlsin, nə sözü var disin, cavabını verim». Gəlillər, diyillər: «Padşah, belə diyir, gəlmir. Diyir, sözü var, dursun, gəlsin». Padşah uje dardadı, durur gedir, həm uşağı görür, həm anasını görür. Axı vəzir gəlib dimişdi ki, xoş gəlmisən dimədiyimə görə məni dannadı. Padşah içəri girən kimi, buna xoş gəlmisən dünyaya, diyir. Bu bir xoşallanır. Diyir: «A bala, hak-hesab, hal-hekayət belə. Məə namə

göndərifdi ki, ya oğluma bir dəst daşdan qastyum tikdir, yoxsa torpağını düzdüyəjəm». Diyir: «Neçə vəzirin var?» Diir: «Qırx dənə». Diir: «Neçə vəkilin var?» Diir: «Qırx dənə». Diir: «Uları niyirsən bəs saxlıyıf? Özün neçə ildi şahsan?» Sözgəlişi diir: «Əlli ildi». Diir: «Hayıf, hayıf u əlli ilə ki, korlamısan. U ağılnan işdəmisən, bu vəzir-vəkilin də bu ağılnan səə qullux eliyir». Padşah diir: «A bala, ürəyim sıxıldı, ürəyimi üzmə, məə hə, yox, bir kəlmə söz di». Diir: «Dəəsən, düz söz sənin yanında işdəmir, heləmi? Ay fırıldax yollar deyərdim, nə xoşallanardın?» Nəysə, əlacı kəsilif padşah başdıyır sakit dayanmağa ki, görək nə dijək bu. Diyir: «Bir namə yazdır elçilərinə, özü də gejəynən yola sal, saxlama sabaha. Sabaha saxlasan, bir də qapıdan içəri girib məə söz dimə. Namə yazdır ver, dinən durun çıxın gedin. Naməni yazdır ki, qumdan iynə düzəldin daşdan paltar tikmək üçün, gərək qumdan iynə ola. Qumdan iynə tikin göndərin, daşdan paltar tikif mən göndərərəm. Yazdıra bilərsənmi?» Diir: «Yazdıra bilərəm». Diir: «Dur. Özü də bu saat yola sal, sabaha qalmasın».

Gəlir naməni yazdırır, vəzirə diir ki, apar ver, köpək oğlannarını çıxardax burdan. Uje ürəklənir padşah. – «Heş gör bir nəfərin ağlına gəlibdimi bu söhbət. Ə, vəzir, sən qırx ildi mənə qullux eliyirsən, dünən olan uşax qədəri bilmirsən? Mənim əməyimi itirmisən». Nəysə, naməni yazıb verillər. Vəzir diir ki, padşah diir dursunnar, getsinnər. – «Ə, bu gejə vaxdı hara gedək, belə-helə». Diir: «Yox, padşah diyir çıxsınnar qapıdan». Bular çıxır qapıdan, gedillər. Aparıf naməni verillər öz padşahlarına. Padşah namə oxuyana diir ki, aç oxu görək nə yazılıfdı belə tezliknən. Açıf oxuyur. Namə oxuyan padşaha diyir ki, padşah sağ olsun, pis cavab döylü. – «Nətəri?» Diir: «O da bizə yazıfdı ki, daşdan paltar tikmək üçün qumdan iynə lazımdı. Qumdan iynə duzəldin göndərin, daşdan qastyum tikif göndərim mən sizə. Qastyumu bajarırıx, amma iynəni bajarmırıx». Padşah çox fikrə gedir. Bütün vəziri yığır, vəkili yığır, köhnə adamları, bu söhbətə bir tədbir kimi. Diir: «A kişi, səən ağlın qaşmıyıf, qumdan iynə olar? Hətda öz adamlarınnan da diyən olur ki, səən göndərdiyin iddia da bir iddia döylü axı. Daşdan qastyum hansı tarixdə görünüf ki, səə də belə cavab gəlir, tapa bilmirsən». Diir: «Bəs nətər oldu, unun vəziri-vəkili cavab tapıb məə göndərə bilir, siz cavab tapammırsız». Heş kim heş nə tapammır. Bu iş qalır belə üsdtüörtülü. Daa burdan əl çəkir padşah ki, iki dəfə hücum elədim xeyri olmadı, üçüncü bu sözü didim, bu cavaba da cavab tapılmadı.

Uşax, bir həftə, on gün ortadan keçif-keçməyif adam göndərir. Buna uje nökər-nayib ayrılıfdı, xörək bişirən, xörək gətirən ayrılıfdı. İkinci şahlıx eliyir. Hə. Diir ki, gedin padşaha diyin ki, öz mindiyi atı yox... vəziri onu aldadıf, yönnü atı həmişə özü minir, yönsüz atı ona verir, vəzirin atını yəhərrəsin, yüyənnəsin, məə göndərsin, səfərim var. Gedib padşaha diyillər. Padşah diir ki, iras ki, diir, gedin verin də, daa məə niyə gəyişirsiz. Buyünnən sora o diyən sözü daa məə gəyişif eləmiyin. Mən içi özüm qarışıx dimək heç nə imişik unun qabağında. Elə bil padşah birinci udu, ikinci mən. Biz ki unun didiyi sözə söz tapıb cavab verə bilmədik. Cavabı veribdi, daa unnan biz bacara bilmərik. Nə diyir unu eləyin. Gəlib məsləhət eləməyin uşax belə diyir.

Bəli, vəzirin atını yəhərləyif gətirsin. Dimək, padşaha bir az zad gəlir ki, nətər olur ki, bu mənim atımı isdəmiyif vəzirin atını isdiyir. Bunda nəsə bir söhbət var. Bir az fikrə gedir, diyir: «Ola bilsin ki, mən atasıyam deyənə məən atıma minməyə qıymır, nağarmır, onunçün vəzirin atını isdiyir». At gəlincə bu söz bunu narahat eliyir. Vəzirə diyir ki, vəzir, dur get dinən mənim atımı niyə minirsən, ataa atını minmədin. Görək nə cavaf verəjək. Vəzir gəlir, amma gəlməmişdən diyir: «Padşah, mən unun yanına getməyə ehtiyat eliyirəm, qorxuram, çox qəzəbli danışır». Diir: «Get daa, indi qəzəbli danışsa da, nə danışsa da, hamımızın qanını satın alıfdı bu. Yoxsa indi əldə-ayaxda ölmüşdük». Gəlir vəzir qısıla-qısıla diyir: «Ay bala, öz ataa atını minmədin, mənim atımı niyə minirsən?» Diir: «Ə, düz bir saatdı məsləhətdəşirsiz bu söhbəti. Diməli sən elə bilirsən ki, mənim ağlım da padşahın ağlıdı, padşahı aldadıf atın yaxşısını özün minirsən, pisini ona zad eliyirsən. Məni də aldatmax isdiyirsən?» Da vəzir dillənmir, qayıdır gəlir. – «Vəzir, xəbər aldınmı?» Diir: «Aldım». Diir: «Nə didi ki?» – Diir: «Ürəyim səən atı minmək isdiyir». Padşah baxır ki, yox, bu cavab düzgün cavab olmadı.

Nəysə, at gəlir, anasına diir ki, ana, məə icazə ver, üş günnük səfərə çıxajam, üş gün gəlmijəm. Anası diir ki, get. Qoyullar bunu atın belinə. Bu pramoy sürür hası ki, elçi göndərmişdi, şahların içində qoçu şah idi, onun ölkəsinə. Gedir görür ki, küçə, baca bəzənif eliyifdi, çalğı-zad var. Kimdən xəbər alırsa bu nə hak-hesabdı, bu nə bəzənmək-düzənməkdi, bu nə çalğıdı, heş kəs buna cavab vermir. Axı bu əl boyda körpədi. Amma ata minif atdan düşməsinə təəccüb edillər. Bu necə quş kimi atdan hoppanır, uçur düşür yerə, quş kimi də uçur qonur atın belinə. Heç yəhərdə o qədər seçilmir. Nəysə. Bir nəfər cavan oğlan bir tərəfi məsxərəynən deyir: «Ay bəy, pəhliva-

nın qızı kişiyə gedəsidi. Yetmiş dənə bəyin oğlu o qızı isdiyir. İndi qız belə bir qərar çıxarıf atasına göndərif ki, bu yetmiş nəfəri bir meydana yığsın, u yetmiş nəfər hansı döşünə döyürsə güləşəjək, axıra kim qalsa, ona gedəjək. Odur ki, yığıf yetmiş nəfəri, güləşəjək, yıxılanın boynu vurulajax. Axıra kim salamat qaldı, qız ona da kişiyə gedəjək. Bunnan ötrüdü». Didi: «Hə». Öyrəndi, bildi ki, məqsəd budu. Çox göz gəzdirdi, onsuz bu məqsədi özü bilirdi. Ölkənin camaatını sınıyırdı, görüm, məni bəyənib mənə cavab verəjəklərmi? Çox göz gəzdirdi uyzə-buyzə, buna cavab verən oğlanı çağırdı: «Oğlan, bura gəl». Gəldi. Didi: «Oğlan, sən də bu ölkədənsən?» Didi: «Yox». Didi: «Hardansan?» Məsələn, didi ki, Kürdəmirdən. Didi: «Səən burda yəqin bir qohumun, əqrəban var». Didi ki, Kürdəmirin padşahının oğlu mənim əmim oğludu. O da burda güləşəsidi. Hamısı da ölümünü öz əlləriynən yazıf razılıx veriflər. Əmim məə didi... Bura heş kimin gəlməyə icazəsi yoxdu, adam dalınnan adam gəlməyə. Əmim məə didi ki, get heç olmasa xəbər gətirməyə. Öldü, qaldı, belə bir xəbər gətir. Onunçün gəlmişəm. Ona görə, kənarda gəzirəm, qorxuram yaxın getməyə. Didi: «Heş bir şeydən qorxma. Əmin oğlu hansıdı?» Gedəni göstərdi. Didi: «Gör əmin oğluna yaxınnaşa bilsən, səsə qoyajaxlar, o səsə qoyulanda disin ki, birinci mən güləşəjəm hamısıynan, ya birinci öləjəm, ya qalajam. Qorxmasın». Didi: «Vallah, mən nətər gedim, nə cürə gedim mən gözünə görüküm? Camaat görər, xəbər verər, padşah məni dara çəkdirər». Didi: «Yaxşı. Ala bu kağızı əlində tut, get». Didi: «Bu kağızı əlimdə tutanda nolajax, görmüjəklər məni?» Didi: «Yox, tut, arxayın get. Bir kəs səni görmüjək». Bunun əlinə dürgəliyif kağız verdi. Kağız əlində getdi camaatın içində əmisi oğlu ilə başladı söhbət eləməyə. Bu, didiyini didi, qayıtdı gəldi. Bir kəs də bilmədi ki, bu hara getdi, hardan gəldi. Oğlan çox fikrə getdi, didi: «Bu körpədə nə varsa, var». Nəysə, səsə qoyuldu. Səsə qoyulanda oğlan çıxdı qabağa, didi: «Padşah, birinci mən güləşəjəm hamısıynan, öləndə də birinci öləjəm, qalanda da biləjəm ki, birinciyəm, qalmışam». Didi: «Mənim üçün fərqi yoxdu». Başdadı bir-bir, bir-bir hamısının arxasını vurdu yerə. Altmış dokquz nəfərin altmış dokquzunun da kürəyini yerə vurdu, qələbə oldu bunun. Hası ki, qız da bu oğlannarın içində gözü bu oğlana düşmüşdü. Bu oğlana ki, nə ola bu oğlan basılmaya. Heylə bir oğlandı. Bəli, bu altmış dokquz nəfər hamısı çəkildi dara, öldürüldü, yiyələrinə məktub getdi ki, bəs oğlun ölüb. Bu oğlan qaldı, qırx gün, qırx gecə toy oldu. Gəlin köçən

vaxdı padşahın qızını u biri ölkəyə aparan vaxdında oğlan uşağa çox minnət elədi ki, getməlisən biznən. Didi: «Ə, mən qapı-qapı gəzənnərdən döyüləm. Mən də səən dədən kimi padşaham». – «Əşi, heylə şey olmaz». Didi: «Olar. Gedin, lazım gələrsə, gələrsiz, Ağdaşın padşahıyam». Getdilər, getdilər, bəli, göz aydınlığıynan qarşılandı padşahın oğlu, özü. Bütün millət yeridi padşahın üstünə göz aydınlığına. Padşah oğlunnan xəbər aldı: «Oğul, nə təhər oldu, yetmiş nəfərin içində sən qalib çıxdın? Burda bir hiylə-zad işləmədi ki? Nə hiylə işlətdin, neylədin?» Didi: «Ata, düzünü xəbər alırsansa, orda elə oğlannar vardı ki, mən onların heç birinə cavab verəmməzdim. Əmim oğlunnan xəbər al qalanını, mən bilmirəm». Əmisi oğlunu çağırdı: «Noldu, nətəhər oldu, nə hak-hesab oldu qalib siz olduz?» Didi: «Əmi, Allah tərəfinnən gəldi, bilmirəm, bəndə tərəfinnən gəlmişdi, bilmirəm, bəs bir otuz-qırx santı hündürrüyündə bir dənə uşax, özü də didi ki, Ağdaşın padşahıyam, lazım gələrsə gələrsiz yanıma. Məə bir kağız bürmələdi verdi, didi: «Get əmin oğlunun yanına, əmin oğluna dinən... Əvvəla xəbər aldı ki, bu küçə, baca niyə bəzənif, bu çalğı nə çalğıdı? Yerli camaatdan hamı onu məsxərəyə qoydu, cavaf vermədi. Axır məni bilmirəm Allah söylətdi, özüm söylədim, mən oluru kimi cavab verdim. Didim, yetmiş ölkənin padşahının oğlu gəlif bura. Güləşəjəklər, axıra kim sağ qalsa, padşahın qızı ona gedəjək. Ona görə də gəlif, hamısı da ölümünə öz razılığını verif. Hə. Sora mənnən xəbər aldı ki, sən buranın adamısan, yoxsa başqa yerin adamısan, mən ona dedim ki, yox, buranın adamı döyüləm, başqa yerin adamıyam. Mənim də əmim oğlu var burda, padşah oğludu. Əmim məni göndərif ki, xəlvəti gör, gendən hərrən bax, gör uşax öləjək, qalajax, məə xəbəri tez çatdır. Mən də bu məqsədə gəlmişəm. Diyəndə bir qədərdən sora o uşax məə didi ki, get əmin oğluna denən ki, burda sual-cavab başlanajax, kim qabaxcadan güləşmək isdiyir söhbəti gedəjək. Özü sual-cavab başdamamış padşahdan icazə alsın, disin ki, birinci mən başdıyajam güləşməyə, ya öləjəm, ya qalajam, qorxmasın. Düzü mən özüm qorxdum getməyə. Ona didim ki, mən ora gedəmmərəm. Məni görsə, padşah məni dara çəkdirər. Olmaz. Heş kimin adamı yoxdu burda. Mən də qıraxda-bucaxda xəlvəti gəzirəm. Diyəndə mənə bir kağız bürmələdi verdi, didi ki, get, arxeyin sözüü de, gəlginən, qorxun olmasın. Mən ona sual verdim ki, bu kağızı verməknən məni görən olmujax. Didi, yox. Həqiqi də getdim də, söhbət elədim də, qayıdıf gəldim, bir söz-söhbət olmadı. Demək, məni görən olmadı».

Padşah fikrə getdi, didi: «Bala, hər sözəə inandım, otuz-qırx santı uzunnuxda körpənin belə danışmasına, belə söhbət eləməsinə, padşah olmasına inanmadım. Ağdaşın padşahını mən çox yaxşı tanıyıram, adı da filandı, filankəsdi, qardaşı budu, vəziri budu». Bir neçəsinin də adını saydı. Didi: «Axı o Ağdaşın padşahı ola bilməz. O padşah çıxmış olsa, hamımız bilərik ki, o ölkənin padşahı çıxıb padşahlıxdan». Didi: «Nə bilim mən, məə didiyi budu, mənnən xəbər alırsan, mən də səə olduğunu diyirəm». Didi: «Lap yaxşı. Qoy bu gəlin üzəçıxdı olsun, dəmə-dəsgahnan gedəjəm onun hüzuruna. Burda bir hak-hesab var».

Bəli. Beş gün, on gün, on beş gün, qırx gün tamam oldu, gəlin gəldi. Gəlini üzə çıxartdılar, nağardılar. Padşah didi ki, vəzir-vəkilə, yaxşı fayton bəzədin, gəlini də, oğlumu da götürüf gedəjəyik Ağdaşın padşahının yanına, qonağı olajayıq bir gejə. Bəli, hamı hak-hesabı bildi, ehtiyat eləməkdə olsun. Uşax nökərinin birini göndərif, didi: «Get atama dinən ki, sabaha yüz iyirmi nəfərlik qonax yeməyi düzəltdirsin. Sabah yüz iyirmi nəfər qonağı olajax». Padşah bilmirdi, bu hara getdi, hardan gəldi. Burda məsələni öyrəndi, qalib oğlan oldu, onnan sora çıxdı getdi. Heş bir kəs də xəbər almadı, nə də bu demədi hara getmişdi. Anası da xəbər almadı, a bala, bu üş günü harda oldun. Ana da qorxurdu unnan danışmağa ki, bu nə görəjəkdi? Getdi padşaha didi ki, bəs oğlun diyir ki, sabahları qonağı olajax, yüz iyirmi nəfərlik yemək-işmək hazırlasın, ağır qonağı gələjək. Filan ölkənin padşahı gələjəh. Da dimədi ki, nə məqsədə gələjəh. Bəli, səhərə ürəyin istəyən yiməh, işməh, çalğıçı, oynamax, rəkqasə, filan-peşməkan, dəmədəsgah düzüb qoşdu. O ölkənin padşahı bura gəldi. Dedi: «Sən ölmüyəsən, buların deyəsən xeyir işi var, burda dəmədəsgahdı. Hər yer bəzənib, aşıxlar yığılıb, rəkqasələr yığılıb, burda nəsə bir hak-hesab var. Gəlhagəl, buları möhkəm qarşıladılar, çəkdilər məclisə, yemək-işmək... Bu qonax gələn padşah Ağdaşın padşahınnan xəbər aldı ki, axı sizin nə məclisiniz var belə ehtiyatdı olmaxda, biz də gəldik deyəsən sizə mane oldux». Dedi: «Bizim heş bir məclisimiz yox idi. Bizə dünənnən birinci padşah tapşırıx veribdi ki, sabaha yüz iyirmi nəfər qonax olajax, yaxşı oları qarşılamax üçün ehtiyat eliyin. Biz də hər bir ehtiyatı görmüşük. Sən də birdən-ikidən mənə qonax olmamısan, sizdən ötəriydi». Əyildi padşaha guya xəlvəti, deyir, dedi: «Padşah, mənim uşağım da, qardaşımın uşağı da mənə söhbət elədi, birinci padşah kimdi, mən səni tanıyıram padşah. Məə dedi ki, bəs otuz santı, qırx santı boyu var, filan ölkənin, Ağdaşın padşahıdı. Söhbət elədi,

inanmadım. Ağdaşın da padşahı sənsən, bu nə padşahdı». Dedi ki, onun yeri döylü hələ ki. Onun yeri döylü, mən padşahlıxdan qutarmışam. Padşahlıx u uşaxdadı. Onun dediyinə mən əməl eliyirəm baş vəzir kimi. Amma camaat içində adım padşah gedir. Dedi: «O uşağı görmək olarmı?» Dedi: «Tələsməsəz, hər hal gələjəh».

Bəli. Yidilər, işdilər, kef duraldı, başdadılar rəkqasələr çalmağa-oynamağa, kefdə-keyfiyyətdə. Uşax öz vəzirinə dedi ki, mənim şah paltarımı gətirin, məclisə gedəjəm. Bunun şah paltarını gətirdilər, geyindi-gejindi, durdu getdi məclisə. Bu vaxtı Kürdəmirin padşahı gördü, bu boyda bir şey gəlir. Həqiqi 30-40 santı hündürlüyündə, amma geyimi şah geyimidi, padşah geyimidi. Gəldi bulara salam verdi. Kürdəmirin padşahı dedi: «Hə, qardaşım oğlu diyən budu». Hamısı durdu ayağa bunnan görüşdü. Yuxarı başa ustol qoyuldu. Hamıdan yuxarı başda keşdi bu oturdu. Kürdəmir padşahının atdarı düzülmüşdü bəridən arı. Hamısı arpa-saman yeyir. Söz-söhbətdən sonra Kürdəmirin padşahına dedi ki, bir hörmət mən səə eləmişəm, bir minnət də sən məə elə. Dedi: «Mən səə hər bir vaxtı minnətdaram. Ömrümün sonuna qədər nə qulluğun var, hazıram qulluğunda». Diyəndə dedi ki, u qıraxda bağlanan üstü qotazdı, xalçalı at kimindi, madyan at? Dedi: «Mənimkidi». Dedi: «U at on altı günnən sonra balalıyajax. Qabax ayaxları ikisi də səkil olajax, erkəh də balası olajax. Onun balasının bir dənə tükü yerə düşsə bil ki, ölkəə viran eliyərəm. O məə çatmalıdı». Dedi: «Mənim gözüm üstə. İstəyirsən heç aparmıyım, qalsın burda». Dedi: «Xeyir, balası lazımdı, bildinmi?» Dedi: «Bildim». Dedi: «İndi məə icazə verərsizmi, mən getməliyəm, anam evdə təkdi». Dedilər: «Get». Bu gedənnən sonra Kürdəmirin padşahı dedi ki, a qardaş, vallah, utanıram xəbər almağa, kefəə-zadaa dəyər eliyər, bu kimdi, nəçidi? Dedi ki, bunun söhbəti ağırdı, mən səə o dərəcələri açıxlamıyajam. Bir dənə arvadımdan narazıydım. Boşuyub qırxıncı arvadı tamam eləmək üçün onun yerinə arvad almışam, bu onun uşağıdı, qırxı təzə çıxıb. Altı aydan sonra qarnında danışırmış. Qorxusunnan heş kimə bildirməyib. Bax bu uşağın qırxı təzə çıxıb. Bəs filan ölkənin padşahı, üstümə iki dəfə qoşun çəkibdi, bir şey eliyə bilməmişik. Üçüncüdə məə namə göndərdi ki, oğlum yetişibdi, məə diyiblər ona daşdan bəy paltarı tikdir. Məə belə bir namə göndərmişdi. Çox aciz qaldıx. Heş bir cavab verməyə imkanımız olmadı. Bu uşax da olduğu on altı gün idi. Bəs bu uşax bizi qurtardı dardan. Elə bir cavab verdi ki, hələ də səsi gəlir, gənə də. Çəkildilər öz yerlərinə. Deyir: «Hə. Padşah, Allah-

tala dövləti səə təzədən verib. Bu uşaxdan muğayat ol, bu uşax hamımıza lazım ola bilər».

Nəsə, bular qaldılar, bir gejə də yidilər, işdilər, sağollaşıb, getdilər. On altı günün tamamında at balaladı. Padşah gedənnən atı nəzarət altına aldırmışdı ki, görüm bu erkəh balalıyajaxmı? Qabax ayaxlarının ikisi də səkil olajaxmı? At balaladı, xəbər gəldi padşaha. Nökər dedi ki, padşah sağ olsun, atın balalıyıb. Yaxşı bir yaraşıxlı erkək qulunu olub, iki ayağı da səkildi. Dedi: «Hə. Una elə baxırsan, onun üstünnən yel əsmir. U paydı». Atın balası bir ay olanda nökər göndərdi adamlarını ki, gedin diyin atı göndərsin. Getdilər. Amma padşah sirr eliyirdi. Dayça bir aylıx idi, baxan deyərdi bir illik idi. Belə sürətnən dayça böyüyə bilməz axı. Nəysə, dayçanı gətdilər buna. Bir-iki ay dayçaya baxılannan sonra nökərə dedi ki, gedin mənim öz dayçamı yəhərləyin, səfərim var. – «Ə, bu nə danışır? Körpə dayçadı, bunu nətər yəhərləyək, qoyarmı yəhər qoymağa». Getdilər dayçanın yanına, yəhər apardılar. Guya xırda yəhər apardılar ki, özünə qərəl olsun. Getdilər baxdılar, gördülər ki, yox, dayçaya yəhər xırdalıx eliyir. Yəhərlərdən birini götürdülər, apardılar, seçməsini, yəhərlədilər, yüyənnədilər, gətirdilər uşağın hüzuruna. Atı mindi, gənə heş kəsə yox, anasına dedi ki, ana, mənim üş günnük səfərim var. Üş gün məni gözləmə. Getdi. Minib həmən dayçanı, dayça yox, dayça uje at həddinə çatıbdı. Sürətnən böyüyübdü. Birinci gedib dayçanı buna bağışdayan padşahın şəhərinə. Görüllər bunu çox təntənəynən qarşılıyıllar. Gejəni qalır. Səhər bu çıxanda padşah deyir ki, bəs məə tayallıx sözünnən-söhbətinnən? Deyir: «Mən anamdan qeyri heş bir kəsə söz diyən döyüləm, getdiyim yeri, vaxtı diyən döyüləm. Başqa yerə gedəjək yerim var».

Bəli. Görüşür bularnan, halallaşır, düzəlir yolun ağına. Hası ki, qızını oğlana verən padşahın öyünə gedir. Gedir padşahın öyünə, deyillər ki, atın belində 30-40 santı uzunnuğunda bir dənə çağa deyir ki, mən padşahı görmək istəyirəm. Padşah maraxlanır, deyir ki, gedin gətirin. Gəlillər bunun yanına, tullanır atdan, düşür yerə. Atı verir padşahın nökərinə, deyir: «Ata yaxşı kişmiş, xurma qoyun ha, arpasaman yox». Hamısı bir-birinin üzünə baxır ki, bunun özünə bax, əmrinə bax. Bu nə diyən sözdü? Biz öz padşahımızın atına kişmiş, xurma vermirik. Aparıllar atı içəri. Girib padşaha salam verir, görüşür. Padşah yer göstərir, özünnən yuxarıda bunu otuzdurur. U padşah zirək olur. Deyir, bu tonda uşax olmaz. Oturallar. Deyir: «Padşah, bir kəlmə

bərayi-ehtiyat söz dimək olar sizə?» Deyir: «Buyur, niyə olmur ki?» Deyir: «Nökərlərəə belə tapşırmışam, atın qabağına arpa-saman qoyub. Dinən arpa-samanı götürsünnər, kişmiş-xurma versinnər ata. Arpa-samana öyrətməsinnər atı». Padşah çox fikrə gedir, çaparağı vəzirə deyir: «Vəzir, dur get gör atın qabağındakı nədi? Axı ola bilməz, siz kişmiş-xurma demisizsə, kişmiş-xurma verəllər». Deyir: «Arpa-saman qoydular ki, biz öz padşahımızın atına kişmiş-xurma vermirik». Vəzir durur gedir, baxır görür ki, həqiqi, atın qabağında arpa-samandı, amma yimir. Deyir: «Əyə, öyüüz yıxılsın, kişmiş-xurma gətirin qoyun, sən ölmüyəsən, bu bir tikə ət bildi». Gətirillər kişmiş-xurma qoyullar ata. Vəzir gəlir. Deyir ki, dedinmi? Deyir: «Dedim». – «Atın qabağında nə var idi?» Deyir: «Atın qabağında arpa-saman idi, götüzdürdüm». Padşah gənə təşvişə düşür. Deyir: «Bu uşax döyül, bu bir möcüzədi, bunda bir iş var». Çox ixtilat, söhbət, ayan-bayan, yiyillər, içillər, yatmax məqamı gələndə, padşah deyir ki, qonaxdan xəbər almazlar hara gedib, hardan gəlirsən. Bala, məə tayallıx bəlkə qulluğun-zadın varsa, qulluğuu bəri başdan deynən, mən də bilim işimi. Vəzir də buların yanındeydi, vəkil də. Dedi: «Padşah, vəzir də çıxsın, vəkil də». Dedi axı... Axı diyəndə dedi ki, mən dedim bular da çıxsın, axısı yoxdu bunun. Padşah axı deyəndə demək istəyirdi ki, axı bular mənim baş vəzirim, baş vəkilimdi, bulardan ayrı sirrim olan döylü. Bunu deməh istəyirdi, imkan vermədi. Çıxartdı buları da. Dedi ki, Kürdəmirin padşahına qız vermisən? Dedi ki, vermişəm. Dedi ki, u qızın uşağı olacax. Uşağın adını qoyarsan Şöhrət. Sonra uşax sizi təşvişə salmasın. Uşax hakqında təşvişiz olmasın. Mənim səə deyəcək sözüm bu. Bunnan qeyri sözüm-söhbətim yoxdu. Padşah istədi ki, xəbər alsın, təşviş nədi, burda nə məqsəd daşıyır, cəsarət eləmədi. Amma oğlan bildi qəlbinnən belə söhbət keçirməyini. Dedi: «Padşah, sual var ona mən cavab verə bilərəm, sual var heç dilə gəlməsə yaxşıdı. Qəlbində heç bir şey dolandırma. Səə dedim ki, qızın uşağı olajax, oğlan uşağı, uşax sizi təşvişə salmasın. Qeyri bir tapşırığım yoxdu. Uşağın da adını Şöhrət qoyarsan». – «Baş üstə».

Vaxd gəldi çatdı, qız altı aylığınnan keçənnən sonra baxdı ki, bətnində uşax danışır. Ay aman, ay dad, mən bunu kimə diyim, nətər eliyim, nə cür deyim? Bunu mən dijəm, bəlkə məni öldürdülər, bəlkə mənə inanmadılar. Çox təşvişdən sonra bildirmir. Bir qədər dayanır, o vaxda qədər ki, qızın qulağına çatır ki, padşahın oğlu ikinci arvad almax istəyir. Qızın qulağına çatan axşamı uşax danışır, anasına deyir ki, ana, ərəə denən ki, evlənməsin. Evlənsə, başına ağır qəzalar

gələjək. Qız təşvişə düşür. – «Allah, bu nə işdi mənim başıma gəldi. Mən bunu kimə deyim. Kim mənə inanajax?» Nəysə, kənizlərin birinə sirr verir. Sirr verir, deyir ki, uşax mənim bətnimdə altı ay keçənnən danışır. Bu nə hak-hesabdı bilmirəm. Bəlkə sizin hamınızda belə, şəriyət uşağıyıx, söhbət olmuş olar. Deyir: «Yox ey, eşitməmişəm, ola bilməz. Bəlkə ağır yatmısan, yuxu görmüsən, elə hiss eliyirsən». Deyir: «Yox». Nəhayət kənizinnən xəbər alır ki, eşitdim ayləm evlənmək istəyir. İkinci arvad ehtiyatını görür. Deyir: «Hə». Deyir: «Una dinən ki, bətnimdə uşax deyir ki, una diyin evlənməsin, evlənsə başına ağır qəza gələjəh». Kəniz deyir ki, vallah, ay gəlin, bunu mən deyə bilmərəm. Əvvəla, mənə inanan olmaz, sonra da ki, qaynatan qəzəbli bir adamdı, boynumu vurdurar ki, sübut elə. Mən nəynən sübut eliyim bu sözü. Sən nəynən sübut eliyərsən. Deyir: «Yox, sən de, mən sübut elijəm». Gedir, nəysə, deyir baş vəzirə, baş vəzir padşaha deyir, padşah oğluna deyir. Oğlu deyir ki, kim təsdiqləyə bilər bu söhbəti. Deyir: «Aylən ismarış eliyib ki, mən təsdiqləyə bilərəm». Gəlir axşam, deyir ki, belə bir ismarışın çatıbdı məə. Bu nə söhbətdi. Deyir ki, sən mənim ayləmsən, özgə deyilsən, hər dərdimi səə deməliyəm. Altı ayımın tamamınnan sonra uşax mənim bətnimdə danışır. Uşax eşidib sənin evlənmək istədiyi, məə tapşırıx verib, diyib ona diyin evlənməsin, evlənsə başına ağır qəza gələjəh. Hindi mən səə evlənmə diyə bilmərəm. Amma belədi hak-hesab. Diyəndə oğlan deyir: «Oldu». Oğlan o saat məsələni başa düşür. Deyir: «Bu uşağın bura gəlməsi, atama belə deyib getməsi, demək bular hamısı uyğun gəlir. Ola bilsin ki, belə bir möcüzə də bizim başımıza gələjək».

Nəhayət, bu uşax dünyaya gəlir. Muştuluğa adam gedir üstünə ki, bəs padşahın oğlunun oğlu olub. Deyir: «Hə. Adını gənə deyirəm, Şöhrət qoysunnar. O dünyaya gəldi, mən getməliyəm». Üş günnən sonra bu ölür. Öləndə atasına tapşırır ki, nə işin olsa u uşaxnan görərsən.

Nəhayət, pahşahın üstünə bir neçə dəfə gəlillər, bu uşax kömək eliyir. Bir gün bu padşahın vəziri istəyir ki, padşahın yerinə keçsin. Nə qədər hiylə işlədirdi, tutmurdu. Bu uşax dünyaya gələnnən sonra bu fikirdən təmiz qorxurdu ki, bu məə çatası olmadı. Bir günü bu vəzir hiylə qurur. Deyir: «Bu uşağı görün dilə tutub odduya bilərsiz. Bunu yalnız oddamaxnan öldürmək olar, qeyri şeynən yox. Bu uşax burda danışanda orda bilir. Orda bilir hakqında nə ölçü gedirsə. Anasına deyir ki, ana, mən səfərə çıxajam, məni gözləmə. Səfərə

çıxır uşax, gedir, harda ki, fərzi tamam idi, təmiz bir dağda özü-özünnən alışıb yanır. Axı bular dünyaya görk üçün gəlib. Bu görkə qarşı da vəzir belə eləmək istəyirdi, bu da baş tutmamışdı. Baxdı gördü ki, qalası olsa, günah eliyəjəh. Günah da bulara olmaz, icazəsi yoxdu, odu ki, Allah tərəfinnən qəlbinə düşdü ki, gedəjəm filan dağda gəzməyə. Dağda gəzdiyi yerdə beyqəfildən özü-özünnən alışdı yandı, yox oldu. Bax, bu nağıl da belədi, burda da qutarır.

## ƏJDAHA QIZ

Bir oğlanın birjə dənə bajısı varmış. İstəyir yox eləsin qızı. Qız əjdaha olubdu, harda nə var tutub yiyir. İnsan, qoyun-quzu elə belə yiyir. Oğlan deyibdi ki, bajı, gəl səni aparım. Min ata gedəh. Bunu qoyub ata, götürüb gedib bir dağın bir tərəfinə. Bir kahaya bunu qoyub, çıxıb gəlibdi. Bu burda neynən dolanıb, nağarırsa... Günnərin bir günü balaca qardaş deyir gedəjəm görüm mənim bajımı hara qoydu böyük qardaşım aparıb. Gedib görür ki, bir kahada neynən üstünü örtübsə, içində yaşıyır. Bunun yanı sür-sümük, heyvannan, nə yiyibsə, dolubdu. Qardaşı gedir açır qapını, bunu tanıyır. Atnan gedir. Deyir: «Atı bağla ora, gəl bəri». İriləşibdi deyir, da əjdahadı. Nə boyda olubdu. Atı bağlıyır gedir bu oğlan. Görüşüllər, öpüşüllər. Az oturur, çox oturur. Gedə baxır ki, bunun gözləri də çaxmax çalır, uje da dönübdü. Durur gedir çölə, hərlənir gəlir. Atın bir qılçasını yiyir. Qayıdır gəlir. – «Bajın ölsün, sən üç qılçalı atla gəlmişdin?» Deyir: «Hə, nağarım. Üç qılçalı atla gəlmişdim». Az qalır, çox qalır, durur bir də çıxıb gedir. Ajıbdı, yidiyini əritdi. Gedir gəlir: «Bajın ölsün, iki qılçalı atnan gəlmişdin?» Deyir: «Hə». Uje oğlan annadı ki, bu, həmin əjdaha olubdu. Bir də gedir, bir budu da yiyir. İkinci bir də gedir, o biri budu da yiyir, gəlir. Qayıdır gəlir: «Bajın ölsün, sən kəlləynən gəlmişdin?» Deyir: «Hə». Durur yavaşcadan bu oğlan çıxır burdan. Az gəlir, çox gəlir, amma burdan da ona göyərçin tük veribmiş. – «Əgər bərkə düşsən, bu tükümü yandırarsan. Tük yananda, yanında hazıram». Oğlan görür ki, qız gəlir dalıncan. Bunu da yijəhdi. Bunun dalıynan gəlməhdə tez yadına düşür. Zehinni uşax idi. Tükü yandıran kimi bir vaxt görür iki dənə it yanında hazır olur. Göyərçin göndəribmiş. Dartana deyir: «Dart». Dartır bu qızın bir leşini bayna tulluyub, bir leşini ayna tulluyub. Bunnan bir damcı qan bu uşağın şapqasına düşür. Oğlan yavaş-yavaş gəlirmiş. Bir az qabağa gəlir, görür bir yekə dəstə qoyun var qabağında. Qoyun

sürüsünü belə holuyur, belə holuyur. Bir vaxd görür, aaz, başını nəsə deşir bunun. Qan düşüb axı ora. Orda uje özünə yer elədi. Uşağın beyninə girməh istəyir. Uşax tez şapqanı alır, kirpit vurub tulluyur ki, yansın, bu mənnən aralansın. Heyləcə oğlan çıxıb gəlir öyünə. Atasının öyünə gəlir. Görür bir dəstə qoyunnan oğlan gəlir. – «Bala, bajıı tapmadın?» Dimir ki, belə bir hadisə başıma atımnan bərabər bu gətdi.

## YEDDİ QARDAŞ DİVİN PİŞİYİ

Kişinin bir oğlu olur, bir qızı. Oğluynan çıxır gedir harasa. Gələndə oğluna deyir ki, get bu qızı öldür, qannı paltarını məə gət. Bu Alıxanda da var, amma bu ayrısıdı. Bunnan sonra mən kəndə gedim. Nəsə, gedir, yazığı gəlir, bunu öldürmür. Gəlir öyə. Deyir: «Niyə öldürmədin?» Deyir: «Yazığım gəldi». Deyir: «Bajıı da göt, çıx get öydən». Nəysə, bajısını da götürüb çıxır gedir. Bir biyabannıxda başdıyır bajı-qardaş dolanmağa. Bir gün şah görür belə bir qız var. Bunu almax fikrinə düşür. Almax fikrinə düşəndə, deyir, bu yəqin qüvvətdi adamdı da. Bir qarını sırışt eliyir qızın canına. Deyir ki, sən qardaşına deyirsən ki, mən azarlamışam, get bayanda bir bulax var, ordan məə su gət. Nəsə, bu suya gedəndə bir kişi irast olur, hak əhli. Deyir: «Hara gedirsən?» Deyir: «Bajım xəstədi, su gətirməyə gedirəm». Deyir: «Onda get». Gələndə deyir: «Oğul, gəl bizə qonax ol, uzax yerdən gəlmisən». Deyir: «Yaxşı». Aparır bu suyu boşaldır, götürür ayrı sudan tökür bunun qabına. Sabannarı salır yola, çıxır gedir.

Aradan bir az keçir, qarı deyir ki, filan yerdə iki dənə erkəh var, biri ağ, biri qara erkəh. Dinən qara erkəyin quyruğu məə dərmandı. Get gət. Nəsə, gedəndə gənə irast olur. Deyir: «Bax, oğul, u bulağın başına müəyyən satda gələjəhdi. Orda vurub quyruğunu sala bildin, saldın, salammasan tutmax çətindi». Nəsə, pusur, görür gəldi iki erkəh. Xançalnan bu qara erkəyin quyruğunu salır yerə. Salanda götürür gəlir. Gəlir gənə haman kişi irast olur. Deyir: «Oğul, məə qonax ol». Bu quyruğa oxşuyan bir qoyun kəsir, quyruğu bunun xurcununa qoyur, o quyruğu saxlıyır.

Aradan bir az keçəndə qız deyib: «Yeddi qardaş döyün bir pişiyi var, unu gətirə bilsən, onun qanı məə dərmandı». Gedəndə kişi yenə irast olur. Deyir: «Oğul, olardan sən pişik gətirəmməzsən. O bajın səni öldürməyə əlləşir. Amma qorxma da, gedirsən, get. Olar nə-

riltiynən, gurultuynan gələjəhdi. Sən heş dala baxmaginən. Bir az dalınnan gəlib da gəlmijəhlər». Gedir bu pişiyi götürüb gələndə, hə, bir az səs-küy... Pişiyi də gətirir.

Nəsə, padşah görür ki, bu bunun hamısını elədi, qarıya deyir ki, soruşsun görək onun güjü harasındadı. Deyir: «Qardaş, səən güjün harandadı?» – «Mənim güjüm qolumdadı». Deyir: «Yeddi qat kotan zənciriynən sarıyım, görüm qıra bilərsənmi?» Sarıyıb kotan zənciriynən. Dartan kimi kotan zənciri qırılır. Deyir: «Qardaş, bəs sən nəynən qırammazsan?» Deer ki, bəlkə sijimi qırammıyam. Qarıya deer: «Sijim». Sijimnən bağlıyır. Deyir: «Bajı, qolumu aş, sijim qolumu kəsir». Aşmır. – «Bajı, qolumu aş. A bajı, qolumu aş». Gəlillər bunu öldürüllər. Sijim sümüyə dirənir axı. Öldürənnən sonra bunu tullamağa aparanda bayax u qoja kişi buna irast olur. Deyir: «Bunu verin məə, niyirsiz, meyitdi, mən basdıraram». Bunu aparır qoyur namaz qıldığı xalçaan üstünə. Doğram-doğram eliyillər da. Ayağı ayax yerinə, başı baş yerinə qoyur. Bu erkəh qara qoyunun quyruğunu əridib tökür bura. Bu olur suvarka kimi yapışır. Bu suynan bunu yaxşıca yuyur. Nətərsə ağzınamı, harasınamı bunu bu eliyir. Deyir: «Oğlum, səə dedimmi bajın səni öldürməyə əlləşir». Unnan sonra durur gəlir şahdan qisasıın alır.

Bunu uşax vaxtı eşitmişəm. U vaxtı Ənvər deyilən oğlan var idi. Mən traktor işdədirdim, u su suluyurdu. O, ixtilat eliyirdi.

## BİBİLCANIN NAĞILI

Biri vardı, biri yoxdu, bir kətçi olur. Bunun da bir dənə qızı olur. Bu qızın anası ölənnən sonra kişi gedir bir arvad alıf gətirir. Qızın adı Bibilcan olur. Aldığı arvadın qızının adı Fatma olur. Bir günnəri buna yun verir ki, apar get, həm malı güd, həm də dara, rahla, gət axşama. Bu da heylə eliyirmiş. Ha bir gün belə, ha iki gün belə. Bir günnəri gəlir bunu yel götürür gedir bir qarının komasına. Əstəfirillah, bu nağarsın? Yel götürür gedir, tərpənir bunun dalıycan gedir. Diir:

Əlçinimi ver baba,
Qurban olum, yel baba.
Əlçinimi ver baba,
Qurban olum, yel baba.

Diyə-diyə gedif bir kahaya rast gəlir. Əlçinini bura aparıf da külək. Qapıdan içəri girəndə, buuy, biheybət arvada rast gəlir. Diir ki, ay nənə, qurban olum səə, məən əlçinimi yel baba bura gətirif?

Diif: «Hə». Diif: «Mənim əlçinimi ver daa gedim. Ögey anaan əlindəyəm, məə dalaşar». Diyər ki, gəl məni doyunca çimizdir, əppəh bişir məə. Bunun hamısını qız eliyir. Əppəh də bişirir, onnan sora bunu yaxşıca çimizdirir də. Bu səfərrəri diyir ki, ələə iki vedrə götürərsən, ordan iki dənə arx axır: biri ağ, biri də qara. O ağ arxın suyunnan təmiz üzüü, əlii, qılçaa yuyarsan, qara arxdan da kipriklərə, başaa çəkirsən ki, qara olsun da. Heylə eliyir, gəlir. Diyir: «Ay nənə, indi verirsənmi gedim?» Diif: «Nola, bu gejə qal, ojağımı-zadımı qala, məə köməh elə». Diyir: «Yaxşı». Diyir: «Mən yaxşıyam, yoxsa anan yaxşıdı?» Diyir: «O nə sözdü, sən yaxşısan». Nağarsın, əlçiniin dərdinnən. Diyir: «Mənim belim yaxşıdı, yoxsa anaan beli?» Diyir: «Əlbəttə ki, sənin belin». Diyir: «Mənim başım yaxşıdı, yoxsa anaan başı?» Diyir: «Əlbəttə ki, sənin başın yaxşıdı».

Neysə, gejəni qalır burda. Sabannarı durur ayağa, əlçinini verir, götürür gəlir. Gəlir öyə çatır. Arvad pəncərədən baxır ki, ay balam, bu gələn görəsən Bibilcandı? Neysə, baxır, diyir ki, mən bunu oxşatmıram axı o qıza. Gəlhagəl görür həmən qızdı. Diir: «İndi sən qal öydə – bir çanax darını tökür məhləyə, – sən dənlə, bu qız getsin malı da güdsün, əlçini də ayırsın».

Əlçini də aparır, gedir darıyır, gəlir, bunu da heylə külək götürür aparır. Diir ki,

Əlçinimi ver baba,
İçə sıçım, yel baba.
Əlçinimi ver baba,
İçə sıçım, yel baba.

Gedir həmən kahaya rast gəlir, qız girən yerə. Arvada ajıxlı-ajıxlı diyir ki, əlçinimi ver. U da diir ki, a bala, əlçin-yaz görməmişəm. – «Bilmirəm, mənim tez ol əlçinimi ver». – «İndi ki isdiyirsən, yaxşı eliyirsən. Gəlginən su qoy, məni yaxşı çimizdir, başıma bax, paltarımı yu». Diif: «Bah, bilməmişdim, səən nökərinəm? Eləmirəm». Diif: «Elə». Diif: «Yox, eləmirəm». Nəsə, pisə yaxşı, diir: «Mənim belim yaxşıdı, yoxsa anankı? Diir: «Sən nə poxsan ki? Anamın beli yaxşıdı». Diif: «Helə?» Diif: «Hə». Diif: «İndi gedirsən, iki dənə arx axır ordan: biri qara arx, biri ağ arx. Gedirsən u qara arxda, yaxşı-qəşənh üzüü-əlii təmiz yuyursan, bu səfərrəri ağ arxdan da qaşdaraa, başaa çəkirsən. Suyunnan da dolduruf gətirirsən, gejə qalırsan. Diif: «Yox, qalammaram, anam məni gözdüyür, əlçinimi ver». Gəlir, arvad baxır, görür qız qız döyül. Qapqara, başı ağ, kipriyi ağ, gözü ağ. – «Əyə, bu nə işdi mənim başıma gəlir?» Neysə,

belə olur qayıdır. Bu səfərrəri arvad diir ki, bu qız çıxmalıdı məhlədən. – «A balam, bir dənə qızdı, biz bunu hara eliyək, nətər eliyək?» Diif: «Yox, elçi gəlsə onu alajaxlar, bu qalajax».

Bəli. Kətdə toy olur, qızı götürüf gedir. Qıza da deyir ki, bax bu çanax darını tökürəm, onun hamısını dənniyərsən mən gəlincən. Toyuxlar da buna köməh eliyir, dənniyir də. Arada bir oğlan gəlir, sarı atdı. Qıza deyir ki, al bu paltarı gey, toyda oyna, danış, gül. Qız da paltarı geyinir, gedir. Yaxşı orda oynuyur, danışır, gəlir. Axşam gəlillər öyə, diir: «A balam, bu, darını dənlədi, bəs ora qırmızı paltarlı qız getmişdi, kim ola, nətər ola?» Bunun da başmağının tayı düşər yolda. Bunu da axtarallar. – «Ay Allah, bu başmax kimin ayağına gələ, nağayra?» Bu qızın da əlini, ayağını bağlıyıf tulluya təndirə analığı da, tulluyuf təndirə. Qıza elçi gəliflər ki, kimin ayağına gəlsə, onu şah oğlu Şah Abbasa alajayıx. Kətdə kimə deyiflərsə, olmuyuf. Gəlif bu məhləyə çıxıflar, diiflər. Arvad diif ki, bizdə bir qız olur. Ordan xoruz çıxıf təndirin üsdünə başdıyıf bəynəməyə ki,

Qukqulu qu,
Fatma bajım təndirdə,
Əl-ayağı kəndirdə.

– «Ay Allah, bu nə deyir?» Kişi də məhlədədi, qızın dədəsi. Gedif görüllər qızın əlini-ayağını bağlıyıf tulluyuf təndirə. Çıxardıflar, ayakqabını geyif. Onnan sorasına gəliflər bunun elçiliyini eliyif, qızı alıf aparıflar, qırx gün, qırx gejə toy eliyiflər, yaşıyıflar. Onlar orda yaşasın firavan, biz də burda.

## AXSAXCA CEYRAN

Biri vardı, biri yoxdu, bir dənə kətçi oluf da. Kətçinin də gəlif arvadının iki uşağı oluf: biri oğlan, biri qız. Qızın adı Bibilcan oluf, oğlanın adı da bilmirəm, Məhəmməd oluf deyəsən, Məhəmməd. Nəysə, buların anaları ölüf. Uşaxlar yekəliflər. Anaları ölənnən sonra kişi gedif öylənif da, arvad alıfdı. Arvad alıf, bu arvad da bu uşaxlara Allahın gününü vermiyif da, ögey anadı, Şəhla (Gəlnini nəzərdə tutur – top.) mənə vermiyən kimi. Neysə, görüf yox. Bu uşaqları bu arvad tələf eliyəjəhdi. Qız diif ki, qağa, gəl qaçax. Öydən çıxıf qaçax. Qaçıf geeflər ey, nə bilim, çölün düzünə-zada çıxıflar. Qardaşı diif ki, ay bajı, susamışam, susundan yanıram. Diif ki, işmə, it irizidi, it olarsan. Bir az geeflər, gənə rast gəliflər. Diif ki, işmə, at irizidi, at olarsan. Nə başıı ağrıdım, geef çıxıflar bir dənə ceyran irizinə. Diif: «Qardaş, işməginən,

ceyran irizidi, axsax ceyran, sən axsax ceyran oljaxsan». Diif: «Yanıram, işməliyəm». Bəli, bu içif oluf bir dənə ceyran, axsax ceyran. Gediflər, bir dənə dərəyə irast gəliflər. Bu dərənin də qırağında bir dənə ağac oluf. Qız çıxıf ağacın başında oturuf qorxusunnan da. Amma bu ceyran geef otduyurmuş, gəlif bu ağacın divində yatırmış.

Bir günnəri şah oğlu Şah Abbas vəzirləri ilə atı götürüf gedir sulasın. Geef sulamax isdiyəndə görüf suyun üzünə şögə düşüf, at da suyu işmir. Nəkqədər eliyirsə su işmir ki, burda şögə var. – «Ay Allah, bu şögə hardan düşüfdü?» Ayna baxarlar, bayna baxarlar, nə qədər eliyərsə görməzdər. Birdən vəzirin biri diyər ki, padşah sağ olsun, ağajda elə bil nəsə görükür ey. Baxıf görüflər ağaşda bir qız oturuf, günə deyir sən çıxma mən çıxım, aya deyir sən çıxma, mən çıxım. Şah oğlu Şah Abbas diif ki, düş aşağı. Diif: «Düşmərəm». Diif: «Səə diirəm düş aşağı, görüm sən kimsən, nəçisən, bu ağaca niyə çıxmısan?» Diif: «Vallah, biz bir bajı, bir qardaşıx, – elə orda danışıf da, – bəs bizim ögey anamız bizə Allahın gününü vermiyif, onunçün şey eləmişih, öydən qaşmışıx, gəlmişih. Yolda gələndə qardaşım sussuyufdu, axsax ceyranın irizinnən su içifdi, olufdu bir dənə axsaxca ceyran». Diif: «Zərəl yoxdu, qəbulumdu, düş aşağı». Düşüfdü. Diif ki, sənnən evlənəjəm da, aparıf evlənəjəm. Geefdi. Aparıf evlənif. Ceyran da gündüz otduyuf, gejə burda yatırmış da. Neysə. Gəlib gəlinin boynuna uşax düşüfdü. Qonşuda da bir keçal qız var idi, heş demə bu isdiyirmiş bu şah oğlu Şah Abbası. Bir günnəri bunu toladar ki, gedəh dənizdə çiməh. Gedillər, çimməh isdiyəndə bir az ayana getmiş bunu gumbulumgup itəliyir ki, çıxsın getsin. Bu da gedən kimi, heş dimə naxa balıx var imiş orda, naxa balıx bunu udur. Hə. Ha bir gün belə, ha iki gün belə, keçəl qız da başını-gözünü sarıtdıyıf gəlir. – «Ay aman ölürəm, ay aman ölürəm». – «A bala, noldu səə öləsi oldun?» Diif: «Gərəh mən axsaxca ceyranın ətini yeyəm. Onu kəsəsən yeyəm». İndi qızı itəliyifdi, isdiyir qardaşının da dalınnan dəysin da. Neysə, beləcənə. Bu da diyir ki, aaz, kiriginən, adam da qardaşının ətin yiyərmi? Diyir: «Yox, mən isdiyirəm». Diif: «Helə?» Diif: «Hə». Diif: «Yaxşı, daa nağarax, kəsəh, kəsəh». Kəsməh isdiyəndə ceyran diyir: «Şah oğlu Şah Abbas sağ olsun, ikicə kəlmə sözüm var. Məni ora aparın, dənizin qırağına, ikicə kəlmə sözümü deyim, onnan sora kəsin». Gediflər. Bular da bununla gedifdi. Qız ətcəməçəndi da, öydən pal-paltar götürüflər. Götürmüyüflər hələ. Gediflər. Ordan

ağzını diriyif suya, diyif: «Bibilcan!» Diyif: «Can Bibilcan!» Diyif: «Keçal qız axsaxca ceyranın ətinə yerikliyir axı». Diif:

A qardaş,
Naxa məni udufdu,
Qarğı saçım burufdu.
Bəy oğlu bəy Məhəmməd
Dizim üsdə yatıfdı.

Ora gedən kimi uşağı oluf, adını da Məhəmməd qoyuf. – «Ə, bir də di». Üş dəfə diif heylə. Sora diiflər, torçu gəlsin, çıxardax da bunu. Torçu gəlif, çıxardıflar. Naxanı yarıf çıxardıflar arvadı qarnınnan. Götürüf gəliflər öyə. Qırx gün, qırx gecə təzdənnən bu gəlinə toy eliyiflər, qucağında da uşağı var da. Onnan sora, diyir, keçal qızın da başını qatıxlayıflar, mindiriflər eşşəyə, dalı eşşəyin ağzına tərəf, üzü götünə tərəf, diif: «Get, sənə yaxşı yol». Eşşəyi də çıxardıflar qapıdan, o getməhnən gedif. Olar da burda firavan yaşasın, biz də burda firavan yaşıyax.

Böyüh cijim danışıf, cijimin cijisi.

## DƏMİRÇİNİN ƏHVALATI

Bir padşah var idi. Padşahın vilayətinin yanında bir gözəl qız bir otax tikdirmişdi. Padşaha xəbər verillər ki, padşah sağ olsun, bəs bir qız burda ev tikdirib. Ancax padşaha layix qızdı. Padşah gedib görübdü, doğrudan da, yaxşıdı. Deyib: «Məə gələrsənmi? Mən buranın padşahıyam». Deyib: «Niyə gəlmirəm? Amma səə bir söz dijəm». Deyib: «Di». Deyir: «Dəmirçi var, dəmiri qızdırır, əlinnən tutur qızğın dəmiri. Onnan nə istəyirsə, düzəldir. Get öyrən gəl, görüm niyə onun əlini yandırmır?» Görür doğrudan, dəmirçi dəmiri qızdırır, əlinə alır, başdıyıb bunu işdətməyə. Deyir: «A kişi, bu sənin əlini niyə yandırmır?» Deyir ki, get Ağsuya, orda bir kişi var. Bir arvad şiklidi, bir uşax şiklidi, beş maata sabah satır, axşam on maata ağlıya-ağlıya alır. Get, öyrən gəl, diyim. Gedir, görür, doğrudan, bir kişidi, şikli satır beş maata, ağlıya-ağlıya sonra alır on maata. Deyir: «A kişi, sən özün bunu satmışdın, niyə ağlıya-ağlıya on maata alırsan?» Deyir: «Get, Ağsunun başında bulax var. Yanında bir oğlan oturub. Bulaxdan su çıxdıxca deyir: «Can əmioğlu, məni öldürmə». Get, öyrən gəl, diyim». Gedib görür, doğrudan, su çıxır, oğlan da başını sallıyıb oturub. – «Salam məleyki». – «Əleykimət salam». – «Niyə belə eliyir su?» Dinmədi. Dedi: «Bunu dijəm, bu da məni ayrı yerə göndərəjəh».

Nəsə, axşam olanda hərlənir gəlir bunun yolunun üstünə. Deyir: «Kimsən?» Deyir: «Qərib adamam». Deyir: «Gedəh qonax ol». Gedib qonax olur. Çörəh qoyulur ortalığa. Deyir ki, ixtilatı elə mənə, görüm u su niyə heylə diyir. Deyir ki, biz bir əmoğlu əmiqızı idik. Bir birimizi o qədər sevirdik, o qədər sevirdik. Ha bir gejə oyandım gördüm bu soyuxdu. Ayə, səə nolub belə? Niyə soyuxsan? Deyir ki, mənim qarnım ağrıyır da, çöldən gəlmişəm. Deyir bir gejə bunu pusdum, gördüm ki, mən yuxluyan kimi bu durdu tərpəndi, getdi. Mən də getdim gördüm ki, bu ayrı adamın yanında nəsə deyir. Qayıtdım, gəldim yatdım. Dedim: «Sən yenə soyuxsan». Dedi: «Bəs sənə mən dimədim». Bu məə dedi ki, it ol. Mən, deyir, it oldum. Oldum tula. Bir qotur düşüb. Getdim xalamgilin məhləsinə. Amma adam kimiyəm, hər şeyi hiss eliyirəm. Gördüm ki, xalamın qızı deyir ki, ə, bu quduz dəymiş bura hardan gəldi çıxdı diyəndə xalam dedi ki, sən niyə heylə deyirsən ona. O, səən xalan oğludu axı. – «Bəs u niyə heylə?» Dedi: «Arvad onu tilsimə salıb». Dedi: «Bəs una, ay ana, heş çarə yoxdu?» Dedi: «Çarə var. Bu itdi da, itə nə diyəh. U arvadın döşündə tilsim çubuğu var. U çubuğu u alıb ona vursa, o olcax bu diyən şey, bu olcax adam». Xalam bitimi, birəmi təmizlədi, yudu, gəldim, deyir, məhləmizə. Gördüm, deyir, seyvanda gəzir. Xalam diyən şey də bunun döş cibindədi. Yıxıldım, deyir, əlinə-ayağına, birdən əlimi bunun döş cibinə qoydum, dişimnən bu şeyi çıxardıb belə vurdum. Vuran kimi bu oldu su, mən oldum adam. Deyir, xançalı istəyir ki, vursun bunun boynuna, qonağın ha, tez əppəkdən tıxıyır ağzına. Yiyir, əppəh onun qabağındadı axı. Deyir: «Sən nə bildin ki, bir adam bir adamın çörəyini kəssə, onun başını kəsməzlər». Nəsə, burdan gəlir bu, şikil satana qonax olur. Şikil satan deyir ki, nətəri? Mən danışan kimi danışır. Deyir: «Nə əcəb səni öldürmədi?» Deyir: «Nə bilim, öldürmədi da». Əppəh gənə ortalıxdadı da. Bu şikil satan deyir ki, mənim bu arvadım yaxşı arvad idi. Bir gün padşah bunu hardasa görür. Məə əmr elədi ki, arvadı boşa, mən alajam. Mən arvada dedim ki, padşah belə deyir. Gəl mən səni boşuyum. Arvad deyir: «Gəl sən məni boşama. Padşah məni alammıjax». Deyir: «Nətəri?» Deyir: «Get üş-dört kilo düyü al, una yetdik yağ al. Nə qədər adam varsa, qonax çağır onu. Amma kişi, nahəvərdi, «bəsdi» sözü dimə ha! Nə qədər yiyillərsə daşı apar, yisinnər». Axşamatan deyir mən daşıdım bular yidi, mən daşıdım bular yidilər. Dedim ki, ay arvad, nahəvərdi? Bəs döylü? Dedi: «Ay Allah öyü tiksin, səə dimədimmi ki, məə bu sözü dimə. Mən tilsiməm da. Gedək şiklimizi

çəkdir, yadigar saxla». İndi, deyir, u arvadın şiklidi, u uşağın şiklidi çəkdirmişəm. Birdən deyirəm ki, qoy satım yadımnan çıxsın. Satan kimi başdıyıram ağlamağa, təzdən alıram. İstəyir ixtilat qutaran kimi xançalı vursun, genə əppəhdən tıxıyır ağzına.

Gəlir dəmirçinin yanına. Dəmirçiyə qonax olur. Şikil satanın əhvalatını da buna danışır. Deyir: «Nə əcəb səni öldürmədi?» Deyir: «Nə bilim, öldürmədi da». Əppəh gənə ortalıxdadı. Deyir: «Mən okqədər varlıydım, pulluydum, mallıydım ki. Bir gün deyir ajdıx oldu, aləm gəldi mənnən sələminə borc aldı, buğda ha. Bir gün də gördüm bir gəlin gəldi. Dedi: «Məə buğda ver. Mənim iki balam var, ajınnan ölür». Baxdım gördüm, deyir, yaxşı gəlindi. Dedim, deyir, belə eləsəh verərəm. Bu gəlin çıxdı getdi deyir. Danayı günü gəldi dedi ki, balamın biri öldü ajınnan. Bir put yarım ver. Dedim, kişidə söz bir olar. Getdi u birsi günü gəldi, dedi: «Balamın o biri də öldü ajınnan. Bir put buğda ver məə». Dedim: «Səə dedim ki, kişidə söz bir olar». Dedi: «Onda məni elə yerə apar ki, görən olmasın». Bu otaxdan u otağa, ordan ora keçirtdim, dedim: «Hə, soyun di». Diyəndə dedi: «A kişi, səə dedim elə yerə apar ki, bizi görən olmasın». Dedim: «Aaz, burda bizi kim görür ki?» – deyəndə dedi ki, a kişi, bizi burda Allah görmür? Diyəndə elə bil yuxudan ayılan kimi oldum. Ədə, bir belə var-döylət, mal məndə, mən Allahı yada salmıram, bunun iki balası ajınnan ölüb, özü də ölür, Allah bunun yadınnan çıxmır. Diyəndə mən yıxıldım bu gəlinin ayağına. Dedim: «Sən olasan o bir Allah, sən mənim bu səhfimdən, taxsırımdan, günahımdan keç» – diyəndə bu gəlin dedi ki, səni Allah bu dünyada da cəhənnəm odunnan saxlasın, o dünyada da. Deyir: «İndi mən cəhənnəm odunnan azadam, onunçün də u cəhənnəm odu məni yandırmır». Xançalı sıyrıb ki, qonağın başını kəssin, gənə əppəhdən tıxıyır.

Gəlir, dəmirçinin əhvalatını söylüyür. Deyir: «Sonra hara getmişdin?» Deyir: «Şikil satanın yanına». Unu da söylüyür. Qıza söylüyür ha. Sonra deyir: «Hara getmişdin?» Deyir: «Suyun yanına». Onu da söylüyür. Deer: «Ular üçü də mənim qardaşımdı. Bizim heş birimiz heş birimizin sirrinnən agah olmamışdıx. İndi sən ki, buların sirrini öyrənib məə dedin, səə gedərəm də, cannan başnan səə arvad da olaram». Olar orda, biz burda.

## ALIXANLA PƏRİ XANIM

Alıxan elə bir qoçax oğlan olub. Bir padşahın da bir qızı olub. Alı xan yetim oğlan olub. Amma gözəl oğlan olubdu. Nəysə, padşah bunu saxlıyıbdı. Əlinə alma veribdi, diyibdi ki, bu almanı hansı qızın başına vursan, o qızı sənə alajam. Diyib: «Yaxşı». Nəysə, vaxt gəlir, Alıxan deyir ki, əşi, buna nökərəm, nökərəm. Özgəsinin başına niyə vurum? Vururam elə bunun qızının başına vurum. Qızın da adı olub Səyad pəri. Qızın başına vurur almanı. Deyir ki, Alıxan uddu. Kişi deyir ki, bu yetim oğlandı, mən buna nətər qız verim. Qız deyir ki, atasına, mən bu oğlanı istəyirəm.

Vaxd gəlir kişi bunu öyləndirir, toy eliyir. Bəli, Allah nəhlət eyləsin pisə. Vaxd gəlir, vəzir, vəkil, bir də ayrı ölkənin padşahı deyir ki, ova getməliyik. Ova gedəndə padşah deyir: «Bunu ov adıynan aparın, amma öldürün, paltarını məə gətirin. Alıxan bir qoja arvadı Pəriyə nökər saxlıyır. Pəri xanım gözəldi da, buna əl-zad vuran olmasın. Padşah deer: «Mən bunu kimə disəm öldürər?» Qarı deer: «Başaa dönüm, mən onu bu gecə öldürərəm». Pəri bilibdi o qoja arvad Alıxanı öldürəjəh. Amma deer ki, mən nətər ona diyim. Bu qarı da özünü Alıxanın gözünə elə soxub ki, dünyada da ona «arı dur» deyən olmadı. Gətirib xörəyi bişirib. O qədər duzdu eliyib ki, Alıxan gejənin bir aləmində durub deer: «Pəri, sussamışam». – «Ağrın alım bala, Pəri xanım o qədər işdiyib, yorulubdu. Pərini neynirsən çağırıb. Mən durub səə su verərəm». Durub su verəndə zəhəri qayırıb qoyubmuş. Zəhəri içəndə arvad deer: «Ay öyü dağılmışın oğlu, səni zəhərnən zəhərlədi ey». Onnan Alıxan ölür. Padşaha deer ki, qorxuram, – çox qoçax olub Alıxan, o da atnan eliyirmiş qoçaxlığı – mən ona nətər yaxın durum. Deyir: «Bu saat, dayan. Gət məə kəsəni, onun başını kəsəjəm». Başını kəsib bədəninnən ayırır. Onnan sonra padşah onu yığıb yığışdırıb, götürüb gedir öz öyünə. O, ayna gedən kimi onu deyim səə, Allah tərəfinnən nida gəlir: «Ya Cəbreyil, zalım Alıxanı öldürüb. Get onun başını bədəninə yapışdır». Arvad deer ki, mən onnan həyat sürmüşəm, qoy onun başını bədəninə yapışdırım gedim. Nəysə, başını bədəninə yapışdırıb gedir. Allah-tala əmr eliyir Cəbreyilə ki, get ona əlini çək, dirilsin. Alıxan dirilib görüb ki, tas var, hamam yoxdu. Nə Pəri var, nə öy var, nə eşik var, nə qarı var. Qarını da götürüb gedib padşah. Pəri deyir, məni elə bir öyə, dama salırsız ki, mənə heş kəs əl vurmuyajax. Padşah deer: «Axı, mənim səə gözüm düşübdü». Deer: «Yox». – «Mənim qırx il xiffəm var, qırx il gözlə». Deer: «Paho, qırx il bir iyidin ömrüdü. Amma mən də zülmkar padşah deyiləm.

Səni saxlıjam. Qırx ildən sonra da olsa, səni özümə ayıb da olsa, arvad elijəm».

Nəysə, gəlir günnərin bir günü olur. Bular yığışır, burda söhbətdə olmaxda olsun, Alıxan dirilib görür heş kəs yoxdu. Atı da padşah aparmışdı. At qaçıb gəlir. Gah onun tolasına gəlir, gah padşahın tolasında durur. Nəysə, durub gəlir. Baxıb görür ki, padşahın tolasındadı onun atı. Heş kim yaxın dura bilmirmiş. Bircə Alıxan yaxın dururmuş. Olar da onun yeməyini tolanın üstünnən tökürmüş ora, yeyirmiş. Suyunu ordan verirmiş. Kim yaxın dursa, at boynunu bədəninnən götürürmüş. Alıxan xəlvətcə atın yanına girəndə, at buna cumanda, deer: «Ey köpək oğlunun heyvanı, dostunla düşmanıı tanımırsan?» At başıın qoyub bunun çiyninə başdıyıb için-için ağlamağa. Nəysə, gecənin bir aləmində atla görüşüb. Bilmillər bunun atla görüşdüyünü. Gəlir Pəri xanımın qapısının ağzına. – «Pəri, ay Pəri». Pəri görür səs Alıxanın səsidi. – «Tez ol, aş qapını, mənəm». Baxır görər pəncərədən Alıxandı. Açır qapını, girir. – «Səə dedim ki, səni qarı öldürəjəhdi». – «Allah məə can verdi, cəsəd verdi, mən dirildim, gəldim». Bu padşah da bu ata baxmağa adam axtarırmış. Atın yaxınına gedəmmirdi. Gedəni öldürürmüş. Padşah xəbər göndərir, mən ata baxmağa, yəni mehtər olmağa adam axtarıram. Özünün Alıxan olduğunu bildirmiyib, çünki bular Alıxanı öldürübdü. Yüz faiz bilir ki, Alıxan öldü. Gəlibdi ki, canla-başla ata baxajam. Deyir: «Sənnən mənim şərtim şərtdi. Mənim atım adam öldürüb. At səni öldürsə, mənnən döylü. O qədər zülmkar padşah döyüləm. Nolsun ki, bir oğlanı öldürtdürüb onun arvadını gətirib otuzdurmuşam öydə, xanım kimi qabağında qulluxçu işdədirəm».

Nəysə, bu ata baxır. Otuz dokquz adam gəlib, qırxıncı da budu. Heş kəs ata yaxın durammır. Girib atın yanına, qırx gün ata baxır. Özünü dirildir. Atı yaxşı kökəldir. Otuz dokquz gün keçir, qırxıncı gün camaatı çağırır. – «Padşah, otuz dokquz gündü bu gedə sənin atıı yemliyir. Atı minsin, çapsın görək bu kimdi». Atı yəhərləyib, yüyənləyib minib çıxır. Alıxan deer: «Gəlmişəm. Sən elə bildin məni öldürdün?» Nəysə, çox sözdən sonra padşah adam tökdürüb, qoşun tökdürüb ki, bunu öldürsün. Alıxan atla, qılıncla, qalxanla hamısını qırıb. Oturub bu padşahın taxtında. Qarını da öldürüb. Öz yoldaşı ilə oturub öz həyatını sürür.

## NAXIŞIN AXTARILMASI
### I mətn

Bir kəntçi o qədər, deyir, odun daşıyıb gətirib satır, əppəh pulu qazanırdı, deyir, beli yara olmuşdu. Bir gün öydə arvadına deyir ki, arvad, mənə bir az çörəhdən-zaddan qoy, yol çörəyi, gedib naxışımı axtarajam. Arvad, nəysə, buna çörəh qoyur, götürür gedir. Gedəndə buna canavar irast olur yolda. Canavar bunnan sorunçur: «Hara gedirsən?» Deyir: «Naxışımı axtarmağa». Deyir ki, mənim də naxışıma diginən daa yatmasın. Mən də qojalmışam, görüm nağara billəm. Deyir: «Yaxşı». Bir xeylax gedənnən sonra görür ki, yaxşı əkindi, sahə, ola bir ustul boyda yerdə heş nə yoxdu. Qızıl lalə bitibdi. Torpax dilə gəlib deyir: «Hara gedirsən?» Deyir: «Naxışımı axtarmağa». Deyir: «Nolar, mənim də naxışımı görsən diginən bu ara-çörə bar gətiribdi, mən gətirməmişəm heş şey, üzüm qaradı». Hə. Deyir: «Baş üstə». Ayrılıb gedir, bir bulağa irast olur. Sussamışdı, deyir, damcı-damcı su gəlir. Nəysə, ordan içir, bulax dilə gəlir, deyir: «Hara gedirsən?» Deyir: «Naxışımın dalıynan gedirəm». Deyir: «Nolar, mənim də naxışıma dinən dursun. Axı mən də istəyirəm çaylıyam, çağlıyam, aşam-daşam, gəlib içən məə bir xoşbəxtlik diliyə». Deyir: «Baş üstə». Nəysə, gedir, deyir, bir dağın başında iri bir daş var. Oturur yornuğun alır, deyir: «Mənim naxışım bu daşın altındadı». Lomnan, külüngnən qazıb bu daşı çöyürür. Görür naxışı orda yatıbdı. Yatmışına bir-iki ağac vurur buna. Nəysə, naxış durur, deyir: «Əşi, arxayın ol, daa yatmıyajam. Get, varlanacaqsan daa». Deyir: «Bəs belə-belə, bir bulağa rast gəldim, u bulax məə belə-belə dedi, una nə cavab verim». Deyir: «Ged una diginən ki, orda bir küpə qızıl var, o qızılı çıxartsın, onun suyu axajax». Deyir: «Yaxşı». Deyir: «Bəs u torpağa nə diyim? Torpax belə-belə demişdi». Deyir: «Una dinən ki, orda yeddi dopu qızıl var. Onu çıxartsın, orda əkin olajaxdı». Deyir: «Bəs canavara irast gəlmişdim, o məə belə-belə dedi. Ona nə deyim?» Deyir: «Ona dinən ki, axmax adamın beynini yesin». Deyir: «Baş üstə». Gəlir ordan bulağa çatır, bulax deyir ki, daa bunun yerini səə naxışın deyibdi, səən naxışın durubdu ayağa, apar, get. Bunun yerini sənnən başqa bilən yoxdu. Deyir: «Yox, mənim özümün da naxışım gətirəjəhdi». Gəlir torpağa deyir ki, bəs belə-belə. Deyir: «A kişi, naxışın səə deyib da bunu, yeddi dopu qızıldı, çıxar apar, get varlan». Deyir: «Yox, mənim naxışım da durubdu, özü öydə gətirib verəjəh». Gəlir bayana, canavara irast olur. Canavar deyir ki, noldu? Deyir: «Bəs deyir ki, axmax adamın beynini yisin». Canavar da deyir: «Sənnən axmağı yoxdu, elə axmağı sənsən, çünki u qızılı

gətirmədin, yeddi dopu qızılı gətirmədin. Sənnən axmağı yoxdu, elə səni yiməh lazımdı».

*Babasından eşidib.*

### II mətn

Bir dənə kişi olur. Çox belə kasıb kişi olur. Deyir ki, gedirəm Tuğnisə dağına. Allah-talaya gedib təmənna eliyəjəm. Nağıl kimidi, intahası axla gedən sözlü də, döylü də, bunu belə də söhbət eliyillərdi. Bu yol gedəndə bunun qənşərinə bir canavar çıxır, tüksüz bir canavar. Elə bil bunu götürüb ülgücnən tükünü qırxmısan, əti qalıbdı. Tük yoxdu bir dənə də. Deyir ki, canavar muna, hara gedirsən? Deyir: «Vallah, gedirəm Tuğnisə dağına, bəlkə Musa peyğəmbərə rast gəldim. Diyim una ki, Allah-talaya disin, məni bu kasıblıxdan görəm qutararmı?» Deyir: «Sən allah, mənim də dərdimi diginən ki, belə bir qurd rast gəldi məə, yolda. Deyir ki, havaxt mənim bədənimə tük gələjəh. Mən ölürəm axı soyuxdan. Allah-tala məə bir tük versin bədənimə». Deyir: «Yaxşı, deyərəm». Bir az qabağa gedir. Bir kişi muna rast gəlir. Görür ki, çəltik suluyur. Salam verir. Görür, ə, bu yol adamıdı, xurcunu, çörəyi-zadı. – «A kişi, hara gedirsən?» Deyir: «Vallah, gedirəm Tuğnisə dağına. Allah-talaya gedib şikayət eliyəjəm mən çox kasıb düşmüşəm. Mənim əlim gətirmir». Deyir: «Unda sənnən bir xayiş elijəm. Elijəhsənsə mənim dərdimi də di». Deyir: «Səən dərdin nədi?» Deyir: «Bu zəmini görürsənmi?» Deyir: «Hə». Deyir: «Bax burda çəltik əkirəm, biçilən vaxtı alışıb od tutur yanır öz-özünə. Bir dənə sünbül üzəmmirəm. Munnan başqa da yerim yoxdu». Deyir: «Deyərəm, yaxşı». Bir az gedənnən sonra görür bir yığın atdı bunun qənşərinə çıxır. İçinnən bir dənəsi yeriyir, görür ki, bu bularn elə böyüyünə oxşuyur. Belə cəngavər, pəhləvandı. Deyir: «Salam məleyki». Deyir: «Əleykimət salam». Deyir: «Hara gedirsən?» Deyir: «Vallah, gedirəm Tuğnisə dağına. Allah-talaya gedib dərdimi danışajam. Kasıb düşmüşəm belə, helə». Deyir ki, onda get mənnən də diginən. Deyir: «Mən padşaham, kimnən dava eliyirəmsə məğlub oluram. Qalib gələ bilmirəm. Qoşunum da çoxdu. Niyə belə olur?» Deyir: «Diyərəm».

Gedəndə Musa peyğəmbər rast gəlir buna. Salamlaşıllar. Xəbər alanda deyir ki, belə-belə. Allah-talaynan kəlmələşir, bunun dərdini deyir. Diyəndə deyir: «Kişiyə diginən ki, getsin bu qənşərinə çıxan pəhləvana disin ki, ərə getsin, getməsə, həmişə uduzajax. O qızdı, başına yığdıxları da qızdı. Qoy ərə getsin, başına yığdıxları da ərə

getsin. Padşah qoysun ölkəsinə, ona batan olmuyajax». Deyir: «Yaxşı». – «Sonra o çəltik sahibinə də desin ki, orda bir dənə xəzinə var, zəminin ortasındadı. Özü də əkilmiyib ora. Onun altında iki dənə küp dolu qızıldı, ləli-cəvahiratdı. Çıxartsın unu getsin yaşasın. Unnan sonra zəmidə nə qədər əkin əksin yanmıjax. Canavara deyir disin ki, bir dənə axmax başı tapıb yisin. Unnan da una tük gələjəh». Bunun özü hakqında, varlanmax hakqında heş bir şey dimir. Gələndə birinci u padşaha rast gəlir. Deyir: «Dedinmi?» Deyir: «Dedim». – «Nə dedi?» Dedi: «O qızdı, ərə getsin». Deyir: «Hə, bunu birinci sən bilirsən. İndi gedək mən kəbinimi səə kəsdirəjəm. Səni də padşah qoyum yerimə». Nə illah eliyir, deyir: «Yox, mən vətənimə gedəjəm, Allah verəjəh var döylət, orda yaşıjam». Deyir: «Getmirsən?» Deyir: «Yox». Deyir: «Yaxşı, da özün bilərsən, di get». Qız gedir öz işinin dalınca, bu da öz işinin. Gəlir çatır qocaya. – «Dedinmi?» Deyir: «Dedim». – «Nə dedi?» Dedi: «Budaha, bəri gəl». Qazır lapatkaynan, görür bir dənə zəncir çıxdı. Zəncir ikitərəfli bağlanıb o küpə. Küpə ujunda qalxızır. Deyir: «Kişi, bilirsən nə var?» Deyir: «Yox». Dedi: «Bunun yarısı səzindi, yarısı mənim. Gəl bunun yarısını götür, çıx get». Deyir: «Yox, istəmirəm, məə Allah verəjəh». Nə illah eliyir, deyir: «A kişi, gəl bunun üç faizi sənin olsun, bir faizi məə bəsdi». Nə illah eliyir almır. Bu kişi qalır orda qızıllarınnan, küplərinnən, bu yol gəlir, gəlir çatır canavara. Canavar deyir ki, ə, dost, getdin, gəldin? Deyir: «Bəli, getdim, gəldim». Deyir: «Noldu?» Deyir: «Vallah, deyir ki, bir axmax adam başı tapsın yisin, onnan ona tük gələjək». Diyən kimi tullanır bunun üstünə. Yıxıb yerə başdıyır bunu söküb yeməyə. Deyib: «Sənnən axmax adam yoxdu». Orda padşaha rast gəlib, unu almıyıb. Sonra bir xeylə qızıl... Allah daa buna nətər verməlidi. Deyib: «Sənnən axmax yoxdu. Elə axmağı da sənsən».

## ARMUDAN BƏY

Bir Armudan bəy var idi. Bunun bir armud ağacı var idi. İndiki Musavat hökumətinə bu şeylər uyğundu. Gündə bu armuddan yiyib dolanırmış. Bir gün görüb ki, bunun armudunu oğurlayırlar. Bir quyu qazıb divində oturur. Görür bir tülkü gəldi, bu armuddan birini aldı, ikisini alanda tutur bunu. Deyir: «Məni öldürmə, gəl qardaş olax». Deyir: «Nə deyirəm». Tülkü də bir xaraba dəyirmanda yaşıyırdı. Tülkü deyir ki, mən də filan dəyirmanda yaşıyıram. Mənim adım olsun Unnuca bəy, sənin olsun adın Armudan bəy. Adlarını qoyub gedir. Bir

gün deer ki, qardaş, gəlsənə səni öyləndirəm. Deyir: «Ə, mənim nəyim var ki, məni öyləndirirsən?» Deyir: «Səə boşdu döyül». Gedir padşahın imarətinin qabağında elçi daşının üstündə oturur. Deyir ki, padşaha diyin çölə çıxsın. Nəsə, çıxır. Deyir: «Sənin qızıl ölçən təknəni istəyirəm». Deyir: «Elə bunnan ötrü. Verin aparsın, çıxsın getsin». Gətirir bir on gün bu xaraba dəyirmanda gizliyir, aparıb verir. Aradan bir ay keçir, gənə gedib istəyir. Üçüncüdə padşah bunnan soruşur. – «Ə, bunu neynirsən bir belə». Deyir: «Qardaşımın qızıllarını ölçürəm, qutaranda daa gəlmijəm». Qızıl sözünü eşidib da padşah. Bir gün də elçi daşının üstündə oturur ki, bəs sənin qızıı mən qardaşıma istəyirəm. Deyir: «Qardaşın gəlsin, qızımı bəyənsin». – «A qardaş, dur gedəh». Deyir: «Ə, mən hara gedirəm çılın-çılpax». Deyir: «Səə boşdu döylü». U kolun dalınnan, bu çəpərin dalınnan aparıb qoyur çayın qırağına. Ağlıya-ağlıya gedir. – «Ə, noldu?» Deyir: «Bəs qardaşımı sel apardı». – «Ə, lap apardı?» Deyir: «Elə aparmağa hesabdı». Deyir: «Nətəri?» Dedi: «Atını, paltarını, yəhərini-zadını, hamısını su götdü getdi». – «Yaxşı bir at gətirin yəhərləyin, paltar gətirin». Mən kimi paltar görməmiş adamdı da. Deyir: «Qardaş». Deyir: «Hə». Deyir: «Atdan düşəndə oyzə-buyzə baxma. Beş löyün xörəh qoyjaxlar hamısını birdən basıb yimə ha». Deyib: «Yaxşı».

Nəsə, paltarını-zadını dəyişir. Mən kimi paltar-zad görməmiş adamdı. Padşah baxır belə, görür atdan düşəndə uyzünə-buyzünə baxır. Bu səfər gəlir buna beş löyün xörəh verillər. Xörəyin hamısını siyrib yiyir da bu. Tamarzı adamdı. Nəsə, diyər ki, padşah tülküyə, sənin qardaşın atdan düşəndə uyzünə-buyzünə baxdı. Deyir: «Sən də olsan baxarsan. U paltarın yanında bu paltar nədi. Unçən baxır». Dedi: «Axı beş löyün xörəh qoydux, hamısını süpürtdüyüb yidi axı». Dedi: «Beş löyün xörəkdə nə var ki, cavan oğlana. On löyün qoyardız hərəsinin yarısı qalardı». Nəsə, irazılaşır. Toy-tamaşa düzəldir, qızı verir cer-cehiznən. Gəlir deyir: «Onda mən gedim öy-eşiyə xəbər verim ki, gəlini gətiririk. Gəlir bir döy var idi. Sarı döy adında. Gəlir çatır onun yanına, deyir: «Gələni görürsən?» Deyir: «Nolub ki?» Deyir: «Sənin beynini una dərman deyiblər. Padşah xəstədi, filan. Səni tutmağa gəlillər». Deyib: «Bəs mən nağarım». Deyib: «Mən səni aparıb gizləyəcəm». Aparıb bunu bu Surxay qalasındakı kimi bir kahaya salır. Gedir qabağa. Bu gəlini gətirillər bu döyün imarətinə. Oğlan deyir əli cibində gəzir. Padşah verən paltardı da. Qız burda fırlanır. Tülkü özünü qoyur azarlığa. Başdıyır pilləkanın qırağında yatmağa. Arvad deyir ki, gəl bunu irədd elə

burdan. Nəsə. – «Düş rədd ol burdan». Təpiyin burnuna alıb tülkünü belə tulluyur ayna, eyvannan yerə. Tülkü «pıkqı yalandı, pıkqı yalandı» diyə-diyə tərpənir döyü saldığı yerə. Deyir: «Mən səni aldatmışam. Gə gedəh sənin öyündə ayrı adam olur». Döyü götürür gəlir. Döy də oğlanı öldürür, qız da qalır orda döyə. İndi işdətməyəmi, ayıb da olsa, neyləməyimi, eləcə bu iş də belə qutarır.

## OVÇU PİRİM
### I mətn

Ovçu Pirim deyir... Onun adı Ovçu Pirim olub, yaxşı, mahir ovçu olub. Günnərin bir günü tüfəngini götürüb çıxır çölə, bir heyvannanmı, quşdanmı ovlasın. Çox gəzir, heş bir şey tapmır. Yorulur, gəlir belə bir düzəngahda oturur. Dirsəhlənir ki, özüçün yorğunnuğunu alsın. Bu halda gördü ki, bir ağ ilannan qara ilan boğuşullar. Görür ki, bu qara ilan bu ağ ilanı döyür. Altda qalır, bunu dişdiyir, eliyir. Bu, tüfəngi alır, deyir: «U qara ilanı atajam, – deyir öz-özünə, – ağ ilan çıxsın getsin, yazıxdı». Nişan alır ilanı, gözlüyür. Dimək, bu tətiyi çəkən vaxd ağ ilan üstə qalxır, qara ilan alta düşür. Ağ ilanın quyruğunnan vurur. İlan qaçır, çıxır gedir. Bu da kor-peşman gəlir evə. Deyir: «Axı mən qara ilanı vururdum, bu getdi ağ ilana dəydi. Boğulan da u oldu, atılan da u oldu». Gəlir evlərinə, oturur, çox fikir eliyir ki, bu iş niyə belə oldu. Rəvayətə görə, bu ilan da olur ilannar padşahının qızı. Gedir atasına şikayət eliyir ki, bəs belə-belə, məni Ovçu Pirim vurubdu. İki dənə ilanı göndərir ordan ki, gedin onun başmağına girin, o gəlib başmağını geyinəndə hərəniz bir ayağınnan vurun ölsün da, yansın. Deyir: «Baş üstə».

İlannar gəlir, girir bunun başmağına, bu da evdə kor-peşman oturubdu. Arvad soruşur ki, ay kişi, səə nolub, niyə danışmırsan? Deyir: «Heç, arvad, bu günnəri başıma belə bir iş gəlib». Arvada olduğu kimi danışır, bayax mən danışan kimi. Bu ilannar başmaxdan çıxır gedir padşaha deyillər ki, bəs belə-belədi. Deyir: «Onda gedin onun özünü gətirin bura». Gəlillər, iki dənə ilan olur, insan şəklində, götürüllər bunu, deyir, aparıllar padşahın yanına. Bu gedəndə, deyir, görür ki, burda ilannar var, əjdahadı hamısı. Bunun üstünnən nətər keşsin. Deyir ki, qorxma, tapdala keç. Bircəciyi səə yaxın gəlməz, tapdalamaz, dişdəməz də. Bəli, keçir gedir padşahın hüzuruna. Gedəndə yolda ilan ki, bunu aparırdı, deyir: «O səə ləl-cəvahir vercəh, amma denən ağzıma tüpür». Nəysə, gedir, padşah bunu hüzuruna çağırır. Bayax danışdığı kimi danışır ovçu başına gələni. Deyir: «İndi

bu ilanı tanıyarsanmı?» Deyir: «Bəli, tanıyaram». Vəzirə əmr edir, ilanı bərədən keçirillər, həmin ilan yoxdu. Üş dəfə bərədən keçirir, dördüncüdə görür ki, bir dənə ilanın altıynan bu xəlvətcə gizlənib gəlir. Gəlib çatan kimi deyir: «Budu, burdadı». – «Düzdümü?» - ilannan soruşur. Deyir: «Düzdü». Bir dənə ilana, deyir, quyruğunnan dişdədir, «gupp» eliyib alışır. Alışır, o biri ilana deyir: «Üfür onun külünü göyə». Üfürür, külü də yox olur. Padşah buna deyir ki, nə istəyirsən mənnən, ləl-cəvahir, nə istəyirsən götür. Deyir: «Padşah sağ olsun, heş nə istəmirəm, bircə ağzıma tüpür». Deyir: «Saxlıya bilməzsən». Deyir: «Əşi, saxlıyaram». Üş dəfə təkrar edir, bu heş nəyə qane olmur. Nəsə, bunun ağzına tüpürür. Bu gəlib çölə çıxan kimi, azadlığa, görür çəyirtkədi, qarışqadı, quşdu, buların hamısının dilini bu bilir. Bular nə danışırsa bu bilir.

Günnərin bir günü arvadı deyir ki, atamgilə gedəjəm. Bunun da bir atı var. Deyir, durullar minillər ata. At da boğaz. Qulun da, deyir, iri qulundu. İkisi də minir, ər-arvad gedillər. Dayça da burda dayanır. Dayça dalda kişniyir. Bu kişniyənnən sonra anası kişniyir, buna səs verir. Gülür, Ovçu Pirim gülür. Güləndə arvad deyir: «Niyə güldün?» Deyir: «Heş nəyə, elə belə». Arvad əl çəkmir. Deyir: «Atangildə dijəm». Gedir atasıgilə. Özləri qalmalıydılar. Deyir: «Söylə». Deyir: «Evimizdə söylüyərəm». Deyir: «Onda dur gedəh öyə». Buna da ilannar padşahı dimişdi ki, saxlıyammazsan, bu sirri danışan kimi öləjəhsən, heş kimə danışma.

Bəli, qayıdıb gəlillər öylərinə. Deyir ki, arvad, hə, söylə, kişi. Deyir: «Onda sən mənim yerimi sal, mollaya get. Get mollanı gətir, söylüjəm». Bunun yerini salır, kişi yatır, uzanır yerinin içində. Arvad gedir mollanı gətirir. Bu arvad gedəndə bir dənə xoruz toyuğu qovur. Nəysə, o toyuğa çatmır, bu toyuğu tutur. Ayıb da olsa, üzr istəyirəm, bunun üstünə çıxır düşür, vurur qənədini, bəyniyir ki, mənim adım Ovçu Pirim döylü ki? Sən olma, u olsun. Bəli. Burda Ovçu Pirim ayılır ki, demək, mən özümü ölümə şey eliyirəm bəs. Buna deyirəm belə-belə. Mollanı götürür gəlir. Deyir ki, buyur. Deyir ki, mən arvadı boşuyuram. Ay kişi, ay dad, ay aman. Deyir: «Boşuyuram». Boşuyur. Elə orda arvadı boşuyur bu xoruzun sözünə görə. Boşuyur bunu, qalır tənha. Gedir gəzir, ovdan-zaddan eliyir.

Bir günü bir sürünün qonağı olur. Bir köçəri sürü olur, ona qonax olur. Gejə, deyir, bir dənə canavar uluyur. Uluyannan sonra, deyir, burdan bir dənə it də buna səs verir səsinə. Bunnan bu səs kəsilir canavardan. Yox, töybə. İkinci canavar bir də uluyur kin, Ovçu Pirim,

səni yerdə də yox, göydə də olsan, öldürəjəm, yijəm. Bunun canına qorxu düşür. Bunun da bu ulaması ona görədi ki, bu uluyur ki, sürüdə qoyun olur, qara qoyun, deyir ki, bu axşam onu yijəm. İt də una cavaf verib ki, əyərləri mənim sahibim unu kəsib məə versə, səni sürüyə yaxın qoymuyajam. Bu da çobana deyir ki, sizdə belə-belə qoyun varmı? Deyir: «Hə». Deyir: «Durun onu kəsin, quyruğunu itə verin». Durullar çobannar, deyir qonaxdı da bu, kəsillər. Yiyənnən sonra ikinci bir də uluyur ki, Ovçu Pirim, səni yerdə yox, göydə də olsa yijəm. Ovçu Pirimin canına qorxu düşür. O gejəsi canavar sürüyə girişə bilmir.

Bu gündüzlər yol gedirmiş, gejələr hardasa qalırmış da. Gəzir da özü-özünə. Nəsə, bu gedəndə, deyir, bir yer olmur, bir ağaj yuvası olmur, çıxa ağajda yata canavarın qorxusunnan. Axı canavarın sözü bunun yadındadı, səni yijəm. Görür qabaxda işıx var, gedir görür dəvə karvanıdı. Çatır bulara. – «Salamməlöykü». – «Əleykimətsalam». Oturullar, yiyillər, içillər, indi yatmalıdıllar. Bu deyir ki, məni beyjə canavar yiyəjəhdi. Deyir: «A kişi, sən nə danışırsan, burda dəvələr olur, dəvələri belə kruqnan yatırdajayıq. Özümüz də burda yatajayıh. Səni də ortada yatırdarıx». Deyir: «Yox, məni beyjə canavar yeyəjək». Deyir: «A kişi, u canavarın hünəri yoxdu ki, bu nərə yaxın dursun». Burda bir nər varmış yekə. Deyir: «Yox». Axırı buların əlacı kəsilib belənçik xəndək kimi yer qazıllar. Bu Ovçu Pirimi də qoyub üstünə bir az ağac-uğac yığıllar. Dəvəni orda yatızdırıllar ki, da bunu hardan yeyəjək canavar. Gərək nəri yeyə, sonra onu yeyə. Bu canavar bir iyirmi metrəlikdən yeri eşə-eşə gəlir, Ovçu Pirimi çıxarır aparır orda yiyir. Dəvəçilər durur, deyir, karvan sahibləri dəvələri durğuzullar, gəlillər nəri də durğuzalar ki, bu adamı çıxartsınnar. Açıllar, görüllər ki, burda adam yoxdu, amma işıx gəlir. Gəlib baxıllar, görüllər ki, canavar yeyib. Deyir: «Pay atonnan, kişinin ürəyinə dammışdı ki, canavar onu yeyəjək». Hə, heylə bir rəvayət də olub.

*Söyləyici nağılı babasından eşidib.*

**II mətn**

Peyğəmbərin bir möcüzəsini bilirəm. Onu da eşitmişdim. Bu kətdə bir molla var idi, adına Məmməd diyillərdi, Qurt Məmməd idi. Çox savaddı idi. Deyir, Allahın yaxşı bəndəsinin birinə u Süleyman peyğəmbər heyvanatdarın dilini biləndə, ona o suranı öyrətmişdi. U nədən camaata bəyan oldu ki, bu heyvanatdarın dilini bilir? Hayatında xoruzu, toyuxları vardı, eşşəyi vardı, bir də ailəsi, bir də iti vardı. Oturdu, indi möcüzədi da. Bu camaat maraxlı bir şey

olanda, üstünə gəlir ki, görüm nə hadisədi, nə baş verib. Gördü ki, burda hay-küy var, camaat yığıldı. Yığılanda arvadı ilə dalaşırdı. Arvadıyla dalaşanda arvadı döydü, arvad ağladı. Ağladı, ağladı, dedi ki, o sirri mana dimısən, qardaşdarımı gətirəjəm, səni öldürəjəm. Öz ərinə dedi. Heylə diyəndə eşşəyi də ağladı, xoruzu da ağladı, iti də ağladı kişinin. Una Süleyman peyğəmbər dimişdi ki, bu möcüzəni sən hansı millətə danışası olsan, orda sən ölməlisən. Bu sirri özündə saxlıyan vaxdında arvad başa düşmüşdü, bu eşşəyə nəsə deyir, itə nəsə deyir. O saatdarı olar da onun sözünə baxırdı. Bu dedi: «Bu möcüzədi». Möcüzədi diyən kimi o saatdarı arvad bununla dalaşdı. Bunun üstündə it ağladı, eşşəh ağladı, toyux da ağladı. İt durdu xoruzun yanına gəldi ki, bəs sən niyə ağlıyırsan? Dedi ki, niyə ağlamıyım? Bax, mənim yiyəm öləjəh. Bu sirri diyən kimi öləjəh. Mənim gör nə qədər toyuxlarım var, mənə azlıx eliyir, qonşuun da toyuxlarının yanına gedirəm. İt də durdu eşşəyə dedi ki, neynəmək lazımdı? Hamısını eşidirdi bu kişi. Kişi eşidən vaxdında eşşəh dedi ki, itə, bilirsən nə var? Sahibimiz durub gedə dedi, bir dənə qaratikan ağacını yona, götürə gələ dedi. Arvadı soyundurub u qaratikan ağacıyla döyə. Döyənnən sonra özünə yığılar. O sirri unnan sonra onnan öyrənməz. Bunu deyən vaxdı it gəldi, deyir. İt insanın dostu olub. Həyatda bu saatdarı it insanın dostudu. İt bu sözləri bilənnən sonra sahibinə deyir. Sahibi bu sözləri bilənnən sonra durdu getdi bir qaratikan çubuğu kəsib, hazırlayıb gətdi. Gətdi toolanın bir küncünə qoydu. Arvadı çağırdı, dedi ki, arvad, səs-küy eləməginən. Camaat da yığılıb, camaat görməsin. Gəl bura bu sirri diyəjəm ikimizdikdə. Nəyə lazımdı ey, sənin qardaşın-zadın da gəlib məni döyə, öldürə, neyniyə. Gə, diyəjəm saa. Gətirir arvadı heylə toladıb, u çomax qırılana qədər bu arvadı döyüb ki, bu sirri mənnən alma. Bu sirri mənnən alası olsan, mən öləjəm. Onda arvad sirri almır. Arvad fikirləşir ki, Allahın sirridi, bunu deməh olmaz. Diyən kimi də öləjəh. Peyğəmbərin bu möcüzəsini də eşitmişdim.

### III mətn

Ovçu Pirim öylənmişdi. Qayınatası bu göyünü qonax çağırmax istəyirdi. Bir gün qonax çağırdı. Deyir, gedəndə Ovçu Pirim, bunun bir dənə madyanı var idi qarnı boğaz, bunu yəhərlədilər. Qapıdan çıxası oldular. Arvad oldu, bir oğlu var idi, bunu da aldı yəhərin qaşına, özü də oturdu yəhərdə, arvad da oturdu bunun tərkində, bir körpə uşax da bunun qucağında. Arvad da, deyir, həmli idi. At da

boğazdı. Bular gedillər. Diyillər bu Ovçu Pirim insin-cinsin hamısının dilini bilirdi. Arvada deyir ki, mənnən heş bir şey soruşma ha dədən öyünə çatınca. Dedi: «Yaxşı». Bir az getmişdi, deyir, at başdadı kişnəməyə. Daldakı ayaxlarını götdü şıllax atdı. Dedi: «A kişi, bu ata nolub şıllax atır. Az qalmışdı yıxılam». Dedi: «Hər nə olubdu. Səə dedim ki, mənnən soruşma».

Nəysə. Bir az getdi, at bir də şıllaxladı. Mümkün olmadı, bir də soruşdu: «A kişi, di da nolub?» Dedi: «Ay arvad, bilmirsən nolub?» Dedi: «Yox». Dedi: «Şeytan onu muncuxluyur daldan ki, ay axmax, bir özün, biri qarnında, biri atın qaşında, Ovçu Pirim üstündə, arvad dal tərəfində, qarnı boğaz, uşax da qucağında. Bu qədər yükü hara aparırsan? Şıllaxla, tulla çıxsın getsin da. Şeytan əleyhnəhlə bunu deyir».

Getdilər çatdılar, deyir, hay düşdü ki, göyünü qonax çağırıb. Bu da insin-cinsin dilini bilirdi. Camaat yığıldı buların başına. Quzu kəsməh, qoyun kəsməh... Qayınatası da varlı adamdı, deyir. On min də qoyunu var küzdə, deyir. Hə. Axşam, deyir, quzu-pilov bişirdi. Elə hazır olajaydı, olmuşdu, hələ aşı çəkməmişdər ki, bu qurd uladı. Qurdları yığdı başına ki, Ovçu Pirimi qayınatası qonax çağırıb. Bu axşam başları qarışıx olajax. Gərəh o sürüyə bir vay verəh, bir dənə salamat heyvan qoymayax. Hamısını qırıb tökək. Köpək, deyir, burda eşitdi. Bir qara köpək var idi. Bu da burdan uladı ki, mənim canıma qurban olasız. Əyər Ovçu Pirimə bişən u quzu pilovu gətirib mənim qabağıma qoyalar, onu yiyim, mənim canıma qurban olasız, biriiz burdan salamat getsə. Xörəh çəkildi, xonça düzəldi, gətdi qoydular Ovçu Pirimin qabağına. Xonça da üstüörtülü olur axı. Bunun içində can dərmanı var da. Pilo var, mürəbbə var. Dünyada olmuyan şey burdadı. Gəldilər ki, aça xonçanı, dedi: «Bilirsiz nə var?» Dedi: «Yox». Dedi: «Lətifəsi pis gəlməsin, məndən də bir şey soruşmuyun. Mən aşı siznən yiyəjəm. Bir qabda yijəyik hamımız. Bu mənə çəkilib gələn xonça var ha.... Qara köpəyiz var?» Dedi: «Var». – «Aparıb o köpəyin qabağına qoyursuz. Mənim hesabıma olan xörəyi o yeməlidi». Dedi: «A kişi, sən bizə saymamazlıx eliyirsən». Dedi: «Siz bilən şey yoxdu. Səhər açılar, görərsiz. Mən nə deyirəm, mən diyənə baxın». Bular aparıb bunu qoyullar köpəyin qabağına. Bularla yiməhdə olsun, köpəh də orda yiməkdə olsun. Söhbət, ixtilat, vaxd gəldi yatası oldular. Yatdılar, deyir. Səhərə yaxın idi, deyir, bu heyvannarın içinə, bu küzün içinə bir vəlvələ düşdü, gəl görəsən. Səhər açıldı, Ovçu Pirim dedi: «Gedin küzün içinə baxın, nə qədər canavar var orda. Getdilər, baxdılar,

gördülər ki, hamısını xirtdəkliyib, boğub tulluyub ora. Qoyunnar hamısı biri o topaya, biri bu topaya gedib küşdə sığınıblar. Qara köpəh buların kələyini kəsib. Onnan sonra gəldilər dedilər ki, hal-qəziyyə belə-belə. Dedilər: «Bunu sən nə bildin?» Dedi: «Mən insin-cinsin dilini bilirəm. Yapalağın da dilini bilirəm, bülbülün də». – «Hardan bilirsən?» – «U məə Allah tərəfinnən vergidi, verilibdi. Ordan bilirəm. Mən onunçün axşam pilovu siznən yedim, öz pilovumu qara köpəyə verdim ki, u qara köpək dedi ki, mənim canıma qurban olasan. Demək, u köpək sözünə sadiq çıxdı, u sürü də salamat qaldı. Bax bu da belə.

### IV mətn

Bir kərə də bular gedir qayınatasıgilə. Daa ayax açılıbdı, gedir. Gedir, deyir, bulara daxil olur. Yeyillər, içillər, yatıllar. Səhər duranda Ovçu Pirim qayınatası ilə gəzir məhləni. Gəzəndə görür ki, bu məhlədə küzdə xırda-xuruş qoyun-quzu qalıbdı. Qalan hamısı gedibdi, bular qalıb. Deyib ki, Ovçu Pirimə: «Qoyunnar gələjəh, qoyunnar gələndə səə yüz dənə sağmal, boğaz qoyun verirəm, seç göt». Deyir ki, məə lazım döyül heş bir şey. Məə iki dənə qoyun ver arıxların içinnən». Deyir: «Seç götür». Seçir iki dənə arıx heyvan götürür. Biri deyir, yüz oğul atası olajam, o biri də deyir yüz oğul anası olajam. Hər ikisi belə deyir. Buları seçir, aparır. Bu gəlir az qala qayınatasının sürüsünə çatsın. Helə Allah bərəkət verir, doğur, balalıyır, keçir.

Onnan sonra keçir görür ki, arı təhnəsində arılar dayanmır, elə işdiyillər. Gəlir təhnənin qırağına. Bu qapıda duran deyir ki, nə dayanmısız? Tez-tez gedin, tez-tez gəlin. Yiyəni çox, içəni çox, gələni çox, gedəni çox. Burda bir kasıb qonşu var idi. Kasıb qonşuya gedir, görür burda da arılar var. Keçir ordan qonşuya, deyir: «Gedim ona da tamaşa eliyim». Dayanır bir xeyli burda. Deyir ki, nolubdu, özüzü öldürürsüz? Gej-gej gedin, gej-gej gəlin, yiyəmin yiyəni yox, içəni yox, gələni yox, gedəni yox. El gətdi, yel gətdi, sel gətdi, el apardı, yel apardı, sel apardı. Bunu deyir. Unnan sonra bu təhnəni də götürür, gələndə qoyunnarı da götürüb gəlir.

## MOLLANIN ARXAYINÇILIĞI

Diir iki dənə qonşu olur. Hal-hazırda da bəzi adamlar oruc tutmağınnan, meçidə getməyinnən, mollalığınnan razı qalır. Diir: «Elə mən bunu bilirəmsə, cənnət mənimdi». Amma heylə döylü.

Bir nəfər olur, qırx il idi ibadət eliyirdi, oruc tuturdu, namaz qılırdı. Qonşusu var idi, bir dənə zənən, qırx ildi bu zənən heç bir kişiyə getmədən hər axşam bir oğlannan ləzzət qılırdı evdə. Kişi okqədər özünə qürrələnir ki, diir: «Daa mən qırx ildi Allah yolunda ibadət eliyif namaz qılıram. Mən cənnətin içində oturmuşam, bunun şübhəsi yoxdu». Belə qəlbinnən keçirmişdi. Gecə Allah-taala tərəfinnən tapşırıx gəldi, didi: «Ya gülüm, bu qədər ki, özünnən razısan. Bir murdar tapsan, görsəm ki, tapmısan mən yaradannan, fikirrəşdiyin cənnəti səə vermişəm». Ayıldı gördü yuxudu. Sübh namazı əl qaldırdı, Allaha yalvardı: «Bu yuxudu, nədi? Mən belə bir yuxu görmüşəm». Səs gəldi ki, yuxu döylü, tapşırıxdı, tapşırığa əməl elə.

Bəli. Kişi düşdü düzə-bayıra, dağa-daşa, murdar axtarır indi, görək, Allah yaradan nədi murdar. Çox gəzdi, dolandı, heç bir şey tapa bilmədi. Bir dəryanın qırağıynan gəlirdi, uje çatmışdı şəhərlərinə, baxdı gördü ki, bir dənə it, yaman günə düşüfdü. Qotur töküf, yaralar beqəbiliyyət oluf. Belə baxılası döylü. Didi: «Daa bunnan murdar nə ola bilər?» Bu itin boğazına bir ip saldı, başdadı bunu çəkə-çəkə gətirməyə. Qonşusu qadın da bir nəfər cavan oğlannan bu dənizdə kef eliyirdi. Baxdı gördü ki, qonşusu bir qoturramış it gətirir. Didi: «A qonşu, bunu hardan almısan, hara aparırsan?» Didi: «Bu məə lazımdı, aparıram». Didi: «A qonşu bunu ver məə». Didi: «Neynirsən bunu, nəyə lazımdı?» Didi: «Nolar, sən allah, unu ver məə». Kişi çox inad eylədi, qadın əl çəkmədi. Didi: «U iti məə verjəhsən sən». – «Bunu niyirsən?» Didi ki, bu məə lazımdı, sirdi, mən diyəmmərəm sirrimi sənə. Didi: «Ə kişi, Allah heyvanınnan nə sirr? Bunu Allah yaradıf, Allahın heyvanıdı, bunun nə sirri ola bilər? Bunun nə insannan danışmağa qabiliyyəti yox, bir şeyi yox». Didi: «Vabşe, unun nəyə lazım olduğu sirrdi». Nəysə, əl çəkmədi qadın, iti aldı bunnan. İti aldı, lotuya didi: «Mən gedirəm evə. Sən də isdiyirsən çim, isdiyirsən nə qayırırsan qayır, mən getdim evə». İti götürdü gəldi evə. Yaxşı gətirdi iki qazan su qoydu, qəşənh darax gətirdi, qadının baş darağını, o iti dəfələrlə yudu, daradı, yaralarını yudu, daradı, tam da bunun qırmızı əti qalana qədər. Unnan sora qəşənh getdi dərman aldı, bunu dərmannadı, bintnən sarıdı. Bu minvalla başdadı bu itə qullux eləməyə. Nəhayət, itin yaraları sağaldı, it başdadı öz tükünü üsdünə gətirməyə, yaxşı belə öz şəklini aldı, obşim. Öz şəklini alannan sora bir qədər bu itə baxdı, qullux elədi. İt didi daa mən bəni-insan görmüyüm, yad adam. Belə bir həddə çatdı.

Bir gün molla gördü ki, çox belə sərrast səsnən bir it hürür qapıda. Çıxdı qapıya, gördü bunun qapısında döylü, qonşunun qapısındadı. Çox fikir verdi, gördü yox, it elə bir yerdə hürür, ora-bura getmir. Nəysə. Səhər açıldı, çağırdı, didi: «A qonşu, səən qapında beyjə it hürürdü». Didi ki, hə, bir dənə it saxlıyıram. Artıq kişinin yadınnan çıxmışdı. Bir üç ay, dörd ay idi bu qadın itnən məşğul idi. Didi ki, bağlıdı u? Didi: «Hə» Gəldi, baxdı, didi: «Bərəkallah, səsinə görə göydəsi də var imiş. Mən o səsə görə deyirdim, görəsən, göydəsi də varmı?» Baxdı itə, bir bərəkallah da didi. Qapıdan çıxanda qonşu didi ki, a qonşu. Çörükdü arxaya. Didi: «Bir dəyqə ayağıı saxla». Saxladı. Didi: «Tanıyamadın bu iti?» Didi: «Yox». Didi: «Sən sürüyürdün e, dənizin qırağında, qumluxda, məə lazımdı diyif, həmin itdi». Nəkqədər elədisə kişi inanmadı, didi ola bilməz.

Nəhayət, aradan bir-iki gün keçdi, gördü bu kişinin qapısına çox adam girir-çıxır dayanmadan. Xəbər aldı ki, noluf bu kişinin qapısında nə var belə gedir-gəlir camaat? Didilər ki, kişi canadı, ona görə. Uje dünyasını dəyişməh üzrədi. Bəli. Kişi dünyasını dəyişdi. Yox, əstəfirillah, səhv elədim. Kişi baxdı gördü ki, bu qadının qapısına çox adam girir-çıxır. Xəbər aldı: «Noluf bu qapıya girir-çıxır qoja-cavan, hamı?» Didilər ki, qadın ağırdı, dünyasını dəyişir. İndi hər kəsi öz qəbrinə qoyjaxlar. O kimdi, nəçidi, bizim borcumuza döylü, məjburux gəlməyə.

Bəli. Qadın vəfat elədi, apardılar dəfn elədilər. Ara bir şey keşmədi, kişi vəfat elədi. Kişi vəfat elədi, dünyasını dəyişdi, torpağa tapşırdılar, gəldilər. Gəldi inkir-minkir bunu durğuzdu ayağa, didi: «Dur». Durdu. – «Hara?» Didi: «Düş qabağımıza dijəyik». Düşdü qabaxlarına, cənnətin qapısınnan keçəndə didi: «A kişi, məni hara aparırsız? Mən cənnətə getməliyəm». Diyəndə didi ki, cənnətə səən yerə gələn olufdu. Bax gör tanıyırsan? Baxdı gördü qonşusu qadın cənnətdədi. Didi: «Bəs məni hara aparırsız?» Didi: «Səni cəhənnəmə». Didi: «Əşi, siz nə danışırsız? O qırx il mənnən qonşu olufdu, qırx il kefdə-damaxda oluf, mən qırx il namaz qılıf, oruc tutmuşam, ibadət eləmişəm, bu nə diyən söhbətdi. Mən Allaha şikayət eliyəjəm sizdən». Didi: «Biz də Allahın əmrini yerinə yetiririk. Oğraş, Allah-tala murdar yaradıf yaratdığını? Sən gedib Allahın yaratdığı iti sürüyə-sürüyə aparanda ki, bu murdardı, bilmirdin ki, belə gün də var. U iti u sağaldıf. Səən qırx illik zəhmətini də verdi ona. Onun günahınnan keşdi. Onun günahını da verib səə. Di bəri gəl». Apardılar saldılar cəhənnəmə, didilər: «Di dur burda».

*Söyləyici nağılı nənəsindən eşidib.*

## QEYRİ-ADİ BORANI

### I mətn

Bir döylətliynən bir kasıf qonşu olur, qohum yox. Ha yalvarır xışı ver, öküzü ver, bir balaca yerim var, aparım əkim. Diir: «Ə, kasıf kopoğlu, səən nəyəə lazımdı əkin-biçin?» Vermir. Bir gün arvadnan gedillər. Biri dırmıxnan, biri lapatkaynan, belə-belə eliyillər yerlərini, boranı əkif gəlillər. Arvad deer ki, a kişi, bir gedif baxardıx, görək çıxıf-çıxmıyıf. Gedif görüllər, ilahi, elə çıxıb, elə çıxıb, bütün torpağın üsdü görükmür. Yaxşı suluyullar, halasını-zadını eliyif gəlillər. Bir kərə görüllər, ay allah, üsdündə belə-belə boranı, çiçək, adamın ürəyi açılır. Diir: «Ay arvad, bura gəlif nağarasıyıx, bir də dəyəndə gələrih».

Bir gün kişi gəlif deer: «Ay arvad, elə dəyif, elə dəyif, elə bil qoyun arxaca yatıf. – Yanı qoyun yatan kimi. – Yenə neynən daşıjayıx onu, gətirif çıxardajayıh». Gedif səə yalvarıllar, aravanı alıllar, ona yalvarıllar, kəli alıllar. İki gün-üş gün boranını dartıf tökülllər məhləyə.

Bir günnəri əppəh yoxdu axı yiməyə. Diir: «Ay arvad, dur o boranının birini kəs, pörtdət, yiyəh». Arvad durur gedir, baltanı gətirir, dap, boranının təpəsinə. Boranı sınan kimi sarı buğda tökülür. Hansını kəsillər zoğal çərdəyi kimi tonnan buğda. Götürüf aparıllar dəyirmana, dəyirman buğdanı üyütmür. Qayıdıf gətirir evə. Diir: «A kişi, get loğmanın yanınamı, mollanın yanınamı, harasa». Gedir kişi. Diir: «A bala, onu Allah verib sizə, torbası da özünnən, paxıl qonşunun ajığına. Sən get onu səp, toyux yisin, cücə yisin, quş yisin. Onun fitrəsi, zəkatı çıxsın. Fərz eylə, on torbadırsa, bir torbasını sənnən də ajdar var, apar olara ver. Onnan sora gət, üyüdəjək».

Kişi gəlir, dartıf məhləyə tökülllər. Toyux-cücə, sərçə-mərçə yeyir. Bir torba da aparıf bir ölüvaya verillər. Aparıf üyüdüf dərmanda, bular bu qış uzunu çörəhli olur. O bəy, o dövlətdi ajınnan ölür.

### II mətn

Çox kasıb olur. Əlləşir, vuruşur, ordan-burdan tapır, tapışdırır, çörəyini yiyir. Bir günüsü oturub bir ağacın altında çörək yiyirmiş. Görür ki, iki dənə göyərçin ağaca qonubdu, orda söhbət eliyirlər. Deyir ki, bu ağac niyə quruyur? Biri-birinə deyir. O biri deyir ki, bu ağacın dibinə qırx il bunnan qabax bir küpə qızıl basdırılıbdı. Deyir: «Görəsən yanı ola bilərmi bu?» Dayanır bir az. Sonra görür ki, hamı yer şumluyur. Deyir: «Gedib mən də şumluyajam». Yeri şumluyur. Toxum tapa bilmir əkməyə. Görür ki, bir dənə göyərçin gəlir göynən. Bu

göyərçinin dimdiyində ağ nəsə var. Bu göyərçin bu dimdiyindəkini gətirib bu yerin ortasına qoyur. Kişi gəlir görür bir kədi çərdəyidi. Bu kədi çərdəyinin üstünü basdırır, çıxır gedir. Gəlir gündə bu kədi çərdəyini topalıyır, qalxanda bunun qulluğunda durur. Bir gün bu kədi çərdəyi... – «Baxım görüm da bu kədidə varmı?» Kədini əlinə alanda kədi əlindən düşüb partdıyır. İçindən, deyir, bunun buğda tökülür. Buğda tökülür, buğdanı alır yiyir. Yiyəndə görür ki, zəhər kimidi buğda. Deyir: «Görəsən bu niyə zəhər kimidi?» Fikirləşir, fikirləşir. Gəlir bir abidin yanına ki, mən kədi əkmişdim, içində buğda əmələ gəlibdi. U buğdalar zəhər kimidi. Deyir: «Oğul, u buğdanın içində qarışqanın da payı var, göynən gedən quşların da payı var. Sən onnan qarışqaya da, quşlara da versən, qalanı səə şirin gələjək». Tökür, bir az səpəliyir, quşlar yiyir. Bir az da səpəliyir, qarışqalar yiyir. Qayıdır gəlir.

Bunun qonşusu görür ki, bu günü-gündən varlanır. Deyir: «Sən nəynən varlandın?» Deyir: «Vallah, Allah tərəfindən oldu». Deyir: «Mən də gedib dayanajam, görüm nətəər oldu tapdın». Deyir: «Bir göyərçin var idi, qanadı sınıx göyərçin idi. Gətdi ora bir dənə kədi çərdəyi tulladı, mən də onun qanadını sarıdım, bağladım, sağalsın, ölməsin. Gedir durur, durur. Görür bir göyərçin gedir. Qoşu o qədər paxıl olur ki, vurur göyərçinin qanadını qırır. Qanadını qırır, təzədən göyərçinin qanadını sarıyır. Sarıyır, göyərçin gedir buna da bir dənə toxum gətirir tulluyur. Toxumu bu kişi topalıyır, neyniyir. Bir gün bu toxum dəyəsi olur. Gətirir vurur yerə. Vuran kimi içindən bir yekə pətək arı çıxır qujaxlıyır kişini. Arı kişini o qədər vurur ki, kişi dümdüz olur. Bax bu paxıllığın əlamətidi. Belə.

## ANDIN GÜCÜ
### I mətn

Ərəbistannan bir nöyüt satan gəlir bir kəndə, şəhərə. Orda, diyir, bu nöyütünü satıb öyə qayıdan vaxdı yol bağlanır, quldur olur yolda. Bu özü-özünə fikirrəşir ki, mənim bir az pulum var, öydə də balalarım var, bunu hara eytibarrı yerə qoyum ki, qayıdıf gəlim onu götürüm. Nəsə. Fikrinə gəlir ki, bir eytibarrı mollaya verim. – «Bu kəntdə molla kimdi?» Diirlər: «Filankəsdi». Gəlir mollanın yanına. – «Salamməleyki». – «Əleykimət salam». Oturur. Diir, yiyir-içillər. Diir: «Molla əmi, belə-belədi». Diir: «Ayıb döyülmü, de bax, sandıx». Açır sandığı, diir: «Gət qoy bura, hansı vaxd isdəsən gəlif götürərsən». Qoyur sandığa, gedir sabahdannan evlərinə.

Gedir beş aydanmı, on aydanmı, quldur-zad olmur, əmin-amannıx olur, qayıdır gəlir. Gəlir bir az neft gətirir, satır eliyir. Axşamı gənə həmin mollaya qonax olur ki, sabahdan gedəjəhdi evinə, pul aparsın. Yiyillər, içillər, diyir: «Qardaş, mən, Allah qoysa, səhər tezdən gedəjəm, elə amanatdan ötəri gəlmişəm, isdiyirəm amanatı da aparam». Diir: «Nə amanatdı u?» Diir: «Bura qoyduğum pulu». Diir: «Yanılmısan sən». Diir: «A kişi, səən adın Vaqif, özün də molla, bu evdə bunnan ikinci dəfədi sənnən çörəh yiyirəm. Burda belə-belə söhbət oldu, sən də didin qoy sandığa, bax bu sandıx, bu da sən. Qoydum sandığa, çıxdım getdim. İndi gəlmişəm». Diir: «Yox, mən döyüləm». Danır bunu.

Hindi bizdə məhkəmə var da, müstəntiq, məhkəmə, vəkil, o vaxdı qazı idi. Buların işi qazıya düşür. Gedillər qazıya. Bu qazı da o vaxdı and içmə var idi. Mən and içərdim ki, bu çaydan mənim xəbərim yoxdu, səni əmin eliyərdim. Yox əgər xəbərim varsa, and içə bilməzdim qorxudan. Qazı bulara and verməli olur. Həmən ərəbdi, görür ki, molla and işməh isdiyir. Bu, əlini qaldırır. Qazı diyir: «Buyur». Diir: «Qazı əmi, mən görürəm ki, molla and işməh isdiyir. Mən etiraz eləmirəm. O and işsin ki, yüz ildən sora, min ildən sora gələn müsəlmanın dininnən olsun mənim dinim». Qazı çox fikirrəşir ki, ə, bu nətəri and işməhdi. Diir ki, min ildən sora, yüz ildən sora gələn müsəlmanın dininnən olsun mənim dinim. Diir: «Ərəb qardaş, bizə üş gün vaxd ver». Diir: «Lap bir həftə vaxd verirəm». Diir: «Səə onda yaxşı yol». Diyir: «Molla». Diir: «Bəli». Diir: «Sən gördün o nəyə and verdi səə?» Diyir: «Vallah, eşitdim». Diir: «İndi sabahları bu yolu gedərsən, nə görsən gəlib məə söylüyərsən». Diir: «Baş üstə».

Çıxır şəhərdən bu yolu gedir. Görür bir it yatıfdı, qancıx it, yolun qırağında, «hart» eyləmir. Ağzını açmır, amma it səsi kəndi götürübdü, dünyanı. Çox gözdədi, heç bir şey görmür, gəzir, qayıdır gəlir qazının yanına. Diir ki, hal-qəziyyə belə-belə. Diir: «Bu bir. Sabannarı bu dərə yuxarı get, nə görsən gəlif məə diyərsən». Diir: «Baş üstə» .

Gedir, diyir, bu, dərə yuxarı. Gedəndə görür ki, bu – ala qarğa diyirik, – bu düşür bir iylənmiş cəmdək var, onun üsdündə yiyir, çıxır «Yasini-şərif» oxuyur. Axı bu dinə düz gəlmir, şəriyətə düz gəlmir. Qayıdır gəlir, bunu da qazıya danışır. Diir: «Yaxşı, sabahları bu tərəfə get». Gedir görür düzəngah yerdi, yaxşı bostandı, yemişdik, sapsarı. Elə bil cənnətdi. İysinnən adam diyir heç gəlməh isdəmir. Ürəyi isdiyir, bu yemişin birini kəsir. Görür bütöv yaradı içi. Çürüyüfdü, yoxdu. Belə-belə on dənə, iyirmi dənə yemiş kəsir, bir

şey yeyə bilmir. Qayıdır gəlir. Bunu da, diyir qazıya, söylüyür. Diir: «Molla». Diir: «Bəli». Diir: «İndi qulax as, bunnan sonrasını özün bilərsən. Bu birinci günü ki, didin ha, it yatmışdı, hürmədi, amma it səsi dünyanı götürmüşdü. Böyüh duran yerdə balaca özünü öldürəjəhdi. Helənçih dünya əmələ gələjəhdi qarşıdan. Deməк, böyüyün sözünə baxan olmujax. U küçüklər itin qarnında hürən kimi, bax uşaxlar elə olajaxdı. İkinci, u ki «Yasini-şərif» didin ha, molla olmuyajaxdı, üzr isdiyirəm, lotulux eliyəjəhdi, qumarbazdıx eliyəjəhdi, nə pis yollara gedəjəhdi, elə ki yaşdaşdı «mən mollayam», bir-iki dənə hərif bilir, kitab oxuya bilir, «mollayam». Bax unun kimi mollalıx eliyəjəhdi. Üçüncü də, u yemiş didin haa, mən səə dosd diyirəm, qardaş diyirəm, gediş-gəlişimiz var, ürəyim sənnən ötrü ölür, amma bayannan ayağının altını qazıram ki, dərin olsun, tez yıxılsın, elə orda da ölsün da, yuxarı qalxmasın. Bu da bu, indi sən özün bil. İsdiyirsən pulu ver, isdiyirsən ulardan ol». Diir: «Qazı əmi, sən allah, o kişiyə de, gəlif aparsın getsin, pul öydədi».

Səhərdən ərəb gəlir, diyir ki, bəs belə-belə, get götür. Gəlir, diyir, pulunu götürür, çıxır gedir.

İndi həmin zamanadı. Mən özüm-özümə təfsir eliyirəm ha. Babamın sözünü saxlamışam. İndi unu təfsir eliyirəm, görrəm ki, babamın sözdəri düz gəlir.

**II mətn**

Yolnan gedirmiş atın belində. Mən kimi bir adamın biri də buna yalvarıb-yaxarırmış, nə bilsin bu Ovçu Pirimdi. Kişilərin dediyini deyirəm ey. Uzax səfərə gedirmiş. Bu da atdı gedirmiş yavaş-yavaş, Ovçu Pirim, dağın yaxasıynan. Gəlib buna çatıb. Kişi yalvarıb-yaxarıb... – «Salam məleyki» – «Əleykimət salam. Hara gedirsən?» Deyir: «Bəs bizim vilayətdən baş götürüb gedirəm. Haratan gedərəm... ölərəm, ölərəm». Ovçu Pirim deyib: «A kişi, qayıt get öyəə». Əl çəkmiyib. Ovçu Pirim əlacı kəsilib götürüb atın tərkinə, bir müddət yol gedib. Amma Ovçu Pirim buna deyib ki, nə eşitsən, mənnən onu soruşma ha! Yoxsa səni götürmürəm. Deyib: «Yaxşı». Alladıb da Ovçu Pirimi. Atın belində, deyir, belə keçəndə görür bir dənə qarğa çıxır ağacın başına – ala qarğa, bəəldiyir, gənə düşür cəmdəyin üstünə. Ovçu Pirim bunu gördü, çox güldü. Güləndə kişi dedi ki, öldür məni, bu sirri məə deyəcəksən. Əlacı kəsilib yerdən-göydən, deyir: «Ya Allah, məni bağışda. Bu mənə hardan irast düşdü». Deyir: «Bilirsən nə var? U molladı. Allah-tala unu heylə

qarğa yaradıbdı. Qurannan oxuyub düşüb cəmdəhdən yiyir. Haram yijəhlər, mollalar da haram yijəh. Bir dünya gələjəh, mollalar da haram yijəhdi».

İtin qarnında küçüklər hürür. Genə Ovçu Pirim gülür. Deyir: «Bunu da dijəhsən məə». Əyə, bunu Allah-tala yetirib bu Ovçu Pirimə da, bəladı da. Allahın sirrini açmaqdan ötəri eliyib da bunu. Allahın hərəkətini nə bilmək olar. Deyir: «A kişi, səə demədim mənim üzümün suyunu tökmə sən. Demədim mənnən heş nə soruşma sən». Deyir: «Bəs sən neyçün gülürsən axı? Onda narahat oluram mən». Deyir: «Görürsən, bir zaman gələjəh, böyük duran yerdə balacalar höküm elijəhdi, əmr verəjəhdi. Belə bir zamana gələjəh. Mən una gülürdüm» – «Ya rəbbi – deyir, – səə inanmıyan kafirdi. Gör haranı fikirləşmisən».

## QONAĞIN RUZUSU

Bir dənə dindar olur. Bu gedir adam olmuyan yerdə ibadət eliyir ki, mən adam görmüyüm, günah qazanaram. Bu, qojalır əldən düşür. Bunun da Allah-tala tərəfindən evinin yanında bir nar ağacı əmələ gəlir. Gündə onda bir dənə nar yetişirmiş, onu yeyirmiş, qidalanırmış. Bu o qədər qojalır əldən düşür, deyir: «Xudaya, sən məni öldür da. Hansı cənnətə göndərcəksən göndər». Allah bilir axı bunun qəlbini. Deyilənə görə, Xıdır peyğəmbəri göndərir. Xıdır peyğəmbər ağsakqal sifətində gedib ora. Kişiyə deyib: «Ay öy yiyəsi, ay öy yiyəsi, məni Allah qonağı saxlıyarsan?» Deyir: «Allahına qurban olum, qonağına da. Bura hara, sən hara? Bura necə gəlib çıxmısan?» Deyir: «Yol keçirdim, gəlib çıxdım». Deyir: «Səən yeməyin, işməyin nədi?» Deyir: «Allah tərəfindən bir dənə nar yetişir, parası səən, parası məən». Nahar vaxtı, deyir, gedir o qoja kişi ibadət eliyən, gedir görür nar ağacında iki dənə nar var, ikisi də bir-birindən yaxşı, gözəl. Xayinnik eliyir narın birini üzür, birini üzmür. Gətirir parasını u kişi yiyir, parasını bu. Yiyəndə görür ki, u kişi yoxdu yanında. Xıdır peyğəmbər yoxa çıxır. Bu gedir ağaca baxır, görür nar dibindən quruyub. Bunun ruzusunu Allah kəsdi. Aj qalır, qalır orda ölür. Ona görə misal gətirirlər ki, qonax gəlməmiş Allah onun ruzusunu verir.

## MOLLANIN AXİRƏT QONŞUSU

Bir molla, deyir, dağın dalında dümtənha yaşıyır. Allaha ibadət eliyir, namazını qılır, Quranını oxuyur. Bir dümtək özüdü. Bir gün qurban olduğum peyğəmbərdən soruşur ki, ya Musa, mən cənnətdə qonşumun kim olmasını bilməh istəyirəm. Deyir: «Nətəri?» Deyir: «Get Beyli kəndinə, dağın dalında bir abid var, tənha yaşıyır, ona qonaq ol bir axşam. Onnan öyrənərsən, nə olarsa, görərsən. Onnan sonra Göyçayda bir qəssab var, ət satan, bir axşam una qonax ol. Gəl ordan Hüşün kəndinə, orda da bir lotu var, bir axşam da bu lotuya qonax ol. Sonra mən səə diyərəm cənnətdə sənin qonşun hansı olajax, kim olajax». Deyir: «Baş üstə».

Qurban olduğum peyğəmbər durur gedir Beyli dağının dalına. Gedir görür burda bir abid var, o qədər namaz qılıbdı, şəkli daşın üstünə düşübdü bu mollanın. Bu nəynən qidalanırmış? Bunun bir kümü vardı, kümü diyillər də orda, bir dənə nar ağacı olur. Öynədə bir dənə nar verib bar, hər öynə. Bəli. Bu qonax gəlir axşam öynə, gedir görür ki, bu narın üstündə iki dənə nar var. Deyir: «Vallah, bunun birini aparjam onnan bölüb yijəm, o nə bilir orda nar var, yoxdu». Birini saxlıyır, birini götürüb gəlir. Gəlir, deyir, unu bölüb yiyillər. Səhərdən durub gedir, görür iki dənə nar var. Deyir: «Hə, bu iki dənə nar məə qazanc qaldı». Gənə gətirib birini bölüllər, yiyillər, bu, bunnan salamatlaşıb çıxır. Bu gedənnən sonra günorta yeməyində abid deyir: «Barı gedib üzüb gətirim, qidalanım». Gedib görür para nar var. Dimək, bu qismətiydi kişinin. Allah-taala qonağın payını verdi ki, qoy bu da yisin da, sənin payına ortax olmasın. Bu artıqnəfislik elədi, saxladı özünə, bunun payını para böldü. Ona görə də qurban olduğum ona para nar verdi. Dedi: «Bu da səə bəs oldu».

Ordan gedir qəssaba axşamnarı. Görür, bəli, qəssab da ət satır. Satıb qutarannan sonra buna qonax olur. Görür bu üzü tüklüdü, dırnaxları uzundu. Gəlir, əlini, üzünü yuyub çıxıllar evə. Bir istəkan çay gətirib bunun qənşərinə qoyur. Deyir: «Sən çayını iç, mən gəlirəm». Keçir ankı öyə. Bunun atası zalım olub. Deməh, bir günü anası... Əvvərlər təndir yolun qırağında olub, çörəh bişirəndə gəlib biri gedəndə isti əppək deyirdik biz o vaxtı, buna isti əppəh verər. Atalar deyib ki, isti əppəhdən adam gül umar. Hə, buna əppəyi verir. Bu gedəndə həmən qadının kişisi bu arvada irast olur. Deyir: «Əppəyi hardan almısan?» Deyir: «Səən yoldaşın bişirirdi, unnan almışam». Deyir: «Birini niyə verib, ikisini verəmmirdi, dur gedəh mən iksini verim». Qaytarır gətirir, deyir arvada: «Çörəyi sən

vermisən?» Deyir: «Hə, mən vermişəm». – «Hansı əlinnən vermisən?» Göstərir sol əlini. Dirsəhdən kəsir qolunu ki, sən niyə çörəh vermisən özgəyə. O cür əzazil olur. Onnan sonra qurban olduğum bunu donuza döndərir, heyvana. Heyvan da olsa, qəssabın atasıdı. O günnən aparır onu bir öydə baxır. Gündə üç öynə – səhər də, axşam da, günorta da bunu yidizdirir yaxşı, oxalıyır, qaşıyır, o üzünnən, bu üzünnən öpüb onnan sonra gəlib özü əlini-üzünü yuyub çayını, çörəyini yeyərmiş. Bu peyğəmbər də buna qonaxdı axı. Bu gedir orda bunu eləməyə, bu peyğəmbərə ayətdi ki, bu nə iş görür, nağarırsa, bunu bilir. Özü çay işmir. Gəlir, deyir: «Qonax, çayıı niyə işməmisən?» Deyir: «Səni gözlüyürəm, bir yerdə içək». Nəysə, buna çay gətirir, görür gənə işmir. Deyir: «Sən niyə işmirsən?» Deyir: «Sən sirrini di, onnan sonra içəjəm». Deyir: «Nə sirri?» Deyir: «Sən u öydə nağarırdın, niyə getmişdin?» Mən söylüyən kimi həmən hak-hesabı danışır bu qurban olduğum peyğəmbərə. Yiyillər, içillər, səhər durur bu gedir.

Gedir həmən axşam lotuya qonax olur. Çatır Hüşün kəndinə, lotuya qonax olur. Məsələn, diyillər ki, lotunun adı Vaqifdi. Bəli. Sorunçur ki, burda Vaqif kimdi, diyillər ki, budu. Gəlir, deyir, buna qonax olur. Oturmuşdular, deyir, keçmişdə haftafa-ləyən vardı. Əl yuyulmadan xörəhmi-çörəhmi yiyilməzdi. Bu da axşama arvadına deyib, yaxşı xörək bişirtdirib. Bunun əlinə su gətirib tökəndə bu qurban olduğumun əli nur olub, işıx saçır. Əlini arxasına qoyur, haftafaya sol əlini uzadır. Sol əlini uzadanda lotu haftafa-ləyəni qoyur ki, sən sağ əlii qoyub sol əlii niyə uzadırsan mənim haftafa-ləyənimə? Deyir: «Bəs mənim bu əlim yaradı». Deyir: «Nətər yaradı, a dayı, heç dərman olmadı?» Deyir: «Loğmannara, həkimlərə getmişəm, müalicə olmayıb». Deyir: «Bəs axırıncı loğman nə dedi?» Qəsdən bu qurban olduğum deyər ki, bir adam ola, adı bu ola, arvadının adı bu ola, oların bir dənə züryətdəri ola, onun da adı bu ola. O uşağı kəsib onun qanıynan əlimi yusam əlim yaxşı olar. Bunu bu qəsdən deyir. Lotu görür ki, bunun dediyi nişanələr özüdü, özünün adını da düz dedi, arvadının adını da, uşağının adını da. Bir dənə də uşağı var. Haftafa-ləyəni qoyur ora, keçir ankı öyə. Uşax da yatıbmış. Arvada deyir ki, səsin çıxmasın, bunu kəsəjəm, mollanın əli yaradı, dərman diyillər una. Uşağı səhər dəfn eliyərik. Kəsir uşağı, qanını nimçəyə tökür, uşağı bükkəliyib qoyur. Nimçəni götürüb gəlir. Deyir: «Buyur». Deyir: «Bu nədi?» Deyir: «Sən diyən nişanələr mənəm, adım budu, arvadımın adı budu, uşağım da bir

dənə, adı budu, hindi bir dənə uşağa baxıb sənin əlin niyə belə qalsın, niyə şikəst olasan sən». Deyir: «Əlii yu». Bu çox fikirləşir, deyir: «Ya rəbbi, səə şükür, gör mən nəkqədər artıx günah işdətdim burda». Qurban olduğum Allah-taladan bir nida gəlir buna ki, ya peyğəmbər, niyə qəmgin olursan? Dur uşağı gətizdir, qoy qənşərinə, buların iksinə də yaxşı dəstəmaz aldır, buları da qoy arxanda, uşağı da qoy qabağaa. Üç rükət namaz qıl, uşağın başını birləşdir, tüpürcəyinnən çək, uşax gənə həmən uşaxdı. Gətirir u formuda eliyir, uşax dirilir. Bu da əlini göstərir ki, mənim əlim yara döylü, nurdu. Ona görə unu heç harda göstərmək mümkün döylü. Əlini belə görsədən kimi öy işıxlanır, elə bil lamışka formada. Deyir: «Hə». Elə axşam yatır orda, səhər durur gəlir.

Gənə də, deyir, Allah-talayanan nidalaşdı ki, dinən görüm mənim qonşum kim olajaxdı? Deyir: «Sənin cənnətdəki qonşun qəssabdı, u lotudu. U qırx il namaz qılıb, oruc tutan var e, u cəhənnəmlikdi».

## QƏBR ƏZABI
### I mətn

Qonaxpərvər kişi olur bu. Həmişə yoldan gələndə özüynən qonax gətirərmiş. Bunun arvadı o qədər deyingən arvad imiş. Qonax gələndə bilmirmiş nə desin kişiyə. Bir günü kişi buna deyir: «Ay arvad, sən olasan o bir Allah, bu gün xörək bişir, yiyək». Deyir: «Qonaq gətirməyəcəksənsə, bişirərəm». Deyir: «Arvad, səən canın haqqı gətirməyəcəm». – «Nə deyirəm». Gətirir arvad xörəyi dəmliyir. Kişi yolnan qayıdıb gələndə görüb bir kişi qabaxda gedir. Deyir: «Hara gedirsən?» Deyir: «Elə sizə gedirdim. Yaxşı ki, səə rast gəldm». Kişi ürəyində burula-burula gəlir. – «Ay Allah, mən arvada nə cavaf verəjəm? Mən axı arvada demişdim ki, bu bərəkət haqqıçın, qonax gətirmijəm. Mən arvada söz vermişdim». Qapıdan girəndə arvad baxır görür bunun yanında qonax var. Söylənir. Deyir: «Arvad, u qulfallah hakqı...». Axı düyünün hərəsinin başında yeddi qulfallah var. Deyir: «Arvad, u qulfallah haqqı, mən gətirməmişəm bu qonağı, özü gəlibdi». Gəlir, bala, arvad söylənə-söylənə xörəyi çəkir. Nəsə. Nə başızı ağrıdım. Yiyir, içir. Gəlir vaxd olur, vədə keçir kişi ölür, arvad da ölür. Buların bir dənə qızı olur. Qız bir gejə yuxuda görür ki, bunun anası hüürə-hüürə uyzə yüürür, buyza yüürür, uyza yüürür, buyza yüürür. Bir gün, iki gün, üş gün, beş gün. Bir gün gedir öz kəndlərindən də uzax bir kənddə molaya danışır ki,

vallah, mən yuxuda belə-belə gördüm. Deyir: «Bəs ataa nətəər gördün?» Deyir: «Vallah, gördüm zəm-zəm suyu paylıyır. Hamıya verir, anama çatanda belə eliyir. Mən istədim atama deyəm «ata, u sudan anama da ver» əlimi uzadan kimi əlim bax beləcənə qurudu qaldı». İstəyir ki, atasınnan suyu alıb anasına versin, əli quruyur yuxuda. Ayılıb görür ki, qolu quruyubdu. Qolu bu vəziyyətə düşübdü. Deyir: «Qızım, sənin atan həmişə qonaxpərvər kişi olub. Ona görə Allah-tala onu aparıb cənnətə salıb. O zəm-zəm suyu da sən vurmusan, o dağılıb. Ona görə də sənin qolun quruyubdu». Deyir: «Bəs mən nağarım?» Deyir ki, düzələr, Allah qoysa. Gəlir qız öyə. Başdıyır Allaha yalvarmağa. Nə qədər qız Allaha anasınnan ötrü yalvarırsa, yuxuda görür ki, anası buna deyir ki, a qızım, xeyri yoxdu. Məndən ötrü yalvarma. Çalış atanın yolunu get, mənim yolumu getmə.

Yəni qonax gözəl şeydi. Qonaxsız öy susuz dəyirmandı. Qonax yimiyən çörək artmaz.

### II mətn

Bir günnəri arvad – yaxşı arvad olur da, nurlu, əl tutan, belə lap nətəər desən heylə – öləndə vəsiyyət edir ki, məni apar öz ata vətənimə. Bu da deyər yaxşı. Nətəər olursa, onun vəsi bu kişinin yadınnan çıxar. Aparar öz qəbirstannıxlarında basdırar. Bir gün keçər, iki gün keçər, bu arvad kişiyə deyər ki, mən səə diməmişdim ki, məni ata vətənimə apar? Sən niyə gətdin məni bura saldın? Bu da gedər mollaya. Molla deyər ki, vallah, deyir, deyir da, get çıxart, apar öz vətəninə basdır. Bəli. Bu gedər qəbri qazanda görər ki, arvad beləcə yumurlanıb bir tərəfə, qəbrin böyründə durub. Aparıb basdırıb gəlirlər. Bu nə sirr idi? Kimdən xəbər alır bu nə sirr idi? – "Əmi, una çatan arvad nağarır. Təmiz, əl tutan, hamıya xoşbəxtlik yetirən, verən bir adamdı. Onun heş bir eybi-zadı yoxdu". Nəysə, bir dənə uşağa rast düşür. Deyib: "Bala". Deyir: "Hə". Nəvəsi olub da. Deyib: "Bəs nənən niyə heylə olsun? U söyən idi?" Dedi ki, hə. – "Nətəər söyürdü, a bala?" – "Həmişə ölülərə söyürdü". Deyib: "Hə, elə ölülərin ahı da onu heylə tutub, heylə də olubdu".

## GÖYDƏN GƏLƏN BƏLA

### I mətn

Yaxşı pullu-paralı idi, mallı-döylətdi. Bir gün, diir, Xıdır əleyhissalam gəldi qapını döydü, buna qonax oldu. Didi: «Məni qonax

eliyərsənmi?» Didi: «Allaha da qurban olum, qonağa da». Oturmuşdu, diir, axşama tərəf idi belə. Gördü it uladı götünü yerə qoyuf, xoruz da bannadı. Güldü. Kişi güləndə, didi: «Qonax, sənnən xayiş edirəm artıx dərəcədə, çörəh, didi, yimişih, sən o kəsdiyin çörəh, səə nolub gülürsən?» Didi: «Mən onu səə dimijəydim, indi dijəm nə nolubsa. Səən, didi, tolada bir erkəh atın var, u, didi, öləjəh, it, didi, götünü yerə qoyuf uladı ki, onun ətinnən yeyif kef elijəyih. Xoruz da, didi, bunu bannıyırdı. Göydən qada yenir», – diyəndə çağırdı qoşunu. – «Qoşu, qoşu, at almırsan?» Dedi: «Alıram». Dedi: «Neçəyə deyirsən?» Lap bir ölü qiymətə dedi. Dedi: «Ə, məni araya qoymusan?» Dedi: «Ə, vallah yox, puluu məə gətir». Pulu aldı, deyir, atı verdi una. Bu adam atdan qutardı.

Bir az dayanmışdı, genə xoruz bəənədi, it uladı. Dedi: «Qonax, indi nə deyir?» Da bunnan arası açılıb. Dedi: «Ə, bunun mən səə birini dedim, bunun səə hamısını deməli döyüləm». Dedi: «Da keçib, qonağam, sənin çörəyini kəsmişəm, yaxşı deyil». Dedi: «Səən camışın var, yaxşı, cannı bir camışın var tolada. Varmı?» Dedi: «Var». Dedi: «U öləjəhdi, itdər yeyib onun ətinnən kef elijəh». Dedi: «Ə, qoşu». Dedi: «Hə». Dedi: «Camışı da satıram». Camışı on maata gedirdisə, beş maata satdı, camış qutardı bəladan.

Bir az dayanmışdı, gənə, deyir, it uladı, xoruz bannadı. Dedi: «Qonax, sən o Allahın birliyi, nə deyir?» Dedi: «Ə, hindi diyəmmijəm, qorxuram». Dedi: «Yox, diginən». Dedi: «Ə, vallah, deyəmmijəm, qorxuram». Əl çəkmir. Xıdır əleyhissalamın gözünə görükür axı. Kişi gəlib durub başının üstündə. O qədər bunu gözlədi, gözlədi, da bunun məqamı gəlib çatdımı, dedi: «Hindi ulayır ki, ağamız öləjəh, böyük xeyrat verəjəh, sür-sümükdən yeyib kef elijəyik. Xoruz da onnan ötəri bəəniyir ki, çörəh qırıntısınnan yeyib qarnımızı doyuzduracayıq». Dedi: «Ə, mən ölmüşəm» – diyəndə Əzreyil, deyir, yapışdı hulqumunnan.

Hindi ay dədə, bəndə adama çörəh verən şey döylü, Allah verən şeydi. Bu ata gəlmişdi da, at öləjəydi, qutarmışdı, yaxud camış ölmüşdü, qutarajaydı. Axırda özü öldü.

## II mətn

Belə bir misal danışırdılar, deyir. Deyir bir kişi, mən bilən İsa peyğəmbər, heyvannarın dilini bilən bir peyğəmbər olubdu. Deyibdi ki, heyvannarın dilini məə də örgət. Deyib: «Ağırdı, onu örgənməsən yaxşıdı». Deyib: «Yox, örgənsəm yaxşıdı». Deyir: «Nə deyirəm». Örgə-

dibdi. Örgənəndə, deyir, görüb kin, xoruz bəənədi. İt, deyir, onnan soruşdu ki, nolubdu? Dedi: «Ağamın atı öləjək. – Yaxşı bərk gedən atı var imiş. – Şam olajax». Ağa başa düşdü axı. Apardı atı satdı, deyir. Səhər, deyir, it hürdü. İt hürəndə xoruz dedi: «Xeyir xəbər». Dedi ki, ağamın kəlləri öləjək. Suçu idi. Kəl olurdu. Gamışın erkəyinə kəl deyirlər. Bilirdin belə şeyləri? Hə. Ağamın kəlləri öləjək, şam olajax. Kəlləri də satdı, deyir. Xoruz, deyir, qalxdı darvazanın üstünə, orda bəənədi. İt dedi: «Xeyir xəbər». Dedi: «Ağam öləjək». Belə deyəndə, deyir, yüürdü peyğəmbərin yanına. Dedi: «Bəs belə-belə». Dedi: «Ə, səə demədim ki, səə örgənmək olmaz. Öyə gələn qada idi. At qadanı aparjaydı. Amma apardın satdın. At kişinin qapısında ölübdü. Apar atın pulunu verginən, kəllərin də pulunu verginən. Hindi daa nə olmalıdı? Bu öyə gələn qada kələ gəlməli idi, ata gəlməli idi. Buları da satdın sən. Getginən halallığıı al qohum-əqrabannan, dünyanı dəyişəjəksən sən».

## İSGƏNDƏRİN BUYNUZU

Deyir bir dənə paccah var imiş, o paccahın da buynuzu var imiş. Amma bunun sifətini heş kəs görmür. Ancax onun yanına girib çıxan qulluxçusu görübdü. Bir dənə də dəllək var imiş. O görürmüş, bir də özünün yoldaşı, yanına girib çıxannar. Deyibmiş ki, bircə kəlmə ağzınızdan eşitsəm onnan sonra boynuzu vurajam. Heylə də eliyirmiş ha. Günnərin bir günündə bunun üzünü qırxan dəllək ajalı yetib ölür. Onnan sonrasına gedillər neçə dənə dəlləh gətirirsə, üzünü qırxan kimi boynunu vurdurur da ki, mənim sirrimi çıxarmasın. Bilib ki, nətər olsa, danışajax. Axırı dünyada dəlləh qalmıyıbdı. Bircə dənə dəlləh qalıbmış. Diyib ki, bəs nağarax, nətər eliyək. Bu dəlləyi gətirsəh, öldürsən, daa dəlləh yoxdu. Deyir: «Gətirginən, ona bir tapşırıx verərəm». Deməli, dəllək də çoban imiş. Dağda qoyun güdürmüş. Gətiriblər bu dəlləyi, başdıyıbdı üzünü qırxıbdı. Qorxub eləmiyibdi. Deyibdi ki, səni yeri qazıb yerin altına girsən boynunu vuracayıq əyəmnəri bu sirri bir kəsə desən. Paccah buna tapşırıbdı. Deyibki, yaxşı, danışmaram. Gəlibdi, paccahı görübdü heylə, ürəyi partdıyır. Nağarsın? Bunu nətər danışmasın? Deyibdi: «Nənə, ay nənə. Məən ürəyim partdıyır ey. Mən öləjəm». Cavan oğlan imiş. Qoyun güdürmüş. Gedə bilmiyib qoyun-zad güdməyə də. Deyib: «Nolub ay oğul, səə. Dərdin nədi?» – nənəsi deyib. Deyibki, ay nənə, səə disəm, heş kimə diməzsən ki?

Mənim bir dərdim var, ürəyimi partladır. Məə «Quran»a and veribdi paccah, ona görə də mən onu danışammaram. İxtiyarım yoxdu, səə də danışammaram. Deyib: «Oğul, indi ki, məə dimirsən, getginən bir quyuya danışginən. Bir quyu qaz, ona danışginən. Danışannan sonra üstünü torpaxlaginən». Heylə də eliyir. Gedir dağın döşündə quyu qazır. Quyuya deyir ki, neçəsini öldürübdü paccah. Mən getdim paccahın üzünü qırxmağa. Paccahın buynuzları var. Zülqəreynənin buynuzu var. Eşşək qulaxları kimi də qulaxları var imiş. Eşşək qulaxları var. Danışıb, üstünü də torpaxlıyıb. Möhkəm torpaxlıyıb da burdan səs çıxmaz. Çıxıb gəlib, arxayın olub da. Paccah hər gedəndə buna xələt verib, o yan-bu yan, qızıl-gümüş verib da. Yaxşı oldu ki, danışmadı mənim sirrimi.

Bir günnəri başqa bir çoban – bu, daa heş çobannıx eləmir – qoyun güdürmüş dağda. Görüb ki, yaxşı bir qarğıdımı, qamışdımı var. Başdıyır, deyir, bunnan yontalıyıb tütək qayırmağa. Çaldıxca görür ki, İsfəhan paccahının eşşək qulaxları var, Zülqəreynənin eşşək qulaxları var, buynuzu var, tütək elə bil oxuyur. Heylə danışır. Vay, bütöv yayılır səs hər yerə ki, tütəkdə bir şey diyillər. O nə sözdü? Çağırtdırır həmən dəlləyi yanına. Deyir: «Gedin tütək çalan çobanı bəri çağırın». Çağırıllar çobanı. Deyir ki, səə bunu kim deyib, kim danışıbdı? Deyir: «Paccah sağ olsun...». Demək, başını-zadını bürüyür, heç harası görünmür, bircə sifəti, üzünə də şey salırmış, sifətini göstərmirmiş. Pərdənin dalında danışırmış. «Quran»a and içəjəhsən ki, görək səə kim deyibdi. Deyib: «Paccax sağ olsun, «Quran»a and iç deyirsən, and içim. Boynumu vurdurursan, vur. Dağda qoyun güdürdüm, gördüm qarğı var orda. Qarğıdan kəsdim, tütək qayırdım, çaldım, belə oldu». – «Bəs bu nətəri olub?» Deyib: «Paccah sağ olsun, ürəyim partdıyırdı, ölürdüm. Gedib mən onu dağın döşündə quyu qazıb quyuya danışmışdım ki, burdan səs çıxmaz, heş kim eşitməz. And içirəm, genə də and içirəm ki, heş kimə danışmamışam». O oğlan da deyir ki, mən onu görməmişəm, tanımıram da. Heş nə də dimiyib. Onnan sonra paccah deyib ki, doğrudan da, sirr batmır. Nolur olsun, sirr batmırmış. Elin, camaatın ağzınnan yığmax olmurmuş. Paccah olmuyub nə olsan da, yenə sirr batmırmış. Oları da azad eliyir, boynunu-zadını vurmur. Deyib: «Da qojalmışam. Kim nə bilirsə, bilsin».

## BƏRƏKƏT SURFASI
## I mətn

Deyir ki, arvada, mənə çörək bişir, su qoy, mən yol gedirəm Allah-taladan bərəkət surfamı alajam. Okqədər gejə-gündüz yol gedib, çörək qutarıb, su qutarıb. Qurban olduğum Cənabi Əli bir bulax vardı, bulağın da üstündə söyüd ağacı. Qəmbərnən oturar onun dibində. Görər bu kişi çox həlak olub susunnan, acınnan gedir. Yolluyur Qəmbəri ki, Qəmbər də bununla gəzəndi, Qəmbər, get o kişini götür, gəl bura. Gəlib: «Salam əleyki». «Əleykimət salam». – «Əmi, hara gedirsən?» Deyir: «A bala, vallah, sən mənim dərdimə qalan deyilsən. Niyirsən, gedirəm». Deyib: «Yox, de görüm». Deyib: «Allah-taladan bərəkət surfası almağa gedirəm». Deyib: «Gəl gedək oturax orda bulax var, yi, iç, sərinnəşək». Deyib: «Yox». Gedib. Gənə çox gedib, az gedib, həlak olub. Gənə qurban olduğum Cənabi Əli göndərib bunu. Get, barmaxlarını belə elə, görəjək məni. Gəlib, yenə salam verib, salam alıb. Deyib: «Əmi, gedək bərəkət surfanı mən alıb verim». Deyir: «Yox, sən kimsən ki mənim bərəkət surfamı alıb verəsən?» Deyib: «Əlimin arxasınnan bax, nə görürsən?» Baxıbdı. Deyib: «Bulaxdı, bulağın başında bir şəxs oturub». Deyib: «O qurban olduğum Cənabi Əlidi, səni çağırır». Ordan kişi qumnan çəkmələrini doldurub dizin-dizin gedib. Deyib: «Ya Əli, qəza olub, bağışda». Deyib: «Allah bağışdasın». Burda yeyib-içib, deyib ki, əmi, bilirsən nə var? Deyir: «Xeyir. Deyərsən, bilərəm». Deyib: «Gedək bir şəhər var, orda məni qul adıyla satginən. Həmin şəhər əhlini müsürman elijəm». Diib: «Ya Əli, mən kor olaram səni qul adıyla satsam». Deyib: «Səə deyirəm ki, məni qul adıyla sat, səən bərəkət surfanı mən verəjəm». Deyib: «Ay qul alan, ay qul alan». Yəhudi çıxıb ki, mən alıram. Neçəyə? Deyib: «Qızılnan bərabər». Bunun xəzinəsini bir gözünə qoyub, qurban olduğumu bir gözünə. Gənə bəs eləmiyib. Qurban olduğumun özünün barmaxçılı var idi. Çıxardıb atıb ora onnan sonra barabar olub. Deyib: «Əmi, istəyirsən qal, istəyirsən get». O qədər xəzinəni götürüb gedib kəndə, özünə ev alıb. Deyib: «Qulum, bilirsən nə var?» Deyib: «Deyərsən, bilərəm». Deyib: «Yaxın dur, deyim». Deyib: «Birinci, Çığırğan Əlinin başını məə gətirərsən». Deyib: «Allah səə nəhlət eləsin. O sonrakı işdi». Çığırğan Əli Cənabi Əliyə deyir da. İkinci meşədə, yox nəhlət şeytana. Dağda əjdaha yatıbmış suyun qabağında. Gündə bir boşqab aşla bir qız gedirmiş, udurmuş, bir damcı su buraxırmış. İkinci u əjdahanı öldürürsən. Üçüncü, meşə var, meşədə bir dənə putax qoymursan, qırıb mənim qapıma tökürsən. Deyir indi meşəyə gedəndə heyvannar yiyəjək bunu. Qılıncı götürüb birinci gedib suyun boğazına. Görüb bir dənə qız getdi, bunu əjdaha uddu. Bu əjdahaya

çatanda qılıncı başdan qoyub çıxır ayaxdan. Suyun üzünü qan aldı, su bütün şəhəri götürüb. Əmr eliyib ki, quluma deyin suyu qərələ qoysun. Belə əlini göyüs gəlib, su barmağının arasınnan keçib, qajdara ayrılıb.

Deyib ki, birincini etdin, indi ikinci. İkincini gənə gedib meşəyə nə qədər vəşi heyvannar var, ilannan, qurbağadan, tısbağadan tutmuş vəşi heyvannarı çağırıb. Odunnar qırılıb. Heyvannar uj-uja bağlanıb. Hamısı şələ olub, bu heyvannarın belinə yüklənib. Deyib: «Heyvannar, gedin, padşah hara disə, ora qoyarsız». Bir dənə putax var. Bu putax da bütün oduna barabardı, deyir. Bunu da mən götürüb gəlirəm. Yəhudi baxıbdı pəncərədən, görüb meşədə nə odun qalıb, nə vəşi heyvan. Deyib ki, filan yerə boşaldın. Qurban olduğum da gəlibdi. Deyib ki, paccah, hara tulluyum odunu? Deyib: «Özün hara bilirsən ora». Bunun darvazasını da uçurdub oturub. Deyib: «Birinci vəsini yerinə yetirdin, ikincini də yerinə yetirdin. İndi üçüncünü – Çığırğan Əlinin başını gətirərsən». Deyir: «Allah səə nəhlət eləsin. Birinci əjdahanı öldürdüm, başa düşmədin. İkinci meşədə nə qədər odun var, vəşi heyvan var, gəldi, başa düşmədin. Çığırğan Əli mənəm. Cənab Əli mənəm. Bu şər, bu meydan». Diib: «Onda get məə üş gün vaxd ver. – Yəhudi diib ha. – Get sən də qoşunu götür gəl. Üş gün dimirsən, beş gün verirəm». O qurban olduğum gəlincə qırx metrə enində, qırx metrə dərinində quyunu qazar, içinə suyu doldurar, üstünə də saman vurar ki, qoşunu gələndə düşcək bura, qırılcax. Düldülü minər, Qəmbərnən ikisi nətəər tullanarsa, bu qırx metrə eni quyudan qırx metrə də o yana gedər. Qılıncı sıyrar düşər bu qoşuna. O qədər qırar, deyər: «Qəmbər». Deyər: «Can Qəmbər». Deyər: «Canın bibəla. Hər Qəmbər sənə qurban olaydı». Deyir: «At yerə qılıncı, bunu biz yaratmamışıx, Allah-tala yaradıb. Müsürman eləmək lazımdı». Qılıncı qoyub deyib ki, kim müsürmannığı qəbul eliyir, kəlmeyi-şəhadəti qəbul eliyir, gəlsin qılıncımın altınnan keçsin. Qılışdan dönmüşük da. Qəbul eliyənin hamısı keçir. Bu nəhlət eləmiş də nəhqədər deyir, deyir: «Bu söyüddən sandal iyi gəlsə, məndən müsurman iyi gələr». Deyib: «Vurun ə, onu». Vuranda qışqırıb. Deyib: «Nolub?» Deyib: «Dilim saşdı, alnım...». Deyib: «Alnın möhür görmüyüb, dilin kəlmeyi-şəhadət gətirmiyib. Vurun ə, onu». Cəhənnəmə vasil olub. Bax Əlinin hökmü belədi. İnanmıyan inanmır. Deyir o, pəhlivandı. Əli imamdı, Məhəmməd peyğəmbər. Dünyadan qurban olduğum Məhəmməd əleyhsalam köçəndə onu yerinə qoyub gedibdi. Hamısı meçitdə imiş da ağsakqalların. Deyib: «Ya Əli, mən

gedirəm, filan vaxtı dünyamı dəyişəjəm. Məni özün kəfən-dəfən eliyərsən». Ordan ağsakqalar deyib ki, əlini deyir. Göstərib deyib: «Əmim oğlu Əlini deyirəm, əlimi dimirəm». Deyib ki, hamma məni kəfən-dəfən eliyəndən sonra ağsakqallar gələjək mənim qəbrimi qazıb meyidimi çıxardajax, təzədən kəfən-dəfən eliyəjəklər. Onda qorxun olmasın, qəbrimi at kimi min. Özləri qorxub qaçajaxlar. Bəli, bular meçitdə, bu vəfat eliyib. Deyib ki, amma məni aparanda cənazəmi arxadan sən göt, qənşərdən özü gedəjək. Harda başını qoysa yerə orda məni kəfən-dəfən elə. Gələr görər vəfat eliyib. Bunu kəfən-dəfən eliyər. Daldan cənazəni götürər qənşərdən cənazə özü gedə. Harda başını qoyarsa, orda qəbir qaza, kəfn-dəfn eliyə. Bu hələtdə ağsakqallar deyər ki, peyğəmbərin vəfat eliyən vaxtıdı, durun gedəyin. Gəlib görürlər aparıb kəfən-dəfən eliyib. Bular dəstə tuta, güdər ki, nətəər ola bir dəstə uşax kəfən-dəfən eləsin, ağsakqal yox. Görər ki, bular gəlir. Gedər qəbri at kimi minər, gözlər qızara, tüklər biz-biz dura. Qırx metrə ayna qılış çala, qırx metrə bayna qılış çala. Yanı ki, qırmağa. Olar dalın-dalın dua eliyib qayıdallar dala, ağsakqallar. Əlinin hökmü çoxdu, bala. Allah-talanın yanıda birinci Məhəmməd peyğəmbərdi, Allahın məsəli əla Məhəmməd, ikinci Cənab Əmir, üçüncü İmam Həsən, İmam Hüseyn.

**II mətn**

Kişi, diir, namaza gəlir. Bir gün gəldi dayandı, gördü ki, gözlərinnən yaş gəlir. Peyğəmbər baxdı, diir, buna didi ki, niyə ağlıyırsan, sənin gözlərinnən niyə yaş gəlir? Didi ki, səə qurban olum, yuxarıda Allaha, aşağıda səə, mənim didi qooşum xaşpərəstdi, onnan didi yüz tümən pul almışam ki, bir ildən sora yavaş-yavaş düzəldif verərəm. İl də tamam oluf, o birisi il də uje tamam olmağa haxlıyıfdı, pul yiyəsi də, didi, məni öldürür ki, pulumu ver, saa verdiyim pulu məə ver. Məən də ona güjüm çatmır. Xayiş eliyirəm sən məə bir köməhlik eliyəsən. Köməhlik elə diyəndə çörükdü camaata didi ki, ay camaat, hamınız köməhlik eliyin una. Qırx min adamdı, diir, meçitdə, o bunun üzünə baxdı, bu onun üzünə baxdı, yoxdu axı, bir belə pul yoxdu, yüz tümən pul. Əli, diir, cavan oğlanıydı, Allahın pəhlivanı. Bu durdu ayağa, didi ki, mən onun pulunu verərəm. Amma peyğəmbər də bilir ki, bunda nol köpük yoxdu. Çörüldü didi ki, verə bilərsən? Didi: «Hə». İkinci bir də çörüldü didi ki, verə bilərsən? Didi: «Hə». Üçüncü bir də çöyrülüf didi: «Verə bilərsən?» Didi: «Hə». Didi: «Get u kişinin pulunu ver». Didi: «Gəl, ay kişi». Götdü,

gəldi, diir, atı yəhərrədi, dal tərkinə döşəhçəni qoydu, didi: «Min». Mindirdi, özü də mindi ata. Didi: «Yum gözünü. Mən, – didi, – aş diyəndə açarsan». Atı mindi, buraxdı başını, aş diyəndə aşdı, gördü, ayrı bir şəhərdi, tarix boyu görmədiyi bir şəhərdi, şəhərin qırağındadı. Didi: «Bilirsən nə var?» Didi: «Yox». Didi: «Məni – dedi, – min tümən pula diyərsən, bir köpüh aşağı satma. Satarsan məni qul əvəzi. Xəbər alanda deyərsən, min adamın bu bir adam işini görür. Sən məni min tümənə satcasan. Da dimə ha, bu filankəsdi. Pulunu al, min atı, get. Borcunu da ver, özə də saxla, qalanını da ver peyğəmbərə, orda pulu, parası olmuyan adamlara kömәhlih eləsin». Didi: «Oldu». Gəldi, diir, o didi, qulu neçəyə diyirsən, bu didi, neçəyə diyirsən. Gördü buna yaxın durmax olmur. Belə-belə çatdı oranın şahına xəbər. Şah vəziri götdü gəldi ki, ə, gəl gedək görək, o nətər quldu ki, min tümən diir. Min tümənə qul olar, qulun biri yüz tüməndi. Bir adam, didi, min adamın işini görər? Gəldi, deyir, çatdı, didi: «Neçəyə diyirsən?» Didi: «Min tümənə». Didi: «Ə, bu bir adamdı e, min adam döylü». Didi: «Bilirəm bir adamdı, min adamın işini görür». Xəbər aldı quldan ki, görə bilərsənmi? Didi: «Hə, mən – dedi, – min adamın işini görürəm». Didi: «Heylədi?» Didi: «Hə». Çıxartdı şah pulunu verdi bunun. Atı mindi, qayıtdı dala.

Şah bunu götdü, çıxdı getdi. Bir üş-dört gün saxlıyannan sora, diir, bu şəhər tarix boyu su görmürdü. Nəqədər camaat əlləşirdi, su çıxardammırdı. İki dağın arasınnan dərinnən su keçirdi. Bunu, diir, əlləşirdilər, çayın qabağını kəsə bilmirdilər. Didi: «Görəh, min adamın işini bu nətər görəjəh?» Şah da, vəzir də toplaşdı, didi: «Bizim məmləkət, – didi, – sussunnan neçə illərdi qırılıf batır. Biz çayın qabağını kəsməliyih, sənin hünərini görməh isdiyirih». Didi: «Görərsiz». Getdilər baxdılar, didi: «Bax, bu suyun qabağını kəsməliyik. İki dağın arasınnan gedən suyun qabağını kəsəjəyik». Didi: «Elə budu?» Didi: «Hə». Bu, diir, bir az uzaxlaşdı dal tərəfə yüyürdü, ayaxlarını cütdəşdirdi, diir, hoppandı ankı üzə. Hardasa iyirmi metrə, iyirmi beş metrə enində yerdi, hoppandı, diir, o yana. Keşdi, diir, bir az getdi, deyir, dal tərəfi dərə idi, dərəyə düşdü, diir, çiynini verdi dağa, basa-basa gətdi, dirədi, diir, çayın içinə. Su ordan, diir, addadı keşdi. Bayannan basdı, ağız-ağıza verdi, su qayıtdı, diir, düzəldi şəhərə. Didi: «Bu səən suyun». Heş buna, diir, fəhlə lazım olmadı. Şah, deyir, söyündüyünnən bilmədi nağarsın. – «Yaxşı, – diir, – pul verib bunu almışam. Qul döyül ey?»

Nəysə, götdü gəldi öyə. Qayıtdılar öyə. Su, diir, götdü şəhəri başına. Camaat, diir, başdadı sahə-zad sulamağa. Bir qədərdən sora vəzir didi ki, bilirsən şah, nə var? Didi: «Yox». Didi: «O boyda çayın qabağını bir adam kəsib, heç səən xəbərin var dünyadan». Didi: «Nədi ki?» Didi: «Sabah çöyrülüf səni – didi, – qolunnan atası olsa, bilirsən sən neçə kilometr yol gedəjəksən? Qul olmaxnan döyül dedi. Ajığını tutdursan, – dedi, – elə bir məmləkətdə adam yoxdu, bu paytaxda». Didi: «Bəs nağayrax?» Didi ki, on iki yolun ayrıcı var, orda bir əjdaha var, göndərəh didi ora, əjdaha onu yisin. Didi: «Göndərəh». Çağırdılar bunu, didi: «Get filan yerdə, on iki yolun ayrıcında əjdaha var, onun başını gətirərsən. Eləyə bilərsənmi?». Didi: «Baş üstə». Düzəldi yola atı minib. Getdi, diir. Getdi gördü ki, həqqi də, nataraz bir şeydi. Çatdı, diir, qulaxladı, diir, başını kəsdi, diir, qoydu atın qucağına, gətdi, diir, goppadan tulladı şahın qabağına. Dedi: «Ala, bu da səən əjdahan». Yollar indi açıxdı, bayaxdan yolu bağlamışdı əjdaha.

Şah, diir, daha da qorxmağa başdadı. Didi: «Ə, bunu müqəssir eləmək lazımdı». Nəysə, diir, bunu, müqəssir elədilər, çəkdilər dar ağacının qabağına boynunu vurmağa. Didi: «İndi nə sözün varsa bu camaata diyə bilərsən». Dedi: «Mənim bir dənə sözüm var, icazə verin bu camaatın içində diyim». Didi: «Di». Didi: «Şah sağ olsun, anan dururmu?» Didi: «Durur». Didi: «Sənin anan lazımdı məə». Didi: «Niynirsən ki, mənim anamı?» Didi: «Anan gələndə u sözü mən səə dijəm». Getdilər, diir, bunun anasını götdülər, gəldilər. Didi: «Bu da mənim anam. Qoja arvaddı». Didi: «Lap yaxşı». Dedi ki, şah sağ olsun, bir şah ki, özgənin sözünə baxıf, özgənin sözüynən özgənin boynunu vurursa, o, dedi, şah oğlu döylü, rəiyyət oğludu. Deyəndə dedi ki, yalan diyirsən. Şah buna qəzəbləndi. Didi: «Yox, yalan döylü». Dedi: «Onun yaxşısını kim bilər?» – «Ana. Anannan xəbər al». Arvada didi ki, ana, düzünü danışginən, bu sənin oğlun, həqiqi oğlundu, ya yox? Bunu bilməh isdeyirəm. Anası gördü ki, ora-bura deyən söz döyül. Didi ki, mən həmlimi yerə qoyan vaxdı bir naxırçımız vardı, onun didi oğlu oldu, mənim qızım. Qızı, didi, ona veriflər, oğlu, didi, məə veriflər. Həmən bax budu. Didi: «Şah sağ olsun, düş ordan. Gedin, – dedi, – naxırçının qızını tapın gətirin». Gətdilər qoydular ora. Şahın, diir, boynunu vurullar. Ordan o şəhəri tərk etdi, qayıtdı gəldi, diir. Rəvayətdə belə şeylər çoxdu.

## KƏSİK BAŞ

Tamam başına kimi yiyir unu. Baş qaçıb çıxıb gedir. Qurban olduğum meçitdə oturmuşdu, deyir. Bir də görür baş qapını açdı, yumbalana-yumbalana gəldi durdu buların yanında. Dedi: «Ya rəsulallah, mən filankəsəm». Gördülər, doğrudan da, çox böyük şəxsdi bu. Deyib: «Nə olub?» Deyir: «Bəs filan dağdan gələndə divlər, pərilər, cinnər qabağımı kəsib bax boğazıma kimi yedilər. Qaçıb sizin üstünüzə gəlmişəm». Nə qədər eliyir... Həzrət Əli istiyir ki, qujağına götürsün bu başı, dizə kimi girir yerə, güjü çatmır. Deyir: «Dayan, sən məni götürəmməzsən». Qurban olduğumdan icazə alıb ki, mən gedim bunun dalınca. Bunun ayləsini, uşağını – hamısını tutub aparıblar, salıblar harasa quyuya. Həzrət Əli icazə alıb gedir. Düldülü var idi da, onun atı. Nəkqədər bərk sürürsə, başa çata bilmir. Baş yumalana-yumalana çıxır gedir. Gedillər, yorulanda bu başı saxlıyır. Alır belə, dəsmalnan-zadnan üzünü-gözünü silir, eliyir. Genə oturullar. Bu bir loxma çörəh yiyir. Durub gənə düzəlir. Bir xeylaxdan sonra gedib çatıllar ora. Deyir: «Bax, bu daşın altında onun mağarası var, dağın dibində». Düldülü bağlıyır qırağa, uzun kəndiri var imiş, götürüb bunu bağlıyır belinə. Daşı alıb tulluyur, özünü salır quyuya. Gedir quyunun dibinə, görür kəndir qurtarır, qalır asmacada. Xançalını çıxarıb ipi kəsir. Yeddi sutka gejə-gündüz yol gedir. Başı-götü ora-bura dəyə-dəyə gedib çatır. Nəysə, düşür yerə. Düşən kimi görür səs gəldi. – «Ya Əli, xoş gəldin». – «Hə, kim bilir mənim bura gəldiyimi?» – «Dart, açılsın, – deyir, – qapı bağlıdı». Qapını dartıb açır, görür bura işıxlıdı. Bir qadın xeylağı zəncirlənib oturub. Deyir: «Həmən kəllənin külfətiyəm mən». Deyir: «Bəs div?» Deyir: «İçəridədi, yatıbdı». Keçir içəri, görür ə, nə qədər mömün bəndələr hamısı başı ayağına bağlanıbdı. Buların üş-dördünün başını açır, deyir: «Buları aç burax». Keçir görür, ə, kopoğlu div nə boydadı, yatıb da. Bunun nəfəsi dağın bir tərəfini qap-qara qaraldıb. Ağzınnan od çıxır. Nərə vurub, çığırır möhkəm, div vejinə də almır, ayılmır. Vuran kimi gözünü açır, açan kimi, deyir, yanında bir daş var imiş. Götürür Həzrət Əliyə hancarı ilişdirirsə, Həzrət Əli qalxanı verir qabağına, qalxan, deyir, oxam-oxam olur. Çağırır, deyir: «Ya Allah». Deyir: «Mən səə Zülfəri kimi qılınc vermişəm. Sən niyə qalxanı verirsən qabağa». Onnan sonra qılıncı verir. Nə verirsə, qılınc kəsib tulluyur hamısını. Nəysə, tutaşıllar çox möhkəm. Yıxır, bunun burda başını kəsir. Nə qədər eliyir ki, töybə, əstəfirlah eylə, kəlmə-şəhadət kəs, müsürman ol, başıı kəsmiyim, deyir: «Yox, mənim nəslim müsürman olmuyub,

mən də olmuyajam». Deyir, başını kəsir. Unnan sonra neçə gün, neçə gejə yerin altında divlərnən dava eliyir, tamam onların kökünü kəsir Həzrət Əli. Unnan sonra daa div hak-hesabı olmur.

## SALSAL PƏHLİVAN

### I mətn

Həzrət Umar böyük pəhlivan olubdu. Həm peyğəmbərin qayın-atası olub, həm də böyük pəhlivan olub. Bu Salsal pəhlivan da çox böyük pəhlivan olub. Ulara deyiblər ki, get da sən. Onun qabağına bircə sən gedə bilərsən. Deyib ki, gedəmmir? Peyğəmbərin əmisi oğludu, kürəkənidi, Əli gedəmmir? Əli də balaca bir adam olub. Oturub Düldülün üstündə, gedib. Salsal pəhlivan da döy kimi oturub atın üstündə. Deyib: «A bala, mən ismarış eləmişdim ki, peyğəmbərə dinən bir adam yollasın bura». Deyir: «Mənəm da pəhlivan». Deer: «A bala, sən uşaxsan, get ona dinən ki, yaxşı pəhlivan yollasın». Deyib ki, əşi, mən gəlmişəm da. Deyib ki, onda yaxşı. Həzrət Əli belə qalxanı tutur yuxarı, üş dəfə Salsal pəhlivan qılışdan çalır, tərpənmir. Deyir: «İndi növbə sənindi». Bu səfər Salsal pəhlivan belə tutur. Həzrət Əli Zülfüqarı elə vurur ki, gorda da qırılır tən yerə, bu Salsal pəhlivanı biçib salır yerə. Deyir: «Noldu, saxladın əlii?» Deyir: «Bir tərpən da görəh». Tərpənən kimi parası ayna düşür, parası bayna. Bir palazmı, flaşmı salır bunun nə cer-cehizi var hamısının üstdünə, bunun üstünü örtür. Bunun da bir bajısı var imiş. Bunnan da qüvvəli pəhlivan imiş. Bu da qoşun çəkib gəlir ki, gedim görüm bunu kim öldürüb, niyə öldürüb, nağayrıb. Gəlib belə baxıb, görüb, sən ölmüyəsən, bunun nəyi varsa, daş-qaşı, saatı, hamısı üstündədi. Belə baxıb, baxıb, deyib: «Bura nətər ölkədi ə, bunu almıyıblar?» Deyib ki, bunu öldürən pəhlivanı məə gətirin, göstərin görəh nətər adamdı. Həzrət Əli də balaca adamdı da. Minib Düldülü. Düldüldən də bərk gedən at, Koroğlunun atı kimi, bərk gedən at olmuyub. Gəlib belə dayanıb. Deyib: «Ə, bunu sən öldürmüsən, mənim qardaşımı?» Deyib: «Mən öldürmüşəm». Deyibdi ki, sən ki, bu boyda pəhlivanı öldürmüsən, mən qardaşımın qanının halallığını verdim səə. Ordan qayıdıb çıxıb gedir.

### II mətn

Alim vardı bizdə, Şəmsəddin kişi, onnan eşitmişəm. O helə bir pəhlivan olufdu, camaat onun əlinnən zara gəlifdi. Yer kürəsində seçif iki dənə qız götürüf, ucqar, əl-ayax çatmayan yerə aparıf.

Harda varsa çalıf-çapıf gətirif tökürmüş, başdıyıllarmış yiməyə. Bir gün, diir, yiyif, qarnını kökəldif sərin yerdə yatmışdı, diir, mağaraan içində. Birdən, diir, ağlına nə gəldisə buları çağırdı, didi: «Mənə deyin görüm, yer kürəsində mənnən cannı adam olar?» Bu qızdarın biri eşitmişdi ki, Allah-tala tərəfinnən bir Əli var, pəhlivan, onun qabağında heş kim dura bilmir. O da, diir, ən çox olur davalarda. Bunu, diir, eşitmişdi, görməmişdi, eşitmişdi. Birdən, diir, dilinnən çıxdı. Dilinnən çıxdı ki, bəs mən eşitmişəm. Didi: «Hardadı u?» Didi: «Dağlarda olur u, özü də çağıranda gəlir». Didi: «Çağır, gəlsin». Didi: «İndi çağırmaxnan gələr?» Didi: «Səə qırx gün vaxt verirəm, qırx birinci günü sənin başını üzüf tullujam gəlməsə». Diyəndə, diir, qız lap məəttəl qaldı. Ağlına gəlməzdi. Bu, diir, bular yatannan sora gejə, diir, çıxdı mağaranın ağzına, əlini qalxızıf Allaha yalvardı. Didi: «Allah, sən Əlinin dilini-ağzını bəndə sal, göndər gəlsin. Mən bu bəladan qutarım», – diyif ağlıyıf yalvardı. Nəsə, diir, otuz doqquz gün tamamdı, üzü açıldı qırxa, qırx birinci gün bunun başı kəsilməlidi. Qırxıncı gün idi, diir, gənə yalvardı. Səhər onun başını kəsəjəh. Yalvardı, diir, gözünə yuxu getmir, bir şey eləmir, yalvarır. O qədər yalvardı ki, səhər, diir, alaqarannıx idi, bu da, diir, sökürdü, yiyirdi, çörəh yiyirdi. Didi: «Gəlmədi ha, bir saat qalıf vaxda. Çörəyi yiyif sənin başını bədəninnən ayırajam, dartıf qopardajam». Qızın gözü qapıda idi, çöldə idi. Gördü uzaxdan bir toz qopub. Diqqətnən bir az baxdı, gördü atdıdı gələn. Didi: «Bilirsən nə var?» Didi: «Yox». Didi: «Mənim başım üzülmüjəh, sənin başın üzüljəh». Didi: «Niyə?» Didi: «Qapıdan bax u toz gələn yerə, mən diyən adam gəlir». Diyəndə, diir, bu baxdı gördü, həqqi də, bir adam gəlir. Didi: «Əh, nağara bilər u mənə?» Gəldi, diir, bu hə eliyif çölə çıxınca qapının ağzını kəsdi, dedi: «Məni axtaran kim idi?» Qız, diir, ordan iməhliyə-iməhliyə, diir, unun qabağına gəldi, didi: «Mən idim çağıran». Didi: «Noluf?» Didi: «Bəs belə-belə». Didi: «Çağırmısan, gəlmişəm, axtardığın adam mənəm». Durdu, diir, bu ayağa, gərnəşə-gərnəşə çıxdı bunun qabağına. Didi: «Sənsən çaarığa gələn?» Didi: «Hə». Didi: «Nəmənə gəlmisən?» Didi: «Məni çağırıflar, gəlmişəm. Sən, diir, elə bilirsən qaçıf bura gəlməhnən mənim əlimnən kutarjaydın?» Yüz batman gələn bunun bir gürzü var idi. Batmanın biri on altı kilodu. Batman puta diirlər. Put on altı kilodu. Bu atın belində idi. Atın belində, diir, gürzü mağaraan böyrünnən alıf tulladı bunun üsdünə ki, yanı guya mən canlıyam. Guya bu gürzün altında qalıb öləjəh. Bu tayəlli gürzü yuxarıda tutdu. Əlinin birini altdan qoydu, birini belə üstdən,

atdı yuxarı, havaya. Didi: «Bax gör hara gedəjəh?» Atdan yuxarı baxdı gördü gözdən itdi. Bir qədərdən sonra düşdü götü üsdə yerə, tam batdı torpağa. Bunu, diir, təcrübədən ötrü elədi ki, İslam dinini qəbul eliyə. Cannı adam idi, hayfı gəlirdi buna. Diir İslam dinini qəbul eləsin, nəyə lazımdı ki, öldürməyə gəlmiyif ki? Didi: «Bilirsən nə var?» Didi: «Yox». Didi: «Din Məhəmməd dinidi, İslam dinidi, dini qəbul elə». Didi: «Ə, mən əhalidən qaçıb bura gəlmişəm, əhali mənim əlimdən zara gəlif, nə din qəbul eliyirəm ə, mən. Bu meydan, bu da şeytan». Qılınclaşdılar, diir, gördü bunnan hasilə düşmür. Hoppandı, diir, yerə, tutaşdılar bular. Səhərdən, diir, günortaya kimi tutaşdılar. Nə u, diir, qatdalıya bilmədi, nə bu bir-birini. Nahar vaxdı gəldi çatdı, bir-birindən artdaşdı. Çörəh vaxdı çörəh yidi. Didi: «Çörəyin vaxdıdı». Bu girdi, diir, mağaraya çörəyə, bu dəsdəmazını aldı, namazını qıldı, diir, bunun çörəyi elə-belə havadan gəlirdi, Allah tərəfinnən, gətirən var idi. Çörəyini yidi, istirahətini elədi. Bu da, diir, qarnını bərkitdi, çıxdı. Genə, diir, tutaşdılar. Dedi: «Bu ikinci dəfədi tutaşıram sənnən, din Məhəmməd dinidi, dini qəbul elə, İslamı qəbul elə». Didi: «Yox». Didi: «Eləmirsən?» Didi: «Yox». Allahı çağırıf, diir, tokqasınnan tutub qalxızdı yuxarı, qatdadı qoydu yerə. Didi: «Bu üçüncü, ayağımın altındasan, dini qəbul elə». Didi: «Eləmijəm, ölləm, eləmijəm». Qılıncı qoydu boynunnan. Didi: «Hə, qal burda, öl». Qızdarı, diir, götdü, çıxdı gəldi camaatın içinə, əhalinin içinə.

## XƏNCƏRİN ŞAHİDLİYİ

İki əmioğlu olub. Buların ikisinin də atası padşah olub. Bular qız üstündə əmioğlu əmioğlunu öldürüb. Bu padşahın biri götürüb oğlunun meyidini qoyub sandığa, gətirib deyir: «Gedirəm xəlifə kimsə onun yanına. Bu oğlumu kim öldürübsə, əgər bundayı qızı, bundayı oğlumun meyidini düzgün tapdı, öldürəni də, onda dinə gələcəm. Tapmadı heç». Bütün millət yığışıb gəlib. Meçitdə indi Omar, Osman, Abbəkir, hamısı ağsakqaldı bular. Cənabi Əli indi bilmək istəyirsənsə, öyrənmək istəyirsənsə, Allah-tala iyirmi beş il ona çölə çıxmağı, meçidə çıxmağı qadağan edib. Canişin oturub. Deyir ki, Allah-taladan nida gəlib, ya Əli, iyirimi beş il səə icazə yoxdu çıxmağa. Uşaxdı da. Bəli, bu bir cüt sandığı götürüb gəlibdi. Həzrət Əlinin bir qapıçısı vardı, deyilənə görə, eşitdiyimizə görə. Deer ki, burda xəlifə kimdi? Deyib: «Omar». – «Çağır gəlsin. De görüm bu sandıxdakılar nədi?» Deyib: «Biri qızıl-gümüşdü, biri də ləl-

cəvahirat». Dedi: «Heç, səndən xəlifə olmaz». Buyur, Osman gəlib, buyur, Abbəkir gəlir. Hamısı heylə. Bu qulam deer ki, xəlvəti, bunu öldürərlər, Cənabi Əli xanişin oturubdu, iyirmi beş il icazə yoxdu bu taxta çıxmağa, xəlifə odu. Deyir: «Get, çağır gəlsin». Gedir, çağıranda bir də görür ki, sandıx dingildəyir. Allah-taladan nida gəlib ki, ya Əli, qırmızı geyin, çıx taxta. Filan şəxsin sirrini aş da. Gəlibdi qurban olduğum Cənabi Əli. Millət yığışıbdı. Biri qarğıdan at minib, biri gedib şirniyyat alıb gətirib ki, bu toysa, burda şaddıx eliyərik. Deyib: «Bu nədi?» Deyib: «O sənin oğlunun meyidedi. Bu öldürən də burdadı». Deyir: «Sehri-cadudu». Deyib: «Bəs kəsən xançal dillənsə, nə deyərsən?» Deyir: «Xançal, niyə kəsdin?» Deyir: «O sürtdü, mən kəsdim». Xançal da dilə gəlib. Gənə deyib: «Sehri-cadudu». Deyib: «İndi ölü dirilsə, nə deyərsən?» Deyib: «Heş nə». Gəlibdi üzünü qoyubdu qibləyə, ağzının tüpürcəyindən vurub, iki rükət namaz qılıb, Allahu-əkbər deyib çağırıb. Dirilib durub. Deyir: «Oğlan, səni kim öldürdü?» Tutub əmisi oğlunun yaxasınnan, deyib: «Bu öldürüb məni qız üstündə». Orda nə bilim mən, şirniyyat atan kim olub, at çapan kim olub, çalmax-oynamax. Orda qulamın adı olub Novruz. Novruz bayramı ordan qalıbdı.

## İKİ SÜNBÜLÜN SÖHBƏTİ

Bir zəmiçi zəmiyə baxır. Görür kin, bir dənə sünbül bu ləkdən, bir sünbül də o ləkdən belə qalxıb söhbət eliyillər. Görür u sünbül deyir ki, bu sünbülə, məni məğrubun padşahının oğlu yijəhdi. Bu sünbül qalxıb una deyir ki, məni də məşruğun padşahının oğlu yijəhdi. Bu zəmiçi bu sünbüllərin ikisini də qoparır, götürür gətirir, bağlıyır evdən, asır. Deyir: «Yisin, deyir, görüm nətər yiyir».

Nəysə. Qışın günündə xörəh bişirməli olullar axşama. Bu kişi deyir: «Arvad, u sünbülləri də dur təmizlə, qat aşa». Sünbülləri qırır, təmizliyir, düyüsünü aşa qatır. Bəli, axşamları oturur, çay içən vaxtı görüllər qapıda çağıran var. Durub gedir, görüllər bir dənə atdı adamdı. – «Salam məleyki». – «Əleykimət salam». Deyir: «Qardaş, bizi bu axşama qonax...» Deyir: «Qonağa da qurban olum, Allaha da, buyurun». Gəlir, düşür, deyir. Bunu da yastıx qoyub otuzdurullar. Çay süzüb qabağına qoymuşdu, deyir, gənə çağırıllar. Gedib görüllər bir nəfər də. Bunu da qonax eliyillər. Götürüb gəlillər, oturullar, söhbət-zad eliyillər, xörəh gəlir, yiyillər, içillər. Deyir: «Siz kimsiz, hardan gəlib, hara gedirsiz?» Deyir: «Vallah, mən məğrub

padşahının oğluyam, məşruğa gedirəm». Bu məşruxdan gələn deyir ki, vallah, mən də məşrux padşahının oğluyam, məğruba gedirəm. Bular, demək, bir-birinin öyünə qonax gedillər. Axı, u sünbüllər dimişdi ki, bizi filankəs yijəhdı. Bu kişinin öyündə bular birləşirlər. Çünki u sünbülləri u kişi alıb gətmişdi ordan ki, yisin də uları. Gəlib həmən kişinin öyündə o xörəyi yiyillər. Onnan sonra deyir ki, qismət kimə hardasa, orda yiməlidi. Belə də bir məsəl söylüyürdü.

## ÜÇ MANATIN MİSALI

Bir kişinin, diir, bir kişiyə üş maat pul borcu vardı. Nəysə, diir, bir il idi bu kişini axtarırdı, bu boşdu olan adamı, tuta bilmirdi. Eşidirdi Şəmsa kəndindədi, bu boşdu olduğu adam gəlirdi Xosro kəndinə. Eşidəndə ki, Xosro kəndindədi, qaçırdı Şəmsabada ki, məni, obşim, görməsin. Belə-belə bir il bunu tutammırdı.

Bu qurban olduğum Həzrət Əlinin də ayləsi evdə çörəksiz idi. Tam aj idilər. Deməli, üş maat pulu var idi. Ayləsi bunu yuxudan durğuzdu gejəykən, didi ki, uşax indi durajax, bizə çarə var, uşax durub çörək istəyəcək. Əli, dur gör nağarırsan? Əlinin cibində üş maatı var idi. Dedi: «Gedim da, bu üş maata nə düşür, o uşağa bir loxma çörək alım». Bu məqsədnən durdu düşdü yolun ağına, üz qoymuşdu bazara getməyə. Baxdı gördü ki, iki nəfər dalaşır. Tez tutdu buları. Didi ki, a qardaş, noluf sizə? Sabah-sabah bir-birinizin qanını korlamayın. Şeytana nəhlət eliyin. Bu boşdu olan dillənmədi, boş verən didi ki, əşi, nə şeytana nəhlət elijəm. Qaş bayna görüm. Bu kopoğlu, düz bir ildi məə borcu var, tuta bilmirəm bunu. Tutmuşam bir ilin tamamında. Ya bu gün bu öləjək, ya pulumu verəjək. Əli, diir, qaldı məəttəl. Diir, dedi ki, a qardaş, belə inadkarlıq eləməginən. Nə qədər borcu var onun səə? Diir dedi ki, üş maat. Əli, diir, fikrə getdi ki, ayə, mənim də cibimdə üş maat pul var. Özüm də uşağa çörək almağa gedirəm. Didi: «Əşi, Allah kərimdi». Çıxartdı bu üş maatı verdi borc verənə, didi: «Bax, bunun əvəzindən mən verirəm. Burax onun yaxasını, özün də çıx get, şeytana nəhlət eləginən. Aldı, diir, pulu qoydu cibinə, didi: «Hə, indi şeytana Allah nəhlət eləsin deyə billəm. Didim də». Artdaşdılar, getdilər.

Əli gənə başdadı bazara tərəf getməyə. Bir qədər getmişdi, bazara az qalmışdı, birdən yadına düşdü ki, mən hara gedirəm. Üş maatım var idi, onu da verdim. Gedib bazara nağarajam? Elə-belə fikrə getmişdi,

baxdı gördü yanında bir dənə qəşənh bir dəvə, yedəyində bir kişi gəldi çatdı buna, dedi: «Bala, salam məleyki». – «Əleykimət salam». Didi: «Oğul, hara gedirsən?» Didi: «Bazara». Didi: «Can oğul, nolar, bu dəvəni məndən alginən, qoja kişiyəm, daa nəfəsim batıb, gedəmmirəm, apar bazarda sat». Didi: «Vallah, mən nə dəvə alanam, nə də dəvə satanam. Mən ömrümdə heylə iş görməmişəm». Didi: «Ə kişi, neçəyə istəsən verəjəm». Didi: «Ə kişi, vallah, Allahdan gizli döyül, səndən nə gizləyim, bir köpüyüm də yoxdu». Didi: «Nisyə verirəm. Bax bu dəvənin qiyməti bilirəm ki, bazarda on maata gedəjəkdi. Al, beş maata verirəm. Apar sat, beş maat da xeyrin olsun. Olsun ki, mən burdan qayıdım». Əli fikirləşdi, didi: «Məə ver ipi». İpi vermişdi buna, kişi yox oldu. Beş-altı addım getmişdi, didi: «Mən xəbər almadım ki, sənin adın nədi, haralısan? Çörüküm çaarım kişini». Çaardı, çaardı, gördü heç kim yoxdu yolda-irizdə. Götdü dəvəni, getdi. Məlul-müşkül gedirdi, deyir. Dedi: «Axı mən bilmədim ki, bu haralıdı, adı nədi, bunun pulunu kimə verəjəm? Allah, bu nə işdi?» Qəmgin getdi bazara. Baxdı gördü ki, bazar dolu dəvədi. Dedi: «Kişi bilirdi bazarda dəvə çoxdu, alan olmujax, bunu mənim başıma bəla elədi. Bu satılmasa, mənim toolam yox, bir şeyim yox, bunu hara eliyəjəm?» Ellik bazar yığıldı dəvənin başına. Səndən xəbər aldı yedəyində dəvə var, dəvəni neçəyə diyirsən? Didi ki, yüz maata. O birinnən xəbər aldı, səksən maata. Bunnan xəbər aldı didi altmış maata. Baxdı gördü ki, bu dəvələr hamısı bunun dəvəsindən iridi. Gəldilər, diir, Əlinin yanına. – «Bala, bu dəvəni neçəyə deyirsən?» Qorxa-qorxa dedi ki, həştad maata. Diir, kişi çıxartdı yüz altmış maat verdi. Didi: «A dayı, mən həştad maat dedim ey, burda həştaddan artıxdı». Didi: «Bala, sən bilmirsən qiymətini, bunun qiyməti yüz həştaddı, al pulu». Aldı pulu. Kişi çıxdı getdi. Burda fikirləşdi ki, hə, burda həştad maat mənə qalır, bunu xaşdıya bilərəm. İndi kişinin sorağını eliyərəm, Allah kərimdi, tapıf verərəm pulunu.

Dəvəən pulunu ayrı qoydu, bu qazandığını götürdü getdi, bazardan bir fayton bazarlıq elədi, göndərdi evə. Ayləsi baxdı, gördü ki, budaha, bir fayton bazarlıx göndəribdi. – «Allah, bu nə işdi, bu, hardan aldı? Axı bu diyirdi pulum yoxdu».

Nəysə, boşaltdı ayın-oyunu, faytonçu, deyir, yığdı evlərinə. Baxdı gördü yaxşı kalan düyü, yağ, kişmiş, qaysı – hər bir şey alınıf. Diir didi ki, nə vaxddı aş bişirmirəm. Gətirif aş bişirəjəm, atamı da çağırajam. Bəli, aşı dəmlədi. Diir, qurban olduğum Əleyhsalama aydın idi hər şey. Durdu gəldi. Durdu gəldi, diir, yavaş-yavaş, gəzə-

gəzə. Gördü Əli gəlir. Elə qəmgin gəlir ki, elə bil ölüsü ölüb. Gəldi çatdı, diir. Bu da dayanıb Əlini gözlüyürdü. Salam verdi, əleykimət salam elədi. Didi: «Əli, nolub, bala, çox qəmginsən?» Didi: «Ay ata, keçək içəri, dijəm». Keşdilər içəri, didi ki, məəm başıma belə bir qəza gəlif. Başdadı bu üş maat verməyinnən, bazara getməyinnən, yolda dəvə buna verilməyinnən söhbət elədi qutardı. Dedi ki, Əli, darıxma. A qızım, xörəyin hazırdımı? Diir: «Hə, hazırdı, çəkmişəm, gətirirəm». Çörək gəldi ortalığa. Gördü Əlinin gözü elə bunun üzündədi. Yimək istəmir. Didi: «Əli, al çörəyii ürəkli yi». Didi: «Əşi, vallah – indi mən vallah diyirəm, hər halda olar and içif söhbət eləməz, – boğazımdan keçmir heç». Didi: «Bala, al xörəyi yi. Nə sənə dəvə satan var, nə səndən dəvə alan. Sənin cibində üş maat olub. Üş maat uşağın çörək pulunu verib u kişini qannan qutarmısan. U boşdu olan adamı boş verən öldürməli idi. Sən Allahın yolunda o üş maatı verib qanı yumusan. Qoymamısan qan olmağa. Allah-tala da sənə unu qaybınnan yetirib, uruzqudu. Birə min verən Allahdı, Əli. İndi səə də birə min verib. Bu sənin öz halal Allah tərəfindən verilmiş uruzqundu. Çörəyii yi rahat, ürəyəə şübhə gəlməsin. O vaxtdan qalıb ki, əl tutmax Əlidən qalıb. Bax üş maatın misalıdı.

## ÇÖRƏYİN SAVABI

Diir ki, keşmiş əyyamlarda, İbraamxəlil döyründə bir kasıb kişi olur. Həmən kasıb kişi dolana bilmir. Bir gün eşidir ki, İbraamxəlil peyğəmbərin çoxlu dəvəsi-zadı var. Deyir ki, gedim bir dəvədən alım, gətirim odunnan-zaddan daşıyım, uşağı saxlıyım. Yol başdıyır getməyə. Amma çörəyi-zadı olmur. Aj olur bu uzun müddət. Bu gedir çatır İbraamxəlil peyğəmbər olan iqamətgaha. Orda görür ki, İbraamxəlil peyğəmbər bir dərədə bir qotur dəvəni yuyur. Belə ki, heş kəs yumaz bunu. Öz-özünə fikirləşir ki, bu qotur dəvəni yuyan adam mənə dəvə verməz. Dəvəsi çox olan adam bunu tulluyar, bir küşdə ölər.

İbraamxəlil peyğəmbər görür ki, bu kişi qayıdıb getmək istəyir heş nə demədən. Diir: «A kişi, nəyə gəlmişdin? Nə diləyin varsa de, eliyim». Diir: «Vallah, mən gəlmişdim səndən dəvə alam, uşaxları dolandırmax üçün odunnan-zaddan daşıyım. İndi görürəm sən bu qotur dəvəni yuyursan, heş səndən dəvə istəmək istəmirəm». Diir: «Sən mənim bu qotur dəvəni yumağıma baxma, bu mənim malımdı, mən bunu yumalıyam. Bu mənim borcumdu. Allahın qabağında mən onu təmizdəməliyəm, yumalıyam». Nökərinə diyir: «Get buna bir dənə

dəvə gət». Gedir bir dənə dəvə gətirir. Bunu verəndə deyir: «Allah dəvələrinə bərəkət versin». Deyir: «Get birini də gət». Gedir birini də gətirir. Gənə deyir: «Allah dəvələrinə bərəkət versin». Deyir: «Get birini də gət». Gedir birini də gətirir. Gənə deyir: «Allah dəvələrinə bərəkət versin». Dördüncüdə... əstafrillah, demir. Üçüncü dəvədə demir ki, Allah bərəkət versin. İbraamxəlil peyğəmbər bilir ki, da bu istəmir.

Üş dənə dəvəni götürür, başdıyır yol getməyə. Qonşuda bir dənə kişi cüt əkirdi. Bu kişidən çörək isdiyir. Kişi deyir ki, iki çörəyim var, gəl birini sənə verim, biri mənə qalsın. Gətirir iki çörəyin birini verir. Kişi fikirləşir ki, mənim evim yaxındı, gedif evdə yiyərəm, qoy bunu da verim, yol adamıdı. Həmin çörəyin birini də verir. Çörəyi yeyəndən sonra «Allah səən çörəyə bərəkət versin» deyib gedir.

İbraamxəlil peyğəmbər gejə yatanda yuxusunda görür ki, u üş dənə dəvə tərəzinin bir gözündədi, iki dənə çörək bir gözündə. İki dənə çörək ağır gəlir, dəvələr yüngül gəlir. Hiss eliyir ki, bu dəvə aparan kişi aj oluf mən ona çörək verməmişəm. Tezdən gəlir həmən kişiyə deyir ki, burdan adam gedəndə gördün? Diir: «Gördüm». Diir ki, ona nə vermisən? Diir: «İki çörək vermişəm». Diir: «O iki çörəyin savabını ver mana, mən də üş dənə dəvənin savabını verim sana». Həmən adam buna cavab verir ki, sən gördüyün əhvalatı yuxuda mən də görmüşəm. Mən çörəyimin savabını dəvəynən dəyişmirəm. Elə də oluf.

## İBRAHİMXƏLİL PEYĞƏMBƏR

Allah-tala buna okqədər var-döylət verib ki? Demək, bu qonağı ayaxda qoyarmış, özü həmişə başda oturarmış. Bir gün, diyir, bunun çobanının yanına üş dənə canavar gəlir, diyir ki, bu qoyunun birini versənə yiyəh. Diif ki, bu qoyun mənim döylü. Bu qoyunun xozeyni var, yiyəsi var. Diif ki, get icazə al, gəl ver. Diif: «Bəs mən qoyunu kimə tapşırım?» Diif ki, bu qoyunu sən tapşır bizə. Diif ki, canavara qoyun tapşırallar, ə? Nə danışırsan sən? Diif: «Səə and içəjəyih biz». Diif: «Nətər and içəjəhsiz?» Diif: «Biz o adamdan olax ki, qonağı ayaxda qoyuf başda oturan adamdan olax səən qoyunaa dəysək». İnanıf, çobandı da, ayannan bəri gəlif. Gəlif peyğəmbərə diir ki, ya peyğəmbər, üç canavar mənnən qoyun isdiyif, verim, vermiyim? Diif: «Ə, sən qoyunu kimə tapşırmısan?» Deyib: “Canavara”. Diif ki, ə,

Allah öyüü tihsin, canavar qoyun saxlıyar səə? Diir: «Ağa, olar and işdi məə». – «Nətər and işdi?» Didi: «Biz o adamdan olax ki, qonağı ayaxda qoyuf başda oturannan olax səən qoyunaa dəysəh». – «Dur ayağa, gedəh, görəh». Getdi gördü üş dənə göyərçin, biri qoyunun o tərəfində, biri bu tərəfində otduyur. Buları görən kimi göyərçinnər uşdu getdi, mələhlər imiş. Bayax canavar donunda, indi oldu göyərçin donunda. Allahın məsəli diyirəm, bu İbraamxəlil peyğəmbər fikirrəşir, diyir: «Hə, qonağı ayaxda qoyuf başda oturmax günah imiş».

Onnan sora qonax olmasa əppəh yimirmiş. Gərəh hər öynəni qonaxla yiyə. Bir gün bunun üş gün qonağı olmur, əppəh yimir. Özü-özünə qürrələnir ki, əyə, mən gör nə qədər qonaxpərvər adamam ki, üş gün qonağım yoxdu diyə əppəh yimirəm. Nəsə, buna vəhy gəlir, ağlına gəlir ki, dur çıx bu dağlara. Çıxıf gedəndə görür ki, bir kişi bir arçının dibində kölgədə ibadət eliyir. Diir: «Salam əleyki». – «Əşi, nə yaxşı oldu, sən gəldin? Allah səni hardan yetirdi. On gündü mən əppəh yimirəm qonağım yoxdu diyənə». Əppəyi-zadı yiyir, diyir: «Sənnən başqa adam var bu dağlarda ibadət eliyənnər?» Diir: «O qədər». Gedir, gördü biri də ibadət eliyir: «Ə, nə yaxşı oldu, əppəh yemirəm qonax yoxdu diyənə». Nəsə, əppəyi yiyənnən sonra diyər ki, qonax, diyəllər ki, qonağın duası qəbul olar. Bir dənə dua eliyəh, görəh mənim bu diləyim hasil olarmı? Eliyif, amin, fatihə, diif ki, nə idi sənin diləyin? Diif: «Mən qırx ildi burda ibadət eliyirəm, deyirdim ya rəbbi, ya rəsulallah, İbraamxəlil peyğəmbəri gözümnən görəydim». Diif: «Ə, İbraamxəlil peyğəmbər mənəm, dur gör məni». Vəssalam.

## MOLLA İLƏ KEŞİŞİN NAĞILI

Bir qonşu da olub, çox kasıb olubdu. Bayram gəlir. Bu Novruz bayramını o vaxtdan bizim millətimiz çox yaxşı keçirir də. Deyibdi ki, arvad kişiyə, ay kişi, bir azca unumuz olsaydı qoğal-zad bişirərdik uşaxlara. Deyir: «Ay arvad, durub gedirəm filan mollanın yanına. Allaha təvəkkül. Verər, verər, verməz, verməz. Bir diləkdi dilijəm». Gedir kişi. Muna deyir ki, yoxumdu. Nə illah eliyirsə, molla buna heş nə vermir. Durub kor-peşman mollanın qapısınnan qayıdanda keşiş munnan sorunçar ki, nolubdu, niyə bikefsən? Deyib: «Əşi, neynirsən?» Deyir: «Yox, dijəksən». Deyir: «Vallah, Allahdan gizləmiyən bəndədən niyə gizləsin. Bayram yaxınnaşır, evdə heş nə yoxdu». Deyir: «Bəri gəl». Keşiş bunu aparar məhləyə. Buna bir

dəvə yükü pradux verər da nə lazımsa bayrama. Götürər gətirər öyə. Axşam keşiş də yuxuda görər ki, zəm-zəm suyu paylıyır. Molla da görər ki, yuxuda keşiş zəm-zəm suyu paylıyır. Muna çatanda munun yanınnan keçib gedir. Bu kişinin dalıynan çığıranda oyanır. Oyanır, görür yuxudu. Səhər tezdən durur yüürür keşişin yanına. Deyir: «Nolubdu?» Deyir: «Dünənnəri u kişiyə nə qədər şey vermişdinsə, məə diginən, iki u qədər şey səə verəjəm. Olsun ki, bu günah mənim üstümdən götürülsün». Deyir: «Yox, sən gördüyün yuxunu beyjə mən də görmüşəm, verməṙəm axı».

## NAŞÜKÜR İNSAN

Birinin, deyir, bir aylıx çörəyi var imiş, deyir, öydə. Gedir qurban olduğumun yanına, deyibdi ki, məəm bir aylıx çörəyim var, bir aydan sonra nağarajam? Deyibdi ki, nağarjaxsan? Onun var öydə? Deyir: «Hə». – «Get bişir, çıxar bazara. Dinən ki, a çörək alan. Onda gör sənə nə dijəklər. Unu get sat, get dolan». Gedibdi, bişiribdi, nəkqədər eliyibdi... Biri deyibdi ki, bax hindijə yimişəm, axşama da Allah kərimdi. Biri də deyibdi: «Vallah, axşama var, sabaha da Allah kərimdi». Alan olmuyub, qaytarıb gətirib. Sonra gənə gəlib qurban olduğumun yanına. Deyib: «Belə-belə, getdim bazara, apardım çörəyi». Deyir: «Nə dedilər?» Deyir: «Biri belə dedi, biri heylə dedi. Biri dedi bu gün yemişəm, sabaha Allah kərimdi. Biri dedi günorta yemişəm, axşama Allah kərimdi». Deyib: «Bəs səən öyündə hələ bir aylıx uruzğun ola-ola sən indidən qayda qalmısan, o, bir öynəni yiyib, bir öynə də Allah kərimdi deyir. Get sən də Allah kərim deynən».

## QAZKEÇMƏZ KÖRPÜSÜ

Arvad kişi deyəni demirdi. – «Ayrı yemək bişir da, hər gün süd-qatıx, süd-qatıx, ayrı yimək olsun». Deyir: «Vallah, gedib Musa peyğəmbərə dijəm dərdimi». Gedəndə, deyir, biri buna rast gəldi yolda. Deyir, dedi ki, mənim də dərdim var, mənim də dərdimi diginən. Deyir: «Səən dərdin nədi?» Deyir ki, eşidirəm ki, qonşuda xeyir-şər var, evdən soruşuram ki, məni çağırıblar, deyirlər, yox çağırmıyıblar. Çox pərt oluram. Qapıbir qonşuyux, məni çağırmıllar. Ya orda ehsan verəjəklər, məni çağırmıllar. Mən nağarmışam ki olara, məni çağırmıllar? Sonra mal qabağında dingələr olur,

yığışıllar, söhbət eliyirlər, mən çatanda dingə dağılır. Niyə dağılır? Unu Musa peyğəmbər mənə disin. Danışıllar, gülürlər, mən çatanda dingə dağılır. Çox pərt oluram ki, mən gəlməsəydim bular danışıb gülürlərdi da, mən gələn kimi dağıldı.

Musa peyğəmbər deyir ki, o, qonşudan ummasın. Qonşunu çağırmıyıb, qonşu da onu çağırmır. Çağıranı çağırıllar dingəsinin başına, qonağının başına. Onun qonağı olanda qonşunu çağırsın qonağının başına, bunu da qonağının başına çağırsınnar. Çağırmıyıbsa, xeyirdimi bu umur? Bir şey çağırmıyıb axı bu. Bu bir. İkincisi u dingənin dağılması. U dingədə siyasətdən danışıblarsa, onu heç yerdə danışmasın. U sözü kim danışdı? Səhər dingədə danışılırdı. Kim danışdı? Filankəs. Onunçün onu görən kimi dağılıllar ki, bu hər yerdə bizi bəzijəkdi, dağılın. Buna da bunu deyərsən. Sən də hansı yolu gəlmisən? Bu dərənin başında iki yol var. Birinə Qarpızdı dərə deyirlər, birinə Bağırsax dərəsi. Gedəndə u Bağırsax dərəsindən get, orda körpüyə rast gəljəksən. Musa peyğəmbər deyir ha bu adama, arvadı sözünə baxmıyana. O körpünün adı Qazkeçməz körpüsüdü. Orda sən dərsii alajaxsan.

Gələndə bu, ordan gəldi. Gördü ki, bir dəstə adam var orda. – «Salam məleyki». – «Əleykimət salam». – «Niyə durmusuz burda?» Dedi ki, biz qoyun-mal yiyəsiyik, yaylağa gedirik. Bu körpüdən qoyun da keçir, at da keçir, dəvə də keçir, bu qatır keçmir. Mən bu qatırın yiyəsiyəm, bu da mənim qardaşımdı. Durmuşux burda, fikirləşirik. Ya çaydan keçirə bilmirik, qatır çaya düşmür, ya da bu körpüdən keçmir. Fikirləşirik ki, nağarax görək. Bu adam da özü ağıllı adam idi. Deyir: «Kəndirini uzun eliyin, qabaxdan dartın». Arxadan iki qırmanc vurdu, qatır ağrıdı, ağrıyan kimi yüürdu keşdi. Dedi: «Ə, bu körpünün adı nədi?» Dedi: «Qazkeçməz körpüsü». Deyir: «Hə, Musa peyğəmbər də məni bura göndərmişdi. Döy, arvad səni eşitsin». Arvadı döyərlər, sözə baxar. Arvadı özbaşına buraxsan arvad kişini eşidər?

Gəlir evə, gələndə u kişini də özüylə gətdi, o dingə dağılan, qonşudan uman. Arvada dedi ki, gejə gələn qonax kisəsindən yiyər. Biz gej gəlmişik, axşam hər nə versən onu yijəyik. Deyir: «Mən həmişə nə vermişəmsə, onu yijəksən, mənə zakaz-zad verməginən». Dedi: «Yaxşı da, axşam qatıxdan, şordan, bir loxma ver yiyək». Qonax qatığı yiyəndə, dedi: «Sən burda dur, gəlirəm». Keçir anki öyə, arvadı döyür, deyir: «Qonax var ha, məni peşman eyləməginən. Səhərə aş dəmlə». Amma xırxaxır ölürdü, heylə döymüşdü arvadı. Obaşdan, deyir, durdu, pərdəni belə çəkdi, gördü arvad məhləni süpürür, aş da dəmdədi. – «O

Qazkeçməz körpüsünün ağrısını alım, o mənə rast gəlməsəydi, bu arvad məni ömrümün axırına kimi eşitmiyəjəydi».

## İCAZƏ İŞİNİ ƏR BİLƏR

Aylə qurmuşdu, amma səfərə gedirdi da. Bakıyamı, haramı, səfərə gedirdi. Ayləsini əmisinə tapşırdı. – «Aylәm sənə əmanət, məni səfərə göndərirlər». Dedi: «Oldu, oğul, arxeyin ol. Hər şeyini mən təmin eliyərəm». Bir-iki gün aradan keçəndən sonra qızın evindən bir uşax gəldi ki, atam can üstündədi, xəstədi. Qız dedi ki, qoy gedim əmimə məsləhət eliyim. Əmiyə məsləhət eliyəndə əmi belə dedi: «Oğul, icazə işini ər bilər. Mən ona boyun olmuşam, qəndin, çayın, nə problemin varsa, öhdəsindən gələrəm. Amma icazə işini ər bilər». O gəldi ki, a qardaş, əmim icazə vermir. Dedi ki, ərin bilər. Ərim də evdə yoxdu. Getginən. Səhər gəldi ki, atam ölübdü, indi nə deyirsən? Gedə bilərsənmi indi? Gənə əmiyə məslahat eliyir. Əmi dedi: «Dayan, gedim peyğəmbərdən öyrənim». Peyğəmbər dedi: «Sən düz demisən. İcazə işini ər bilər». Qız, deyir, getmədi, hüzür yerinə də getmədi.

Oğlan, deyir, səfərdən qayıtdı gəldi. Hal-əhval tutannan sonra dedi: «Atangil, anangil nətəərdi?» Dedi: «Atam dünyasını dəyişdi». – «Getmişdin?» – «Yox». – «Niyə getməmişdin, səbəbi?» Dedi ki, əmimə məslahat elədim, əmim də icazə vermədi. Dedi ki, icazə işini ərin bilər, mən bilmərəm. Sən də öydə olmadığına getmədim. Getdi bu bazarlıq elədi, deyir, ordan tədarükünü gördü. Bir minik də tutdu, gəldi məhləyə. Səhər tezdən, deyir, aparası oldular. Dedi: «Əmi, sən də gəl da, hüzür yerinə gedirik». Dedi: «Dayan, peyğəmbəri də götürək». Peyğəmbəri götürəndə gəldilər u kəndə çatanda peyğəmbər dedi ki, sürün qəbirstannığa qız atasıynan halallaşsın. Ayağının altında qız durdu, dedi: «Ay ata, xəstələndin yanına gələ bilmədim, hüzür yerinə gələmmədim. Ərim öydə yox idi. Məni bağışlayırsanmı?» (Söyləyici ağlayır – top.). Ordan dedi ki, ay qızım, gəlsəydin cəhənnəmlik olardım. Gəlmədiyin üçün cənnətdik olmuşam. Sağ ol. Qızların hamısına ayətdi bu. Eşidən kimi balan əlində yürürsən. Dayan bir yoldaşın gəlsin, ay köpəyin qızı. Heylə döylü? Yoldaşın gəlsin, qaynatan gəlsin, məslahatdaşın, sonra gedin da. Niyə yürürsən sən ora? Bəs yoldaşın gələndə deyər ki, niyə getmisən? Heylə döylü?

## KİŞİLƏRİN BEL AĞRISI

«Ya Allah, bütün ağrıların-ajıların hamısını bizə vermisən. Ərə gedirik, ərdə boynumuza uşax düşür, dokquz ay uşax saxlıyırıx, dokquz aydan sonra uşağı dünyaya gətiririk, hətda içərimizdə elələri olur, uşağı gətirə bilmir, həyatını dəyişir. Elə adam da olur onun üstündə neçə-neçə xəstəliyə düşür. Amma kişilərə heş bir ağırlıx, ziyannıx verməmisən. Bütün bu çığırtılar, bağırtılar biznəndi» – diyəndə Allah-tala dedi: «Çox şikayət eliyirsiz siz. Sizin o doğum vaxdında olan ağrınızı, u bel sınmasını verəjəm kişilərə».

Bir günnəri belə olur ki, kimsə, məsələn, mənim yoldaşımın bu gejə uşağı olajax, mən u gejəni çığırmalıyam, belim sınmalıdı, qarnımı qujaxlamalıyam ki, mənim arvadım uşax gətirəjəh. Beləliklə, bu formu bütün kişilərə bu ağrılar gəlib.

Bir günnəri yaxşı bir kişi... Keşmişin dövründə də belə olub, mən də belə eşitmişəm ki, deyillərdi ki, papağı atginən qıza, o qız yıxılmasa, onu alıb, özaa arvad eliyə bilərsən. Dokquz, on iki, on üç, on dörd yaşına qədər helə qızları alıllardı, özlərinə arvad eliyillərdi. Bir günnəri qırx yaşında bir kişi götürüb cavan bir qız alır. On üç-on dörd yaşında bir qız alır. Onnan ikinci arvadı olur. Üç uşağı olur. Üç uşaxdan sonra kişinin olur əlli yaşı, qadının olur iyirmi yaşı. Belə də eşitmişəm ki, on səkkiz, iyirmi iki yaşına qədər qadın xeylağının gözü ukqədər qaynar olur ki, hətda kimə ərə getdiyini də bilmir. İyirmi beş yaşınnan sonra bilir ki, bəli, mən özümə tay adama getməmişəm. Bunu sonradan başa düşür. Nəsə, qız görür ki, kişi əldən-ayaxdan düşüb, qonşu bir oğlanla ünsiyyət bağlıyır. Qonşu bir oğlanla ünsiyyət bağlıyanda, uşax dünyaya gələn vaxdında kişi deyir ki, gənə mən düşəjəm qarın ağrısına. Arvad doğuşa gəlib. Gözləyib, gözləyib, kişinin qarnı ağrımıyıb, çığırtısı olmuyub. Qonşuda cavan oğlanın çığırtısı olub. Nəsə, uşax dünyaya gəlib. İkinci gün haman kişi götürüb arvadını, üç uşağı özünkü, bir də haman gətirdiyini, çıxardır hayatdan, deyir: «Get peyğəmbərə. Peyğəmbər səni qəbul eləsə, qayıdıb gələrsən mənim yanıma, mən səni qəbul eliyərəm». Gedir peyğəmbərin hayatına, buraxmıllar. Durur darvazaan ağzında. Qarolçular da diyillər ki, bir kadın, yanında üş uşax, qujağında da bir qundax gəlib darvazaan ağzında durub. Peyğəmbərə əyan olub. Gözətçiyə deyir ki, get o qundağı al, götür gəlginən. Yanındakı üş uşaxnan kadına denən ki, getsin hayatına. Yanındakı uşağı alıllar, heylə eliyillər, kadın qayıdıb gəlir. O vaxkı peyğəmbərlik döyrünnən qalıb bizdəki yetimlər öyü,

detdom deyirik. Peyğəmbər götürür həmin uşağı verir meçidi süpürən süpürgəçi qadına ki, bunu öldürməzsən, baxarsan, böyüdərsən.

Heylə o formu eliyənnən sonra qayıdır gəlir. Üş uşaxnan gəlir. Kişi gətirir, götürür qoyur evə. Deyir, bunu yaxşıca döyür. Güjü çatdıxca arvadı döyür. Bir il yorğan-döşəhdə qalır. Onun ətini elə yandırır ki, bir il yarasına işdiyir. İkinci ilində u kişi arvadını elə istəyir, elə istəyir ki, hətta birinci gejəsində ki u qızı gətirmişdi, onnan da artıx istəyir. Bir günnəri arvad kişidən sual eliyir, deyir: «Səə bir sual verəjəm, məə düzünü deginən». Deer ki, nədi? Deyir: «Bu uşax olanda məni göndərdin peyğəmbərə. Uşağı aldı, bu üç uşaxnan gəldim, məni evə qəbul elədin. Sonra məni döydün bu şəklə saldın. İndi də məni elə istəyirsən ki, elə bil birinci qız düşmüşəm ələə». Deyir: «Bilirsən nə var?» Deyir: «Yox». Deyir: «Mən peyğəmbərdən artıx biləmmərəm. Səni göndərdim ki, gör peyğəmbər nə diyəjəhsə, qayıdıb gələrsən məə. Sənin qujağındakı haram idi, peyğəmbər onu aldı, üş dənə olan uşaxlar halaldı, onnarı qaytardı mənə. Dedi ki, halalın içərisinə haram qatmax olmaz. Səni mən döydüm ki, bir il mənnən ayrı cavan oğlanla kef eləmişdin. Səni bir il heylə yorğan-döşəyə saldım ki, onun ayvazı olsun. İndi səni o dərəcə istəyirəm ki, öyün var, uşaxların var, mən gedəjəyəm, olara qismət olsun, səə də. Onunçün səni istəyirəm ki, məni gələcəhdə fikirləşəsən».

O devirdən qalmışdı ki, gedir görür kişi... Bir dəvə yanında iki köşəh ot yeyir. Haman Xıdır Nəbi görür bunu. Xıdır Nəbi görəndə deyir ki, mən gedirəm, altı aydan sonra qayıdajam. Əgər gəlib görsəm sənin balannan bu bala sınıxdı, sənin balanı da öldürəjəm, səə göz dağı verəjəm, gör yetimlik nə olan şeydi.

Xıdır Nəbi gedənnən sonra çox fikirləşir bu dəvə: «Neyniyim ki? Bu yetim balaya nətər baxım?» İki dənə döşü olur dəvənin. Döşünün birini u yetimə verir, birini də özünkünə. Çox əmizdirənnən sonra özünkünü ayağınnan oyana eliyir ki, yetim əmsin. Sonra otun yaxşısını yetimə verir, kölgənin yaxşısını yetimə verir, suyun yaxşısını ona. Hamma yetim yetimdi da. Yetim yetimliyində görür yatanda özünün balası gedir bunun boğazının altında yatır, bu ayrı yatır. Belə baxır, köksünü ötürür, deyir ki, mənim də anam olsaydı, mən də onun qarnının altında yatardım. Yetim elə o yetimlikdəndi.

Xıdır Nəbi də gəlir görür ki, belədi. Deyir ki, niyə sən sınıxsan?» – «Düzdü, yeməyin yaxşısın məə verib, südün çoxunu məə verib, suyun

yaxşısını məə verib, bircə bir şey mənim ürəyimdə qalıb ki, o ana-bala yatanda orda fikirləşirəm ki, mənim də anam olsaydı, gedib qoltuğunun altında yatardım». İndi Allah-tala heş kəsi yetim eləməsin. Hamı yaxşı böyüsün, atalı-analı. Yetimin vəziyyəti çox ağır olan şeydi.

## ALLAH HARADADIR

Biri gəlib deyir, o peyğəmbərdən soruşacam görüm Allah kimdi, nəçidi, hardadı. Gəlib deyir ki, get filankəsi çağır gəlsin. İmam Həsən idi, kim idi. Bu bir az gej gəldi. Soruşmağa gələn deyib ki, niyə gej gəldin. Deyir ki, çaydan su axırdı, sel idi. Çayın qırağında otdum, taxtalar axıb gəlirdi. Bunnan bir-birinə vurub lodkə düzəltdim. Deyib: «Ə, sən nə boyda yalan danışırsan? Dirəndi: «Əşi, dartısız lodkə düzəltmək olar?» Dedi: «Sən bura niyə gəlmisən?» Dedi: «Allahın yerin...». Dedi: «Bəs bu boyda kainatı yaradanın yerini səə dimək olar?» Südü gətdi. Dedi bu süddən nə olur? Dedi: «Qatıx olur, yağ olur, ayran olur, şor olur, pendir olur». Deyir: «Hindi bunun şorunu şor elə, pendirini pendir elə, yağını yağ». Dedi: «Vay, çalasan, çalxıyasan, filan-peşman». Dedi: «Bəs bu boyda kainatı yaradan nağarırsa mən səə hardan deyim». Deyib: «Məə di görüm bax, bax bu saat Allah-tala nağarır?» Deyib: «Sən düş gəl burda ot, mən çıxım ora, orda deyim sözü». Deyəndə deyib ki, Allah-tala birini kürsüyə mindirir, – bu çıxdı axı ora, – birini kürsüdən endirir. Vurun kafirin boynunu.

Amma bir şey orda yadımdan çıxdı. Biri də xaşpərəstdi də. Dedi: «Sizin məscid neçə il yaşıyır. Dedi: «Altmış, yetmiş il». Dedi: «Bəs bizim kilsələr dörd yüz il, beş yüz il yaşıyır. Niyə sizin Allahın öyü tez uçulur». Dedi: «Bunu burda deyə bilmərəm. Gedim orda kilsəyə çıxım, orda deyərəm». Deyir, bir əzan çəkdi kilsədə, elə bildilər uçulub tökülür kilsə. Dedi: «Ə, aşağı düş, ə, aşağı düş». Dedi: «Ə, bir dəfə əzan çəkməyə bu dözmür, gündə bizim Allahın öyündə beş dəfə əzan çəkilir axı».

## FİRONUN CƏNNƏT TİKDİRMƏSİ

İnsan dünyaya gəlməmişdən qabax Allah-tala kimi çağırıbsa ki, get insanın torpağını mağrubdan, maşruxdan gətir, heç kəs getmiyib. Azreyil deyib: «Mən gedərəm». Azreyil gedib gətirib. İlahi, diir, xamırını bunnan yoğurur insanın. Deyir: «Bir belə əziyyət çəkdim, mənə nə verdin?» Diir: «İnsanın canını almağı sənə həvalə etdim».

Diir: «Əşi, mən onların günahını götürəmmərəm». Diir: «Elə elijəm canı ağzınnan çıxanda sən orda hazır olajaxsan». Heş Allah-taaladan görən yoxdu. Hamı diir ki, Azreyil gəldi, filankəsin canını aldı. Da dimir əmr Allahın əmridi.

Bir dənə qadın olur, sahibi yox idi. Yoldaşı ölmüşdü qadın hamilə olanda. Üş gün idi uşağı olduğu. Allah-tala Azreyili göndərir ki, get onun canını al. Gəlir görür ki, seyvanda oturub uşağı əmizdirir. Qayıdır Allahın hüzuruna. Diir: «Almadım canını». – «Əşi, hancarı almadım?» – «Getdim gördüm ki, seyvanda oturub uşağı əmizdirir». Deyir: «Get, indi alajaxsan».

Gəlir görür ki, uşağı əmizdirib qoyub seyvana, üş-dörd ayax nərdiyanı var, söykəyib nəsə yığır. Nərdiyanı çəkir, çəkən kimi yıxılır. Yıxılan kimi çökür boğazına. Kəndə haray düşür ki, Həsənin arvadı nədiyannan yıxıldı öldü.

Gedir Allahın hüzuruna Azreyil. Diir: «Aldın canını?» Diir: «Aldım». Diir: «Vallah, üş günnük uşağı qaldı, öləjək o. Amma sahibi yoxdu, basdıran». Qardaşı Cəbrayılı göndərir ki, get o qadını basdır gəl, kəfən-dəfən elə. Gəldi Cəbrayıl qadını basdırdı getdi. Hər ikisi getdi Allahın hüzuruna. Dedi: «Üş günnük oğlan uşağı öləjək öydə». Dedi: «Ölmüjək». Deyilənə görə, qadının qəbri üstündə Allah-tala bir süd bulağı xəlq eylədi. Apardılar bu uşağı, bu süddən işdi, götdülər gəldilər. Bu, elə indinin raykomu olan kimi bir firon oldu. Bu, cənnət tikdirdi, cənnət qapısı tapmadı ki, ona vurdursun. Gündə getdi-gəldi, getdi-gəldi bazara. Usta dedi ki, ə, tikdirmisən, qapısını da tap, qurax, çıxax gedək.

Qurban olduğum çağırdı Həzrət Cəbrayılı, dedi: «Belə adam gələjək, deyəjək «a dayı, bunu neçəyə satırsan», dinən pula satmıram, tikdirdiyin cənnətin yarısını ver, qapını verim. Deyir: «Dayı, verdim». Çıxartdı kağız yazdı, peçatını üstünə vurdu. Dedi: «Dayı, hansı günü gəlsən cənnətin yarısı səə hazırdı». Dedilər: «Ə, səən ağlın qaçıb, bir tay qapıya cənnətin yarısını vemisən, ə?» Dedi: «Ə, mən fironam, mənim döşümə Allah düşmür, bu məə nağarajax?» Heylə qüvvətli idi. Qaldı bir tay. Usta gənə dedi: «A kişi, get bir tay da tap gət». Gəldi bazara. Allah-talaya deyilənə görə ayan idi. Çağırdı Həzrət Cəbrayılı ki, get u bir tayı da apar. Həmin adam gəlsə, disə dayı, bunu neçəyə satırsan, dinən satmıram, qalan cənnətin də yarısını ver, qapını verim. Diir: «Verdim». Yazdı dəftər-qələmini, peçatını da qoydu üsdünə. Didi: «Dayı, hansı günü gəlsən sənə cənnət hazırdı». Hə, gəldi qurdurdu. Didi: «Allah qoysa, sabah köçürəm cənnətə».

Allah-tala axşamdan Həzrət Cəbrayılı da, Azreyili da – ikisini də çağırdı. Cəbrayıla dedi ki, gedib tutursan qapının qıbılınnan, fironun bir dənə də dıbırını içəri qoymursan. Azreyilə isə dedi ki, qapıdan üç addım dala durursan, firon ora çatanda dinən gət kəlmeyi-şəhadəti, fərzin tamamdı.

Fironun nədən xəbəri var? Karvanı saldı yola, malı, dövləti, qoyunu-quzunu, özü də dalıynan. Çoban-çolux getdi dirəndi qapıya, dedi: «Ə kişi, çəkil ordan, cənnət fironundu». Dedi: «Yox, cənnət mənimdi». Firona dedilər ki, əşi, bir potala papax kişi yapışıb qapıdan ki, cənnət mənimdi. – «Qaş – dedi, – ona bir qapaz vurajam yeddi yerdən işiyəjək». Qapıya üç addım qalmış, diir, Azreyil çökdü sinəsinə, didi: «Gət kəlmə-şəhadəti, fərzin tamamdı». – «Azreyil, aman ver, cənnətə gedirəm». Didi: «Fərzin burda tamamdı». Azreyil aldı canını. Kimi qabağında mal, qoyun, hərə bir dəsdə götdü getdi. Yanı, o kişidi bura gətirən, burdan ayna aparan. Gəldi ikisi də Allahın hüzuruna. Didi: «Qurban olduğum, sənin əmrini yerinə yetirdik». Didi: «Tanıdız onu?» Didi: «Yox». Didi: «Üş günnük uşax qalmışdı ha». Dedi: «Hə». Dedi: «Ona qüvvə verdik, firon oldu. Cənnət tikdirdi. İçinə girsəydi onunla heş kəs bacarmazdı». Didi: «Hə». Didi: «Onun fərzini orda tamam elədim».

## MUSA PEYĞƏMBƏRİN ALLAHLIĞI
### I mətn

Musa peyğəmbər İra dağına gedib çıxırmış, Allah-talaynan kəlmələşirmiş. Musa peyğəmbər bir gün İra dağına gedib. Dərdini diməyə gedəndə bir qoca kişi mənim kimi bir əsaya dirənib dayanıb yolda. Gedib buna çatanda salam verir. – «Əssalami məleyküm və rəhmətullah» – «Əssalami məlöyküm və rəhmətullah və bərəkatü». Musa peyğəmbərin salamını alır. Deyir: «Ya Musa, bilirəm hara gedirsən». Bu da hak adamıdı ha, Allah adamıdı. Deyir: «Ya Musa, bilirəm İra dağına gedirsən, mənim də bir xayişim var sənnən. Allah-talaynan kəlmələşəndə mənim də bu təmənnamı Allah-taladan təmənna elə. Sənin yoluu burda gözlüyəjəm. Diginən u qoja kişi deyirdi İlahi-pərvərdigara, sən bu cənnəti xəlq etmisən, bu cəhənnəmi niyə xəlq etmisən? Bu cəhənnəmi yer üzünnən göt, millətimiz cəhənnəmdə yanmasın». Deyir: «Baş üstə».

Musa peyğəmbər gedir Allahnan kəlmələşəndə deyir ki, ya Musa, u qoja, nurani kişi diyən sözü də bilirəm. Deyir ki, belə-belə, mənə ismarış elədi ki, Allah-talaya diginən bəs bu cəhənnəmi yer üzünnən

götsün, cənnət qalsın. Dedi ki, ya Musa, sənnən bir dənə xayişim var. Gedəndə u qocaya bir balaca toxun, əsası düşəjəh, onda səə o bir söz diyəjəh. Musa peyğəmbər Allahnan kəlmələşəndə deyir ki, ya rəbbi, ya rəsulallah, bilirsən da niyə gəlmişəm. Deyir: «Disən biləjəm. İndi bilirəm onsuz da. Disən tamam biləjəm». Deyir ki, ilahi-pərvərdigar Allah, sənnən təmənnam odu ki, sən bu Allahlığı üş gün ma ver. Deer ki, ya Musa, mənim sevimli peyğəmbərimsən. Bir peyğəmbər mənnən danışa bilmiyibdi. Mən niqabımı götsəm, kül olarsan orda. Mənim sadiq peyğəmbərimsən, səni eşidirəm, hər daim sənin dediyin təmənnanı yerinə yetirirəm. Amma allahlıx eliyə bilməzsən. Dedi ki, ya rəsul, Allahlığı üş gün məə ver. Dedi: «Verdim».

Musa peyğəmbər üş gün allahlığı qəbul edir, gəlir. Gəlir qocaya belə toxunur, qoca orda yıxılır. Tutur qolunnan durğuzur, əsanı verir əlinə. Deyir ki, ilahi-pərvərdigar Allah, mən böyük səyf eləmişəm. Cənnəti yaratmısan, cəhənnəmi də hak yaratmısan. Əyər cəhənnəmi yaratmasaydın, bütün gamışdar bu evlərin üstünün qirəmitini dağıdardı. Hakqına yaratmısan. Cənnət öz yerində, cəhənnəm öz yerində. Hər kəs getsin öz qüsurunu çəksin.

Musa peyğəmbər, deyir, gəldi. Getdi çıxdı taxta. Camaat yığılmışdı. Dedi: «Ay camaat, Allah-taladan təmənna elədim, Allah-tala allahlığı məə verdi. Mən allahlıx elijəm üş gün». Ordan camaat qayıtdı dedi ki, ya Musa, bu işin axırı haradı, nədi? Dedi: «Bu işin axırı ölüm». Dedi: «Sən allahlıx eləmirsən?» Dedi: «Hə». Dedi: «Biz dağıldıx day. Ölüm ölümdü, nə işdiyirik, əkirik, biçirik». Camaat getdi girdi hamısı qapıdan içəri. Üş gün əlini ağdan-qaraya vurmadı. Musa peyğəmbər nəhqədər milləti çağırdı, millət tabe olmadı. Musa peyğəmbər getdi gənə Turi-sinaya[1], çıxdı, deyir, Turi-sinaya, əlini götürdü, dedi: «Ya rəsulallah, mən böyük səyf eləmişəm, günahlarımdan keç. Özün bilən yaxşıdı. Mən allahlıx eliyib camaatı saxlıya bilmərəm. Üş gündü camaat qapıdan çölə çıxmır. Nə əkən var, nə biçən. Deyir axırı ölümdü, ölümdü, işdəmirəm».

İndi bala, millət gəlib Musa peyğəmbərin döyrünə. Əkən yox, biçən yox, hasil eliyən yox.

### II mətn

Söhbət eliyif unu mənə cavan vaxtımda. Məə yox, daha doğrusu məclisdə. Bir günü qurban olduğum Musa peyğəmbər Allah-talaynan kəlmələşməyə gedirmiş. Bir dənə səbirsiz şəxs, hər nəyə olsa əsəbləşən adam deyir ki, ya Musa, gedirsən kəlmələşməyə? Diyir:

«Hə». Diyir: «Xayiş eliyirəm mənim sifarişimi də Allaha çatdır». Diyir: «Baş üstə». Diyir: «Allah-talaya dinən ki, ya mənim canımı alsın, ya da bir günnüyə hökmünü mənə versin». Didi: «Deyərəm».

Kəlmələşif qurtarır, deyir: «Ya rəbbi, ya aləmin, qulunun ismarışı səə agahdı, mən ona nə cavab verim?» Deyir: «Get dinən ki, onun canını almıram, mən can alanda vaxt qoyuram yaratdığımın hamısına. Vaxtıynan alıram can. Vaxtdan əvvəl can almıram. U işdədə bilməsə mənim sənətimi, ona qəzəb elijəm. Günü sabahdan verdim ona bir günnük vəzifəmi».

--------------------------

Söyləyici həm İra dağı, həm də Turi-Sina kəlməsini işlədir.

Səhər kişi çıxır, fikirləşir ki, hə, bu gün nə istəsəm eliyə bilərəm. Çıxır gedir, rastı birinci dəyirmana düşür. Görür ki, bir nəfər on kilo dən gətirib, bir nəfər də 100 kilolux çuvalnan iki çuval dən gətirib. Dəyirmançıya deyir: «Mənim dənim». Deyir: «Qoy bu qutarsın, az şeydi, sənin dənini başdıyarıx. Qoy təhnənin üstünə, gördüm azaldı, başdıyarıx». Görür bir-iki kilo qalıbdı bu on kilo dəndən, çaparağı çualı açıb tökür bu zadın üstünə ki, qalan buna qalsın. On kilodan iki çualı olan oğurrux eliyir. Bunu oyza çəkəndə bu kişinin ununu, on kiloluğun, təhnənin qabağınnan oyza çəkəndə qolunu qurudur. Dərmançı baxır görür ki, ə, bu kişinin qolu qurudu, dəbərə bilmir. Çaparağı özü unu yığır, eliyir: «Əşi, noldu səə?» Deyir: «Bilmirəm».

Səhər açılır, Musa peyğəmbər kəlmələşməyə gedəndə görür ki, bu kişi yenə durub orda. Deyir: «Ya Musa, qurban olduğumdan xəbər al görüm, bu gündən ayna vaxdım var, yoxsa yox». Gəlir deyir ki, qurban olduğum deyir ki, ona qəzəb eləmirəm, amma yadında saxlasın ki, hasat döylü dünyanı girləmək, dünyanı əhatə etmək. Qolunu qurutmalı döylüydü. Əgər mən hər heylə səyf eliyənin qolunu qurutsam, gözünü töksəm, yaratdıxlarıma düşmən çıxaram. O iki çualın bərəkətini alıb verəydin u on kiloya, u on kilonu u kişi yiyərdi bir ay, u iki çualın yiyəsi yiyərdi on beş gün. Belə olmalı idi, o səyf eliyibdi, bajarmadı. Hə, belə bir rəvayət eşitmişəm.

## XIDIR İLYASLA CÜTCÜNÜN NAĞILI

Bir kasıb kişi xışnan yer sürürmüş. Sürdüyü yerdə də traktor-zad yox idi. Əliynən belə sürürmüş eşşəyin dalına bağlıyıb. Bu Xıdır İlyas gələr çıxar. – «Salam məleyki». – «Əleykimət salam. Kimsən sən?» Deyər: «Mən Xıdır İlyasam». Buların arasında bir saata kimi

söhbət-zad gedər. Hə. Xıdır İlyas bu kişiynən dost olar, yer sürən cütçü babaynan. Cütçü baba ona deyər ki, sən kimsən, bizə qonax gələrsən? Deyir: «Hə, gələrəm». Deyir: «Haçan gələrsən?» Deyir ki, cuma günü, misalçün. Deyir: «Onda cuma günü beş-altı nəfər qonum-qonşudan qonax çağırım, sən də cuma günü gələrsən, yiyərik-içərik, söhbət-zad eliyərik, gedərsən».

Hə. Bu kişi qonum-qonşudan dörd-beş nəfəri qonax çağırır. Arvadına deyir ki, sən tez eləginən xörək bişir. Nə bilim, beş kilo un, düyü asıllar, kişmiş, şabalıd, aş tədarükü görür, bişirirlər. Bişirən vaxdtı bu indi buna deyir ki, mən gələjəm da sizə. Da vaxdını dimir haçax. Gələjəkdi. Xıdır İlyas qadın qiyafəsində gəlir bulara, qadın paltarında, qadın şəklində. Gəlir görür ki, cütçünün arvadı aşı bişiribdi, aşı süzübdü, çətənin üstünə tökübdü. Bu da bir dilənçi formasında, cındır paltarda gəlir. Deyir ki, ay bajı, nolar o həlimdən bir boşqab məə də ver, içim. Arvad deyir ki, elə axmax söz danışırsan? Kəfgiri, deyir, təpəə elə vuraram, təpən iki yerə bölünər. Mən burda Xıdır İlyasa qonaxlıx eliyirəm. Xıdır İlyas bizə gələjəkdi. Camaat çağırmışam, qonaxlarım var. Bu saat aşı dəmliyəjəm. Sənə nə həlim verəjəm? Arvad buna ajıxlanır. Kişi çıxır gedir.

Bəli, arvad aşı dəmliyir, onnan sonra qonşular gəlir. Yığılıllar, oturullar. Çay-çörək yiyib-içən vaxtı bu qonşular cütçü babanı lağa qoyullar. Deyirlər: «Sən bizə deyirsən qonax gələjək, Xıdır İlyas gələjək, gəlib çıxmadı axı». Başdıyıllar bunu lağa qoyub gülməyə. Cütçü çox pərt olur. Aşdan yiyirlər, məclis dağılır. Gejə yatır, səhər tezdən gedir çöldə yerini sürməyə. Eşşəkləri qoşur, elə xışnan yeri sürdüyü vaxtı gənə Xıdır İlyas çıxır. Deer: «Salam məleyki». Deyir: «Ə, sən nətəər adamsan? Dünənnəri səni mən gözləməkdən yoruldum, xörək bişirtdirdim, qonaxlardan da beş-altısını çağırdım». Deyir: «A kişi, mən sizə gəldim. Səən yoldaşın aşı süzmüşdü, həlim var idi. Dedim, ay bajı, nolar o həlimdən bir boşqab məə də ver. Arvad dedi ki, kəfkiri təpəə elə vuraram təpən iki yerə bölünər. Mən də, deyir, qayıtdım, çıxdım gəldim». Deyir: «Sən nə formada gəlmisən?» Deyir ki, mən arvad formasında, dilənçi bir arvad şəklində gəlmişəm. Yanı ki, belə-belə möcüzatlar var da.

## XIDIR ÖLÜNÜN NAMAZINI QILIR

Bir gün Xıdır əleyhsalam bir qəbirstannığın qırağıynan dağdöşü, deyir, gəlirdi. Gələndə gördü ki, qəbir qazılıbdı. Qəbir qazılanda

getdi qəbrin böyründə durdu, dedi ki, a bəxtəvər, – özü-özünə deyir, – sənin məkanındı bura, səə Allah qismət eliyəjək gələjəksən. Deyən kimi Allah-tala Həzrət Cəbrayılı endirdi yanına. Dedi: «Allahın səə salamını gətirmişəm. Bu qəbrdə basdırılacax şəxsin camaat namazını qılmıyıbdı, onu namazsız gətirirlər. Kətdən çıxır gəlir. Get onu qoy yerə, özün namazını qıldır». Xıdır əleyhsalam öz-özünə təəccüb qalar ki, bu Allahın yanında nətəər şəxsdi ki, bunun namazını mən qılası olmuşam. Hə, durur ayağa, tərpənir gedir. Deyir: «Hə, cənazəni qoyun yerə». Deyir: «A kişi, niyə qoyurux yerə?» Deyir: «Bunun namazını qılcam mən». Deyir: «A kişi, namaz qılmax məslahat olsa, biz camaat namaz qılardıx». Dedi: «Ə, sizə dedim ki, qoyun bunu yerə, dəstəmazı alın, bunun namazını mən qılmalıyam. Özü də mən Xıdır əleyhsalamam. Allah tərəfindən bunun namazını qılmalıyam». O dəyqə düşür kəndə car ki, ə, namazını qılmadığımız şəxsin Xıdır əleyhsalam gəlib namazını qıldırır bizə qoyub yerə. Əyə gəlin. Kəntdə olan camaat da bura gəldi, deyir. Gəldi başdadı, deyir, bunun namazını qıldılar. Apardılar bunu basdırdılar, qutarannan sonra Xıdır əleyhsalam dedi: «Bunun gedəjəm məhləsinə, görüm camaatla bunun arasında nə olub ki, Allah bugünkü gün onun namazını qıldırır məə». Gedir, bunu basdırannan sonra gedir bu şəxsin məhləsinə. Orda dua verilir. Deyir: «Bunun ayləsi varmı?» Deyir: «Var». Ayləsini çağırır, deyir ki, u şəxs nətəər şəxsdi ki, onun namazını qılmışam buyünnəri. Allah yanında, camaat içində bunun yaxşı əməli, yaxşı işi nədi unu mənə danış varsa. Dedi: «Mən hələ unnan bir yaxşılıx görməmişəm. Neçə illərdi mənnən aylədi, onnan mən bir yaxşılıx görməmişəm, bir Allah kəlməsi eşitməmişəm. Amma onun bir işi var idi. Günüz axşama kimi gedərdi işdiyərdi, gəzərdi, hərlənərdi, axşam gəlib oturan kimi əlini-üzünü yuyub, dəstəmazını alıb üzü qibləyə başdıyır Allaha yalvarmağa: «Ey yeri-göyü yaradan Allah, mənim bugünkü etdiyim səhvlərdən, taxsırlardan keç». Gözündən yaş bıldır-bıldır tökülərdi. Hö-hö ağlıyardı: «Ay Allah, mən sənə nə cür cavab verəjəm? Mən sənin sorğu-sualına davam elijəm? Mən sənin cəhənnəm oduna dözəjəm, ay Allah? Sən bu günahlardan, taxsırdan keç. Bilməmişəm, eləmişəm, keç mənim günahımdan, taxsırımdan». Deyir: «Bu şəxsdə bir bunu görmüşəm, onnan başqa heş nə görməmişəm». Diib: «Elə u bəsdi». Allah tərəfindən Həzrət Cəbrayıl gəlib deyir ki, belə Allah-talaya gündəlik xeyir-dua elədiyinə görə Allah-tala da onun günahlarını gündəlik silirdi, əhf eliyirdi.

İndi ay qardaş, Allah-tala özü dadımıza çatsın.

## MUSA İLƏ XIDIRIN YOLÇULUĞU
### I mətn

Allah-talaynan kəlmələşib. Bular kəlmələşəndə bir nəfər gəlib bulara salam verib addıyıb. Həzrət Musaya salam verib ha. Addıyır. Addıyannan sonra, ya rəbbi, ya rəsulallah, məndən də yaxşı yaratdığın bəndən varmı? Deyib: «Var». Deyib: «Kimdi?» Deyib: «U sənin yanınnan keçən». Deyir: «Kim idi, o?» Deyib: «Xıdır peyğəmbər». Deyib ki, mən onunla görüşmək istəyirəm. Deyib ki, sən onunla görüşə bilməzsən. O altı aydı piyada uje səndən uzaxlaşdı. Deyib: «Yox, mən onnan mütləq görüşməliyəm». Allah-tala deyib ki, bir quru balığı qoy xurcuna, at çiyninə. O quru balıxnan get, gəzin, harda su görsəəz, o suyun qırağında əlizi-üzüzü yuyun, bir az oturun dincəlin, sonra gedin. Nə qədər ki, Xıdır peyğəmbəri tapmamısan, gəz. Bular da düşürlər harda su varsa, orda əllərini-üzlərini yuyullar, bir az oturullar, dincəlirlər, durub gedirlər. Çox gəzmişlərdi, deyir, yorulmuşlardı, nəysə, bir axmazın qırağına çatanda oturullar. Bu yorulmuşdu, oturan kimi uzanır, gözünə yuxu gedir Həzrət Musanın. Bu yoldaşı oturub. Yoldaşı suda əlini-üzünü yuyub, bir az da tökür balığın üstünə. Belə tapşırıx vermişdilər ki, əlizi-üzüzü yuyanda sudan bir az tökün balığın üstünə. U quru balıx harda dirilsə, Xıdır Nəbi ordadı.

Hə. Həzrət Musa yatır. Yoldaşı əl-üzünü yuyur, sudan bir az da tökür balığın üstünə. Balıx sıçrıyır. Bir az da gözləyir burda. Nəsə, aradan xeylax keçəndən sonra oyanır, əlini-üzünü yuyur. – «Gedəkmi?» Deyir: «Gedək». Bu balığın dirildiyini dimir buna, yadına düşmür. Durullar ayağa, gedirlər. Bir xeylax gedirlər, bir suyun qırağına çatıllar. Çatan kimi orda yadına düşür ki, burda balıx dirilmişdi. Deyir ki, sən orda yatanda balığın ustunə su tökdüm, balıx dirildi. – «Bəs niyə demədin məə?» Deyir: «Yadımdan çıxıb». Qayıdıllar ora. Qayıdıllar ora, yaxınnaşanda görürlər uzaxdan bir adam gəlir. Çatanda dedi ki, sən Xıdır peyğəmbərsən? Dedi: «Xıdır peyğəmbərəm». Deyib: «Mən sənnən gəzmək istəyirəm». Deyib: «Sən mənlə gəzə bilməzsən». Hə. Deyib: «Niyə gəzə bilmirəm?» Deyib ki, əşi, mənim tutduğum işdən sən razı qalmıyajaxsan. Deyib: «Yox». – «Yaxşı, gedək».

Yoldaşına deyir ki, sən qayıt. Yoldaşı qayıdır gedir, bular ikisi düşür yola. Gedirlər bir dəryanın qırağına çatıllar. Dəryanın qırağında

görürlər ağacdan yonulmuş gəmilərdi, bir çəkəni var, sürəni var, oyza-buyza adam keçirirlər, hak alıllar, aylələrini dolandırıllar. Çağırır bir nəfəri. – «Gəl bizi keçir». Gəlib qırağa çatanda Həzrət Musa deyib ki, bizim pulumuz yoxdu ha, pulsuz keçirəssən. Dedi: «Yox, mən pulsuz keçirən döyüləm». Deyəndə təzə gəmidə bir uşax var idi. Bu uşax çəkdi gəmini gəldi, dedi: «Oturun, mən keçirərəm». Gəlib oturullar. Həzrət Musa gəminin başında oturub, bu çəkən də başda oturub. Bu da üzü bu çəkən adama oturub, arxası başqa tərəfə. Xıdır peyğəmbər də gəminin baş tərəfində oturub. Bir xeylax çəkmiş əlini atıb gəminin başınnan kan deyirik biz, gəminin kanı olur, bunu belə basır, qırır. Xıdır peyğəmbər eliyir bunu. Qıranda uşax bunu görür, amma Həzrət Musanın arxası Xıdır Nəbiyədi, o görmür, ağzı buyzadı. Görür uşağın burasınnan yaş axır. Deyir: «A bala, niyə ağlıyırsan?» Deyir: «Görmürsən gəmini qırır». Hə. Çöyrülür görür gəminin baş tərəfindən qırıb, elə-belə yapışdırıb yamax kimi, yararsız olub. Deyir ki, çək, a bala. Çəkdi, qırağa çıxıllar. Deyir ki, sağ ol, a bala. Uşax gedir kor-peşman gəzir oralarda. Bu bilmir ki, bunun sonrası nədir. Nəsə, gedirlər. Bir kəndə çatanda orada xırman kimi bir yer var idi, plaşadka kimi. Uşaxlar burda oynuyurdular. Bir nəfər də uşax böyürdə oturub bulara baxırdı. Xıdır peyğəmbər yaxınnaşır bunun qulağının dibinə yumrux vurur. Vuran kimi uşax yıxılır. Yıxılan kimi canı çıxır. Həzrət Musa başdıyır: «Ə, səə nağarmışdı uşax, oturmuşdu orda?» Dedi: «Əşi, sənə mən dedim ki, sən mənlə gəzə bilmijəksən. Görürsən gəzə bilmirsən. Ayrılax burdan». – «Yox, daa dinmijəm, daa dinmijəm».

Gəzirlər, gəzirlər, axşamçağı bir kəndə çatıllar. Burda qalası olullar. Hası məhləyə gedirlərsə, buları qonax saxlıyan olmur. Axırı gəzə-gəzə gedirlər, kəndin ayağında bir öy var idi, üstü yox idi, bir barı var idi. Hə. Öyün barısıdı. Girirlər içəri. Külək aynan əsəndə bayna qısılıllar, baynan əsəndə ayna qısılıllar. Sabahı açdılar burda. Sabah açılan kimi dedi ki, dəmirdən-zaddan bir şey tapa bilirsənmi bir az palçıx qatax burda. Deyir: «Palçığı niynirsən?» Deyir: «Görürsən, barının burası uçasıdı, oranı düzəldəjəm». Nəsə, dəmir tapıllar, taxta parçası tapıllar, su gətirirlər, palçıx qatıllar, Xıdır peyğəmbər çıxır yuxarı, deyir ki, palçıxdan ver. Bu da palçıxdan verir, başdıyır bu burda suvamağa. Oyzünü, buyzünü bərkidir, düşür aşağı. Düşəndən sonra əllərini, üzlərini yuyullar, təmizlənirlər. Təmizlənəndə deyir ki, üş dənə möcüzəmiz oldu. Buları səə deyim, ayrılax. Hə. Deyir: «Di da». Deyir: «Gəldik dəryanın qırağına buyza keçəsi

oldux. Gəmiyə dedik bizi oyza keçir, özü də pulumuz yoxdu. Gəlmədi. O uşax gəldi keçirtdi, yaxşılıx elədi da bizə. Deyir: «İki padşahın arasında müharibə olajax yaxın vaxtda, suda. Bu yerin padşahı da əmr eliyibdi, nə qədər təzə gəmi varsa, hamısı yığılsın. O uşağın gəmisi də təzə gəmidi. O uşağın gəmisini alajaxdı əlindən. Mən onu yaraladım ki, padşah o gəmini uşağın əlindən almasın. Ayləsini-zadını dolandırsın da. Pis iş görmüşəm?» Deyir: «Yox, yaxşıdı». – «U uşax oturmuşdu orda, vurdum öldü. O uşağın atası, anası uzun müddət uşaxları olmuyub, sonradan əllərinə bir uşax keçib u uşax, möhkəm ibadət əhli olublar. O uşaq əllərinə keçəndən sonra meylini salıblar ona. İbadətdən uzaxlaşıblar. Buların ibadəti zay olmasın deyənə mən o uşağı öldürdüm, aralaşmasınnar». Deyib: «Hə, yaxşıdı, bu da yaxşıdı». Deyir: «Görürsən, bu barını burdan suvadıx. Bu barının içində qızıl var. Bunun yiyəsi ölüb, üş dənə oğlu var. Bir nəfər müsürman adama tapşırıbdı ki, qızılı mənim uşaxlarım iriləşəndə olara ver, dolansınnar. İndi o kişi burda yoxdu. Səfərə gedibdi, yoldadı. Yağış-zad yağsa, o uçulajax, qızıl da keçəjək başqa adamın əlinə. Onu mən suvadım ki, o kişi gəlincə barı uşmasın. Həm də gəlib görəjək barı suvanıb, deyəjək: «Hə, kimsə, nəsə bilir». O qızılı ordan alıb uşaxlara verəjək. Pis iş görmüşəm?» Deyib: «Yox, yaxşı iş görmüsən». Deyib: «Yaxşı, bu şeyləri götür ayna qoy» – deyəndə elə ayna çöyrülən kimi Xıdır peyğəmbər uşdu getdi.

Belə möcüzələr olub.

### II mətn

Allah-talaya deyibdi: «Ya rəbbi, məndən də sənin sevimli şəxsin varmı?» Deyib ki, var. Deyib: «Kimdi?» Deyib ki, gedərsən görərsən. Deyib ki, get qardaşın Harunnan balığı bişir, sufraya bük, çörək götür, get. Məsələn, Qara dənizin qırağıynan get. Harada oturub sufranı açıb o balığı qənşərəə qoyub... o balıx dirilib suya düşdüsə, orda gözlə, o adam gələjək sənin yanına. Musa peyğəmbərlə qardaşı Harun gedir, dənizin qırağında gəzəndən sonra Musa peyğəmbər rəvayətin dediyinə görə, yatır, mürgülüyür. Burda bu yatanda qardaşı Harun görür ki, ajıbdı. Bu sufra açır. Açan kimi bu bişmiş balıx dirilib düşüb suya. Bu əppəkdən, yavannıxdan başdıyır yiyir. Yığışdırır sufranı qoyannan sonra Musa peyğəmbər durur. Deyir: «Ə, nə çox yatdın sən?» Durullar, yola başdıyıllar. Daa dimir mən əppək yimişəm. Bir xeylax, iki kilometr, üş kilometr

gedəndə deyir: «Ə, ajmışam, aş çörəyi yiyək». Musa peyğəmbər sufranı açanda görüb ki, balıx yoxdu. Deyir: «Ə, balıx hanı?» Deyir: «Bayax oturduğumuz yerdə mən aşdım, ajmışdım. Orda mən sufranı açanda balıx dirildi düşdü suya». Dedi: «Mən orda olmalıyam. Qayıt dala. Mən gözləyəsi adamı orda gözləməliyəm». Gedir oturur orda, çörək yiyir. Qardaşı Haruna deyir ki, yer get sən da. Sənnik burda iş yoxdu. Mən axtardığım adam bura gələjək özü.

Hə. Bu gələjək deyəndə qardaşı çıxır gəlir. Bir vaxt Musa peyğəmbər görür ki, suyun içiylə qarğının üstünə bir adam minib paçasının arasına qoyub sürə-sürə gəlir. Nə batmır, nə eləmir. Gəlir çatır buna, salam verir. Salamlaşıllar. Dedi: «Məni axtaran sən idin?» Deyir: «Hə, mən idim. Sənnən yoldaşlıq eləmək istəyirəm». Deyir: «Mənnən yoldaşlıq eləmək bir az qəlizdi. Mən tutduğum işdəklərin heş birini məndən xəbər almıyacaqsan ha. Bəri başdan sənə deyirəm». Musa peyğəmbər bununla gedir. Bular indi dənizdən lötkəynən keçməlidi. O vaxtı lötkə olub. Lötkəynən keçəsi olub Xıdır Nəbi. Musa peyğəmbərə deyib ki, get o lötkələrə dinən bizi dənizdən keçirsin. Gedir hansına deyirsə, bomboş orda durublar, keçirtmir. Deyir: «Keçirtmirik». – «Ə, puluzu veririk». Deyir: «Sizin puluzu istəmirik». Çox gəlir gəmilər, bu da dayanır, buların heç biri keçirtmir. Sonra görür ki, bir gəmi gəlir. Gəmi gələndə deyir: «Dur, get o gəmiyə diginən görək o gəmi keçirərmi?» Gəmiyə deyəndə bu da gəminin birinci günü idi suya düşən, siftəsi. Bu gəmiynən bu gələndə görür iki dənə uşax. Deyir: «Bizi suyun o tayına keçirərsizmi?» Deyir: «Keçirərik». Gedir bu da, ikisi də minir gəmiyə. İkisi də minəndə Xıdır peyğəmbər işgənəni alır, bu gəmini deşməyə başdıyır. Xıdır əleyhsalam gəmini deşir, yamıyır. Deşik-deşik eliyir gəmini. Musa peyğəmbər deyir: «Bu kişi bizə yaxşılıx eliyib gəmiyə mindiribdi, bunun təzəcə gəmisini bu niyə deşik-deşik eliyir?» Qəlbindən keçirir. Buna deyib ki, mən nə eləsəm mənim işimə qoşulma. Bu hak-hesabnan bular gedirlər çıxıllar qırağa. Gəmiçinin pulunu verir, çıxır gedir. Pulunu verib gedəndə görür ki, bir topa balaca-balaca uşaxlardı, oturuşublar. Oturanda görübdü ki, bir gözəl uşax var. Tutur bu gözəl uşağı uşaxların içindən çıxarır qırağa. Başını kəsir qoyur qırağa. Bunun ürəyi partdıyır ki, bu uşax buna nağardı ki, bunun başını tutdu kəsdi. Durur tərpənir. Kəsəndən sonra çıxıb gedirlər. Sonra gedirlər bir kəndə girirlər. Qənşəri axşamdı, çiskin də yağış yağır. Yağış yağanda hası qapını döyürlərsə, buları heş kəs qonax saxlamır. Görürlər ki, kəndin qıra-

ğında bir uçux öy var. Uçulub dağılıbdı. Xıdır əleyhsalam deyir ki, burda daldalanax, bizi qonax eliyən yoxdu. Burda beş dəyqə dayanan kimi Xıdır əleyhsalam durur palçıx qayırmağa. Demək, bu nə istəsə orda əlində əhtac olmalıdı. Palçıx qayıranda deyib ki, sən niyirsən u palçığı? Deyir ki, barının burası uçubdu, onu hörəjəyik. Deyib: «Ə, bu boyda kənddə bizi qonax saxlıyan yoxdu, yağış bizi isladıb, gənə bulara xaraba da hörəjəyik?» Deyir: «Çox uzun artıx danışma». Deyir: «Palçıx ver». Palçığı Xıdır əleyhsalam qatışdırır. Uçulan kərpicdən düzür, burda sabahı açıllar. Deyir ki, mən səndən yoldaşdıx eləməyi bacarmaram. Amma bu sirləri mənə danış. Bu tutduğun işdəri. Bax, sən gəmini niyə deşdin, u uşağı niyə öldürdün, bu kənddə bizi saxlıyan olmadı, u barını niyə hördün? Uları məə di, mən qayıdım dala. Başdıyır deyir ki, o gəmini mən onçan deşdəklədim ki, olar, deyir, yeddi baş aylə idi, yetim idilər hamısı. U gəmini də olar birtəri qayırtdırıbdı çörək pulunnan ötrü. Gələcəkdə də, deyir, müharibə olajaxdı bu ölkəynən başqa ölkə. Onda, deyir, gəmiləri yığajaxlar. Bu uşaxlar onda aj qalajax. Onçan bu gəmini deşdim ki, gələjəkdə şah gəmiləri yığdıranda deyəjəklər deşik-deşikdi, onda o gəmini yığmıyajaxdı. Deyir: «Bəs onda u uşağın nə günahı vardı başını kəsdin?» Deyir: «U uşağın atasıyla anası ölübdü, u cənnətdədi. U uşax gələcəyində elə əməl-betər olajaxdı, Allahtala u uşağın əjirinə onun ata-anasını cəhənnəmin qaynar yerində qaynadajaxdı. Onçan – dedi, – onun başını kəsdim». – «Onnan sonra o barını niyə hördün?» Dedi: «O vaxtı atası-anası ölübdü, yetim qalıbdı onun yiyəsi. U indi öylənmək istəyəcəkdi, yaşı çatıbdı. Orda onun atasınnan qalma qızıl vardı. O qızıl açılırdı. Barı tökülürdü, açılajaydı. O gəlib atamın yurdunda öy tikəjəm deyəndə sökəndə ordan tapsın, özünə orda şərayit qayırsın. Onçan heylə elədim». Dedi: «Hə, mən daha gedirəm. Səə yaxşı ol, mən gedirəm».

## III mətn

Bir gün Musa peyğəmbər yatır, öz elminə çox qürrələnir. Qürrələnəndə Allah tərəfindən vəhy gəlir ki, ya Musa, üş günnük yol çörəyi götür, bir dənə də duzda bişmiş balıx, çıx səyahətə. Harda ustadını görsən orda u balıx diriləjək. O ustadınnan bir üş günnük dərs al. Ustad da olur qurban olduğum Əleykətsalam peyğəmbər. Ayılır yuxudan, görür ki, yuxudu. Əl qaldırıb ibadət eliyir ki, bəs belə bir yuxu... Deyir: «Ya Musa, yuxu döyül, tapşırıxdı, əməl elə». Diyillər ey, filankəs bu işi gördü... Ə, şeytan qəlbinə dolub da, yazığı

yolunnan azdırıf. Indi kimliyinnən asılı olmuyarax, şeytana Allah nəhlət eləsin. Şeytan qüvvəli oluf, yolunnan çıxarıb hamını, abidi yolunnan çıxarıb. Nəysə, şeytan girib qəlbinə, şəkk gətirib. Gedif balığı alıf, duzda bişmiş balığı, diif: «Ya qurban olduğum, nə bilim nə vaxt bişibdi duzda, bu nə vaxt dirilər ki, mən ustadımı tapam».

Gəlir, nəysə, arvada deyir: «Üş günnük məə yol çörəyi qoy». Qoyur. – «Hara gedirsən». – «Özüm də bilmirəm. Səfərim var, üş günnük səfərə çıxıram». Balığı da qoyur xurcuna gedir. Dəryanın qırağıynan gedirdi, qaynar qum idi. Günorta namazının da vaxdı çatıf. Gözü işdədikcə qabağa baxır, görür ki, bir daldalıx yoxdu. – «Ya rəbbi aləmin, mən nətəər eliyim, mənim namazımın vaxdı ötəjək. Burda da bir daldalıx yox, bir çəmənnik yox, bir ağac kölgəsi yox, qumun üsdündə, qaynar qumun». Belə fikirnən deməli bir dəfə başını qaldırıb qarşıya baxıb. Bu fikri eliyif bir də başını qaldıranda görüb ki, özünnən bir on metr aralıda bir ağaj var, bir kəndin adamı yığılıb divində məclis eliyər. Heylə bir ağac var. Gedib ağacın yanına çatanda görür ki, ağacın dibində ağsakqal bir adam oturub burda. – «Salam məleyki». – «Əleykimət salam». – «Qardaş, icazə olarmı mən də xurcunumu qoyub bir hor burda namaz qılıb dincələm?» Deyir: «Buyur, niyə olmur ki? U nə söhbətdi?»

Deməli, bu gedir ki, suyun qırağına dəstəmaz alım, yadına düşür ki, balıx sonra dirilər, eliyər, bilmərəm. Qayıtmax istəyəndə deyir ki, ya Musa, qayıtma, get dəstəmazıı al, namazıı qıl. Narahat olma. Bilirəm nəyə görə narahatsan? Narahat olma, get». Gedir dəstəmazını alır, namazını qılır, gəlir xurcunun yanına ki, balıx dirilər qaçar. Deyir: «Əşi, niyə narahat olursan, Allah sənə kömək olsun. O heyvan düşübdü, bax irəddiynən get, – demək, qumu yara-yara gedibdi suya, – irəddiynən get, intaası suyun üstündədi. Suyun üstü də qaynardı, səni görsün çöksün, səni görməsə, aşağı çökmüjək. Çöksün suyun sərin yerinə». Gedir baxır, görür ki, bu gətirdiyi balıxdı, həqiqətən, orda da fırlanır. Kişini görən kimi cumur suyun dibinə. Bu qəlbində deyir ki, hə, ustadımı tapdım, daa dərs ala biləjəm.

Bəli, gəlir oturur, bir loxma çörək, naharlaşıllar. Deyir ki, ya Musa, bir gəmi gələjək, burda bir kənd var, ora getməliyik. Deyir: «Baş üstə». Gəmi gəlir bulara çatanda yan alır, oturullar. Musa peyğəmbər baxır görür ki, bu gəmi elə bir gəmidir ki, elə bil məə, bir dənə ququladı. Heylə bəzəkli. Allah-taladan da qurban olduğuma tapşırıx idi ki, u gəminin sahibi on iki baş külfətdi. O gedir başqa bir vilayətə, o

vilayətin də padşahı nəfsdən itidi. Gəmini onun əlindən alajax. O gəmiyə otur, gəmini löyümnən sal, yazıxdı, onun əlindən çıxmasın.

Bəli, oturdular, deyir. Musa peyğəmbər baxdı ki, qurban olduğum Əleykətsalam cibindən qəməlti çıxardıb başdadı gəminin şəklini-zadını qazıyıb tökməyə, löyümnən salmağa. Oturanda da dimişdi ki, ya Musa, mən nə eləsəm mənim işimə qarışma ha! Qarışsan məndən bir nəticə görmüjəksən. Axırda hamısını səə söhbət elijəm.

Bəli, bu dözə bilmir, qəlbində deyir ki, ya rəbbim, ya aləmin, mənim məllimimə bax, kişinin bu cürə gəmisini nətəəri qıyıb bu günə qoyur bu. Mən bunnan nə dərs alajam. Deyir: «Ya Musa, səə dedim axı, mənim işimə qarışmaynan. Qarışma mənim işimə». Görür ki, buna agah oldu. Nəysə, gedirlər düşürlər bunun dediyi kəndə. Düşəndə Musa peyğəmbər bilirdi ki, bu kənddə erməni yaşıyıb. Amma bilmirdi ki, erməni yaşıyannan qabax bu kənd nə kəndi olub. Demə, kənd oluf vaxtiynən mömin müsəlman kəndi. Vəbadan hamısı qırılıb, beşikdə bir dənə uşax qalıb. Gəlib ermənilər basılıb bu kəndə, basılanda bu uşağı ermənininin axçığı görüb, deyir: «Hə, Allah elə bunu özü yetirib bizə, övladımız yox, bir şeyimiz yox. A kişi, bunu saxlıyax». Deyib: «Müsurman balasıdı, lazım döylü, götür tulla çölə». Deyib: «A kişi, bu beşikdədi, bələklidi. Bu nə bilir müsurmandı, ermənidi, nədi? Bunu biz böyüdəjəyik, biz tərbiyə edəjəyik, gözünü də açıb bizi görəjək». Nəysə, çox zad eliyirlər, arvad əl çəkmir ki, bunu saxlıyajam. Arvad bu uşağı saxlamaxda olsun, bura da Əleykətsalam ona görə düşüb ki, həmin uşağın olduğu evin küncünə atası bir qabda qızıl basdırıbdı ki, bu uşax on səkkiz yaşa çatanda u qızılı ordan öyü söküb çıxardajam, göydə əlçatmaz yerdə olsun, uşağıma ehtiyatda. Həmən yerdən qızıl aşağı çöküb, barı partdıyıb, küş barı partdıyıf. Qurban olduğum Əleykətsalama tapşırıb ki, ora əlii çəkginən. Orda u kişi mənə əmanət tapşırıb qoyufdu uşaxdan ötrü. O əmanət ora uşsa ələ keçər. U barıya əlini çək, barı birləşsin. Gəlir qurban olduğum Əleykətsalam, u barıya əlini çəkir, barı birləşir. Musa peyğəmbər yenə dözə bilmir. Qəlbindən keçirir ki, ya qurban olduğum, bu nə işdi? Mənim məllimim gavurun evinə əlini dayax verib. Gənə qurban olduğum Əleykətsalam deyir ki, ya Musa, dedim axı, qarışma mənim işimə. Bu ikinci, ikisinə də qarışdın.

Demək, bir kənddə yolnan gedirlərdi. Bir dənə qoja ağajın başına taxta vurub, taxtanı sinəsinə söyküyüb, ağacın ucunu irəli eliyir, ayaxlarını atır. U dərəcədə qojalıb, yeriməyə imkanı yoxdu. Baxır qurban olduğum Əlekətsalam: «Ya rəbbi, özəə ayandı, buna

beş il də ömür ver». Musa peyğəmbər buna da təəccüb eliyir: «Bunun nəyinə ömür diliyir, bu ölüb da, iki qat yumaxdı». Bir dənə on dörd-on beş yaşında uşax gəlir, yaraşığınnan yol işıxlanıb bunun. Baxır qurban olduğum Əleykətsalam: «Ya rəbbi, özün bilən yaxşıdı, nə getməli vaxtıdı». Deyəndə Musa peyğəmbər yapışır bunun yaxasınnan, deyir: «Səə qurban olum, burdan bayna bir addım da getmijəm, özüm də partdadım. Bu gördüklərimi məə agah elə, bəs elədi məə. Sən u yumağa beş il ömür istəyirsən, bu cür yola işıx salan adama ölüm istəyirsən. Bu nə sirdi?» Dedi: «Ya Musa, u yumağın yüz iyirmi yaşı var, hələ savab dəftərinə əl dəymiyib. Necə savab dəftəri qoyulub, heylə də durur. Günah dəftərində də yer yoxdu elədiyi günahı yazmağa. O müsürman xalqıdı, mən o dünyada ona əl uzadıb cəhənnəm odunnan xilas eləməliyəm. Mən ona nətəəri əlimi uzadım, axı onun savabı yoxdu. Ona Allah-tala beş il ömür verdi, savab dəftəri də bu gündən açıldı. Mən ona o dünyada əl uzada biləjəm. Qaldı bu cavan. U cavan da belələrinin bir milyardını cəhənnəm odunnan xilas etməyə mənə köməkçidi. Bəs məə köməkçi lazım döylü? Sən görmədin ki, o yeridikcə yola işıx salırdı. O bizim kimi üzü nurludu. Ona görə Allahdan dilək dilədim, keşdi qəbula. İnanmırsan, dey, bax gətirirlər cənazəni». Çörükdü gördü, həqiqətən, cənazəni gətirirlər. Cənazəni gətirirlər, fikri cənazədə, çörükdü gördü Əleykətsalam yoxdu. Ay aman, ay dad. Yüürdü bu səfər cinazənin yanına. – «Ə, bu kimdi, nəçidi?» Dedilər: «Vallah, bir on dəyqə, on beş dəyqə bunnan qabax sağçıllə küçədə gəzən uşax beyqəfildən yıxıldı, dəfn elədik». Deyir: «Hə». Qayıdır gəlir. Allah-talaynan kəlmələşəndə deyir: «Ya rəbbi, ya aləmin, mənim səyfimdən keç. Böyük bir səyf eləmişəm, bilməmişəm».

İndi ay oğul, dünya yiyəsiz deyil. Gejəni gündüz eliyən varsa, deməli həyatda nə deyilir hamısı var, «Quran»da nə deyilir hamısı var.

## QİSMƏTDƏN QAÇMAQ OLMAZ

Musa peyğəmbər Allahnan kəlmələşəndə diyif: «Ya rəbbi, sənin qədərinnən qaçmax olmaz. Amma qismət diyirsənsə, yiməsəm yimərəm. Diyif ki, yiyərsən. Diyif: «Yimərəm». Diyif: «Sabah günorta vaxdı yayma yijəksən». Diyif: «Yimijəm». Çıxıb gəlif öyə. Səhər fikirrəşib, diyif: «Ə, gəlif üzdən-gözdən salallar, gedif yiyərəm. Gedəjəm Surxay bulağı kimi uzaxda bir bulax var, onun yanına.

Bir az bulağın başında oturmuşdu, diyir, fikirləşdi ki, adam-zad gələr bu suya, məni görərlər. Çıxıb bax o ağajda oturajam, sussayanda düşərəm, içərəm. Ağajda otmuşdu ki, gördü kəhər atın belində bir kişi gəlib düşdü. Əlini-üzünü yuyuf sudan işdi. Atını minib gedəndə xurcun açıldı qaldı burda. Dalıynan bir eşşəkçi gəldi, diyir, su işdi. Ayna baxdı, bayna baxdı, gördü bir xurcun var. Xurcunu aşırdı eşşəyin belinə, düşdü üstdən aşağı. Bu yolnan çıxdı gedə belə... Sonra dalıynan, deyir, bir çoban gəldi bir sürü qoyunnan. Əlini-üzünü yuyub, papağını başının altına qoyub yatdı bulağın başında. Həzrət Musa bir də gördü ki, ya rəbbi, bu atdı elə gəlir, nə bilim, nətəəri. Gəldi dedi: «Salam məlöykü». – «Əleykimət salam». Didi: «Çoban, kim var idi burda?» Didi: «Heş kəs». Didi: «Burda mənim xurcunum qalıb, ver». Didi: «Əyə, bu... Mən görməmişəm». Musa istədi deyə ki, ə, u aparmıyıb ey. Hə eliyib deyincə onun başını vurub saldı yerə, bu kişi – atdı. Dedi: «Ə, aşağı düş». Düşdü, diyir, bunu qatdı atın qabağına gətdi düz bu gedəsi olduğu yerə. Heş demə bunun dostu atasına qırx verirmiş, qırxda da yayma verirmiş. Apardı otdu. Yayma gəldi ortalığa. İstədi yimiyə, bu xeyratda diyir axı, yi, yi. Bir təpik də vurdular buna, yidi.

Bir dəfə də kəlmələşəndə dedi: «Ya Musa, yidin, yayma yidin?» Didi: «Ya rəbbi, bir təpik dəyəndən sonra yidim lap». Didi: «Bəs ya rəbbi, ya rəsulallah, səndə də ədalətsizlik, haxsızlıx var axı». Didi: «Nədi?» Didi: «Xurcun düşdü qaldı bulağın başında, eşşəkçi götdü getdi. Xurcunu düşən kişi qayıtdı gəldi, çobanın boynunu vurdu, çıxdı getdi. Bəs belə ədalətsizliyi sən niyə eliyirsən?» Didi: «Ya Musa, u kişinin xurcunundakı qızıl idi. U qızılı u kişinin babası eşşəkçinin babasının xəzinəsindən oğurlamışdı. Eşşəkçi çatdı haqqına». Didi: «Bəs çoban qoyun güdürdü axı?» Didi: «Vaxdiynən çobanın babası u atdı gedənin babasını öldürmüşdü. O da çatdı hakqına, atdı da çatdı hakqına. Sən – dedi, – mənim işimə qarışma». Onnan sonra Musa qayıtdı gəldi kor-peşman. Doğrudan hər nə iş olsa Allahdandı. Atalardan belə bir misal var. Diyir, mərd Allahda görə taxsırı, namərd yoldaşda.

## ŞAHIN DONUZ GÜDMƏSİ
### I mətn

Bir şah olar, dərviş libasını geyinər, kənd arasına çıxar. Qarşısına donuz çıxar. Keşmiş ataların diməyinə görə. Diir: «İlahi, yaratmağa heyvan tapmırdın, bu nə heyvandı?» Allahın pisinə gəlir ki, ə, mən

yaratdığım heyvana pis deyir. Deyilənə görə, Allah-tala bunu elə bir şahlıxdan saldı ki, bu gedib nökər olası oldu bir parça çörəyə. O kənd sənin, bu kənd mənim, dedilər: «O kənddə şah var, nökər saxlıyır». Gəlir yanına. – «Ay Hasan şah, məni nökər saxla». Dedi: «Vallah, malımı, qoyunumu güdən var, donuzumu güdən yoxdu». Dedi: «Əşi, ver, donuzunu da olsa güdərəm, bir parça çörək olsun».

Bir il donuz güddü bu. Nə suya yatmır, nə doymur, elə xartaxart, xortaxort yiyir-içir. Töybə elədi şah ki, ilahi, sənin işəə qarışmaram. Qayıtdı yoluna. Gəldi, nəysə, bir qərinə gənə varlandı. Söhbət düşdü ki, ay şah, niyə... Didi: «Bir dəfə Allah-talanın işinə qarışdım, bir il donuza göndərdi». Allahın işinə qarışmax heş vaxd düzgün döyül.

**II mətn**

Biri yoldaşıynan gedir bağa gəzməyə. Bağa gəzməyə gedəndə buları yağış tutur. Yağış tutanda kişi söylənir: «Əşi, görmürsən biz gəzməyə gəlmişdih bura, onu da, deyir, yağış belə...». Arvadın ajığı tutur ki, sən Allahın işinə niyə qoşulursan. Allah yaradıb da bunu. Arvad bunu öydən çıxardıb qovur. Daa hara getsin. Gedir bir dingədə dilənir. Bir erməni gəlif çıxır. Deyib: «Burda niyə durmusan?» Deyib: «Nağarım, elə-belə? Arvad öydən çıxardıbdı». Deyir: «Ə, bizim bir az donuzumuz var, gəl oları güdginən, səni öy-eşik eliyərik». Gedir, ha bu il eliyərik, ha gələn il eliyərik, yeddi il orda donuz güdür.

Yeddi il orda donuz güdənnən sora qayıdır, deyir, vilayətinə gələndə minir bu gəmiyə. Yolda, deyir, tufan qopur. Tufan qopanda u diyir, ay Allah, sən saxla, bu diyir ay Allah, sən saxla, bu, deyir, dinməz-söyləməz küşdə oturub. Deyib: «A kişi, sən də ağzıı aş da». Deyib: «Mən bir dəfə Allahın işinə qarışmışam, yeddi il erməniyə donuz güdmüşəm. Özü bilən məsləhətdi».

## ÜÇ GÜNAH

Bir abid qırx il oxuyub. Axırda səjdəyə gedən məqamında, alimlik alan məqamında bu şeytan nəkqədər hərlənibdi bunu yoldan çıxarda bilmiyibdi. Bir dənə qadın ona deyibki, mən onu yoldan çıxardaram. Deyib: «Çıxardammazsan. Mən qırx ildi əlləşirəm, çıxardammıram». Deyib: «Çıxardammırsan, mən bir saatda çıxardaram». – «Nətəri». Deyib: «Hər nətəri, çıxardaram. Nə verərsən?» – «Filan qədər qızıl», – şeytan arvada deyib.

Arvad başını bürgəliyib mollalar meçidə gedəndə, bütün bir dənə burnu görükür. Bir şüşə arax götürüb, bir dənə də körpə uşax, gedib. Şeytan da bunun yanınnan əl çəkmir axı, burdadı. Deyib: «Sən məə tanıt». Peyğəmbərlər hamısı gəlib keçir, mollalar keçir, axundlar keçir, bu Musa peyğəmbər gələndə deyib: «Bax budu». Qabağını arvad kəsər. Deyib: «Ay bajı, mənnən nə istəyirsən? Qoy məni gedim». Deyib: «Dünyada səni buraxmaram. Ya bu arağı içəjəhsən, ya bu uşağın başını kəsəjəhsən, ya da, indi sən də mənim balam, mənlə əlaqədə olajaxsan». Aşağı baxır, yuxarı baxır, deyir: «Əyər mən arağı içsəm, Allah taxsırımdan keçmijəh, axı səcdəyə gedirəm. Uşağın başın kəssəm heç keçmijəh, qan eliyirəm. Bunu da eliyə bilmərəm axı, bu mənə naməhrəmdi». Arağı içib. Deyib: «Genə araxdan Allah keçər, diyərəm belə məcburiyyət qarşısına düşdüm». Arağı içənnən sonra olur piyan. Onnan sonra qalan iki ziyan işi də görür. Şeytana deyib ki, bax bu da sənin abidin, çıxartdım yoldan. Onnan məsələ qalıb camaatda ki, arvad yıxan öyü heş kəs yıxa bilməz.

## ÜÇ DİLƏK

Süleyman bir günnəri Allahnan kəlmələşməyə gedirdi. Gedəndə odunçu variydi, durmuşdu yolun qırağında. Meşədən gedib bir şələ odun gətirəjəh, gəlib satajax, onnan uşaxlarına çörəh qazanajax. Dedi ki, gedirsən, ya Süleyman? O Allaha dinən ki, odunçu deyirdi, məə dilək versin. Getdi özünün sözünü dedi. Dedi: «Vallah, gələndə bir yetim rast gəlmişdi. Deyirdi məə bir dilək versin». Dedi: «Get ona dinən ki, mənnən üş dilək istəsin. Nə istəsə, ona verəjəm».

Gəlib görür ki, yolda gözləyir. Dedi: «Ya Süleyman, nooldu?» Deyir ki, Allah-tala dedi ki, mənnən üş dilək istəsin. Gəlir evə. Deyir: «Arvad, Allah-tala məə verdi». Dedi: «A kişi, nə verdi?» Dedi: «Məə verib ki, mənnən üş dilək istəsin. Nə disə, onu verəjəm». Onsuz da kişinin çox vaxtı öyünü yıxan arvaddar olub. Deyibki, diləyin birini ver məə, mən eliyim da. Deyir: «Yox, yox, özüm eliyəjəm». Diyər ki, nola, biz də həyat yoldaşıyıx, bir-birimizlə ər-arvadıx, birini ver məə, Allahdan mən istəyim. Deyir: «Birini verdim səə». Üzünü çöyrüb qibləyə, deyir: «Ya rəbbi, məni

on səkgiz yaşında gözəl qız eləginən ki, bütün şəhərin hamısının gözü məndə olsun». Bu qoja qarı çöyrülüb cavan bir qız olub. Bu güyümü götürüb bulax başına suya gedəndə padşahın oğlu at belində gedirdi. Gördü bir gözəl gəlir. Elə görüb atın belinnən ayıl-mayıl olub yıxıldı. Gəldi, deyir, bu gözəl qızı atın tərkinə qoyub götdü, çıxdı aradan. Xəbər gəldi odunçuya ki, arvadın çıxdı getdi. Deyir: «Helə?» Deyir: «Hə». Deyir: «İndi mən də onu bir günə salajam, məni ki bu forma tolatdı, Allah məə verdiyi diləyi əlimnən aldı». Deyir, dedi ki, arvadım bir qara qancıx olsun, – Allahdan diləh elədi, – başı zincirli gəlsin mənim sütunuma dolansın. Allah-tala da helə elədi deyir. Arvad qara qancıx olub başı zincirli zincirləndi hayata.

Bir qızı var idi. Dedi: «Dədə». Dedi: «Hə». Dedi: «U diləyi də ver, mən eliyim». Deyir: «Nə diyəssən?» Dedi: «Ay dədə, bu mənim anamdı, səən yoldaşındı, bağlanıb ora. Qoy mən də diləh eliyim, ay Allah, sən anamı həmişəki ana elə. Qoy güzaranımız hamankı güzaran olsun». Bunu da aldı əlinnən. Qız da diləh elədi. Başdadı deyir ki, anam həmişəki ana olsun, güzaranımız da həmən güzaran olsun. Allah kasıba verəndə də bax əlinnən belə alır.

Bir gün irast oldu odunçuya, dedi: «Ə, noldu?» Dedi ki, vallah, heş-zad, qardaş. Səə əziyyət verdim. Mənim heş-zad sözüm yoxdu. Məə Allah üş dənə yaxşı vergi vermişdi ki, sən gətirmişdin onu. O da məə qismət olmadı. Deyir: «Niyə?» Deyir, hal-qəziyyə bax, mən söylədiyim kimi belə. Süleymanın da əhvalatını belə eşitmişəm.

## ÜÇ ÖLÜM

Biri də dayanıbdı, deyib ki, ya peyğəmbər, sənnən bir xayişim var, Allah-talaan yanına gedirsən? Dedi: «Nədi?» Dedi ki, mənim yaşım ötübdü, altmışı haxlıyıbdı, ömrüm azdı, Allah-talaya deynən məə bir hasant ölüm versin. Deyəndə dedi: «Yaxşı, baş üstə». Nəysə, getdi, gəldi, dedi: «Demisən?» Dedi: «Dedim». Dedi: «Nədi?» Dedi: «Sən suya düşüb öləjəhsən». Dedi: «Səə qurban olum, peyğəmbər, suya düşüb axıb çıxıb gedəjəm, bir ay məni axtarajaxlar, söyəjəhlər məni, istəmirəm mən unu. Allah-talaya dinən məə hasant ölüm versin». Bu ikinci dəfə gələndə, deyir, qalxanda Mina dağına, genə, deyir, Allah-talaya deyir ki, bəs belə-belə. Dedi ki, unu ilan vurub öldürəcək. Gəldi, deyir, dayandı. Dedi: «Nə dedi?» Dedi ki, səni ilan vurub öldürəjəh. Dedi ki, ilan vurajaxdı, bir ay mən uşax-muşağı incidəjəm, zarıjam. Unu da

istəmirəm. Sabah Allah-talaya dinən məə ucuz ölüm versin. Nəysə, kişi üçüncü dəfə gedəndə bir də dedi, dedi: «Ağajdan yıxılıb öləjəh». Gəldi dedi. Dedi: «Baho, bunu da istəmirəm. Ağaşdan yıxılajam, qolum-qılçam sınajax, bir ay dedi, zarıjam». Nəysə, deyir, dinmədi, bir söz dimədi peyğəmbər. Elə belə qaldı. Üş kəlmədən artıx bunnan danışmax olmaz ki?

Bu, deyir, payıza yaxın fəsil idi, üzümə göz düşən vaxtı, buların, deyir, bir inəyi vardı. Səhər olur, gej durdu ayağa. Arvad bunu çağırdı ki, dur inəyi sür da. Durdu, deyir, inəyi sürməyə gedəndə, deyir, kənddən çıxmışdı, qoruxlar vardı, qoruxların arasıynan aparırdı. Gördü alçax bir gər var, üzüm dəyibdi. Qıbqırmızı, köz kimi yanır üzüm. Hə. Altında da mal-zad yatıb, bir balaca gölməçə var bunun, ağacın altında, kölgəlikdə. Bu, deyir, hoppandı ki, əlini üzümə çatdırsın. Nəkqədər hoppandı, çatdırammadı. Axı buna dimişdi ağacdan yıxılıb öləjəhsən. Bir hündür yer varıydı. Ordan özünü yumaladı ki, görüm ölmərəm ki? Yumaladı, gördü heş nə olmadı. Dedi: «Ə, bu tənəyə ayağımı qoyub oturub orda, dedi, bu üzümdən iki salxım üzəjəm, birini yeyəjəm, birini də öyə aparajam». Tənəyə ayağını qoydu, ikinci haçaya, deyir, belə ayağını qoydu, otdu. Əlini uzadıb ordan, deyir, salxımı üzəndə barmağınnan ilan vurdu. İlan vuran kimi özünü unutdu, unudan kimi aşdı düşdü gölməyə. Göl-məynən üzümün arası üş metrə olar, düşdü, deyir, gölməyə. Nəkqədər partdadı, çıxammadı, elə gölmədə də, deyir, öldü. Həm ilan vurdu, həm ağaşdan yıxıldı, həm də suda öldü. Boğuldu, deyir, öldü. Xəbər gəldi ki, bəs orda, deyir, ölüb. Ordan, deyir, gətdilər. Hamma heş birini istəmirdi bunun.

Allahın işinə qoşulmax olmaz. Allahın işi ayrı şeydi, dünyadı da.

## DİRİNİN SORĞU-SUAL EDİLMƏSİ

U alimin üş dənə oğlu olur. Nəysə, bu kişi xəstələnir. Xəstə-lənəndə görür ki, da bunda yaşamağa imkan olmujax, üçüün də çağı-rır yanına. Üçü də, deyir, öydəydi. Yaxşı pullu-paralı adam idi. Dedi: «Oğul». Dedi: «Hə». Dedi: «Sizin üçünüzə bir vəsim var». Dedi: «Nədi, ay ata?» Dedi: «Mən bu yataxdan durmujam, özü də pulunuz var xirtdəyə kimi. Heç nəyə ehtiyacıız yoxdu ki?» Dedi: «Yox». Dedi: «Mən bu yataxdan durmujam, sizdən bir dənə xayişim var». Dedi: «Nədi?» Dedi: «Mən öləndə basdırdız buyün üş gün, bir-bir üçünüz də hər gejə bircə gün qarool durun, ikinci gejə yox», –

oğlannarına dedi bunu. Dedi: «Baş üstə, elə budu?» Dedi: «Hə». Dedi: «Ə, adama bircə gün düşür, nolajax».

Kişi dünyasını dəyişdi, apardılar bunu basdırdılar. Axşam oldu, qardaşdar dedi böyük qardaşa ki, bu axşam sənin oçiredindi, sən get. Dedi: «Baş üstə». Gedəndə bunun qaynanası bir ildi kişiynən dalaşıb, ajıx eliyib gəlib göyünün yanında olurdu, həmin göyünün yanında. Dedi: «Göyümə dəyən güllə məə dəysin. Beyjə ataan yanında mən gedib qarool olajam, sən getmə, yat məən qızımın yanında». Nəqədər elədi, arvad dedi, yox, qoja arvadam, mən gedəjəm. Apardı, deyir, arvadı qoydu ora. Arvad, deyir, bir az ayna gəzdi, bir az bayna, yazıx, yayın güniydi diyə, yuxu basdı. Gəldi baş ağacının dibində, baş daşının dibində bu oturub mürgülədi. İki ağsakqal kişi, deyir, söhbət eliyə-eliyə gəldi. Tərpətdi, gördü arvad xeylağıdı baş daşının qabağında. Dedi ki, sorğu-sualı ölüdən alax, diridən? Dedi: «Birinci dirini danışdırax, sonra ölünü danışdırarıx». Tərpətdilər bunu, dedi: «Ay qarı, ay qarı». Dedi: «Hə». Ayıldı, dedi: «Nolub?» Gördü ki, iki ağsakqal kişidi. Dedi: «Burda niyə otmusan?» Dedi: «Bu mənim göyümün atasıdı, bu vəsiyyət eliyibdi ki, hərəəz bir gejə məə qarool durun. U göyümü mən çox istədiyimə görə onun əvəzinə mən gəlib durmuşam». Dedi: «Bəs səən ərin varmı?» Dedi ki, üş-dörd uşağım var, ərim də var. Bir ildi ərimdən ajıx eliyib, dalaşıb, gəlib, dedi, göyümün yanında oluram. İndi, dedi, göyümün yanında oluram. Dedi: «Bəs günahın nə olub?» Bu bir-iki söz diyəndə bunun sağ çiynindəki, sol çiynindəki qabları çəkdilər, baxdılar... – «Deməli, bir ildi sən ərinnən ajıx eləmisən, eləmi?» Dedi: «Hə». O biri kişi xəbər aldı ki, buna nağayrax? Dedi ki, buna əlli dənə zopa çək ağıllansın, getsin kişisinin yanına. Bu arvada, deyir, əlli dənə zopa çəkdilər, arvadı qoydular ora, çıxdılar getdilər.

Gün qalxmış arvad ayıldı. Durdu, deyir, yüyürə-yüyürə göyünün öyünə getmədən düz kişinin öyünə getdi. Kişi də səhər-səhər idi, şornan-zadnan oturmuşdu seyvanın qırağında əppəh yiyirdi uşaxlarnan. Gördü arvad gəlir. Dedi: «Bu nə sözdü, ə, bir ildi mənnən ayrılıb». Bir az yaxınnaşdı gördü, həkqi də, arvaddı. Dedi: «Gəlmə». Başdadı, deyir, əlini yerə qoydu, iməkləməyə. Gördü gəlir. Dedi: «Məni qəbul elə». Dedi: «Bilirsən nə var?» Dedi: «Yox». Dedi: «Bir il məə zulum vermisən. Bu bir il zuluma görə mən sənin canın ağzınnan çıxsa da, qəbul eləmijəm. Əlinnən gələni doxsan yerə qoy, qəbul eləmijəm». Dedi: «Məə öl desən, yıxıl yerə başını kəsim, razıyam. Məni qəbul elə». Dedi: «Eləmijəm». Tərpəndi, deyir, meçidə, nə qədər adamın

içində ağladı, deyir, bütün meçitdə olan əhali hamı gəldi. Bu arvadın dalıynan gəldilər, xayiş elədilər kişidən, deyir, nəysə, kişi bunu qəbul eliyənnən sonra molla nigahını kəsdi. Kişi bunu buyurdu. Buyuranda, deyir, bayaxdan buna söz diyəmmirdi, hoppanırdı başına. Kəlmə ağzınnan çıxanda yek kəlmə yoxdu. Bir dəfə, iki dəfə, bir gün buna dedi ki, məə de görüm nətər olub, bu bir ildən sonra ağıllanmısan? Dedi: «Hər şeyi mənnən xəbər al, unu alma». Dedi: «Yox, di görüm». Dedi: «Hal-qəziyyə belə-belə. Məən başıma oyun gəldi. Hələ mən tez düşmüşəm, bir az gejiksəydim, mənim dedi işim cana idi. İnnən sonra məni ölümə buyursan mən səən üzəə ağ olan deyiləm».

Qaldı bunun ikinci oğlu. İkinci oğlu getdi, dedi ki, eşşəhnən odun daşıyan var, gündə bir eşşəh yükü odun aparır, satıb pul alır, onu da verib çörəyə gətirir. Ona, dedi, dədəmin puludu, dedi, bir dənə manat verəjəm aparıb qoyajam, dedi, dədəmə qarool çəksin. Çağırdı, deyir, eşşəhçini: «A qoşu, qoşu». Gəldi. Dedi: «U eşşəhdə apardığın odunnan nə qədər pul alırsan?» Dedi: «Bir abbası». Dedi: «Səə bir dənə, – dedi, – manat verəjəm, mənim beyjə atama qarool çəkərsən». Dedi: «Cannan-başnan, u nə sözdü, beş günün çörəyidi». Apardı, deyir, qaş qaralanda qoydu ora. O da, deyir, gəzdi bir az aşağı-yuxarı, bir cübbəsi vardı, tulladı cübbəni baş daşının dalına, uzandı. Bir qədər, deyir, gejə yarıdan keşmişdi, gənə həmin ağsakqal iki dənə adam gəldi. Söhbət eliyə-eliyə gəldi, gördü ki, bir adam da uzanıb. Dedi: «Ölüdən alax hak-hesabı, diridən?» Dedi: «Diridən, burda sirr var».

Hə. Nəysə, tərpətdilər bunu, durdu ayağa. Dedi: «Ə, kimsən sən, nəçisən?» Başına gələni söhbət elədi. Dedi: «Bir eşşəyim var, onnan bir eşşəh yükü odun aparıram bazara, bir abbası alıram, çörəyə verib qayıdıb gəlirəm. Onnan da bir sutka dolanıram, yiyirəm, səhər gənə gedirəm». Dedi: «Bəs bu kimdi?» Dedi: «Qonşumdu, dünyasını dəyişib. Onun oğlu məə bir maat verdi, gördüm beş günün çörəyidi, dedi, mənim atama qarool çək. Mən də gəldim qarool çəkdim». Dedi: «Dəftəri çıxart». Çıxartdı. Dedi: «O eşşəyi yükləmisən, səhər gedəndə də minib getmisən, eləmi?» Dedi: «Hə». Dedi: «Gələndə də yükləmisən?» Dedi: «Hə». Dedi: «Şəhərdən gələndə də minib gəlmisən, gappagap döyə-döyə, çırpmısanmı?» Dedi: «Hə, yük ağır olurdu, yatırdı». Dedi: «Gələndə quru ağaca bağlamısan, düzdümü?» Dedi: «Hə». Dedi: «Bəs u cannı döylü?» Dedi ki, əlli ağac da buna cəkmək lazımdı. Əlli dənə də zopa buna çəkdilər.

Səhər durdu, alaqarannıxdan yüyürdü məhləyə. Gördü ki, eşşəyi axşamdan bağlıyıb quru ağaca. Görürsən ki, həqqi də, heylədi. Bu eşşəh tayfasını quru ağaca bağlıyırsan onu gəmirir, ordan qidalanır. Allah-tala demək insan zülm elədiyinə görə o heyvana quru ağacdan qida verir ki, onnan dolansın. Bu şəriyətimizdə var. Bəli. – «Qoşu» Dedi: «Hə». Dedi: «Eşşəyi satıram». Dedi: «Neçəyə deyirsən?» Ucuz qiymətə dedi. Dedi: «Ə, başın xarab olmasın, baha deyirsən». Elə bildi bununla zarafat eliyir. Bir az da düşdü aşağı. Dedi: «Yenə də baha deyirsən». Bir az da düşdü. Dedi: «Ə, elə-belə də olsa bir maat ver, eşşəyi verim səə». Heç neçəyə, deyir, eşşəyi verdi. Dedi: «Allah səə şükür, bunun günahınnan qutardım». Onnan sonra kəndiri aldı, baltanı aldı əlinə, dalında daşıdı. Dedi: «Onun günahınnan kutarammaram, hələ bu yüngülvarıdı».

Üçüncü oğlu getdi keşik çəkəndə onnan da xəbər aldı. Gəldi, deyir, dedi: «Nağarmısan bu dünyada, burda niyə durmusan?» Dedi: «Mənim atamdı, vəsiyyət eliyib». Dedi: «Bəs sən nağarmısan bu dünyada?» Dedi: «Mən atamın çörəyini yimişəm, halal çörəh yimişəm. Hələ mən, dedi, bir kəsin bir köpüyünə xəyanət eləməmişəm. Atamın, dedi, vəsini yerinə yetirirəm». Dedi: «Dəftəri aç, baxax». Baxdılar, dedi: «Qonşudan filan vaxtı bir girvənkə yağ almısan, filan saatda, filan tarixdə. Əməlli fikirləş». Dedi: «Hə». Dedi: «Bəs onun pulunu niyə verməmisən?» Dedi: «Yaddan çıxıb, icazə verin burdan gedənnən sonra on qat onun pulunu verməyə mənim qüvvəm çatır. U mənim, – dedi, – yadımdan çıxıb». Unnan, deyir, razılaşdı. Gələn kimi unun hakqını verdi.

İndi rəvayətdə belə şeylər çoxdu, Allahın hökmü çoxdu.

## SÜLEYMAN VƏ QARI

### I mətn

Yaz fəsliymiş, Süleyman peyğəmbər yolnan gedirmiş. Gedəndə görüb ki, yolun qırağında bir dənə qız oturub, dünya gözəlidi. Bu da çox arvadpərəst olub. Eşitdiyimə görə, çox arvadı olub bunun. Bu başdıyıb deyir ki, sən öl, bunu alajam. Gəlir qızın yanına, deyir ki, ay qız, mən səə vuruldum, mən səni alajam. Deyir ki, alajaxsansa, ya Süleyman peyğəmbər, etiraz eləmirəm, gedərəm. Amma üzük ver. Barmağında Süleyman peyğəmbər adına döyülmüş üzük varmış, üstünə Süleyman yazılıbmış. Deyir, alır, belə mücrü var imiş, açır ağzını, tulluyub ora. Deyir ki, gedirəm, qayıdajam. Qayıdan başı da səni aparajam. Deyir: «Yaxşı». Çıxır gedir, bu qız qalır burda.

Payız keçir, unnan sonra qış vaxtı qayıdır. Qış vaxtı qayıdıb gələndə, bu yerə çatanda yadına düşür ki, axı burda qız oturmuşdu. Deyir: «Hansı vaxda gəlsən mən səni burda gözləyirəm». – «Oraynan gedim. Gedim u qızı da götürüb çıxım gedim». Gəlir ora çatanda bir fırtına qopur, bir nərə səsi gəlir. Gəlir belə baxır, deyir: «Bismillah, bu nədi, ə?» Gəlir qorxa-qorxa bunun yanınnan keçir. Görür ki, bir ifritə, belə bir qadın dayanıb yolun qırağında. Bu gedir. Gedəndə deyir: «A Süleyman peyğəmbər». Bu çörükür baxır dala, deyir: «Mənim adımı hardan bildi, nətər tanıdı?» Çörükür: «Bəli». Deyir: «Nooldu, nişan vermişdin, üzük vermişdin, üzüyü bəlkə apar getginən». Dedi: «Sən kimsən?» Deyir: «Burdan gedəndə üzük vermişdin, qayıt gəl bura, üzüyüü götür get». Gəlir bunun yanına, deyib: «Hardadı?» Açır mücrünün ağzını, üzüklərin hansını götürübsə, görür ki, Süleyman yazılıb üstünə. – «Tanımadın üzüyüü?» Dedi: «Yox». Dedi: «Dur o çamadanın yanında, hansı tullanırsa, qalxıb düşürsə, u sənin üzüyündü». Biri qalxır üzüklərin içinnən, belə tullanır. Tutur onu. Deyir: «Hə, udu səninki». Deyir: «Sən tanıdın kiməm mən?» Deyir: «Xeyr». Deyir: «Mən qoja dünyayam, əbədi. Səən kimi Süleymannarın çoxusu gəlib gedib. Bax, bu üzüklər olarındı. Sənin kimi Süleymannarın çoxu gəlib gedib bu dünyaya. Səni də aparajam».

Bu gedəndə yaz olur. Yazda axı gül çiçəyi çağırır, çiçəh gülü çağırır. Qış fırtınası, soyuğu, məşəqqəti gəlir. U sifətə düşür də u. İlin fəsilləridi bular.

### II mətn

Bir gün Süleyman peyğəmbər yolnan gedirmiş. Görür ki, yolun qırağında bir cavan qız oturub. Buna aşiq olur o. Qız bunnan imtina eliyir. Nəsə, deer ki, onda girov qoy. Əgər doğrudan da, məni istəyirsənsə, üzüyü verginən. Süleyman barmağınnan çıxarıb üzüyü buna verir, sonra gedir. Qayıdanda haman yerdə görür ki, bir qoja qarı oturub. Üzünnən-gözünnən zəhirmar yağır. Onun yanınnan keçib gedəndə qarı buna deyir ki, Süleyman, hara gedirsən? Deyir: «Niyirsən sən? Sən kimsən?» Deyir: «Bəs məə sən üzük verdin. Məni nişannadın burda». Deyir: «Bayaxkı qız sən idin?» Deyir: «Hə, indi niyə qaçırsan ki? Niyə gedirsən?» Deyir: «Üzüyü görüm». Deyir: «Bax ora. Gör nə qədər üzük tökülüb, hamısının da üstünə yazılıb Süleyman, Süleyman». Soruşur, deyir: «Bayax sən gözəl bir qız idin, indi qarı». Deyir: «Mən dünyayam. Sən Süleyman dünyaya aldanmısan. Hə, bax bu dünyanın axırı belədi. Mənim kimidi.

Dünyaya aldanmaginən. Görürsənmi sənin kimi Süleymannar dünyaya nə qədər gəlib-gedibdi. Bu dünyaya sən aldanmaginən». Süleyman onnan sonra başa düşüb ki, düz hərəkət eləmiyib.

## QUŞ SÜMÜYÜNDƏN EV
### I mətn

Bu bir qızı istəyəndə qız buna deyibdi ki, sən ki, yer kürəsinin padşahısan, getginən quş sümüyünnən öy tikdir, səə gedərəm. Deyib: «Heylə?» Deyib: «Hə». Deyib: «O da mənim əlimdə». Bütün quşdarın hamısını yığıbdı bir dənə binaya. Bax bu yaxşı tarixdi. Bir dənə binaya yığannan sonra baxıb görüb ki, quşdarın içində bu bayquş gəlmədi. Baxır ki, kim var, kim yox. Quşdar deyir ki, ey padşah, bayquş gəlmiyib. – «Niyə gəlmədi bayquş?» Quş yolluyub, get dinən ki, Süleyman peyğəmbər deyir gəlsin. Gedir deyir. Deyir: «Mən helə padşahın çağrışına getmirəm». Qızılquş varmış, quşdarın belə cəngavər quş tutanı, yolluyub. Deyir: «Padşah çağırır, niyə getmirsən?» – «Getmirəm», – diyən kimi salır caynağına, tutub götürüb gətirir unu. Gətirib düz Süleyman peyğəmbərin yanına. Deyir ki, bayquş, niyə gəlmirdin? Deyir: «Niyə gəlim sənin çağrışaa? Sənnən padşah olar? Deyir: «Niyə?» Deyir: «İş döyül ki, sənin elədiyin». Bayquşa əyan imiş. Deyir: «Bayquş, səə üş dənə sual verəjəm. Bu quşdarı görürsən burda?» Deyir: «Görürəm». – «Buları nə gözləyir burda, bilirsən?» Deyir: «Yaxşı bilirəm». Deyir: «Nə gözləyir?» Deyir: «Buları sən qırdırıb öy tikdirmək istəyirsən». Deyir: «İndi səə üş dənə sual verəjəm. Üş sualın üçünə də cavab verdin quşdarın hamısını sənin başaa çöyrüb buraxajam. Yox, verə bilmədinsə, hamıızı qırdırajam». Deyib ki, di. Deyir: «Birinci sualım bunnan ibarətdi ki, dünyada ölü çoxdu, diri?» Bayquşa sual verib. Deyib ki, ölü çoxdu. Deyir ki, sən unu hardan bildin, ölü çox olmasını? Deyib: «Mən bilirəm ki, ölən ölübdü, qalannar da öləjəhdi. Ona görə də ölü çoxdu». Dedi: «Düzdü». Dedi: «Yaxşı, dünyada abadannıx çoxdu, xarabalıx?» Dedi: «Xarabalıx». Dedi: «Unu nə bildin?» Dedi: «Xarabalıx xarabalıxdı, abadannıx da var e, u da çöyrüküb olajaxdı xarabalıx». Dedi: «Bu da düzdü. İndi üçüncü sualıma cavaf ver. Dünyada arvad çoxdu, kişi?» Bunu bayquş hardan bilə, arvad çoxdu, kişi. Saymıyıb, eləmiyib. Deyib ki, dünyada arvad çoxdu. Deyib: «Nədən bilirsən?» Deyib: «Vallah, arvad arvaddı, arvad sözünə baxan kişi də elə arvaddı». Süleyman peyğəmbərə çatır bu söz ki, axı mən də arvad sözünə baxıram. Deyib: «İndi mən

də arvadam?» Deyib: «Bəli, sən də arvadsan. Navar, arvad alajaxsan deyə bir belə cannını qırdırıb öy tikdirməh istəmirsən? Arvadın sözünə baxmırsan?» Deyir: «Bayquş, apardın, sağ ol». Buraxır quşdarı. Toyux tayfası ordan qalıb. Buların əlləri, qanaddarı bağlı idi. Deyib ki, sizi insannara bəxş elədim. Deyir: «Bayquş, sənə gündə üş dənə sərçə bəxş elədim». İndinin özündə də elədi. Bayquşu harda görsən, izlə. Sabah-sabah, səhər-səhər üş dənə sərçə gəlir. Bayquş oturub beləjə, heş bir tərəfə əl atmır. Elə u üş dənə sərçə oturur orda. Onun biri tullana-tullana düz gəlir bayquşun yanına. Əlini qoyur onun üstünə. Başdıyır onu yiməyə. İkisi uçur. Bu səfər günorta ikisi gəlir. Bunnarın da biri gəlir, onu da yiyir. Axşam olanda da u tək qalan gəlir. Heylə gündə üş dənə onun sərçə yiməyi var.

*Söyləyicinin dediyinə görə, özü bunun şahidi olub.*

### II mətn

Rəvayətə görə, bəyquş deyillər ona. Bayquş yox, bəyquş. Keşmişdə, deyir, paccax olur. Onun da bir dənə qızı olur. Buna, deyir, neçə yerdən elçi gəlib, getmirmiş. Belə ki, deyirmiş ki, mənim şərtlərimi yerinə yetirsin, onnan sonra ona ərə gedərəm. Elçiliyə gələn də deyirmiş ki, sənin şərtdərin nədi? Deyirmiş ki, mənim şərtdərim odur ki, dünyada kişi çoxdu, arvad çoxdu? Sonra dünyada abad çoxdu, xarabalıx çoxdu? Sonra dünyada ölü çoxdu, diri çoxdu? Bu üş şeyi məə deyirsən. Onu da bunu istiyən oğlannardan heş kim bilmirmiş. Bir nəfər olub. Bu qızı deyib mən alaram. Deyib ki, alarsan, yaxşı. Gəl sualıma cavaf ver. Bunu istiyən bu oğlan şah oğlu imiş. Bütün quşdarı çağırtdırıb yanına. Yox, əstəfrullah. Atı da çağıtdırır, iti də çağıtdırır, bir də bayquşu çağırtdırır. Zaddan xəbər alır ki, kişi çoxdu, arvad çoxdu? Deyir: «Arvad çoxdu». Deyir: «Niyə?» Bayquşdan soruşur ha. Deyir: «Arvad arvaddı, arvad sözünə baxan kişi də arvaddı». Deyir: «Abad çoxdu, xarabalıx çoxdu?» Deyib: «Xarabalıx çoxdu». Deyib: «Niyə axı?» Deyir: «Ölən ölübdü, qalannar da öləjəhdi, olajax xarabalıx». Deyib: «Ölü çoxdu, diri çoxdu?» Deyib: «Ölü çoxdu». Deyib: «Niyə?» – «Ölən öldü, qalannar da öləjəh. Ölü çoxdu. Öylər qalajax xaraba». Onnan sonra gəlibdi. Onnan sonra bu səfər qıza elçi gəlibdi. Deyibdi: «Di sualları». Deyib: «Məə de görüm dünyada arvad çoxdu, kişi?» Deyib ki, arvad çoxdu. Deyib: «Nəyə görə?» Deyib: «Arvad arvaddı, arvad sözünə baxan da arvaddı». Deyib: «Xarabalıx çoxdu, abad çoxdu?» Deyib ki, xarabalıx

çoxdu. Deyib: «Niyə?» – «Xaraba qalan qalıbdı, qalannarın da adamları öləjəh, qalajax xaraba». – «Ölü çoxdu, diri çoxdu?» Deyir: «Ölü çoxdu. Ölənnər ölüb, qalannar da öləjək». Deyib: «İndi nədi sözün?» Deyib: «Gənə də şərtim var». Deyib: «İndi nədi şərtin?» Deyib ki, get anaa ürəyin çıxart, gət məə. Deyibdi ki, sən başqa şey de də. Mən anamın ürəyini necə çıxardım? Deyib: «Məni əyəm istəyirsənsə... – Demək, qız bunu yoxluyur ha. Həqiqətən bu mərd oğlandı? – Yox, mənim şərtim budu, əyəm eləsən, səə gedəjəm, eləməsən, getmijəm. Da mən səə deyirəm şərtimi». Bu da əlacsız qalır. Bir dəfə gedir, əli gəlmir, iki dəfə gedir, əli gəlmir. Axırda özünün əli gəlmir... – «Gedin anamın ürəyini çıxardın, qızıl mejmahıya qoyub gətirin bura». Götürüb gəlillər, verillər oğlanın əlinə. Aparıb gedir, çıxır hüzuruna. Deyib: «Hə, bu da anamın ürəyi. İndi da nədi?» Deyib: «İndi da udu sözüm ki, get, səə getmirəm. Demək, anasının ürəyini çıxardan, sabah mənim də ürəyimi çıxarar. Sən, deyir, namərdsən. O dediyin sözlərin də hamısı səə çatır. Çünki sən arvad sözüylə gedib anaa ürəyini çıxarırsan. Səə, deyir, getmərəm. Lap dünya qopa, səə getmərəm». Onnan sonrasına bilir ki, hə, bayquş dediyi düz imiş. Arvad sözünə baxan kişi də arvaddı.

## SÜLEYMAN VƏ KİRPİ

### I mətn

«Ya Süleyman! Sizi mən qiyamət gününə qədər saxlıyaram səlamət. Amma bu şərtə. Bütün səə tabe olan heyvanatın hamısını yığ. Hamısı irazılıx eləsə, mən səni qiyamət gününə qədər saxlıyaram».

Həzrət Süleyman əmr elədi, bütün cannı-cinni iki-üş günün tamamına yığıldı. Həzrət Süleymana dedilər ki, ya Süleyman, bütün cannı-cinni yığıldı. Dedi: «Baxın, görün, hansı cinsdə hansı heyvan gəlmiyib». Yoxladılar, gəldilər, Həzrət Süleymana dedilər ki, ya Süleyman, bütün heyvannar gəlib, amma kirpi gəlmiyibdi. Kirpi də onda əti üryan idi, tikan yox idi. Həzrət Süleyman bu işə çox narahat oldu. Gəldi heyvanatın içinə. Fikirləşdi ki, mən hansı heyvanı göndərim ki, getsin kirpini götürsün, gəlsin. Fikirləşdi, dedi ki, at yaxşıdı. Atı çağırdı, dedi ki, get kirpini gət. At getdi, kirpini tapdı, dayandı. Dedi: «Ay allahın heyvanı, məni Həzrət Süleyman göndəribdi. Dur, gedəh onun hüzuruna, səni çağırır». Kirpi atkaz elədi, gəlmədi. At gəldi Həzrət Süleymana dedi ki, ya Süleyman, kirpi atkaz elədi, gəlmədi. Həzrət Süleyman daha da əsəbləşdi, fikirləşdi, iti göndərdi. İt getdi, kirpini tapdı, dedi: «Ay Allahın heyvanı, məni

Həzrət Süleyman göndərib ki, get onu gət». Deyib: «Sənnən gedərəm». İt bunuynan gəldi. Həzrət Süleyman baxdı, gördü ki, it kirpiynən gəldi. Çağırdı, dedi: «Yaxın gəl». Gəldi. Dedi: «Sənnən ötəri ən gözəl, ən mehriban, insannar üçün yaradılmış gözəl heyvan atı göndərdim, gəlmədin, itnən gəldin». Dedi: «Ya Süleyman, düz danışmırsan. Atın harası ehtibarlıdı? Atı Allahın yaratdığı bəndə saxlıyır, onu tolada tumarlayır, yemini verir. Gecənin bir aləmində bir dələduz gəlir, tullanır belinə, götürüb çıxır. İlim-ilim itir. Harası ehtibarlı oldu? Amma it saxlıyan adam elə olur ki, mülkünnən köçəsi olur. İt qalır u mülkdə, görürsən gündüzlər gedir orda-burda qidalanır, axşam olanda gəlir yiyəsinin həyətində, evin qabağında yatır. Ehtibarlı bu heyvandı ki, unnan gəlmişəm». Dedi ki, bilirsənmi bu cannı-cinnini niyə yığmışam? Deyir: «Xeyr. Diyərsən bilərəm». – «Mən Allah-talaya təmənna eləmişəm ki, ya rəbbi, məni qiyamət gününə qədər səlamət saxla. Allah-talanın buyruğudu ki, bütün cannı-cinni irazılıx versə, səni qiyamət gününə qədər saxlıyaram. Sən nə deyirsən?» Dedi: «Mən etiraz eliyirəm». Dedi: «Niyə?» Dedi: «Ona görə ki, ya Süleyman, sən bir qədər yaşıyıb yaşını keçirənnən sonra sənin gözlərin girəcəkdi quyuya, görmüjəhsən həyatı. Tük gətirəjəhsən, ağzınnan şarhaşar su töküləjəh. Elə bir şəklə çörükəjəhsən ki, dünyaya gələnnər səni görüb nifrət eliijəh, qorxajax, çəkinəjəh, iyrənəjəh. Odur ki, sənin qiyamət gününə qalmağaa etiraz eliyirəm».

Həzrət Süleyman gördü ki, balaca olmasına baxmayarax çox ağıllı sözlər deyir. Dedi: «Ya Allahın heyvanı, yaxın gəl». Kirpi onda dəri idi. Üş dəfə əlini çəkdi Həzrət Süleyman üstünə, dedi: «Səni görüm tikannı olasan, özü də gejə gəzəsən, heş bir həşərat sənə toxunub xata eliyə bilməsin». Həzrət Süleyman onnan sonra bütün cannı-cinnini xilas elədi. Dedi: «Dağıla bilərsiz, gedə bilərsiz».

Yanı oyannan bəri belədi. İstəyir heyvan, istəyir insan, ağıllısı ağıllıdı, ağıllı söz danışajax. Yaşnan da döylü ki, ağılsızı dindirsən, sənə elə hərəkət eliyə ki, özün peşman olasan ki, onnan mən niyə söhbət elədim. Hə, bu da belə.

### II mətn

Süleyman peyğəmbər ömrü boyu yaşıjaydı. Bütün, deyir, bu nə ki həşarat, heyvan varsa, hamısını topalıyar başına, iclas eliyər. Kirpi gəlməz. Bunun dalınnan vəzirini göndərər, olmaz. Vəzirin atını

göndərər, gəlməz. İti göndərəndə gedər kirpini götürər gələr. Süleyman peyğəmbər deyir ki, bəs səən dalınnan vəzirimi göndərdim, gəlmədin, atımı göndərdim, gəlmədin. İti göndərdim, itnən gəldin. Deyir ki, vəzir səən düşmanındı. Sən düşmanını mənim üstümə göndərirsən. Deyir: «Əşi, mənim vəzirimdi bu, niyə düşman olur?» Deyib: «Sən ölən kimi səən yerə keçəjəkdi». Deyər ki, düz deyirsən. Deyər: «Bəs atı göndərdim» Dedi: «U atı məə ver, mən minim belinə. Sən yüz kərə di «at, getmə». Mən una qamçını zolluyan kimi u çıxajaxdı dünyadan. U da səə ziddi, düşmandı». – «Bəs iti göndərdim, itnən gəldin axı». Deyir: «İt yağışda, palçıxda, qar qanmır, isti qanmır səni qoruyur. Ona görə mən itin çağrışına gəldim». Deyər: «Bəs məə bu suyu göndəriblər. Hamı deyir iç, ölmə. Sən nə deyirsən?» Deyir: «Məndən olsa, içmiyib ölsən yaxşıdı». Deyər: «Niyə?» Deyər: «Una görə ki, yüzdən keşdin, gözündən su axajax, ağzınnan su axajax, burnunnan su axajax, eybəcər hala düşəjəksən. Hamının səndən zəhləsi gedəjək. İşmiyib ölsən, bir az cavan ölərsən. Hamı da sənin dalınnan hayıbsılanar». Ha belə, deyir, böyürdən çay gedirmiş, suyu zəhər kimi, quş da işmirmiş. U iskəndayı suyu tulluyur çaya. Deyir, unnan sonra sular şirin olur.

## SÜLEYMAN VƏ ZÜMRÜD QUŞU
### I mətn

O vaxtı Süleyman peyğəmbər bütün cannı-cinniləri yığır başına, deyir ki, yeni bir xəbər var. Allahın təqdiri var. O yazını heş kəs poza bilməz, o təqdiri heş kəs poza bilməz. Deyirlər: «Nədi?» Deyir: «Günbatanda bir qız anadan olub beyjə, gündoğanda da bir oğlan anadan olub beyjə. Olar ikisi on səkkiz yaşında bir-biriylə evlənəjək». Amma bu dediyimiz bəyquşdu, quzğundu, bu deyir: «Mən onu pozaram». Deyir: «Poza bilməzsən. Allahın yazısını heş kəsin pozmağa səlahiyyəti yoxdu». Deyir: «Adını məə di, yerini məə di, mən pozajam». Deyir: «Bulotan kəndində Dursunun məhləsindədi qız, oğlan, məəçün, Əlinin məhləsindədi. Poza bilirsən, get poz». Bu quş da hərlənir gəlir bu qız olan yerə. Gəlir görür ki, məhlədə ər də oturubdu, arvad da. Bu uşağı bəliyiblər bələyə, burda bunu yuyullar. Uşax burda yatannan sonra kişi durdu, deyir, getdi işə, arvad da durdu öyə getdi. Bu uşax qaldı yiyəsiz. Yiyəsiz qalan kimi bu quş gəldi bu uşağın bələyini caynağına aldı. Arvad getdi bələyi axtardı, gördü heş kəs yoxdu. Yeşik bom-boşdu.

Başdadı kişi gəldi öyə, dedi: «A kişi, uşağı aparıblar, yoxdu uşax». Bular yerə-göyə zincir saldılar, tapa bilmədilər. Getdilər Süleyman peyğəmbərə dedilər: «Ya Süleyman, bizim beşiyimizdən bizim uşağımızı nəsə götürübdü. Sən heyvannarını çağır, olardan xəbər al, bəlkə sənin heyvannarın aparıbdı». Bu da heyvannara deyər. Deyər heş birimizin xəbəri yoxdu. Bu quş bunu hərləyər, deyər bunu hara aparım, nətəər eliyim. Aparıb bir adaya keçibdi. Adada bir hündür ağac olubdu. Bunu adada aparıb hündür ağacın dibinə qoyur. Çırdan-çırpıdan yığır, burda yuva qayırır. Bu uşağı da gətirib yuvaya qoyur, bu qız uşağını. Qoyur bu qız uşağını burda, gedir bu. Sütdüyan deyirik biz, qıranda süt çıxan halalar. Bu halalardan gətirir bu uşağın ağzına verir. Allah tərəfindən bu qidalanır. Qidalanmaxda olsun, bunun da bələyini mələyikələr təmizləyir. Bu quş durub, məəçün, uçub gedəndə bu uşax burda qalanda bu mələyikələr bunu təmizləyir. İriləşəndən sonra gedir heyvannardan-zaddan ağzında çiyniyir, buna gətirir ət verir. Bu minvalla bu uşağı böyüdür. Oğlan da öz məmləkətində böyüyür. Günnərin bir günü uşax görür ki, bu uşax da tüfəng alır ov ovluyur dağlarda. Keçi, dağ keçisi ovluyub gətirib satır, çörək pulusunu çıxardır. Bir gün bu dağdan düşüb axmazın qırağıyla gələndə görür ki, tor çəkənnər var. Gələndə gəlir bulara baxır. Görür ki, toru çəkdi biri, çıxartdılar qırağa, verdi birinə. Biri götürdü bu toru. Dedi: «Ə, siz nağarırsız belə?» Dedi: «Gündə gəlirik bura bu balıxları tornan çəkirik, – dedi. Aparırıx bunu satırıx, gündəlik çörək pulumuz çıxır onnan, bu işdən». Deyir: «Gündə gedib dağları-daşları gəzməkdən yoruluram. Gedib atama deyəjəm icazə versə, gəlib siznən bu tordan çəkəjəm. Mənə də pay verərsizmi?» Deyir: «Hə, niyə vermirik. Get hazırlan, gəl». Bu gedir atasına deyir ki, a ata, bu ovdan nə çıxa. Gündə bir cüyür, bir dağ keçisi gətiririk. Filan yerdə axmazda balıx tutullar, çoxlu balıx tutullar. Gedim mən də orda tor çəkim. Razılaşmışam, məni götürürlər. İcazə ver məə, mən də gedim daa tor çəkim, balıx gətirim, satax, balıxnan dolanax. Diib: «A oğul, get». Bu, deyir, bir dəfə, iki dəfə, üş dəfə olur. Bir günü gəmidə gedib bir tor salıb çəkəndə fırtına qopur bu axmazda. Elə bir fırtına qopur ki, bu gəmini götürüb vurur qayaya, dağım-dağım eliyir. Bunun bir dənə taxtasınnan bu oğlan yapışır. Çıxır oturur taxtaan üstündə. Baxır bu. Külək bunu axmazın qırağına aparır. Bu meşəyə çıxır bu uşax. Çıxır meşəyə. Meşədə başdıyır bu uşax hərlənir ki, görəm mən hara gedim. Görür ki, küşdə hündürdə bir ağac var. Gedir ağacın yanına,

görür ağaşda bir yuva görünür. Deyir: «Gedəjəm ora, burda heyvan-zad məni yiyər. Burda vəşi heyvannar ola. Mən ora çıxım, gejə orda yatım, məni heyvan-zad yiməsin». Bu gedir bu ağacın dibinə. Ağaca belə baxanda görür orda bir uşax var, qız uşağı. Quş diliynən buna bəri gəl deyir, çıx deyir. Bu ağacın putağı-mutağı yoxdu, lüt ağaşdı. Bu da deyir ki, mən ora çıxa bilmərəm, ağaş hündürdü, putağı-mutağı yoxdu, sən düş aşağı. Bu qız siyrilib düşür yerə. Danışılana görə, bir neçə dəfə düşüb qız bunnan oynaxlıyıb, öpüşüb, filan-beşməkan. Vaxd olur, bu quş gələn vaxtı bu çıxır yuvaya. Belə bu formada. Quş görür ki, bunun üzü-gözü dişdənilibdi, öpülübdü. Quş deyir ki, hə, burda naməhrəm var. Ordan qız yapıncısını tulluyur buna. Ordan görür bunun paltarı-zadı sökülüb dağılıbdı, orda bükdüyü yapıncını tulluyub yerə ki, buna bükələnərsən. Düşür buna yerdə öyrədir ki, bunu sal yerə, buna bükələn, burda yatginən. Bu formu buna bükələnir, burda yatır. Bir gün quş deyir qıza ki, səni mən aparıram. Gətirdiyim yerə aparıb qoyajam. Başdıyır qızı boynuna götürəndə quş dilində deyir ki, yapıncım yoxdu, yerdədi. Düşür quş aşağı enir, bu yapıncını da caynağına alıb götürür. Həmən aparır bu qızın olduğu yerə qoyur. Aldığı yerə aparıb qoyur. Qoyannan sonra oğlan yapıncının arasınnan çıxır. Görür qız da bunun yanında çılpax. Quş dilində buna başa salır ki, get ordan qapını aşginən, əyninə paltar alginən. Gedir qız öyə, qapını açır, əyninə paltar geyir, gəlib oturur burda, danışır. Qız quş diliynən, bu da bizim dilnən. Bu səsi anası eşidir. Gəlir görür ki, oğlan. Oğlana deyir ki, bu nədi? Oğlan başına gələn qəziyyəni söylüyür ki, mən balıx tuturdum, balıxda mənim gəmim dağıldı, çıxdım bir adaya. Bu adada getdim daldalanmağa yer axtaram. Gördüm ağaş başında yuva var. Yuvaya çıxajam, çıxa bilmədim. Bu qız həmin yuvada olurdu. Yuvadan düşürdü, məndən söhbət eliyirdi, gənə qayıdıb çıxırdı ağaca. Günnərin bir günü gördüm ki, bu qızı quş alıb çiyninə, qənədi üstünə, mən də yatmışdım ağacın dibində yapıncıda, bu dey bu yapıncıda. Məni də caynağına aldı gətdi bura qoydu. Hə. Süleyman peyğəmbərin devridi. Gedim mən Süleymanı tapım, diim ki, qızım gəlibdi, amma quş dilində danışır. Hə. Quş dilində danışır deyəndə gedir Süleyman peyğəmbəri tapır, deyir: «Mənim qızım gəlibdi, amma quş dilində danışır. Danışdığını başa düşmürük. Yanında da bir oğlan». Deyir: «Hə, həmən oğlanla görüşübdü». Deyib: «Get qızı gət bura sabannarı, oğlanı da». Başdıyır bu car çağırır, Süleyman, bütün kainata ki, yeni xəbər var, gəlin sizə yeni xəbər söylüjəm,

gözüzlə də görəjəksiz. Bu gənə çalağan quşu, bayquşdu, deyib ki, gənə Süleyman peyğəmbər niyə incidir, niyə toplayır. Bu səfər nə xəbər olajax. Bu da gələndə deyib ki, ay camaat, sizə mən o vaxtı dedim ki, Allahın təqdirini, Allahın yazısını heş kəs poza bilməz. Amma həmən bəyquşdu, say quşdu, deyibdi ki, mən pozaram. Həmin günbatandayı qız gündoğandayı oğlan bulardı. Qızı o vaxdı bu oğurlayıb gedibdi. Hardasa saxlıyıbdı, bu oğlan da balıx tutanda adada həmin qızı tapıbdı, orda onnan görüşübdü. Bu quş da təzədən qaytarıb gətirib caynağında bu şəxsin məhləsinə qoyubdu. Hə, onnan sonra u quş deyir: «Hə, düz deyirsən, Allahın təqdirinə heş nə çatmaz. Allah nə yazıbdı onu da görəjəksən».

**II mətn**

Süleyman peyğəmbər Zümrüd quşuna deyir ki, bütün quşdarı yığ mənim taxtımın yanına. Taxtımın yanında qənədlərini belə qənəd-qənədə söykəsinnər, mənim üstümə gün düşməsin. Zümrüd quşu da bunu bütün quşdara əmr eliyir, quşdar gəlir. Görürlər ki, bir balaca yerdən peyğəmbərin üstünə gün düşür. Başlayırlar axtarmağa ki, bu hansı quşdu gəlməyib, onun yerindən gün düşüb. Baxıb görürlər ki, bülbül. Gedir Zümrüd quşu bir baxçada görür ki, bülbül bir gülün içində cəh-cəh vurur, oxuyur. Deyir ki, bəs sən Süleyman peyğəmbərin əmrini yerinə yetirməmisən. Sənə demişik gəl peyğəmbərin taxtının yanına. Deyir: «Bu mənə Allah-tala tərəfindən yazıdı, mən bu gün bu qızıl gülün üstündə oxumalıyam, cəh-cəh vurmalıyam». Deyir: «Yox, o nə yazıdı, gəl sənin boynun vurulacaq». Götürür gəlir peyğəmbərin taxtının yanına. Bülbül olduğu kimi deyir ki, bu Allah-tala tərəfindən mənə yazıdı, mən oxumalıyam bu gün, cəh-cəh vurmalıyam. Bundan qaçmaq olmaz. Zümrüd quşu deyir ki, yox, nətəhəri, pozmaq olar bu yazını. Süleyman peyğəmbər deyir ki, pozmaq olar? Deyir: «Olar». Vaxt qoyur Süleyman peyğəmbər, deyir: «Poza bildin, pozdun, pozammadın cinayət daşıyırsan bu işdə». Vaxt qoyur buna, deyir ki, məğrubda bir qız anadan olub, məşruqda bir oğlan anadan olub. Bunların evlənmə yaşları gələndə bular ailə quracaq, həyat quracaq. Allah-tala buları bir-birinə yazıb. Əgər sən buların evlənməsini poza bilsən, deməli, Allah-talanın yazısını poza bilərsən. Poza bilməsən, deməli, poza bilməzsən. Deyir: «Oldu». Buların, demək, evlənmə müddətləri çatana kimi Zümrüd quşu bunu pozmalıdı, buna kimi də vaxt qoyur. Zümrüd quşu gedir hərlənir, görür qız beşikdə

həyətdədi, ana da həyəti süpürür. Zümrüd quşu çox vəhşi, cannı bir quş idi. Şığıyır, beşiyi alır caynağına, gətirir dörd bir tərəfi su olan adada bir ağacın başına qoyur beşiyi. Bunu gündəlik gətirir orda yeməknən təmin eləyir, yedizdirir, saxlayır orda. Oğlan gəlir yaşlaşır, on yeddi-on səkkiz yaşı olanda deyir ki, mən burda yaşamıram, gedib başqa yerdə yaşıyıram. Baş götürüb gedir. Gedir ayrı yerdə yaşamağa. Bu gəlməknən gəlir çıxır həmin u adanın yanına. Ağaşdan özünə adaya keşməkdən ötrü şey düzəldir. Ağajnan adaya keçir. Keçir adaya, adada belə getdiyi yerdə qız görür ki, ağaşdan, yerdə kimsə gedir, bunun nəslindəndi. Çağırır ağaşdan: «Ey insan, sən kimsən? Sən mənim nəslimdənsən, mənim anam vəşi bir quşdu, səni parçalıyar görsə». Oğlanı çıxardır yanına. Oğlana danışır ki, bəs mənim anam vəşi bir quşdu, anam səni görsə yiyər. Deyir: «Bə mən nağarım?» Deyir: «Ancax gizlənmək». Anası deмək gündə üş dəfə buna çörək gətirirmiş – qıza, üçündə də oğlanı gizlədirmiş aşağıda qəfəslərdə. Quş gedəndən sonra oğlan çıxırmış yanına, bir yerdə yiyirlərmiş. Gəlir buların evlənmək məqamlarında, yaşdarı çatanda, deyir ki, Süleyman peyğəmdər, Zümrüd quşuna deyir ki, hazırsanmı, pozmusanmı? Deyir: «Hə, pozmuşam». Deyir: «Sabannarı gətir mənim taxt-tacımın yanına. Görək nətəər pozubsan?» Çörək gətirəndə qıza deyir ki, bəs səhər Süleyman peyğəmbərin taxtının yanına gedəjəyik. Deyir: «Onda sən məə bir dəst qadın paltarı, bir dəst də kişi paltarı gətirəjən». Deyir: «Oldu». Zümrüd quşu bilmir axı oğlanın burda olduğunu. Zümrüd quşu gətirir qadın paltarı, kişi paltarı. Oğlannan məsləhətdəşir bu qız, ağacdan göstərir ki, get yerdəki u qəfəsəyə gir sən, mən gəlib sənin yanına girəjəm. Amma deyəjəm sənin caynağın itidi, məni parçalıyar. Qəfəsə girim, qəfəsi götür. Deyir gedir girir qəfəsə, Zümrüd quşu şığıyır qəfəsi götürür, aparır qoyur Süleyman peyğəmbərin taxtı-tacının yanına. Deyir ki, peyğəmbər, hazırsanmı? Deyir: «Hə». Deyir: «Dinən gəlsin». Əvvəlcə qız çıxır qəfəsdən, dalıynan da oğlan, gəlirlər taxtı-tacın yanına. Sülyeyman peyğəmbər deyir ki, bəs sən pozmuşdun? Axı bular ikisi bir yerdədi, nətəər pozmuşdun bunu? O vaxtdan, deyir, Zümrüd quşu Qaf dağı var, Qaf dağının dalında utandığınnan, xəcalətindən dimdiyini diriyib yerə, durub.

**BACI HƏSRƏTİ**

Cənabi peyğəmbər meçitdə namaz qılırdı. Qılan vaxtı, deyir, hamı dağıldı, meçitdə bir kişi qaldı. Dedi: «Sən niyə getmədin?» Dedi: «Səə bir sualım var». Dedi: «Nədi?» Dedi: «Səə u sualım var ki, məə di görüm mənim qırx yaşım var, buyündən arı neçə il yaşıjam?» Dedi: «Sən Allahın yanına gedib kəlmələşirsən?» Dedi: «Hə». Dedi: «Allah-taladan unu məə xəbər al, gəl unu məə di». Deyəndə dedi ki, yaxşı, diyərəm.

Nəysə. Danası günü cumaya gedəndə gənə dayandı. Dedi: «Xəbər aldın?» Peyğəmbər, deyir, demədi. Dedi: «Yadımdan çıxıb». Dedi: «Xəbər al». Dedi: «Yaxşı».

Nəysə, danası gün gedəndə gördü gənə dayanıb. Dedi: «Xəbər aldın?» Bunun müddəti az idi. Deyəndə dedi ki, hə, xəbər aldım. Dedi: «Nədi?» Dedi: «Səən bir il müddətin var, il tamam olanda dünyanı dəyişcəhsən». Ağzınnan, deyir, peyğəmbərin kəlmə çıxdığıynan kişinin başı-gözü ağarmağı sekunda oldu. Tamam ağardı, deyir, fərz elə oldu doxsan yaşında, qırx yaşında yox. Özünü birtəri evə gətirdi çatdırdı. Gəldi, deyir, oturdu öydə, nə çölə çıxmadı, nə namaza getmədi, nə də bir şeyə. Gejə-gündüz bunu fikirləşdi ki, il tamam olsun. Ha bir gün, ha iki gün, bir gün deyir arvad bunnan xəbər aldı ki, dur gəl çölü-çörəni gəzginən, bəsdi səninki. Dedi ki, yox, arvad. Dedi: «Di görüm səə nolub, bu başı-gözü ağarmağın?» Dedi: «Arvad, onu xəbər alma». Bu, deyir, körpə uşax olanda, fərz elə üş-dört yaşında bir bajısı olub, qoşulub qaşmışmış qeyraz bir kəndə. O qoşulub qaçanda qırx yaşa kimi nə bajısının üzünü görüb, nə də bajısı bunun üzünü görüb. Bir birini tanımır. Nəysə, bir günü bu kişidən əl çəkmədi. Dedi: «Bəs iki-üç ay qalıb mənim vaxtıma, mən dünyamı dəyişəjəm. Peğəmbərdən xəbər almışam, ona görə mənim başım belə ağarıb». Bu kəndə çıxanda arvadın da başı-gözü ağardı qorxusunnan. Dedi: «Kişi, bilirsən nə var? İndi ki, bunu səə peyğəmbər deyibdi». Dedi: «Hə». Dedi: «Get bajınla heş olmasa görüş. Sən dünyanı dəyişjəhsən, bajınnan görüş». Diyəndə dedi ki, bilmirəm axı hansı kənddədi. Dedi: «Filan kəntdə, get, adı da filankəsdi. Get bunu ordan örgən, unu tap, onnan görüş, daa ömrünün axır çağıdı».

Bu deyir yeməhdən-zaddan yedi, arvad, deyir, əlinə dəyənəh verdi, saldı yola. Gəzə-gəzə getdi, deyir, kəndin ortasında bulax var, o bulağın başına çatanda gördü bir qadın bir güyümdə su doldurub dayanıbdı, buna baxır. Gəldi, deyir, yaxınnaşdı, çatdı, zəndnən, deyir, – öz bajısı olub, – baxıb buna, görüb ki, öz qardaşıdı. Deyib: «Ay bajı». Deyib: «Hə». Deyib: «Filankəsin öyünü axtarıram, ora qonax

gəlmişəm». Diyəndə arvad dedi ki, buna beyqəfil disəm ki, sənin bajınam, kişi öləjəh, dimədi, deyir. Dedi: «Gəl gedəh qardaş, mən səni aparım, gəl gedək». Götdü, deyir, bunu apardı öylərinə. Otuzdurdu, deyir, yaxşı una çay-çörəh, başına keçməh, üzünnən öpməh, nə bilim nə, nə. Dedi ki, ay bajı, axı mən filankəsi görməyə gəlmişəm, o mənim bajımdı, mən onu görmək istəyirəm. Çox sözdən sonra əri də gəldi. Ərinə dedi ki, hak-hesab budu. Əri, deyir, bunu başa saldı ki, ə, səən bajındı da bu. Təzdən durub görüşdü, elədi, deyir. Bu bir az elə bil cavanlaşdı. Nəysə, bir həftə qaldı burda, bir həftədən sonra gələndə dedi: «Bajı, bilirsən nə var?» Dedi: «Yox». Dedi: «Üş günnən bir dəfə, iki günnən bir dəfə mümkünsə gəl mənnən görüşginən, mən gələmmirəm». Dedi: «Yaxşı». Çıxdı getdi, deyir, öyə. İki günnən bir dəfə, üş günnən bir dəfə gəldi, deyir, bajısı bunnan görüşdü. İl tamam oldu, bu dünyasını dəyişən vaxtı ildən də bir ay artıx keşdi, bu dünyasını dəyişmədi. Durdu, deyir, ayağa, cuma günüydü, düz gəldi meçidə. Namazını qıldı, deyir, dayandı axıra. Dedi ki, peyğəmbərə, saa qurban olum, axı sən məə dimişdin il tamam olanda dünyamı dəyişəjəm? Bir ay keçibdi, mən dünyamı dəyişməmişəm axı. Dedi ki, iki yaşında, üş yaşında sənin bajının qoşulub qaçmağını deyiblər səə? Dedi: «Hə». Dedi: «Onu tanıyırdın?» Dedi: «Yox». Dedi: «Bəs noldu?» Dedi: «Ömrümün axırına bir-iki ay qalmış gedib onnan görüşmüşəm». Dedi: «Onnan görüşdüyə görə Allah-taala səə qırx il ömür bağışlayıb. Sən ölmüjəhsən, qırx il yaşıjaxsan, get dedi yaşa, bajınnan da həmişə ünsiyyət elə». Kişi, deyir, unnan sonra elə bil ki, cavannaşdı, çıxdı getdi. Rəvayətdə heylə şeylər də var.

## GÖZ YAŞI

Allah-tala Məhəmməd peyğəmbərə diyir ki, ya Məhəmməd, səən ümməti mən sınıyajam, görüm səən ümmətin mən tərəfə nətəridi. Deyir: «Sına da!» Sınıyır. Bir kəndin qırağında, deyir, bir kişinin üş dənə oğlu olur. Həzrət Cəbrayılı vağiyə sifətində göndərir ki, sən get ona dinən ki, onun oğlannarının üçünü də əlinnən alajam. Gejə yatır, yuxuda görür ki, Həzrət Cəbrayıl gəldi didi ki, bəs Allahdan nidadı, özə əyandı, səən oğlannarı əlinnən alajaxdı. Diyər ki, verən də Allahdı, alan da Allahdı. Versə də Allahdı, verməsə də Allahdı. Məsləhət özünündü.

Aradan beş-altı gün keçənnən sonra bunun böyük oğlu dünyasını dəyişir. Böyük oğlu dünyasını dəyişir, diyir, məsləhət özünündü. Aparır, nəsə, bunu dəfn eliyir. Aradan bir üş gün keçənnən sora bunun ortancıl oğlu dünyasını dəyişir. Obşim, qırx gündə bunun üçünü də əlindən alır. Üçünü əlindən alanda, axırıncı oğlunu basdıranda, ata oğula ağlamamalıdı. Nə qədər ki atadı, o, oğula ağlamamalıdı. U, oğula ağlıyanda, kitabın diməsinə görə ha, rəvayətin diməsinə görə, ata oğula ağlıyanda zəhmətə düşən şeydi. Ona görə gərək ağlamıya. Axırıncı oğlunu dəfn eliyəndə bunun gözü yaşarıb bir damcı bunun qəbrinin içinə düşübdü. Nəsə, basdırıb bunu, dəfn eliyif gəlif.

Aradan bir müddət keçənnən sonra Həzrət Cəbrayılı göndərif qurban olduğum ki, get u kişiyə dinən ki, getsin böyük oğlunu çağırsın. Böyük oğlu didi una səs verəjəhdi. Gəlir, deyir, qəbrin başı üsdündə durur. Deyir: «Ay oğul, ay oğul!» Dərinnən səs gəlir. Qəbir yarılır, amma heç kim görünmür. –«Ay oğul, ay oğul, ay filankəs». Dərindən, deyir, hay verir. Qəbir, deyir, yarılır, deyir, özünü görmür. Deyir: «Ay oğul, niyə gej gəlirsən belə, mən səni çağırmıram? Çaarığa niyə belə gej gəlirsən?» Deyir: «Ay ata, vallah, sən çağıranda birinci dəfə eşitdim. Səhər-səhər qəbirstannığın yanınnan cavan oğlan keşdi. O, dedi, burda bir «Əlhəm» surəsi oxudu, bizə bağışdadı, burda yatan ölülərə bağışdadı. Unu, dedi, bölüşürdük, ona görə, dedi, bir az ləng gəldim?» Atası buna dedi ki, ay oğul, bir «Əlhəm» surəsi nədi ki, unnan səə pay düşə?» Dedi: «Ay dədə, Allah qəbul eləsin. Mənim payıma Tur dağı boyda düşdü». İndi Tur dağı nə boydadısa, onu mən bilmirəm. Hə, qəbir yumulur, deyir, bu qayıdır gəlir. Aradan üş gün keçəndən sonra deyir: «Get indi ikinci oğluu çağır». Gedir gənə. İkinci oğlunu çağıranda bu gej gəlir. Gej gələndə deyib: «A oğul, sən niyə belə gej gəlirsən?» Deyir: «Ay ata, dedi, cənnət bağında su suluyuram, axşamdan, dedi, cənnətə su qoymuşam, səhər-səhər cənnət əhli gələndə yola su çıxır, palçıx olur, gələ bilmirlər. O suyu kəsməyə getmişdim, ona görə gej oldu. Yolu sulamax günahdı, deyir. Nə vaxd ki, yolu suvarırsan o günahdı. Gərək yola su buraxmıyasan. Ona görə, deyir, bir az gej gəldim». Deyir: «Hə, lap yaxşı». Deyir: «Yerin rahatdımı?» Deyir: «Hə». Deyir: «Yerin nurnan dolsun» – deyib çıxıb gəlir.

Aradan üş gün keçəndən sora, deyir, bu birisi oğlunu çağırır, balacanı. Balaca oğul, deyir, çox çətin gəlir. Gejdən gej gəlir. Hay verir. Deyir: «Ay oğul, niyə belə gej gəlirsən, səni çağırmıram?» Deyib: «Ay ata, yol-iriz yaman palçıxdı dedi. – Gözünün bir damcı

yaşıdı ha yolu-irizi palçıx eliyən. – Ona görə gəlib çıxammadım, dedi. İki-üş yerdə batdım, deyir, üstüm-başım batdax birtəri gəldim çıxdım». Gərək ata oğula ağlamasın. Oğul ataya nə qədər ağlıyır ağlasın.

## BAĞIŞLANMAZ GÜNAH

Bir az bir tərəfi də biədəb gəlir söhbətin, amma yaxşı söhbətdi. Biri, deer, olur. O qədər pozulur, o qədər düşür çöllərə, ayıb da olsa, gəlib bunun boynuna uşax düşür. Deyir: «Allah, mən qohumdan-aqrabadan, öydən bu uşağı hara eliyim, hara tulluyum bunu?» Uşax gəlib olur. Uşağı aparıb çaxır boşkasına tulluyur. Keşmişdə olub çaxır boşkası. Uşax o çaxır boşkasında əriyib axır, bütün el-aləm o çaxır boşkasınnan aparıb içir. Vaxd gəlib arvad qojalıb əldən düşüb. Gedib oturub bir yolun üstündə, başdıyıb ağlamağa. Gejə-gündüz başdıyıb ağlıyıb, Allaha da dua eliyib. – «Ya rəbbi, sən mənim günahımdan keş. Mən böyük günah tutmuşam». Allah-tala məleykələrə əmr eliyir: «Ay məleykələr, gedin görün u arvad niyə ağlıyır? Onun səsi mənim qulağımı dəng elədi?» Məleykələr gəlir insan donunda, deyir: «Ay qarı nənə, niyə ağlıyırsan, nolubdu?» Deyir: «Mənim dərdim böyükdü. Mənim dərdim sizə diyiləsi dərd döyül». Nəsə, nəkqədər eliyillər, bunnan bir söz öyrənə bilmillər. Gənə qayıdıb gəlillər. Gənə arvad başdıyıb ağlamağa. Gənə başdıyıb Allah-tala: «Məleykələr, gedin, axı onnan bir xəbər alın. Məni burda qoymur durmağa». Nəysə, gənə məleykələr gəlir, gənə arvad buna heş nə demir. Arvad yıxılır, özünü torpağa, daşa-zada, ora-bura sürtür. Ağlıyır, elə əldən gedir. Allah-tala məleykələrə əmr eliyir ki, gedin onu nəyin bahasına olursa olsun, gətirin bura, mənim hüzuruma. Görüm o arvad nə günah iş tutubdu. Çünki qurban olduğuma əyandı. Deyir: «Axı o məni burda qoymur. Gejə-gündüz yalvarır keş mənim günahımdan, keş». Məleykələr gəlir, deer: «Qarı nənə, sən niyə ağlıyırsan, səsin ərşə çıxıbdı?» Deyir: «A bala, mənim dərdim o qədərdi ki, mənim dərdimi nə yer tutmaz, nə göy. Mən çox böyük səyf iş tutmuşam». Deyir: «Niyə?» Deyir: «Nə bilim». Deyir: «Gözüü yum görəh». Bu gözünü yuman kimi qənədin üstünə bunu alıb qalxızır göyə. Deyir: «Biz deyəndə gözüü açarsan». Bilmir ha məleykələr qarını apardığını. Çıxır ərşə, qurban olduğumun hüzuruna. Deer: «İndi aş gözüü». Açır gözünü, görür Allah-talanın hüzurundadı. Deyir: «Payho, mən nə qədər günah iş tutmuşam, Allah-talanın da hüzuruna çıxartdılar məni

bu günahın qabağında». Allah-tala deyib ki, de görüm nağarmısan. Deyib: «Mən vaxd vardı azışdım, yolumdan çıxdım. Səə qurban olum, ya Allah-tala, taxsırımdan keş. Mənim bijdən bir uşağım oldu. Mən u uşağı heş bir yerə qoya bilmədim ki, el görməsin, camaat görməsin. Gətdim, apardım bunu çaxır boşkasına tulladım. U boşkada əridi, axdı, çürüdü, onu bütün maxlux işdi. İndi mənim bu günahımı nə yer tutmur, nə göy tutmur». Deer: «Sən ki, töybə eliyib yola qayıtmısan, sənin bu günahınnan keçirəm. Amma bir ikindi namazının günahınnan keçmijəm».

## CİN GƏLİN

### I mətn

Bir yetim qarıynan, yetim uşağı olur. Bular ana-bala ikisi yaşıyırmış. Qarı bir vaxd görüb bunun oğlunun öylənən vaxtıdı. Bir dənə də cavan qız buların məhləsinə gəlib gedirmiş. Kimdi, haralıdı, nədimi, bilmirmiş arvad. Bir gün bunu tutur. Elə nitqinə gəlirmi, nədimi, bunun üstünə bir iynə sancır. Görür bu qız daa burdan gedəsi olmadı. Deyir: «A bala, icazə verginən səni oğluma alım». Deyir: «Nə deyirəm». Onnan bu gedəni öyləndirir. Gəlir buların bir-iki uşağı olur, nolur. Vaxt olur ki, bu qarı ölür. Əvvəla qarı öydə canını tapşıran kimi arvad-uşax yığılıb belə hərləmə, bu hoppanır sandığın üstündə oturur camaatın içində. Evin gəlinidi axı. Gedə dinmir, deyir: «Görəh bunun axırı nətər olajax». Gedə də bilmirdi, arvad da bilmirdi ki, bu cindi. Sonra meyid namazı qılıllar, qaldırıllar aparmağa, bu əlini əlinə vurub başdıyır gülməyə camaatın içində. Bu gedə birtəri səbrini basır ki, camaatın içində nə diyim buna. Aparıb basdırıllar, dəfn eliyib gəlillər. Üş günnüyünü qutarıllar. Gəlir gedə məhkəməsini qurur. Deer: «Məə di görüm, mənim anamın canı ağzınnan çıxan vaxdı sən niyə hoppanıb sandığın üstündə otdun?» Deyir: «Gəl sən oları mənnən xəbər alma, peşman olarsan». Deyir: «Nətər xəbər almıyım, mən bilməliyəm, ya yox? Meyit eşikdən çıxanda əlini əlinə vurub güldün. Nətər xəbər almayım?» Deyir: «Gəl sən buları mənnən xəbər alma, peşman olajaxsan». Deyir: «Olmaz. Ya diməlisən, ya səni vurub öldürməliyəm». Deyir: «Helə?» Deyir: «Hə». Deyir: «Onda peşmançılığın öz boynaa, mənim yox». Başdıyır deer ki, sənin ananın canı ağzınnan çıxanda öydə dizə kimi qan olur. Una görə mən hoppanıb orda durdum ki, üstüm bulanmasın. Bu bir. İkinci, ananın məhlədən cənazəsi qaldırılıb çıxanda baxdım gördüm ki,

okqədər kasıb olmusuz ki, bu arvad əliynən sədəqə verdiyi bir cındır süpürgə olub, bir tay da çarıx. İkisi də asılıb cənazədən belə. Əlimi əlimə vurub ona güldüm. Demək, bu yetim heş nə tapmıyıb ki, sədəqə versin. Elə güjü çatan o olub. Ona görə də güldüm deer». Oğlan baxır nə arvad var, nə gəlin, heş bir şey. – «Ay dad, ay fəyad». Dad-fəryad yoxdu, siftədən dimişdi axı buna ki, peşman olarsan. Bunnan da rəvayət qutarır.

**II mətn**

Bir rəvayətə görə belə deyirlər ki, guya Əzrayıl çəngəlin çalanda qurşağa qədər qan olur. Hə. Belə bir rəvayət də var ki, bir mömin kadın bir oğlanın yoldaşı imiş. Onun anası rəhmətə gedəndə bu gətirib ayağının altına kətil qoyubdu, hündürdə oturubdu. Unnan sonra buna camaat fikir veribdi. Bu gedən zamanı da dalıynan gülübdü. Yoldaşına xəbər veriblər ki, niyə görə sənin anan öləndə hündürdə oturdu, sandığın üstündə, ya kətilin üstündə? Niyə görə dalıynan güldü? Axşam yoldaşı soruşanda, rəvayətə görə deyirəm ha bunu, bizə çatana görə, niyə belə elədin? Dedi: «Sən bunu məndən soruşma. Əgər məndən soruşarsansa, bir də məni görməzsən». Deyib: «Niyə görə?» Deyib: «Ona görə ki, Əzrayıl çəngəlini çalanda qurşağa qədər qan sıçrıyır. Ona görə mən onu elədim ki, məsəlçün, qan mənə dəyməsin. Bir də ona görə dalıynan güldüm ki, bir belə vardan, döylətdən bir tay çarıx yerib, bir dənə çörək verib, bir süpürgə, bir də bu boyda yamax. Amma deyir siz bilin ki, onu müdafiə elijək u azca verdiyi şey. Ona görə ki, qəbir sıxnağında süpürgə qoymuyajax, bir tərəfdən də çarıx qoymuyajax. Cəhənnəm odu ayax tərəfdən gələndə yamax qoymuyajax, baş tərəfdən gələndə çörək qoymuyajaxdı». Bu rəvayətə görə belə deyilibdi. Amma mənim fikrimə görə, bu təmizliyə görədi. İnsan müəyyən xəstəlikdən öləndə onu təmizləmək lazımdı.

Söyləyicinin mətnə etdiyi əlavəyə görə, gəlin sirri açıldıqdan sonra deyir: «Balalarım sənə əmanət, sən sağ, mən salamat». Sarıköynəyə çevrilib uçub gedir.

## ÖLÜMDƏN QAÇAN GƏNC

**I mətn**

Oğlu olur cavan da, bizim yaşda deyək. Bir günü bu səfərə gedəsi olur. Bu səfərə çıxanda atası deyir ki, oğul, yola çıxırsan ha, yola çıxanda yol yoldaşı olduğun adama fikir verərsən, mən diyən

əməllər onda olmasa, onnan səə yoldaş olmujax. Dedi: «Nədi u?» Dedi: «Əgər sən gedirsənsə, yolda düşüb yana keçəndə u dayanıb səni gözləsə, bilginən ki, onnan səə yoldaş olajax, yoxsa yox». Deyir: «Baş üstə» – deyib çıxır. Bu düşür meşəən içiynən gedir səfərə. Arxadan bir dənə atdı gəlir, ağ atdı, at qan-tər içindədi. Bu atın cilosuun çəkir ki, yavaşdasın, qoy arxadakı çatsın. Çatır, bəli. – «Salam məleyki». – «Əleykimət salam». Bular, deyir, bir xeyli yol gedənnən sonra bu oğlan, deyir, bunu sınıyır. Atın cilosunu çəkir, kişi də saxlıyır atı. Dedi: «Bağışdaginən, bayna keçmək istəyirəm». Gedir, indi yalan-gerçəh, gəlir görür ki, kişi hələ də gözlüyür. Hələ özü bir az gej gəlir. Gənə oturullar atın belinə, bir müddət gedillər, bular nahar eliyəsi olullar. Oturanda oğlan görür ki, çayın qırağıdı. Atdı gedir dəstəmazını alır, namazını qılır, oğlan da həmçinin. Oğlan görür ki, bu kişi əlini çaya salıb balıxları tulluyur qırağa, əlini salır, tulluyur qırağa. Bu oğlan bir az təəccüblənir. Bu oğlan özü də Allah tərəfin adamı olub. Deyir: «Səni, burda sirr var». Balığı ordan götürür, qarnını cırır, qoyur tavaya. Gəlir, əlinin suyu bir damcı tavaya düşən kimi balıxlar tavadan partdıyıb çıxır, qızardılmış balıx, çaya düşür, yarsı qalır. Oğlan daha da təəccüblənir. Deyir: «Əşi, sən nağardın, burda nə qaldı?» Dedi: «Qalana bərəkət».

Nəsə, bular bir müddət gedillər, uje qabağı axşama tərəf gedir, qaş qaralır, dar majal vaxtı, mal naxırdan gələn vaxd olur. Atın cilosuun çəkir, deyir: «Oğul». Deyir: «Hə». Deyir: «Bu atı səə tapşırıram, amma atım vurağandı, atı minmə, xəta yetirər səə. Gözlüyürsən gözlə, gözləmirsən, çıx get». Deyir: «Yox, u nə söhbətdi». Atın cilosuun ağaca keçirib, deyir: «Aşağıda kət var, ora dəyib gəlirəm bir iyirmi dəyqəyə». Deyir: «Oldu». Oğlan saata baxıb, bir on dəyqə, on beş dəyqə keçənnən sonra deyir: «Səni, bu kişi məə dedi ki, ata minmə. Burda nəsə bir sirr var, minəjəm». Nəsə, kişi uzaxlaşan kimi düşür atın belinnən, qalxır bunun atının belinə. Qalxan kimi görür ə, yer kürəsi xəlbir kimidi, qızıl qan içindədi. Baxır görür, həmən bu kişi kətdən kənarda bir ferma var, bu fermaya tərəf gedir. Deyir: «Buna oturub fikir verəjəm, görüm bu nağarır». Gedəndə guya xanın xanımı fermaya mallara baxmağa gəlir. Xanım mallara baxmağa girəndə bu kişi də bayannan girir. Malın hissiyatı var axı, mal hiss eliyir. Deməli, bu bayannan girən kimi kəniz də bayannan, mallar kişini görən kimi başdıyır böyrüşməyə. Böyrüşəndə bu diməli, yüyürüb özünü çatdırır xanıma. Guya ki, bu mallar böyrüşməhdə xanımın ürəyi gedir. Bu oğlan görür ki, xanımın ürəyi getmir, bu kişi

bunun canını aldı. Bu camaat da elə bilir ki, bu malların böyürtüsünə xanımın ürəyi getdi. Görür ki, fermanın ağzında bir it yatıb. Çıxanda əlinin qanını sürtür itin üstünə, təmizliyə-təmizliyə gəlir. Oğlan görür bu kişi yaxınnaşır, düşür atdan, minir öz atına. Yenə salam məleyki, əleykimət salam. Deyir: «Oğul». Deyir: «Hə». Deyir: «Mənim atımı minməmisən?» Deyir: «A kişi, yox». Deyir: «Düzünü de». Deyir: «Yox». Deyir: «Nolar, bu saat soruşaram». Atdan soruşur ki, ay heyvan, bu kişi sənin belinə mindimi? Dedi: «Hə». Dedi: «Axı biz yol yoldaşı idik, niyə yalan danışırsan?» Dedi: «Vallah, qorxdum». Deyir: «Zərəl yoxdu, indi bildin mən kiməm?» Dedi: «Hə». Deyir: «Qayıt get öyəə». Axşam şam yiməyini yiyillər. Obşim, bular ayrılası olullar. Oğlan deyir ki, bəs Əzrayıl sağ olsun, sizdən bir dənə xayişim var, amma məə düzünü de. Deyir: «Mənə diyin görüm, mənim canımı nə vaxt alajahsız?» Çox fikirləşir, deyir: «Vallah, ürəyəə xal salmax istəmirəm, amma çörəh kəsmişik, çörəhdən keçə bilmərəm». Deyir: «Nə vaxd?» Deyir: «Sənin canını toy axşamı alajam». Deyir: «Oldu». Diməli, bular ayrılıllar. Halal-hümmət bular səfərdən ayrılıllar.

Oğlan səfərdən gəlir. Atası buna toy eliyir, axşamdı uje, baş qarışan vaxtı. Bəli. Gəlin özüynən gələndə gətdiyi xonça yoxdu? Baxır görür ki, bir dənə kişi cəhd göstərir ki, u xonçanı alsın. Arvadın biri əlinnən alıb ora qoyur. Gəlin deyir ki, əlinnən niyə alırsız xonçanı? Mən gətməmişəm u xonçanı, verin kişiyə. Kişi xonçanı alır podnuslu-zadlı, çıxır gedir. Bular yatır, durur səhər. Axı qırx gün Allah-talanın hüzuruna gedə bilməz ki? Qırx gün günah saxlıyır. Qırx gün tamam olur, qırx birinci gün görür oğlan Allah-talanın hüzurundadı, Allah-talaya səcdə edir. Obşim, peyğəmbəri çağırır: «Bu nə əhvalatdı? Mən Əzrayılı göndərmişəm bu kişinin canını alsın, uje qırx birinci gündü, bu gəlir məə səcdə edir». Süleyman peyğəmbər gülür. Dedi: «Bəs, Allah-tala sağ olsun, sənin Əzrayılın balışın altında gürzə şəklində yatmışdı. Mən girdim qızın xonçasını aldım, bəs u xonçadakı çörəhdən keşmədim. Həmən ilana yuxu vermişəm, da gejdi». – «Sən get u heyvanın başına vur, ayılsın, çıxsın getsin». Bəli. İndi Allah-talanın qismətidi. Deməк, u qız u xonçanı buna verməsəydi, onun da fərzi tamam olurdu. Allah-talaya qurban olum. İndi u kişi çıxanda əlini itin üstünə niyə sürtdü, bunun da mənası var. Bular mənasız ola bilməz. Yəni bu xanım it adama irast gəlibdi. Ona görə də Allah-tala onun ömrünü aldı. Qanını onun üstünə sildi ki, yəni it adamdan sənin qanını aldım. Bunu deməк istəyirdi.

*Meçitdə imam xeyratı veriləndə eşidib.*

## II mətn

Arvadına deyib ki, ay arvad, məni bu kasıbçılıx öldürür. Məə bir az düz-çörəh rahla, mən başımı götürüb gedirəm. Nə qazanıb gələrəm, nə də yolda-irizdə ölərəm. O vaxtı heybə deyirdilər, sonra xurcun deyirdilər, nəsə, bir az duz-çörəh hazırlayıb gedir. O qədər gedir, yorulub oturubmuş. Görüb ki, bir oğlan gəldi. Bir qəşəng oğlan gəlib salam verib buna, oturub. Deyib: «A qoja, hara belə?» Deyir: «Nə bilim, a bala, gedirəm da». – «Otur çörəh yiyəh». Oturullar, çörəh yiyillər, deyir: «Ay oğul, sən qəşənh, gözəl oğlansan, belə hara gedirsən? Mənim dərdim-sərim budu, gedirəm, sən hara gedirsən?» Deyir: «Ay baba, mən Əzrayılam. Mən can almağa gedirəm». Belə buna baxıb, bu qorxur. Deyir: «Yox, hələ sənin vaxdın döyül. Gəl səni bir yerə aparajam». Bu gedib. Bir az gediblər, görüb bir dağın döşündə bir kaha var. Bu kahanın bir qapısı var. Açıb giriblər içəri. Görür burda, ay allah, nə boyda yerdi, şamlar yanır. Bəzisi gur çırax saçır, bəzisi yanır-sönür, bəzisi zəifliyir. Deyir ki, bura haradı? Deyir: «Bura camaatın bəxtidi». Deyir: «U gur yanan şamı görürsən?» Buna bir şam görsədir. Deyir: «U gözəl bir oğlandı, şamı da özu kimi, özü də şamı kimi, heylə bir yaxşı oğlandı. Gedib onun canını alajam. Deyir: «Nətər qıyırsan?» Deyir: «Əmr heylədi». Deyir: «Yananı-sönəni görürsən? Bax, onun bu dəyqə gedib canını alajam. Vaxdıdı. U saralanın da vaxdı yaxınnaşıb». U şamlardan başdıyıb buna nağıl söyləməyə. Götürüb buna deyibdi ki, səə and verirəm duz-çörəyə, mənim canımı alanda məə deyərsən. Deyir: «Burda dur». Durub. Hoppanıb ayrı gedincə, bəri keçincə çığırtı, ərəsət qopub. – «Ə kişi, sən nağardın?» Deyir: «Getdim u oğlanın canını aldım». – «Olmadı axı, bu cür oğlana adam qıyar?» Deyir: «Onun baxtı heylədi». Bir az gediblər, görüb bizim məhlə kimi çəpərli-məpərli bir məhlədi. Deyir: «Burda dur, gəlirəm». Keçir, orda bir xəstə var imiş çoxdan, bunun canını alıb. Bayax yanıb-keçən şam idi. Bunun canını alıb gəldi. Görüb biri ağladı, biri çığırdı. Qojalığın axırı budu da.

Nəsə, belə. Deyib ki, sənin canıı beş ildən sonra gəlib alajam. Gəlir çox fikirli. Axı bunu da gərəh adam bilməsin. Deyir: «Daa qayıdım, bu beş ili heç olmasa ailəmin yanında olum». Vaxd tamam olub, görüb Əzrayıl gəlir. Tanıyır da bunu. Deyir: «Gəlmisən canımı

almağa? Səə and verirəm u duz-çörəh, mənim canımı alma». Deyir: «Mənim boynuma çox böyük minnət qoydun. Bir kəlmə-şəhadət gət görüm». Deyir: «Heç ömrümdə bilmirəm mən u kəlmə-şəhadət nə olan şeydi?» Deyir: «Denən la ilahə illallah, Məhəmmədi rəsulallah». Deyir: «La ilahə illallahı deyəjəm, Məhəmmədnən Rəsulu demijəm». Deyir: «Niyə?» Deyir: «O vaxdı mənim danamı oğurlamışdı Məhəmmədnən Rəsul». Deyir: «A kişi, deginən». Deyir: «Yox, demijəm. Get bir azdan gələrsən. Məə möhlət ver, kasıbam». Deyir: «Yaxşı». Gedir.

Bir günü bu kişi də günortadan sonra namaz qılırmış, bu gəlib, buna görükmür da. Namazı qılıb, duanı verib, kəlmeyi-şəhadətini gətirəndə yaxalıyır bunu. Deyir: «Hə, vaxd tamam oldu».

*Söyləyici nağılı atasından eşidib.*

### III mətn

Deyib: «Ay oğul, apar bu borcumu ver, ölüm yatağındayam, öləرəm». Onda da gərəh piyada gedəydi. Bizim kimi maşın yoxuydu, dura minə, gedə. Bu bir gündə gedib gələ bilməz. Qapıya çıxan kimi görüb qapıda ağ geyimli, ağ atdı bir kişi var. Buna ayandı bu hara gedir. Deyir: «Ay oğul, hara gedirsən?» Deyir, misalçun, filan yerə gedirəm, işim var. Deyir: «Ot ata, mən də ora gedirəm». Oturur ata, aparır salır bu adamın qapısında. Gedir görür bu da qıravatdadı. Düşür, düşəndə buna deyir ki, get o da yataxdadı. Onun qıravatını, deer, düz qoymuyublar, onun yatağını çöyür. Özü də nə qədər eləsələr dayanma, qayıt gəl. Deyir: «Baş üstə». Gedir qıravatı çöyürür, pulunu da verir, qayıdır. Bu darvazadan çıxanda görür ağlaş qopdu. Bu kişi keçindi. Bu istəyir qayıda, bu atdı deyir ki, qayıtma, gəl bura. Demək bu Azrayıldı. Getdi onun canını aldı. Otdu atın üstünə bular, deer, gəldilər. Gələndə bir meşənin qırağında düşdü. Dedi: «Burda dayan, gəlirəm». Bunun atının belinə çıxdı, baxdı gördü ki, dərənin dalına keşdi. Baxdı gördü ki, iki çoban burda qoyun güdür. Biri-birini vurdu öldürdü. Çobanın biri öldü. Qayıtdı gəldi. Gənə bunu götürdü ata, gəldi. Bu gəlib bunu öz darvazasında düşürəndə bu oğlan tutdu bunun çuxasınnan, dedi: «Səni u bir Allaha ant verirəm, de görüm sən kimsən?» Dedi ki, mən Azrayılam. Dedi: «Onda de görüm mənim ömrüm nə vaxt tamamdı». Əl çəkmədi bu. Dedi: «Sənin ömrün toy günü tamamdı. Gəlini gətirib yatağına girən kimi vaxtın tamamdı». – «Ay aman, ay dad, helə şey olmaz». Dedi: «Da sən xəbər aldın, mən dedim». Gəldi.

Bala, bu, nəhqədər eliyillər öylənmir. Atası öldü, götürüldü, noldu, anası bunu öyləndirə bilmir. Bir gün aşdı dərdini dedi. Ana dedi: «Ay bala, bənd olma, kimsə kimdi, yol ötəndi, nədi?» Nəysə, bunu öyləndirillər. İndi qorxusunnan gələ bilmir qızın yanına. Pencərədən baxır. Neysə, qız bunu çağırdı: «Ay oğlan, belə eliyəjəydin bə məni niyə alırdın?» Gəldi dərdini qıza da danışdı. Qız da dedi: «Əşi, kimsə haranın avarasıdı, yol ötənidi». Elə ikisi bir yerdə idi, pəncərədən baxdı, dedi: «Toba gəlir, ağ atdı kişi gəlir». Dedi: «Zərəl yoxdu». Həqiqi, qız da baxdı gördü gəlir. Qız dedi ki, səni bir Allaha ant verirəm, onun canını alma. Əvvəl mənim canımı al, sonra onun canını al. Özünü verdi qabağa. Axı Allaha ayandı. Allah-taladan ona vəh gəldi ki, işin yoxdu olarnan. Qoy onnar yaşasın. Bax, bu da gerçəhdi. Çünki bunnar «Quran» kitabındadı.

## ANA ÖVLADINI ƏZRAYILDAN QAÇIRIR
### I mətn

Uşaxları olur, ölür, olur, ölür. Nəysə, deyir ki, ay Allah, mən nağarım? Mən başıma nə daş salım? Mənim balalarım olur, ölur. Nəysə, uşağı götürür, çıxır ayrı bir vilayətə gedir ki, Azreyil gəlib mənim oğlumu tapmasın. Nəysə, gedir, məsələn, bu kətdən gedir başqa kəndə qonax qalır. Bir uçux daxmaya irast gəlir. Bu uçux daxmada qonax qalır. Deer: «A bajı, Allah xətrinə, məni bu gejə qonax saxla». Deyir: «Allaha da qurban olum, qonağına da. Saxlıyaram səni Allah qonağı, gəl». Gəlir arvad, oturur. Deyir ki, səni nə vadar eliyir bu uşağı da götürüb düşmüsən çöllərə. Deyir ki, mənim balalarımın hamısı qırılır. Onunçən bunu götürüb Azreyilin əlinnən qaşmışam, bəlkə Azreyil mənim balamı tapmadı. Deyir: «A bala, xeyir gəlsin, bu Azreyilin öyüdü, mən Azreyilin anasıyam. Azreyil can almağa gedib, indi bax bu saat gələjəh». Deyir: «Sən öyü dağılanın canı, bilirsən nə var?» Deyir: «Səə and verirəm sənnən kəsdiyim bu duz-çörəyə. – Duz-çörəh unçən müqəddəsdi ha. – Oğlun gələndə dinən onun canını almasın. Unu mənə bağışdasın». Deyir: «Yaxşı». Oğlu gəlir çöldən, görür ki, qonaxları var. Çağırır: «Ana, qonağımız kimdi?» Deyir: «Qonağımız belə, sənin əlinnən balasını götürüb qaçıbdı. Balası olduxca ölübdü». Deyir: «Ana, buyünnəri onun vaxtı tamamdı. Onun canını almalıyam. İndi onun canını almağa gedəjəydim. Nağarım?» Deyir: «Bilirsən nə var?» Deyir: «Yox». Deyir: «O mənə duz-çörəyə and veribdi. Mən də səə bu döşümdən verdiyim südə and verirəm. Bu südümə and verirəm, uun

canın alma, yazıxdı». Deyir: «Sabannarı gedirəm Allahnan kəlmələşməyə. Görüm Allah məə nə diyəjəh». Gedir Allahnan kəlmələşir. Deyir: «Ya rəbbi, səə ayandı. Səə artıxdı mənim diməyim. Mənim əlimnən balasını götürüb qaçıb, gəlib mənim öyümdə qonax olub. Anama duz-çörəyə and verib, anam da məə südünə and verdi. Deer, süd də müqəddəsdi, duz-çörəh də müqəddəsdi». – «Sən bilirsən nə var? Anana dinən ki, sabannarı ona bir xamır yoğurub versin, bir yuxa salsın. U uşağı elə eliyəjəm, uşax oda-yaloya dönəjəh. Çünki onun vaxdıdı, onun canı alınmalıdı. Onda, deyir, o uşağı özü öldürəjəh. Nə sənnən görmüjəh, nə mənnən». Deer: «Yaxşı». Sabannarı deer ki, arvada: «Məə bir az yuxa salarsanmı?» – Azreyilin anası deer. – «Niyə salmıram?» Xamırı yoğurur, verir əlinə. Uşağı Allah-tala elə eliyir uşax lap oda-yaloya dönür. Xamırı götürür ora tökür, xamırı götürür bura tökür. Axır bu təhnədə xamırdan qalmır yuxa salmağa. Arvad: «A bala, dəymə, a bala diş dur». Oxleyi elə vurur, oxley gedib düşür bax burdan (gicgahını göstərir – top.). Uşağın orda canı çıxır. Uşax ölür, arvad özünü vurub öldürür orda. – «Ay öyü dağılanın canı, mən balamı Azreyilin əlinnən götdüm qaşdım, bura gəldim. Burda da özüm öz əlimnən öz balamı öldürdüm». Azreyil gedib Allahın yanına. Deyir: «Səə dedimmi unu elə elijəm ki, nə sənnən görmüjəh, nə mənnən. Onun vaxdı tamamdı, ölməlidi u». Unnan sonra arvad götürür uşağı, ağlıya-ağlıya gəlir öz öyünə. Buna diyirlər: «Ay arvad, nağardın, noldu?» Dedi: «Nə Allahın xəbəri yoxdu, nə də Azreyilin. Özüm öz əlimnən öz balamı öldürmüşəm». Bu da belə.

*Atasından eşidib.*

**II mətn**

Onnar üş qardaşdıllar. İsrafil, onnan sonra İsrayıl, bir də Azreyil. Hansına deyirsə, deyib biz yox. Biz can almarıx. Azreyilə deyib qurban olduğum Tarı, deyib: «Vallah, mən də qorxuram can almağa. Dağın üstünə gedirəm, dağ titriyir. Mən nətəər gedim?» Deyib: «Mən elə eliyəjəm ki, heş səndə görmüjəklər». Deyib: «Nətəəri?» Deyib: «Sənin yanına adam göndərəjəm, onun uşaxlarının canını almısan, bir dənə uşağı qalıbdı. Unu götürüb gedəjək yanaa. Onda özün görəjən nətəər olur məsələ». Arvad çağanı götürüb çıxıb gedib də. Geef, geef, bir dənə qoja arvad çıxıb bunun qabağına. Arvad da heş demə Azreyilin anasıymış. Deyib: «Ay xala, qonax eliyərsənmi?» Deyib: «Nə deyirəm?»

Qonax eliyib, gejə qalıblar. Azreyil gəlib. Deyib: «Ana, qonax kimdi?» Deyib: «Nə bilim, bir Allah bəndəsidi da. Uşağını götürüb Azreyilin əlindən qaçıbdı. Deyir ki, Azreyilin əlindən qaçım uşağımın canını Azreyil əlimdən almasın». Deyib: «Yaxşı. Amma sabah günortaya onun fərzi tamamdı, uşağın». Deyib: «Bala, ordan bura gəlibdi, gör sən nağarırsan?» Deyib: «Mən nağarım, Allahın əmridi». Sabannarı durub ayağa deyib: «Bilirsən nə var?» Deyib: «Yox». Deyib: «Xamır yoğurursan, verirsən arvada. Arvad yuxa salır. Gedə gəlib yuxanın biriin alıb yijək, ikisini alıb yijək, üçünü alıb cırıxlıyıb ora-bura tulluyajax. Axırda arvad özü oxleylə gedəni vurajax ki, a bala, eləmə da, xalxındı, bizim döylü axı, ay oğul. Vuranda uşax öləjək. Unda mən onun canın alajam». Bax heylə alajam canını.

## ƏBƏDİ HƏYAT AXTARAN GƏNC

Bir qadın olur, bunun uşağı olur. Uşax da körpə olur. U çıxır küçəyə oynuyur. Axşam olanda u uşax yüürürmüş ki, atam gəldi, bu uşax yüürürmüş ki, atam gəldi. Bu uşax qalırmış tək. Uşaxlar dağılışırmış. Bu uşağın da atası olmurmuş. Bu uşax uje getdikcə başdıyır qanmağa da. Bir gün deyir: «Ay ana». Deyir: «Hə». Deyir: «Axşam olanda uşaxlar yüürür ki, atam gəldi, atam gəldi. Bu ata nə olan şeydi?» Deyir: «Oğul, səən atan rəhmətə gedibdi sən körpə olanda». Deyir: «Rəhmətə getmək nədi?» Deyir: «Dünyasını dəyişir, yanı ölür». Deyir ki, ölüm nə olan şeydi? Uşaxdı da, qanmır, qandırmır. Başdıyır uşağa bunu təkmilləşdirməyə ki, ölüm budu, həyat budu, budu. Uşax böyüyür, həddi-buluğa çatır. On altı, on yeddi yaşına çatır. Deyir: «Ay ana». Deyir: «Hə». Deyir: «Yadındadı o vaxtı mən bir sual vermişdim ki, ölüm nə olan şeydi, filan? İndi mən özümə elə bir fikir seşmişəm ki, mən gedib elə bir dünyada yaşıjam ki, orda ölüm olmasın». Başdıyır arvad buna gülməyə. Deyir: «A oğul, səən başa hava gəlib. Elə bir yer yoxdu ki, orda ölüm olmasın». Deyir: «Yox, can ana, məə icazə ver, mən gedib axtarım». Ana baxır, deyir: «Tək uşaxdı, bir oğlum var, mən bunu hara göndərim? Ömrü-günü yoldairizdə keşcək bunun. Mən də ölsəm götürən olmujaxdı». Nəsə, görür ki, yox ey, uşağı ipə-ilmağa gətirə bilmir. Uşax bunnan halallıx istəyir ki, mən gedirəm. Bir gün lap dirənir. Deyir: «Yaxşı». Uşağın qırx günnük azuqəsini yığır bir çantaya. Bəli, uşax halal-hümmət eliyir, düzəlir yola. Hası vilayətə gedirsə, deyirlər: «Nə axtarırsan?» Deyir: «Belə-belə». Buna gülürlər. Deyirlər: «Yanı elə bir yer var?» Gülürlər

da. İnamsız bir şey olur. Nəsə, uşax elə fərz elə ki, dünyanın doxsan faizini gəzir. Elə bir yer tapmır ki, ölüm olmasın. Bu minvalnan gəlir dirənir bir dağa. Çıxır dağın belinə, görür ki, ilahi-pərvərdigara, dağda bir maral otduyur, buynuzları az qala göyə dirənir. Gəlir bunun yanına çatanda maral dilə gəlir. Deyir: «Ay uşax, sən nə axtarırsan bu dağda?» Deyir ki, bəs belə-belə. Allaha qurban olum, bəs mən çıxmışam ki, ölüm olmuyan yerə gedim. Uşax marala ətraflı danışır da atası haqqında. Maral deyir ki, bilirsən nə var? Deyir: «Yox». Deyir: «Mənim buynuzumu görürsən?» Deyir: «Hə». Deyib: «Mən buynuzlarım göyə dirənəndə öləjəm. İstəyirsənsə gəl qal mənnən». Uşax bir göyə baxır, bir buynuza baxır. Buynuz hədindən artıx uzun olur. Uşağa o ömür qısa gəlir. Deyir: «Yox». Deyir: «Unda get tap. Bir az gedir, görür ki, bir dənə dağ kəli sıldırım qayaan başında otduyur. Bunun yanına çatanda kəl dilə gəlir. Deyir: «Ay uşax, bəs hara?» Deyir, belə-belə. Deyir: «Əyil qayaya bax, aşağı». Uşax qayaya baxır, gözləri qaralır. Deyir: «Bu qayanı mən qığnan doldurunca ömrüm var. Gəl qal mənnən». Uşax bir sıldırım qayaya baxır, bir kələ baxır, deyir: «Yox». Uşağa az gəlir bu ömür. Deyir: «Yox». Deyir: «Unda get». Oğlan okqədər gəzir. Bir axşamçağı gün əyilən vaxtı gəlir bir dənizin sahilinə çıxır. Dənizin sahilinə çıxanda görür ilahi, dənizin kənarında yerdə nəsə parıldıyır. Günün şoğu düşüb, bunun gözünü aparır. Uşax yaxınnaşır, qumu ayna-bayna eliyir, görür yox, bura nəsə böyük bir yerdi. Obşim, eşir ora-buranı, burda bir qapı tapır. İçəri girən kimi qapı bağlanır. Girir içəri, görür ə, bura cənnətin yedinci qatıdı. Gül gülü çağırır, bülbül bülbülü, çiçəklik. Bir az oturur, görür bülbürlər danışır bir-biriynən, gülnən. Bir vaxd oturanda görür ki, bir on beş, on altı yaşında bir qız uşağı gəldi bunun yanına. Bəs salam, salam. Obşim, hak-hesabı oturur bu qıza başdıyır nağıl eləməyə, başına gələnnəri. Deyir ki, buralar nətəərdi, xoşaa gəlirmi? Qız soruşur. Deyir: «Hə». Obşim, bu qıza bu oğlanın gözü düşür. Deyir: «Mən sənnən o vaxtı razılaşa bilərəm ki, həyat yoldaşım olmax üçün, sən burdan heç vaxd çıxmıyasan. Elə nə qədər ömrümüz var, burda qalax, mənim yanımda». Qız o qədər gözəl olur ki, oğlanın ağlı başınnan çıxır, razılıx verir. Oğlan da hər gün güzgüyə baxır, görür elə həmən adamdı. Bir gün oğlana darıxma gəlir. Qız görür ki, oğlan nəsə sıxılır. Deyir: «Nolub, niyə sıxıntılı keçirirsən ürəyii?» Deyir, bəs hal-əhvalat belə. Anam yadıma düşübdü. Anam deyən kimi qız başdıyıb buna gülməyə. Deyib: «Nolub?» Deyir: «Sən bilsən ki, burda nə qədər yaşıyırsan, sən heç onun adını çəkməzsən». Deyir: «U nə deyən

sözdü?» Oğlan elə bilir ki, üç ildi, dörd ildi da bura düşdüyü. Belə gəlib buna. Deyib: «Yox ey, sən məni aldadırsan. Mənim bura gəldiyim iki-üç il olar uzağı. Mən gedib anamı görməliyəm ki, baxım görüm anam nətəər yaşıyır». Deyir: «Mən etiraz eləmirəm. Bu saat nəinki sənin anan, bəlkə u yaşadığın yer-yurd tamam dəyişilibdi. Sən oranı tanımadın heç». Deyib: «Nə qədər keçibdi?» Deyir: «Düz min il keçibdi». Oğlan inanmıyıb, gülüb buna. – «Nətəər min il?» Nağayrıb oğlanı saxlıyammıyıb. Deyib: «Gedirsən?» Deyib: «Hə». Deyib: «Ala bu bir dənə almadı, qoyarsan cibəə. Bura qayıtmax istəsən almadan yimə, yox, qayıtmax istəməsən yiyərsən». Deyir: «Oldu». Oğlan oradan çıxıb gəlir. Görür ki, dağ kəli sıldırım qayanı doldurub, təzəcəliknən ölübdü. Əlini vurur, görür ki, bədəni istidi hələ. Ordan gəlib maralın yanına. Görüb ki, maralın da buynuzu dirənib göyə, təzəcəliknən dünyasını dəyişibdi. Deyir: «Hə, min il keçibdi». Deyir uje artıx gejdi. Mən çıxmışam burdan. Mən getməliyəm öz yurduma. Gəlib görür ki, nə yurd, nə filan. Lap yaşlılardan soruşur ki, bəs hal-əhvalat belə-belə. Baxıblar ki, ə, on altı, on yeddi yaşında oğlan uşağıdı, bu min ilin söhbətini eliyir. Nəsə, qojalar yığılır ki, babamın babasının ulu babasınnan eşitmişəm ki, burda belə-belə bir qadın yaşıyıb kimlərdənsə. Bu oğlanın u saat halı dəyişilir. Deyib: «Artıx gejdi mənim ora qayıtmağım. Həqiqətən də, insan dünyaya gəlibdi, bir dəfə də köşməlidi» – deyib həmin almanı çıxardıb bir dişdəm alan kimi beli bükülüb, sakqalı ağappax düşüb göbəyinə. Baxıblar, görüblər oğlan bir saniyənin içində dəyişdi tamam. Tez bunu camaat götürüblər əllərinə, aparıb bir yaxşı yerə. Bir az danışdırannan sonra bir dişdəm də götürüb. Bir dişdəm də götürən kimi dünyasını dəyişibdi.

## ÇOBANIN ÇARIXLI-PATAVALI NAMAZ QILMASI

### I mətn

Xıdır Nəbi dəryanın üzüynən üzə-üzə gəlir. Çoban da, deyir, namaz qılırmış. Çoban torpağın üstündə namaz qıldığı yerdə gəlib çıxıb bura. Görübdü ki, çoban heş nə bilmir. Bunun suraları budu: «Ağ qoyun, qara qoyun, ağ qoyun, qara qoyun». Bunun suraları budu. Belə deyib namaz qılır. Deyir: «A çoban, xayiş eliyirəm saxla». Diib: «A oğul, belə niyə qılırsan namazı?» Deyir: «Nağarım, Allahın yanında günahkaram. Sura bilmirəm, nağarım, savadım yoxdu. Mən çobanam, u qoyunnarın şeyinə deyirəm ağ qoyun, qara qoyun. Gördüyüm də bulardı. Bunnan da namaz qılıram mən».

Deyir: «Gəl mən səə sura öyrədim, sən bunnan qılginən». Deyibdi kəlmə şəhadəti gət görüm. La ilahə illallax, əşədi ənnə əbdülü rəsullallah. Belə deyəndən sonra deyibdi ki, bax namazı belə qılarsan. Qulfallah, əhədallah, üşsəməd, vəmyelid, vələmyuləd, vələmi-yəkullahi küffən həd. Bu suranı örgən. Bir-iki dəfə oxuyubdu bunun yanında, bu da oxuyub örgənib. Bu örgətdiyi suraynan namaza başdıyanda bu qurban olduğum başdıyır dəryaya tullanıb üzə-üzə getməyə. Üzə-üzə gedəndə birdən yadınnan çıxıb örgətdiyi. Demək, Allah-talanın gör nə yaxşı bəndəsidi ki, Allah buna yol verib dəryadan. Una verdiyi kimi buna da yol açıb, üzə-üzə gedib çatıb buna. Deyib: «Ya baba, dayanginən, mənim yadımnan çıxdı sənin örgətdiyin». Deyib: «Get özün bildiyin kimi qıl». Da indi bu nə qədər Allahın yaxşı bəndəsidi. Gəlib özü bildiyi kimi ağ qoyun, qara qoyun deyib namaz qılmağa.

### II mətn

Deyir, bir dənə çoban olur. Çoban namaz qılırmış. Çarıxlı-patavalı namaz qılırmış. Qırx il başını yerə döyən, ibadət eliyən molla da deyir, Məkkəyə gedirmiş Nuhun gəmisiynən. Gedəndə deyib ki, – gəminin qırağında dayanıb gözlüyürmüş, can qardaş, məə öyrət görüm namazı nətər qılıllar. Mən, deyir, çarıxlı-patavalı namaz qılıram. Dəstəmazsız-zadsız ha. Elə belə, deyir, torpağa əlimi belə vururam, belə eliyib namaz qılıram. Dağda qoyunun yanında qılıram namazı». Deyib ki, yox, ləzgi qardaş, heylə olmaz. Namazın surələrini öyrədir buna. Nəhqədər öyrədibdi. Görüb ki, gəmi xeylax gedibdi irəli. Qırx il ibadət eliyən ha. Görüb ki, çoban yüyürür: «Can qardaş, dayan, bir kəlməsi yadımdan çıxdı. Can qardaş, dayan, bir kəlməsi yadımdan çıxdı». Belə çöyrüküb baxıb, deyir, bu qırx il ibadət eliyən, dənizdən toz qopur. Yol açılıb, deyir, suyun içinnən. Bu quru tozun içinnən çoban gəminin dalıycan yürür. Elə əliynən belə eliyib ki (söyləyici əli ilə geri qayıtmaq işarəsi verir – top.), qardaş, get, özün bildiyin hamısınnan yaxşıdı. Deyir, baxıb, baxıb bu Məkkəyə gedən əfəndi kişi, deyib: «Paho, doğrudan da, bu mənnən çox-çox yuxarı mərtəbədədi Allahın yanında. – «Get, – deyib, – qardaş, özün bildiyin kimi qıl. Özün bildiyin hamısınnan yaxşıdı».

## PUL İNSANI DƏYİŞDİRİR

Demək, bir dənə oğlan olur, bunun ata-anası olmur. Körpə olarkən ata-anası vəfat edir. Bu oğlan qalır qonşunun ümidinə. Demək, bu oğlan gündə meşəyə gedirmiş, bir şələ odunu neçə şahıya satarmış, gündəlik çörək pulunu çıxararmış. Nəsə, bu qonşunun arvadı bir gün kişisinə gileylənir: Deyir: «A kişi». Deyir: «Nolub, arvad». Deyir: «Bayaxdan bu uşax uşax idi, indi həddi-buluğa çatıb. Bunun alt paltarını yumax uyğun gəlməz mənə. Oğlan uşağıdı, qız uşağı olsaydı zərəl yoxdu». Kişi deyir ki, nə məsləhət görürsən? Arvad deyir ki, gəl, buna bir havadar tapax». Bular fikirrəşillər ki, buna kimi alax, kimi almıyax. Kişi diyir ki, kəndin başında bir naxırçı var, doqquz dənə də qızı var. Birini alax gətirək onnardan yiyənnərdən biri azalsın, həm də paltarını yuyar. Bu minvalnan bunu evləndirillər. Bayaxdan bir özü idisə, indi yoldaşı da artıb. Oğlan bayaxdan bir işdeyirdisə, indi iki şələ aparır. Bir gün yornux gəlir meşədən bu yatır. Yoldaşı da gözəl insan olur ha, belə əzab görmüş, çətinlih görmüş. Evə girən kimi bunun əl-ayağını yuyurmuş ki, yorğunluğu çıxsın. Atalar misalı var, kimin əvvəli, kimin axırı. Bu həqiqətdi. Gəlir oğlan yatır, yatanda Allah-taladan nida gəlir bunun hüzuruna. Diyir: «Ay uşax». Deyir: «Hə». Deyir ki, insanın bir əvvəli, bir axırı. İndi gəlmişəm onu səndən soruşmağa. Görürəm çox əziyyət çəkirsən. Sənə var-dövləti bəri başdan verim, yoxsa sora?» Belə deyəndə bu diksinif ayılır. Yoldaşı diir: «Noldu?» Diir ki, ay arvad, hal-qəziyyə belə-belə. Mən ona nə cavab verim, diyif üç günnən sora gələjəm. Deyir: «Gələndə diginən nə verirsə bəri başdan versin». Üç günün tamamında həmən bu kişi gəlir girir bunun yuxusuna. Diir: «Saa qurban olum, mən bəri başdan isdiyirəm». – «Get innən belə sənin var-dövlətin başınnan aşacax. Amma əlii heç kimnən qısırqalamaginən. Kim üstəə nə təmənnaya gəlsə, boş qaytarmaginən.

Vaxd gəlir, bu oğlan elə varranır ki, camaat bunun yadınnan çıxır. Diir: «Get, əlli il də sənə ömür verirəm». Nəsə bu oğlanın yadınnan çıxır. Hərrənir, fırranır bu əlli il gəlir keçir. Əlli ilin tamamında bu kişi gəlir durur bunun yanında. Deyir ki, ay bəndə, narazılığın yoxdu ki? Deyir: «Yox». Deyir: «Amma bir səhvin var». Deyir: «Nədi?» Deyir: «Axı mən sənə demişdim ki, üsdünə kim gəlsə qısırqalanma». Deyir: «Allah-tala sağ olsun, var-döylətə başım o qədər qarışdı ki, başımı itirmişəm». Deyir: «Bilirsən nə var? Fərqi yoxdu sən elədin, sənin arvadın elədi. Sənin başın qarışıx oluf, amma sənin arvadın sənin qazandığın pulların yüzə altmış faizini

paylayıb. Get, sən ömürrük varrı olajaxsan, ömrün sonuna qədər yaşıjaxsan o arvadının sayəsində». İndi Allah-talaya qurban olum, rəvayətdərə baxanda görürsən ki, uyğun gəlir. İndi onun yarısı yalan olsa da, elə qanıram ki, otuz faizi, otuz beş faizi həqiqətdi.

## İNSAN NƏFSİ

Bir kəndin mollası yox idi. Hampaya didilər ki, hər kəndin bir hampası olur da, bir molla tap, filan. Nəsə, fikirrəşdilər, bir molla tapıf gətdi, diir. Gördülər bu subaydı. Camaat dedi ki, bunu öyləndirəh da. Orda yetişmiş, ötüşmüş bir qız var idi. Bunu buna verəsi oldular. Didilər: «Ə, bir molla gətirmişih, səni ona ərə veririk». – «Əşi, gəlsin bir baxım görüm, bəlkə adam döylü». Gəldi, diyir. Didi: «Mollasan?» Didi: «Hə». Didi: «Səə bir sual versəm, cavab verjəhsən?» Didi: «Bir di görüm dünyada ən murdar şey nədi?» Nə qədər murdar şey var sanadı, didi: «Get öyrən, gəl». Molla düşdü, bura-ora getdi, diir. Bir çoban, diir, qoyun güdürdü. İkindi vaxdı idi. – «Qardaş, çörəyin var?» Diir: «Ordadı, al yi». Aldı yidi. Molla çörəyi yiyənnən sonra çoban gördü bu kədərlidi. Didi: «Əşi, nağarmax isdiyirsən?» Didi: «Getməh isdiyirəm». Diir: «Qabağı axşama gedir, hara gedirsən? Beyjə qal mənim yanımda, sabannarı hara gedirsən, get». Gəldilər bir alaçığa. Didi: «Çoban qardaş, işığın yoxdu?» Didi: «Darıxma, olajax». Qoyunu-zadı irahladı, diir, girdi içəri, bir daş aldı keçənin arasınnan, qoydu, lampışka kimi yandı. Molla baxdı, baxdı, didi: «Çoban qardaş, bunu mənə satsana». Didi: «A molla dayı, mən saa bunu nətər satım? Mənim ləmpəm yox, işığım yox, nöyütüm yox». Didi: «Olmaz. Neçəyə satırsansa, bunu məə satmalısan». Didi ki, bunu mən səə sataram. Sabannarı itlərə yal tökəjəm, bax ora, u qaba. U yaldan u itlərnən işsən, mən saa verərəm. Didi, bəlkə kişinin ağlı başına gələ da. Sabahı, diyir, bu itlərə yal tökəndə, diyir: «Qardaş, indi mən u yaldan işsəm, itlər məni tutmaz ki?» Didi: «Yox». Əyildi ki, yal işsin itnən, didi: «Dur ayağa sən, get, kim soruşsa ki, dünyada ən murdar şey nədi, dinən nəfs». Ordan diyir qayıtdı getdi gəlinin yanına. Didi: «Öyrənmisən?» Didi: «Hə». Didi: «Dünyada ən murdar şey nədi?» Didi: «Nəfs». Didi: «Hə, tapmısan».

## SƏN DƏMİRİNİ DÖY

Uşağın biri oturub yumuşax torpağın üstündə, paçasının arasına torpağı yığıb oynuyur. Bir dəmirçi də orda dəmir döyür, işdiyir. Dəmirçi də baxır: «Uşağın axmaxlığına bax ey, torpağı yığıb qujağına, dağ qayırıb oynuyur, toza bulanır». Bu uşağı anası çağırır, gedir. Deyir: «Get, dəmirçidən od al, gətir, ojax qalıjam». Gəlir deyir ki, dayı, oddan ver, anam ojax qalıjaxdı. Deyir: «Bala, verim. Odu nədə aparjaxsan?» Uşax heş bir şey aparmıyıb odu gətirməyə. Uşax ora-bura baxır, heş bir şey tapmır. Əlini belə tutub vurur torpağa. Ovcunun içinə torpax dolur. Uje yandırmıjax da. Aparır odu anasına verir, gəlir gənə oturur, torpağı yığır paçasının arasına, başdıyır oynamağa. Dəmirçi bunun hərəkətinə valeh olur. Bu deyir: «Ə, mən bayax deyirdim bu uşax çox axmax uşaxdı, paçasının arasına torpağı yığıb özünü toza-zada buluyur. Sən bundakı dərrakəyə bax. Dedim nədə aparjaxsan... Doğrudan da, bu heş kimin ağlına gəlməz da. Bu bu vəziyyətnən apardı. Ovcunun içinə torpağı götdü, apardı anasına verdi». Dəmirçi dözmür, deyir: «A bala, sən dur ayağa, u uşağa qoşulma. Sən ağıllı uşaxsan. Sən axı özüü niyə torpağa buluyursan?» Deyir: «Dayı, sən dəmiri döy. Mən uşaxlıx dövrümü keçirirəm».

## HAZIRCAVAB UŞAQ

Haman əhvalatın dalıynan gedən sözdü bu da. Bir kişi yolnan gedir. Gedib görür bir uşax durubdu. Deyir: «Ay uşax, bu kətdə qonaxları kim qəbul edir?» Deyir: «Köpəklər». Deyir: «Ə, balaca uşağa bax, bunun danışdığı sözə bax. Mən bu boyda kişiyəm, gör mənim sualıma nəynən cavab verir». Diyəndə qayıdır deyir: «Qılıncımnan səni çaparam». Deyir: «Ə, atı çapginən, yoldaşların getdi». Uşax dediyi söz kişinin dediyi sözdən ağıllı olur. Gedir o kəndə. O kəndə gələnnən sonra deyir ki, ə, sizin kəndin girəcəyində uşax vardı. U uşağa belə-belə suallar verdim, məə də belə cavablar verdi. – «Bilirsən, u uşax, – dedi, – yetimdi. Özü də alim nəvəsidi. Onunçün çox bilmişdi».

İndi qayıdanda... Kişilər, qonaxlar qayıdıb gələndə u uşax görür ki, gənə burdadı. Deyir ki, ay uşax, sənin bayaxkı sözəə ala bir dənə qızıl atıram. Barmağıyla bir qızıl atır. Gedir u qızılı alır. Alır belə, üstünə silir, baxır. Kişi də atdan baxır. Baxır, qızıl düşən yeri gedir öpür. Deyir: «Niyə heylə eliyirsən, oranı öpürsən?» Deyir: «Bilirsən nə var? U qızılın üstündə sənin surətin var. Sənin üzün o torpağa

dəyib, onun yerini öpürəm». Baxır kişi, çox şey eliyənnən sonra götürür bunu, özünnən aparır bunu. Deyir ki, mən sana baxajam. Çox baxır, baxır, baxır, uşax böyüyüb, yaxşı iriləşib da, qanıx vaxtı olub.

Bir günnəri bu həyətə üş nəfər qonax gəlib. Qonağın xörəyini-zadını hazırlayıb eliyillər. Bu uşax deyir ki, sən qonaxnan oturub çörək yeməginən. Deyir: «Niyə?» Deyir: «Sən çörək yeməginən, görək qonaxlar nə danışıllar yemək üstündə». Bütün nə yiməh varsa, gözəl-gözəl nemətdərdən qoyullar sübrəyə. Bular yiyəndə böyük deyir ki, qoyun it ətidi. Ortancıl, çaxır içillər, çaxır içəndə deyir ki, çaxır insan qanıdı. Balaca deyir ki, ə, aşbaz oğludu, nə başa düşür, çörəyizi yiyin. Bunu bu uşax qapının dabanınnan eşidirdi. Qayıdır gəlir evə. Bu kişiyə deyir ki, bilirsən nə var? Deyir: «Yox». Deyir: «Sənin u qonaxlara verdiyin yiməhlərin heş birinin ləzzəti olmadı olar üçün». Deyir: «Niyə?» Deyir: «Birinci dedi ki, qoyun it ətidi. İkinci dedi ki, çaxır insan qanıdı. Üçüncü də dedi ki, aşpaz oğludu, nə başa düşür, çörəyizi yiyin. Sən aşbaz oğlusan?» Gedir anasının yanına, deyir: «Ana». Deyir: «Hə». Deyir: «Ana, məə düzünü diginən, görüm mən padşah oğluyam, yoxsa aşbaz oğluyam?» Diyəndə deyir: «Ay oğul, unu Allah bilir, niyə gizləyirəm mən. Aşbazın yeddi oğlu vardı. Mənim ərimin, yəni padşahın yeddi qızı vardı. Bir gün bular səfərə gedəndə biz ikimiz də hamilə idik. Uşax olan vaxtında aşbazın səkkizinci oğlu oldu. Mənim səkkizinci qızımnan onu dəyişdik, ona qız verdik, oğlanı da mən aldım. Bax, indi Allaha şükür, sən padşahsan ataa yerində». Deyir: «Hə. Aşbaz aşbaz oğlu olmalıdı, padşah padşah oğlu olmalıdı». Gedir qonaxların yanına. Deyir: «Çaxır söhbəti dimişdiz, o nədi?» Deyir: «Vallah....». Çağırır çobanı, deyir: «Mən allah, düz de. Bu erkəyi harda böyütmüsən?» Deyir: «Vallah, qış vaxtı bu erkəh doğanda anası öldü. Yanında qancıx vardı, qancıxla mayalandırdım. Bu quzu da böyüdü, qoyun oldu, ən gözəl qoyun idi, sənin qonağına kəsdim». Çağırır çaxır çəkəni, deyir: «Bu çaxırı hardan almısan?» Deyir: «Vallah, bir qavırın baş ağacının dibinnən tənəh çıxmışdı. U üzümdən çaxır tutub sənin qonaxlara verdim. Baxıb görür ki, bütün işlər hamısı bir-birinə uyğun gəlir. Onunçan da qonaxları sorğu-suala tutur ki, kimsiz, məə düzgün diyin. Deyir: «Biz də padşah oğluyux, üç qardaşıx. Atamız sağkən səfərə çıxmışıx, vilayətdəri gəzirik». U uşağı götürüb özünün yerinə padşah qoyur.

## BİLİCİ QARDAŞLAR

Bir şəxs, deyir, oğlannarını çağırdı, dedi: «Oğlannar, bu məhlədə, hayatda dedi sizə varımı verirəm, nəyim varsa, sağlığımda. Mənim varıma, döylətimə inanmasaz gedin Dəhnə kəndində bir alim var, u alimə deyin sizin şərizi kəssin». Deyir: «Baş üstə». Vaxd gəlir bunun atası ölür. Ölməmişdən atası vəsi eliyir ki, qızıl birinizin olsun, var-döylət birinizin olsun, torpax da birinizin. Bunnan razılaşmasaz o kişiyə deyərsiz o şərizi kəsər. Deyir: «Yaxşı». Bunun atası ölür, dünyasını dəyişir, aparıb bunu basdırıllar. Onnan sonra gedirlər. Deyir: «Bizim atamızın vəsiyyəti var. Biz vəsiyə getməliyik». Düşürlər, deyir, qoruğa. Qoruxnan gedirlər. Səhər tezdəndi, deyir. Bu qoruğa şeh düşübdü. Mal, heyvan-zad gedəndə irizi bilinir. Bu gedəndə görürlər ki, dəvə irizi var. Amma görürlər dəvə sol tərəfdən bir qarpım ordan, bir qarpım burdan ot ala-ala gedir. Qardaşın birisi deyib ki, bu dəvə yiyəsinin əlindən qaçıbdı. O birisi də deyib ki, bunun sağ gözü kordu, sol gözü sağdı. Bu birisi də deyib ki, bu dəvənin quyruğu dümbüldü[1]. Hə. Deyib gedirlər bular üçü söhbət eliyə-eliyə. Qabaxdan hərlənib bir kişi çıxır. – «A bala, dəvə görmədiz ki?» Dedi: «Gördük». – «Nətəər?» Dedi: «Dəvə nətəər idi?» Dedi: «Əlimdən qaçıb». Dedi: «Sağ gözü kor idimi?» Dedi: «Hə». – «Quyruğu da dümbül idimi?» Dedi: «Hə». Dedi: «Görməmişik». Dedi: «Ay bala, mənim dəvəmin eybini, şikəstliyini bilirsiz. Əgər görmüsüzsə bunu mənə niyə danışırsınız?» Dedi: «Mənim dəvəmi siz tutmusuz, mən dəvəmi sizdən istəyirəm. Hara gedirsiz?» Dedi: «Atamızın vəsiyyəti var. Axund var, onun yanına şərimizi kəsməyə gedirik». Dedi: «Lap yaxşı, mən də gedirəm o kişinin yanına ki, mənim dəvəmi görüblər bular, mənim dəvəmi vermirlər. Yaxşı oldu, gedəyin». Gedir bu uşaxlar bura. Deyir ki, siz nəmənə gəlmisiz? Deyir kin, mən bura gəlmişəm kin, mənim atamın vəsiyyəti var, mənim atamın vəsiyyətini sənə diməyə. Atamın vəsiyyətinin bizə yönünü-yöntəmini öyrədin, biz burdan gedək. Deyir: «Yaxşı, eliyərəm». Kişiyə deyir ki, sən niyə gəlmisən? Deyir ki, mənim dəvəmi bular görüblər, intaası məə vermirlər dəvəmi. Dedi: «A bala, hancarı görmüsüz?» Dedi: «Dayı, bu dəvəni belə görmüşük biz. Biz səhər-səhər gələndə gördük ki, şehdi yer, bu dəvə qaça-qaça gəlib. Sağ tərəfin otunnan yimiyib, sol tərəfin otunnan bir çəngə burdan alıb, bir çəngə ordan alıb. Dedi bu dəvənin sağ gözü kordu, onçan bir

[1] Quyruğu kəsik

tərəfi otlayıb. Quyruğu da yoxdu. Bu dəvə yolu gedəndə qığlıya-qığlıya gedibdi. Dəvə qığlıyanda quyruğu olanda qığı dağıda-dağıda gedir. Bu qığ düzünə tökülə-tökülə gedib. Biz bunu görmüşük. Belə görmüşük». Deyir: «Ə, yer get dəvəə axtar, oların bunnan xəbəri yoxdu». Deyib: «Bəs sizə nə olubdu?» Deyir: «Atam diib ki, bu oğula qızıl olsun, bu oğula torpax olsun, bu oğula da mal-qara olsun. Bunu atamız bölüb». Deyib: «Ataazın bu vəsiyyətindən narazı döyülsüz?» Deyib: «Yox». Deyib: «Atanız necə bölübdü, eləcə gedin vara-döylətə yiyə durun».

## ŞAHZADƏ VƏ KEÇƏL

Bir gün bir şahın üç oğlu olur. Şahzadə qız olur. Əlini görən neçə tümən pul verir. Sifətini göstərsə, külli miqdarda pul tələb eliyir. Şah böyük oğluynan ortancıl oğluna pulu verir, bular gedirlər həmən şahzadəyə baxıllar. Bu kiçik oğluna pul vermir. Nəsə. Kiçik oğlu küskün halda küçədə gəzəndə görür ki, bir dənə keçal. Keçal bunnan soruşur ki, ay uşax, nolub belə filan? Deyir ki, bəs hal-qəziyyə belə-belə. Atam məə pul vermir ki, gedim şahzadə qıza baxam. Deyir: «Heç cibində qəpik-quruşdan varmı?» Deyir: «Var». Deyir: «Gedək mənnən bazara. Mən şahzadəni səə havayı göstərəjəm, lap özünü». Uşax sevincək halda gediblər bazara. Keçal buna deyir ki, bir dənə keçi al. Alır. Deyir ki, bir dənə biz al. Alır. Deyir: «Bir dənə çatı al». Uşax alır. Deyir: «Hindi mən keçini yıxajam, sən də keçini bizdiyərsən. Unda şahzadə qız çıxajax. Çıxanda göstərəjəm səə». Dedi: «Oldu». Keçal keçini yıxır, ayaxlarını bağlıyır. Deyir: «Bizdə». Uşax keçini bizdədikcə keçi məliyir. Şahzadə çıxır qarabaşdara deyir ki, aaz, olar kimdi? U saat uşağı tərpədir, deyir ki, bax, şahzadə qız. Baxır. Deyir ki, bir də görmək istəyirəm. Gözəl olur da. Deyir: «Bir də bizdə». Başdıyır keçini yenə bizdəməyə. Axırda şahzadə qız çıxır. Çıxanda yenə baxır uşax. Uşax deyəndə on beş, on altı yaşı olur da. Deyir ki, bax. Yenə baxır. Şahzadə qız deyir ki, qarabaşdara, olar keçini kəsmək istəyir, kəsə bilmir. Gedin keçini kəsin. Kəsin verin olara. Nəsə. Qarabaşdar gəlir, keçini kəsib verirlər bulara. Əti doğruyub yığıllar, obşim, qazana. Keçal deyir ki, yenə görmək istəyirsən? Deyir: «Hə». Deyir: «İndi gəl dalaşax». Uşağa deyir.

Deyir: «Gəl». Başdıyıblar süprüşməyə, bu halatda qazan dağılır. Səs-küy, danqıltı-dunqultu, yenə şahzadə qız çıxır. Deyir ki, qarabaşdara, gedin u əti yuyun tökün qazana, uların ikisini də gətirin bura. Nəsə. Qarabaşdar buları alıb gedərlər. Gedəndə şahzadə baxır ki, oğlan göyçək oğlandı. Xoşuna gəlir. Şahzadənin də bir kənizi olur yaşdı, ərsiz. Hə. Qarabaşdara əmr eliyir ki, aparın buları hamama salın, yuduzdurun, çimizdirin, gətirin. Buları apardılar, hamama salıllar, qəşənh yuduzdurullar. Keçala deyir ki, keçal, bu kənizi verirəm səə, sən yaşa özün üçün burda. Oğlana da bir otax ayırır. Axşam olur, gəlir. Söhbət elə yerə çatır ki, qızın xoşu gəlir oğlannan. Evlənmək məsələsinə çatanda oğlanın qabağına şərt qoyur şahzadə. Deyir: «O vaxt mən sənə ərə gedə bilərəm ki, biri üç eliyə bilsən». Deyir: «Nətəəri?» Deyir: «Səə üş eşşək yükündə qızıl-gümüş verəjəm. Uları birə iki artıra bilsən səə ərə gedəjəm, yoxsa yox». Oğlan deyir: «Yaxşı». Bəli, səhər açılır, təbil çalınır, üş dənə qızıl yüklü eşşək dayanır sarayın qabağında. Deyir: «İstəyirsən bir günə eylə, istəyirsən beş ilə elə, fərqi yoxdu. O səən fərasətin. Baxajam sənin fərasətə». Uşaxdı da, nə qanır. Eşşəyi alır yedəyinə, u birsi də onun yedəyində gedir. Gedəndə öz-özünə deyir ki, mən buları niynirəm. Mən buları nətəər artırajam. Uşaxdı da, ağlı kəsmir. Keçəndə görür ki, bir dənə baş-ayax ütən olur da. Bazara girir. Deyir: «A dayı, a dayı, bəri dur». Durur. Deyir: «Bu eşşək qızıl yüklü eşşəkdi. Mən qayıdanda mənə mənəm deyən bir dənə baş hazırlayarsan. Yaxşı?» Deyir ki, oldu. Baş-ayax ütən söyünür özündən. Zarafat döylü, bir eşşək yükü qızıl-gümüş. Deyir: «Oldu, oğul». Obşim, baş-ayax ütən sevincindən həmin gün işdəmir. Nə hərləyir, ə. Obşim, bir az gələndə görür qatıx satan var, küplərə qatıxları qoyubdu. Deyir: «A dayı, olarmı səni?» Deyir: «Olar». Özü də fikirləşir ki, mən bu eşşəkləri yedəyimdə havaxtacan hərləyəcəm. Verir da una-buna. Uzun sözün qısası, deyir ki, gəl bu eşşəyi verim sənə. Bu eşşək də dolu qızıl yüknəndi. Amma mən qayıdanda mənə mən deyən qatıx verərsən bir küp. Deyir: «Oldu». Gəlir axır məqam kəndir hörənə. Sijim hörür bu keçidən. Keçi tükündən o vaxtı. Deyir: «A sijimçi». Deyir: «Bəli». Deyir: «Bu eşşəyi verirəm səə. Özü də içi dolu yükdü – qızıldı, gümüşdü. Mən qayıdanda mənə mən deyən sijim hörür verirsən». Deyir: «Oldu». Oğlan qaldımı avara. Şəhərdən çıxır kəndin bir kənarına. Obşim, yatmağa yeri yoxdu bunun. Bu yol gedəndə axşam tərəfi olur. Gedəndə bir kişi buna rast gəlir. Deyir: «Oğul, nə hərlənirsən, nə gəzirsən? Nə fikirlisən belə?» Oğlanı fikir götürür da. Deyir: «Dayı, hal-əhvalat belə-belə». Deyir: «Bazarın

ayağındayı ağacı görürsən, çinarı?» Deyir: «Bəli». Deyir: «Gedib burdan çıxırsan ora, çinar ağacının boğazına. Orda hər səhər məsləhətdəşməyə gəlirlər. Orda nə danışsalar özün öznüyündə götür özə». Kişi bunu deyir, yox olur. Oğan gəlir axşamnan çıxır çinar ağacının başında oturur. Bəli. Hava işıxlaşar, ala-toran, görər ki, mığır-mığır səs gəlir. Gözünü açar görər ki, hə, bu qatıx satan da burdadı, bu baş-ayax ütən də burdadı, bu sijim hörən də burdadı. Buların ağsakqalı var, bular məsləhətdəşirlər. Birinci baş-ayax ütəni çağırır. – «Bura gəl». Gəlir. Deyir: «Dünənki gündə xeyrin nə olub?» Deyir ki, bəs ağa sağ olsun, bir eşşək yükündə qızıl-gümüş. Oğlan da qulax asır ağacın boğazında. Deyir ki, sən elə bilirsən u qızıl-gümüşdən sən qazandın. Deyir: «Hə, ağa sağ olsun, bir eşşək yükündə qızıl-gümüş». Deyir: «Bəs u uşax eşşəyi verəndə nə dedi səə?» Dedi ki, mən gələjəm, mən gələndə məə ürəyim istəyən baş verərsən ütülmüş. Baş-ayax ütənə deyir ki, sən bilirsən onun mənası nədi? Deyir ki, yox, ağa sağ olsun. Deyir ki, bəlkə səə dedi adam başı ver. Sən ona verəmməsən, birə iki qaytarmalısan həmən yükü. Sən heç onu nəzərindən qaçırmaginən. Obşim, baş-ayax ütəni fikir götürür. Uşax da eşidir axı. İkincisini çağırır – qatıx satanı. Deyir: «Bəs dünən sənin xeyrin nə nolub?» Deyir: «Ağa sağ olsun, gəldi eşşək yükündə qızıl verdi ma. Dedi mən gələndə məə bir küp mən deyən qatıx verərsən». Deyir: «Guya sən də uddun ki burda? Sən də uduzmusan». Deyir: «Nəyə görə?» Deyir: «Birdən gəldi dedi ki, məə insan südündən qatıx verginən. Hardan alıb verəjən? Deməli sən uduzursan bunu. Verəmməsən birə iki qaytarmalısan haqqını». Qatıx satanı da fikir götürür. Nəsə, keçir sijim hörənə. Deyir ki, bəs noldu? Deyir: «Ağa sağ olsun, bəs oların başına gələn əhvalat mənim də başıma gəlib. Amma bir yaxşı sijim hörüb qoymuşam onnan ötrü». Deyib: «Səə də heylə dedi?» Deyir: «Hə». – «Bəlkə səə dedi adam sakqalınnan məə sijim hör ver. Hardan alıb verəjən? Sən də verəjən. Get». Obşim, bular dağılannan sonra əl-ayax çəkilir.

Bazar qurulur. Bəli. Oğlan ordan yavaşcana ağacın boğazınnan süyrülüb düşür aşağa. Gəlir deyir ki, salam məleyki. Sabahın xeyir. Bazar olsun. Bəli, xoş gəldin, əlöykümət salam. Deyir: «Dayı, mən deyən başı hazırlamısanmı?» Deyir: «Hə, oğlum». Gətirir buna qəşənh bir dənə ütülmüş baş. Deyir: «Yox». Deyir: «Nolub?» Deyir: «Səə dimişdim mən deyən baş. Bu mən deyən döylü». Deyir: «Bəs sən nə...». Deyir: «Bəs adam başı». Deyib ki, mən heylə şeyi bajarmaram. Deyir: «Dünən səə verdiyimi birə iki qaytar,

uduzmusan». Kişi ələşsız qalır qaytarır. Bu minvalnan hamısınnan yığır. Deмək, olar iki günün müdətində. Yanı bu həmi nağıla bənziyir, həmi hekayətə bənziyir, həm də rəvayət kimi bir şeydi. Yanı belə şeyləri deyirlər yalandı, filandı, amma hamısının mənası var. Mənası böyükdü. Allaha qurban olum, birinci Allahdı, sonra onun əsabələri, bəndələri. U yolda rast gələn kişi, demək, Allah tərəfindən olur. Oğlanın beyninə yerləşdirir ki, get çıx ora. Yəni adama verən Allahdı.

Kallinqrada gedəndə bir yaşlı Gəncəli kişi var idi. Oturmuşdux da, bekarçılıx, yol gedirik, başdadı söhbət eləməyə. Bir oğlan başdadı öz-özünə şikayətlənməyə ki, neçə dəfə gedirəm əlim gətirmir. O da dedi ki, oğul, Allah versin, partdamaxnan döylü. Dalınnan da bu nağılı danışdı.

## BİR ŞAHILIQ RUZU

İranın şəhəri idi, deyir, böyük şəhər. Bir yetim də uşax vardı, deyir, yeniyetmə, deyir, uşaxdı. Cırıl-cındır, üstündən, deyir, kir tökülür, başı sallam-saçaxdı, pul yox, para yox. Axşamatan, deyir, burda nökərçilik eliyir. Onun-bunun malını daşıyır, axşama, deyir, bir şahı pulu olur, artıx pul olmur. Bu bir şahıynan gedir, deyir, çörək yiyir. Alır, deyir, aparır, kaha kimi sonyası var, orda yiyib yatır cındır paltarın arasında, səhər, deyir, gəlir. Ha bir gün, ha iki gün, deyir, nə qədər işdeyirsə, bir şahıdan artıx qazanmır. Bir gün, deyir, böyük bir alim, canlı bir alim şeydən gəlirdi, deyir, Xorasannan gəlirdi, ziyarətgahdan gəlirdi, deyir. Bunun ağır zənbilləri vardı, deyir. Gəldi, deyir, düşdü faytonnan, öyü, deyir, yaxın idi. – «Ayə hambal, hambal». Ayna baxdı, tapmadı. Gördü bir uşax durub. – «Ay bala, bunu apara bilərsənmi bizə?» Dedi: «Cannan-başnan». Uşax, deyir, ağzağza bağladı zənbilləri, aldı çiyninə. Xozeyn qabaxda, bu da bunun dalında gedir. Apardı, deyir, zənbilləri qoydu bunun həyətinə. Qoyanda, deyir, əlini saldı, bir ciblik xırda pulu vardı, əlini saldı, neçəsini çıxartdısa, bir şahı çıxdı, ikinci şahı çıxmadı. – Bilirsən şahı neçəyə deyirlər? Bir şahı beş köpükdü, iki şahı on köpükdü. – Bir şahı çıxdı. Üş dəfə əlini saldı, bir şahı çıxdı. Çıxanda uşax da baxır, deyir. Dedi: «Ay ağa». Dedi: «Hə». Dedi: «Mənim qismətim bir şahıdı. Üş dəfə sən əlii salıb çıxartdın, bir şahı çıxdımı?» Dedi: «Hə». Dedi: «U şahını ver məə, artıx pul vermə». Dedi: «Ay oğul, niyə?» Dedi: «U mənim qismətimdi. Unnan artıx qazana bilmərəm. Buyün qazancım mənim bir şahıdı. Bah odu, unu ver məə». Bunu verəndə deyir, elə dokqazdan çıxmışdı, xəbər gəldi ki, bu alimin

dostdarı var, ular bu axşam bura gəlcək. Gəlcək diyəndə bunun da deyir züryəti yox idi, uşax qismi yoxdu bu alimin. Arvad dedi ki, ə, uşağı çağırginən getsin bazarlıx eləsin, uşaxnan gedin bazarlıx eliyin. Həm də kömək eləsin də. Uşağı, deyir, çağırdı qaytardı. Dedi: «Bura gəl». Gəldi. Nəsə, deyir, bu bir iskan çay işdi. Dedi: «Bir iskan da çay bu uşağa ver». Verdi. Qayıtdılar, deyir, bazara. Getdi, deyir, bazarlıx elədi, uşağa verdi. Uşax da, deyir, götdü gəldi. Qoyub, deyir, qayıdanda, arvad dedi ki, bilirsən nə var, kişi? Dedi: «Yox». Dedi: «Bu uşağı buraxma, sənin qonaxların gəlcək. Heç olmasa çaydan-zaddan versin axşamları, mən verəmmərəm sizə». U vaxtı arvad kişiyə görükdü nəydi, yad adama? Dedi: «Düz deyirsən». Dedi: «Ay oğul, dayan». Dayandı. – «Getmə». Getmədi, deyir. Dayandı. Pul-zad da vermədi buna. Hə. Durdu, deyir, ayağa. Dedi: «Onda bunu aparın başını-zadını qırxdırın». Götdü apardı, deyir, bunu dəlləyə. Başını qırxdı, təmizlətdi, apardı, deyir, düz hamama. Uşax, deyir, hamam görmüyüb. Hamamçıya dedi: «Bunu çimizdir». Çimizdirdi, deyir. Bir münasib, deyir, xələt aldı, verdi buna, paltar. Geyindirdi, deyir, uşağı aldı, deyir, yanına, qayıtdı gəldi. Bayaxdannan uşax nə avırda idi, görükmürdü. İndi, deyir, uşax bir əməlli uşax olub. Arvad, deyir, gələndə gördü ki, bayaxkı uşax hara, indi hara. Çox mərfətdi, qanacaxlı uşaxdı bu. Hə. Başdadı, deyir, uşağa dedi ki, odunnan-zaddan eləginən. Odun-zad elədi. Kişiyə dedi ki, kişi, bilirsən nə var? Dedi: «Yox». Dedi: «Baxıram bu yaxşı uşaxdı, mərfətdi uşaxdı. Gəl bunu, dedi, buraxmıyax, saxlıyax, bir oğul kimi saxlıyax. Sənin züryətin var, mənki yoxdu. Saxlıyax, dedi, bunu özümüzə, işdədək. Həm də nökərdi da, işdəsin». Dedi: «Nə bilim, ay arvad? Nə deyirəm. Baxarıx, yaxşı uşaxdı, saxlıyarıx, yaxşı döylü buraxarıx». Hə. Nəysə, axşam qonaxlar gəldi, yimək-işmək. Badə qalxanda bunun dostu lap belə pullu-paralı bir dostu vardı. U badəni qalxızanda.... Bunun da, deyir, bu dostunun da, deyir, bir yaxşı qızı vardı, təzə əmələ gəlmiş. Dedi ki, o birsi, ordan qalxızdı dedi ki, bu badəni içirik dostumuzun qızının sağlığına, bir də sənin oğlunun sağlığına. Bu badəni bunların sağlığına qalxızırıx. Kişi, deyir, dili topux çaldı ki, axı mənim oğlum yoxdu, uşağım yoxdu. Bu uşax, deyir, qapının arasında çaydan-zaddan verirdi. Da dinəmmədi. Hamı dedi ki, yaxşı olar, xeyirli olar. Xeyirli olsun. Allah xeyir versin. Da burda razılaşdı. Bu da dirənmədi. Nəysə, qonaxlar getdi. Dedi: «Arvad, bilirsən nə var? Hal-qəziyyə belə-belə. Bunu daa burdan dəbərtmək mümkün döylü. Mən, deyir, orda deyə bilmədim. Uje u qız buna behlidi, bu da una. Düzdü, bizim uşağımız döyülsə də, mümkün olmadı». Obşim, belə qaldı.

Aradan bir neçə gün, deyir, keşmişdi. Adam gəldi bulara. Gəldi buna xəbər verdi ki, bəs dostların deyir, hazırlaşsın, şeyə getcəyik, səyahətə çıxcayıx, alverə getceyik. Bu da, deyir, xəstələnmişdi. Durdu, deyir, ayan-bayanı, dəvələri hazırladı, deyir, sabah heç, birisigün çıxceyik. Allahın işidi, bu beyqəfil xəstələnir. Uşax da, deyir, bunun yanında olurdu. Gəldi, dəvə yüklənib. Dostları dedi: «Ə, dur». Dedi: «Vallah, mən xəstələnmişəm». Dedi: «Xəstələnmisən, oğlun var, yüklüyək, unnan gedək, nə lazımdı satıb, yüklüyüb, qayıtceyik. Biz alannan una da alıb verceyik, getcək». Dedi: «Mən nə deyirəm, sən deyən olsun». Nəysə, yüklədilər, deyir, dəvəni, bu uşağı da qoydular belinə. Bir uşaxdı, qoydular, deyir, getdilər Misir şəhərinə. Çıxdılar getdilər. Nəysə. Orda, deyir, düşdülər, dəvələri düşürtdülər, nağardılar, burda başdadılar, deyir, satmağa. Satan vaxtı, deyir.... Dilənçilər vardı hədindən artıx bazarda. Bu uşaxnan da, deyir, yan-yana düşüblər. Buyün satdığını, deyir, u gəlirdi allah yolu ver, verir, bu gəlir deyir allahın yolunda bir şahı ver, verir. Fərz elə beş maat alıbsa, bunun bir maatı qalır. Dört maatı gedir. Bu yoldaşdarı dedi ki, ə, bu uşax gündəlik satdığını dedi allah yolu verir. Kişiyə, dostumuza nə cavaf verceyik ki, sənin uşağın allah yolu paylıyır. Unu inandırammıyajayıh. Biz nağarax? Hə. Dedi: «Vallah, nə bilim? Görək da». Belə-belə, deyir. Bu şəhərdə cuhud vardı, deyir. Sousuz bir cuhud vardı. Artıx nəfs cuhud idi bu. Bu allah yolu verəni eşitdi, deyir ki, belə bir uşax var. Gündə satdığını allah yolu verir. Dedi: «Ə, onun nə qədər pulu var ki, gündəlik satdığını allah yolu verir. Bu məndən pulludu. Gedim görüm bu nətəər adamdı». Gəldi, deyir, bir az qıraxda durdu, buna tamaşa elədi. Gördü bu satdığını elə gələn, deyir, allahın yolunda ver, verir. Bir saat dayandı orda, gördü üç maat pul alır, üçünü də allah yolu verir. Dedi: «Sən öl, uşağa bax, dedi, məndən pullu olmağa, dedi. Mən partdıyaram, dedi». Bunu qızdırma aldı, getdi, tərpəndi, deyir, öyə. Getdi, öydə də, deyir, dayanammadı, qayıtdı gəldi. Uşağa dedi ki, bilirsən nə var? Dedi: «Yox». Dedi: «Məə qonax ol». Bu uşağın var-döylətini örgənmək istəyir ha. Dedi: «Məə qonax ol». Dedi: «Yaxşı». Axşam oldu, deyir, gəldi bunu apardı, getdi, deyir. Bu öyü aşdı, gördü öy doludu, bu öyü aşdı, gördü öy doludu. Heş belə gözünün quyruğunnan baxır da, gözünü bərəldib belə baxmır, içini çəkmir. Bu cuhud da, deyir, buna fikir verir, görüm ajgöz adamdısa, hiss elijəm bu-nu. Toxdusa, bu məndən pulludu. Gördü heş nəyə pinimanit eləmir. Axırıncı, deyir, otağı aşdı, gördü ki, arı təknələri var sandıxda. U vaxtı sandığa arı təknələri deyərlərdi. Qozdan yonallardı. Yoğun qozdan yo-

nallardı, ağzı qapaxlı. Da indiki kimi taxdadan sandıx qayırıb irəkləmirdilər. Gördü ki, sandıxlar var, yığılıbdı yan-yana, qırax-qırağa, ağzı zamoxlu. Birini basdı, gördü ağzı dolu qızıldı, ikisini basdı, gördü qızıldı. Gözünün quyruğunnan baxır, üzü aşağı baxır. Da ora baxmır. Gördü bir atmış-yetmiş dənəsinin içi dolu qızıldı, o birisilər boşdu. Muna baxdırdı, qayıtdı. Amma pinimanit vermədi. Gejə qaldı orda, cuhut gətdi bunu gənə qoydu malın yanına. Bir-iki saat da bunun yanında dayandı. Gənə də bu başdadı allah yolu paylamağa. Cuhut tamamilə nerviçat oldu, deyir. Getdi. U gedəndən də başını qoydu yerə, deyir, həmin gejəsi öldü. Bunun öyünü, deyir, başdadılar satışa qoymağa var-döylətini. Uşax bilir axı. Bir az keşdi. Getdi gördü həmən qonax olduğu cuhut kimi paltar-palaz alır, kimi, nə bilim, öy alır, kimi, nə bilim, nə alır, kimi cürbəcür şey. Amma bu kötüklərə yaxın duran yoxdu, qoz götüklərinə. Yaxınnaşdı dedi ki, qardaş, bu qoz götüklərini mən istəyirəm, sat məə. Deyir: «Ver ə, bu qoz kötüyünü, niyirik. Başı xarafdı, bu cürə şeyi, var-döyləti qoyub kimdi bu qoz kötüyünə pul verən». Dedi: Yox, satın məə». Ucuz qiymətə, deyir, bu qoz kötüklərini içi dolu, bilir axı. Bir neçəsinin də, deyir, içi boşdu. Saydı, deyir, götdü ucuz qiymətdən, birini, deyir, heç neçəyə, bir abbasıya. Yığdı, deyir, üst-üstə, varı-döyləti də satıb qutarmışdı. Gəldi, deyir, bir gün də qalanını da, deyir, satdı. Sürdü, deyir, dəvələri, yüklədi, haman sandıxları dəvələrə. Heş kim, deyir, bunu bilmir içində nə var. Yolda gələndə bular bir-birinə deyir ki, yoldaşdarı, ə, bu boş kötüyü alıb. Biz u dostumuza nə cavaf verceyik bu qoz götüyünü aparıb. Qoz kötüyünü niyir ə, bu? Bizim dostumuz niyir, ə? Pulun hamısını xaşdıyıb, az-küş pul var. Heş dinmir. Nədisə, deyir, dəvə karvanı dayanıb, çörək yiyəndə bular dedi ki, bu qoz kötüyünün birini ver bizə, doğruyub ojax qalıyax. Dedi: «Verərəm, bu şərtnən. Dilizdən iltizam alaram ki, mənim bir dənə qoz kötüyümü siz almısız. Orda kəntdə məə verərsiz. Orda, deyir, gətirib mənim ağama verərsiz qoz kötüyünü. Razısızsa, verim?» Bir-birisinə baxdılar. Dedilər: «Ə, qoz kötüyüdü, razı deyəndə narazı olar? Kəsib dedi ikisini verərik, qoz kötüyüdü». Verdi. Dilindən iltizam aldı, verdi, deyir, kötüyün birini. Doğradılar, yandırdılar, deyir, isindilər, yidilər, işdilər. Nəysə, deyir. Gəldilər, deyir, bu ayrıldı öyə girdi, bular yol aldılar. Dedilər: «Dayanmıyax, səni, kişi bizim abrımızı bükəjək, bu qoz kötüyü apardı öyə». Nəysə, deyir, dəvələri gətirdi, deyir, yatızdırdılar. Xozeyn baxdı gördü ki, qoz kötüyüdü belindəki dəvələrin. Dedi: «Ağa, gəl yükləri boşaldax. Ağa, deyir, gəldi, qoz kötüklərini dəvələrin belindən aldı, çulunu aldı, rahatladılar. Bu

boşdarı, deyir, qırağa qoydu, iki-üş dənə idi. Doluları dedi ki, hə, qalxızax. Qalxızdılar, deyir, yığdılar, deyir, seyvana. Dedi: «Ay oğul, bular nədi, bu kötüklər?» Dedi ki, yığax seyvana. Yığdılar. Belə, deyir, açılan yeri basdı, içi puldu buların. Kişi, deyir, baxdı, xozeyn, dedi: «Mən qırx ildi alver eləmişəm, bir dənə kötüyün içindəyi pul çağı mənim öyümdə pulum yoxdu». Aça-aça getdi bərdən arı. Gördü hamısı qızıl. O birisini, deyir, açanda dedi bu boşdu. Dedi: «Bu kötüyün birini də sənin dostlara vermişəm, alıblar məndən». Hə. Dostara vermişəm deyəndə kişinin dalağı saşdı ki, dolu verib da. Borş vermişəm, deyir, gətirib vercəklər. Bir neçə gün gözlədi, dedi: «Ay oğul, bəs kötüyü gətirib vermədilər». Dedi «Mən borş vermişəm, bax bu da dillərindən iltizam. Ala, bax bu da kağız». Aldı, deyir, baxdı gördü həqqi də belədi. Bin neçə gün, deyir, keçəndən sonra bulardan rast düşdü bazarda. Dedi: «Bəs belə-belə, kötüyü niyə vermirsiz, dilizdən kağız vermisiz». Dedi: «Ə, nə kötükdü, deyir, yandırmışıx». Dedi: «Mən bilmərəm, kötüyü gətirin, nə yandırmısız?» İndi kişi, deyir, mat-məhətdəl qaldı buna. Bu bir dəfə getməknən bir belə sərvət qazandı. Kişinin, deyir, belə-belə hörməti artdı. Nəysə, deyir, dostunun qızını da buna aldı, bunu da oğulluğa götürdü. Allah-tala, deyir, bunun naxışını burda yetirdi.

## ƏYİLMİŞ METRƏ

Babam deyirdi ki, bir ticarətçi ticarət eliyirdi. Hər gün gedib tükanıın açıb mal satırdı, arşın malı. Bir gün gedir, axşam gələndə metrəni qoyub stulun üstünə, çıxıb gəlir. Səhər gedir görür metrə axşamkı metrə döylü, əyilib. Deyir: «Ay qardaş, mən bu metrəni düz qoyub getmişəm, bu niyə əyilsin?» Bir az gözləyir, görür ki, tükana gələn-gedən olmadı. Durdu tükanı bağlıyıb gəldi evə. Arvad dedi: «A kişi, nolub?» Dedi: «Arvad, bu gündən mənim ticarət işim qutardı». Dedi: «Noldu?» Dedi: «Bir tükanda ki, metrə durduğu yerdə əyilə, demək, da mənim naxışım gətirmir. Bax bu öydə hər ehtiyacız-zadız var, mən gedirəm. Havaxt mənim metrəm düzəlsə, onda gəlib tükanı açıb ticarət işinə başlıya bilərəm». Bəli, bu kişi kənddən çıxdı. O dostunun yanına, bu tanışının yanına. Hər çatana dedi ki, qardaş, mənim metrəm əyilib. Pulu-parası da qutarmışdı. Gəldi bir kişinin yanına, dedi: «Məni nökər tut». Dedi: «Vallah, bu üst-başnan, bu baxımnan sən heç nökərə oxşamırsan». Dedi ki, mənim metrəm əyilib, metrəm düzəlincə səə işdijəm. Bir qarın çörək verməzsən məə?

Dedi ki, ə, ayıb işdi ki? Bir il bu kişiyə qaldı nökərçilik elədi. Gördü bu ağayana adamdı, nədənsə, deyir metrəm əyilib. Nə bilsin, metrə tutanda bu orda idi? İl tamam olanda dedi: «Gəl halallaşax, mən gedim bir metrəmə baxım, gəlim». İndi bu əziyyət çəkib da burda. Yol pulu da verdi. Gəldi, pramoy getdi tükana, baxdı gördü elə siftəki metrədi. Dedi: «Hə, bayaxdan baxtım yatmışdı». Buna tərəkəmələr Qaraçuxam yatmışdı deyir. Görür metrəsi düzəlib. O gündən tükanını açıb başdıyır ticarətə. Arvad deyir: «A kişi, bir ildi getmisən, bəs səən haqqın, muzdun?» Deyir: «Məə hak-muzd ilahidən olsaydı mənim metrəm əyilərdi ki? İndi metrəm düzəlib, bu gündən sonra Allah bilən məsləhətdi».

## YAZIYA POZU YOXDU

### I mətn

Kişi deyir ki, pusajam, görüm mənim bu arvadımın uşağı olduxca niyə ölür. Sonra pusur, görür öydən bir kişi çıxdı. Kişini tutur. Deyir ki, mənim arvadımın yanında sənin nə işin vardı? Deyir: «Mən qədər yazanam. Yazı yazmağa gəlmişdim». Deyir: «U uşağın alnına nə yazmısansa, onu məə deməlisən». Deyir: «Yox, dimijəm». Axırda, nəysə, deyir: «Filan dağın yanında şah oğlu Şah Abbasın arvadının qızı olub, bu oğlana o qızı yazıram». Deyir: «Əşi, mən hara, şah oğlu Şah Abbas hara». Deyir: «Yox, mən yazmışam, Allah da yazıb». Orda da Şah Abbasa deyir ki, sənin qızını filan kasıb kişinin oğluna yazmışam. Kişi gəlir. Bu oğlu olan kişi də, çox kasıb bir adam imiş. Deyir: «Bu tərəzinin bir gözünə oğluu qoyjam, bir gözünə də bu qızılı qoyjam. Sən bu oğluu məə sat». Gəlir kişi arvada deyir ki, onsuz da bizim uşaxlarımız ölür. Qoy uşağı satax, pul alax da. Deyir: «A kişi, nə deyirəm». Nəysə, uşağı satıllar. Bu uşağı, vəziri olur, vəkili olur, bir də padşahın özü olur, alıllar, götürüb gedillər. Pulu verillər bu kişiyə. Gedir, aparır çöldə bir kolun dibində uşağı qoyullar ki, uşağı qurt-quş yisin. Nəysə, uşax qalır orda. Səhər açılır. Çoban sürüsünü çölə yaydığı yerdə tula gedir özünü kolun topasına vurur, qayıdır. Deyir ki, bu çoban, ay heyvan, səə nolub ki? Sən gedib nə gizləyirsən u kolda? Əl çəkmir tula. Kişi gedir bunun dalıycan. Gedir görür kolun dibində bir uşax qundaxda, körpə. Götürür uşağı gəlir. Görür qoyunun biri baladı. U uşağı o qoyunun südüynən qidalandırır, sonra qayıdır gəlir. Axşam olur. Uşağı saxlıyır axşamatan, axşam uşağı gətirir öyə. Uşağa da baxmır görək oğlandı, qızdı bu uşax. Uşağı gətirir öyə, arvadına deyir: «Ay arvad, bir uşax tapmışam koldan». Deyir: «Oğlandı, qızdı?» Deyir:

«Vallah, oğlannığına, qızlığına baxmamışam». Deyir: «Nolardı oğlan olardı. Bizim oğlumuz yoxdu». Arvad uşağı açır, görür oğlan uşağı. Deyir: «A kişi, yaxşı oldu ki, oğlumuz oldu». Gətirir uşağı saxlıyır, uşax yekələşir on dört-on beş yaşacan. O müddətədək uşağı böyüdür. Həmən alannar görür ki, uşağın sağ yanağında qara xal var. Unnan u uşağı manşırlayırlar ki, it də yisə, nə olsa, bu uşax bəlkə də, böyüsə... Olar elə bilillər vəşi heyvan yidi. Nəysə, uşax böyüyür. Keşmişdə dirədöymə var idi. İndi siz görməmisiz. Qayışnan hərləmə cız çəkəllərdi, dirədöymə oynuyullardı. Bir meydançada dirədöymə oynuyanda həmən bu padşah, bu vəzir, bu vəkil burdan keçəndə görür, səni, burda bir gözəl uşax var, özü də yaman oynuyur. Deyir: «Ay uşax, bəri gəl». Görür həmən bu alan uşaxdı. Tanıyır. Bular bunu tanıyır, amma uşax tanımır. Uşağı tanıyır, deyir: «Bilirsən nə var?» Deyir: «Yox». Deyir: «Səə bir məktub versəm, məsələn, filan dağın ətəyində bir kişi oturub bizi gözləyir. Bu məktubu aparıb həmən kişiyə verərsənmi?» Deyir: «Can başnan». Deyir: «Amma heç hara eləmə ha! Çaparax, təcili bu məktubu buyün ora çatdırmalısan». Deyir: «Yaxşı». Yazır padşah qoyur ki, kişi, bu məktub gəlib səə çatan kimi bu uşağı öldürərsən, qannı paltarını saxlıyarsan. Uşax nə bilsin. Uşax oxumur axı bu məktubu. Aparır, yorulur, dağın ayağında bir güllü bağa rast gəlir. Görür bir yaxşı bulaxdan da su axır. Uşax da sussamışmış. Nəysə, uşax gedib keçir u bağa, u sudan içir, əlini-üzünü yuyur u bulağın başında. Axşam qız indi gəzməyə çıxıb. Həmən padşahın qızıdı, vəzirin qızıdı, vəkilin qızıdı. Üçü gəlib bura gəzişirlərmiş bu bulağın başında. Görüllər bir oğlan yatıb. Ya rəbbi, elə bil oğlanı dünyada Allah-tala qüdrətinnən yaradıb. Oğlanda bir dənə eyib yoxuymuş. Padşahın qızı həmən u qızdı ha, u qız vurulur bu oğlana. Görür oğlanın cibində bir məktub var. Barmağını belə qatdıyıb, barmağıynan məktubu çıxarır. Çıxardıb görür atasının xəttidi xətti. Yazıbdı ki, bu oğlan sizə çatan kimi bu oğlanı öldürərsən. Qız deyib ki, dayan. Həmən bu irəngnən, bu xətnən bu kağızı götürüb başqa bir kağız yazır həmən u kişinin üstünə. Deyir: «Bu kağız sənə çatan kimi toy eliyərsən, mənim bu qızımı bu oğlana verərsən». Qız bu məktubu yazır, oğlanın cibinə qoyur, oğlanı çağırır. – «Oğlan, dur ayağa, vaxt keçir, sən getməlisən. Sən səfərinnən qalırsan axı. Səni yuxu çox tutub». Qız tələsiyir ki, atasının vaxtına az qalıb. Atası gəlincə bu oğlan getsin çatsın ora. Nəysə, gedir oğlan, düşür yola. Burda yiyir, içir, qızlar bunu yola salır. Gedir, bəli. Görür ki, dağın ətəyində oturub kişi,

buları gözləyir, padşahı gözləyir. Əvvəlcə salam verir. – «Salam məlöykü». – «Əlöykümət salam. Xoş gəlmisən, bala. Nə var, nə yox?» Deyir: «Bu məktub sənə çatajax». Alır məktubu bu kişiyə verir. Kişi oxuyur məktubu, görür ki, kişi yazıb ki, mən çatınca toy elə. Çaparax tədarük görür. Padşahın əmri var axı. Padşah da üş günəcən gəlməlidi. Toyu eliyir, qızı gətirir, nəysə, toynan-tamaşaynan bu oğlana. Oturur bu məhlədə. Amma bu məktubu saxlıyıbdı. Padşah gəlir görür ə, bu məhlədə qırmızı xələtdər, toy tədarükü. Hələ toy mağarı da sökülmüyüb. Ay aman, ay dad. Bu nədi belə, nə həşirdi? Çağırır kişini yanına: «Bura gəl». Deer ki, axı mən belə yazmışdım. Deer ki, ala bu yazdığın məktub, bu da sən. Kişi məhətdəl qalır. – «Xəttim mənim xəttimdi, yazım mənim yazımdı, eyni. Axı mən belə yazmamışdım». Nəysə, deyib ki, bilirsən nə var? Deyib: «Yox». Deyib: «O uşax anadan olanda o qız ona yazılmışdı, – padşah deyir. Mən getdim u uşağı aldım, apardım bir kol topasına qoydum. O kol topasında onu çakqal, canavar, qurd-quş, heş bir şey yimədi. O bir çobana irast gəlib. – Orda uşaxdan xəbər almışdı ey, sən kimin oğlusan? – «Çobanın». – «Hə, o çoban onu saxlıyıb, böyüdüb. İndi mən dedim ki, bu vaxtında bu ölər. Genə Allah-talanın yazısına mən pozu tapammadım. Kişi, bu sənin işin döylü, sənnik bir şey yoxdu. Yazıya pozu yoxdu, təqdirə tədbir yoxdu. Bunu Allah yazmışdı, istəyirdim mən pozam, mən də pozammadım. İndi ki, belədi, mənim olanım olmazım...». Öz padşah taxtına oğlanı çıxardır, öz əmmarəsini də verir oğlana. Oğlan olur padşah, bu da olur bunun yanında da, misalçün, bir əlaltı adamı. Hə, belə.

### II mətn

Şah Abbasın bir günnəri səfəri olur. Çıxır ki, camaatı yoxluyum, görüm vəziyyət nə yerdədi, nətər dolanıllar, hancar eliyillər. Çıxır, gedir. Gedirlər, gecəliyillər bular. Vəziriynən ikisi bir çobanın öyündə qalıllar. Çobanın arvadı hamilə imiş. Elə o gejəsi uşağa yatır. Uşağı olur. Görür ki, gəlinin yanınnan arvad xeylağı çıxdı da. Şah oğlu Şah Abbas yapışır bunnan ki, sən kimsən ki, belə xalxın yanınnan çıxırsan? Kimsən, nəçisən? Deyir ki, mənnən xəbər alma, axırı pis olar. Deyib: «Yox, niyə, xəbər almalıyam. Mən şah oğlu Şah Abbasam. Dünyanı gəzirəm, görüm mənim millətim nətər dolanır, hancarıdı, vəziyyət nə yerdədi». Nəysə, ayan-bayan, deyir: «Yazıçı mələyəm. Oğlanı qıza, qızı oğlana yazanam». Deyibdi: «Bəs

nağardın?» Deyibdi: «Nağarasıydım, heş nə. Bu qızın kəbinini şah oğlu Şah Abbasın oğluna yazdım». Buuy, kişi havalanıb. Deyir: «Mən şah oğlu Şah Abbas olam, bu naxırçı ola. Belə şey ola bilməz. Bu uşağı mən birtəhər elijəm». Əstafirillah. Deyib: «Yox ey, eləməliyəm». Uşağı götürüb gedir. Onun sağ əlinə şişi qızdırıb möhkəm vurur ki, görüm bunun axırı nətər olajax. Bu onnan qalıb, o vaxtkı rəvayətə görə (əlinin içindəki xətti göstərir – top.). Vəzirinə deyir: «Çıx bu dağın təpəsinə, bunu ordan fırıldat düşsün. Ölməlidi bu uşax». Bu da çıxır fırıldadır. Aradan bir-iki gün keçir, bu uşax qalır orda. Heş kəs buna yaxınnaşmır. Məən kimi qojanın da bir keçisi var imiş. Keçi də təzə doğubmuş. Gedir keçi, yanını verib uşağı əmizdirir. Uşağ əmələ gəlir. Yekəlir də bir az. Arvad bir gün deyir: «Ay allah, bu keçi sağılır. Bunu kim sağır görəm. Dalıynan gedim, görüm bunu kim sağır». Arvad gedir, gedir, görür ki, bir dərəyə düşdü keçi, uşağı əmizdirib çıxdı. Gedər baxar, görər qundağın arasında uşax. Bunu götürər gələr arvad. Bunun adını da qoyar Tapdıq.

Bir günnəri uşaxlarnan futbol oynuyurdu, yekəlibmiş. Yenə də şah oğlu Şah Abbas çıxır yola. Baxar görüm millətim nətərdi, hancarıdı. Uşaxlarnan futbol oynuyanda bu, uşaxlara deyər ki, ə, filan şeyi belə elə. Bu səfər onnar: «Ə, Tapdıq, belə elə» - deyər. Tapdıq deyəndə şah oğlu Şah Abbas duruxur. Deyir: «Tapdıq?» Deyir: «O kimin balasıdı, hardandı, nəçidi?» Deyir: «Vallah, burda bir qoca arvad var, o saxlıyır bunu. Hardansa tapıb gətirib. O, saxlıyır». Gedir qoja arvada deyir ki, o uşağı versənə məə. Uşax da elə sən kimi olubdu. Özü ağırlıqda qızıla bu uşağı alır. Yazır, buna kağız verir ki, bunu apar, bəs filan yerdə bizim iqamətgahımız var, ver qul-qarabaşa, sənin boynuu vursunnar. Vursunnar dimir də, yəni kağıza yazıb bunu. Bu da aparır. Orda bağ, gül bülbülü çağırır, bülbül gülü çağırır. Vallah, elə yaxşı yerdi ki, deyəsən bu nədi? Gəlib bu yatır. Elə xor-xor yatır. Qız gəlir kənizləri ilə, gəzir bağda. Görür bir gözəl oğlan burda yatır. Aya deyir sən çıxma, mən çıxım, günə deyir sən çıxma, mən çıxım. Qız evdə aparıb yazır ki, çatan kimi bu qızı maa nigah eliyin, qırx gün-qırx gecə toy eliyin. Gəlir baxıllar kağıza, görüllər belə yazılıb, altında da möhürü. Buna qırx gün-qırx gecə toy eliyillər. Axırıncı gecədə kişi gəlib çıxır. Deyir: «Bu nə toydu, bu nə büsatdı belə?» Deyiblər: «Bəs belə-belə». Deyər: «Allah sən saxla. O gedəni çağırın bura gəlsin». Gəlir. Açır əlini, görür ki, həmən xətdi. Deyir ki, yazıya pozu yoxdu,

tədbirə mümkün yoxdu. Onunla da evləniblər. Şah oğlu Şah Abbas tacını oğlanın başına qoyur. Deyib: «Gedin ey yaşıyın».

## ŞAH OĞLU VƏ NAXIRÇI QIZI

### I mətn

Bir dənə şah oğlu olur. Vəziri də yanına alıb çölü-biyabanı gəzirmiş. Bir günnəri görübdü ki, dağda, biyabannıxda bir mağara var. Vəziri əvvəlcə şarax vurub qapını açıb girib içəri. Girən kimi içəri görüb içəridə bir kişi var. Salamsız-kalamsız gedib yanına. Deyib: «Sən nağarırsan burda?» Nağarsan diyən kimi, deyir, çubux vurub eliyibdi daş. Bu səvərləri vəkili gəlibdi, deyir. U da qapını açıb şarax-şurux. –«Şah sağ olsun, – deyib, – girim mən, görüm nijoldu?» İçəri gedən də çıxmır. Girib görüb içəridə bir dənə kişi var. Deyib ki, nijoldu, bayaxkı kişi? Bura girən nijoldu? Diyən kimi buna da bir çubux vurub, bunu da eliyib eşşəh. Onnan sonra gözləyib şah, görüb bular gəlib çıxmadı. – «Ə, nijoldu bu görəsən? Harda qaldı bu?» Şah daban basmır, düşüb atdan gəlibdi. Gəlib qapını döyübdü. Görüb qapı örtülüdü, heş səs-səmir də yoxdu. Qapını döyəndə deyib: «Gəl». İçəri girib, salam verib. Salamını alır. Görür bir dənə kişidi, oturub yazı yazır orda. Deyib: «Baba, bura iki nəfər girdi. U nijoldu?» Deyib: «Odey, orda. – Birini dəəsən at eliyib, birini eşşək. – Biri, – deyib, – at kimi girdi içəri. Qapını belə təpiynən vurub, açıb girdi içəri, salamsız-kalamsız. Biri də eşşək kimi girdi içəri. Belə eliyə-eliyə, gurfagub gəldi yanıma. Dedi ki, salamsız-kalamsız, sən nağarırsan burda? Mən də, dedi, onu vurdum çubuxla, elədim eşşəh». Deyib: «Bəs indi soruşmax ayıb olmasın, məni də at-eşşəh eləmiyəjən ki? Deyib, burda sən nə yazırsan ki, belə?» Deyib: «Pisi yaxşıya yazıram, yaxşını pisə. Yüzdə-mində ikisini bir-birinə uyğun yazıram» Deyib ki, indi mənim də yazımı bilərsən? Deyib: «Hə, bilirəm». Deyib: «Mənim yazım, qismətim kimdi bəs? Kimin qızını hardan alajam? Yəqin şah qızı alajam da, yaxşısını alajam». Deyir: «Yox, sən, deyir, kasıb bir naxırçı qızı alajaxsan». Deyib: «Əmi, məni dəli eləməginən. U nə diyən sözdü. Mən şah oğluyam, özüm də şaham. Deyib, yox, öldürərəm gedib». Deyib: «Öldürsən də, nağarsan da xeyri yoxdu. U qızdı yazındayı, qismətindəyi. O qızı yazmışam səə». Deyib: «O yazını mən pozaram». Deyib: «Mən yazım, sən poz». Nə qədər kişiynən çallaşıb, deyib: «Yox. Yazını yazmışam. Odu səən yazın». Şah oğlu da gələndə, xurcunnarın ikisini də qızılnan doldurub götürübmüş da, yolda lazım olar. Gedib. Deyib ki, o qızı harda var tapıb öldürəjəm. Öz kətdərinin yaxınnığında bir kətdə görüllər ki, bir dənə öy var. Gedillər ora. Görür kasıb bir aylədi

da. Deyib: «Naxırçı bu kətdə kimdi?» Özü də həmən kişini axtarırdı ha, naxırçını. Kişi də deyib ki, qız bu saatdarı xəstədi, gedib onu sən sağaldajaxsan. Deyib: «Nə sağaltmax, öldürəjəm onu», – deyib gəlibdi. Deyib: «Allah qonağı istəmirsiz?» Deyib: «Allaha da qurban olum, qonağına da, niyə istəmirik? Gəl kasıb evimizdə olanımızdan qullux edərik sizə». Deyib: «Özümüzün yeməyimiz də var, işməyimiz də». Gəlib qalıblar. Gejə görüb ki, kimsə zarıyır. Deyib: «O zarıyan kimdi heylə?» Deməli bu qızın da qarnı köpüb nağara kimi olubmuş. Çığırtısı aləmə düşübmüş. Gecə-gündüz zarıyırmış. – «Mənim qızımdı». Deyir ki, o qız bu gün ölər, sabah ölər. Neçə vaxtdı, deyir, ay oğul, xəstə yatır. Qızın qardaşdarı da varmış. Qızın qardaşıynan bu oğlan da bir öydə yatırmış. Kişilər hamısı bir öydə yatırmış. Anasıynan da qız anki öydə imiş. Deyibdi ki, unu mən sağaldaram. Şah oğlu deyib, indi öldürməh üçün deyir ha. Fikri odur ki, öldürməh. Deyir: «A oğul, onu hər yerə göstərmişik, ona çarə yoxdu, öləjəhdi. Əziyyət çəkmə, əbəs yerə». Deyib: «Yox, onu mən sağaldaram». Gedib görüb həqiqətən də qarnı nağara kimidi. Qardaşı düşüb yanına deyib: «Gedəh da, nə deyirəm». Deyib: «Yox ey, yatginən səhər sağaldarsan». Gözünü yuxuya verib buların, xançalı götürüb gedibdi anki öyə yavaşca-yavaşca. Açıbdı qapını, başdıyıb xançalı burdan bir belə çəkib, bir də belə (söyləyici qarnının üstündən çarpaz xətt çəkir – top.). Çəkən kimi heş demə su imiş qızın qarnındayı, su yığıntısı imiş. Şarhaşar su hamısı axıb tökülür. Hə, indi öldü da deyir. Qızılları da qoyur orda qızı kəfən-dəfən eləməyə. Qızıla başdarı qarışsın, söyündüklərinnən biz heş yada düşmüyəh. Gejəni yatıblar. Səhər deyiblər: «Ay balam, heş səs-səmir yoxdu». Gejəliknən o başdannan qaçıblar bular ki, səhər öldürəllər, döyəllər. Çox da ki, naxırçıdı. Diyər, mənim qızımı niyə öldürmüsən? Bular zənn edib ki, ölübdü. Atdarı minib, qaçıb gəliblər öylərinə.

Səhər atası, qardaşdarı, anası görüb ki, qız məhlə süpürür. Yəqin sağalıb, məhlə süpürür. Deyib ki, a bajı, səə noldu, nətəər oldu sağaldın? Deyir: «Oğlan gəldi, məə xançalı bir belə çəkdi, bir də belə. Məni sağaltdı. Heş dimə mənim qarnımda su zəhər imiş. Bir belə elədim, sığadım, deyir, yapışdı bir-birinə. Şaldan da bağladım, indi lap yaxşıyam. Da məndə heş bir azar-zad yoxdu.

Neysə, gələr şah, başdıyar söyünər öz-özünə ki, nə öldürdüm amma qızı. Bir gün, beş gün, bir ay, nəysə. Bir günnəri deyir ki, öyümüz uçux idi. Yaxşı ki, bu qızıl qalıb burda, yəqin yadlarınnan çıxıb. Bir minarə tikdiriblər. Deyir ki, alt-üst öylər tikdiriblər ki, nətəri, şahın qızılıynan. Bir günnəri şah oğlu seyrə çıxanda görər ki,

ya rəbbi, burda bir imarətgah var ki, nətərnə. Bir dənə gözəl qızdı. Saçını da belə töküb dalına, küləkdə gəzir eyvanda. Ayna-bayna gəzir, diqqətlə bunnara baxır. Deyir ki, nətər varsa, o qızı almalıyam. Qız da həmən qarnını yardığı qızdı. Atasına deyər ki, – öylərinnən baxanda imarət görünürmüş ha, gün də düşəndə par-par parıldayırmış, – nətər varsa, o qızı almalısan. Elçi gedillər, alıllar, gətirillər bu qızı. Üş gün-üş gecə padşah toy eliyir. Bu qızı götürüb gəlir. Toy gejəsi deyir ki, nolub buraa? Deyib ki, bilmirsən? Özün gəlib bıçax çəkdin, özün sağaltmadın məni? Onnan sonra padşah oğlu deyib ki, yazıya pozu yoxuymuş, tədbirə çarə yoxuymuş. Kişi doğrudan da düz deyirmiş, yazıya pozu yoxuymuş.

**II mətn**

Şahın bir oğlu olubdu. Oğlu deyibdi ki, ata, icazə versən sənin məmləkəti, ölkəni gəzərəm, mənim də ürəyim açılar. Mən çöl-bayır görərəm da. Yeganə bir oğlu var şahın. Deyir: «Yaxşı fikirdi, əla fikirdi». Hazırlıq görür. Uşax, deyir, hazırlaşır, at yəhərləyiblər. Gedəndə deyir ki, yox. Sən şah oğlusan, bildirjən hər yerə ki, mən şah oğluyam. Səxavətin olmalıdı sənin. Səxavət əhli olmalısan. Buna, deyir, kisələrdə qızıl qoyublar xurcuna. Köçən qıza kömək eləginən, evlənən oğlana kömək eləginən, uçux evə kömək eləginən. Sınıx körpülər olur, olara kömək eləginən, səxavətii göstər. Bu da bunu elədi, deyir. Dedi: «Hamma ağsakqal məclisində oturginən. Nə götürjəksənsə, ağsakqal məclisində götürjəksən». Oğlu atı mindi. Kəndbəkənd, şəhərbəşəhər gəzirdi, deyir. Ağsakqala rast gəlməmişdi. Amma qız köçürdü, düşdü getdi, deyir, əlinə bir kisə qızıl qoydu, yaylıxnan bağladı. Oğlan toy eliyir, onun toyunun xarcını çəkdi. – «Ala sənin toyunun xarcını mən eliyirəm». Uçux körpü gördü, dedi: «Kəndin ağsakqalı olarmı onu təmir eləsin, xarcı nədirsə onu mən verirəm». Dedilər» «Min dollar olarsa, biz onu edərik». Dedi: «Alın, mən qayıdan başı təmirli görüm ha, mən şah oğluyam». Amma bir dəfə bir cəpərin yanınnan keçəndə gördü bir ağsakqal yazı yazır seyvanda. Salam verdi. – «Ay ağsakqal». U da ağsakqal adam idi. Belə elədi sakqalınnan ki, yol burdandı. Ağzınnan yox ha. Sakqalınan belə elədi ki, yol ordandı. U da, deyir, atını hərlədi, bağladı, çıxdı seyvana. Bunnan əl görüşdü. Amma bu yazırdı əlində. Dedi: «A kişi, atam məə dimişdi... Mən şah oğluyam, atam məə dimişdi ağsakqallar məclisində oturginən. Amma sən heş danışmırsan». – «Mən bilseydim sən məndən söz soruşcan heş səni

çağırmazdım bu qapıya». Ağsakqal bu sözü dedi buna. – «Sən nə yazırsan axı burda?» Dedi: «Mən qismətdəri yazıram. Kim kimə qismət olcax». Dedi: «Məə kim qismət olcax». – «Hə bu saat əlimdə onu yazıram. Səə qismət olanı yazıram. Məsələn, Mürsəl kəndində kəndin lap ucqarında naxırçı var. Beş-on il bunnan qabağa xəstəsi var. Bir dənə qızları var. O da xəstədi. U qızı səə yazıram». Deyir: «Yox, yazma onu mənə». Dedi: «Yazmışam axı. Yazıya pozu yoxdu. Əlimdə yazıb qutarmışam». Durdu, deyir, atı mindi, çıxdı burdan. Gəldi, deyir, bu kəndi tapdı. Gördü ki, naxırçının qapısında çal-çəpəri yoxdu. Dedi elə bu olar kəndin ucqarında. Atını hörüklədi, naxırçını gözlədi. Gördü elə bir qoja kişi malı gətdi kəndə təpdi, evlərdən də buna çörək verdilər. Kimi arpa çörək, qatıx, kimi şor verdi. Qujağında gətdi, bu damkaya gəldi. Dedi «A dayı, Allah qonağı olar?» Dedi: «Keş gəl, ay bala, qapıya». Gəldi. Dedi ki, babamın bu günnəri qazandığı budu. Təərin çəkirsə, yeginən. Bu da yidi, deyir. Bu şah oğludu da, yidi, deyir, bunnan. Dedi: «Yorğunam, mal güdmüşəm axşama kimi, yatmax vaxtıdı. Amma iki dəst mitilimiz var. Bir xəstə qızımız var. Bir mitildə u yatır, bir mitildə də qarılı-qojalı biz yatırıx. İndi istəyirsən ananla burda sən yat. Arvadını ana hesab eliyir. Anannan burda yat, mən qızımnan yatım öydə. İstəyirsən, anası qızınnan yatsın, sən dədə-bala mənnən yatarsan. İstəyirsən sən qıznan yat, biz çöldə yatax qojalı-qarılı». Dedi: «Mən qızın yanında yataram». Bunun fikri ayrı idi da, qızın yanında yatmaxda. İndi bu xəstəyə dəymijəkdi ki? Deyir beş ilin, on ilin xəstəsi idi qız, evdə yatır. Bircə şorba içir, şorbadan başqa heş nə içəmmir. Deyir, yatdı. Gejənin bir vaxtı durdu, deyir. Döşünün arasınnan pıçağı soxdu, deyir. Bir kisə də qızılı başının altına qoydu. Atı mindi, çıxdı getdi. Qisməti pozur ha. Bu qismət məə olmasın. Neynirəm mən xəstə qızı, naxırçının qızını. Səhər, deyir, kişi durdu, deyir, malına getdi, arvad da durdu şorba bişirdi. Evə girəndə gördü çirk axıbdı döşünün arasınnan qızının. Amma heş nə yoxdu. Qızın gözü açıxdı. Dedi: «Ana, yimək istəyirəm». Dedi: «Bala, neçə irlərdi xəstəsən sən, yimək eşitməmişik səndən. Nə yaxşı». – «Ay ana, görürsən da yaram yırtıldı, yaram deşildi». Heş demə yara varmış iki döşümün arasında, çirk eliyibmiş. Onçan bu yiyib-içmirmiş. Beş gündən sonra qız durdu. Durdu başdadı məhlədə sil-süpür eləməyə. Dedi: «Ay oğul, yatajaxsan, yoxsa yeri yığım». Dedi: «Ay ana, yığ yerimi, da yatmıyajam». Yerini yığanda bir kisə qızıl tapdılar. Dedi: «Hə, bu qızıl, qoja kişiyik, qoja arvadıx, ömrümüzün axırına kimi

bəsdi». Kişiyə dedi mülkü sat, səhər köçək şəhərə. Bir qızdı köçürtcəyik, onnan sonra bu qızıl da bizim. Qızın mitilinin altınnan götürmüşəm. Bilmirəm bunu kim qoyubdu. Yaxşı fikir olduğuna evi satdı, gəldi şəhərdə yer evləri olur ey, da zdaniya evləri yox. Yer evlərindən ev aldı, həyətli məhlədən. Orda olullar. Şahın oğlu iki aydan, üş aydan sonra gəldi düşdü bu küçəyə. Atnan, deyir, bura gələsi oldu. Gördü gözəl bir qız var. Qız elə subaylaşıb, elə qəşənhləşib, deyir. Deyir: «Bir içim su verərsən?» Dedi: «Verərəm». Dedi: «Səə elçi göndərsəm, məə yox deməzsən ki?» Dedi: «Atam-anam bilər». Deyir, səfərini qutardı gəldi. Dedi: «Ata, səndən Allah razı olsun. Çöldə qalmaram da. Hara getsəm evim, tanış-tunuşum da var. Bir də ki, çölü-bayırı gördüm da. Səndən razı olsun, ay ata. Çox razı qaldım. Həyat görüşüm oldu». – «Onda – dedi ki, – qız da sevmiş olarsan». – «Sevmişəm, ata». O saatdarı anası dedi ki, şah qızıdı, vəkil qızıdı, prakror qızıdı. Dedi: «Yox, bir füğəra qızıdı». O bilmir ki, naxırçı qızıdı. Dedi: «Ay bala, bizi füğəraya niyə calıyırsan?» Dedi: «Ömrümün axırına kimi alsaz da odu, almasaz da». Dedilər bir dənə uşaxdı, istədiyini alağın. Aldılar gətirdilər. Qadında, deyir, üş gözəllik var. Bədən gözəlliyi, sifət gözəlliyi, bir də əxlaq gözəlliyi. Bu qızda üçü də olubdu: bədən gözəlliyi, sifət gözəlliyi, bir də əxlaq gözəlliyi. Deyir, u sarayda bunu alıb gətirəndən sonra bir dəfə görən ikinci dəfə görməyə həsrət çəkirmiş. Bir gün, deyir, qaynana, yəni şahın arvadı qızıynan hamama gedəsi oldular. Gedəndə görürlər u məlih-məlih baxır. Füğəra balasıdı da. Məlih-məlih baxır. Dedi: «Qızım, getmək istəyirsənsə, səni də hamama apara bilərik». Dedi: «Getmək istəyirəm mən də». Gəlir. Əvvəl, deyir, gəlinnən qız qaynananı çimizdirir. U qurulanannan sonra dedi: «Gedin siz də çimin». Çimizdirəndə, deyir, döşünün arasında yara gördü. Yara yeri var idi, burasında, deyir. Oğlunu çağırtdırdı. Gəldi. Dedi: «Aldığın qızdan hamı razılıx eliyir. Bir dəfə görən ikinci dəfə görməyə həsrət çəkirlər ki, onu bir də görəydik. Çox sağ ol, oğul, uduzmamısan. Əxlaq gözəlliyi, sifət gözəlliyi, bədən gözəlliyi bu qadında var. Amma bir eybi var. Demiyib ki, səə? Bu gün hamama aparmışdıx onu». – «Yox, demiyib». Deyir: «Get özündən örgən». Gəlibdi örgənib. Deyib: «Ana, u eybi nədi?» Deyir: «Bu döşünün arasında yara var idi, u nə olan şeydi?» Oğlan unu bilmiyib, görmüyüb da. Gəlib deyir: «Anam səni hamama aparıb?» Dedi: «Hə, aparmışdılar. Baldızımızı da aparmışdıx. Anamı çimizdirdik, sonra biz çimdik.

Razılıx eliyirdi». Deyir ki, amma anam səndə bir şey görübdü. Deyib ki, səən döşüü arasında yara yeri var. – «Mən füğəra bir naxırçının qızı idim. Xəstə idim özü də. Xıdır Nəbi bizə gəlmişdi. – U elə zənn eliyir Xıdır Nəbidi də. – Mənim bu yaramı dəlmişdi. Bir də başımın altına bir kisə qızıl qoyub getmişdi. Biz u qızılnan gəlib şəhərdən ev almışıx. Bu yara u yaranın yeridi. Yaramı dəlmişdi». Yaraya pıçağı soxan bu idi, özü idi da. Dedi: «Hə. Yazıya pozu yoxdu». U yazılmışdı axı. Özü dedi, yox, yazma. Ay oğul, yazıya pozu yoxdu. Yazıb qutarmışam axı. Getdi o da pıçax soxdu, gənə axırda ona qismət oldu.

## TƏYİN OLUNMUŞ ÖLÜM

Çıxıb, deyir, məmləkəti gəzirdi. Məmləkəti gəzəndə vəzirnən ikisi idi, deyir, bir kəndin içiylə gedirdilər. Gedəndə dedi: «Vəzir». Dedi: «Hə». Dedi: «Axşama düşmüşük, məmləkətə nə vaxd gedib çıxajayıx? Qonax saxlıyan olsaydı, qonax qalardıx bu gejə». Deyir ki, yaxşı, nə deyirəm. Yolun qırağıynan gələndə qapı görür, qapını açır, takqıldadır. Hay verir. Deyir: «Biz dərvişik, bizi beyjə Allah qonağı saxla». Deyir: «Allaha da qurban olum, qonağına da, gəl». Demək, isti vaxtı olub, kişinin də bir öyü var da. Bular başdıyır Allah verəndən yiyir-içir, bulara seyvanda yer salır. Yer salınıb yatanda bir vaxtı görür şah ki, öydə xımır-xımır səs var. Qapını açıb girib çıxıllar. Uşax səsi gəlir. Balaca uşax səsi gəlir. Deyir: «Vəzir». Deyir: «Hə». Deyir: «Bu arvad həmli imiş, uşağı olub. Gör biz hara gəlib çıxmışıx, ə». Bir az aradan keçmiş görür pilləkənnən bir şəxs çıxır. Şah görür. Deyir: «Ə, vəzir, qoyma bunu çıxmağa. Dinən ki, öydə həmli qadın var. Kimdi kişi heylağı çıxır». Deyir: «A kişi, hara gedirsən?» Deyir: «İçəri girirəm». Deyir: «Nəmənə girirsən». Deyir: «Bu oğlan uşağının taleyini yazmağa girirəm». Deyir: «Ə kişi, təzə olub». Deyir: «Təzə olduğuna görə taleyini yazajam». Deyir: «Vəzir, burax getsin». Buraxır, girir içəri. Çıxanda şah tutur bunu, deyir ki, dinən taleyinə nə yazdın uşağın? Deyir: «Taleyinə onun yazdım ki, on səkkiz yaşına çatanda öylənəjək. Öylənən gejəsi də canavar yiyəjək». Dedi: «Hə». Durdu şah, deyir, səhər blaknotuna bu kişinin adını yazdı, salamatlaşdı. Dedi: «Kişi, bilirsən nə var?» Dedi: «Yox». Dedi: «Oğlun on səkkiz yaşına çatajaxdı, evlənəjək. Evlənən günü məə dimısən, özü də mən şaham, səən boynu vuraram. Eşitdin?» Bu çıxır gedir məmləkətinə. Unu aynaan altına qoyub. Bu

oğlan on səkkiz yaşına çıxan vaxtı diib: «Vəzir, bu gün oğlanın on səkkiz yaşı tamam olur. Görək bu günnəri gələjəklərmi?» Bir vaxtı görür ki, bir kişi gəlir. Gəlir buna deyir ki, şah sağ olsun, bu gün oğlumun toy tədarüküdü, gələ bilərsən. Deyir: «Get, gələjəm». Toy tədarükü olur bunun. Axşam bu qoşununu götürür gedir toy məclisinə. Toy eliyir, qutarır, onnan sonra bəyi öyə salır. Apardığı qoşuna deyir ki, bu öyü üş cərgə gözləyirsiz gejə sabaha kimi, arazdan hünü keşmir. Bu evdə bir fəlakət olsa, hamızın başını vurajam. Bir kişini, bir cannı-cinnini buraxmırsız öyə. Kişiyə deyir ki, mən səhər gəlincə qapını aşmırsan. Mən səhər gəlirəm, onnan sonra açırsan. Deyir: «Baş üstə». Şah gedir yatır məmləkətində, səhər tezdən durub vəziri götürüb, atını minib gəlir. Gələndə deyir ki, qapını kimsə açmıyıb ki? Deyir: «Yox». Hə. Öy yiyəsinə deyir ki, aş qapını. Qıpını takqıldadır. Zənən açır qapını. Zənən açanda şah da görür, öy yiyəsi də görür ki, bunun üstü-başı qandı. Deyir: «Bu nə üst-başdı?» Deyir: «Mənim üst-başım bilmirəm niyə qan olubdu. Bu oğlanı öyə salan kimi mən oldum canavar. Bu oğlanı təmiz yimişəm». Hə. Şah deyir ki, kişi. Deyir: «Hə». – «Bu qızlıq burda heş bir şey yoxdu ha. Bu qızı kim alırsa, qoy alsın. Bu bir dəfə yazılıbdı. Həmən mən sənin öyündə qalan gejəsi bunun taleyinə yazılmışdı ki, evlənən gejəsi canavar yiyəjək. Bu dəstəən də mən qoydum ki, vəşi heyvannar gələr, girməsin. Səən oğluu xilas eləməkdən ötrü. Heş demə onun özünü əlimiznən salmışıx içəri, oğlunun yanına buraxmışıx». Belə şeylər olubdu vaxtilə keşmişdə. Demək, Allah-tala öz varlığını sübut eləməkdən ötrü.

## ALIN YAZISI

Oğlan çox dəqiq bilirdi ərəb əlifbasını. Bir gün görür yoldaşının alnı cızılıbdı. Gördü yazılıbdı ki, sənin bu yoldaşın bir ay öz yolunu azajaxdı. Yolunu azan vaxtında çörəyini-yazını rahladı, anasına dedi ki, Allah-talanın qanunuynan mən getməliyəm evdən. Amma mənim yoldaşım nə iş tutursa, heş dinməginən. Dedi: «Yaxşı». Bu oğlan çıxdı getdi. Bu bir ayda qadın cızığınnan çıxdı. Ayan-bayan, axırda arvad dedi ki, qayınanası da, bizim başımıza nə oyun gətirirsən sən? Diyəndə oğlan gəldi gördü ki, cənnətdik gəlinin üzündə, cəhənnəmlik anasının üzündədi. – «Ana, gəlinə nə dedin?» Dedi: «Bəs, belə». Dedi: «Səə dimədim dinməginən. Allah tərəfinnən gələn bəlanı bəndə saxlıya bilməz». Hə, indi var belə şeylər.

# LƏNƏTLƏNMİŞ UŞAQ

Öydə, deyir, namaz qılırdı. Namaz qılanda anası, deyir, bunu çağırdı. Namaz üstündə oldu, hay vermədi. Anası dedi ki, səni böhtana düşəsən, ay oğul. Məə niyə hay vermirsən, mən səni çağırmıram? Uşax bu sözü eşitdi, deyir. Vaxt gəldi bu uşax böyüdü, deyir, alim olası oldu. Kəndin mollası oldu. Molla seçəndə bir şəxs, kadın camaat bunu toladı, bunu şərlədi. Padşahların dövründə olub. O vaxtı şərlənən adamı daş-qalax eliyib öldürürdülər. Onu daş-qalax eliyəndə bir kadın gəlir. Padşaha xəbər verirlər ki, filankəsin boynuna uşax düşübdü. Deyir ki, sizin molladandı. Padşaha xəbər verir. Padşah deyir: «Gəlsin bura». Deyir: «Bu qadın deyir ki, bu uşax səndəndi». Deyir: «Məndən döyül. Mənim xəbərim yoxdu». Deyir: «Sabannarı səni daş-qalax elijəm». Sabannarı camaata elan eliyir ki, filan mollanı daş-qalax eliyəjəyik, gəlin. Yuxuda buna Həzrət Cəbrayıl deyir ki, səni daş-qalax eləməyə aparanda padşaha bir dənə sual ver. Dinən bu üş gündü olub uşax. Bu uşax durub öz atasının adını desə məndən əl çəkərsizmi? Onda padşah özü nə hə dijək, nə yox. Bu başdıyır namazını qılır. Deyirlər ki, gəlsin boynunu vurax. Deyir: «Gedim anamnan halallıx alım». Gəlir anasının yanına, deyir: «Ana». Deyir: «Hə». Deyir: «Sən o vaxtı namaz qılanda öydə, deyir, məə dedin ki... Çağırdın, mən hay vermədim. Sən mənə dedin ki, səni böhtana düşəsən. İndi ay ana, o uşaxdan mənim xəbərim yoxdu. Mən böhtana düşmüşəm. Sən mənə halallıx verginən mən o böhtannan xilas olum». Anası dedi ki, ay oğul, mənim səə elədiyim bəddua halal xoşun olsun ana südü kimi. Mən bilməmişəm, başa düşməmişəm sənin namaz üstündə olduğunu. Allah səni o xatadan hifz eləsin. Xatadan səni kutarsın. Halallığını alır, gedir padşahın yanına. Padşah deyir: «Hə, nə istəyirsən?» Deyir ki, bu qədər millətin hamısını yığmısan bura, mən hazıram. Amma bir xayişim var. Bu üşgünnük uşax gəlsin bura, öz atasının adını desin. Dedi, mən xilaskaram, demədi, yox. Dedi: «Ə, dəlisən, üşgünnük uşax ayağa durub atasının adını dijək?» Dedi: «Naxışımadı da, nağarım». Getdilər, deyir, uşağı bələkdə gətirdilər, arxası üstə yerə qoydular. Yerə qoydular, ayəni oxudu, dedi: «Ay uşax, məni bura gətiriblər məndənsən deyib. Öz atan kimsə Allahın hüzurunda dur məni burdan xilas eləməyə cavab ver». Uşax, deyir, durdu oturdu. – «Dağda filan ləzgidən mən anamın boynuna

düşmüşəm. Mən filan ləzgidənəm. İnanmırsız, gedin o ləzgini gətirin, mənim atam odu». Padşah dedi: «Bu böhtandı». Padşah getdi ləzgini gətirdi. Ləzgi dedi: «Hə, bu mollanı şərləməkdən ötrü mənə dedi gəl mənlə əlaqə yaşa. Mən onunla əlaqə yaşadım, boynuna uşax düşdü. İndi, dedi, heylə deyir». Onnan sonra o xilas olur.

İndi analar var uşağa elə bəddua eliyir ki, deyir anaan südü keçmir. Yox, anaan südü elə keçir ki, yeddi qatına da. Elə ağzınnan çıxan kimi o uşax bəlaya düşür. Ataan bədduasınnan da betərdi. Ona görə ki, Allah-tala demişdi: «Allah, ana, ata». Peyğəmbərə sual verirlər ki, evlad yanında birinci kim cavabdehdi? Dedi: «Ana». Dedi: «Ya peyğəmbər, kim cavabdehdi?» Dedi: «Ana». Üçüncü bir də xəbər aldı, dedi: «Ana». Dördüncü dedi: «Ata». Dedi: «Niyə». – «Ana, – dedi, – bətnində dokquz ay gəzdirir. Dokquz aydan sonra onu yuyur, təmizləyir, yuxusuz qalır, zəhmətini çəkir, yedizdirir, içizdirir. Yuxusuna haram qatır. Oğul öyləndirir, qız köçürür. Ata zəhmətnən çörək qazanır. Onunçan atanın əziyyəti birdi, ananın əziyyəti üşdü».

## İVRAAMIN NAĞILI

Bir dənə şah olar, bunun arvadı ölər. Arvad öləndə diyəllər ki, ay kişi, gəl filan ölkədə şah var, özü ölüb, arvadı qalıb, gedəh onu sənə alax. Diyər: «Yaxşı». Gedəllər, bunun arvadını alıb gətirəndə bunun iki dənə oğlu qalar. Birinin adı İvraam olar, balacasının, böyüyünün adı Aslan olar. Bular görər ki, gəcavəynən atalarına arvad gəlir. Gəcavənin qabağına çıxıllar. Qadın gəcavədən baxır ki, iki dənə oğlan gəlir, bir-birinnən gözəl. Deyir: «Bunun ikisinnən biri, hara getsə, mənim yoldaşımdı». Bəli. Axşam gəlir, yiyib-içib yatanda görür sakqalı döşündə bir dənə şah. Üstünü vurmur. Şahın da qırx mərtəbə otağı var imiş. Səhər açılır, deyir: «Şah sağ olsun, ha bu oğlannarın birini ver, bu qırx mərtəbə otağı açım baxım, qıbıllıyım. U aşsın, mən baxım». Daa bilmirəm uşaxların hansını verir, İvraamı verir, yoxsa Aslanı verir, verir birini, gedir. Axırıncı qapını açanda oğlannan yapışır ki, hara gedirsən, mən sənnən yaşamax istəyirəm. – «Aaz, sən mənim anam». Deyir: «Yox». Pencəyinin ətəyini kəsir, çıxır uşax əlinnən. Uşaxdan qabax gəlir kişinin yanına, şahın yanına. – «Sənin oğlun məni ələ salmax istəyir». Şah çağırır vəzir-vəkili, deyir ki, aparın İvraamın da, Aslanın da boynunu vurun, qanlı köynəyini mənə gətirin. Şahdı, nə ixtiyarı var? Aparıllar uşaxları. Diyillər ki, paltarınızı çıxarın, verin aparax bir heyvan qanına buluyax, çıxın gedin

başqa yerdə yaşıyın. Verir, gedillər. Az gedillər, çox gedillər, bir künbəzdə axşamlıyıllar bular. Balaca qardaşı İvraam olur. Aslan deyir ki, a qardaş, sən yat künbəzdə, gedim Əmirmahmud kəndinnən bir tikə çörəh tapıb gətirim. Gəlir, görür ki, iclasdı. Keşmişdə şahı qızıl quşnan seçəllərmiş. Bu, deyir, oturajam burda, görüm bular nağarır. Oturur burda camaat kimi. Qızılquşu buraxıllar. Hərlənir, fırlanır, gəlir qonur bu Aslanın çiyninə. Bunun təpəsinə bir qapaz. – «Ə, buna bax, bu yetimə, hardan gəldi çıxdı. Yönnü adamın başına düşdü?» Bir də buraxıllar, gənə gəlir. Üçüncüdə bunu aparıb bir damkaya salıllar, quşu buraxıllar. Üş dəfə hansı adamın çiyninə düşərsə qızılquş, unu şah təyin eliyillər. Quş döyr eliyir, görür yox, gedir buxovdan girir, düşür Aslanın çiyninə. Diyillər: «Bunu şah qoyax». Bu Aslanı burda camaat şah dikəldir. Balaca qardaş qalır künbəzdə. Bir qırx haramıbaşı Ziyad vardı. Gedib çöldə heyvan ovluyub gətirib onunla dolanırdılar. Bir günü ovdan qayıdanda künbəzdən yolu düşər, ovları olmaz. Uşağı tapallar, deyəllər: «Səni, axşama yeməyimiz var, aparağın bunu kəsəyin, yiyəyin». Bu haramıbaşı Ziyad deyir: «Ə, bir qara inəyim var, onu verim sizə, bunu aparım özümə oğulluğa». Keçəlin biri diyər ki, yox, bunun ayağı səbəb olajax, çörəh tapajam. Nəsə, inəyi bağlayıb başını verir bulara. Aparıb kəsib bölüşüllər. Ziyad bularnan haramılığa getmir. Bu oğluynan gedir, ovluyur, quşluyur, gətirir. Bular qalıllar avara. Topalanır beş-on dənəsi, deyir: «Ə, gəlin adama beş-beş yığağın, nə çox ananı baladan, balanı anadan ayıran imansız qarı. Bu İvraamı bunnan eyləsin, onda biznən haramılığa gedər». Adama beş-beş yığıllar, bir imansız qarıya verillər. Qarı bu Ziyadın evinin qabağınnan keçirdi. Ziyadın arvadı deyir: «Ay xala, sən nə bərk gedirsən gündə?» – «A köpək qızı, sən beləsən». – «Nətəri?» – «Bəs İvraam deyir ki, Ziyadın arvadı gündüzlər Ziyadındı, gejələr mənim». – «Aaz, bəsdi». Deyir: «Vallah, bax kətdə sur düdüyü çalınır». Deyir: «Dayansın kopoğlu, axşam gələr bura. Səni, onun boynunu vurdurajam. Mənim indiyətən ad-sanım, mənim indi adım çıxsın, biyabır olum?» Ziyad axşam ovdan gəlir. İvraamnan küçənin başında dayanıllar. Deyir: «Bala, apar ver Zəni xala bunu bişirsin». Gəlir: «Ay xala, ala bunu...». – «Kəs kopoğlu». Söyür uşağı, biyabır eliyir. Gəlir deyir: «A Ziyad dayı, verdim, vallah, arvad məni söydü biyabır elədi». Gəlir. – «Ay arvad, niyə söyürsən?» Deyir: «Ə, gedib adam tapıb gətirmisən, məni biyabır eliyibdi. Filan qarı bu gün mənim abrımı tökübdü». Deyir: «Yox, aparıb qannı köynəyini mənə gətirməsən səndə bir saat da oturmujam». – «Nəhlət səə şeytan». Deyir: «Yaxşı».

Uşağı gətirir künbəzə, deyir: «Ay oğul, səni bu künbəzdən aparmışdım?» Deyir: «Hə». Deyir: «Köynəyi çıxart ver, aparım heyvan qanına boyayım, verim arvada, səsini kəssin. Özün burdan belə hara gedirsən get». Uşağın köynəyini alır dəyişdirir, uşax qalır künbəzdə, köynəyini gətirir verir arvada, arvad səsini kəsir.

İvraam künbəzdə yatanda gejə bunun yuxusuna qız girir. Deyilənə görə, yastığı dəyişəndə bu səfər bu gedir qızın yuxusuna girir. Durur, nəysə, deyir: «Səni, gedib bu qızı tapajam». Gedir şəhərdə görür bir halva satan Musa var, halva satır. Durur Musanın dükanının ağzında. Musa kişi baxır görür ə, bu nə halva alır, nə də çıxıb gedir. Axşama kimi sonudub durub burda. Deer: «Ay oğul, sən kimsən axşama kimi durmusan burda, nə halva almırsan, nə alver eləmirsən, elə durmusan». Deer: «Vallah, ay dayı, belə bir qızın eşqinə gəlmişəm». Deyir: «A bala, vallah, ona qırx gündü toydu. – Keşmişdə qırx gün toy eliyirdilər. – Səni gəl mən oğulluğa götürüm, işdiyəh». Deyir: «Nə deyirəm». Bu halvaçı Musa bu oğlanı – İvraamı oğulluğa götürür. Bayaxdan bir teşt halva satırdısa indi, İvraamın eşqinə üş teşt, dörd teşt satır. Bu qız da çıxır şəhərə ki, görüm bu yuxuda gördüyüm oğlanı görə bilərəmmi? Gəlir görür ə, səni, qızlar elə topalanıb bu Musanın dükanının ağzına. Deyir: «Ə, gedim». Gəlir görür səni həmən yuxuda gördüyü oğlan burdadı. Yanaşır oğlana, deyir: «Sənin məskənin hardadı?» Deyir: «Bu Musa kişinin evidi». Hə. Gəlir atasına deyir ki, ata, indiyədək olan toy kodan döylü, təzdən qırx gejə toy çaldır. – «Ay qızım, Allaha...». Deyir: «Yox. Çaldırmasan, ərə getmərəm». Kişi vadar olur toy çaldırmağa. Qız başdıyır öz işinə. Bütün yeraltı yol qazan cuhud adamları çağırır. Bir cuhud gəlir, on beş günə, hansı gəlirsə bir aya, ay yarıma. Cuhud gəlir, deyir: «Ləmpəni sən tutsan, torpağını qızlar daşısa, səə on beş günə Musa kişinin öyünün altınnan yol çıxardaram». Qız da, deyir, hökümlü qız idi, şah qızı idi. Deyir: «Oldu. Hakqıı da verəjəm artıxlamasıynan». Qız başdıyır halvaçı Musanın evinə on beş günün tamamında yolu salır, oğlannan get-gəl eliyir.

Bu burda olmaxda olsun, səə kimdən söylüyüm, qardaşı Aslannan. Aslan şah keçən kimi bütün şəhər əhlini yığır, deyir: «Ey şəhər əhli, belə bir qardaş itirmişəm, adı İvraamdı. Onu kim tapıb gətirsə bu şəhərin naloğunu, töycüsünü yığsın, olsun onun». Bu şahın da bir dənə paşası varmış, gəmiynən başqa ölkəyə mal aparırmış. O deyir yaxşı, bu deyir yaxşı. Bu halvaçı Musa halvasını satmaxda ola, bir Şəmin Qara cuhud olur. Tilsim imiş. Torpağı püflüyürmüş, olurmuş qızıl. Gedir bir şahın qızına gözü düşür. Şah deyir: «Ə, sən nəsən, get

oğluu gətir, verərəm qızımı. Sən cuhud adamsan, sakqalı döşünnən, nolsun pulun, qızılın var». Düşür: «Ə, burda mənim, orda sənin, kimi mən aparım tilsimə salım». Gəlir bu oğlanı tapır, İvraamı. İvraam da çox gözəl bir oğlan imiş. Nəsə, yaxınnaşır, səən kimi oğlana deyir: «Bu halvaçının adı nədi?» Deyir: «Musa. – «Atasının adı?» – «Filankəs». Yaxınnaşır: «A qardaş, xoş-beş». Deyir: «Sən mənnən hardan qardaş oldun?» Deyir: «Ə, mən balaca uşax idim. Çıxdım getdim, indi gəlmişəm, məə də burdan bir balaca dükan düzəldəh, qızıldan-mızıldan satım başımı dolandırım». Deyir: «Nə deyirəm». Bu Musa kişinin böyründə bu da bir – nə bilir fırıldağı nədi, – bir butka düzəldir. U da torpağı pülüyüb qızıl satırmış. Beş gün-üş gün satannan sonra bir gün gəlir ki, a qardaş, qızılı satmışam, pulunu hesablıya bilmirəm, bu İvraamı ver hesablasın, gənə gələr. Gətirir kağızı-kuğuzu tökür qabağına, okqədər uşax çort-mort, yuxu tutur bunu. Bunu Dağıstana aparajax, Dağıstandadı bunun istədiyi qız. Tez eninə-uzununa ip tutur, səhər durğuzur, deyir: «Ay bala, qalanını da sabah gəlib hesablıyarsan». Aparır zərgərə verir ipi, deyir: «Ala, nə qədər pul, qızıl istəyirsən verim, məə poladdan bir dənə sandıx qayırarsan, eni-uzunu bu». Gətirir sandığı xəlvəti qoyur evinə. Gənə axşam kəsir halvaçının qapısını. Deyir: «Ay qardaş, İvraamı ver, qalanını da hesablasın gənə gətirərəm, ötürərəm». Deyir: «Ay bala, dur get». Durur gedir. Gənə kağız-kuğuzu tökür, çort ayana-çort bayana, gejədən xeyli keçir, yuxu tutan kimi əlini-ayağını bağlıyır sandığa basıb, ya Allah, getdik Dağıstana. İki ay on bir gün Dağıstana yol gedir polad sandığın içində. Orda açır, deyir: «Gəl düş qabağıma». Gedir Dağıstana, aparır şahın hüzuruna, deyir: «Şah, gətirmişəm, bu da mənim oğlum». Deyir: «Hə, bax indi oğlaa verirəm». Nəysə, İvraama verir qızı. Cuhud deyir: «Kopoğlu, adı sənindi, amma mənim arvadımdı. Səni, gözüü dinc qoymasan, gözüü basıb çıxardaram». Qadının indi eytibarlığına bax. Qadın deyir: «Zərəl yox, İvraam, nə bilir eləsin cuhud». Alır qızı şahdan İvraamın adına. Həmən şahın gəmisi gedib çıxır Gəldan paşanın torpağına. Paşa deyir: «Sənə nəqədər istəsən qızıl verəjəm, gümüş verəjəm, qıznan məni qabax gəmiyə qoy, İvraamı dal gəmiyə qoy. Dəryanın ortasında kəndiri kəs, qoy batsın, qərq olsun. Qızı mən aparım keyf eliyim». Qız deyir: «Zərəl yoxdu, nə bilirsən elə, cuhud». İvraamı qoyullar dal gəmiyə, qıznan cuhud qabax gəmidə. Dəryanın ortasında cuhud əmr eliyir, kəs! İvraamın kəndirini kəsir dəryanın ortasında. İvraam qalır. Gəmiçi Gəldan qıznan cuhudu çıxardır qırağa. Qız əmr eliyir cuhuda ki,

dəryanın ortasında bir dənə otax tikdirirsən, urzası içində, pilləkənsiz. Ancax kəməndnən qalxajax, kəməndnən düşəjəyik. Cuhuda nə vardı, pulu, qızılı, tikdirdi.

Bular burda tikdirib yaşamaxda olsun, İvraamın gəmisini su ləpələndirə-ləpələndirə çıxardır dəryanın qırağına. Qız baxdı gördü ki, qırx mərtəbə otaxdan, balkonnan, İvraam çıxıbdı, dəryanın qırağında gedir. – «Ə, ey, bəri qayıt». Qayıtdı, kəndiri saldı, dartdı qoydu oğlanı yanına. Hə. Dartdı qoydu yanına. Cuhud şəhərdədi. Şəhərdən qayıtdı, gəldi gördü, səni, həmən oğlan qızın yanındadı. Cuhud təzədən qayıtdı getdi başı yalolu şahın hüzuruna. – «Şah sağ olsun, bir Allah bəlası mənim halal arvadımı alıb əlimdən». Amma bilmirdi İvraamın qardaşıdı bu Aslan. Hə. Şah çağırdı vəzir-vəkili, dedi: «Gedin oğlanı gətirin bura, görüm nətər oğlandı, niyə bu cuhudun arvadını alıb?» Vəzir-vəkil gəldi, altdan yuxarı piləkəni yoxuydu evin. Dedi: «Ay qız, oğlanı ver, şah çağırır». Dedi: «Dilizdən iltizam verin, müqəssir də olsa gətirib səə verəjəyik, sonra şah boynunu vursun». Dedi: «Oldu». Bağladı kəndiri arxasına, salladı. Dedi: «Get, İvraam». Hə, iclas quruldu ki, görək, buna şah nağarajax. Gətirdilər milisonerin qabağında dustax gələn kimi. Amma Aslan tanımışdı qardaşını. Amma İvraam tanımamışdı. Əl-ayağı bağlı gətirdilər şahın hüzuruna. Camaat baxırdı bunnan onatan. Şahın bir dənə qapıçısı vardı, bir oturuma da qırx dənə yuxa yeyirdi, doymurdu. Qapının ağzında qoydu ki, içəri gələni qoy gəlsin, amma çölə çıxanı qoyma. Bəlkə müqəssiri var bu adamın burda. Hə. Durğuzdular İvraamı ayağa, dedi ki, şah sağ olsun, saz verin, saznan diyəjəm. Gətdilər, deyir, İvraama saz da verdilər. Siftə bunun kəndirini kəsən Gəldan paşaya qoşdu. Dedi:

> Qurban olum sənin kimi ağaya,
> Ağa olan qulun verməz ayağa.
> Gəmiçi Gəldan paşa kəndirimi kəsdi, qərq elədi dəryaya,
> Dilbilməz əlinə düşdüm, neynəyim.

– «O biri kəlməni də de». Dedi:

> Qurban olum sənin kimi Astana,
> Əyri qılınc dar gərdəndə paslana.
> İki ay on bir gün polad sandıxda getdim Dağıstana,
> Dilbilməz əlinə düşdüm, neynəyim.

Şah özünnən getdi: – «Ayə, səni bu mənim qardaşım İvraamdı. Yoxsa bu hardan bildi adımın Aslan olmağını». Ayılannan sonra görüşdülər, xoş-beş, on beş, dedi: «Ə, sən mənim qardaşım İvraamsan? Mən səni göydə axtarırdım, yerdə əlimə düşmüsən». Dedi: «Sənin

kəndirii bu Gəldan paşa kəsdi?» Dedi: «Hə. Dəryanın ortasında kəsdi, qaldım orda, su ləpələndirə-ləpələndirə çıxartdı qırağa». Dedi: «Ə, Gəldan paşa, bu boyda dəryanın gəliri səni doyuzdurmadı, elə mənim qardaşımın kəndirini kəsməh sənin qarnını doyuzdurajax». Açdı xəzinəni, deyir, bir pud qızıl, bir pud gümüş... çağırdı zərgəri, dedi: «Ərit tök gəmiçi Gəldan paşanın xirtdəyinə, qoy ölsün. Bir belə dəryada bu kopoğlu doymuyub, mənim qardaşımın kəndirini kəsməknən...». Qaldı qarı. U imansız qarı var ey, unu Ziyaddan eyləmişdi. Qarı istədi qaça, qarıya dedi ki, sən idin mənim qardaşımın boynunu vurduran. Gedin, dedi, ilxıdan bir dənə ürkən qatır tutun gətirin, özü öz kölgəsinnən qorxan, qarını bağlıyın quyruğuna, buraxın. Qarı bilər, qatır bilər». Hə. Həmən oğlanı – İvraamı təzədən o qıza qardaşı Aslan toy elədir. Bunnan da qutardı. İndi ona görə deyirəm ki, arvad yıxmayan öy illərnən tikili qalır. Arvad gör atadan övladı hancarı ayırdı.

## ŞAH VƏ QƏSSAB

Şəhərdə gəzirdi vəzirnən ikisi, ət dükanının qabağınnan keçəndə gördü ki, bir dükanda uçret uçretin dalındadı. Qalan adam ağzını ayırıb baxır, amma alan yoxdu. Amma bu bir dənə dükan basa-basdı, əti kəsdirib çatdırammır. Yaxınnaşdı vəzirə dedi ki, burda nəsə var, bura baxmax lazımdı. Yaxınnaşdı gördü ki, bir dənə adamdı, ikinci adam döylü ət verən, özü də uçretnəndi. Nəqədər istəyirsən? Deyir: «Bir kilo». Bircə dənə qiyməkeşnən vurur, qoyur ora. Bismillahi-rəhmani-rəhim eliyib bir qiyməkeş vurur, götürür qoyur tərəziyə, bir kilo. Çıxardıb pulunu verir. Da una baxmır bir manatdı, bir köpükdü, tulluyur ora – daxıla, onunçün camaat bura gəlir. Deyir: «Vəzir, bilirsən nə var?» Dedi: «Yox». Dedi: «Bunnan ət alax, gör, dedi, bu qəssabın anasını mən nətər ağladajam». – «Nə deyirəm, dedi, şah sağ olsun». Yaxınnaşdı uçred çatdı, dedi: «Ordan iki kilo ət ver məə». Verdi. Bismillah eliyib qiyməkeşi bircə kərə vurdu, qoydu tərəziyə, iki kilo gəldi. Dedi: «Ala». Dedi: «Bağışda məni, mənim pulum yoxdu, ala bu barmaxcılı, sabah pulu gətirəndə barmaxcılı alajam sənnən». Dedi: «Yaxşı». Bismillah eliyib aldı, dedi, tulladı daxıla.

Nəysə, deyir, baş qarışan vaxtı bu ordan çıxıb işəməyəmi gedən vaxtı bu pusurdu, barmaxcılı qaldı orda. Vəzirə dedi ki, oğurlamax lazımdı. Oğurlatdı. Yolun bayankı tərəfinnən bir arx gedirdi. Bir balaca

burğana kimi yer varıydı. Dedi: «Bura tullasax, bura manşırladı, sonra taparıq». Barmaqcılı tulladı, deyir, ora, çıxdı getdi. Getdi, deyir, nəysə, bir adama qonax oldular, yidilər, işdilər, yatdılar. Qəssab səhər tezdən dükanı açanda gördü uşax əlində bir balıx bərdən arı gedir. Dedi: «Oğul, satırsanmı?» Dedi: «Hə». Dedi: «Ala pulu, ver məə». Verəndə gördü içində üzük. Üzüyü aldı, deyir, dükanın içində yardı, tulladı daxıla. Üzük də bu kişinindi, şahındı. Tulladı, deyir, daxıla. Nəysə, bir qədərdən sonra dedi: «Qəssab sağ olsun, ala hakqını, üzüyü ver məə». Bismillah eliyib pulu aldı, daxılı çəkdi, dedi: «Ala üzüyü». Şah, dedi, məhətdəl qaldı. Dedi: «Bu nə görəcəhdi? Bunu mən, dedi, vəzir, sənin yanında tullamadım ora?» Dedi: «Hə». Dedi: «Bəs bunu hardan aldı bu?» Dedi: «Nə bilim?» Dedi: «Axşam buna qonax olax». Bağlıyıb gedəndə dedi: «Bizi də mehman eliyərsənmi?» Dedi: «Allahın qonağına da qurban olum, özünə də, o nə sözdü, gedək». Getdilər. Otdular, yidilər, işdilər. Dedi: «Bir dənə şeyə – dedi, – məhəttələm». Dedi: «Nəyə?» Dedi: «Barmağımdakı üzüyü görürsənmi?» Dedi: «Hə». Dedi: «Məə di görüm bu sənin daxılında yox idi, hardan gəldi ora». Fikirləşdi, fikirləşdi, dedi: «Səhər-səhər... Bax u yidiyin balığı görürsənmi?» Dedi: «Hə». Dedi: «Bu balığın qarnınnan bir dənə üzük tapıb daxıla tullamışam. Qoy gedib baxım». Getdi baxdı, gördü yoxdu. Dedi: «Həmən üzükdü ki, balığın qarnında gəlib». Şah çox zalım idi, dedi: «Bilirsən?» Dedi: «Yox». Dedi: «Zalımlıx bir şey döylü. Gərəh, dedi, bu zalımlığı mən də tulluyam bu günnən». Qayıtdı, dedi, taxta çıxanda qanustusiyanı dəyişdi, zalımlığı. Şah daa, deyir, yumşaldı. Əhalini buraxdı başına. Hə. Bu, deyir, Allah vermiş bir adam olur. Hə, bax rəvayətdə bu da var.

## ŞAH ABBASIN SINAĞI

Hər ildə bir dəfə səyahətə çıxırmış, öz ölkəsini gəzirmiş. Bunnan xəbərsiz milçək uşsa, bu bilməliymiş. Gedir bir meşənin kənarıynan. Keçəndə görür ki, meşənin ortasınnan tüstü gəlir. – «Əyə, bu nejə tüstüdü? Bu nə olan şeydi mən bilmirəm bunu?» Ordan-burdan hərlənir, yaxınnaşır tüstüyə. Görür ki, burda əməlli başlı həyat qurulub belə bizimki kimi. Ortada daxma da düzəlib. Burda bir oğlan, bir qız girilər içəri, çıxıllar, nağarıllar. Gedir bu başdıyır çağırır: «Ay öy yiyəsi». Gəlirlər. Oğlan gəlir. – «Allah qonağı istəyirsənmi?» Deyir: «İstəyirəm, niyə istəmirəm». Gətirir bunu öyə. Görür ki, komadı, komanın içində iki dənə qıravat qoyulub. Qıravatın biri

qapının ağzındadı, biri də belə qoyulub. Hə. Padşah olduğun nə bilirlər bular. Padşah bunnan şübhələnir ki, gorəsən bular ər-arvaddı, yoxsa bajı-qardaşdı. Buları da, qovallar hardansa, gəlib daldalanallar bura. Heş bunun üstünü vurmur. Buna yaxşı yemək-işmək təklif eliyirlər. Yiyir-içir, çəngəl-pıçax, o vaxtı olmuyan şeylər qoyullar bunun üstünə, paccah tanımıyan şeyləri. Paccah yiyir-içir. Bu qız ayın-oyunu yığışdırıb çıxanda, oğlan da nəysə çıxan kimi... Yox, bulardan soruşur ki, siz məə deyin görüm, burda ər-arvad yaşıyırsız, yoxsa bajı-qardaşsız? Deyirlər ki, biz bajı-qardaşıx. – «Nətəər olub gəlmisiz?» Deyir: «Nə bilim, elə belə çıxıb gəlmişik, burda yaşıyırıx». Hə, buların başını qarışdırır padşah, çəngəl-pıçağın bir dəstini götürüb qapının ağzındakı qıravatın altına tulluyur, gəlir oturur. Sonra sağ olun, sağ olun. Gedəndə bulara adres verir. Deyir: «Alın bu adresi, lazım gəlsə, məə yazarsız. Sizə nə köməklik istəsəz eliyərəm». Bunun gənə də bilmiyiblər padşah olduğunu. Bu gedəndən sonra yığışdıranda görürlər ki, çəngəl-pıçax yoxdu. Əyə, bunu, oğlan ölmüş, harasında apardı. Bunda heş nə yox idi, filan. Götürüb yazıllar buna ki, sən gəldin bizim yiməyimizi də yidin, çörəyimizi də yidin, çayımızı da işdin. Gedəndə bizim çəngəl-pıçağımızı oğurlayıb aparmısan. Bu götürüb bulara yazır ki, siz orda ər-arvad ola-ola məndən dandınız ki, biz ər-arvad döyülük, bajı-qardaşıx. Çəngəl sizin qapının ağzındayı çarpayının altındadı. Baxıb görüblər çəngəl orda. Bu kişi buları sınıyırmış.

– Dayı hardan bildi ki, bular ər-arvaddı?

– Əyər qıravatdar ikisi də açılsa, çəngəl-pıçağı görərdi da. Gör nə usta adamlar olub keşmişdə. Gör nə bilikli adamlar olub keşmişdə. Kimin ağlına gələrdi o. Heylə ağıllı olmasa, onnan padşah olar? Olmaz.

## ŞAH ABBAS VƏ BƏNNA

Vəzir Allahverdi xanla Şah Abbas ikisi getdiyi yerdə, məsla-hatını vəzir Allahverdi xana deyərmiş Şah Abbas. Görüblər ki, bir nəfər öy tikir bişmiş kərpişdən. İkinci mərtəbədə usta durubdu, yer-dən bu fəhlə kərpici atır, kərpiş qalxır unnan da yuxarı, aşağı enəndə tutur qoyur yerinə. Bular belə baxıllar. Bu nə sirdi? Vəzir Allahverdi xan deyir ki, mən öyrənəjəm. Nəsə, hərlənir gəlir buların qonşulu-ğunda bir nəfər qadınnan soruşur ki, bəs belə-belə hak-hesab var. Bu nə sirdi? Bu arvad da deyir ki, onun bir yoldaşı var, u axşam işdən

gələndə bir əlində aftafa, bir əlində sabın, çiynində dəsmal, çıxıb yola ərinin əlini-üzünü yuyur, təmizləyir, özü də tutur qolunnan aparır öyə. Bu şeydən ola bilər. Bu arvadı yoldan çıxarır. Obşim, gəlir görür arvad bu gün onun qarşısına çıxmadı. Nəsə. Gedir evə bikef, çörəyini-zadını yiyir, yıxılıb yatır. Səhər durub yenə gedir işə. Axşam bir də bu hak-hesab olur. Səhərisi gün gedir işə, kərpici nə qədər eliyir ata bilmir yuxarı. Kərpic qalxmır. Bunun yoldaşı həm gözəldi, həm də o qədər mehribandı ki, çıxır yoldaşı bunun əlini-üzünü yuyur, sabınnayır, evə aparır. Bunun həvəsinə bu işdəri bu görürmüş. Görürsən, arvad iki axşam çıxmır deyə kərpici ata bilmir. Burda ayrı məqsəd yoxdu, ancaq bunnandı, mehribannıxdan.

## DÜLGƏRİN NAĞILI

Bir dülgər olar, daşın üsdündə yonqu yonurmuş. Gəlib gedən, deyir, buna məhətdəl qalır ki, bu daşın üsdündə ağacı yonur, bu baltaan dımdığı u daşa dəymir. Hamı məhətdəl qalır buna. Gələn buna tamaşa eliyir keçir, gələn buna tamaşa eliyir keçir. Bir yaşlı kişi vardı. Buna sual verdilər ki, bax niyə bu daşın üstündə yonur, baltaan dımdığı ora dəymir. Didi ki, onun arvadı düz qadındı ona görə o fikirsizdi. Həmişə onun fikri özündədi. Ona görə baltaan ucu daşa dəymir. Söhbət eliyəndə bir lotu dedi: «Onun başına gör nə oyun açajam».

Hərləndi, deyir, buların qonşusunda bir yaşdı qadın vardı. Buna yanaşdı, dedi: «Bilirsən nə var?» Dedi: «Yox». Dedi: «Nə olur, olsun, u dülgərin arvadını mənnən tanış elə. Ala bax bu pulu». Pulu alan kimi qarı uzaxlaşdı, deyir, getdi.

Səhər-səhər idi. Arvad, deyir, çay-çörək rahlıyırdı kişiyə. Bunun, deyir, başını qatdı, burdan-ordan, ordan-burdan, bir vaxt gördü günortadı. – «Aaz, kişi gələjək» – diyib bu darvazadan çıxanda gördü kişi ayannan gəlir. Gəldi gördü, deyir, nə çay var, nə çörək. Amma, deyir, bayaxdan gələndə dəsmal-haftava əlində məhlənin ortasında bunun əlini-üzünü yuyardı, dəsmalnan silərdi, gəlib görərdi sufraan üstündə çörək hazırdı, yiyib gedərdi. Baxdı, deyir, mat-məhətdəl qaldı bu hak-hesaba. Getdi. Çörəyini yiyib getdi. Bir balta vurdu, ikincidə tutdu, deyir, daşa. Bu, deyir, xartdadı baltaan ağzını, düzəltdi. İkinci bir də vurdu, daşa dəydi, üçüncü bir də vurdu. Bir gün, iki gün... Bir gün, deyir, gəldi, baltaan qoydu, gəldi. Dedi: «A kişi, niyə tez gəldin?» Dedi: «Bilirsən nə var?» Dedi: «Yox». Dedi: «Daa məə işdəmək yaramır. Sənnən də rəftar eləmək mənə yaramır». Dedi: «Niyə?» Dedi: «Ona

görə ki, gört dəfə baltaan ağzını itilədim, baltaan ağzı daşa dəydi. Çünki sən düz işdəsəydin baltaan ağzı daşa dəyməzdi». Arvad, deyir, fikirləşdi, dedi: «Kişi, səhərdən get işdə». Belə söhbət eliyəndə həmən qonşu qarı keşdi, deyir, buların məhləsinə». – «A filankəs bajı». Dedi: «Bax bu arvadın fırıldağı məni yolumdan çıxartdı». Qadını qovladı, dedi: «Bir də bura hərrənmə». Arvad, deyir, özünü düzəldəndən sonra getdi gənə həmən daşın üstündə işdədi. Qadının yüz əməli var. Qadınnan kişinin arasında fərq çoxdu. Qadın var otuz yaşında kişini atmış yaşında eliyər, atmış yaşında kişini otuz yaşında eliyər. Belə qadın da var.

## ƏSLİ HU

Şah oğlu Şah Abbas bir gün tərki-vətən oluf çıxıf məmləkəti gəzir, dolanır, qayıdıf gəlir. Şah oğlu Şah Abbas da həmişə dərvişlibas oluf gejə-gündüz şəhərini, kəndlərini gəzərmiş, özünü o libasa qoyarmış ki, şah oğlu Şah Abbası tanıyan olmasın. Gəlir sarayda oturur. Bunun sarayda gəzənlərinnən biri gəlir diir ki, şah sağ olsun, şəhərdə iki dənə dərviş var, gəzillər. Diir ki, gedin görün hara gedillər, kimnən söhbət edillər, harda yatıllar, yerini öyrənin. Gedif gördülər ki, gəzdilər, elədilər, axşam oldu, bir xarabalıx var, küllük, girdilər ora, yalanqo qayırıf otdular orda. Başladılar baş-başa qoyuf burunlarını verdilər közə, başdadılar danışmağa. Gəldi didilər.

Şah oğlu Şah Abbas dərvişlibas oluf gejə bir vaxdı getdi buların yanına. Gedəndə gördü ki, bular söhbət eliyir. Bir az durdu qulax asdı. Didi ki, ə, bir adam tapmadıx ki, bir yönnü adam, oların birinnən örgənərdih ki, bu şəhərin yiyəsi kimdi, bu şəhərdə var-dövlət hardadı. Gedəh oranı açax, ordan bir az yığax, yığışdırax, götürəh gedəh. Diir ki, şah oğlu Şah Abbas gəlir bu halatda bulara yaxınnaşır, diir ki, əssalami məleyküm və rəhmətullah. Böyüh dərviş diir ki, əssəlami məleyküm və rəhmətullah və bərəkatü. Xoş gəldin. Balaca dərviş diir ki, keç əyləş. Diir ki, məni də yoldaş eliyərsizsə, əyləşim da, yoxsa yox. Diir: «Eliyərih. İki qardaşıx, sən də ol, üç qardaş olax». Didi: «Mən də dərvişəm». Didi: «Oldu, üç dərviş olax». Didi: «Çox gözəl».

Otdular, didi, söhbət, ixtilat eliyif qutarannan sora didilər ki, bular, a dərviş, burda bir saray-zad yeri bilmirsən ki? Didi: «Niyə bilmirəm ki? Bura şah oğlu Şah Abbasın məkanıdı, onun ölkəsidi bura. Şah oğlu Şah Abbasın sarayı da burdadı, əmlakı, əndazəsi də

burdadı». Didi: «Harda?» Didi: «Burda». Didi: «Apara bilərsənmi bizi?» Didi: «Apararam». Böyüh dərvişə didi ki, sənin peşən nədi? Didi: «Mənim peşəm, ismi-əzəmi bilirəm, oxuyuf üfürəjəm, qırx hərəmxananın qıfılı çırıx-çırıx açılajax». Didi: «Çox gözəl». Balaca dərvişə də dedi ki, a dərviş, sənin peşən nədi? Didi: «Mənim də peşəm insin-cinsin dilini bilirəm. İt hürəndə bilirəm ki, it nə diyir, çaqqal uluyanda niyə uluyur, hamısını bilirəm. İnsanı da bilirəm, hamısını». Didi: «Bu da sənin peşən». İndi böyüh dərviş şah oğlu Şah Abbasdan soruşdu: «Bəs sənin peşən nədi?» Bu dimədi mən şah oğlu Şah Abbasam. Bu didi ki, mən bir kərə bığımı belə tərpətsəm, didiyim söz sözdü, xilas olarıx. Didi: «Oldu».

Bir az otdular, qızışdılar. Didi: «Sən indi şah oğlu Şah Abbasın sarayını tanıyırsan?» Didi: «Hə». Didi: «İndi ora gedə bilərik?» Didi: «Gedərih». Şah oğlu Şah Abbas düşdü qabağa, bular da düşdü bunun dalıynan, getdilər çatdılar. Bular məhləyə girəndə ənihlər vəngildəşdi. Ənih bilirsən nəyə diyilir? Balaca küçühlər ki, var ey, hələ it həddinə çatmamış, bir ili dolmuyanda hüürüşüllər ənihlər. İt üç qılçası üsdündə durub bu qılçasını qaldırıb ağaca işiyir. Görmüsənmi? O işiyəndə ili tamam oluf, ilinnən keçif. O it sayılır. İli tamam olmuyan ayax üstə dördü də belə, siyib işiyir ey, olara ənih deyilir. Qara köpəh də, diir, orda yatmışdı. Bu ənihlər başdadı vəngildəşməyə, hüürüşməyə. Ordan qara köpəh didi ki... – Eşidirsənmi? (Söyləyicinin gözləri görmür. Toplayıcının diqqətinin onda olub-olmadığını yoxlamax üçün tez-tez ona belə suallar yönəldir – top.) – Burnuzu quyruğuzuun dibinə qoyun, yəni götüzün qırağına. Soyuxda it həmişə burnu üşüyən şeydi. Soyuxda burnunu götünə qoyur. Ordan hava çıxır. İsdidi da, yumuşaxdı, isdi saxlıyır. Bunu bilmirdin ki? Hə, bax bunu bil, səə lazım olar filan yerdə. Səə sual verəllər, cavab verə bilməzsən. Hə. Ənih belə diyəndə qara köpək didi ki, burnuzu qoyun quyruğuzuun dibinə, götüzüün ağzına, yatın. Şah oğlu Şah Abbasdı, iki dərvişi də salıf yanına, öz əmlakına oğurruğa gəlif. Bunu dərviş eşitdi ki, şah oğlu Şah Abbas özüdü bu. İtin dilini bilir axı. Qara köpəh hürəndə heylə dedi ənihlərə. Ənihlər yatdılar, diir. Bular, diir, açıldı qapılar, girdilər, getdilər, saraya, hərəmxanaya, hərəsi bir heybə doldurdu qızıldan. Atdılar çiyinnərinə, çıxdılar çölə. Gənə ismi-əzəmi oxudu, üfürdü, qıfıllar bağlandı, çırıqqaçırıx. Gəldilər, çıxdılar, getdilər. Gənə gedib küllükdə otdular səhər açılana kimi. Səhər açılana yaxın şah oğlu Şah Abbas didi ki, indi siz məə icazə verin, mən gedim da öyümə. Bax u ordan gətdiyimiz qızıl da, mənim payım da sizin olsun. Mənim ehtiyacım yoxdu. Onu da

bulara verdi. Durdu getdi. Getdi, diir, çıxdı taxta, cəlladları çağırdı. Camaatı yığdı, dar ağacı quruldu. Didi: «Filan yerdə iki dərviş var, bu gejə sarayı dağıdıflar, qızılları aparıflar, üç heyvə qızıl var. Gedin qızılları da, oları da götürün gəlin». Gəlif götürüf gəldilər.

Şah oğlu Şah Abbas da qırmızı geyinif çıxıf taxta. Əmr elədi dərvişə: «Dərviş, gəl. Sarayı siz yarmısız?» Didi: «Bəli, biz yarmışıx, bax bu da qızıldı, əmlakdı, gətmişih». Didi: «İndi sən nə isdiyirsən camaatdan?» Didi: «Bir taxsırdı da olufdu, eləmişih. Bizdən keç». Vəzir Allahverdi xana Şah Abbas dedi ki, şahın sarayını belə dağıdıf aparan adamın cəzası nədi? Didi ki, bilirsən nə var? Didi: «Yox». Didi: «Çarmıxa çəkilif mıxlanmalıdı sarayın qabağına». Dərviş didi ki, mərhəba, mərhəba. Üç kərə mərhaba didi. O biri vəzirə didi ki, sənin fikrin nədi, nağarmax lazımdı? Didi: «Tən ortadan şaqqalanmalıdı. Yarısı bu hərəmxananın sol tərəfinə, yarısı sağ tərəfinə mıxlanmalıdı. Qoy gələn-gedən görsün». O birsi dərvişə dedi ki, dərviş, sən nə isdiyirsən camaatdan, mənnən? Didi ki, şah sağ olsun, bir taxsırdı eləmişih, sən bizi xilas elə, gedəh. Heş bir şey isdəmirih, bir qələtdi eləmişih. Didi ki, gənə bunlara, bunun cəzası nədi? Didi ki, u dəsdiri gənə hərəmxanaan ağzına mıxlanmax, şakqalanıf asılmax. Hansını deersən onu eliyəh. Didi: «İndi siz u qayda edam olunajaxsız». Didi: «Şah sağ olsun, nə diyirəm».

Buları edama aparanda əlini qalxızdı balaca dərviş, didi: «Şah sağ olsun, səə bir kəlmə sözüm var, icazə versən diyərəm». Didi ki, icazədi, buyur di. Didi: «Şah sağ olsun, həya eliyirəm, bu sözü camaatın yanında diməyə, özümə alçaxlıx hesab edirəm». Didi: «Niyə?» Didi: «Heylə». Didi: «Şah sağ olsun, əgər mümkünsə, icazə ver, qulağaa diyim». Didi: «Nolar, gəl qulağıma di». Didi ki, a oğraş, sən kimi oğraşın felinə düşüf gedif sənin sarayı dağıtmışıx, sən bir bığıı tərpət, biz xilas olax. Şah oğlu Şah Abbas didi ki, ay camaat, sizdən xayişim odu ki, bunu camaatın başına çöyürəh, bu əmlakı da bulara bağışlıyax, götsünnər, getsinnər. Camaat didi ki, şah sağ olsun, şah nə diyir, şah diyəndi. Bağışladılar, getdilər. Hə, bu belə.

Dərviş dedi ki, mərhəba. Şah onnan soruşdu ki, sən niyə mərhəba dedin. Dedi: «O keçəçi oğludu, onun keçə toxumağının iyi hələ burnundadı. O məni keçə hesab eliyir ki, – keçəni çarmıxda toxuyullar, – onu çarmıxa çəkək. O da qəssab oğludu, qəssablıx eliyib onun dədəsi, babası şakka vuruf həmişə qoyunu. İndi məni də qoyun hesab eliyir şakkalıyır: bir tayı oyannan, bir tayı buyannan. Şah, bulardan sənə vəzir olmaz». Şah oğlu Şah Abbas, oların ikisini də

azad elədi, birini baş vəzir, o birini də kiçik vəzir qoydu. Birini keçəçi oğlunun yerinə işə qoydu, o birini də qəssab oğlunun.

## ŞAH ABBAS VƏ ÜÇ DİLƏNÇİ

Bir günnərim öz vəzirinə dedi ki, gəl çıxax görüm əhali nə danışır pisimə və yaxud yaxşıma. Durub çıxdılar, deyir, gəzillərdi. Ohqədər öz ölkəsini o dərəcədə şirin saxlıyırdı ki, bollux içərisində. Nə istəyirsən o əhalidə vardı. Belə gəzə-gəzə, gəzə-gəzə gedillərdi. Getdilər gördülər yol ayrıcında üş nəfər oğlan durubdu. Padşah da dilənçi şəklində yolçu bir adamdı, deyir. Gəldi deyir ki, biz də oturax bu yoldaşdarın yanında. Görəh bu yoldaşdar hara gedir, biz də yolçu adamıx, gedəh. İki də bular olanda olullar beş nəfər. Bir-biriynən dərdəşənnən sonra deyir ki, biz ayrı yerin adamlarıyıx, siz bu yerin adamlarısız, sizin padşahız necə adamdı. Deyəndə biri deyir ki, mən nişannıyam, cavan oğlanam. Şah oğlu Şah Abbas məə yüz maat verə, mən gedəm, deyir, nişannımı görəm. İkinciyə deyir ki, bəs sən necə? Deyir ki, şah oğlu Şah Abbas məə yüz manat verə, külfətim yaman ağırdı, gedəm onu dolandıram. Üçüncüyə diyəndə, deyir: «Ə, mən şah oğlu Şah Abbası neynirəm. Məə Allah versin». Bunu şah oğlu Şah Abbasnan vəziri eşitdi. Qayıdıb gəldilər öz yerlərinə. Yerinə gələn kimi, şah oğlu Şah Abbas soyundu bu libasdan, başının tacını qoyub oturdu. Oturdu, dedi ki, çağırın o üş nəfəri bura. Üş nəfəri çağırıblar bura. Deyib: «Nə yığılıb durmuşduz üş nəfər orda, nə istəyirdiz?» Dedi: «Nə istəyirdim? Bircə şah oğlu Şah Abbas yüz maat versin, gedim nişannımı görüm». Vəzirə deyir: «Ə, ona yüz maat ver». O birinə deyir: «Sən nə istəyirdin?» – «Mən deyirdim külfətim ağırdı, mənə yüz maat versin». Dedi: «Ə, una yüz maat ver». Dedi: «Bala, sən nə istəyirdin?» Dedi: «Mən də istəyirdim, şah oğlu Şah Abbas məə nə verəjəh, məə Allah versin». Deyir: «Get onda səə Allah versin».

Hərəsi bir diyar olullar bular. Aradan bir iki ay keçənnən sonra Allah-tala elə eliyir ki... Bu nişannı oğlana deyir: «Mən sənə qızı verirəm, amma bu şərtnən ki, mənim ölkəmdə olmayasan, çıx». Qızı verir şah oğlu Şah Abbas, yola salır. Çıxır gedir bir at yükü qızılnan, gümüşnən. O, Allahdan istəyən adam beş-altı ay idi gəzirdi ki, Allah hardasa, məə pay verəjəh. Gəldi gördü, ə, nəysə, uzaxda yolun üstündə bir atdı, yanında da bir qadın gedir. Yaxınnaşıllar: «Salam». – «Salam». – «Ə, sən filankəs döyülsən?» Deyir: «Bəs, sən də filan-

kəs». Bir-birinnən görüşüllər, öpüşüllər burda. Deyir: «Ay qardaş, hara?» Deyir: «Bilirsən, nə var?» Deyir: «Yox». Deyir: «Padşah qızını mənə verdi». – «Ə, nətəri?» Dedi: «Həə, belə. Amma bir şərtnən ki, dedi mənim ölkəmdən çıx. İndi mən çıxıram bu ölkədən, gedirəm başqa bir ölkədə olajam».

Yol başdıyıb gedəndə, qız aparan oğlanı ağrı tutur. Ağrı tutanda, elə burdaca oğlan ölür. Deyir ki, ə, neyniyək? Oyza-buyza, qıza deyir ki, onda atın belinə qoyax bu cənazəni, sən qayıt dala, apar ataa yanına. Deyir: «Mən qayıda bilmərəm bu boyda yolu. Elə bu oğlanı burda dəfn eliyəh, mən səə gedəjəm». Burda oğlanı dəfn eliyillər, qızı götürüb bu oğlan – Allahdan istəyən oğlan gəlir. Gəlib gedillər, bir yerdə məskən salıb ev tikdirillər, yaxşı yaşıyıllar. Bular yeddi il yaşıyıllar. Yeddi ildə üş dənə uşaxları olur. Padşah qızıydı bu. Deer, ohqədər gözəl idi, həddinnən artıx. Padşah verdiyi var-dövlətin hamısını yedilər, xaşdadılar, əldən çıxdı, düşdülər kasıbçılığa. Kasıbçılığa düşdü, bir az getdi o şəhərdə işdədi, bir az getdi bu şəhərdə işdədi. Bəli, bir rayonu aşdı, oğlan getdi başqa rayona, bir çörəhçinin yanında işdədi. Gündə bir araba odun gətirirdi, hakkını alırdı. Bu çörəhçiyə dedi ki, güzaranım yaxşıdı, qoy gedim külfətimi gətirim bura, dolanışığımız burda olsun. Dedi: «Get, gət». Getdi, götdü, gətdi. Gətirənnən sonra baxdı gördü ki, bu kişinin çox gözəl arvadı var. Dedi: «Bu arvadı ələ keçirim, bu kişini məhv eliyim». Dedi: «Odunu məə hardan gətmişdin?» Dedi: «Həmişəki gətirdiyim meşədən». Dedi: «O meşədən gətirmə, get o biri meşədən gətir». O meşədə də vəşi heyvannar çox idi. Bu o biri meşəyə gedəndə tökülüllər üstünə vəşi heyvannar, istəyillər ki, bunu parçalıyallar. Heş biri parçalamır. İçərisinnən bir nəfər gəlir, Allah-tala dil-ağız verir vəşi heyvannarın birinə, deyir ki, orda qırx küp qızıl var, gəl o qızıla sahib ol. Oğlan gəlib qızılı burda görənnən sonra gedir külfətini götürür gəlir. Gəlir külfətini burda oturdur, burda böyük bir məskən salır, yaxşı böyük evlər tikdirir, arvadını bura gətirir.

Bir gün şah oğlu Şah Abbas öz vəzirinə dedi ki, gedəh bu ölkəni gəzəh, görəh mənnən varlısı kim var? Gəzillər, gəzillər, gəlillər bir meşənin qırağında dayanıllar. Görür ki, yaxşı uzun bir bina var. Deyir: «Gəl gedəh bura da». Bu özünü bir dilənçi şəklinə qoyur, pencərənin qabağında durur. Deyir ki, Allah yolunda pay ver. Burdan bir xışma qızıl verir, ikinci pencərədən bir xışma, helə-helə, bir ovuc, bir ovuc, qırx pencərənin qırxına qədər buna, deməli, qırx ovuc qızıl verir. Deyir: «Balam, bu mənnən varlıdı ki, belə eliyir.

Beyjə qalax burda, örgənəh». Ev sahibi tanamışdı. Hamma öz yoldaşını görsətmir ki, o da atasını tanıyar. Deyir ki, Allah qonağı eliyərsən? Deyir: «Eliyərəm». Çağırdı, gətdi, saldı evə. Oturdular evdə, arvada dedi ki, plov bişir. Azərbaycanın ən ləzzətli xörəyi, deməh, plovdu. Onu bişirillər, gətirir. Arvada deyir ki, iki qabda xörəh çək. İki qabda çəkir. Deyir: «Arvad, mən balaca dilənçiynən çörəh yiyəjəm, sən böyük dilənçiynən ot, çörəh yi». Bular oturullar, çörəyi yiyillər. Yer salıb, yatmağa gələndə deyir: «Arvad, bilirsən nə var? Evin birində mənnən balaca dilənçiyə yer sal, evin birində sən o böyük dilənçiynən ikiniz yatın». Bu şah oğlu Şah Abbasın pisinə gəlir ki, bu kişi arvadını mənnən bir öydə yatmağa məcbur eliyir. Buna ajıxlanır. Bunu vurmax istəyir. Deyir: «Məni niyə vurursan? Öz qızındı da bu». Deyir: «Nə qızımdı?» Deyir ki, belə-belə. Bax, bu sənin qızındı. Qızı çağırır, gətirir, baxır, deyir ki, Şah Abbasın qızı, sənin nə nişanən var? Deyir ki, qolumda bilərziyim vardı. Bilərziyini çıxarır, görsədənnən sonra deyir ki, həə, mənim qızımdı. Ata-bala burda görüşüllər. Deyir: «Hancarı belə oldu?» Deyir: «Səə dedimmi, mən Allahdan istəyirəm, mən bəndədən istəmirəm. Məə Allah versə verəjək». İndi şah oğlu Şah Abbasın da belə möcüzələri də var. Bunu mən o keşmiş kişilər – Miriş kişi var idi, o danışımışdı.

## AŞIN ALTINDAKI QIZIL
### I mətn

Şah oğlu Şah Abbas vəziri Allahverdi xanla gəzir. Gəzəndə gejə qarannıxda görür ki, bir öydə böyük bir çığırtı qopdu. Tez ora yollanır. Vəziri də savaddı olur. Vəzir tutur qolunnan ki, səhər çağırarsan. İşarə eliyir, səhər milisaner göndərir, deyir: «Filan yerdə, beşmərtəbədə, misalçün, beş nömrəli evdə çığırtı qopdu. Get onun sahibini bura çağır». Gedir onun sahibini çağırır. Adı Əhməddi. Deyir: «Gəl, səni bəs padşah çağırır». Gedir padşahın yanına. Deyir ki, bəs bilirsən səni niyə çağırmışam? Deyir: «Yox». Deyir: «Düzünü deməsən boynunu vurajam. Gejə saat birdə səndə çığırtı qopdu, bağırtı qopdu, o nə idi?» Deyir: «Padşah sağ olsun, nə adam ölmüyüb, nə basqın olmuyub. Mən yuxuda gördüm ki, tunel kimi bir yerdəyəm, üş dənə bulaxdan su gəlir, biri damcı-damcı gəlir, biri çox gəlir, biri lap çox gəlir. Dedim: «Bu nədi?» Dedi: «Döylətdi. Çox gələn bəylər, xannar üçün olan döylətdi, kəndxudalar üçün olan az gələndi, o damcı-damcı gələn kasıblar üçündü». – «Mən, deyir,

başdadım o kasıblar üçün gələni əlimdə çöp var idi, deşdəhlədim ki, bir az da çox gəlsin döylət. O qırıldı qaldı orda. Mən onunçün çığırdım ki, ya rəbb, sən bizim ruzqumuzu kəsdin, bu nolajax? Ona görə çığırmışam». Padşah da əmr verir ki, bu gör nəkqədər kasıb adamdı ki... Onu istəyir döylətləndirsin. Deyir: «Çıx çölə». Çıxır. Çağırır poveri, deyir: «Bir boşqab aş çək, gətir məə». Çəkib gətirir buna. Deyir: «Çıx çölə». Altınnan padşah özü – şah oğlu Şah Abbas bir dənə onnux qızıl qoyur. Çağırır: «Əhməd». – «Hə». – «Apar yiginən». Bu halda bu çölə çıxmaxda bir dənə tacirin padşaha işi düşür. Gəlir ki, ona sözünü disin. Deyir: «Ə, Əhməd, o nədi?» Deyir: «Padşah bir boşqab aş verib». Deyir: «Ə, bir boşqab aşı yijəhsən üş gecə, genə aj qalajan». Ala bir məmməd verib, məsəlçün, getginən üş gün ye quru əppəhnən. Ver o aşı məə, mən aparım yiyim. Tacir, deyir, aşı aparır yeyir, altdan onnux qızıl çıxır. Dadanır buna. Deyir: «Ə, neçə gün gələjən?» Deyir: «Məə hər gün gəl deyib». Beləliklə otuz dokquz gün olunca gedib. Padşah baxıb görür ki, bu Əhməd nə onnux qızıl tapana oxşuyur, nə aş yiyənə oxşuyur. Axı adam varlananda bir az dəyişilir. Deyir: «Düzünü de görüm, sən mən verən aşı yemirsən, kimə verirsən?». Deyir: «Padşah sağ olsun, bəs bir dənə tacir qismət olub aş çıxannan, gündə aşı o mənnən alır, pulnan alır». – «Ayə, neçəyə alır?» Deyir, məsəlçün, sovet pulu ilə götürsək, dəmir maata, bir məmmədə. Deyir: «Ə, onu hara eliyirsən». Bu da aparıb pulları heç arvada demir, xəlvətcə kədi qabı olur belə, – haftava kimi kədilər keşmişdə olub, onun ortasını oyurdun, duz qoyurdun ora, – duzu arvad tökmüşdü ora, aparır duzun altında gizləyir ki, arvadın xəbəri olmasın. Padşah deyir: «Ə, ged o pulları gət görüm, heç olmasa onnux qızılın dəyərini almısanmı?» Bu yüürə-yüürə gəlir, buun da arvadı boylu imiş, alça istəyirmiş, turşu istəyirmiş. Bu halda bir eşşəhçi, deyir, xurcunda alça satırmış. Qışqırıb ki, ay alça alan, ay alça alan. Bu gedib ki, alça alsın, pul tapmır da. Deyir: «Ay alça alan qardaş, hər halda bu alçaynan duz istəyən olar sənnən?» Deyir: «Hə, istəyən var». Deyir: «Onda mən duz gətirim, sən alça ver məə». Duz qabını bu gətirir, duzu boşaldır, görür altında pullar var. Duzu boşaldır, tez buna bir sıxma alça verməlisə, bir topba alça verir, tez qaçıb çıxır aradan. Bu yannan tələsik Əhməd gəlir ki, pulları aparsın padşaha. Gəlir görür ki, nə pul var, nə duz var, nə filan. Ağlıya-ağlıya, təpəsinə-gözünə vura-vura gedir ki, padşah sağ olsun, hal-qəziyyə belə-belə. Padşah fikirləşir, deyir: «Ə, bunu mən

varlandırmaq istəyirəm, nətər varlandırım?» Fikirləşir, deyir: «Get məsələn, Ağdaşın o üzü, bu üzü unvermaxdı, əlinə daş verin, haratan atsa, o qədər bu üzünü unvermağın buna verirsiz». Bu, deer, acgözlük eliyir, istəyir bərk atsın, barıya dəyib gəlir kəlləsinə dəyir, ölür elə ordaca. Ağlıya-ağlıya gəlillər padşahın yanına, bəs deyir, belə-belə. Deyir: «Şükür sənin varlığa, sən varlandıra bilmədiyin adamı, bəndə varlandıra bilməz». Bax, şah oğlu Şah Abbasın misallarından biri budu.

**II mətn**

Diir, bir gün şah oğlu Şah Abbas bazara gedirdi, vəziri də yanında. Gördü iki dənə kişi oturuf, biri diir, ya şah, sən özün yetir, biri də diir, ya Allah, sənnən isdiyirəm ruzqumu. Şah, diir, mat-məhəttəl qaldı. Didi: «Ə, vəzir!» Didi: «Hə». Didi: «Bazardan bir dənə yaxşı iri qarpız al gətir». Aldı, diir, götdü, apardı. – «Bunun içini, didi, hərrəmə oy. Polnu, didi, polnu qızılnan doldur. Ağzını da, didi, müşəmbələ, kəsdiyin yeri». İkisi də, diir, kor idi. Didi: «Eşitdin?» Didi: «Hə». Didi: «Beş maat da böyründə verərsən». Didi: «A şah, bəs qarpız-zad?» Didi: «Bir yemiş də ona verərsən, al – didi, – bazardan bir yemiş, qarpızın böyrünə qoy. Yemişi ona ver, ya şah diyənə qarpızı ver».

Bəli. Şah diyənə gətdi yekə, on kilolux qarpızı içi dolu qızıl, qoydu, diir, bunun yanına, balaca bir yemişi də verdi bu kişiyə, Allahdan isdiyənə. Axşam, didi, duruf gedəndə didi: «Ay qoşu». Didi: «Hə». Didi: «Bugünkü qazancımızı gəl bölək». Didi: «Nə deyirəm, a qoşu, özün bilərsən». Didi: «Qazancın nədi?» Didi: «Mənim qazancım bir yemişdi, iki şahı da pul». Didi: «Bəs sənin qazancın nədi?» Didi: «Üç şahı puldu, bir də qarpız». Didi: «Görüm yemişi». Aldı, didi, yemişə baxdı, didi: «Ə, bu yüngül şeydi, aparmağa rahatdı». Didi: «Bu iki şahını da məə ver». İki şahını aldı, üş şahını buna verdi. Didi: «Bu qarpızı da ala, mən aparammaram. Götür qarpızı da, bu üç şahı da sənin olsun, dəyişəh payımızı». Didi: «Yaxşı». Bu bayna buruldu, getdi öylərinə, bu ayna buruldu, getdi öylərinə. Hə. Gəldi otdu, diir, arvadına didi: «Aaz, mejmahını bura gətir, qarpızı kəsəh uşaxlarnan yiməyə, mənim bugünkü qazancım bu oluf». Qarpızı kəsəndə şarradan qızıl töküldü. Didi: «Hə, Allah mənkin verdi, arvad, yığ qoy öyə». Qayıtdı, diir, dala, bazardan bazarrıx elədi, tarix boyu bazar üzü görmüyən adam, qoydu öyə. Didi: «Yi».

Gəldi, diir, danası gün gənə otdular burda. Şah, didi, gənə bazara gəlir. Gördü ki, ya şah, sən yetir, bu kişi də arada-bərədə diir,

ya Allah, sən yetir. Didi: «Ə, qarpızın içini doldurmamışdın qızıl-nan?» Didi: «Doldurmuşdum». Didi: «Ə, bu kopoğlu gənə dilənir, buna nağarax». Didi: «Ə, vəzir, bilirsən nə var? U yekə mejmahının altına qızıl yığ, üsdünə də aş bişir, yaxşı qazmaxlı-zaddı, ətdi-zaddı, xonçaya bağla, gət, didi, onun yanına qoy, bəlkə o doyuzdura onu, da dilənməyə». Didi: «Yaxşı». Didi: «O birisinə gənə beş maat verərsən». Didi: «Yaxşı». Nəysə, gətdi verdi, diir. Axşam oldu, diir, duruf gedəndə didi: «A qoşu, bu günkü qazancın nə oluf?» Didi: «Vallah, beş maat pulum var». Didi: «Sən beş maatı ver məə, əvəzində aşı götür. Sizdə uşax-muşax var, uşax yisin, mən tək adamam, yiyəmmərəm». Didi: «Nə diyirəm». Beşliyi verdi buna, xonçanı aldı, aşdı üzünü, bir şapalax almamış gördü altı qızıl. Didi: «Arvad, bunu Allah-tala yetirif bizə, da dilənməkdən qutardım». Səhərsi gəldi, diir, bazara, yaxşı bir erkəh aldı, arvada əyin-baş aldı, uşaxlara aldı, təzələdi, diir, erkəyi də kəsdi, diir, otdu, diir, öydə.

Hərrəndi, diir, bir gün gələndə gördü bu kişi gənə ya şah yetir deyib dad döyür. Didi: «Ə, vəzir, buna yaxınnaş, gör, verilən xonçalar nejoldu?» Xəbər aldı bunnan, didi, qoşuma verdim. Didi: «Bəs qoşun hanı?» Didi: «O günnən ölüfdümü, nədimi, yoxdu da». Qayıtdı cəllada didi: «Get filan yerdə ya şah diif dilənən var, qoy atın tərkinə, göt, gəl». Qoydu, diir, atın tərkinə, götdü gəldi. – «Bunun, – didi, – boynunu vur». Çünki çörəyi adama Allah verər. Aləm tökülsə, bəndə nə qədər çörəh versə, Allah verən çörəh qutaran şey döyül.

### III mətn

Deyir ki, aparım bu qızılı qoyum körpünün üstünə, bu kordu da, biçinnən gəlir, bunu görsün, guya tapmışam deyib söyünüb aparsın. Çatanda körpüyə, deyib: «Görüm kor nətər gedir». Gözünü yumur gedir. Qızıl qaldı orda. Yiyəsi görür bunu, aralıxdan baxır. Səhəri gün deer ki, bunun bir aftafası var. Bunun içində danqaduruq eliyəjəh, bu kopoğlu görəjəh də bu nədi? Yenə odunnan gəlir, odunu qoyur. Yayın günü, alışıb yanır. Salır hovuza, çalxalıyıb tökür. Bu da getdimi, ikisi? Üçüncü gün arvadına der: «Arvad, gətir bir aş dəmlə». Keşmişdə məcməyiyə çəkərmişlər aşı. Gətirir qızılı qoyur altdan, üstdən çəkir düyünü. Deyir: «Da bu kopoğlu düyünü yiyəndə qızılı görcəh da». Gətirir, bir-birisinin üzünə baxır arvadnan kişi, bir də qızı. Deyir: «Gəlsənə bunu yimiyəh, o erməni qonşuya verəh, bizə bir beş-altı kilo unu verə, bir həftə yiyərik. Bunu bir gejə yijəyik». Deyir: «Nə deyirəm». Aparıllar erməni qonşuya, çağırıb veril-

lər. Bu varlı qonşu da qıraxdan baxır. Deyir: «Hə, Allaha şükür, qızılı götdü». Kişi da oduna getmir, yiyillər. Beş-altı gün keçir, görür yenə gedir. Deyir: «Əşi, bura gəl». Gəlir. Deyir: «Di görüm aşı neynədin?» Deyir: «Verdim qonşuya». Deyir: «Allah sənin təpənə daş salsın». Deyir: «Get, günah səndə döylü. Allah vermiyəni bəndə verə bilməz. Deməli, səə Allah belə çörəh qismət eliyib ki, yi». Deyib: «Nolub?» Deyib: «Vallah, o gün gətirdim körpüyə qoydum, çatanda dedin ki, görüm kor nətər keçir. Getdin, qaldı. İkinci gün bircə dənə aftafan var idi, apardım ora qoydum, onu da hovuza tökdün. Axşam da aş bişirtdirdim. Dedim qoy aparım, bu aşı da yiyəndə görəjək. Deməli, Allahın səə bu cür çörəh qismət eliyib. Mən verə bilmərəm». İndi ona görə deyirəm ki, bax hamısı həqiqətdi. Mən sənə verməhnən sən varlı ola bilməzsən. Gərəh Allah verə.

(Birinin varlı, birinin kasıb yaşamasından söhbət saldıqdan sonra söyləyici həmin mətni danışdı. Mətnə başlamamışdan əvvəl dedi ki, adam var səhərdən axşamacan çalışır, cibində qəpik-quruş olur. Adam var heç zəhmət çəkmir, amma yaxşı yaşayır. U Allahdı, deyir, birinə verir, birinə vermir. Sonra həmin mətni danışdı.)

## UŞAQ NƏSLİNƏ ÇƏKƏR

Loğmanın, deyir, şəyirdi bajısı oğlu idi. Uşağı xəstələndi, deyir, çox müalicə elədi, uşağı sağaldammadı. Dedi ki, arvadına, uşağı göt bajıoğlugilə get, gör ona nə dərman buyurajax. Bəlkə uşağa yaxşı dərman buyurajax. Götdü, getdi, deyir. – «Dayı uşağı müalicə eləmədi?» Dedi: «Eliyibdi». Deyir: «Uşağa süd-qatığı çox yedizdirin. Süd-qatıx yedizdirin». Gəldi, deyir, öyə. Dedi ki, uşağa süd-qatıx buyurdu. Deyir: «Evə gir, gəlirəm». Deyir, xançalı çıxartdı ki, ya öldürəjəm, ya dijəksən uşax kimnəndi. Mənim süd-qatıxnan aram yoxdu, uşağın niyə süd-qatıxnan arası olsun. Aylədə böyük nə yiyirsə, balacada da una həvəs olmalıdı. Onçan onu süd-qatıxnan müalicə eləməmişəm. Deyir, yiyən döyüləm axı, xoşlamıram. O da dedi ki, da ölüm ayağıdı, bəs su kəsilmişdi, suya getmişdim. Orda bir çobanla əlaqəm olub. Demək, süd-qatığa çəkib da uşax. Onçən unnan müalicə eləməmişəm.

Sonra bir günnəri gözü kor olmuşdu. Dedi: «Məni çıxardın şəyirdimin yanına. Görək nə dərman buyurajax». O da, deyir, danışığnan

yox, belə elədi ki... Şahtikan var ey, tikannı olur. Onu göstərdi. Aldı burnuna belə elədi. Deməli, dərman una budu.

## LOĞMANIN NAĞILI

Deməli aman-zaman iki qardaş olullar. Atası öləndə vəsi eləmişdi ki, buyündən sonra mən dünyamı dəyişirəm, atalığı qalır sənin boynunda. Bu uşağa qardaş kimi yox, ata kimi bax. İki qardaşsız. Deyir: «Baş üstə». Gəlir bu kiçik qardaş, nəysə, xəstə düşür. Elə bir xəstə düşür ki, zır xəstə. Hara aparır, neyliyir çarəsi olmur. Da o yerə dirənir ki, on günnərlə, on beş günnərlə suyu birtəri bunun boğazınnan keçirdirlər. Heç bir şey yimir. Bir gün bir nəfər vasitə olur, səbəbkar, gəlir deyir: «Gəl sənin u qardaşını bir yerdə alim yeri öyrənmişəm, aparax onun yanına. Həm alimdi, həm həkim». Aparıllar. Baxıb görürlər ki, göbəyinin üstündən sakqalı qoja bir kişidi. Deyir ki, nolub? Deyir ki, bu neçə illərdi xəstədi, dərdi nəsə bilən yoxdu. Nə də biz bilmirik. Qalmışıx belə. Baxır deyir ki, məndən kiçik qardaşım var, söz misalı, Şəmsa kəndində. Gedin ora. Gedirlər Şəmsa kəndinə, baxıb görürlər ə, bu axı kiçik qardaşım var dimişdi, bu kişi bunnan da qojadı. Hə. Buna deyirlər xəstənin dərdini, deyir: «Məndən kiçik qardaşım var, Tofiqi kəndindədi, aparın onun yanına. Onun xəstəsidi, mənim döylü». Aparıllar Tofiqi kəndinə, söz gəlişi sonraxlaşıb tapıllar kişinin evini. Kişiyə dərdini deyirlər. Xəstəyə baxır, deyir ki, ayləsinə, dur. Arxın qırağında qoz ağacı var imiş. Deyir: «Aparın arxın qırağında qoz ağacının dibində çarpayı qurun». Aparıb qoz ağacının dibində arxın başında çarpayı qurullar. Deyir: «Aparın, gedin xəstəni yatızdırın orda». Aparıb xəstəni yatızdırıllar orda. Qardaşı eşidibmiş ki, qoz ağacının kölgəsi ziyannıdı, zərərlidi. Qəlbindən keçirdir ki, ə, qoz ağacının kölgəsini mən belə eşitmişəm, burda niyə yatızdırır. Deyir: «Naraxat olma. Mən bilməsəm orda yatızdırmaram. Bunu bura diriltməyə gətirmisən, öldürməyə?» Deyir: «Diriltməyə». Deyir: «Mən də, inşallah, mümkün olana dirildəjəm bunu. Bu nə yiyir?» Deyir: «Əşi, nə yiməkdi u? Suyu güjnən boğazınnan keçirdirik. Yimək yiyəmmir». Deyir: «Yiyər». Arvada deyir: «Get bir boşqab süddü aş bişizdir». Bir boşqab süddü aş bişizdirir, gətizdirir xəstənin yanına. Bir yaxşı şuppa çubuğu alır, xəstəni dikəldir. Deyir: «Ya u aşı yiyib yaşıjaxsan, ya da səni çubuxnan döyə-döyə öldürəjəm». – «Ay aman, ay dad». Deyir: «A kişi, nə ay aman, ay dad. Bunu yanıma gətmisən, irəd ol get o biri

tərəfə. Bunu mən ya sağaltmalıyam, ya öldürməliyəm. Mən adımı batırammaram». Nəysə. Nə zulum-əzabnan yedizdirirlər aşı kişiyə. Bir boşqab aşı yedizdirir kişiyə. Yedizdirir, nökərə deyir: «Get bir şortağ[1] at gət». Gedir bir şortağ yeriyən atı tutur gətirir, yəhərləyir. Deyir: «İndi bunu möhkəm-möhkəm sarıyın atın belinə». Otuzdurullar bunu, ayağını-qolunu möhkəm sarıyıllar ki, yıxılmasın deyə. Nökərə deyir: «İndi bir yorğa at min, bu atı qat qabağa. Sür Ağdaşa, Ağdaşdan da qaytar bura». Şortağ at, xəstə adam. Bəli. Qatır qabağına, atı döyə-döyə, kişi də çığıra-çığıra aparır Ağdaşa, Ağdaşdan gətirir kişinin qapısına. Əlinin-ayağının kəndirini açıllar. Bu il ölmüsən, bildir ölmüsən. Qardaşı-zadı başdıyır ağlamağa ki, ölmüyəsi isə, öldürdük. Deyir: «Ölməz, qorxmuyun». Sizə dedim ki, bunu ya öldürməliyəm, ya diriltməliyəm. Mən öz adımı güdürəm, bunun xəstəliyini yox. Qorxmuyun, heç bir şey olmaz. Yarım saat yaşasa, onnan sonra yaşıjax. Bir on dəyqə, on beş dəyqə keçir, başdıyır bu laxta-laxta qan qusur. Üş laxta qan gəlir. Qanları kişi götürür qoyur bir boşqabın içinə. Birincini doğruyur, görür heş nə yoxdu. İkincini doğruyur, görür heş nə yoxdu. Üçüncü laxtanı doğruyanda görür ki, bir dənə arvad başının tükü. Deyir: «Hə, indi muştuluğumu verin. Bax bu tük idi bunu bu günə qoyan. Bu tük gedib dolanıb cavan vaxtiykən ürəyə. Böyüdükcə, ürək genişləndikcən bu tük ürəyi kəsib ürəyin içinə yol eləmişdi. İndi ujey tük açılıb çıxıb, yara da tədricən sağalıb gedəjək. Onnan qorxu yoxdu». Bəli. Bir üş gün saxlıyır, üş gündən sonra xəstə özü dillənir: «Məə yimək-içmək verin». Yeyir-içir bir neçə gün kişinin evində. Deyir: «İndi götürün gedin. Mümkünüz varsa, yaxşı yağlı yemək yedizdirin ki, u yara tez sağalsın». U kişi unu u formu sağaldır verir bulara. Götürür gəlir. Bu da belə.

## LƏL-CƏVAHİRATA DÖNMÜŞ SÜNBÜL

Bir gün, deyir, bir paccahın dövründə bir ilan gəlib paccahın darvazasında oturub. Vəzir görüb ilan var burda. Bu ilanın dilini bilmir, bir şey eləmir. Heyvan içəri girmək istəyib, qoymuyub. İlana

[1] Söyləyici şortağ atın mənasını belə izah etdi: şortağ at u diyən sözdü. At var suyu istəkana dolduruf alırsan ələ, maşınnan ötüşdürürsən, atmışnan-yetmişənən maşın gedirsə o at onnan yorğa gedir u su dağılmır. Şortağ atı minif iyirmi metr getmirsən qarnı, bağırsağı qırır. Tullanır-düşür, atır-tutur, atır-tutur səni, imkanı kəsir.

öz diliylə deyib ki, a heyvan, gedim şaha deyim, icazə versə, gələrsən, verməzsə, gəlməzsən. Deyir: «Ya şah sağ olsun. Çöldə bir ilan var, içəri girmək istəyir. Mən öz dilimdə dedim ki, gedim şahdan icazə alım, sonra səni içəri buraxım, yoxsa buraxammaram. Qapını örtdüm, çöldə darvazanın ağzında dayanıbdı». Deyib ki, onun kim dilini bilər? Deyər ki, Süleyman peyğəmbərin bir vəziri olubdu, o vəzir quşdarın dilini bilir. Heyvanatdarın dilini o bilir, bəlkə o tapa. Şah deyir ki, gedin –Süleyman peyğəmbər dünyasını dəyişmişdi, – gedin həmin şəxsi tapın gətirin. Görək bu ilan bizdən nə istəyir. Vəzir-vəkil düşür dağa, gedirlər bu şəxsin xəbərini alıllar. Gedirlər deyirlər ki, Süleyman peyğəmbərin vəziri olubdu. Deyir ki, o bir ay bunnan qabax ölübdü. Amma deyir u vəzirin yanında köməkçisi vardı. U durur. Quşdarın, heyvannarın, ilannarın dilini örgədib una da. Bəlkə u bilə. Gedirlər bunu tapıllar. Deyirlər: «Hə, Qəsil kəndində olur». Gedirlər buna deyirlər ki, bəs vəziyyət belədi. Belə bir ilan var padşahın qapısında. İçəri girmək istəyir, buraxmamışıx. Onunçan onun dilini bilən bir adam lazımdı. Sən o ilanın dilini bilirsənmi? Dedi: «Bilirəm». Bu adamı götdü gəldi. Gəldi, deyir, şaha dedi ki, şah sağ olsun, adamı gətirmişik. Dedi: «İlanı da buraxın gəlsin». İlanı buraxdı, gəldi, deyir. Şah dedi: «Allahın heyvanı, səə nolub, nə kömək lazımdı?» Başdadı ilan dedi ki, bizim şahımız ceyran udubdu, onun buynuzları cənginə ilişibdi. Orda ölüm halındadı. Nə çıxarda bilmirik, nə uda bilmir. Ölüm halındadı. Onu xilas eləmək lazımdı. Şah deyir: «Bunnan mişar götürüb getsin bir şəxs». İlana deyir ki, bu adam gedəjək sənnən, onu xilas edəjək, bu adamı vurmuyun. Gətirin ötürün. O da deyir ki, məəçün, baş üstə, aparajam, qaytarıb gətirib ötürəjəm. Aparır bunu ilannarın şahının yanına. Görür ki, ölüm ayağındadı. Başdıyır bunun buynuzlarının ikisini də dibindən mişarnan kəsir. Mişarnan kəsən kimi bu cüyürü udur. Udur gedir. İlannar buların devrəsindədi. Nə qədər ilan var, hamısı burdadı. Hə. Gedir deşiyə girir. Ordan üş dənə sünbül gətirir. Qoyur yerə, deyir: «Götür». Götürüb bunu gəlir. Gələndə şah deyir: «Noldu?» Deyir: «Getdim gördüm ceyranı udmuşdu. Buynuzları ilişmişdi. Onu da mən xilas elədim. Kəsdim». Dedi: «Amma məə üş dənə sünbül verdi». Padşah aldı sünbülü, deyir, içini belə pıçaladı, gördü ləl-cəvahirdi. Dedi: «Ə, bu nədi?» Dedi: «Gedin bu adamı tapın gətirin, Süleyman peyğəmbərin vəzirinin vəzirini. Onnan xəbər alax nətəər işdi, yiyiləsi buğda ləli-cəvahirdi». Bu adam qayıdır gəlir bura – Süleyman peyğəmbərin

vəzirinin köməkçisi. Gəlir. Deyir ki, bu möcüzə nədi? Bu sünbülün içində ləl-cəvahir olub. Deyir: «Sənin babanın ulu babasının devrində bir şəxs, deyir, bir şəxsə torpağını veribdi ki, ək-biç, sənin olsun. Hakkı nəsə onu verərsən. Bu şəxs bunu əkəndə, bunu sürdürəndə burdan üş küp qızıl çıxır. Kotan ilişir, zincirinə ilişən kimi çıxardır unu ordan. Görür üş küp qızıldı. Gedir bu torpax yiyəsinə deyir ki, burdan üş küp qızıl çıxdı. Bu sənin payın, sənin qızılındı. Ala bunu, mən oranı əkim. Deyir: «Yox, mən götürəmmərəm». Deyir: «Niyə, a kişi səən...». Deyir: «Neçə illər mən oranı əkirdim. Çıxsaydı mənim xışımın qabağına çıxardı. Demək, bu sənin qismətindi. Mən bunu götürmürəm, səə verirəm». Gedirlər şahın yanına, şəri kəsdirirlər. Deyir: «A kişi, bu kişinin torpağını almışam mən. Burdan da üş küp qızıl çıxıb. Nə illah eliyirəm götürmür. Deyir ki, sənin qimətindi, mən səə verirəm unu, istəmirəm». Kişiyə deyir ki, a kişi, götür». Deyir: «Götürmürəm. Mən Allahdan qorxuram. Məslahat olsaydı, Allah məə verərdi. Mən götürmürəm». Kişiyə deyir ki, a kişi, götürmür də, sənin malındı ki, səə verir. U ili, deyir, u camaatın, u millətin əkinnəri hamısı ləl-cəvahir dolu sünbül gətirir. Camaat da biçib onu döymək istəyəndə görüb ləl-cəvahirdi. Allah tərəfindən padşaha yuxuda deyilib ki, sənin məmləkətində o qədər halallıx, düzlük var, Allah-tala ona görə o irizqilərin hamısını ləl-cəvahir eliyib ki, camaat gələcək nəslə yığsın evə qoysun, onnan satıb dolansın. Bu düzgünnükdən olan şeydi.

## YENGİVAR ŞAH

Yengivar adında bir şah olar. Bir gün, diir, dərviş libasında bular şəhərdə gəzməyə çıxdı, üç ay, dörd ay dərviş kimi gejə onda-bunda qalıb gəzirmiş. Ciblərində pulu var da. Bular gəzən zamanı nəysə u kənddə, bu kənddə, bu kənddə, u kənddə belə-belə gəzillərmiş. Bir günü, diir, bu kənddən ankı kəndə, bir ucqar kənd vardı, diir, gedəndə meşə yolu idi, söhbət edə-edə gedirdilər. Yengivarın da bir xasiyyəti var idi, deyir, çox sərt adam idi. Gedəndə, diir, görür ki, meşənin içində bir yol gedir, bir öy var. Tola kimi bir öy var. Bu didi: «Ə, bura qonax olax. Uzağa yox, bulara qonax olax». Vəzir də yanında. Buruldular gəldilər dokqaza, çağırdılar, kişi də alverə getcəydi diir. Çovdar adamlarla danışıb üç aylıx alverə gedir dəvə karvanıyla. Bu hazırrıx görür, dəvələri yüklüyüllər. Didi: «Bizi qonax...». Didi: «Allaha da

qurban olum, sizə də, gəlin». Gəldi, diir, otuzdurdu buları. Didi: «Sussamışam». Şah didi ki, sussamışam, bizə su ver işməyə. Keşdi, diir, kasanı götdü, diir, iki dənə kasanı götdü bağ tərəfə getdi. Bu da elə bildi ki, su gətirməyə gedir. Keşdi, diir, o vaxdı gülöşə narın təzə yetişən vaxdıydı, iki dənə nar sıxdı, iki kasa doldu. Suyu gətdi, diir, birini şahın qabağına qoydu, birini vəzirin. Bilmir vəzirdi, şahdı bu. Dilənçi kimi gəzir, qaraçı kimi. Şah işdi, didi ki, ə, səni, nə işməli sudu bu. Vəzir işdi, dedi: «Ə, bu nə işməli sudu?» Vəzir dedi: «Şah sağ olsun, sən bir belə şahlıx eləmisən, bizdə belə bir işməli su olmuyuf. Bilirsənmi unu?» Didi: «Hə». Didi: «Diyək birini də gətsin». O saat şah fikirrəşdi ki, bu kopoğlunun əlinnən bu suyu alajam. Hə. Gəldi, diir, kasanı götdü, getdi bağa. Bir kasaya əlli dənə nar sıxdı, dolduranmmadı. Bayaxdan, diir, ikisini sıxdı, iki kasa oldu. Çox gej gəldi. Gej gələndə didi: «Sən niyə gej gəldin bu iki kasa sudan ötəri?» Didi: «Meyvələr şahın qəzəbinə gəldi». Mevələr diyən kimi şah barmağını dişdədi. Didi: «Sən demə bu meyvə suyu imiş». Olar da bilmir nar suyu nədi. Bu da qəzəblənif axı, bu su məndə yoxdu, bunda niyə olsun. Heş nə dimədi. Gejə qaldılar burda, buna yaxşı aş bişirdi, taam. Aşın adı taam idi. Yidi, işdi, evdə oturmuşdu. Bular danışır söz-sovdan, puldan-paradan danışanda keşmiş vaxdı çuallar oluf, dalını da söyküyüf çuala. Puldan-paradan söhbət eliyəndə bu kişi ağzınnan qaçırtdı, didi ki, dalı söykədiyin puldu. Nolar mən meşədə oturanda, meşədə oturan çörək yimir, pul qazanmır? Didi: «U dalı söykədiyin çuallar hamısı puldu». Şah, diir, məhəttəl qaldı. Amma ertədən gəlib, hələ bilmir ki, bunun arvadı neçə dənədi. Axşam mal gələn vaxdı, diir, gördü ə, naxır gəlir. Həyətə gəldi, diir, ağıl kimi yer vardı, hamısı toplaşdı ora. Gördü, deyir, bir dənə arvad xeylağı qabları götdü, getdi, diir, yaxın yerə qoydu, dinməz-söyləməz hamısını sağdı, tökdü ora. Bular da pəncərədən baxır. Qutardı, gətdi, diir, ayan-bayanı da qoydu içəri bişirməyə. Onnan sonra bulara yiməh hazırradı. Şah məhəttəl qaldı. Vəzir didi ki, şah sağ olsun, sənin üç arvadın var, biri inək sağammır, biri səə bir istəkan çay vermir. Sən görürsənmi ki, bir heylə malı bu meşənin içində, bu qədər rasxodu bir qadın eliyir. Gör bu nə Allah vermiş adamdı. Didi: «Ə, unun anasını gör mən nətər ağlatcam». Dinmədi.

Üzü açıldı səhərə, çörəyini-zadını yidilər, durdu ayağa getdilər. Didi: «Vəzir». Didi: «Hə». Didi: «Buranı əməlli bələddə». Yazdı, deyir, buranı, öyü bu, irizi bu, yolu bu. Dedi: «Buranı görürsən?» Dedi: «Hə». Bəli. Raşot aldı buranı, didi: «Düz paytaxta – divanxanaya, dayanmax yoxdu». Qayıtdılar, gəldilər, didi: «Get cəlladı çağır, əlavə

iki dənə də at götürərsən, onları atın belinə qoyuf, ər-arvadı, gətirərsən. Arvad didi qalsın orda, kişini götürüb gətirərsən». Bəli. Çıxdılar bular getdilər. Üş gün keçmədi, gördü bular dokqazı kəsdiriflər. – «Şah çağırır səni». Didi: «Hə, qanım getdi». Götdülər apardılar bunu düz şahın yanına. Gördü ə, axşam gördüyü kişilər, bularda çörəh yiyən. Didi: «Şah sağ olsun, nolub?» Didi: «Heş nə olmuyuf, otur». Otdu, diir, şahnan çörəh yidi, gördü yox bunun öldürməhnən-zadnan işi yoxdu. Didi: «Səə bir söz dijəm». Didi: «Di». Didi ki, mənim üş dənə arvadım var. Bu üş arvadı səə verəjəm. Sən u bir arvadı məə verəjən. Nə deyə bilər? Didi: «Oldu, verirəm». Çağırdı vəziri, didi: «Gedin unun arvadını qoyun ata, götürün gəlin». Gəldilər, diir, qoydular, düz götdülər apardılar kişinin yanına. Didi: «Sənin arvadındımı bu?» Didi: «Hə». Didi: «İndi bunu mənə verərsən». Didi: «Çağırın arvaddarı gəlsin». Üçünü də çağırdı. Didi: «Görürsənmi buları?» Didi: «Hə». Dedi: «Sənin arvadınnan gözəldimi?» Didi: «Hə». Didi: «Buların üçünü də səə verirəm, sən bu bir arvadı məə ver». Didi: «Yaxşı». Arvaddara didi ki, gedin bu xəzinə, u siz, nəqədər götürürsə, götürün özüüz gücü çatanı, sizi mən boşadım». Boşadı, didi, nigahdan çıxartdı. Didi: «Sən də boşa». Boşadı. Vəzirə didi: «Kəs bunun nigahını, bunun arvadının da nigahını məə kəs». Didi: «Sən sağ, mən salamat». Didi: «Səə at verim?» Didi: «At-zad isdəmirəm, mən piyada gedəjəm, heş nə isdəmirəm». Hərəsinin əlində bir bağlança, üç arvaddı bular, buları nə danışdırmır, nə söylətmir. Bular da dinməz-söyləməz bunun yanında gəlir. Bir qədər, diir, şəhərdən aralanmışdı, didi: «Aaz, bilirsən nə var?» Didi: «Yox». Didi: «Mənim bir arvadım var idi, nətər oldu ki, şah mənim əlimdən aldı bir arvadı, siz üç arvadı verdi məə. Di görüm, sizin dərdiniz nədi?» Didi: «Allah hakkı, mənim bir dərdim yoxdu, mən – didi, – ağızdan yavayam, çox yavayam». O birsinə didi: «Sənin dərdin nədi?» Didi: «Mən bir azca ayaxdan sürünçəyəm, şah arvadı olmağıma baxma». Didi: «Aaz, sənin dərdin nədi?» Didi: «Mən oğruyam. Həmişə şahdan oğurruyuf ayna-bayna paylıyıram». Didi: «Elə budu?» Didi: «Hə». Didi: «Zərəl yoxdu, gəlin». Yolun, diir, elə bir yeri var idi, lodkəynən keçirdi. Bu, diir, da piyada yolnan gəlmədi, u lodkəynən kəsə yolnan gəldi, diir. Çıxartdı lodkəyə pul verdi ki, bizi keçirt. Keçirdəndə ağızdan yava olan qadını bir başından tutuf bir qılçasınnan gurultuynan tulladı, didi: «Sənin yerin buradı». Bu ikisi qaldı. İksini keçirtdi, götdü getdi. Buların yanında elədi bunu. Götdü apardı. Didi: «Bu öyü görürsüz?» Didi: «Hə». Didi: «Bu öy mənimdi». Didi: «Bu meşə də mənimdi». Bir az oldu mallar da gəldi, didi: «Bu malları

görürsüz?» Didi: «Hə». Didi: «Bu mallar da mənimdi. Bu sizin üstünüzdədi». Getdi, diir, şəhərdən iki dənə usda gətdi. Bir dənə də, diir, tərəzi aldı. Dal tərəfdən bir qapı açdı. Didi: «Bilirsən nə var?» Didi: «Yox». Didi ki, lotu gələndə bu qapıdan gəlsin, u qapıdan çıxsın bağ tərəfə, doqqaz tərəfə çıxmasın, qulağında qaldı? Didi: «Hə». Didi: «Bu tərəzini görürsən?» Didi: «Hə». Didi: «Oğurradığın malı burda çək, çəkiynən payla, təxmiyana paylama». Didi: «Bu da sənin qulağında qaldı?» Didi: «Hə». Didi: «Mən sabah axşam çıxıram, bu plan sizin yadızdan çıxmasın ha». Didi: «Yaxşı».

Danakı gün bu kişi çıxdı getdi, bular ikisi otdu öydə, fikirrəşdilər. Didi: «Ay qız». Didi: «Hə». Didi: «Aaz, biz şah arvadı idik, indi meşə arvadıyıx. Gələndə üç idik, indi iki qalmışıx. Biz, didi, elə bir iş görək ki, bu köhnə peşələri tulluyax. Sən öl, didi, bu üçümüzdən birimizi tulladı ey gölə, gələr, dedi, ajığı tutar ikimizin də başını kəsər». Didi: «Nağayrax?» Didi: «Bir adam burdan keçəndə diyək şəhərdən usda gəlsin, qapını ordan bağlasın, tərəzini də tulluyax zirzəmiyə. Sən oğurruğu tərgit, mən də dedi gəzməyi, hər tərəfli tərgidək». Didi: «Oldu». Qapını da bağladılar, tərəzini tulladılar qorxusunnan.

Nəysə, kişi gəldi üç aydan sora, gördü qapı bağlıdı, tərəzi də yoxdu. Didi: «Hə, düzəlib». Deməli, oğruynan da dolanmax olur, əyriynən də dolanmax olur, dil yavasıynan dolanmax olmaz, bunu yadda saxlıyın. Kişinin arvadı dilli qadın olanda bilginən o kişi ömrünü başa vurammıjax. Əlli-altmış yaşında çezəjək, başı da ağarajax, gözü də, özü də qocalajax, özü də çox yaşamıjax.

## CƏMŞİD PADŞAH

Bir Cəmşid padşah olur. Bu Cəmşid gedir ki, dərvişlibas olub gəzsin. Dərvişlibas olub gəzəndə, məsəlçün, Bakıdan durub gəlir Ağdaşa. Görür ki, üzü-başı tüklüdü, girir bərbər tükanına. İstəyir üz-gözünü qırxdırsın. Girir içəri, görür dəllək baş qırxır. Qırxannan sonra deyir ki, ay usta, adamın var? Deyir: «Yox, otur, qırxaram». Dəllək pəncərədən baxır ayna-bayna, görür heş kim görünmür, deyir: «Otur». Oturur, başdıyır üzünü-gözünü sabınnamağa, bu havatda biri girir içəri. Deməli, bu adamı tanıyır bu. Götürür çiyninə saldığı dəsmalla bunun üzünü-gözünü silir, deyir: «Bu səndən qabağadı, mən baxdım pəncərədən ayna-bayna, tapmadım». Nəysə, başdıyır bu adamı qırxmağa. Bu adamı da qırxır qutarır. Cəmşid padşah oturub gözləyir. Bunu qırxır qutarır, gənə bu boylanır pəncərədən ayna-bayna, görür heş

kim yoxdu, deyir: «Otur». Oturur. Demək bunun üzünü sabınnıyıb bir tərəfini də qırxır, gənə başqası gəlib girir içəri. Dəsmalı götürüb silir üzünü. Cəmşid padşaha bu belə eliyir. Nə bilsin bu padşahdı. Silib qoyur qırağa, bu adamı otuzdurur. Bunu da qırxıb qutarannan sonra gənə baxır ayna-bayna, deyir: «Əməlli bax, bu səfər otursam daa durmujam. Sabınna sil, təzədən sabınna yarısın qırx sil, düz gələn şey döyül axı. Nə sənin adına layiq döyül, nə mənim». Bəli, deyir: «Otur». Oturur, bunu qırxır, təmizləyir qutarır saçını, sakqalını. Götürür indi bu bir dirhəm – dirhəm nə qədərdi bilmirəm, – verir. Bu düşür ora-bura dirhəmi xırdalamağa, bir dəlləkdə, bir maqazində pul tapmır, bunu xırdalıyammır. Deyir: «Sən nə gəzirsən?» Deyir ki, bəs bunu xırdalıyıb sənin pulunu çıxmax... Deyir: «Mənim başımın qiyməti odu. Mən də elə bilirəm sən başqa şey axtarırsan».

Vaxt olur, bu hərlənir bir də gəlir. Bir də gələn kimi dəllək bunu sifətdən tanıyır. Qabağında oturan adamın üzünün yarısını da qırxmışdı, çaparağı üzünü silir, deyir: «Bu səndən qabaxdı». Axı bu dirhəm verib bir il bunnan qabax, tanıyır da sifətdən. Deyir: «Dayan». Deyir: «Nə var?» Deyir: «Kişinin üzünü sabınnamısan, yarısını da qırxmısan, vijdanaa nə gəlib ki, sən vijdanıı pula satırsan?» Burda da götürüb belə deyir ki, axçası Cəmşid olanın kimsə baxmaz üzünə, – Cəmşid padşah deyir, – mərifət məngurə dəyməz, – məngurə keçmişin bir qəpiyi hesab olunur, – simu-zər dövranıdı. İndiki dövrannan danışır. Cəmşid padşahın da başına belə bir iş gəlir. Sonra çağırır bunu kabinetinə, deyir: «Oğul, get düzgün iş gör. Sən düz iş görmürsən. Üş nəfərdən sonra mənim üzümü taraşladın, indi də xalxın üzünü qırxdığın yerdə mən ora girmişəm». Dediyim budu ki, belə tamahgir insannar da var bu dünyada. Həmişə yalançı tamahgiri aldadan şeydi.

## QAZ GÖNDƏRSƏM YOLARSANMI

Şah oğlu Şah Abbas vəzir Allahverdi xanla öz vilayətini gəzirdi görsün camaat nətəər dolanır. Burada siyasi səhv olacax. Bizimki xaricilləri gəzir, bu öz ölkəsini gəzir ki, görüm şahın haqqında camaat razıdı, narazıdı. Gəzəndə görür bir kişi oturubdu. Görür ki, bu dəəsən gözdən də müştaxdı. Gəlir deyir ki, salam məleyki, ey pürani. Pürani qoja deməkdi. Qoja qalxır ayağa, əlində də çəlik varmış, əsa. Qalxır ayağa, deyir: «Əleykimətsalam, ey şahım». Vəzir Allahverdi xan təəccüblənir ki, bunun gözləri kor, nətəər oldu bu tanıdı, ey şahım dedi. Nə bildi bu şahdı? Nəsə, burdan bir tərəddüd

doğur, yadında saxlıyır. Diyir ki, ey pürani, vaxtında niyə əkib becərmədin ki, bu günündə gərəyin olardı? Diyir: «Əkdim-bişdim, otuz ikidən artırammadım». Vəzir Allahverdi xan bilmir ki, bu bunnan nə xəbər alır. Əkib-biçməyi bildi, bu otuz iki nədi. Yox, mən deyəsən səhv elədim axı. Bu biçmək soradı. Deyir: «Əkdim-biçdim yellər apardı». Yəni, öldü, qalmadı uşaq. Deyir: «Üçü dokquza niyə vurmadın?» Diyir: «Üçü dokquza vurdum, otuz ikidən artırammadım». Yəni dokquz ayı işdeyib, üç ayı niyə oturub rahat yimədin? İlimiz on iki aydı axı, bu on iki ayın dokquzunu işdiyirik, üç ayı qışda bekarıx da. Çəliyi görüb deyir: «İkidəsən, üşdə?» Çəliyi yerə vurub deyir: «Üşdə». Vəzir Allahverdi xan deyir: «Nə qəliz suallar oldu». Bir az gedəndən sonra çörüküb deyir: «Ey pürani, qaz göndərsəm yola bilərsənmi?» Diyir: «Tükünü də tozlaram».

Bəli, gedirlər. Gedəndə yolda vəzir deyir ki, şah sağ olsun, vallah, utanıram deməyə də, sən bu qojaynan ixtilatdar elədin, bu ixtilatdardan mən baş açammadım». Diyir: «Bilmədin?» Diyir: «Yox». Diyir: «Onda sən qayıtmalısan o qocanın yanına, bu sualların cavabını öyrənməsən, sən mənə vəzirliyə layiq adam deyilsən». Diyir: «Heləmi?» Diyir: «Bəli». Nəsə, qayıdıllar, şah çıxır taxta. Deyir: «Vəzir, gəl həmin sualların cavabını mənə de». Vəzir məjbur oluf deyir ki, onda mənə vaxt ver, gedim. Gəlir görür ki, qoja gənə burda oturub. – «Salam məleyki». Diyir: «Əleykimət salam». Diyir: «Axı ötən dəfə də mən gəldim sizin yanınıza, ey şahım dedin». Diyir: «Hə, o şah idi, şahyana salam verdi». Diyir: «O şahyana nətəər olur?» Deyir: «Onun hakkını ver, deyim». Deyir: «Nə qədər?» Diyir: «On dənə qızıl». Dedi: «O gəldi mənə çatanda dedi əleykimət salam, ey pürani. O saat mən başa düşdüm ki, bu şahyana salam verir, şahdı. Mən də şahyana onun salamını aldım». Diyir: «Elə bu?» Diyir: «Hə». Diyir: «Lap yaxşı, indi de görüm, o sənə dedi ki, əkmədin-biçmədin? Didin ki, əkdim-biçdim, yellər apardı. O nə idi?» Diyir: «Niyə vaxtında oğul-uşax qazanmadın ki, bu yaşında sənə köməkdarrıx edərdi. Mən də dedim ki, əkdim-biçdim Allahtala əlimdən aldı, yellər apardı». Diyir: «Axı sənə dedi ki, niyə dokquzu üçə vurmadın?» Deyir: «Hamısının hakkı var ey buların. Sənə mən müftə söhbət eliyən deyiləm, başımı ağrıdan deyiləm ki?» Nəsə, bunu da alır, ala-ala gəlir, lap axırıncıya çatır. Diyir ki, axırıncı kəlmədə o gedəndə dedi ki, qaz göndərsəm yola bilərsənmi? Didi: «O da sənsən ki, səni göndərif, mən də yoluram.

Hər kəlməyə səndən filan qədər pul almışam. Sənə yaxşı yol». Salamatlaşıb ayrılıblar.

## ÜÇ MƏSLƏHƏT

Biri olur, deyir, yetim uşaq olur, atası-anası, heş nəyi olmur. Bu da deyir ki, padşahın qızını məə al. – «A bala, verməzlər, vallah, unu bizə». Nəsə, padşah, deyir, daldalanmır, verir. Padşah qızını verir buna. Bunun da bir daxması var bizim qaraj kimi, putkası var, unda olurmuş. Bir gün, deyir, qaynanası gətirər buna on maat verər ki, göyünə, get da bazarrıx elə gətirginən, dolanax. Bu gedəndə görər ki, bir adam bazarın qapısı ağzında deyir: «Söz alıram, söz satıram. Söz alıram, söz satıram». Söz alıram, söz satıram deyəndə bu diyər ki, bu söz satıram nədi, ə. Deyir: «U nə sözdü, unu mənə öyrədə bilərsənmi? Nə söz satırsan sən?» Deyir: «Mən söz satıram». Deyir: «Nə söz?» Deyir: «Könül sevən göyçək olar». Deyir: «Elə bu?» On maatı bunun əlindən alır, çıxır gedir. Qayıdır gəlir öyə. Yoldaşı xəbər alır ki, nijoldu pul? Dedi: «Söz aldım». – «Nə söz aldın, ə?» Dedi: «Könül sevən göyçək olar». Aradan bir az keçər, gətirər, deyir, buna yenə on maat da verir ki, get gənə bazarrıx elə. Gənə gedir görər ki, həmin kişi ordadı. Gənə: «Söz alıram, söz satıram». Deyir: «Ə, undakı sözdən satcasan məə?» Deyir: «Yox, söz satcam». Deyir: «Nə satırsan ə, sən». Deyir: «Dərədə yatma, təpədə yat». Gənə qayıdır gəlir, bazarlıx eləmir da. Qayıdır gəlir. Gedir anası gildən əppəkdən-zadan gətirib yiyir.

Aradan bir üş-dörd gün keçənnən sora gənə gətirir on maat verir buna. Deyir: «Ə, get da, get bazarrıx elə gəl». Bu gənə gedər. Gedər görər ki, gənə bu burdadı. Deyər ki, sən burdan əl çəkmijəksən? Deyir: «Mən söz satıram da». Deyir: – «Nə satırsan ə, sən?» Deyir: «Söz satıram». Deyir: «Ortada yatma, qıraxda yat». Bu üş dənə söz bunun yadında qalırmı? Alır da bunu. Bunu saxlıyır yadında.

Bir gün, deyir, hayatdan çölə çıxanda görər ki, karvan gəlir. Karvan gələndə karvanbaşı saxlıyır, deyər: «A bala, bizə bir dənə bəzirgan lazımdı, hardan tapa bilərik unu?» Bəzirgan bələdçiyə diyillər. Deyər: «A dayı, mən gedərəm siznən». Gələr yoldaşına diyər ki, aaz, mən gedirəm, anan gildən əppəkdən-zaddan gət dolan da, mən gedirəm.

Gedər. Bu gedər bulara qoşulub. Dəvənin birini də verəllər, bu minə. Dəvələr sussuyur, deyir. Diyillər ki, filan yerdə quyu var, gərək dəvələri orda suluyax. Dəvələri orda saxlıyıllar. İndi bu bəzirgandı da,

bu düşməlidi suya. Bələdçi budu. Bunu sallıyıllar quyunun dibinə. Quyunun dibinə sallıyanda görər ki, quyunun dibində bir dənə döy oturufdu, su vermir. Hə. Buna sual verər ki, dünyada nə yaxşıdı. Diyir: «Könül sevən göyçək olar». Bu da bir dənə qurbağanı qoyubdu dizinin üsdünə, başını sığallıyır. Deyir: «Könül sevən göyçək olar» – diyən kimi diyər ki, di daşı sudan. Dəvələri suluyar qutarar, çıxanda buna üş dənə çürük nar verər. Deyir: «Sən bu sözü məə dedin, mənim padarkam səə bu üş dənə çürük nardı, buları aparginən».

Nəsə, bu çıxar çölə, ayna-bayna baxanda görər ki, buların kəndinnən bir nəfər ağzı aşağı kəndlərinə tərəf gedir. Diyir: «Ə, filankəs döyülsən sən?» Deyər: «Hə, filankəsəm». Deyər: «Sənnən bir təvəqqem var». Deyər: «Di». – «Bu üş dənə narı bizim uşaxlara verginən ordan keçəndə, bu üş dənə narı yisinnər, mən gedirəm da».

Nəsə, bu yola düşür, gənə gedir karvan. Karvan gedəndə... Gəlirdi karvannar, dalqabax gəlirdi, çox karvan var idi. Yağış başdıyır. Bu, deyir, burda qalax, u deyir orda qalax. Bu deyir: «Yox, mən söz almışam, burda qalmax olmaz. Çıxax təpədə yatax». Karvanı çıxardıllar üstə. Gejə ağ leysan tökür, gəlir nə qədər dərədə yatan var hamısını sel aparır. Bulara heş nə olmur. Deyir: «Hə, bu da mənim sözüm».

Nəsə, bir az gedəndən sonra bular gənə dayanası olullar, gejəliyirlər. Dayananda bular, hamı dəvələrin yükünün arasına səpələşir. Söz almışdı axı, on maat verib ki, ortada yatma, qıraxda yat. Bu gedər bir cübbəyə bürünər qıraxda yatar. Qıraxda yatanda gejənin bir yarısı görər ki, ağ geyimdə bir şey dalında bir uşax gedir. Gedir bunun dalıynan. Cibində kəsən bıçağı vardı. Yüürür bunun dalıynan əlini heç hara çalammır, bunun sağ qulağını burdan tutub belə kəsir. Sağ qulağını kəsir. Çıxardır yaylığını, yaylığa bükür, qoyur cibinə. Qoyur cibinə, gedir şəhərə. Şəhərə çatıllar. Hə. Nəsə. Bu arada xəbər çıxır ki, padşahın beyjə oğlunu oğurruyublar. – «Ay aman, ay dad, bunu kim tapar, kim bilər bunu». Nəsə, camaat bütün-hamı yığılar. Diyərlər ki, bəs ərəblər gəlif. Bəlkə ərəblər görmüş olar. Ərəblərdən gedib xəbər alıllar ki, bəs belə bir hadisə. Deyiblər: «Biz görməmişik». Bu oğlan çıxar qabağa. Həmən bu bələdçi çıxar qabağa. Deyir: «Mən sənin oğlunu aparanı bilirəm». Deyir: «Hardan bilirsən unu?» Dedi: «Mən bilirəm. Bütün xalqı yığginən, mən gedib onu tapajam. Sıbatınnan tapajam, dedi, gejə görmüşəm. Sıbatınnan tapajam». Nəsə bütün əhali yığılar bura. Diyirlər: «Adam qalmadı ki?» Bir keçal deyir ki, filan yerdə bir adam qalıbdı, onun başı-gözü sarıxlıdı, onun qulağı yoxdu, qulağı kəsihdi. Padşah deyir: «Gedin unu da gətirin». Unu də gətirirlər.

Görürlər ki, başı-gözü sarıxlıdı, qulağı da yoxdu. Yaylığını çıxardır cibindən, qulağı tutaşdırır bura, deyir: «Bunu bura tikin. Bu qulax bunundumu?» Deyib: «Sənin oğlunu aparan budu». Padşah diif ki, sən ki, bu yaxşılığı məə eləmisən, mənnən təmənnan nədi? Deyir: «Mənim təmənnam odu ki, mən gələn yollara su çəkdir, bir də ki, dinməz-söyləməz bu kişilərin malını satdır, öyümüzə qaytar». Dedi: «O da mənim gözüm üstə. Su da çəkdirəjəm». Özü istədiyi qədər buna qızıl verir. Yüklüyür dəvənin belinə qayıdıb gəlirlər.

Qayıdıb gələndə bu öz həyətdərinə, haman getdiyi yerə çatanda torbanı qoyur yerə, belə başını çöyrür, görür, ə, bu alt-üst öydü. Balkonda qırx dənə qız hərrənir. Özü-özünə məhətdəl qalır ki, bura bizim həyətdi, bura bizim məhlədi, bu nətəər olur? Nəsə, deyir, bu çox götür-qoy eliyir. Bu söyüdün kölgəsində yatır bir xeylax. Ordan bunun yoldaşı görür ki, orda bir adam yatıb, torbanı da başının altına qoyub. İki-üş dənə qız göndərir ki, gedin onu çağırın, görək o kimdi. Nəsə, gedib qızlar. Gəlib diyirlər ki, sənin yoldaşındı. İnanmır ki, bu bunun yoldaşı olar. U narların içi nə olubdu? Gətirifdi birini kəsən kimi narlar eləcə qızıl olufdu. Hər dənəsi bir qızıl olub. Onu topalayıb gedif atasına diyif ki, hal-qəziyyə belə-belə, bizim öyümüzü gəl təzələ. Padşah da una u gəlincə öy tikdiribdi. Onnan sonra da başdıyıblar haman qızılı yiyib orada yaşamağa.

*Atasından eşidib. Bir dəfə danışmaqla yadında saxlayıb. Atası bu nağılı danışanda söyləyici III-IV sinifə gedirdi.*

## ATA MƏSLƏHƏTİ

Kişinin bir oğlu olur, gözünün ağı-qarası bir oğlu olur. Deer oğluna ki, ay oğul, mən dünyamı dəyişirəm. Bax harınlıq sözünü nədən gətirirəm. Bu da haman sözdü. Uşax okqədər atasının varınnan, döylətiynən harınnıyıb ki, gözü qızışıb, heş zadı görmür. Atasının son sözünə qulax asır. Deer: Oğul, sən qumar oynuyansan. Mən demirəm qumar oynama. Mən desəm tərgitginən, tərgitmiyəssən. Qumar oynamağa gedəndə yoldaşlarınnan iki saat sonra get. Get gör nələr görəssən. Bir bu sözü tapşırıram. Bir də sənə bir söz tapşırıram. Uşaxlar içki məclisinə çağırajaxlar səni. Səni çağıran vaxtında denən gələjəm. Uşaxların xətrinə dəymə. İki saat uşaxlardan sonra get. Get gör nə görəssən. Bir dənə sənin arvadın var, məşuqən var, sən onnan məşğul olassan. Onun yanına gedən saatdan iki saat sonra get. Sübh səhərində get. Səhər vaxtında getginən. Get onun yanına, çağır onu yerindən

durğuz, gör nə görəssən. Bu şeylərin üçünü də elə, onnan sonra əgər olardan bir şey götürməsən, özün bildiyin kimi elə». Uşax atası öləndən sonra atasının bir il yasını saxlıyır. Bir ildən sonra uşax daa neyniyəjək. Atası yox, bir şeyi yox. Bu bir işnən məşğul olmalıdı da. Gəlib bunun başına yığılıllar özünün uşaxları, cavannar. Bunu çağırıllar ki, Allah rəhmət eləsin, atandı da dünyasını dəyişibdi. Gəlin gedəyin qumar oynuyağın. Deer ki, gedin, gələjəm. Bu uşaxları yola salır. Dediyi müddətdən iki saat sonra gedir. Deyir: «Atam məə bu sözü tapşırmışdı. Qoy gedim görüm nə görəjəm mən». Gedir görür ki, nəşəni çəkiblər, otağa girməyə təər yoxdu. Pul stolun üstündə nə qədərdi. Bunun üstündə bir-birinin üstünə pıçax çəkirlər. Deer: «Hə, deməli, mən də bu şəkilə düşürəmmiş. Oynadığım müddətdə, deməli, mən də belə bu forma oluram». Söyüş, qiyamat, pıçax o onun üstünə. Deer: «Deməli, atam buna görə deyirmiş ki, sən iki saat sonra get, gör nə görəssən». Toba eliyir ki, bir də mən qumar oynamıyajam». Çıxır gəlir.

Bir gün içki məclisinə çağırır bunu yoldaşdarı. Buna deyir ki, gedin, gəlirəm. İki saatdan sonra gedir. Gedir görür ki, içki yoldaşdarı bunu ikisinin sözü çəp düşüb, biri-birini pıçaxlıyıb. Deer: «Hə, mənim atam bu işdəkləri görüb deyib ki, get iki saatdan sonra nə görəssən. Bu içkiyə də toba eliyib qayıdır. Deer indi qaldı mənim məşuqəmnən məşğul olmağım. Bir bu qalıbdı, bunnan da mən məşğulam. İkisini tulladım. Deyib, qoy bunu da sınıyım, görüm, atam nə deyib. Məşuqəsi bunu yanına çağıranda deyib: «Get, gələjəm. Nə vaxtı olsa, gələjəm». Sabaha yaxın gedir. Gedir bu qadını durğuzur. Qadını durğuzanda görür ki, gözünü zığ basıb, başının piyi tökülüb, ağzı-burnu sulanıb, pis sifətdədi. Deyir: «Ə, mən bunnan hərlənirəmmiş. Mənim öydə qoyduğum yoldaşım bunnan on dəfə yaxşıdı». Bu, deməli, özünü hayatda süni o qədər şeyə, şəkilə salır ki, kiminsə buna tamahı keşsin. Deyir: «Ə, səni yox. Mənim öydəki öz qadınım bunnan on dəfə gözəldi». Buna da toba eliyib qayıdır. Gör atanın müdrik sözləri u uşağı üş dəfə bəladan qutarır.

## İNSAFI ƏLDƏN QOYMA

Birinnən məsləhət eliyif ki, nağarım? Diyif ki, insafı əldən qoyma, yalan danışma, namazı da keçirmə. Bu, diyir, bir gün əli aşağı olur. Gedir, diyir, oğurrux elijəm, nağarım. Gedir girir bir kəndə, görür qapı açıxdı. Girir öyə, baxır ayna-bayna, görür burda iki dənə yaxşı xalı var. – «İki dənədi da, bunun birini qatdalıyıb götürüm. İnsafı əldən qoymuyum da». Qatdıyır bunu, torbaya qoyur, alır dalına.

Gəlir, günə baxır, görür ki, günorta namazının vaxtıdı. Kol topasının dibinə torbanı qoyur, burda başdıyır namaz qılmağa. Namazı keçirmə deyib da. Namazı qılanda kişi gələr görər evdə palaz yoxdu. – «Ə, hara getdi, hayana getdi?» Bir adam diyər ki, bəs dalında torba burdan bir adam getdi. Yüürə-yüürə dalınnan gələ bunun. Gələ görə ki, burda səcdəyə yıxılıbdı, namaz qılır. Deyir: «Ə, namaz qılan kişi oğurluq eləməz. Oğurlux eləməz bu. Bu namaz qılır burda». Nəsə, namazını qılıb qutarır. Salam verir, deyir: «Vallah, sənnən bir söz xəbər almax isdiyirəm». Deyir: «Alginən, niyə almırsan ki?» Diib axı, yalan danışma. Deyir: «Vallah, bizim öydən xalı götürüblər, mən də dalıynan gəlmişəm. Burda sən olmusan, sən də namaz qılırsan. Mən nətər inanım sən oğurramısan, oğurlamamısan?» Diib: «Vallah, mən yalan danışammaram, orda kolun dibindədi, götür çıx get».

## KORUN ŞƏRİ

Ər-arvad yolnan gedirlərdi, deyir, gördülər kor kişi gedir, ağaşnan belə yol axtarır. Eşşəkli gedirdi bu ər-arvad. Arvad deyir: «Bu kordu, gəl biz eşşəkdən düşək, bu kor minsin». Kordan soruşullar: «Hara gedirsən?» Deyir: «Qənşərdəki kəndi görürsən?» Deyir: «Hə». Deyir: «U kəndə gedirəm». Deyir: «Gəl eşşəyə minginən biz piyada gedərik». Mindi eşşəyə, getdilər. Kəndə çatanda bu ər-arvad da piyada gedirdi da, deyir: «Hə, çatdıx kəndə, düş di». Deyir ki, eşşəyimin belindən düşüm deyirsən? Deyir: «Eşşək sənindi ki?» Deyir: «Bəs kimindi?» Bunun səsinə camaat da qoşuldu. – «U nə deyən sözdü?» Dedi: «Ə, belə-belə, yolda bu koru görmüşük, buna yazığımız gəldi, bu arvaddan oldu o da, dedi, qoy eşşəyə minsin, biz piyada gedərik. İndi gəlmişik, kəndə çatmışıx, düş deyirik, deyir eşşək mənimdi». Deyir: «Bu saat dijək ki, arvad da mənimdi». Bu eşşəyin belindəyi kor deyir ha. Deyir: «Bəli, avad da mənimdi». İş düşdü qazıya. Qazı dedi ki, axşamdı, indi işə baxmax olmaz, səhər baxaram. Hərəsini bir evə qoydu, yanına da bir gözətçi qoydu. Deyir. – «Gör bular nə danışcaxdı, səhər məə deyərsən». Səhər soruşur, gözətçi deyir ki, kişi arvada deyir: «Ay arvad, biz yolumuznan gedirdik da, durduğumuz yerdə bizi işə saldın». Deyir: «Allah kərimdi, Allah düzün tərəfdarıdı». Sonra deyir: «Kor nə deyirdi?» Deyir: «Deyirdi ki, bir şərdi atmışam, ya arvadı verjəklər məə, ya eşşəyi. İkisindən biri mənimdi». Səhər qazı gəlir ikisini də çağırtdırır gözətçilərin. Deyir: «Nə deyirdi?» Deyir: «Kişi arvada deyirdi ki, durduğumuz yerdə bizi işə saldın. O da dedi ki, Allah düzün tərəfdarıdı». – «Kor nə dedi?» – «O da

dedi ki, bir şərdi atmışam, ya arvadı verəjəklər, ya da eşşəyi». Koru çağırdılar, götünə bir təpik vurdular, eşşəyi də verdilər yiyəsinə.

## İBRAHİMİN NAĞILI

Deyirlər ki, iki dənə tacir ticarətə gedirlər. Biri Yəməndən, biri də Azərbaycannan olur. Birinin adın Əhməd, birinin adı Məmməd olur. Buların heş birinin uşaxları olmuyubdu. Bir dərviş gəlibdi bir alma verib, Qızıləhmədi alması veribdi bulara. Deyibdi ki, bunu tən bölün yiyin. Sizə Allah-tala züryət verəjəkdi. Bular ikisi dost olublar. Biri-birinə gediş-gəlişi olub. Azərbaycana ticarətə gələndə Əhmədin öyündə olublar, Yəmənə gedəndə Məmmədin öyündə olublar. Dostluq eliyiblər belə. Birinin gəlib qızı olub, birinin oğlu. Hələ olmamışdan belə deyiblər: «Sənin qızın olsa, mənim oğlumundu, mənim qızım olsa, sənin oğlunundu». Bu, deyir, dünyasını dəyişir. Oğlanın adı İbahim olub, qızın adı İbrahimədi, nədi. Yadımda qalanı budu ha. Sonra, deyir, uşax yetişibdi. Bu Əhmədin oğlu – Azərbaycanlı tacirin oğlu yetişibdi. Yetişəndən sonra deyib ki, atamın vəzifəsi nə olub, ana? Deyib ki, tacir idi. – «Hara gedirdi? Malı hara aparırdı?» Yetişəndən sonra ha. Deyib yükü bu olardı, Yəmən şəhərinin filan küçəsində Məhəmməd adında bir tacir vardı, onun evində qalardı. U da bizə gələndə bizdə qalardı. Bu, deyir, yük tutdu, getdi ora. Getdi, deyir, ora, qızı gördü. O evi tapdı. O da dünyasını dəyişib ha. Amma qız durur, deyir. Tapdı, deyir. Olar bir-birinə aşiq olur. Evləndilər. Nikah elədilər. Arvad belə dedi, anası: «Qızın hayası ər evində tökülər. Gedərsən evinə, orda hayan tökülər. Amma səni qızım, indi tilsimə salıram. Oğlan səə yaxın düşsə, tilsimə düşcəkdi. Elə elə ki, oğlan səə yaxın düşməsin». Yolda gəlirlərdi, yoldaşını da gətirirdi. Ər-arvad gəlirlərdi. Amma əlini vurmuyub da buna. Bu gəlib burda olcaxdı toyu. Yolda gələndə, deyir, buna ayrı çadır qurub. Bu da, deyir, heyvannarı gözləyir, yırtıcı heyvannarı. Gejə istəyib ki, yanına girsin. Yanına girəndə, deyir, düşüb tilsimə. Tilsim belədi ki, deyib: «İbrahim, mən getdim, İbrahim, mən getdim». Getdim deyən tilsim imiş. İbrahim də düşüb onun dalına ki, getmə, getmə, getmə. Dedib dağda dönüb daşa. Yarıdan aşağı daş olub. Qız oyanıb səhər, görüb İbrahim yoxdu. Çağırıb, çağırıb, yoxdu. Durub İbrahimin paltarını geyib, kişi paltarını geyib, karvanı çəkir Azərbaycana. – «İbrahim gəldi, İbrahim gəldi». Camaat qabağına çıxıbdı. Eyni oxşuyur. Bir

almadandı axı ikisi də. Eyni İbrahimdi. Amma oğlan paltarındadı da. Gəldi, dedi: «Ay ana, bəs nətəərsən, hal-əhval». Dedi: «Allaha şükür, ay oğul. Allaha şükür». Deyir ki, atam bunnan qabağa... Qız deyir ha bunu. Atam bunnan qabağa ticarətə gedib gələndə padşaha bir pay aparırdı? Deyir: «Aparırdı». – «Nə aparırdı, ay ana». Deyib ki, gətirdiyin şeylərdən. Hərəsindən bir xonça düzəldib apardılar paccaha. Paccaha aparan kimi paccahın qızı vuruldu buna. Oğlan bilib vuruldu ha. Vurulannan sonra dedi ki, Əhmədin oğluyam. İlk dəfə ticarətə getmişəm. Gələndən sonra səə pay gətmişəm. – «Yaxşı, payın əziz olsun. Amma qız səə vurulubdu. Sənin toyuu özüm elijəm». Elədilər, deyir. Amma bu qıznan yaşıya bilməz axı. Axşam, deyir, qılış qoyurmuş araya. Xançalını birinci qoyub yatırmış, deyir. Axırı, deyir, məlumat verdi ata tərəfinə ki, oğlan gəlmişəmsə, oğlanam, qız gəlmişəmsə, qızam. Bu məni istəmirmiş. Çağırır, deyir, dannıyır padşah. Amma bu sirri açmaq istəmir, bilməsinlər da qızam, bu sirr açılmasın. Bir neçə dəfə padşah çağırtdırır ki, qızımı sevmirsən? Deyir: «Niyə sevmirəm ki?» Deyir: «Niyə bəs belə sözlər eşidirəm. Qız belə deyir ki, oğlan gəlmişəmsə, oğlanam, qız gəlmişəmsə, qızam». Çağrılıb dannanıbdı. Üçüncüdə qıza deyibdi ki, bir sirr açacağam səə. Aşmazsan ki? Deyir: «Yox, aşmaram». Söz verirsənmi? Deyib: «Söz verirəm saa, aşmaram». Deyir: «Mən qadınam, İbrahim döyüləm. Anası elə bilir ki, İbrahim mənəm. İbrahimi mən itirmişəm. Olsun ki, bir vaxd olajax o gəlcəkdi, səni də ona nikahlıyaram. Olarıx ikimiz».

İndi səə söylüyüm mən İbrahimnən. İbrahim də, deyir, burdan aşağı daş olubdu. Tilsimə düşüb da. Ovçu Pirim ova çıxanda görübdü burdan daşdı, yuxarı insandı. Götürüb gətirir. Ovçu Pirimin bir qızı varmış, yeddi metrə uzunu, yeddi metrə də eni varmış. Evdə qarıyıb qalıbmış. Eşitmisən bunu?

– Yox, eşitməmişəm.

– Çatan kimi deyir: «Bu əziyyətin qabağında mənim qızımı almalısan. Səni u daşdan mən xilas eləmişəm». Bunu da aldı deyir. – «İndi icazə versəz, – Ovçu Pirimə deyir, – mən ayləmi götürüb evimə gedirəm. Öyüm-eşiyim var mənim da». Gəldi. – «Vay, İbrahim gəldi». Ana dedi: «İbrahim öydədi axı». U da dəvəynən, atnan gəlirdi. İndi qıza cehiz verib da atası Ovçu Pirim. Gəldilər deyir. – «A bala, öydəki İbrahim döyüldü ki?» Onnan sonra sirr açıldı. Dedi: «Ana, mən tilsimə düşmüşəm. Unu anası eləmişdi ki, qızın yanına gəlsən tilsimə düşcəksən. Qızın həyası ər evində tökülər. Hər yerdə həyası

tökülməz». Onnan sonra, deyir, üçünü də nikahladılar – Ovçu Pirimin qızını İbrahimə, paccahın da qızını, bir də özünün. Olar orda yaşasın, biz də burda.

## İKİ MÜNƏCCİM

İki münəccim olur İsfəhan şəhərində, İranda İsfəhan şəhəri oluf. Çarxı-zəvvar oluf vaxtiylə. İndi bilmirəm var, yoxdu. Bu rəvayətdi, mən belə eşitmişəm. Üç yüz altmış altı, üç yüz altmış beş gündü bir il. Deməк, bir ilin müddətində çərxi-zəvvar dayanır. Ordan guya yer ayrılır, qapı kimi açılır, içəri camahat girir. Salamat çıxa bilən çıxır. Çıxanda o adamı tanımax olmur. O adam gərəh burda teksmatordan keşsin. Üş yüz altmış beş, üş yüz altmış altı xurmaynan bir il dolanmalıdı. Gündə bir xurmaynan. Bir sutka birini yeyib dözməli, ikinci sutka o birini yeməlidi. Üş yüz altmış beş, üş yüz altmış altı xurma götürüf ordan içəri girillər, çərxi-zəvvara. İsfəhan şəhərində olur bu. Hə. Girir bir ilin müddətində o çarx dayanır. Çarx dayananda torpax aralanır, ordan çıxıllar. Ordan qapıdan çıxır. Nətər işdisə, onu daa mən bilmirəm, qapı taxtadandı, yoxsa Allah hökmüdü, ora girən həmən insannar ki var, münəccim elmini ordan götürüflər örgənənlər. U hakk dərvişləri var ey... Eşidirsən? U dərvişlər hamısı ordan çıxmadı. Gedir girir ora, orda çərxi-zəvvar dayananda çıxır. Bir sutka dayanmalıdı. O bir sutkanın müddətində də çıxmalıdı. Bular içəri girəndə də bu dərəmumu yasdılıyıflar, döşdərinə, başdarına, ətlərinə vuruf giriflər içəri. U çərxi-zəvvarın içi, u divarlar hamısı yazıdı, ayətdi hamısı. Bu mumu basıllar ora, bu qayda hər yerə, hansı düşüf, düşüfdü. Nəkqədər mum var, dərəmum, onu basıf yığıllar üsd-üsdə, çıxanda çıxardıllar. Sağ qalıfsa ordan çıxır, sağ qalmayıfsa orda ölür, orda da qalır. Da u qutardı, getdi. Ordan çıxanda üç yüz altmış altı gün bunun nə başı qırxılmayıf, nə də üzü. Yəni tük bura düşüf da. Heylə döylü? Saçın tükü də arvad kimi bura düşüf. Da bilən yoxdu bu kimdi, bu kim döylü.

İki dərviş ordan çıxır, münəccim elmini bilənnər. Günnərin bir günü diyillər ki, gedəh filan məmləkətə, gedəh görəh nə var, nə yox. Bular gedillər, məsələn, o məmləkətə gedəndə görüllər ki, əyə, çax, çax, çax, çax eliyir. Bir yerdə dəyirman səsi gəlir. Çörüküllər, baxıllar, görüllər ki, qıraxda bir həngamə var, camaat ora yığılıf. Gedillər ora. Gedif görüllər ki, su dəyirmanıdı bura. Buları camaat görür, durullar ayağa, buları qarşılıyıllar, oturullar. Günün altında da

bir qara köpəh yatıf, it yatıfdı. Bular söz-söhbət, oyan-bayan... Şiddətli bir gündü. – «Sən nəsən, nə döyülsən, hardan gəlirsən?» – bular sual verillər. Diyir: «Biz iki dərvişik, münəccimlik eliyirik». Bu dərvişdər də münəccimlik elmini kamil bilirdi. Diyir: «Nə olajax, nə olmujax?» Diyir ki, nə olajax ki, sağlıx-səlamətçilih. Bu havaxda qara köpək durur. – Eşidirsənmi? – Günün altınnan durur, gedir arabanın altında yatır. Bu münəccim elmini oxuyannara deyillər ki, ey dərviş, dünyada nə olajax, nə bilirsiz dünyadan? Diyir: «Nə olajax ki?» – «Bax bu saat gündü, görürsən ki, adamı yandırır. Nə olajax, yağış-zad var, yoxdu?» Diyir: «Heş bir şey yoxdu». Diyir ki, ay dərvişdər, xəbəriz var? Diyir: «Yox». Diyir: «Sizin oxuyuf tamam eliyif gəlməyinizin... Mənim qara köpəyim çağı siz qanmırsız». – «Niyə?» Diyir: «Durun rahatdanın, girin içəri. Köpəh durdu günün altınnan, bu saat şaqqıldayıf bir leysan gələjəh olmazın. Hamınız isdanajax, girin arabaan altına». Köpəh girdi arabaan altına, bular da özdərini soxdular, diyir. Göy şaqqıldadı, diir, bir leysan gəldi, diir, bular cücəbalaya döndü. Dərvişdər diir: «Hə, biz üş yüz altmış altı gün orda əziyyət çəkmişih, bir dəqiqəyə dəymədi. Dəyirmançının qara köpəyi bilən çağı da biz qanmadıx». İndi başa düşdünmü? Qara köpək yağışın, leysanın gəlməyini bulara didi. Faytonçu Məməkişi dayı var idi, tarixçi idi o. O söylüyürdü.

## AĞILSIZ NAXIŞIN XEYRİ YOXDU
### I mətn

Bir günü bu Naxış Ağıla diyər: «Sən çıx, mən bu kişini idarə eliyərəm». Nəsə, Ağıl çıxıfdı. Bu kişi şum sürürdü. Görüf ki, şumun qabağına qızıl çıxır. Naxış gətirif da. Götürüf yığır yerin qırağına təzəh kimi. Nə bilir, ağlı yoxdu axı. Misalçün, bir padşahın oğlu gedəndə diyib ki, əşi, bunu bura niyə yığmısan? Diif: «Unu bağışdadım səə, göt, get». Götürüf, gedif. Atası diif: «Ə, unu hardan aldın?» Diif: «Unu məə bir cütçü bağışdadı». Diif: «Ə, heç olmasa, insafın olsun da. Bunun yarı qiymətinə xonça düzəlt, apar sən də ona verginən, halal olsun». Keşmişdə halal axtarıllarmış. Nəsə, düzəldir bir xonça, gətirir, diir: «Salam məlöykü». Diyir: «Əlöykümət salam». Diyir: «Bunu səə atam göndərif, gəl al». Diif: «Qoy ora, yerin başına». Qoyuf. Bu səfər u biri padşahın oğlu gəlif. Belə ötəndə görüf gün bayannan doğasıdı, bayannan doğuf: «Əşi, bu nədi?» Diif: «Unu bağışdadım səə». Götürüf gedif. Padşah diif: «Ə, u nədi?» Diif: «Bunu məə bir cütçü bağışdadı». Çox fikirrəşif, diir

ki, buna mən nə versəm bunun əvəzi çıxmıjax. Bir yaxşı qızı var idi. Diif: «Bunu verəjəm buna». İki-üş nəfər adam yolluyuf.

Diif: «Əşi, nə padşah, nə danışırsan sən? Mən burda cüt əkirəm». Getmiyif. Bir özünnən diyəni var idi, gedif padşahın yanına, diif: «Padşah sağ olsun, sən göndərdiyin adamların heç biri unun yanına gedə bilmir. İti var unun yanında, qorxullar. Bir yaxşı at ver məə, bir yaxşı da tatar, mən unu gətirrəm». Atı minif – yorğa at, düz gedif, daldan döşüyür buna. Soruşmur ha nağarırsan. Ayna qaçır bayna qaçır, ayna qaçır, düzdə hara gedəjəh atın qabağınnan. Bunu döyə-döyə gətirir padşahın yanına. İçəri girəndə diyif: «Sən öl, ağzıı açsan, bax, sənin gönüü soyajam. Padşah nə disə, bax belə-belə elə». Padşah buna diyir: «Sən mənim oğluma belə-filan...». Belə eliyir (söyləyici razılıq mənasında başını yelləyir – top.). – «Qızımı səə verirəm». Belə eliyir. Vəzir-vəkili çağırır, deyir ki, belə ağıllı adam bəs mən bu yaşımda görməmişəm. Qızı verillər buna. Bu qızın yanına girən vaxdı kəl-kotan yadına düşür, diyir: «Hə, daa burda heş kəs yoxdu». İsdiyir qaça, qaçanda... Durur çıxır seyvana, qırx neçə mərtəbədi. Naxış qışqırır Ağıla ki, ə, gir kişinin başına, bu özünü burdan tulluyuf öləjəh, mən qannı olajam. Ağıl başına girən kimi diif: «Ə, nə işim var kotannan, bunnan yaxşı yer?»

Qayıdıf gələndə padşahın qızı da burdadı axı, diyir ki, sən hara qaçırdın, sən dəlisən, nəsən? Diif: «Mən qaşmırdım ey». Ağıl girif axı başına. Diif: «Nolmuşdu, bəs? Diif: «Nənəm uşax vaxdı dimişdi ki, bir qızla bir oğlan öylənəndə oların ildızı göydə birrəşir. Mən çıxmışdım ki, görüm bizim ildızımız birləşdimi?» Didi: «Noldu, birrəşdimi?» Didi: «Hə, birrəşdi». – «Onda, bəri gəl». Deməli, bu o deməkdi ki, ağılsız naxışın da xeyri yoxdu.

**II mətn**

Bu elə bir adam olur ki, gedirmiş sahədə öküzdəri qoşurmuş, o başda da bir haftafa su qoyurmuş, bu başda da. Ora çatanda dəsdəmaz alırdı, bura da. Allah ağzınnan düşmürdü. Diir, bir xam yer vardı. Buranı sürəndə kotanın ilişdi uju torpağa, harasa ilişdi. Nə qədər güj elədi, tərpədə bilmədi. Bu arada Ağılnan Naxış, diir, başdadılar bir-biriynən diyişməyə. Didi ki, mən olmasam bu kişi yaşıya bilməz, bu da didi ki, mən olmasam bu kişi yaşıya bilməz. U didi, bu didi, bular deyişir. Didi: «Heylədi?» Didi: «Hə». Didi: «İndi baxarıx». Didi: «Baxarıx». Kişi, diir, kotanı çəkdi qırağa, eşdi, baxdı gördü ki, bir küp qızıl var burda, ağzı bağlı. Fikirrəşdi, bu arada Ağıl

çıxdı başdan, Naxış yetirdi da bunu buna. Ağıl yoxdu, çəkilif duruf qıraxda. Yola yaxın idi, gördü yolnan bir atdı gedir. Çağırdı: «A kişi, ay atdı». Didi: «Hə». Didi: «Ə, bura gəl, səə bir söz dijəm». Gəlib, diir, atdı buna yaxınnıyanda Ağıl girdi bunun kəlləsinə. Didi: «Da diyəmmərəm». Didi: «Nolub?» Didi: «Ə kişi, mən bunu bilmək isdiyirəm, görüm bu öküz bu öküzün qardaşıdı?» Didi: «Ə, oğraş, məni araya qoymusan?» Qayıtdı, diir, dala. Bir az da getmişdi, Ağıl bir də çıxdı başdan. Gənə başdadı çağırmağa. Didi: «Ə, Quran hakkı dijəm, bura gəl, dijəm». Gənə, diir, kişi əstafrillah eliyif qayıtdı. Didi: «Ə, qoja kişi mənim başıma oyun açır». Gəldi, deer, çatdı, didi: «Noluf?» Didi: «Əşi, səə demədim, bu öküzün anası da ayrıdı, bunun da anası ayrıdı». Didi: «Ə, oğraş, məni araya qoymusan?» – deyif bunun kürəyinin ortasına bir şallax. Ağıl gəldi bunun başına girdi axı. Hayfı gəldi diməyə. Kişi gedəndə Ağıl gənə çıxdı başdan. Başdadı, diir, gənə çağırmağa. Kişi qayıtmadı. Didi: «Bəsdi daha məni iki dəfə aldatdığın». Unnan sora Ağıl da, Naxış da birrəşdi. Didi: «Gördünmü ki, didi, biz birrəşməseydih o kişi özünü idarə eliyəmməzdi». Gərəh insan özünü ağılnan idarə eliyə.

## AĞANƏZƏR

Biri var imiş, biri yox imiş, bir tənbəl var imiş, bir dənə də anası. Okqədər tənbəl imiş ki, öydən çölə çıxmırmış da. Anası bir gün una-buna məsləhət eliyir ki, mən nağayrım buna, öydən çölə heş çıxardammıram, nağayrammıram. Deyillər ki, ona bir həftə əppəh vermə. Onnan sonra get bir kilo alma al, gətir belə düz da. Ha ağlıyır, nağayrır, anası deyir: «Yoxdu çörəh». Bir də bir həftədən sonra bir kilo alma alıb gətirir. Düzür birini ora, birini bura, düz məhləyətən. Gəlib bu yanındayını alıb yeyir. Yalvarıb: «Ana, məə də ver». Deyib: «Get özün al». Heylə-heylə məhləyə düşüb, anası qapını bağlıyır. Deyir: «Əppəyim yoxdu. Özümə baxammıram, sənə nağayrım». Ha fikirləşir, girir padval kimi yer variymiş, ora. Atasının qılıncı variymiş. Bu qılıncı götürür. Qulaş diyillərdi da, qırx qulaş kəndiri var imiş. Bu kəndiri götürür, sarıtdıyır belinə. Baxır ora-bura, bir dənə də yumurta tapır. Yumurtanı da qoyur cibinə, düşür yola.

Çox gedir, az gedir, yorulub oturur. Ajdı da, nağarsın. Görür ki, yolun ortasında qarışqalar yuva tikir, belə çıxıb, doludu buralar. Qılıncı alır düşür buların üstünə. Belə kəsir, nağayrır, sayır, görür ki, qırx dənə qarışqa öldürüb. U qarışqanın yanına qılıncın ucuynan yazır:

«Ağanəzərəm, belə gəzərəm, bir qılınca qırxın əzərəm». Belə bir söz də yazır bura. Durur, çıxır, gedir. Bu arı gedənnən sonra, bura divlərin məskəni imiş, indi yəqin divlər də oxumax-zad nəsə bilirmiş, yoxsa əfsanədi bilmirəm, bu divlər də gəlir. Sən ölmüyəsən, bura bir şey yazılıb. Bular da insanın iyini bilirmiş. Gəzir uyza-buyza, qarannıxdı, bu çıxıb ağacın başına, yatıb. Kəndirnən sarıyıb ki, yıxılmasın. Ağacın başında yatıb. Çağırır: «Ağanəzər, Ağanəzər, Ağanəzər». Bu, deer, oyanıb ki, görəsən kimdi məni çağıran, adımı bilən? Görür bir biheybət divdi. – «Sənnən güləşəjəm». Bunun ürəyinə qopmaca düşür. Deyir: «Sənnən şərt kəsəjəm. Əyər u şərtdəri yerinə yetirsən, sənnən güləşmijəm, yetirə bilməsən güləşəjəm». Deyir: «Yaxşı. Düş aşağı». Deer: «Get iki dənə bu boyda daş gətir». İki dənə daş gətir. Deyir: «Bu daşı sıxajayıx. Kim bu daşdan ağlı-sarılı su çıxartsa, o qalib gələjəh». Divin gözünü oğurlayıb yumurtanı qoyur daşın üstünə. Bunu sıxıb suyunu tökür. Div ha əlləşir, ha vuruşur, heş nə eliyəmmir. Devə deer ki, səni yeyəjəm. Divin ürəyinə düşür qopmaca. Deyir: «Gəl qardaş olax. Sən nə istəsən onu yerinə yetirəjəm». Deer: «Yox. Bir şərtimiz də var». Deer: «De». Deer: «Kim qolunun altınnan qırx qulaş kəndir hörüb çıxarsa, o qalib gələjək. Əyər sən elədin, mən səni belimdə gəzdirəjəm hara getsən, mən elədim, sən məni belində gəzdirəjən həmişə». Deer: «Yaxşı». Bu divlər onsuz da tüklüdü. Bu div kəndir hörməyi nə bilir, nağarmağı nə bilir. Bu da açır, çəkir tökür, çəkir tökür kəndiri. Div da ölür qorxusunnan.

Minir divin belinə, kəndiri götürür, qılıncı da bağlıyır belinə. Div deyir: «Qılıncaa baxım». Deer: «Bu qılınc sirridi. Sən una əli vursan, səni doğram-doğram eliyər». Div aşağı baxır, yuxarı baxır. Deer: «O üz-bu üz elədinsə ha, bax bu qılışnan kəsəjəm başıı». Deyir: «Yaxşı».

Bu devin də ayrı bir mağarası var. Deməli, devlər olan yerdən hamı köçüb gedib harasa. Bu olub nə bilim zəif, bularnan yollaşa bilmiyib, qayıdıbdı, gəlibdi. Oturub bu mağarada, dolanıb, əmələ gəlibdi. Deyib: «Get od tap, gətir». Ağacın bir budağını dartanda parası qopub gəlir. Od-ojax qalıyıllar. Bu gedib, dartıb, daşıyıb gətirir, bu yiyir, kökəlir, əmələ gəlir. Keflənir, divə deyir ki, mən arvad almax istəyirəm. Dev deyir: «Kimin qızını istəyirsən, gedim onu səə götürüm gətirim». Deyir: «Padşahın qızını». Bular olan ölkədə padşah var imiş, aman-zaman bir dənə qızı var imiş. Okqədər qızı istəyən var imiş, getmirmiş. Qız getmirmiş ha. Fikirləşibdi, deyir: «Gedəjəm bu padşahın yanına, bu söhbəti una açajam. Dijəm

hal-qəziyyə belə-belə». Deməli bu div tək olduğunnan padşah əmr eliyibmiş ki, una dəyməyin. Qoyun qalsın, yaşasın.

Bir gün padşah görür ki, bu div gəlir. – «Xoş gəlmisən». – «Sağ ol». Buna yer-zad görkəzir. Deyir: «Mənim bir ağam var, sənin qızıı istəyir». Deyir: «Ə, kopoğlu, sənin ağan kimdi?». Div başına gələni danışır. Bəs belə pəhləvandı, belədi, filandı. Bu devin də ağlına gəlib bircə dəfə soruşmuyub «sənin atan var, anan var, kimin oğlusan». Belə şüursuzdu da. Deyir ki, mənim qızımın şərti var, o şərti də yerinə yetirən yoxdu. Ağana de, gəlsin, axşam qonaxlarımız olajax. Mənim qızımın şərtini yerinə yetirə bildi, mənim qızım da, pəhlivan da, kasıb da olsa, dəli də olsa, qızın aşiqidi də, ona gedəjək. Yerinə yetirmədi, bax u qılınc, u cəllad. Boynunu vurdurajam. Bu da özünü sındırmayıb deyir: «Hə, cəllada bax, padşaha bax. Gedərəm də, yerinə yetirərəm də. Get mənə kastyum, ayakqabı, filan-beşməkan tap. Padşaha layiq olan paltar tap, gətir». Div gedir, tapır gətirir, axşam gedillər padşahın hüzuruna. Qız da baxır, Allah, bir oğlandı boylu-buxunnu. – «Xoş gəlmisən». – «Çox sağ ol». Görür məhlənin dört tərəfi güllükdü, ortada stuldu. Belə oturub, qonaxlar yavaş-yavaş yığılır, amma başda bir qəşənh stuldu, qızın stuludu. Bir də görür, ay allah, qız gəlir. Ləmpə kimi yanır. Qız gəlir oturur: «Xoş gəlmisiz, mənim əzizlərim». Yeyillər-içillər, hələ bir söhbət yoxdu. Bu qız savaha yaxın, hava açılmasına iki-üş saat qalmış, deyir: «Mən indi gül olajam, bu ağajdarın birinnən asılajam. Hər kəs məni tapıb üzsə, mən onunam. Şərtim belədi. Əməlli fikirləşin. Kimin boynunun vurulmax vaxtı çatıbsa, boynu vurulajax, mənim qismətimsə, mənim olajax».

Belə danışdıxları yerdə yox olub. O durub baxır, bu durub baxır, o üzünə keçir, bu güllərin başına hər kəs dolanır, tapa bilmir. Bu oturub. Nöybə çatıb buna, bu durub o gülə əlini vurur, bu gülə əlini vurur, bir dənə şeh düşmüş gülü üzür. Bu olur qız. Ay allah, ay dad, qız özü də görüb ki, doğrudan da, buna layiq oğlandı, bunun xəbəri yoxdu. Deellər ki, bəs qızın qisməti çıxıbdı. Belə oturublar, qız deer ki, düzünü de. Bir dənə şərt kəsəjəm. Düzünü dedin, evlənəjəyik, düzünü demədinsə, boynun vurulajax. Deer: «Baş üstə». – «Sən nə bildin ki, mən o güləm». Deyir: «Ona görə bildim ki, mən güllərin hamısına əlimi vurdum, gördüm heş birinə şeh düşmüyüb. Şeh düşən gül sən idin. Ona görə də səni üzdüm». Deməh, şeh düşüb səhərə yaxın, bu da düşüb bu gülün üstünə.

Padşah da, deyir, oturubdu orda. Çağırır oğlanı. Bu düşür padşahın ayağına, istəyir ayağını-zadını öpə, qujaxlıya, padşah qoymuyub.

– «Dur ayağa, burda olmaz». Deyir: «Sənin anan, atan, oğlun, kimin var?» Deyir: «Heş kəsim yoxdu. Bir dənə anam var». Deyib: «Anaa qoyub buralarda nə gəzirsən?» Dedi: «Anam məni evdən qovladı. Dedi get özə arvad tap, filan eylə, peşməkan eylə. Dədən yox, qardaşın yox, havaxatan oturajaxsan öydə. Deyir anama söz verdim ki, gedirəm, havax öylənəjəm, yodaşımı da götürüb gələjəm. Padşah dizinə-gözünə döyür ki, bu da belə gedəjək. Deyir: «Olmaz. Gərək gedib götürüb gələsən». Deyir: «Yox, anam gəlməz, eləməz. Anamın bir öyü var, bir padvalı var atamdan qalıb. Anam, atam zəhmətkeş olublar. Özləri üçün bir koma tikiblər. O koma da mənə sənin sarayınnan əzizdi». Deer ki, padşah, anana denən padşahın qızını almışam, toy eliyirik. Padşah səni toya çağırır. Buna bir at da verir. Deyir: «Yox. Anam məni görsə manşırı tutajax, gəlmijəh». Yoldaşına evi görsədir. – «Göt qırx nəfər, məktub göndər anama, bəlkə gəldi». Məktub yazır verir. Bu oğlana bir at da verir. Deyir, hansı atın belinə çıxır, atın beli qırılır düşür. Ay aman! Bu hak-hesabnan yeddi dənə atın beli qırılır. Gəlir mehtəri deyir: «Padşah sağ olsun, buna at dözər? Yeddi dənə atın beli qırıldı, qaldı orda». Axırda bu deyir ki, mən özüm gedərəm. Bu düşür qabağa, deyir, buna at çatmır. Bu getdikcə bu kişi atı çapır. Arvad görür ki, bir atdı dayanıb. – «Xoş gəlmisən, a qardaş». Ananın saşdarı ağarıb, gözü zəif görür. Kasıb məhlədi. Nə qədər olsa baladı da. – «Ay ana, Ağanəzərin nənəsi sənsən?» – «Bəli mənəm». – «Hardadı oğlun?» Deyir: «A bala, başını götürüb gedibdi». Deyir: «Sənin oğlun belə yaxşı oğlandı, belə pəhlivandı. Padşah qızını ona verib. Padşah səni toya çağırır». Arvad deyir: «A bala, mən hara, padşah hara? Əynim yox, başım yox. Oğluma de ki, anan deyir evlənsin, yoldaşını da götsün gəlsin». Bu da gəlib padşaha deyib. Padşah deyir: «Ağıllı arvaddı. Burda nə sirr varsa var». Padşah libasını dəyişir, iki dənə at götürüb vəziriynən gəlir.

Soruşullar bu atdı yoluun-irizini verir, eliyir. Gedirlər, qarannıx düşür, arvadın qapısın döyürlər. Arvad gəlir: «Xoş gəlmisiz». – «Sağ ol, ay xala. Bu gejə bizi qonax eliyərsən?» Arvad başını dikir aşağı. – «Ay bala, mənim nəyim var? Oğlum yox, qardaşım yox, mən tək sizə nətəər qullux eliyim?» Padşah deyir: «Ay xala, zərər yox. Sən evdə yatarsan, biz seyvanda oturarıx». Deer ki, yaxşı, oturur. Gəlir oturur. Arvadın da qara arpadan çörəyi var idi. Təzəcə bişirmişdi. Bir də qatığımı, nəyimi. Gətirir bulara süfrə qoyur, qara çörəyi qoyur, qatıx qoyur, çay qoyur. Daa olanınnan. – «Can qardaş, – deyir, – kasıbın

olanınnan, olanım budu». Padşah deer əppəyi elə iştahnan yeyir ki? Vəzirə deyir: «A vəzir, mən belə daddı çörək yeməmişəm. Ay xala, gəl yığışdır, sağ ol». Arvad sufranı yığışdırır. Deyir: «Ay xala, otur da görək». Biz də səən qardaşın, atan, balan. Niyə təksən? Deyib: «A bala, mənim bir oğlum var idi. Yoldaşım öldü, atam, anam, qardaşım, hamımız qırılıb batmışıx. Ana-bala nə zülmnən ona baxmışam, böyütmüşəm. Bu da oldu belə tənbəl. – Daa dimir ki, bunu belə elədim, filan elədim. Evdən çıxartdım. – Axırı dedim ay oğul, pulum yox, çörəyim yox. Mən səni nəynən öyləndirim, nətər eliyim. Get başıı çarəsiin qıl. Get öylən, get pullan gəl. Ölərəm burda oturarsan, qalaram, mən də sizi görərəm». Padşah deyir: «Vallah, bu haxlı arvaddı. Deyir, ay xala, sənin oğlun çox qəhrəman oğlandı, çox iyid oğlandı. Padşah qızını sənin oğluna verib. Bizi də göndərib ki, səni sabah ora toya aparax». Deyir: "Ay bala, sən nə danışırsan? Mənim oğlum hara, padşah hara». Deyir: «A xala, padşahın qızının şərti var. U şərti də sənin oğlun yerinə yetirib. Ona görə padşah qızını sənin oğluna verir». Deyir: «Yox, a bala, mən bu üst-başnan padşahın qapısına gedəmmərəm. Deyər bəyin anasına bax. Padşahın qızıın alan bir oğlanın anasına bax». Deyir: «Sabah səə qırx dənə qulluxcu göndərəcəm, padşaha layiq libas göndərəcəm. Sabah oğlunun toyuna gəlirsən». Arvad elə bilir bunu araya qoyullar. Deer: «Yaxşı, gedin. Göndərərsizsə gələrəm». Bular durullar, elə gejəynən sağollaşıb qayıdır. Padşah qırx dənə qız, qızıl, gümüş... Da arvadı elə bəziyir ki, bu Ağanəzərə layiq olsun. Arvad bir də görür qırx dənə atlı gəlir qapıya. Arvadı qucaxlayıllar, öpüllər: «Ay xala, sənin bəxtin gətirib. Sən niyə belə eliyirsən? Gəl, padşah göndərib». Arvad at minməyi nə bilir? Deer: «A bala, mən minəmmərəm». Deer: «Yox, minərsən, qorxma». Arvadı bəziyib, ata mindirib, götürüb gedillər. Məclis də qurulub, deer. Ağanəzərin ürəyi gedir. Qız tez qışqırır. Qalxızıllar, gül suyu səpillər, nağayrır, ayılır, iməkləyə-iməkləyə, deyir, gəlir anasının qabağına. Görüşüllər, ağlıyıllar, kirişillər. Anaya yaxşı yer görkəzillər, oturur. Yeyillər, içillər. Padşahın qızını alır. Div də hərlənir buların böyür-başında. Arvad da baxıb qorxur. Deyir: «A bala, bu padşahın həyəti, bu div burda nə gəzir? Bu buların kəndində olan divdi».

Yeddi gün, yeddi gecə toy olur. Nəsə, ana deyir: «Padşah sağ olsun, gəlnimi ver, oğlumu ver, mən götürüm gedim». Deer: «Ana, heylə şey yoxdu. Sən orda ev-eşik istəyirsən, yoxsa burda?» Arvad ağlıyır. Deyir: «Noldu ay ana, niyə ağlıyırsan?» Deer: «Mənim

yoldaşım çox yaxşı adam olub. Gözəl, çox da tənbəl olub bizim Ağanəzər kimi. Nə zülmlə yuva salmışıx, bir-birimizə söz vermişik, hansımız ölsəh, bu komaan içində, bu torpaxda ölməliyik». Padşah deyir: «Məni istəyən xələt versin bu arvada». Kimi qızıl, xələt, kimin nəyə gücü çatır töküllər üstünə. Padşah deyir: «Xala, bir on gün qalajaxsan burda. Onnan sonra sizi salajam yola».

Bular burda qalmaxda olsun, padşah da orda qızına saray tikdirməhdə olsun. Padşah dəbdəbəli saray, ev-eşik tikdirir. Vəzir-vəkil yığılır, götürüb gəlillər bura. Bir-iki gün də burda kət camaatına yiməh-işməh. Padşah yığılıb gedir öylərinə. Div də burda bularnan qalır. Deyir: «Ana, sənin öyün-eşiyin u divin sığınajağıdı, bu da sənin evin. U div də həmişə bizə köməh elijəhdi». Ular yola düşür gedir, bular qalır öylərində, mehriban yaşıyıllar.

## İNSANIN ŞEYTANI
### I mətn

Bij adamnan şeytan yolda rastdaşır, salamlaşıllar. Deyir: «Hara belə?» Bij adam şeytana deyir: – «Gedim görüm harda kimin öyünü yıxajam». Şeytan birdən soruşdu. – «Sən hara belə?» Dedi: «Mən də gedirəm, görüm kimin öyünü yıxajam». Deer: «Nə vaxtı görüşək, görək hansımız daha çox pis iş görüb». Burada yol ayrılır. Biri bu yolla, o birisi o biri yolla çıxıb gedir. Bij gedib çıxır bir kəndə. Orda-burda fırlannır, öyrənir, görür ki, bir mehriban aylə var. Deer: «Buların nəyin bahasına olur-olsun öyünü dağıdajam». Hansı yollasa, bu qadına yaxınnaşır. Deer: «Bilirsən nə var?» Deer: «Nə var?» Deer ki, sənin ərin səni istəmir, səni burda qoyub başqa kənddə arvad saxlıyır. Deer: «Bəs onun çarəsi nədi?» Deer: «Onun bircə çarəsi var. Deer onun çənəsinin altında, fikir vermişdi, üzünü qırxanda tük qalıb, bir az uzanıbdı. O biri tüklərə nisbətən uzanıbdı». Deer: «O yatanda ülgücü götür, gör o bir dənə tükü ordan kəsə bilərsənmi?» Bunnan qutardı bu hak-hesab. Dedi: «Yaxşı, eliyərəm». Yoldaşına gedib deyir ki, ərinə, bilirsən nə var? Deyir: «Beyjə arvadın sənin başını kəsəjəkdi». Deer: «Heylə şey olmaz. Məni çox istəyir o qadın». Deer: «Yox, kəsəjəkdi. Sən ehtiyatdı ol, pusginən». Deer: «Oldu». Pusur. Balaca baltası var imiş, qoyur döşəyin altına, çayını-çörəyini yeyib yatır. Yatanda özünü yuxuya verir. Gözünün altıynan baxıb görüb ki, arvad durdu, getdi bunun öz ülgücünü gətirib, dizlərini yerə qoyub boğazına çəkmək istəyəndə baltaynan vurdu arvadı. Səhər açıldı, xəbər düşdü ki, qızın

qardaşdarına, bacınızı yeznəniz öldürübdü. Qardaşları gəldi yeznələrini öldürdü. Yeznənin qardaşdarı bu qardaşdarı öldürdü. O nəsil bu nəsildən adam öldürdü, bu nəsil o nəsildən. Vaxt tamam oldu. İyirmi gün tamam oldu. Şeytan nağardı? Şeytan getdi hərləndi orda-burda, gördü ki, nişannı bir oğlan, bir qız var. Getdi əlaqəyə girdi, qıza dedi ki, səni aldadır, almıyajaxdı. Dedi: «Heylə şey olmaz, məni çox istəyir, çox sevir». Deyir: «Yox, elə-belə şeydi. Ayrı kəntdə istədiyi var». Gedir buna deyir ki, qız səni istəmir, başqasıyla fırlanır. Bu hər ikisinin arasını vurur. İyirmi gün tamam olur, gəlir. Deyir: «Neynədin?» – bij şeytannan şoruşur. Deyir ki, iki dənə istəkli vardı, onları pozdum, ayırdım. Sən neynədin? Bu olmuş hadisəni danışır. Deyir: «Mən şeytan ola-ola, iki adamı ayırdım bir-birindən. Sən insan ola-ola iki kəndi qırdırırsan bir-biriylə, o kənddərdə adam qalmıjaxdı».

**II mətn**

Şeytan yolnan gedirdi, yağış yağır bunu isladır. Keçal oturmuşdu qıraxda, deyir. Görür yağış yağmax istəyir, soyunur paltarını, daşın altına qoyur, oturur üstündə. Şeytan gəlib buna çatır, deyir: «Keçəl, bu yağışda harda olmusan?» Deyir: «Burda». Deyir: «Nətəər burda olmusan, heş islanmamısan axı? Mənim tükümdən su damır». Deyir: «Onu bilməyə nə var ki?» Deyir: «Onu məə öyrət da». Deyir: «Sən bildiyi məə öyrət, mən də bildiyimi səə öyrədim». Şeytan nəsə, bildiyi sözləri buna öyrədir. Keçəl deyir: «Onu bilməyə nə var? Gördün hava qaraldı, yağır, soyun paltarı, qoy daşın altına, üstündə ot. Yağış kəsildi, geyin əyinə qupquru, çıx get». Deyir: «Bir nəfər var, onu yoldan çıxarda bilmirəm. Sən qüvvətdi olarsan u işdə, yoxsa mən». Deyir: «Mən». Deyir: «Baxax da, prop eliyək». Deyir: «Davay, gedək prop eliyək». Bular gedəndə deyir, görür ki, iki nəfər qoja kişi. Biri kordu, biri sağdı. Bular olur dost. Siftəsindən, uşaxlığınnan dostdux eliyirlər. İndi gəlib qocalıblar, bu dostunun kor olub gözləri. Bu da insafı gəlib bunun yanında qalır. Buna yeməyini verir, yiyməyini alıb gətirir, obşim, yerini salır. Bax belə yaşıyıllar. Şeytan gedir bunun yanına. Deyir ki, indi onların arasını mən vurajam. Bax mən gedirəm. Ordayı davaya bax. Deyir: «Nağarajan?» Deyir: «Bax da». Gedir bunun yanında. Bu da söhbət eliyir bularnan. Bu kişi deyir, belə-belə, bu da deyir: «Lap yaxşı deyirsən. Mənim də xoşuma gəldi. Onda ala bu bir qızıl sənin, bu bir qızıl da korun payı». Bu adama verir guya. Vermir ha, yalannan deyir. Qayıdır. Bular pusullar da. Bir vaxtı

şeytan görür ki, kor sıxışdırıbdı gözü sağ olanı ki, mənim qızılımı ver. Deyir: «Ə, vermiyibdi ey, aldadırdı». Deyir: «Niyə ə? Mənim qulağım kardı? Gözüm görmür, görmür, qulağım da kardı ki? U dedi ki, ala bu bir qızıl sənin, bir qızıl da korun. Noldu, qəpik olanda verirsən, qızılı vermirsən? Mənim qızılımı ver». Başdıyır burda bunun üstündə bular dalaşır, bir-birini qızıl qana döndərirlər. Şeytan deyir ki, Allahın nəhləti səə gəlsin ay keçal. Sən məndən qüvvətdisənmiş.

Deyir gənə söhbət eliyirlərdi bular. Deyir ki, indi bu axşam nağara bilərsən? Deyir: «Sən nağara bilərsən?» Deyir: «Mən bildiyimi eliyərəm». Diib: «Prob eliyək?» Deyir: «Eliyək». Kənddə, deyir, bir qız vardı, nişannıydı. Şeytan, deyir, bu qızın qəlbinə dolur axşam yatanda. Oyanır anasına deyir ki, mən nişannımı istəmirəm. – «Niyə, oğlana nolubdu?» Deyir: «Yox, o qırx razmer geyinir, mən də qırx razmer geyinirəm. U mənim ayakqabımı geyinib gedəjək, dəyişik düşəjək, onun üstündə dalaşajayıh». Arvad, deyir, anası, nə qədər eliyir, deyir: «Yox ey, istəmirəm». Şeytan bir adamı yoldan çıxartdı. Bunu eliyir. Bu keçal nağayır? Keçal gedəndə görür bulağın başında gözəl qız, qadın su doldurur. Bu da, deyir, əmisi oğluna ərə getmişdi, deyir. Bu burda bir əzan çəkir, bir mərsiyə deyir, qızın özünün xoşuna gəlir. Deyir: «Əmi, sən kimsən?» Deyir: «Mən seyidəm». Deyir: «Oğul, bu klonda ərinin şəklidimi?» Deyir: «Hə». Deyir: «Bax görürsən, onun üzündə xal var. U xalda üş dənə tük çıxıb. U tük bir-birinə dəyib zamkaniya eliyir. Ərin səni öldürəjəkdi. Bax gecə sən yatan kimi ağ ülgücü alajaxdı, sən yuxluyan kimi sənin başıı kəsəjəkdi». Deyir: «Molla əmi, heylə şey ola bilərmi? O mənim əmim oğludu, biz mehribanıx». Deyir: «Mən sənə deyirəm, inanmırsan, pus. Axşam gözünün altınnan bax. Görcəksən ki, ərin əlində ağ ülgüc gəlir sənin başını kəsməyə». Deyir: «Yaxşı». Bunu belə başa salır. Axı bu klonda oğlanın şəklini görmüşdü. Gəlir bayana, dimgədə görür camaat söhbət eliyir, həmən oğlan da burdadı. Onu çəkir qırağa, deyir ki, arvadın beyjə səni baltaynan başıı kəsəjəkdi. Deyir: «Əşi, u nə deyən sözdü?» – «Bax mən indi ordan gəlirəm, onların dəstəsinin içindən. Anasıynan, atasıynan, qohum-əqrabasıynan danışıb, sənin baltaynan başıı kəsəjəkdi». Nəysə, bunu da belə toladır. Axşam, deyir, gəlir. Tövbə. Arvada deyir ki, baltaynan vur, oğlana deyir ki, ülgüşnən kəs da. Nəsə, axşam, deyir, oğlan yatanda gözünün altınnan baxır. Görür arvadı əlində ağ ulgüc, budaha, gəlir guya bunun başını kəsməyə. Kişi də başına döndüyüm, eləmə tənbəllik, baltanı al vur bunun təpəsinə.

Heylə qızıl qan olur. Oğlan tərəf u tərəfdən, qız tərəf bu tərəfdən düşür qan, böyük ölüm olur. Səhər açılır, deyir, şeytanla keçal gənə rastdaşıllar. Deyir: «Keçal». Deyir: «Hə». – «Nağardın?» Deyir: «Sən nağardın?» Deyir: «Mən bəs beyjə bir dənə qızın nişanını qaytardım». Deyir: «Ə, gəl gedək mənim fəaliyyətimə bax, gör nağarmışam». Şeytan, deyir, gedib baxıb görür ki, on dənə samasfalt lazımdı meyidi daşımağa. Deyir: «Allahın nəhləti səə gəlsin, keçal. Demək, Allahın şeytanınnan insanın şeytanı qüvvəlidi. Mən sənnən bajarmadım. Sən sağ, mən salamat. Mən getdim».

### III mətn

Bəni adəmnən, insannan şeytan höcətdəşif. Bəni-adəm diyifdi ki, mən sənnən üsdünəm, şeytan diyifdi: «Yox, mən sənnən üstünəm». O diyif, bu diyif, diyif gəl kəndin bu başınnan sən gir, o başınnan mən. Dedi: «Oldu». Kəndin bu başınnan şeytan girdi, o başınnan bəni-adəm – insan. O qonşudan bir az söz alıb keşdi bu qonşuya. Dedi: «Aaz, sənin qana yerikliyir, səni asajaxdı, səni öldürəjəkdi, beyjə sənin başıı kəsəjəhdi». İnsannarı dalaşdıra-dalaşdıra gəldi, deyir, kəndin ortasında üzdəşdilər. Bəni-adəm gələn yerdə qırğın göyə çıxırdı. Bəni-adəm didi ki, eşidirsən səsi? Dedi: «Hə». Dedi: «Görürsən qan su yerinə axır orda, sən nağarmısan?» Dedi: «Bilirsən nə var? Mən erkəknən dişini bura çatana qədər birləşdirə-birləşdirə gəlirəm. Onnarı mən birləşdirməseydim, halal olsaydı, sənin sözəə baxıb qanı su yerinə axıtmazdı. Sən düşünmürsən, ona görə onnar qanı su yerinə axıdır».

## XANPƏRİ

Xanpəri adında bir arvad olub. Çox yava arvad olub. Bu arvaddan kişi daa okqədər cana doyub ki, yatdığı yerdə salıb torbaya aparıb bir meşədə quyuya tulluyub. Sən demə quyuda bir əjdaha varmış. Xanpəri okqədər yava arvad imiş ki, əjdaha onu görəndə o dəyqə səsini kəsib orda. Nəhayət, bir gün bir kişi meşəyə oduna gedir. Görür ki, quyudan səs gəlir. Möykəm kəndiri salır quyuya ki, bu kimsə, bəni-insanı çıxardım. Bu məqamda kəndir ora çatan kimi əjdaha tez kəndirdən yapışır. Xanpəriyə tutacax yer qalmır. Əjdaha çıxıb, insana deyir ki, səə nə yaxşılıx eliyim. – «Mən kasıb adamam, odun daşıyıram». Belə filan. Deer ki, səə okqədər qızıl verəjəm ki, qoymağa yer tapmıyasan. İndi mən gedirəm, filan padşahın qızının

belinə sarılajam. Sən eşidirsən ki, əjdaha gedib filan padşahın qızının belinə sarınıb, açılmır. Aça bilən yoxdu. Onda tez gələrsən ora, deyərsən ki, mən açajam. Qiymətini danış, on qızıl, əlli qızıl, belə. Mənim üstümə ajıxlanarsan ki, heyvan, çəkil. Mən açılıb gedəjəm. Qızıl olsun sənin, çıx gəl da. Bəli, bu forma eliyillər. Bir gün bu kişi eşidir ki, padşahın qızının belinə əjdaha sarınıb. Tez özünü çatdırır ora. Çatan kimi görür əjdaha, həqiqətən, həmən əjdahadı, sarınıb ona. – «Padşah sağ olsun, nə verirsən açım?» Deyib: «A kişi, nə qədər pul istəyirsən verim. Olsun ki, tez qızı aç. Açılsın getsin bunun belinnən. Deyir: «Yüz qızıl ver». Tez yüz qızıl, deyir, kişiyə veriblər. Kişi deyib: «Heyvan, açıl». Heyvan açılıb, çıxıb gedibdi. Kişi də çıxıb gedib öyünə. Deyib: «İndi gedirəm, bir də eşitsən, gənə gələrsən». Bu səfər gedir varlı adamın qızına sarışanda ayə, bəs buna nə qayrax, neyliyək. Bir yerdən buna xəbər çatır ki, bəs odunçu filan padşahın qızını əjdahanın əlinnən aldı. Gedillər, tez bunu gətirillər. Bu səfər iki yüz qızıl deer. İki yüz qızıl deyən kimi tez verillər. Deyir: «Heyvan, çəkil». Əjdaha açılır, çıxır gedir. Çıxanda bu odunçuya deer ki, üçüncü dəfə gəlmə. Gəlsən səni vurajam ha. Bax özün bil. Sonra mənnən küsmə. Deer: «Yaxşı, daa gəlmərəm. Bəsdi bu». Gedir başqa bir qıza sarmaşan kimi gəlillər gənə bu kişini zor-xoş aparıllar. Deer: «A kişi, vallah mən gedə bilmərəm. Mənim işim döylü». Diillər: «Niyə? Sən ikisini aşmısan, biri qalıb». Xülasə, diillər: «Ya öləjən, ya gedəjən». Deyir: «Gedim da. Allaha pənah, görüm nolajax». Yolboyu fikirləşir. Deyir: «Nətər eliyim ki, ya əjdaha məə dəyməsin, həm də pulumu alım, həm də buları hak-hesabdan qutarım». Deyir: «Yaxşı yadıma düşdü. Gedəjəm deyəjəm mən səə açıl deməyə gəlməmişəm. Diyəjəm Xanpəri gəlir. İstəyirsən açıl get, istəyirsən qal burda». Gəlir. Deyir ki, kişi, səə demədim gəlmə. Deyir: «Ay öyün yıxılmasın, mən sənnən nə pul istəmirəm, nə mal. Sənə açıl deməyə gəlməmişəm. Mən gəlmişəm sənə xəbər eliyəm ki, Xanpəri quyudan çıxıbdı, gəlir» – diyən kimi tez heyvan açılır, qaçır. Hansı ki, Xanpəri yoxdu, gəlmir. Dimək, gör Xanpəri nətər arvaddı ki, bunnan əjdaha da qorxur.

## ÖZÜM

Bir kişi olur, vəziyyəti ağır olur. Çıxır ki, getsin görsün özünə iş tapırmı, özünü dolandırsın. Nəsə, gedəndə görür bir kaha var.

Kahaya girib görür div. Bu div ayılır, deyir: «Sən kimsən, nəçisən?» Deyir: «Vallah, bəs belə-belə, tək-tənha adamam, dolana bilmirəm. Yaşayışım-zadım pisdi. Elə özümə bir yoldaş axtarıram ki, onnan dolanam». Div deyir: «Gəl bəri. Nə lazımsa, sənnən burda yaşıyax, ikimiz olax». Bu girir divin yanına, oturullar. Bular beş gün, üş gün. Bu div bunnan soruşar ki, sənin adın nədi? Deyir: «Özüm». Həmişə div bunu çağıranda «Özüm», «bəli» cavab verir. Bu divlər də yeddi qardaş olublar. Bir il, iki il, bu divlə olur. Bir gün deyir: «Vallah, bu divi öldürəjəm, bunun malına sahib olajam. Bunnan qorxa–qorxa havaxtacan yaşıyım mən?» Bu div yatan kimi üş dörd dənə şiş qayırır, qoyur ocağa. Qızdırır yaxşı, div yatan kimi basır bunun gözlərinə. Bu qışqırır, bağırır. Ay aman, ay dad. Kişi qaçır. Qaçır, deyir, gedir. Bir vaxtı bu divlərin qardaşdarı bunun nəriltisinə gəlir. Yığılır ki, buna nolub. – «Əyə, nə var, nolub?» Bunnan hak-hesabda. – «Ə kim eliyib?» Deyir: «Özüm». Nə qədər deyirlər, ə kim eliyib, səni belə. Diib: «Özüm». – «Çıxsın iki gözün. Biz indi kimi tapax, kimə deyək?»

## KƏLLƏGÖZ

### I mətn

Keşmişdə bir dənə div olur. Bu div, deyir, adam yiirmiş. Gündə bir adam yiirmiş. Hardan olsa, gedib, götürüb, gəlib yiirmiş adam. Bir gün dağda imiş, harda imiş, bir yekə daş imiş, onu hələm-hələm adam qalxıza bilmirmiş, qapısının ağzında. Bircə dənə də gözü varmış. Kəlləgöz diillərmiş.

Bir günnəri bu gəlir, deyir, gözləyir, gözləyir, bir dənə oğlan – adı yadımnan çıxıb, cijim deerdi o vaxtı, – bunu mən öldürməliyəm, deyir. Kətdə adam qoymurmuş ha. Gündə götürüb gətirirmiş. Çığırda-çığırda hər əlində birini gətirirmiş. Gündə ikisini-üçünü gətirib yiirmiş. Qoyunu da var imiş. Gedə qoyunnarnan gəlibdi iməkləyə-iməkləyə qoyun formada. Başına da qoyun dərisi keçirdib gəlibdi. Keçib giribdi onun mağarasına. Qoyunnarı salırmış ora. Qapını da heylə qayırırmış. Daşı da dünyasında qaldırmax olmurmuş. Çatan kimi başdıyır yiməyə. Yiyib qutaranda deyib: «Adam-badam iysi gəlir, yağlı badam iysi gəlir». Qoyunnarı bircə-bircə əliynən yoxluyubdu. Deyib: «Hə, hə, adam tapmışam». Dərini, deyir, belə qopardıb tulluyub ayna, görüb adamdı. – «Hə, indi səni mən yaxşıca yiyərəm, çəngəlimə çəkərəm». Deyib: «Yox, arıxsan. İki gün qal, kökəl, onnan sonra yiyərəm səni. Onsuz da bilirəm burdan heç hara qaça bilməzsən». Yekə tonqal qalıyırmış orda, isinirmiş Kəlləgöz.

Adamları yiyib yatıb tonqalın qırağında mağaranın içində. Bu yuxuluyannan sonra başdıyır, deyir, şişi qoyub ora, qıbqırmızı köz kimi qızardıb var qüvvəsiynən gəlib yavaşca-yavaşca soxub onun gözünə. Burdan ora sıçrıyıb deyib: «Ay gözüm, vay gözüm. Ay gözüm, vay gözüm, – deyib başdıyıb qışqırmağa. Sənin sümüklərini əlimnən xış-xış elijəm». Deyibdi: «Sənin gözünü mən sağaldajam. O qapının dalındakı daşı at». Deyib: «Hə, yaxşı qaçasan?» Deyib: «Yox, qaçmıjam. Sənin gözünü özüm şeyləmişəm, özüm də sağaldajam. O daşı yumala ayna». Əlini sürtə-sürtə gedib qapının daşını bircə dəfə «ıığ» eliyib yumalıyır ayna. Açan kimi qapını yüyürüb çıxıb. Gözü görmür, bir şey eləmir. Çığıra-çığıra qalır orda. Gedir kətçiləri yığıb gətirir. Çırpa-çırpa öldürüb. Gennən durub üstünə od töküb yandırıllar. Onnan sonra qoyunnarı götürüb gəlir.

*Söyləyici nağılın sonunda qəhrəmanın adının Nərbala olduğunu xatırladı. Nağılı anasından eşidib.*

**II mətn**

Bir kətdə bir möhkəm leysan yağış yağır. Bu yağış yağır bir saatmı, iki saatmı. Bir arvad görüb ki, bunun seyvanının qabağına guppultuynan bir uşax düşdü. Arvad tez gedir, uşağı götürüb baxır, görür bu uşağın bir dənə gözü var (söyləyici alnının ortasını göstərir – top.). Gətirir uşağı, deyir: «Allah, sən saxla, bu hardan gəldi? Mən bunu nejə eliyim? Özüm tək, yiyəsiz adam». Ha ölçür, biçir, bu indi yiyəsiz uşaxdı. Arvad buna nağarsın. Arvadın accana unu var imiş. Gətirir o vaxtı qorğa kimi, umac kimi nəsə bişirir. İstəyir qaşıxnan versin buna, deyir: «Ana, dayan». Qabı alır, çəkir başına. Arvad qorxur. Deyir: «A bala, sən nağarırsan belə?» Deyir: «Mən bəlayam gəlmişəm, sən məni bir beş-üş gün yemlə, bir ayağım yer tutsun, gedəjəm. Həmişə səə hörmət elijəm». Arvad yazıx nağarsın. Gedir qonşudan bir çörəh alıb gəlir. Gətirib ortaya qoyum diyən kimi iki dəfədə bölür qoyur ağzına. Arvadın bir quzusu var imiş. Qurbannıxdı, nədi, alıbdı. Deyir: «Ay ana, u quzunu yemək istəyirəm». Arvad başdıyıb ağlamağa. Deyib: «A bala, yiyirsən yi da». Qorxub yimə diməyə ki, bunu da yiyər. Bir də görür qoyunu beş dəyqədə parçaladı, yidi. Dedi: «Ay oğul, mən sənin qarnını nəynən doldurum? Axı heş kəs heş nə vermir». Deyir: «Zərəl yoxdu, ikijə gün də bax məə. Mən gedəjəm, daa əlim, ayağım yer tutur». Deyir: «Ay oğul, sən bir əppəhnən doymursan, beş əppəhnən doymursan, mən nağarım?» Deyir: «Get o qonşuya bircə boşqab unmu, bir əppəhmi, nəsə versin da, ürəyim

gedir. Heş demə bu arvadın bağında da hötək var imiş, keçibmiş. Arvad arı gedən kimi gedib hötəyi parçalıyıb yeyir, gəlib oturur. Görür arvad bir əlində boşqabda un gətirir, bir əlində də çörəh gətirir. Gələn kimi çörəyi yiyir. Deyir: «A bala, hara gedirsən? Mən neçə gündü səni doyuzdurammırdımsa da, səə vərdiş olmuşdum da. İndi məni tək qoyub hara gedirsən. Mənim də heş kəsim yoxdu». Deyir: «Ana, sən mənnən yollaşa bilməzsən. Amma nə vaxtsa sənin hakkını gətirib verəjəm».

Bu gedir birinin qoynunu, birinin atını, birinin inəyini... sürüyə girir bunu orda dartır yiyir, bunu burda dartır yiyir. Camaat tökülür bu arvadın üstünə: «Bunu sən hardan tapdın, bu nədi?» Deyir: «Vallah, heç hardan tapmamışam. Bu yağışnan gəldi düşdü seyvanımın qırağına. Mən də nağarım, yazığım gəldi, götürdüm, gördüm belə bir insandı, heyvandı, nədi bilmirəm».

Bir gejə bu gəlir. Gəlir görür ki, arvad ağlıyır. Deer: «Ay ana, niyə ağlıyırsan?» Deer: «Ay bala, niyə ağlamıyım? Hamının malını, qoynunu taladın, yidin. Camaat da mənim çörəyimi verirdi, indi verən yoxdu, dərdimə qalan yoxdu. Qalmışam elə belə. – «Darıxma, bir az da gözlə. Denən ki, Allah tərəfindən gələn bəla idi, özü də getdi. Kim soruşsa, heylə di». Deyir: «Yaxşı». Çıxır gedir. Axtarır bir dənə dağda kaha tapır. Çıxır oturur dağın təpəsində. Baxır görür qoyun sürüsü gəlir. Yığır gətirir doldurur kahaya. Bir həftə, on gün yiyir.

Çıxır görür mal gəlir, at gəlir. Hamısını yığır qapıya. Birdən yadına arvad düşür. Deyir: «Gedim görüm anamın vəziyyəti nətərdi?» Gəlir görür ki, ana da xəstədi. Nə buna çay verən var, nə çörəh verən var. Hamı da bunu qınıyır da: «Sən Allahın bəlasını hardan gətmişdin?» Arvad bunu görür, ağlıyır, deyir: «Ay bala, daa mənim axırımdı. Sən məni bax bu günə qoydun». Deyir: «Ana, zərəl yoxdu, sabah gələjəm».

Gedir dağın təpəsinnən baxır, görür, deey, uzaxdan karvan gəlir. Durur karvanın yolu üstündə, karvanı saxlıyıb, deyib: «Nəhqədər qızılız, puluz var tökün bura». Ay aman, ay dad. İstəyillər bunu öldürələr, tutalar, görüllər yox, mümkün döyül. Elə canını götürüb qaçan qaçır. Karvanı burda qoyub qaçıllar. Bu pulu niyir, qızılı niyir. Yığışdırır, hamısını gətirib verir arvada. Dəvələri-zadı aparıb yığır kahaya, öz yanına. Unnan da arvadın hakkını vermiş olur. Arvad da unnan özünü düzəldir, öy tikdirir, eşik tikdirir. Bu da kahada elə camaatın malıynan, qoyunuynan, varıynan heylə yaşıyır.

## YEDDİ QARDAŞ LAL DİVİN NAĞILI

İki qardaş olur, biri ağıllı olur, biri dəli. Bir gün dəli qardaş diir ki, evi böləh. Bularn da bir dənə evi var. Diir: «Ayə, bu bir evin nəyini böləjəyik? Burda daldalanırıx, Allaha, tarıya bax, bunun nəyin bölək». Diir: «Yox, bu evi böləjəyik». Hərəsi bir qapı tayını çıxardır, çıxır, – məhlələrində ağac varmış, – bu dəli qardaş çıxır aşağıda putağın üsdünə qoyur ki, mən burda yatajam. Ağıllı qardaş fikirrəşir ki, ə, bu dəli şeydi, bunnan yuxarıda yatım heç olmasa, gejə duruf məə bir şey eliyər. Çıxır bunnan yuxarıda yatır. Gejənin bir aləmi görüllər ki, məhlədən nərilti gəldi. Baxıf görüllər ki, devlər qapısız öydü, doluşuflar öyə. Dəli eləmir tənbəllik, belində xançalı varmış, guldurumgup özünü tullayır devlərin içinə. Tutur bir dənəsinin dilini kəsir. Birinin dilini kəsir, altısı qaçır. Bu dili kəsik də düşür buların dalıynan. İndi dili yoxdu diyə ki, məə də dayanın. Lü-lü-lü-lü eliyir, altı dənə qardaş qorxusunnan ürəyi partdıyır ki, bir-bir qırıla-qırıla gedir ki, bu nədisə bizi öldürjəkdi, əl çəkmijəh. Nəhayət bir dənə u dili kəsik qalır. U dəli qardaş yeddi qardaş divi heylə o günə qoyur.

## QOŞUNBASAN

Günnərin bir günündə, diyir, Molla Nəsrəddin ağacın başında duruf dibinnən kəsirdi. Biri diyir ki, əşi, yıxılıf ölməzsən sən ordan? Düşdü, diyir, kişini tutdu ki, sən mənim ölən günümü bilirsən, di. Ay aman, ay dad, nəsə, əl çəkmədi Molla Nəsrəddin. Didi: «Sən eşşəhli dağa gedəndə eşşəh bir dəfə ayaxda güjə düşəjəh, o ayrı cürə diyir, onda canın gələjəh, ortada güjə düşəndə canın yığılajax, başda ki, eşşəh güjə düşdü, onda öləjəhsən». Eşşəh minif getdi dağa. Ayaxda, ortada, başda...

– Dayı, ixtisar eləmə, necə eşitmisən elə danış.

– Diyif ayaxda eşşəh osturanda canın yığılajax, ortada osduranda lap yığılajax, başda osduranda öləjəhsən. Yıxıldı eşşəyin üsdünnən öldü burda. Eşşəyi, diyir, canavar gəldi yidi. Belə baxdı, baxdı, didi: «Ey, ölən adamın malını canavar belə yiyirmiş ha». Eşşəyi canavar yiyif duruf gedənnən sora, durdu ayağa, bir ayna-bayna baxdı, gördü qarğalar gəlif bu cəmdəyin üstündə yiyir. Göz qayırdı, diyir, eşşəyin quyruğunnan bir cələ kimi göz qurdu, diyir. Qarğaan biri düşdü bu cələyə. Qarğaan qoltuğuna vuruf tərpəndi.

Burda orda, getdi diyir, bir yerdə axşama düşdü. Çağırdı: «Ay öy yiyəsi, ay öy yiyəsi». Arvad gəldi: «A bajı, məni tarı qonağı eliyər-

sən?» Didi: «Eliyərəm». Tarıya da qurban olum, qonağına da. Gətdi diyir, buna əppəhdən-zaddan verdi, diyir. Qarğa qoltuğundadı. Bu yatızdırdı bunu. Arvad elə bilirmiş ki, molla yatıfdı, heş dimə baxırmış. Gördü halvanı bişirdi, ora qoydu, nə bilim, filan şeyi bişirdi, bura qoydu. Bir adam gəldi, lotu, bu da, diyir, otdu, belə şirin ixtilat eliyirdilər ki, kişi dəyirmançıymış, gejə gəldi. Lotunu da qoydu yükün dalına. Gəldi: «Arvad, bu kimdi?» Didi: «Tarı qonağıdı». Nəsə, xoş gəlif, filan-peşman: «Əşi, dur çörəh yiyəh». Didi ki, mən yimişəm, sağ ol. Getdi, diyir, arvad buna bir az şor qoydu. Qarğanı basdı, qarğa qa elədi. Didi: «Bu nədi, əşi?» Didi: «Diyir ki, orda halvanı qoyub şornan niyə yiyir?» Didi: «Arvad, u nə diyən sözdü?» Didi: «Hə, arvad qonağı gəlmişdi, una bişirmişdim». Bir də basdı, diyir, qa elədi. Didi: «Quymağı orda qoyuf, niyə filan şeyi yiyirsən?» Didi: «Arvad, u nə diyən sözdü?» Didi: «Vallah, unu günorta vaxdı arvaddara bişirmişdim, səə saxlamışam, yadımdan çıxıf».

Nəsə, quymağı da yiyir. Bir də basanda diyir ki, nə diyir əşi, u? – «Diyir ki, yükün dalındakı nədi?» Yükün dalındakı nədi diyəndə, lotu qoyur üsdünə, qaçır, çıxıf gedir. Kişi deyir: «A molla, nədi u?» Diyir: «O, gözlə görünmüyəni bildirən bir şeydi». Diyir: «Qonax, onu mənə satcasan». Diyir: «Satmıjam». Aşağı-yuxarı, diyir: «Niyə?» Diyir: «Satammaram». Diyir: «Əşi, var-yox bir eşşəyim var, onu verim səə, o nəsə onu məə ver». Didi ki, toolan var möykəm? Didi: «Hə». Didi: «Onda aparıf qarannıx toolaya qoyajam, qırx günnən sora buraxarsan. Onatan sənə isnişər, filan-peşman». Didi: «Yaxşı». Eşşəyi verdi buna. Eşşəyi minif gedəndə, diyir, birdən arvad, – qorxur axı, – didi ki, a kişi, get bir bax da. Gör nədi axı? Didi: «Yox, o məə helə diyif». Didi: «Get, bax». Getdi gördü, ayağı bağlı qarğa. Qarğanı qoltuğuna qoyuf tərpəndi dalıynan mollanın. Molla gördü ki, kişi gəlir, eşşəh yiyəsi. Eşşəyin bir qulağını kəsdi tulladı. Kişi didi: «Ə, niyirəm qulaxsız eşşəyi». Qayıtdı. Bir az getmiş didi: «Ə, buna yük vurcam da, qulağı mənim nəyimə lazımdı?» Qayıtdı, molla gördü gənə gəlir, o biri qulağını da kəsdi tulladı. Didi: «Ə, niyirəm mən qulaxsız eşşəyi?» Qayıtdı bir az, dedi: «Ə, cəhənnəmə olsun qulaxları, gedif eşşəyi alajam. Molla, diyir, bir də gördü gənə gəlir, quyruğunu da kəsdi tulladı. Didi: «Niyirəm da quyruxsuz, qulaxsız eşşəyi». Çıxdı getdi, diyir.

Molla, diyir, bir vilayətdən keçirdi, buranın da padşahının üsdünə qoşun gələsi idi, müharibə eliyəsi idi. Bunnan soruşdular ki, yolda, əyə, bu nədi? Didi: «Bu qoşunbasandı. Padşaha tez xəbər

verdilər ki, padşah sağ olsun, burdan bir kişi gedir, qoşunbasan var unda. Nəsə, didi ki, gedin bura çağırın. Gətdi. Didi: «Əşi, bu nədi?» Didi: «Qoşunbasan». Didi: «Ə kişi, bunu neçəyə verirsən?» Didi: «Satmaram mən unu. Öz padşahımıza, öz vilayətimizə lazım olur, filan». Didi: «Yox ey, onu mənə satmalısan». Nəsə, isdədiyi qiymətə bu eşşəyi buna satır. Diyir: «Qırx gün, qırx gejə qarannıx toolada arpa, saman, su ver. Qoşun gələndə burax üsdünə. O vaxdı atdı gəlirmiş axı qoşun. Nəsə. U padşah da eşidir ki, bunda qoşunbasan var. Nəsə. – «Qoşun gördün gəlir, aç burax üsdünə».

Qoşun gələndə, diyir, indi müharibədi da, gəlir. Qoşun gələndə açıf tooladan buraxır. Qırx gündü arpa yimiş eşşəh, diyir, yerə baxıf anqırır, göyə baxıf anqırır, toz eliyə-eliyə... Bunnar qoyur üsdünə, qaçıllar. Bular hamısı qaçıf gedir. Bir nəfərin atı bir az koruşun... Tez atı körpunun qulağına bağlıyır, qaçıf girir körpünün altına. Eşşəh atın üstünə qalxır, ayağı da düşəndə düşür xurcuna. Nəsə, eşşəh ayağını ordan çıxardır, tolaya tərpənir anqıra-anqıra yerə-göyə, toz eliyə-eliyə gedir. Bu dalnan gələnnən soruşullar ki, ə, sən dala qalmışdın, u nə idi? Didi: «Unun nə olmağını bilmədim, heylə şey görməmişdim. Amma, didi, atın içini də axdardı, xurcunu da. Düşdü didi, bax, bu yer hakkı, bu göy hakkı, – ağzını yerə-göyə tutuf anqırır, – sizin bircəciyiniz mənim əlimə düşsə, sizə nə eliyərdim mən bilərdim».

Unnan sora o padşahdan qorxdu padşahlar ki, qoşunbasan var. Belə.

## POÇTALYON DOVŞAN

Rəhmətdik Molla Nəsrəddin, deyir, bir gün inəyini aparır bazara satmağa. Özü də bu bazarda qırx dənə lotu varmış. Gəlir bu mollaya deyir ki, bu keçini neçəyə satırsan? Deyir: «Ay oğul, mən keçi satmıram, inəh satıram». Nəysə, u biri gəlir, qoyunu neçəyə satırsan, quzunu neçəyə satırsan? Kişi axırda bezir, keçi adına inəyi satır. Gəlir evə. Arvadı soruşur ki, a kişi, satdınmı? Deyir: «Satdım, ay arvad. Amma inəh döyüldü u, keçiydi». Deyir: «A kişi, nə keçidi u, sən inəh aparmısan». Deyir: «Vallah, belə-belə, bəs hamısı dedi ki, keçidi, keçi qiymətinə də satdım». Arvada deyir: «Zərəl yoxdu, fikir eləmə, gör o lotulara mən nə divan tutajam».

Günnərin bir günüsü Molla Nəsrəddin gedir çöldən iki dənə dooşan tutur. Götürür gəlir, bala dooşan. Götürür gəlir öyə, arvada deyir ki, axşama xörəh bişir, mən bazara gedəjəm, lotuları çağırajam. Deyir: «Yaxşı». Gedir, nəsə, bazardan ayan-bayan alıb dooşanın belinə qoyur, deyir: «Get anaa dinən axşama xörəh bişirsin, qonağımız olajaxdı». Deyir: «Baş üstə». Dooşanı buraxır, çıxır gedir. Çöl dooşanıdı, çıxır gedir. Lotulara da deyir: «Gedəyin qonağım olun». Lotular da gəlir, görür yeməh-zad bişib, doşan da evin ayağında. Bu lotular deyir ki, molla, u dooşanı sat bizə. Deyir: «Yox, satammaram, uşağım-zadım yoxdu, onu əldə-ayaxda işdədirəm». Çox çətinniknən bir inəyin qiymətinə dooşanı satır bulara. Bular dooşanı götürüb gedir.

Birinci gün lotulardan biri ayan-bayan alır, dooşana deyir ki, get anaa dinən yiməh bişirsin, axşam gələjəyik. Axşamları gəlillər, görüllər nə yiməh var, nə dooşan. – «Ay arvad, bəs belə-belə». Deyir: «Əşi, sən nə danışırsan, dooşan-zad yoxdu». Deyir: «Kopoğlu bizi aldadıbdı, onu öldürməh lazımdı».

Bu da durur bir dənə toyux kəsir. Qursağını qannan doldurur, salır arvadın boynuna, üstünü yaylıxnan örtür ki, görünməsin deyə. Deyir: «Arvad, lotular gəlcəhdi. Olar oturannan sonra mən səə dijəm ki, dur çay qoy, xörəh bişir qonağımız var. Dəbərmə. Mən səni kəsəjəm, bir dənə də qarğı düzəldib, düdüh diyillər. Mən sənin arxannan üş dəfə düüd-düüd eliyənnən sonra durarsan». Bəli. Lotular bunu öldürməyə gəlillər. Oturullar, deyir ki, ay arvad, dur ayağa çay qoy, yeməh bişir, xörək hazırla. Üş dəfə təkrar eliyir, arvad durmur, durur arvadı yıxır, kəsir. Həmən qursağı kəsir da. Kəsir, öynən bir olur qan. Lotular peşman olur: «Ay aman, bu arvadı kəsdi». Deyir: «Siz darıxmıyın, bu

dəyqə dirildəjəm». Durur qarğını alır, üş dəfə bunun arxasına düüd-düüd eliyir, arvad deyir haxsırıb durur. Durur çay qayırır, xörək hazırlayır, yeyirlər, içirlər. Bu lotular deyir: «Bunu sat bizə». Deyir: «Yox, satammaram, mən ajıxlıyam, ajığım tutanda arvadı kəsirəm, sonra peşman oluram, dirildirəm onu». Deyir: «Yox, nə qiymətə deyirsən, ver bizə». On inəyin qiymətinə qarğını bulara satır. Bu lotunun biri sifdəsi aparır, öydə arvada deyir: «Dur çay qayır, çörəh qoy». Durmur. Durur arvadı kəsir. Deyir: «Da indi dirildəjəm». Arvadını kəsir, nə qədər düütdədüd sala arvad dirilmir. Ay dad, ay bidad, arvad ölübdü. Deməh, bu o birsinə demir ki, mən belə bir hadisə eləmişəm, arvad dirilmədi. Buların qırxı da arvadını kəsir. Qırxıncı arvadını kəsir, durmur. Bulara deyir ki, ə, mənim arvadım durmadı. Deyir: «A bədbaxt oğlu, bizimki də durmadı. Bizi kopoğlu molla heyləcə aldadıb, arvadlarımızı kəsib tökmüşük. Bunu öldürməh lazımdı».

Bu molla arvadına deyir ki, bular mənim dalımca gələjəhlər, mən qaçıram, deyərsən getdi. Molla qaçır. Lotular gəlir, bunu çağırıllar. Deyir ki, bəs molla qaçdı getdi. Qaraltını görsədir ki, bax belə. Lotular düşüb bunun dalıynan. Bular yaxınnaşanda özünü çatdırır çobanın sürüsünə. Deyir ki, çoban, bəs padşah bərk xəstədi, una çobanın beynini dərman deyibdi həkimlər, mən nə qədər yalvardım ki, mən qoja kişiyəm, mənim beynimi alın, cavan çobana dəyməyin. Dedilər, yox. İndi unçax sənin yanına gəlmişəm, paltarımızı dəyişəh, sən qaç, qoy məni öldürsünnər. Çoban aldanıb, çaparağı paltarını dəyişir, buna verir, qaçır. Lotular gəlir: «Bəs belə adam görmədin?» Deyir: «Dey, gedir». Qovullar lotular çobanı. Qabaxda dərya varmış, axırda çoban qorxusunnan özünü tulluyur dəryaya. Diillər: «Get kopoğlu, gördün-mü səni öldürdük». Axşam, deyir, görüllər, budaha, bir sürü qoyunnan molla gəlir. Gəlillər: «A molla, bu nədi, bunu hardan gətirirsən?» Deyir: «Ə, məni dənizə tulladız e». Deyir: «Hə». Mən batıb qalxıb sizə əl elədim. Siz gəlmədiz, görmədiz, bilmədiz nədi. Mən də elə bunu çıxartdım. Qalanı qaldı dəryada. Nə qədər qoyun var o dəryada. Deyir: «A kişi, inanmırsızsa, sabannarı bir qarını aparağın, tulluyağın ora, u batıb qalxıb əl eliyəjəh, – adam da batanda əl eliyir, əlini bir yerdən tutur eliyir, – siz də özüzü tökərsiz ora». Diillər: «Yaxşı». Gedillər, deyir, bir arvadı u formuda tulluyullar ora. Arvad batıb qalxıb əl eliyir ki, mənə kömək eliyin da. Bular da elə bilir bunnarı çağırır. Qırxı da tullanır. Gedir orda ölüllər. Molla da qayıdır gəlir

evinə. Deyir: «Arvad, da irahat yaşıya bilərik, oları dəryaya qərq elədim».

## GOM-GOM PİRİ

Dayısı çox varlı adam idi. Bir gün gördü ki, bunun xalası çox əyri-üyrüdü. Dedi: «Bu arvad səni öldürəjəhdi. Nağarax buna?» Deyib: «Nə bilim, a bala». U kişi də əkinçi idi. Bu arvad xəbər aldı ki, a oğul, heş pir yeri bilirsən ki, adam gedə dərdini danışa eliyə. Keçal dedi ki, xala, mən bir dənə Gom-gom piri addı yer bilirəm. Orda nə nəzir eləsən, o nəzir keçər. İndi bu keçal xalasına ixtilat eliyir. Deyir: «Hayana». Deyir: «Məsələn, filan yerin ortasında, səhranın ortasında bir ağacın dibidi, bir öydü. Nə niyyət eləsən yerinə yetir». Arvad diyər: «Mən ora getməh istəyirəm». Diyər: «Get da». Keçal güdər, girər pirin içinə, ağacın içinə, orda dayanar. Keçal diyər ki, dayısına, dayı, bibim bizə bu gün aş gətirəjəkdi. Dedi: «Axmax söz danışma. Bibin öydən bura hara gəlir ki? Bir neçə kilometr yoldu». Dedi: «İndi sən görjəhsən». Demək, gəlib Gom-gom pirinin yanınnan keçirmiş bu arvad, u pirə gedəsi olsa da. Görür gəlir da. Girir Gom-gom pirinin içinə. Deyib ki, ya Gom-gom piri, keçal ölsün. Deyib: «Gomp». – «Keçalın dayısı ölsün». Deyib: «Gomp». Aşı da bura qoyubdu. Qayıdıb gedib öylərinə. Keçal durub aşı da götürüb gedib dayısının yanına: «Dayı, bax, bibim gətmişdi bunu». Yanı keçal heylə bic olan şeydi axı.

## TƏNBƏL ARVAD

Bunun ögey anası olur, keçal qızın. Bunu istəyir bir oğlana verə. Bunu alan yoxdu da. Nəsə, yiir yiməkdən, doymur. Altı əppək para yiyirmiş bir oturuma. Deyir, bunun qonağı gəlir, padşah. Deyir: «O gündə yeddi xalça toxuyur. İndi yunum çatmıyıbdı altı xalça para toxuyub. U paranı ver deyib ağlıyır», – anası deyir. Deyir: «Bəs o nətəəri?» Deyir: «Hə, gündə yeddi xalça toxuyur, əysik olanda ağlıyır». Padşah deyir ki, – bu da çirkin, qara bir qız imiş, – unu oğluma alajam. Nağarax bəs. Deyir: «Hə, sən gərək bütün ölkənin yununu yığasan. Buna çatdıra bilərsənmi? Gündə altı-yeddi xalça toxuyur». Gətirir yunun hamısını yığır. Qonaxları gəlir. Qonaxları gələndə qara pıspısa keçir bunun əlinə. Yastığı qoyur, döşəkcəni qoyur, qara pıspısanı gətirib otuzdurub döşəkcənin üstündə. Deyir: «Bu nədi?» Deyir: «Bu mənim xalamdı». – «U niyə heylə?» Deyir: «Xalça toxumaxdan o günə düşübdü». Fırıldağa bax. Deyir: «İndi sən də heylə olcaan xalça toxumaxdan». Deyir: «Hə, bəs nətəəri?

Bu mənim xalamdı, xalça toxumaqdan o günə düşüb». Tezdəndən padşah yığdığı yunnarın hamısını dağıdır. Deyir ki, mən heylə xalçanı istəmirəm.

## HUŞSUZ ADAM

Gedir harasa. U da həmişə xaşıl yiyən imiş. Görüb ki, xaşıl bişirillər. Gətirillər, yiyillər, içillər, bunun da adını bu bilmir. Deyir: «Bunun adı nədi?» Deyir: «Xaşıl». Bu xaşıl, xaşıl, xaşıl diyə-diyə gedir. Bir keşqalın qırağınnan hoppanası olur. Xaşıl, ha bunun yadınnan çıxır. Girir bu suya, palçığı tapdalıya-tapdalıya oturur. Biri gəlib deer ki, a molla, sən nağarırsan burda? Deyir: «Ə, bir şey itirmişəm, tapammıram. Bu yazıx da düşür bura, başdıyıllar tapdalıyıllar. Deer: «A molla, biz da bunu tapdalamaxdan xaşıla döndərdik, burda nə olsa tapardın». – «Ə, tapdım». – «Nədi?» Deer: «Elə xaşıldı». Burdan çıxır, elə xaşıl deyə-deyə gedir çatır öylərinə. Deyir: «A arvad, bir şey tapmışam». Deyər: «Nədi?» Deyər: «Xaşıldı». Deyir: «A kişi, hanı?» Bu da bilmirmiş. Deyir: «Bişircəhsən». – «Ə kişi, nətər bişirillər, bilmirəm. Ə kişi, una duz töküllər?» Deyir: «Hə». – «Di dur tez get, öyrən gəl». Təzədən qayıdır gəlir. Deyir: «Ay molla, noldu, indi getmişdin?» Deyir: «Vallah, u xaşılı nətəər bişirirsiz məə öyrədin, duzu da nəkqədər tökürsüz deyin». Deyir: «Xaşılı su qoyursan, qaynadırsan, un tökürsən, bişirirsən. Duzunu da çox töksən, bir belə (söyləyici iki ovcunu göstərir – top.), az töksən bir belə (söyləyici tək ovcunu görstərir – top.)». Araya qoyur. Bu çox töksən bir belə, az töksən bir belə eliyə-eliyə gəlir çatır öyə. Deyir: «Ay arvad, belə-belə elijəhsən. Duzunu da çox töksən bir belə tökəjən, az töksən bir belə tökəjən». Deyir: «Yaxşı». Arvad suyu qoyur, unu tökür, xaşılı bişirir, deyir: «A kişi, nəhqədər tökək?» Deyir: «Çox tök da. Çox töksən, deyir, bir belə tökərsən». Bir belə duzu (iki ovuc – top.) alır basır qazanın içinə, olur zəyux, yiyəmmillər. Deyir: «Ay arvad, gət bir də bişir. Bu səfər bir belə (bir ovuc – top.) tök». Gətirir bişirir, bu səfər bir belə tökür. Bir belə duzu yimək olar? Deyir: «A kişi, vallah, ular səni araya qoyubdu, sən də məni. Gəl bunu mən bişirən kimi bişirəh». Deyir: «A köpəyin qızı, bilirdin, vaxtında bişirəydin da. İndi heş bişirmə».

## PADŞAHIN YENİ TACI

Haman kişi danışırdı. Deyirdi, mənim kimi tənbəl kişi əlini ağdan-qaraya vurmurdu. Yıxılmışdı evə, arvad nə tapıb gətirsəydi,

onu yeyəjəydi. Baxdı gördü ki, aradan bir on-on beş, iyirmi il keçibdi, beş uşaxları var, bir də bu kişi altı. Tək arvad işdiyir, bulara baxır. Amma kişinin u dərəcədə qiryəti yoxuydu ki, diyə ki, gedim ordan bir şələ odun gətirim ojağın altına qoyum. Bu da yox idi.

Bir gün arvad fikirləşir, deyir ki, a kişi, səni öldürəjəm. Deyir: «Niyə?» Deyir ki, bax, mən səni neynirəm. Beş uşağa baxım, səə baxım? Deyir ki, arvad, öldürmə məni. Deyir: «Niyə?» Deyir ki, mənim uşaxlarıma deyəllər ki, anası atasını öldürmüş, belə-belə olmuş. Hamma qoy, çıxım gedim, qurt-quş məni meşədə yisin. Eybi yoxdu bunnan. Deyir: «Yaxşı». Hayatdan çıxardır bunu, deyir: «Çıx get». Kişi gedir.

İki gün, üş gün, beş gün yol gedirdi. Gördü ki, camaat yaman harasa belə gedir. Xəbər aldı: «Ay camaat, hara gedirsiz belə?» Dedi ki, vallah, padşah car çağırıb ki, nəsə bir sözü var, camaat ora yığılsın. Hamı gedir, yığılır. Camaat çoxdu. Padşah durur, çıxır, deyir ki, ayə, camaat, hansınız biliklisə, mənim başıma bir dənə tac toxusun. Elə bir tac toxusun ki, bütün yer üzündə olan padşahların tacınnan artıx olsun. Kim var onu bacaran? Bu kişi də burda idi, bu məclisin içində öz-özünə fikirləşir ki, gedəjəm məni meşədə qurt-quş yiijəh, amma öydə qalsam, arvadım məni öldürsə, mənim uşaxlarıma belə diijəhlər. Mənim adıma pis ləkədi. Qoy mən bu padşahın əlində ölüm, mənim uşaxlarıma disinnər ki, padşah atasını öldürən kopoğlu. Dedi, camaatın içinnən bu kişi yardı çıxdı irəli ki, mən bajararam onu. Çağırdı gətdi onu, dedi: «Nətər bajararsan?» Deyir: «Padşah, səə bu camaatın içində söz verəjəm. Səə elə bir tac toxujam ki, bir tərəfində gün doğajax, bir tərəfində ay doğajax. Bütün yer üzündə olan camaat tamaşa elijəh ki, sənin başında belə bir tac var». Dedi: «Havaxt hazır elijəksən?» Dedi: «Bir ildən sonra, gələn ilin bugünkü günü». Deyəndə dedi ki, səə nə lazımdı. Dedi: «Mənə on beş kilo qızıl lazımdı, on beş kilo gümüş». On beş kilo qızıl verdirir, on beş kilo gümüş verdirir. Bunu bir ata qoyur, deyir: «Get». Camaata deyir ki, bir ildən sonra bura yığılarsız.

On gün idi, on beş gün idi ki, hayatdan çıxmışdı. Arvad gördü kişi gəlir, çiynində xurcundu içi dolu yüknən gəlir. Deyir: «Hara gəlirsən? Sən ölümə getmişdin, niyə qayıdırsan?» – «Arvad, bura gəl, diyəjəm». Deyir: «Bura gəl, bura gəl». Xurcunu açır, görür qızıl-gümüşdü. Deyir: «Bu nədi?» Deyir: «Aaz, kiri. Ye, nə qədər yeyirsən ye. Sən məə deyirdin tənbəlsən, yatıbsan öydə, bax, Allah mənkini yetirib». – «De görüm hardan almısan? Oğurlux eləmisən, neynəmisən?» Deyir: «Onu mənnən xəbər alma. Yenən, o sözü səə dijəm bir il sonra.

Oturublar, buların güzəranı yaxşı keçir, yaxşı dolanıllar. Yaxşı yaşıyan vaxtında günnəri sayır kişi. Günnəri sayır, vaxd gəlir üş yüz altmış beş gün tamam olur, deyir: «Arvad». Deyir: «Hə». – «Mən gedirəm, padşah məni dar ağacınnan asdırajax». Deyir: «Niyə?» Deyir: «Bu qızıl-gümüşdəri padşahdan alıb gətirmişəm ki, səə tac toxuyajam». Deyir: «A kişi, sənin əlinnən nə gəlir ki, gedib tac toxuyasan. Gedib nə cavab verəjəhsən?» Deyir: «Heş bir cavab vermijəm. Mən gedəjəm, qoy padşah məni öldürsün. Qoy mənim uşaxlarımın adına da böyük bir ad olsun ki, padşah dədəə öldürüb».

Götürüb qara kalağayını, mal təzəyini həmin kalağayıya bağlıyır, alır qujağına bu kişi, götürüb gedir padşahın hüzuruna. Camaat yığılır ki, padşah gələjəh, padşahın tacı gələjəh, onun başına qoyulajax. Camaat tamaşaya gəlib. Gəlib yaxınnaşıb, öyə girəndə deyib ki, padşah sağ olsun, gərək biz olan evdə heş kəs olmasın. Hamını çıxardın evdən. Deyir: «Bu şərtnən, gərəh başıı ülgücnən qırxdırasan». Başını padşah ülgücnən qırxdırır. Deyir ki, qarannıx evin içində u tacı qoyajam sənin başına. Dimişdim u tacın bir tərəfində gün doğajax, bir tərəfində ay doğajax. Qarannıx evə salır kişini, mal təzəyini qoyur başına, yaylığı da çəkir üzünə, deyir: «Padşah, bir azdan sonra kəlağayını götürərsən başınnan». Kəlağayını götürür, görür ki, başında nəsə var bunun. Belə-belə əlini vurur, çöyrülüb deyib: «Ə, nədi ə, bu?» Deyir: «Padşah, sənin başının içindəyi unnandı». Deyir: «Niyə?» Deyir: «Padşah, mənim əlimnən-ayağımnan iş gəlmir. Səə yaxınnaşdım, səə dedim ki, məə on beş kilo qızıl ver, on beş kilo gümüş ver. Heç sən mənnən xəbər almadın, sən hansı sənətin sahibisən, sən kimsən, nəçisən? Bax belə-belə padşahların əlində ölməyim məə yaxşıdı». Öldürmür onu padşah. Öldürmür, buraxır. Deyir: «Düz deyirsən bala, padşah olmaxnan döyül, savad lazımdı, elm lazımdı, örgənəsən, biləsən verdiyii də kimə verdin, aldığıı da kimdən aldın. Hamısını gərəh biləsən».

## QAZIN BÖLÜNMƏSİ

### I mətn

Bir kişi kasıb düşmüşdü. Hayatında baxdı ki, heş bir şeyi yox, tək bircə dənə qazı var. Bir qazı var, dedi ki, aparıb bunu padşaha verəjəm, buna qərəl uşaxlarıma çörəh pulu versin. Uşaxlarım ajınnan qırılır. Torbaya qoyub aldı əlinə, getdi otdu hayatda. Padşah dedi ki, ə, görün o nə istəyir. Çağırdılar dedilər ki, nə istəyirsən?

Dedi: «Padşahın yanına getmək istəyirəm. Məni padşahın yanına buraxın». Buraxdılar padşahın yanına. Dedi: «Nədi, bala?» Dedi: «Padşah sağ olsun, vallah, bir dənə qazım var, onu gətirmişəm səə. Ona qərəl məə bir az çörəh pulu ver. Uşaxlarım öydə ajınnan batır». Deyir: «Ə, bax gör biz öydə altı nəfərik. İki qızımdı, iki oğlumdu, ər-arvad da biz, altı nəfərik. Bir qaz bizim haramıza düşər. Bizə bəs eləməz u». Deyir: «Padşah, mən bölərəm o qazı». Deyir: «Hancarı bölərsən, böl görüm. Əyər bölsən, nə qədər istəsən, səə qızıl-gümüş verəjəm». Deyir: «Padşah, sənin oğlannarın oturacaxdı, hər iki qılçası oğlannarının. Sənin qızların uçarıdı, qanaddarı qızlarının. Sən özün öyün sahibisən, padşahsan, başı sənin, dümbücü də arvadının». Fikirləşdi, dedi: «Düz deyirsən». Götürüb buna qızıl-gümüş verir, bu gedir.

Bu kasıb öydə yaxşı gün-güzəran keçirir. Güzəran keçirdiyi yerdə qonşu baxıb görür ki, dünənnəri bu kasıb adam idi, indi samavarı, çayı, çörəyi yaman hədinnən aşıbdı. Bu xəbər alıb deyir: «Mən ölüm, a qonşu, hardan aldın sən bunu?» Dedi: «Ə, vallah, bir qazım var idi, apardım verdim padşaha. Padşah ona qərəl mənə çörəh pulu verdi». Bu da fikirləşdi ki, ə, mənim də beş qazım var. Mən də aparajam. Beş qazı doldurdu torbaya, getdi padşahın yanına. Bu qonşunu çağırdı ki, sən niyə gəlmisən? Dedi: «Vallah, mənim qonşumun bir dənə qazı vardı. Ona çörəh pulu vermisən. Mən beşini gətmişəm. Ona nə verərsən, verərsən». – «Ə, onun bir qazı var idi, biz altı nəfər idik, ona böldü. Sən beş qaz gətirmisən, altı adama bölmək olar?» Dedi: «Yox, böləmmərəm». Dedi: «Get o qonşunu çağır gətginnən». Qonşunu çağırdı gətdi. Dedi ki, ə, dünənnəri mə bir dənə qaz gətmişdin, qazı böldün bizə verdin. Mən də ona görə çörəh pulu verdim. İndi bunun beş qazı var. Bu kişinin beş qazını bizə bölə bilərsən, altı nəfərə? Dedi: «Bölərəm». Dedi: «Böl görək» Dedi: «Qaz sahibini çıxart çölə, bölüm». Qaz sahibini çıxartdı çölə. Qazın birinin əl-ayağını bağladı atdı oğlannarın üstünə. Qazın birinin də əlini-ayağını bağladı, tulladı qızların üstünə. İkisi getdimi? Qazın birinin də ayağını bağladı, tulladı ər-arvadın üstünə. Üçü getdimi? İki qaz qaldı burda. İki qazın hərəsini bir qoltuğuna aldı. Dedi: «Padşah». Dedi: «Hə». Dedi: «İki oğlun bir qaz, üç. İki qızın bir qaz, üç. İki siz bir qaz, üç. İki qaz bir də mən, üç». Baxdı, gördü böldü. Bölənnən sonra götürdü buna qərəl də gənə də buna qızıl verdi. Qaz sahibini çağırdı: «Bura gəl». Dedi: «Bölə bilmədin, buna düşür». Elm sahibi aj qalan deyil, Allah yetirəjəh ona.

## II mətn

Bir kasıb kişi olur, dolanışıx çətin olur. Gedir bir dənə qaz alır. Qazı başdıyır güdməyə ki, gündə bir dənə yumurtasını satıb dolanaram. Aparıb qazı güdür. Qonşusu da paxıl olur. Buna baxıb bu da beş dənə qaz alır, başdıyır bu da güdməyə. Diir: «Gəl nöybə-nöybə güdəh, ikimiz də sərgərdən olmuyax». Nöybə-nöybə güdüllər. Sora kasıf baxıb ki, buna sərf eyləmir. Bunun beş dənə qazı var, bir gün güdür, mənim bir dənə qazım var, mən də bir gün güdürəm. Nağarım? Diir: «Gərəh aparam satam qazı».

Səhərsi gün durur, qazı satmır, aparır padşahın yanına. Diir: «Padşah sağ olsun, səə pay gətirmişəm». Diir: «Nədi?» Diir: «Qazdı». Diyir: «Sən unu bizim aramızda elə bölə bilərsənmi narazılıx olmasın da. İki qızım, iki oğlum var, bir arvadım, bir özüm. Amma bölə bilməsən boynuu vurdurajam, bölə bilsən, səə yaxşı var-döylət, qızıl-gümüş verəjəm». Kişi diir: «Yaxşı, şah sağ olsun, səən iki oğlun var, arxa-dayaxlarındı, bu iki ayax oğlanlarının. Qaldı iki qənədi. İki qızın var, onsuz da bu gün-sabah uçub gedəjəh, bu qənətdər qızdarının. Evin, diyir, daxili işdərinə arvadın baxır. Bu içalat arvadın. Evin başı sənsən, başı sənin. Yerdə qaldı leşi, o da mənim».

Sabahısı gün kasıb daa qaz aparıb güdmür. Bunun paxıl qonşusu gördü ki, bu qaz gətirmədi güdməyə. Gəldi soruşdu ki, bəs niyə gəlmədin? Bu da deyir ki, qazı pay apardım şaha, o da mənə qızıl-gümüş verdi. Bu da götürüb beş dənə qazın beşini də aparır şaha. Diir ki, səə pay gətirmişəm. Şah da buna diir ki, bunu aramızda yaxşı bölsən, külfətimizin arasında, səə yaxşı qızıl-gümüş verəjəm, böləmməsən boynuu vurdurajam. Diir: «Yaxşı, bölərəm». Oturur fikirrəşir, fikirrəşir, görür yox ey, bunnux döyül. Şah bunun boynunu vurdurajax. Diyir: «Şah sağ olsun, başqa adam gətirsəm, bölsə, razılaşarsan? Una ver, mənə heş nə vermə». Diyir: «Yaxşı».

Gedir kasıbı gətirir: «Bəs qazın hamısını verirəm səə, bölə bilmirəm, şah boynumu vurdurajax, gəl qazı böl». Gedir qazı bölməyə. Diir: «Şah sağ olsun, iki dənə oğlun var, bir dənə qaz, neçə elədi?» Diir: «Üş dənə». – «İki oğlun, bir qaz oldu üç, iki qızın var, bir qaz da olara verirəm, nə qədər oldu?» Diir: «Üş dənə». – «Bir arvadın, bir də sən, bir qaz da sizə verirəm, siz də olduz üş dənə. Yerdə qaldı iki qaz. İki qaz bir də mən, biz də oldux üş dənə». Beləcə hamısını bölür.

## KİMİN YALANI BÖYÜK OLAR

Bir günü keçalnan kosa dərmana gedirlər, az dənləri olur. Deyir: «Gəl yalan danışax, kimin yalanı üstün olsa, kömbə bişirək, – kömbə deyirlərdi o vaxtı, – kömbə bişirək, kömbə onun olsun». Kosa deyir ki, mən həyətdə oturmuşdum, gördüm göydə küçük zingildəyir. Deyr: «Olar, olar. Qızılquş alar cayağına, qaldırar göyə. Olar, inanılası sözdü». Deyir: «İndi mən söylüyüm». Deyir: «Mən qarpız almışdım, qarpız kəsirdim, bıçax əlimnən getdi qarpıza, dalıynan özüm getdim. Bıçağı axtarırdım, gördüm bir kişi əlində ağac gəlir. Dedi ki, a bala, nə axtarırsan? Dedim: «Bıçağı». Dedi: «Öyün yıxılsın, bir karvan dəvə itirmişəm tapmıram, bir balaca bıçağı tapajaxsan? Kosa qulax asır ha. – «Bir az getmişdim kol topasınnan bir çakqal çıxdı. Əlimdə bir ağac vardı, atdım, bu çakqalın ağzınnanmı, harasınnanmı bir paket düşdü. Mən aşdım, oxudum, gördüm yazılıb ki, qələt eliyir kosa, kömbə keçalındı».

## KEÇƏLİN KƏLƏYİ

Qırx yaşına çıxınca öydə yiyirmiş, öydə yatırmış, çölə çıxdı yoxdu. Qırx yaşı tamam idi. Atası bir gün dedi: «Ə, havaxtacan baxajam səə. Ə, get da çölə, çörəyə». Çıxmır. Nəkqədər eliyir çıxmır. Bunun da, deyir, qırx dənə keçisi vardı. Kişi, deyir, aparır bunu güdürdü, gətirirdi, sağırdı, yiyirdi, satıb eliyirdi, bunnan dolanırdı. Kişi qocalıbdı. Bir gün dedi ki, bilirsən nə var? Dedi: «Yox». Dedi: «Bir dənə dəmirçiyə çomax bağladarsan, başının tompalı bir batman gələn, unnan sonra mən aparıb keçiləri güdərəm». Dedi: «Yaxşı». Gedib bağladıb gəldi. Dedi: «Dur ayağa». Aldı çomağı, baxdı, dedi: «Hə». Paltarını geydi, anası bir az əppək qoydu çantaya, verdi buna. Keçiləri qatdı qabağına, çıxdı getdi. O gedən oldu, qayıtmadı dala. Qırx gün götdü apardı dağa, hara apardısa bunu tapan olmadı. Bu keçinin üş gündən bir birini kəsdi dağda. Çomağı qoydu belinin ortasınnan, yatızdırdı, kəsdi, bişirdi, yedi, bişirdi, yedi. Qırx gün dolandı burda. Dəyənək çiynində qayıtdı gəldi. Kişi gördü oğlu gəlir, bayaxkı kimi döyül, elə bil div kimidi. Görüşdü elədi, dedi: «Ə, keçilər noldu?» Dedi: «Keçiləri satdım». – «Hara ə?» Dedi: «Qırx dəvə yükü buğdaya». Yalan-palan deyir. Deyir: «Ə, ağlın olsun, bəsdi sənki, hanı keçilər?» Kişi məətdəl qaldı. İki-üş gün qaldı,

dedi: «Gedirəm». Kişi dedi: «Hara gedirsən, ə?» Dedi: «Gedirəm keçilərin dalınca». Düzəldi, deyir, u kənd sənin, bu kənd mənim, şəhərdən çıxdı, deyir, qeyraz şəhərə gəldi. Gördü bir imarət var, bunun qırağıynan yavaş-yavaş gedirdi. Bu şəhərin şahı ölmüşdü, arvadı şah idi. Pencərənin qabağında durub şəhərə baxırdı. Gördü bir kişi gedir bərdən arı. Dedi: «Elə mənim malım budu». Əlüstü qarabaşı çağırdı, dedi: «Onu saxlıyın». Saxladılar. Dedi: «Nolub?» Dedi: «Şah səni çağırır». Gəldi, dedi: «Nolub?» Dedi: «Hara gedirsən, hardan gəlirsən?» Dedi bəs belə-belə. Başına gələn əhvalatı daamadı, düzünü söylədi. Gedirəm, yalannan ata-anama demişəm ki, qırx dəvə yükü buğdaya satmışam. Onu doğrultmaxdan ötrü gəzirəm. Allah məə harda yetirsə orda doğruldajam. Dedi: «Qırx dəvə yükü buğdanı mən sənə verirəm, amma bir şərtimiz var». Dedi: «Nədi o?» Dedi: «Otur, deyəjəm». Nəsə, oturdu, deyir. – «Bir gejə mənnən yatajan dedi. Bajarsan sənə qırx dəvə yükü buğda verəjəm, bajarmasan, yox». Əri ölmüş qadındı da bu. Dedi: «Oldu». Nəsə, gejə yatdı, səhər durdu ayağa. Dedi ki, uduzmusan. Dedi: «Ay xanım, niyə uduzmuşam?» Dedi ki, düz aparmadın özüü. Dedi ki, bilirsən nə var? Dedi: «Yox». Dedi: «Ağaşdan qozu silkəliyirsən, sındıranda görürsən ki, onun içində pıçası da olur. Hamısı dolu çıxmaz ki?» Bunu bağladı, dedi: «Düz deyirsən, mən razı. Onda bir gejə də qalajayıx». Dedi: «Oldu». Padşahın bir kənizi var idi, bu da bunun böyründə yatmışdı. Gejə durdu onun tərəfə də baxdı, bunun tərəfə də. Dimişdi bizə dəymiyəjəksən. – «Oldumu?» Dedi: «Hə». Səhər açıldı, dedi: «Uduzmusan». Dedi: «Niyə?» Dedi: «Heylə». Dedi: «Xanım, mən uduzmamışam. Bir tərəf tarladı, bir tərəf də bostandı, orta da xamdı. Erkək atı da bağlamısan xama. O açılanda hansı tərəfə burulmalıdı? Nə bostana girəjək, nə tarlaya. Mümkün döylü». Xanım bir aşağı baxdı, bir yuxarı, gördü bunu bağlıyammıyajax. Qırx dəvə yükü buna buğda verdilər, apardı boşaltdı məhlələrinə.

## NAXIŞ
### I mətn

Bir kişinin vəziyyəti ağırlaşır, yaşamağı, dolanışığı, ailəyə baxmağı, görür ki, yox, da üzüqaradı. Deyir ki, mən gedirəm pul qazana bilsəm gələjəm, qazana bilməsəm məni gözləmiyin. Bir dənə ağacı əlinə alır, gedir. O dağdan, bu dərədən, ordan-burdan keçir, bir suyun başında oturub su içirmiş. Bir iri daş var, bu daşı istəyir tərpətsin, bekar adamdı da. Nəsə, tərpədən kimi bunun altınnan bir qocalmış, gücdən düşmüş, nə insana bənzəmir, nə heyvana bənzə-

mir, cannı bir şey tərpənir. Deyir: «Ay Allah öyü yıxsın, məni niyə tərpətdin burdan?» Deyir: «Mən nə bilim sən orda yatmısan? Sən kimsən ki, daşın altında yatmısan?» Deyir: «Mən sənin naxışın idim, burda gəlib yatmışdım». Deyir: «Allah səən öyü yıxsın, sən orda yatmısan, mən də ajınnan ölürəm, mənim naxışım yatıb». Deer: «Get». O yana gedir, bu bayna. Car düşür ki, padşahın qızının üzüyü itib, tapa bilmir. Bu padşahın biliciləri var, axtarıllar, tapa bilmillər. Kişi deyir ki, mən taparam, bu gəlmə, bu kasıb, ajınnan ölən. Gətirillər, diyillər: «Şah sağ olsun, bir nəfər var, – bunun vidinə-fasonuna baxır, – deyir mən taparam». Deyir: «Tap». Açır kitabı, deer: «Vallah, deşik gəlir, tük gəlir». Qız o dəyqə deyir ki, bildim, bildim. Hamamda saçımın tükünə bağlıyıb qoymuşdum orda deşiyə. Gedib görüllər ordadı. Hörməti artır. Şah deyir ki, mənim yanımda işdiyərsən.

Bir gün, iki gün, şah bunu yoxlamax üçün ova gedir. Deyir: «Durun». Bunu da götürüllər. Bir palıd ağacının başına tələ qurullar ki, quş düşsün da. Birini də suya tor atıllar. Deer: «O bilicini bəri çağır». Bilici gəlir. Deyir ki, şah sağ olsun, eşidirəm. Deyir: «Biz bu ağacın başına tələ qurmuşux, nə quşu düşəjəh ora?» Deyir: «Ora düşəjəh qızıl balıx». Aləm məhətdəl qalır, ağacın başı hara, qızıl balıx hara? Nəsə deyir da. – «Gedin, gətirin, görəh orda nədi?» Gətirib görüllər ki, iki dənə qızıl balıxdı. Bunun hörməti artdımı? Deyib: «Bəs u tora nə düşəjəh?» Deyib: «Ona da təzə tüklənən bir sığırçın balası». Gedir sudan toru çəkillər, görüllər bir sığırçın balası. Şah dedi: «Bu mənim oldu baş vəzirim».

Bir gün şahnan oturub bir yerdə çörəh yiyillər. Daa şah bunu özünə bu qədər əziz bilir. Əlini çalıb şahın başına bir yumrux. Şahın papağı düşür, düşən kimi bir dənə içində qızıl ilan. Deyir: «Ə, sən məni niyə vurdun?» Deyir: «Şah sağ olsun, ilana bax, yoxsa səni çalırdı». Şah deyir: «Hə». Şah fikirləşir ki, bunun bilici işdəri varsa da, bu dələduz adamdı, bunnan buna ziyan gələjəh. Bunu yolluyur başqa bir kəndə, şəhərin birinə, deyir: «Get ora, oranı verdim səə. Get ora meçidə camaatı yığ, söhbət elə camaatla».

Bəli, xəbər düşür ki, bu gün bura bir nümayəndə gəlir şah tərəfinnən. Aləm meçidə yığışır. Bu gəlir meçidə girən kimi deyir: «Durun çıxın meçiddən, bu dəyqə meçid partdıyajax, uçajax». Hamı durub qaçır. Camaat görür meçidin orası cırıldı, burası... Şah çağırtdırır bunu yanına, deyib: «Bilirsən nə var?» Deyib: «Yox». Deyir: «Bu məmləkətdən çıx. Sənnən məə xəta gələjəh. Mən səni yolladım ora,

get camaata vəz ver, yoxsa meçidi dağıt?» Bu kişi kor-peşman yolnan gedəndə yenə gedir həmən daşa çatır. Görür daş əvvəlki kimi yerindədi. Daşı belə qaldırır, görür həmən bunun naxışı burda yatıb. Deyir: «Ə, noldu, sən gəldin yenə girdin bura? Mənim işim yaman xod gedirdi, sən girdin bura, gənə mən əvvəlki vəziyyətə düşdüm». Deyir: «Ə, mən sənin əlinnən gəlib girmişəm bura. Mən sənin naxışınam. Əyə, ağacın başında qızıl balıx olar? Deynən quş balası var, o ağajdan götürüb ora qoyum, deynən dəryada balıxdı, filan balıx, ordan tutum ora tulluyum. Əyə, yoxsa mən gedib Ərəbistannan quş tapıb gətirmişəm, indi quş bala doğan vaxtıdı? Mən o boyda meçiti dağıda bilərdim, mənə dedin meçid dağılmalıdı. Güc eyləmişəm belim qırılıb. İndi yaxşı yol, get. Sənin naxışın yatdı». Naxış budu.

## II mətn

Bir kişinin, diyir, naxışı durmuşdu. Didi ki, get, cindarrıx eylə. Getdi, diyir. Bir padşah da, diyir, yeddi ilin xarcına, naloğuna bir üzüh bağlatmışdı qızına. Bu üzüh itmişdi. Padşaha xəbər verdilər ki, bir cindar gəlif. Çağırdı, gətdi, didi: «U qızın üzüyü itifdi, unu, diyir, tap». Belə, diyir, cindar oturmuşdu dizini yerə qoyuf, kitaba baxırdı. Qız da orada çömbəltmə oturmuşdu, tursiyi-zadı yoxuydu əynində. U qız diyir: «A dayı, tez ol da, tez ol da». Diyir: «A qızım, burda heç nə görünmür ey. Bir deşih görükür, bir çəngə tük». Didi: «Hə, hə. Yaxşı diyirsən, yadıma düşdü. Hamamda başımı darayıf tükü belə barmağıma dolayıf, çıxardıf divarın deşiyinə soxmuşam». Gedir, diyir, üzüyü ordan aldı, götdü gəldi. Pah, bunu daa padşah buraxar?

Biri gəlif didi ki, mənim dəvələrim itif. Ayna-bayna baxdı, belə dal tərəfə baxdı, didi ki, u mal yolunun dalındakı dəvələr sənin döyül ki? Didi: «Yox, ora baxmışam». Didi: «Get, bir də bax». Getdi, gördü dəvələr ordadı. «Əyə, bu nə çox bilir?» Padşah daa gecə-gündüz bunu yanınnan buraxmadı. Günnərin bir günü duruf getdilər dərya qırağına. Biri didi: «Ağ balıx çıxsa, mənimdi». Biri didi: «Qızıl balıx çıxsa, mənim baxtıma». Bu didi ki, dəlidi da, mənim kimi ağlı çatmır, didi: «Ordan iki dənə ətcən qaratoyux balası çıxajax». Nəsə. Didi: «Ə, çək». Gördülər iki ətcən qaratoyux: «Ə, bu zalım oğlu, dəryanın dibini də bilir, bu nağayrır?»

Padşah, diyir, indi bunnan ikisi yan-yana yatır. Bir gün didi: «Səni, bunu vuruf öldürəjəm, padşah olajam özüm». Duruf elə xançalın çalmax isdiyəndə padşah gözünü aşdı, diyir, gördü əlində xançal başında duruf. U saat, diyir, şarpadan ora bir ilan düşür. Didi

ki, sən nağarırsan? Didi: «Sənin qarnında ilan olmağını bilirdim, səni qorxuzurdum ki, ilan düşsün». – «Əyə, bu nə çox görüf?»

Qırx pilləkən idi. Padşah yuxulu olanda qılçasınnan tutuf dartıf tulladı, diyir, yerə, özü də qaçıf düşdü. Elə bu ərəfədə barı uşdu. Padşah, nəsə, ayıldı. Didi: «Ə, nədi?» Didi: «Barının uşmağıın bilirdim, səni durğuzunca gec oljeydı». – «Ə, bu nə yaxşıdı».

Naxış gəldi, didi ki, bura bax ey. Da pox yimə, yekə oğlansan, üzüyün yerini didim, dəvələri getdim hardansa gətdim kişinin gözünün qabağına qoydum. Dəryaan dibində ətcən qaratoyux balası olar? Toru orda saxlıyıf gedif Bağdaddan qaratoyux balasını gətirif qoydum ora. İlanı tulladım çiyninin üsdünnən. İndi padşah olajam diyif kişini sən tulluyursan. Bax, barını basıb uçurtmaxdan çiynim qapqara qaralıf. Get, qazandığıı yi, mənnən sən şey gözləmə. Unnan sora Naxış çıxıf gedif.

## QAZI PADŞAH

Biri vardı, biri yoxdu, bir Qazı padşahı olur. Bu qazı padşah çox belə əzazil olur. Bir nəfər olur, üş-dörd baş külfət olur. Arvad baxır ki, kişi hara gedir əliboş gəlir, dolana bilmillər. Çox ağır günnər keçirillər. Məcbur olur bir gün kişiyə diir ki, kişi, bilirsən nə var? Diir: «Yox». Diir: «Məə qonşudan bilmirəm, hardan bilmirəm, bir dəsd libas tapginən». Diir: «Niirsən?» Diir: «Gəzməyə gedəjəm».
Gedir özü kimi qonşusuna sirr verir, diir ki, vallah, sənnən nə danım, qonşuyux, mənim ayləmin libası yoxdu. Aylənə diginən libasınnan bir dəsd ona versin. Bilmirəm, diir gəzməyə gedəjəm indi. Hara gedəjəh, hara getmijəh onu deyəmmərəm. Nəysə, diir, irazılaşır. Bir dəsd arvad qəşənh libas verir, gətirir, qonşudu da, geyinir, eliyir. Sağ olun, sağ olun. – «Arvad, yerii bəs mən hardan bilim, hara gedirsən, nə məqsədnən gedirsən?» – «Qayıdanda bilərsən».

Gedir bu qadın yaxşı daram geyinif altdan-üstdən, duruf padşahın qapısının ağzında. Şikayətini eliyən eliyir, dərdini diyən diir, bu dəvərmir. Axşam olur, padşah idarədən düşüf öyünə getməh isdiyəndə baxır görür bir qadın oturufdu, qəşənh də bir qadındı. Bu qadına aşıx olur. Diir: «A qız, sən niyə gəlmisən, burda nə gəzirsən, nə axtarırsan. Dəridini diyən didi, dimiyən demədi. Sən də səhərdən gəlif oturmusan burda». Diir ki, mənim dərdim ayrıdı. – «Nədi?» Diir ki, mənim ərim Haca gedif, Hacdan gələndə gəmi batıf, ölüfdü. Qalmışam başsız, dolanammıram. – «Harda olursan?» – «Filan nöm-

rəli evdə». Diir: «Get, axşam sizə gələjəm». «Diir: «Bizə gəlif məni yeyəjən, yoxsa barıları yeyəjən? Yeməh yoxdu». Çıxardır bir sıxma qızıl verir, diir: «Get, nə lazımdı al rahla, axşam sənin qonağınam». Gedir, yaxşı bazarrıx eliyir, ömründə xörək bişirmiyən adamdı, kasıf adamdı. Gəlir. Kişi baxıf görür ki, ə, arvad zırıltı bazarrıxnan gəldi. Kişi bir az bu işdən təşvişə düşür, şübhələnir. Amma biruzə vermir ki, bunun axırını gözdüyəjəm, görəh bu nə diyən sözdü. Ömrümdə mənim evimdə pilov bişmiyifdi. Dünyanı alıf gətirifdi bu öyə. Yaxşı gətirir, sağlığa yaxşı bir aş bişirir. Diir: «Kişi, bilirsən nə var?» Diir: «Yox». Diir: «Padşah axşam bizə qonax gələjəh». – «Əş, sən nə danışırsan?» Diir: «Hə, məə aşıx olufdu, bizə qonax gələjəh. Mən aşı dəmə vurajam, yi, qarnıı doyuzdur, bir tərəfdə gizlən. Padşah gələndə mən ona təklif eliyəjəm ki, soyun, əlii-ayağıı yu, elə, otur. Kəfkiri bir vurajam, iki vurajam, üçüncü kəfkiri mən vuranda sən boğazını arıtdıyıf qapını döyərsən.

Kişi yaxşı yiyir-içir, gizdənir, həyətidi da, bir tərəfdə. Baxır ki, həqiqətən, padşah gəlir. Padşah gəlir çıxır evə. Ustul çəkif oturanda arvad diyir ki, sən nə təhər oturuş oturursan? Diir: «Nəyə görə?» Diir: «Görmüşdüh kişi xeylağı içəri girəndə paltarını soyunar, əlini-ayağını yuyar, onnan sora gəlif oturar». Padşah eləmir tənbəllik, kastumunu-zadını soyunur, asır bir tərəfdən. Əlini-üzünü yuyur, oturur bir tərəfdən. Deyir ki, mən hazır. Diir: «Sən hazırsan, mən ajam. Bir çörəh yiyəh, onnan sora». Kəfkiri bir vurur, iki vurur, birdən kişi gəlir qapısına, başdıyır qapısını döyməyə. Diir: «Bu kim olar?» Diir: «Bəlkə də Allah tərəfi düşüf, ayağın yüngül oluf, ərimdi. Nə bilim? Ərimdən savayı mənim qapımı döyə bilən olmaz». – «Bəs mən nağayrım? Mənim başıma nə oyun aşdın? Mən biyabır olajam». Diir: «Bir şey olmaz. Gəl bura. Gedəndə bizim inəyimiz boğaz idi, gəl bura pərdə çəkim, pərdənin dalına, sənin başaa bir az qatıx sürtüf bağlıyajam, dur burda. Xəbər alsa, dijəm inəyin balasıdı».

Nəysə, padşahı bağlıyır boğazınnan evin bir küncünə. Başına da bir az qatıx sürtür, guya təpəldi. Kişi girir içəri, bular öpüşməh, görüşməh, ay aman, ay dad, bəs indi mən gözümün suyunu tökürəm, məə xəbər çatıf ki, gəmi batıf, həccə gedənnər qərq olufdu. Diir: «Ay arvad, hamı öldü, üş nəfər, iki nəfər qaldı. Bir zülümnən çıxdıx qırağa. Gəlməyə yol pulumuz olmadı, ona görə gejihdik, piyada gəlmişih». Uzun söhbətdən sora padşah da qulax asır, padşahın ağlı kəsdi, didi: «Dəəsən həqiqidi». – «Əşi, əlii-üzüü yu, elə, sənin naxışınnan xörəh bişirmişəm. Sən gedənnən hələ qazan ojağa qoymamışdım». Kişi əlini-üzünü yuyur, gəlir

oturur. Çörəh yiməyə başdıyanda diir: «Ay arvad, çörəyə də başdadıx, çörəyin üsdünnən durmazdar, günahdı. O küşdəyi nədi, o pərdə-zad nədi öyün içində?» Didi: «Niyə? Sən gedəndə inəyimiz boğaz döyüldü? İnəyimiz balalıyıf, onun balasını qorxuram yerdə qoymamışam ki, oğurruyallar, bağlamışam evin içinə». Diir: «Ay arvad, evin içində heyvan olarmı, sən nə iş görürsən? Uşax işi görürsən». Diir: «Nə bilim». Diir: «Yox, durum mən unu aparım anasının yanına bağlıyım, yoxsa çörəh mənim canıma yatmaz». Nəysə, arvad buna zornan çörəyini yidizdirir. Diir: «Çörəyi yi, sora». Yiyillər, içillər, diyir ki, bunu mən aparım bağlıyım. Diyir: «Get, siftə anasının yanına ağajdan-zaddan vur, elə, onnan sora dananı apar bağla. Nəyə bağlıyajan, orda heş nə yoxdu».

Kişi çıxır çölə. Kişi çıxır, çəkilir bir qarannığa, himləşiflər axı qabaxcadan. Arvad padşaha deyir ki, dur başıı açım, görüm çıxa bilərsənmi? Durur palı-paltarı da burda, alt tuman-köynəhnən, padşah asda qaçana imam qənim olsun, qaçır. Qaçır gedir. Diir: «Kişi, neçə ildi əynəə təzə kastyum dəyməmişdi. Bax bu da sənin təzə paltarın». Baxır görür ki, bir üş-dörd illik buların azuqəsinə yetdik qızıl, ayan-bayan var. Diir: «Bu da bizim xaşdıx. Nətərdi?» Diir: «Arvad, bu işin dalı pis olajaxdı». Diir: «Heş bir şey olmaz, qorxun olmasın».

Sabahısı gün başqa bir qonşudan bir dəsd libas alır, gedif bunun baş vəzirinin qapısında durur. Baş vəzir səhərdən axşamatan şikayətə baxır, ora-bura. Nəysə. Elə girib-çıxdıxca da görür bir kadın oturur, qəşənh də bir kadındı. Amma heş bir söz-söhbət dimir. Nəhayət evinə gedəndə diir: «Ay qız, burda niyə oturmusan, məə tayallıx sözün-söhbətin?» Diir: «Bura kimin qapısıdı? Sənin qapındı, səə də tayallıx sözüm var». – «Bəs, niyə dimədin?» Diir: «Nə dijəm? Burda diyə billəm?» Diir: «Buyur, eşidirəm. Sən kimin aylısisən?» Diir: «Aylısi idim». – «Nolufdu?» Diir: «Ərim hacca getmişdi, hacdan gələndə gəmi qərq olub, ölüb. Başsızam, aj-susuz qalmışam, bir kəsim yoxdu». Vəzir baxır, görür ki, bu simpatişni kadındı da. Diir ki, yox, axşam gəlirəm sizə. Evin nömrəsi? – «Filan nömrəli evdi». Diir: «Get, axşam sizə gələjəm, dərdini evdə arxeyin danışarsan». Diir: «Nə yijən, nə içəjən bizə gəlib? Mənim üş gündü dilimə çörəh dəymir». Çıxardır pul verir xeylax, diir: «Get nə lazmdı al, xörəh bişir, gələjəm. Gəlir evə. Yaxşı bazarlıq-zad eliyir, gətirir, diyir: «Kişi, gəl otur ye. Xörək bişirim, qarnını doyuzdur». Xörəyi bişirir, kişinin qarnını doyuzdurur, diir: «İndi gənə çəkil gizdən, vəzir gələnnən sonra gəlib qapını adi qayda üzrə döyərsən. Elə eliyərsən şübhəli düşməsin».

Bir qədər vaxtdan sonra baxır ki, hə, həqiqətən gəldi vəzir. Vəzir gəlir çıxır, gənə arvad təklif eliyir, paltarını soyun, əlini-ayağını yu, bir layaxnan otu. Vəzir yazıx da nə bilsin nə kələhdi. Soyunur palını-paltarını, əlini-ayağını yuyur, gəlir oturur. Diir: «Çox bərk ajmışam, yiməyin hazırdımı?» Diir: «Hazırdı». Yiməyi gətirir ortalığa, qazanın dibinə bir kəfkir, iki kəfkir, üçüncüdə kişi qapını döyür, başdıyır boğazını arıtdamağa. Vəzir diyir: «Bu kim olar?» Diir: «Bəlkə ayağın yüngül olufdu, ayləm gəlir. Mənim ayləmdən savayı heş kəs mənim qapımı döyə bilməz». – «Ay aman, ay dad, bəs mən hara gedim, mənim başıma nə oyun aşdın? Mən biyabır olajam, padşahın qəzəbinə gələjəm». Diir: «Ə, qorxma, sənin də dərdii çəkərih». Deer: «Gəl uzan beşiyə, səni beşiyə bəliyim, üzəə bir ağ çəkim. O gedəndə mən hamilə idim, dijəm ki, uşağımızdı. Görəh bir fürsət tapıf səni buraxajam, çıxıf gedərsən».

Əlacı kəsilir, uzanır uşax beşiyinə, arvad bunu möykəm-möykəm sarıyır bura. Dəbərəmməz ki? Yox. Sarıyır, üzünə bir ağ çəkir, qoyur evin bir qırağına. Qapını açır, kişi girir içəri. Başdıyıllar bir-birini duz kimi yalamağa. – «Ayə, bəs sən hardeydin? Bir ildi gözüm yolda qalıb. Belə xəbər gəldi ki, ölmüsən». Diir: «Hə, belə bir şey oldu. Bir-iki nəfər qaldı, çox əzaflar çəkdih, zulumnan birtəri ayaxnan gəlif çıxmışıx. Arvad, mən ajınnan ölürəm, bəlkə yiməyin olar?» – «Sənin naxışınnan sən gedənnən ojağa qazan qoymamışdım. Bu axşam yiməh düzüf qoşmuşam». Oturullar ər-arvad çörəh yiyəndə diyir: «Bıy, ay arvad, xəbər almıram, bu nə beşihdi, bu nə ağdı?» Diir: «Niyə? Sən gedəndə hamilə döyüldüm mən?» – «Nəyimiz oluf?» Diir: «Oğlumuz». Diir: «Lap yaxşı. Arvad, nəkqədər uzundu bunun ayaxları, bu boyda da uşax olarmı?» Deer: «Da indi Allah verdiyi qılçadı da, uzundu». Diir: «Yox, mən çörəh yiyif qutarana qədər pardıyıf ölərəm, bunun qılçalarını gödəltməh lazımdı». – «Əşi, nətəri gödəltməh, sən nə nağıl söylüyürsən?» Diir: «Yox, yox, mən rahat olmaram. Əl mişarı hardadı? Məə gətir, mən bunun qılçalarını kəsif gödəldəjəm». – «A kişi, uşağın da qılçası kəsilərmi?» Didi: «Yox, mən kəsəjəm». Diir: «Bilmirəm, özün hara qoymusan, get tap, götür gəl, tooləyə-zada, hara qoymusansa...». İndi bu burdan çıxmax isdiyir ki, bu dursun, çıxsın getsin da. Düşür guya toolaya gedir ki, əl mişarı gətirməyə. Vəzir çığırır ki, köpəh qızı, mənim başıma nə oyun aşdın, mən nağarım? Diir: «Bilmirəm, canaa dərd qayır, dur gör nağayra bilirsən? Düş irədd ol». Durur vəzir beşih də dalında götürülür. Gedir, nəysə, bir kənarda beşiyi özünnən xilas eliyir, gedir evinə.

Səhər açılır, diir: «Kişi, gör gənə bir dəsd hardan, qonşulardan bir paltar tapırsanmı?» Gedir gənə kişi yazıx bir dəst paltar tapır qonşudan, gətirir. Arvad gənə geyinir-gecinir, gedir bu dəfə vəkilin qapısına. Vəkilin qapısında da adi qayda üzrə dayanır o ki var, axşam olur, vəkil düşüb gedəndə diir: «Ay qız, mənnih işin var?» Diir: «Bura sənin qapındı, hər halda sənnih işim var, burda oturmuşam». Diir: «Bəs səhərdən gəlmisən, niyə dimirsən sözüü?» Diir: «Sözüm mənim nə olajaydı? Dolana bilmirəm, ayləm mənim hacca gedif, gələndə gəmi qərq olub gedif, batıf dəryada ölüf. Qalmışam başsız. Baxanım yoxdu, şikayətə gəlmişəm». – «Harda yaşıyırsan?» – «Filan nömrəli evdə». Diir: «Get, axşam gəlləm, arxeyin danışarıx». Diir: «Gəlif, yiməh yox, işməh yox, nə yiyif, nə içif, nə danışmax olar?» Çıxardır bir qədər pul verir, diir: «Get, nə lazımdı al bişir, axşam gələjəm sizə». Gəlir gənə bir yaxşı qazan aş bişirir, aş ehtiyatı eliyir. Kişini yedizdirir, içizdirir, deer: «Kişi, gənə adi qayda üzrə gizdənirsən, bu axşam da vəkil olajax qonağımız. Vaxd çatanda, mən aşın kəfkirini vuranda gələrsən». Deer: «Yaxşı».

Gözdüyür kişi, baxır ki, vəkil gəldi, girdi evə. Evə girənnən sonra, bir xeylax fasilə verir, fasilə verənnən sonra ərli... Vəkil daa uje əlini-ayağını yuyuf arxeyinnəşərmi? Hə. Baxır ki, arvad kəfkiri bir vurur, iki vurur, üçüncüdə kişi qapını döyür. Vəkil diyir: «Bu kimdi?» Diir: «Ola bilsin, ayağın yüngül olub, ərimdi. Ərimdən savayı kim döyə bilər mənim qapımı». – «Nə oyun aşdın mənim başıma. Mən biyabır olajam, padşahın qəzəbinə gələjəm». Diir: «Heş bir şey olmaz». – «Məə çarə». Diir: «Sənin çarən odu ki, gir bu çualın içinə, gedəndə məə tapşırmışdı ki, peçin külünü tullama, səni görən olar. Peçin külünü yığ bir qaba, gələndə özüm tulluyaram. Gir bu çuala, ağzını bağlıyım, xəbər alsa, diyəjəm, o ojağın külüdü. Daa özün tapşırmışdın, çölə çıxma, külü çölə tullama, görən olar səni. Hindi mən də yığmışam da çuala». Əlacı kəsilif vəkilin, girif çuala. Möykəm-möykəm bunun ağzını bağlıyır, sürüyür evin bir küncünə qoyur. Kişi girir içəri, gənə öpüşməh, görüşməh. – «A kişi, sən harda qalmısan bir ildi?» Oluru kimi söhbət eliyillər. Diir: «Arvad, məni çox sorğu-suala tutma, ajınnan ölürəm, yol adamıyam, yoldan gəlmişəm, yiməyə nəyin var?» Diir: «Sən gedənnən ojağa qazan qoymamışdım, naxışınnan bu gejə yiməh bişirmişəm». Oturuf yiməh yiməyə başdıyanda kişi diir ki, u nə çualdı öyün ortasında qoymusan? Diir: «Niyə, gedəndə tapşırmamışdım ki, külü çölə tullama, səni görən olar. Küldü da, ojağın külü, yığmışam ora». Diir: «Dur, ay arvad, bunu dalıma qaldır, aparım tulluyum, yoxsa mənim canıma bu

çörəh yatmıjax». – «A kişi, çörəyi yi, qutar, sora zad eliyərsən». Diir: «Yox, bunu qaldır mənim dalıma». Buların da evi iki mərtəbəli olur, üsd mərtəbədə sürahının üsdünə, biz sürahı deyirih, qoyur çualı, diir: «Ə, aşağıda adam-zad varsa, qaşsın ayna, kül tökürəm, gözünə dolar». Çualın ağzını açır, vəkili təpəsi üsdə tulluyur çölə. Vəkil durur birtəri ölüm-zülüm çıxır aradan. Diməli, bunun hayatı da çox möhkəm hayat olur. Buların üçü də, – hayata su keçən keşkal olur barının altınnan, – u keşkaldan keçiflər üçü də. Qeyri yerdən imkan yoxdu girib-çıxmağa.

Bəli. Vəkil də belə ad çıxardır, gedir. Vəkil gedənnən sora səhər açılır, arvad diir ki, kişi, indi mənə bir dəsd başqa libas tap. Çünki daimi libasda getməyə qorxur ki, tanınar. Bir dəst gənə libas tapır. Diir: «Kişi, buyünnəri axırıncı gündü, da heş hara getmirəm, buları izdəməh lazımdı. Bular hər halda bizi öldürməh üçün bir töhdü tökəjəhlər. Görəh nə məsləhat eliyəjəhlər». Gedir vəkilin qapısına, baxır, görür bağlıdı, yoxdu. Vəzirin qapısına baxır, görür bağlıdı, yoxdu. Diir: «Bular yığılıfdı məsləhata». Gedif padşahın qapısına baxanda görür ki, üçü də içəridədi. Vəkil başdıyır, guya bular ikisi sağdı, buna oluf nə olufsa. Nə xəbəri var ki, bunnan qabax bular tora düşüf. Diir ki, padşah sağ olsun, mən partdıyıf ölürəm, mənim başıma beyjə bir qəza gəlif. – «Nə qəzadı u heylə?» Diir ki, hal-hekayət belə. Bir qadın məni aldadıf aparıf, paltarımı, pulumu da əlimdən alıf, məni çox pis vəziyyətdə qooluyuf öyünnən, qaşmışam. Qaşmışam, başımı kutarmışam. İndi gəlmişəm sizin yanıza məsləhat almağa. Buna nə eləməh lazımdı? Vəzir diir: «Padşah sağ olsun, mən utanırdım diməyə, həmən kadın mənim də başıma belə bir oyun açıfdı», – deyəndə padşah gülür. Diir ki, ədə, sizdən qabax mənim başıma açıfdı oyunu kadın. – «Ə, heylə şey olmaz». Diif: «Hə». Diif: «Bəs buna nağarax?» Vəzir deer ki, kopoğlunun qapısına girməyə yer də yoxdu. Bir su dəməyinnən çıxmışam – keşkaldan, barının altınnan, ölüm-zulum. Vəkil diyir: «Mən də elə ordan çıxmışam», – diyəndə padşah diir: «Mən bir az oranı genəltmişəm, birinci mən çıxmışam. Mən çıxanda lap dar idi, əlimnən yeri eşib çıxmışam, bir zulumnan». – «Nağayrax?» Padşah diir: «Nağayrajayıx? Elə həmin yerdən də girərih. Girif buların ikisini də öldürməh lazımdı. Qeyri bulara cəza düşmür. Çünki nə cəza versəh bu sirr açıla bilər. İkisini də içəridə öldürsəh bu sirr bata bilər. Yoxsa qadın hulqumudu, hardasa danışar, bizə nə lazımdı? Heş nə».

Bəli, bu qərara gəlillərmi? Hə. Arvad asda qaçana göy imam qənim olsun, gəlir evə. Deer: «Kişi!» Diir: «Hə». – «Səə üş dəsd kostyum yox yerdən tapıb qoşdum?» Diir: «Hə». Diir: «Bir iyirmi-otuz

illik azuqəmiz – xaşdığımız var?» Diir: «Hə». Diir: «İndi bu axşam nöybə sənindi. Bu axşamkı əziyyəti də sən çəkərsən». – «Nətəri?» Diir: «Saat on ikidə olar gəlcəh üçü də bizi öldürməyə. Xoşbaxtlıxdan hayata girməyə yer olmadığına görə üçü də su keşkalınnan keçməli olajaxlar. Ülgücü yaxşı itiliyif durursan su keşkalının içəri tərəfində. Keçəndə birinin burnunu kəsirsən, birinin qulağını kəsirsən, obşim, şikəst eliyirsən oları ki, sirri aça bilməsin, nə də bizə ikinci toxuna bilməsin. Bu iş də səən boynaa düşür, eliyə bilərsənmi?» Diir: «Hə, lap canını da alaram».

Kişi yiyir, içir, arxeyin, saat on ikinin yarısında gedir durur su keşkalının içəri tərəfində, içində oturur. Baxır ki, gəldilər. Saat on ikidi, gəldilər. Deer ki, vəkil, icazə verin birinci mən girim. Vəzir diir: «Yox, mən girəjəm». Padşah diir: «Yox, qoy vəkil girsin». Vəkil başını belə soxuf elə keşkaldan oyzə keçirdəndə bunun burnunu dibdən üzür ülgücnən. Da bilmir burnunu kəsdi. Çıxır, diir: «Püf, ə, burda nəcis var, nə var, yaman pis iy gəlir burdan». Vəzir diir: «Ə, qaş bayna, irədd olginən. Pis iy gəlir? Gəlir, başıı yanpörtü elə keç». Başını yanpörtu eliyif keşməh isdiyəndə bunun da qulağını dibinnən kəsir. Diir: «Ə, burda nağara-zurna çalıllar ki? Bu nə işdi, ə?» Padşah diir: «Ə, bayna irədd olun görüm, nağara-zurna, unnan sora iy gəlir. Başıızı soxmuyun, qılçazı soxun». Bu qılçalarını soxuf keşməh isdiyir. Bunun şəriətini dibdən sıyırıf tulluyur. Diir: «Ə, kopoğlu, deyin qazının sünnət toyudu da, niyə bu qədər əzab-əziyyət çəkirsiz?»

Üçünü də şikəst eliyir, salır yola. Bular vəzifə yiyəsidi, bular bunu aça bilməz, ağarda bilməz. Nəhayət aradan bir aya kimi keçənnən sonra arvad gənə gedir. Adi öz libasında, cındır libasda bunun qapısına. İcazə alır, girir içəri. Diir: «Padşah, nə qədər ömrün var, bura adam göndərəndə boş qayıtsa mənim ehtiyacım ödənməmiş, özünnən küs. Bütün sirrii açajam camaata. Nə qədər ehtiyacım ödənib, elə bilginən ki, bu sirrin bir arşın quyunun dibindədi. Heş kəs bilən döylü». Obşim, ömürlərinin axırına qədər arvad padşahın hesabına bu öyü padşahın öyü kimi dolandırır. Bular da dolanma yolunu bu formu tapıb dolanıllar.

## YAXŞILIĞA YAMANLIQ
### I mətn

Yolnan gedirdi. Gedəndə görüb ki, ağajda bir dənə torba asılıb, içinnən səs gəlir. Deyir: «Ey insan, məni xilas eylə». Baxıb görür torbaan içində nəsə tərpənir. Torbanı ordan yerə qoyur. Düşən kimi bir

dənə ilan çıxır içinnən. Bu həqiqətdi. Olub belə bir şey, nağıl döylü. Bu ilan kəsib bunun qənşərini. Qalxıb ayağa, görüb yoğun bir gürzədi. Kimsə bunu torbaya salıb, bağlıyıb, asıb ordan. İnsana deyib ki, dayan. Deyib: «Navar?» Deyib: «Mən səni vurmalıyam». Deyir: «Niyə? Səni xilas eləmişəm ordan. Məni niyə vurursan?» Deyir: «Yox, vurmalıyam». – «Gəl bəri gedək. Qənşərimizə kim çıxsa, onnan soruşax. Əgər o disə sən haxlısan, onda vurginən. Yox, disə ki, haxsız yerə niyə vurursan bunu, onda sən məni niyə vurursan ki?» Deyib: «Gedək, razıyam». Gedillər. Bir az gedəndə gedib suyun üstünə çıxır. Sudan soruşur. İnsan deyir: «Ya bu suyun mələkləri, özüzə əyandı, görürsüz. Mən bunu xilas eləmişəm. İndi bu məə deyir ki, səni vurmalıyam. Bu məni vurmalıdı?» Deyir: «Hə». Deyir: «Niyə axı? Mən bunu xilas eləmişəm». Deyir: «İnsan döyülsən?» Deyir: «Hə». – «Məndə, deyir, əlii-üzüü yuyursan, təmizlənirsən, ürəyii sərinnədirsən. Əlii-üzüü yuyanda qayıdıb bir də üzümə tüpürüb gedirsən. Bəs vurulmalı deyilsən?» – su buna cavab verir. İlan deyir ki, indi nə deersən? Deyir ki, gedəh görəh indi qənşərimizə kim çıxar? Bir cannıdan soruşax. Bir az gedənnən sonra bir tülkü çıxır. Deyir: «A tülkü, dayan». Dayanır. – «Bəs, hal-qəziyyə belə-belə». Deyir: «Bu ilan?» Deyir: «Hə». – «Harda idi?» Deyir: «Torbaan içində». Deyir: «Heç inanmıram o torbaan içinə girə. Nətər girə bilər u torbaya» – diyəndə ilan deyir: «Düz deyir də. Torbadan çıxdım. Torbaya salmışdılar məni». Deyir: «Sən qayıdıb torbaya girə bilərsən?» Deyir: «Hə, niyə girə bilmirəm?» Torbanı qoyur. Deyir: «Qoy yerə, görəh nətər girir o. Dediyi düzdümü». Girir, deyir, torbaya. Torbaya girən kimi deyir: «Bağla ağzını, tez elə». Bağlıyır ağzını. Deyir: «Ağacı al ələ». Alır əlinə. Deyir: «Əz başını». Tülkü öldürtdürür bu ilanı. Deyir ki, hindi salamat ol, mən getdim. Tülkü bunu xilas eliyib. Gedəndə bunun qənşərinə əli tüfəngli bir adam çıxıb. Deyib ki, nə axtarırsan? Deyir ki, nə bilim, ayınnan-bayınnan, çakqaldan, tülküdən. Deyir: «İncənə burdan bir tülkü getdi». Deyir: «Hardan?» Deyir: «Burdan». – «Beləsinə getsəm düz qənşərinə çıxaram?» Dedi: «Hə». Belə fırlanır kəsir tülkünün qənşərini. Kəsəndə görür tülkü gəlir. Tap, buna bir güllə. Tülkü yıxılıb ölür. Hindi o suyun bu insana dediyi söz haxlı çıxdı. O buna yaxşılıx elədi, bunu xilas elədi, bu görürsən onu öldürtdürdü.

### II mətn

Bir kişi bir gün bazara gedirdi atın belində. Payızın günü idi. Bir az hava, diir, soyux idi, noyabr aylarının axırları idi. Atın belində

gedəndə gördü ki, bir ilan buruluf belə, büzüşüb yatıb. Didi: «Can, can, ə, bu üşüyür». Atın belinnən düşdü, bunu aldı əlinə, gördü ki, ölhəöldü, çox zəifdi. Götdü qoydu qoltux cibinə, didi: «Qoy burda isinsin». Bədəni isinən kimi ordan başını çıxartdı, dolandı kişinin boynuna. Dedi: «Kişi, mən səni vururam». Dedi: «Axı mən sənə hörmət eləmişəm bir belə. Sən üşüyürdün, səni qoltuğuma qoydum isitdim ki, ölməginən, özünə gələnnən sonra səni buraxmağa». Dedi: «Sən mənə yaxşılıx eləmisən, mən də sənə pisdih eliyirəm. Mən ilanam, mən zəhərriyəm». Dedi: «Axı bir belə sənə hörmət eləmişəm». Dedi: «Eləmiyərdin». Dedi: «Onda qoy bir adama məsləhət eliyək, əyər u disə vur, onda vurarsan məni». Dedi: «Yaxşı». Gördü bir adam gəlir. Dedi: «Bajıoğlu». Dedi: «Hə». Dedi: «Mən bu ilana bu qədər yaxşılıx eləmişəm, bu diyir indi səni vururam. Bu məni vursun?» Dedi: «Ə, ilanın ağına da lənət, qarasına da! İlana yaxşılıx yoxdu. Sənin kimi axmağı qoy vursun. İlanın nə işi vardı ə, sənin qoltuğunda? İlanı gördün, vur təpəsiin əz». İlan didi: «Gördün?» Dedi: «Hə». Dedi: «Dayan, qoy onda birinnən də xəbər alax. Ərənnər, diir, üşdən diyib». Ərənnər söhbəti o vaxtdan qalmadı. Dedi: «Oldu?» Dedi: «Hə». Gördü beş-altı qoyun qabağında, əlində də dəyənək bir yeniyetmə uşax qoyun güdür. Dedi: «Dayan, bu uşaxdan xəbər alax». Dedi: «Alax». Gəldi uşağın yanına, dedi: «Ay oğul, bu ilana mən hörmət eləmişəm, ölürdü soyuxdan, qoltuğuma qoyub isitdim, indi boğazıma dolanıb diir, vururam səni». Çöndü uşax dedi: «Ay dayı, u ilan axmaxdı. Boğazdan adamı vurmağa nə var? Düşsün aşağı, bir beş metrə ayna getsin, gəlif vursun, görüm vura bilərmi» – deyəndə ilan didi ki, düşərəm. Düşdü yerə, beşcə metrə aralanmamışdı, deyir, uşax təpəsindən qoydu dəyənəklə. – «Vur – dedi, – götvərən. Niyə vurmursan indi? Di vur». İndi ay oğul, heylə insan da var, beləsi də. İnsanın şirin dillisi də var. Deyir Allah-tala dünyada üş şeyə qiymət qoymuyubdu. Dinən nəyə? Biri Qurandı, bizim dildə suradı, rus dilində qanustutsiyadı. Bax rusun qanustutsiyası həmən bax u şəriyətdən götürülüb. İkinci də insanın qiyməti yoxdu.

**III mətn**

Deyir bir kəntli gedir yolnan, məsələn, belə bir kəndə. Görür meşə yanır. Meşə yananda yaman bir çığırtı səsi gəlir. Gedir, deyir, meşənin çığıran yerinə, görür bir qarzinka var. Biz indi çamadan deyirik, keşmişdə də ona qarzinka deyirdilər, mücrü. Götürür çıxarır yanğıdan çölə. Açır bunu ki, görüm nədi bunun içində qışqırır. Görür

çamadanın içində – qarzinkanın, bir dənə torba var. Torbanın da ağzı bağlıdı. Nəsə, alır torbanı çölə çıxardır, ağzını açır, görür bir dənə ilan. Çıxır kişinin boynuna dolanır. Deyir: «Mən səni vurajam». Deyir: «A heyvan, mən sənə pislik eləmədim, mən səni yalodan çıxardım. İndi sən deyirsən səni vurajam». Deyir: «Hə». Deyir: «Onda şərt eliyəh, üç adama gəyişəh, olar da hə diyənnən sonra vur». Deyir: «Oldu».

İlan bunun boynunda kişi çamadanı əlinə alır, torbanı da çamadanın içinə qoyub gedillər. Birinci öküzə irast olullar. Öküzdən soruşullar ki, hal-qəziyyə belə-belə. Mən yolda gələndə gördüm meşə yanır, u yanğıda çığırtı var. Gedib çıxartmışam, açıb baxmışam bu heyvan. Dolanıb boynuma, indi məni vurur. Deyir səni vurcam. İndi bu haklıdı, haksızdı. Məni vursun, vurmasın? Öküz deyir: «Vur. Mən cavan idim, mənim sahibim məni çox işdədirdi, indi qocalmışam, yanıma da gəlmir mənim, baxmır da. Vur». Deyir: «Sözün?» Deyir: «İki şərtimiz də qalıb, onu da gəyişəh, sonra». Bir az gedənnən sonra itə irast gəlillər. İtdən də soruşullar: «A heyvan, bəs belə-belə?» U da cavaf verir ki, mən cavan idim, sahibim məni həyətdə saxlıyırdı, yemliyirdi, indi qocalmışam, məni yadına salmır. Çıxmışam çölə-biyabana elə-belə. Vur. Deyir: «Yaxşı da, bircə şərtimiz qaldı, onu da gəyişəh, onnan sonra». Gəlillər, deyir. Bir az gələnnən sonra tülküyə irast olullar. Deyir: «Tülkü qardaş». Deyir: «Bəli». Deyir: «Hal-qəziyyə belə-belə». Buna da söylüyür əhvalatı. Deyir ki, inanmıram. Deyir: «A kişi, vallah belə-belə, bax bu çamadan, çamadanın içində torba. Bu torbanın ağzını aşdım, çıxdı boynuma dolandı ki, səni vurajam». Dedi: «Yalan deyirsən, u torbaya sığmaz». And işdi, qan qusdu ki, bu torbadan çıxdı. Dedi: «Əşi, sən məni neynirsən, torba burda, ilan burda, mən burda, aç ağzını düşsün, görüm ora sığırmı?» Kətçi, deyir, torbanın ağzını açır. Açan kimi ilan bunun boynunnan açılır, düşür torbaya. Torbaya düşən kimi deyir: «Ağzını bur, daşa vur. Ağzını bur, daşa vur». Yanı ağzını bur, vur daşa, öldür. Kətçi o dəyqə başa düşür. Torbanın ağzını burub vurur daşa, öldürür. Deyir: «Hə, indi get yaşa». İndi, yəni yaxşılığa yamannıxdan deyir.

## IV mətn

Bir nəfər insan yol gedirmiş bir qoca kişi. Bu yol çox uzun olur. Gedir, gedir, nəvəsiynən ikisi imiş. Bir yerdə, yaxşı sərin bir yerdə dayanır. Deyir ki, nəvəsinə, oturub dəstəmaz alax, sonra gedərik.

Səfərə çıxıllar. Hə. Bir vaxtı görüb ki, qarannıx qarışır. Daldan bir sürü gəlir. Tozdu-mozdu, buğanaxdımı, maldımı bilinmir. Ayannan bir sürü gəlir. Tez namazı qılıllar bular, yaraxlanıb gedirlər. Getməkdə olsun, bir də görürlər ki, daldan bulara bir nəfəs çatır. İlannarın paccahıdı. Çatır, qojaya deyir ki, sən məni gizdə bir tərəfində – bu da atdı imiş, atnan gedirmiş, – u atın yalının altında bilmirəm, yəhərinin altında bilmirəm, qoynunda bilmirəm, hardasa məni gizdə. U daldan gələn sürü məni öldürjəkdi. Mənim olarla sporum düşüb. Deyir: «Mən səni haramda gizləyim?» Qorxur qoja. Deyir: «Qorxmaginən, məni gizlə». Nəsə. Qalxızır ki, yəhərin altında otur, qalxızır torbasını, sumkasını, hara deyirsə, deyir: «Yox, tapajaxlar məni». – «Bəs mən səni haramda gizləyim?» Deyir: «Aş ağzı, girim ağza». Deyir: «Bəs səən məə xatan dəyməz?» Deyir ki, dəyməz. Qoja açır ağzını, ilan gedir bunun qarnına. Hə. Deyir: «İstədiyim vaxtı çıxajaxsanmı?» İlana sual eliyir girməmişdən qabax. Deyir: «Çıxajam». Gəlir sürü bunun qabağınnan keçir gedir. Burda da ilannarın böyükləri olur. Bunnan soruşullar ki, yolçu, burdan qanaddı, buynuzlu ilan keçdimi, gördünmü? Deyir ki, görməmişəm. Əstəfirlax, görməmişəm. Nəysə, ötüb gedirlər. Bu sürü gözdən itə, görünməz olannan sonra düşür nəvəsiynən çörək yiməyə. Çörək yiməzdən əvvəl deyir ki, ilan çıxsın qarnımdan, sonra çörək yiyək da. Təklib eliyir heyvana, yalvarır ki, Allahın heyvanı, sən gəldin yanımdan keşdin, mən səə hörmət elədim, çıx, mən çörək yiyəsiyəm. Deyir ki, çıxmaram. İlan ayna burulur qarnında, bayna burulur. Çıxmır bunun qarnınnan. Nəsə. Bu uşax dəstəmaz alır yönü qibləyə. Yalvarır Allaha ki, ya bizim rəbbimiz olan tək Allah, bunu babamın bədənindən irağ eyləginən. Belə deyəndə görür ki, babası yoxdu burda, yanında yoxdu. Həm də bir qoja kişi gətdi buna passı bir qılış verdi. Passamış qılış verdi ki, bunu belə-belə eləginən (söyləyici qarnının üstündən çarpaz xətt çəkir – top.), çıxajax. Passı qılışı verən kimi bu adam qayb olur, yox olur. Görür ki, babası oturubdu, hələ də yalvarır ki, ay Allahın heyvanı, gəl çıx. Çıxmır. Hə. Oxuyur, passı qılışnan belə-belə eliyir, deyir: «İndi qus». Qusan kimi ilan xırda-xırda gəlir tökülür. Nə əti kəsilir, heç harası kəsilmir. Unnan sonra ular çörək yiyir, yola düşürlər.

## YETİM DƏVƏ

Çıxır harasa səfərə gedir. Öz dəvəsini verir qonşusuna. Bu dəvəyə o qədər qullux eliyir ki, bunun dəvəsi burda yoxdu deyib. Nə qədər buna qullux eliyir, otu öz dəvəsindən artıx verib, yemi öz

dəvəsinən artıx verib. Hamısını... Özününkündən artıx buna hörmət eliyir. Günü-gündən bu dəvə arıxlıyır. Buna deyirlər ki, səə nolubdu, dəvəyə. Dəvəən də dodağı yarıxdı axı. Dodağı yarılır, dilə gəlir. Deyir ki, düzdü, bü kişi məə yaxşı qullux eliyir, yiməyi də çox verir, yükümü az qoyur. Onnan sonra hara getsəm suyumu artıxlaması ilə verir. Heş nədən mənim korluğum yoxdu. Hamısını artıxlaması ilə verir mənə. Yatanda, deyir, arxasını mənə çöyürür. Bu bunun xətrinə dəyirmiş. Dəvənin də hak-hesabı belədi.

## KİMİN YAŞI BÖYÜKDÜR

### I mətn

Bir dəvə, bir tülkü, bir canavar üçü yol gedillərdi. Bular üçü də möykəm aj oluflar. Diir, baxıflar, görüflər yolun qırağına bir parça çörəh düşüf. Çörəyi dəvə tez, – dəvə tərəfdəymiş, – alıf ağzına. O saat canavar deef ki, dəvə qardaş. Diif: «Nədi?» Diif: «Sən təkcə yimə da çörəyi, gəlin məsləhətdəşəh, sora yiyəh». Dəvə deyif: «Pajalusta, çörəyi saxlamışam da burda, yemirəm, indi deyin görəh nə məsləhət eliyirsiz?» Tülkü bijdi axı. Tülkü deer ki, canavar, belə eliyək. Söylüyəh yaşımızı, kimin yaşı çoxdusa, o yisin çörəyi. – «Hə, böyüyə hörmət lazımdı». Canavara deer ki, söylə yaşıı. Canavar deer ki, Nuhun gəmisi suyun üzündə qərq olanda Allahın hökmü ilə məni götürüb o gəmiyə qoymuşdular ki, heyvanın kökü kəsilməsin. Canavar belə deyən kimi tülkü başdıyır ağlamağa. – «Ə, niyə ağlıyırsan?» Deer: «Bə, sən bilmirsən, sən elə yerə toxundun ki, mən uje ağlamalı oldum». – «Əşi, bir sözünün canını de». Deer: «Onda sən özün gəmidə olufsan. Mənim bir cüt nəvə-nəticəmi su boğuf öldürdü». Demək bu çox böyük oldu da bunnan. Dəvə baxır ki, bularınkı kələkdi, yavaşca çörəyi udur, çeyniyir, diir: «İndi sizin sözüzdən belə çıxır ki, dəvə uşaxdı?»

### II mətn

Deer ki, bir dəvə, bir tülkü, bir canavar yol gedirlər. Gedəndə birdən para çörəh düşüfmüş yerə hardansa, çörəyi dəvə götürür, ağzına alır. Alanda canavar diir: «Yox, sən təhcə yimə onu». Deer: «Bə nağarax?» Deer: «Yaşımızı söylüyəh, kimin yaşı çoxdu o yisin». Tülkü deef ki, canavara, söylə yaşıı. Canavar deer ki, Nuhun gəmisi suyun üzündə qərq olanda Allahın hökmü ilə məni götürüf qoymuşdular o gəmiyə. Mən ordeydım. Tülkü elə ağlıyır, elə ağlıyır. «Ə, səsini kəs görəh, dərdin nədi?» Deer: «Məə sən elə yerdən

xəbər verdin ki, mənim bütün yaralarıma duz töhdün». – «Ə, bir de görəh noluf?» Deef: «Ə, hələ sən onda özün gəmidə olufsan. Mənim bir cüt oğlan-nəvəmi onda su boğdu öldürdü». Deməli, gör bunun yaşı hara getdi. Dəvə baxır ki, fırıllaxdı. Çörəyi bükkəliyif udur. Deyir: «Sizin sözünüznən dəvə uşaxdı, heləmi?»

## ALDADILMIŞ AYI

Bir günü, deyir, bir dənə ayı okqədər azğınnaşır ki, imkan vermir bir heyvanı ov ovluyub yiməyə. Hamısı ajınnan poran düşür. Bir gün şir, pələng hamısı çağırır, heyvannarı yığır başına, nə qədər vəşi var. Deyir: «Çarə tapın, u bir dənə ayı bizim imkanımızı kəsibdi. Qızışıb qoymur birimizi ov eliyək, çörək tapax. Buna bir tədbir». Bütün heyvannar deyir: «Ona nə tədbir? O qızmış şey, biz də ajınnan ölürük. Onun tədbiri Allahın əlindədi». Bir qojalmış tülkü varmış. Yüyürüb da doşannan-zaddan tuta bilmirmiş. Qojalıb əldən düşübdü, ajınnan ölür. Deer ki, indi elliyiz də yox sözünnən barışdız, heləmi? Deyirlər: «Hə». Deyir: «Onda gəlin belə bir iş eliyin. Nə qədər ömrüm qalıbsa, mənim gündə üç öynəlik yiməyimi verin, u ayının tədbirini mən çəkim». Deyəndə şirnən pələng çox möhkəm qəhqəhə çəkir, bu qoja tülküyə gülür. Deyir: «Ə, ayağa dura bilirsən, ölürsən sən. Biz ayıya bir tədbir çəkə bilmirik. Deməli, sən bizdən qüvvəli çıxdın?» Deyir: «İndi söhbət qüvvədə döylü ki, hiylədədi». – «Hə». – «Siz boyun olun azuqəmə, sizə nə boşdu? Onsuz da mən ölürəm. Ya özümü öldürtdürəjəm, ya ayını öldürəjəm. Sizin başızdan rədd elijəm». Fikirləşirlər, deyirlər ki, da onu onsuz da elə düz deyir, bu ölür ajınnan. Ov ovluyammır, bir şey eliyəmmir. Deyək, razı olax. Bəlkə bir iş elijək. Razı olullar. Deyirlər: «Gündə üç öynə yox, lap beş öynə yisən sənin yiməyini qabağınnan qalınca verəjəyik, tədbir gör».

Tülkü durur soxulur bir kəndə. Gedir girir bir qadının darağını oğurlayır, bir qadının güzgüsünü oğurlayır, götürülür meşəyə. Bilirdi ki, ayı hansı meşədə yaşıyır. Bir yekə palıd ağacının dibində yaşıyırmış ayı, mağarası orda idi. Canını dişinə tutub gedir ayının mağarasının yanına. Səs eliyə-eliyə gedir ki, beyqəfl çıxıb məni paralıyar. Görür ayı yoxdu mağarada. Darağı, güzgünü bir otduqda gizləyir, özü də uzanır düz ayının mağarasının ağzında. Ayı gəlir nərildəyə-nərildəyə: «Sənin neçə ürəyin var mənim mağaramın ağzında durmusan? Səni ajal gətirib bura». Deyir: «Ajal gətirib,

öldür. Səə mənim güjüm çatmaz, bir şey eliyəmməz. Ancax mən bura gəlmişəm səə yaxşılıx eləməyə». Ayı da gedib meşədə bal tapıb, baldan okqədər yiyib ki, gözlər pırtdıyıb çıxır yerindən. Qıpqırmızı qızarıb. Harın ayıdı da. Nəysə, deyir: «Ə, sən özün nəsən məə yaxşılıx eliyəsən? Bu nə söhbətdi?» Deyir: «Ə, sən elə bir gündəsən ki, üş gün ömrün qalıb sənin». – «Üş gündən sonra nolajax?» Deyir: «Üş gündən sonra öləjəksən». – «Sən nə danışırsan? Səni bu saat para-para eliyəjəm». Deyir: «Elə, mən onsuz da bura gələndə bilmişəm ki, sən məni başa düşməsən məni öldürə bilərsən. Ancax özəə elijəksən». Deyir: «Axı məə nolubdu?» Deyir: «Hələ məə de görüm öz yağızdan varızdı?» Deyir: «Var». Deyir: «Hə, lap yaxşı. Get o yağızdan gətir məə». – «Niyirsən öz yağımızı?» Deyir: «A kişi, get gət da. Sənin yağı yimijəm, eləmijəm. Get gətir, deyəjəm sözümü». Gedir gətirir ayı yağı, öz yağlarınnan. Deyir: «Uzan bu çəmənliyə». Deyir: «Tülkü, mənim dərdimi məə di, görüm sən mənim başıma nə oyun açırsan?» Deyir: «Onda bircə dəyqə dayan». Gedir gizlədiyi yerdən güzgünü də gətirir, darağı da. Deyir: «Bu nədi?» Güzgünü tutur ayının sifətinə, deyir: «Gözlərəə bax gör nə gündəsən sən. Səni soyux elə alıb ki, üş günə də bəlkə qalmıyasan». Ayı baxır güzgüyə, görür gözləri elə bil, doğrudan da, çıxajax yerindən. – «Mənim çarəm nədi, tez ol eləginən». Deyir: «Mən də ona görə gəlmişəm da. Səndən hak istəmirəm, muzd istəmirəm. Sənə bu yaxşılığı elijəm, sən də məə icazə ver, dooşannan-zaddan tutum, əyər yüyürüb çata bilsəm, qarnımı doyurum». – «Müalicə elə, səə icazə verirəm». Deyir: «Lap yaxşı». Uzanır ayı, başdıyır ayının öz yağınnan ayını möhkəm yağlıyır. Elə yağlıyır ki, elə bil suya girib. Unnan sonra daraxnan yavaş-yavaş darıyır ayını ki, xoşallansın yuxuya getsin. Ayı xoşallanır, yuxuya getdimi? Hə. Bunun burasını ötürdüm. Ayı bunnan xəbər alır ki, ay tülkü qardaş, hamımızın ləqəbi var. Bilirik ki, sən tülküsən. Ləqəbin nədi? Deyir: «Özüm». Deyir: «Hə, yaxşı ləqəbdi». Nəysə, ayı yuxuya gedən kimi yerbəyerdən kirpiti çəkir ayıya. Yağlı bədən od alır. Ayı özüün ora çırpır, bura çırpır, əlac olmur, başı karıxır çıxır palıdın başına, başdıyır çığırmağa. Yanır da, alışıb yanır. Ağacın başında böyürür, bütün meşəyə səs yayılır. Pələng, şir söyünür, deyir: «Deyəsən, tülkü bir iş görə bilibdi». Yığılır gəlir vəşi heyvannar. Buna canı yanıb yox, söyünə-söyünə gəlirlər. – «Ə, ayı qardaş, səə nolubdu? Səni kim elədi belə?» Deyir: «Özüm». Kim xəbər alırsa səni kim elədi belə, deyir: «Özüm».

Deyir: «Özün elədin, elədin da, cəhənnəmə elə, gora elə. Lap yaxşı olubdu. Yan indi orda». Nəysə. Ayı yanıb həlak olur, buların başınnan irədd olur. Onnan sonra gündə iyirmi dəfə yisə, u tülküyə qeyri heyvannar ov ovluyub gətirir verir ki, halaldı səə, yi. Doğrudan da, adın da tülküdü, özün də tülküsənmiş. Bu da bu.

## UĞURSUZ TƏQLİD

Canavar görür ki, bir tülkü qulançıya-qulançıya gəlir. Deer ki, nolubdu? Deer ki, ajınnan ölürəm, heş nə yeyə bilmirəm. Deyir: «Dayan, bu dəyqə». Gəlir. Deyir: «Dalımnan gəl». Bu canavar bunu da götürüb gedir, çakqalı götürüb aparır. Canavar görür bir at otduyur. Çakqala deyir ki, bax gör indi mən nətər hərəkət eliyirəm. Hə, tülkiyə deyir gör mən nətəər hərəkət eliyib u atı tutajam. Məə yaxşı fikir ver. Deer ki, mən nə desəm düzgün cavab ver. Deyir: «Yaxşı». Deyir: «Mənim tüklərim biz-biz durur?» Deyir: «Durur». – «Gözlərim qan şəklini alıbdımı?» Deyir: «Alıb». Deyib tullanır atın belinə. Atı yıxır yerə. Bir az gözləyir, tülküyə deyir ki, gəl sən də yi. Tülkü də yiyir, şişir, eliyir. Deyir: «Bax, ovu belə tutallar». Hərəsi bir tərəfə, bu tülkü də düzəlir yola, gedir da, kefi kökdü, yiyib atın ətinnən. Görür ki, bir çakqal qulançıya-qulançıya gəlir. Deyir ki, nolub, a çakqal? Deyir: «Ə, ajınnan ölürəm, – tülküyə deyir. – Bir şey tapıb yiyə bilmirəm». Deyir: «Gəl, bura, bu dəyqə. Dalımnan gəl». Gedir, gedir, görür ki, bir at otduyur. Deyir: «İndi sən gör mən nətər elijəm, özü də səə nə disəm sən də hə de». Tülkü başdıyır özünü qabartmağa. Canavarın yerişini yeriyə bilməz axı. Deyir: «A çakqal, tüklərim biz-biz durur?» Deyir: «Yox». Deyir: «Yaxşı bax, durur?». Deyir: «Hə, durur». Deyir: «Gözlərim qan şəklini alıb?» Baxır, deyir: «Yox». Deyir: «Ə, yaxşı bax, alıb?». Əlacı kəsilib deyir: «Alıb». Alıb deyəndə atdanır atın belinə, at qoşa təpiyini tülküyə nətər qoyursa, ağzı-burnu qızıl qan olur. Çakqal gəlib baxıb deyir: «Bax hələ indi qan şəklini alıb».

## TISBAĞA İLƏ TÜLKÜNÜN YARIŞI

Tülküynən tısbağa, deyir, dağda bostan əkillərdi ortaxlı. Tülkü deyir ki, tısbağaya, bostan vaxtı mərc elijəyik, dəyən vaxtı. Manşır qoyarıx ki, misalçün, dağda əkmişik, bizdə dağ var da, burda yaxında. Gəlib Ağcaazının başında durajayıx. Kim tez getsə bostana bostan onundu. Amma tısbağa da bijiydi. Tısbağa da, deyir, neçə

vaxt bunnan qabağa orda bala qoyub torpağın altında, bostan əkilən yerdə. Torpağa bala qoyub, gəlib. Deyib: «Eliyəh da, nə deyirəm». Tülkü, baxıb, baxıb, bir burda, bir orda, deyir, tullanıb bostanın ortasında durub. Tısbağa hara gedir, tısbağa gedib çata bilərmi ona? Çatammıyıb. Nəsə, yığılıllar buların işdərinə qiymət verməyə. Tısbağa deyibdi ki, mən bayaxdan gəlmişəm bura. Tülkü baxıb görüb, ə, tısbağaan biri burdadı, çıxıb oturub. Demək, olar bura gələn kimi tısbağa balası çıxıb oturub çardağın dibində, bostan çardağının dibində. Tülkü görür yox, vay, öyüm yıxıldı, bostan qaldı səə. Bu da belə. Belə-belə nağıllar söylüyüblər.

## İNSANIN GÜCÜ

### I mətn

U kişi danışan sözlərdi bular da. Şir çıxdı dağın təpəsinə, nərildəyib deer, əsnədi, deyir. Dedi: «Hə, kim gələ mənim qarşıma ki, mənnən qüvvətdi ola bilər. Parçalıyıb yiyərəm». «Ordan tülkü başını çıxartdı dedi ki, var sənnən qüvvətdisi». Dedi: «Kimdi o?» Dedi: «İnsannar. İnsan oğlu». Dedi: «O hancarı məxluqatdı?» Dedi: «Heş bir şey». Dedi: «Çox yekədi, çox böyükdü?» – «Yox. Balacaboy insandı. İki qılçası var. O səni elə eliyər ki? Səni bağlıyar alar əlinə». Dedi: «Eliyə bilməz».

Belə bu formu bir gün, iki gün nərildəyirdi ki, kimsə mənim döşümə gəlsin, onnan savaşacam. Baxdı gördü bir dənə balacaboy usta gedir. Qoltuğunda dəhrəsi, mişarı, mismarı gedir üzü belə. Görür gedir. Gedəndə tülkü başını çıxarır, deyir: «Ba, ba, ba, insan məxluqatı dediyim odu, gedir». Dedi: «Odu?» Dedi: «Hə». Dedi: «Onun çağır bura». Çağırdı: «Bura gəl, bura gəl». Gəldi. Dedi: «Hara gedirsən belə». Dedi: «Gedirəm belə. Bizim at ilxımız var, buraxmışıx meşəyə. Çayın qırağında ağaclardan alaçıx qayırajam, çaydan su içəndə gəlsin orda kölgələnsin». Fikirləşdi, dedi ki, məə də yuva qayıra bilərsən? Dedi: «Qayıraram». Dedi: «Hancarı?» Dedi: «Vallah, bu saatdarı o ağajdarı qırıb səə bir yuva qayıraram». Deyir: «Bax, qayırginən. Qayırmasan, səni parçalaram». Çıxır söyüd ağacınnan qırıb tökür yerə, qırıb tökür. Yüzdük mismarlardan qəfəsə qayırır. O dərəcədə qayırır ki, şiri salajax içəri, daldan da qapısını vurub mismarlayıb qoyacaq. Deyir: «Şir qardaş, səə bir qəfəsə qayırmışam, görüm bu qapıya uyğun gəlirsənmi?» Şir içəri girir, içəri girən kimi qapı hazır idi, qoyur ora, daldan mismarı qoyur. Ağzını bağlıyıb qoyur ora. İnsannar keşmiş zamannarda o dərəcədə elm sahibi olublar. Şiri heylə u formu tutub qəfəsəyə salıbdı. Deer

ki, məni çıxart. Deyib ki, səni çıxarmıyajam. Yox, qardaş, səni çıxardaram, məni parçalıyarsan. Qal orda qəfəsədə. Bax, insannar da belə olub.

### II mətn

Bir kişi olur. Bunun bir qonur pişiyi olur. Bu gedir meşəyə qoz-fındıx yığmağa. Çualı götürüb gedir. Pişik də bunnan gedir. Pişik yaman sərçə tutan idi. Meşəyə çatanda görür ki, ağacda sərçə var cürbəcür. Yaxınnaşır ki, qalxıb ağacdan bunu tutmağa, bir pələng görür bunu. Pələng görən kimi bu ağacın dibinə qısılır, tüklərini borzaldır ki, pələngi guya vurmağa. Pələngə pişiyin gücü çatar? Pələng görür ki, toşnu bulara oxşuyur, amma bapbalacadı. Buna maraqlanır, yaxınnaşır. Buna yaxınnaşanda xəbər alır ki, sən niyə belə balacasan?» Deyir: «Mən adam əlindəyəm». Deyir: «Nətər adam əlindəyəm?» Deyir: «İnsan əlindəyəm, ona görə balaca qalmışam. Məni çırpıllar». Deyir: «Hanı u insan ki, sənin hayıfı unnan alım?» – «Dayan, gələjək». Dayan gələjək deyəndə kişi boğazını arıtdadı. Dedi: «Udey, bax, gəlir». Yüürdü pələng kəsdi bunun qabağını. Çualı çiynində idi, ağaclara baxırdı ki, hansı ağacda qoz var çırparam da. Dedi: «Nolub?» Dedi ki, belə-belə. Kişi başa düşdü ki, hak-hesab ayrı cürədi. Dedi: «Unda gedim öylə halallaşım, bəlkə sən məni öldürdün, bilsinnər». Deyəndə bu çualı çiynində gördü. Dedi: «Çualı hara aparırsan?» Dedi: «Öyə». Dedi: «Yox, qoy bura, get. Çualın dalınca gələjəksən». Dedi: «Yox, qoyammaram burda. Götürüb qaçarsan sən». Dedi: «Qaşmaram». Dedi: «Gir çualda yat, ağzını bağlıyım. Qoyum çualı bura, gedim». Dedi: «Yaxşı». Girdi pələng çualın içinə, bu daram ağzını bağladı. Daa partdıyıb çıxammaz ki? Yox. Bir az aralandı o yannan bir salavey kəsdi. Qoparıb gəldi. – «Öhö, öhö». Dedi: «Gəlmisən?» Dedi: «Hə». Dedi: «Aş da, çıxım». Dedi: «Hələ darıxma». Sırıxlısını çıxartdı qoydu qırağa. Tfu eliyib salaveyə cumdu bunun üstünə. Ha birini vurdu, pələng dinmədi, ikisini vurdu, dinmədi, üçünü vurdu, dinmədi. Dözəmmədi, pələngin səsi, deyir, meşəyə düşdü. Bütün sərçələr də qaşdı. Təmiz səsi kəsiləndən sonra aşdı ağzını, dedi: «Get, bir də adam olan yerə hərlənmə». Pələng, deyir, sürünə-sürünə gedəndə pişik yüürdü kəsdi qabağını. Dedi: «Gördünmü, qardaş, adamı?» Dedi: «Gördüm, gördüm. Qoy, dedi, özümü çatdırım kahaya, yatım orda. Təərim yoxdu getməyə».

## HARINLAMIŞ ÇAQQAL

### I mətn

Çakqal bir gün gəlib tülküynən qardaş olur. Diir: «Tülkü, gedəh ova». Tülkü gəlir, çakqalı götürür, diir ki, mən ov yeri bilirəm, gedəh. Tülküynən gəlillər, bir boyaxçı kişi var imiş, bunun yaxşı toyuxları, xoruzları var imiş. Ki, gedəh ordan toyuxlardan götürəh aparax. Gəlillər ora. Gəlir, belə dəlihdən keçəndə qarğı damı olur, qarğı damının yanında da bu boyaxçının boyax küpləri var. Tülkü keçir, bicdi tülkü, balacadı axı o bir az, bu çaqqal da bunun dalıynan keçəndə çakqal düşür bu boyax küpünə. Birtəri çabalıyıf çıxır. Silkələnir, eliyir, gedillər ov ovluyullar, qayıdıllar. Gedəndə tülkü görür ki, bunun hər tükü bir rəng çalır. Hər tükü bir rəngə çalır, diir: «Hə, gəl bəri, çaqqal qardaş, gəl bəri». Çakqalı götürüf gedir, yiyif, içib yatıllar. Səhər açılır, xeyirri olsun, duruflar. Tülkü çakqalı götürüf gedir şahın yanına. Buların şahı da aslandı, pələngdi, bir də şirdi. Bu heyvaniyyətdəri aslan, şir, pələng yığır ki, bizə təzə padşah gəlifdi. Bunu seçif qoyullar padşah. Baxıf görürlər ki, bu irəhdə buların içində padşah yoxdu. Bilmillər ki, bu çakqaldı. Bu olur padşah. Tülkünü buna müavin seçillər. Bular gedillər ov ovluyullar, gətirillər, töküllər tülkünün qabağına. Tülkü bölür hamısına verir, yaxşı yerinnən də özü yiyir, çakqala da verir. Bular kökəlillər. Çakqalın bir gün ulamağı gəlir. Vurnuxur o yana, bu yana ulamağa. Diir ki, tülkü, çakqal, birdən uluyuf eliyərsən ha. Gün belii qızdırar, dərənin içinə girif uluyarsan! Kökəlmisən, mən də kökəlmişəm, yaxşı yiyirih, içirih burda, bunu heyvaniyyət bilməsin. Bilsələr ki, sən çakqalsan, sən öl, səni cırıx-cırıx eliyəjəhlər. Diyib: «Yaxşı».

Bir gün belə, üş gün belə, tülkü bunu gözdən qoymur. Bir günü tülkünün gözünü oğurruyuf girir dərəyə. Dərədə başdıyır ağzını göyə tutub uluyur. Görüllər ki, çakqaldı bu. Çakqal uluyuf gəlir. Gələn kimi aslan tutuf bunu cırıx-cırıx eliyif tulluyur heyvaniyyətin içinə. Diiflər ki, gəlin indi hamız yiyin bunnan, bu çox yiyif kökəlmişdi. Tülkü də bunu görüf cırıf aradan çıxır. İndi həmən tülkülər, həmən çakqallar gəlif hamısı padşah olmuyufmu?

### II mətn

Şir gəlib heyvannara deyir ki, bir padşah gəlibdi. Gəlin onu özümüzə padşah seçəyin. Deyib, nə deyirik. Arıx çakqaldı. Aparıb, deyir, bunu özlərinə padşah seçillər. Əllərinə düşənnən nə var gətirib yidirdillər, nağarıllar. Axı çakqal uluyan şeydi. Yiir harınlayır.

Kıraskalayıblar qulağını, quyruğunu, ordan-burdan. Bir gün deyibdi ki, mən uluyajam axı. Deyib: «Niyə». Bə harınnıyıb da bu. Şir deyib: «Bəsdi! Məni biyabır eyləmə, uluyajam nə sözdü?» Deyib: «Yox, uluyajam». Qaça-qaça gedib bir hündür kahaan belinə çıxıb orda uluyub. Dağda olan heyvannar deyib: «Ə, bu çakqal imiş. Şir bizim başımızı tutub bunu bizə padşah qoyubdu, əlimizə düşəni gətirib yediririk buna». Heyləcə uluyubdu deyir. Onu da çıxardıblar, ordan qovluyublar.

*Söyləyici harınlıqdan söz düşəndə oğlunun bu nağılı misal çəkdiyini qeyd etdi.*

## III mətn

Heyvannarın, deyir, padşahı ölür, padşahı tapmıllar. Bu tülküdü, heyvannardı, hamısı yığılıllar, padşah axtarıllar. Diyillər ki, özümüzə padşah seçək layiqli heyvan. Tülkü, deyir, çöldə gəzəndə görür çakqal var, rəngbərəng çalır. Gəlir çatır, deyir: «Ay bədbaxt, bu nədi belə?» Deyir: «Vallah, kəndə getmişdim ova, bilmiyib gedib boyax küpünə düşmüşəm, ona görə belə rəngbərəng olmuşam». Deyir: «Gəlsənə səni padşah seçək». Deyir: «Nolar». Deyir: «Amma, oxumuyasan ha». Deyir: «Arxayın ol, oxumaram». Deyir: «Oxusan ikimizi də öldürəjəhlər». Deyir: «Yaxşı». Bunu götürür aparır heyvannarın yanına. Hamı baxır, görür padşaha layiq heyvandı irənginə görə. Bunu seçillər padşah.

Bəli, gündə hərə, deyir, bir ov gətirir, yiyir, çakqal kökəlir. Bir gün tülküyə deyir ki, tülkü qardaş, yaman oxumağım gəlir. Deyir: «Ədə, səsi çıxarma, səni də öldürəllər, məni də». Deyir: «Nağayrım bəs?» Deyir: «Oxuma». Nəysə. Beş gün, on gün, on beş gün, çakqal dayanammır. Deyir: «Sən dayan, mən u dağın dalına keçim, unnan sonra oxuyarsan». Tülkü qaçır, unnan sonra çakqal başdıyır ulamağa. Ulayan kimi heyvannar baxır görür ki, aslandı, pələngdi, iri-iri heyvannar, bunnarın padşahı çakqaldı, tutub öldürüllər. Deyir: «Ə, mən səə dimədim oxuma». İndi bu məsələni bizə gətiriblər, insannara. Görürsənmi biri varlananda mənəm-mənəm deyir. U da ona sual olarax deyir ki, ə, noldu, nə tez özünnən çıxdın, qızma, oxuma heç olmasa.

## TÜLKÜNÜN ORUCU

Bir tülkü İran tərəfdən Arazdan addıyır, gəlif görür ki, arıx bir tülkü Sovet torpağı tərəfdə yatıf, Azərbaycanda yatıf. Baxıf görüf ki,

bu yaman arıxdı. Deef: «Tülkü qardaş, niyə belə arıxsan?» Deef: «Nağarım?» Deef: «Neçə fənd bilirsən?» Diir: «Bircə dənə fənd bilirəm». Deef: «Ə, bir fəndnən tülkü dolanar, Allah evi tihsin. Ona görə belə arıxsan da». Diir: «Bəs sən neçə fənd bilirsən?» Deer: «Mən yüz dənə fənd bilirəm». Deer: «Yüz dənə fənd bilirsən, ona görə belə köksən də, yaxşı yiyifsən, fəndin çox». Bu deef: «Bəs burda niyə yatıfsan?» Deer: «Orucam». Deef: «Tülkü oruc tutar?» Deef: «Nətəri? Sən bilmirsən hələ tülkülər oruc tutur?» Hə. Bu məqamda sən demə bu arıx tülkü nəyi gözdüyürmüş? Tələdə quyrux varmış, bu İrannan gələn tülkü də bilmir ki, burda quyrux var, tələ var. Deer ki, ə, yol gəlmisən, aj olarsan, qonax adamsan. Keç, orda bax, quyrux var, al yiginən. Deer: «Bəs sən niyə yimirsən?» Deer: «Ə, səə mən dimədim orucam».

Bu İrannan gələn tülkü atılır quyruğu dartanda tələ açılır. Açılan kimi quyruğu götürür bir beş metrə tulluyur ayna, bunun özünün qolu düşür tələyə. Tülkünün qolu tələyə düşür, partdıyır, partdıyır, bu dəmdə arıx tülkü quyruğu yeyirmiş orda arxeyin. Bu çöyrükür geri baxır ki, quyruğu yeyir. Deer: «Adə, sən deyirdin mən orucam». Deer: «Allahın məsəli, ay görükdü da, vaxtdı, açıram orucu». Deer: «Yaxşı, indi mənim bayramım havaxt olajaxdı?» Deer: «Sənin bayramın tələ sahabı gələndə». Deer: «Yaxşı, bəs onda mən nağayrajam?» Deer: «Yüz dənə fənd bilirsən, birini işdət, çıx get da. Sən niyə qalırsan ovçu gələnə». Deer: «Vallah, qolum elə ağrıyır ki, yüz fənddən biri də qalmıyıf yadımda». Deer: «Onda elə mənim u bir fəndimi işə salım, görəh səni qutara billərəmmi?» Diir: «Sən allah, gör nağarırsan, bir şey elə». Deer ki, sən axşamdan yatarsan tələən üsdündə. Elə yatginən üsdünə şaxta düşsün, nəfəs almaginən. Tərpənsən tələ yiyəsi biləjəh ki, sağsan. Gələjəh tezdənnən, tüfəngini qoyajax qırağa, səni açıf tulluyajax. Tərpənmə ha. Dijəh ki, paho, axşamnan gəlib bunu açsaydım, qurardım, biri də düşərdi. O məqamda, mən ordan çıxıf oynujam. Mən çıxıf oynuyan kimi o yüürəjəh tüfəngi götürüf atmağa, sən onda qaç. Deer: «Yaxşı». Bu formu eliyillər. Tələ sahabı gəlir, baxır, ə, bu tələyə tülkü düşüf, uzanıf bərdən oyana yatıf, kök tülküdü. Açır qıçınnan tulluyur gölün dibinə. Bu səfər isdiyir tələni qursun bu dəmdə arıx tülkü çıxır ordan, oynuyur. Oynuyanda bu görür. Yüürür tüfəngi götürür bu arıx tülkünü atmağa, bunatan kök tülkü qaçır. Gedir meşədə birrəşirlər. Deer ki, hə, belə. Bax, mən də gəldim, qolumun biri belə oldu. Deer: «Qolunnan zərəl yoxdu, bir qolun da başına sadağa olsun. Bir də özgəən torpağına keşmə».

İndi bu ermənilər bizim torpağımıza keçir ey, bax helə lazımdı.

## ŞAHIN FƏRMANI

Tülkülər deer meşədə gəzillərdi. Ovçular da göz verif işıx vermillərdi. Birdən bu tülkünün biri bir Avrora qutusu tapıf. Avrora paprosu görmüşdünmü o vaxt? Tapıf, belə tutuf oxuyanda o birsi tülkü deyif ki, ə, o nədi oxuyursan? Deer: «Şah əmr eliyif ki, tülküyə kim güllə atsa, qolunu kəsərəm, heş kəs tülkü öldürməsin». – «Allah səə şükür. Bizə də bir gün oldu ha. İrahat yaşıyarıx bu meşədə». Deer: «Ə, onu bərk saxla, bərk saxla». Tülkü belə qatdıyır qoyur qoltuğunun altına. Kötüyün üsdündə oturuflar. Birdən ovçular gəlir. Bu diyir qoyma, bu diyir qoyma, itdər hürüşəndə bu diir: «Kağızı tulla da, ə. Kağızı tulla, oxusunnar. Deef: «Ə, oxuyuf dinşiyən yoxdu ey, qolaa dəm ver. Kimdi kağız oxuyan».

## TÜLKÜ VƏ AYI

Gedirlər, çox gəzirlər dərə-təpə, yorulullar. Yıxılıb yatıllar. Tülkü görüb ki, çox ajıb. Yiməyə də heş şeyi yoxdu. Yatıb, ağzını da başdıyıb marçıltdatmağa. Ha marçıldadıb, dilini-ağzını yalıyıb. Ayı yuxudan durur, deyir ki, tülkü lələ, nəsə yeyirsən ha? Nə yeyirsən sən belə? Mən də ajam. Deyir: «Nağarım da, bar-bağırsağımı». Deyir: «Heylə şey olmaz». Deyir: «Vallah, hə». Deyir: «Bəs mən nağarım?» Deyir: «Sən də bar-bağırsağı yi». Ayı, deyir, parçalıyıb özünü. Qarnını cırıb-töküb. Ayı, deyir, yıxılıb bərdən arı. Yiyəmmiyib axı. Tülkü yavaş-yavaş ayının bir qırağınnan düşübdü yiməyə. Tülkünün bijdiyidi da.

## DƏVƏ VƏ EŞŞƏK

Deer ki, bir dəvəynən bir eşşək arıx düşüb yük apara bilmir. Aparammıyanda, diir, bir qoruğun qırağında bular yatıf qalanda karvanbaşı deer: «Ə, qoyun qalsın olar, lazım deyil. Kim sürüyəjəh buları burdan ora». Nəysə, eşşəhnən dəvə bular gedənnən sora yavaş-yavaş, yavaş-yavaş otduyuflar. Otduyuf kökəliflər, yaxşı əmələ gəliflər. Payıza çörükəndə eşşəh deef ki, dəvə qardaş, məən anqırmağım gəlir e, oxumax isdiyirəm. Deer: «A kişi, oxumaginən, indi oxuma, vaxtı deyil. Bir də görərsən ajın biri gəldi, ikimizi də apardı, odun daşıdı, belimizi qırdı. Burda başımızı girriyirih da, səssiz dur». Nəysə o günü birtəri

dəvə eşşəyi sakitdəşdirir. Səhəri gün eşşəh deer: «Dəvə qardaş, isdiyirsən nə olur olsun, mən anqırajam, oxumağım gəlir, çoxdan oxumuram». Eşşəh başdıyır anqıranda bir kasıf adam varmış, deer: «Ə, sən öl, burda deyəsən bir eşşəh var». Yüürə-yüürə gedillər, görüllər bir dəvədi, bir eşşək. «Ə, bu kimin olar, kimin olar?» Heş kəs yiyə çıxmır. Nəysə, gətirir bu adam buları yaxşı qoşur. Gündə gedir yüklüyür odunnan gətirir, gündə gedir yüklüyür gətirir. Nəysə, bir gün də gələndə eşşək yorulur. Bir dənə enni çay var imiş. Bu çayın körpüsünnən keçməh lazım imiş. Eşşəh o üzdə yoruluf yatır. Yatanda dəvəçi kasıf adam, dəvəni yatırdır, eşşəyi şələli-zadlı yumalıyır dəvənin belinə. Deer ki, burda niyə qoyuram, hazır aparajam, gənə yükünü alajam, sağaldajam. Dəvə fikirrəşir ki, ə, mən buna dedim oxuma, bu oxudu mənim sözümə baxmadı. İndi də şələsi cəhənnəm, özü də məni minifdi. Körpünün üsdündə, yaxşı sel gəlirmiş, deef: «Eşşəh qardaş!» Deef: «Bəli». Deef: «Qulağıı bəri tut, səən qulağa bir söz diyəjəm, ürəyimə bir söz gəlib». Deef: «Ə, bərkdən de, eşidəjəm». Deef: «Yox, qulağıı bəri elə». Eşşək qulağını bəri eliyən kimi, dəvə bunun qulağınnan tutuf nətəri çəkif tulluyursa düz gedif şələli-zaddı çaya düşüf. İki dəfə batıf çıxır. Batıf çıxanda belə eliyir (söyləyici əlləri ilə batan adamı yamsılayır – top.). Deef: «Sən öl, gələn deyiləm, yeri get, hara gedirsən». Bu nədi? Yoldaşın sözünə baxmamaq.

## HARINLAMIŞ MİŞOUL

Deer ki, karvan yolnan gedəndə bir çimənlik yer olur, burda saxlıyıllar. Karvanbaşı deer: «Burda saxlıyax, yiməh yiyəh, ata arpa verəh, dəvəyə küt verəh». Hə. Nəysə, istirahət üçün burda dayanıllar, karvanbaşı baxır ki, bir dənə mişoul kolun içinnən çıxır, okqədər arıxdı ki, yeriyə bilmir. Hə. Buna fikir verir. Nəysə, duruf çıxıf gedillər. Bura çörəh tökülür, pendir tökülür, arpa-buğda tökülür. Bular gedənnən sora o mişoul yavaş-yavaş yiyir, kökəlir, yiyir, kökəlir. Qayıdanda karvanbaşının bir oğlu vardı da, lap uşax imiş da belə. Bu da bir yekə nər var, bunun belində oturuf arxada gəlirmiş. Bu mişoul dəvələrin ayağının altdan oyzə keçir, buyzə keçir, oyzə keçir, buyzə keçir. Ən nəhayəti bu böyüh nər gələndə, deer: «Bunun da ayağının altdan keşsəm mən mişoulam, yoxsa mən nə mişoulam?»

Bir də ordan keçəndə dəvə ayağını qoyur mişoulun belinə. Mişoul ölür, içi-içalatı bərdən arı sap kimi çıxır çözələnir. Bu uşax ağlıyır, uşax ağlıyanda karvanbaşı deer ki, bala, niyə ağlıyırsan? Deer: «Bu mişoul

elə gözəl oynuyurdu, bu çər dəymiş dəvə onu basdı, öldürdü». Deer: «Oğul, dəvəmizə çər dəyməsin, çər o mişoula dəysin. O mişoulu dəvə öldürmədi. U içinnən çıxan piyə bax, u piy öldürdü. U piy onun qarnında olmasa, u ölməzdi». Bu da harınnamış adamlara misaldı.

## XEYİRXAH HEYVANLAR

Biri ayləsiynən gedirdi. Baxdı gördü ki, bir canavardı, bir çakqaldı, bir tülküdü. Bular elə bir əlyandıdadı ki, gəl görəsən. Kişi dedi ki, ay arvad, bu nə deyən sözdü. Tülkü, canavar, çakqal, bu üçü bir yerdə ünsiyyət eliyən döylü, bu üçü də yırtıcıdı. Bu nə hak-hesabdı görəsən? Deyir: «Nə bilim?» Nə bilim deyəndə canavar çıxır buların yolunun qabağına. Yolu kəsir, durur. Arvad deyir ki, kişiyə, söz tapmadın da danışmağa. Eşitdi gəldi ey, bu. Bizi bəlkə də parçalıjax. Deyir: «Yox, arvad, bu sözdü adama oxşuyur». Deyir: «Adama yox, canavara». Deyir: «Əşi, canavar oldu, adam oldu, nə mənası var. Bir nəfəs ona verib Allah, bir nəfəs mənə. Bizim nəfəsimiz iki, onku bir döylü ki?» Deyir: «Allahın heyvanı, nə istəyirsən? Sözüü deyə bilirsən, sözüü di görək. Güjüm çatarsa, kömək eliyərəm». Gəlir tutur arvadın tumanınnan başdıyır çəkməyə. Deyir: «Ə, yox. Bir zulumnan onu özümə almışam, səə almamışam ki? Arvadı hara aparırsan, məə verginən». Canavar nə qədər eliyir kişini başa sala bilmir. Bu səfər kişinin özünün qolunnan yapışır, çəkə-çəkə aparır. Aparır gedir, görür ki, tülkü balalamax istəyir, balalıya bilmir. Əziyyət çəkir. Bular da buna kömək eləmək istəyirmiş, eliyə bilmirlər. Kişi çağırır: «A arvad, sən dədəə goru, gəl buların əlindən məni xilas elə». Deyir ki, mən nağayrım olara? Tüfəyim var, atam öldürəm? Deyir: «Atmax yox. Burda tülkü var, balalamax istəyir, balalıya bilmir. Bu da məndən əl çəkmir, tülkünü göstərir məə. Mənim də nə başım çıxır unnan». Gedir arvad, nəysə, tülkünü doğuzdurur, onnan sonra çıxıb gedirlər. Tülkü deyir ki, tez qardaşımı bura çağırın. Gedir çakqal bunun qardaşını tapır, götürür gəlir. Deyir: «Düş u adamların dalına. U adamları güd, axşam olar harda hansı evə girjəksə, o evin yeriin öyrənginən». Deyir: «Niyə?» Deyir: «Olara hörmət eləməliyəm mən». Nəysə. Kişiynən arvad nə bilsin. Gedirlər bular başqa kənddə qohumları varmış, ora. Gəzirlər, axşam qayıdıllar öylərinə. Gənə həmən yolnan gəlməlidi da. Yolunu dəyişjəkdi? Tülkü də güdür buları. Gəlirlər evlərinə. Bu həyətdimi? Hə. Gəlir bajısına deyir. – «Öyrəndim». Deyir: «Lap yaxşı». Bir az

balaları iriləşəndən sonra canavar deyir ki, səndən bir xayişim var. Deer: «Di». Deyir: «İnsannar arasında zahıya (söyləyici mamaça əvəzinə yanlışlıqla zahı işlədir – top.) xələt verirlər. Onnarda sabın verirlər, onnan sonra pul verirlər, darax verirlər. Bizim də belə şeylərimiz yoxdu. Xayiş eliyirəm bir dənə yaxşı qoyun tap, məə verginən». Deyir: «Verərəm». Çakqala deyir: «Çakqal, bir cüt yaxşı hinduşka da sən tap». Deyir: «Taparam». Tapır buların hamısını. Özü də bir neçə çolpa tutur, homalıyır. Gejə deyir ki, məə köməklik eliyin aparax buları o kişinin qapısına. Aparıb gedirlər. Hinduşkanı, toyuğu, qoyunu homalıyır, başdıyıllar qapını cırmaxlamağa. Kişi çıxır görür ki, ə, bir topa hinduşka da var, toyux da var, qoyun da var. Həmən tulküdü, həmən canavardı, həmən çakqaldı. Deyir: «Arvad». Deyir: «Hə». Deyir: «Vallah, u köməklik elədiyin tülkü, çakqal, canavar, üçü də qapıda durubdu, əl çəkmir qapıdan. Yannarında da bir qoyun var, iki hinduşka, bir neçə də çolpa». Deyir: «Hə, mənim hakkımdı, hakkımı gətiriblər». O gündən heyvan olmağına baxmıyarax olar başdıyır o adamlarla dostdux eləməyə. Nə adamlar olara dəymir, nə də olar o adamlara dəymir. O hak-hesaba o kəndə də ya özləri sataşmır, nə də başqalarını sataşmağa qoymullar ki, burda bizim dostumuz var. Onunçün deyirlər ki, söhbət düşəndə ə, filankəs alçax adamdı, heyvan onnan yaxşı başa düşür həyatda hər şeyi. Bax belə şey olur, misal da bunnan yaranır ki, ə, heyvan səndən yaxşı qanır.

Bunu da qoja kişilərdən, qadınnardan söhbət arası düşəndə eşitmişəm.

## QƏFƏSƏ SALINMIŞ QUŞ

Deyilənə görə tutub gətirib salıb qəfəsə. Allah yaradan nemətdən onun qəfəsində hazır eliyib. Gənə görüb ki, səsi gəlir. Əsabəsini gödərib ki, peyğəmbər, get gör onun nədən kəsiri var. Gəlir. Deyir: «Allahın heyvanı, nədən kəsirin var? Niyə zarıyırsan?» Deyir: «Məni burax gedim meşədə yaşıyım». Deyir: «Meşədə putaxda yaşıyırdın. Səə bu cürə qəfəs tikmişəm». Deyir: «Məə u putax xoşdu. Ona görə ki mənim ana vətənimdi ora». Aşıx niyə deyib, gəzməyə qərib ölkə, ölməyə vətən yaxşı. Vətənə gəldim, dinə-imana gəldim. Vətən torpağı yaman şeydi.

## ZƏHMƏTNƏN ZİNƏT

Mənim nənəmin söylədiyinə görə biri vardı, biri yoxdu, bir qoca kişi vardı, bunun da bir qoca qarısı. Qarı həmişə iy əyirib, coraf toxuyub satmaxla çörək pulu əldə eliyərmiş. Qoca kişi də meşədən odun daşımaxla, kiməsə işdəməklə günnərini keçirərmiş. Bunun da ayağında bir cüt – çarıx deyirlərdi keşmişdə, – çarıx olarmış. Olara da ad qoyur: birinə Zəhmət, birinə Zinət. Hə. Zəhməti ayağına geyinib hər daima gedərmiş meşəyə, odun doğruyub gətirib satıb varlılara, pul əldə eləməkdən ötrü, çörək qazanmaxdan ötrü. Zinəti yağlıyıb, təmizləyib qoyurmuş bir dənə sandıxçaya. Günnərin bir günü Zinət gileylənir ki, hər gün Zəhmət çıxır gedir, mən qalıram evdə. Toz üstümü bürüyür, mən də istəyirəm çöl havası görəm. Gileylənir. Qoja heç buna məhəl qoymur. Elə ancax Zəhməti geyinir. Zəhmət elə adınnan məlumdu da, zəhmətdi. Zəhməti geyinir, o biri ayağına da başqa çarıx keçirir gedir, bu Zinət qalır. Günnərin bir günü bu Zinət sandıxçanı aralıyır, çıxır sandıxdan. Deyir: «Nətəər varsa, mən gedəjəm». Görür bunu aparan yoxdu, çıxır gedir. Baş götürüb gedir evdən. Gedir, gedir, bir mal çuxurunda, suda batır Zinət. Qoja kişi də elə bilir Zinət sandıxçadadı. Günnərin bir günü də deyir ki, yığıncax olur, bunu yığıncağa çağırmalıdıllar. Qarısına deyir ki, get sandıxçadayını da çıxart gət – Zinəti, geyinim, ikisi də bir formada gedim. Gedir görür ki, yoxdu. Sandıxçada yoxdu. Gəlir deyir ki, sən onu geymisən, hara eləmisən yoxdu. Deyir: «U nə deyən sözdü. Mən unu qoymuşam, sandıxçadadı». Bular həyətbajanı bütöy axtardılar, görürlər yoxdu. Əlinə dəmir həsa götürür bu qoja kişi düşür çöllərə. Axtara-axtara həmən Zinət getdiyi yerdə görür ki, çuxurda gənə gileylənir. Sandıxçada gileyləndiyi kimi gənə gileylənir. Səsə qulax asanda səs buna tanış gəlir. Ancax bunun burda olmağına şübhə eliyir. Nəsə, palçığı aralıyır, görür ki, həqiqətən öz çarığıdı. Çıxardır sudan, yuyur. Buna sual eliyir ki, mən səni yaxşı saxlıyıram, yağlıyıram ki, zinət adına layix olasan, zinət olasan, bizə var gətirəsən. Bəs niyə gedirsən? Deyir ki, bəs mən də istəyirəm Zəhmət kimi zəhmət çəkib çörək qazanam. Hə. U günnəri Zəhməti bir ayağına, Zinəti bir ayağına geyinir, qayıdır gəlir. Gənə qarısıynan dolanır odun satmaxnan.

# LƏTİFƏLƏR

## *MOLLA NƏSRƏDDİN*

### I mətn

Mollaya bir kişinin pul borcu var idi. Gedib gəlib ala bilmirdi molla. Çox gedir ala bilmirdi, çox gedirdi, ala bilmirdi. Getdi molla otdu qəbirstannığın qapısının ağzında. Yetən gəldi gördü molla burdadı. Biri gəldi dedi ki, a molla, burda nə otmusan? Deyir: «Ə, biri məə pul boşdudu, gözləyirəm, gözləyirəm, ala bilmirəm. İndi burda otmuşam, hara getsə bura gələjəkdi. Burda tutum əlindən alım pulumu. Deyir: «Ə, ölüdən pul alassan?»

### II mətn

Gəlir arvadına deyir ki, a arvad, qonşu xaşıl bişirir. Deyir: «Əşi, adama nə deyərlər?» Qonşu xaşıl bişirir bişirsin da. Deyir: «Yox». Sən çığıra-çığıra qaç. Mən səni döyə-döyə guya qoluyuram. Gedək çıxax ora, xaşıl yiyək gələk. Vurur bir iki lamp-gomp, arvad çığırır: «Ay qonşu, qoyma, ay qonşu, qoyma». Çıxır seyvana. Molla Nəsərəddin: «Qaçın, onu öldürəjəm, asajam, kəsəjəm». – «Əşi, oturun, axşama xaşıl bişirmişik, yiyək-içək, dağılın gedin da. Niyə dalaşırsız?» O vaxtı da xaşıl, deyir, iri nimçələrdə gəlirmiş. İki adama bir nimçə xaşıl gəlir. Molla baxır, görür ki, bu xaşılın yağı azdı. – «Əşi, yi da. Söylə bir görüm nolub?» Deyir: «Mən deyirəm köpəyin qızı, yol burdandı. – Xaşılın üstündən xətt çəkir, yağ gəlsin də bura. Yağ xaşılın ev sahibi olan tərəfinə yığılmışdı. – Bu köpəyin qızı da deyir yox, yol burdandı». Xaşılın üstündə özünə tərəf xətt çəkir. İkinci xətti də onun yanınnan özünə tərəf çəkib uclarını birləşdirir.

### III mətn

Deyir mollanın qonşusunda 10-15 dənə qoyun-keçi var imiş. Bu lotular da həmişə Molla Nəsrəddinlə əlaqədə olublar da. Bir gün deyirlər: «A Molla, nətəər eliyək o qoyunnardan, keçilərdən oğurlaya bilmirik. Bir-iki dənə aparaq yiyək». Deyir: «Ə, o mənim əlimdə. Axşam qonşumun qonaxları olajax, mən də getcəm ora dütdək çalajam. Mən çalanda bilin ki, baş qarışıxdı, gəlin götürün aparın». Gedir yiyirlər, içirlər. – «A Molla, bir dütdək çalsana». Dütdəyi əlində mən yaylığı oynadan kimi oynadırmış. Başdıyıb dütdəkdə çalıb ki,

Beş tüklüsünü,
Dörd qıllısını,
Qat qabağa,
Vur yerisin,
Sür yerisin.

– «A Molla, sən nə çalırsan?» Gənə başdıyıb:

Beş tüklüsünü,
Dörd qıllısını,
Qat qabağa,
Vur yerisin,
Sür yerisin.

Yanı beş qoyun, dört keçi sür yerisin. Qonaxlar dağılıb. Səhər görüblər ki, beş qoyun, dörd keçi yoxdu. – «A Molla, axşam sən belə çalırdın». Vur ki, vurasan

## IV mətn

Molla yol gedirmiş. Görür uşaxlar arxda çimir. Arxda çiməndə soyunur bu da çimir. Uşaxlar deyir: «A molla, hara gəlirsən, ayıbdı». Yönünü çöyürür buyza, gətirir başına bir az xala-xula doluyur ki, uşaxlar görməsin. Uşaxlar deyir: «A molla, sən nağayrırsan?» Deer: «Başına sarıx qoyuram ki, qoy buna hajı disinnər».

## V mətn

Molla Nəsrəddin girir öyünə, evinə, görür ki, şıxqıltı gəlir anki öydən. Deyir: «Ə, bu nə deyən sözdü? Giri içəri, gedir görür ki, oğrudu da». Deyir: «Ə, burda nə gəzirsən?» Deyir: «Ə, yığışdırıram da. Oğurluq elyirəm». Deyir: «Ə, günün günorta çağı mən ordan bir şey tapa bilmirəm. Sən bu gejə vaxtı nə tapacaxsan?»

## VI mətn

Molla Nəsrədin gedir, bir Ala qaya var imiş, bu qayaan dibində camaat bostan əkirdi. Bir nəfər kişi əkibdi bostan. Bu gedir kişidən iki dənə qarpız alır. Sürüyə-sürüyə buna iki dənə qarpız verir. Bu burdan gedir, ordan hərlənir gəlir, burdan gedir, ordan hərlənir gəlir qoltuğunda iki qarpız. U deyir: «A molla, qarpızı hardan daşıyırsan?» Deyir: «Ala qayadan». Bu deyir: «A molla, qarpızı hardan daşıyırsan?» Deyir: «Ala qayadan bostannan». Araba tutan, eşşək tutan, torba götürən tərpənir. Düşürlər bostanın bir qırağınnan yığıb daşımağa. Bir də kişi gözünü açıb camahat bostanı yığıb qutarıb. – «Ay aman,

nağayrırsız?» Deyir: «Molla Nəsrəddin deyir Ala qayada bostan var». Deyir: «Hə, iki qarpızın bəlasına düşmüşəm. Doldur ver da torbanı buna, çıxsın getsin».

### VII mətn

Mollaya arvadı deyir ki, gejə, a kişi, dəəsən məhlədə oğru var. Deyir: «Olsun da, ay arvad. Bir palazımız var, səən altında, sən də mənim altımda, oğru nə aparajax bizdən?»

Bir gün də, deyir, eşşəkdən yıxılır. Deyib: «Ah cavanlığım». Ayna-bayna baxıb, görüb heş kim görmür, deyir: «Əslində cavanlığım da bir şey döyüldü».

### VIII mətn

Molla Nəsrəddin bir gün mal qabağına çıxır. Naxırı-zadı sürür, qayıdanda gəlir. Görür qonşunun eşşəyi doğubdu, quyruğu yoxdu. Ağlıya-ağlıya gəlir öyə. Arvadı gətirib çörək qoyur. – «Mənim başıma bu dünyada gəlmiyən iş yoxdu». Deer: «A kişi, nolub, bir de görək?» Deyir: «Nolajax? Qonşunun eşşəyi doğub, quyruğu yoxdu». Deyib: «Əşi, sənə nə var. Doğsun, heç quyruğu yox, qulağa da olmasın». Deyir: «Ay arvad, sən bilmirsən, gələcəyi görəmmirsən sən. İndi o yekələjək, o yüklüyüb aparajax dərmana, gələndə suyun içində yatajax. Məni çağırajax ki, a molla, gəl eşşəyi durğuzax, u issandı. Özü yüürüb tutajax başınnan, bəs mən hardan tutum. Göstər görüm mən hardan tutum».

## *BƏHLUL DANƏNDƏ*

### I mətn

İki yoldaş gedirmiş. Alma aparırmış eşşək üstündə. Görür bu kişi nə dinir, nə danışmır. Deyir: «A kişi, bir alma ver məə, mən yiyim, səə bir söz öyrətcəm». Çıxardır almanı verir. Deer ki, di örgət görüm nə örgətcən. Deer ki, bir adamla yoldaş olanda adını-familyasını örgən. Deyir: «Hayıb almam». Buna əsər olmadı. Bir az gedir, görür bu kişi elə bil.... Deyir: «Əşi, bir dənə də alma ver, səə bir söz örgətcəm». Bəlkə eşitmisən, sənə baş ağrısı olmasın (söyləyici sualı toplayıcıya verir – top.). Verir, bunu da yiyir. Deyir ki, örgət. Deyir ki, bir məclisə getdin oturmağa, yeri tanı. Deyib: «Hayıb almam». Bunnan da bir nəticə olmadı. Bir az gedir, deyir: «Gedirsən da, bir dənə alma ver, yeyim, bir söz örgədim». Deyir: «İki almamı yidin yönnü söz örgətdin? Ala bu da üçüncü olsun». Bir az yiyir, deyir: «A kişi, bir məclisə düşdün, səndən bir söz xəbər almamış demə ha». Bu aralanır, deyir: «Mən getdim». Bir az

aralanan kimi dönəcəkmiş, yol palçıx olur. Batdax yol imiş, çıxmır. Nəkqədər eliyir çıxmır. – «A kişi hay, a kişi hay. A məndən alma alıb söz örgədən». Buna baxmır. Yüürə-yüürə gedir yapışır qolunnan. Deyir: «Ə, səhərdən səni çağırıram, eşşəyim batıb, niyə gəlmədin? Alma satmamışdım?» Deyir: «Ə, u almanı mən aldım, birinci mənim adımı-familyamı örgən. Mənim adım Bəhlul Danəndədi. Danəndə disən ləqəbim idi gələjəkdim. Sən mənim adımı-familyamı örgənmədin, hara gedirəm». Yalvar-yaxar bunun aparır. Eşşəyi çıxarır. Deyir: «Gejəyə düşür, gün batır, məni beyjə qonax saxla». Gejə bu gedir qonax. Bunun qardaşı Rəşid xanın da qonağı olur. Deyir: «Sənin qardaşın var, Bəhlul Danəndə, gəlsin söhbət eləsin, əylənək, onun söhbətindən ləzzət alax». Bu deyir: «Getmirəm, qonağım var». Deyir: «Qonağını da götsün gəlsin». Bunu aparır. Bəylər-xannar oturan yerdə keçib başda oturur. Yavaş-yavaş gələndə qonax aşağı, qonax aşağı, qonaxların tulasınnan da aşağı yer olur, orda oturur. Narahat olur axı bu. Bunun ajığına gəlir. Yiyirlər, içirlər, sonra ortalığa qarpız gəlir. Başdıyır qarpızı kəsməyə. U deyir bəy, pıçax ver, bu deyir bəy, pıçax ver. O deyir, yoxdu, bu deyir yoxdu. Bu qızıl sürməli pıçağı ata ortalığa ki, götürün kəsin. Bəyin biri deyir ki, pıçax mənimdi. Mənim xəzinəmi oğurlayıblar, ordan oğurlanıb, bu mənimdi. Nəsə, işin axırında Bəhlul Danəndə bunu zor-xoş zaminə götürür. Vermirlər ki, sən ona söz örgətcən. And içir ki, yox, örgətmərəm. Aparır. Kişi mısmırığını sallıyıb oturub. Bunun eşşəyini çəkib gətirir bağlıyır dirəyə. Eşşəyə vurur, eşşək bağırır. Deyir ki, a kopoğlun eşşəyi, səndən bir alma yedim, dedim məclisdə yeri tanı, tanımadın. A kopoğluun eşşəyi, səndən ikinci almanı yedim, dedim məclisdə səndən söz soruşmamış dinməginnən. Pıçağı çıxartdın atdın. Sən kişinin qardaşını öldürmüsən, səni tutajaxlar, asajaxlar. Bax səni öldürəjəklər. Nağarajaxsan? Aş qulağını yaxşıca eşit. Deynən ki, u pıçax, mənim atamı öldürüblər, onun üstündən çıxıb. Mən bunu məclislərdə atıram buna yiyə duran olsun. İndi bu pıçax o bəyinsə, mənim hakkımı versin. Hamı, deyir, kişinin hakkını ver. Hakkını verirlər, yola salıllar, çıxır gedir.

### II mətn

Deyir ki, Danendeyi Bəhlula: «Ay Danendeyi Bəhlul, mənim bir az pulum var, onu nəyə verim?» Deyir: «Get ver dəmirnən kömürə». Tacir gedir çoxlu dəmir də alır, kömür də alır, gətirir yığır məhləsinə. Aradan bir-iki ay keçənnən sonra başqa şəhərlərdən də karvannar gəlir. Dəmiri, kömürü bu tacirdən çox baha qiymətə alıllar. Misalçün, tacir bu dəmir-dümürü alıbsa yüz minə, satır neçə milyona. Karlı pulu olur, varlanır.

Bu tacirin o qədər pulu olur ki, tacirin gözləri qızmış dəvə gözlərinə oxşuyur. Heç adamı-zadı saymırmış. Danendeyi Bəhlul da qarğı atı minib, sürüb gedirmiş. Yolnan gedəndə bu tacir bu Danendeyi Bəhlulu görür. Deyir: «Ayə, Danəndə, ayə Danəndə, ə dəli, dəli». Deyir: «Ə, bir az pul tapmışam, u pulu nəyə verim». Siftə buna yaxşı adnan dimişdi da. – «Danendeyi Bəhlul, mənim bir az pulum var, nəyə verim?» Siftə demişdi ki, ver dəmirə, kömürə. Yaxşı pul qazanmışdı. Sonra deyir ki, a dəli, a dəli, a səfeh, mənim bir az pulum var, unu nəyə verim? Danendeyi Bəhlul görür ki, onu təhqir eliyir, deyir: «Nə qədər pulun varsa, ver soğannan sarımsağa, vur anbara». Qayıdır şəhərdə nə qədər soğan-sarımsax varsa, hamısını alır, yığır anbara. Aradan bir həftə keçənnən sonra soğannan sarımsax yaş meyvədi da, hamısı çürüyür. Şəhərə iy düşür. Padşaha xəbər aparıllar ki, filan tacir o qədər soğan-sarımsax alıb yığıb anbarlara, çürüyüb, iydən şəhərə girməh olmur. Padşah çağırır taciri, deyir: «Bilirsən nə var?» Deyir: «Yox». Deyir: «Kopoğlu, iki saata kimi anbarlarda olan çürük sarımsaxnan soğanı daşı tök çölə. Əyər daşımasan, boynu vuracam xançalnan bu saatdarı». Tacir canının dərdinnən arabaları, nə bilim eşşək arabası, at arabası, kəl arabası, nə qədər araba varsa çağırır. Çürümüş sarımsağnan soğanı nə qədər varsa yığır arabalara, aparıb uzax sahəyə boşaltdırır ki, şəhərə iy düşməsin. Pulunu son qəpiyinə kimi xaşdıyır araba kirəsinə. Bir qəpiyi qalmır. Tacir olur lüt.

Aradan bir həftə keçənnən sonra Danendeyi Bəhlul buna rast gəlir. Deyir: «Danendeyi Bəhlul, bu nə məslahat idi, mənə verdin?» Deyir: «Niyə?» Deyir: «Olan pulum, varım, döylətim əlimdən çıxdı». Deyir: «Sən məə siftə Danendeyi Bəhlul dedin, mən də dedim olan pulu dəmirə, kömürə ver, xeyir taparsan. Getdin dəmir, kömür aldın, yığdın məhlənə. Uzax yerdən gələn tacirlərə satdın, çoxlu varın, döylətin oldu. Varlandın, döylətdəndin, o qədər pulun oldu ki, bu səfər qudurduğunnan məə dedin a danəndə, a dəli, mənim bir az pulum var, nəyə verim? Mən də ajıxnan səə dedim ki, ver soğana, sarımsağa. Verdin, hamısı anbarlarda çürüdü, olan varın-döylətin də çıxdı əlinnən. Apardın tökdün çölə, araba puluna verdin hamısını».

### III mətn

Gedib qardaşıma, nolar dəli olanda çox bilir, gedib onnan xəbər alajam ki, mən alver eləməyə nə alım vurum anbara. Xəbər alır, deyir:

«Qardaş, mən bu il nə alım gələn ilə satım, alver eləməyə?» Deyir: «Soğan al, sarımsax al». Soğan alır, sarımsax alır, gətirir vurur anbara. O ildə qış elə gəlir, yağış, sel, boran, hamısı cüyərir damdan çıxır çölə. Deyir: «A qardaş, sənin öyünü Allah yıxsın, məni gör nəkqədər xərcə saldın. Bir heylə sarımsax, soğan aldım, indi cüyərib çıxıblar». Deyir: «A qardaş, elə bilirsən hamı qazandığını özü yiyir. Heylə cüyərib çıxır gedir da».

## IV mətn

Bir günnərim atası ölür, öy qalır iki qardaşa. Balaca bir az savaddı idi, buna dəli Bəhlul deyillərdi. Onunçan da bunun adın dəli qoymuşlardı. Aşağıdakı mərtəbəni buna veriblər. Bir gün Bəhlul dedi ki, qardaşımı sınıyajam görüm. Dedi: «A qardaş, öyü sökürəm mən». Dedi: «Ə, nətər sökürsən?» Dedi: «Mənim öy payımı məə verməlisən. Aşağı öy mənim döylü? Sənin öyə dəymirəm. Öyümü sökürəm, aparıb başqa yerdə tikirəm». Camaat yığılır: «Ə kişi, ə, sənin öyün...». Deyib: «Ə, sən öl yox, olmaz». Əlinə alır lomu, çəkici, vurur, bir-iki kərpic salır. Deyillər: «Bu kişinin öyünü uçurdarsan?» Deyir: «A qardaş, öyümü almalı döyüləm?» Deyir: «Sat da ona». Deyir: «Yaxşı, satıram». Deyir: «Neçəyə». Deyir: «Bir abbasıya». Deyir: «Ə, bir abbasıya öy olmaz, yekə kişisən». Deyir: «Mən bir abbasıya öyümü satıram, özü də istəyən vaxtı pulumu verərsən?» Deyir: «Yaxşı». Beş adamın, altı adamın əliylən yazılı kağız qoyulur ki, bir abbasıya satılır öy.

Bir günnərim Bəhlul fikirləşir ki, bunnan harda mən alım pulumu. Deyir: «Hamamda gedib alajam». Dalıynan gedə-gedə bu hamama gedən vaxtında o mamentdə gedir ki, soyunub suya girəndə qapını açıb girir içəri. Deyir: «Qardaş». Deyir: «Hə». Deyir: «Mənim bir abbasımı verginən». Deyir: «Ə, qoy çıxım, paltarımı geyim, verim». Deyir: «Yox ey, sən öl, burda verəssən». Deyir: «Ə, burda məndə pul var?» Deyir: «Bilmirəm. A qardaş, məə dəli Bəhlul deyillər, mən dəli döyüləm. Bax, belə çılpax gedəssən o dünyaya, görüm nə aparassan bu dünyadan».

## V mətn

Günnərin bir günü Harun Rəşid öz ailəsiylə çıxır şəhəri gəzir. Şəhəri gəzəndə görür qardaşı iki topa torpağı hazırlayıb, oturub yanında. Bunun qardaşıyla arvadı gəldi, deyir, bunun yanına. Dedi: «Ay qardaş, bu nədi?» Dedi: «Səə lazım olan döyül, a qardaş. Çıx, get». Arvad, deyir, ordan qayıtdı ki, ay qayın, bu nədi, bu torpaqları yumurlayıb qoymusan? Dedi: «Bu cənnətdi, bu cəhənnəmdi». Dedi:

«Neçəyə satırsan?» Dedi: «Kim nə verdi ona». Deyir, bunun bu qardaşı arvadının bir boyunbağısı vardı. Çıxartdı verdi ki, bu cənnəti ver mənə. Cənnəti aldı, deyir, bunnan. Yığışdırdı, çıxdı, getdi.

Gejə yatmışdı. Bu da vaqiyə gördü yuxuda, əri də gördü. Gördü ki, bu Sara yeddinci göydə cənnətdədi, huri qızlarıyla məşğuldu. Vaqiyədə gördü ki, həqiqətən, bu cənnətdi, bu cəhənnəm. Səhər üzüzə xeyirli açılsın, bu qayıtdı gəldi qardaşının yanına. Dedi: «Qardaş, bu nədi, bu nədi?» Dedi: «Bu cənnətdi, bu cəhənnəm». Dedi: «İndi bunu sat da məə. Neçəyə deyirsən?» Dedi: «A qardaş, bilirsən nə var? Görüb bilənə satmıram. Sən gejə vaqiyədə görmüsən, səə satası deyiləm. Lap məə xəzinə versən belə». Qayıtdı getdi deyir.

Bir dənə qarğı atı variymiş. Bunu minib çapırdı. Aləm də deyir, bu Danəndə Bəhlul dəlidi. Dimillərdi ki, əqillidi. Dəli diyənə dəli söz deyirdi, ağıllı diyənə əqilli söz deyirdi.

## VI mətn

Bəhlulun qardaşıynan arvadı gəzməyə çıxmışmış, seyrə. Bu paccahın yoldaşı da bunun xətrini istəyirmiş. Buların getdiyini bilib çıxır buların yolunun üstündə toz homalıyıb belə bəzəkli-zaddı. Görüb bular gəlir. – «Gənə nolub sən toznan, torpaxnan oynuyursan?» Deyir: «Cənnət satıram». Arvad deyir: «Neçəyə satırsan?» Deyir: «Sənin üstündəki imarətə». Çaparax imarəti soyunur verir Bəhlula, çıxır gəlir. Padşah deyir: «Sənin başaa soyux dəyibdi?». Deyir: «Səə yüz kərə deyirəm, a kişi, ona bir imarət tikdir, bu eveşiyə gəlmir da. Sən də eləmirsən. Getsin özünə bir imarət tikdirsin». Deyir: «Dəli şeydi, neynir o imarət-zad».

Axşam yatıllar, padşah yuxuda görür arvadı da ölüb, özü də. Arvadıın bir nazü-nemətnən aparıb saldılar cənnətə. Çığırır oyanır. Deyir: «Nolub?» Deyir: «Arvad, sən qazandın. Sən Bəhluldan cənnəti aldın, məni tulladılar cəhənnəmə».

## VII mətn

Qarğıdan at düzəltdiyi yerdə görüb bir kişi gəlib. Gəlib: «Salam». «Salam». Deyir: «Ay Bəhlul, səndən bir məsləhət almax istəyirəm». Deyir: «Buyur». Deyir: «Mənim arvadım ölüb, bilmirəm kimi alım, nətəər alım». Deyir: «Qız alsan, sən bilərsən, dul alsan mən bilərəm, ərdən boşanmış alsan qaç, at basdı səni». Yəni qız alsan dijək ki, sən bilirsən, dul alsa, dijək mən bilirəm, ərdən boşanmış alsa, heş lazım döylü da, qaç, at basdı səni.

## VIII mətn

Meyid aparıllarmış basdırmağa. Bir nəfər Danəndə Bəhluldan soruşar ki, meyidi basdırdızmı? Deyir: «Bəli, basdırdıx. Birini basdırdıq, ikisi qaldı çöldə». Deyir: «Axı siz neçə meyit aparmışdız ki?» Deyir: «Bir». «Bəs deyirsən ikisi qaldı çöldə». Deyir: «Əyər yaxşıdırsa, deyəjəklər Allah rəhmət eləsin, filankəs yaxşı adam idi». Necə ki, hesafdar Məhəmmədəliyə kəndin camaatı hamısı rəhmət oxuyur. Kənt üçün yaxşı olub. Pis adama da lənət oxuyur: «Əşi, dünəndən öləsi zibildi».

## IX mətn

Bir dənə qonaxlıx idi. Elə belə çöldə idi. Çadır qurulmuşdu. Gəlib oturub. Aş paylıyıllardı camaata başdan düşüb bir-bir. Sərpa paylıya-paylıya gəldi. İndi toyda-zadda paylıyannar kimi. Bəhlul götdü öz boşqabını qoydu dala – çadırdan çölə. Şah Abbas: «Pisimillah eliyin, çörək yiyək». Hamı yiyirdi. Birdən baxdı ki, Bəhlula, bu yemir. Gördü qabağında boşqab da yoxdu. Sərpaya dedi ki, bəs Bəhlulun aşı hanı? Baxdı gördü ki, yoxdu qabağında. Tez bir boşqab aş gətirzdirdi qoydu qabağına. Elə aşa pisimillah eliyib bir qaşıx, iki qaşıx almışdı ki, gördü ki, çadırın dalında itdər bir-birini şil-küt elədi. Vuruşma başladı. Şah Abbas yaman pis oldu. Dedi: «Nə səs-küydü o?» Dedi: «Qardaş, dalda qalan var-dövlətin davasıdı, dava salıblar orda».

Bir gün də, deyir, yenə Danendeyi Bəhlul... Bir kişi gəldi ki, bir oğlan, dedi ki, bu qonşuda bir qız var, unu istəyirəm alam. Danendeyi Bəhlul, nə məslahat bilirsən? Dedi: «U mənnikdi, mən bilirəm unu». Aradan on gün, on beş gün keşdi, qonşuda bir gəlinin əri ticarətçi idi, əri öldü, var-dövlət qaldı, uşax qaldı. Gəldi dedi ki, Bəhlul. Dedi: «Hə». Dedi ki, mən o kadını almax istəyirəm, u qızı yox. Dedi: «O sənnikdi». Dedi: «Bəs keçən dəfə deyəndə məə dedin ki, u mənnikdi. İndi niyə deyirsən sənnikdi?» Dedi: «Mən deyəndə mənnikdi, u kişi üzü görməmiş kadın idi. Səni görəjəkdi. Onun əri, uşağı-filanı olub».

## *MÜXTƏLİF MÖVZULU LƏTİFƏLƏR*

## MAT QALMIŞAM

İki nəfər yolnan gedillər. Bular özləri əslində oğru olullar. – «Ə, nağayrax, neyliyək?» Əllərinə bir şey keşmir. Görüllər ki, bir bağda bir kişi cüt əkir. İki dənə öküz qoşub cüt əkir. Deer ki, əyə, mən tapmışam.

Deyir: «Nə tapmısan, ə?» Deyir: «Mən bu öküzün birini aparajam». Deer ki, kişi əlində öküzü qoşub cüt əkir. Nətər aparajan onu? Deer: «Sən bir kolun içində gizdən, mən gedib o kişiyə diyəjəm ki, salam əleyküm, işin avand olsun. Keçib gedib o tərəfdə kolun içində çığırajam ki, mən bu işə mat qalmışam. Kişi öküzü saxlıyıb yürəjəh mənim yanıma ki, görəh bu nəyə mat qalıb. Onun mən başını orada qarışdırajam, sən öküzün birini aç apar. Sonra ona mən diyəjəm ki, mən mat qalmışam sən bu bir öküzlə necə əkirsən». Bu gedir salam verir. İşin avan olsun, yorulmuyasan. Keçib gedir anki başda kolun içində çığırır ki, mən bu işə mat qalmışam. Bu kişi öküzü saxlıyıb. – «Ə, bu yazıx indicə burdan keşdi, bu nəyə mat qalıbdı? A kişi, niyə mat qalmısan?» Der: «A kişi, vallah, mat qalmışam». – «A kişi, sən bir de görək niyə mat qalmısan?» Der: «Vallah, mən bu işə mat qalmışam». – «Ə, bir di». Onatan baxır, öküzü apardı. – «A kişi, mən mat qalmışam ki, sən bu bir öküzlə nətər yer əkirsən?» Kişi çörükür baxır ki, həqiqətən, bir öküzdü. Boyunduruğun bir tərəfi yerdə, biri də öküzün boynunda. Deyir: «Qardaş, vallah, mən özüm də mat qalmışam».

## ARI TƏHNƏLƏRİ

Bax bir dəfə də bir oğlan dayısına nökər olur da, mənim kimi kasıb bajının oğlu gedib öz dayısına nökər olur. Dayı bu oğlanı o qədər belə hara buyursa, oğlan bunu yarıdır. Oğlan bu arının-zadın dilini bilirdi. Görür ki, arı təhnələri gedir, gəlir, gedir, gəlir. Şah qapıda durub, arılara deyir ki, qonaxlıdı, qaralıdı, tez gedin, tez gəlin. Yanı bal çox olsun, qonax-qara var. Vaxd olur, deyir ki, dayı, hindi da bəsdi mən işdədiyim. Mənim hakkımı ver, gedim evimizə. Deyir: «Oğul, nə istəyirsənsə, di, verim». Deyir: «Dayı, səndən bircə bu təhnəni istəyirəm». Deyir: «Ay oğul, u təhnədə nə var ki? Ürəyin nə istəyir di, verim, elə o təhnəni də verim». Deyir: «Yox, elə bu təhnə məə bəsdi». Götürür, atam, bu təhnəni, gətirir evə. Yer rahlıyır, qoyur. Görür ki, şah arılara deyir ki, qonaqsızdı, qarasızdı, yavaş-yavaş gedin, yavaş-yavaş gəlin. Deyir: «Hə, deməli, qonaxlı-qaralı evin ruzusu qonaxdan qabax gəlir».

## QOCALIĞIN AXIRI

İki dənə cavan oğlan olur. Biri digərindən beş yaş böyük imiş. Bular elə bir dost olur ki, qardaş qələt eliyər, heylə rəftar keçirdə bilməz. Bir otuz beş, qırx yaşında nətəər olursa, bular bir-birindən aralı

düşür. İyirmi il, iyirmi beş il bir-birini görmür. Təsadüfən Ağdaşınmı, Göyçayınmı bazarında gəzdiyi yerdə bular bir-biri ilə rastdaşır. İkisi də qojalıb əldən düşüb, axır nəfəsləridi. Görüşürlər, öpüşürlər, çox təntənə ilə bir-birini zad eliyir. Beş yaş böyük olan deyir: «Adə, bəri gəl, səni Allah yetirib məə. Gəl gedək çay içək, bir əmməli söhbət eliyək, ürəyimizi boşaldax. Mən dedim ölərəm, səni görmüyəjəm».

Nəysə, gedirlər oturullar çayçıda. Beş yaş böyük olan deyir ki, hə, söylə görüm dost, şəxsən özüü vəziyyəti söylə məə. Deyir ki, vallah, dost, nə söylüyüm, bir nəfəsimdi, bir gözlərimdi, bir dizlərimdi. Deyir: «Hə». Deyir: «Bəs sən nağarırsan ey, sən nətəərsən?» Deer: «Həm, həm, həm, həm». Deer: «Vallah, dost, bir şey başa düşə bilmədim». Bir də başdıyır, deyir: «Həm, həm, həm, həm». – «Ay dost, başa düşəmmədim, başa sal məni, darıxdım lap». Deyir: «Adə, hər bir şey qutarıb, bir çənəmdədi. Özümdən asılı deyil. Ha özümü məzəmmətdeyirəm ki, az danışajam, hər işə qoşulmuyajam, heç kimi incitmiyəjəm, çənə dayanmır. Bir çənədi, vəssalam. Qeyri heş nəyim yoxdu». İndi ay oğul, qojalıx belə bir şeydi.

## GÖYDƏ KÜÇÜK ZİNGİLDƏYİR

Biri çox yalançıymış, biri yalan danışmırmış. Günnərin bir gündə nətəər olursa, yalan danışmayan dedi ki, göydə küçük zingildədi. Aləm yığıldı, götür-qoy, götür-qoy, hərəsi bunun başına bir şillə vurdu ki, göydə küçük zingildər? Bu oldu pərt. Dedi: «Dayanın, dayanın, – bu yalan danışan, – göydə küçük zingildiyər». Dedi: «Nətəər?» Dedi: «İt balalıyar, quzğun götürər qalxızar göyə, zingildiyər». Dedi: «Hə». Rəvayətə görə bu düz gəlir.

## AŞIQ SAMANLIQDA

Bir aşıx, deyir, gəzə-gəzə gedir. Bir kənddə daldalanmağa yer tapmır, qonax eliyən olmur. Yolun qırağında dəyə kimi yer var idi. Dəyəyə girir. Samannıxda oturanda görür bir gəlin gəldi, bura xalça saldı, döşəkcə-zad gətdi. Dinmədi. Bir azdan sonra bir də gördü, bir atdı gəldi, atı dəyəən qabağına bağlıyıb girdi içəri. Bir qazan da qadın bişirdi gətdi qoydu. Bular yiyən vaxtı, dedi: «Nağarax? Yiyək eliyək, eliyək yiyək? Dedi ki, sənki olsun Qaf qala, mənki olsun Cüllütqulu xan. Görək Qaf qalanı Cüllütqulu xan nətəər alır. Elə deyir bular başdıyanda işə aşıq düüt ordan çaldı zurnanı, bular qaşdı. Aşıx durdu deyir, qazı qazannan

çıxardıb qoydu dağarına, atı mindi, çıxdı getdi. Bir müddət sonra at yiyəsi bunu tutdu. Dedi: «Əşi, bu at mənimdi, filandı, peşmandı». Dedi: «Ə kişi, sən nə danışırsan? Hardan oldu bu at sənin? Bu at bilirsən havaxtandı məndə?» Dedi: «Havaxtandı?» Dedi: «Qazan bəy Qazan şəhərindən çıxıb Dağar şəhərinə girəndən, Cüllüqulu xan Qaf qalanı alannan bu at məndədi». O saat kişi dedi: «Hə, düz deyirsən, mənim atım döylü, sənin atındı».

## İNƏK OĞRUSU

Bir kişinin inəyini oğurlamışdı. Yağış yağdı, gejə irizi itmədi. Sabaanı kişi inəyin irizi ilə getdi. Gördü ki, filankəsin toolasındadı. Getdi qazı ağaya şikayət elədi ki, bu mənim inəyimi oğurlayıb. Qazı bunu çağırdı gətdi. Dedi: «İnəyiin oğurlamısan bu kişiin?» Dedi: «Qazı ağa, indi mən deyim, sən qulax as».

İnəyi oğurlamışam bu düz
Yağdı yağış itmədi iz.
Əlimdə tutmuşam yüz
Bu işi üz.

Qazı deyir:

Demək inəyi oğurlamısan bu düz
Yağdı yağış itmədi iz
Yüzü döşəyin arasına düz
Dal qapıdan vız.

Lotu, deyir, əlini soxdu döşəkcəən altına, yüzü qoyub durub çıxdı getdi. İnək yiyəsi dedi: «Qazı ağa, bəs bu getdi, inək?» Dedi: «Ə, yekə kişisən, dur get burdan. Görmədin nətəər and işdi səə o». İnək yiyəsi durdu çıxdı gəldi.

## AŞIĞIN KƏLƏYİ

Bir kişinin çoxlu qoyunu var idi. Oğrular bunu oğurlaya bilmırlər. Bir aşıq görəsi oldular. Aşığa dedilər ki, bir dərdimiz var, bir əncam. Dedi: «Nətəər?» Dedi: «Burda bir qoyun var, oğurlaya bilmirik». Dedi: «Bir pay da mən olummu, oğurlayaq?» Dedi: «Oğurlayaq, alarsan». Dedi: «Mən orda gedib çalıb oxuyajam. İşarə eliyəndə seçin yekələrindən». Getdi, deyir, mal gələn vaxtı sazı aldı, başdadı çalmağa. Aşıx, deyir, baxdı gördü çoban burdadı da. Dedi:

İrisini-mirisini, seç irisini,
Bir qıllısını çölləmədən vur yerisin.

Qıllı da keçidi ha. Oğurlayıb, deyir, çıxıb getdilər. Öy yiyəsi: «Ay aman, qoyunnar oğurlandı». Öy yiyəsi dedi: «Bu aşığın fırıldağıdı». Aşıq başa düşdü ki, bunu, sən ölmüyəsən, birtəər eliyəjəklər. Aşıq da girəvələnib sazı gizlədir, çölə çıxmax adıynan o qaçan aşıx hələ də qaçır. Çıxdı getdi.

Sonra bir aşıx da deyir gəlmişdi ki, filan yerdə bir aşıx var, onu bağlasın. Kəndin, deyir, başınnan girəndə gördü bir uşax çırpı yığır. Dedi: «Ay bala, nağarırsan?» Dedi: «Çır-çırpı yığıram». Dedi: «Nədə aparajan onu?» Dedi: «Çatıda-matıda». Dedi: «Oğul, çırpı, çırpıdı, bəs çır nədi?» Dedi: «Çır da onun xırda qənədi, quyruğu». Dedi: «Çatı çatıdı, bəs matı nədi?» Dedi: «Matı da onun hilgəyi, keçirilən yeri». Fikirləşə-fikirləşə gəldi, bir adamın adını çağırdı. Uşax çıxdı. Dedi: «A bala, niyə hay vermirdiz?» Dedi: «Ay dayı, bizim evin qulağı yoxdu». Dedi: «Ay oğul, öyün qulağı olur?» Dedi: «Hə». Dedi: «Nətəər olur qulağı?» Aşıx bunnan soruşdu, uşaxdan. Dedi: «Ay dayı, bizim itimiz olsaydı, sən çağıran kimi hürsəydi biz də çıxardıx çölə». Aşıx baxdı, baxdı, dedi: «Ə, mən balaca uşaxlarına cavab verə bilmirəm, aşıxlarına nə cavab verəjəm?» Atın başın qaytarıb çıxıb getdi.

## ÇOXBİLMİŞ ALİM

Bir alim vardı, çox savaddı idi. Bu kəndi bağlıyıb keçərmiş o kəndə belə-belə. Nəsə, bir gün belə gəlib dirənir bir kəndə. Deer: «Kəndin alimləri, mollaları, əfəndiləri yığılsın bura, sual-cavab eliyəjəm». Hamı gəlir. Deyir ki, göyün yeddi qatınnan yerin yeddi qatına kimi hardan gəldi məə sual verin, cavab verəjəm. Sonra mən sual verəjəm, siz cavab verməsəz, məğlub olursuz. Hamı kirişkələnir: «Bu alim çox savadlıdı, göyün yeddi qatınnan yerin yeddi qatına kimi sual istəyir». Alimlər heş biri dinmir. Bu çoban camaatı belə basır, çıxır qabağa. Deyir: «Mənim bir sualım var sizə». Deyir: «Buyur». Deyir: «Süleyman peyğəmbər bütün cannıların dilini bilirdimi?» Deyir: «Bilirdi». – «Qarışqaynan da görüşübdümü?» Deyir: «Görüşübdü, danışıbdı». Deyib: «Sən mənim sualıma cavab ver görüm o qarışqa erkək qarışqa idi, yoxsa dişi». Bu özünü çoxbilmiş hesab eliyənin səsi kəsilir, cavab verə bilmir. Deyir: «İndi səə yaxşı yol, çıx get».

## KÜSƏYƏN KEÇƏL

Bir kişiyə nökər olur, varlı bir adama. Bu gedir çöldə qoyun-mal otarıb, axşam gəlirmiş. Buna nə qədər çox xörək saxlasalar ağlıyıb küsürmüş. Küsürmüş ki, məə az saxlamısız. Nəysə, bir gün kişi deyir ki, ay arvad, bu hər gün küsür. Sən bu gün bir qazan aş bişir, bir qazan da özümüzə bişir. Biz öz qazanımızı yiyək, bu qazanın ağzını aşma. Gələndə elə qazannı-zaddı qoy sufraan üstünə, görək bu indi nə deyəjək. Bir qazan aş keçəl gələndə qoyullar sufraya. Qazanın ağzını götürür keçəl, baxır ki, nəyi var üstündədi. Aşın kişmişi, şabalıdı, nə bilim, çolpası filan, aşqarası deyirlər da ona. Heç əl dəymiyib. Keçəl bu səfər onnan çox bərk ağlıyır. – «Ayə, balam, dünən bir az yavaş ağlıyırdın. İndi sənə noldu?» Deyib: «A kişi, mənim işim həmişə belə gətirib. Deməli, siz bir qazan aşı mə saxlıyanda gör özünüz neçə qazan yemisiz ki, mənə də bir qazan saxlamısız». Görürlər ki, da keçələ xeyri yoxdu. İstəyirsən lap on qazan aş saxla, küsəjək. Keçəlin belə küsəyən xasiyyəti olub.

## AT ALMAMIŞ AXURUNU TİKİR

At almamış axurun tikmək məsəlinin bir misalı var. Deer ki, bir kişi tövlə tikir. Tövləən enini-uzununu qoyubdu, başdıyıb tikməyə. Deyib: «Kişi, bu küşdən mənə at damı qayır, ata axur qoy». Deer: «A kişi, atın var ki, sən indidən axur qoyursan?» Deer: «Mən at alajam, axura gətirib bağlıyajam». Arvad da qabda əlində çay gətirir. Deer: «Kişi, bu nədi?» Deyir: «Arvad, axur qoymuşam, at alajam». Deyir: «Atı neynirsən?» Deyir: «Minib gedəjəm haja, ziyarət eliyib gələjəm». Arvad başdıyıb zarımağa. Deer: «Kişi, sən ata goru, hajdan gələndə atı ver, minim dədəmin evinə gedim, bir az gəzim, gəlim». Kişi tez ağacı götürüb düşür arvadın üstünə. Döyür öldürür arvadı. Usta soruşur: «Əşi, niyə döyürsən?» Deyir: «Ə, görmürsən bu nə qanacaxsız arvaddı. Ə, hajdan gəlmiş yornux at dədəə öyünü gəzər?» Hələ at almıyıblar, tola tikmiyib, at getdi haja gəldi, yoruldu, arvad da minib gedəsi oldu, kişi vermir. Belə insannar olur.

## QƏBİRSTANLIQDA HALVA BİŞİRMƏK
### I mətn

Kimsə gedib qəbirstanlığa halva bişirə bilərmi? Ürəkli oğlan deyib: «Mən bişirərəm». Burda gözləyirik, get bişir, gətir. Gedib uçux bir qəbrin qırağında oturub halvanı bişirib. Ağzına qoyan kimi

bir dilənçi də gəlib girib qəbirdə yatıbmış. Gözləyibmiş ki, halva bişsin. Ağzına qoyanda əlini uzadıb ki, məə də ver. Urəyi partdıyıb.

**II mətn**

Kim mıx basdıra bilər ora? O vaxt da uzun çuxa geyərlərmiş, rəhmətdik Molla Nəsrəddinin çuxası kimi. Biri deyər mən basdıraram. Ağacı da verərlər: «Apar bunu basdır, gəl». Gedibdi, ağacın ucu düşübdü bunun çuxasının ətəyinə. Vurub qalxanda ha dartınıb çuxa çıxmıyıb. Qorxusunnan ürəyi partdıyıb ölüb ki, məni meyid saxladı.

**III mətn**

İki dənə oğlan mərcləşirlər. Biri deyər gedib qəbirstannıxda uçux qəbrdə halva bişirəjəm. Bu gedər halvanı bişirər. Bişirib qutaran vaxtı bunun o biri yoldaşı gedər beyqəfil əlini uzadar: «Maa ver». Orda eylə ürəyi partdıyıb ölüb.

## TÜK QALMAZ

– Ə, vallah sənin yanında danışılası döylü.

– A dayı, nolacaq.

Bir günüsü biri vardı. Deyir ki, bu qızı saxlıjam, həddi-buluğa çatmamış verən döyüləm. Ərə gərək insan həyatını düşünə, o vaxtı verəm. Gedirlər boşuyullar. Görürəm da həyatda. Özünnən aparıb gətirirmiş hər gün. Hara getsə – qonaxlığa, gəzməyə, uzax səfərə özüylə aparırmış. Bir gün aparır, gələndə poyuzla gəlirmiş. Poyuzla gələndə görür ki, bir dənə oğlan qaşnan, göznən qıznan danışır. Bu özünü qoyur təmiz yuxuluğa. Hiss eliyir ki, cavandılar da, bir-birini istəyirlər. Özünü qoyur yuxuluğa, yatır. Guya yatıbdı. Amma bular nə danışırsa, bu eşidir. Gəlir, məsəlçün, bu oğlan başqa bir stansiyada düşəsisə, bu qıznan ata düşür yerə, düşəndə bu oğlan da düşür. Qızın azarına düşür. Düşəndə deyir: «A dayı, bura hansı stansiyadı?» Deyir ki, filan stansiyadı. Deyir: «Yatmışam, oyanmamışam. Elə bilirəm bizim stansiyadı ey, düşdüm burda. Bir də sabah gejə poyuz gələjəkdi. Bəs ona qədər nağarım mən? Harda qalım, hara gedim?» Deyəndə bir xeylax gedəndən sonra qız deyir ki, a dədə, qalsın da, yazıxdı. Burda maşın yox, adam yox, gedə. Qalsın bizdə. Deyir: «A qızım, nə deyirəm, gəlsin qalsın. Dinən gəlsin». Deyir: «A oğul, gəl bəri». Gedirlər. Yatıllar bular. Yatanda qız durur gəlir oğlanın yanına. Deyir: «Əşi, bir öydü, dədən də oyaxdı, ayıbdı axı dədəndən». Deyir: «Yox, mənim dədəm bərk yatandı». Deyir: «Əşi, yox, olmaz,

ayıbdı». Deyəndə deyir ki, a kişi, bərk yatır mənim dədəm, mən bilirəm də onu. Dedi: «Ağrıyan yer dalının tüküdü. Ordan tükündən çək, gözümnən görüm. Əgər durmasa ayağa, biləjəm ki, yatıbdı». Kişi də bu sözləri eşitdiyinə görə dişdərini qıjıyır dayanır. Dartır bunun tükünü, çıxardır gətirir. Bu işdən sonra bular öz işini görür. Sabahdannan qız durur tezdən başdıyır ev-eşiyi oxuya-oxuya silir. Kişi çöldən hərlənir gəlir. Deyir: «A qızım, kefin kökdü nolubsa». Deyir: «Dədə, beyjə elə yaxşı yuxu görmüşəm ki?» Deyir: «A qızım, hər gejə sən belə yuxu görsən mənim götümdə bir tük qalmaz».

# ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏR

1. Abır harda, çörək orda.
2. Abır-həya harda, bərəkət orda.
3. Adam suya düşəndə saman çöpündən yapışar.
4. Allah hər kəsin dağına baxıb otunu verir.
5. Allah-tala deyir ki, dövləti verdim eşşəyə, neməti verdim itə.
6. Allah-tala deyir ki, sən məndən istə, verən də mənəm, alan da.
7. Anadangəlmə şikəstdən xeyir gəlməz.
8. Arxı tullan, sonra bərəkallah al.
9. Arvad tikən öyü fələk də yıxammaz, amma arvad yıxan öyü fələk də tikəmməz.
10. Arvadın dilində su olmaz.
11. Aşıx sazınnan, kasıb qızınnan qorxar.
12. At almamış axuruun tikir.
13. Atdan yıxılan ölmür, eşşəkdən yıxılan ölür.
14. Avamlıx hardadı, bollux da ordadı.
15. Ayı əti iyitməmiş yiməz.
16. Soğan yiməmisənsə, için niyə göynüyür.
17. Bağa baxarsan, bağ olar, baxmazsan, dağ olar.
18. Baxtı yatmış bəndədən tarı da əl götürür.
19. Baxtın yatdı, sən də yat.
20. Baxtını narda sına, yarda sına.
21. Beçə böyüyüb kürtü basır.
22. Bir batman pulun olanda yarım batman da g..ün olsun ki, basıb üstündə otura biləsən.
23. Bir eşşəyi olan madarını saxlıyır, iki eşşəyi olan quyruğuun altınnan bal əmir. Yəni bir eşşək bir şələ gətir, iki eşşək iki şələ gətir.
24. Bilirsən g..unün xuyunu, niyə içirsən bozbaş suyunu?
25. Boşdan bir çıxar, bərkdən iki.
26. Bu dünya o dünyanın görküdü.
27. Cavanlıxda qojalığa can saxla,
    Varlılıxda varsızlığa var saxla.
28. Cəddində olan cəhrəsini əyirər.
29. Çakqal var gödən (gövdə) yırtır, yazıq qurdun adı çıxıb (adı bədnamdı).
30. Çağrılmayan yeri dar eləmə,
    Çağırılan yerə ar eləmə.
31. Çəltik döyülə-döyülə dən olar.
32. Çobanı özündən olanın qoyunu əkiz doğar.

33. Çörək çörəyə dayaxdı.
34. Damara baxıb qan ağlar.
35. Dədəmi öldürmüşəm ki, goruna and içim.
36. Dədəmin öləcəyi günü bilsəydim, qulağı dolu darıya dəyişərdim.
37. Dəli dəliynən dalaşanda göydən dəyənək yağar.
38. Dəli dəlini görəndə dəyənəyiin yanına qısar.
39. Dərin suya girib Xıdır Nəbini çağırma.
40. Dəvə ölər, dərisi bir yükdü, toyux ölər, bir çəngə tükdü.
41. Dillinin öhdəsindən Allah da gələ bilməz.
42. Dişin varkən malını yi, dişin töküləndə qalar özgəyə.
43. Dünya malı dünyada qalacax,
İnsana isə xətir-hörmət qalacax.
44. Dünya gedib, ucu qalıb,
İgid ölüb, bici qalıb.
45. Dünya yeyənə quyruxdu, yemiyənə yox.
46. El gətdi, yel gətdi, sel gətdi. Kef ondadı ki, el apara, yel apara, sel apara.
47. Erkək at mıxı çıxardanda, bir yerə dəyəndə, beş də özünə dəyər.
48. Əkə bilmirsənsə, niyə toz qaldırırsan?
49. Əslini danan bic olar.
50. Ət yiyən quş dimdiyindən bilinər.
51. Əyri elə bilir hamı əyridi, düz də elə bilir hamı düzdü.
52. Falçıya inanma, faldan da qalma.
53. Gedədən kişi olmaz, küldən təpə olmaz.
54. Gedən at özünə çubux vurdurmaz.
55. Gündüz nağıl söyləmə, gejə sakqız çeynəmə.
56. Güclünün qüvvəsi var, gücsüzün Allahı.
57. Gödək adamın könlündən Allahlıx keçər.
58. Gördün həyənək, görmədin dəyənək.
59. Halal çörək incilər, amma üzülməz.
60. Halallıx harda olsa, əkdiyin buğda qızıl olar.
61. Haram çörək fırnan gələr, zırnan gedər.
62. Harda bişdi, harda düşdü, bir çömçə bura qoy.
63. Hoha var, dağa qaldrır,
Hoha var, dağdan endirir.
64. Hər şey nazikliyindən sınar, insan yoğunnuğunnan.
65. Hər gecəni qədir bil, hər gəzəni Xızır.
66. Hərə bir tük versə, kosa da sakqallı olar.
67. Xam xəfli olar, kor ürkəyən.

68. Xeyir söyləməzə deyiblər xeyir danış. Deyib: «Bu gejə yatıb durmayasan».
69. Xəlvətdə osturma, aşkarda biabır olarsan.
70. İçi cənnətdi, çölü cəhənnəm.
71. İçim özümü yandırır, çölüm özgəni.
72. İnəyi almamış balasını bağlamağa yer axtarır.
73. İnsan qulaxdan səmriyər, at dırnaxdan.
74. İnsan qulağınnan tanınar, at darnağıynan.
75. İt araba kölgəsində yatır, elə bilir öz kölgəsidi.
76. İt götündən xeyir-qorxu olmaz.
77. İtdən çox ayakqabı daşıyan yoxdu, amma özü ayakqabısızdı.
78. İti poxuna dadandırma, dartıb (= basıb) g..üü yeyər.
80. İtnən dostdux elə, amma dəyənəyi yerə qoyma.
81. İtnən yoldaşdıx elə, ağacı əlindən yerə qoyma.
82. İynəli gündə təzə, iynəsiz ildə təzə.
83. Kasıba dəli deyərlər, arığa qoja.
84. Kasıba çatdı, dəyirman yatdı.
85. Keçal halva yiyər, puluna minnət.
86. Kişinin atası küt olsun, əmdiyi süd olsun.
87. Kişinin əvvəli gətirincə, axırı gətirsə yaxşıdı.
88. Kişiyə hörmət eliyirsənsə, onun çörəyini kəs.
89. Kor kimdi? – Nabələd.
90. Koroğlu deyib: Qırx il oğurlux etdim, bir dənə haram tikə yemədim.
91. Küçük qulağını kəsəndən qorxar.
92. Qaçan da Allah deyir, qovan da.
93. Qaçan da Allahı çağırır, qovan da.
94. Qanana çibin sazdı, qanmıyana nağara-zurna da azdı.
95. Qardaş yaxşı olsa, Allah da özünə bir qardaş yaradardı.
96. Qıyannan bir çıxar, qıymazdan cüt çıxar.
97. Qız yetişdi, ya ərdə, ya gorda.
98. Qızı itə versən, dinən aldatdım.
99. Qızı keçala verginən, pulu mala.
100. Qızıldan taxtın olunca, quruca baxtın olsun.
101. Qızını döymüyən dizini döyər.
102. Qonşu qonşuya baxar, özünü oda yaxar.
103. Qonşum qonşu olsa, kor qızı ərə verərəm.
104. Qonşunu iki inəkli istə, sən də bir inəkli olasan.
105. Qurban olum o qonşuya, yumurtama duz səpə.
106. Qurd qojalanda şeyinə kəpənək yığılar.

107. Quş qənədindən kirə istəməz.
108. Mal almamış tolasıın tikdirir.
109. Malı olmuyanın imanı yoxdu.
110. Mərd taxsırı Allahda görər, namərd yoldaşda.
111. Min yeyənin olsun, bir deyənin olmasın.
112. Molanın qarnı beşdi, biri həmişə boşdu.
113. Nə fala inanma, nə faldan qalma.
114. Nəkqədər varlı olasan, qaraçıya yenə işin düşər. Ələyi qaraçı düzəldir.
115. Nənəm mənə kor deyib, gəlib-gedəni vur deyib.
116. Oxumuyan adama qəzet həmişə təzədi.
117. Ölünü öz xoşuna qoysan kəfəni yırtıb çıxar.
118. Osturanın qabağına s..masan, deyər g..ü yoxdu.
119. Öy buzoyunnan öküz olmaz.
120. Özü düşən ağlamaz.
121. Özü özünə eliyənə el yığılsa, eliyəmməz.
122. Özgəni yox istəyən, özü var olmaz.
123. Paltara yamaq var, qarına yamaq yoxdu.
124. Peyinə baxanda təzək kişidi.
125. Sakqızı çeyniyib qutarıb, indi də qırıın çeyniyir.
126. Sən osturmadın, mən yıxılmadım.
127. Süddü qoyun sürüdən çıxmaz.
128. Söz sözü gətirər, arşın bezi gətirər.
129. Tazının qaşmağı var, dovşanın Allahı var.
130. Təkəsi özündən olanın qoyunu qısır qalmaz.
131. Şah (bəy) verən atın dişinə baxmazlar.
132. Şələ lələni basır, yoxsa lələ şələni.
133. Var-dövlət gələndə türklə gəlir, gedəndə zincirlə də saxlamax olmur.
134. Vay vayı gətirər, pay payı.
135. Yağış yağanda kəsək daşın gününə ağlayar.
136. Yalançının yaddaşı olmaz.
137. Yalquzaq tək qalanda başına çakqal-çukqal yığar.
138. Yarımçıx həkimdən, elimsiz moladan kənar qaç.
139. Yemə namərd aşını, yandırar ürəyinin başını.
140. Yidin dadındı, verdin adını, saxladın yadındı.
141. Yiyən mal kök olar.
142. Yoldaşnan yol gedəndə işəsən, yoldaşdan dala qalarsan, sışsan, evin yıxılar.
143. Yolnan gedən yorulmaz.
144. Yüz ilin ölüsündən bir günün dirisi yaxşıdı.

145. Zaman öldü, saman öldü.

## TƏMSİLVARİ MƏTNLƏR

1. Çox baha deyirdi evini. Deyir: «Dəyməz axı sənin öyün u qiymətə». Deyir ki, bəs yaxşı qonşum var axı. Dedi: «Hə, bax una bərəkallah». Yaxşı qonşu da yaxşı şeydi.

2. İt deyir: «Ay allah, yiyəmin yeddi oğlu olsun, hamısı qazanc gətirsin, məə bir belə əppək versin». Pişik deyir: «Allah, yiyəmin yeddi qızı olsun, gözləri kor olsun, əlindən alım yiyim». İt, deyir, görürsən ağzını göyə tutur uluyur. O deyir: «Allah göydən bəla verməsin». İt heylə şeydi.

3. Pişik deyir: Yiyəmin yeddi qızı olsun, gözləri kor olsun, əlinə əppək versinnər, oları da dartıb mən yiyim. Sonra deyir ki, olar məə yemək verəndə pismillah eləmirlər, gözümü yumub yiyirəm. Deyirəm Allah məni kor eləsin, əyəm yemişəmsə. Onçan da gözü kor olur. Amma elə ki, pismillah eliyəndə bu yannan pişik deyir ki, gözüm kor olsun əgər yimişəmsə. Pismillah deyir ki, niyə heylə deyirsən, mən orda olmuşam. O adam sənə çörək verəndə pismillah deyib. O dünyada sorğu-sual eliyəndə deyir.

4. Ana leylək balasına deyir: «Gəl burdan köçək özümüzə yeni yuva qurax». Balası deyir: «Ana, quyruğunun altındakı da biznən gedəjək?» Deyir: «Hə». Deyir: «Onda getməyin adı yoxdu. Onsuz oranı da poxluyajaxsan».

5. Deyir mən sənin vaxtında gəlsəm dul arvaddarın əlin un çuvalında donuzduraram, bir quyrux buluyan qoymaram. Hayıb ki, səndən sonra gəlirəm. Sən gələn vaxt gəlsəm belə eliyərəm. Amma mən gələndə həm gün uzanır, həm də yaza tərəf gedir. Ömrüm də gödəkdi.

6. Kiçik çilə böyük çiləyə deyir ki, səən yerə mən olsam, beşikdəyiin beşikdə dondurardım, deşikdəyiin deşikdə. Nağarım, deyir, ömrüm az, qabağım yaz.

# UŞAQ FOLKLORU

1

Dınbılı, dınbılı, dınbılı qoz,
Biri ala, biri boz.
Mindim bozun boynuna,
Sürdüm Şirvan yoluna.
Şirvan yolu dərbədər,
İçində meymun gəzər.
– Ay meymun, hardan gəlirsən?
– Həsən bəyin evindən.
– Həsən bəyin nəyi var?
– Bir oğlu var, bir qızı.
Oğlu at güdəndi.
Qızı muncux düzəndi.

2

Əlimi pıçax kəsdi yar,
Dəstə pıçax kəsdi yar.
Yağ gətirin yağlıyax,
Dəsmal gətirin bağlıyax.
Dəsmal dəvə boynunda.
Dəvə Şirvan yolunda.
Şirvan yolu buz bağlar,
Dəstə-dəstə gül bağlar.
O gülün biriin üzeydim,
Saşlarıma düzeydim.
Qardaşımın toyunda
Sındıra-sındıra süzeydim.

3

A Tiflisə, Tiflisə,
Gəlin gedək ilbizə.
Tiflis yolu bağlıdı,
Anamın əli yağlıdı.
Anam qatıx çalanda,
Pişik başıın soxanda,
– A pişik, kimin pişiyisən?
– Hajıqulunun pişiyiyəm.
– Hajıqulunun nəyi var?
– Bir pota inəyi var.
Üş dənə fayton gəlir
Biri əmim qızında,
Biri dayım qızında,
Əmim qızınnan soruşdum
– Adın nədi?
– Tamara.
– Gəlin, gedək hamama.
Hamamın suyu sərindi.
Üç bacılar gəlindi.
Gəlinə bax, gəlinə.
Əlini qoyub belinə.
Gəlinə bir söz disəm,
Gedib deyər ərinə.
Əri minər maşına,
Sürər dağın başına.
Oğlannar əsgər gedər,
Kül qızların başına.

4

Aş, axşama bozbaş,
Dal qapıdan girməlisən,
Müdirə salam verməlisən,
Ka-ran-daş
Götür özünə bir yol-daş.

5

Oturmuşdum divanda,
Qarmonum da yanımda.
Birdən qapı döyüldü,
Elə bildim atamdı.
Aşdım gördüm canavar.
Canavara bir təpik,
Getdi girdi divara.
Divardan bir qurt çıxdı,

Adını qoydum Tamara.
Tam, tam, tam qızı,
Erməni saldat qızı.
Tamaranı aldatdılar,
Beş qəpiyə satdılar.

6

Bir, iki üş, dört, beş
Altı, yeddi, səkkiz, dokquz, on
Arabaya qon.
Arabanın təkəri,
İstanbulun şəkəri.
Hap, hop, hup
Bunnan başqa oyun yox.

7

Ekili, bekili bilmirəm,
Laləni dindirmirəm,
Lalə yaman loğadı,
Yedikləri doğadı.
Qızıl dişim laxladı,
Verdim anam saxladı.
Anama qurban olum,
Məni qonax saxladı.

8

Naxır gəlir dörd əllə,
Bir əlində pəpəsi,
Bir əlində kökəsi.
Əlimi vurdum böyük qızın sinəsinə,
Balaca qız dad elədi.
Getdi dedi nənəsinə,
Nənəsi bir daş vurdu sinəsinə.
Sinəsini tuta-tuta getdi bəyin yanına.
Bəy dedi: Avara qızı, gəlmə mənim yanıma,
Atımı bağlamışam dəmir çayın qırağına
*(Söyləyici sicilləmənin arxasını unudub).*

9

A quda, quda, can quda,
Canım, ciyarım quda.
Yengə var olsun, quda,
Bir cüt nar olsun, quda.
Azar azara gedər,
Oğlan bazara gedər.
O yanda toplar atılır,
Bu yanda xələtdər satılır.
Alan varsa, alana,
Talan varsa, talana.
Nazpərini istəmirəm,
Qızpərini ver, gedək.

10

Üşüdüm, a üşüdüm,
Dağdan alma düşüdüm.
Almanı yidilər,
Məə zulum verdilər.
Mən zulumdan bezərəm,
Özümə dərin quyu qazaram.
Dərin quyu beş keçi,
Hanı bunun heşkeşi.
Heşkeş qazanda qaynar,
Qəmbər yanında oynar.
Qəmbər getdi oduna,
Qarğı batdı buduna.
Qarğı döylü qamışdı,
Beş barmağım gümüşdü.
Gümüşü verdim tata,
Tat məə darı verdi.
Darını verdim quşa,
Quş məə qənət verdi.
Qəntdəndim uşmağa,

Hak qapısın aşmağa.
Qapıçı qapı toxuyur,
İçində bülbül oxuyur.
Məndən kiçik qardaşım,
Allahın kəlamının oxuyur.

11

İynə ilim,
Çitmə kilim,
Yeddi ilim,
Səhər səkkiz,
Cuna dokquz.
Qaranquş,
Mən gələndə
Sən qapını aç, qaç.

12

İkisi bir öydə
Zalxa dalaşdı
Zibeydə qaşdı.
Təndirə düşdü,
Qırmızı bişdi.

13

Motal-motal,
Dərisi motal,
İllər atar,
Qaymaq qatar,
Hajı oğlu
Mustafa bəy,
Vur nağara,
Çıx qırağa.

14

Dappıdıbıdım toy gəlir,
Mələk gildən toy gəlir.
Mələyi zümbürdülər,
Samanlıxda sürüdülər,
Samanlıxda qaynamış,
Soyux suynan çimizdirdilər.

# BAYATILAR

1
Oğlan adın Həmiddi,
Dağlara gün dəyibdi.
Sən verən qızıl üzük,
Hindidən qəfləyibdi.

2
Oğlan, adın Mürşüddü,
Dağlara gün düşübdü.
Sən verən qızıl üzük,
Barmağımdan düşübdü.

3
Təndir düşüb ilməyə,
Bu sözü nə var bilməyə.
Şiralı sakqal qoydurub,
Nobatı görməyə.

4
Məktub səni ad eylərəm,
Poşta əmanət eylərəm.
Gedib yara çatmasan,
Bil ki qiyamət eylərəm.

5
Əzizim, simi-simi,
Doldur ver simi-simi.
Mənə öz balam lazımdı,
Neynirəm özgəsini.

6
Mixəy əkdim ləyəndə,
Muxəy boynun əyəndə.
On iki qurban deyərdim.
Oğlum, sən gələndə.

7
Əzizinəm, hər aylar,
Hər həftələr, hər aylar.
Başım cəllad əlində.
Dilim səni haraylar.

8
Sənə dağlar,
Gün düşə sənə dağlar.
Tutaydım dost-əqrəba əlindən,
Çıxaydım sənə dağlar.

9
Sana meylim,
Düşübdü sana meylim.
Mən dönsəm üzüm dönsün,
Sən ki döndün getdin, ay bala, sana neylim.

10
Mən aşıq, dağda nə var,
Şeh düşmüş dağda nə var.
Nə gəzirsən, a divanə könül,
Leylisiz, Məcnunsuz dağda nə var.

11
Paşa dağlar,
Veribdi baş-başa dağlar.
Sən ki bizə zulum eylədin,
Səni dönəsən daşa, dağlar.

12
Əzizim, qazan ağlar,
Od yanar, qazan ağlar.
Bel batmır, külüng kəsmir,
Qəbrimi qazan ağlar.

13
Əzizim, neyniyim,
Bu dərdə dözüm, neyniyim.
Ax çəksəm aləm yanar,
Çəkmirəm özüm, neynim.

14
Əzizinəm, qalasız,
Şəhər olmaz qalasız.
Biz ki köçəri olduq,
Siz sağlıxla qalasız.

15
Qardaş mənim gülümdü,
Gülümdü, bülbülümdü.
Hər dərdə dözmək olar,
Qardaş ölmü zülümdü.

16
Qardaş demə, qan olar,
Yel əsər, tufan olar.
Qardaşlar gedən yola,
Bacılar qurban olar.

17
Haray, ellilər haray,
Əli sellilər haray.
Dəhnəni sel aparır,
Əli bellilər haray.

18
Haray, elli neyləsin,
Əli belli neynəsin.
Binamız başdan uçub,
Əli belli neynəsin.

19
Balam attı getsin,
Qollu qanattı getsin.
Balam böyüsün,
Əsgərə attı getsin.

20
Gəldi, haradan gəldi,
Göydən, qaradan gəldi.
Göydə bulud yox idi,
Bu sel haradan gəldi?

21
Gəl gedək, dağa qardaş,
Qar yağa-yağa, qardaş.
Sən çiskin ol, mən duman,
Çəkilək dağa qardaş.

22
Aşıx, başına bağlar,
Şalın başına bağlar.
Bülbül ölüb, gül solub,
Kül, başına bağlar.

23
Bağları üzdüm gəldim,
Qumunu süzdüm gəldim.
Səni bivəfa gördüm,
Əlimi üzdüm gəldim.

24
Dağlar başı zağ-zağ əsər,
Dolduxca zağ-zağ əsər.
Hər sən yadıma düşəndə,
Ürəyimin başı zağ-zağ əsər.

25
Qapıda durmaxdan öldüm,
Boynumu burmaxdan öldüm.
Ayağımı şaxta kəsdi,
Götürüb qoymaxdan öldüm.

26
Gəl məni qurdalama,
İri kəs, xırdalama.
Özüm bir qaynar qazanam,
Kösöylərimi qurdalama.

27
Yarın əsməsin allam,
Sulardan səsin allam.
Namaz qıldığı yerdə,
Axça kisəsin allam.

28
Papirosun eşqindəyəm,
Od düşüb, eşqindəyəm.
El bilir aləm bilir,
Mən sənin eşqindəyəm.

29
Əl çalar, ay, əl çalar,
Qırmızı çalar alçalar.
Meyidimi gendən aparın,
Düşmən görər, əl çalar.

30
Ay oğlan, haralısan?
Sən Gəncə maralısan.
Sənsiz səbrim tutmur,
Səbrimin qəralısan.

31
Bağa girdim üzümə,
Tikan batdı dizimə.
Əyildim çıxartmağa,
Sən göründün gözümə.

32
İynənin sarı sapı,
O görünən bizim qapı.
Məni səndən ayıran,
Dilənsin qapı-qapı.

33
Su gələr axmaz ilən,
Qayalar yurtmaz ilən.
İstəkli yardan doymax olmaz,
Bir dəfə baxmax ilən.

34
Xiyallar, ay xiyallar,
Ələ gəlməz xiyallar.
Yar səni öldürərlər,
Məni mağmın qoyallar.

35
Çaytikanam, barsızam,
Qaratikanam, yarsızam.
Altı ildi öydən çıxdım,
Yeddi aydı yarsızam.

36
Ay oğlan, Pirəzəli,
Göz güldən təzə.
Səni qoyub gedərəm,
Öyün qalar məzə.

37
Papirosum yana-yana,
O düşüb şirin cana.
Səni qoyub gedərəm,
Qalarsan yana-yana.

38
Aşığam, sən gələnə,
Sən ənt verirəm sən gələnə.
Azreyilə can vermərəm,
Saxlaram sən gələnə.

39
Maral durduğu yerdə,
Boynun burduğu yerdə.
Ovçu qolun sınsın,
Maral vurduğun yerdə.

40
Anlar, yanar ağlar,
Gününü sanar ağlar.
Dönər göy göyərçinə,
Putaxlara qonar ağlar.

41
Aşığam, üz görən yerə,
Salxımı düzüm yerə.
Elə götürün, elə qoyun,
Dəyməsin üzüm yerə.

42
Aşığam, buda məni,
Xançala, buda məni.
Elə günə qalmışam,
Bəyənmir bu da məni.

43
Dağlar, a dağlar,
Əsibdi yaman dağlar.
Məni qoyub gedibdi,
Qalmışam gözü yaşdı, dağlar.

44
Şaxtikanam, qalxaram,
Qızılgüldən qorxaram.
Bilsəm qardaş gəlir,
Xəstə olsam, qalxaram.

45
Bisseydim ağlamazdım,
Ağa göy bağlamazdım.
Bisseydim vəfasız olduğu,
Sana bel bağlamazdım.

46
Bostanda tağım ağlar,
Basma, yarpağım ağlar.
Ölüncə özüm ağlaram,
Ölsəm, torpağım ağlar.

47
Gedirdim qıraxnan,
Bir dəstə yaraxnan.
Axtarıram tapmıram,
Gəzirəm sonraxnan.

48
Qardaş deyim adına,
Allah çatsın dadına.
Məktubu yazanda,
Bajını da sal yadına.

49
Aşıx, su deyib ağlar,
Bülbül su deyib ağlar.
Dəryada bir gül bitibdi.
O da su deyib ağlar.

50
Aman fələk, dad fələk,
Olma səni şad fələk.
Mən işdiyim zəhərdən,
Bir az özün dad fələk.

51
Bayrama bayram dimərəm,
Bayram aşınnan yimərəm.
Qardaş gəlib bayramda mənnən görüşməsə,
O bayrama bayram dimərəm.

52
Vurubdu aylar məni,
Həftələr, aylar məni.
Yüküm qurğuşun yükü,
Əyibdi taylar məni.

53
Bu dərədən yol düşdü,
Putax sındı, qol düşdü.
Qəbrimi yol üstdən qazın,
Bəlkə qardaş yolu düşdü.

54
Kişmiş kimidi,
Ciblərə düşmüş kimidi.
Qardaşı ölən bacılar,
Gözdən düşmüş kimidi.

55
Qoy mən özüm ağlıyım,
Dərdə dözüm ağlıyım.
Nə gözüm səni görsün,
Səni deyim ağlıyım.

56
Başda xiyal olarmı?
Yemiş kal olarmı?
Qardaşı ölən bajının,
Dili lal olarmı?

57
Ay doğdu, laxtalandı,
Doğduxca laxtalandı.
Xəbər verin elimə, günümə
Qəbrim üstü taxtalandı.

58
Ay doğdu peşman-peşman,
Gün oldu ona düşman.
Elə ağlıyıb, elə kiriginən,
Nə dost bilsin, nə düşman.

59
Mən aşıx, o güneylər,
Şeh düşər, o güneylər.
Desələr qardaşın gəlib,
Bayramıın o gün eylər.

60
Ojağa buz bağlaram,
Kösöylərin düz qalaram.
Qardaş yadıma düşəndə,
Yıxılmağa az qalaram.
61
Yetiməm yetən yerdə,
Gül əkdim bitən yerdə.
Gülümə şahmar dadandı,
Hasilə yetən yerdə.
62
Baxçalar, barıncılar,
Heyvalar, narıncılar.
Qardaş gələn yolları,
Basıbdı barıncılar.
63
Bənövşəyəm, bitərəm,
Kol dibində itərəm.
Desələr qardaş gəlir,
Boynu əyri bitərəm.
64
Mən aşıx, öz aramda,
Yazılmış öz aramda.
Bir pənahlı sözüm var,
Sənnən gəl öz aramda.
65
Baxça məndə, bar məndə,
Heyva məndə, nar məndə.
Könlüm dərddər dükanıdı,
Hər nə desən var məndə.
66
Mən aşıx, sənə dağlar,
Sən ətim sənə dağlar.
Qardaşım səndə yaşıyır,
Səni yüz yaşa, dağlar.
67
Bənövşəyəm qalxaram,
Qızıl güldən qorxaram.
Desələr sən gəlirsən,
Xəstə olsam qalxaram.
68
Gəl oturginən yanımda,
Dərdim çoxdu canımda.
Birini sən deynən, birini mən,
Dərd qalmasın canımda.
69
Bağda gəzən mənəm,
Əhdim var bəzənmərəm.
Ürəyim vərəmlidi,
Bu dərdə dözəmmərəm.
70
Qoyun gəlir quzusuynan,
Ayağının tozuynan.
Sən getdin, gəlmədin,
Anan ağlar qızıynan.
71
Qarağan qalın oldu,
Ayağım yalın oldu.
Fələyə çox yalvardım gözüm yoldadı,
Əzrayıl zalım oldu.
72
Oba köşdü, binə qaldı,
Məhəmməd dinə qaldı.
Mənim sənnən görüşməyim,
Qiyamət günə qaldı.
73
Biçini biçdim oraxla,
Bir dəstə daraxla.
Neçə ildi səni,
Gəzirəm sonraxla.
74
. ..............Əkin-əkin,
Aldılar əlimdəkin.
Arzu eləmirəm, heş bir ana-bajı
Ağlasın mənim təkin.

75
Su içində fanaram,
Əl vurmayın yanaram.
Qaş atdan göz oynatma,
Mən him qanaram.
76
Burda yaralı çoxdu,
Göylu qaralı çoxdu.
Bostanını dolu döymüş,
Tağı yaralı çoxdu.
77
Sən mənim gərəyimsən,
İncimsən, gərəyimsən.
Gəl bu gündə harayıma,
Gör, mənim gərəyimsən.
78
Əzizim, gül inciməz,
Şeh düşsə, gül inciməz.
Sənin bir kəlmə sözünnən,
Heş bir qəlb inciməz,
79
Su qırağı sarımsax,
Kətan göynək, canım sağ.
Analar qız bəsləyir,
Aparır hər qurumsax.
80
Hatafa bizim oleydi,
Lüləyi qızıl oleydi.
Oleydim sənnən bir otaxda,
Gecələr uzun oleydi.
81
Təbriz üstü Marağa,
Telin gəlməz darağa.
Bir balaca yer tutdum,
Göndərdilər irağa.
82
Ay doğdu bircə barmax,
Sinəmə keşdi qarmax.
Eləsinə gedərəm,
Sənə qalar yalvarmax.
83
Su ilanı oleydim,
Şüşələrə doleydim.
Yarım evə gələndə,
Evdə yalqız oleydim.
84
Sənə fələk eylədi,
Oxu lələk eylədi.
Girdi güllü bağıma,
Ələk-vələk eylədi.
85
Ürəyimdə yara var,
Üstə xal-xal qara var.
Aç kürəyimin başıın, ay oğlu,
Gör yanmamış hara var.
86
Əzizim, gülə-gülə,
Gül əkdim gülə-gülə.
Mənim evimi yıxdılar,
Üzümə gülə-gülə.
87
Bu arxı kim qazıbdı,
İçinə dilbər yazıbdı.
Dilbərin oğlu ölsun,
Məni pisə yazıbdı.
88
Qolbağım qolundadı,
Gözüm yar yolundadı.
Dünən yola salmışam,
Bu gün gözüm yoldadı.
89
Ay doğdu, laxtalandı,
Doğduxca laxtalandı.
Yuxarıdan bir yel əsdi,
Qapılar taxtalandı.

90
Ay doğdu, yerə düşdü,
Doğduxca üzə düşdü.
Sən getdin, mən ağladım,
Ayrılıx bizə düşdü.

91
Nanəni doğradılar,
Yaylığa bağladılar.
Mən səni istəmirdim,
Boynuma bağladılar.

92
Zirzəmi ay dərində,
Yerin salın dərində.
Bir dəstə gül oleydim,
İstəkli yar əlində.

93
Bu yol Abada gedər,
Axar, Cavada gedər.
Uçub könlümün quşu,
Gör nə havada gedər.

94
Huşdurmaz, ay huşdurmaz,
Pəncərədə quş durmaz.
Hamının yarı dinc dursa,
Mənim yarım dinc durmaz.

95
Əzizinəm, sizə gəlləm,
Enişi enib sizə gəlləm.
On il qazamat çəksəm,
Qutarsam, sizə gəlləm.

96
Əzizinəm, balabanı,
Asta çal balabanı.
Hamının balası gəldi,
Bəs mənim balam hanı?

97
Yaylığın gülü yansın,
Od tutusun gülü yansın.
Səni məndən eliyənin,
Ağzında dili yansın.

98
Dağlarda maral gəzər,
Tellərin darar gəzər.
Bala, mən sizə neynədim,
Siz məndən kənar gəzər.

99
Bu dağlar sənə dağlar,
Baxdıxca sənə dağlar.
Tutaydım balalarımın qolunnan,
Gəzəydim səni dağlar.

100
Taxılım vağam oldu,
Pişmədim, vağam oldu.
Fələk bir iş işlədi,
Nökərim ağam oldu.

101
Dağları gəzdim gəldim,
Qumunu süzdüm gəldim.
Oğulu bevəfa görüb,
Əlimi üzdüm gəldim.

102
Nazlı yarım ağlama,
Qoltuğunda bağlama.
Gedərəm, gej gələrəm,
Düşmənə bel bağlama.

103
İndi gəldim olardan,
Ətəyi dolu narnan.
Yarımın yarı ölsün,
Qutarım intizardan.

104
Boxçanı biçən ölsün,
Biçib tikən ölsün.
Mən sənə göz dikmişəm,
Sənə göz dikən ölsün.

105
Bu dərənin uzunu,
Çoban qaytar quzunu.
Almışam bəy qızını,
Çəkəmmirəm nazını.

106
Kür qırağı sərindi,
Oğlan girmə, dərindi.
Oğlanı dərdə salan,
Bir ala göz gəlindi.

107
Qoyun gəlir quzu ilə,
Ayağının tozu ilə.
Qardaş məni yad eylər,
Yad qızının sözü ilə.

108
Mən aşıq o gün eylər,
Dərd ürəyi dügün eylər.
İki həsrət qovuşsa,
Bayramın o gün eylər.

109
Bağa girişim budu,
Gülü dərişim budu.
Əyil, üzündən öpüm,
Axır görüşüm budu.

110
Halay başı mən ollam,
Üzük qaşı mən ollam.
Qardaşımın toyunda,
Qarabaşı mən ollam.

111
A qızlar, mama qızlar,
Yığılın dama qızlar.
Nişannımız gəlibdi,
Qalın sabaha qızlar.

112
Haçar haçar üstündə,
Qızıl haçar üstündə.
Mən bir oğlan görmüşəm,
Qəflitelin üstündə.

113
Sarı yaylıx butası,
Güllü gəbə ortası.
Yara vədə vermişəm,
Gələn bazar ertəsi.

114
Bu dərədən keçən beş atdı,
Beşi də mənə daş atdı.
Mən yarımı tanıyıram,
Qabaxdakı boz atdı.

115
Qarabağda bağ olmaz,
Qara salxım ağ olmaz.
Oğlu əsğərə gedənin ,
Ürəyində yağ olmaz.

116
Mən aşığam, bu gün eylər,
Xalın gəl bu gün eylər.
Gün-günnən dalaşar,
Düşmanın bu gün eylər.

117
Bu bağda badam olmaz,
Əkməsəm badam olmaz.
Gəlirsən özün gəl,
Şəkildən adam olmaz.

118
Oğlan, adın Alıdı,
Boyun qarğıdalıdı.
Verdiyin üzük,
Barmağımın bağıdı.

119
Oğlan, adın Cümşüddü,
Dağlara gün düşübdü.
Verdiyin qızıl üzük,
Barmağımdan düşübdü.

120
Oğlan, adın Şirin, gəl,
Yaxın suya bürün gəl.
Adını oğlan qoymusan,
Çəpər atdan sürün gəl.
121
Oğlan, adın Məhəmməd,
Qaşın arası cənnət.
Sevsən, ala bilməsən,
Cəbbəcəddinə nəhlət.
122
Baxça bara bağlıdı,
Heyva nara bağlıdı.
Sağ olsun qohum-qardaş,
Qəlbim yara bağlıdı.
123
Su gəlir, arxa nə var,
Tökülür, çarxa nə var.
Məndən öz yarım küsübdü,
Bilmirəm xalxa nə var.
124
Mancılıq quruldu,
Dibində su duruldu.
Hamının yarı gəldi,
Mənim boynum qırıldı.
125
Mancılıx sarı çəkər,
Ah çəkər, sarı çəkər.
Tutar gümüş kəmərdən,
Özünə sarı çəkər.
126
Mancılıx burma-burma,
Əllərim sarı xurma.
Hər nə alsan məndən al,
Bu il mancılıq qurma.
127
Sayada bax, sayada,
Torun qurub qayada.
Toruna tərlan düşmüş,
Kimsə yoxdu oyada.
128
Qəriblik yaman olar,
Saralıb saman olar.
Qəribliyi mən gördüm,
Sən görsən yaman olar.
129
Su gəlir lilə-lilə,
Yar gəlir gülə-gülə.
Əlində ipək dəsmal,
Tərin silə-silə.
130
Su üzündə milçəyəm,
Əl vurma kirimçiyəm.
Aləmə çirkin olsam,
Öz yarıma göyçəyəm.
131
Su gəlir pəri-pəri,
Qapıların qoşa nəri.
Gələrdim yar yanına,
Çıxardım tərli-tərli.
132
Çarlisdonum oymadı,
Gözlərim səndən doymadı.
Gəlirdim yar yanına,
Zalım anam qoymadı.
133
Çarlisdonum boynuna,
Geyin gedək toyuna.
Sən ki məni sevirsən,
Gəl çıx şəhərin yoluna.
134
Dərya boy verərmi,
Boylasam boy verərmi?
Çıxsam bir hündürə,
Çağırsam hay verərmi?

135
Bağlar səni aşaram,
Zaman gəlsə çaşaram.
Elə bir qaynar qazanam,
Odunu az qoy, daşaram.
136
Qardaşıyam, qardaşı,
Get Qara dağdan qar daşı.
Allaha xoş gedə,
Bajılar görsə qardaşı.
137
Mən aşıx, ellər ayrısı,
Bülbül güllər ayrısı.
Bir günə dözmək olmazdı,
Düşdük illər ayrısı.
138
Gedərmi ölkə səndən,
Qorxuram yol kəsəndən.
Baş götürüb gedərəm,
Xaraba ölkə səndən.
139
Qardaş kişmiş kimidi,
Ciblərə düşmüş kimidi.
Qardaşsız bajı gördüm,
Gözdən düşmüş kimidi.
140
Göydə gedən quşa bax,
Dırnağında daşa bax.
Məktub yazıb göndərirəm,
Üstündə qannı yaşa bax.
141
Dağların ağ alması,
Yiməyə var alması.
Vurar məhşərə gedər,
Yaranın sağalmazı.
142
Əzizinəm, bir də, bir də,
Nə durmusan bu səbirdə.
Öləndə cüt öləydik,
Olaydıx bir qəbirdə.
143
Əzizinəm, qalasan,
Bir çay keşdim qalasan.
Mən ki gedəri oldum,
Sən sağlıxla qalasan.
144
Əzizinəm, qala yerdə,
Şəhər olmaz qala yerdə.
Qorxuram cavan öləm,
Yar istəklim qala yerdə.
145
Dərd məni dəng eylər,
Vurar başa, dəng eylər.
Nə öldürməz, nə diriltməz,
Saraldıb xəzan eylər.
146
Ay oğlan necə gəldin
Qarannıx gecə gəldin
Sən gələn şəhər dağılsın
Fənərsiz necə gəldin?
147
Mənim yarım qonaxdı
Yediyi qayğanaxdı
Gedəndə küsdürmüşəm
Gələndə beydamaxdı.
148
Yarın ləhcəsin allam
Sulardan səsin allam
Namaz qıldığı yerdə
Axça kisəsin allam.
149
Yar gedəndə yanaram
On beş günü sanaram
Gedəndə küsdürmüşəm
Gələndə qarşılaram.

## AĞI
### *(Məhəmməd peyğəmbərin dünyasını dəyişərkən öz əsabələrinə dediyi ağı)*

Mən köç eylədim dünyadan,
Əsabələr sizə olsun əlvida.
Bizə gəl-gəl oldu mövladan,
Əhli-beytim, sizə olsun əlvida.

Cinazanın sağ yanında oturun,
Qaralar bağlıyıb ehmal götürün,
Hümmətlərimə salamımı yetirin,
Hümmətlərim, sizə olsun əlvida.

Bilalı çağırın yanıma,
Yükümü yüklədim, mindim atıma,
Halalım Ayişə, qızım Fatimə,
Əsabalar, sizə olsun əlvida.

Bilalı çağırın həm məni görsün,
Əli yusun, Xəzri suyumu töksün,
Əbubəkir namazımı qılsın,
Əhl-beytim sizə olsun əlvida.

Bunu deyib yaşlar gəldi gözünə,
Bir xəzan düşdü xalxın üzünə,
Həsən-Hüseyni aldı dizinə,
Quzularım, sizə olsun əlvida.

Qiyamat günündə məhşər yerində,
Yaşıl libasıyla gəlir Fatimə,
Sağında Ayişədi, solunda Havva,
Yaşıl libasıyla gəlir Fatimə.

Yedikləri arpa, darı tanası,
Ahabadullah olub onun babası,
Budur gəlir Həsən-Hüseynin anası,
Yaşıl libasıyla gəlir Fatimə.

Yeddi qat göylərdən enir mələklər,
Yer altında hasil olur diləkələr,
Müslümlər, müşküflər yolunu gözlər,
Yaşıl libasıyla gəlir Fatimə.

Bu saat qiyamat olajax,
Kimlər nə etmişsə onda biləjək,
................................................
Yaşıl libasıyla gəlir Fatimə.

# DİALEKTOLOJİ SÖZLÜK

ağnağazı – çalma, baş örtüyü
ayvaz – əvəz
babal – günah
borzaltmax – tüklərini qabartmaq
burğan – burulğan
carlamax – suya çəkmək
ciji – nənə
cılğı – tam, başdan ayağa
çezmək – ölmək
çokkaşdırmax – oğullamaq, çırpışdırmaq
dəbərmək – tərpənmək
dəng eləmək – baş ağrıtmaq
dilo – rəf
dingə – adamların toplaşdığı yer
dinşəmək – qulaq asmaq
doqqaz – darvaza
eydirmək – sağmaq
eymənmək – qorxmaq
əhtac – ləvazimat
ərəsət – fəlakət
ətcən – çılpaq, tüksüz
gəyişmək – məsləhətləşmək
girli – güclü, qüvvətli
girləmək – başını saxlamaq
girəvə – fürsət
girəvələmək – fürsət eləmək
gorda – bıçaqdan böyük xəncərdən kiçik silah növü
göy – yeznə
göyüs gəlmək – əllərini sinəsinə çarpazlaşdırmaq
güyüm – səhəngin bir növü
havadar – tərəfdar
hənirti – səs
höcətdəşmək – mübahisə eləmək
xıncır – donuz
ixtilat – söhbət
karlı – qazanclı
kirə – dərman
kirimək – susmaq
qatdaşmax –
qəməlti – bıçaq
qənşər – qarşı
qısırqalamax – xəsislik etmək
qurcalamax – eşmək
manşır – nişan, işarə
manşıllamax – işarələmək
mağmın – fağır
miçəfkən – yayda ağcaqanaddan qorunmaq üçün düzəldilən yer
millənər – dalğalanar
mığır-mığır – asta-asta
öht etmək– öhdələmək, kifayət etmək
pərsəng – dayaq, dirək
puf – çürük
püləmək – üfürmək
püşdə – künc
sovutmax – qada-bəlanı uzaqlaşdırmaq
sonutmax – büzüşüb durmaq
tağəyrət – təharət
tayallıx – aid
tasaddıx – sədəqə
tıraçax – çır-çırpı
tıxımax – yemək
ummənjyyə – gəlir, qazanc
üftə eliyir – bəs edir, öhdəliyir
vəngildəşmək – hürüşmək
vəsi – vəsiyyət
yalanqo – çır-çırpıdan düzəldilmiş alaçıq
yerə yortmax – yerə soxmaq

# MİFLƏR, ƏFSANƏ, RƏVAYƏT VƏ LƏTİFƏLƏRİN SÖYLƏYİCİLƏRİ

1. Abdullayev Şərif Əhməd oğlu, Şəmsabad kəndi. Söylədiyi mətnlər. Xıdır Nəbi (XXI mətn), Hacı Bulud baba (IV, XII mətnlər), Veys baba (I mətn), İsgəndər (III mətn)

2. Abdullayev Şirxan Məmmədəli oğlu, 72 yaş, otra təhsilli, prarav işləyib. Söylədiyi mətn: Xıdır Nəbi (XLVIII mətn)

3. Alışov Şəmil Baxış oğlu, II sinifi qurtarıb, 1935, Şıxlı kəndi, montyor işləyib. Söylədiyi mətnlər: İtin yaranması, Məhəmməd peyğəmbər (XI mətn), Əzrayıl (XII mətn), Şeytan (V mətn), Hacı İbrahim, Şıx Mahmud baba, Qərib baba, Hacı Hüseyn baba, Hacı Əhməd baba, Qara Seyid, Ovçu Pirim (II, III mətnlər), İsgəndər (VII, VIII mətnlər), Mal-qarasız həyət

4. Beydullayev Mikayıl, Şəmsabad kəndi. Söylədiyi mətnlər. Cin (VI mətn), Nuh (IV mətn), Xıdır Nəbi (III mətn)

5. Cabbarov Ərziman Əbdürrəhim oğlu, Şəkili kəndi, 1935, on illik təhsil. Söylədiyi mətnlər: Xıdır Nəbi (XXVIII, XXIX mətnlər)

6. Cəbiyeva Sevda Qəfər qızı, 1954, Şəkili kəndi, 10 illik təhsil. Gəncədə yüngül sənaye texnikomunu qutarıb, Şəki ipək zavodunda instruktor işləyib. Söylədiyi mətnlər: Naxış, Xıdır Nəbi (XXX, XXXI, XXXII mətnlər), Hacı Bulud baba (XXIX mətn), İsgəndər (VI mətn), İşlək arılar

7. Cəlilov Lətif Şiralı oğlu, 65 yaş. Söylədiyi mətnlər: Hacı Bulud baba (XXXIV mətn), Pıraxəlil baba (II mətn), Niftalı baba

8. Dadaşov Knyaz Qardaşəli oğlu, 1926, Padar kəndi. Söylədiyi mətnlər: Xıdır Nəbi (XIV, XV, XVI mətnlər), Hacı Bulud baba (XXVI mətn), Bəhlul Danəndə (IV mətn),

9. Dadaşov Soltan Əlixan oğlu, 1938, orta ixtisas təhsilli. Söylədiyi mətnlər: Bəhlul Danəndə (VIII mətn),

10. Dumanova Məsturə İlyas qızı, 60 yaş. Söylədiyi mətnlər: Xıdır Nəbi (XIV mətn), Tas qurma (IV mətn)

11. Ədilov Mustafa Süleyman oğlu, 1931, 7 illik təhsil, traktorçu. Söylədiyi mətnlər: Zümrüd quşu, Qurd haqqında, Davud peyğəmbər (I mətn), Suleyman peyğəmbər (VI, VII, X mətnlər), Xıdır Nəbi (XXIII mətn), Abadlı Hacı Abdulla, Nuşirəvan və bayquşlar

12. Əhmədov Əhmədiyyə Kərim oğlu, 1927, Ərəb kəndi. Söylədiyi mətnlər: Yaradılış mifləri (I mətn), Həzrət Əli (IV mətn), Xıdır Nəbi (XXXIII, XXXIV mətnlər), Həsən Kaşi, Əzrayıl (V mətn), Eyif baba, Surxay xan (II mətn), Şıxlıq almaq, Mehribançılıq (II mətn), Babək, Nəsimi və Molla Nəsrəddin, Zaman öldü, Aşıq samanlıqda, İnək oğrusu

13. Əhmədov Rəsul Məhərrəm oğlu, 7 illik təhsil, 67 yaş, Xosrov kəndi. Söylədiyi mətnlər: Hal (IX mətn), Xıdır Nəbi (XLIX), Əzrayıl (XIV mətn), Hacı Bulud baba (XXX, XXXI mətnlər), İki dost

14. Əli, Qarağan Şıxlar kəndi. Söylədiyi mətnlər. Şeytan (V mətn), Göydə küçük zingildəyir,

15. Əliyev Əlağa Əli oğlu, 1935, Pirəzə kəndi. Söylədiyi mətnlər: Dünya ağacı, İnsan nəsli, Xıdır Nəbi (XIX mətn), Əzrayıl (III, XV mətnlər), Şeytan (I mətn), İsgəndər (X mətn), İlan davası (II mətn), Molla Nəsrəddin (I mətn), Bəhlul Danəndə (III mətn)

16. Əfəndiyev Hikmət Rəsul oğlu, 1932, Şəmsabad kəndi. Söylədiyi mətnlər: Bəhlul Danəndə (II mətn)

17. Əsədov Kamran Cəbrayıl oğlu, 1930, 7 illik, Qoşasu kəndi, fəhlə işləyib. Söylədiyi mətnlər: Söhrab baba, Şəkili kəndi

18. Həbibova Səkinə İsmayıl qızı, 1920. Söylədiyi mətn: Quma basdırılmış səxs

19. Hüseynov Əsgər Sərkər oğlu, 1927, molla. Söylədiyi mətnlər: Hal (III mətn), Cin (V mətn), Əzrayıl (IV mətn), Veys baba (II mətn), Mikayıl əfəndi (II mətn), İsgəndər (I mətn), Tas qurma (II mətn)

20. Xəlilova Hafizə Niftalı qızı, 1932, 6 illik təhsil, kolxozçu. Söylədiyi mətn: Məhəmməd peyğəmbər (IX mətn)

21. Xəlilova Nübar Əbil qızı, pensiyaçı, kolxozçu. Söylədiyi mətnlər: Hal (XIII, XIV mətnlər), İnam (II mətn)

22. İbrahimxəlilov İbrahimxəlil Yaqub oğlu, 1930, 10 illik təhsil. Söylədiyi mətnlər: Suleyman peyğəmbər (VIII, XI mətnlər), İsgəndər (IV mətn)

23. İbrahimov Zahid Məhəmməd oğlu, 70 yaş, Azərbaycan dili və ədəbiyyatı müəllimi, Şəmsabad kəndi. Söylədiyi mətnlər: Xıdır Nəbi (XXII mətn), Həzrət Əli (III mətn), Hacı Bulud baba (IX mətn), Məhəmməd əfəndi

24. İbrahimova Bafta Ələkbər qızı, 72 yaş, 50-ci illərdə Ermənistanın Krasnıy rayonunun Ağbulaq kəndindən gəlib. Şəmsabad kəndi. Söylədiyi mətnlər: Hal (VIII mətn), Ocaq ilanı, Qəbirstanlıqda halva bişirmək (II mətn)

25. İsayev İsrail Əli oğlu, 1931, rus dili müəllimi. Söylədiyi mətnlər: Musa (I, VIII mətnlər)

26. İsmayılov Əhməd İsmayıl oğlu, 1939, briqadir işləyib. Söylədiyi mətn: «Halal, tutyə və haram»

27. İsmayılov Qurban Məsim oğlu, pensiyaçı, Tofiqi kəndi. Söylədiyi mətnlər: Cin (XXII mətn), Hacı Bulud baba (VI mətn), Məlikbalılı Hacı Abdulla (I mətn)

28. İsmayılov Sırac Nurəddin oğlu, 1923, Hüşün kəndi. Söylədiyi mətnlər: Yaradılış mifləri (II mətn), Hal (I mətn), Cin (IV mətn), Davud peyğəmbər (III mətn), Süleyman (I mətn), Musa (IV mətn), Xıdır Nəbi (X mətn), Hacı Bulud baba (I mətn), Surxay xan (I mətn)

29. İsmayılov Məmmədrəsul, 1939, natamam-ali təhsil, müəllim işləyib. Söylədiyi mətnlər: Çoxbilmiş alim

30. İsmayılova Səlmi İsmayıl qızı, 1944, tibb bacısı, orta təhsilli. Söylədiyi mətnlər: İsa peyğəmbər, Əzrayıl (VII mətn), Şeytan (IV mətn)

31. Kərimov Kərim İsaq oğlu, Əmirmahmud kəndi, 1928, 7 illik təhsil. Söylədiyi mətnlər: Şeytan (VI, VII, VIII mətnlər), Veys baba (IV mətn), Mustafa baba (II mətn), Qaraqovaqlıq, Tanrı borcu

32. Kərimova Bəstiqız Əhmədalı qızı, 1932, kolxozçu, Aral iki kəndi. Söylədiyi mətnlər: Cin (XVII mətn), Xıdır Nəbi (XXV), İnam (III mətn)

33. Qasımov Knyaz Nəbi oğlu, Şəkili kəndi, 1920, 7 illik təhsil. Söylədiyi mətnlər: Əzrayıl (X mətn)

34. Qədirov İlyas Məhəmməd oğlu, 1928, Hüşün kəndi. Söylədiyi mətn: Mikayıl əfəndi (I mətn)

35. Qədirova Şura Mahmud qızı, Ağdaş rayonu, orta təhsilli, 1930, mərsiyəçi. Söylədiyi mətnlər: Hal (XVI, XVII mətnlər)

36. Qəmbərov Əlbala Soltan oğlu, 1934, Ərəb kəndi. Söylədiyi mətnlər: Pıraxəlil baba (I mətn), Bəyin qəlyanına işıldaquş qoyan xosrolu

37. Qocayeva Kamilə Əlpaşa qızı, 1934, Hüşün kəndi. Söylədiyi mətnlər: Ay və Gün (I mətn), Dinlər necə yaranıb, Hal (XII mətn), Cin (XIV mətn), Əciq-Məciqlər (II mətn), Musa (II mətn), Xıdır Nəbi (XII mətn), Əzrayıl (XI mətn), İlan davası (I, III mətnlər), Molla Nəsrəddin (II, III, IV, VI mətnlər), Bəhlul Danəndə (V, VI mətnlər), Qəbiristanlıqda halva bişirmək (I, III mətnlər)

38. Qurbanov Sırac Cəfər oğlu, 1930, orta təsilli, Hüşün kəndi. Söylədiyi mətnlər: İsa peyğəmbər, Xıdır Nəbi (XLIII mətn), Nadir şah, Bəhlul Danəndə (I mətn)

39. Qurbanov Nurəddin. Söylədiyi mətnlər: Cin (XXIII, XXIV mətnlər), Pirkəkə (II mətn)

40. Gülnabat, Şəmsabad kəndi. Söylədiyi mətnlər: Qarağac piri (I mətn), Çələbilər piri (I mətn)

41. Knyaz, Hüşün kəndi. Söylədiyi mətn: Əzrayıl (I mətn)

42. Lətifov Yunus Uğurlu oğlu, 1925, usta, Kotavan kəndi. Söylədiyi mətnlər: Adəm haqqında (I mətn), Suleyman peyğəmbər (IX, XII mətnlər), Veys baba (V, VI mətnlər), Seyid Şahmərdan

43. Lətifova Çiçək Umar qızı, 1920, orta təhsilli, pensiyaçı, Şəmsabad kəndi. Söylədiyi mətnlər: Hal (XIV mətn), Cin (XIX mətn), Məhəmməd peyğəmbər (IV mətn), İbrahimxəlil peyğəmbər, Xıdır Nəbi (I mətn), Hacı Bulud baba (III mətn), Veys baba (III mətn), Yeddi qardaş (IV, V mətnlər), Sov Həmid baba

44. Maqsudov Bayram Ədil oğlu, Ərəbocağı kəndi, 1931, Bədən tərbiyyəsi institutunu qurtarıb. Polis işçisi. Söylədiyi mətn: Hacılı kəndi

45. Mamemdov Mirsaleh Saleh oğlu, 1918, Xosrov kəndi. Söylədiyi mətnlər: Xıdır Nəbi (XVII, XVIII mətnlər), Hacı Bulud baba (XXVII mətn), Tas qurma (III mətn)

46. Mamedova İfrat Qara qızı, 1932, Xosrov kəndi, 1950-ci ildə Ermənistandan gəlib. Söylədiyi mətnlər: Əzrayıl (VIII mətn), Tas qurma (V mətn)

47. Məhərrəmov Ağabala Məhəmməd oğlu, 1935, texnikomu qurtarıb, aqronom işləyib. Söylədiyi mətnlər: Ərəbocağı (I mətn), Heydər ölən dərə

48. Məhərrəmov Məmmədsəid Əli oğlu, 1928, kolxozçu, Dəhnəxəlil kəndi. Söylədiyi mətnlər: Möhsün, Adəm haqqında (II mətn), Kaftar, Xıdır Nəbi (XXVII mətn), Şeytan (IX mətn), Hacı Bulud baba (XXVIII mətn), Qonşunu iki inəkli istə, Mehribançılıq

49. Məhərrəmov Feyruz Məmmədsəid oğlu, orta təhsilli, 1964, suvarkaçı, Dəhnəxəlil kəndi. Söylədiyi mətnlər: İnsanın ömrü, Başqa övliyalar haqqında (I, II mətnlər)

50. Məhərrəmov Sırac Osman oğlu, 1930, 6 illik təhsil, Şəkili kəndi, tikintidə fəhlə, usta işləyib. Söylədiyi mətnlər: Qoyun niyə bərəkətlidir, Şeytan (X mətn), Tük sanı ömür, Çörəyə ehtiram, Tük qalmaz

51. Məhyəddin, Şəmsabad kəndi. Söylədiyi mətn. Yeddi qardaş (II mətn)

52. Məmmədov Ağasəf Camal oğlu, orta təhsilli, 1938. Söylədiyi mətnlər: Ömürdən pay

53. Məmmədov Sırac. Söylədiyi mətn. Şeytan (X mətn)

54. Məmmədov Muxtar, müəllim, Şəmsabad kəndi. Söylədiyi mətnlər: Cin (XXV mətn), Hacı Bulud baba (VII, XI, XIII, XIV, XV mətnlər), Yeddi qardaş (VI, VII, VIII, IX mətnlər), İsgəndər (II mətn), Surxay xan (V mətn)

55. Məmmədov Taleh Niman oğlu, 1982, Şəmsabad kəndi. Söylədiyi mətnlər: Cin (VII mətn), Məhəmməd peyğəmbər (X mətn), Musa (III mətn)

56. Məmmədova Şəfiqə, Şəmsabad kəndi. Söylədiyi mətnlər: Cin (XVI mətn), Xıdır Nəbi (VII mətn), Əzrayıl (VI mətn)

57. Mikayılova Fatimə İsmayıl qızı, 1937, Pirəzə. Söylədiyi mətn: Əzrayıl (IX mətn)

58. Mirzəyev Kamal Fərzalı oğlu, 1929, Hüşün kəndi. Söylədiyi mətnlər: Süleyman (II mətn), Xıdır Nəbi (XIII mətn), Surxay xan (IV mətn)

59. Musayev Kərim, Aral iki kəndi. Söylədiyi mətnlər. Cin (XVIII mətn), Xıdır Nəbi (XVI mətn), Qədir gecəsi, Tas qurma (I mətn), İlan tutan seyid, Müsəlləyə çıxmaq (III mətn)

60. Musayev Süleyman, Xosrov kəndi, Böyük vətən müharibəsi iştirakçısı. Söylədiyi mətnlər: Suleyman (I mətn), Hal (X mətn), Cin (IX mətn), Xıdır Nəbi (IV mətn), Hacı Bulud baba (XXIV mətn), Komurad (II mətn)

61. Nağıyev Vüqar Alqasım oğlu, 1973, Şəmsabad kəndi. Söylədiyi mətnlər: Davud peyğəmbər (II mətn)

62. Nağıyeva Afıqa Alı qızı, 1933, Şəmsabad kəndi. Söylədiyi mətnlər: Gül və bülbül (I mətn), Hal (II mətn), Cin (I mətn), Əciq-Məciqlər (I mətn), Məhəmməd peyğəmbər (II mətn), Nuh (III mətn), Yeddi qardaş (I, II mətnlər), Şişpər baba, Komurad (I mətn), Ağlamaq pisdir

63. Orucov Haqverdi Qara oğlu, Xosrov kəndi. 1950-ci ildə Göyçənin Ağzıbir kəndindən gəlmədir. Söylədiyi mətnlər: Nəmrud, Məşədi Mirismayıl ağa, Füzuli və kərpickəsən kişi, Tas qurma (V mətn), Molla Nəsrəddin (VIII mətn), Mat qalmışam, Küsəyən keçəl, At almamış axurunu tikir

64. Orucova Qərinə Ağakişi qızı, 1939, Ağzıbir kəndi. Söylədiyi mətnlər: Xıdır Nəbi (XLV, XLVI mətnlər)

65. Osmanov Dursun Əli oğlu, Bulaqotağı kəndi, 1935, naxırçı, mantyor, son zamanlar isə baxçada qarovulçu işləyib. Söylədiyi mətnlər: Cin (XX, XXI mətnlər), Məhəmməd peyğəmbər (V, VII, VIII mətnlər), Nuh (III mətn), Suleyman peyğəmbər (V mətn), Musa (VI, IX mətnlər), Xıdır Nəbi (XLI, XLII mətnlər), Həzrət Əli (I, II mətnlər), Əzrayıl (VIII mətn), Şeytan (III mətn), Hacı Bulud baba (V, XVI mətnlər), Hacı Sadıq Əfəndi (I, III mətnlər), Surxay xan (III mətn)

66. Rəfiyev Əhməd Məlik oğlu, 1927, Hüşün kəndi. Söylədiyi mətnlər: Cin (III, VIII, XV mətnlər), Suleyman peyğəmbər (IV mətn), Musa (VII mətn), Xıdır Nəbi (V mətn), Hacı Bulud baba (XVII, XVIII mətnlər), Xəlfə Kərim baba (I mətn), Surxay xan (VI mətn), Geneloji rəvayət, Kükəl və Hüşün kəndləri

67. Rəhimova Əsmi Əhməd qızı, 1934, Şəmsabad kəndi. Söylədiyi mətnlər: Xıdır Nəbi (IX mətn), Çələbilər piri (II mətn)

68. Sadıqova Alma Alı qızı, 1940, Şəmsabad kəndi. Söylədiyi mətnlər: Təpəgöz (I mətn), Yeddi qardaş (III mətn),

69. Sadıqova Uruzə Hidayət qızı, 1935, Tofiqi kəndi. Söylədiyi mətn: Ölünün basdırılması

70. Səbzalıyeva Nurcahan Fərzalı qızı, 1926, Hüşün kəndi. Söylədiyi mətnlər: Ayn və Gün (II mətn), Hal (XVIII mətn), Məhəmməd peyğəmbər (I mətn), Süleyman (III mətn), Xıdır Nəbi (XI mətn)

71. Səfərov Məhərrəm Səfər oğlu, Xosrov kəndi. Söylədiyi mətnlər: Musa (V mətn), Hacı Bulud baba (XIX, XX, XXI, XXII, XXIII, XXV mətnlər)

72. Səfərova Başxanım Kamal qızı, 1924, 4 illik təhsil, kolxozçu. Söylədiyi mətnlər: Musa (V mətn), Əzrayıl (XIII mətn), Şərif baba

73. Səmədov Səməd Binnət oğlu, 1928, 7 illik təhsil. Söylədiyi mətnlər: Hacı Binnət baba (I, II mətnlər)

74. Şirinov Əsgər Əhməd oğlu, 1933, Qumlaq kəndi, orta təhsilli, şofer işləyib. Söylədiyi mətn: Şah İsmayıl

75. Yusifov Əhməd Abduləziz oğlu, 1928, Ləki qəsəbəsi. Söylədiyi mətnlər: Hal (V mətn), Cin (XI mətn), Xıdır Nəbi (VI mətn)

76. Yusifov Yusif Abdulla oğlu, 1930, Ərəbocağı kəndi, aqranom, briqadir işləyib. Söylədiyi mətn: Ərəbocağı (II mətn)

77. Yusifova Zülqayda Kərim qızı, 1930, Şəmsabad kəndi. Söylədiyi mətnlər: Məhəmməd peyğəmbər (III, VI mətnlər), Xıdır Nəbi (II mətn), Hacı Bulud baba (VIII mətn), Mustafa baba (I mətn), Həzrət baba (I mətn)

78. Umarova Gülbəst Yarməmməd qızı, 1930, Əmirmahmud. Söylədiyi mətn: Cin (X mətn)

79. Vahabov Ramazan Qədir oğlu, 1937. Söylədiyi mətnlər: Xıdır Nəbi (XLIV, XLVII mətnlər)

80. Vəliyev Mehdi Həsən oğlu, 1930, Şəmsabad kəndi, 1950-ci illərdə Ermənistanın Komo rayonunun Hajımxan kəndindən gəlib. Söylədiyi mətnlər: Yaradılış mifləri (III mətn), Saman yolu, Hal (XI mətn), Cin (XII, XIII mətn), Təpəgöz (II mətn), İsgəndər (V mətn)

81. Züleyxa, Şəmsabad kəndi. Söylədiyi mətnlər. Cin (II mətn), Nuh (I mətn), Xıdır Nəbi (VIII mətn), Hacı Bulud baba (II mətn), Hacı Sadıq əfəndi (II mətn), Başqa övliyalar haqqında (IV mətn)

## BAYATILARIN SÖYLƏYİCİLƏRİ

1. Dürrə Məhəmməd qızı, Ağzıbir kəndi. Söylədiyi bayatılar: 23, 24, 25, 26, 27, 28, 29, 30, 31, 32, 33, 34, 35, 36, 37, 38, 39, 40, 41, 42, 43

2. Dumanova Məsturə İlyas qızı, 60 yaş. Söylədiyi bayatılar: 110, 111, 112, 113, 114, 115, 116, 117, 118, 119

3. Kərimova Bəstiqız Əhmədalı qızı, Aral iki kəndi. Söylədiyi bayatılar: 128, 129, 130, 131, 132, 133, 134, 135, 136, 137, 138, 139, 140, 141, 142, 143, 144, 145

3. Kərimova Sevda, Ağzıbir kəndi. Söylədiyi bayatılar: 104, 105, 106, 107, 108, 109

4. Məmmədova Şükufə Əli qızı, 1932, Pirəzə, Teşti ansambılının rəhbəri. Söylədiyi bayatılar: 70,71, 72, 73, 74, 75, 76, 77, 78, 79, 80, 81, 82, 83, 84, 85, 86, 87, 88, 89, 90, 91, 92, 93, 94, 95

5. Orucova Qərinə Ağakişi qızı, 1939, Ağzıbir kəndi. Söylədiyi bayatılar: 44, 45, 46, 47, 48, 49, 50, 51, 52, 53, 54, 55, 56, 57, 58, 59, 60, 61, 62, 63, 64, 65, 66, 67, 68, 69

## NAĞILLARIN SÜJET GÖSTƏRİCİSİ

Nağılların süjet nömrəsi Şərqi slavyan xalqlarının müqayisəli süjet göstəricisi əsasında müəyyən edilmişdir (Сравнительный указатель сюжетов: Восточнославянская сказка. Сост. М.Г.Бараг, И.П.Березовский, К.П.Кабашников, Н.В.Новиков. Л.: Наука, 1979).

**Rüstəmzal.** 2002-ci ildə Şıxlı kənd sakini Alışov Şəmil Baxış oğlundan qeydə alınıb. SUS 300A

**Ovçu Pirimin övladları.** 2001-ci ildə Xosrov kənd sakini Əhmədov Rəsul Məhərrəm oğlundan qeydə alınıb. SUS 301A

**Gülqahqahın nağılı.** 2001-ci ildə Xosrov kənd sakini Əhmədov Rəsul Məhərrəm oğlundan qeydə alınıb. SUS 465C

**Bilici gəlmiş qəhrəman.** 2001-ci ildə Xosrov kənd sakini Əhmədov Rəsul Məhərrəm oğlundan qeydə alınıb.

**Əjdaha qız.** 2000-ci ildə Hüşün kənd sakini Səbzalıyeva Nurcahandan qeydə alınıb. SUS 313J*

**Yeddi qardaş divin pişiyi.** 2000-ci ildə Ərəb kənd sakini Əhmədov Əhmədiyyə Kərim oğlundan qeydə alınıb. SUS 315

**Bibilcanın nağılı.** 2001-ci ildə Şəmsabad kənd sakini Lətifova Çiçək Umar qızından qeydə alınıb. SUS 480A

**Axsaxca ceyran.** 2001-ci ildə Şəmsabad kənd sakini Lətifova Çiçək Umar qızından qeydə alınıb. SUS 450+ SUS 510A

**Dəmirçinin əhvalatı.** 2000-ci ildə Ərəb kənd sakini Əhmədov Əhmədiyyə Kərim oğlundan qeydə alınıb. SUS 449

**Alıxanla Pəri xanım.** 2000-ci ildə Şəmsabad kənd sakini Yusifova Zülqayda Kərim qızından qeydə alınıb.

**Naxışın axtarılması.** 2000-ci ildə Xosrov kənd sakini Musayev Süleyman Məhərrəm oğlundan qeydə alınıb. SUS 460B*

**Armudan bəy.** 2000-ci ildə Ərəb kənd sakini Əhmədov Əhmədiyyə Kərim oğlundan qeydə alınıb. SUS 545B

**Ovçu Pirim (I mətn).** 2001-ci ildə Hüşün kənd sakini Həsənov Vaqif Bədrəddin oğlundan qeydə alınıb. SUS 670

**Ovçu Pirim (II mətn).** 2000-ci ildə Pirəzə kənd sakini Əliyev Əlağa Əli oğlundan qeydə alınıb. SUS 670

**Ovçu Pirim (III mətn).** 2001-ci ildə Padar kənd sakini Dadaşov Knyaz Qardaşəli oğlundan qeydə alınıb.

**Ovçu Pirim (IV mətn).** 2001-ci ildə Padar kənd sakini Dadaşov Knyaz Qardaşəli oğlundan qeydə alınıb.

**Mollanın arxayınçılığı.** 2001-ci ildə Xosrov kənd sakini Əhmədov Rəsul Məhərrəm oğlundan qeydə alınıb.

**Qeyri-adi boranı (I mətn).** 2001-ci ildə Xosrov kənd sakini Əhmədov Rəsul Məhərrəm oğlundan qeydə alınıb. SUS 735****

**Qeyri-adi boranı (II mətn).** 2002-ci ildə Şəkili kənd sakini Cəbiyeva Sevda Qəfər qızından qeydə alınıb. SUS 735****

**Andın gücü (I mətn).** 2001-ci ildə Hüşün kənd sakini Həsənov Vaqif Bədrəddin oğlundan qeydə alınıb.

**Qonağın ruzusu.** Hüşün kənd sakini Qurbanov Sırac Cəfər oğlundan qeydə alınıb.

**Peyğəmbərin axirət qonşusu.** 2001-ci ildə Xosrov kənd sakini Əhmədov Rəsul Məhərrəm oğlundan qeydə alınıb.

**Qəbr əzabı (I mətn).** 2002-ci ildə Şəkili kənd sakini Cəbiyeva Sevda Qəfər qızından qeydə alınıb.

**Qəbr əzabı (II mətn).** 2001-ci ildə Şəmsabad kənd sakini Lətifova Çiçək Umar qızından qeydə alınıb.

**Göydən gələn bəla (I mətn).** 2002-ci ildə Dəhnəxəlil kənd sakini Məhərrəmov Məmmədsəid Əli oğlundan qeydə alınıb.

**Göydən gələn bəla (II mətn).** 2002-ci ildə Şıxlı kənd sakini Alışov Şəmil Baxış oğlundan qeydə alınıb.

**İsgəndərin buynuzu.** 2000-ci ildə Şəmsabad kənd sakini Yusifova Zülqayda Kərim qızından qeydə alınıb. SUS 782

**Bərəkət surfası (I mətn).** 2002-ci ildə Aral iki kənd sakini Kərimova Bəstiqız Əhmədalı qızından qeydə alınıb. SUS 650

**Bərəkət surfası (II mətn).** 2002-ci ildə Dəhnəxəlil kənd sakini Məhərrəmov Məmmədsəid Əli oğlundan qeydə alınıb. SUS 650 + SUS 300A

**Kəsik baş.** 2001-ci ildə Ləki qəsəbəsi sakini Yusifov Əhməd Abduləziz oğlundan qeydə alınıb. SUS 301A

**Sal-sal pəhlivan (I mətn).** 2000-ci ildə Ərəb kənd sakini Əhmədov Əhmədiyyə Kərim oğlundan qeydə alınıb.

**Sal-sal pəhlivan (II mətn).** 2002-ci ildə Dəhnəxəlil kənd sakini Məhərrəmov Məmmədsəid Əli oğlundan qeydə alınıb.

**Xəncərin şahidliyi.** 2002-ci ildə Bulaqotağı kənd sakini Osmanov Dursun Əli oğlundan qeydə alınıb.

**İki sünbülün söhbəti.** 2001-ci ildə Hüşün kənd sakini Həsənov Vaqif Bədrəddin oğlundan qeydə alınıb.

**Üç manatın misalı.** 2000-ci ildə Ərəb kənd sakini Əhmədov Əhmədiyyə Kərim oğlundan qeydə alınıb.

**Çörəyin savabı.** 2000-ci ildə Ərəb kənd sakini Əhmədov Əhmədiyyə Kərim oğlundan qeydə alınıb.

**İbrahimxəlil peyğəmbər.** 2001-ci ildə Ərəb kənd sakini Əhmədov Əhmədiyyə Kərim oğlundan qeydə alınıb.

**Molla ilə keşişin nağılı.** 2002-ci ildə Şəkili kənd sakini Cəbiyeva Sevda Qəfər qızından qeydə alınıb.

**Naşükür insan.** 2002-ci ildə Kükəl kənd sakini Həbibova Səkinə İsmayıl qızından qeydə alınıb.

**Qazkeçməz körpüsü.** 2002-ci ildə Şıxlı kənd sakini Alışov Şəmil Baxış oğlundan qeydə alınıb.

**İcazə işini ər bilər.** 2002-ci ildə Şıxlı kənd sakini Alışov Şəmil Baxış oğlundan qeydə alınıb.

**Kişilərin bel ağrısı.** 2000-ci ildə Pirəzə kənd sakini Əliyev Əlağa Əli oğlundan qeydə alınıb.

**Allah haradadır.** 2000-ci ildə Ərəb kənd sakini Əhmədov Əhmədiyyə Kərim oğlundan qeydə alınıb.

**Fironun cənnət tikdirməsi.** 2002-ci ildə Əmirmahmud kənd sakini Kərimov Kərim İsaq oğlundan qeydə alınıb.

**Musa peyğəmbərin allahlığı (I mətn).** 2001-ci ildə Padar kənd sakini Dadaşov Knyaz Qardaşəli oğlundan qeydə alınıb. SUS 752D*

**Musa peyğəmbərin allahlığı (II mətn).** 2000-ci ildə Ərəb kənd sakini Əhmədov Əhmədiyyə Kərim oğlundan qeydə alınıb. SUS 752D*

**Xıdır İlyasla cütcünün nağılı.** 2001-ci ildə Şəmsabad kənd sakini Əfəndiyev Hikmət Rəsul oğlundan qeydə alınıb. SUS 750

**Xıdır ölünün namazını qılır.** 2002-ci ildə Bulaqotağı kənd sakini Osmanov Dursun Əli oğlundan qeydə alınıb.

**Musa ilə Xıdırın yolçuluğu (II mətn).** 2002-ci ildə Bulaqotağı kənd sakini Osmanov Dursun Əli oğlundan qeydə alınıb.

**Musa ilə Xıdırın yolçuluğu (III mətn).** 2001-ci ildə Xosrov kənd sakini Əhmədov Rəsul Məhərrəm oğlundan qeydə alınıb.

**Qismətdən qaçmaq olmaz.** 2000-ci ildə Ərəb kənd sakini Əhmədov Əhmədiyyə Kərim oğlundan qeydə alınıb. SUS 759

**Şahın donuz güdməsi (I mətn).** Əmirmahmud kənd sakini Kərimov Kərim İsaq oğlundan qeydə alınıb.

**Şahın donuz güdməsi (II mətn).** 2002-ci ildə Adıgözəlov Həmdiyyə Məhəmməd oğlundan qeydə alınıb.

**Üç günah.** 2002-ci ildə Xəlilova Hafizə Niftalı qızından qeydə alınıb. SUS 839

**Üç dilək.** 2001-ci ildə Pirəzə kənd sakini Əliyev Əlağa Əli oğlundan qeydə alınıb. AT 750A

**Üç ölüm.** 2002-ci ildə Dəhnəxəlil kənd sakini Məhərrəmov Məmmədsəid Əli oğlundan qeydə alınıb.

**Dirinin sorğu-sual edilməsi.** 2002-ci ildə Dəhnəxəlil kənd sakini Məhərrəmov Məmmədsəid Əli oğlundan qeydə alınıb.

**Süleyman və qarı (I mətn).** Hüşün kənd sakini Qədirov İlyasdan Məhəmməd oğlundan qeydə alınıb.

**Süleyman və qarı (II mətn).** Şəmsabad kənd sakini İbrahimov Zahid Məhəmməd oğlundan qeydə alınıb.

**Quş sümüyündən ev (I mətn).** 2001-ci ildə Xosrov kənd sakini Musayev Süleymandan qeydə alınıb. SUS 983*

**Quş sümüyündən ev (II mətn).** Nağıl 2000-ci ildə Şəmsabad kənd sakini Nağıyeva Afiqa Alı qızından qeydə alınıb. SUS 983*

**Süleyman və kirpi (I mətn).** Aral bir kənd sakinindən qeydə alınıb.

**Süleyman və kirpi (II mətn).** 2002-ci ildə Dadaşov Soltan Əlixan oğlundan qeydə alınıb.

**Süleyman və Zümrüd quşu (I mətn).** 2002-ci ildə Bulaqotağı kənd sakini Osmanov Dursun Əli oğlundan qeydə alınıb.

**Süleyman və Zümrüd quşu (II mətn).** 2001-ci ildə Kükəl kənd sakini Abdullayev Məsim Qiyas oğlundan qeydə alınıb.

**Bacı həsrəti.** 2002-ci ildə Dəhnəxəlil kənd sakini Məhərrəmov Məmmədsəid Əli oğlundan qeydə alınıb.

**Göz yaşı.** 2002-ci ildə Adıgözəlov Həmdiyyə Məhəmməd oğlundan qeydə alınıb. SUS 755A*

**Bağışlanmaz günah.** 2000-ci ildə Şəmsabad kənd sakini Yusifova Zülqayda Kərim qızından qeydə alınıb. SUS 795*

**Cin gəlin (I mətn).** Hüşün kənd sakini İsmayılov Sırac Nurəddin oğlundan qeydə alınıb.

**Cin gəlin (II mətn).** Ağdaş rayon sakini Qədirova Şura Mahmud qızından qeydə alınıb.

**Ölümdən qaçan gənc (I mətn).** 2002-ci ildə Dəhnəxəlil kənd sakini Məhərrəmov Feyruz Məmmədsəid oğlundan qeydə alınıb.

**Ölümdən qaçan gənc (II mətn).** 2001-ci ildə Hüşün kənd sakini Qocayeva Kamilə Əlpaşa qızından qeydə alınıb.

**Ölümdən qaçan gənc (III mətn).** Pirəzə kənd sakini Mikayılova Fatimə İsmayıl qızından qeydə alınıb.

**Ana övladını Əzrayıldan qaçırır (I mətn).** 2000-ci ildə Şəmsabad kənd sakini Yusifova Zülqayda Kərim qızından qeydə alınıb.

**Ana övladını Əzrayıldan qaçırır (II mətn).** Şəmsabad kənd sakini Lətifova Çiçək Umar qızından qeydə alınıb.

**Əbədi həyat axtaran gənc.** 2002-ci ildə Dəhnəxəlil kənd sakini Məhərrəmmov Feyruz Məmmədsəid oğlundan qeydə alınıb.

**Çobanın çarıxlı-patavalı namaz qılması (I mətn).** 2002-ci ildə Ərəbocağı kənd sakini Məhərrəmov Ağabala Məhəmməd oğlundan qeydə alınıb. SUS 827

**Çobanın çarıxlı-patavalı namaz qılması (II mətn).** Şəmsabad kənd sakini Nağıyeva Afıqa Alı qızından qeydə alınıb. SUS 827

**Pul insanı dəyişdirir.** 2002-ci ildə Dəhnəxəlil kənd sakini Məhərrəmov Feyruz Məmmədsəid oğlundan qeydə alınıb.

**İnsan nəfsi.** 2001-ci ildə Ərəb kənd sakini Əhmədov Əhmədiyyə Kərim oğlundan qeydə alınıb.

**Sən dəmirini döy.** 2000-ci ildə Şəmsabad kənd sakini Vəliyev Mehdi Həsən oğlundan qeydə alınıb.

**Hazırcavab uşaq.** 2001-ci ildə Pirəzə kənd sakini Əliyev Əlağa Əli oğlundan qeydə alınıb. SUS 655

**Bilici qardaşlar.** 2002-ci ildə Bulaqotağı kənd sakini Osmanov Dursun Əli oğlundan qeydə alınıb.

**Şahzadə və keçəl.** 2002-ci ildə Dəhnəxəlil kənd sakini Məhərrəmov Feyruz Məmmədsəid oğlundan qeydə alınıb.

**Bir şahılıq ruzu.** 2002-ci ildə Dəhnəxəlil kənd sakini Məhərrəmov Məmmədsəid Əli oğlundan qeydə alınıb.

**Əyilmiş metrə.** 2002-ci ildə Dadaşov Soltan Əlixan oğlundan qeydə alınıb.

**Yazıya pozu yoxdu (I mətn).** 2000-ci ildə Şəmsabad kənd sakini Yusifova Zülqayda Kərim qızından qeydə alınıb. SUS 461

**Yazıya pozu yoxdu (II mətn).** 2000-ci ildə Şəmsabad kənd sakini Lətifova Çiçək Umar qızından qeydə alınıb. SUS 461

**Şah oğlu və naxırçı qızı (I mətn).** 2000-ci ildə Şəmsabad kənd sakini Nağıyeva Afıqa Alı qızından qeydə alınıb. SUS 930A

**Şah oğlu və naxırçı qızı (II mətn).** 2002-ci ildə Alışov Şəmil Baxış oğlundan qeydə alınıb. SUS 930A

**Təyin olunmuş ölüm.** 2002-ci ildə Bulaqotağı kənd sakini Osmanov Dursun Əli oğlundan qeydə alınıb. SUS 934B*

**Alın yazısı.** 2000-ci ildə Kükəl kənd sakini Qəmbərov Əlbala Soltan oğlundan qeydə alınıb.

**Lənətlənmiş uşaq.** 2002-ci ildə Bulaqotağı kənd sakini Osmanov Dursun Əli oğlundan qeydə alınıb.

**İvraamın nağılı.** 2002-ci ildə Əmirmahmud kənd sakini Kərimov Kərim İsaq oğlundan qeydə alınıb.

**Şah və qəssab.** 2002-ci ildə Dəhnəxəlil kənd sakini Məhərrəmov Məmmədsəid Əli oğlundan qeydə alınıb.

**Şah Abbasın sınağı.** 2002-ci ildə Ərəbocağı kənd sakini Yusifov Yusif Abdulla oğlundan qeydə alınıb.

**Dülgərin nağılı.** 2002-ci ildə Dəhnəxəlil kənd sakini Məhərrəmov Məmmədsəid Əli oğlundan qeydə alınıb.

**Əsli hu.** 2001-ci ildə Padar kənd sakini Dadaşov Knyaz Qardaşəli oğlundan qeydə alınıb.

**Şah Abbas və üç dilənçi.** 2000-ci ildə Pirəzə kənd sakini Əliyev Əlağa Əli oğlundan qeydə alınıb.

**Aşın altındakı qızıl (I mətn).** Qurbanov Sırac Cəfər oğlundan qeydə alınıb. SUS 841

**Aşın altındakı qızıl (II mətn).** 2002-ci ildə Dəhnəxəlil kənd sakini Məhərrəmov Məmmədsəid Əli oğlundan qeydə alınıb. SUS 841

**Aşın altındakı qızıl (III mətn).** Şəmsabad kənd sakini Məmmədova Şəfiqədən qeydə alınb. SUS 841

**Loğman.** 2001-ci ildə Xosrov kənd sakini Əhmədov Rəsul Məhərrəm oğlundan qeydə alınıb.

**Ləl-cəvahirata dönmüş sünbül.** 2002-ci ildə Bulaqotağı kənd sakini Osmanov Dursun Əli oğlundan qeydə alınıb.

**Yengivar şah.** 2002-ci ildə Dəhnəxəlil kənd sakini Məhərrəmov Məmmədsəid Əli oğlundan qeydə alınıb.

**Cəmşid padşah.** 2002-ci ildə Qumlaq kənd sakini Şirinov Əsgər Əhməd oğlundan qeydə alınıb.

**Qaz göndərsəm yolarsanmı.** 2002-ci ildə Qumlaq kənd sakini Şirinov Əsgər Əhməd oğlundan qeydə alınıb.

**Üç məsləhət.** 2002-ci ildə Adıgözəlov Həmdiyyə Məhəmməd oğlundan qeydə alınıb. SUS 910B

**Ata məsləhəti.** 2000-ci ildə Pirəzə kənd sakini Əliyev Əlağa Əli oğlundan qeydə alınıb.

**İnsafı əldən qoyma.** 2002-ci ildə Adıgözəlov Həmdiyyə Məhəmməd oğlundan qeydə alınıb. SUS 912*

**Korun şəri.** 2002-ci ildə Şıxlı kənd sakini Alışov Şəmil Baxış oğlundan qeydə alınıb.

**İbrahim.** 2002-ci ildə Şıxlı kənd sakini Alışov Şəmil Baxış oğlundan qeydə alınıb.

**İki münəccim.** 2001-ci ildə Padar kənd sakini Dadaşov Knyaz Qardaşəli oğlundan qeydə alınıb.

**Ağılsız naxışın xeyri yoxdu (I mətn).** 2001-ci ildə Ərəb kənd sakini Əhmədov Əhmədiyyə Kərim oğlundan qeydə alınıb. SUS 945

**Ağılsız naxışın xeyri yoxdu (II mətn).** 2002-ci ildə Dəhnəxəlil kənd sakini Məhərrəmov Məmmədsəid Əli oğlundan qeydə alınıb. SUS 945

**Ağanəzər.** 2001-ci ildə Hüşün kənd sakini Qocayeva Kamilə Əlpaşa qızından qeydə alınıb. SUS 1060

**İnsanın şeytanı (I mətn).** Hüseynov Əsgər Sərkər oğlundan qeydə alınıb. SUS 1353

**İnsanın şeytanı (II mətn).** Hüşün kənd sakini Həsənov Vaqif Bədrəddin oğlundan qeydə alınıb. SUS 1353

**İnsanın şeytanı (III mətn).** 2002-i ildə Dəhnəxəlil kənd sakini Məhərrəmov Məmmədsəid Əli oğlundan qeydə alınıb. SUS 1353

**Xanpəri.** 2000-ci ildə Xosrov kənd sakini Orucov Haqverdi Qara oğlundan qeydə alınıb.SUS 1164

**Özüm.** 2000-ci ildə Hüşün kənd sakini Rəfiyev Əhməd Məlik oğlundan qeydə alınıb. SUS 1135

**Kəlləgöz (I mətn).** 2000-ci ildə Şəmsabad kənd sakini Nağıyeva Afıqa Alı qızından qeydə alınıb. SUS 1137

**Kəlləgöz (II mətn).** 2001-ci ildə Hüşün kənd sakini Qocayeva Kamilə Əlpaşa qızından qeydə alınıb.

**Yeddi qardaş lal div.** 2001-ci ildə Xosrov kənd sakini Əhmədov Rəsul Məhərrəm oğlundan qeydə alınıb. SUS 1143A

**Qoşunbasan.** 2000-ci ildə Ərəb kənd sakini Əhmədov Əhmədiyyə Kərim oğlundan qeydə alınıb. SUS 1240+1313A

**Poçtalyon dovşan.** SUS 185*

**Gom-gom piri.** 2000-ci ildə Kükəl kənd sakini Qəmbərov Əlbala Soltan oğlundan qeydə alınıb. SUS 1380

**Tənbəl arvad.** Bulaqotağı kənd sakini Umarova Gülnaz Baxış qizindan qeydə alınıb.

**Padşahın yeni tacı.** 2000-ci ildə Pirəzə kənd sakini Əliyev Əlağa Əli oğlundan qeydə alınıb. SUS 1620

**Qazın bölünməsi (I mətn).** 2000-ci ildə Pirəzə kənd sakini Əliyev Əlağa Əli oğlundan qeydə alınıb. SUS 1533

**Qazın bölünməsi (II mətn).** 2001-ci ildə Xosrov kənd sakini Əhmədov Rəsul Məhərrəm oğlundan qeydə alınıb. SUS 1533

**Kimin yalanı böyükdür.** 2001-ci ildə Xosrov kənd sakini Əhmədov Rəsul Məhərrəm oğlundan qeydə alınıb.

**Keçəlin hiyləsi.** 2002-ci ildə Dəhnəxəlil kənd sakini Məhərrəmov Məmmədsəid Əli oğlundan qeydə alınıb.

**Naxış (I mətn).** İsmayılov Məmmədrəsul Abdulla oğlundan qeydə alınıb. SUS 1641

**Naxış (II mətn).** 2001-ci ildə Ərəb kənd sakini Əhmədov Əhmədiyyə Kərim oğlundan qeydə alınıb. SUS 1641

**Qazı padşah.** 2001-ci ildə Xosrov kənd sakini Əhmədov Rəsul Məhərrəm oğlundan qeydə alınıb. SUS 1730

**Yaxşılığa yamanlıq (I mətn).** 2001-ci ildə Xosrov kənd sakini Musayev Süleymandan qeydə alınıb. SUS 155

**Yaxşılığa yamanlıq (II mətn).** 2002-ci ildə Dəhnəxəlil kənd sakini Məhərrəmov Məmmədsəid Əli oğlundan qeydə alınıb. SUS 155

**Yaxşılığa yamanlıq (III mətn).** 2001-ci ildə Xosrov kənd sakini Əhmədov Rəsul Məhərrəm oğlundan qeydə alınıb. SUS 155

**Yaxşılığa yamanlıq (IV mətn).** Xosrov kənd sakini Əfəndiyeva Solmaz İsmayıl qızından qeydə alınıb.

**Yetim dəvə.** Bulaqotağı kənd sakini Umarova Gülnaz Baxış qızından qeydə alınıb.

**Kimin yaşı böyükdür (I mətn).** 2001-ci ildə Xosrov kənd sakini Əhmədov Rəsul Məhərrəm oğlundan qeydə alınıb.

**Kimin yaşı böyükdür (II mətn).** 2001-ci ildə Xosrov kənd sakini Orucov Haqverdi Qara oğlundan qeydə alınıb.

**Aldadılmış ayı.** 2001-ci ildə Xosrov kənd sakini Əhmədov Rəsul Məhərrəm oğlundan qeydə alınıb. SUS 1136

**Uğursuz təqlid.** İsmayılov Məmmədrəsuldan qeydə alınıb. SUS 117*

**Tısbağa və tülkü.** 2002-ci ildə Məmmədov Vahid Nəbi oğlundan qeydə alınıb. SUS 275

**İnsanın gücü (I mətn).** 2000-ci ildə Pirəzə kənd sakini Əliyev Əlağa Əli oğlundan qeydə alınıb. AT 157

**İnsanın gücü (II mətn).** 2002-ci ildə Dəhnəxəlil kənd sakini Məhərrəmov Məmmədsəid Əli oğlundan qeydə alınıb. AT 157

**Harınlamış çaqqal (I mətn).** 2001-ci ildə Padar kənd sakini Dadaşov Knyaz Qardaşəli oğlundan qeydə alınıb.

**Harınlamış çaqqal (II mətn).** 2000-ci ildə Hüşün kənd sakini Səbzalıyeva Nurcahandan qeydə alınıb.

**Tülkünün orucu.** 2001-ci ildə Xosrov kənd sakini Orucov Haqverdi Qara oğlundan qeydə alınıb. SUS

**Şahın fərmanı.** 2000-ci ildə Xosrov kənd sakini Orucov Haqverdi Qara oğlundan qeydə alınıb. SUS 62

**Özünü yemə.** 2002-ci ildə Məmmədov Vahid Nəbi oğlundan qeydə alınıb. SUS 21

**Dəvə və eşşək.** 2000-ci ildə Xosrov kənd sakini Orucov Haqverdi Qara oğlundan qeydə alınıb.

**Harınlamış mişoul.** 2001-ci ildə Xosrov kənd sakini Orucov Haqverdi Qara oğlundan qeydə alınıb.

**Xeyirxah heyvanlar.** 2001-ci ildə Xosrov kənd sakini Əhmədov Rəsul Məhərrəm oğlundan qeydə alınıb.

**Qəfəsə salınmış quş.** 2002-ci ildə Əmirmahmud kənd sakini Kərimov Kərim İsaq oğlundan qeydə alınıb.

**Zəhmət və Zinət.** Xosrov kənd sakini Əfəndiyeva Solmaz İsmayıl qızından qeydə alınıb.

**MÜNDƏRİCAT**

**ÖN SÖZ**......................................................................5
**MİFLƏR VƏ ƏFSANƏLƏR**
***Kosmoqonik miflər***
Yaradılış mifləri ..........................................................14
Ay və Gün ..................................................................14
Saman yolu..................................................................15
Dünya ağacı.................................................................15
***İlk insanlar haqqında***
İnsan nəsli ..................................................................15
İnsanın ömrü................................................................16
Möhsün........................................................................17
Adəm haqqında ..........................................................17
***Müxtəlif mövzulu əfsanələr***
Gülnən bülbül..............................................................18
Qoyun niyə bərəkətlidir..............................................18
İtin yaranması..............................................................18
Dinlər necə yaranıb.....................................................19
Ölünün basdırılması ....................................................19
**RƏVAYƏTLƏR**
***Mifoloji varlıqlar haqqında***
Hal ...............................................................................20
Cin ...............................................................................29
Kaftar...........................................................................39
Təpəgöz.......................................................................40
Zümrüd quşu ...............................................................41
Naxış ...........................................................................41
Əciq-məciq..................................................................42
Qurd haqqında .............................................................42
***Peyğəmbərlər və dini şəxsiyyətlər haqqında***
Məhəmməd peyğəmbər...............................................43
Nuh..............................................................................48
Davud peyğəmbər........................................................56
Süleyman peyğəmbər...................................................57
İbrahimxəlil peyğəmbər...............................................62
Musa peyğəmbər..........................................................63
İsa peyğəmbər..............................................................65
Həzrət Mikayıl .............................................................67

Xıdır Nəbi ........................................................ 68
Nəmrud ........................................................ 83
Həzrət Əli ........................................................ 83
Həsən Kaşi ........................................................ 86
Əzrayıl ........................................................ 87
Şeytan ........................................................ 93
***Pirlər və övliyalar haqqında***
Hacı Bulud baba ........................................................ 97
Veys baba ........................................................ 113
Hacı Sadıq Əfəndi ........................................................ 115
Xəlfə Kərim baba ........................................................ 119
Pirkəkə ........................................................ 119
Ərəbocağı ........................................................ 120
Mustafa baba ........................................................ 121
Abadlı Hacı Abdulla ........................................................ 122
Hacı Binnət baba ........................................................ 122
Məlikbalılı Hacı Abdulla ........................................................ 124
Yeddi qardaş ........................................................ 125
Qarağac piri ........................................................ 128
Çələbilər piri ........................................................ 128
Məhəmməd əfəndi ........................................................ 129
Qaraqovaqlıq ........................................................ 129
Göy at piri ........................................................ 129
Molla Əhməd baba ........................................................ 129
Qara baba ........................................................ 130
Hacı İbrahim ........................................................ 131
Şıx Mahmud baba ........................................................ 131
Qərib baba ........................................................ 131
Söhrab baba ........................................................ 131
Şıx Şahqubad ........................................................ 132
Dalaq piri ........................................................ 132
Hacı Səlim baba ........................................................ 132
Şişpər baba ........................................................ 132
Mikayıl əfəndi ........................................................ 133
Seyid Şahmərdan ........................................................ 133
Mustafa baba ........................................................ 133
Hacı Hüseyn baba ........................................................ 134
Hacı Əhməd baba ........................................................ 134
Şərif baba ........................................................ 134

Qara Seyid ........ 135
Niftalı baba ........ 135
Həzrət baba ........ 136
Komurad ........ 136
Sov Həmid baba ........ 138
Eyif baba ........ 138
Pıraxəlil baba ........ 138
Məşədi Mirismayıl ağa ........ 139
**Başqa övliyalar haqqında rəvayətlər** ........ 140
**Ovçu Pirim** ........ 141
***Tarixi şəxsiyyətlər haqqında rəvayətlər***
İsgəndər ........ 143
Nuşirəvan və bayquşlar ........ 150
Füzuli və kərpickəsən kişi ........ 150
Şah İsmayıl ........ 151
Nadir şah ........ 151
Surxay xan ........ 152
***İlanlar haqqında***
İlan davası ........ 157
Ocaq ilanı ........ 158
***Geneloji rəvayət*** ........ 158
***Toponomik rəvayyətlər***
Heydər ölən dərə ........ 159
Şəkili kəndi ........ 160
Qaroğlan ........ 161
Kükəl ........ 161
Bəyin qəlyanına işıldaquş qoyan xosrolu ........ 161
Hacılı kəndi ........ 161
***Müxtəlif mövzulu rəvayətlər***
İnam ........ 162
Qazanılmış savab ........ 163
Qonşunu iki inəkli istə ........ 163
Ömürdən pay ........ 164
Tük sanı ömür ........ 164
Çörəyə ehtiram ........ 165
Ağlamaq pisdir ........ 166
Mehribançılıq ........ 166
Ağac dibi sulamaq ........ 167
Mal-qarasız həyət ........ 168

Qədr gecəsi ........................................................ 168
Halal, tutyə və haram ........................................... 168
Babək, Nəsimi və Molla Nəsrəddin ......................... 169
Zaman öldü ......................................................... 169
**MƏRASİM FOLKLORU**
Tas qurma ........................................................... 170
İlan tutan seyid ..................................................... 173
Qırxa düşmək ....................................................... 173
Şıxlıq almaq ......................................................... 174
Müsəlləyə çıxmaq ................................................. 174
**ETNOQRAFİK MƏTNLƏR**
İnamlar ............................................................... 175
Yasaqlar .............................................................. 181
**NAĞILLAR**
Rüstəmzal ............................................................ 184
Ovçu Pirimin övladları ........................................... 186
Gülqahqahın nağılı ................................................. 198
Bilici gəlmiş qəhrəman ........................................... 211
Əjdaha qız ........................................................... 224
Yeddi qardaş divin pişiyi ......................................... 225
Bibilcanın nağılı .................................................... 227
Axsaxca ceyran ..................................................... 229
Dəmirçinin əhvalatı ............................................... 231
Alıxanla Pəri xanım ................................................ 233
Naxışın axtarılması ................................................ 235
Armudan bəy ........................................................ 238
Ovçu Pirim ........................................................... 239
Mollanın arxayınçılığı ............................................. 245
Qeyri-adi boranı .................................................... 247
Andın gücü ........................................................... 249
Qonağın ruzusu ..................................................... 251
Mollanın axirət qonşusu .......................................... 252
Qəbr əzabı ........................................................... 254
Göydən gələn bəla ................................................. 256
İsgəndərin buynuzu ................................................ 257
Bərəkət surfası ...................................................... 259
Kəsik baş ............................................................. 264
Salsal pəhlivan ...................................................... 265
Xəncərin şahidliyi .................................................. 267

İki sünbülün söhbəti ........................................................268
Üç manatın misalı ............................................................269
Çörəyin savabı .................................................................271
İbrahimxəlil peyğəmbər ....................................................272
Molla ilə keşişin nağılı .....................................................273
Naşükür insan ...................................................................274
Qazkeçməz körpüsü ..........................................................274
İcazə işini ər bilər ..............................................................275
Kişilərin bel ağrısı ............................................................276
Allah haradadır .................................................................278
Fironun cənnət tikdirməsi .................................................279
Musa peyğəmbərin allahlığı ..............................................281
Xıdır İlyasla cütcünün nağılı ............................................283
Xıdır ölünün namazını qılır ..............................................284
Müsayla Xıdırın yolçuluğu ...............................................285
Qismətdən qaçmaq olmaz .................................................293
Şahın donuz güdməsi ........................................................294
Üç günah ...........................................................................295
Üç dilək ............................................................................296
Üç ölüm .............................................................................297
Dirinin sorğu-sual edilməsi ..............................................298
Süleyman və qarı ..............................................................301
Quş sümüyündən ev ..........................................................302
Süleyman və kirpi .............................................................304
Süleyman və Zümrüd quşu ...............................................306
Bacı həsrəti .......................................................................311
Göz yaşı ............................................................................312
Bağışlanmaz günah ...........................................................314
Cin gəlin ...........................................................................315
Ölümdən qaçan gənc .........................................................316
Ana övladını Əzrayıldan qaçırır .......................................321
Əbədi həyat axtaran gənc ..................................................323
Çobanın çarıxlı-patavalı namaz qılması ...........................325
Pul insanı dəyişdirir ..........................................................326
İnsan nəfsi .........................................................................327
Sən dəmirini döy ...............................................................328
Hazırcavab uşaq ................................................................329
Bilici qardaşlar ..................................................................330
Şahzadə və keçəl ...............................................................332

Bir şahılıq ruzu ............................................................334
Əyilmiş metrə ............................................................339
Yazıya pozu yoxdu ............................................................339
Şah oğlu və naxırçı qızı ............................................................343
Təyin olunmuş ölüm............................................................348
Alın yazısı............................................................349
Lənətlənmiş uşaq ............................................................350
İvraamın nağılı............................................................351
Şah və qəssab ............................................................356
Şah Abbasın sınağı ............................................................357
Şah Abbas və bənna ............................................................358
Dülgərin nağılı............................................................359
Əsli hu............................................................360
Şah Abbas və üç dilənçi ............................................................363
Aşın altındakı qızıl............................................................365
İnsan nəslinə çəkər............................................................369
Loğman ............................................................369
Ləl-cəvahirata dönmüş sünbül ............................................................371
Yengivar şah ............................................................373
Cəmşid padşah............................................................376
Qaz göndərsəm yolarsanmı ............................................................377
Üç məsləhət............................................................378
Ata məsləhəti ............................................................381
İnsafı əldən qoyma ............................................................382
Korun şəri ............................................................383
İbrahimin nağılı ............................................................383
İki münəccim............................................................385
Ağılsız naxışın xeyri yoxdu ............................................................387
Ağanəzər ............................................................389
İnsanın şeytanı ............................................................393
Xanpəri ............................................................397
Özüm ............................................................398
Kəlləgöz ............................................................398
Yeddi qardaş lal div ............................................................401
Qoşunbasan ............................................................401
Poçtalyon dovşan............................................................404
Gom-gom piri ............................................................406
Tənbəl arvad............................................................406
Huşsuz adam............................................................407

Padşahın yeni tacı ....................................................................407
Qazın bölünməsi....................................................................409
Kimin yalanı böyükdür.........................................................412
Keçəlin kələyi .......................................................................412
Naxış.....................................................................................413
Qazı padşah...........................................................................416
Yaxşılığa yamanlıq ...............................................................422
Yetim dəvə ............................................................................426
Kimin yaşı böyükdür ............................................................427
Aldadılmış ayı.......................................................................428
Uğursuz təqlid .......................................................................429
Tısbağa ilə tülkünün yarışı ...................................................430
İnsanın gücü..........................................................................431
Harınlamış çaqqal .................................................................432
Tülkünün orucu.....................................................................434
Şahın fərmanı .......................................................................435
Tülkü və ayı..........................................................................436
Dəvə və eşşək .......................................................................436
Harınlamış mişoul.................................................................437
Xeyirxah heyvanlar...............................................................437
Qəfəsə salınmış quş..............................................................439
Zəhmətnən Zinət...................................................................439
**LƏTİFƏLƏR**
***Molla Nəsrəddin*** .............................................................441
***Bəhlul Danəndə*** ..............................................................443
***Müxtəlif mövzulu lətifələr***
Mat qalmışam..........................................................448
Arı təhnələri............................................................449
Qocalığın axırı........................................................449
Göydə küçük zingildəyir........................................450
Aşıq samanlıqda .....................................................450
İnək oğrusu.............................................................451
Aşığın kələyi...........................................................451
Çoxbilmiş alim .......................................................452
At almamış axurunu tikir........................................453
Qəbirstanlıqda halva bişirmək ...............................453
Tük qalmaz ............................................................454
**ATALAR SÖZÜ**.................................................................455
**TƏMSİLVARİ MƏTNLƏR**...............................................459

**UŞAQ FOLKLORU** .......................................................................... 460
**BAYATILAR** ................................................................................ 463
**AĞI** .............................................................................................. 473
**DİALEKTOLOJİ SÖZLÜK** .............................................................. 474
**SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT** ..................................... 475

**Azərbaycan folkloru antologiyası,**
**XVI kitab, (Ağdaş folkloru),**
**Bakı, “Səda“ nəşriyyatı, 2006.**

**Nəşriyyat direktoru:**
***Elşən Hətəmzadə***

**Kompüterdə yığdı:**
***Ləman Həsənova***

**Korrektor:**
***Səkinə Qaybalıyeva***

**Kompüter tərtibçisi və**
**texniki redaktoru:**
**fizika-riyaziyyat elmləri namizədi**
***Baxşəli Süleymanov***

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 31 ç/v
Tirajı: 500
Qiyməti müqavilə ilə.

**Kitab “Səda” nəşriyyatında**
**ofset üsulu ilə çap olunmuşdur.**